MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

AZƏRBAYCAN PUBLİSİSTİKASI ANTOLOGİYASI

Ш6
А99

252330

AZƏRBAYCAN PUBLİSİSTİKASI ANTOLOGİYASI

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Tərtib edən: **Cəlal Bəydili (Məmmədov)**
filologiya elmləri namizadi

ISBN 978-9952-34-158-4

079.4754-dc22
Azərbaycan ədəbiyyatı – Publisistika

Azərbaycan publisistikası antologiyası.
"Şərq-Qərb", Bakı, 2007, 688 səh.

Bu kitaba Azərbaycan publisistikasının görkəmli nümayəndələri Həsən bəy Zərdabi, Məhəmmədağa Şahtaxtlı, Firidun bəy Köçərli, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyov, Şeyx Məhəmməd Xiyabani, Hüseyn Cavid, Şəfiqə Əfəndizadə, Salman Turxan, Əli Razi Şamçızadə, Yusif Vəzir Çəmənzəminli, Xəlil İbrahimin əsərlərindən nümunələr daxil edilmişdir.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

KLASSİK PUBLİSİSTİKAMIZ: DÜNƏNİN, BU GÜNÜN, SABAHIN SƏNƏT ÖRNƏYİ

Azərbaycanın klassik ziyalıları xalqı öz hüquqları uğrunda mübarizəyə səsləmək, milli özünüdərk və azərbaycançılıq ideyalarını təbliğ etmək, imperiya basqılarının ən ağır çağlarında belə əsrlərdən süzülüb gələn milli-mənəvi dəyərlər sistemini zənginləşdirmək və onu qoruyub nəsillərə çatdırmaq işində ədəbi yaradıcılığın bütün növlərindən istifadə etmişlər. M.F.Axundzadə, C.Məmmədquluzadə, M.S.Ordubadi, Ü.Hacıbəyov və bu kimi digər yaradıcı ziyalıların bir zamanda poeziyaya, digər zamanda nəsrə, başqa bir məqamda dramaturgiya və ya publisistikaya söykənmələri təsadüfi deyildi. Sözün təsir qüvvəsinin harda güclü olması zənni bu ziyalıları ədəbi yaradıcılığın bütün növlərini sınaqdan keçirməyə sövq etmişdir.

Əlbəttə, Azərbaycan klassikasında insanı, cəmiyyəti kamilləşdirən ən güclü ədəbi vasitə uzun müddət bədii söz olmuşdur. Böyük Nizaminin, Nəsiminin, M.F.Axundzadənin və digər klassik söz ustalarımızın bədii tematikası insanı kamil görmək və estetik təsir vasitəsilə cəmiyyəti maarifləndirmək işinə misilsiz xidmət göstərmişdir. Azərbaycan ziyalısının öz estetik ideallarını gerçəkləşdirmə yolunda uzun əsrlər boyu bədii sözə üstünlük verməsi zamanın, dövrün və mühitin sənətkara diktəsindən doğmuşdur. Bəlkə buna görədir ki, yaradıcılıq növünün bizdə çox erkən başlamış poeziya dövrü və onun populyarlığı indinin özündə belə davam etməkdədir. Dahi Nizaminin "Xəmsə"sində qoyulan insan və cəmiyyət, insan və zaman və s. kimi ədəbi və əbədi-əzəli problemlər əslində publisistikanın predmeti olsa da, sənətkar öz sözünü nəzmlə – o zaman yayılmağa daha çox imkanı olan poeziya ilə demişdir.

Mətbuatın yaranması və geniş arenaya çıxması, bununla da sənətkar sözünün tirajlanma imkanının genişlənməsi publisistikanın işlək, funksional xarakterini gündəmə gətirdi. Amma publisistika nə qədər böyük gücə malik olsa belə, günün – məhz bu günün aktual problemlərini gündəmə gətirməsi xarakteri uzun müddət bir çox sənətkarın yenə də ona deyil, bədii sözə üz tutmasını şərtləndirdi.

Bədii sözün estetik təsir gücü bütün zamanlarda özünü təsdiq etmiş və sənətkar da çox zaman məhz özünütəsdiq arzusunu yaradıcılığın bu növü ilə gerçəkləşdirmişdir. Mətbuat və onun kütləvilik imkanı dünya düzəninin bu məqamını xeyli dəyişməyə səbəb olmuşdu. Mətbuatın özünü-

təsdiqi ilə, bir ictimai institut olaraq formalaşması ilə ən güclü bədii söz ustaları da bu ictimai institutun bel sütununu təşkil edən publisistikadan – günün aktual problemlərinin həllinə yönələn bu yaradıcılıq növündən kənarda qala bilməzdilər. Böyük ingilis şairi Con Milton yaşadığı əsrin ən mükəmməl poeziya nümunələri ilə İngiltərədə məşhur idi. XVIII əsrin birinci yarısında İngiltərə parlamenti qarşısında senzura əleyhinə söylədiyi və sonralar çap etdirdiyi publisistik "Areopolitika" əsəri onu yaşadığı ölkənin hüdudlarından çox-sox uzaqlarda da məşhurlaşdırdı.

Azərbaycan ictimai-humanitar fikrinin korifeyi M.F.Axundzadə "Kəmalüddövlə məktubları" əsəri ilə daha çox fundamentallıq qazanmışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərinin Avropada qəzet, jurnal dünyasının yaratdığı imkanlar isə Azərbaycanın da qabaqcıl yaradıcı ziyalılarının sözü birbaşa ünvana çatdıran publisistikaya meylini gücləndirdi. Publisist sözün H.Zərdabi, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Y.V.Çəmənzəminli, Ə.Hüseynzadə... kimi elə ustaları yetişdi ki, ədəbi yaradıcılığın bu növü cəmiyyətdə ən güclü təsir vasitəsinə çevrildi. Bu böyük sənət fədailərini zamanın yetirdiyi mətbuat meydana çıxardı. Çünki publisistikanın yeni qadir qüvvəsi yalnız mətbuat vasitəsilə özünü göstərə bilərdi.

Azərbaycanın yaradıcı ziyalılarının XX əsrin əvvəllərində publisistikaya güclü meyli məhz onların öz ideyalarını xalqa çatdırmaq işində məktəb səviyyəsinə yüksəlmiş "Şərqi-Rus", "Həyat" kimi qəzetlərin, "Füyuzat", "Molla Nəsrəddin" kimi jurnalların ortaya çıxması ilə böyük vüsət aldı. "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında bütövlükdə mətbuatın, xüsusi olaraq "Molla Nəsrəddin" jurnalının xalq həyatındakı roluna verilən qiymət klassik publisistikamıza və publisistlərimizə verilən qiymət kimi dəyərləndirilə bilər: "Mütərəqqi ideyaların carçısı olan "Molla Nəsrəddin" jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı... "Molla Nəsrəddin" dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi".

Bu tipli jurnallar və qəzetlər öz ətrafına ən fəal publisistləri toplayırdı. Əlbəttə, XX əsrin əvvəllərində Azərbaycan ədibləri hələ də bədii sözə, bədii sənətə önəm verirdilər. Ancaq C.Məmmədquluzadə və mollanəsrəddinçilər publisistikanın qüdrətini tez duydular və buna xüsusi diqqət yetirdilər.

Yuxarıda adlarını çəkdiyimiz ədiblərin jurnalistikadakı fəaliyyətləri sübut edir ki, publisistika özünü xalqa söz deməyin, milli ideyaları gerçək-

loşdırmayın ən güclü vasitəsi kimi göstərən bir zamanda klassikləşir və onun problemə, mövzuya sənətkarlıq baxışı böyük məktəbə çevrilir. C.Məmmədquluzadə hələ XX əsrin lap əvvəllərində doğma dilimizin təhlükədə olduğunu, erməni xislətinin axır bir gün Azərbaycan üçün faciələrə gətirib çıxaracağını, imperiya siyasətinin milli zərbələr hazırladığını özünün "Azərbaycan", "Bizim obrazovannılar", "Axund ilə keşişin vəzi" və s. kimi onlarca dəyərli publisistik əsəri ilə, Üzeyir Hacıbəyov xalqın maariflənməsinə, qəflət yuxusundan oyanmasına xidmət göstərən "Bir firəng ilə söhbətim", "Nəyimizin vaxtıdır", "Təəssürat", "Fitnələr qarşısında", "Düşmənlərimizin fəaliyyəti", "Qarabağ haqqında" tipli yazıları ilə, N.Nərimanov "Yalqız əldən səs çıxmaz", "Bəsdir özünüzü rüsvay etdiniz", "Həftə fəryadı", "Göz yaşı tökdürən cəzirə", "Bir az da utanmaq lazım"... kimi məqalələri ilə, Ö.F.Nemanzadə "Dərdimiz və dərmanımız", "Dəvət", "İmtahan", "Kömək ləşəlim", "Millətpərəstlik zamanıdır", "Məzlum ən böyük zalımdır" jurnalist düşüncələri ilə, Ə.Hüseynzadə "Türklər kimdir və kimlərdən ibarətdir", "Ey qələm!" əsərləri ilə, Əhməd bəy Ağaoğlu "İslam və qadın", "Tənbəllik mikrobu", "Tatar qadınlarının beşik mahnıları", "Mən kiməm" yazıları ilə, Y.V.Çəmənzəminli "Azərbaycan muxtariyyəti", "Müstəqilliyimizi istəyirikso" məqalələr silsiləsi ilə publisistikanın bütün zamanlar üçün aktual olan klassik nümunələrini yaratmışlar.

Cəsarətlə demək olar ki, təkcə Molla Nəsrəddin ədəbi məktəbinin nümayəndələri özlərinin ölməz publisist əsərləri ilə ədəbi növün bu sahəsində şedevr sayılacaq yüzlərlə nümunələr ortaya qoymuşlar. Öz tematikasına, qaldırdığı problemlərin milli dəyərinə, millətə və onun özünüdərkinə göstərdiyi xidmətlərə görə XX əsrin klassik Azərbaycan publisistikası nümunələrinin sovet dövründə yenidən çapına dəmir senzura qadağaları imkan verməmişdir. M.Ə.Rəsulzadənin, Ü.Hacıbəyovun milli oyanışla bağlı yazıları XX əsrin əvvəlləri Azərbaycan mətbuatının saralmış səhifələrində qalmışdı. Qarabağa erməni iddialarını, tariximizin erməni "alimləri" tərəfindən saxtalaşdırılmasını elmi-publisistik dəlillərlə xalqa anlatmağa çalışan Üzeyir Hacıbəyov publisistikasının bu mövzudakı nümunələri 1918-1920-ci illərdə həmin yazıların dərc olunduğu "Azərbaycan" qəzeti ilə birgə arxivin zirzəmilərinə atılmışdı. Bu tipli aktual və millət dərdiylə yüklü publisistikasına görə C.Məmmədquluzadənin onlarca məqaləsi ədibin əsərlərinin küllıyyatına salınmamışdır. Əziz Mirəhmədov, N.Axundov, Ş.Qurbanov, Ş.Hüseynov kimi publisistika tədqiqatçıları isə vaxtilə bu əsərləri üzə çıxarmağın cəzasını çəkmişlər.

Adətən elmi ədəbiyyatda klassika epiteti daha çox yüzilləri, minilləri əhatə edən sənət nümunələrinə şamil edilir. Həqiqətən də klassika ona

görə qiymətlidir ki, onun postulatları, kamil üslubu, böyük idealları və bu idealların sənətkarcasına ifadə tərzi yüzillərin həqiqətinə, aktual problemlərinə və nəhayət, bu yüzillərin sənət nümunəsinə çevrilir. Bədii söz sənəti bu statusu qazanmaqda xeyli əlverişli imkanlara malikdir. Publisistika da söz sənətidir. Lakin ədəbi yaradıcılığın bu növü daha çox günün aktual problemlərini qələmə aldığına görədir ki, ünvanlı, konkret zamana və məkana aidliyi ilə uzunmüddətli ömrə sahib olmur. Ancaq tarixi təcrübə sübut edir ki, hər şey sənətkardan, onun ifadə tərzindən, qaldırdığı problemlərin cəmiyyət həyatında gərəklik dərəcəsindən çox asılıdır. Bu mənada "qəzet bir gün yaşayır" məlum tezisi ətrafında mübahisə də etmək olar. Yəni, məsələn, XX əsrin əvvəllərində meydana çıxan qəzetlərimizin səhifələrində bəzən elə mövzular, elə bəşəri və xəlqi problemlər öz əksini tapmış və bu əsərlər elə böyük, qüdrətli qələm sahibinə məxsus olmuşdur ki, həmin qəzetlərin adını da, özünü də bu gün belə yaşatmaqdadır. Bu mənada Azərbaycanın jurnal publisistikasının da bəşəri və əbədi yaşarlığını təmin edən faktları çoxdur. "Şərqi-Rus", "Həyat", "Tərəqqi" qəzetləri günün aktual məsələlərini qoyurdusa, "Füyuzat", "Molla Nəsrəddin" kimi jurnallar uzunmüddətli strateji mövzuları gündəmə gətirirdi. "Füyuzat" kimi ədəbi jurnalın XX əsrin əvvəllərində gündəmə gətirdiyi türkçülük ideyaları isə yüz ilin qadağalarını dəf edərək XX əsrin sonunda yeni təkanla bir daha üzə çıxdı. Türkçülük və onun ifadəsinin klassik nümunələri "Füyuzat"ın səhifələrində parlaq yer almışdır. Bu jurnaldakı publisistika müasirlərdən ötrü bir məktəb səviyyəsindədir.

Xalqın milli dərdləri, milli özünüdərk və azərbaycançılıq ideyaları "Molla Nəsrəddin" jurnalında və mollanəsrəddinçilər ədəbi məktəbində öz möhtəşəm ifadəsini tapmışdır. Bu böyük məktəblərin əsasında isə sözü birbaşa və daha böyük cəsarətlə üzə deyən əlahəzrət publisistika dayanır.

Azərbaycan publisistikası XX əsrin əvvəllərindəki səviyyəsilə heyrət doğurur. Həmin dövrdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, milli özünüdərk prosesinin güclənməsi, azərbaycançılıq ideyalarının qabardılması publisistikanın həm mövzu dairəsini, həm də sənətkarlıq keyfiyyətini yüksəklərə qaldırdı. O vaxtlar Bağçasarayda "Tərcüman" qəzetinin naşiri və baş redaktoru, türk dünyasının ilk milli mücahidlərindən biri İsmayıl bəy Qaspıralı Ə.Hüseynzadənin ona göndərdiyi "Həyat" qəzetinin cildlənmiş nömrələrini alıb öz fikrini belə ifadə etmişdi: "Əziz qardaşım, mənə "Həyat"ın hamisi demişsən. Gözəl, amma bu sözün təfsiri hacətlidir. "Həyat"ın hamiyi-həqiqisi millətdir. Mən yalnız onun "Tərcüman"ıyam. Millət sənə daim hami olur. Fəqət, yeganə

şərtini unutma – hər nə yazacaq isən, qələmi üçqəpiklik qara mürəkkəbə batırma, ürəyinə batırıb qanı ilə yazı yaz. Sözün ötər, vicdanlara yetər. Əks halda bısəmərə gələr, keçər, gedər". İ.Qaspıralının Ə.Hüseynzadəyə bu "rica"sı, bu "məsləhəti" və bu "vəsiyyəti" XX əsrin əvvəllərinin Azərbaycan publisistlərinin kredosuna çevrilmişdir. Əli bəy Hüseynzadə özünün "Kaspi", "Həyat", "Füyuzat", "İrşad", "Tərəqqi" qəzetlərindəki publisistika nümunələrini məhz "ürəyinin qanı" ilə yazmışdır. Onun "Azərbaycanda düşündüklərim", "Gənc türklər, yaxud gənc türkçülük nə deməkdir", "Azərbaycan padşahları" və s. onlarca yazısı Vətən və onun dərdləri ilə bağlı problemlərdən çıxış yolları kimi tarixin ibrət dərsləridir.

XX əsrin əvvəllərində yaşayıb-yaratmış publisistlərimizin yaradıcılığı bu günümüz üçün də çox aktual olaraq qalır. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, M.Şaxtaxtlı, M.Ə.Rəsulzadə, N.Nərimanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu... Bu böyük yaradıcı insanların adlarını sadaladıqca qurtarmır. Bu sıranı xalqa onun taleyi bəxş etmişdir. Bu xalqın ən ağır problemlərlə yükləndiyi çağında tale ona Cəlil Məmmədquluzadə kimi sözü birbaşa üzə deyən bir publisist yetirdi. Böyük Mirzə Cəlilin xalqa yanımlığı bütöv bir nəslin həyat amalına çevrilmişdir. Bu mənada "Cəlil Məmmədquluzadə Azərbaycanda milli istiqlal ədəbiyyatının bayraqdarı və sərkərdəsi", habelə əsərləri ilə bədii-ictimai fikir tarixində azərbaycançılıq ideologiyasını yeni vüsətlə ortaya qoyan bir sənətkardır. Doğru olaraq C.Məmmədquluzadə yaradıcılığı "dərin, mənalı və həyəcanlı bir Azərbaycannamə" adlandırılır. Bu mənada ədibin publisistikasının şah əsəri olan "Azərbaycan" məqaləsi milli oyanış və siyasi intibah dövrünün... manifestidir". Həqiqətən də "Azərbaycan" məqaləsi – xalqımızın müstəqil və demokratik dövlət quruculuğu prosesindəki ümummilli vəzifələrinin publisistik tərcümanı, carçısı, vətəndaşlıq harayının ifadəsidir... Bu məqalə – Azərbaycanın vətəndaş ədibi Cəlil Məmmədquluzadənin mahir qələmi ilə çəkilmiş coğrafiyasının nadir publisist xəritəsidir" (İ.Həbibbəyli).

C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin yaratdığı "Molla Nəsrəddin" jurnalının publisistikası bir sıra cəhətləri ilə bu gün üçün daha aktual görünür. Çünki "Molla Nəsrəddin" və mollanəsrəddinçilər yatmış xalqı oyadır, özümüzü özümüzə tanıdır, azərbaycanlını kamil görmək istəyirdilər. Dövrün publisist ziyalıları birləşməyi də bacarmışdılar. Ö.F.Nemanzadə – Mirzə Cəlil birgəliyi xalqın maarifənməsi işində misilsiz rol oynamışdır. Ömər Faiqin təkcə "Dərdimiz və dərmanımız" publisist yazısını oxumaq kifayətdir ki, onun bu günümüz üçün nə qədər aktuallıq kəsb etdiyi anlaşılsın. Bu yazıda böyük publisist müsəlmanların

geriqalma səbəblərini açıqlayır, Avropa mədəniyyətinə qovuşmaq istəyinin necə süni yerinə yetirildiyini ürək ağrısı ilə dilə gətirir: "Bir qisim kişilərimiz də var. Mədənilərin əsərlərini və o səbəblə də onların rəftarlarını, halallarını xoş görürlər, onlar kimi olmaq istəyirlər. Mədəniyyəti paltarda, dildə zənn edərək uzun arxalıqlarını, başmaqlarını çıxarıb jaket, dar çəkmə geyirlər, hər kəsin ildə yetdiyi indiki mərtəbəyə bunlar 15-20 manatla on dəqiqədə nail olurlar. Az vaxtda tərbiyəli meymunlar kimi yekə bir obrazovanni olub (qeyrətlərinə nəzər dəymənsin!) firəng köynəklərinin yaxasını qulaqlarına qədər çıxarırlar, amma qafalarından köhnə fikri, xəbərsizliyi çıxarmayırlar". Görkəmli publisist dövlətliləri, alimləri iş görməyə, maarif və mədəniyyətin qayğısına qalmağa dəvət edirdi. Publisistin "Nə üçün haqqımızı istəmiriz?", "Biz də vaxta görə çalışaq", "Ağacı qurd içindən yeyir", "Məzlum ən böyük zalımdır", "Millətpərəstlik zamanıdır", "Bizə hansı elmlər lazımdır", "İşığımız sönməyəcəkdir" və s. onlarca yazıları müasirlərimizin də ədəbi dərsləri ola biləcək sənətkarlıq səviyyəsindədir.

Dünya publisistikası təcrübəsində yazıçının bu sahədəki fəaliyyəti bir sıra xüsusiyyətləri ilə seçilir. Yazıçı publisistikası bədii publisistikanın ən önəmli, ən ustad nümunələrini ortaya qoyur. Bu publisistikada yazıçı sənədli və birbaşa sənətkar sözünü bədii detallar, daha inandırıcı tapıntılar, oxucuya ünvanlanmış fakt, məzmun və bir sıra digər keyfiyyətlər – hətta bədii üslubu daha mükəmməl ehtiva edən stilistika, leksikon elementləri ilə kamilləşdirir, sənət səviyyəsinə yüksəldir. Azərbaycan yazıçı publisistikasında da belə nümunələrin sayı çoxdur. XIX əsrin ortalarında M.F.Axundzadəyə başlayan, N.Vəzirovla davam edən və XX əsrin əvvəllərində Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.S.Ordubadi, Ə.Haqverdiyev, Ə.Qəmküsar, M.Ə.Möcüz və digərləri tərəfindən davam etdirilən yazıçı publisistikası milli özünüdərk prosesinin güclənməsində mühüm rol oynamışdır.

Yusif Vəzir Çəmənzəminlinin "Kiyevdən məktublar"ındakı "İki aləm", "Zəruri məsələlər", "Azərbaycan muxtariyyəti", "Milli və mədəni irslərimiz" kimi əsərləri bu tip publisistikanın yaxşı nümunələridir. M.S.Ordubadinin Azərbaycanın müxtəlif bölgələrində – ermənilərin soyqırım faktlarının canlı reportajları səviyyəsində bu gün də öz aktuallığını saxlayan əvəzolunmaz "Qanlı illər" əsəri təkcə sarsıdıcı və tarixin şahidlik faktına çevrilən sənədliliyi ilə deyil, həm də bu faktların insan hisslərinə təsir edən, insanı intiqama səsləyən və ermənı vəhşətinin miqyasını göstərən üslubu ilə də xüsusi maraq doğurur. Yaxud Ü.Hacıbəyovun 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azər-

baycan" qəzetində dərc etdirdiyi silsilə publisistik yazıları – yazıçı publisistikasının ölməz nümunələridir. Bu əsərlərin sovet dönəmində yenidən çapı qəti qadağan edilmişdi. Əgər sovet dövrü Azərbaycan gənclərinin bu əsərlərə əlləri çatsaydı, indiki Qarabağ faciələrinə də yer qalmazdı. Çünki həmin əsərlər ermənı xislətinin və imperiya siyasətinin iç üzünü o zamankı oxucuya göstərmişdir.

Azərbaycanın müstəqillik əldə etməsilə klassik publisistikanın ən kəskin problemlər qoymuş nümunələri işıq üzü görməyə başlamışdır. M.S.Ordubadinin ermənı soyqırımının xronoloji və dəqiq faktlarını şahidlərin reportajvari xatirələri ilə yoğrulmuş "Qanlı illər" əsəri əsil həqiqəti 70 ildən sonra yenidən nəşri ilə bizə çatdırdı. XX əsrin əvvəllərində yazıb-yaratmış Azərbaycan publisistlərinin əsərləri qiymətli tədqiqatçı Ş.Hüseynovun yozumunda dövrümüzün oxucusuna çatdırılmaqdadır. İndi elə bir səviyyəsi və milli təəssübkeşliyi olan hər kəs bu publisistikanın geniş təbliğini özünə borc bilir.

Azərbaycan klassik publisistikasının təqdim olunduğu bu kitabda klassik publisistikamızın milli-mənəvi dəyərlərə, müstəqillik ideyalarına, Vətənə və müqəddəs torpağa, azərbaycanlılıq ideyalarına söykənən seçmə nümunələrinin bir qısmı toplanıbdır. Belə kitabların nəsil-nəsil azərbaycanlının həyatında hadisə rolunu oynayacağı şübhəsizdir. Zaman keçəcək, əsrlər, yüzilliklər bir-birini əvəz edəcək, hər şey dəyişəcək, dünya yeni yönə, yeni zövqlərə istiqamətlənəcək, ancaq xalqın milli-mənəvi dəyərlərinə öz müqəddəs münasibəti heç vaxt dəyişməyəcəkdir. Deməli, hər gələn nəsil də bu kitabları böyük ədiblərimizə, ictimai xadimlərimizə, Vətən və xalq yolunda qələm çalmış böyük publisistlərimizə sonsuz dərin minnətdarlıq hissilə oxuyacaqdır. Oxuyacaq və mütləq dərs götürəcəkdir. Dünənin, bu günün və sabahın dərslərini.

Cahangir Məmmədli

HƏSƏN BƏY ZƏRDABİ

(1842-1907)

İTTİHADİ-LİSAN[1]

Hər tayfa elm təhsil edən vaxtda lazımdır ki, öz dilini və dinini bərk saxlasın. Həqiqət, elm təhsil etməyi başlayan tayfa qaranlıq otağın qapısını açıb çölə çıxan kimidir ki, bu zaman günün işığı onun gözlərini nurlandırmaqdan başqa, otağın da içinə daxil olub orada olan şeylərə artıq işıqlandırıb bir qeyri-surətə salır. Belədə insanın rəyi də təğyir tapa bilir və əgər din bizim avam mollalar deyən kimi olsa ki, hər bir tərəfdən götürdüyümüz adətləri də dinə qarışdırıblar, o vaxtda belə din ağıl ilə düz gəlmədiyinə bərbad olur. Ona görə lazımdır ki, mətləb əsil din üstə olsun. Əsil din işıqdan qorxmaz. Hətta dəxi artıq işıqlanıb şəfəqi dəxi uzağa gedər. Pəs elm təhsil etməkdən din əldən getməz. Bəşərti ki, din əsil din ola. Vay elmsiz, qeyri tayfalara qarışanların gününə ki, zikr olan hala düşəndə dayaqsız uyuq kimi olduqlarına, bir bərk küləyə bənddirlər ki, onları aparıb qeyri tayfalara qarışdırsın. Dil bir şeydir ki, onu öz halında saxlamaq mümkün deyil. Elə ki qaranlıq otağın qapısı açıldı, qeyri tayfalar ilə gediş-gəliş artdı, artıq şeylər elə gəldi və adətlər dəyişildi, təzə sözlərin qədəri günü-gündən artacaqdır, belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var. Çünki o sözlər tərəqqi etməyə səbəb olurlar. Amma bəşərti ki, tayfa birdən bu yola düşüb getsin. Elə ki tayfa özü tərpənmədi, tək bir adam o yola düşdü, onların dili günü-gündən o tayfanın dilindən artıcaq aralandığına, bu tək yol gedənlər bir-bir lap aralanıb qeyri tayfalara qarışa bilərlər. Odur ki, elm təhsil etmək ana dilində olanda tərəqqi etməyə səbəb olar və bu alətlər, yəni kitablar, məktəblər, qəzetlər və qeyrə ana dilində olduğuna tayfanın birdən tərpənməyinə səbəb olurlar və tək-tək kənara gedən az olur və ya heç olmur.

Biz Rusiya dövlətinə tabe olan müsəlmanların hamısı türkdürlər. Bizim əsil dilimiz türk dilidir. Amma bu dil ayrı-ayrı yerlərdə cari olduğuna hər tərəfdə bir qeyri cür şivəyə düşüb, qeyrilərdən aralanıb, əlbəttə, zikr olan qayda ilə bu türk tayfaları elm təhsil etməyə başlayıb, yəni qaranlıq otaqdan çölə çıxıb tərəqqi

[1] Dil birliyi

yoluna düşəndə bir-birindən dəxi artıq uzaqlaşacaqdırlar. Belədə bir az vaxtdan sonra onlar bir-birinin nə ki danışığını, hətta yazdığını da anlaya bilməyəcəkdirlər. Heç insafdırmı ki, biz türklər bir dildə, bir dində ola-ola bir-birimizdən aralanıb artıq gücdən düşməyimizə səbəb olaq. Ona görə bizlərə vacibdir ki, indi vaxt keçməmişdən ittihadi-lisan dalıncan olub bir ümumi dil bina edib, bu ümumi dildə yazıb-oxuyaq ki, vaxtilə o dil hamının yazıb-oxumaq dili olsun. Belədə Rusiyada olan türk tayfaları getdikcən bir-birlərinə artıq yavuqlaşıb, birləşməkdən artıq da güclənib tərəqqi etməyə qadir olurlar və qardaşlıqları dəxi möhkəm olur.

Bu halda bizim türk dilində Bağçasarayda çıxan "Tərcüman"[1] qəzeti və Peterburqda çıxan "Nur"[2] qəzeti bu ümumi dil üstə bəhs edirlər. "Tərcüman" 30 ildir çıxır. Bu 30 ilin müddətində hər tərəfin müsəlmanları qeyri qəzeti olmadığına görə onu aparıb oxuyublar. Odur ki, bərادərimiz İsmayıl bəy istəyir ki, "Tərcüman"ın dili ümumi dil olsun. Amma axund Bayezidov "Nur" qəzetini tatar şivəsində çıxarır və hər türk tayfası qəzetinin öz şivəsində çıxmağını istəyir.

Çünki biz Rusiyada olan türk tayfaları üçün ümumi dil işlətmək vacibatdandır və bu halda belə ümumi dil bina etmək çox çətindir. Ona görə məsləhətdir ki, hər tayfa öz xeyrini gözləyib bir az vaxt artıq zəhmət qəbul edib uşaqlarına təlimi-ülum edəndə qeyri-türk şivələrini də yaddan çıxarmasın ki, bu uşaqlar gələcəkdə öz din qardaşlarını dəxi yaxşı tanıyıb onlar ilə dəxi artıq yavuqlaşıb həqiqi qardaş olmaqdan ötrü özləri üçün bir ümumi dil də bina etsinlər.

Bizim qafqazlı qardaşlarımızdan gələcəkdə ümumi dil məqdur olmağını gözləyib, təvəqqe olunur ki, bu halda qəzeti camaat oxumaq üçün yazanda camaatın ana dilində yazsınlar ki, onları hər dəst-xətti

[1] "Tərcüman" ("Переводчик") qəzeti 1883-cü ildən başlayaraq Bağçasarayda İsmayıl bəy Qasprinski tərəfindən nəşr və redaktə edilməyə başlamışdır. Həftəlik ədəbiyyat, siyasi, ictimai və beynəlxalq həyat məsələlərinə həsr edilmiş "Tərcüman" qəzeti 1904-cü ilə qədər həm tatar və həm də "Переводчик" adı ilə rus dilində çap edilmişdir. 1905-ci ildən başlayaraq qəzet "Tərcüman" başlığı ilə yalnız tatar dilində çap edilirdi. "Tərcüman" qəzeti yalnız Krım tatarlarının deyil, həm də başqa müsəlmanların həyatına dair də materiallar dərc edirdi.

[2] "Nur" - XIX əsrin axırlarında məşhur islam ilahiyyatçılarından İmam Müdərris Ətaulla Bayazitov tərəfindən Peterburqda tatar dilində nəşr olunan qəzetdir. Maarifçiliyə dair bir sıra məqalələr dərc etməsinə baxmayaraq, əsasən dini mahiyyət daşımışdır.

olan oxuyub anlaya bilsin və fars sözlərini bəqədri-məqdur az yazsınlar. Həqiqət biz, ələlxüsus bizim bəzi müxbirlərimiz, mollalarımız yazdığı türk dili deyil, bir qeyri, nə türk və nə fars dilidir ki, hər kəs özünün artıq oxumağını göstərmək istəyir. İnsanın şərafətinin bir dəlili də nitqdir. Lazımdır ki, hər kəs elə danışsın, elə yazsın ki, onu mümkün mərtəbə avam da başa düşsün[1]. Belədə qəzetə yazanlar gərək yaddan çıxarmasınlar ki, qəzet oxuyanların çoxu, ələlxüsus bizim məmləkətdə avamdır, öz türk şivəsindən başqa dil bilməyirlər və cümlə qəzetlərimizin idarələrindən təvəqqe olunur ki, qeyri müsəlman tayfalarının şivələrində çap olunan mətləblərin ora-burasını bir dərəcə bizim şivə ilə düzəldib sonra çap etsinlər ki, onları oxuyanlar anlaya bilsinlər. Həqiqət, qəzet camaat üçündür. Camaat qəzet üçün deyildir.

"Həyat" qəzeti, 11 yanvar 1906-cı il, №9

RUSİYADA ƏVVƏLİNCİ TÜRK[2] QƏZETİ

Dünyada ittifaq olmasa, heç bir cəmiyyət işi bina tutmaz. Bizim sabiq cəmiyyəti-xeyriyyə bina tutmadığından, teatr oynanan otaq boş qaldığından aşkar oldu ki, müsəlman qardaşlarımızı bir yerə cəm edib, zəmanəyə müvafiq məktəbxanalar açdırıb, küçə və bazarlarda qalan uşaqları oxutmaq olmayacaq. Elmsiz də bu zəmanədə dolanmaq mümkün deyil. Ələlxüsus, bizim yerlərdə ki, qonşularımız elm təhsil edib günü-gündən irəli gedir, bizim əlimizdə olan mülkü malımıza sahib olurlar və bir az vaxtdan sonra biz onlara rəncbərlik edib, onların malını daşımaqdan ötrü kirəkeşlik edəcəyik. Belədə nə qayırmalı? Hər kəsi çağırıram gəlməyir, göstərirəm görməyir, deyirəm qanmayır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın! Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra o su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də, ələlxüsus doğru söz, mürur ilə qanmazın başını deşib onun beyninə əsər edər. Belədə mən onları necə görüm

[1] "Avam" dedikdə Zərdabi əsasən savadsız və azsavadlı əhalini nəzərdə tuturdu.

[2] Azərbaycan

və görmək mümkündürmü? Hər kəs öz qara sandığının üstə oturub onun içində olana səcdə edir və sandığı doldurmaq fikrindədir. Amma ətrafda müsəlman qardaşlar bir-bir düşmənimiz əjdahanın ağzına düşüb yox olduğunu görməyir və görmək də istəməyir. Belədə qəzet çıxarmaqdan savay bir qeyri əlac yoxdur ki, kağızın üstə yazılmış doğru sözlər qapı-pəncərələrdən o iman mənzillərinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Axırda o bənd ki, suyun qabağını kəsmişdi və suyu axmağa qoymurdu rəxnə tapar və su mürur ilə bəndi uçurub aparar. Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olmağı aşkar olar.

Bəs qəzeti necə çıxardım? Pul yox, çapçı yoldaşı yox, kitabxana yox, hürufat yox, əmələ yox. 1-2 yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izin almaq da ki, bir böyük bəladır.

Bizim qubernator mütəvəffi general Staroselski[1], doğrudur xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə Qafqazın yer əhlini artıq dost tuturdu. Mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izin aldım.

Çünki o vaxtda yazı-pozu şikəstə xətti ilə olurdu və basma xəttini oxuyan yox idi və tamam Rusiyada işlənən hürufat çox yaman idi, ona görə mənə məsləhət elədilər ki, qəzeti daş basması ilə (litoqrafiya) basdırım. Mən buna razı olmadım. Çünki litoqrafiya ilə çıxan qəzet həftədə bir və ya iki dəfə çıxa bilir. Amma mənim ümidim var idi ki, sonra qəzeti hər gündə çıxarım və bir də Osmanlı və İran məmləkətlərində o vaxtda qəzetlər çıxırdı və onlar da hürufat ilə basılırdı və daş üstə çıxanlar da sonra hürufat ilə basılacaqdı. Belədə yaxşı olardı ki, işin binasından oxuyanları basma xəttinə öyrədim ki, sonra dübarə zəhmət çəkib onları təzədən basma xəttinə öyrətmək lazım olmasın. O vaxtda Bakıda iki basmaxana var idi. Onların birisində ki, qubernski pravleniyanın idi, bircə müsəlman hürufatını alayarımçıq düzən Minasov adlı erməni var idi. Onu götürdüm danışdırdım. Söz verdi ki, nə qədər hürufat düzən lazım olsa, öyrədib mənim qəzetimdə işlədər. Sonra fikrə getdim ki, yaxşı hürufatı haradan alım? Rusiyada, doğrudur, yaxşı hürufat

[1] General Staroselski – 1874-1876-cı illərdə Bakıda qubernator olmuşdur.

yox idi, amma qəliblər qayırıb, təzə hürufat tökdürmək mümkün idi. İş burasındadır ki, təzə qəliblər qayırdan kargahçı 5-10 puddan ötrü onları qayırmağa razı olmazdı. O vaxtda İstanbulda olan bizim şirvanlılar ilə məni irsal-mərsulum var idi. Onların yazmağından bilirdim ki, orada bizim türk dilində bir neçə qəzet çıxır. Hətta onlardan gündə çıxanı da var. Ona görə lazım bildim ki, gedib İstanbulu da ziyarət edim və orada işlənən yaxşı hürufatdan 5-10 pud alım gətirim.

1875-ci sənənin iyul ayında gedib İstanbulda 10 pud hürufat alıb, avqust ayında qayıdıb gəldim. Hürufat qışda gəlib çatdı. Əlahiddə basmaxana açmağa pulum olmadı. Ona görə Staroselski mənim hürufatımı qubernski pravleniyanın basmaxanası üçün satın aldı. Kağız və qeyri mayəhtacı hazırlayıb "Əkinçi" qəzetini çıxarmağı 1875-ci sənənin iyul ayının 22-də başladım. İyul ayına qəzetin açılmasını salmaqdan muradım o idi ki, zikr olan Minasovdan başqa, türk hürufatı düzən tapılmadı. O da bircə bacısı oğlunu gətirib, yanında şagird saxladı. Belə labüd qalıb mən özüm də ona gərək kömək edəydim. Basmaxana hər nömrəni bir kiçik vərəq üstə hər səfər 1000 vərəq basmaqdan ötrü məndən 15 manat istədi. Hesab çəkib gördüm ki, qəzeti hər iki həftədə bir dəfədən artıq çıxara bilmərəm. Qəzet çıxarmaq elamnaməsini novruzda paylamışdım və Qafqazın tamam şəhərlərinə və böyük kəndlərinə də göndərmişdim. İyul ayınacan 100 müştərim var idi ki, hərəsindən 3 manat, cümlətanı 300 manat vüsul olmuşdu. Qubernator naçalniklərə hökm yazdı ki, hər kəndin yüzbaşısı qəzet alsın. Bu tövr ilə 300 də müştərim artdı ki, cümlətanı 1200 manata qədər qəzet satılmaqdan vüsul oldu. Qəzeti əldə satdırmaq və elamnamə basdırmaq da ki, o vaxtda yox idi, qəzeti 8-9 yüzə qədər basdırdım. Onun 400-nü müştəri olanlara və artığını Bakının küçə və bazarlarında paylatmaqdan savayı, qeyri şəhərlərə də müftə göndərirdim ki, qəzeti oxumağa adət eləsinlər.

Əvvəlinci nömrələri çıxarmağın zəhməti çox artıq oldu. Yayda şagirdlərim Bakıdan evlərinə getmişdilər. Mən tək qalmışdım və bir də Minasov ömründə qəzet işi görməmişdi və çox ağır işləyirdi. Ona görə özüm yazırdım, hürufatı düzməyinə kömək edirdim, qələtlərini düzəldirdim. Əvvəlinci yarım ili, yəni yanvarın birinəcən 500 manata qədər zərər elədim. Amma müştərilərimin qədəri yüzdən üç yüzə qədər artdı. O ki yüzbaşılardı, naçalniklər onlara qəzeti vaxtında göndərmədiyinə onların qədəri azaldı.

Yanvarın 1-dən 400-ə qədər müştərim var idi, üç manatdan. Novruzdan sonra qəzetin vərəqlərini böyükləndirdim və o ilin payı-

252330
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

zında qəzeti həftədə bir dəfə çıxartdım. Çünki yazıçı yoldaşlarım günü-gündən artırdı və Minasov öz bacısı oğlu ilə işə artıq öyrənmişdi. İl qurtaranda hesabını çəkib gördüm ki, 1000 manata qədər zərərim var. Üçüncü, 1877 sənədə yüzbaşılardan savay 400-ə qədər müştərim var idi. Mənim əvvəlinci köməkçilərim şagirdlərim idi. Onlar yazmaqdan savay qəzeti müftə paylamağa, poçta verməyə də kömək edirdilər. Onların hamısı qəzet oxumaq ilə yazıb-oxumağı öyrənmiş idilər və öz vətən dilində qəzeti görəndə çox şad olurdular. O günü onlar üçün bir böyük bayram olurdu.

"Əkinçi"nin əvvəlinci bədbəxtliyi qubernator Staroselski Bakıdan getməyi oldu. Ondan sonra vitse qubernator bir yoğun senzor oldu. İkinci və böyük bədbəxtliyi Osmanlı davası başlanmağı oldu.

Nə qədər Osmanlı davası başlanmamış idi, bir tövr bu yoğun ilə yola gedirdim. Elə ki dava başlandı, özləri rus olmayan, amma rus dövlətinə ixlas göstərmək istəyənlər əz cümlə bu yoğun hər bir cəhətdə artıq diqqət edib qəzet çıxarmağı düşvar elədilər. "Əkinçi"yə ixtiyar vermişdilər ki, siyasi xəbərləri qeyri qəzetlərdən çap eləsin. Amma onların birisini də çap etməyə qoymadılar və bir tərəfdən də müştərilərimiz dava xəbəri istəyirlərdi. Senzordan təvəqqe elədim ki, özü qeyri qəzetlərində siyasi xəbərləri də göstərsin ki, hansıları çap etmək mümkündür. Ona da razı olmayıb, izin verdi ki, dövlət tərəfindən hər gündə gələn telləri çap edim. Əlbəttə, həftədə bir dəfə çıxan qəzetdə bir həftənin müddətində gələn tellərin hamısını çap etmək mümkün deyil idi. Çünki hər gündə 2-3 yüz sətrə qədər tel gəlirdi və onlardan seçib lazım olan qədərini də basdırmağa qoymadılar. Xülasə, siyasi xəbərləri basmaq mümkün olmadı və müştərilər məndən çox narazı oldular.

Müsəlmanların düşmənləri ki, Staroselskinin vaxtında bir iş görə bilmirdilər, hər tərəfdən "Əkinçi"nin üstə tökülüb onun bağlanmağına səy etdilər. Jandarma polkovnikinə hər gündə məndən və "Əkinçi"dən adsız danoslar göndərdilər. Jandarma tərəfindən mənim üstümə qarovulçular qoyuldu. Onların birisi mənim rus qulluqçumun qardaşı adına gecələr mənzilimin içində yatırdı. Birisi də küçə qapısında durub mən hər tərəfə gedəndə məni aparıb-gətirirdi. O vaxt mən hər gecə 1-2 saat kluba gedib bilyard oynayırdım və jandarma polkovniki də bəzi vaxtda mənim ilə oynayırdı. Onunla belə həftədə bir neçə dəfə o polkovnik məni apardıb məndən cavab istəyirdi ki, doğrudurmu filan günü axşam filankəslərin yanına gedib, filan sözü demisən. Mən cavab verirdim ki, filan saatda sənlə

bilyard oynayırdım. Deyirdi ki, mən özüm də yaxşı bilirəm, amma neyləyim, zakon belədir, gərək xəbər alım. Belə danosları bircə jandarmaya versəydilər, yenə dərd yarı idi, amma onları vəzirlərə, sərdara və qeyrilərə də göndərirdilər ki, onların cavablarını yazmaqdan biçarə jandarma yorulmuş idi. Amma bununla belə mən qəzeti vaxtlarında çıxardırdım.

Elə ki Dağıstanda şuluqluq başlandı, "Əkinçi"nin günü dəxi artıq qara oldu: bir gün Nəcəf bəy Vəzirovun məqaləsini ki, Moskvadan göndərmişdi, vermişdim düzməyə. Məqalədə bir dərviş bazarda dükanların qabağında qəsidələr oxuyub onları elm təhsil etməyə çağırırdı. Senzor qol çəkib çap olmağa izin vermişdi. Qəzet çap olub paylanandan sonra qubernatorun hökmünə görə o nömrəni bağlayıb məni istədilər. Gedib gördüm ki, mənim Minasovum[1] oradadır. Qubernator buyurdu ki, Minasov deyir ki, dərvişin sözlərinin qeyri mənası var. Ona görə nömrəni bağlayıb sənə hökm edirəm ki, bir qeyri nömrə çap edəsən. Cavab verdim ki, qeyri nömrə çıxarda bilmərəm. Mən gedəndən sonra qubernator özü bir nömrə çıxardıb paylatdı. Çünki nömrə mənim adımdan çıxmışdı, mən təvəqqe elədim ki, dəxi mənim adımdan qəzet çıxarmasınlar.

Bu tövr mən istəyirdim qəzeti vaxtilə bağlayıb dava qurtarandan sonra çıxardım. Amma müsəlmanların düşmənləri əl çəkmirdilər. Bir gün gimnaziyanın direktoru mənə məlum elədi ki, sərdarın hökmünə görə Yekaterinodar şəhərinin gimnaziyasına müəllim gedəm. Ona görə mən ərizə verib qulluqdan çıxdım. Çünki mən Bakıdan çıxıb müsəlman işlərindən kənar olmağı özüm üçün ölüm hesab edirdim. Dava qurtardı, amma mənim Bakıda qalmağım müşkül oldu. Padşahlıq qulluğuna məni götürmədilər və bakılılardan heç kəs məni qulluğa götürmədi. 1-2 yerdə cəmiyyət qulluğuna girmək istədim, amma məni seçkidən qaraladılar və qaralayanlar da Bakı müsəlmanları oldu ki, oraya xaricilərdən intixab etdilər. Belədə mən nə ki, "Əkinçi"ni dəxi çıxarda bilmədim, hətta Bakıda da qala bilməyib öz kəndimizə köçüb getdim.

"Həyat" qəzeti, 28 dekabr
1905-ci il, № 129, 3 yanvar 1906-cı il, № 2

[1] "Əkinçi" qəzetinin mürəttibi, burjua millətçiliyi zəhəri ilə zəhərlənmiş Minasovun qəzet barəsində qubernatora yalan məlumat verməsinə işarədir.

AÇIQ MƏKTUB

Müəllim qardaşlarımız, siz məgər qəzet oxumursunuz? Eşitmirsiniz nə qədər yazırlar, "oxuyun, elm təhsil edin". Məktəblərdə şagirdlər ağlaşırlar ki, oxumaq üçün kitablarımız yoxdur. Zavodlarda fəhlələrimiz fəryad edirlər ki, onları oxumadıqlarına görə adam hesab etməyib məvaciblərini tamam vermirlər. Xülasə, keçən ildə bir tərəfdən tətil edənlərin "yaşasın hürriyyət" sədası və bir tərəfdən də daşnak-Satyonun tapança, tüfəng və top gurultusu hamı müsəlmanları ayıldıb, hamı oxumaq istəyir. Belə zamanda ki, hər tərəfdən "yandıq" sədası gəlir, "elm! elm!" fəryadı ərşə bülənd olub, insafdırmı ki, siz müəllimlər guya ağzınıza su almısınız, heç bir cavab vermirsiniz. Yazın görək nə oxuyaq, necə oxuyaq, harada oxuyaq? Oxutmaq sizin işinizdir. Siz də, Allaha şükür, az deyilsiniz. Bircə Bakı şəhərinin 10 rus və müsəlman məktəblərində 40-a qədər müəllim var ki, onlara şəhər 40 min manata qədər məvacib verir. Bu qədər adam əl-ələ verib işləməyə başlasaq, 10 o qədər də kənardan onların üstə gələr. Belədə bir dağı götürüb o biri dağın üstə qoymaq olar.

Bəlkə siz elə fikir edirsiniz ki, məktəblərdə verdiyiniz dərslər bəsdir. Artıq lazım deyil. Yox, yox, o vaxtlar keçibdir. Damcı-damcı ilə yaramız sağalası yara deyil. İndi sel vaxtıdır. Elm gərək sel kimi axsın ki, hər istəyən ondan içib doya bilsin. Belə yanğı vaxtında hər millətini istəyənin borcudur ki, birə-beş artıq işləsin və bir də bizim oxuyanımız az olduğuna biz gərək nə ki iş müftə və bitəmənna millət üçün eləyək, hətta lazım olsa xərcini də bəqədri-məqdur özümüz gərək verək. Belədə iş irəli gedə bilər. Gözlərimizi dövlətlilərin əlinə tikib onların qara sandıqlarına ümid olmaq nahaqdır.

Mən sizin üçün bir kiçik proqram yazıram. Əlbəttə, siz cəm olub onu artırıb və ya azaldıb dəxi yaxşırağını düzəldə bilərsiniz.

Mən məsləhət görürəm ki, siz müəllimlər bir oxutmaq cəmiyyəti bina edəsiniz. Cəmiyyət həftədə bir dəfə yığılıb müsəlmanların uşaqlarını və böyüklərini oxutmaq barəsində məşvərət eləsin. Hər bir rus və müsəlman məktəbində şagirdlərin dərsləri qurtarandan sonra qeyri uşaqlara və böyüklərə növbət ilə axşam dərsi verəsiniz. Bu axşam dərsləri, əlbəttə, yazıb-oxumağı öyrətməkdən ötrü olacaq. Amma yaxşı olardı ki, onların, heç olmasa, birisi elm

oxutmaq üçün olsun ki, orada bu axşam dərslərini tamam edənlər və qeyri xahiş edənlər gəlib elm dərslərini də bəqədri-məqdur tamam eləsinlər.

Cəmiyyət ayda bir dəfə çıxan elm kitabçası (jurnalı) çap eləsin ki, orada şagirdlər oxumaq üçün məqalələr və qeyri şagirdlərə lazım olan şeylər barəsində danışıq olsun.

Cəmiyyət gərək məktəbxanalarda oxunan elmi kitablar barəsində də sərəncam eləsin. Hansı kitab lazım isə onu tərcümə etmək, ya təzədən düzəltmək və ya qeyri türk tayfalarının kitablarını gətirdib bizim Azərbaycan şivəsinə çevirmək gərəkdir. Bu kitabları düzəldənlər qurtarandan sonra gərək cəmiyyətə pişnəhad etsin və cəmiyyət onlara diqqət ilə baxıb qəbul edəndən sonra onları Bakı cəmiyyəti-xeyriyyəsinə göndərsin ki, cəmiyyət o kitabları çap elətdirib, ya müftə və ya bir az, 1-2 şahı qiymət ilə oxuyan uşaqlara paylasın və qeyri şəhərlərə də göndərsin.

Ümidvaram ki, bu barədə müəllim qardaşlarımız zəhmət qəbul edib, yığılıb məsləhət edib işə başlarlar və ya bizə cavab yazarlar və onu da təvəqqe edirəm yaddan çıxarmamaq ki, biz hamımız müsəlman balasıyıq. Müsəlman südü ilə böyümüşük. Müsəlmanların içində oluruq. Heç insafdırmı ki, biz dərslərimizdən artıq qalan vaxtımızı onlardan müzayiqə edək?!

"Həyat" qəzeti, 14 fevral 1906-cı il, № 35

DİL VƏ DİN

Bizim zəmanəmiz elm zamanıdır və elm təhsil etmək hər tayfaya vacibdir ki, zindəganlıq davasında heç olmasa özünü saxlaya bilsin və belə elm təhsil etmək ilə tərəqqi edib irəli gedən vaxtda hər tayfa gərək iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın direkləri hesab olunurlar və onların tayfa olmağına səbəbdirlər. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki, bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə tayfa qeyri tayfalara qarışır, mürur ilə yox olur. Çünki dil və məzhəb tayfanın ruhu olan kimidir. Necə ki, ruh çıxanda bədəndən bircə nəş, yəni cəmdək qalır və bu cəmdək mürur ilə çürüyüb yox olur, habelə dilsiz və

məzhəbsiz tayfa da gərək mürur ilə yox olsun. Pəs hər tayfa elm təhsil edən vaxtda gərək öz dilində və öz din və məzhəbində tərəqqi eləsin ki, dünyada qala bilsin. Onlarsız tayfa olmaz.

Bu axır zamanacan biz Rusiyaya tabe olan müsəlmanların işi çox yaman idi. Bir tərəfdən zindəganlıq davası ilbəil ki, şiddət edirdi və bir tərəfdən də elm təhsil etmək yolu bağlanmış idi. Çünki bizim öz milləti məktəbxanalarımız yox idi ki, orada öz dilimizdə, öz məzhəbimizdə elm təhsil etmək olaydı və dövlət tərəfindən açılan məktəblərdə rus keşişlərindən misyonerlik edənlərin məsləhəti ilə bizim dilimizi və adabi-şəriəti oxutmağı qadağan etmişdilər. Odur ki, bu məktəblərə gedən müsəlman çox az idi və olmayan kimi idi, həqiqət, o zaman biz müsəlmanlar üçün çox yaman keçirdi. Bir tərəfdən zindəganlıq davası və bir tərəfdən dövlət tərəfindən açılan məktəbxanalara gedib dil və məzhəbdən əl çəkməklə zindəganlıq davasından qaçıb qurtarmaq olmaz. Ondan xilas olmaq istəyən gərək dünyadan əl çəkib çəkilib bir guşədə otursun, bu da ki, olmaz və olmayanda onun var-yoxu mürur ilə əldən çıxacaq. Elm təhsil etmək ilə ondan ağıllı olanlar onları cürbəcür hiylə, fəndlər ilə onun əlindən alıb, onu tez və ya gec müflis və möhtac edəcəklər və bir tərəfdən də dövlət açdığı məktəblər ki, oralarda elm təhsil edən dil və məzhəbdən gərək əl çəkəydi. Belədə biz müsəlmanlar iki dəryanın arasında duran gəmiydik ki, hər tərəfə meyil etsək, yıxılıb qərq olası idik.

İndi Allaha şükür olsun ki, keçən ildən bizim rəhmli padşahımız hökm edibdir ki, Rusiyaya tabe olan tayfalar öz uşaqlarını öz məktəbxanalarında, öz dillərində oxuda bilərlər və onlar padşahlıq məktəblərində oxuyanda onların öz dillərini və adabi-məzhəblərini də onlara oxutsunlar.

Əgər ki, bu hökm sadir olandan bir iləcən keçibdir, amma heç bir xəbər yoxdur ki, filan yerin müsəlmanları bir belə məktəb açıblar. Buçağacan biz müsəlmanlar deyirdik ki, məktəbxanalarda bizim uşaqlarımızı öz dilimizdə oxutmağa qoymayırlar. Ona görə bizlər də onları oxutmayırıq. Bəs indi nə üçün məktəbxanalar açmayırıq, uşaqlarımızı oxutmayırıq ki, biz istədiyimiz ixtiyarı bizə veriblər? Bizim ilə zindəganlıq davası edənlər iti qılıncı götürüb, bizim üstümüzə düşüb, hər bir nicat yolunu bağlayırlar. Karxanalar hamısı xaricilərin əlində, sənət də onlarda. Alış-verişdi yenə bədəstur. Hətta bədbəxt müsəlman fəhlələrinə də xaricilərə verilən məbləğin yarısını

verirlər ki, sən oxumamısan, fəhləliyə qabiliyyətin yoxdur. Bəs haçan biz gözlərimizi açıb bunları görəcəyik və bunlara bir çarə edəcəyik!

Padşahlıq məktəbxanalarında bizim uşaqlarımıza öz dillərini və adabi-şəriəti oxutmağa izin veriblər. Ona görə o məktəbxanaların hakimi bu yeni keçən baharda yazmışdı ki, müsəlmanlar öz uşaqlarını oxutmaqdan ötrü proqram qayırsınlar ki, onlara nə oxutsunlar və necə oxutsunlar? Amma buna bir cavab verilmədi. Odur ki, ilin başında bizdən bixəbər məktəblərin hakimi öz tərəfindən bizim dilimizi və adabi-şəriəti oxutmaq üçün müəllimlər təyin edib və bu halda onlar nə oxudurlar və necə oxudurlar, biz bilmirik. Bəs biz qonşularımıza qoşulub bu ixtiyarları istəyəndə nə üçün istəyirdik və qonşularımız o ixtiyarlardan nəfbərdar olub dəxi artıq elm təhsil etməyindən bizlərə bir xeyir olacaqmı?

Qardaşlar, yatmaq vaxtı deyil. Ayılıb bir fikr edin, bu işlərin axırı necə olacaq? Yoxsa, həqiqət, bizim ruhumuz gedib bircə cəsədimiz qalıb. Belədə vay bizim halımıza.

"Həyat" qəzeti, 6 yanvar 1906-cı il, № 5

MƏHƏMMƏDAĞA ŞAHTAXTLI

(1846-1931)

DƏRDİMİZ VƏ DƏRMANIMIZ

Şükür Xudaya! Qədim cəhalət dövrlərində deyilik. Adətən qeyri, lakin ümumi istiqbala xeyirli olan fikirlər, təşəbbüslər qədimdə olduğu kimi birdən-birə söndürülmür. Bunlara daha günahkar fikir, şeytan işi deyilmir.

Bir çox vaxt zəhmətlərlə meydana gətirilən ali təşəbbüslər, işlər boş, quru sözlər ilə rədd edilmir. "Şöləyi-həqiqət müsalimeyi-əfkardan zühur edər" qaydası ortaya qoyulur. Arzuyi-maarif, fikri-üxüvvət və insaniyyət dairələri yavaş-yavaş irəli gedir. Bu dairələr durğun suya atılan bir daşın ətrafında peyda olan dairələr kimi bir-birlərindən getdikcə artıq böyüyür.

Yenə şükür Xudaya ki, ən birinci bəxşayişi-ilahi olan (ağıl) sayəsində əzəmət və qüdrəti-ilahiyyeyi-fikri bəşərin yetdiyi dərəcədə anlamaq və übudiyyətə insanca layiq olmaq üçün keyfiyyəti-xilqət, əsrari-təbiət tədqiq və təmin olunur.

Ən həqir bir otun, nəbatın surəti-təkəvvünündən cənabi-həqqin əzəmət və səmədaniyyəti təqdir olunur.

"Hər vərəqəş dəftərist mərifəti-kerdigar" ilə "Olsa istedad arifi-qabil, idraki-vəhy, Həqq irsalına hər zərrədir bir Cəbrayil" hikmətlərinin boş yerə söylənilmədiyi anlaşılır.

Zühura gələn hər bir məxluqat və mövcudun mütləq bir səbəb və hikməti ilahiyyəyə müvafiq bir surətdə xəlq buyurulduğu sirri bilinir. Həqq-taala təbiətin təsir və iqtizasını bir səbəbi-xilqət olaraq bəxş buyurduğu fəhm edilir. Buna binaən heç bir şeyin bilasəbəb zühuru gözlənmir. Anlamadıqları qədəri təqdiri-qisməti bəhanə edən tənbəllər, səfehlər kimi həqqin ən böyük neməti, əsrari-ilahiyyənin cilvəgahı, təkalifi-şəriyyənin məhəlli-təhəmmülü olan ağıl boş yerə çevrədilmir.

Məsələn, su, atəş və ya bir otun, meyvənin və sürətlə Allahın verdiyi hansı səbəblə vücuda gəldiyi düşünülmür.

Qışın ortasında gözəl bir çiçək, xoş bir meyvə hüsula gətirmək üçün artıq baharın gəlməsi, istinin, hərarətin zühuru gözlənilmir.

Neməti-ilahiyyə olan ağıl ilə təbiət tədqiq və təqlid edilir. Məxsusi bir məhəl yapılır. Soyuq olmamaq üçün üzəri çalma, ayna

ilə örtülür. Qışın ağ qar çiçəkləri arasında süni çiçəklər, meyvələr meydana gətirilir.

Beləcə təbiəti-əsliyyə səbəbi ilə hüsul xeyli-zamana müvafiq olan məhsulat elm və ağıl qüvvəti ilə süni olaraq zühura gətirilir.

İndi buraya qədər saydığım elm və ağıl xariqələri, əsərləri hər kəs bilər və təsdiq edər ki, haşa bizlərin deyil, mədəni-mərifət sahiblərinindir, ya bizlər bütün-bütün pərişanmıyız?

Xeyir, öylə işmi olar?

Qədim, xalis, mütədəyyin elmi-islamların vaxtı ilə vücuda gətirdikləri əsərləri avropalılardan tərcümə edilən kitablarda oxuyuruz. Tövbə!

İndiki mədənilərin yapdıqlarını görürüz. Ağzımızı bir qarış açıb sərsəm, mədhuş qalırız. Bu qədərmi? Xeyr, gördüklərimizdən ibrət alayız.

Bəli, biz də keçmiş İslam mədəniyyətlərindən, indiki Avropa tərəqqisindən ibrət alarız. Amma nə cürə?

İştə bilinəcək cəhət də burasıdır. Bir çox mollalarımız, oxumuşlarımız var. Qədim İslam mədəniyyətinin yalnız adı qalmış. İndiki zahiri şəraitimizlə o mərtəbəyə, o kamala yetmiş-çatmış zənn edirlər və bu gün də o fəsad, kar-görməz fikirlə guya tərəqqi etmək, qabağa getmək istəyirlər. Heyhat!

Bir qisim işlərimiz də var ki, mədənilərin əsərlərini və o səbəblə də onların rəftarlarını, hallarını xoş görüblər. Onlar kimi olmaq istəyirlər. Mədəniyyəti paltarda, dildə zənn edərək uzun arxalıqlarını, başmaqlarını çıxarıb gödək jaket, dar çəkmə geyirlər. Hər kəsin on beş-iyirmi ildə yetdiyi indiki mərtəbəyə bunlar beş-on manatla on dəqiqədə nail olurlar. Az vaxtda tərbiyəli meymunlar kimi yekə bir obrazovanni olub qurtulurlar (qeyrətlərinə nəzər dəyməsin!), firəng köynəklərinin yaxasını qulaqlarına qədər çıxarırlar. Amma qafalarından köhnə fikri, xəbərsizliyi çıxarmayıblar.

Başlarında elmdən, mərifətdən, aləmdən xəbər yox. Mədəni ərəblərin;

"Əlvəqt seyfun qateun. Əlvəqt naqdun" hikmətini bunlar "Əlvəqt bizzövqi billabiyə"yə çevirmişlər.

İştə bu nazəninlər nə müttəqi, nə də mədənidirlər. Arada sərsəm, avara, yarımcahil (özlərincə obrazovanni), meymunca müqəllid qalmışlar. Bir sözlə, nə axirətləri var, nə dünyaları.

Qardaşlar! İndiyə qədər nə oldu, oldu, nə zərər etdik, getdi. Bundan sonra olsun bir kərə aləmə nəzəri-ibrətlə baxalım, baxalım ki, hər gündə, bəlkə də hər saatda yerdə-göydə indiyə qədər nemətiilahiyyə, qüvvəyi-təbiiyyə aşkara çıxarılır:

"Nemət bilməz əsiri-cəhl olan,
Qismətin eylər füzuntər əhl olan"

qaidəsində həqq və əməl edilir.

Allahın ən böyük nemət olan ağıl səfeh və axmaqca boş yerə tələf edilməyir. Bizlərin:

Farz bil ürfanı, təhsildar ol!
Ömrundan vaqifi-əsrar ol!
Mərifət can oldu, insan cism olur,
Mərifətsiz laşəyi-biism olur.

Hikməti farzi-insaniyyət kimi tutulur. Əqli-səlim qüvvəti ilə hər anda əsrari-təbiiyyəni kəşf edib, elmi-insaniyyətə xidmət edəcək ali fikirlər, böyük işlər, faydalı alətlər, dərmanlar, əczalar, vasitələr meydana gətirilir. Bir kərə də özümüzə baxalım! Hanı bizdə bir maniyimüxtəriyi-müvəccəd, aşiqi-səyyahımız?

Dövlətli, adlı adamlarımız yox deyil. Alimlərimiz var, ara-sıra mərhəmətə, cuşa gəlib elm və mərifətin lüzumu barəsində minbərdə, qəzetlərdə köhnəlmiş, min kərə söylənmiş fikirləri, sözləri təkrar edirlər.

Çox gözəl! Amma iş yapmağa, görməyə ixtiyarları, qüvvətləri olan böyüklərimizdən yalnız boş fikir, quru söz gözləmiyiriz. İndi Həzrəti-Adəm dövrü deyildir. Avamlar, kəndlilər belə elmin, mərifətin qədrini, lüzumunu anlayıb, qanırlar. Amma bu gözəl səmtə getmək yolunu, qaydasını bilməyirlər. Buna görə elm yollarını bunlara sözlə deyil, işlə, öncülük olmaqla bildirməlidirlər. Yoxsa sözü hər kəs söylər, amma işi hər kəs yapa bilməz. Bu cəhətlə böyüklərimizdən bizə quru söz deyil, ciddi ürək, qeyrət, iş lazımdır.

Öz vicdanlarında düşünsünlər ki, on beş-iyirmi il məmuriyyətlərində insaniyyətə, millətə nə iş görmüşlər?

Bəli, dövlətlərimiz də var, amma çoxu ömürlərini yalnız pul toplamağa vəqf etmişlər. Pul küpü, sandığı mərtəbəsinə düşmüşlər. Guya mərifət bunlar üçün lazım deyil, səhərdən axşama qədər pul hesabı

ilə, axşamdan səhərə qədər pis, qorxulu yuxu-duş ilə məşğul olurlar. Bu kimilər "insan yaşamaq üçün yeyir" qaydasını pozub, "İnsan yemək, pul cəm etmək üçün yaşayır"a çevirirlər.

Xeyli İslam məmurlarımız, məlumatlı kişilərimiz var. Var, amma öz dillərində qəzet oxumağa deyil, onunla söyləməyə, danışmağa belə həya edirlər. (Sübhanallah!)

Bir çox qəzet oxuyanlarımız var. Amma özlərindən bir qəpik verib, alıb oxumaq istəmirlər. Toylarda, məclislərdə "mənim də adımı çəksinlər" fikri-cahilanəsi üçün pul yağdırırlar. Yakın qəzet, kitab üçün iki qəpik verməyə alışmayıblar. Həmiyyətli qonşusundan, yoldaşından araya alıb, yarım gözlə oxumağı adət etmişlər. Hasilə bu gün hər cürə halımızla keçmiş İslam maarif qəbiristanının məzar daşları hökmündə yalnız bir boy göstərirsiz. Aşağıdakı beytlər tamam bizim üçün söylənmiş:

Ləhv ilə ləəb oldu bizdə kargər,
Əslimizdə yox nəsihətdən əsər.
Qüvvəti-dil bizdə düruğ, lafülağ,
Bizdə şur mədədir hökmi-bolağ.
Rəncimiz izafi-əfzun istəriz,
Əql üçün daruyi-əfyun istəriz.

Bununla bərabər aramızda iş görən fazillərimiz, məktəbləro, xəlayiqə kömək, yardım edən dövlətlilərimiz, qəzet-kitab qədrini bilən oxuyanlarımız az deyil. Amma qonşularımıza, zəmanəyə, ehtiyaca görə çox azdır. Doğrunu nə üçün rədd edəlim? Diyar, torpaq qonşularımız bu gün bizim istədiyimiz, xeyr, möhtac olduğumuz mədəniyyətə əlli il əvvəl başlamışdılar. Bizlər hələ cəhalətin qurbanı, avropalıların nökəri, daha açığı qonşularımızın sağılan inəyi mənzilində, məzəllətində qalmışız.

İlahi, bizim millətin mərifət baharı nə vaxt gələcək? Elm çiçəklərimiz nə zaman açılacaq? Həmişə belə gözü bağlı, dili lalmı qalacağız? Bu nə halətdir ki, düşmüşük? Bu nə yükdür ki, biz çəkiriz? Daha nə zamana qədər bu cəhalət boyunduruğundan qurtara bilməyəcəyiz? Axır biz də insanıq. Cəhalət ilə puç olub gedən, mərifət ilə səlamətə çıxan millətlərdən ibrət alalım! Edəlim ki, bizə öncülük, rəhbərlik edib, nümunə-misal olmuşlar.

Mərifət və cəhalətin xeyir və şərrini çox əvvəl pək böyük fəlakətlər ilə təcrübə üçün bir qaranlıq nöqtə olsun buraxmamış-

dılar. Ancaq bu gün bizə qalan vəzifə bu nemeti qənimət bilib, insanca istifadə etmək, ibrət almaqdır.

HƏZRƏTİ-MÖVLANANIN:

İndi şükür olsun bizə pərvərdigar,
Verdi əslafi-üməmdən etibar.
Amil oldur kim, bilib keyfiyyəti;
Qeyrin əhvalından aldı ibrəti.
Üstixanü pəşmi-gürdani-səlef,
Oldu pənd hissədarani-xələf.
Əhli-ibrət sahibi-xibrət olur,
Yoxsa halı qeyr üçün ibrət olur.

Bəli, tədbirsiz təvəkkül, səysiz qədr ilə boyun büküb durarsaq, halımız qeyrilərə şəksiz ibrət olacaq. İnsaf ilə fikir edəlim! Mücərrib olan bir iş, bir keyfiyyət ki, təbiətən və mənən hüsulu qəti və mühəqqiqdir daha bunda inad və israr ilə özümüzü fəlakətlərə, bəlalara salsaq, nə yaraşığı var? Görülmüş və görürüz ki, istər İslam, xaçpərəst, istərsə məcus, saibi olsun, salamat və rahata yetmək üçün mütləq qədim islamların, indiki avropalıların keçdikləri körpü ilə keçəcəkdir. Daha bu körpünü buraxıb boğula-boğula sudan keçmənin nə ləzzəti var?

Bu gün aləmi-İslamiyyətin işıqlı yerlərində Avropada vücuda gətirilən açıq, asan, faydalı kitablar, əsərlər, alətlər gündən-günə çoxalmaqda, alimlər onlardan istifadə etməkdədir. Daha bunlara baxmayıb, on beş-iyirmi il zamanın iqtiza və icabı ilə yazılan Cami qəvaidi əzbərləmək ilə, ərəb saçına oxşayan qarışıq xırda haşiyələrlə, hökəma-isabəti çoxdan köhnələşmiş, qoxumuş Qazi-Mir ilə, üstürlab ilə xəyal və cəfəngiyatdan ibarət olan cəfr, nücum rəml və sairlər ilə vaxt keçirmək, iktifa etmənin nə mənası var?

Keçmiş İslam mədəniyyətinin keyfiyyəti-hüsulunu tədqiq, əsərlərini yada gətirib bugünkü halımız ilə qiyas edə bilməzsən, yenə hər kəsdən ol babalarının mərtəbəsinə varmağa çalışan Misir islamları ilə vəhşi dərgəsinə düşmüş Ərəbistanın, Farsın, Sudanın hallarını, bir az daha irəli gedərək bir millət, bir məzhəb, bir qardaş olan Yaponiya ilə Çinin hallarını qiyas edəlim.

Xeyr, xeyr. Bunun üçün o qədər uzağa getmək də istəməz.

Qardaşlar, acı, lakin doğru sözdən inciməyəlim. Dərdini söyləməyən dərman bulmaz. Qızdırma üçün hər zaman şəkər, qəndiyyə içmək yerinə bir az da xinə içəlim. Şükür Allaha, dünyanın halı gözü-

müzün önündədir. Çinlilər kimi dünyanın bir kənarında deyil, dünyanın hər tərəfində, hətta mədəni millətlər ilə torpaq, qapı qonşusuyuz. Çinlilər belə Avropanın bir dəfə vurduğu zərbə ilə oyanmağa başlayır. Biz nə qədər hissizik ki, vücudumuz parçalanır, ürəyimiz dağılır, namusumuz ayaqlar altına alınır, həqirliyimiz yerin dibinə keçir, keçir də yenə bir kərə olsun gözümüzü açmaq, ibrət almaq istəmiriz.

Of, insan fikir edəndə divanə olmaq istəyir.

Nədir bugünkü dərdimiz? Nədir qonşularımız arasındakı həqarətimiz?

Yeri gələndə qədim ərəb mədəniyyəti ilə fəxr ediriz. Avropalılar mədəniyyəti islamlardan aldılar, deyə şişiriz. Amma bir kərə fikir edəlim ki, bu bizim üçün nə qədər ayıbdır. Avropa xaçpərəst ola-ola qədim islam mədəniyyətini qəbul etsə də, biz öz malımızı almaqda, öyrənməkdə bu dərəcədə inad göstərək?

Üzrümüz qəbahətdən böyükdür. Utanalım! Utanalım!

Nuh zamanında deyiliz. Zəmanənin təsiri ilə tərəqqi nişanəsi olaraq bizim aramızda da iş görən fazillərimiz, kitab, qəzet yazan mühərrirlərimiz var. Amma çoxluğumuza görə heç! Kitab, qəzet yazan əksərən müştəri bulmadıqlarından kağız pulunu, basmaxana xərcini belə çıxara bilməyirlər. Yüz ildə bir zühur edən həmiyyətlilərimiz pək böyük məşəqqətə, fədakarlığa düçar olurlar. İştə bunlardan biri olan qiymətli, əziz "Tərcüman"ımız min həftədir fəryad edir, qayət həkimanə bir məsləklə milləti səlamətə, mərifətə doğru sövqə çalışır. Həftədə bir dəfə çıxan bu kiçik qəzetin insaniyyətə, islamiyyətə gördüyü xidmət Allah üçün pək böyük, çox-çox alidir. Amma illərcə cəhalət qaranlığında qalan bir millət üçün iyirmi ildə kiçik bir qəzet çox azdır. İki milyon olan qonşularımızın yeddi-səkkiz qəzeti, minlərcə kitabları var. Heyif ki, on beş-iyirmi milyon biz müsəlmanların həftəlik kiçik bir qəzeti də çox görülür. Oxucularımız çox az, həqiqəti gizlətməyəlim. Üləmalarımızın, böyüklərimizin çoxu lazımınca himmət göstərmirlər. Qəzet oxumağı günah hesab edən, məzhəbləri bilinməyən bəzi nadan natiq mollalarda, kişilərdə işim yox, bunlar həqiqətdə deyilən:

Mərdome-moqəddəs ra xub şenasəd hatef,
Kafərəm mən, əgər in tayefe dindaranənd.

Xülasə, indiyə qədər min dürlü təcrübələr ilə isbat edilmiş bir həqiqətdir ki, hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar.

Mərifətin birinci vasitəsi, xətibi, vaizi isə məcmuələr, qəzetlərdir. Qəzet aləmin güzgüsüdür. Qəzet zəmanənin ən kəskin qılıncıdır. Qəzet indiki cismi-həyatın ruhudur. Qəzet aləmin ən nüfuzlu, təsirli vaizidir. Qəzet hər millətin ölçüsü, mizanıdır. Qəzet məmləkətin hamısı, vəkili, advokatıdır.

Şükür Xudaya, bizdə də dövri-tərəqqiyə girəcəyimizi bildirən əsərlər, kitablar çox gec də olsa zühur etməkdədir.

İşte çoxdan bəri görülən bir nöqsan və ehtiyacımızı ikinci bir türk qəzetimiz ikmal üçün möhtac olduğumuz "Şərqi-Rus" adında Tiflisdə nəşr olunmağa başladı. Qəzet sahibi üzərinə düşən həmiyyət və millətpərəstliyini göstərdi. Görəlim! Biz camaat da üzərimizə düşən müavinət və kömək vermək vəzifeyi-milliyyə və insaniyyətimizi göstərib, təzə çıxan bu işığa rövnəq verməyimiz?

"Şərqi-Rus", 13 aprel 1903, № 5, 6

KÖMƏK ELƏYİN!

Dilimizi, dinimizi, dünyada nəslimizin bəqasını sevən qeyrətli müsəlman qardaşlar, hər sinifdənsiniz, millətin nikbəxtliyinə vəqf olan bu mütəvaze qəzetimizin intişarına kömək eləyin! Eləməzsiniz, qəzet əldən gedər. Əldən gedərsə, özü ilə bərabər dilimizi də aləmi-fənaya aparıb, biz türkləri bəhayim halında qoyar. Qəflət edərsiniz bizdən sonra gələnlərin və müasirimiz olan özgə millətlərin təninə, nifrininə, bəd duasına, lənətinə müstəhəq olursunuz.

Qəzet bir qövmə beşikdəki uşağa süd kimi vacib olduğunu bilirsiniz. Orasını şərh və təfsilə hacət yoxdur.

Kömək edin! Bizə müştəri olmaqla, yəni abunə olub qəzetin illik parasını göndərməklə kömək edin. Bizə alış-verişlərinizə dair qəzetimizdə elan qoymaqla xüsusilə kömək eləyin.

Bizə öz şəhərinizdə və ya mahalınızda vəkil olub, müştərilərin pulunu yığıb, bizə göndərib, bizdən onlara qəzet istəməklə bu cür köməyə çox artıq ehtiyacımız var.

Müsəlmanların çoxusu rusca adres yaza bilmirlər. Yaza bilənlərin də çoxu tənbəldir ki, bir-iki sətr yazı yazıb qəzet istəməyə damağı yoxdur. Əgər xeyirxah şəxslər cavan-mərdanə meydana girib öz əhli-vilayətlərini müştəri olmağa təşviq buyurub və abunə pullarını yığıb, müştəri siyahiləri ilə bərabər bizə göndərməsələr,

bizim əlimiz müştəri puluna, müştərilərin də əli bizim qəzetimizə yetişməyəcəkdir.

Bizə vəkil olmaqdan sadə nə var?

Müştərilər düşdükcə adlarını bizə yazıb, pullarını bizə göndərin! Əgər müştərilər şəhərlilərdirsə, adreslərin yazın ki, biz özümüz onlara nüsxələrimizi rahrast (birbaşa) göndərək. Əgər kəndlərdə olurlar ki, poçt oraya getmir, onda onların qəzetlərini Siz bizdən öz adınıza gətirdin və zəhmət çəkib onlara fürsət düşdükcə göndərin.

Xahiş edənlərə abunələrdən yüzdə beş və elanlardan yüzdə on ücrət verməyə hazırız. Əgər məccanən, yəni pulsuz və parasız bizə kömək edərsiniz, bizi də, bizim ilə bərabər hamı türk dili danışanları özümüzə minnətdar elərsiniz.

Ehtiyacımız var. Bizə hər tərəfdən xəbər və əfkar yazanlara ki, oxuyanlarımız millətin əhvalını öyrənib, hər gün bir təzə fikir və təzə rəy eşitsinlər.

"Şərqi-Rus", 16 aprel 1903, № 7

TÜRK VƏ TATAR QÖVMİNƏ MÜRACİƏT

Qəzetimizin nəşrini bu rus ilinin axırına bitirməyə müvəffəq olduq.

Biz nəşrə başlayanda Tiflisdə və Qafqazda nə qəzet var idi, nə qəzetçi var idi və nə qəzet nəşr edə biləcək mətbəə. Hər şeyi özümüz yapdıq, hazırladıq. Məsarifimiz həddən-həsirdən keçdi. Yazı və idarə zəhmətlərini millətimizə borclu olduğumuz xidmətin icabatından bildiyimizdən gözə aldırmışdıq. Fəzlə olaraq bir də rəqabət, büğz və həsəd sövqilə üzərimizə yağdırılan iftira və böhtanlara nişanə olub, ruhani əziyyətə düçar olduq.

Amma həmd olsun mətanətimiz fütur qəbul edənlərdən olmadığından vəzifə gücləndikcə biz xidmət yükümüzü daha ağırlandırmaq istədik.

Qonşu millətlərin; ermənilərin, gürcülərin yövmi (gündəlik) çıxan mütəəddid qəzetləri var. Biz də o fikrə düşdük ki, qəzetimizi yövmi edib, onların qəzetləri kimi hər günün əhvalını həmin gün oxuyanlarımıza ərz edək.

Lazım olan təşəbbüslərə iqdam etdik ki, təzə rus ilindən "Şərqi-Rus" həftədə üç nömrə yerinə hər gün nəşr olunsun. Bu günlərə qədər qəzetimizə işbu təzə rus ili üçün abunə, yəni müştəri

olmaq dəftəri açammırdıq. Çün qəzeti həftədə qaç dəfə çıxaracağımızı bilmirdik ki, camaata deyək.

Ümidimizi nə üçün kəsək?

İnşallah bu təzə ildən müştərilərimizin sayı diqqətə şayan surətdə çoxalar və rəhmdil rus dövləti bu xeyirli vəqəəni ona feli dəlil hesab edib ki, rus müsəlmanları üçün aləm əhvalını gündən-günə bilmək həqiqi ehtiyac olmuşdur. Qəzetimizin hər gün çıxmasına müsaidəsini əsirgəməz.

Məsləkimizi hər kəs bilir. Millətimizin mədəniyyətinə xidmətdir. Mədəniyyət ehtiyacımız felidir, həyatidir. Qonşularımızın həpisi mədəni olduqlarından kəsbü kar, ticarət, sənaye, ziraət, bir sözlə, məişət aləmində onlarla rəqabət edə bilib, qövmimizin, cinsimizin dünyada bağı qala bilməsini müdafiə edə bilməyimiz bağlıdır. Və illa (əks halda) mədəni qonşularımız bizi əzib dünyadan qəti-nəsl edərlər. Necə ki Amerikanın qədim qövmlərini Amerikaya hicrət edən Avropa qövmləri elədilər.

Bir millətin həqiqətən təmədduن edə bilməsi üçün ümdə şərt odur ki, ümumə aid məsələlərdə hər fikirlərini, rəy və əqidəsini kamali azadlıq və hürriyyətlə bəyan edə bilsin.

Bu azadlıqdan türk və tatar qövmini müstəfid etməkdən ötrü "Şərqi-Rus" meydana çıxmışdır. Çıxar-çıxmaz məsləkinin millətin həqiqi ehtiyacına təvafüq etdiyini görməyə müvəffəq olmuşdur.

Vaqıən qəzetin məsləki məlum olur-olmaz Rusiyanın bir başından o başına qədər türk və tatar qövmi içində nə qədər fikir sahibi, millətini sevən, fəzl və vicdan yiyəsi, əhli-qələm varsa həp əfkaritəatisi vasitəsi ilə millətin mədəniyyətinə ən ziyadə xidmət olacağı xüsusunda "Şərqi-Rus"la həməfkar olub, təzə qəzetin sütunlarını əksəriyyən bir-birinə zidd olan əfkarlar ilə zinətləndirməyə başladılar. Ölü görünən millətimiz hərəkətə gəldi. Diriliyin əsərləri o qədər diqqətə şayan göründü ki, "Şərqi-Rus"un rus müsəlmanları içində iqa etdiyi mədəni, əqli və vicdani inqilabdan bir çox şərqşünaslar öz millətlərinə, fransızlara, ruslara, almanlara, ermənilərə və qeyrə müfəssəl əhval şərhləri yazmağa məcbur oldular.

"Şərqi-Rus" açdığı yolunda davam edəcək kamali-qeyrət və istiqamət, şövq və zövqlə türk və tatar cinsinin mədəniyyətinə, səadətinə şan və şərəfinə xidmət edəcək.

Biz vəzifəmizi qüdrətimizin axır dərəcəsinə qədər ifa edəcəyiz. İnşallah millətimiz dəxi bizə göstərəcəyi müavinəti və iltifatı ilə mədəni üt-təb olduğunu sabit edib;

"Türk və tatarların əhvali-aləm icab etdiyi vicdanı və əqli tərəqqiyə istedadları yoxdur. Bu qədər əsrlik fanatizm dəyirman daşının altında onsuz belə zəif olan ağılları əzilib yox olmuşdur. Bunların mədəniləşməsinə və bu vasitə ilə milli həyatlarını təmin edə bilməklərinə nəinki çalışan və bəlkə ciddi olaraq innən belə əbləh və nadan olmalıdır" deyələri təkzib edər.

Himmət ediniz qardaşlar!

Bir ili üçün yeddi manat, həftədə üç kərə öz dilimizdə dünya və mafihanın hal və əhvalını göstərən bir qəzet üçün çox bir şey deyil.

Müştərilərimiz əcələ edib, abunə paralarını idarəmizə göndərsinlər ki, təzə ildən qəzet almalarına səktə gəlməsin. Çün para gəlməsə qəzet mütləq kəsiləcək və hər müştəri kəndinə bir-ikisini də rəfiq edib paralarını kontorumuza göndərtsin.

Onda iş təbii yoluna girər.

"Şərqi-Rus", 31 dekabr 1903, № 115

ƏDƏBİYYATDA MƏSLƏK

(*Mənim mübahisəmə cavab*)

Əvvəlki gecə bir dostum ilə bərabər, çay içdiyimiz zaman cürbəcür maddələrdən söylədikdən sonra bəhsimiz ədəbiyyata rücu etdi. Müsahibim tacir olmaqla bərabər ədəbiyyatı çox oxuyan zatlardan idi.

"Ədəbiyyatda məsləki nə yolda tərəqqi edirsiniz və sizin xüsusi bir məsləkiniz varmıdır?"

Deyə dostum məndən sual etdi. Mən isə hifahən lazım olan izahatı verdikdən sonra dostuma vəd etdim ki, fikirlərimi qəzet vasitəsilə ərz edəyim. İştə icrayi-vədə müsariət ediyorum.

Hər adamın dünyada yaşamaq və keçinmək üçün birər məsləki, birər hərəkət təriqi olması mümkün ola bildiyi kimi üdəba sinfinin dəxi ədəbiyyatda namusu və vicdan dairəsində birər məslək ixtiyarı lazımdır. Hər millətdə mətbuat aləmində üdəbanın bir qisminin birər məsləki vardır. Bir qismin də heç bir məsləki yoxdur. Məsləksiz ədiblər icra elədikləri işin xalq üçün faydalı olub-olmamasına əhəmiyyət verməzlər. Yalnız bir həmkar, bir sənət sahibi

adam kimi bir iş görüb, bədəlinə ücrət alır, keçirirlər. Bunların bir tağımı zatən məsləkin nə olduğunu belə dərk etməzlər.

Məslək sahibi adamlara gəlincə bunlar da təbii iki növdürlər. Biri odur ki, tutduğunu məsləkindən heç bir vaxt inhiraf etməz.

Məsələn:

Mühafizəkar isə həmişə mühafizəkar qalır, hüriyyətpərvəranə isə həmişə hürriyyətpərvər qalır.

Bir növü də odur ki, məsləkində sabitqədəmlik göstərməz. Gah bu fikrə tərəfdar olur, gah o fikrə. Gah hürriyyətpərvər olur, gah mühafizəkar.

Məslək haqqında belə cüzi bir məlumat verdikdən sonra indi ədəbiyyatda kəndi məsləkimdən qonuşalım:

Mənim qəzetdəki məsləkim çox sadə, çox xeyirli bir yol göstərir. O dərəcə ki, ondan heç bir kəs xoşnudsuz qalmayacaq etiqadındayam. Millətimə məhəbbət və digər millətlərə də xeyirxahlıq göstərmək – mənim yazdığım bəndlərdə belə hərəkət etmişəm.

Məsələn, İrəvandan "Məşaq"-a A.D. imzası ilə yazılan iki məktubu tərcümə və o məktublardan birinin axırına əlavə və ərz etmiş olduğum kəndi mütaliəm, kəndi fikir və hissiyyatım ifadələrimə dəlildir.

Bəni-bəşər haqqında budur mənim məsləkim və belə olacaq həmişə.

"Şərqi-Rus", 8 iyul 1904, № 96

RƏDDİ-ŞƏRR VƏ FƏSADIN ARDI

"Panislamizmin mənəvi zərəri xristian-təbəəliyində olan müsəlmanlara odur ki, panislamistlər xristian dövlətlərini islam dininə düşmən göstərirlər və o səbəbdən müsəlman təbəələrini millətihakimləri olan xristian dövlətlərindən tövhiş edirlər. Halanki ədyana riayəti, özgənin din və ayininə qarışmamağı hamı avropalılar özlərinə müqəddəs bilirlər. Ondan əlavə panislamistlər Avropa mədəniyyətinə düşmənlik göstərib, Avropa dövlətlərinin müsəlman təbəələrini Avropa mədəniyyəti kəsb etməkdən geri salırlar. Amma bu əqidənin ən böyük zərəri dini siyasət mənafeyi üçün vəsilə ittixaz etməsidir.

Osmanlılar zəif olmuşlar. Öz məmləkətlərini özləri müdafiə edəmirlər. Çox hayıf. Qeyrət etsinlər. Avropalılar kimi onlar da məmləkətlərinin islahına çalışsınlar. Əşəddi-ehtimal odur ki, o surətdə onlar da məmləkətlərini öz qüvvətləri ilə saxlamağa qadir olurlar. Və illa bir hindistanlının Osmanlı səltənətinin bəğa və izmihlalına nə karı var?

Osmanlı səltənətinin dünyada bağı olsun və ya olmasın, ondan islamiyyətə zərər gəlməz. İslamiyyət on dörd əsrdir mövcud olub, getdikcə daima mötəqidlərinin sayı çoxalmaqdadır. Şimdi Almaniya imperatorunun rəvayətinə görə üç yüz milyondur. Bunun olsa-olsa bir 15-20 milyonu Osmanlıya tabedir.

Din davalarının vaxtı Avropada altı yüz ildir keçmişdir. Avropalılar Osmanlılar ilə heç vaxt din davası etməyəcəklər. Siyasi və ya ekonomi davaların isə dinə heç dəxli yoxdur. Əgər Xuda nəxastə Osmanlı səltənəti dünyadan qayıb olsa, Məkkə və Mədinənin mühafizəliyi Misir xədivinə keçəcək. Məkkəyə həcc etmək və Mədinədə peyğəmbərin qəbri-mütəhhirini ziyarət etmək əvvəlkindən olsun ki, daha asan və daha izdihamlı olacaq.

Müsəlman xilafəti katolik papalığı deyil. Xəlifə dinin ayin və ehkamı ilə uğraşmaz, dini heç bir vəzifə icra etməz. Xəlifəlik ancaq möhtərəm bir ləqəbdir. Əgər Osmanlı sultanlığında olmasa, Məkkə şərifinə və ya Misir xədivinə intiqal edər. İndi belə sultanın vücudu ilə Fas, yəni Marok sultanı özünə xəlifəlik ünvanı verir.

Bir sözlə, əgər panislamizm əfkarına təəccüb etməməli, türk qəzetini çıxaranlarda "Şərqi-Rus" mühərriri kimi Avropa fünun və fəlsəfəsi ilə fikirlərini tənvir edib, aləmi-siyasiyatda nəfsi-əmri xəyalatdan ayıracaq qədər əhli-zəkadırlar. Çün zəkavətli dərəcədə əhəmiyyət və hübbi-həqayiqləri var. Doğru sözü millətlərinin nicatı üçün söyləməkdən çəkinməzlər. Avamın bu söz naxoşuna gedəcək, qəzet az satılacaq.

Olsun. Nə olur? Para mənfəəti üçün millətinə yalan söz deyib, xalqı gümrah etmək halalzadə adam işi deyildir.

Haq quluq, halalzadəlik qalsın. Mal və dövlət gedərsə, böyük zərər olmaz.

Bizim əleyhimizə 78-ci nömrəsində yazdığı şərr və fəsadnaməsində "Tərcüman" bizə bu iftiranı nisbət verir:

Guya ittihadi-islam əqidəsi Rusiyada olan şiə və sünni əhalisini biri-birinə yaxınlaşdırmış imiş. "Şərqi-Rus" bunu sevmir. Günki fasid xəyalına görə, bu növ yaxınlıq rus dövlətinə görə müzirr imiş. Ona görə bu yaxınlığı şiddətlə təəyyüb edir ki, rus dövləti müsəlmanlardan xayif olsun. Ona görə müsəlmanlar ki, rus dövlətinə

xəyanət fikrindən çox şikəstəxatir olmuşlar. Lihaza onların "Şərqi-Rus"dan intiqamını almaqdan ötrü "Tərcüman xahinəxahi" "Şərqi-Rus"u rüsvayi-aləm eyləməyə iqdam buyurmuş.

Mən heç söz özümdən deməyəcəyəm və ona qənaət edəcəyəm ki, əvvəl "Tərcüman"ın sözlərini eynən nəql edib, sonra şiələr ilə sünnilərin münasibətlərinə dair həmin 162-ci nömrəmizdə dərc olan fəqərəni eynən nəql edəm. Hər kəs oxusun, insaf ilə söyləsin. Aya dünya yaradılandan bəri bir kəsin sözlərini Qasprinski tək mənim sözlərimi etdiyi kimi büsbütün tərsinə çevirib dediyinin tamamilə əksini söz sahibinə nisbət verən olmuş, ya yox!

Belə bir açıqdan-açığa, qıpqırmızı yalan, həm də müzirr və müfsid yalan söyləyən adamla nə növ mübahisə və mübadiləyi-əfkar olur?

Mən şəhadət verirəm ki, (La ilahə illəllah, Məhəmmədən rəsullah) Qasprinski qəzetində fransızlar dedikləri kimi "Tamam hürufla" basır ki, Şahtaxtinski deyir:

"Nə Allah var, nə peyğəmbər". "Tərcüman"ın sözləri:

"162-ci nüsxəsində "Şərqi-Rus" yalnız bəhs ilə iktifa etməyib, bilməm kimə, bilməm nə üçün müsəlmanlara qarşı şikva dərc etmişdir. Zaman ilə yekdigərinə əks olan əhli-şiə ilə əhli-təsənnü şimdi məhəbbət etmişlər. Hətta yekdigərinin cənazəsində bulunurlarmış (Bu da Rusiya dövlətincə nameqbul ittihadi-islam fikrinin səmərəsi imiş!)

Bu bizim qəzetəyə nə cavab verəlim?

Bir çox cənazələrə təsadüf etdik ki, vəfat etmiş bir Əhmədin arxasından təzimən məzarına qədər rus dövlətindən adamlar gedirdilər. Cənazələrə təsadüf etdik ki, vəfat etmiş bir İvanın arxasından məzarına qədər təzimən müsəlmandan bulunan aşinaları gedirdilər.

"Şərqi-Rus" məntiqincə bu dinsizlik və qövmsizlik "kosmopolitizm" olmaq iqtiza edir. Halbuki bunların həpisi asari-tərbiyə, nəzakət və mədəniyyətdir. Rusiya idarəsində yaşayan əqvamın hissiyyati-vətənpərvəranəsidir.

Bunu "Şərqi-Rus" bilirmi? Görmürmü?

Bilir. Amma rahat-rahat qələm çəkib taala maarifi-qövmiyyəmizə çalışacağı yerdə malı ürküdüb dağdan aşağı atdıracaq çoban kimi.

De öz icadi əlifbanı milli əlifba məqamına qaim etməyə.

De babilikdən dəm vurmaya.

De "İttihadi-İslam" ilə rusları ya ki, hökuməti ürkütməyə. Qeyrət ediz.

Alim Allah, biləmərik "Şərqi-Rus"çuların mətləbi nədir?"

Haman 162-ci nömrədə yazılan "Şərqi-Rus"un sözləri:

"Şiələrin mühafizəkarlarına və ya konservatorlarına mütəşərrein deyirlər. Bunlar bəşəriyyət aləminin fövqündə olan əimməyi-ətharə fəzail olduğuna mötəqiddirlər. Amma ondan ziyadə qülvi sözlərimiz şiələrin yüzdə səksənini mütşərreindir. Axır vaxtlarda İranda bir tərəfdən şiələri bir qisminin əimməyi-ətharın fəzayili barəsində olan qülvi və o tərəfdən də babilik kimi təzə məzhəbin və bəlkə dinin zühuru mətəşərreində, ələlümum sünnilərə nisbət bir növ dilxahlıq, bir növ təqərrüba arzu peyda etmişdir. Zəbani halla mütəşərre sünniyə deyir:

"Biz şiələrin aramızda zühur edən təzə əqidələrinizdən az uzaq görünməyir. Öz qülüvçilərimizlə xoş keçinməyə məcburuz. Nə üçün sizlə də hüsni-maaşirət etməyək? Vanqəhi ki, şiələrlə sünniləri irəliki vaxtlarda bir-birlərinə düşmən edən maddələrdən din əqidələri fərqindən ziyadə siyasi qərəz və təmayülatın etirafnapəzir olduğu idi. Həmd olsun bu siyasiyat aradan çıxmış. Sizin dörd məzhəbiniz var. Hər sünni özlüyündə qaim və sabit olmaqla bərabər o biri məzhəblərin salikləri ilə də xoş keçinir. Kimsəni təkfir deyil, təəyyüb də etməyir. Biz cəfərilər də nə olur ki, özümüzü sizə nisbət beşinci məzhəb hesab edib, biz də sizin xüsusunuzda həmin etirafpərvər əqidədə olaq ki, siz özünüz biri-birinizə nisbət varsınız".

"Ayin və əmali-din maddələrində vaxt mürur ilə məzhəblərin büruza gəlməsi labüddür. Dinin təsis vaxtından zaman uzaqlaşdıqca əmalın vaze din tərəfindən nə yolda icra olduğu xüsusunda təşəttüs və tənəvvüara çoxalır. Rəylər biri-birinə zidd olurlar. Dinin təsis zamanını bizim zəmanəmizə gətirmək və ya bizim zamanımızı o zamana qaytarmaq qeyri-mümkündür. Nə qalır?

O qalır ki, münazeyi-fih müsayil üzərinə üləma tətəbbö edib, rəy verələr.

Yəni məsələn imami-əzəm buyurur:

"Mənim tətəbböimə görə, namazı cənab peyğəmbər əbanəruzda beş vaxt qılardı. Hamısı biri-birindən ayrı. Biz də o yolda etməliyiz".

İmam Cəfəri-Sadiqin rəyi-şərifləri o olur ki, peyğəmbər (ə) bu beş vaxtı üç yerə də yığardı. Hər iki müctəhid dinin sütunlarındandır. Hər ikisinin sözündə həqiqətə mərkəz olmaq ehtimalı çoxdur. Millət nə yapsın? Peyğəmbəri vəfatından sonra görmək mümkün deyildir ki, bu iki sözün hankı mütləq doğru olduğu bilinsin. Labüda millət ikiyə bölünüb, biri Cəfəri, o biri Hənəfi olur.

Şiələr ilə sünnilər arasında bir fərq də var ki, nəzəridir.

Şiələr vilayəti, yəni əimməyi-əthanın mövrisən və bilafəsl xilafətini və din işlərində hüccəti-mütləqə olduqlarını dini-islamın labüd cüi hesab edirlər. Bu əqidə sırf mənəvi və vicdani bir iş olub, heç bir ayin və ya ehkam bundan çıxmır ki, şiələri sünnilərdən ayırsın.

Bu səbəblərə görə sünni qardaş!

Dost olaq, qardaş kimi keçinək. Siz məzahibi-ərbəənizdə, biz də öz Cəfəri məzhəbimizdə qala-qala".

"Bu etilafpərvər, mədəniyyətamiz, simpatik və dilnəvaz cünbüş bizim Zaqafqazda axır vaxtlarda çox tərəqqi etmişdir. Tiflisdə iş o hala gəlmişdir ki, bərabər labüdən sünni üləmasını da dəvət edirlər. Məmləkətin adətinə görə, üləmaya əhli-təziyə həqqi-zəhmət təqdim edir. Hər iki məzhəbin üləmasına rütbə və yaşlarına görə para təqsim olunub, ayrı seçki əsla araya gəlməz".

Xətmi-kəlam üçün ikicə söz:

Məmmədağa Şahtaxtinski şiələr ilə sünnilərin xoş keçinənlərinin ən əvvəldəki zümrələrindəndir. Əmim oğlu İsasultan Şahtaxtinski ki Qars qubernatorunun konservatoriya provotil idi, Tiflisdə vəfat etdi. Sünni üləması xüsusi dəvətimizə görə təşyi-cənazəyə təşrif gətirdiklərindən maəda qəbiristanda mövlana müfti lahəqq Hüseyn əfəndi Qayıbov həzrətləri bir nitqibalığ buyurub, mərhumun vəfatına izhari-təəssüfi-ümumi buyurdular.

Rus dövlətinə hamı dövlətlər kimi xoş gəlməz ki, İstanbul siyasi müəlliğləri rus təbəəsi olan müsəlmanları süni və İslama dəxli olmayan bir panislamizm naminə Osmanlı padşahının siyasi nüfuzu altına almağa çalışsınlar. Və illa siyasətdən azad olan müsəlmanların sırf dini və məzhəbi əqayid və əfkarı ilə Rus dövlətinin heç işi yoxdur.

Məsələn, sünni və şiələrin biri-birinin dəfninə getməklərini rus məmurları yüz ildir görürlər. Nə vaxt mane oldular? Nə vaxt bir bəhs etdilər?

Bu növ kiçik-kiçik əfkarı Rus dövləti kimi cahanşümul bir politika tutan böyük hökumətə nisbət vermək nə qədər cəhalətdir. Polkovnik Abdulla ağa Bakıxanov cənazəsində böyük knyaz Mixail Nikolayeviç bizzat hazır idi. İki il bundan irəli vəfat edən general-leytenant Hadibəy Novruzovun təşyii-cənazəsinə fərmanfərmanın müavini general Freze təşrif gətirmişdi. Hər iki təşyidə sünni və şiə üləma və cəmiyyəti birlikdə hazır idilər.

"Şərqi-Rus", 9 oktyabr 1904, № 188

"HƏR GÜN BİR AZ" – SİLSİLƏ MƏQALƏLƏR

HƏR GÜN BİR AZ

Biz müsəlmanlarda tərəqqi fikri yoxdur. Cəmiyyəti, yəni (sosial) ibarət olmaq üzrə tərəqqi ondan ibarətdir ki, bir millətin, bir qövmin, bir cəmiyyətin hamı əfradının əhvalı irəlikisindən yaxşılığa, yəni fürəqa, zəngin, alim, cahil, uşaq, böyük, dövlət qulluqçusu və ya öz-özünə məşğul olan şəxsi, adamların hamısını hiss edirlər, feli və həqiqi dəlillər ilə və yəqin edələr ki, bu gün dünəndən, zamani-hal zamani-mazidən daha rifah hal ilə yaşayırlar. Bu tərəqqi, xüsusilə dövlətlərin beynəlmiləl münasibatında görünür. Hankı dövlətin əhalisi tərəqqi etdi, yəni xoşgüzəranlıqda, rifah halında rövnəq və pişrəft oldu, o dövlətin xahişlərinə, mütalibələrinə dövlətlər içində artıq riayət göstərirlər.

Bu ümumi tərəqqi ol zaman hüsula gələ bilir ki, millətin əfradının hamısında təbii o əqidə ola ki, "mənim öz xoş güzəranlığım, içində yaşadığım camaatın xoş güzəranlığına bağlıdır. Özümü və əyalımı və mütəəlliqatımı xoşbəxt görmək istərəmsə, ümumun rifah halı nəyi icab edərsə, ona canü dil ilə çalışmalıyam".

Bu hiss şimdiki vaxtda Avropa millətlərinin hamısının qəlbini doldurub, camaatı işlərdə onların ən qəvi müəhərriki, Avropa cəmiyyətlərinin həqiqətən ruhudur.

Bəli, avropalılar ki, ağıl və idrak və məsai sayəsində dünyanın hamısına sərxeyl (başçı) olmuşlar. Rəvaclarının əsas ruhu həmin bu əqidədir ki, insan öz xoşbəxtliyini mütəəlliq olduğu qövmin xoşbəxtliyində aramalıdır.

Avropa qövmlərinin əfradı ümumun xoşbəxtliyinə çalışa-çalışa özünü və özləri ilə bərabər tamam millətlərini xoşbəxt edib, tərəqqini vücuda gətirmişlər. Tərəqqidən xoşlanıb, bundan belə bu tərəqqi üçün daima çalışmağı özlərinə daimi məşğuliyyət və həm sevdikləri və təğdis etdikləri məşğuliyyət etmişlər.

İspaniyada olan Əndəlus müsəlmanlarının şimdiki avropalılarda olan tərəqqiyə bənzər bir halətləri olduğunu tarix göstərir. Amma ondan başqa özgə müsəlman məmləkətlərində bir camaatın əfradı camaatlarının xoş güzəranlığını özlərinə məqsud edib, özlərinin güzəranını irəlikisindən uca bir mərtəbəyə qaldırıb, sosial və ya cəmiyyəti tərəqqi hüsula gətirdikləri görünməyir.

Səbəbi odur ki, biz müsəlmanlar paxıl, həsud, bədxah, bədbin bir millət olduğumuzdan öz xoşbəxtliyimizi həmcinsimizin rifah və səadətində yox, bəlkə onu çürütməkdə, müzməhil etməkdə ararız. Bizdə hübbi-vətən yerinə büğzi-vətən, millət dostluq əvəzinə öz millətimizə düşmənçilik var.

Bu hissiyyat bizdə olduğu halda biz öz camaatımızı nə növ ilə rifah hala yetirə biləriz ki, cəmiyyət tərəqqisi vücuda gəlsin?

Tərəqqini nə görmüşüz, nə tanıyırız və nə fərzi-mahal görsək razı və xoşnud oluruz. Tərəqqi həm millətə məhəbbətdən çıxar. Biz həmmillətimizi sevməyiriz ki, tərəqqi vücuda gətirə bilək.

"Şərqi-Rus", 13 iyun 1904, № 72

HƏR GÜN BİR AZ

Bu halkı halda Berlində beynəlmiləl xanımlar kongirəsi müşavirə etməkdədir. Mədəni millətlərin hamısının tərəfindən vəkil və ya vəkilə seçilib, elmli, kamallı, dünyaşünas həmcinsimiz olan insanların cəmiyyətcə olan zəruratına müqəyyəd olan xanımlar dünyanın hər tərəfindən Berlinə yığışmışlar. Berlin və Almaniya xanımları isə sahibxana olub, xaricdən gəlmiş bu xanımları dəvət edib, imdi onlara mehmannəvazlıq edirlər. Mehman və sahibxana, qonaq və qonaqçı kongereçi xanımlar böyük bir məclis, bir şurayi-millət, bir məsləhətgahi-insaniyyət təşkil edib, arvad təəllüqü olub (aid olub) müzakirə olunacaq məsələlərin sayına görə kongereni şöbələrə təqsim eləmişlər.

Kongereçi xanımlar hər kəs öz elminə, səliqəsinə və qəlbi həvəsinə və ya bu şöbələrin üzvləri arvadlara təəllüğü olan məsələlərdən şöbələrin hamısının əzaları (üzvləri) cəm olduqları məclisdə nitqlər söyləyirlər. Nitqdə nitqlə cavab verilir və bir füsahətpas surətdə mübadiləyi-əfkar hüsula gəlir. Zamaniki hər məsələni tamam təfərrüatı lazım olan qədər kəşf olundu, bu məsələnin nə yolda həll olunması arzu olunduğu xüsusunda tamam kongre tərəfindən bir rəyi-ümumi verilir.

Xanımların məsləhətxanalarının qapısı camaata açıqdır. Hər kəs bu fazilələrin nitqlərini və verdikləri qərarlarını istima edə bilər.

Xanımlar ümdə bu məsələlərdən bəhs edir:

1) Arvadların təlim və tərbiyəsi;

2) Arvad səyi və əməli, arvadların dünyada vəzifələri;

3) Arvadların camaat içində olan haləti;

4) Arvadların mədəniyyə və siyasətcə olan hüququ.

Arvadların elm və tərbiyəsi barəsində cərəyan edən müzakiratdan zahir oldu ki, Avropanın bəzi yerində, xüsusən Amerikada arvadlara ülum və fununun cəmi şöbələrilə məşğul olmağa müsaidə var və arvadlar bu müsaidədən istifadə edib. Felən sabit etmişlər ki, ülum və fünuna istedad arvadlar da heç vəchlə kişilərdən az deyildir.

Həkimlik, advokatlıq, teleqrafçılıq, mainistlik, dövlət sinonimliyi kimi bir çox məşğuliyyətlərdə arvadlar bu halkı halda xidmət edirlər. Axır vaxtda isə Amerikada arvadlar vaizlik rütbəsini dəxi qazanmışlar.

Bir amerikalı vaizəsi ki, protestant dininə mütəəlliqdir bu günlərdə Berlinin ən məşhur kilsələrinin birində kamali-şəşəə və müvəffəqiyyətlə vəz etməkdədir.

Kongresçi xanımların rəyi o idi ki, arvadlara parlament intixabları üçün siyasi və şəhər idarələri üçün mülkiyyə (qrajdanski) hüququ verilməlidir. Amma konqre o rəyi-qətidə oldu ki, arvadlara hər yerdə, hər dövlətdə siyasi hüquq verilməyin vaxtı daha gəlməmişdir. Çün arvadlara bu imtiyazı vermək üçün kişilərin mədəniyyət dərəcələrini nəzərə almaq vacibdir. Əgər kişilər nimmədənidirlər, onlar arvadların kişilərlə həmhüquq olmalarından məmləkətin məmurluğuna, mənəvi və zahiri tərəqqisinə varid olacaq xeyir və bərəkətin, feyz və ehsanı qədərini anlamayıb, arvad müsavatına düşmən olurlar ki, bu surətdə arvadların kişilərlə həmhüquqluqlarından nifaq və şəqaq çıxar.

Gərək əvvəl işləri insanlandırmaq, sonra arvadlar ilə kişiləri həmhüquq etmək.

Bizim müsəlman arvadlarına nisbətən Avropa arvadlarının bu qədər çox imtiyazları olduğu halda Avropa arvadları yenə öz halətlərinə qane olmayıb, daha ziyadə hüquq alıb, kişilərlə müsavi (bərabər) olmağa çalışırlar. Madam ki, mədəni və maarifməndə millətlər arvadların hürriyyətinə və hüquqca musavatına bu qədər əhəmiyyət verirlər. Biz şərqilərdə arvad məsələsinə əhəmiyyət verib, əhli-nisamsızın şimdiki halda haiz olduqları halətin millətimizin səadətinə müzirr və ya nafe olduğuna dair ciddi və istiqamətli tətəbbüata girişməmizin aya vaxtı gəlməmişmidir?

"Şərqi-Rus", 15 iyun 1904, № 74

Dünyada yaşamaq çox çətin işdir. Dünyanı insanların təəşşisi üçün yaratmışsa da, yer üzünü insanların mərfəülhal yaşada bilmək balətinə gətirməyi cənabi-həqq insanların özünə həvalə etmişdir. Dövradövrü (ətrafı) hamı cəhətdən bir neçə verstdən ibarət olduğu halda səy və əməl sayəsində ingilislər (London) şəhərini o dərəcəyə gətirmişlər ki, orada beş milyondan artıq əhali kamali-xoş-güzəranlıqla yaşayırlar. Bizim Zaqafqaziyadakı Muğan səhrasında isə bir neçə London yerləşdirmək mümkündür ki, hamısı xali və insan cinsimizin təəşşisi üçün nəf və səmərsiz bir halətdə durur. Səbəbi odur ki, London əhalisi mədənidirlər. Dünyada yaşamaq sənətini bilirlər, bir-birlərini sevirlər. Hankı sənətdən çörək qazanılacağını öyrənmişlər. O sənəti gözəl təhsil edib, onu işlətmək üçün lazım zəhməti kamali-rəğbətlə boyunlarına götürürlər. Məmləkətləri nə ilə məmur olacağını yenə bilirlər. İcadına isə onu əmələ gətirməyə hamısı birlikdə yekdil və yekcəhət olaraq çalışırlar. Allah da bu qədər hüsni-niyyətə, səy və israrə xeyir və bərəkət verib. İş oraya gəlmişdir ki, bir şəhər beş milyon xoşbəxt can üçün məgər və məişətgah ola bilmişdir.

Muğanın ətrafındakı əhali isə tənbəldir, biri-birini sevməz. Millətdustluqdan, qövmpərvərlikdən xəbəri yoxdur. Bəhayim kimi təəqqül və təfəkkürsüz, özünün insani borcunu anlamaya-anlamaya yaşayır. Dünyanın insanlara şad və xürrəm yaşaması üçün məgər və mənzil olması nəyə vabəstə olduğunu nə bilir və nə məqamitətbiqə qoyur. İnsan olduğu və layəmut ruha sahib olduğu halda heyvan kimi yaşayır. Ya doğrusu ot və ələf kimi göyərir, böyüyür. Sonra solub, məhv olub gedir. Onun üçün də Muğan xaraba qalır.

Yevropalılar dünyanı insani mərfəülhal yaşada bilmək halına gətirməyə mədəniyyət deyirlər ki, biz müsəlmanların nöqteyinəzərindən baxılsa, bu mədəniyyət və ya dünyanı insanlar üçün xoş güzəran sürülməli bir hala gətirmək hamı yevropalıların, hamı mədəni millətlərin ümumi deynidir.

Bəli, ən dərin etiqadla inandığımız və ən ziyadə ehtiramla təğdis etdiyimiz əqidələrə biz müsəlmanlar deyn deyiriz. Yevropalılar üçün bu yolda olan əqidə isə həqqa ki, bu tərif etdiyimiz dünyanın imranın vücubu əqidəsidir.

Bu dünya imranını avropalılar həm sevirlər və həm özləri üçün bu sevgini müqəddəs bir vəzifə bilirlər.

Bizdən irəlikilər dünyanı abad elədilər. Onların məsaisinin (çalışmalarının) səməri olaraq biz mərfəülhal yaşayırız. Biz bu abadanlığı, bu rifah halı, bu xoşgüzəranlığı daha artırmalıyız ki, bizdən sonra gələnlər bizdən daha xoşbəxt yaşayıb, özlərindən daha xoşbəxt yaşayan övlad yetişdirmək üçün lazım olan vəzifə və səbəblərə malik olsunlar. Bu imran və rifah hal bilatətil davam etməlidir ki, bir gün olub dünyada yaşamaq behişt kimi pürləzzətli olsun. Tainki felən cənabi-həqq insanın maddəsində nə qədər cahanı məmur etməyə qoyduğu qüdrət zühura çıxıb, insan ömründən həqiqətən ləzzət alıb, nə olduğunu qansın və ona görə Allahına şükür etsin.

Yevropalıların deyni budur ki, həqiqətən xoş səmər insanlara artıq mərtəbə nəfli, hər cavanmərd adamın qəlbini, ruhunu cəzb edəcək ali və ilahi bir əqidədir.

"Şərqi-Rus", 16 iyun 1904, № 75

HƏR GÜN BİR AZ

Biz türk və tatarlar nimmədəni bir millət olub, mədəni millətlər içində yaşayırız. Mədəni millətlərdə təbii o xassələr var ki, özlərindən mədəniyyətləri az olan millətlərin elm və maariflə ziyalanmayan səy və əməllərini öz mənfəətlərinə sui-istemal, bunları bir növ alət və ya əl heyvanı halətinə gətirirlər. Elmsiz səy və əməlin gücü, məşəqqəti çox olur, mənfəəti az olur. Ona görə nimmədəni millətlər çox işləyib, az nəfbərdar olduqlarından gedə-gedə əzilib, puça çıxıb, məhvə və müzməhil olurlar.

Cinsimizi, qövmimizi dünyada saxlamalıyız. Ona görə mədəni qonşularımızdan mədəniyyət öyrənib, onlar kimi ağıl və idrakla yaşamalıyız.

Hər qövmin öz xassəsi var. Hər məmləkətin, hər iqlimin xüsusi əhval və icabatı var. Amma mədəniyyətin fənn və maarifin elə ümumi cənbərləri, maddələri vardır ki, cəmi millətlərə şamildir. O maddələri, o cənbərləri biz türklər də alıb, qövmimizin təbiəti-məxsusəsi və ağıl və idrak tərəfindən qəbul olunacaq və mədəniyyəti-hazirə canibindən haiz görünəcək. Əxlaq və adatla müvəzzəc edib,

mədəni türk təisi hüsula gətirməliyiz. Və illa (əks halda) nimmədənilik bu mədəniyyətdən, elm və maarifdən kənar girlənmək bizim milli vücudumuzu dünyadan məhv edib, nəslimizi cahandan müzməhil edəcək. Qövmimizin həyatı üçün, nəslimizin bəqası üçün cəhadi-ürfan (irfan), müharibəyi-elm və fəzl etməliyiz. Əgər maarifli müsəlmanlarda bir az himmət, bir az qəlbən qövmlərini, həmcinslərini sevmək olsa, bu vəzifəyi-müqəddəsə artıq asan bir işdir.

Qonşularımızın əhvali-hazirələrini öyrənib, bunun müqəddiməsi olan əhvali-maziyələrinə ittila kəsb etməliyiz. Mütləq bir gün var imiş ki, onlar da bizim bugünkü halımızda imişlər. Onlar o vaxtlarından bəri nə yolda müamilə etmişdilərsə, biz onu öz təbiət və qövmiyyətimizin xassələrinə tovfiq edərkən təqlid etməliyiz.

Millətlərin ustadları, rəhbərləri yenə millətlərdir. Bu yöndə davam etdirsək, inşallah tezliklə müvəffəqiyyət hasil olur.

Unutmayalım, Yevropa şərqşünasları ki, türklərin tarixini, əsil və əsasını tədqiq etmişlər, hamısının rəyi odur ki, aləmi-tarixə qədəm qoyduqları gün belə türklər mədəniyyətə fövqəladə müstəid olduqlarını əməlləri, niyyətləri və arzuları ilə göstərmişlər.

"Şərqi-Rus", 18 iyun 1904, № 77

HƏR GÜN BİR AZ

Rusiyada yaşayan millətlər arasında biz türk və tatarların maarifimizin, mədəniyyətimizin hamıdan əskik, hamıdan kifayətsiz olduğunu bizim öz içimizdə bilənlərin sayı çox-çoxdur. Qüsurunu, eybini bilənlər nöqsanlarını ikmala çalışırlar.

Burası qaydayi-külliyyədir. Əgər biz fəal, iqdamlı, çalışqan bir millət olsaydıq, böyük-böyük təşəbbüsat və müamilat bizim bu nöqsanımızı anladığımızdan çıxara bilərdi. Necə ki özgələrindən çıxarmışdır.

Məsələn: Otuz il yoxdur ki, yaponlar özlərinin başqa millətlərdən ayrı və məhşur kimi yaşamaqlarının özlərinə eyib olduğunu anladılar. Bu az müddətdə həqiqətən möcüzə sayılmağa şayan bir surətlə, bir nadidə səbat və israrla elmdə, fəzldə, iqdamda, əxlaqda özlərini mədəni millətlərə yetirib, bəlkə bir çoxunu keçib, mükəmməl mədəniyyətlə yaşayan, dünyada behişt ləzzəti görən mədəni millətlər ailəsinə, xanəvadəsinə yaponiyalı adlı bir təzə üzv artırdılar.

Yaponiyalılar uzaqdırlar. Qonşumuzu götürəlim. Otuz ildən bəridir bunlar Asiya üsulu ilə yaşamağın qədr və qiymətdən düşdüyünü anladılar. Yevropa üsulu yaşamağa başladılar. Şimdiki halda təmayülatları, cəmiyyətə aid fikirləri, təəyyüşlərinin (yaşayışları) surəti və şivəsi, elm və fəzlləri, öz-özlərini sevmələri hamısı yevropalı olmuşdur ki, bu halki-halda onlar asiyanəşin yevropalı bir qövmdirlər, bir nasiyondurlar. Halanki Sultan Mahmudun, Rəşid və Midhət paşaların məsailərinə rəğmən osmanlılar avropalılaşmaq istəmədiklərindən yevropanəşin asiyalı bir qövm halətində qalmışlar. Heyf, səd heyf!

Amma çün bizdə iqdam yoxdur, məsaiyi-aliyyədən nişan qalmamış. Elə ki, hal-hazırdakı türkləri görəndə insan təəccüb və heyrətdə qalır ki, aya belə niyyət və məqasidlərində süst və zəif olan millətin içinə necə olmuşdur ki, Teymurləng kimi, Çingizxan kimi, Əkbər şah Hindi, Sultan Məhəmməd Fateh, Yavuz, Sultan Səlim kimi dünyanı bir neçə dəfə hökmlərinə ram edən cahangirlər gəlmiş? Bu səbəbdəndir ki, nöqsanımızı ikmala çalışacağımız yerinə cəhalətimizi, zəbunluğumuzu biri-birimizin üzərinə atıb, ixtiyar (qoca) arvadlar kimi qeybətçilik ediriz. Ən sevdiyimiz qeybət isə ülamalarımızın bədguluğudur.

Məktəbimiz yoxdur, ədəbiyyatımız yoxdur, sənətlərdə pəsmandəyiz, zəmanənin icab etdiyi yüksək və müğləq ticarətdən xəbərimiz yoxdur. Neçə yüz ildən bəri yevropalıların cəmiyyəti-bəşəriyyənin surəti-təəyyüşinin hər bir şöbəsində hüsula gətirdiyi böyük-böyük islahatdan ki, insanlar üçün böyük-böyük xoşbəxtliklərə səbəb olmuşdur, xəbərimiz yoxdur.

Həqiqətən bir (bəda) vaqe olmasaydı, Şahtaxtlı Məhəmməd adlı bir cahangərd Parisə gedib, orada xəmirəsini millətdustanə tərbiyə edəndən sonra məmləkətinə gəlib, var-yoxunu satıb, bizə bir qəzet təsis etməsəydi, dünyada nə olduğundan, nə əhvallar güzəran etdiyindən xəbərimiz belə olmayacaqdı.

Bunun hamısının günahı kimdədir?

Ülamamızda, əlbəttə ülamamızda. Bunlar dinimizi, axirətimizi, ölümümüzü, orucumuzu, namazımızı, Quranımızı, təfsirimizi unutmamalıdırlar. Bizim üçün mexanika, fizika, tematika, filan fənlər öyrənib, bizə təzə elmlər tədris etməlidirlər. Əqaidi-diniyyədən daha çox avropalıların sosial (cəmiyyəti) ülumunu bizə öyrətməlidirlər. Nə üçün? Çün onlar alimdirlər. Hər şeyi bilməlidirlər. Yox, qardaşlar, dünyanın elmi heç bir sinfin malı deyildir. Hamıya

təəllüqü var. Özgə millətlərdə olduğu kimi bizim üləmamız da din və axirət işləri ilə məşğuldurlar və olmalıdırlar. Çün insanları axirət fikri daimən müqəyyəd edir. Ona görə insanın axirətdə kəsbi-səadət etməsi üçün nə lazımsa, onu dünyada hasil etməlidir. Bu xüsusda din və axirət işinə vaqif olan üləmanın ehtimamı ilə olur ki, bu vəzifələrini ifa üçün üləma hər nə qədər vaxtları varsa sərf etsələr, yenə bəlkə öz işlərini lazımi vəchlə görmüş olacaqlar.

Axirət kargüzarları olan üləmadan dünya işini ummaq sərapa (başdan-ayağa) qələt (səhv) bir arzudur. Dünya işlərimizi dünya alimlərimiz yapmalıdır ki, bu qism alimlərin heyətinə yevropalılar "intelligensiya" deyirlər.

"Şərqi-Rus", 19 iyun 1904, № 78

HƏR GÜN BİR AZ

Millətlərin irəli getməsinin səbəbləri vasitələri o maarif ərbabıdır ki, onların heyətinə ruslar "intelligensiya" deyirlər. Hər millətin zamanın icabına görə bir milli məqsədi olur. İntelligensiya (ziyalılar) o məqsədi anlar və ona vasil olmaq üçün lazım olan əsbab və vəsilələri hazırlar.

İntelligensiya millətin ən nüfuzlu sinfindən, sözləri millətləri tərəfindən ən ziyadə eşidilən təbəqələrdən çıxar.

Bizim millətimizin içində ən ziyadə nüfuzlu sinif ikidir: Biri üləmadır, o biri nücəba.

Üləmanın dünya işlərinə uğraşmayacağını biz keçən gün söylədik. Nücəbamız isə bizim Zaqafqaz məmləkətində qövmimizin, cinsimizin, millətimizin dərdi ilə çox az müqəyyəddir. Bizim nücəbamız xanlar vaxtı və İran səltənəti zamanında məmləkətlərimizdə idarə etmiş əsli və irsi məmurların, xan müqərriblərinin, xan əmələlərinin varisləridirlər ki, irəli zamanlardakı sinfi adətlərini və millətə və əhaliyə görə olan rəylərini və nəzərlərini şimdiyə kimi saxlamışlar. Bunların işi əhalinin dərdinə dərman etmək deyil, bəlkə əhaliyə əllərindən gəldiyi qədər cəbr və zülm etməkdir. Əgər heç olmazsa təkəbbür və qürurfüruşluq edib əhlüllaha həqarət nəzəri ilə baxmaqdan qəddaranə və insaniyyətşikənanə ləzzət almaqdır. Bizim bəylər-xanlar hara, öz millətlərini cəhalət və zəbunluqdan qurtarmaq üçün para və məsai sərf etmək hara!

Nəzəri və qanuni olaraq şəriəti-islamiyyə müsəlmanlar arasından qul alıb-satmağı götürdü. Amma bizim qəddar əxlaqımız insaniyyətpərvər dinimizin rəğminə olaraq əsarəti felən İran və İrandan müştəq Zaqafqazın müsəlman əhalisi içində şimdiyə kimi vəqayə etmişdir.

Bizim nücəbamız əhaliyə dost deyil, əhaliyə zülm və sitəmdən ləzzət alan mədəniyyətə uymayan nahəmvar bir məxluqdur.

Hamı ümumi qaydalarda şad olduğu kimi bizim nücəba içində dəxi gah-gah, nüdrətən millətlərinə xeyirxah və ümumi maarifi sevən adamlar bulunur. Amma bir gül ilə bahar olmaz.

Baharımız ol vaxt olur ki, millətimizin maarifli qismi öz vəzifəsini millətimizin içində maarifi, elm və ədəbi və Avropa üsulu təəşşi təmimdə görüb, var qüvvətilə bunları millətimizin içinə idxala sərf edə. Bu baharımız, zənnimcə, ol vaxt başlana bilər ki, Asiya zülm və istibdadın varisləri olan şimdiki nəfsiz və millətə əziyyəti çox olan nücəbamız qismindən nüfuz və iqtidar tüccar (tacirlər) sinfinə keçə ki, ziyalılarımız bu son sinifdən çıxa.

Həmd olsun ki, bu səmərəli təhəvvül hüsula gəlməyə başlamışdır.

Bakı şəhərində müsəlmanlar içində şimdiki halda sərvət, nüfuz və sözü keçənin nücəbadan tüccara keçmişdir.

"Şərqi-Rus", 20 iyun 1904, № 79

HƏR GÜN BİR AZ

Cəmiyyətlərinin xeyir və məsləhəti üçün yevropalıların bu qədər sərfi-məsai eyləmələrinin badı və mühərriki yevropalıların yəğinlikliləri ona olduğunadır ki, bizim olan iqdamat və məsai əmələ gətirilsə, bəni-növi-insan öz-özünü istədiyi bir yerə yığılması lazımdır. İnsanlar əl-ələ verib hamısı ümum mənfəətini havi olan məqasidə can və dil ilə çalışmalıdırlar. Ən incəliklər yevropalılarda biz şərqilər kimi cəmiyyət tərəqqisinə çalışmadığı kimi belə bir ibarənin nə mənası olduğunu belə bilməzdilər. Bunların cəmiyyət işlərini təhqiq və tədqiqi miladı on səkkizinci əsrin əvayili ilə başlanır. Amma bu əsrin axırına doğru yevropalıların hamısının əqidələri o oldu ki, bu dünya insan cəmiyyəti yaşamaq üçün pək gözəl bir məkandır. Bu şərt ilə ki, insanlar təsəvvür və feldə, əql və əməldə azad olub, həmcins-

lərinin səadət və rifahi-halı üçün hər nə ki, fikrən nəfli və səmərəli bilsələr, felən onu icra eləmələrinə kimsə manc olmasın.

Əz cümlə on səkkizinci əsrin axırlarında insanların siyasi cəmiyyəti və ələlxüsus əqayidi-əhvalının görünməmiş və təsəvvürə gəlməmiş bir cəsarətlə altdan üstə çevirib, büsbütün dəyişmək üçün böyük bir həngamə vüqua gəldi ki, ona inqilabi-kəbir deyirlər.

Almaniyanın ən məşhur şairlərindən olan Qlobstoq müasiri olduğu bu inqilabi təmcidlə deyir:

"Ancaq şimdi insanlara sabit oldu ki, insanın nicatı öz əlindədir".

Biz şərqilər bir camaat öz-özünü öz qüdrətilə yaxşılandırıb, xoşbəxt edib, məsud etməsinə inanmiyoruz".

Bizim əqidəmizcə cəmiyyətlər yox, bəlkə nüdrətən zühur edən sahibxüruclar cəmiyyətlərin, məmləkətlərin, dövlətlərin əhvalını dəyişdirə bilərlər. Cəmiyyətin əhvalının təhvilini öz əlimizdə bildiyimizdən ötrü əlbəttə ki, biz özümüzdə cəmiyyətimizi tərəqqiləndirməyə də qüdrət görürüz. Bizdə tərəqqi fikir nərədən olsun? Amma bu tərəqqi fikir olmazsa, aşkardır ki, bizim içimizdə əhli-xəyyir camaat iş ilə uğraşmaz. Çün hər kəs öz-özünə deyəcək:

"Madam ki, mən bir cəmiyyətə yaxşılıq edəcəyəm, onun dərdi ilə başımı nafilə yerə nə üçün ağrıdım?"

Əgər bizim millət dost, əhli-qələmimiz camaatımıza həqiqətən xidmət etmək istəyirlərsə, ən əvvəl camaatımızda o fikrini oyatmalıdırlar ki, insan camaatı əxlaqca olsun, əfkarca olsun, daima təhəvvül və təbəddüldədir.

Lateğyirlik Allah sifətidir. İnsan üçün namümkündür. İnsanlarda tənəzzül olursa, daha asan tərəqqi olur. Bu fikri təsdiq üçün şahidlər isə əhvali-hazirədən və tarixi-cahandan gətirmək pək asandır. Vəqta ki, bizdə cəmiyyətlərin tərəqqimədar olduğuna və bu tərəqqini hasil etmək bizim öz əlimizdə olduğuna inandıq. Yəqin o biri millətlər kimi biz də camaatımızın tərəqqisinə xidmət ederiz.

Öz millətini, öz həmcinsini, öz övladını kim sevməz?

"Şərqi-Rus", 23 iyun 1904, № 82

Mədəniyyət ilə diyanəti biri-birilə qarışdırmaq kimi cəhalət olmaz. Diyanət Allah xüsusunda, axirət xüsusunda və axirətdə nicat bula biləcəyi üçün dünyada insanın nə yolda müamilə etməyi xüsusunda bir əqidəyi-müəyyənədir ki, onda həmdin olanların hamısı şərikdir.

Diyanətin məkanı insanın vücudunda ağıldan artıq qəlbdir, ruhdur, vicdandır. Vücudi-bariyə ən dərin inananlardan biri məşhur fransız filosofu Jan Jak Russo deyir ki:

"Açıq bir səhraya çıxıb ətrafıma, yerə-göyə baxanda xaliqi-kainatın vücuduna qəlbim, ruhum o qədər mükəmməl və tam surətdə iman edir ki, məndə şəkk və şübhədən rəməq qalmadığı üçün Allahın vücudunu özümə isbat etmək üçün məndə heç halət qalmır".

Bizim üləmayi-İslamiyyədə həmişə əsil iman ona deyirlər ki, (ləm-ləmə)-yə, təəqqül və təfəkkürə ehtiyacı olmayıb, özlüyündən, birdən insanın ruhunu, vicdanını, elmi-mənəvisini doldura. Ona görə diyanətin təkyəgahı ağıldan, tətəbbədən, istintacdan ziyadə hissiyyatdır. İnsanın ruhunda öz-özündən həkk olunan o əqidəyi-təbiyyədir ki, insan məxluqdur və bunun bir xaliqi olması vacibdir.

Mədəniyyət isə o məsainin ümumiyyətinə deyilir ki, insanlar onların vasitəsilə cahanda yaşamaqlarını əvvələn təmin və sonra mərğüb və müstəhsən edirlər.

Mədəniyyət diyanətdən büsbütün ayrı şey olduğundan hər kəs üçün, hər nasiyon üçün öz dininin xaricində olan mədəni qövmlərdən, nasionlardan mədəniyyət iqtibas etməkdə heç manc yoxdur. Mən müsəlmanam. Yəni Allah və axirət xüsusunda müsəlmanlara məxsus əqidə və hissiyyatdayam. Olayım. Amma bunun ona nə mancliyi ola bilər ki, mən evimi fransız memarlığına tətbiqən yapdırıb və ya rus yapdığı dəmiryola minəyim? Yainki rusların borşunu türklərin bozbaşına tərcih verəm.

Maddiyyatda deyil, mənəviyyatda dəxi müsəlmanlar heç vaxt qeyri-İslam dinlərində olanların kamalatının məhsulatından bəhrəvər olmaqdan istinkaf etməmişlər.

Qədim yunanlıların ki bütpərəst idilər, filosoflarının, ədəba və hükəmasının əsərlərini tərcümə və təfsir edib, onlara ya təqlidən və ya əfkarlarını tövzihən bu qədər asar yazanlar ərəblərdir.

Yunan hikmətini yevropalılar əvvəl ərəblərin tərcüməsindən öyrənib, yüz illər sonra əsil yunan lisanına müraciət etmişlər.

Harunərrəşid qeysəri-Rumdan bir filosof istədi ki, Bağdada gəlib hikmət tədris etsin. Qeysər rədd elədi. Xəlifə əmr etdi ki, qoşun hazır olsun. Rum imperatorluğuna hücum edib, qeysəri xəlifənin əmrinə müti etsin.

Əcdadımız qanlarını tökürdülər ki, xaric dinlərdə olanların əfkarını öyrənsinlər. Biz isə tənbəlliyimiz, yaramazlığımızın adını əstəğfürulla tədris və tədəyyün qoyub, özgə millətlərdən ürkürüz.

"Həme əz pain be bala miroftənd, mən əz bala be pain mirəvəm"[1].

"Şərqi-Rus", 26 iyun 1904, № 85

HƏR GÜN BİR AZ

"Rəylərin biri-birinə toxunmasından həqiqət şırıldar" yevropalılar deyirlər. Bizdə isə həmin bu məalda olan "İxtilafi-ümməti həsənə" isə hədisi-şərifdir. Həmd olsun ki, bu günlərdə bizim də aramızda ümumi, cəmiyyəti, nasioni işlərimizin xüsusunda "Rəylərin biri-birinə toxunması" "Həsənə olan ixtilafi-ümmət" başlanmışdır ki, mədəniyyətimizin canlanmasına dəlil və sübut qəbul ola bildiyi üçün bizi dilşad edə bilir.

Keçən nömrələrimizin birində Zaqafqaz İslam cəmiyyətinin arasında görünən bir haləti təsvir etdik. Halət ondan ibarətdir ki, əyan olsun, üləma olsun, tüccar olsun məmləkətimizin ən mütəşəxxis, ən zübdə, ən gözdə olan xanədanlarının bir çoxusunun ünas tayfası bu halkı halda kişilərə üzüaçıq görünürlər. Bu münasibətlə biz o rəyi bəyan elədik ki, bir nasionun əfradının əqlən zəki və cismən sağlam olması üçün Yevropada olduğu kimi arvadların kişilərlə açıq görüşmələri Şərqdə mütədavil olan arvadların kişilərdən gizlənməyi qaydasından daha nafe görünür. Çün arvadlar təbən zəifdirlər, kişilərin məcalisindən uzaq olanda mətanətdən və əhvali-aləmə xəbərdarlıqdan büsbütün məhrum olub, miskin və zəbun bir haləti-ruhaniyyəyə düşürlər. Çün analar uşaqlarının təbii mürəbbiləridir, ona görə bu növ ruhanizədəlilik, vicdani zəbunluq, biçarəlik analardan övladlara keçib, qövmin, nasionun, millətin hamısı natəvanlıq, qüdrətsizlik və çarəsizlik oduna yandırır. Həqqa ki, bu dərd Şərqin qədimi xəstəliyi, naxoşluğu,

[1] *Tərcüməsi:* Hamı aşağıdan yuxarıya sarı gedirdilər, mən isə yuxarıdan aşağıya gedirəm.

tarixi bəlasıdır. Şərqin bu zəbunluğu, bu mənəvi yararlığı olmasaydı, beş-on min makedoniyalı ilə İsgəndəri-Zülqərneyn bir az müddətdə Yunan hüdudundan Hindistanın o biri tərəfinə qədər çatan o böyük-böyük məmləkətləri o qədər az vaxtda nə növ təsxir edə bilərdi?

Badiyənişin ərəblərin arvadları kişilərdən qaçmazlar. O səbəbdən idi ki, bunların içindən ərəb fatehləri İslamiyyətin ibtidasında o qədər az müddətdə Asiya və Afrikanın o vaxt məlum olan yerlərini aldılar. Amma az vaxtda lövhə dəyişildi. Ərəblər İranı alandan sonra iranlıların arvadları gizlənmək adatını götürdülər. Götürdükləri üçün onların zəbunluğuna da giriftar oldular. O idi ki, Hülakü xan ki, arvadları kişilərlə açıq qonuşan türk qövmindən idi. Abbasiyyə xilafətinə tabe olan o qədər böyük-böyük məmləkətləri bir az vaxtda təsərrüfünə gətirdi.

Müasirimiz ingilislər arvadların azadlığı əsası olan əxlaqlarından iqtibas etdikləri cəsarətləri, ruhani mətanətləri sayəsində idi ki, o qədər uzaq yerdən gəlib Hindistan böyüklükdə məmləkəti, demək olar ki, bir dünyanı istila edib, hökmlərinə müti etmişlər.

Məmləkət idarəsində olsun, qoşun olsun və ya sadə ticarətdə və məxsusi işlərdə olsun Hindistanda əvvəl və axır yüz olli min ingilis var ki, bu yüz olli min yevropalı iki yüz olli milyondan artıq hindistanlıları qəbzəyi-hökumətlərində tuturlar.

Tarixi-cahan qəti yolda bu hökmü verir ki, səltənəti olan nasion əgər səltənəti mühafizə etmək və səltənəti olmayan nasion əgər şan və şərəfli və mütəməddin bir yolda yaşamaq istərsə, arvad tayfasına öz cəmiyyətinin içində azad və ali bir məqam və mövqe verməlidir.

Bizim bu fikrimizə bir neçə adam etiraz yazıb, bizə göndərmişlər. İcmalən dedikləri odur ki, arvadlar açıq olsalar, fisqü fəcur artar. Məarizlər Yevropa arvadlarına olmazın məziyyətlər nisbət verirlər. Arvadların üzü açıqlığının özünə bələ ismətsizlik və namussuzluq adı verirlər. Amma o ki arvadların açıqlığının millətlərin ölüb-qalmasına, həyat və məmatına şan və şərəfi və ya miskin və zəbun yaşamalarına olan təsiridir (ki, bu təsir məsələsi bizim fikrimizin, rəyimizin ruhudur), ondan heç bəhs etməyirlər. Bəziləri iddia edirlər ki, guya arvadların kişilərdən qaçmaları İslam dininin əsasi hökmlərindəndir. Gələcək nömrələrimizdə bu etirazlardan söhbət edəriz.

"Şərqi-Rus", iyul 1904, № 96

Bir ruhi-cüz var ki, hər bir insanın bədəninin həyatı onunladır. Bir də ruhi-küll var ki, o, o məsələdən, o qaydayi-əsasiyyədən ibarətdir ki, bir qövmə, bir nasiona mütəəliq olan əbnayi-vətənin hamısı onun lüzumuna, vücuduna, həqqaniyyətinə ağılla, qəlblə, şövqlə mötəqid olub, o məslək hər kəsdən qulluq, fədakarlıq, cansiparlıq meydanında hər nəyi istəsə, icab etsə, can və başla əmələ gətirirlər.

Bu ruhi-küll hər nasion üçün öz qövmiyyətini paydar və bağı saxlamaqdan ibarətdir.

Qövmiyyəti nasıl bağı saxlamaq olur?

Bu suala ümumi cavab vermək olmaz. Çün millətlərin halətləri, qüvvətləri, zəfləri, təhlükələri, ehtiyacları müxtəlifdir. Onun üçün millətə görə, əsrə görə, icabına görə hər millətin maarifməndlərinin səramədləri o millətin bəqası nəyə mütəvəqqif olduğunu tərif edib, bir qövmiyyəti bağı saxlamaq proqramı vəz edirlər ki, onun icabatını millətin hamı əczası ruhuna həkk edib tətbiqi üzərinə fərizəyi-zəmmət edir.

Ruhi-küllisi olan nasionlar diridirlər və gələcəkdə də yaşayacaqlar. Ruhi-küllisi olmayan millətlər isə ölüdürlər, meyitdirlər. Əgər şimdiki halda dilləri və özgələrdən ayrı qövmiyyətləri görünürsə, az vaxtda məhv olub gedəcək. Yəni nə nasionları qalacaq, nə dilləri və nə dinləri. Çün əsrimiz də dinlər, dillər ilə qaimdir.

Məsələn:

Hər dəqiqə görürüz ki, öz dilini unudub, xristian dilində danışan müsəlman özü olmasa da, övladı mütləq İslam dinindən çıxır. Biz ki, on beş milyona qədər rusiyalı türk və tatar qövmiyiz bizim ruhi-küllimiz qövmiyyətimizin ibqası bizdən nəyi icab edir?

Onu ki onsuz dünyadan məhv olub müzməhil olmamağımız təbiətin müqtəzası olduğundan vacib və lazımdır. O nədir? Qonşularımız ruslara və rusiyalı özgə nasionlara mədəniyyətdə bərabər olmaq.

Mədəniyyət deyilində insanların fikrinə rəhm, insaniyyət, hüquq və sair üns və ülfətə pərvəriş verən şeylər gəlir. Burası həm doğrudur və həm yalandır. Doğrudur, çün mədəni millətlər öz içlərində biri-birləri ilə ədl və rəhmlə müamilə edirlər. Yalandır ondan ötrü ki, meydani-müharibədə olsun və ya rəqabət bazarında olsun, millətlər bir-birilərinin qanlı düşmənidirlər. Vaxtıki bir məmləkətdə yaşayan və ya bir bazarda ticarət edən iki millət bir-birinə qarşı gəldi. Hər ikisi yaşaya bilmək üçün mədəniyyətləri, yəni elm və zəkaları, çalışqanlıqları, əhvali-aləmə baxəbər olmaları müsavi olmalıdır. Və illa bacarığı çox olan qövm istedadı az olanı qurd quzunu yeyən kimi yeyib bitirəcəkdir.

Zöhhak və ya Neron öz qövminə rəva görmədiyi zülmü, xanimansızlığı, mədəniyyəti az olan qövmün başına gətirəcək.

Mədəniyyətdə qonşularımıza yetişə bilərizmi? Ya özgə sözlə dünyada türk və tatar qövmimizin illər ilə deyil, yüz illərlə cahanı, kainatı qəbzəyi-qüdrətinə keçirmiş o namlı, şanlı qövmimizin həyatını təmin edə bilərmiyiz?

Yük çox ağırdır. Qonşular bizi yüz illər fasiləsi ilə irəliləmişlər və ən çətini budur ki, mədəni millətlər müsəlman deyillər. Avamımız isə əxlaqı, mədəniyyəti dəyanətdən fərq edəcək qədər əhli-təməyyüz olmadığından müsəlmanların meydani-mədəniyyətdə yevropalılara yaxınlaşmağını əstəğfirüllah növən diyanəti-islamiyyəyə kəmməylik kimi bir şey tələqqi edib, mədəniyyət tərəfdarlarına ki, İslamın həqiqi rəvacına çalışan tənha onlardırlar ki, soyuq üzü ilə baxırlar.

Müxtəsəri, iş çətindir, çox çətindir. Amma zənni-acizanəmə görə namümkün deyil. Çün millətimizin əfradında mədəniyyət üçün fitri istedad çoxdur.

Allaha təvəkkül edəlim, millətimizi mədəniləndirməyə var qüdrətimizlə çalışalım.

Avamın təzə əfkara olan kəmməyliyindən əhli-büğz və həsədin nər edəcəkləri iftira və böhtanlardan və özgə-özgə çox-çox nagüvar təsadüflərdən qorxmayalım. Millətlərə xidmət asanlıqla olmaz. Ölüm halında olan bir millətə nicat vermək kimi əbədi bir səadətə heç əziyyət və müsibət çəkməmiş nail olmaq olarmı?

"Şərqi-Rus", 21 iyul 1904, № 109

HƏR GÜN BİR AZ

İnsanların adatı çox gec-gec təğyir tapar. Əksəriyyən bu təğyir də öz-özünə vüqua gəlir. Heç bir kəsin əmrilə, hökmü ilə olmaz. Məsələn:

Zaqafqazda bir bəyi görürüz ki, imdiki halda yevropayanə geyinir və ya çərkəz və ya gürcü şivəsində libaslanıb, başına da bir şapka qoyur.

İndi əgər fikrən bir 20-30 il bundan irəliyə dönüb özümüzdən soruşsaq ki, aya o zəmanədə bu bəyin atası və ya əmisi bunun indiki libasında xalq içinə çıxa bilərmidi, ya yox?

"Mütləqən namümkün idi"-dən özgə cavabımız olamazdı. Bəyin atasına Yevropa libasını qadağan edən və özünə izin verən kim idi və kimdir?

Zəmanədən, vaxtdan başqa heç kim bəyin atasının vaxtında yevropalılığın bizim içimizdə nümayəndəsi olan ruslar ilə gedişgəliş təzə başlanırdı. Bir türkü, bir müsəlmanı onların libasında görməyə gözlər öyrənməmişdi. Görəndə camaat ürkərdi, çəkinərdi, təbaüd edərdi. Çün bizim müsəlmanlarda tərəqqimiz üçün pək müzirr bir xasiyyət var. Öz istədiklərini, sevdiklərini halal və xoşlarına gəlməyən şeyə haram deyərlər. Öz təmayülat və hissiyyatlarına zorakı əmri-şəri adını verirlər.

Məsələn:

Nəql edirlər ki, bir mollanın təmizliyə müvazibəti yox idi. Pintiliyində xalq tərəfindən məzəmmət olunduğu kibrinə, əzəmətinə təxunurdu. Bilirsiniz nə deyirdi?

Deyirdi ki, "Hər kəs mollanın əmmaməsinə çirkli desə, kafirdir".

Deyirdilər nə üçün?

Deyirdi onun üçün ki, əmmamə elm nişanəsidir. Elm bizə peyğəmbərdən və peyğəmbərə də Allahdan nazil olmuşdur. Ona görə əmmamənin çirkini görən elmə rişxənd etmiş, elmə rişxənd edən peyğəmbərə və peyğəmbərə rişxənd edən əstəğfirüllah cənabi-baritaalaya... istehza etmiş olur".

Əgər bu mollada bi az insaf olsaydı, əmmaməsini tez-tez yudurdub, həqiqi hissiyati-dəniyyəni təhrif edən bu günə səfsətələrə girişməzdi. Həmin bu səbəbdən idi ki, bizim atalarımızın zamanında rusca geyinənləri təkfir etmək çox modada idi. Və istinad etdikləri sənəd isə (Mən yətəşəbbəhə biqövm fəhüvə minhu) idi.

Vaxt keçdi, rus libasına gözlər alışdı. Rus məktəbxanaları müsəlman üləmalarının ərizələri ilə doldu ki, oğlanlarını rus məktəblərinə qoydurmaq istəyirdilər. Və rus libasına mane olmadıqlarından savay özləri uşaqlarını Yevropa libaslarında məktəblərə təqdim edirdilər. Gedə-gedə camaat və millət ümumən bu adəti qəbul etdi. Zaqafqazın hamı şəhərlərində yaxşı-yaman, böyük-kiçik müsəlmanlar tərəfindən öz xərcləri ilə təsis olunmuş təzə müsəlman və rus məktəbləri var ki, hamısında müsəlman uşaqları rus kurtka və şalvarında məktəbə gəlirlər.

İndi arvadların üzlərini örtmək və örtməmək adətindən danışılır.

Bizim Zaqafqazda və İran adatımızca şəhərli bir arvad küçədə-bazarda üzünü örtməlidir. Adatımızı, əlbəttə ki, çoxumuz sevirik.

Əgər sevməsəydik, əlbəttə ki, indiyə kimi mühafizə etmiş olmazdıq. Sevənlər yenə də saxlasınlar. Kim mane olur və kim mane ola bilər?

Rusiyada hər şəxs öz oturuş-duruşunda özgələrə mane olmamaq şərti ilə azaddır. Amma o ki, heç yaxşı deyil, odur ki, bu adətlə adatlananlar öz adətlərinə zorakı mövzuya ilahiyyə şəklini vermək istəyirlər. Söz yoxdur ki, bunların da gözləri gec və tez müsəlman arvadlarını üzü açıq görməyə alışıb, bunlar da arvadların üzü açıqlarına elə adət edəcəklər, necə ki, atalarımızın etirazına rəğmən biz rus libasına öyrəndik. İndi biz hamımız yəqin etmişik ki, (mən yətəşəbbəhə biqövm fəhüvə minhu)-nun işə heç dəxli yoxdur. Və bir müsəlman cəbbə yerinə (Sertuq) geyinməklə dindən çıxmaz. Elə də bizdən sonra yəqin edəcəklər ki, hər bir arvad bazarda öz evinə-uşağına lazım olan şeyi üzü açıq olduğu halda alıb, üzünü nökərinə və ya qahiminə soydurmasa, nə İslamiyyətdən çıxar və nə naşizə olur. Yəqin ki, həm imanın, həm ismətinin möhkəmliyi ilə üzü açıq gəzən çərkəz arvadı üzü rübəndli tehranlı xanımından aşağa deyil.

"Şərqi-Rus", 30 iyul 1904, № 118

HƏR GÜN BİR AZ

Bu dəfə dilimizdən danışacağız. Rusiyada yaşayan müsəlmanların çoxusu türk və tatar qövminə mütəəlliqdir. Türk dili ki, bu qövmlər danışırlar, ümdə iki qismə bölünür.

Biri şərqi, biri qərbi. Şərqi türkcəsi cığatay dilidir ki, onun ilə Qazan türkcəsinin arasında fərq pək azdır. Hər ikisi bir dildir, bir ləhcədir. Ancaq aralarında bəzi kəlmələrin tələffüzcə cüzi fərqi var. İsim və fellərin elalı isə ümumi olaraq hər iki ləhcədə birdir. Arada olan təfavüt o qədər cüzidir ki, ləhcənin birini danışan adam ömründə birinci dəfə olaraq ismi və feli o biri ləhcənin tələffüzü ilə eşidəndə o dəqiqə anlayır və heç bir çətinlik çəkmir.

Qərbi türkcə Osmanlı ilə Azərbaycan türkcəsidir. Osmanlı türkcəsilə Azərbaycan türkcəsinin arasında demək olur ki, heç fərq yoxdur.

Vaqiən bir Tiflis türkü "getmək" felinin zamani-halda və müfrədi-qayıb sığəsində "gedir" deyir. Halanki İstanbul türkü "gediri" deyir. Cəmi-qayib sığəsində həmin feldən və yenə zamani-halda

tiflisli "gedirik" deyir ki, bunun əvəzində istanbullu "gediriz" və təbrizli "gedirux" deyirlər.

İndi biz "gedir" və "gedirik"-i Azərbaycan dili hesab edib, bunlardan fərqli olan tələffüzləri Azərbaycan dilinin xaricində hesab etsək, istanbullunun "gediyor" və "gediyoruz"-u ilə bərabər marağalının "gediri" və təbrizlinin "gedirux"-unu dəxi Azərbaycan dilinin xaricində hesab etməli olacağız ki, burası namümkündür. Çün Təbriz ki, Azərbaycanın paytaxtı və Marağa ki, paytaxta çox yaxındır, biz nə dəlil ilə bunları Azərbaycandan çıxarıb, Tiflisi Azərbaycana daxil edək? Halbuki rəsmi dildə nə İran vaxtlarında və nə rus zamanında heç vaxt Tiflis Azərbaycana cüz hesab olunmamışdır.

Vəsi ölkələr içində nəşr olunan dildə bəzi kəlmələrin və bəzi hərflərin məxrəcində və isimlərin bəzi siğələrincə labüdən fərq olur ki, ona ruslar "qovor", fransızlar "dialekt" və almanlar "mondart" deyirlər. Bu təfavütlər dilin birliyini nəqz etməzlər. Dilin bir olub-olmamasının açıq dəlili var. İki yer var ki, Şəkk varid olur. Görək bunların dili birdir, ya yox. Məsələn: Trabzon ilə Tiflis. Tiflisdə trabzonlu türk hər vaxt bulunur tiflisli ilə trabzonlunu bir-biri ilə danışdırın. Əgər biri-birinin danışdığını tamamilə anladılar, biliniz ki, dilləri birdir.

Bəli, bizim Azərbaycan türkcəmiz ilə Osmanlı türkcəsi bir dildir. Necə ki, məsələn, Pskov quberniyasının ruscası ilə Peterburq quberniyasınınkı birdir. Necə ki Vyana almancası ilə Riqa almancası birdir. Onlarda da şivə və tələffüz fərqi var ki, bu fərqi kimsə dilin vəhdətinə mane hesab etməz.

Bizim Azərbaycan dilimizin eyni olan Osmanlı dili ədəbiyyatının sərvəti sayəsində Qazan və Cığatay türkcəsi ilə qonuşan həmlisanlarımız arasında da ədəbi dili, kitab dili, maarif və diyanət dili olmuşdur. O tərəflərdə üləma silki-cəlilindən və ya sadə maarifməndandan olsun, kamallı və tərbiyəli müsəlman mütləq osmanlıca oxur, yazar. Əsasına baxılarsa, Qazan və İstanbul türkcələri də bir dildir, iki deyildir ki, bu xüsusda Avropa şərqşünaslarının hamısı mötəqiddirlər.

Bizə rus müsəlmanları ilə ümumi bir dil lazımmıdır? Bu dil hankı dil olmalıdır? Həmd olsun bu sualları verməyə lüzumun vaxtı keçmişdir. Çün ümumi dilimiz var ki, hamı istemal edir.

Peterburqda nəşr olunan "Mirat"-ın ki, ənqərib başqa şəşəə ilə mətbuat aləmini bəzəyəcəyini Allahın inayətindən gözlətiyoruz.

Bağçasarayda nəşr olunub, istiqamət və mətanətini ömrünün üçüncü dəhəsinə (on illiyinə) girməklə felən sabit edən arxadaşımız "Tərcüman"-ın və millətin mühəqqər və növzuhar xadimi olan "Şərqi-Rus"-un dili bir dildir ki, ən ortalarına, içlərinə qədər hamı türk və tatarlar oxuyub və söyləyirlər.

Bu dil osmanlı dilidir ki, azərbaycancanın eynidir. Bu dil azərbaycancadır ki, osmanlıcanın eynidir. Azərbaycan osmanlısıdır və ya osmani azərbaycanlısıdır. Bir sözlə, türkcədir. Bu türkcəni bir az intizamla işlətsək, az vaxtda gözəl ümumi bir dil olur ki, rusca, ingiliscə, ərəbcə kimi insanların fikir alveri üçün mükəmməl bir alət olur. Ən vacib şey fellərin və isimlərin siğələrini səhih bir qayda ilə həmişə bilatəğyir bir şəkil və surətdə istemal etməkdir.

Dili bir eyləyən bu siğələrin ittihadıdır. Qaidəyi-nəhviyyə isə onun bizə, yəni dili işlətmək üçün qayda vəz edənlərə ehtiyacı yoxdur. Çün Qazandan İstanbula qədər qələmlə ya dil ilə türklər onsuz da cümlələri bir qaidəyi-müntəzimə ilə yazıb, söyləyirlər. Bu siğələri mütləq Osmanlı məktəblərində dərs verilən şəkildə yazmalıyız. Ancaq bir istisna lazımdır və vacibdir. Yazılan dildə gərək danışılsın da. Xüsusi münhəsirən ədəbi dilimizdə teatr inşaatı yazmalıyız ki, yazdıqlarımız müsəlman olan hamı rus şəhərlərində oynaya bilsinlər ki, ancaq bu surətdə öz əməyi ilə yaşaya bilən teatr müsənniflərimiz və artistlərimiz ola bilər ki, bu da həmişə təcəddüdə olması lazım olan teatr ədəbiyyatımızın və ömürlərini teatr sənətinə sərf edəcək artistlərimizin vücuda gəlib icrayi-sənət etmələri üçün lazımdır.

Osmanlı kitablarında hal siğələrində (r)-dan əvvəl (yo)-dan ibarət bir heca artırırlar. Yəni (mirəvəd) mənasında bizim kimi sadə (gedir) deyəcəklərinə (gediyor) deyirlər ki, burası iki tərəfdən tələffüzü ağır və çox nahəmvar edir.

Əvvələn, (yo) hecasını məna üçün heç lüzumu olmadığı halda, fel siğələrində ki, çox tələffüz olunan şeylərdirlər demək ağır yük olur. İkinci, bu (yo)-dakı hərəkə rusca (qlasnaya), fransızca (vovil) təsğildir və bu (yo)-da siğə əlamətidir. Türk dilində qaidəyi-küliyyə var. Siğə əlamətlərində olan hərəkə və qlasnilər əsil kəlmədə olan hərəkə və qlasniyə tabe olurlar. Xəfiflər isə xəfif, səğillər isə səğil olurlar.

Məsələn: "Getmək"-in əsil hərəkəsi ki, kəsrəyi-müftiuhədən ibarətdir xəfifdir. Ona görə ki, siğə üçün buna əlavə olunacaq hərəkə də xəfif olmalıdır.

Halanki (yo)-dakı hərəkəsi maqəblin hərəkəsinə tabe olmayıb, səğilliyində qalır ki, bu ümum türklərin tələffüzünə müğayirdir. Amma həmd olsun bu (yo) istisnası ancaq İstanbul şəhərində müsətəməldir. Ondan başqa yerlərdə (yo) işlətməzlər. Lihaza (bununla belə) hal sığələrindən bu (yo)-nu atıb, "gediyor" yerinə sadə "gedir", "qaçıyor" yerinə sadə "qaçır" yazıb və söyləməliyiz.

"Şərqi-Rus", 29 avqust 1904, № 148

HƏR GÜN BİR AZ

On doqquzuncu miladi əsrin ikinci rübündən başlayaraq Avropa qövmlərinin arasında qövmiyyət, cinsiyyət, nasionluq hissiyyatı və əfkarı (ideya)-ları vicdanlara ən ziyadə və bəlkə demək olur ki, münhəsirən hökmfərma olmağa başladı. Ondan irəli Avropa cəmiyyətlərinin arasında cəhəti-camiə yalnız diyanət və məzhəb hesab olunurdu. Avropalı özü ilə bir camaat təşkil etməyə səlahiyyəti olan o adamı bilirdi ki, onunla dini və məzhəbi bir ola. Zəbani-hal ilə o vaxtın avropalısı deyirdi:

"Allah və axirət xüsusunda sən də tamamilə mənim əqidəmdəsənsə biz dostuz, müttəfiqiz, bir camaatız, bir ümmətiz. Və illa əgər diyanət xüsusunda sənin rəyin az olsun, çox olsun mənimkinə müxalifsə, mən sənə düşmənəm, qanını içərəm".

On altıncı miladi əsrdə (Varfolomey gecəsində) Fransada katolik olan fransızlar protestant məzhəbində olan keçmiş fransızları qətliamm elədilər. Protestantlar da katoliklər kimi fransız idilər, Fransa hökumətinə sadiq idilər. Fransa padşahına və hökumətinə heç bir xilaf iş etməmişdilər. Günahları məhz o idi ki, katolik ayininin bəzi hökmlərinə və mövzularına etiqad etməyirdilər.

İki-üç əsrin içində Avropada əfkar təatisi (ideya) mübadiləsi əqaid münaziəsi hamısı bu sual üzərində idi ki, görək; Dövlətlərin əhalisi və böyük insan cəmiyyətlərinin əfradı üçün cəhəti-camiə olmağa hankı maddə, hankı əsas ən təbii və ən əlverişlidir. Rəylərin kisrəti belə ki ərz olundu keçən əsrin əvayilində rüchanı qövmiyyətə, nasionluğa, yəni həmxilqətliyə və həmlisanlığa verdilər.

Avropalılar dedilər:

"Dini əqidələr ruhaniyyətə aid olub, müamilati-bəşəriyyədən kənar durmalıdır. Vəngəhi ki, dinlər irəliki vaxtlarda təbəddülsüz

zənn olunursalar da, təcrübə və tarix göstərdi ki, onun əksidir. Dinlər dəxi ya külliyyətən dəyişilirlər və yainki adlar qalırsa da, mahiyyəti o qədər əsaslı yolda dəyişilir ki, felən əxlafın dini əslafınkından özgə olur. Belə dəyişilici əsas üzərinə insan cəmiyyətlərinin cəhəti-camiə binasını vəz etmək olmaz. Təzə təməli və əsası avropalılar qövmiyyətdə və həmlisanlığda buldular. Bu dil danışan cəmiyyətlərin əsli bir olmalıdır. Əsilləri bir olan cəmiyyətlərdə əxlaq və adət və təbiətcə labüd qərabət-yaxınlıq, ittihad və ittifaq olur. Bunlar öz qanunlarını, dövlətlərinin daxili və xarici siyasətini, məktəb tərbiyələrini, ədəbiyyatlarını öz qövmlərinin əxlaq və adatına uydururlarsa, mədəniyyətlərinin və tərəqqilərinin rəvişi, gedişi təbii olur. Bundan sonra avropalılar öz cinslərini aramağa başladılar. Ümdə üç cins və nasionluq meydana çıxdı: Rumlar, german və slav.

Əvvəllər bu nasionluq cünbüşü sırf maarif və kultura aləminə aid idi. Hər qövm öz qövmü və cinsi əsar və nişangahlarını artıq bir diqqətlə öyrənib, təqdir və diqqətəşayan olan cəhətlərini artıq şəy ilə yar və oğyara göstərməyə çalışırdılar.

Bu nasionluq cünbüşü osmanlılarda əksəndaz oldu. Əvvəllər türklər yazı yazanda türk kəlmələrini nahəmvar və naqabil və ya avam istilahınca adam içinə çıxartmalı olmayan zənn etdiklərindən bunların yerinə ərəbi və farsi kəlmələri istemal edirdilər. Bu sövq və səliqədir ki, osmanlı yazı dilini o halətə gətirmiş ki, savadsız bir türk üçün onunla əcnəbi dili arasında çəndan fərq qalmamışdır. Şimdi türk yazılarında türk kəlmələri çəxalmağa başladı. Türk dilinə dilin əsil və əsasına çox əhəmiyyət verməyə başladılar. Fuad paşa kimi bir zat ki, uzun müddət məmləkətin ən böyük mənsəblərini, xariciyyə və hərbiyyə nəzarətlərini və sədrəzəmliyi işğal etmişdi və Avropa fəzl və maarifinə bələd olduğu ümumavropada müsəddiq idi". Qəvaidi-Osmaniyyə adlı türk sərf və nəhvi yazdı. Əhməd Rəfiq paşa ki, o da sonralar sədrəzəm (baş nazir) olduğunu Avropanın hamı şərqşünasları təsdiq edirdilər.

"Ləhcəyi-Osmaniyyə" adı ilə türk lüğətini yazdı. Amma bu əsrin ən diqqətəlayiq səməri (Şünasi) ədəbiyyatın rahrüvanları oldular. Şünasi kiçik sinnindən Şərq lisanları ilə bərabər Avropa lisanlarına və avropalıların ədəbi əqayidinə aşina olduğundan uzun müddət Parisdə təhsil görəndən sonra İstanbula gəlib, mətbuat aləmində türk dilini və ələtəxsis ədəbi yazılan inşaatda müstəməl olan müğləq ibarələri asanlaşdırmağa və ədəbiyyatı təbii yola gətirməyə başladı. Nə qədər hüsni-səliqə və istedad sahibi olan gənc (sahil) əhli-qələm

varsa, hamısı bunun başına yığışdılar. Müğabillərindəki ədəbi mötərizləri bunlara müqavimətə istedadları olan adamlar olmadığından Şünasi ilə yoldaşları əsrinin ədəbiyyatına yeganə nümayəndə qaldılar. Şünasililər içindən Kamal bəy kimi, Əbdülhəqq Hamid bəy kimi ədiblər çıxdı ki, asarları ilə nəinki türklər, bəlkə ümum əhli-cahanın ədəbiyyatı iftixar etsə, yeri var. Bu türkşünaslıq səliqəsi bu gün belə İstanbulda davam etməkdədir. Bu məsləkin hal-hazırdakı nümayəndəsi fazıl-şəhir Asim əfəndidir ki, qələmindən türk dilinə, türk tarixinə, türk işlərinə dair hər nə çıxarsa, fövrən Avropa şərqşünasları Avropa dillərinə tərcümə edirlər.

Nasionluq hissiyyatı Avropada siyasət aləminə keçdi. Həmlisan olan qövmlər öz həmlisanları ilə bir dövlət təşkil etmək və qeyri həmlisanları təşkil etmək həvəsinə düşdülər.

Fransa həmqövmi olan italyanlılara Avstriya hökuməti təbəətindən çıxmağa yardım etdi. Prusiya dövləti alman dili danışan həmlisanlarını iki, ya doğrusu üç müharibədən sonra ki, iki axırıncı (Avstriya və Fransa ilə olanları) əsrin ikinci nisfinin ən böyüklərindən idi. Bir yerə yığıb, zişövkət Almaniya imperatorluğunu vücuda gətirdi.

Keçən rus və Osmanlı müharibəsinə Rusiyada pərvəriş verilən (slav) hissiyyatının artıq şirakəti olduğunu inkar etmək olmaz.

Nasionluq ideyasının (əqidə, fikir) hərbcu olduğu osmanlıları pək qorxutdu. Buna müqabil onlara da elə əqidə, elə bir "ideya" və ya "prinsip" lazım olduğunu anlatdılar ki, onun qüvvəyi-mənəviyyəsi ilə osmanlılara Osmanlı məmləkətinin xaricində də köməyinə gələ bilsin.

Asiyada nasionluğa heç əhəmiyyət verilmir. Vangəhi türk və tatarların sayı cəmi dünyada həm çox azdır (son təhqiqata görə, osmanlı türkləri də içinə daxil olduğu halda dünyada iyirmi beş milyon türk və tatar var) və həm o qədər dağınıqdırlar ki, (Çinin içlərindən Sudanadək) bir yerə cəm olmaları xaricdən siyasi mane olmasaydı da, namümkündür. Liza osmanlılar nasionluq ideyasını "İttihadi-İslam" ideyasına təhvil etdilər ki, buna avropalılar "panislamizm" deyirlər. Bu təhvil Sultan Həmidin culusuna ittifaq düşdü. O vaxtdan bəri gahi açıq və gahi Avropa diplomatlarının qorxusundan məxfi "Ulduz" sarayı daima yer üzündə olan cəmi müsəlmanların içində bu (panislamizm) fikrini şədd etməkdədir.

Gələcək nüsxələrimizdə inşallah bu fəqərədən daha müsahibət edəriz.

"Şərqi-Rus", 4 sentyabr 1904, № 154

MÜSƏLMANLAR VƏ KONSTİTUSİYA

Ali 17 oktyabr manifesti, şübhəsiz, çox böyük mədəni-tarixi əhəmiyyətli olan hadisədir.

O heç bir ictimai hüquqlara malik olmayan 130 milyon rusiyalı sakinə "şəxsiyyətin, vicdan, söz, toplaşma və birləşmə azadlığının hüquqi təxunulmazlığı surətində vətəndaş azadlıqlarının sarsılmaz əsaslarını" təqdim edir.

Biz müsəlmanlar Rusiyada 15 milyona yaxınıq.

Rus dövləti bütün rus həmvətəndaşlarımızla bərabər bizə – müsəlman vətəndaşlara da mədəni xalqları qeyri-sivil xalqlardan fərqləndirən bu mühüm hüquqları bəxş edir.

Dərin razılıq hissini həm də ona görə keçirməliyik ki, biz – müsəlmanların Rusiyaya bu qədər qurbanlar bahasına başa gəlmiş və gəlməkdə davam edən və indi 17 oktyabr manifesti ilə başa çatdırılan azadlıq hərəkatında heç bir iştirakımız olmamışdır.

Burada biz – müsəlmanlar üçün qalib və məğlublar, xalq hüquqları uğrunda mübarizələr yoxdur, mədəni xalqların ən yüksək ictimai və siyasi hüquqlarını bizə aliconablıqla ata edən, özündə xalq və hökuməti ehtiva edən rus dövləti vardır.

İndi biz rus müsəlmanlarının malik olduğu hüquqlardan həm despotizm, anarxiya və dini dözümsüzlüyün müsəlman əhlini heç də xristiandan az dərəcədə amansızlıqla boğmadığı Türkiyə və İran kimi ən məşhur müsəlman dövlətlərindəki dindaşlarımız, həm də İngiltərə və Fransa kimi qabaqcıl ölkələrdə yaşayaraq heç bir insan hüquqlarına malik olmayan və acgöz Qərbin savadlı sənayeçiləri tərəfindən qırxılası qoyun roluna endirilən müsəlmanlar məhrumdurlar.

Rus dövlətində bərabərhüquqlu olmamız və insani ləyaqətimizə hörmət edilməsi nöqteyi-nəzərindən biz müsəlmanlar üçün konstitusiya hüquqları nə qədər şərəfli olsa da, dünyagörüşümüzü islah etməsək, o bizim üçün gəroksiz dəbdəbə əşyası olacaq və bizə, yəqin ki, fayda deyil, ziyan gətirəcək.

Konstitusiya Avropa xalqlarının siyasi-sosial idealının gerçəkləşməsi vasitəsidir.

Bu idealı təxminən belə ifadə etmək olar: "Bəşəriyyətin can atdığı hədəf ayrı-ayrı şəxsiyyətlər və yaxud bu və ya digər insan qrupları, zümrə və ya silklərin deyil, böyük insan ailəsinin istisnasız bütün üzvlərinin xoşbəxtliyi olmalıdır. Əgər xalqlar özləri öz talc-

lərinə sahib çıxarlarsa, yer üzündə yaşayan hər bir insanın həyatının təmin olunması mümkündür".

Hələ ki, biz bu ideala yiyələnməmişik, deyildiyi kimi, onun gerçəkləşməsi vasitəsi olan, konstitusiya bizim üçün faydasız olacaqdır. Bununla belə, bu ideal artıq bizim bütün xristian qonşularımızı ruhlandırmaqdadır.

Bu qonşular tərəqqi yolunda onsuz da bizdən öndədirlər. İndi isə öz ictimai səylərini təmin etmək üçün konstitusiya kimi mükəmməl bir aləti də əldə edib, onlar öz əqli və maddi ehtiyatlarını daha da səfərbər edəcəklər, bizim üçün yaşayış uğrunda olanlarla mübarizə aparmağı qeyri-mümkün edəcəklər, rəqabət bazarından bizi sıxışdırıb çıxaracaqlar, həyat qabiliyyətlərinin üstün olması üzündən bizi basıb əzəcəklər və yer üzündən siləcəklər.

Biz, ziyalı müsəlmanlar, bütün gücümüzlə onun üçün çalışmalıyıq ki, xalqlarımız həyata indiki baxışlarını yuxarıda göstərilən Avropa dünyagörüşü ilə dəyişsinlər.

Xalqların taleyi onların ideallarının ağlabatanlığından asılıdır.

Məsələ heç də çox çətin deyil. Ağlabatan və ümuməhəmiyyətli iş həmişə qələbə ilə yekunlaşır. Bu Avropa baxışı, əlbəttə, təbii və məntiqidir. Bu baxış xalqın taleyini onun hökumətinə buraxır və ona deyir: "Elə qanunlar müəyyənləşdir ki, onların vasitəsilə öz işlərini sən özün hamıdan yaxşı idarə edə biləsən".

Belə olduğu halda bizim indi fəaliyyətdə olan müsəlman təlimimizdə, ehtimal ki, cəhalət və düşüncəsizliyin məhsulu olaraq belə deyilir:

"Allah-taala Məhəmmədin vasitəsilə iman əhlinə insan həyatının bütün sahələrini əhatə edən Quranla qanun göndərmişdir. Bütün ölkələrin və zamanların müsəlmanları onu dəqiq şəkildə icra etməli və ona hər hansı bir dəyişiklik, düzəliş və əlavənin edilməsi haqda düşünməyə belə cəsarət etməməlidir".

Burada qanunvericilik xalqın əlindən çıxmış olur. Xalq isə yalnız onun verdiyi qanunlarla özünü idarə edə bilər. Buna görə də öz taleyinə rəhbərlik etməkdə aciz olan xalq öz taleyinə etinasızlaşdırılır. Canlı bir varlıq kimi o yox olur və onun yerini öz aralarında heç bir canlı əlaqəsi olmayan birləşməmiş fərdlər, ruhi birlikdən məhrum olan etnoqrafik kütlə tutur. Sayı canlı kollektiv orqanizmi əvəz edir.

Eyni zamanda, islamın təkallahlığı əbədidir, şəriətin sosial qanunları yox. Hər xalq, hər ölkə, hər epoxa, hər əsrin öz qanunları olmalıdır.

Həyatın tələbi belədir. Deməli, həyatı belə yaratmış Allahın iradəsi belədir.

Allahın iradəsi həyatdan kənarda deyil, həyatın özündə, təbiətdə gizlənir.

Onu yalnız alim-tədqiqatçı araşdırıb üzə çıxara və formulə edə bilər.

Elm-budur: Allahın kəlamı.

Bizim ruhanilərin heç də hamısı cahil kütlə anlayışını bölüşmürlər.

Yüksək məqamlı üləmalarımızdan biri bir dəfə demişdir: "Müsəlman qanunlarına görə dinin ehkamları – üsuliddindir. Şəriət isə qanundan başqa bir şey deyil. Və hər bir digər qanun kimi o da zamanın tələbinə uyğun dəyişilməlidir. Lakin məni dönük adlandırmasınlar deyə bunu açıq şəkildə söyləyə bilmərəm".

Ümid edək ki, konstitusiyanın yeni ruhu bu həddən artıq ehtiyatlı ruhaniyə daha çox cəsarət verəcək və o öz fikrini kütlə qarşısında bildirəcəkdir. Bu, müsəlmanlar arasında maarifçilik işinə xidmət etmiş olardı.

"Новое обозрение", 1905, № 234

FİRİDUN BƏY KÖÇƏRLİ

(1863-1920)

HEYVANİYYƏT VƏ İNSANLAR

(Müharibə meydanında millətlərin birləşməsi)

Fransa ədiblərindən məşhur Emil Zolya "İnsan heyvandır" namilə yazdığı romanında Jak ismində bir cavanın xeyli əcib və yekdiğərinə zidd xasiyyətlərini bəyan və təsvir edir. Jak Fransada dəmir qatarlarının birisində maşını sürürmüş. O, ələzzahir mülayim rəftarlı və xoşxülq bir cəvan imiş. Amma bəzən ondan bir para vəhşilik və yırtıcılıq sifəti biruz edərmiş. Jak bədənin açıq bir üzvünü gördükdə təbii halından çıxıb daş əsrində yaşayan babalarının halətinə düşürmüş: onun gözləri qızarıb, damarları şişib başının tükləri qabararmış və barmaqları heyvan pəncəsi kimi sürət və şiddətlə açılıb-yumularmış...

Bir dəfə Jak sevdiği bir arvadın ağ və çağ sinəsini açılmış görüb filfövr təbii halından çıxır və özünü onun üstünə atır və yırtıcı heyvan kimi başlayır onu boğmağa. Biçarə nə qədər çalışırsa ki, əlindən xilas olsun, bacarmayır və bu vəhşinin çəngəlində boğulub canını təslim edir. Elə ki Jak qüvvətli dırnaqları ilə arvadın ağ və gözəl sinəsini parçalayıb onu qanına qəltan edir və qədim babalarından əsrlər boyunca irsən ona intiqam etmiş yırtıcılıq vəzifəsini layiqincə əmələ gətirir, qanın rəngini və əlinə düşmüş seydin (ovun – *Q.N.*) hərəkətsiz yerə düşməsini görür – bir növ sakit olur. Yavaş-yavaş heyvaniyyət hali ondan uzaqlaşır, təbii halına düşür. Jakın gözlərini dutmuş qanlı pərdə izalə olandan sonra o dutduğu əməlin pisliyini görüb peşman olur. Amma bu cinayəti bir kəsə açıb söyləmir.

Emil Zolya məzkur əsərində bunu göstərmək istəyib ki, insan xilqətdən bəri ki, neçə əsrlər gəlib-keçibdir, hələ də heyvaniyyət təbiət və xasiyyətindən çıxıb bəşəriyyət halına girməyibdir. Onun əqidəsincə, hər şəxsdə bu sifət mövcuddur, təfavüt az və ya çoxluğundadır.

Bir çox canı və quldurların haqqında söylənilən rəvayətlər Emil Zolyanın əqidəsini bir növ təsdiq edir. Rus ədiblərindən məşhur Korolenkonun Sibiriya əhalisinin məişətinə dair mütəəddid əsərlərində insanın vəhşiliginə dəlalətedici ittifaqlar təhrir olunubdur ki, onları mütalıə etdikdə əqlü insan mat və heyran qalır.

Tarixə baxıldıqda onda dəxi həddən ziyadə vəhşiliklər zalimlər və qanlı səhifələr görünür ki, cümləsinə bais növ bəşərin bir-birilə etdiyi kin, ədavət və şərarətdir. Adəm atanın övladı qövmiyyət, milliyyət, cinsiyyət və din məsələlərini hər dəm əllərində dəstavüz edib yekdigərlərinə hücum və qələbə etməklə məskənlərini tar-mar, vətənlərini viran və canlarını xak ilə yeksan qılmağı özləri üçün böyük hünər biliblər.

Roma imperatorlarından Neronun Həzrəti-İsa dinini qəbul etmiş yeni xristianların üryan cəsədlərinə yağ sürtüb xiyabanlarda işrət məclisini çırağan etməsi, tamaşa səhnələrində təzə xristianları qoyunquzu dərisinə geydirib neçə günlərlə ac saxlanmış yırtıcı heyvanlara toamə qılması onun öz vəhşiliyinə dəlalət etməzmi?

Təvarixdə bunun əmsalı olaraq neçə-neçə nəmrudlar, fironlar, zöhhaklar, yezid ibn müaviyələr, həccaclar, ivan qroznılar gəlib-gediblər ki, hər birisi ömürlərində törətdiyi fəsadları və vəhşiliklərilə şöhrət qazanıblar, ləzzət və rahatlığı ancaq həmcinslərinin üqubət və əzabından və əmnü asayişi aləmi-bəşəriyyət mürur ayamilə vücudə gətirdiyi qultura və məmuriyyətin təxribində görüblər...

Hal-hazırda aləmi bir qan çanağına döndərmiş olan millətlər davası və onların mabinində müşahidə olunan nifaq və qəddariyyət zahirən bəşəriyyəti aləmiyyənin irəli deyil, geri getməsinə dəlalət edir. Əgər bu ədavət və ziddiyyət, bu qan tökməklik vəhşi qövmlər arasında vüquə gəlsə idi, aləmi bəşəriyyət bir növ özini təqsir və günahdan pak etməyə bağlı olardı ki, cümləsinə bais cəhalətdir. Vəli mütəəssüf bu fəsad və ədavət ən mədəniyyətli və ən parlaq Avropa millətləri arasında cari olmaqdadır. Bu davada hər millət öz maddi və mənəvi tərəqqisini, öz səadət və rifahiyyətini qeyrilərin fövt və həlakətində görür və bu yolda var qüvvəsilə səy və tələş edir.

Və bir də mayeyi-təəccüb budur ki, bu qədər qan tökməklik büğz və ədavət musailər və məhəmmədilər arasında olmayıb isavilər arasında davam etməkdədir[1]. Yəni o millətlər arasındadır ki, onların dinində qisas və intiqam yoxdur, bu millətlər həmişə öz din və ayinlərilə iftixar etməklə qeyrilərin əqayidi-diniyyələrinə etiraz

[1] Osmanlıların bu müharibəyə qarışmasına səbəb nemeslər olubdur ki, onlar da xristiandır ki, həmişə din və mədəniyyətləriylə iftixar edərlər.

etməyə özlərini haqlı bilirlər. Bu millətlərin əsas dinləri və binaiməzhəbləri məhz üxüvvət və məhəbbətdən ibarətdir ki, o dinin banisi Həzrəti-İsa hər qism büğzü ədavəti nəhi etməklə belə insanlara qardaş kimi dolanmağı əmr buyurubdur. Qraf L.Tolstoy Sevastopol müharibəsində tökülən qanları və göydən yağan atəşləri və dəhşətli mənzərələri görüb belə fəryad edir:

"Aya, Həzrəti-İsanın dinini qəbul edən xristianlar bizik ki, onun binası məhəbbət və fədakarlıqdır!"

Sevastopol davasından indiyə kimi altmış sənə keçibdir. Altmış sənə bundan müqəddəm dava edən xristianlar gah barışdılar, gah dalaşdılar. Həzrəti-İsanın dinini və hökmünü hər dəm pozmağa və fəsad törətməyə, fitnə və aşub salmağa bəhanələr axtardılar, indi yenə 60 sənədən sonra sülhpərvər və rəhmdil, dinpərəst, elmli və mədəniyyətli xristianlar biri-birilə tutaşıblar və bərk də tutaşıblar – görək bunun axırı nə olacaqdır.

Bu işin bir tərəfi.

Bəziləri bu əqidədədirlər ki, L.Tolstoy xeyli xoşbəxt adam imiş ki, bu müharibəyi və xristianlar arasında vüquə gələn böyük inqilab və nifaqı görməyib getdi, vala onun etiqadına rəxnələr düşüb ümumi məhəbbət və üxüvvətdən və daima sülh və ittifaqdan ki, həmişə dili və qələmi ilə onun uğrunda çalışırdı, məyus və naümid olardı. Naümid olduqda asi düşərdi, necə ki, indiki hükəma və üqəladan bir çoxu asi düşməkdədirlər. Amma biz bu rəy və etiqada şərik ola bilmərik, çünki L.Tolstoy hər ittifaqda əqidəsini dəyişdirən və hər dəmdə başqa-başqa fikir və xəyala düşən adamlardan deyil idi; biz yəqinlik ilə deyə bilərik ki, təmami-dünyayi hərəkətə gətirib çaxnaşdıran bir müharibədən L.Tolstoy öz etiqadını möhkəmedici bir çox keyfiyyətlər toplayıb cəm edərdi ki, onların xilafü ziddinə bir söz demək olmazdı. Söz buradadır ki, L.Tolstoyun əqidəsincə vücudi bəşərdəki, ruh ilə cismdən mürəkkəbdir – heyvaniyyət nə qədər artıq və qüvvətli olsa da, bilaxir ruhaniyyət və insaniyyət tərəfə məğlub olacaqdır. Emil Zolyanın Jakında müşahidə olunan heyvaniyyət və dərəndəlik onda daimi bir sifət olmayıb ancaq bəzi ittifaqlarda (bədənin açıq hissəsini görəndə) büruz edərmiş. Başqa vaxtlarda onun adi və xoşrəftar bir cavan olduğunu Emil Zolya özi də inkar etmiyor. Heyvaniyyət əsərlərini vücudi-bəşərdən mütləq inkar etmək olmazsa da, insaniyyət və ruhaniyyət əsərlərini dəxi danmaq olmaz. Əvvəlinci halət insandan az və nadir ittifaqlarda nəşət etdikdə ikinci sifət,

yəni insaf, mürüvvət və mərhəmət onda həmişə zahir olmaqdadır: ən qəti və ən zülmkar qatillərin ürəyində dəxi insaf və mürüvvət nişanələri müşahidə olunmaqdadır.

Çox ittifaqlarda qatillər insaflarının çeynəməsindən bir dəqiqə rahatlıq tapmayıb naəlac divan hüzuruna gəlib öz cinayətlərinə məqərr olublar və boğazlarından asılmağı eyni səadət biliblər. Bəzi müvərrixlərin yazdığına görə, Yezid ibn Müaviyə İmam Hüseynin kəsilmiş başını gördükdə İbn Mərcanə (İbn Ziyad) lənət oxuyubdur. Rus padşahlarından dördüncü İvan ki, "Qrozni" ləqəbilə məşhurdur (qəzəbnak deməkdir) zülm və fəsad etdikdən sonra gecələr sübhədək kəlisada dizi üstə çökub zarü təzərröh edərmiş.

Doğrudur necə ki, təvarixdə məzkurdur – çox şəqi və zülmkar nəmrudlar, şəddadlar, fironlar, neronlar və yezid ibn müaviyələr gəlib-gediblər. Vəli bunu dəxi unutmamalı ki, onlar ilə belə xəlilüllahlar, kəlimüllahlar, ruhallahlar, həbibüllahlar və seyidəlşühədalar dəxi gəliblər və zülmkarlarla cəng və cudaludə olub axirələmr onlara qalib olublar, necə ki, elm cəhlə, haqq batilə və nur zülmətə qalib olub onları məhv və nabud edir.

Bir adəmin vücudində yekdigərinə zidd və müğayir xasiyyətlər, heyvaniyyət və insaniyyət kimi hallar və təbiətlər müayinə olunduğu səyaq bəşəriyyət aləmində dəxi ki, böyük bir cism mənzilləsindədir – yekdigərinə zidd və müxtəlif ünsür və maddələr vardır. Bunlardan əvvəlinciləri şəqilər, zalimlər və səffaklər olduğu halda axırıncıları hadilər, mürşidlər və nacilərdir ki, xəlqi cənabi-həqqə və suyi-nicat və səadətə dəvət edirlər. Təəccüb gələsi və heyrət olunası budur ki, qanlı müharibə meydanlarındakı insan əsnai cəngdə yırtıcı vəhşi bir heyvana dönüb qabağına gələni vurub-yıxmağa və parçalamağa həris olur və hər tərəfə baxdıqda ağır və dəhşətəngiz mənzərələr insanın bədəninə lərzə salır. Boylə dəhşətli və qanlı səhnələrdə o heyvanə dönmüş adamın qəlbində mürüvvət və məhəbbət çeşməsi qurumur. Və hər anda onların asarı görünməkdə olur. Böyük sirr və hikmətdir o yerlərdə ki, xətər və həlakət hökmranlıq edir və dəsti-əcəl adamları oraq kibi biçib yan-yana düşüyor – o məqamlarda sağlığın qədəri və həyatın qiyməti artıq dərəcədə bilinib hiss olunur. L.Tolstoyun "Hərb və sülh" ünvanında yazdığı böyük romanında Borodin davası artıq məharətlə nəqş olunubdur. Bu davanın ən qızğın və şiddətli vaxtında knyaz Andrey ki, (romanın qəhrəmanlarından birinin adıdır) ölümünü hər dəqiqədə gözlü-

yordu kəmali-həsrətlə ətrafına baxıb dəruni qəlbdən ah çəkib diyor: "Xudaya, hiç rəvadır ki, sərçələr və xırdaca yaşıl otlar sağ və səlamət qalsınlar – amma mən həlak olum!" Bu handa top gülləsi Andreyin ayağının birini qoparıb onu bihiss yıxır...

Davada hər əsgər öz canının qədrini bildiyi kibi düşmənini də halına yanır və düşmənini də canını özünə əziz və şirin olduğunu anlayır. Rus alimlərindən Bəxtirof "L.Tolstoy və millətlərin birləşməsi" ünvanında yazdığı məqaləsində avstriyalı bir keşişin dilindən nəql edir ki, əsir düşmüş yaralı bir rus kazakı xəstəxanada bir macarluya öylə müşfiqanə xidmət edirdi ki, görənlər onu macarluya yaxın əqrəba hesab edirdi, ən qəza macarlu sağalmayıb öldü, kazak qardaş onun üstündə ağlayıb üzündən öpdü və xaç ilə təqdis elədi.

Əksərən ittifaqda iki düşmən biri-birinə yaraqsız rast gəldikdə dostlaşıb qardaşlıq əlini uzadırlar.

Təəccüblü başqa bir ittifaq: iki intelligent dostlar müharibə cəbhəsində biri-birinə rast gəlir. Onlardan birisi alman professorlarından Ernest Stadler olur ki, bir çox mötəbər əsərlər sahibi idi, digəri Fransa şüərasından Şarl Piyavi olur ki, onun bir neçə əşarını Stadler alman dilinə tərcümə edibdir. Hər iki dostlar öz akoplarında olurmuş. Biri-birindən xəbərdar olub Stadler dostuna yazır: "Mənim əziz və mehriban qardaşım və qələm yoldaşım, halın neçədir?" Piyavi dostunun yazdığını aydın oxuya bilməyib cavabında yazır: "Mənim dostum! Yazdığını oxuya bilmədim. Amma mən səni sevirəm!". Hər iki dostlar akopda qətlə yetirilir – kim bilir, bəlkə biribirinin gülləsindən!..

Sevastopol müharibəsində vüquə gəlmiş boylə bir qəribə əhvalat dəxi nəql olunur: rus soldatilə bir firəng əsgəri ki, məzkur davada düşmən hesab olunurdular, soyuğun şiddətindən müharibə meydanında hərəkətsiz düşüb qalırlar, rus soldatı savuqun şiddətindən özündən gedib bihiss yıxılır. Sabahı güni gözlərini açıb firəng əsgərinin paltosuni öz üstündə görür və yanında paltosuz yatmış firəngi görüb istiyor onu durğuzub rizamənlik etsin – vəli onu soyuqdan donub həlak olmuş görür – xeyli xəcil və mütəəssir olur.

Boylə ittifaqlar müharibə vaxtında kəsrət ilə vüquə gəlir və bunlar ona şəhadət verir ki, müharibədə millətlərin biri-birinə yaxunlaşmağına çox yollar və vəsilələr açılır. Burada hər iki tərəf ölümün müqabilində durub qardaşlıq vəzifəsini və insaniyyət şərtini ifa etməkdən uca və müqəddəs bir şey bilmiyorlar. Məlumdur ki,

əksər ittifaqlarda millətləri biri-birindən uzaqlaşdıran və aralarına ziddiyyət salan millətlərin ruhani sinifləri olur. Təəccüb etməli haldır ki, müharibə meydanında bunların qəlbində olan ziddiyyət və küdurət sülh və müvədtə məbdəl olur.

Rus keşişin müharibədə qətl olunmuş müsəlman əsgərinin dəfnində əlində xaç onun qəbri üstə kəmali-hüznlə durub "qospodi pomiluy!" (Xudaya rəhm elə) diyor.

Qərb meydanında belə bir ittifaq düşür ki, rus keşişi ilə yəhudi ravini (mollası) bir daxmada yatmağa məcbur olurlar – yatmaq üçün ancaq bir çarpayı tapılır. Hər iki ruhani onun üstündə yatır belə ki, Əhdi-Ətiq ilə Əhdi-Cədid – Tövrat, İncil ilə bir-birinə yaxınlaşır...

Mən sakin olduğum Qori şəhərində üç yüzdən ziyadə Osmanlı xəstə əsirləri vardır ki, bir-bir onları yoxlayıram və hər dəfə də şəfqət bacılarından və təbiblərdən onların haqqında ifa olunan iltifat və mərhəmət gördükdə ürəyim başqa bir hisslərlə dolur və ümumi qardaşlığa etiqadım artır.

Qafqaz hərbi cəbhəsindən Həzrəti-İsanın təvəllüdü bayramında ailəsilə görüşməyə gələn bir rus əfsəri ilə bir qonaqlıqda tanış oldum. Əfsər davada vüquə gələn əcaib və qəraibdən danışıb axır kəlamda bu sözləri söylədi: "Bizim soldatların rəşidligi məşhuri-cahandır, amma insafı itirmək olmaz, düşmənimiz osmanlılar da həm qoçaq və həm mürüvvətli ağa təbiətli igidlərdir. Mənim şübhəm yoxdur ki, müharibədən sonra bizim ən yaxın və sədaqətli dostumuz osmanlılar olacaqdır!"

Axır kəlamda bunu demək istəyirik: bizə elə gəlir ki, təmami dünyayi bürümüş bu müharibə millətlər üçün böyük bir imtahandır ta ki, onlar gözlərini açıb görsünlər ki, məişətləri batildir və bu batil məişət bizi pür xəta bir məqamə yetiribdir ki, ondan ə yana uçurumdur. Bu imtahan gərəkdir millətlərin gözlərini qapamış qara örtüyü və zülmət pərdəsini salsun və həq nurilə onların qəlblərini doldursun. Bu müharibədə haqlı və haqsız tərəfini axtarıb tapmaq həm çətin və həm bifaidə bir əmrdir. Bu müharibə bəşəriyyət aləmini köhnə və ağır günahlardan pak etmək üçün göndərilmiş bir qurbandır ki, bundan sonra gərəkdir insanlar günahlarından pakə çıxıb nicat və səadət səmtinə, məhəbbət və üxüvvət yoluna qədəmgüzar olsunlar. İnşallah...

ƏDƏBİYYATIMIZA DAİR MƏKTUB

Vaxtbavaxt "Şərqi-Rus"un səhifələrini əsr və zəmanəmizin şüəra və ədibləri öz gözəl və abdar əşar və kəlamları ilə müzəyyən qılırlar və müsəlman qardaşları elm və maarif kəsbinə dəvət edirlər. Bir millətin ədəbiyyatı, demək olar ki, onun məişətinin aynasıdır. Hər bir millətin dolanacağını, əvzai-məişətini, dərəcəyi-tərəqqisini, mərtəbəyi-kamalını, qüdrət və cəlalını onun ədəbiyyatından bilmək olar. Şairi-kamil və ədibi-fazil öz əsrinin müəvvir və nəqqaşı mənziləsindədir. Nə qədər şairin təbi səlim, zehni açıq, nitqi guya, daireyi-əqliyyəsi vəsi, əfkar və hissiyyatı təbii və ali olsa, bir o qədər onun qələmi-cavahirnisarından vüqua gələn nəqşələr və təsvirlər mərğub və dıllaviz olacaqdır, bir o qədər onun asari-qələmi və məhsulati-fikri ali olacaqdır, bir o qədər o əsərlərin əzhan və vicdan üzərinə təsiratı külli, tərbiyəyi-əfkar və təhzibi-əxlaq yolunda faydası artıq, əhəmiyyəti böyük və məziyyəti ziyadə olacaqdır. Farsların Şeyx Sədisi və Xacə Hafizi, ingilislərin Şekspiri və Bayronu, fiərnglərin Jan-Jak Russosu və Viktor Hüqosu, nemeslərin Getesi və Şilleri, rusların Puşkini, Dostoyevski və Tolstoyu öz əsrlərində millətlərinin ən böyük müəllimi və ən mahir və müqtədir mürəbbisi olub, əsərləri ilə onların təhzibi-əxlaqına, rüfət və səadət tapmasına, şöhrət və qüvvət kəsb etməsinə hüsn-tədbirlər və salamat təriqlər göstəriblər. Bu zati-alilərin vücudu ilə fövqdə zikr olunan millətlər fəxr edirlər. Farslar nəzm aləminin soltanı dörd nəfərdən ibarət olmasını iddia edib, əvvəl məqamda Firdövsiyi-Tusini, sonra Ənvərini, sonra Şeyx Sədini və dördüncü məqamda Nizamiyi-əleyhirrəhmanı qoyublar. Fiərnglər Viktor Hüqo ilə və ruslar Puşkin ilə fəxr edən kimi, farslar dəxi bu dörd nəfər nəzm aləminin soltanları ilə fəxr edirlər. Sədinin haqqında ki, üçüncü məqamda qoyulubdur, şair belə deyibdir:

Seyyum Sədi ke, ta dəm zəd zi Şiraz,
Rəsid şıraziyanra bər fələk naz[1].

Həqiqətdə Sədi kimi ədibi-binəzirin və sahibi-hikmət və vücudun adı ilə iftixar edib, fələkə də naz etmək olar....

Ancaq bu qədər var ki, Sədinin əsərləri bir Şiraz əhlinə və fars millətinə mütəəlliq olmayıb, bəlkə cəmi mədəni tayfalara və millət-

[1] Tərcüməsi: Üçüncü Sədidir ki, Şirazda özünü göstərəndə şirazlıların nazı fələkə çatdı.

lərə hüsn xidmət göstərir. Buna görə Sədi dəxi bir şirazlıların olmayıb, bəlkə cəmi aləmin mürəbbisi və filosofu hesab olunur və habelə Tolstoy, Şekspir, Gete və qeyriləri.... Bunların təəllüqü cəmi aləmə çatar, bir millətə və tayfaya çatmaz. Bunlar ümum xəlayiq və insaniyyət müəllimi və mürəbbisidirlər, nəinki məhz bir millət ədibi və şairi. Şeyx Sədi əleyhirrəhmə öz vəzifəsini və öhdəsinə götürdüyü böyük təklifi kamalınca bilib nəinki bir şirazlılara və yainki əhli-əcəmə, bəlkə ümum nasa gözəl nəsihətlər və hikmətamiz sözlər deyib timsal götürüb, hekayələr nəql edib deyir ki, ey adəm övladı, sizi həqqə irşad edən və nicat və salamatlığa yetirən yol budur, həqiqətdə adam isən, bu yol ilə get və nəsihətlərimi dərguş qıl.

Pənde-Sədi bequşe-can beşinə,
Rəh çinin əst, mərd başu bero[1].

Həqiqi şair öz zəmanəsinin aynasıdır və Puşkinin deməyinə görə, şair qayalardan və dərələrdən gələn əks-səda mənziləsindədir. Necə ki, heyvanın bağırtısına, göyün gurultusuna və çobanın uca avaz ilə bayatı çağırmasına əks-səda cavab verib, hər bir səvtü eyni ilə təkrar edir, həmçinin həqiqi şair dəxi öz camaatının hər qisim sədasına, xah o səda suznak nalə və fəryad olsun və xah fərəhəngiz; boşaşət və şadyanalıq səsi olsun, gərəkdir eyni ilə cavab verə; öz səsini millətin səsinə qoşub, onun qeyrət və təəssüb damarını hərəkətə gətirə; təsirli kəlamı ilə onu qəflətdən bidar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət edə. Amma hər kəlamın təsiri o vaxt dürüst və təbii olar ki, onun mənbəyi şairin ürəyi və zəmiri-safi ola. Ağıl və zor ilə yazılmış kəlam nə qədər mövzun və müsəlsəl olsa da, oxuculara təsir edə bilməz. Hissiyyati-qəlbiyyə bəlağət və fəsahətin əvvəlinci müəllimidir. Hər bir müəllif və şairin baş arzusu qarələrin qəlblərini təsxir etməkdir və bu arzuya vasil olmaq ancaq o vaxt mümkün olar ki, əşar və asarın törənəcək yeri hissiyyat ola və hissiyyat nə qədər ali və təbii olsa, bir o qədər kəlamın təsiri artıq olacaqdır.

Azərbaycan şairlərindən Molla Pənah Vaqifin, Molla Vəli Vidadinin, Qasım bəy Zakirin və Hacı Seyid Əzim Şirvaninin kəlamları cümlə əhli-savada və sahibi-kəmalımıza xoş gəlir. Bu müntəxəb şairlərin qələmlərindən hər nə zühurə gəlibsə, demək olar ki,

[1] Tərcüməsi: Sədinin nəsihətini bütün varlığınla eşit,
Yol belədir, kişi ol və get.

can riştəsi ilə və ürək qanı ilə təhrir və tənzim olunubdur. Əgər həqirə irad tutulsa ki, Molla Pənah Vaqifin və Molla Vəli Vidadinin əşar və əbyatı əksəriyyətlə mədhi-hüsn və eşqi-dilbər barəsində olub, özgə bir ruha qida, ağla qüvvət, fikir və xəyala hərəkət və vüsət verən əsərlər yoxdur, cavabında deyəcək sözlərimiz bu olacaqdır ki, əvvəla, bunlar öz əsrlərinin təqazasına müvafiq rəftar ediblər və hər nə ki, yazıblar, – xah müxəmməsat, xah müstəzad, xah qəzəliyyat və rübaiyyat, – təmamisi səmimi-qəlbdən və hissiyyati-həqiqi ilə bəhəmə gələn əsərlər olubdur. Belə ki, bunların mütaliəsi hər əhli-zövqə təsir edə bilir. Və saniyən, Vaqifin və Vidadinin mədhi-hüsn babində yazılan əsərlərindən əlavə, xeyli əşar və əbyatları dəxi vardır ki, onlarda keçmiş əsrin ayin və adatı və adamlarının adab və əxlaqı və dolanmaları artıq məharətlə riştəyi-nəzmə çəkilib, gələcək nəsil üçün böyük yadigar məqamındadırlar. Vaqifin Vidadiyə və Vidadinin Vaqifə yazdıqları nameləri möhtərəm oxucular mütaliə buyursalar, sözümüzü təsdiq edərlər. Molla Pənah Vaqifin tərifi-çuxa, nimtənə, kürk, şalvar və tüfəng və tərifi-Tiflis və vəsfi-hamam və mədhi-valiyi-Gürcüstan barəsində yazdığı müxəmməslər bəzilərə boş və bimənzun gəlirsə, həqiqətdə əhli-mərifət nəzərində bimisl əsərlərdir. Yüz sənə bundan əqdəm ata və babalarımızın dolanacağını, adab və əxlaqını, əlbisə və ətiməsini, arzu və təmənnalarını, fikir və xəyalatını və bilcümlə o əsrin övza və dəstgahını ustadi-bimisl olan Vaqif gözəl əşar və kəlami-abdari ilə yazıb gələcək nəsil üçün unudulmayan bir əlamət və yadigar qoyubdur. Bunlardan maəda Vaqifin əbnayi-vətənə vəz və nəsihət səpgisində yazdığı müxəmməsin məali-pürməzmunu həmişə doğruluq üzrə qalıb, oxucuların bir yandan təhsin və tərifinə və bir yandan heyrət və əndişəsinə səbəb olacaqdır. Həmən müxəmməsdən bir bəndi göstərməklə iktifa edirik:

Xah sultan, xah dərvişü gəda bilittifaq,
Özlərin qılmış giriftari-[qəmü] dərdi-fəraq.
Cifəyi-dünyayadır hər ehtiyacü iştiyaq,
Munca kim, etdim tamaşa, zillərə asdım qulaq,
Kizb, böhtandan savayı bir hekayət görmədim.

Görəsən, aya, bu sözlər hansı əqvam və miləl arasında məzmundan düşüb cifəyi-dünyaya ehtiyac və iştiyaq olmayacaqdır və adamların əmal və əqvalında kizb və böhtan əvəzinə doğruluq və düzlük işlənəcəkdir? Tutalım ki, sədaqət və düzlük yoxdur, bəlkə

Adəm atanın övladı arasında həqşünaslıq, şükrannemət, qeyrət, hümmət, şərm, həya, etibar və etiqad var. Heyfa ki, şair bunların da yoxluğunu təsdiq edib, bizi məyus və məlul eləyir. Budur, oxuyun:

Gün kimi bir şəxsə gündə xeyr verson, səd həzar,
Zərrəcə etməz ədayi-şükrnemət aşikar.
Qalmayıbdır qeyrətü şərmü həya, namusü ar,
Dedilər ki, etibarü etiqad aləmdə var,
Bundan ötrü mən də çox gəzdim, nəhayət, görmədim?

Filhəqiqə, acı və hüznavər sözlərdir və filhəqiqə ürəkdən çıxan suznak nalə və fəryaddır! Amma nə qədər acı və əziyyətli isə də həq və doğrudur, bunları batil etməyə əldə bir çarə və dəlilimiz yoxdur. Etiqad və etibar, qeyrət və namus özgə millətlərdə varsa da, biz müsəlmanlarda yoxdur. Və illa belə zəlalət və fəlakətdə qalmazdıq və bu ana qədər biz də bir ağ günə çıxardıq.

Qasım bəy Zakirin və Hacı Seyid Əzimin barəsində özgə bir vaxtda danışarıq. Bu iki vücud Azərbaycan şüəra və ədəbəsinin ən məşhuru və ən müntəxəbi hesab olunur. Azacıq sözlər ilə bunların tövsif və tərifi və əsərlərinin dərəcəyi-əhəmiyyəti təqrirə gələsi deyil.

İndiki şairlərimizə gəldikdə, onların təbi-şeirləri barəsində bir sözümüz yoxdur; təbləri mövzun, fikirləri gözəl, niyyətləri məqbul və müstəhsən olmağına şübhəmiz yoxdur. Bunların hamısı var. Ancaq şerə lətafət və məlahət verən hissiyyati-həqiqi və zövqi-təbii yoxdur va buna da səbəb anladığımıza görə odur ki, bu ərbabi-bəlağətlərimiz bir şeyin yaxasını tutub yüz cürə olfaz və ibarə və istiarələr ilə onu tərif və tövsif etməyə sərfi-hümmət qılırlar. Məsələn, "elm". Bu halda bir kəs tapılmaz ki, elmin fəzilət və mənfəətini və onun cümləyə zərur olmasını inkar edə. Avamdan dəxi sual olunsa ki, şeyin elmi yaxşıdır, yoxsa cəhli, bişək və laşübhə deyəcəkdir ki, elmi yaxşıdır. Belə olan surətdə uzun-uzun şeirlərdə elmi və kamalı tərif etməyə nə hacət var. Xah Avropanın və xah məşriq-zəminin məşhur ədibləri və namdar şairləri "elmi" və ya "məktəbi" sərməşq tutub, öz təlifat və əsərlərində bunları tərif etməyiblər. Gözəl nəsihətlər, hikmətamiz hekayələr, vətənə məhəbbət, millətə xidmət, təvarixdən şayani-diqqət, əhval və rəvayətlər, dostluqda sədaqət, əhdə vəfa etmək və bunlar misilli min cürə uca fikirlər və müqəddəs hisslər şairin silsiləyi-təbinə hərəkət versə, daha ziyadə mərğub olmazdımı?

1904

AZƏRBAYCAN DÖVRİ MƏTBUATININ QISA İCMALI

Otuz il bundan əvvəl Bakıda türk dilinin Azərbaycan ləhcəsində nəşr olunmağa başlayan "Əkinçi" birinci müsəlman qəzeti idi. Bu qəzetin banisi keçmiş müsəlman pedaqoqu və hazırda məşhur ictimai xadim olan Həsən bəy Məlikov idi. Qayğısız və heç şeyin fikrini çəkməyən, "xoş keçmişin" ənənələri əsasında tərbiyə alan, hər cür yeniliyə qarşı fanatik münasibət bəsləyən Zaqafqaziyada yaşayan azərbaycanlıların o zamankı geri vəziyyətini nəzərə alaraq, əlbəttə, "Əkinçi" qəzetinin böyük müvəffəqiyyət qazanacağını gözləmək olmazdı. Həqiqətən, qəzet ilk nömrələrindən soyuq və qeyri-səmimi qarşılandı. Cəmiyyətin bəzi təbəqələri isə qəzetə güclü düşmən müqaviməti göstərdi. Redaktorun işgüzar və məzmunlu məqalələri, istedadlı şair Hacı Seyid Əzim Şirvaninin müsəlmanları fəal və mənalı həyata səsləyən gözəl şeirləri ucsuz-bucaqsız səhrada yüksələn fəryadı xatırladırdı, cavabsız qalan bir çağırış idi. Bundan əlavə, cənab Məlikov ehtiyatsızlıq edərək öz qəzetində vaxtsız olaraq dini şəbehlər (şaxsey-vaxsey) məsələsinə toxundu və bununla da şiəlik tərəfdarlarının qızğın hiddətinə səbəb oldu. Hər tərəfdən redaktorun üstünə məzəmmət və biabırçı həcvlər yazılmağa başlandı. Şuşa şairləri həcvlər yazan başqa şairləri bu cəhətdən xeyli geridə qoydular. Hadiyül-Müzəllin adlı birisi Qarabağdan redaksiyaya, redaktorun adına biabırçı söyüşlər göndərdi. Cənab Məlikov bir qədər ixtisarla bu həcvi "Əkinçi"də dərc etdirərək ona diqqəti cəlb edən aşağıdakı qeydi verir: "Cənab Hadiyül-Müzəllin Qarabağinin aşağıda zikr olunan həcvini onların xahişinə müvafiq tamam çap elətməyə izin olmadı.... Amma o cənab və onu fitləyən əşxaslar məyus olmasınlar ki, belə kamallı söz pünhan qalacaq. Fikrim budur ki, bizim Zərdab kəndində, Qarabağın sərhədində bir daş qoydurub, onun üstə zikr olan həcvi tamam qazdıram ki, gələcəkdə bizim övladlar o yadigara baxıb bilsinlər ki, mən bu zəhmət ilə milləti-islamı qəflətdən ayıltmaq istəyən vaxtda necə nadanlara rast gəlmişəm".

Üç il ərzində qəzetdə dərc edilmiş mühüm materiallardan görünür ki, onun əsas məqsədi faydalı kənd təsərrüfatı biliklərini həm nəzəri, həm də əməli cəhətdən ölkənin əhalisi arasında yaymaqdan ibarət olmuşdur. Aqronomiya sahəsində yaxşı mütəxəssis olan və sadə xalqın dilini bilən Həsən bəy Məlikov qəzetin hər nüsxəsində

kənd təsərrüfatının müxtəlif sahələrinə dair çox maraqlı və faydalı məqalələr dərc etdirirdi. O, eyni zamanda, elmi məlumatları asan bir şəkildə, sadə və anlaşıqlı bir dildə oxuculara çatdırmaqda yüksək məharət göstərirdi. Bizim fikrimizə görə, bu məqalələr indi də öz əhəmiyyətini itirməmişdir. Əgər onlar müəyyən bir sistem halına salınıb, Azərbaycan dilində nəşr edilən dövri jurnallarda çap olunarsa, kəndlilərə fayda verə bilər.

Lakin "Əkinçi" öz oxucularını bu cür gözəl materiallarla təmin etməsinə və ümumiyyətlə, ayıq və mənalı istiqamətinə baxmayaraq o, uzun müddət davam edə bilmədi və əhatə olunduğu nadan, qaranlıq mühitlə ağır mübarizədə öz fəaliyyətini dayandırdı.

"Əkinçi"dən sonra Tiflisdə, bir-birinin ardınca "Ziyayül-Qafqaz" və "Kəşkül" adlı iki Azərbaycan qəzeti nəşr edilməyə başladı. Bu qəzetlərin müəssisləri Ünsizadə qardaşları – Hacı Seyid əfəndi və Cəlal əfəndi idi. Onlar çox bacarıqlı və Şərq dillərini yaxşı bilən adamlar olsalar da, qəzet nəşr etmək kimi çətin və mürəkkəb işi aparmağa hələ qəti hazır deyildilər. Bunun nəticəsində tez bir zamanda "Ziyayül-Qafqaz"ın nəşri dayandırıldı və onun əvəzində Cəlal əfəndinin "Kəşkül"ü çıxmağa başladı. "Kəşkül" də "Ziyayül-Qafqaz" kimi hazırlıqsız adamların əlində idi və o çox səliqəsiz və müəyyən istiqaməti olmadan nəşr edilirdi.

"Kəşkül"də, məsələn, M.F.Axundzadənin tərcümeyi-halı ilə bir sırada müxtəlif zarafatlar, lətifələr və ağlasığmayan gülməli məlumatlar dərc edilirdi. Bəzən qəzetin bir neçə nömrəsində dalbadal Dağıstan və Çeçen xarabalıqlarından redaksiyaya göndərilən ərəb dilində yazılmış uzun, heç bir ciddi əhəmiyyəti olmayan məqalələr çap olunurdu. Dini-əxlaqi məsələlərin müxtəlif sahələrindən bəhs edən və dil cəhətdən anlaşılmaz olan bu məqalələrin oksəriyyəti, yəqin ki, yalnız onların müəllifləri üçün çap edilirdi. Bu cür hikmətləri anlamağa hazır olmayan oxucuların oksəriyyətinə isə fikir verilmirdi. Öz-özlüyündən məlumdur ki, xalqın ehtiyac və tələblərini inkar edən və zamananın ruhuna cavab verməyən "Kəşkül" kimi mətbuat orqanı geniş yayıla bilməzdi və o, keçən əsrin 90-cı illərinə qədər güc-bəla ilə öz acınacaqlı fəaliyyətini davam etdirərək nəşrini dayandırdı.

"Kəşkül" qəzeti bağlandıqdan sonra Zaqafqaziya müsəlmanları on-on beş il öz ana dilində mətbuat orqanından məhrum qaldı. Bir neçə şəxsin Azərbaycan dilində qəzet çıxarmaq təşəbbüsü hökumət tərəfindən rədd edildi. Hökumət nə səbəbdən isə azərbaycanlılar

arasında maarifin yayılması sahəsində məhsuldar işi ilə tanınan və səsli metod ilə savad təlimi üçün birinci dəfə Azərbaycan dilində dərslik tərtib edən Zaqafqaziya müəllimlər seminariyasının müsəlman şöbəsinin keçmiş inspektoru, əməkdar müəllim Çernyayevskinin də xahişini rədd etmişdi. Lakin Qafqazın başqa xalqlarından geridə qalan və mədəniyyəti zəif inkişaf etmiş azərbaycanlılar yaxşı bir mətbuat orqanına hamıdan çox ehtiyac hiss edirdilər. Beləliklə, əgər "Ziyayül-Qafqaz" ilə "Koşkül"ü ictimai mətbuat orqanı deyil, müvəffəqiyyətsizliyə uğramış şəxsi ticarət müəssisəsi hesab etsək, onda məlum olur ki, Qafqaz müsəlmanları 25 il ərzində mətbuat vasitəsilə öz ehtiyac və tələblərini müzakirə etmək, məktəb işini yaxşılaşdırmaq və ümumiyyətlə, öz həyatlarını irəli aparmaq imkanından məhrum edilmişlər. Bu müddətdə rus təbəəliyində olan çoxmilyonlu müsəlman əhalisi üçün yalnız Bağçasarayda "Tərcüman" ("Переводчик") adlı həftəlik bir qəzet nəşr olunmuşdur. Baş senzor və şərqşünas cənab Smirnovun ciddi nəzarəti ilə nəşr edilən və kiçik formatda rus dilinə tərcüməsi ilə birlikdə çıxan bu qəzet də Rusiya müsəlmanlarının bütün tələblərinə cavab vermək imkanına malik deyildi. Bundan əlavə, Krım tatarlarının dilində çıxan "Tərcüman", xüsusən, əvvəllər hamı tərəfindən başa düşülmədiyi üçün Zaqafqaziyada geniş yayıla bilmədi. Hazırda "Tərcüman" həftədə üç dəfə çıxır. Onun məzmunu xeyli yaxşılaşmış və dili Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Belə ki, indi qəzet az-çox savadı olan azərbaycanlılar tərəfindən asanlıqla oxunur. Ədalət tələb edir ki, "Tərcüman"ın redaktoru cənab Qasprinskinin xidməti xüsusilə qeyd edilsin. Həyatının ağır şəraitdə keçməsinə baxmayaraq o, 25 il ərzində rus müsəlmanlarının maariflənməsi sahəsində qızğın enerji ilə işləmiş və indi də işləməkdədir.

1903-cü ildə bizim möhtərəm publisistimiz Məmmədağa Şahtaxtinski uzun əzab-əziyyətdən sonra Tiflisdə Azərbaycan dilində "Şərqi-Rus" adlı qəzet nəşr etməyə icazə alır. Bu qəzetin meydana gəlməsi nəinki yalnız Zaqafqaziyadakı azərbaycanlıları, hətta bütün Rusiya müsəlmanlarını sevindirdi. Hər tərəfdən redaksiyaya təbrik məktubları gəldi. 25 il əvvəl çox səylə "Əkinçi" qəzetinin redaktorunun adına deyilən mənasız və təhqiramiz həcvlər indi gənc "Şərqi-Rus" və onun redaktoru M.Şahtaxtinskinin adına yazılan tərifli himnlərlə əvəz edildi. "Allah bəndəsi" adlı birisi "Şərqi-Rus"un 17-ci nömrəsində ondan əvvəl çıxan Azərbaycan qəzetlərinin ötəri icmalını verib, müsəlmanları yeni qəzeti müdafiə etməyə çağırmışdı. O, azərbaycanlılar arasında nəşriyyat işinin çətinliyini, yeniliyini, nə yaxşı mətbəələrin, nə mürəttiblərin, nə də iş bilən əməkdaşların olmadığını nəzərə alaraq ilk vaxtlar "Şərqi-Rus" oxucularını qəzetə iltifatla baxmağa və əlbir olaraq onu möhkəmlətməyə çağırmışdı. Həqiqətən də, qəzetin işi ilk əvvəllər elə bil yaxşı getdi, onun yalnız Zaqafqaziyanın müxtəlif yerlərində deyil, bütün imperiyanın Kazan, Orenburq, Ufa, Peterburq, Moskva, Zakaspi vilayəti, Türküstan, Vladivostok və başqa yerlərində də abunəçiləri var idi.

Lakin yaxşı nəzəriyyəçi olan cənab Şahtaxtinski təcrübədə özünü doğrulda bilmədi. O, qəzet işində tam təcrübəsiz olduğunu göstərdi. Ən başlıcası isə, cənab Şahtaxtinski xalqının mənəvi inkişafını nəzərə almadığı üçün ciddi səhvə yol verdi və öz qəzeti vasitəsilə tərtib etdiyi yeni əlifbanı yaymağa çalışdı. O bununla özünə və qəzetinə qarşı ümumi narazılıq oyatdı. Düzdür, bütün müsəlmanlar tərəfindən qəbul edilmiş ərəb əlifbası müsəlman dünyasında tərəqqiyə ciddi surətdə maneçilik törədir və əsaslı dəyişikliyə ehtiyacı vardır. Lakin bütün məsələ köhnə, əsrlərlə işlənən əlifbanı ləğv edib, onun əvəzinə daha əlverişli və daha mükəmməl əlifba təqdim etməkdədir. Cənab Şahtaxtinskinin əlifbası isə heç bir xüsusi məziyyəti ilə fərqlənmirdi və o, başdan-ayağa yöndəmsiz və mürəkkəb hərflərdən ibarət idi. Hamı tərəfindən ən əlverişli hesab edilən ərəb rəqəm işarələri cənab Şahtaxtinskinin əlifbasında sait rolunu oynayırdı. Bu əlifbanın nöqsanları və yaramazlığı barədə mən elə o zaman, 1902-ci ildə Tiflis qəzetlərinin birində çox müfəssəl danışmışam. Cənab Qasprinski də öz "Tərcüman"ında bu əlifbaya qarşı çıxmışdı. Göründüyü kimi, sonralar cənab Şahtaxtinski özü də əlifbasının tələb olunan vəzifələrə cavab vermədiyini anladı və yavaş-yavaş qəzetindən bu məsələni çıxartdı. Lakin o bu qənaətə çox gec, "Şərqi-Rus" öz əvvəlki nüfuzunu itirdikdən sonra gəldi.

Lakin bununla bərabər qəzetin bağlanmasına başqa səbəblər də olmuşdu. Məsələn, bizim fikrimizcə, gənc "Şərqi-Rus"a "Kaspi" qəzetinin o zamankı əməkdaşlarının hücumları və "Tərcüman"ın arasıkəsilməz iradları əsassız idi. Bizə məlum olduğu kimi, bütün bunların nəticəsində, cənab Şahtaxtinskiyə böyük pula, əməyə və mənəvi əzablara oturan "Şərqi-Rus", nəşrinin ikinci ilində öz fəaliyyətini dayandırmağa məcbur oldu.

Keçən 1905-ci ilin payızında, təxminən 17 oktyabr manifesti ərəfəsində Bakıda həftəlik "Həyat" qəzeti çıxmağa başladı. Deyəsən, "Həyat" ona qədər nəşr edilmiş Azərbaycan qəzetlərinin hamı-

sından ən mötəbəri idi. Onu müsəlmanların ən yaxşı ədəbi qüvvələri – Əli bəy Hüseynzadə ilə Əhməd bəy Ağayev birlikdə redaktə edirdilər. Qəzetin böyük formatı, yaxşı kağızı, gözəl və aydın çapı, ən başlıcası isə əməli və dərin məzmunlu məqalələri oxuculara yaxşı təsir bağışlayırdı. Lakin qəzet 3-4 ay çıxdıqdan sonra Əhməd bəy Ağayev ondan ayrıldı və Bakıda öz "İrşad" qəzetini təsis etdi. Əhməd bəyin getməsi ilə "Həyat"da işlər zəifləməyə başladı. Qəzet yavaş-yavaş canlı və maraqlı orqandan darıxdırıcı və qeyri-həyati, sxolastik gündəliyə çevrilməyə başladı, ən vacib məsələlərə isə diqqət yetirilmədi.... Qəzet dil cəhətdən də getdikcə yerli azərbaycanlılar üçün çətin və anlaşılmaz oldu. "Həyat"da əməkdaşlıq edən şəxslər öz yazılarında İstanbulda təhsil almış qəzetin redaktoru Əli bəy Hüseynzadənin üslubuna səylə təqlid etməyə başladılar. Lakin bu təqlid çox gülünc nəticələr verdi. "Həyat" qəzetinin bağlanmasının səbəbləri haqqında biz öz mülahizələrimizi "Знание" qəzetinin 6-cı nömrəsində ayrıca danışmışıq.

Hazırda bütün Qafqazda Azərbaycan dilində yalnız bircə "İrşad" qəzeti nəşr edilir və o da maddi cəhətdən çox böyük ehtiyac və kəsir içindədir.

Kədərlə bu qəmli faktı qeyd etmək lazımdır ki, hələ xalq kütlələrində qəzet oxumaq ehtiyacı yaranmamış və onlarda ictimai məsələlərə qarşı bir laqeydlik və etinasızlıq hiss olunmaqdadır. Bizim yuxarıda göstərdiyimiz səbəblərdən başqa, bu axırıncı məsələ də şübhəsiz, "Əkinçi", "Kəşkül", "Şərqi-Rus" və "Həyat" qəzetlərinin bağlanmasına mühüm təsir göstərmişdi.

"İrşad" qəzetinin fəaliyyətini davam etdirmək üçün onun redaktoru və naşiri Ağayev lazımi miqdarda abunəçi toplamaq üçün Qafqazı səyahət etmişdir. Bu yolla abunəçi toplamaq, əlbəttə, çox adama qəribə və qeyri-adi şey kimi görünəcək, lakin başqa xalqlardan təhsil və mədəniyyətcə geridə qalmış müsəlmanlar arasında isə çap işinə yardım etmək üçün bu ən düzgün və bəlkə də, yeganə vasitədir. Yaxşı əməkdaşlar heyəti və Ağayev kimi təcrübəli publisistin rəhbərliyi altında nəşr edilən "İrşad" ən canlı, məzmunlu və gözəl mətbuat orqanıdır. Bu qəzet ictimai həyatın inkişafını açıq gözlə izləyir və onun səhifələrində Rusiya müsəlmanlarının həyatında az-çox əhəmiyyəti olan məsələlər diqqətlə və hərtərəfli müzakirə edilir. Odur ki, bütün vasitələrlə bu qəzetə yardım etmək mədəni müsəlmanların üzərinə düşür. Əgər bu qəzet də işin əvvəlində öz fəaliyyətini dayandırmağa məcbur olsa və qol-budaq atmadan solub məhv olsa, onda çətin ki, bundan sonra bir kimsə Azərbaycan dilində qəzet nəşr etməyə cəsarət edə....

Simaları hələ tam müəyyənləşməmiş gənc Azərbaycan jurnalları – "Dəbistan", "Rəhbər" və "Füyuzat" haqqında rəyi xüsusi məqaləmizdə verəcəyik.

1906

"MOLLA NƏSRƏDDİN"

Bu ilin aprel ayından Tiflisdə çıxan yumoristik "Molla Nəsrəddin" jurnalı ilk nömrələrindən başlayaraq bizim ölkənin müsəlmanları arasında canlı maraq oyatmışdır. Məlumdur ki, Şərq xalqları, xüsusilə azərbaycanlılar öz danışıqlarını məsəllər, atalar sözləri və Şərqin müdrik məzhəkəçisi olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər. Bu əfsanəvi Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəçisidir. Onun lətifələri o qədər həyati və məzəlidir ki, bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlıların arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər bir lətifəni danışmayan adam çox nadir tapılar. Hətta Azərbaycan dilində danışa bilən ermənilər və gürcülər də Molla Nəsrəddinin lətifələri ilə maraqlanırlar. Bu lətifələrdən çoxu isə müxtəlif müəlliflər tərəfindən rus dilinə tərcümə olunub "Сборник материалов для описания племен и местностей Кавказа"nın müxtəlif buraxılışlarında çap edilmişdir.

Jurnalı bir qrup ziyalı müsəlmanların əməkdaşlığı ilə savadlı və mədəni azərbaycanlı – Mirzə Cəlil Məmmədquluzadə nəşr edir. İndiyə qədər çapdan çıxmış nömrələrə əsasən deyə bilərik ki, "Molla Nəsrəddin", nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir. Belə nöqsanlar və mövhumat isə bir neçə əsr qaranlıq və cəhalət içərisində yatıb qalmış bizim cəmiyyətimizdə o qədər çoxalmış və o qədər dərin kök salmışdır ki, tənqidə onların hansından başlamağı təyin etmək belə çətindir. İlk zamanlar jurnal, hər şeydən əvvəl, müsəlmanların bu cəhalət yuxusundakı vəziyyətinə diqqət yetirmişdir. Jurnalın 1-ci nömrəsinin birinci səhifəsindəki şəkildə cəhalət yuxusunda yatanların səltənəti təsvir olunmuşdur. Jurnalın bütün nömrələrində eyni qaydada təsvir olunan Molla Nəsrəddin isə əlinin hərəkəti və istehzalı bir heyrət ifadə edən baxışı ilə bu mən-

zərəni seyr edir və görür ki, bütün mömin müsəlmanlar müxtəlif vəziyyətlərdə və paltarlarda yuxu allahı Morfeyin ağuşundadırlar. Gecə keçmiş, səhər açılmışdır. Pəncərədən düşən ziyalar bu yuxu səltənətini işıqlandırmışdır. Lakin heç kəs və heç bir şey bu möhkəm yatmış müsəlmanları oyatmağa qadir deyildir: qocalar və cavanlar, orta yaşlı kişilər – hamısı yatmışlar, bu aləmdəki hər şeyi unudub yuxuya getmişlər, sükunəti bütün dünyadan üstün tutmuşlar. Uzaqda cavan bir oğlan, deyəsən, qüvvəsini toplayıb oyanmaq istəyir, lakin ağır yuxu ona da gözlərini açmağa imkan vermir.

Molla öz oxucularına müraciət edərək deyir: "Ey mənim müsəlman qardaşlarım! Zamani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub o qədər "xa ... xa! ..." edib güldünüz ... o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsüz.... Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz ... o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza".

Jurnal hər şeydən çox müsəlmanlar arasındakı mövhumata, cəhalətə və fanatizmə gülür. Çünki bunlar müsəlmanların həyatında böyük bir maneəyə çevrilib və onların geri qalmağına səbəb olubdur. Məsələn, müsəlmanlardakı mövhumatı göstərmək üçün Molla onlara məsləhət görür ki, hər ayın üçündə, beşində, on üç, on altı, iyirmi bir, iyirmi dörd və iyirmi beşində, həftənin bazar və bazar ertəsi günlərində, habelə hər ayın 28 və 29-da jurnala abunə yazılmasınlar. Çünki bu günlər ağır və nəhs günlər hesab olunur. Həmçinin Molla məsləhət görür ki, redaksiyaya göndərilən məktublarda gərək metal pero ilə yox, mütləq qamış qələmlə, özü də elə dəbdəbəli və ibarəli bir dillə yazsınlar ki, orada bir kəlmə də Azərbaycan sözü işlənməsin. Çünki Azərbaycan sözlərini işlətmək şəxsin elminin azlığına dəlalət edir.

Susmaq müdrikliyin ən yüksək dərəcəsi hesab olunur. Əgər Həzrəti-Süleyman danışmağı gümüş, susmağı qızıl adlandırıbsa, "Molla Nəsrəddin"ə görə, susmaq lap brilyantdır. Buna görə də o öz həmməzhəblərinə məsləhət görür ki, bu qiymətli cavahiri göz bəbəkləri kimi qoruyub saxlasınlar və hər hansı bir həyati məsələdən söhbət düşəndə danışmayıb sussunlar. Xüsusilə, yaşadığımız indiki həyəcanlı zəmanədə susmaq daha çox lazımdır. Yoxsa bir kəlmə artıq söz üçün ictimai qayda-qanunu və ümumun sükutunu qoruyanların tələsinə asanlıqla düşmək olar. Susmağın əhəmiyyətinə dair jurnalda gözəl bir şeir dərc olunmuşdur ki, həmin şeirdə belə deyilir: "Əgər qonşuların səni döyüb incitsələr, sənə gülsələr, var-yoxunu əlindən alsalar, acıqlanma, başını aşağı sal və lal ol. Çünki sənin

xeyrin və qurtuluşun susmaqdadır". Molla Nəsrəddin müsəlmanlar arasından dövlət dumasına üzv seçilmiş adamlara da məsləhət görür ki, öz nüfuzlarını saxlamaq üçün özlərini mənasız hay-küy salanlara oxşatmasınlar. Müsəlmanlara məxsus səbir və dərin sükutla öz ağıl və ləyaqətlərini büruzə versinlər. Jurnalın beşinci nömrəsində dərc olunmuş "Məclisi-ədəb" şəkli müsəlmanlarda susmağın, mütiliyin və tam sükutun nə qədər uca bir mərtəbədə tutulduğunu göstərən ən yaxşı illüstrasiyadır.

Molla heç özünün mənsub olduğu təbəqəyə də rəhm etmir. Öz kəskin istehzalı və kəsərli sözləri ilə o, müsəlman ruhanilərinə tez-tez sataşır. Ruhanilərə hücumu əsaslı olsa da, bizim fikrimizcə, həddindən çox kəskin və bir qədər də tendensiyalıdır. Bizim ruhanilərin başlıca qüsuru onların cahilliyində və məhdud düşünmələrindədir. Ruhanilərin əksəriyyətinin əqidəsinə və anlayışına görə, dinin mənası yalnız zahiri xarakter daşıyan bəzi dini ayinlərin icrasındadır; dinin daxili mənası, onun əsas məğzi, əxlaq təlimi isə ya mollaların özlərinin başa düşməməsi, ya da şəxsi mənfəətləri üzündən şüurlu surətdə nəzərdən qaçırılır.

Jurnalın üçüncü nömrəsində (Hacı Seyid Əzim Şirvaniyə təqlid yolu ilə) dərc olunmuş "Keçmişi yad" şerində müəllif mollanın dili ilə keçmiş əyyamı xatırlayıb deyir ki, keçmiş zamanlarda mömin müsəlman bəndələrin hamısı cəhalət içində idi. Heç nəyi bilmir, heç nəyi anlamırdılar; mollanı hər yerdə alim və müqəddəs bir insan sayırdılar; onu plova, çaya qonaq edirdilər. Vəz edib hamının canına qorxu salanda hər yerdən ona pul və xələt verilirdi. Onda ki, övladi-vətən xam idi, kef çəkməli əyyam idi. O gözəl əyyam keçmişdir, onu geri qaytarmaq mümkün deyildir.

Müsəlman arvadlarının ağır və kölə vəziyyəti də jurnalın diqqətindən kənarda qalmamışdır. "Molla Nəsrəddin"in həmin nömrəsində belə bir şəkil verilmişdir: evin başçısı taxtda döşəkçənin üzərində uzanıb fikirli halda qəlyan çəkir; onun qabağında oturan kiçik bir oğlan uşağı qışqırıb ağlayır. Qəlyanı çəkən kişinin arvadı otağa daxil olur, onun paltarı köhnə, ayaqları yalındır. Əlində sənək var, bir uşağı da arxasına almışdır. Ər onu görən kimi qəzəbli halda deyir: "Ay arvad, Allah sənə lənət eləsin, bu uşaq mənim başımı apardı, gəl bunu da götür al dalına!"

Hər şeyi bilməyə çalışan kiçik bir qız nənəsindən soruşur ki, nə üçün onun sifəti saralmış və qırışlarla örtülmüşdür (Pozdnyakovun bu şeri tərcümə olunub "Dəbistan" jurnalında çap edilmişdir). Molla

nənənin əvəzinə qıza cavab verib, onun gözlərini açaraq deyir ki, hər bir Azərbaycan qızının taleyi belədir və həmin kiçik qızın özünü də belə bir tale gözləyir. O da vaxtından əvvəl solub-saralacaq, sifəti qırışlarla örtüləcək, qoca bir nənə olacaqdır. Mərhəmətsiz və qəzəbli atası 8-10 yaşlı bu kiçik qızı 40 yaşında dəvə boyda və kütbeyin bir kişiyə ərə verəcəkdir. O zamandan qızın həyatında qara günlər başlanacaqdır. O bir daha ömründə ağ gün görməyəcək, sevincə həsrət qalacaq və heç kəsdən təsəlli ala bilməyəcəkdir. Molla həmin kiçik qıza müraciət edib deyir: "Qızım, bu elə bir dərddir ki, əlacı yoxdur. Ərin tez-tez səni döyüb söyəcək, heç bir günahın olmadan səni təhqir edib alçaldacaqdır. Günlərin birində sənin ərin başqa bir arvad alacaq və səni həmişəlik unudacaqdır. Çox çəkməyəcək ki, ərin üçüncü bir arvad alacaq, sonra sizin aranızda həmişə dava-dalaş hökm sürəcəkdir. Dərd və kədər səni yandıracaqdır. İstər təqsiriniz olsun, istər olmasın əriniz gündə birinizi döyəcəkdir. Yaxın gələcəkdə səni də belə bir həyat gözləyir. O zaman sən də tezliklə qocalarsan, nənən kimi sənin də alnın qırışlarla örtülər".

Qonşu dövlətin – "Qızıl İranın" həyatı jurnala zəngin və çox maraqlı material verir. Hələ beş-altı il bundan əvvəl çapdan çıxmış olan məşhur "Səyahətnaməyi-İbrahim bəy" bizi İran həyatı ilə yaxşı tanış edir. Budur, qarşımızda belə bir şəkil vardır: İrandan bizə "əziz qonaqlar" kimi gələn, əslində isə cəhalət, zülmət, mövhumat və fanatizm carçıları olan dərvişlər, ilan oynadanlar, meymun oynadanlar, cadugərlər, gözbağlıcalar, nağıl deyənlər, fala baxanlar, cindarlar, mollalar, yuxu təbir edənlər, tiryək satanlar və asan qazanc əldə etmək üçün macəra axtaran digər fırıldaqçılar əl-ələ verib, cərgə ilə Araz çayından bu tərəfə keçirlər. Onlar hər il Zaqafqaziyaya yüzlərlə və minlərlə gəlir. Ölkədəki cahil əhalini istismar edir, onların əxlaqını pozur, camaat arasında fanatizm toxumu yayır, özləri də bizim pulumuzu ciblərinə doldururlar.

Budur, "Qızıl İranın" həyatından verilmiş başqa bir şəkil (№ 9). İran şəhərlərindən birinin küçəsində örtülü karetada tanınmış bir şəxs öz xanımı ilə gedir; xanım tülə və çadraya bürünmüşdür. Fərraşlar qabaqda gedərək qışqırırlar: "Çəkil, yol ver, gözlərini yum, kor ol!" Onlar təsadüfən həmin küçədə qarşılarına çıxan iranlıların kürəyinə və peysərinə zərbələr endirirlər, küçədəki iranlılar fərraşların əmrinə tabe olub, üzlərini divara çevirir və gözlərini yumurlar ki, karetada gedən mötəbər şəxsləri görməyə cəsarət etməsinlər. Bütün bu hadisələr XX əsrdə baş verir.

"Molla Nəsrəddin" uşaqların ev və məktəb tərbiyəsi məsələsinə böyük diqqət edir, müsəlmanlarda uşaqların ev tərbiyəsinin nə qədər acınacaqlı bir vəziyyətdə olduğunu və bu məsələnin, ümumiyyətlə, necə yanlış qoyulduğunu göstərən kəskin qeydə jurnalın demək olar ki, hər nömrəsində təsadüf edə bilərsiniz. Jurnalın altıncı nömrəsində dərc olunmuş "Laylay"dan görünür ki, müsəlman anaları uşaqlara hələ beşikdə ikən necə müdhiş mətləb və fikirlər aşılayırlar. Hazırcavablıqla yazılmış bir sıra məqalələrdə, məsələn, "Niyə mən dərsdən qaçdım?" adlı məqalədə "Hop-hop" adlı bir nəfər bizim məktəblərin nöqsanlarını çox aydın göstərib deyir ki, bu məktəblər uşaqların mənəvi keyfiyyətlərini və zehni qabiliyyətlərini artırmaq əvəzinə, onların əxlaqi cəhətdən korlanıb şikəst olmalarına kömək edir.

Jurnalda verilən məktublar çox bacarıqla tərtib olunur. Onlarda Qafqazın müxtəlif yerlərindəki sakinlərin adətləri və ənənələri göstərilir. Xüsusilə İrandan və Türkiyədən verilən teleqramlar da maraqlı olurlar. Onlardan bəzilərini misal çəkək: "Təbriz. 30 mart. Hacı Qurbanın şəkər zavodu yandı və iki milyon zərər mülahizə olunur". "Tehran. Tehrandan Bəndər-Buşirə kimi telsiz teleqraf işləməyə başladı". "German-Şiraz dəmir yollarının tətilləri gözlənir". "İstanbul. 29 mart. Küçədə gedən vaxt öskürməyi Osmanlı hökuməti əhaliyə qadağan edibdir" və ilaxir.

İran təqvimindən alınan və jurnalda verilən məlumat da çox maraqlıdır. Həmin məlumatda, məsələn, deyilir: Bu il həmişəki kimi çox toz olacaqdır. Hərgah yağış yağsa, yerdən nəbatat çox göyərəcək.... İran tərəqqi edəcək, Yaponiya tənəzzül. Osmanlı ilə Bolqariya ya dava edəcək, ya etməyəcək. Dava etsə, ya Osmanlı basılacaq, ya Bolqariya. Ulduzların vəziyyəti üləmalar üçün saatın xoş olduğunu xəbər verir. Üləmalar "İrşad" qəzetini və "Molla Nəsrəddin" jurnalını lənətləyəcək və bütün yeni elmlərin hamısını baykot edəcəkdir.

Jurnalın şəkillərinə gəldikdə, demək olar ki, onun rəssamı (O.Ş.-Linq) yerli əhalinin məişətini, adət və ənənələrini gözəlcə öyrənmişdir. Onun bəzi şəkilləri bilavasitə həyatdan alınmış lövhələri bütün dolğunluğu ilə oxucuya göstərir. "Qoç döyüşdürmək", "Qəzet satan və dövlətli tacir", "Ədalət", "Əziz qonaqlar", "Məclisi-ədəb", "İyirminci əsr", "Cümə. Dükanlar bağlı", "Qrammatika mübahisələri", "Vəqf", "Şəriət dərsindən imtahan", "Tacir Xoncaxani" və başqa şəkillər belədir. Ümumiyyətlə, "Molla Nəsrəddin" çox yaxşı təsir bağışlayır və öz çətin vəzifəsini hələlik müvəffəqiyyətlə yerinə

yetirir. Yəni azərbaycanlıların vaxtı keçmiş, köhnəlmiş görüşlərini, anlayış və adətlərini gülüş yolu ilə aradan qaldırmağa, onların adətlərini islah etməyə və özlərini də oyadıb yeni, nəcib və ciddi fəaliyyətə sövq etməyə çalışır. Biz C.Məmmədquluzadəyə səmimi-qəlbdən müvəffəqiyyətlər arzu edirik və ümidvarıq ki, müsəlman cəmiyyəti bu faydalı və yeganə jurnalın nəşrinə kömək göstərəcəkdir.

1906

QARANLIQDA QALANLARIMIZ

Rusların məşhur ədibi və timsalnəvisi Krılov "Ağacın yarpaqları və kökləri" adlanan bir timsalında yazır: "Baharın gözəl bir günündə ağacın yarpaqları səhraya kölgə salıb, sabah yeli ilə şirin söhbət edirdilər və özlərini tərif edib zəban-hal ilə səbadan sorurdular: – Məgər bu səhranı ziynətləndirən və ağacın özünə hüsn və lətafət verən biz yarpaqlar deyilik? Əgər biz olmasaq, ağac nəyə bənzər və özümüzü tərif etməkdə məgər bizim haqqımız yoxdur? – Biz deyilikmi çobanı sürüsü ilə günün istisindən saxlayan və onlara rahatlıq bəxş edən? Biz deyilikmi qızları və gəlinləri öz sayəmizin altına rəqsə gətirən, biz deyilikmi sübhlər və axşamlar bülbülü şövqə və həvəsə gətirib, ona gözəl nəğmələr oxutduran və sən özün, ey səba, müttəsil bizimlə olurdun, bir dəqiqə bizdən ayrı qala bilərsənmi?

Bu sözləri eşidib, yerin altından ağacın kökləri həzin səslə dedi: – Bizi də bir yada salıb razılıq etsəniz nə olur? Yarpaqlar qeyz ilə cavab verdilər ki, siz kimsiniz, sizin nə cürətiniz var ki, bizimlə belə küstaxanə mükalimə edəsiniz? Ağacın kökləri dedi: – Biz onlarıq ki, burada yerin altında qaranlıqda dolanıb sizi bəsləyirik və ağaca qüvvət və dirilik veririk. Biz onun rişələriyik. Sizinlə bizim təfavütümüz bundadır ki, sizin ömrünüz bir sənəlikdir. Hər yazdan yaza siz təzələnərsiniz. Amma biz həmişə qaranlıqda işləyib sizə həyat veririk! Əgər biz olmasaq, nə ağac səlamət qalar və nə də sizdə bu lətafət və təravət olar".

Bu timsalı burada zikr etməkdən muradımız budur ki, bizim müsəlmanların nücəba və əhli-kəmalı öz kökləri və rişələri mənziləsində olan rəiyyət tayfasını, əkinçi və cütçü qardaşlarını unudub, bilmərrə onların qeydinə qalmazlar. Və hətta biz onlara bir növ nifrət və həqarət gözü ilə baxıb, onları xar və zəlil tuturuq. Mayeyi-həyatımız

və səbəbi-eyşü zindəganımız olan ziraət əhlinə "qara rəiyyət" adı qoyub, onlardan özümüzü kənar tuturuq və onlar ilə ülfət və mülaqat etməyi kəsri-şanü şərafət hesab edirik. Ancaq öz zahiri-kamal və tərbiyəmizlə, nəcabətimizlə, təzə moda tikilmiş libasımızla və müzəyyən və münəqqəş otaqlarımızla iftixar və sərkəşlik edib, qaranlıqda qalan cəhl və nadanlıq cəngində zar və zəbun olan qardaşlarımızın dad və harayına yetişmirik. Bu sayaq onları özbaşına və öz halına qoyduğumuza görə onlar da gün-gündən cəhalət dəryasına qərq olmaqdadırlar, icz və zəlalətləri şiddətlə artıb çoxalır, dəmbədəm, saatbasaat tənəzzül etməkləri müşahidə olunur. Yüz sənə bundan əqdəm nə halət və nə dərəcə istitaətdə vardısalar, indi də o halda müstəhkəm durublar. Müddəti-mütəmadi bir halda qalmaqlıq dəlili-tənəzzüldür. Çünki bu müddətin ərzində sair əqvam və miləl kəmali-sürətlə irəli gedib, bizi geridə qoyublar. Bizim müsəlmanlar isə bir nöqtə üstündə sabitqədəmdirlər.

Elm və maarif kəsb edənlərimizin ümdə arzusu özlərini şəhərə salıb, istiə və mənfəətli qulluq tapmaqdır. Kəndlərimizdə əcəlsiz, dərmansız və müalicəsiz ölənlərin həddi hesabı yoxdur, nə əczaxana, nə mərizxana və nə elmli həkim və cərrah gözə dəymir... Ətfali-müslimin tərbiyəsiz və elmsiz qalıb ataları və babaları kimi dünyadan bixəbər, vəhşət və zülmət içrə zindəganlıq edirlər. Ülamalarımız və vaizlərimiz şəhər zindəganlığını kəndlərdə avam dehqanlarla müaşirət etməyə tərcih və təfəvvüq qılıb, öz nəf və xeyirlərinə və əmn-asayişlərinə xəlal yetirməzlər... Cavan müəllimlərin əksəri ki, darülmüəllimində kəsbi-maarif ediblər, bir sənədən artıq kənddə qalıb müəllimlik etməzlər və qaranlıqda qalan qardaşlarını ziyalandırıb, gözlərini açmağı özlərinə borc bilməyib, yüz cürə vasitələrlə onların içindən çıxıb qaçmağı və özlərini şəhərə salmağı böyük hünər bilirlər. Ali mədrəsələrdə ki, ibarət ola universitetdən, qisim-qisim institutlarda və akademiyalarda ikmali-təhsil edənlərimizin heç birisi özünə bu əskikliyi və həqarəti qəbul etməz ki, gedib kəndlərdə cəhl və nadanlıq qaranlığında qalan din qardaşlarını qəflət yuxusundan oyatsın və öz elm və mərifəti ilə onları da nurlandırsın. Universitetin axırıncı kursunda elm təhsil edən dövlətmənd bir ağazadə ilə millətimizin geridə qalmağı barəsində söhbət edirdim. Əsnayi-göftüguda ondan soruşdum ki, universiteti qurtarandan sonra niyyətin harada qulluq etməkdir? Cavab verdi ki, harada pulu çox versələr, orada. Cavani-məzbur əgər ki, ibtidai-kəlamda vətənə xidmət etməkdən və millətpərəstlikdən

dəm vururdu, amma burada öz ürəyinin əsil niyyətini bilaixtiyar izhar elədi. Və filhəqiqə haman cavan olan Bakı milyonçularının birisinə xidmət eləyir. Bəli, qızıl-gümüşün qüvvəyi-cazibəsi müqabilində heç bir əfkari-aliyəmiz tab gətirə bilmir. Təəccüb budur ki, hansı bir ziyalı və mədəniyyətli müsəlman qardaşı dindirirsən ahi-cigərsuz ilə deyir: "Millət əldən getdi, dinimiz puç oldu, sair tayfalar bizi qoyub irəlilədi. Gərəkdir çalışaq, gərəkdir rahatlığı özümüzə haram edək, milləti oyadaq, onun uğrunda can və maldan keçək, ona tərbiyə verək, elm nuru ilə onu işıqlandıraq" və bu qisim laf-kəzafdan dəm vurub boşboğazlıq edirlər.

Amma həqiqətdə heç biri öz şəxsi mənfəətlərini millət xeyrinə fəda etmir. Axırda baxırsan ki, yenə "qara rəiyyət"i öz fəna və pürməlal halları üzrə buraxıb, özlərini şəhərə salırlar. Qaranlıqda qalanlarımız dəxi kor-korana bir-birini tapdalaya-tapdalaya zülmət içrə heyran və sərgərdan qalırlar.

Mordəra mordə key konəd bidar?[1]

Tiflisdə sülh məclisinə daxil olan ərbabi-kəmal vəkillərimiz bu halı nəzər-diqqətə alıb, ümumi Qafqaz müsəlmanına məccanən təlim və tərbiyə vermək məsələsini meydani-müzakirəyə qoymuşlar və əsnayi-müşavirədə bu məsələ cümlənin diqqətini cəlb edib. Qonşularımız ermənı vəkilləri dəxi bu barədə bizim vəkillər ilə müttəfiq və müttəhid olublar... Ümidvaram ki, bundan sonra qaranlıqda qalanlarımız üçün dəxi işıq, nicat və səadət yolu açıla və bəlkə bundan sonra ikmali-təhsil edənlərimizin qəlbinə dəxi bir həqiqi məhəbbət düşə ki, qaranlıqda qalanlarımızın nicat və səadəti yolunda can-dildən sərfi-hümmət edələr.

1906

TAYBUYNUZ ÖKÜZ

Bu günlərdə qədim dostlarımdan birisi ilə görüşüb, onun halına çox təəccüb elədim. Bizim axırıncı görüşüb ayrılmağımızdan hələ üç il tamam gəlib-keçməyibdir. Amma bu az vaxtın ərzində əziz dostum bir o qədər dəyişilibdir ki, əgər əvvəlcə o mənə salam verib, əhval-pürsan olmasa idi və səsini çıxartmasa idi, mən onu

[1] Tərcüməsi: Ölünü ölü necə oyadar?

tanıya bilməyəcəkdim. Rast və gözəl qaməti əyilib, rəngi soluxub, gözlərinin işığı gedib, səsi zəiflənib, üzünün və başının tükləri çallanıb və tamam cüssəsi balacalanıb, qəroz, canı-başı salamat, təndürüst və müqtədir bir halda ikən indi çox həqir və məyus görünürdü. Doğrusu ki, dostumun bu pozğun halda və pərişan sifətdə olmağı mənə də artıq təsir edib, halımı digərgun və xarab elədi. Ağzımı açıb, onun bu gunə pəjmürdə hala düşməyinin səbəbini soruşmaq istəyirdim ki, onun özü guya mənim fikrimi duyub, başladı öz əhvalını və başına gələn qəza və qədəri söyləməyə. Sözlərindən məlum oldu ki, həqiqətdə kişinin dərdi çox imiş və o biçarəni bu hala salan ağ gün olmayıbdır, qara gün olubdur. Bir xeyli öz əhvalatından söyləyib, axırda ürəkdən bir ah çəkib dedi:

– Qəroz, nə başını ağrıdım, mənim dərdim yerə-göyə sığası deyil, mənim günüm taybuynuz öküzün günündən bədtərdir. Və həqiqət hala mültəfit olsanız, yalqız bir mən deyiləm; hamı müsəlman qardaşlar taybuynuz öküzün halında yaşayıb zillət və üsrət ilə güzəran keçirməkdədirlər. Vəli biar və xüsusən avam olmaqları cəhətə öz hallarından bixəbərdirlər və qəzalarına razı olub, hər qisim zülm və sitəmə səbir və təhəmmül edirlər. Və çox bərkə düşəndə özlərinə bu gunə təsəlli verirlər: – Kişinin aqibəti gərək xeyir olsun. İnşallah, aqibət və əbədi səadət biz müsəlmanlar üçündür. Bu dünyamız yox isə də, axirətimiz var. "Məhəmməd ümməti damda qalmaz". Amma məsələnin ikinci misrasını unudurlar və ya qəsdən demirlər ki, "Damdan çıxınca canı da qalmaz..."

Dostumdan təvəqqe elədim mənə bəyan etsin görüm taybuynuz öküzün halı necədir ki, onu öz halına və müsəlmanların halına təşbih qıldı. O gülümsünüb dedi: – Taybuynuz öküzün halı belədir ki, onun buynuzunun biri yoxdur və belə olan surətdə o yazıq necə ki, lazımdır özünü xəta və bəladan mühafizə edə bilmir. Onun taybuynuz olmağına da səbəblər çoxdur: ola bilər ki, xilqətdən elə məyub yaranmış ola və yainki cahillikdə keyfi qalxıb öz həmcinsi ilə oynaşıb buynuzlaşan zamanı həmcinsi ona güc gətirib, basıb buynuzunun birini dibindən qoparıbdır. Və elə də ola bilər ki, əvvəlcə xam vaxtda işə getməkdə bir az kahıllıq və tənbəllik etmiş ola və sahibi acıqlanıb hirs və qəzəbinin şiddətindən vurub, buynuzunun bir tayını çıxardıbdır və bundan əlavə yenə də qeyri səbəblər ola bilər, hamısını sadalamağa ehtiyac yoxdur. Hər halda əvvəl binadan yazığın günü qara gəlib, Allahın qəzəbinə giriftar olubdur. Həm öz həmcinslərinin və həm də bəni-nəvi-bəşərin nəzərində hörmətdən

düşübdür. Biçarə guya özü də öz fəna halını dərk edib, taleyinə tabe olmaqdan başqa bir çarə bilmir və cümlənin xahişini əmələ gətirməkdə olub, öz arzu və təmənnalarını unudubdur və o gündən bəri xoşgünlük və rahatlıq qeydinə düşmür və müttəsil övqatını zəhmət və məşəqqətdə keçirib, bir kəsdən çəkdiyi zəhmətin əvəzinə razılıq və xoş sifət görmür. Bir dəfə sahibi onu xoş dillə dindirib könlünü almır. Əgərçi öküz dilsiz-ağızsız heyvandır, özü danışmır, amma onun barəsində danışılan sözlərin çoxunu anlayır. Məgər sən görmürsən əkinçi yer əkən zaman nə gözəl sözlərlə və xoş avazla mahnı oxuyub, öküzləri ilə tərğib eləyir və öküzlər necə hali-dillə özlərini işə verirlər. Taybuynuz öküzə heç mahnı oxuyan, xoş dillə onu oxşayan və xatirini alan olmur və işə bir az ağır gedəndə yaman sözlərdən, töhmətdən və döyülməkdən başqa bir şey görüb eşitmir, onun ac və susuz qalmağı da bir kəsin xəyalına girmir...

Amma işə gələndə hamı çarpalardan əvvəl yada düşən taybuynuz öküz olur. Odunamı getmək, suyamı getmək lazımdır, taybuynuz öküz olsun, cüt əkməkmi lazımdır, yenə taybuynuz öküz gəlsin, dəyirmana dən aparmaq və dəyirmandan unu evə gətirmək taybuynuz öküzün borcudur, xırmanda taxıl döymək ancaq taybuynuz öküzün işidir. Bu ağır işə yayın isti günlərində ondan savayı hansı heyvan tab gətirə bilər? Və çox vaxt xırman döyəndə yazığın ağzını da bağlayırlar ki, belə rənc və zəhmətlə döydüyü arpa-buğdanın küləşindən və ələfindən yeməsin. Bunların hamısına yenə bir sayaq tab gətirmək olar, bunlar demək olur ki, dərdin yarısıdır. Fəqirin işi ələlxüsus çətinə düşür köç-düş zamanı. Məlumdur ki, bir az hava qızdı, tərəkəmə əhli aranda dayana bilməz. Gərəkdir yaylağa qaçsın və orada soyuq düşənə kimi gərək bağ-bostan solmamış özünü arana yetirib şalaqdan və kal meyvədən yeyib qızdırmaya düşsün. Bu dağdan arana və arandan dağa köçən zaman taybuynuz öküz kor əzabı çəkir: harada ağır və narahat yük varsa sarınır onun belinə və bundan əlavə bir o qədər də üstəlik qoyulur. Köç vaxtı özün bilirsən ki, xırda-para şeylər çox olur və tərəkəmə əhlində də insaf olmaz, əlinə hər nə gəlsə ağırlığına, yüngüllüyünə baxmayıb atır dilsiz-ağızsız heyvanın üstə: sac, təknə, sacayaq, cəhrə, nehrə, yun darağı, toyuq səbəti, su sənəyi və yüz cürə belə şeylər bağlanır taybuynuz öküzün üstə və hansı ki, dinməz və fərağət durub üstünə yük qoyulduqca itaət boynunu əyib guya zəban halilə duyur: "Ey bimürüvvətlər! Çox da mən sizin cövr və sitəminizə səbir edib dinməyirəm; sizdə də bir insaf olsa nə olar, ey Allahdan bixəbər insan?!"

İndi, əzizim, cəhd elə taybuynuz öküzün halına düşmə, yoxsa insan övladından rəhm və mürüvvət gözləmək olmaz. Əgər bilmək istəsən ki, nə səbəbə taybuynuz öküzdən savayı özgə heyvanatın haqqında belə zülm olunmur. Onu da ərz eləyim, özgə heyvanlardan bəzisini, səbəb nə isə, sahibi əziz tutur. Ağır işə salmır ki, arıqlar, ətdən və sifətdən düşər. Bəzisi ağır yük götürmür, bir az yükü ağır olanda şıllaq atıb soncuqlayır, yükünü aşırır və üstündə olan qabqacağı tökü sındırır. Bəzisi də kahıl və inad olub, işə getmir. Yük altında bir az yol gedib yatır, elə ki yatdı, daha durmağına ümid yoxdur, nə qədər acıqlanırsan, döyürsən, osla ona kar eləməyir. Çox vaxt görürsən ki, yükünü də açıb özgə taybuynuz kimi heyvanlara yükləyirlər, yenə də durub getmək istəmir. Belə heyvanın dərisini soymaqdan başqa özgə əlac yoxdur. Və bəzisini də işə artıq qoşanda tündləşib buynuz göstərir, belə ki, axırda yenə zəhmət taybuynuz öküzün üstə düşür. Nə eləmək? Əvvəl başdan o binəvanın günü qara gəlibdir. Allah heç bəndəsini taybuynuz öküzün gününə salmasın!

1906

HƏSƏN BƏY MƏLİKOV

Bu fani dünyanı, onun əzab və əziyyətlərini həmişəlik tərk edib aramızdan getmiş Həsən bəy Məlikov müsəlmanlar arasındakı məşhur ictimai xadimlərdən biri idi.

Biz Həsən bəylə 1906-cı ilin avqustunda Bakıda, müsəlman müəllimlərinin qurultayında tanış olmuşduq. Həsən bəy həmin qurultaya sədr seçilmişdi. Yaşının çox olduğuna baxmayaraq pedaqoji xarakter daşıyan hər hansı bir məsələnin həllində o canlı zəkaya, xeyli təcrübə və biliyə malik olduğunu büruzə verirdi və müsəlmanlar arasındakı ikisinifli ibtidai məktəblərin nəzdində kənd təsərrüfatının müxtəlif sahələri üzrə şöbələr açılması üçün təhsil üzrə ölkənin ali rəisliyi qarşısında vəsatətdə bulunmaq fikrini də ilk dəfə o ortalığa atmışdır. Böyük həyati təcrübəyə və fitri zəkayə malik olan Həsən bəy hər şeydən daha çox bizim məktəblərin təbii ehtiyaclarına və tələblərinə diqqət yetirirdi: o, boş və gurultulu ibarələri sevmirdi və həyatla az tanış olan bəzi gənc pedaqoqların söylədiyi nitqlər, görünür, onu dilxor edib əhvalını pozurdu; bütün bun-

larla birlikdə, onda böyük səbir var idi və başqalarının mülahizəsinə lazımi bir hörmətlə yanaşırdı.

Həsən bəyin əsas xidmətlərindən biri bundan ibarətdir ki, o öz həmməzhəblərinin oyanmasına ilk təkan vermişdir. Biz hələ keçən ilin dekabrında "Zəraqpraə"də Həsən bəyin "Əkinçi" qəzeti haqqında rəy vermişik. "Əkinçi"nin məqsədi müsəlmanların mədəniyyətsiz kütlələri arasında faydalı kənd təsərrüfatı biliklərini yaymaq idi.

Qəzet bu məqsədi izləyərək, öz səhifələrində kənd təsərrüfatının müxtəlif sahələrinə dair sadə xalq dilində xeyli müxtəlif məlumat verir, torpağı gübrələməyin ən yeni qaydalarını göstərir, bu və ya digər təkmilləşdirilmiş kənd təsərrüfat alətlərinin tətbiqi haqqında yazırdı.

Bundan əlavə, qəzet öz oxucularına təbabətə, hifz-səhhəyə, fizioloqiyaya və sairəyə dair bir çox faydalı məsləhətlər verirdi. "Əkinçi" qəzetində "Müsəlmanların geri qalmasının səbəbləri", "İslam tərəqqiyə mane olurmu?" və bu kimi vacib məsələlərə toxunan çox ciddi məqalələr də dərc olunurdu.

Bu və başqa məsələlərə dair "Əkinçi" qəzetinin əsas əməkdaşları – Əhsənül Qəvaid, Heydəri, sabiq şeyxülislam Hüseynzadə, Əsgər ağa Gorani, Nəcəf bəy Vəzirov tərəfindən yazılmış faydalı məqalələr indi də öz əhəmiyyətini itirməmişdir.

Lakin, təəssüf ki, bu qabaqcıl adamların bilik və elm ziyasını müsəlmanların cahil kütlələri arasında yaymaq cidd-cəhdləri və onları daha yaxşı və şüurlu bir həyata çağırışları təsəlliverici bir nəticəyə gətirib çıxarmadı və müsəlmanlar əvvəlki kimi yenə də elm və maarif məsələlərinə laqeyd qaldılar. Hələ bu azdır, onların bəziləri Həsən bəydən xahiş etmişdir ki, onları rahat buraxsın və elm haqqında bu "səmərəsiz" hədyanlarla onları əziyyətə salmasın.

"Əkinçi"nin 1876-cı il 7-ci nömrəsində Həsən bəyin dostlarından bir nəfər "S" imzası ilə yazdığı məktubunda ondan soruşur ki, bu "elmi-əbdan"[1] haqqında yazmaqdan nə vaxt əl çəkəcəkdir.

Öz şübhəsini ifadə edərək bildirir ki, Həsən bəy bu "elmi-əbdan" məsələsi ilə işi o yerə gətirib çıxaracaqdır ki, qəzeti bağlanacaqdır. Həsən bəy öz dostu "S"-yə cavab verib deyir ki, peyğəmbərin dünyəvi elmlərin həyat üçün əhəmiyyəti və zəruriyyəti haqqındakı sözlərini müsəlmanlar çoxdan unudublar və o həmin sözlərin əhəmiyyət və mənasını bərpa etməyi özü üçün müqəddəs vəzifə sayır. Buna görə də, azərbaycanlıların yeganə qəzeti olmaq

[1] "Elmi-əbdan" ifadəsi altında şəriət dərslərindən başqa bütün elmlər nəzərdə tutulur.

etibarilə "Əkinçi" dərvişlik edib, öz oxucularına "1001 gecə" nağılları danışa bilməz; bu qəzet öz qüvvəsi daxilində cəhalət zülmətindən Allahın işıqlı dünyasına çıxmaqda öz həmməzhəblərinə kömək etməyə borcludur.

1907

MİLLİ BAYRAM

Budur, beş-altı aydır ki, hörmətli qonşumuz gürcü milləti artıq ciddi-cəhd, şövq və həvəslə böyük bir milli bayramlarının icrasına hazırlaşmaqdadırlar. Bu bayrama, demək olur ki, tamam millət hazırlaşır. Böyük, kiçik, arvad, kişi, xəvass və avam, müəllim və şagird, hər bir sinif və firqə, hətta mehmanxanalar və traktirlərdə qulluq edən lakeylər də milli bayramlarına hazırlaşmaqdadırlar. Bu bayram gürcülərin məşhur şairi Akaki Seretelinin əlli sənəlik yubileyidir ki, bu dekabrın 7-də artıq cəlal və təntənə ilə Gürcüstanın hər yerində icra olunacaqdır. O vaxt biz də "Tərəqqi"nin möhtərəm oxucularına cənab Seretelinin tərcümeyi-halından və asari-qələmiyyəsindən icmalən məlumat verərik. Burada ancaq gürcülərin bu ittihad və ittifaqı bizi bir yandan şad edib, bir yandan mütəəllim etməklə və dərin fikirlərə salmaqla qarcini-girami aşna etmək istəyirik.

Əlli sənə millətə xidmət eləmək, onun ürəyində gözəl və pakizə hissiyyatın doğub nəşv-nüma tapmasına səbəb olmaq, millətin keçəcək və istiqbalını, nicat və səadətini şairanə və ədibanə nəzmə çəkmək, əbnayi-millətin təlim və tərbiyəsinə, ruhani məişətinə qulluq eləmək, əlbəttə, böyük hünərdir. Əlli sənə millət balalarının beşiyini yırğalayıb onlara layla çalmaq, gözəl nağıllar demək, millət analarının qəlbində məhəbbət toxumu saçıb o məhəbbətlə Gürcüstanın yaralarını sağaltmağı mühəyya etmək, millət cavanlarının ürəyində qeyrət və fədakarlıq hissiyyatına pərvəriş vermək, millət əkinçilərinin ağır zəhmətini gözəl mahnılar ilə yüngülləşdirmək, əlbəttə, böyük və əvəzsiz qulluqlardır ki, bunların müqabilində nə qədər hörmət və ehtiram olunsa yenə də azdır. Bu qədər vəsfə gəlməyən xidmətlərin əvəzində hər bir maddi müavinət və ehsanatdan, hər qisim töhfə və hədiyyələrdən ziyadə şairi xoşhal və səadətmənd edən bir şey varsa o da millətin məhəbbətidir. Sereteli cənablarını bu bimisl səmimi və mənəvi töhfə ilə biz təbrik edə bilərik. Doğrudan da gürcü camaatının ürəyi şairə nisbət məhəbbət hissi ilə doludur necə

ki, gürcü milləti sağ və salamatdır, onun adı dəxi xəyal ilə zində və baqi qalacaqdır. Budur, qonşularımızın hal-həyatda olan şair və ədibləri haqqında etdiyi ifayi-məhəbbət və müvəddət və izhari-sədaqət və xülusiyyət! İndi keçək ölmüş ədiblərinin üstə.

Keçən sənədə sentyabrın 7-də knyaz İlya Çavçavadzenin təşyiyi-cənazəsində olub, gürcülərin mütəvəffi ədiblərinə göstərdiyi ehtiramı da gördük. Bu qisim ehtiramı və bu sayaq təziyədarlığı, belə ittihad və ittifaqı bu vaxta kimi biz bir kəsin haqqında görməmişdik. Cəmi Gürcüstan, demək olardı ki, böyük bir hüzn və qəmə, intəhasız bir yasa düçar olub öz şairlərinin cəsədi ilə belə ruhani zindəganlıqlarının mayəsini hazırlaşdırdılar ki, qara torpağın altında dəfn etsinlər. Gürcüstanın hər yerindən: uzaq və uca dağlarından, dərin dərələrindən və qalın meşələrindən deputatlar Tiflis şəhərinə cəm olub, hər biri bir növlə izhari-təəssüf və zar-təzərrö edirdilər. Əkinçidən tutmuş ərbabi-qələmə kimi, rəiyyətdən knyazlaracan, fəqir-füqəradan sərvət və dövlət əhlinədək, hər qisim sənətkar və əsnaflardan, şagirdlərdən, müəllimlərdən, qara camaatdan, ruhanilərdən, mütəəllim və mütəəllimələrdən, hər bir firqə və partiyalardan, sahibi-mənsəblərdən, mütəəddid dəftərxana çinovniklərindən iki yüzəcən venoklar mühəyya olunub, hər firqənin vəkili öz venokunu məhzun və qəmgin bir halət üzrə təşyiyi-cənazədə apardılar. Gürcü qəzetə və jurnalları başdan-ayağa hüznavər və ənduhsirişt məqalələrlə dolmuş idi. Hər yazıçı bir dil ilə, hər şair bir növhə və tərane ilə yetmiş sinnində məqtul olunmuş ədiblərini oxşayırdı...

Aya, biz Azərbaycan türklərinin seretelilərі və çavçavadzeləri olmayıbdırmı? Bizim milli şairlərimiz ərseyi-dünyaya gəlməyibdirmi? Aya, bizlər belə möhtərəm şəxslərin vücudundan məhrummu qalmışıq? Bu suallara cavab verib deyə bilərik ki, bizim də çox böyük, müqtədir və xoştəb milli şairlərimiz olubdur və lakin müteəssüf onların qədir və qiyməti nə öz vaxtlarında və nə bu halda bilinməyibdir. Bu vaxtadək nə Qasım bəy Zakirin və nə Hacı Seyid Əzim Şirvaninin tərcümeyi-halları və əşari-asarı kamalınca öyrənilməyibdir. Bu qəflət və kəmetinalıq bizim hala cəhalət və kəsalət içrə yaşayıb qalmağımıza böyük bir sübutdur. İndiyə kimi Qasım bəy Zakirin əsərlərindən Adolf Berjenin Leypsiqdə təb olunmuş məcmuəsinə daxil olan nəviştəcat və bəzi qəzəliyyatdan başqa birisi də çap olunmayıbdır. Hacı Seyid Əzimin əsərlərindən bir parası çap olunubsa da, bir çoxu dəxi təb və nəşr olunmayıbdır. Çap olunanları dəxi xeyli biqayda və bisəliqə tərtib olunubdur.

Əsla lüzumiyyəti olmayan və toqazayi-zəmanayə müvafiq gəlməyən əsərlər məcmuəyə daxil olduğu [halda], ziyadə əhəmiyyətli və lazımlıları unudulub kitaba salınmayıbdır. Nəstəliq xətti ilə Ünsizadənin mətbəəsində çap olunmuş kitabda həddən ziyadə səhv və qələtlər vardır, kitabın kağızı alçaq və cod olmağa görə bəzi yerləri bir sayaq qarışıq və bulaşıq xətlə çap olubdur ki, düz oxunması savad əhlinə dəxi müyəssər deyil. Budur bizim əvvəlinci şairimizin, milli ədibimizin və mayeyi-fəxrimiz olan Seyidin əsərlərinə və ya digərlərinə olan hörmət və ehtiram. Bizim yəqinimizdir ki, əgər Hacı Seyid Əzim kimi şair, Avropa əhlini hələ kənarda qoyaq, bizim qonşularımız erməni və gürcü tayfalarının içində vücuda gəlmiş olsa idi, onun əsərləri kərrat ilə çapdan çıxıb, oxucular arasında bir dərəcədə intişar bulmuşdu ki, uşaqdan böyüyə kimi cümləsi onları oxuyub əksəriyyəti əzbərdən bilərdilər.

Budur, beş ildən ziyadədir ki, biz fəqir milli şairlərimizin tərcümeyi-hallarına dair əhvalat yığmağa çalışırıq, kifayətincə məlumat cəm etmək bacarmadıq. Hacı Seyid Əzimin, Abdulla bəy Asinin və mərhum Mirzə Fətəli Axundzadənin vəfatlarına gəldikdə bunların haqqında izhar olunan bietinalığı və bir dərəcədə biədəbliyi dilə gətirməsək yaxşıdır... Ancaq mayeyi-təsəllimiz bu ola bilər ki, ədiblərimizin qədir və qiyməti öz vaxtlarında və bu halda bilinməsə də gələcəkdə qəflət yuxusundan ayılmış millətimizin zirək və qədirşünas balaları bilərlər və onların nam və şöhrətini uca məqama qalxızarlar və bu unudulmuş əsərlərini intişar etməklə adlarını zində qılarlar. Çünki bizim şüəra cismən ölüb fövt olublarsa da, ruhən və mənən həlak olmayıblar.

Farsların Sədi və Hafizi diri qalan kimi bizlərin də Zakiri, Seyidi, Nəbatisi, Saliki, Arifi, Fəqiri, Kamisi gərək diri qalsınlar.

Mərhum Hacı Seyid Əzimin bu beyti ki, onun qəbir daşına yazılıbdır, bizim arzunun gələcəkdə nəticə-bəxş olunmasına şəhadət verir:

Mövti-cismani ilə sanma mənim ölməyimi,
Seyyida, ölmərəm, aləmdə səsim var mənim!

Əlbəttə, bizim də milli bayramımız olacaqdır!

1908

MƏİŞƏTİMİZƏ DAİR

I

Karvan rəfto to dər xabə biyaban dər piş
Key rəvi, rəh ze ke porsi, çe koni, çun başi?[1]

Xacə Hafiz Şirazinin bu beyti övqati-əzizəsini qəflət və bətalətdə keçirmiş bir nəfsi-vahidin fəna halını bəyan etdiyi kimi, bütün bir qövm və tayfanın və hətta bir millətin qəflətdən bidarı və tənbihəsi üçün hikmət üzü ilə yazılmışdır, – desək, xəta olmaz. Bəhərtəqdir zamani-hazırda bu beytin məalı bizim hal və şanımıza və övzayi-əhvalımıza ən münasib, ən müvafiq gəlir.

Miləli-müxtəlifə tərəqqi və təmeddün yolunda səy və tələşi, rənc və zəhməti istirahət və qəflətə tərcih verib, elm və bilik sayəsində irəli gediblər. Övzayi-məişətləri elə bir münsiq və münəzzəm qaydaya düşübdür ki, gün-gündən qabağa getməyə şəkk qalmır. Biz müsəlmanlara gəldikdə, biz bəşəriyyət karvanının qatarından üzülmüş yorunuq dəvə kimi bir yerdə qalıb, uzun dəhrləri xabi-qəflətdə keçirmişik. Bu halda ətrafımızda vüquə gələn hadisat, əlamat, gurultu, nərilti və hürriyyət yolunda olan vuruşma və çırpışma bizi də bir növ yuxudan oyadıbdır, gözümüzü açıb görürük ki, karvan çoxdan gəlib-gedibdir. Qabaqda vəsi bir biyaban, yolu getməyə nə dizdə taqət və nə də ürəkdə hünər, nə qəlbdə mətanət və nə də mənzurda bir rəhbər və dəlil! Odur ki, Xacə Hafiz bizim kimi qəflət yuxusunda vaxtını keçirmiş bir millətə xitabən deyir: "Key rəvi, rəh ze ke porsi, çe koni, çun başi?". Yəni yolu nə vaxt gedəcəksən? Səni xabda qoyub kecən karvanın sorağını kimdən soracaqsan? Nə eləyəcəksən? Başına nə çarə qılacaqsan?..

Filhəqiqə heç bir millət mədəniyyət aləmindən, elm, mərifət nurundan bizim kimi uzaq düşməyibdir. Heç bir millətin, heç bir qövm və tayfanın üstündə o qədər ağır təkliflər və çətin məsələlər yığılıb qalmayıbdır, nə qədər ki, biz müsəlmanların üstündə qalıbdır. Qonşularımız öz dolanacaqlarına, məişəti-ümumiyyələrinə aid hər qisim məsələlər törətdikcə vaxtın təqazasına müvafiq ittifaqla təhqiq və tədqiq etdikdən sonra əməl ediblər. Sonra qeyri məsələlərin halına və qeyri ehtiyacların rəfinə sərfi-hümmət ediblər. Hər bir məsələni öz vaxtında, hər bir ehtiyacı zühuru əsnasında təhlil və təshil qılıblar.

[1] Tərcüməsi: Karvan getdi, sən yatmısan, qarşıda biyaban var.
Nə vaxt gedəcəksən, kimdən yolu öyrənəcəksən, nə edəcəksən, necə olacaqsan?

Biz isə... Biz indiyə kimi ümumi işlərimizə dair bir məsələni layiqincə həll etməmişik, milli ehtiyaclarımızdan birisini də rəf qılmamışıq, ümumi qüsurlarımızdan birisini də təshih eləməmişik, köhnə ehtiyaclarımız təzəsinə və təzələri köhnəsinə qarışıb cümləsi təzə hökmündədir.

İyirmi-otuz sənə bundan müqəddəm mərhum Həsən bəy Zərdabi "Əkinçi" qəzetəsində atəşli dil ilə yazdığı ehtiyaclarımız, on sənə bundan irəli müdiri-möhtərəmimiz Əhməd bəy Ağayev "Kaspi" ruznaməsində məhəlli-müzakirəyə qoyduğu mühüm məsələlərimiz, ümum qüsur və nöqsanlarımız indi də irəliki sayaqda və qədimki halında qalıbdır. Heç bir işimiz rövnəq tapmayıbdır, layiqincə nizam və qaydaya düşməyibdir. Nəbati demişkən: "Hələ ləng, ləng, ləngdir".

Bu süstlüyə, bu acizliyə, bu bir nöqtə üzrə donub qalmağa ümdə səbəb, necə ki, irəliki məqalələrimizdə dəxi zikr etmişdik, camaatımızı təşkil edən hər bir sinfin öz darca və qaranlıq dairəsində güzəran etməyi olubdur, hər bir firqənin öz məxsusi kar-barının, nəf və səlahının və dolanacağının dalınca tələş etməsi olubdur. Rəyasət və hörmət iddiasında olan ruhani ataların və alicənab ağaların hirsi, qərəzi, tamahı və kütahbeyinliyi olubdur.

Millət qeydinə qalan, camaat nəf və səlahını mülahizə edən, onun dərd və mərəzlərinə çarə axtaran olmayıbdır. Atalardan qalma ittihad və ittifaqa məxsus gözəl məsəllər unudulub, nifaq və ixtilafa mənsub olanları: "El üçün ağlayan gözsüz qalar", ya "Məndən ötdü yoldaşıma dəydi – guya ki, saman çuvalına dəydi" kimiləri dərguş olubdur və müsəlman qardaşlar onların məzmununca yekdigəri ilə rəftar etməkdədirlər.

Bu minval üzrə bizlər öz dairəmizdən kənara çıxmayıb, birbirimizə tələ qurub, şəxsi mənfəətimiz üçün bir-birimizin ayağını çəkməkdə, bir-birimizə quyu qazmaqda ikən qeyri millətlər gəlib bizi tapdalayıb keçib-gediblər.

Qəzetəmizdə "Ordan-burdan" yazan "Filankəs"in zarafatyana yazdığı sözləri hər halda qəribliyə salmaq olmaz.

Bizlər uzun-uzadı xabi-istirahətə məşğul ikən qonşularımız hünər və mərifət kəsb edib "fil" yaradıblar. İndi biz nəinki fil, hətta "siçan" qayırmaqda dəxi aciz və bacarıqsızıq. Bacarıqsız olduğumuz hər məqamda və hər qədəmdə büruzə çıxır.

"Filankəs"in sözünün haqq olmasına "Новости Загафгазия" qəzetəsinin Naxçıvan müxbiri yazdığı fəqərə şəhadət verir.

Əhvalat bu üzrədir ki, Naxçıvan nücəba və rəisləri Naxçıvanda progimnaziya açmaq xəyalına düşürlər. Çox gözəl niyyət!

Naxçıvan İrəvan şəhərindən yüz əlli verst kənardadır. Onun yaxınlığında Ordubad, Culfa, Şahtaxtı, Əylis kimi əhalisi çox mərkəzlər olduğuna binaən bu yerlərin xalqı, əlbəttə, uşaqlarını Naxçıvan progimnaziyasına təlim almağa qoyarlar, bir də İrəvana göndərməzlər və gələcəkdə progimnaziya gimnaziyaya dəxi təbdil ola bilər. Qərəz, sözümüz burada deyil. Bu məsələni həll etmək üçün şəhərin böyükləri və başbilənləri kərrat ilə biçarə əhalini məsləhət və məşvərətə toplayırlar, hər dəfə də məclisə cəm olanlar danışıb-danışıb öz işlərinin dalınca gedir, bu xeyir işin xatirəsi üçün Naxçıvanda sabıqdə uyezdni naçalnik olanlardan birisini şəhərdə qiraətxana açmaq üçün yığdığı beş min manatı da kargüzarlar yəditəsərrüflərinə alır ki, mənzurədə olan progimnaziyanın ehtiyacatına sərf etsinlər.

Əfsus ki, o vaxtdan indiyədək hər yerdə çox işlər olubdur, çox sular axıbdır; amma Naxçıvanda bu hala kimi nə progimnaziyadan bir xəbər və nə puldan bir əsər var...

İş bu hal üzrə ikən progimnaziya açmaq xəyalına düşən cənablar şəhərdə çoxdan bəri açılmış ikisinifli rus-müsəlman şkolasının bir klasının pulsuzluqdan bağlanmağını, mübtədilər üçün güşad olunmuş pansionun yenə pulsuzluqdan qapanmağını və şəhər məktəbindən (qorodskoy şkoladan) müəllimlərin pulsuzluqdan qaçmağını görmək istəmirlər.

Burada doğrudan da demək olur ki, naxçıvanlıların həzar zəhməti ilə qayırdıqları "siçanı" bimürüvvət pişik qəflətən sıçrayıb yeyir. Bizim, camaat işlərimiz hər yerdə bu sayaq ilə getməkdədir.

Bəs nə eləmək, nə çarə qılmaq? Bu suala gələcək məqaləmizdə cavab verərik.

II

İrəliki məqalənin axırında qoyduğumuz suala cavab verib bunu demək istəyirik ki, biz müsəlmanlar ki, yenicə qəflətdən ayılmağa, tərpənib hərəkət etməyə meyil və rəğbət göstəririk, yenicə mənəvi həyata övdət etmək asarı bizlərdə müşahidə olunur.

Ən əvvəl lazım olan budur ki, öz ehtiyacatımızı dürüst bilib, tədriclə bunların rəfinə çalışaq. Mərəzi-millimizi diqqəti-tam ilə təhqiq edib üsuli-tədavisinə məşğul olaq, tərəqqi və təməddünümüzə bais olan alat və əsbabın cəm və tədarükünə sərfi-hümmət edib,

həməvaxt aramsız səy və tolaşda, iztirab və təşvişdə olaq, ta ki, bizi qəflət yuxusunda qoyub, təyy-mənazil edən karvana vasil olaq.

Əlbəttə, birdən-birə quş olub havada uçmaq olmaz!

İndiyə kimi vaxtını kəsalət və bətalətdə keçirmiş heç bir şeyi özündən ixtira etməmiş, heç bir şeyi vücuda gətirməmiş bir tayfaya nəinki havada uçmaq, bəlkə quruda da rast və möhkəm yerimək əvvəl dəfələrdə çətin olacaqdır.

Bu halımızda nəinki "fil" yaratmaq və xariqülادə bir şey əmələ gətirmək, bəlkə "siçan" misilli balaca şeylər də törətmək bizə müşkül olacaqdır. Lakin hər şeyi – ağla və zəhmətə, hümmət və qeyrətə tabe olduğu üçün – bir tərəfdən hümmət və qeyrətlə, digər tərəfdən də, ağıl, elm və nuri-mərifət ilə az vaxtın zərfində çox hünərlər meydana gətirmək olar, çox şeylərə müvəffəq olmaq mümkündür. Bunun imsalı, yəni adı-sanı, hörməti və qüvvəti olmayan bir qövm və tayfanın, müddəti-mütəmadi ömrünü zillət və qəflətdə keçirmiş bir millətin ayılıb, az vaxtda tərəqqi etməsi, şan və hörmət, mal və dövlət kəsb etməsi tarixdə görünmüşdür. Uzağa getməyib və Yaponiya kimi bizdən bəid olan bir dövlətin azacıq vaxtda sürətlə tərəqqi tapmasını kənarda qoyub, öz qonşumuz ermənı tayfasının bu axır vaxtlardan bəri, iyirmi-otuz ilin müddətində vüqua gələn ittihad və ittifaqlarına, tərəqqi və təməddünlərinə diqqət yetirsək, yəqin edərik ki, hər bir şey hümmət və qeyrətə, elm və biliyə bağlıdır. Dünyada elə bir şey yoxdur ki, mükərrəm və müəzzəz yaranmış, əqli-səlim ilə müəyyid olmuş insanın qüdrət və bacarığından xaric olsun...

İndi məqalənin baş mətləbinə rücu edib deyə bilərik ki, mərəzlərimiz çox isə də, onların ümdəsi və mühliki cəhalət və nadanlıqdır. Onun doğru və həqiqi müalicəsi elm və tərbiyədir. Ona binaən hal-hazırda hər şeydən artıq ehtiyacımız elm və ədəbədir, mərifət və kəmaladır ki, bunları təhsil etməmiş məişətimizi qayda və nizama salmayacağıq.

Bu mərəz, yəni cəhalət təzə mərəzlərdən deyil, çox zamandan bəridir ki, bədənimizə sirişt və ruhumuza qalib olubdur. Bu o mərəzdir ki, Seyid Əzim Şirvani onun əlindən fəryad edib, rüəsayi-millətə hali-dilini söyləmişdir:

Dadü fəryad, ey güruhi-üzam,
Oldu zayə bu milləti-islam.
Günü gündən zəlilü xar oluruq,
Möhnətü qüssəyə düçar oluruq.

Bu qədər dərd kim, olur hadis,
Ona bielmlik olur bais,
Bir bəladır bu dərdi-nadani
Ki, onun elm olubdu dərmani.

Mərhum Seyid dəxi bu mərəzin illətini elmsizlikdə və çarəsini elm təhsil etməkdə görüb izhari-təəccüb edir ki, nə üçün bu mərəzin, yəni biçarə və sahibsiz millətin səhhətinə çalışan və can yandıran yoxdur.

Bu təəccübdür, ey güruhi-bəşər,
Bir kişi yatsa, naxoş olsa əgər,
Axtarır bir təbibi-danadil,
Ta ki, söhbət ona ola hasil.
İndi naxoşdu milləti-islam,
Ona lazımdır eyləmək əncam.
Dərdimizdir bu dərdi-nadanlıq
Ki, tutubdur bizi pərişanlıq.
Qeyrilər istəyir tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam...

Aya, kimlər və nə vəsilələr ilə millətimizin bu naxoşluğuna gərək müalicə eləsinlər və onları cəhalət qaranlığından elm və mərifət işığına çıxartsınlar? Bu xüsusda gələcək məqaləmizdə danışarıq.

III

Müəllimlərimiz və onların halı

Ruhani atalardan sonra cəhaləti-millət ilə müttəsil cəngə müsəmməm olan, elm və maarif qapılarını millət üzünə açan ikinci firqə hər millətin içində müəllimlər firqəsi olubdur. Müəllimlərin səyi və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər. Keçən on doqquzuncu əsrin 70-ci sənəsində almanların firənglərə qalib gəlməyi onların müəllimlərinə isnad olduğunu təsdiq edib, qəti surətdə deyə bilərik ki, miləli-müxtəlifə arasında hər zaman və məkanda vüquə gələn hər qisim dava və müharibələrdə xah siyasi olsun, xah iqtisadi və xah qeyri, qalib gələn tərəf müəllimləri sayəsində nüsrət tapmışlar və qalib gəlmişlər. Bu bir vazeh əmr olduğu üçün bu barədə artıq danışmağı lazım görmürük. Vəli biz Rusiya müsəlmanları müddəti-mədid müəllimsiz və mürəbbisiz

qalıb, tərəqqi yoluna salik olan mütəməddin millətlərin qatarından üzülüb geridə qalmışıq. Uzun müddətlər əbnayi-millətə qaydasınca təlim və tərbiyə verən müəllimlərimiz olmadığına görə belə pərişan hala düşmüşük.

İyirmi beş-otuz sənə bundan müqəddəm övladımızın tərbiyə və təlimi bilkülliyyə üsuli-təlimdən bixəbər və adabi-tərbiyədən bihissə olan məktəbdarların əlində idi. Ətfali-müslimin gözəl ömürlərini qaranlıq və nizamsız məktəblər küncündə, quru həsirlər üstündə keçirib, neçə sənələr ərzində çox az və heç şeyə yaramayan biliklər kəsb etməyə qadir olurdular. Təlim və tədris üçün ana dilimizdə kitablarımız olmadığına görə müəllim əfəndilər fars və ərəbdən hansı kitabı xoşlasa idilər, şagirdlərinə ondan dərs verərdilər.

Milli məktəblərimizin pərişan halını və üsuli-tədrisin biüsul və binizam olduğunu, təlim kitablarımızın tərifini o vaxtın şairi-binəziri Hacı Seyid Əzim Şirvani ədibanə nəzmə çəkmişdir ki, onlar ilə oxucularımızı münasib məqal olduğu üçün aşina etməyi lazım gördük. Şair mərhum Həsən bəy Məlikova xitabən yazmışdır:

Məhsina! Ey fəda olum sənə mən.
Etdiyin fikri-bikrə səd əhsən!
Bilməyən yoxdu kim, bu mənanı –
Tərbiyət kamil eylər insanı.
Tutalım, gəldik əmrə mərdanə,
Baxmadıq tənü ləni-nadanə.
Tutalım, eylədik bu əmrə tifaq,
Tərbiyət biz gərək ki, kimdən alaq?
Hansı məktəbdə fövci-ətfali
Hansı bir elmdən edək hali?
Məktəbi-tibb, ya ki, hikmətdən,
Ya ki, hərbiyyə, ya ki, hirfətdən?
Necə kim, ol "Vəkili-nameəlum"
Eylemişdi bu nüktəni mərqum.
Əvvəla, bizdə yox o məktəblər
Ki, verə kəsbi-elmi xalqa səmər.
Nə o gunə kitablar əlan
Ki, ola öz lisanımızda bəyan.
Bizə hasil nə şey olur yoxdan
Ki, itibdir kitabımız çoxdan.
Hanı bizdə "Xülasə"nin səməri?
Hanı "Cəbrül-müqabil"in xəbəri?
Səhl dillərdə elmi-heyət yox,

Cəmü təfriqü zərbü qismət yox.
Nə təqiyyə, budur sözün safi,
Küfrdür bizdə elmi-coğrafi.
Elm evi oldu ol zaman bərbad
Ki, etdi rehlət xəlfeyi-Bağdad.
Hər vilayətdə var beş-on məktəb,
Edirik kəsb onda elmü ədəb.
Məktəbin fərşi altı köhnə həsir.
Neçə ətfali-müztər onda əsir.
Dərsimizdi kitabi – "Gürbəvü muş",
"Nəqli-həmdunə", "Qisseyi-xərguş".
Oxuruq çox tərəqqi etsək əgər,
Cümlə "Tarixi-Nadir"i əzbər.
Bixəbər elmi-paki-hikmətdən,
Bisəmər cadeyi-şəriətdən...

Keyfiyyəti-hal bu qərar üzrə olduqda, təlim və tədris işləri belə çətin və nərəftə yollar ilə getdikdə, əlbəttə, millətin ruhani tərəqqisi, elm və biliyi, mərifət və kamalı artıq dərəcədə ola bilməzdi. Amma bununla belə bu övzasi dağınıq olan məktəblərdə zəif halda olmuş olsa da, mərifət işığı görsənirdi. Bu məktəblərdən Qasım bəy Zakir, Abdulla bəy Asi, Hacı Seyid Əzim Şirvani, Mirzə Fətəli Axundzadə, Kazım ağa Salik, İsmayıl bəy Nakam, Mirzə Mehdi Naci və qeyriləri kimi xoş təb şairlər və dəqiq ədiblər hasilə gəlmişdir. Bu hal bir tərəfdən də, söz yoxdur ki, millətimizin qabili-mərifət və sahibi-istedadi-cibilli olmağına şəhadət verir.

1879-cu ildə, otuz sənə bundan əvvəl Qori şəhərində xristian darülmüəlliminin cünbündə müsəlman şöbəsi açıldı və iki sənə bundan sonra 1881-ci ildən bu darülmüəllimindən tərbiyə almış müsəlman müəllimləri çıxmağa başlayır. Mübtədilərə üsuli-sövti ilə ki, "üsuli-cədid" adı ilə məşhurdur, təlim verməyin binasını Zaqafqaziya müsəlmanlarının içində qoyan müsəlman şöbəsində müəllimlik elmini tamam edən cavanlar olubdur.

1881-ci sənədə kurs tamam edən üç nəfər şəxs üsuli-cədidin qaydasını şöbənin əvvəlinci naziri mütəvəffi Çernyayevskidən əxz etmişlər. Şöbənin cünbündə tərbiyə alan mübtədilərə üsuli-sövti ilə əvvəlcə dərs verən Çernyayevski özü olubdur. Çünki o vaxt üsuli-cədidə bələd olan müəllim bir nəfər isə də müsəlmanlardan yox idi. Çernyayevski mübtədilərə verdiyi dərslərdən məşhur "Vətən dili" kitabçasını təcrübə üzü ilə tərtib qılmışdır.

Məzkur üç nəfər müəllimlərdən biri mərhum Mirzə Əli Məhəmməd Xəlilov İrəvan quberniyasında, Naxçıvan şəhərində və Baş Noraşen qəryəsində, mərhum Səfərəli bəy Vəlibəyov Gəncə quberniyasında, Şuşada və cənab Teymur bəy Bayrəmlibəyov Lənkəranda üsuli-cədid ilə dərs deməyin binasını qoymuşlar.

O vaxtlarda şkolalarda 1881-ci ildə namestnik təsdiq etdiyi "uçebni planın" proqramı ilə dərs deyilirdi; yəni əvvəlcə təlim ana dilində, sonra rus dilində icra olunurdu.

Amma bir vaxtdan sonra bu "uçebni plan" tədriclə qüvvətdən düşüb bilmərrə unuduldu və ana dilinin təlimi şkolalardan götürüldü.

1881-ci ildən indiyə kimi, yəni iyirmi yeddi ilin ərzində Qori darülmüəlliminindən 150 nəfərə kimi müəllim çıxıbdır. Müsəlman şöbəsinin güşadından iki-üç il sonra İrəvanda dəxi bir darülmüəllimin açıldı.

Amma burada müsəlman şagirdlərinin ədədi çox az olmağa görə buradan ancaq otuz, artıq başı qırx nəfərə kimi müəllimlər hasilə gəlibdir.

Bunlardan əlavə, keçən əsrin həştadıncı sənələrində Tiflisdə Aleksandrovski institutundan beş-altı nəfər şəhər müəllimi təhsili-elm edib kurs qurtarmışdı.

Bu müəllimlərdən möhtərəm bəradərlərimiz Sultan Məcid bəy Qənizadə və Həbib bəy Mahmudbəyov Bakı şəhərində bir məktəb açıb, təzə üsul və qayda ilə onda dərs deməyin binasını qoymuşlar.

Demək olar ki, bu müəllimlərin Bakıda təsis etdikləri məktəb indiki rus-müsəlman şkolalarının anası mənziləsindədir.

Lakin o vaxt da maarif naziri olan Delyanovun tədbiri və binagüzarlığı ilə müsəlmanlardan şəhər məktəblərində müəllim olmaq ixtiyarı alındı.

Buna binaən müsəlmanlardan instituta daxil olmaq rəğbəti kəsildi. Belə ki, 1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhim bəy Qayibova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu. O da bir-iki sənə kənd müəllimliyi edib, özü üçün bir tərəqqi yolu görməyib, Okrujnoy sud məhkəməsinə qulluğa girdi.

Belə ki, iyirmi yeddi sənənin ərzində dövlət tərəfindən açılmış darülmüəlliminlərdən 200-ə qədər müəllimlər çıxıbdır. Qafqazın üç milyona çatan müsəlman əhalisinin təlim və tərbiyəsinə mübaşir olmaq üçün iki yüz nəfər müəllim – dəryaya nisbət bir qətrə mənziləsindəndir desək, mübaliğə etmiş olmarıq.

Ötən məqaləmizdə dövlət tərəfindən açılmış darülmüəlliminlərdən iki yüz nəfərə kimi kurs qurtarmış müəllimlərin tamami Qafqaz müsəlmanlarının təlim və tərbiyəsi üçün kifayət etmədiyini bəyan etmişdik.

Məlum ola ki, bu iki yüz müəllimlərdən bu anacan bir neçəsi dari-bəqayə rihlət edib, rəhmətə-həqqə vasil olmuşlar.

Hali-həyatda olanların da bir sülsi müəllimlik kimi nə qədər müqəddəs də olsa ağır və çətin bir peşəyə, qədir və qiyməti bilinməyən və nəzərdə istiqbalı olunmayan bir sənətə tab gətirməyib, iki-üç sənə müəllimlik etdikdən sonra qeyri bir mədaxilli sənətlərin və avam nəzərində hörmətli sayılan başqa qulluqların dalısınca gediblər.

Müəllimlikdən hər qisim mənsəblərə: polisiya qulluğuna, mütərcimliyə, sekretarlığa, müxtəlif məhkəmələrdə və mütəəddid dəftərxanalarda cürbəcür xidmətlərə girəni olubdur. Müəllimlikdən hətta aksız qulluğuna da keçəni olubdur.

Əlbəttə, o kəslər ki, müəllimlik kimi möhtərəm və müqəddəs xidməti tərk edib, qeyri peşə dalısınca gediblər, mənəviyyat cəhətincə öz əhdü peymanlarını şikəst ediblər, ümumi xidməti əda etməkdən, millətə qulluq eləməkdən boyun qaçırıblar. Vəli maddi tərəfdən və dolanacaq sardan bunlar zirək və durbin olublar. Zira müəllimlərə nisbətən bunlar artıcaq rahat və müəffə-hal güzəran etməkdədirlər.

Müəllimlik peşəsinə müdavimət edib, onun zəhmətinə qatlanıb qalanların hali və güzəranı ziyadə üsrət və məşəqqət ilə keçibdir və keçməkdədir. Bunlardan dəxi artıq bacarıqlı və zirək olanları dolanacaqlarını bir növ yüngülləşdirmək üçün kəndlərdə qulluq etməyə qane olmayıb şəhərə keçiblər. Şəhərlərdə müəllimlik məvacibi kənd müəlliminin məvacibindən bir az artıqdır və həm də burada sair mənbələr də vardır ki, onlardan təhsili-məaş etmək mümkündür. Bunlardan əlavə, şəhərlərdə əsbabi-tərəqqi və maarif həmə vaxt müyəssər olduğu üçün və ünsiyyət etməyə müvafiq yar-yoldaş tapıldığı üçün şəhərdə təlim almış cavanlara şəhərdə də güzəran etmək xoş keçir. Bu səbəblərə görə müəllimlərin çoxu kəndlərdən qaçırlar.

Necə ki, bu barədə üç sənə bundan əvvəl "İrşad" ruznaməsinin səhifələrində yazmışdıq, indi dəxi haman mətləbi təkrar edib deyirik ki, kəndlərimiz müəllimsiz və mürəbbisiz qalıbdır.

Üç yüz, dörd yüz və daha ziyadə nüfuslu qəryələrimizdə məktəb və məsciddən bir əsər də yoxdur. Mayeyi-zindəganlığımız olan dəhat əhllərinin və rəiyyət tayfasının balaları sırf avamlıqda yaşayıb, sahibsiz və pərəstarsız qalırlar. Cəhalət və onunla bahəm yoxsulluq və qorxu get-

gedə artıb çoxalır, qeyri millətlər tərəqqi etdiyi halda biz tənəzzül edirik. Zaqatala okruqunda iyirmidən ziyadə dörd-beş yüz nüfuslu böyük kəndlər vardır ki, heç birində məktəb və mədrəsə yoxdur. Belə dövlətli və məhsuldar mahalın, bu sayaq barverici və meyvəyetirici torpağın əhalisi əgər elmli və bilikli olsa idi, əlbəttə, ehtiyacdan xəbərləri olmazdı və qızıl-gümüş içində dolanardılar. Vəhalonki avamlıqları ucundan öz torpaqlarından mənfəətbərdar ola bilmirlər.

Qızıl və gümüş axıb, kənardan gəlmələrin, xaricilərin torbalarına tökülür, amma yer və mülk sahibləri ehtiyacın içində zillət ilə güzəran edirlər.

Habelə Nuxa uyezdində, xüsusən, Qəbələ mahalında, İrəvan uyezdində Zəngibasarda, Şırıldərə, Ləgiz uyezdində, Şuşa və Cavanşir uyezdində, xüsusən Tərtərbasarda və sair. Bunlar misilli ziyadə məhsulat yetirici və meyvəcat yetirici yerlərdə əhali elmsizlik cəhətindən fəqir və zillətdə dolanmaqdadırlar. Tərbiyə almış və kamali-təhsil etmiş cavanlarımız qaranlıqda qalan qardaşlarına işıq salmağı və onları qaranlıqdan işığa çıxartmağı özlərinə borc hesab etməyib, hər bir nəhvlə çalışırlar ki, kəndlərdən qaçıb uzaqlaşsınlar.

Kəndlərdə öz qəzalarına razı olub qalan müəllimlərimizin ədədi altmış-yetmişdən ziyadə deyil. Bunlardan ancaq bir neçəsi öz vəzifələrini kamalınca düşünüb, cani-dildən intişari-maarif yolunda çalışırlar və millətin ayılıb tərəqqi etməsinə səmimi-dildən xidmət edirlər.

Bunların zəhmətlərinin səməri görünməkdədir. Amma mütəəssüf, müəllimlərin çoxunda bu rəviş, bu hərəkət və bu canfəşanlıq müşahidə olunmur.

Bunlardan əksəri iki-üç sənə az-çox həvəslə təlim və tərbiyə işlərinə məşğul olub, sonralardan yavaş-yavaş öz peşələrinə soyuyurlar, təlim və təəllümə rəğbətləri kəsilir, mütaliəyə həvəsləri olmayır, ruhlarının, əql və əxlaqlarının tərbiyəsinə bilmərrə məşğul olmayıb, bilaixtiyar özlərinin xəbəri olmaya-olmaya geri gedirlər və avam halına düşürlər.

Belə müəllimlərdən neçələrini tanıyıram ki, bir dəfə də əlinə qəzet alıb oxumur, övzai-zəmanədən filcümlə xəbərdar olmağa şövq və həvəs göstərmir, şkolanın adına göndərilən kitablar başı bağlı qalıb kəsilmir və ruznamələr qurşaqdan çıxmır.

Bu cənablar gündə iki saat könülsüz dərs deməyə iktifa edib, yerdə qalan vaxtlarını öz məxsusi işlərinin, kəsbkarlarının üstündə keçirirlər.

Amma elələri də var ki, heç bir iş görməyib, övqati-əzizələrini mütləq bikarçılıqda zaye edirlər.

İldə ya iki ildə bir dəfə inspektor təftiş üçün şkolaya təşrif gətirir, onu da bir sayaqla razı edib yola salırlar və yenə öz bekarçılıqlarına məşğul olurlar. Amma çox ittifaqlarda inspektor, direktor müsəlman müəllimlərindən narazı qalıb, onların tənbəlliyindən və karsızlığından şikayət edirlər. Münsif və haqqı inkar etməyən müəllimlərin bir neçəsindən eşitmişəm ki, öz dilləri ilə iqrar ediblər: "Bəli, doğrudur, biz iş görmürük və cani-dildən müəllimlik etmirik və bizim şkolaların xali qalmağına əksər övqat səbəb özümüz oluruq, çünki müəllimlik də bizə bir şey vermir".

İşlər bu minval üzrə getdikdə, əlbəttə, müəllim camaatın gözündə hörmətdən düşür və onun üçün qəlblərdə bir məhəli-etina və məqami-məhəbbət qalmır və onun məktəbinə uşaq verən olmur. Elə şkolalar var ki, onda bütün il sərasər beş-on uşaqdan ziyadə şagird olmur.

Əlbəttə, kəndlərdə müəllimlik etmək yüngül və asan iş deyil. Xüsusən, müsəlman kəndlərində: bir tərəfdən, divan əmələsi tutduğu xilafi-zakon işlərin bərəkətindən, digər bir tərəfdən, şikəm güdən və fanatik mollaların xilafi-şəriət işlətdiyi əməllərin və söylədiyi vəzlərin təsirindən və bunlar ilə bahəm işıqdan qorxan və millətin ayılmağından xof və əndişə edən mülkədar-bəylərin və ağaların mərhəmətindən bir növ əxlaqsız olublar, elm və ədəbə meyil və rəğbət göstərməyirlər; şkolaya ayrı gözlə baxırlar və müəllimlərə çəndan etina və ehtiram olmayır. Çox kəndlərdə biçarə müəllimlərin halı ziyadə çətinlik ilə keçir və bu xüsusda "Qafqaz" ruznaməsinin 25-ci nömrəsində "İbtidai məktəblərin qüsuru" ünvanı ilə yazılmış məqalədə haqq sözlər çoxdur. Və lakin bizim əqidəmizə görə, müəllimin ürəyində atəş olsa bu maneələrin çoxuna qalib gələ bilər və öz dairəsində əvvəlinci şəxs ola bilər...

Müəllim məktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır. Müəllim öz şüğlini sevsə, öz şagirdlərini övladı kimi istəsə, onların təlim və tərbiyəsinə can yandırsa, əhalinin gözünü açmağa və xeyir yetirici biliklər ilə cəhalət pərdəsini yırtmağa sərfi-hümmət etsə, bilaşübhə, böyük kəramətlər göstərər və cümlənin rəğbət və məhəbbətinə məzhər olar.

Hər bir şey məhəbbətə bağlıdır. Hər bir şeyə həyat verən, hər bir şeyi tər və təzə qılan, hər bir şeyi gözəl, məqbul və nurani edən məhəbbətdir!

Heyfa ki, bu ali və pakizə hiss, bu yandırıcı atəş bizim qəlbimizdə yoxdur; heyfa ki, nə ev tərbiyəsində, nə məktəblərdə və məscidlərdə və nə də camaatımızın içində məhəbbət atəşini bizim ürəyimizdə yandıran olmayıbdır.

Müəllim məktəbin canı olduğunu və məhəbbət ilə çox işlər açdığını əcnəbi qövm və tayfaların içində görürük. Bizim müsəlmanlar dəxi belə həqiqi millət xadimlərindən məhrum deyillər. Kənd müəllimlərinin içində İsa bəy Abakarov, Əhməd ağa Mustafayev kimi bir neçə möhtərəm şəxslər var ki, həqiqətdə millət xadimi olub, cani-dildən təlim və tərbiyə işlərinə ömürlərini sərf ediblər. Bunlardan hər birisi iyirmi ildən ziyadədir ki, müəllimlik etməkdədir. Bunlar qulluq sarıdan artıq bir tərəqqi etməyiblərsə də və tərəqqi etmək qeydinə dəxi düşməyibsələr də, camaatın məhəbbətinə şayəstə olublar. Hansı kənddə müəllimlik ediblərsə, orada mərifət çırağını yandırıb, əhalinin gözlərini açıb, mənəvi tərəqqilərinə bais olublar. İsa bəyin təhti-tərbiyəsində yüzlərcə rəiyyət balaları çıxıb, kamali-təhsil edib, çörək sahibi olubdur. İsa bəy çox fəqir şəxslərin övladına atalıq edib, azacıq məvacibindən onlara xörək və puşak verib oxudubdur. İmtahan mövsümündə onları öz xərci ilə Tifliso, Gəncəyə, Qoriyə göndərib və çox vaxtı özü aparıb bəzisini sənət məktəbinə, kimisini feldşer şkolasına, kimisini seminariyaya və hətta bir neçəsini gimnaziyaya qoyubdur.

İsa bəyin haqqı bizim üstümüzdə çoxdur. İsa bəy bizim Pestalotsimiz məqamındadır. Və lakin bələləri çox azdır, beş-on nəfər ancaq tapılar. Yerdə qalanları öz şüğllərinə soyuyubdur, ürəklərində olan atəş sönübdür və hər şeyə həyat verən məhəbbət çeşməsi quruyubdur.

Bəziləri bizim müəllimlərin öz şüğl və sənətlərinə nisbətən izhar qıldıqları soyuqluq və kəmetinalığı onların təlim alıb kursu tamam etdikləri məktəblərin qüsuruna həml edirlər. Çoxları bu əqidədədirlər ki, darülmüəlliminlər elmli, ləyaqətli və öz işini yaxşı bilən müəllimlər hazırlaşdırmır.

Bu rəy və əqidələrdə, əlbəttə, doğruluq asarı çoxdur, öz tərəfimizdən biz deyə bilərik: nəinki bir kənd müəllimləri hazırlaşdıran, hətta şəhər məktəbləri və gimnaziyalar üçün qabil və mahir müəllimlər yetirən darülmədrəsələr və ali məktəblər yoxdur.

Buna baş və ümdə səbəblərdən birisi də budur ki, məişət ilə məktəbin mabeynində əsla ittifaq və saziş yoxdur, məmləkətimizdə qədim zamandan bəridir ki, məişət öz yolu ilə, məktəb dəxi öz cığırı ilə gedib, bir-birindən xəbəri olmayıbdır, bir-birinin qeydinə, dərdinə və ehtiyacına mültəfit olmayıblar; məktəb öz başına qalıb, yaxşı-yaman öz işinə məşğul olubdur.

Məişət dəxi məktəbin varlığından və yoxluğundan xəbərdar olmayıb, onun nədən ötrü, nə işin xatirəsi üçün və hansı ehtiyacın rəfi üçün bina olduğunu əsla nəzərə almayıb, öz yolu ilə gedibdir.

Rusiya dövləti əksər ittifaqlarda Avropa mədəni millətləri arasında filan növ mədrəsələr və filan qisim məktəblər var, bizdə də olsun deyib, öz millətinin dərəcəyi-kamalını, təbiət və xasiyyətini və zəruri ehtiyaclarını nəzərə almayıb, məhz bir "moda" üçün məişətə uymayan və yaramayan məktəblər açıbdır. Amma lazım olanların qeydinə və fikrinə qalmayıbdır.

Belə ki, qədim zamandan bəridir ki, məktəb məişətin rəfi-ehtiyacı və tərəqqisi üçün olmayıb, ziynət və bəzəyi üçün xəlq olunubdur. Bu illətdən naşidir ki, məktəb elmli, bilikli, məişətin ehtiyacatını rəf edici və millətin tərəqqi və səadətinə səbəb olucu adamlar yetirə bilməyir.

Belə olan surətdə şək yoxdur ki, darülmüəlliminlərimiz və darülmədrəsələrimiz dəxi bu zikr olunan təsəvvürdən ari və bəri deyil.

Bununla belə, bizim əqidəmizə görə, tamam müəllimlərin bilümum və kənd müəllimlərinin bilxüsus öz peşələrinə bu qədər süst, kəmməhəl və kəmetina olmaqlarına ümdə səbəb onların həddən ziyadə az məvacib almaqlarıdır.

Bir peşə ki, öz ərbabını həmişə fəqir və zillətdə saxlaya, onun ehtiyaclarını necə ki, lazımdır ödəməyə, aclıqdan və susuzluqdan, istidən və soyuqdan özünü və əyalını mühafizət etməyə, o peşəyə dəxi ərbabı tərəfindən artıq meyil və rəğbət olunmaz. O peşənin sahibi çalışar ki, özgə bir xeyirli işin və mənfəətli kəsbin dalısınca getsin.

Mənim əhibbalarımdan institut qurtarmış bir nəfəri-qabil və qeyrətmənd şəhər məktəblərinin birisində on il sərasər qulluq edib, ildə 4 yüz manat məvacib almaqla bir növ güzəran edirdi. Bu şəxs nə qədər cani-dil ilə ibtidada qulluq əmrlərini yerinə yetirdisə də, bir o qədər də axırlarda soyuyub, təlim və tədris işlərinə həvəsdən düşmüşdü. On ilin ərzində buna müəllimlik yeri vermədilər, ancaq müəllimə müavin olub, dörd yüz manatdan ziyadə məvacib ala bilmədi. Axırda özü qulluğundan şikayət edib, mənə hali-dilini söylədi ki, "filankəs, bu qədər zəhmət və əziyyətin müqabilində bir tərəqqi yolu görməmək, əliboş, üzüqara qalmaq hər kəsi rəğbətdən salar və incidər.

Bir yandan əhli-əyalın fikri, bir yandan övladın tərbiyə əndişəsi şu ismi bu növ pərişan edibdir ki, müəllimlik fikri və təlim-tədris işləri mənim üçün axırkı məsələlərdən birisi olubdur. Hərgah doğrusunu bilmək istəyirsən, ərz edəyim: başımın ən bala mərtəbəsində, bu hində un və buğda fikridir. Ondan aşağıdakı mərtəbədə yağ və

düyü əndişəsidir. Ondan da aşağıda odun və kömür dəğdəğəsidir; lap axırıncı mərtəbədə olanı şagirdlərin hesab və yazı dəftərləridir ki, sabaha gərək onları düzəldəm. Həqiqəti-əmrdən bizimki müəllimlik deyil, çərçilikdir. Şeyx Sədi əbəs deməyibdir:

Qəmə-fərzəndə nanə camənə qut
Baz dərəd zi seyr dər məlakut.
Həmə ruz ittifaq misazəm
Kə, beşəb baxuda pərdazəm.
Şəb ki, əqdə-nəmaz mi bəndəm,
Çə xurəd bamdad fərzəndəm[1].

"Qarnı ac abidin ibadəti dürüst olmayan kimi, ac müəllimin müəllimliyi dəxi dürüst deyil və ondan fayda gözləmək əqli-səlimdən bəiddir".

Məzkur müəllim on ildən ziyadədir ki, müəllimlik peşəsini tərk qılıb, ticarət əmrinə məşğuldur və bu halda güzəranı xoş və rahat keçir, müəllim olduğu vaxtda çəkdiyi darlığı və ürək sıxıntısını indi çəkmir və məqamı düşdükcə millətə dəxi qövlən və felən xidmətini müzayiqə etməyir. Bu minval müəllimlikdən bizar və dilgir olub qaçanların və əli çörəyə çatanların ədədi az deyil.

Tamam Rusiyada müəllimlərin haqqında görsənilən həqarət və ədalətsizlik "Новое время" kimi bir darməslək və mühafizəkar qəzeti dəxi dilə gətirmişdir.

"Новое время" edadiyyə məktəblərində, gimnaziyalarda qulluq edən müəllimlərin halına yanıb təkid edir ki, onların zəhmətə azalıb, məvacibləri çoxalsın. Qəzetə gimnaziyalarda qabil və mahir müəllimlərin olmadığını bu illətdən görüb deyir: "Bu mətləb barəsində dəfəat ilə yazılıbsa da, heyfən ki, yazıçıların nalə və fəryadı sahibi-ixtiyarların və dadrəslərin qulaqlarına yetişməyibdir və cərəs səsəsi kimi biyabanda məhv və nabud olubdur".

Gimnaziyalarda mahir və öz işlərinə bələd olan müəllimlərin yoxluğuna ümdə səbəb, necə ki, yuxarıda işarə etmişdik, bunları hazırlaşdıran və kamil müəllim yetirən darülmüəlliminlərin yoxluğudur, o institutlar və darülülumlar ki, ondan müəllimlər hasilə gəlir, qayda üzrə

[1] Tərcüməsi: Övlad, çörək, paltar və azuqə dərdi.
Sənin aləmi-məlakutda seyr etməyinin qarşısını alar.
Bütün günü çalışıram ki, gecələr Allaha ibadət edim.
Gecə ki, namazla məşğulam, bəs səhər çağı uşaqlarım nə yesin?

təsis olunmamışdır. Onlarda pedaqogika elminə dair və təlimat işlərinə mənsub məlumat verilməyib. Gimnaziya müəllimlərindən çoxlarını tanıyıram ki, pedaqogika fənn və elminin babası sayılan Amos Kamenskinin və Pestalotsinin adlarını da eşitmiş olsunlar.

Bu qüsurun illətini "Новое время" açıq yazır. O illət budur: Sabiqdəki maarif nazirlərinin ümdə fikri yaxşı müəllimlər və qabil müdərrislər yetirmək olmayıb. Onların fikir və xəyalı saldatlar kimi naçalniklərin, rəislərin hökmünə tabe və əmrinə müti çinovniklər hasilə gətirmək olubdur. Onlardan məşhuru qraf Tolstoy müəllimlər yetirmək üçün cavan tələbələrə soldat kimi təlim verdirib, onların bədənlərindən müəllimlik ruhunu çıxardıb, çinovniklik ruhu daxil etməyə müvəffəq oldu. Delyanov bu yolda özündən təzə bir şey ixtira edə bilmədisə də, Tolstoy qoyduğu pürməşəqqət, sərt və müəllimlik vəzifəsinə müğayir qaydaları mühafizət etməyə cani-dildən çalışdı.

Tolstoy və Delyanov kimi pedaqogika elmindən bisəmər və insaniyyət aləmindən bixəbər şəxslər maarif vəziri olduğu halda, Piroqov kimi rəhmdil və məşhur pedaqoq kənarda qalıb unuduldu.

Qəzetə nəticəyi-kəlamda bunu yazır ki, hərgah gimnaziyalarda qulluq edən müəllimlərin zəruri ehtiyacları rəf olunsa, məvacibləri artsa və zəhmətləri azalsa, onda hər bir müəllim bilaşübhə çalışıb səy edəcəkdir ki, öz vəzifəsini layiqincə əda etsin, mənsəbi xatirəsi üçün qulluğunda bir qüsur qoymasın.

Söz yoxdur ki, gimnaziya müəllimləri az məvacib alır və əmrimaaşda qeyri çinovniklərə görə bir növ üsrət çəkirlər və lakin onlardan da artıq üsrət və zillət çəkən kəndlərdə və qorodskoy şkolalarda qulluq edən müəllimlərdir. Bu biçarələr ağır və pürməşəqqət zəhmətləri əvəzində bu bahalıq əsrində o qədər az məvacib alırlar ki, çoxusu təngə gəlib müəllimlikdən qaçır və qaça bilməyənləri də dilənçilik halında ömürlərini zayc edir. Bəs hər şeydən əvvəl və cümlədən müqəddəm gərəkdir bu binəvaların dərdinə çarə etmək və halına yanmaq. Yəqindir ki, maaş sarıdan bunların da ehtiyacı rəf olunsa və zəhmətlərinə görə bunlara da məvacib təyin olunsa, bunlar da çalışacaqlar ki, öz öhdələrinə götürdükləri təlim və tərbiyəyi-ətfal kimi mühüm əmri layiqincə ifa eləsinlər. O vaxt cavanlarımız nəinki müəllimlikdən qaçarlar, bəlkə çoxları sair qulluqdan müəllimliyə keçməyə meyil və rəğbət göstərərlər və camaat nəzərində dəxi müəllimlərin şan və hörməti artar.

1908-1909

HƏQİQİ GÖZƏLLİK VƏ HƏRƏKƏTSİZ NİSFİMİZ

I

"Molla Nəsrəddin" jurnalının 14-cü nömrəsində qurşaqdan yuxarı iki adam surəti çəkilmişdir. Bunlardan birisi məhz ağzı ilə, o birisi başı ilə iş görən adamların şəkilləridir ki, onlara diqqət yetirməmək olmaz. Bu şəkillərin altında yazılıbdır: "Bədənin hansı üzvü işləsə böyüyər və qüvvət tapar". Bu sözlərin doğruluğu şəkillərdən görünür.

Hər iki şəkil çirkin, yöndəmsiz, bədtərkib və hətta nifrət gətirici şəkillərdir. Əgərçi bu surətləri çəkməkdən "Molla Nəsrəddin"in muradı başı ilə işləyəni ağzı ilə zəhmət çəkənə tərcih verməkdir, vəli bizim nəzərimizdə hər ikisi çirkindir.

Ağzı ilə işləyənin ağzı və çənələri, başı ilə işləyənin başı bədənin sair üzvlərinə nisbətən həddən ziyadə böyük və zorba çıxıbdır.

Əvvəlki xırdaca başlı və yekəqarın bir qisim balıq var, ona oxşayır, ikincisi Hindistan aclarına bənzəyir.

Bu cür adamların vücudu hər məkanda və zamanda olubdur və vardır. Bizim içimizdə başı ilə iş görənlərin ədədi az isə də, ağzı və dişləri ilə şöhrət kəsb edənlərin həddi-hesabı yoxdur.

Hər halda bədənin bir üzvünün böyüyüb əndazədən çıxması və sairlərinin kiçilib balaca və zəif olması bədəni yaraşıqdan salır, onu çirkin, görkəmsiz və nahəmvar eləyir. Bədənin gözəl, göyçək və xoşayənd olması münhəsirdir, onun üzvlərinin mötədil, mütənəssiq və yekdigərinə uyğun və müvafiq olmağına.

Nəinki bir bəşər qisminin, hətta sair heyvanat və nəbatatın, bəlkə hər qisim məxluqatın gözəlliyi və qəşəngliyi onların vücudunu tərkib edən əza və hissələrin biri-birinə müvafiq, yaraşıqlı və mütənasib olmalarından ibarətdir. Həddən ziyadə yekəağız, yekəbaş, yekəqarın adama xoş gəlməyən kimi, həddən ziyadə balaca baş, xırdaca gözlər, nazik və zəif əllər və ayaqlar da adamın nifrətinə səbəb olur. Heyvanat qismində dəxi bu eyiblər müşahidə olunduqda insan onlardan nifrət edir, düyünlü, əyri və bədtərkib ağacları da adəm övladı xoşlamayıb, hər şeyin gözəlinə, xoştərkib, xoşəndam və xoş şəklinə meyil və rəğbət göstərir....

Mədhi-dilbər yazmaqda misli və bərabəri olmayan Molla Pənah Vaqif gözəlliyin bir nişanəsi olan zülfə hər bir şeyini bağışlayır:

Bağlamışam din-imanı zülfünə,
Mənim kimi heyran hanı zülfünə,
Tapşırıb gedirəm canı zülfünə,
Yaxşı saxla, səndə əmanətimdir.

Və lakin insanın gözəlliyi, zahiri məlahət və hüsnü lətafətdən ibarət olmayıb, onda ağıl və fərasətin mövcud olmağı dəxi əvvəlinci şərtlərdəndir. Zahiri gözəlliyi və hüsn-camalı kamala yetirən ağlın nuru və mərifətin ziyasıdır. Ağılsız və mərifətsiz gözəl məqbul və müstəhsən deyildir. Bir surət zahirdə nə qədər düzgün, eyibsiz və qüsursuz olsa da, onda ağlın nuru təcəlli etməsə, kamal və mərifət asarı görsənməsə, o surət dilpəsənd, könülalıcı və fərəhgətirici ola bilməz. Habelə ağlın mənbəyi, fikir və fərasətin məzhəri hesab olunan gözlər zahirdə nə qədər göyçək və eyibsiz olsa da, insanın qəlbini tərpədib diqqətini cəlb edə bilməz, vaxta ki, onlarda ağıl və şüur əlaməti görünməyə. Maral, əlik, ceyran qismi çox heyvanlar var ki, onların gözlərinin tərifi şairlər kəlamına düşübdür. Vəli həqiqət halda ahu qısım heyvanların gözləri nə qədər zahirdə göyçək olsa da, insana çəndan təsir edə bilmir, əzbəs ki, onlarda şuxluq yoxdur, ağıl, fitrət və cibilli asarı görünməyir və Vaqifin yazdığı əlamətlər – "fitnələr", "fellər" onlarda müşahidə olunmayır. Necə ki, şair deyibdir:

Qaynar gözlərindən, şux baxışından
Əcayib fitnələr, fellər görünür.

Bəs məlum olur ki, şairin sevdiyi qaynar gözlər o gözlərdir ki, ağıl və fəhmin əlaməti onda zahir olur və onların şux baxışından fitnələr və fellər görünür. Şairin sevdiyi şux baxışlı gözlərdir, ahunun zahirdə göyçək, amma həqiqətdə qəlbi-insanı hərəkətə gətirməkdə aciz olan qara gözləri deyil. Hükəma nöqteyi-nəzərincə hər bir camaat, hər bir qövm və millət təklikdə böyük bir cisim mənziləsindədir və bu cismi-əzimi təşkil və təsis edən əfradi-bəşər onun üzvləri məqamındadırlar.

Belə olan surətdə hər bir camaatın, hər bir tayfa və millətin şan və şərafəti, qüvvət və miknəti, dövlət və sərvəti filcümlə maddi və mənəvi salamatlığı, gözəlliyi və vəqü heysiyyəti münhəsirdir, onları tərtib və təşkil edən üzv və ünsürlərin yekdigərinə mütənasiq və mütənasib olmasına və bunların sülh və ittifaq ilə səy və tələş edib. Hər birinə müxtəss olan əmalı icra etməsinə. Necə ki, baş işləyib bədənin sair üzvləri hərəkətdən düşəndə və ya sair üzvlər işdə olub, baş işsiz və fikirsiz qalanda şəxsin bədəni çirkin olub işi düzgün getməz, habelə də bir millətin ünsürlərindən bir hissəsi müttəsil işdə və tələşda olub qeyri bir hissəsi fəaliyyətdən düşsə, işsiz və hərəkətsiz qalsa, o millət nəinki zahirən çirkin, bədtərkib görünəcəkdir, bəlkə müruri-əyyam ilə mənən dəxi zəif, aciz və qüvvətsiz olub taqətdən və hörmətdən düşəcəkdir, şan və şərafətini bilmərrə itirəcəkdir.

Rübi-məskunun müxtəlif mərkəzlərində sükunət edən müsəlman millətlərinin mədəniyyət və fəzilət cəhətincə dalda qalmaqlarına, tərəqqi və təalada icz göstərməklərinə bais olan ümdə səbəblərdən birisi də onların hər birisinin təklikdə yarı hissəsi işdə və zəhmətdə olub, o biri hissəsi, tamam yarısı işsiz və şüğlsüz, dünyadan bilkülliyyə bixəbər halda yaşayıb qalmağıdır. Bu bədbəxt hissə aləmi-islamda ünas əhlindən ibarətdir.

Təlim və tərbiyədən məyus, hörmət və ixtiyardan məhrum qalmış müsəlman övrətləri qədim əsrlərdən bəridir ki, ciddi fel və hərəkətdən düşmüş, izzət və şərafətini itirmiş, hərəkətsiz və ölmüş bir üzv məqamındadır...

II

Neçə vaxt bundan müqəddəm "Hərəkətsiz hissəmiz" sərlövhəsi ilə "Tərəqqi"də yazdığımız bir məqalədə məzkur hissənin aləmi-islamda ünas əhlindən ibarət olduğunu şərh və bəyan etmişdik. Məqalənin axırında bu mətləbə daha da bəst verməyi vədə etmişdiksə də, vaxtında vədəyə əməl edə bilmədik. Möhtərəm oxucularımız əfv buyursunlar.

Necə ki, falic azarına mübtəla olan bir bədənin məriz və illətli hissəsi salamat olan hissəsinə kömək əvəzinə ağırlıq və əziyyət yetirir, habelə aləmi-islamda da müsəlmanların bir nisfi ki, ibarət ola ixtiyarsız, elm və tərbiyəsiz biçarə arvadlardan, nisfi-digərinə böyük həml olub, onların tərəqqi etməyinə, elm və mərifət kəsb qılmağına manc olur. Həm əqlən və həm şərən arvadlar kişilərin bir şaqqası və dilimi olmağı mühəqqəqdir. Buna "innəmən nisau şəqaiqür ricali" hədisi-şərifi şahiddir.

Bu hədisdən anlaşılan budur ki, arvad kişinin misli və nəziri və yaxud nisfi-digəridir. Belə ki, kişi təklikdə naqis və yarımçıq bir vücuddur. Onun həddi-kamala yetişməyi bağlıdır nisfi-digəri məqamında olan arvadın vücuduna. Bunların hər ikisindən övlad törəyir və nəsil əmələ gəlir. "Bəqayi-insan, nizami-bəşər və nəzmi-döv-

ran" – bu iki şaqqaların birləşib bir cildi-vahidə girməyinə bağlıdır. Burası dürüst təhqiq və təfhim olunandan sonra arvadların viqayeyi-hüquqları əmrində ehtimami-küllü göstərməlidir. Xüsusən, bizim əsrimizdə ki, hətta Avropa arvadları arasında dəxi böyük cünbüş və hərəkət var. Hər yerdə cəmiyyətlər təşkil edib, azadə arvadlar öz azadlıqlarına qane olmayıb, daha da artıq hüquq və ixtiyar kəsb etməyə çalışırlar. "Molla Nəsrəddin"in 29-cu nömrəsində "Bihəyalar" ünvanında yazılmış nazik işarəyə diqqət yetirilməlidir.

Rus şairlərindən məşhur Nekrasov bir kəlamında rus arvadlarının ixtiyarsız və fəna bir halda yaşamalarından bəhs edib, onların üç qisim bəd iqbalda və nəhs taledə yaranmaqlarını zikr qılır. Əvvəlinci bəd tale onların anadan kəniz və ixtiyarsız doğulmağıdır. İkinci bəd tale qul kişiyə arvad olmağıdır. Üçüncü bəd tale və qarabəxtlik qul anası olmağıdır və qul övlada pərəstarlıq etməyidir.

Burada Nekrasov rus arvadlarının fəna halını, icz və inkisar üzrə zindəganlıq etməklərini göstərmək ilə belə tamam rus millətinin ixtiyarsız qul olmalarını dəxi gizləməyibdir. Bəlkə kişilərin daha da artıcaq yaman halda dolanmaqlarını bəyan edibdir. Filhəqiqə "Qul kişiyə arvad olmaq, qul adama analıq etmək" ağır və məşəqqətli peşə isə də, hər iki surətdə həqiqəti-əmrdə qul olan kişi olur, arvad olmur.

Amma müsəlmanlıqda müsəlmanlar arasında hər üç surətdə qul və kəniz halında gün keçirən və ömrünü zay edən arvad tayfası olur. Anadan kəniz doğulur, ərə getdikdə ərinə kənizlik edir və həmişə ərinə və yoldaşına "ər" və "yoldaş" deməyib, "sahibim" deyir. Axırda tərbiyəsiz övladına ana olmayıb, kəniz olur.

Qədim zamandan bəridir ki, Azərbaycan türklərinin arasında arvadların halına məxsus onların öz dillərindən belə sözlər deyilir:

Qız idim, sultan idim,
Nişanlandım xan oldum.
Gəlin oldum, qul oldum,
Ayaqlara çul oldum!

Bu sözlərdən məlum olur ki, müsəlman arvadı ömründə beş-on il xoşbəxtlik və ağ gün görürsə, o da qızlıq əyyamındadır. Ona nişan taxılanda bir az vaxtda hörməti zahirən bir azacıq da artır. Elə ki, gəlin olur, qul olur və get-gedə hörmət və izzətini bilmərrə itirib, ayaq altına düşən çul və palas mərtəbəsinə tənəzzül edir. Başqa bir misalda arvadın dilindən bu sözləri eşidirik:

Qız idim, geydirdilər ibrü vəfa köynəyini,
Nişanlandım, geydirdilər zövqü səfa köynəyini,
Gəlin oldum, geydirdilər cəbrü cəfa köynəyini.

Bu sözlər dəxi ona şəhadət verir ki, müsəlman arvadının ömründə bir neçə ağ gün varsa, o da qızlıq və nişanlılıq halındadır.

Bu ağ gün də müsəlman qızlarının çox tez ərə verilməyi nəzərə alınsa, on dörd-on beş ildən ziyadə çəkmir. Ondan sonra biçarə arvad analıq halına yetişib, ölənə kimi əynindən "cəbrü cəfa" köynəyini çıxartmır və sahibinin sərtvücud rəftarından vaxtsız qocalır, qönçə ikən açılmamış solur, tələf olur....

Əgər mətləbin künhünə diqqət yetirib dürüst fikir etsək, onda görərik ki, arvadların təlim və tərbiyəsiz qalmaqlarının, çox işlərdə ixtiyarsız olmaqlarının, övzai-zəmanədən və dünya işlərindən bilküllüyə bixəbər qalmaqlarının zərəri özlərindən artıq kişilərə yetişir, ağılsız, elmsiz və mərifətsiz arvadın yaraşıqsız işi və uyğunsuz hərəkət və söhbəti hamıdan artıq öz kişisinə təsir edir. Kişi təcrübə, elm və bilik cəhətincə hər zaman və məkanda arvaddan artıq olubdur və özünün şaqqası məqamında olan arvadın ağılsız, fəhmsiz və sadədil olduğunu müşahidə etdikcə ürəkdən ağrıyıb içəridən yanır.

O səbəbdəndir ki, bir kişi elm və mərifət sarıdan nə qədər artıq tərəqqi etmiş olsa, bir o qədər o özü üçün münasib yar və yoldaş aramaqda ehtiyatlı olur və evlənmək üçün ən çətin məsələlərdən birisi hesab olunur.

Bu çətin məsələ cümlədən artıq müsəlman əhli-mərifətinin (intelligensiyasının) qabağını kəsibdir. Əksər ittifaqlarda onlar öz millətləri və həmməzhəbləri arasında müvafiq həmsər və yoldaş tapa bilməyirlər...

Bu halda intelligentni şəxsin təmənnası artıbdır. O təmənnaları keçmiş zəmanənin ayin və adatı ilə tərbiyə almış qızlar yerinə yetirməkdə acizdirlər. İndiki adamlar məhəbbət adlanan ali hissə başqa məna verirlər. O səbəbdəndir ki, mədəniyyətli millətlər arasında təəhhül və təzvic məsələsinə artıq diqqət yetirirlər və artıq ehtiyatlı olurlar. Burada bir boşqab şirni və bir kəllə qənd və üç manat pul ilə tez əldən iş bitib əqdi-nikah cari olmur.

Doğrudan da, ər ilə arvadın arasında mərifət cəhətincə nə qədər təfavüt çox və mənəvi qərabət az olsa, bir o qədər bunların bir yerdə olmağı kişi üçün ağır və çətin olur. Bu surətdə elmsiz və mərifətsiz arvad kişisinin ruhani tərəqqisinə və mənəvi şüğllərinə mane olur.

Biçarənin qol və qanadını bağlayıb, ağıl və ruhunun tərəqqi və təcəllisini gah qisim-qisim iddialar ilə pozur və gah həmişə əllərində olan göz yaşı ilə qərq edir. Ürəyi elm və bilik şövqü ilə dolmuş və qəlbində mərifət çırağı yanmış hər bir kişi, xüsusən cavanlıq mövsümündə, mərhum Abdulla bəy Asinin kəlamı misdaqincə "Günəş həmxanəliyini məva etmək arzusunda olub", tərlan kimi uca məqamlara uçub qalxmaq istəyir və lakin bu halda dişi qaz misilli bir arvada rast gəlib, qüvvəyi-şəhviyyəsinə məğlub olub, onunla həmsər olur və tezlikcə özü də tərlan ikən çevrilib qaz olur, çamurlu və üfunətli gölmələr içində özünə və balalarına üfunətli tömə axtarmaqla ömrünü zay edir.

Belə ki, "Mürği-ab ilə həmzəban olub, dövrə qalxmağa balü pər bağlamış" arvadlar hənuz müsəlmanlar arasında hasilə gəlməyibdir.

III

Bilmək gərəkdir ki, ünas əhlinin elmsiz və mərifətsizlikləri ucundan bu qədər dalda qalmaqları, bu qədər biixtiyar, avam və sadədil olmaqları məhz bir özlərinə və kişilərinə zərər yetirmir. Bəlkə bunlardan da artıq onun ziyanı və sədəməsi övlada və körpə balalara toxunur.

Təəccüb etməli haldır, analıq və ana olmaqlıq ziyadə çətin və bununla belə müqəddəs bir peşə sayıldığı halda, o çətin peşəni və müqəddəs vəzifəni layiqincə icra etməyə analar hazırlaşdırmaq fikrinə düşmürlər. Bu məsələdə hamıdan artıq qəflətdə olan müsəlmanlardır. Dünənki uşağı, gəlincik oynadan və ağzından hənuz süd iyi gələn körpə bir qız balasını bu gün arvad edib, gəlincik oynatmaq əvəzində balaya süd və tərbiyə verməyə vadar və məcbur qılırlar. Nə böyük zülm və ədalətsizlik! Və nə böyük cəhalət və divanəlik! Filhəqiqə, belə körpə, əti və sümüyü bərkiməmiş anadan vücuda gələn balalar cismən və əqlən nə qədər zəif, nəhif və mayasız gərək olsunlar. Övladın tərbiyəsi və təlimi ancaq o vədə qaydaya düşüb təbii ola bilər ki, onların vücuduna səbəb olan ata və ana həddi-kamala yetişib, ağıl və fərasətdə, elm və bilikdə, ixtiyar və hüquqda biri-birinə müvafiq olalar, biri-birinə həqiqi mərifət və məhəbbət ilə bağlanmış olalar və hər ikisi təlim və tərbiyənin yolunu kamalınca anlayalar. Bu surətdə demək olar ki, ər və arvad bir cismin, bir bədənin iki müvafiq hissələri və təbii parçalarıdır. Ancaq belə əqlən, əxlaqən və cismən yekdigərinə müvafiq və müsavi

olan ər və arvadın əqdləri mübarək və müqəddəsdir və bunlardan törəyən övlad hüsn-tərbiyə almağa müvəffəq ola bilər. Zira ki, ağıl və kamalı dürüst və canı salamat valideyn çalışacaqlar ki, övladları hər bir cəhətdən onların özündən əfzəl və ikmal olsun.

Xeyli zamandır ki, Avropada və sair yerlərdə mədəniyyətli qövm və tayfalar arasında ünas tayfası öz hüquq və ixtiyarlarını axtarmaqdadır. Bəzi məmləkətlərdə bunlar bir növ məramlarına nail və mətləblərinə vasil olmuş kimidirlər. Bunları təbrik etmək olar. Bu axır vaxtlarda islam aləminin bəzi niqat və guşələrində müsəlman arvadlarının içində bir növ cünbüş və hərəkət müşahidə olunur. Onlar tərəfdən gah da bir nazikanə tələbi-hürriyyət, hüquq və ixtiyarat sədası gəlir. Müsəlman xanımları da guya özlərinin fəna halda yaşamaqlarını düşünüb, qeydi-əsarətdən və bəndi-zillətdən azad olmaqlarına çarə və tədbir aramaq fikrinə düşürlər. Yavaş-yavaş özlərini tanımaq, təkliflərini anlamaq, qədir və qiymətlərini bilmək istəyirlər.

Doğrudan da, ana olmaq, körpə balaya döşdən süd verib onu bələməkdən və ona dayəlik etməkdən ibarət deyil. Analığın, necə ki, yuxarıda zikr olundu, başqa şərt-şrutları vardır ki, onları kamalınca dərk edib yerinə yetirməyə elm və mərifət və anlaq lazımdır.

Və həmçinin arvad olmaq yalnız bir bədən və cisim ilə kişiyə qulluq edib, cismani xahişlərini əmələ gətirmək deyil. Həqiqi arvad olmağın dəxi çox mühüm şərtləri vardır ki, onları bilməməkdən bizim yazıq arvadlarımız kişilərinin nəzərində belə xar, zəlil olublar.

Elmsiz və cahilə ananın öz övladına nüfuzu o vaxta kimi ola bilər ki, onlar nabaliğ tifil halındadırlar. Necə ki, onların ağıl və fəhmi yaxşıyamana fərq verməkdə acizdir.

Amma zamaniki övlad böyüyüb təlim və tərbiyə alır və elm nuru ilə ağıl və zəkavətini işıqlandırır, onda anasının dünyadan bixəbər və sırf cahilə olduğunu bilib, bir yandan onun sadəliyinə təəccüb edir və bir yandan ona yazığı gəlir. Belə olan surətdə mənəviyyat sarıdan onların yaxınlaşmağı mümkün olmur.

Ananın sözünü övlad, övladın dediyini ana başa düşməyib, xilqətən bu qədər yavuq ikən biri-birinə yad olurlar. Bu halda biçarə ana övladından şikayətçi olub, onların əmək itirməklərindən, haqqnaşünas olmaqlarından başlayır qonum-qonşuya giley etməyə. Bu hal həqiqətdə hər iki tərəf üçün ağır və ürəkyandırıcı bir haldır.

Bu halı rus ədiblərindən məşhur Turgenev "Atalar və oğullar" sərlövhəsi ilə yazdığı bir romanında artıq məharətlə kəşf və bəyan edibdir.

Heyfa ki, bizim əhli-qələmimiz belə mühüm mətləblərdən qafildirlər. Ər ilə arvadın arasında olan əlaqəyə diqqət yetirdikdə görürük ki, bunların mabeynində təfavüti-əql, fəhm və idrak daha da artıq dərəcədədir. Bu təfavütdən nəşət edən fənalıq və nifaq məişətimizi pozğun edib, dolanacağımızı nizam və qaydadan salır və bu yolda o qədər faciələr və ürəkyandırıcı müsibətlər vüqua gəlir ki, onları dil ilə söyləmək və qələm ilə yazıb başa yetirmək olmaz. Ər və övrət şərən və əqlən bir bədənin iki şaqqası və müvafiq hissəsi olduqlarına görə bunların arasında olan yekdillik, ülfət, məhəbbət və mənəvi qərabət gərəkdir heç bir kəsin mabeynində mülahizə olunmasın və lakin, mətəəssüf, müsəlmanlar arasında hər bir ailənin xoşbəxtliyinə səbəb olan bu iki hissə, yəni ər və arvad əksəriyyətən bir-birinə müvafiq gəlmir. Hissənin biri, yəni ər, yəni ağıl və kamal və bilmək cəhətindən öz mənəvi parçasından, yəni arvadından əla dərəcədə durduğuna görə onunla ülfət və saziş edə bilmir.

Bu mənanı "Molla Nəsrəddin"in 30-cu nömrəsində cənab Lağlağı "Həlal" ünvanında yazdığı məqalədə zarafatyana daha da açıq söyləyibdir. Amma o şey ki, Lağlağı məzəliliyə salıb açıq söyləyir, onu biz bir az pərdəli danışmağa məcburuq.

Necə ki, Qədim Yunanıstanda hükəma və filosoflar öz ailələrindən xəlvət qaçıb, getera adlanan azad və bir növ əxlaqsız arvadlar məclisində ruhlarını şad və vaxtlarını xoş keçirirdilər, habelə bu halda bizim müsəlmanlar içində, xüsusən elm və kamal təhsil edənlər arasında, çoxları elmsiz və tərbiyəsiz müsəlman arvadlarına meyil və rəğbət göstərməyib, özləri üçün nameşru yol ilə ruslardan, nemsələrdən və yəhudilərdən yoldaş və həmsər axtarırlar. Bizim anladığımıza görə, özgə sayaq da ola bilməz. Çünki kişini arvad özünə məhz bir cismi və zahir camalı ilə bənd edə bilməz. Bunun üçün ağıl və kamal da lazımdır. Zahiri gözəllik kişini ancaq əvvəl dəfələrdə özünə mayil və rağib edir. Necə ki, kişi bir gözələ malik və sahib olmayıbdır, onun tələbindədir və bu halda gözəllik nüfuzu artıq və hökmürəvandır. Amma elə ki, kişi ona qalib gəldi və ona sahibləndi, onda zahiri gözəllik mənadan düşür və bir az vaxtdan sonra əzəlki qədrü qiymətini sahibinin nəzərində itirir. Bundan sonra kişini özünə bənd edən ağıl və kamal və sirətin gözəlliyidir. Və həqiqəti-əmrdə insanı özünə bağlayan və həmişəlik aşiq edən camali-zahiri deyil, camali-mənəvidir. Əsil gözəllik surətdə deyil, ağıl və kamalda, əxlaq və sirətdədir.

Bunu dürüst biləndən sonra arvadlarımızın ağlının, əxlaqının və filcümlə mənəvi kamalatının tərbiyəsinə məşğul olmağı əvvəlinci vəzifələrimizdən gərəkdir hesab edək. Tərəqqi və təalamızın hüsulu arvadlarımıza təlim və tərbiyə verməyə və onları qaranlıq və cəhalət aləmindən elm və mərifət dünyasına çıxartmağa münhəsirdir.

Bu halda hərəkətsiz və taqətsiz hissəmizi hərəkətə gətirib, bütün bədənə dirilik və salamatlıq vermiş kimi oluruq və mənəvi tərəqqimizə bir rast və gen-şahrah açırıq.

1909

DÜNYADA BƏLA NƏDƏN TÖRƏYİR?

Qraf L.Tolstoyun təlimi-ətfal üçün tərtib etdiyi əlifba kitabçasında sadə dil ilə yazılmış bir xeyli pürməzmun hekayələr vardır. Onlardan bəzisi Şeyx Sədinin "Gülüstan"ında nağıl olunan hekayələrə bənzəyir. Cümləsi hikmət və təcrübə üzüylə yazılmış əsərlərdir. Məzkur hekayələrdən birisində bəlanın yer üzündə nədən törəyib nəşət etməsindən rəvayət olunur. Qissənin müxtəsərən məzmunu budur:

Bir abidi-xoşsirət tərki-dünya qılıb, vaxtını adamlardan kənar bir meşədə ibadətlə keçirirmiş. Meşənin heyvanları ondan qorxmayıb, başına cəm olarlarmış. Abid onların dilini, onlar da abidin dilini anlarmış. Bir kərə abid bir ağacın dibində uzanıbmış. Qəzadan haman ağacın altında axşamlamağa qarğa, göyərçin, ilan və maral cəm olur və öz aralarında başlayırlar söhbət etməyə ki, aya, yer üzündə bəla və günah haradan törəyir?

Qarğa bəla və fəsadın törənməsini aclıqdan, göyərçin məhəbbətdən, ilan qəzəb və şərarətdən, maral qorxu və vahimədən görüb, hər birisi öz qövl və rəylərinin haqq və savab olmağına dəlil və dəlail gətirirlər. Abid bunların göftgularını eşidib deyir: – Dünyada bəlanın zühura gəlməyinə səbəb bədəndir. Qəzəb və aclığın da, məhəbbətin də və qorxunun da mənbəyi və törənəcək yeri bədəndir. Bədən olmasa nə aclıq olar, nə məhəbbət olar, nə də qorxu.

Bu hekayədə L.Tolstoyun maralın dilindən söylədiyi sözləri oxuyanda bizim biçarə müsəlmanların halı yadıma düşdü. Maral deyir: "Əgər ürəkdə qorxu olmasa, hər şey yaxşı olar, hər iş öz yolu

və qaydası ilə gedər. Hərgah böyük yırtıcı heyvanlardan bizim üzərimizə hücum edəni olsa, bacarıq qaçıb ondan xilas olaq, çünki Allah bizə tez qaçan ayaqlar veribdir. Xırda heyvanlar da bizə zərər yetirə bilməz. Onların dəfi üçün Allah bizə buynuzlar mərhəmət edibdir. Amma nə eyləmək ki, canımız doludur qorxu ilə və bu qorxu bizə macal vermir ki, Allah verdiyi alat və əsbəb ilə dəfi-məzərrət edək və nəfsimizi xof-xətərdən qurtaraq. Balaca bir səs eşidəndə bütün bədənimizə lərzə düşür, yarpaq kimi tir-tir əsirik, ürəyimiz döyünüb az qalır yerindən çıxsın, qəribə bir hala düşürük".

Hərgah maral bilsə ki, bu səs və şıqqıltı yel əsib kolu tərpətməkdən, yarpaqları biri-birinə toxundurmaqdan əmələ gəlir, o vaxt o qorxmaz və qorxudan özünü dağa-daşa çırpmaz, əbəs yerə canını fövtə verməz.

Həmçinin hərgah bizim müsəlmanlar qorxub vahimə etdikləri şeylərin əsil və künhünü bilsələr, bilaşübhə onlardan qorxmazlar və bu qədər bəlalara və fəlakətlərə düçar olmazlar. Bunca əskiklik və ürək sıxıntısı çəkməzlər.

Qorxuya ümdə səbəb bilməməzlik, elmsizlik və avamlıqdır!

Bu elmsizlikdən və avamlıqdan müsəlmanların ürəyinə qorxu bərk sirişt edibdir. Cəhl və nadanlıq onları cürətsiz, hünərsiz və bir növ üftadə, xar və zəlil edibdir.

Avamlığımızın ucundan vətənimizdə özümüzü qəriblər, evimizdə yadlar kimi saxlayırıq.

Əcnəbi tayfalardan və xarici millət və qövmlərdən bizim içimizdə olanları elm və mərifətləri sayəsində bizdən cürətli, rəşid, dilavər və zirək olurlar. Öz mülkümüzdə, öz yerimizdə və öz məskənimizdə bizə ağalıq edirlər, bizim mal və dövlətimizə sahiblik edirlər.

İngilis, firəng, alman, yəhudi və qeyriləri haraya getsələr, hansı məkan düşsə oranı özlərinə mütəəlliq yer hesab edib heç bir şeydən çəkinmirlər, heç kəsdən xof və ehtiyat etmirlər. Elm və bilik bir yandan, ev və məktəb tərbiyəsi başqa bir yandan onları cürətli, zirək, hünərli və hətta bir az həyasız və insafsız eləyir desək, səhv etmiş olmarıq.

Beş-on sənə bundan irəli "Kaspi" qəzetəsində qəribə bir əhval yazılmışdı. Bakı ilə Sabunçunun arasında işləyən poyezdlərin birisində bir kupedə üç nəfər şəxs Bakıyamı, Sabunçuyamı – dürüst xatirimdə deyil, – gedirlərmiş. Bunlardan birisi Qafqaz adamı və iki nəfəri: biri arvad və biri kişi, Avropa adamları imiş. Əsnayi-rahdə qafqazlı papiros qutusundan papiros çıxarıb istəyibdir çəksin, amma avropalı mane olub, xanımın hüzurunda papiros çəkmək

ədəbsiz bir fel olduğunu ona işarə edibdir! Qafqazlı qızarmış, üzr-xahlıq edib, çıxıb papirosu çöldə çəkib, sonra kupeyə daxil olanda görübdür ki, haman şəxs özü siğar çəkir. Bunu gördükdə təəccübə ondan soruşubdur ki, siz mənim papiros çəkməyimə mane olub, özünüz nə haqq ilə xanımın hüzurunda siğar çəkirsiniz? Avropalı həqarətlə ona bir nəzər yetirib cavabında deyibdir: "Mənimlə sən bərabərmi oldun? Mən nəcib ingilis, sən dəni yerli". Bu cavabdan qafqazlı mütəğəyyiri-hal olub, "nəcib" ingilisə bir sillə vurmuşdu. Bu qəribə işin sonradan suda düşməyi qəzetədə mənim yəqinimdir ki, nəcib ingilisə sillə vuran yerli hər millətdən imişsə də müsəlman deyilmiş. Çünki bizlərdə o cürət və təəssüb yoxdur ki, haqqımızda icra olunan nifrət və etinasızlığa, zülm və təəddiyə mərdanə cavab verib, onları özümüzdən dəf edək, hüquq və ixtiyarımızı gözləyək, şən və izzətimizi, hörmət və ləyaqətimizi mühafizət qılaq.

Zülm və sitəmə, hər qisim ədalətsizliyə bizim kimi səbredici, tabğətirici, qəzasına razıolucu başqa bir tayfa tapılmaz. Müsəlman mərkəzlərində olan hansı bir uyezd naçalnikinin dəftərxanasına təşrif aparsanız, orada müsəlmanları, xüsusən, qara rəiyyət camaatını ziyanlıq mal kimi zar və zəbun bir halda görərsiniz. Bədəsturi-sud məhkəmələrin səhnində, silistçilərin qapısında, pristavların həyətində müsəlmanlar qoyun sürüsü kimi dəşəniblər. Bunlardan çoxu bilmir ki, nə işdən ötrü, nə təqsirin və hansı əməlin ucundan onları divanxana qabağına toplayıblar. Birisinin cürəti yoxdur ki, divan əmələsindən öz təqsirini xəbər alsın, nə işin xatirəsi üçün dəvət olunmasını bilsin. Hamı üstündə ağalıq edir, hamıdan qorxub ehtiyat eləyir.

Allah ona ağıl da verib, baş da veribdir. Amma nə eyləmək, maralın canına çökən qorxu onun da canına çökübdür.

Şəhərlərdə dəxi müsəlmanların qorxaqlığı və kəmcürətliyi hər qədəmdə və hər məqamda müşahidə olunmaqdadır. Poçtxanalarda, teleqrafxanalarda, banklarda, xəzinələrdə, məhkəmələrdə, apteklərdə müsəlmanları cümlədən geridə məyus durub növbət gözləyən görərsiniz.... Gözəl vaxtın boş və hədər getməyinə heyfləri gəlmir. Əzbəs ki, vaxt onlara artıq lazım olası bir şey deyil. Onsuz da bilmirlər vaxtlarını nəyə sərf etsinlər. Heç olmasa burada gəlib gedənə tamaşa edirlər. Dəmir yollarda dəxi yazıq müsəlmanların başına konduktorlar gətirdiyi bəlanı Allah heç kəsin başına gətirməsin.

Bu fəlakətlərin tamamisinə səbəb haman maralın canına sirişt edən qorxudur ki, biz müsəlmanların bədəninə də analarımızın südü ilə

giribdir. Söz yoxdur ki, hər şeydən qorxan, həmişə qorxu altında ömürlərini çürüdən, dilsiz-ağızsız, fəqir və yazıq anaların südünü əmən balalardan qorxaq, aciz və bacarıqsız nəsil əmələ gələcəkdir. "Maya budlu arvad gərəkdir ki, onlardan da nərbudlu oğlan doğsun". Hünərli, elmli və bacarıqlı və xüsusən, hürriyyət kəsb etmiş analar gərəkdir ki, onlar da hünərli, tərbiyəli, cürətli və bacarıqlı nəsil yetirsinlər.

1909

HƏYATA DƏVƏT

"Dünya beş gündür, beşi də qara". Beşgünlük ömürdən ötrü bu fəna dünyada səy və tələş etməyin, mal və dövlət şövqünə düşməyin, kəsb və hörmət qeydinə qalmağın, ömrü bihudə çürütməyin lüzumu varmı? Hər nə etsək axırımız fənadır! Kişi gərək axirəti üçün çalışsın, onun üçün sərmayə qazansın, ölümünü yadından çıxarmasın, gözünü axirət guşəsinə tiksin.

Ey əzizan! Bir baxın dünyayə – ibrətxanədir,
Axırın fikr etməyən aqil deyil, divanədir...

Möhtərəm üləma, vaizlərimizin məscidlərdə və məclislərdə camaata xitabən söylədikləri sözlər və nitqlər əksər övqat bu qisim vəz və nəsihətlərdən ibarət olduğu cümləyə məlumdur. Bu məzmunlu vəzlər ilə ruhani atalarımız, "salikani-rahi-həqiqət" camaatın etiqadına pərxaşlıq və süstlük gətirib, dünya zindəganlığından onu soyudurlar, ümuri-məişətdə lazım olan səy və tələşdən bir növ kənar edirlər. Bu qisim vəz və nəsihətlərin bərəkətindən müsəlman qardaşların var-qüvvətləri zəifləşir, fikirdən hünərləri yatır, cürət və hünərləri bir işdə büruz etməyir, qəzalarına razı olub, hər bir cəfa və məşəqqəti qəbul edirlər, hər növ zəhmət və əziyyətə qatlanıb məişətin pozğun və cəfalı övzasına tab gətirirlər və hər işdə "migüzərəd" deyib rahət olurlar.

Dünya beşgünlükdür, onsuz da axırı ölümdür. Beşgünlük ömürdən ötrü çalışmaq yararmı və çalışmaqdan nə hasil?

Sultani-cahan isə gedər, canə inanma,
Çün baqi deyil, mülki-Süleymanə inanma.

Bəs hər kəs öz cəzasını o dünyada alacaqdır, lazımdır ölümə hazırlaşmaq, həyata vəfa yoxdur, baqi deyil.

Dünyagir və tamahkar vaizlər üçün camaatın belə qəflət və cəhalətdə yaşamağı, əlbəttə, çox xeyirdir. Hər nə ki, az-çox onlar qazanıb təhsil etsələr, gətirib öz ağalarına təslim edəcəklər, özləri isə aza qənaət edib, ancaq beşgünlük ömür üçün əldə bir azacıq sərmayə saxlayacaqlar. Çünki ruhani ataları onlara vazeh dəlillər ilə sübut ediblər ki, dünya malı cəhənnəm odudur, nə lazım onu cəm etmək.

Nə gərəkdir sənə bu dövlətü mal,
Yükünü yüngül eylə, ey həmmal!

Üləmayi-kiram həmənvaxt biçarə hammalların zəhmətinin səmərəsini hiylə və təzvir ilə əllərindən alıb yüklərini yüngül etməyə çalışmışlar.

O səbəbdəndir ki, müsəlman aləminə nəzər yetirdikdə, onun fəna halı ilə avropalıların dolanacağını tutuşdururkən əqli-insan heyrətdə qalır. Dövlət, sərvət, mərifət, kamal, hünər, bilik, bacarıq, rahət güzəran avropalılarda; fəqr, zəlalət, yoxsulluq, cəhalət, avamlıq, hünərsizlik, narahatlıq, icz, əsarət və kəsalət aləmi-islamda. Bunlar gözün tikiblər axirətə, beşgünlük ömrü bir tövr keçirib, darü bəqaya vasil olmağa, onlar çalışırlar dünya zindəganlıqlarını rahat etməyə və müraffəhal ilə dolanmağa, özləri üçün dövlət və hörmət qazanmağa. Bunlar fəlakət və qəflətdə, onlar ciddiyyət və səadətdə; bunlar ölü, onlar diri! Avropalıların bu fəaliyyət, ciddiyyət və səadəti onların müsəlmanlardan artıq dərəcədə qabil və müstəid olmaqlarından deyil, məhz ondan naşıdır ki, onlar həyatın qədrini bilib, ondan müstəid olurlar. Müsəlmanlar isə həyata meyil etməyib, məmatın fikrindədirlər.

Rus ədiblərindən məşhur Q.Petrov qraf Tolstoyun bir para fəlsəfəyə məxsus əsərlərini məqami-tənqidə qoyub, məzkur əsərlər rusların tənəzzül, kəsalət və bətalətinə səbəb olmasını sübuta yetirir. Tolstoyun "məzərrət və şərarətə müqavimət etməməlidir" rəy və qövlünü Petrov batil və müzirr əqidələrdən hesab edib, rusları həyata dəvət edir və nəsihət üzü ilə onlara deyir: "Diriliyinizi qənimət bilib, zindəganlıq ediniz, zindəganlığın şərtlərini öyrənib rahat yaşayınız, vaxtınızı qəflətdə keçirməyiniz, yatmayınız, donub bir nöqtə üzrə qalmayınız, yaşayınız və başqalarının həyatına səbəb olunuz. Ülum və fünuna, sənaye və ticarətə, fəlsəfəyə, alış-verişə,

ziraətə, məktəb və mədrəsələrə hərəkət veriniz, həyat bəxş ediniz, məişət üçün təzə üsul və qaydalar tərtib ediniz, siyasi və iqtisadi işlərinizə təğyir və təbdil verib, başqaları ilə rəftar və əlaqənizi düzəldiniz, hürriyyət və ülviyyət kəsb ediniz". Bundan sonra cənab Petrov yazır: "Hürriyyət, müsavat və üxüvvət məsələsində gərək bir qüsur olmasın. Cümləyə qardaş gözü ilə baxılsın, başqalarının hüquq və ixtiyarlarına, məmuriyyət və asayişə riayət edilsin, bir nəfsə və bir tayfaya bir zərər dəyməsin. Heç bir millət və tayfanın şan və şərəfinə xələl yetişməsin, haqlarında cövr və sitəm rəva görülməsin. Hər bir millət, qövm və tayfa gərək xəta və bəladan məsun qalıb asudə yaşasın, öz ədəbiyyat və lisanlarını, ayin və adətlərini mühafizə edib, bacardıqları xidməti bəşəriyyət aləminə yetirsin".

Petrovun əqidəsincə, əcnəbi millətlərin haqqında icra olunan təzyiqat, zülm və cəfa, həqiqəti-əmrdə qətlə bərabərdir, Həqq-təala yaratdığı işığı söndürmək mənziləsindəndir, günahsızların qətlinə fərman vermək, acizləri boğazlarından asmaq məqamındadır. Bundan sonra Petrov cənabları yazır: "Həyatı unutmayınız, ona rəhminiz gəlsin, həm vücudunuzda, həm başqalarda onu mühafizə ediniz, seviniz və əziz tutunuz, əski və qədim nişangahların uçub dağılmasına razı olmayıb, yazığınız gəlirkən qüvvətli bir millətin hücum və zülmü altında başqa bir zəif millətin hüquq və hürriyyətinin əlindən alınmasına, dilinin və dininin məhv və nabud olmasına rəhminiz gəlməzmi?..".

Petrovun bu sözləri qızıl suyu ilə yazılmalıdır!

Əlhəqq, həyatı sevmək və onun qədrini bilmək lazımdır. Bizlər isə bu mətləbdən qafil və uzaq düşmüşük, həyatın qədrini bilməyirik və hər kəs ki, bizlərdən bir azacıq onun qədir və qiymətini dərk edib, övzai-məişətini islah etməyə çalışır, dərhal cənab vaiz ilə ağa dərviş onun qapısını kəsib uca səslə yadavərlik edər ki, ey qafil, dünya ibrətxanədir, dünyaya uyma, axirəti əldən qoyma, karvanidəhr yola düşübdür. Hər kəs yükünü tez yükləsə mərdanədir. Bu dünyayi-dunə rəğbət etmə. Axirət üçün tədarük gör, guşeyi-qəbirdən gözünü çəkmə, naz ilə başını balişi-nazə qoyma, çünki min-min nəzakət əhli xak ilə yeksan olublar.

Başını naz ilə qoyma nazbalış üstə, bax,
Gör nəzakət əhli min-min xak ilə yeksanədir!
Huşiyar ol, qıl tədarük, bax gedənlər səmtinə –
Guşeyi-qəbrə – qaranlıq, dar, nəmiş, viranədir.

Vaizin və ağa dərvişin belə sərsəri – xəzanəbənzər nəfəsi-sərdi müsəlman qardaşları cünbüş və hərəkətdən salıb, bütün cəsədlərinə bir süstlük və pərişanlıq ariz edir, belə ki, onların hər bir şeydən şövq və həvəsi kəsilib, məmatdan səva fikir və xəyallarına başqa bir şey gəlmir. Bir kəsin cürət və hünəri olmur ki, vaizi-alicənabdan sual etsin, əcəba, bu qaranlıq, dar və nəmiş məqama yazığı nə üçün dəvət edirsən, burada ki, həyatdan bir əsər yoxdur. Bu viranə mənzil ancaq ölülər üçündür. Mən ki hələ ölməmişəm, diriyəm. Mənim zindəganlarıma, eyşü işrətimə nə üçün zəhər qatırsan, halımı pərişan və fikrimi dərgun edirsən?

Ey bizim ruhumuzun mürəttibləri və başımızın sahibləri ruhani atalarımız! Bizə rəhminiz gəlsin, insaf və mürüvvət ediniz, ətrafımızdakı milətlü əqvamın cümləsi tərəqqi yoluna düşüb, aramsız ciddü cəhd etməkdədirlər, əsbabi-məişətlərini təhiyyə qılmaqdadır. Cümlənin əqli, fikri, zehni işləyir, övzai-məişətləri yaxşılığa və asanlığa çevrilir. Cümlə millətlərin əfradı arı səbətlərə bal daşıyar kimi müttəsil işləməkdədirlər, amma biz yatıb qalmışıq, nə əqlimiz işləyir, nə fikrimiz və nə zehnimiz. Gözümüzü ancaq axirət guşəsini tikib qalmışıq. Hərdənbir cünbüş və hərəkət büruz etdikdə aga dərvişin səsi guşumuza yetişir: "Axırın fikr etməyən aqil deyil, divanədir...".

Q.Petrov rusları həyata dəvət edən kimi biz də müsəlman qardaşlara xitabən ərz edirik: "Ey qardaşlar, həyatın qədrini biliniz, həyat Allah-təalanın ətiyyəsidir, ayılınız, hərəkət ediniz, qapı-bacalarınızı açınız, evinizə işıq düşsün, üfunətli və ağır havası dəyişilsin. Gözünüzün tozunu silib, diqqət ilə ətrafa baxınız, hər kəs işləyir, çalışır, həyatdan nəfbərdar olur. Haqq-təala "Leysə lil insanə illa masəa"[1] əmr buyurmamışlarmıdır?

1911

ANA DİLİ

Xeyli vaxtdır ki, dil məsələsi məhəlli-müzakirəyə qoyulub, onun üstündə məclislərdə, qəzet sütunlarında və jurnallarda bəhs olunur. Kimi İstanbulda işlənən ədəbi dili tərif edib, onu sair yerlərdə işlənən türk dillərinə tərcih verir, kimi Azərbaycan türk-

[1] Tərcüməsi: İnsan üçün onun əməllərindən başqa bir şey qalmayacaqdır.

lərinin şivəyi-lisanını bəyənib, onun tərəfini saxlayır. Bir paraları da İbn-Yafəs kimi türklər üçün ümumi bir dil təsis etmək fikrindədirlər ki, hər yerdə o dildə danışılıb yazılsın.

Hər kəs öz iddiasında möhkəm durubdur. Bəzi dəlillər gətirmək ilə öz qövl və rəylərini haqq bilir, qeyrilərinin qövl və rəylərinə iltifat, etina etmək istəmir. Bu hal ona səbəb olubdur ki, nə qəzetlərimizin müəyyən dili var, nə yazıçılarımızın ki, oxuyanlar da onu anlayıb başa düşsünlər, o dili sevsinlər və öz malı hesab etsinlər, övladına o dildə təlim və tərbiyə versinlər. Bizim əqidəmizcə bu məsələdə uzaq getmək lazım deyil.

Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir. Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir.

Bu Allah-təalanın gözəl nemətlərindən birisidir, onu əziz və möhtərəm tutmaq hər kəsə borcdur.

Rusların məşhur pedaqoq və ədibi Uşinski deyir: "Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz, amma dilini alsan fövt olar və ondan bir nişan qalmaz". Bu doğrunu sayir millətlərin həqiqi ədibləri və yazıçıları yaxşı anlayıblar və əsərlərini ana dilində yazmaqla belə millətin əxlaqını düzəldib, ağlına və ruhuna tərbiyə veriblər və vermək dədirlər və bir tərəfdən də ana dilinə seyqəl verib, onda olan rəkakəti götürüb, gözəlləşdirib, müəyyən bir qanun və əsas üzrə onu möhkəmləşdiriblər.

Rus dilini belə müntəzəm qanun və qaydaya salan və bu dərəcədə onu geniş və zəngin edən onun ədibləri olubdur. Hansı rus ədibi olursa olsun, onun yazdığı əsərləri rus əkinçisi, rus dehqanı oxuyub asanlıqla başa düşür, habelə də nemsə, firəng, ingilis və bizim Qafqazda gürcü, erməni ədiblərinin dilləri. Amma İstanbulda nəinki ədiblərin, hətta balaca bir qəzetdə xəbər yazan hərifin dilini İstanbuldan başqa sayir yerin türkləri anlamaz. Bundan məlum olur ki, Osmanlı ədibləri ana dilinin qədrini bilməyib, onu unudublar və özləri üçün başqa "volapuk"[1] ittixaz ediblər.

Bizim Azərbaycan türklərinin dəxi özlərinə məxsus dili vardır.

[1] 1879-cu ildə Şleyer tərəfindən düzəldilmiş süni beynəlxalq dildir. Həmin söz anlaşılmaz, qarmaqarışıq dil mənasında da işlədilir.

Uzun müddət İran dövlətinin nüfuzu altında yaşamaqla belə, bizim dilimizə bir növ fars dilinin qanun və qaydası sirişt edibdir. Amma bununla belə, dilimizi o qədər qəliz və dolaşıq etməyibdir ki, onu anlamaq olmasın. Bəlkə dili bir dərəcə də dövlətləndiribdir. Doğrudur, bizim qabil və mahir ədiblərimiz az olubdur, amma olanları ana dilini can-dildən seviblər və yazılarını açıq və aydın yazıblar. Abbasqulu ağa Bakıxanovun "Nəsihətnaməsi", Mirzə Fətəli Axundovun komediyaları, Qasımbəy Zakirin məktubatı, Hacı Heybət bəy Fədanın "Məkkə səfərnaməsi", Hacı Seyid Əzimin mövzun əşar və kəlamı, Həsən bəy Məlikzadənin ülum və fununə dair yazdığı kitablar və siyasi məqalələr – cümləsi açıq və aydın dildə yazılmış əsərlərdir.

Amma bu axır vaxtlarda bizim açıq və sadə dilimizə İstanbulda yarımçıq elm təhsil edib gələnlər xələl yetirməkdədirlər. Bu cənablar nə elmdən elm və nə mərifətdən mərifət öyrənməyib və adlarına əlqab olaraq bir quyruq yapışdırıb, qəliz ibarələr atına minib, ədəbiyyat meydanında cövlan etməkdədirlər.

Allah Əli bəy Hüseynzadəyə insaf versin. Kaş o alicənab İstanbulda rahat əyləşib, bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi. O cənabın elm və kamalına sözümüz yoxdur. Sözümüz ondadır ki, elm və kamalından bizə bir bəhrə vermədi, ancaq dilimizə pozğunluq saldı, təzə dil gətirdi. Ətrafını bir dəstə meymunlar bürüdü və ona təqlid etməkdə biri-birinə macal verməyib, "böyük hünərlər" göstərdilər. Az vaxtın içində Qafqaz türklərinin dili osmanlı sözləri və istilahları ilə doldu: "işbu", "İştə", "şimdi", "şol", "əfəndim", "baqalım", "nasıl" sözləri qəzet sütunlarını doldurdu.

Bu işin nəticəsi bu oldu ki, indi qəzetlərimizin və jurnallarımızın dilini oxuyub başa düşmək olmur. Ana dili öyrətmək üçün yazılan təlim kitablarımız elə bir çətin dildə yazılır ki, onların vasitəsi ilə ana dilini ancaq unutmaq olar. Üç-dörd yüz səhifəli təlimi-qiraət kitablarımızda "ata", "ana", "yaxşı" kimi çox işlənən və əziz sözlər dərman üçün belə axtarılsa tapılmaz. Bizim əqidəmizcə, bu müqəllidlik və rəftar millətə xəyanət etməkdir. Biz bir tərəfdən ilminskilərə, miroyevlərə, levinskilərə nifrin edib nalayiq sözlər deyirik ki, dilimizi atıb, bizi ruslaşdırmaq istəyirlər. Bir tərəfdən də özümüz ana dilinin pozğun hala düşüb unudulmağına çalışırıq.

İndiyədək mənəvi tərəqqimizə manc olan illət bir isə, indi iki olur. Bir tərəfdən hürufat qüsuru, digər tərəfdən dil qüsuru əlimizi və ayağımızı bağlayıb qoymur ki, irəli gedək.

Doğrudan da, bir fikir etmək lazımdır. Allah-təala dili insana veribdir ki, onunla insan fikirlərini və hisslərini bəyan etsin. Bu barədə Taleyranın sözü haqq deyil ki, guya dil insana fikrini gizlətmək üçün verilibdir. Bu bir batil qövldür ki, siyasi işlərdə az-çox əhəmiyyəti vardır. Bizim yaqinimizdir ki, dili dolaşıq şəxsin fikri də dolaşıqdır. İbarəpərdazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eləyir, doğru və səlamət fikirli adamların kəlamı həmişə aydın, açıq və düzgün olur. Ancaq sərsərilərin və müxtəlliş-şüur kəslərin sözləri başsız və binasız olur ki, onları anlamaq qeyri-mümkündür. "Şəlalə"nin 22-ci nömrəsində möhtərəm müəllim M.M. doğru yazır ki, səkkiz yüz ildən bəri türk qövmü yapdığı səltənətlər pozulub xarab olubdur və olmaqdadır. Onun üçün baqi qalan bircə dilidir ki, indi onu da türk yazıçıları və türk ədibləri əlindən almaq istəyirlər. Altun Qələmin ona yazdığı cavab bizə bir az gülünc gəldi. Hər nə isə bu barədə danışmağı artıq bilirik.

Ancaq təəssüf etməli və bizə ağır gələni budur ki, möhtərəm İsa bəy Aşurbəyli külli xərc töküb, "Şəlalə" jurnalının təb və intişarı yolunda əlindən gələni əsirgəmir; vəli Səbribəyzadə cənabları haqqı olmaya-olmaya kişinin xərcini zay edir və arzularını puça çıxardır. Jurnalın dilini o qədər çətin edibdir ki, bir kəs onu oxuyub başa düşə bilmir. Əgər "Şəlalə" belə gözəl şəkildə ki təb olunur, dilini asan və sadə etsə idi, Qafqaz türklərinə böyük xidmətlər göstərərdi və onları maarif kəsbinə rəğbətləndirərdi. Vəli ... indiki halda rəğbət əvəzinə nifrət və etinasızlıq kəsb etməkdədir.

Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan ilə oxuyanın arasında dostluq, ittifaq və birlik əmələ gələ bilər.

1913

ƏLİ BƏY HÜSEYNZADƏ

(1864-1940)

TÜRKLƏR KİMDİR VƏ KİMLƏRDƏN İBARƏTDİR?

Qəzetəmizin türkcə bir cəridəyi-islamiyyə olduğu hər nüsxənin başında zikr olunuyor: "Türkcə" və "islamiyyə" ibarələri hər nə qədər surəti-zahirdə qayət aydın və aşikar sözlərə bənzəyirlərsə də, həqiqət halda öylə deyildir. Bu kəlmələr asan, sadə, munis görünürlər və hər kəs öylə zənn edir ki, bunlar izahata, şərh və təfsirə möhtac deyildir. Böylə zənn edənlər, əlbəttə, səhv edirlər. Çünki, qəzetəmiz illərcə intişara davam etdikcə məzkur iki kəlmənin mənalarını bəyan etməklə məşğul olacaqdır. Bu xüsusda çoxdan bəri mövcud batil, zənniyyatı, fərziyyatı, səhv və xətaları ortadan rəf eləməyə səy edəcəkdir. Lisanımızı, qövmiyyətimizi, tariximizi, tariximizə zinət verən böyüklərimizi, qəhrəmanlarımızı, dinimizi məzmum sifətlərlə ləkədar etmək istəyən qərəzkaranə nəşriyyata, rəqiblərimizə, çox kərrə də biz özümüz aldanıb inanırız. Bunların nə niyyət və məqsədlə yazılmış və yazılmaqda olduğunu bilməyiriz. Hətta məəttəəssüf keçənlərdə türk qəzetələrindən birində belə tatarlara, türk və tatarların mədari-iftixarı bulunan Çingizlərə və Teymurlara dair nərəva sözlərə rast gəlmiş idik. Türklüklə iftixar etdikləri halda türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərrirlərimiz vardır!.. Şübhəsiz, öz qövmünü əhya edən, öz məmləkətini abad edən, öz millətini tərəqqi-tərəqqiyə sövq ilə anı mədəniyyətin bala mərtəbələrinə çıxardıb şərəf qazandıran böyük cahangirlərə öz qövm və milləti nəzərilə deyil, başqa və rəqib millətlərin nəzərilə baxarsaq böylə cahangirlər haqqında əlbəttə yaxşı söz deyəməyiz. Səd ibn Vəqqasın mədəniyyətə xidmətlərini iranilərdən sormayın, ərəblərdən sorun? İranilərin, zərdüştilərin mədəniyyəti-qədimələrini kökündən məhv etdiyi halda, islam və ərəb mədəniyyətinin xadimi bulunurdu... Dövri-cədiddə Moltke və Bismark fransızların səbəbi-fəlakətləri olduqları halda almanların vəliyyül-nemətləri bulunurlar. Şübhəsiz, birincilər bunlara vəhşi, xunxar deyərək məzəmmət edir, ikincilər isə bunların mədh və sitayişindən aciz qalıb namlarına heykəllər tikərlər. Lord Keçnerdən burlar şikayətçi, ingilislər isə fövqə-

lado razıdırlar. İştə Teymurun da türk mədəniyyətinə etdiyi xidmətləri Dəşti-Qıpçaq, İran-Osmanlı, Çin əhalisindən deyil, Asiyayi-Vüsta türklərindən, Səmərqəndi təzyin edən asari-memariyyədən, öz nəsli bulunan Uluğbəylərin, Babur Mirzələrin təlifatından, cığatay ədəbiyyatına şərəf verən şüəra və üdəbanın yazdığı kitablardan sormalıdır. Bu xüsuslarda batil fikirlərimizi təshih etməliyiz! Ancaq tariximiz və keçmişdəki əkabiri-milliyyəmiz haqqında həqiqəti meydana çıxarmaq üçün əvvəl əmrdə özümüzü tanımalıyız. Yəni, türklərin kim olduqlarını və kimlərdən ibarət bulunduqlarını, nərədən nəşət etdiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün nərədə sakin olduqlarını və nə namlar təhtində yaşadıqlarını göstərməliyik. İçimizdə özbəklərin, qırğızların, başqırdların türk olduqlarını bilməyənlər də vardır!.. Binaənəleyh məsələ qayət mühümmdür. Surəti-zahirdə nə qədər sönük görünsə də, həqiqət halda böyük və daimi bir əhəmiyyətə haizdir. Bu məsələ ilə bu gün deyil, bir neçə əsr əvvəldən bəri iştiğal etmək lazım idi. Mazidə ehmal olunmuş bu məsələyi gələcəyə, uzaq gələcəyə tərk etməyib heç olmazsa indi ələ almalıdır. Ancaq böylə bir məsələni həqqilə tənvir edə bilmək bir, ya iki fərdin işi deyildir. Bəlkə onu mütalıə üçün beynəlislam xüsusi darülfünunlar, məclislər, cəmiyyətlər mövcud olmalı.

Finlandiya Helsenkfors şəhərində "Fin və uğor (yəni uyğur) ismilə bu kimi məsail ilə məşğul bir cəmiyyəti-fənniyyəyi-məxsusə vardır. Peterburq darülfünununda əqvami-türkiyyə əhvalına vüquf üçün ayrıca şöbə olduğu kimi, akademiya (Əncüməni-daneş) əzası arasına dəxi "ətrakşünaslıqda" şöhrət qazanmış Vasili Radlov kimi böyük alimlər vardır.

Macarıstanda elmi-əhvali-ətrakın nə dərəcələrdə tərəqqiyyata məzhər bulunduğunu göstərmək üçün Vamberinin, Uyfalvunun namlarını zikr etmək kafidir. Ümum Avropada isə bu yolda çalışan müstəşirqinin və bu cür üləma tərəfindən yazılan asari-mühümmənin adlarını saymaq üçün qəzetə sütunları yetməz. Hətta Daniya (Danimarkalara) varıncaya qədər kiçik məmləkətlər belə bu elmdə mühüm kəşfiyyatlar ilə tarixi-ətraka, aləmi-ətraka xidmətlərdə bulunmuş (gərçi bu xidmətlər bizcə məchul qalmış), Vilhelm Tomsen kimi böyük alimlərlə fəxr edirlər. Məsələnin əhəmiyyətindən naşi Avropanın bəzi yerlərində[1] mövcud olaraq övraq və rəsaili-məxsusə dəxi

[1] Müntəzəm vəqt və fasilələrlə çıxan deməkdir.

nəşr olunur. Qəribədir ki, məsələ ən ziyadə türklərə mütəəlliq ikən aramızda bu yolda sahibi-tətəbbö bir alim yetişmək nədir, hətta Avropa ülomasının əhvali-ətraka dair asari-tətəbbüati-fənniyyələrinə aşina olanlarımız belə pək nadirdir!

Vaqiən, axır zamanlarda Osmanlı türkləri arasında mərhum Şəmsəddin Sami bəy, Nəcib Asim və sair bəzi zəvati-möhtərəmə bu vadidə bir cığır açmaq, yeni bir yol göstərmək təşəbbüsündə bulundular! Ancaq bunlar təşəbbüsdən irəli gedəmədilər!.. Nə üçün? Çünki məsələyə elm və irfan sahiblərinin qüvayi-müttəhidəsilə çalışmaq, məclislər, cəmiyyətlər, darülfünunda şöbələr güşad etmək, türk asari ətiqəsini aramaq üçün uzaq məmləkətlərə fənni-heyətlər göndərmək lazımdır!.. Lakin heyhat, heyhat!

* * *

Bu kimi məsələlərlə behəqq iştiğal etmək üçün əvvəla "Elmi-əhvali-əqvam", "Elmi-bəşər", "Elmi-lisan" və sairə kimi bir neçə elmdə tətəbbö və ixtisas sahibi olmaq lazımdır. Biz isə belə bir ixtisas sahibi olmadığımıza etirafla bərabər deyə biləriz ki, hər həqiqəti millətimizə sadə və bir rəngdə göstərmək istəyən "Həyat" sütunlarında bir surəti-ümumiyyə və bəsitədə bəhs edəcək qədər məlumati-lazımədən də məhrum deyiliz. Zənn edərəm türk lisanında çıxan bir qəzetənin nüsxələrinə göz gəzdirərkən atidəki ibarələrə rast gəldik:

"Biz tatarları türkdən xaric buraxmadıq, şu qədər ki, tatar namilə bir cins, bir lisan, bir çöhrə, bir cəhətin bu gün mövcud olduğu pək məlumdur". Lakin vəlov türk irqinin, bir fərini təşkil etsin. Tatar namında bir qövm əlbəttə vardır. Bunlar böyük hökumətlər təşkil etmişlər, cahangir olmuşlar və ilx. Mühərrir məqalənin bu qədər sözləri içində fəna, səhih bir cümlə varsa, o da "tatar namında bir qövm əlbəttə vardır" – sözüdür. Şübhəsiz, vardır! Ancaq bir qövm, bir əşirət, ya qəbilə halında bunlar Çin daxilindən xaricə çıxmamışlardır. Çıxanlar isə ancaq ayrı-ayrı zəvatdan, qoşun böyüklərindən və sairədən ibarət qalmış, yoxsa öz qövmlərini özlərilə birlikdə bəri cəhətlərə çəkib gətirməmişlərdir.

Bunlar isə moğol cinsinə mənsub olduqlarından bütün moğollar kimi türk irqinin bir fərini təşkil edəməyib, moğol irqinin bir fərini təşkil edirlər. Binaənəleyh türkdən xaric tutulmaları əlzəmdir. Əgər cahangir olmaq qövmiyyətə, millətə, millətin heyəti-məcmuəyi-ictimaiyyəsinə aid isə moğolların bu qismi bəri cəhətlərdə nə böyük

hökumətlər təşkil etmiş və nə də cahangir olmuşlardır. Ancaq müxtəlif dövrlərdə osakiri-əzimə müvəffəqiyyətlə sərkərdəlik etdikləri inkar olunmaz! Bunların moğol irqinə mənsubiyyətlərindən naşi, təbiidir ki, cinsiyyət, lisan və çöhrələri dəxi az-çox moğollara məxsus cinsiyyət, lisan və çöhrədir.

Tatar deyilən, səhvən tatar deyilən türklərə, daha doğrusu türklərin səhvən tatar deyilən qisminə gəlincə, bunların lisan və tarix cəhətilə moğollara müşabihət və münasibətləri çox azdır. Yox kimidir. Lisanları, irəlidə isbat edəcəyim vəchlə nisbətən qaba olmaq ilə bərabər Azərbaycan türkü, osmanlı, hətta cığatay şivələrindən ziyadə türkcədir. Yəni türkiyi-qədimə, farsın, ərəbin təsirindən azada qalmış türkiyi-əsliyə daha qəribdir və tatar türkcəsində görünən bu hal Qərbdən Şərqə doğru getdikcə Volqa nəhrindən Baykal gölünə, ya Altay dağlarına təqərrüb etdikcə daha vazeh və aşikar oluyor.

"Cins" və "çöhrə" məsələsinə gələlim: Burada ancaq antropologiya (elmi-bəşər) qaydasınca miqyasi-cümcümə (qafa tasını ölçmək) və sair üsullar ilə tutulmuş bir statistika hökm oluna bilər. İçimizdə az-çox moğollara bənzəyənlərə "tatar çöhrəli" diyoruz, deyilmi? Burada iki mülahizə var və xatir ola bilər: Bir mülahizəyə görə ola bilər ki, burada bir irsiyyət məsələsi vardır. Yəni bu şəkildə olanlarımız, ya əbaən, cəddi külliyyən türkləşmiş bulunan moğollardır, yaxud damarlarındakı qana xeyli moğol qanı qarışmış olan türklərdir... "Üləmayi-bəşər" tərəfindən Qazan türkləri (tatarları) haqqında icra edilən tətəbbüat nəticəsində bunlardan təqribən bir nisfinin az-çox Avropa (yəni ariya) çöhrəsinə və bir nisfinin də az-çox moğol çöhrəsinə malik olduqları təbəyyün etmişdir. Ancaq bu hal qazanlıların moğol olduqlarını isbat edəməz! Çünki qismən moğol çöhrəli, qismən də Qafqaz çöhrəli olmaq halından türklərin hansı şöbəsi azad ədd oluna bilər? Əcəba, Azərbaycanda, Anadoluda, habelə bizzat Türküstanda bu yolda təhərriyyati-fəniyyə bizim öz tərəfimizdən dəxi icra edilsə, eyni nəticə hasil olmazmı? Anadolu içlərində öylə vilayətlər vardır ki, türklərinin çoxu "tatar", yəni moğol çöhrəsinə malikdirlər... Bu isə əvvəllərdə səyahət edənlərə məlum bir keyfiyyətdir. Yuxarıda dedik ki, burada ikinci bir mülahizə daha vardır. Madam ki, hər tərəfdə, haman nisfi nisfinə hər iki çöhrə mövcuddur, o halda elmi-qəvam və elmi-bəşər nöqteyi-nəzərindən hansı çöhrəni ən ziyadə türk çöhrəsi ədd etməliyiz? Moğollaramı, yoxsa hind və avropalılara müşabeh olanlaramı; məsələ qayət

müşküldür. Çünki əvvəla iki-üç min il əqdəm bir millət halını alaraq Baykal civarında Orxon və Yeniseey nəhrləri səvahilində və Altay dağları ətəklərində yaşamış və türklərin ən qədimi və ən xalisi bulunmuş olan Tu-ku-ye qövmünün çöhrə və cümcüməsinə (qafa tasına) vüqufi-tamımız olmaq lazım idi. Mümkün isə həfriyyat icra edib üzami-qədimeyi müayinə və mütaliə etməli idik. Ola bilər ki, ən qədim zamanlarda dəxi hər iki çöhrə mövcud idi... Lakin çöhrə məsələsinin mücərrəd, özbaşına o qədər əhəmiyyəti yoxdur.

Türklər səhnəyi-tarixiyyəyə miladi-İsadan 2000 il əqdəm çıxıb, o vaxtdan bəri cinsən və lisanən müxtəlif və mütəəddid təsirata məruz olmuşlardır: Asiya qitəsinin şərqində mancu, moğol və çinlilərlə, qərbində isə irqi-qafqazidən olan əqvam ariya və samiyə ilə, yəni hindi, irani, islav, çərkəs, kürd, ərəb və sairə nəsillərilə qarışmış olduqlarından bu gün hər tərəfdə şəklən, cinsən və lisanən qayət müxtəlif bir qövmdür.

Bir tərəfdən tarixin göstərdiyi vəchlə müqəddəmən türk ikən bilaxirə türkcəyi tamamilə unudub, başqa lisanlarla mütəkəllim qövmlər mövcud olduğu kimi, digər tərəfdən də öz qədim dillərini tərk edib türkcə təkəllümə başlayan və bu surətlə içimizə qarışıb bizlərdən mədud olan başqa qövmlər də vardır.

Xəzərləri, bu gün islavca söyləyən bulqarları, macarlara qarışmış hunları, hind əqvamına qarışmış catları, üləmayi-ətrakşünasan birinci zümrəyə nümunə ədd ediyorlar. Müqəddimən guya Fin və uyğur tayfasından olan başqurlar, Əfqan və Türküstan tərəflərində təvəttün edib iraniyüləsl olan sartlar isə bu gün tamamilə türklərə qarışıb türkcə söyləməkdə olduqlarından ikinci firqəyə misaldırlar. Bundan başqa bizzat türk əqvamından bir qismi digər qismi tərəfindən təməssülə uğradılıb, bu diqqət bir maddədir. Bütün bu söylədiklərimdən anlaşılıyor ki, ayrı-ayrı nə cins, nə çöhrə, nə lisan, nə adət və əxlaq və nə də din və məzhəb türk əqvamını fənnən tərif və təsnif üçün əsas tutulamaz. Bəlkə şəraiti-tarixiyyəyi-coğrafiyyəyə və sairə ilə bərabər bütün bu tedad olunan şəraitin heyəti-məcmuəsi nəzəri-etibara alınıb bu surətlə əqvami-türkiyyədən mətlubə ən ziyadə müvafiq olan bir ünmuzəc ittixaz olunmalı, digərlərinin isə cədvəli-təsnifdəki mövqeləri məzkur ünmuzəcə dərəcəyi-qürbiyyət etibarilə təyin edilməlidir.

Bunlardan hansının və nə dərəcədə türk namını daşımağa müstəhəq bulunduqları ancaq bu surətlə təbyin edə bilər.

* * *

Əsil mətləbimizə başlamazdan əqdəm "moğol", "tatar", "türk" və "turok" kimi istilahati-fənniyyəyə dair bir fikir edəlim. Bu gün "moğol" ləfzi etnoqrafiya əhvali-əqvam elmincə müəyyən bir qövmə məxsus istilahdır. Atidə bir cədvəldə göstəriləcəyi vəchlə bu qövm türkün qeyri olmaqla bərabər türk əqvamının dəxi mənsub bulunduqları Altay, yaxud Turan əqvamından böyük bir şöbədir. Türklərə bu surətlə bir münasibətləri olmaqla bərabər türklərdən başqadırlar. Halbuki türklərin tarixi-mədəniyyətdə böyük bir rol oynamış bir qisminə səhvən bu nam verilmişdir. Teymurləngin həfidi (nəvəsi) Babur Mirzənin Hindistanda təsis etdiyi böyük və mətin bir hökumətə "böyük moğollar hökuməti" deyilmişdir ki, qətiyyən yanlış bir istilahdır. Teymur Burlas nam türk əşairindən birinə mənsub olub, türkcədən başqa bildiyi bir dil var idisə, o da sonradan öyrənmiş olduğu lisani-farsi idi. Moğolca bilməz idi. Babur Mirzəyə gəlincə, bu zatın tənzimi-dövlət və ümuri-idarədəki məharəti dərəcəsində qüvveyi-qələmiyyəsi də var idi. Əmuzadəsi Uluğbəy kimi həp türkcə yazmış olduğu asari-tarixiyyə və ədəbiyyə alan ortada mövcuddur. Qiymətdar olan bu əsərlər miyanında "Vəqaye", yaxud "Baburnamə" namilə bir də Babur Mirzənin özü tərəfindən qələmə alınmış bir tərcümeyi-halı vardır. Bu əsərin[1] bir çox yerlərində müşarileyh moğolca bilmədiyini etirafla bərabər əcdadı kimi özünün dəxi türk olduğunu və hətta türklüklə iftixar etdiyini bəyan eyliyor. Hindistandakı sülaləsinə "böyük moğollar" ləqəbi bir yanlışlıq əsəri olub bu yanlışlıq avropalılara bəzi İran müvərrixlərindən sirayət etmiş idi. Bu gün Avropa müstəşirqinin haman kaffəsi xətalarını anlayıb təshihi-maddə etmiş olduqları halda, biz nədən əski zəhabımızda səbat edib qalırız?

İndi Hindistanda böyük hökumətlər təsis etmiş olan bəzi türklərin üzərindən bu moğol[2] namını rəf edib yalnız aid olduğu əqvama təxsis etdikdən sonra gələlim "türk" və "tatar" istilahlarına.

"Tatar" istilahı mübhəm, qeyri-müəyyən, qeyri-fənni olduğuna və ancaq avampəsəndanə və cahilanə bir surətdə istemal edilməkdə bulunduğuna binaən türkoloqlar (üləmayi-əhvalşünasani-ətrak) fiyövmən bu istilahın ortadan götürülməsi tərəfdarıdırlar. Çünki tatar ləfzi mənayi-həqiqi əslisindən başqa üç-dörd məna ilə daha istemal olunur ki, kaffəsi yanlışdır. İbtida bu yanlış olanları mütaliə edəlim. Bəzi əski müvərrixin və müstəşirqin hər iki istilahı (türk və tatar ləfzlərini) həmməna və yekdigərinin təmamilə müradifi kimi tələqqi etmişlərdir ki, bunun külliyyən yalnış olduğu aşkardır. Digərləri ələlxüsus əski fransız müəllifinin bir qismi öylə zənn etmişlərdir ki, guya moğol, tunğuz mancu, tibetli, türk və sairə həp fürutdan olub ümuminə "tatar" deyilir, yəni tatar istilahı guya qayət şümullu olub türk, moğol və sairəyi mühit və şamildir. İştə bu növ yanlışlıq nəticəsidir ki, Değin (Deguignes) nam müvərrix əsərinə şöylə bir ünvan vermişdir. "Historie generale des huns des Turcs, des Magoles et des autres Tatares".

Yəni, "Hun, türk, moğol və sair tatarların tarixi-ümumisi" təbiri-axərlə Değin zikr olunan bu əqvamın cümləsini tatar fərz etmişdir. Bir üçüncü firqə üləma isə bunun tamamilə əksi bir xətaya düçar olaraq türk ləfzini ümumi və şumulli ədd etdiklərindən tatarları türk irqinin bir fəri, bir şöbəsi kimi qəbul etmişlərdir. Bunlar haqqında deyə biləriz ki, əgər tatardan muradları başqaları tərəfindən səhvən tatar namı verilən türklər isə, o halda etiraz ediləcək nöqtə ancaq bizzat ləfz tatar olur. Yox əgər məqsədləri ən əsil moğol olan tatarlar isə o halda bittəb bu da böyük bir yanlışlıq ədd edilmək iqtiza edər. Çünki əvvəlcə ərz etdiyim vəchlə tarix göstərir ki, nə tatar deyilən moğollar Tyan-şan dağlarından bəri tərəfə hicrət etmişlər və nə də Rusiya və Sibirya səhralarındakı türklər tatardır. Biləks bunlar türklərin ən ziyad türk olanlarıdır. Mərhum Şəmsəddin Samibəyin "Qamusi-türki"sində dəxi tatar maddəsində bu yolda bir yanlışlıq vardır. Samibəy öylə zənn etmişdir ki, tatar ən əsil türk əqvamından kiçik bir qövm olub, bunların namına nisbətən ümum moğollara "tatar" deyilmişdir. Bəzi fərziyələrə görə, tatar ləfzinin mənşəi mancuriyalıların lisanında tirəndaz, oxatan mənasına gələn "ta-ta" kəlməsidir. Digər tərəfdən də doqquzuncu əsri-miladidə yazılmış Çin kütubi-tarixiyyəsində iki işarə vardır ki, "ta-ta" və "ta-zə" kimi oxunur. Ərəblərin irq və cins tanımayaraq, ərəb olmayan bilcümlə əqvam və ümməmə əcəm itlaq etdikləri kimi, çinlilər də Amur nəhri kənarlarında sakin və türklərə heç bir müşabihət və münasibəti olmayan, fəqət çinlilərin qeyri bulunan bir çox əqvama "ta-ta", yaxud "ta-zə" namı verirlərdi. Bundan başqa yenə ərəbin əcəm ləfzini ayrıca İranın Fürs qövminə təxsis etməsi qəbilindən çinlilər də nəhri-

[1] "Pavede Kurtil" nam fransız alimi tərəfindən fransızcaya tərcümə edilmişdir.

[2] Türkmən və Azərbaycan türklərindən bir qisminə osmanlı ilə ərəblər tərəfindən səhvən "əcəm" deyilir ki, kəza təshihi əlzəmdir.

Əsfər sahilində yaşayan bir moğol qövmünə dəxi bilxassə "ta-ta" deyirlərdi. Bəzi çinli şivələrində hecaların axırına bir də "r" hərfi ilhaq olunduğundan bu kəlmə "tar-tar" və "ta-tar" surətində dəxi tələffüz olunurdu. İştə nəhri-Əsfər səvahilinin tatar deyilən bu moğolları çinlilərlə bir müharibənin nəticəsi olaraq Qobi səhrasından keçib Tyan-şan dağlarının ətəklərinə qədər gəlmişlər, fəqət oradan daha irəli heç bir zaman keçəməmişlərdir.

Çingizin validəsi bu moğollardan idi. Çingiz fütuhatından sonra türk əqvam və məmalikinin bir qismi bu cahangirin ordularında bulunan tatar (moğol) komandaları səhvən tatar namilə yad olunmağa başladı. Bu səhvə başlıca islavlar səbəb oldu. Çünki bunlar Çingiz qoşununun bir əksəriyyəti – əzimə etibarilə türk olduğunu anlamayıb ancaq əsgərin sərkərdələrini nəzəri-etibara almış idilər. Halbuki fəth olunan ərazinin əhaliyi-turaniyyəsini zatən minəlqədim türk, bu əraziyi fəth edən əsgərlər türk, bunları təqib edən mühacirlər türk, Çingizin özü türk, türkün bir qisminə, bir şivəsinə, bir dövr tarixinə namını verən oğlu Cığatay, yaxud özbək türklərinə nam verən digər oğlu Cuci kimi həp türk oğlu türk idilər. Çingiz ümuri-dövləti üçün moğolların deyil, uyğurların, yəni qədim türklərin xətt və lisanlarını qəbul etmiş olduğu da cümləcə məlum bir keyfiyyətdir.

Çox keçmədən bir neçə komandan və sərkərdədən ibarət bulunan moğol ünsürü türklük ümmanı içində tamamilə qayib olub, bir əsər buraxmadığı halda, tatar nami əqvami-əcnəbiyyə dillərində mühafizə olunub qaldı. Fəqət elmi-əhvali-əqvam ilə elmi-lisanda bu yanlışlıq ancaq bu axır zamanlara qədər davam edə bilib, bu gün ortadan götürülmək üzrədir. Çünki fiyövmən məzkur elmlər birdən-birə yeni bir dövrə-tərəqqiyə vasil olmaqla "tatar" deyilən türklərin ən xalis türklərdən bulunduqları anlaşıldığından ülumi-məzkurə müntəsibini "tatar" istilahının ancaq baladə zikri keçən moğollarla tunquzlara həsr və təxsis edilməsinə haman müttəfiqən qərar verməkdədirlər. Səhvən tatar denilər türklər bərvəchi zir üç böyük şöbədən ibarətdir:

1) Sibiryanın vase səhralarında yüzlərcə müxtəlif namlar təhtində yaşayan qəbail və əşair ki, başlıca vaxtidə Qızıl Orda hökumətini təşkil edən qıpçaq türklərinin nəslindən münşəəbdirlər.

2) Rusiyayi-Avropayı türkləri. Bunlar ya qazanlılar kibi qıpçaq nəslindən elmi-bəşər nöqteyi-nəzərindən "braxisəfal" olub qismi-əzəmin çöhrəsi avropalılara məxsus çöhrədir, ya krımlılar kibi noğay və sair qədim türklərin əhfadıdırlar.

3) Qafqaziyanın əqvami-mücavirə tərəfindən səhvən tatar təsmiyə olunan türkləri də bunlardır. Qafqaz silsiləyi-cibalının cəhəti-cənubiyyəsində sakin Azərbaycan türkləri ki, şirvanlı, bakılı, qarabağlı, gəncəli, irəvanlı və sairədən ibarətdir (İranın şimali-qərbi səkənəsi də bunlardandır) və məzkur silsiləyi-cibalın cəhəti-şimaliyyəsində sakin noğay, bulqar, bir qismən ləzgilərə qarışan kumuk və zahirən xeyli çərkəslərə bənzəyən və adətən çərkəsləşmiş bulunan "kabarda" və ilx.

GƏLƏLİM "TUROK" LƏFZİNƏ

Əhvali-qövmiyyeyi-ətrakə aşina olan üləmanın ən mötəbərləri bir qələti-tarixi nəticəsi olan "tatar" təbirini rədd edib bu nam təhtində zikr olunan türklərin şək və şübhə qalmayacaq surətdə türklüklərini isbat eləmiş bulunduqlarından bəzi Germaniya (alman) ətrakşünasını daha ziyadə ərəb, fars və Avropa təsirati-irqiyyə və lisaniyyəsinə məruz bulunmuş və guya bu surətlə türklükdən bir dərəcə təbaüd etmiş bulunan qərb, yəni osmanlı türklərini bərikilərdən təfriq üçün fəndə başqa bir istilah icadına qalxışdılar. Məlumdur ki, Türkiyədə beynülam ruslara Moskov deyildiyi kibi, rus əhalisi beynində də osmanlılara türk ləfzindən qələt olaraq "turok", ya "türk" deyilir. İştə, bəzi alman ülaması türk namını baladə tedad edilən ətrakla Asiyayi-vüstadəkilərə təxsis edib osmanlı türklərinə isə "türk", yaxud "turok" isim verilməsini təklif elədilər. Fəqət böylə bir təklif bizzat osmanlı türkləri tərəfindən gülünc olacağı kibi üləmanın ümum beynində dəxi əsla şayani-qəbul görünmiyor. Hətta Rusiyanın ən ciddi əhvali-əqvami-aləm və müvərrixləri fənni-həqiqi namına bu fikrə şiddətlə etiraz etdilər. Zatən, alman alimlərinin böylə iki istilah icadı lüzumuna göstərdikləri səbəb də çox zəif, hətta qeyrimənqulduR. Çünki bu gün türk əqvamının cümləsi osmanlılar kimi ərəb, fars və sairənin təsirati-irqiyyə və lisaniyyəsinə məruz olmuş bulunuyorlar. Məruz olmayanlar isə yox kimidir, olsa da, yakutlar kibi bütpərəstlikdə qalan, ya xristiyanlıq qəbul edən kiçik şöbələrdən ibarətdir. Demək ki, zikr olunan fərq, təsirati-xariciyyənin azlığında, çoxluğunda olub, yoxsa keyfiyyətdə deyil. Bu isə ancaq təməddün və tərəqqi etibarilə türk əqvamının bulunduqları dərəcati-müxtəlifədən irəli gəliyor...

* * *

Türk lisanının əssəneyi-aləm beynində mövqeini təyin edəlim. zira mütaliə etdiyimiz bəhsə böyük dəxli vardır.

"Lisaniyon" bir sinfi-əssənənin əsvat, hürufat, lüğat, iştiqaqi-sərf və nəhvində bəzi mühüm övsafi-ümumiyyəyi-müştərəkə kəşf edib bu surətlə aralarında mövcud olan müşabihətə məbna bir zümrəyi-əssənəyi "Altay", ya "Ural və Altay dilləri", yaxud "Əssənəyi-turaniyyə" nam vermişlərdir. Əssənəyi-məzkurənin künhi, cəddi-əlası qayət qədim və vahid bir lisani-əsliyi-turani olmaq möhtəmil isə də ancaq bu lisani-əslinin mahiyyəti hənuz layiqilə anlaşılmamışdır.

Üləmayi-lisanın qövlünə görə əssənəyi-turaniyyə aralarındakı fərqlərə binaən bərvəchi-ati altı şöbəyə münqəsimdir:

1) "Fin və uqor" dilləri ki, Finlandiyanın müxtəlif ləhcələrilə Macar (Venqriya unğar) lisanı bu şöbəyə daxildirlər.

2) Sibiriyada və Bəhri-Müncəmidi-Şimali səvahilində söylənən müxtəlif "samoyed" ləhcələri, fin və uğor lisanları ilə bu ləhcələr beynində mövcud olan xüsusi bir müşabihətdən naşi cümləsini (yəni hər iki şöbəyi) bir şöbə ədd edənlər də vardır.

3) Türk ləhcələri, bunlar aşağıda ayrıca tədad ediləcəkdir.

4) Moğol ləhcələri ki Çinin şimali-şərqisində və kəza Sibiriya və Rusiyanın bəzi cənub cəhətlərində söylənməkdədir. Məvərayi-Baykal moğolları, buryat, kalmık və sairə bu zümrəyə daxildirlər. Çingiz ordusunda bulunmuş tatar komandalarının ləhcəsi dəxi bu ləhcələrdən biridir.

5) Mancuriyalıların lisanı ki, tunğuz deyilən qəbail də bu lisanla mütəkəllimdir. "Fin və uqor" lisanları ilə samoyed lisanı beynində bir irtibati-nəsli, nəsəbi mövcud olduğu kibi türk, moğol və mancuriya lisanlarının da ayrıca bir əsildən, bir kökdən mütəfərre bulunduqları zahirdir.

6) Yapon lisanı dəxi Eyveld, Şot, Venqlər və sair mötəbər linsanyonu-turaniyyənin rəy və qövlünə görə Ural və Altay lisanlarındandır.

Hələ qəvaidi-nəhviyyəsinin tamamilə turani olmasında üləmanın cümləsi müttəfiqül-rəydirlər. Əsasən yapon lisanının turaniliyini müsirranə iddia edən zat ən ziyadə Venqlerdir. Əssənə və əqvami-turaniyyəyə dair mütəəddid asari-nafiəsilə kəsbi-iştihar etmiş bulunan alim müşarileyh bu xüsusda Budapeşt şəhərində intişar edən

"Revus Oient le pour us etudes Oural-alo altai gues" nam risaləyi-mövqutənin 1900 sənəyi-miladiyyəsində çıxan məcmuələrində "Die Ural altaischen Sprachen" sərlövhəsi tohtində məqalati-mühimmə dəxi nəşr etmişdi.

Bəzi alimlərə görə əssənəyi-turaniyyə zümrəsinə tedad ediləndən başqa bir də xətti-mixi (xətti-mismari) ilə yazılmış akkadi, yaxud şumeri deyilən qədim bir lisanı dəxi daxil etmək lazım gəlir.

Əssənəyi-turaniyyəni yekdigərindən təfriq edən övsafi-xüsusiyyədən sərfi-nəzərlə (bu təfsilat sədədimizdən xaricdir) yalnız türkcənin ümum əssənəyi-turaniyyə ilə müştərək bulunan övsaf və məzayasını müxtəsərən zikr edərsək faydadan xali olmaz.

Əssənəyi-aləmin bir qismini Turani ya Ural və Altay namilə bir yerə cəm və tövhid edən övsaf və əlamət bunlardır:

a) Kəlmənin müəyyən mənaya, məfhuma dəlalət edən hecai-əslisi erab və təsrif əsnasında əslən təbəddülata uğramaz.

Məsələn, ərəbin "qövl" kəlməsi təsrif əsnasında qeyl, qal və ilx. şəkillərə girdiyi, yəni bir mənayi-müəyyənə dəlalət edən hecə və məsdərinin "vav"ı gah "əlif"ə, gah yayi-münqəlib olaraq hərəkələr dəxi dəyişdiyi, yaxud ara yerə başqa bir hərf daxil olduğu halda türkcənin "demək" felindəki "de" hecayi-əslisi təsrif əsnasında heç bir vəchlə təhəvvül edəmədiyindən (da), yaxud (du) və ilx. kibi şəkillərə qətiyyən girəməz. Bu isə bir lisanın asanlığı, sadəliyi, müsbətliyi nöqteyi-nəzərindən əlbəttə böyük bir məziyyətdir.

b) Kəlmələrin təbəddülati-sərfiyyə və iştiqaqiyyəsi təlasüqi-ədəvat (agglutination) və daha doğrusu, təlahüqi-ədəvat qaydasına tabedir. Ədəvat hecayi-əslini daima təqib edər, ona təqəddüm etməz.

Məsələn, ərəbcə (məqal) kəlməsində (m) hərfi hecai-məsdərə təqəddüm etdiyi halda türkcə (deyilmiş) ibarəsində (yilmiş) ədəvatı (de) hecai-əslisini təqib edər. Hecai-əsliyə təqəddüm edən ədəvata əssənəyi-turaniyyədə ancaq macar dilində təsadüf olunur ki, o da müstəsna qəbilindən olaraq əndər nadiratdandır.

c) Kəlmələri tərkib edən hecalar və bunlara təbəddülati-sərfiyyə əsnasında ilhaq olunan ədəvat daima "qanuni-ahəng" deyilən və ancaq əssənəyi-turaniyyəyə (macar, fin, türk, moğol və yapon, sair turan dillərinə) məxsus bulunan bir qayidəyi-mühimməyə təbəiyyət edər ki, bu da bir kəlmədə bulunan hürufi-sövtiyyənin yekdigərə təvafüqündən ibarətdir. Yəni hərəkələrin xəfifi xəfif ilə və səqili səqil ilə imtizac edə bilər. Yoxsa hərəkəyi-xəfifə hərəkəyi-səqillə

bir araya gələməz. Misal: "Gəlmək", "getmək", "gələcək", "gedəcək" ibarələri əslən və qətən: "gəlmaq", "getmaq", "gələcaq", "gedəcaq" kimi tələffüz olunamayacaqlarından gəlmək, getmək şəklində yazılmaları da caiz olamaz.

Kəza qalmoq (qalmaq), qalocoq (qalacaq) ibarələri də "qalmək" "qalocək" surətində nə yazıla bilir və nə də tələffüz oluna bilir.

ç) Ədəvati-zəmiriyyə və ya zəmiriyyəyi-izafiyyə vasitəsilə əfalda süvəri-intəhaiyyəyi-təsrifiyyənin hüsula gəlməsi keyfiyyəti dəxi bir çox turan lisanlarının əvsafi-müştərəkəsindən məduddur.

d) Fəqət ən ziyadə əssənəyi-turaniyyəyi bir zümrəyi-vahidə şəklində birləşdirən cəhət qəvaidi-nəhviyyədir ki, haman kaffəsində bir siyaq üzrədir. Fel və xəbərin daima cümlənin axırında bulunması məfulların, zərfi-zaman və məkanların felə tabe bulunduqları felə, sifətlərin mövsufə təqəddüm etmələri və ilx. əssənəyi-turaniyyədə ümumi bir keyfiyyətdir.

Nəhvi-turanidə kəlmələrin bir təaqübi-müəyyən ilə irtibat və ittihad etməsindən naşi, cümlə (Venqlerin təbiri vəchilə bir "cümləyi-şibhi-kəlmə)dir. Yəni cümlə içində təaqübi-kələmat, kəlmə içindəki tələhüqi-ədəvata təşbih oluna bilir!..

Bütün bu zikr olunan məvaddi-mövzu bəhsimiz nöqteyi-nəzərindən qayət mühümmdür. İndi türk ləhcə və şivələrindən hansının ziyadə türkcə olduğunu anlamaq üçün əvvəla hər birinin məzkur əvsafi-əsasiyyəyi-turaniyyə ilə nə dərəcə və nə nisbətdə müttəsif, yəni qəvaidi-əsliyyəyi-turaniyyəyi nə nisbətdə mühafizə etmiş və özlərilə qeyri-mütəcanis bulunan əssənəyi-samiyyə və ariyyənin təsiratına nə qədər məruz bulunmuş olduğunu təyin etməli, saniyən vəsaiti-fənniyyəyi-lisaniyyə və tarixiyyəyi-coğrafiyyə və sairə ilə ən qədim və ən xalis türklər kimlər olduğunu kəşf ilə bunların lüğatını, qəvaidi-sərfiyyə və iştiqaqiyyəsini gözəlcə zəbt etdikdən sonra türkün şimdiki ləhcələrindən hər birinin bu qədim və xalis türkcədən təbaüd edib-etmədiyini və etdi isə nə dərəcə etdiyini mütalə etməlidir. Bundan başqa türkcə ləhcələr üzərinə həmcins və həmcivar bulunan sair Turan lisanlarının da təsiratını unutmamalıdır. Heç şübhə yoxdur ki, lisani-əsliyi-türk müxtəlif səbəblər təhtində təhəvvülata uğramaqdan və başqa dillərin təsiratına məruz bulunmaqdan bir an xali qalmamışdır.

Bu səbəblərin başlıcalarından olmaq üzrə mühitin şəraiti-iqlimiyyə və təbiyyəsini vəziyyəti-coğrafiyyədən naşi münasibəti-milliyyəyi-

həmcivarini: ədvari-müxtəlifədə türklər tərəfindən qəbul olunan növ-növ məzahib və ədyanı və bunlarla bərabər gətirilən xətt və lisani-diniyi vəlhasil miləl və əqvamı yekdigərinə qarışdıran müxtəlif vüquati-tarixiyyəyi zikr edəriz. Əsbabi-məzkurəyə dair təfsilatdan sərfi-nəzərlə türklərin müxtəlif ədvari-tarixiyyədə qəbul etdikləri məzahibə dair bir məlumat edənəlim.

* * *

Orxon[1] səvahili qürbündə əxiron kəşf edilən asari-ətiqədən müstəban olduğu vəchlə, türklərin ən qədim din və məzhəbləri bir növ şaman etiqadatından ibarət bulunmuşdur. Şaman məzhəbinə bu gün dəxi bəzi Çin və moğol əqvamı və Sibiriya cəhətlərində bir neçə türk əşair və qəbaili tabedir. Zamani-qədimdə binnisbə mənidar olub əsasən təbiətə, əsrari-təbiətə pərəstişdən ibarət bulunan bu məzhəb əlyövm qəbə bir bütpərəstlik dərəkəsinə enib şaman kahinlərinin şarlatanlığı sayəsində davam etməkdədir. Türklərdən ən əvvəl təmoddün edən qədim tu-ku-yc təbiri-axərlə oğuz türklərilə bunlardan sonra səhnəyi-tarixə çıxan uğyurların qismi-küllisi məzkur bütpərəstlikdə çox müddət səbat etməyib müruri-zamanla fövc-fövc müxtəlif dinlərlə mütədəyyin olmağa başladılar. Şaman bütpərəstliyini ilk sədəmata uğradan din miladi-İsadan əqdəm Hindistanda zühur edib türk və moğollar içində, miladi İsadan, hətta hicrəti-nəbəviyyədən belə sonra intişara başlamış olan Budda[2], yaxud Şakyamuni nam bir zati-möhtərəmin dini olmuş idi. Bir qismi-əzimi-bəşəriyyətin, haman ümum irqi-əsfərin mütədəyyin bulunmaqda olduğu dini-məzkur, bu gün Çin moğolları ilə Rusiyadakı kalmık və buryatların və kəza moğollaşmış bir qisim türklərin arasında dəxi lama məzhəbi şəklini əxz edərək sair ədyan ilə rəqabət etməkdədir. "Dini-əsfər", yaxud "sarı məzhəb" təbir olunan lamalığın banisi Zonqova nam rahibdir. Hər halda lama məzhəbi budda dininin bir şöbəsindən başqa bir şey deyildir. Bu məzhəbdə olan moğollarla, moğollaşmış bəxi türklərin mərkəz ruhaniləri Tibet qitəsindəki Lahasa şəhərindən sonra Şimali Moğulustanda qaim Orğa bələdəsidir. Əsası panteizmə, yəni vəhdəti-mütləqə, yaxud vəhdəti-vücud ilə metampsixoz, yəni

[1] Orxon bir çaydır ki, Baykal gölünə mənsəb olan Selenma nəhrinə tökülür.

[2] Budda ilə büt kəlmələri arasında tələffüzcə bir müşabihətə məbna çox adam bu iki kəlməyi bir-birinə qarışdırıb buddapərəstliyi bütpərəstlik zənn eləyir. Halbuki budda məzhəbi əsasən əslən bütpərəstlik deyildir.

ruhun cismdən-cismə intiqalı demək olan tənasüx etiqadlarından ibarət bulunan məzkur məzhəblərin tövsif və tərifi mövzu bəhsimizə təəllüq etmədiyi cəhətlə bu xüsusda təfsilatdan sərfi-nəzər edəriz. Məqsədimiz ancaq bir zamanlar türklərin bu dinlərdə dəxi bulunmuş olduqlarını, binaənəleyh lisan, adət və əxlaqımızda o dövrlərdən dəxi bir əsər qalma möhtəmil bulunduğunu göstərməkdir. Budda məzhəbini mütəaqib, ya onunla eyni zamanda ortaya siryani xristianları çıxıb türklər və moğollar içində nəstur məzhəbini nəşrə başlamışlar idi. Nəstur məzhəbi xristian dinindən bir şöbədir.

Məlum olduğu üzrə, bugünkü etiqadi-İsəviyyəyə görə səlib əlaməti-nicat və şəfaət olub, xristianlarca-əqanimi-səlasə, yaxud ülühiyyəti-müsəlləsəyi-vahidənin bir rüknü ədd olunan həzrət İsa səlib üzərində iztirabatı bəşəriyyətin naili-əfv və qüfran olması uğrunda qəbul eləmişdir ki, bizim etiqadımıza müxalifdir. Çünki Qurani-Kərimdə "Vəla yəsləbuhuva ləkin şəbbiha ləhu..." buyurulur. Yəni Allahın peyğəmbəri olan Həzrət Məsih səlb olunmayıb yerinə zahirən şəbihi bulunan biri səlb olunmuşdur.

İştə türkcə bəzi əşari-qədimədə hətta bu gün dəxi türkün bəzi ləhcələrində cənab həqqə "çələb", ya "çalap" namı verilməsi məzkur dövrün asarındandır... Zira çələbi farsi çəlipadan, yaxud ərəbi səlibdən qələt olub xaç deməkdir. Osmanlı türkcəsində "əfəndi", "ağa" mənasına gələn və hətta birinci Sultan Məhəmmədə ləqəb və Konya şəhərindəki mövlana həzrətlərinin pustnişininə Çələbi Əfəndiyə əlyövm belə ünvan olan çələbi təbiri dəxi çələbdən müştəqqdir.

Siryanilər islamın şəşyei-zühurundan naşi türklər arasında böyük bir iş görəmədilər. Bu gün xristian bulunan türklər varsa da Anadoluda, Qazan[1] tərəflərində və Sibiryanın bəzi cəhətlərində qəlilüləədəd olduqlarından sair əqvami-nəsraniyyəyə qarışıb məzhəb üzündən millətlərini qayib etmək üzrədirlər. Balada zikr olunan məzahibdən başqa bir aralıq bəzi türklərə Zərdüşt və Mani məzhəbləri dəxi sirayət etmişdi. Əlyövm Hindistanın bəzi cəhətlərində davam edən Zərdüşt məzhəbinin əsası sənəviyyətdir. Bu məzhəbə görə bütün kainat iki yekdigərə zidd qüvvətin təhti-hökmündə bulunur ki, biri zülmət və şərin mənbəi olan Əhrimən və digəri isə nur və xeyrin xaliqi bulunan Hörmüz, yaxud İyzəddir. Nur İyzədin əlaməti-zahirəsidir. Nura pərəstiş guya İyzədə pərəstiş demək olduğundan

[1] Anadoluda bəzi kəlisalarda türkcə icrayi ayin ediliyor. Böylə kəlisa Qazan şəhərində də vardır.

Zərdüşt məzhəbi tabeini tərəfindən bilaxirə qaba bir atəşpərəstliyə qəlb edildi. Atəşpərəstlik isə zatən yuxarıda zikr olunan şaman məzhəbində də var idi. Bir çox adətimiz bu dövrlərdən qalmadır. Məsələn, axır çərşənbələrdə atəş yandırıb üzərindən atılmamız və sairə.

Bu gün türklərin qismi-küllisi əlhəmdülillah xeyli zamandan bəri artıq dini-islam ilə müşərrəf bulunurlar.

Türklər arasında müxtəlif din və məzhəblər yekdigərini təqib etdikcə bunlarla bərabər təhrirati-diniyyə və rəsmiyyədə müstəməl xətlərin, əlifbaların əşkalı dəxi təbəddül ediliyordu.

Bu gün anlaşıldığına görə türklərin ən qədim xətt və əlifbaları run denilən bir növ xətdir ki, bizzat türklərin özləri tərəfindən ixtira olunduğu məznundur.

Bu xətdən irəlidə ayrıca bəhs olunacaqdır. Beş-on sənə əvvəlinə gəlincəyə qədər ən qədim türk yazısı etibar olunmuş olan uyğur xətti ancaq run xəttindən sonra ortaya çıxıb, onun yerinə qaim olmuşdur. Uyğur xəttinin isə siryanidən mübəddəl olduğu və türklər içinə nəsturilər tərəfindən gətirildiyi zənn olunur. Dini-islamın türklər arasında intişarından sonra artıq uyğur və moğol xətləri yerinə hər tərəfdə əlifbai-ərəbi, fars tərəfindən bir dərəcə islah edilmiş əlifbai-ərəbi qəbul olunmuşdur.

Burada qayət şayani-diqqət bir nöqtə var idi – xatir oluyor: Dini-islam ilə xətt və lisani-ərəbi türklərin lisani-ədəbiyyat, əxlaq və adətlərində xeyli əzim bir təbəddül vücuda gətirmiş olduğu halda, türklər, yenə milliyyət və qövmiyyətlərini, lisan və ədəbiyyatlarını ancaq dini-islam dairəsində mühafizə edə bilmişlərdir.

Türklərin külliyyat etibarilə sair dinlərə meyl və istedad göstərməmələri və nadirən göstərənlərin isə milliyyət və qövmiyyətlərini qayib edərək gah çinli, moğol və hindulara, gah əqvami-nəsarayə qarışıb qayib olmaları və biləks türklərin ancaq müsəlmanlığa meyyal və müştaq bulunmaları və islamı qəbul etdikdən sonra bir tərəfdən aləmi-islamın mühüm bir rükn və istinadgahi sırasına keçmələri, digər tərəfdən də ancaq bu dini-mübin sayəsində öz qövmiyyət və milliyyətlərini mühafizə edib təmini-bəqa edə bilmiş olmaları fövqəladə şayani-diqqət və mütaliə bir maddədir ki, əsasən zikr olunduğu vəchlə iki mühüm məsələdən ibarətdir. Məsələlərdən biri türklərin ümumiyyət etibarilə ancaq dini-islamı qəbula meyil və istedad göstərmələri və digəri də dini-islam ilə mütədəyyin, ərəb elmilə mütəəllim, ərəb mədəniyyətilə mütəməddin olduqları halda türklərin əsla ərəbləşməyib, yenə türk oğlu türk qalmalarıdır. Aya, bu hallara səbəb nədir?

Səbəb bir deyil, qayət mütəəddiddir. Əhvali-məzkurənin əsbabını zənn edirəm. Bir yandan dini-islamın öz mühəssənat və məzayasında, həqayiqinin bədahət dərəcəsində sadə və əyan olmasında, isbat və dəlildən müstəğni bulunmasında, o biri yandan da türklərin fitrət və təbiətlərində, məzaclarında, fəzaili-əxlaq və xəsaili-mənəviyyələrində aramalıdır!..

Abu hava, əhvali-iqlimə, şəraiti-təbiyyeyi-coğrafiyyə və sairə cəhətilə vase dəşt və biyabanlara, qum səhralarına malik bulunan Türküstanla Ərəbistan beynində bir dərəcəyə qədər müşabihət bulunduğu kibi dəvəni, atı, süvariliyi, mərdanəliyi, igitliyi, seyrisəfəri, köçbəliyi, füshətabad vətəni, hürriyyət və muxtariyyəti sevən türk ilə ərəb arasında dəxi bir münasibət, bir qərabət mövcud olduğu inkar olunamaz. Bundan başqa hər iki qövmün qəbləlislam olan etiqadati-batilə və əhvali-tarixiyyələri arasında dəxi bir təvafüq var: Türklərin run xətti dövründəki şaman bütpərəstlikləri ərəblərin zəmani-cahiliyyətdəki etiqadati-sənəmpərəstanə və müşrikanələrinə xeyli bənzəyir.

İştə bu tedad olunan və sair əsbabdan naşi türklər ərəb mədəniyyətinə bir meyli-əzim göstərib onu öz malları kibi sühulətlə qəbul etdilər. Yenə eyni səbəblərə məbnadır ki, ariya əqvamı dini-islamı qəbuldan sonra bir an rahat durmayıb daima o dində cüzi, ya külli təbdilat vücuda gətirmək həvəsinə düşmüşlərkən türklər öylə fikirlərdə bulunmadılar. Biləks islamı olduğu kibi qəbul və olduğu kibi də mühafizəyə qeyrət etməkdədirlər.

Bununla bərabər türklər əsla ərəbləşmədilər. Ərəblər bütün Şimali Afrika, Suriya və Mesopotamiya (Əlcəzirə) əqvamını və kəza bizim Dağıstan əqvamından bəzisini, məsələn, ləzgiləri və sairəyi tərib etdikləri halda, türkləri təmsilə müvəffəq olamadılar!

Əcəba, səbəbi nədir?

Bu xüsusda türklərin bir kiçik qövm olmayıb ərəblər kibi müstəqillən bir milləti-müəzzimə olmaları və mərkəzi-ətrak bulunan Asiyayi-Vüsta və Türküstanın Ərəbistandan bödi-məsafə etibarilə uzaq bulunması səbəb göstərilə bilərsə də, lakin bunlardan daha mühüm bir cəhət vardır ki, o da türkcənin əssənəyi-Turaniyyədən olmasına binaən əssənəyi-Samiyyədən bulunan ərəbiyə külliyyən müğayir olması keyfiyyətidir. Ərəb, dini-islam vasitəsilə deyil, bəlkə lisani-ərəbi vasitəsilə əqvamı ərəbləşdirməyə müvəffəq olmuş idi. Əqvami-mütəərribə ya kiçik və Ərəbistana həmcivar bulunanlar, yaxud Afrikayi-şimali millətləri kibi zatən əqvami-samiyyədən

olmaqla parlaq bir mədəniyyətin təsirilə ərəbləşməyə istedad göstərənlərdir.

Əgər dini-islam ərəblər içində degil, moğollar içində zühur edəydi, o vaxt moğollar türkləri bəlkə moğollaşdırmağa müvəffəq olurlardı. Çünki əssənəyi-Turaniyyədən bulunan bu iki lisan beynində yekdigərini təmsil edəcək dərəcədə qərabət vardı. Məlumdur ki, hər lisan lüğat və qəvaiddən ibarət bulunduğu halda, türk lisanı başlıca qəvaiddən ibarətdir (zənn edirəm, bu fikri ilk əvvəl ifadə edən Osmanlı üdəbayi-məşhurəsindən Əhməd Midhət əfəndi olmuş idi), yəni türk dili lüğətə əhəmiyyət verməz, hər lisandan bəyəndiyi kəlməyi alıb öz malı kimi asanlıqla öz qəvaidi-sərfiyyə və nəhviyyəsinə tətbiqən təsrif edər. Məsələn, (lər) ya (lar) türkcədən ədaticəmdir. Türki yunancadan filosof, istoriya, ya latıncadan doktor, professor kəlmələrini alıb asanlıqla filsoflar, professorlar və ilx. deyə bildiyi halda ərəb filosofu fəlasifə, ya istoriya əsturə, ya əsturəni əsatir şəklinə cəbrən qəlb edə bilirsə də, mütəəddid əşkali-cəmi olduğu halda yenə doktor, ya professorun cəmində aciz qalır dəkatir professurə deyəcək deyil a.

Türk qəvaidi o qədər sadə, o qədər gözəl və məntiqə müvafiqdir ki, onunla ülfət edən türk heç bir vaxt anı tərk eləyib, ərəbin qəvaidini qəbul edəmiyəcəyi aşkar idi. İştə bu növ səbəblərdəndir ki, türklər dini-mübini-islamı öz ruh və mənəviyyatlarından nəban etmiş kibi bir şövqi-əzim ilə dərağuş edib onun qəvi bir nigəhbanı olmuş olduqları halda əsla ərəbləşmədilər və qövmiyyəti-nəcibəyi-əsliyyələrini mühafizə edə bilib, ancaq o yolda tərəqqiyyata məzhər olmağa başladılar.

Bundan sonra türklərin əhvali-tarixiyyəsinə nəzər edib beş on sənədən bəri bu xüsusda əldə edilmiş kəşfiyyat və həqayiqi-cədidəyi mütaliə edəlim.

* * *

Ən qədim türklərin əhvali-tarixiyyəsi xurafati-şairanə ilə qarışmışdır. Sultan Mazmud Qəznəvi kibi bədayepərvər bir türk dühasının təşviq və himayəsilə yetişən Firdovsinin, İran və bəlkə cahan şairi-əzəmi olan Firdovsi Tusinin vücuda gətirdiyi "Şahnamə" başdan-başa diqqətlə oxunursa görünür ki, bu əsəri-binəzir əsasən yegdigərilə daimi bir mübarizədə bulunan iki bahadırın biri-birinə rəqib, iki dilavərin, iki böyük qəhrəmanın vəsf və tərifindən ibarətdir ki, birinin adı İran, digərinin adı Turandır. Avropanın haman nisfi cəsa-

mətində olan Turan, yaxud Türküstan Ceyhun, Amudərya və Qüsus namlarilə məşhur nəhri-əzimin mavərasında[1] bulunan vase bir ölkədir. Firdovsiyə nəzərən bu ölkənin əhalisi guya minəlqədim haman xilqəti-aləmdən bəri türklərdən ibarət bulunurdu. Keykavus ilə həməsr olan bunların ən qədim padşahlarından biri Əfrasiyab idi[2]. "Şahnamə"nin ən şairanə və eyni zamanda ən faciənə bir fəslini Səyavuş hayiləsi təşkil edir. Səyavuş türklərlə bir müharibədən sonra pədəri Keykavusa küsərək, onun rəqibi bulunan Əfrasiyabın nəzdinə iltica etdiyi bir tərzi-dilnişin ilə hekayə olunur. Əfrasiyab öz qızı Firəngizi Səyavuşa təzvic edib onu məmləkətin bir qisminə əmir təyin etdi. Şairin hekayəsinə nəzərən burada öylə bir asari-umran və təməddün vücuda gəldi ki, hətta Əfrasiyabın öz sarayında belə hissi-həsədin oyanmasına bais oldu: İştə ən qədim zamanda hətta xurafat dövrü bulunan bir zamanda Türküstan tərəflərində Firdovsi tərəfindən fərz və qəbul olunan bu "umran" və "təməddün" keyfiyyəti qayət mühüm bir məsələdir. Bu gün bəzi asar və dəlail ilə şairin sözləri sırf xəyalatdan ibarət olmadığı anlaşılmaqdadır. Heç şübhə yoxdur ki, Firdovsi mövzuati-şairanəsi üçün özündən çox qədim, fəqət əksəri bu gün zayc edilən farsi, pəhləvi, zənd, ərəb, türk və sair dillərdə yazılmış məxəzlərə müraciət etmiş idi. Ancaq Firdovsi məxəzi-məzkurəyə bir müvərrixi-mütəfənnin nəzərilə degil, bəlkə bir şairi-bülləndamal və bilxassə həmiyyəti-vətəniyyəyi-fürspərəstanə ilə müttəssif bir şairi-atəşməzaci-İrani nəzərilə baxmış, onları o cəhətdən nəzəri-etibara almışdır. Bununla bərabər fünuna aşina, müqtədir bir türk tarixnəvisi, bəzi ülum və kəşfiyyati-cədidə sayəsində teyfbini-intiqad və tədqiq ilə şairin müraati-təxəyyülatında nüquşi-şairanənin əlvani-gunagununə bürünən həqayiqi-tarixiyyəyi təmyizə müvəffəq ola bilir. Bu isə xüsusi bir tətəbböyə möhtacdır[3]. Bundan başqa qədim türklər və mədəniyyətləri haqqında qayət qiymətdar həqayiqə Çin kütübi-tarixiyyəsində; ələlxüsus bu kitabların dördüncü əsri-miladiyyəyə aid olanlarında dəstrəs ola biləriz ki, bu da ayrıca bir mütaliə ilə bilxassə Çin dillərinə kəsbi-vüquf etməklə olur.

[1] Bu məmləkətin bir qisminə Mavəraünnəhr və Transoksaniya dəxi deyilir.

[2] Bu nam ilə Türküstanda bu gün bir şəhəri-əzim xərabəsi kəşf olunmaqdadır.

[3] Hindi-qədim şahnaməsi olub başlıca Qoravalar ilə Poravaların müharibələrindən bahs "Mahabharata" nam kitabının dəxi bu nöqteyi-nəzərdən mütaliəsi faydadan xali qalmayacaq, zənn edirəm. Lakin qəbləlmütaliə bir hökm verilməz.

Qərb, əz cümlə Yunan[1] müvərrixini türkləri ancaq altıncı əsri-miladında tanımışlardır. Bu üləmayə görə sənəyi-miladiyyəsində ən əsil Altay cəhətlərindən gələn Türküstan türklərinin xaqanı Sincibo (yunanca Silzibol) Xosrov Nuşirəvan ilə bir müahidə əqd edərək, Ceyhun səvahilini yədi-istelasına keçirmişdir. Bu tarixdən etibarən türklər artıq Monqolustan və Türküstan daxilinə münhəsir qalmayıb biladi-müxtəlifəyi istelaya başlamış və Volqa nəhri səvahililə bugünkü Rusiyanın şərqi-cənubisinə də o zamanlar gəlmişlərdir. Müruri-zaman ilə istela və mühacirətlər yekdigərini vəli eyləyirdi. Bunların ən mühümləri XI əsri-miladidə başlamış olduğundan türklərin bu əsrdən sonrakı əhvali-tarixiyyələri xeyli məzbut olub ondan əvvəlki tarixləri isə ehmal edilmiş idi. Fəqət VI əsr ilə XI əsr ilə XI əsr beynindəki zamana təvafüq edən bir dövri-tarixiyyəyə aid olmaq üzrə bu son sənələrdə fövqəladə mühüm kəşfiyyat icra edilmiş olduğundan, bu xüsusda bir nəbzə məlumat edinməmiz əlzəmdir.

Orxon nəhri cəhətlərində yeni Qaraqurum şəhəri xərabələrindən başqa əxirən yenə Qaraqurum namında daha əski digər bir şəhri-cəsimin xərabələri kəşf edildi ki, uyğur türklərilə bunlardan da qədim çincə Tu-ku-ye denilən Oğuz türkləri tərəfindən bina edilmişdir. İştə ümumtürklər içində tarixi-mədəniyyətdə ən əvvəl isimlərini qeyd etdirənlər qırğızlarla bərabər məzkur iki qövmdir.

Tu-ku-ye, yaxud turk oğuz, uyğur. Qırğız – iştə türk qövmiyyətinin sepayi-əsası!.. Ən qədim və ən xalis türklər əsil bunlardır. Bunlardan başqalarının, məsələn, başqurdların[2] tarixi mədəniyyətləri bu qədər qədim deyildir. Uyğurlar tu-ku-yelərin tarixən varisləri olduqları halda qırğızlar bunların rəqibləri olmuşlardır. Qırğızlardan ayrıca bəhs olacaqdır... Uyğurların əhvali-tarixiyyələri oğuz türklərindən, yəni tu-ku-yelərdən daha əvvəl məlum olmuş idi. Çünki uyğurların lisanı uyğur xotti denilən və bir növ qədim Suriya yazısının təbəddülündən hasil olma bir xətt və əlifbai-məxsus ilə məzbutdur ki, qədimdən bəri qabili-qiraət idi. Macar üləmasından məşhur Vamberi tərəfindən kəşf olunan "Kutadqu bilik" ünvanlı kitab da işbu lisan və xətt ilə yazılmış olub, şu son on-on beş sənə içində icra

[1] Yunan xurafatında ehtimal türklərə dair bəzi işarələr vardır: yarınsan, yarıat şəklində təsəvvür olunan məxluq mövhum Kentavrın türk süvarilərinə dəlalət etdiyini bəzi osmanlı müəvərrirləri iddia ediyorlar.

[2] Bir nəzəriyyəyə görə (başqurd) təbiri (başqa yurt)dan qələtdir. Çünki vətəni-əsliləri Altay olmayıb Ural dağlarıdır. İrəlidə bəhs olunacaqdır.

olunan kəşfiyyati-cədidəyə qədər uyğur və ələlitlaq türk asari-ədəbiyyəsinin ən qədimi etibar olunmaqda idi[1]. Uyğurlardan daha qədim olan tu-ku-yelərin əhvali-tarixiyyələri ancaq şu son on beş-igirmi il zərfində məlum olmağa başladı. Çingiz vüquati-əziməsindən sonra səlatini-Osmaniyyənin cəddi-əlası bulunan Ərtoğrul qazinin pədəri Süleyman xan komandası təhtində Xorasandan qərbə doğru hərəkət etmiş bulunan oğuz türklərinin nami ilə şu çinlilərin Tu-ku-ye deyə zikr etdikləri qayət əski oğuz türklərinin adı beynindəki müşabihət şayani-diqqət bir maddə olmaqla bərabər bunlara dair bu axır zamanlara qədər əsla məlumatımız yox idi. Bu gün kəşfiyyati-mühümməyi-cədidədən sonra daxi qədim oğuz türkləri ilə Süleyman xan oğuzları arasında tarixən bir neçə yüz sənəlik bir açıq, bir noqsan qalıyor idi!

Baxalım oğuzlara dair kəşfiyyati-cədidəyi-tarixiyyə nədən ibarətdir? İki yüz sənədən bəri Yenisey nəhri cəhətlərinə run denilən qeyri-qabili-qiraət bir xətt ilə bir çox məhkukat bulunmuş, hətta bunlardan məcmuələr təşkil olunub, bəzi muzeylərdə vəz və təşhir edilmiş olduğu məlumdur. Lakin bu run yazılarının on-on iki sənə əqdəminə gəlincəyə qədər kimsə oxuyub anlamağa müvəffəq olmamış idi. Əxirən bu növ asari-ətiqə təhərrisinə həvəs artdı. Həvəs edənlər çoxaldı.

1889 sənəyi-miladiyyəsində "Şərqi Sibiriya coğrafiya cəmiyyəti", 1890 sənəsində Helsenkfors "Fin və uyğur" cəmiyyəti və 1891-də Peterburq ülum akademiyası tərəfindən Baykal gölünə mənsəb Selenqa nəhri şöbələrindən Orxon nəhri vadisində kain hər iki qədim və yeni Qaraqurum xərabələrinə bir ay təhərriyyati-müxtəlif heyəti-fənniyyə ezam olundu. Məzkur heyətlərdən birincisinə rus ədib və müəhərriri Yadrintsev (Ядринцев), ikincisinə müəllim Hegel və üçüncüsünə akademiya əzasından alimi-şəhir Radlov riyasət etməkdə idi. Zəvat və heyəti-müşarileyhin kəşf etdikləri şəhri-ənqazı, əzim saray xərabələri somaki mərmər növü daşlardan, sənayei-nüqriyyənin fövqəladə tərəqqisinə dəlalət edən qayət nəfis heykəllər, əjdəha, arslan və sair heyvanat şəkilləri üzərində run xəttilə qiymətdar məhkukat bulunan gözəl dikili daşlar və sair bu misilli

[1] Beşinci əsri-hicridə Kaşkarda yazılmış olan şu kitab nəzmən hökmdar vəziri-komandan və sairənin ümuri-dövləti nə surətlə idarə etmələrin lazım gəldiyinə, insanların din və dövlət və ailəcə vəzifələri nədən ibarət olduğuna dair məlumat verilir. Çox yerlərində fəlsəfəyə belə girişilir.

asari-ətiqə burada böyük parlaq bir mədəniyyəti-qədimənin mövcudiyyətinə dəlalət edirdi. Ancaq məzkur Run yazıları[1] oxunmadığından bu şəşəəli mədəniyyətin hansı qövmə aid olduğu anlaşılmıyordu. Bu xüsusda məsələnin həllinə Yadrintsev və Hegel tərəfindən başlıca Ərdənizə nam lama monastırı qürbündə kəşf olunan uyğurca, çincə və rumca olaraq üç lisan üzrə, bəzilərində bir də moğolca məhkukat iraə edən bir neçə dikili daşların (obelisklərin) böyük yardımı oldu. Hegel adlı müəllim tərəfindən kəşf olunan və üzərində üç lisan üzrə məhkukat bulunan daş, dördgüşəli bir sütun olub arslan heykəlindən ibarət əzim bir qaya üzərində paydar idi. İşte əsil bu üç lisanlı daşlardakı Çin və uyğur yazılarının dəlalətilə kopenhaqlı müəllimi-fazil Vilhelm Tomsen 1893 – sənəyi-miladiyyəsində şampolyonlara məxsus bir məharəti-kamilə ilə qədim türklərin əlifbalarını kəşf ilə run xətlərini həll edib qiraətə və məzmunları nə olduğunu anlamağa müvəffəq ola bilmişdir.

Bu tarixdən etibarən türk mədəniyyəti-qədiməsi üzərindən pərdə rəf olub gündən-günə mühüm kəşfiyyat ilə elmi-əhvali-ətrak yeni bir tərəqqiyə məzhər olmaqda və üləmaya şən və şöhrət qazandıracaq vasə bir meydan açılmaqdadır.

Türklərə etdiyi xədəmati-əzimeyi-nafiədən naşi mədyuni-şükrani bulunduğumuz Tomsen kəndilərindən əqdəm əsrlərcə anlaşılmaz bir müəmma halında qalmış olan türki run yazılarını həll üçün uyğur və Çin xəttilə olan məhkukatın dəlalətindən başqa bir neçə kəyfiyyətdən dəxi istifadə etmişdir. Məsələyə girişməzdən əqdəm Danyalı alim müşarileyh run mühərriratının türkcə olduğuna yəqinən hökm etmiş olduğundan run əlifbasının hürufi-səvtiyyəsini ümumi Turan dillərinə məxsus olan "ahəngi-səvti" qaydasına istinadən və hürufi-qeyri səvtiyyəsini (TRK)dən ibarət olan "Türk" ləfzi ilə adına heykəl dikilən xanın adını nəzəri-etibara alaraq təyin eyləyə bilmiş idi. Vilhelm Tomsen bu xüsusa dair qələmə almış olduğu əsəri-giranmayəsini "Dechiffrement des inscriptons de Orkhont et de l'Jenissei" "Orxon və Yenisey məhkuatının həlli" ünvanilə 1894 tarixində Danya (Danimarka) paytaxtı olan Kopenhagendə nəşr etmişdir. Bundan sonra türk-oğuz Tu-ku-ye qövminin sair məhkukati-tarixiyyəsi artıq

[1] Qədim german (alman) dilində gizli sirr mənasındadır. German və Skandinaviya və run xəttinin latın əlifbasında müəhərrəf bulunduğu zənn olunur. Fəqət Orxon (run)-larının bunlarla bir münasibəti olmayıb, bəlkə olsa-olsa arami denilən əlifbaya müşabihətləri vardır.

müntəzəmən tərcümə edilərək Avropa və rus mətbuatı vasitəsilə nəşr olunmağa başlandı. Tomsenin öz tərcümələrindən bəzisi "Memoires de la societe Finno – ougrienne" nam Finlandda risaləyi-mövqutəsinin müxtəlif nüsxələrində mündəricdir. Tomsenin kəşfindən sonra bu vadidə ən çox çalışan Peterburq əncüməni-danış əzasından Radlov həzrətləridir... Məzkur akademiya tərəfindən Orxon səvahilinə heyəti-fənniyyənin məhsuli-məsaisi də bir çox xəritə və rəsmləri havi olaraq müsəvvər və mükəmməl bir məcmuə şəklində nəşr edilmişdir ki, başlıca dörd qismdən ibarətdir:

1) Orxon cəhələlərindəki asari-qəblət-tarix
2) Tu-ku-ye sülaləsinin oğuz türkləri dövri-asarı
3) Uyğur sülaləsinin dövri-asarı
4) Moğol dövrünə aid asar

Bütün şu təhərriyyatın nəticəsində Vamberinin kəşf etdiyi "Kutadqu-bilik"dən laəğəl üç yüz sənə daha əvvələ aid olmaq üzrə uyğur lisanının hər iki xətt ilə, yəni uyğur və run xətlərilə yazılmış asarı və bunlardan da qədim oğuz türklərinin tu-ku-yelərin yalnız run xəttilə olan yazıları əldə edilmişdir. Run yazılarının bulunmaqda olduğu məhəl Yenisey nəhrindən Orxona qədər mümtədd olub min kilometrdən ziyadə bir məsafə təşkil edər. Kəşfiyyatın ən mühümmü Qoşo-zaydam nam mövqedə və sənəyi-miladiyyəsində türk-oğuz hökmdarlarından Gültəkin və Bilgə xanların namlarına rəkz olmuş daşlardakı run yazılarıdır. Bu növ yazılarla türk qövmünün vəqayci-tarixiyyəsi xanların fütuhatı və sairə dövri-dastanı Lejandr denilən ən qədim zamanlardan bidə ilə Bilgə xanın vəfatına qədər qayət milli və şairanə bir surətdə hekayə edilir. Bu yazılar miyanında bir də Bilgə xanın öz millətinə, yəni türklərə xitabən bəzi vəsaya və ixtaratını havi bir növ vəsiyyətnaməsi vardır ki, şayani-diqqətdir.

* * *

Keçən məqaləmizdə rus və fin üləmasının Orxon və Yenisey cəhətlərində və bilxassə Qaraqurum şəhəri xərabələrində bulduqları asari-mühümməyi-tarixiyyədən və bu sayədə danyalı Vilhelm Tomsenin qədim tu-ku-yelərin run denilən yazılarını həll edib türk tarixini mütaliəyə yeni yollar açmış olmasından bəhs etmiş idik. Run uyğur yazılarında və sair Orxon asari-ətiqəsində oğuz və uyğur türklərinin vaqayci-tarixiyyələrindən başqa etiqadi-diniyyəyi-qədimlərinə, sənayelərinə, sənayci-memariyyə və nəfisələrinə, ziraət və ticarətlərinə, adət və əxlaqlarına, əlbisə və qiyafətlərinə, tu-ku-ye

mərmər heykəlləri və sair əhvallarına dair pək çox məmulati-nafiəyə dəstrəs oluna bilir. Qədim türklərin dəmir və sair mədən əmalatında məhəroti-kamilə sahibi bulunduqları aşikardır. Bu məhəroətləri zatən minəlqədim çin vəqəənəvisani tərəfindən dəxi mədh və sənə edilməkdə idi. Bu gün belə bir çox türk əqvamının əsləhə əmalı xüsusunda göstərdikləri hünər və ustalıq əcdadi-qədimələrindən irsən intiqal etmiş bir keyfiyyətdir. Əlan Sibiriyada Yenisey səvahili türkləri "dəmirçi" ləqəbilə müləqqəbdirlər. Orxon run yazılarında "Əkin", "Əkinlik" kibi tobiratla ziraətə dair verilən məlumat, ovalardakı süni isqa cədvəllərі isə su yolu kəmərlərinin şayani-diqqət bəqayası və sair bu növ asari-mühümmə türklərin bilxassə köçəbə və bədəvi olmayıb minəlqədim ziraət və hirasətlə məşğul mədəni bir qövm bulunduqlarını isbat eyləyir.

Tu-ku-yelərin etiqadati-diniyyələri keçənki məqalələrimizdə zikr olunduğu vəchlə şaman bütpərəstliyindən ibarətdir. Lakin bu bütpərəstlik məzkur dövrlərdə o qədər qəbə olmayıb Misir, ya Yunan məzahibi-qədiməsi qədər xurafati-kəsirəyə boğulmamışdır. Run məhkukatında zikr olunan məbudların ədədi məhduddur. Başlıcaları "onqon" "Oğan?"[1] nam məbud "yer" (ərz) nami-allah, "Humay" nam ilahə və sairədir. Fəqət şu təəddüd ilahə ilə bərabər türk oğuzlarda vəhdaniyyəti-rəbbaniyyə fikrinə bir meyil bulunduğuna sahibüssəma mənasına gələn və ilahülilahə olması məhtəmil olan "tanrı" gög tanrı və yaxud sadə "gög" denilən Allah dəlalət ediyor. Qədim türklərin ruha etiqadları var idi. Orxon məhkukatına görə ruh bir quş şəklində təsəvvür olunuyordı. Məvtayı dəfn etmək adəti dəxi talibi-diqqətdir.

Run xətti ilə yazılmış asar və məhkukat başlıca iki müxtəlif nəvahidə kəşf olunduğundan əlifbasına "Yenisey və Orxon" əlifbası namı dəxi verilir. Bunlar haqqında əxirən mütaliati-məxsusədə bulunmuş müvərrixeyn və lisaniyəndan bəzi zəvatın qövllərinə görə Yenisey-run lisanı indiki Qara qırğız türklərinin əcdadı dili və Orxon runlarının lisanı isə bugünkü türkcə ləhcələrin cəddi-əlası etibar edilmək lazım gəlir.

Çinlilərin Tu-ku-ye namilə zikr etdikləri oğuz türklərindən sonra ən qədim türklər, qırğızlarla uyğurlardır. Hər nə qədər qırğızların

[1] Mərhum Şəmsəddin Sami bəyin "Qamusi-Türki"də əlyəvm cığataycada müstəməl: "Oğon" əski türk müşriklərinin ən böyük məbudi olub fəzavü kainatdan kinayə idi, diyor və yunan məbudi ovğun "mühiti-kül" ilə müşabəhəti-ləfziyyə və mənəviyyəsinə təəccüb eliyor.

tarixi-mədəniyyətləri qədimlik cəhətilə ötəkilərdən, yəni həm oğuz, həm də uyğurlardan geri qalmazsa da, lakin tu-ku-yelərin bilavasitə əsil varisi-hökumət və mədəniyyətləri uyğur qövmünün bulunması, bizi əvvəl əmrdə uyğurların əhvali-tarixiyyəsindən bəhs etməyə məcbur eyləyir. Uyğurların ləhcələrindən iki növ asar qalmışdır ki, birisi marrüzzikr run xəttilə və digəri isə qədim Suriya və nəsturi hürufatından mühərrəf zənn olunan və bilxassə "uyğur" denilən xəttilə yazılmış bulunur. Məlum olduğu üzrə uyğurların paytaxtı Orxon nəvahisindəki qədim Karakorum olub, bu şəhər bilaxərə 13-cü əsri-miladidə cingizlər dövründə bina olunan yeni Karakorumdan daha vase, daha əzəmətli və daha gözəl idi. İştə uyğur qövmünün hər iki xətt ilə olan yazılarının tarixcə ən mühümləri Orxon civarında qədim Karakorum xərabələrində kəşf olunmuşdur. Bunlar miyanında "Kutadqu-biliğ"ə nisbətən daha qədim məhkukatdan başqa bir çox əl yazısı ilə asar belə bulunuyor![1]

Məəmafih uyğurların daha qədim vəqayei-tarixiyyələrinə vaqif olmaq üçün Çinin dördüncü əsri-miladidə yazılmış kütübi-tarixiyyəsinə müraciət etmək lazım gəlir. Çin tarixlərində uyğurların iki mühüm şöbəsindən şimaldakılara hay-qoy, yaxud hoy-he namları verilir, Fin və macarlara verilən hunqar ya Venqer, yaxud Enqrus[2] namı dəxi "uyğur" ləfzindən mühərrəf bulunduğu iddia olunuyor. Zira uyğur türkləri qərbə doğru irəlilədikdə bəzi fin əqvamı ilə qarışıb guya bunlara öz namlarını vermişlərdir. Tu-ku-yelərdən sonra hayqoyların hökuməti ancaq bir əsr qədər davam etdi. Çünki 840 sənəyi-miladiyyəsində bunlar yuxarı Yenisey cəhətlərindən gələn qırğız türklərinə məğlub olaraq Türküstani-şərqiyə hicrətə məcbur oldular. Bu tarixdən sonra uyğurların əhvalı Çingiz dövrünə qədər məchul kibidir. Uyğurların "Edikut" ünvanlı haiz bulunan Türküstani-şərqidəki xanları Çingizə öz arzu və rizalərilə ərzi-inqiyad etdikləri və bədə Çingiz dövri-mədəniyyətində uyğurların yenidən böyük bir rol oynamağa başladıqları vəqəənəvisan zamanı mütaliə edənlərin məlumudur. "Edikutlar"ın təhti-hökmündə bulunan son uyğur şəhəri Qara Xoca bələdəsi idi ki, olan Turfan civarında xərabələri məşhud olmaqdadır. Türküstani-Şərqidə Qara Xocadan başqa dəxi bir neçə şəhər xərabələri vardır ki, uyğur asarıdır. Beşbalıq və sairə Çingiz-

[1] Uyğurlar bir zaman budda məzhəb olduqlarından ortada uyğur xəttilə yazılmış sanskrit asari dəxi vardır.

[2] Bir az rumcalaşmış bir istilahdır.

dən sonra uyğurlar tədricən budda və nəstur məzhəblərini və "uyğur" xəttini tərk edib haman cümləsi dini-islamı və əlifbayi-ərəbiyi qəbul və hətta qonşuları arasında nəşr etdilər. Bir dərəcədə ki, uyğurlar xəttindən hasil olan moğol və mançu xətləri bu gün türklərin öz aralarında əsla müstəməl değildir. Əlyövm "uyğur" namilə bir çox türk qəbaili mövcud isə də böyüyəcək cəmaət halında olaraq ancaq iki qövm bu namı mühafizə etmişdir ki, bunlar da Tibet hüdudunda sakin qara uyğurlarla sarı uyğurlardan ibarət bulunur. Qara uyğurlar bu gün türkcəyi unudub moğolca söyləyirlərmiş. Fəqət sarı uyğurların lisanı xalis türkcəligi mühafizə etdigindən şayani-mütaliədir. Şübhə yoxdur ki, Çin hökuməti heyəti-fənniyyələrə və ələlümum elmi-lisan və elmi-əhvali-əqvam maraqlılarına şu sarı uyğurların içinə səyahətə, Türküstan və Moğolustan cəhətlərində həfriyyat icrasına və təhqiqati-sairəyə müsaidəyi driğ etmədikcə uyğurlara dair ittilaatımız artar və bu surətlə elmi əhvali-ətrak daha ziyadə tərəqqiyyata məzhər olur.

* * *

Bu gün oğuz Tu-ku-yelərlə uyğurların nami-qədimini mühafizə edən türklər bir qaç kiçik qəbilə və əşirətlərdən ibarət olduğu halda türkün Altay dağları ilə Yenisey nəhri tərəflərində mədəniyyəti-qədimələrinin asari-mütəəddidəsi müşahidə olunan bir üçüncü böyük şöbəyi-tarixiyyəsi daha vardır ki, kəsrəti-nüfus və hissiyyati-milliyyə etibarilə olan belə əhəmiyyəti-əziməyi haiz olub nami-qədimlərini əsla tərk etməmişdir. Bu şöbə qırğızlarla, qırğız qazaqlarından ibarətdir. Hətta denə bilir ki, ümum ətrak aləm içində bu gün türklüklərini lisanən, əxlaqən, fitrətən ən ziyadə mühafizə etmiş bir qövm varsa, o da qırğızlardır.

Qırğızları etnoqrafiya üləması iki şöbəyə ayrıyorlar. Birinə "Qırğız qazaqları", yaxud sadəcə "qazaq", digərinə də "qara qırğız", yaxud "qırğız" deyirlər. Əsil xalis qırğız da bu qara qırğızlardır. Qara ləqəbi ancaq ötəkilərdən təfriq üçün sonradan verilmişdir. Əsil qırğızlar, yəni qara qırğızlar İşıq göl ətrafında, Türküstani-Rusidə cərəyan edən Çu və Talas çaylarından Türküstani-Çini daxilindəki Tarım nəhrilə, Tyan-şan və Altay dağlarına və Hind hüdudunda kain Pamir cibali-mürtəfiəsinə qədər olan əraziyi-vasiənin müxtəlif cəhətlərində təvəttün edən və milyonlarca nüfuza malik bulunan əşair və qəbaildən ibarət bulunurlar. Çinlilər bunlara Ki-li-Ki-zi təsmiyə ediyorlar. Bu türklər çinlilərə ən qədim dövrlərdən bəri məlumdurlar. Bir neçə

əsr miladı-İsadan əqdəm yazılmış Çin tarixnamələrində bunların Gen-Qon namilə müstəqillən böyük bir hökumət təşkil etmiş olduqları müqəyyəddir. Gen-Qonlılar sair əqvam ilə qarışıb bir vəqt Xaqas[1] namını almışdı. Çinin əski müvərrixini şu xaqasları qayət mütəmədd bir qövm deyə tərif ediyorlar. Hökmdarlarına Ajo namı verilməkdə idi. Xaqasların məzhəbi şaman məzhəbinə və xətti-rəsmiləri uyğurların xəttinə müşabəh idi. Xaqas dövlətinin məmaliki altıncı əsr miladiyə doğru ziyadə təvəssö edib, Baykal gölündən Tibetə qədər imtidad etmiş və Asiya qitəsinin şimal şərqisində vüsətə ikinciligi qazanmış idi. Roma imperatoru İkinci Yusten tərəfindən 569-cu sənəyi-miladiyyəsində Tu-ku-ye hökmdarı bulunan Dizabolun nəzdinə göndərilən Zemarx nam elçinin səyahətinə dair hekayətdə qırğız adı zikr edilib. Hətta Zemarxa türk padşahı tərəfindən "Xerğiz" əsilli bir kölə əhda edilmiş olduğu belə nəql olunmaqdadır. Məzkur dövrlərdə qırğızlardan Çinə səkkiz dəfə elçi getmişdir. 758 sənəyi-miladisində Xaqas dövləti inqiraz bulub məmləkətlərini uyğurlar zəbt və istela etdilər. Artıq bu tarixdən sonra bunların əhvalı məchul kibidir. Ancaq məlum olan bir şey varsa, o da budur ki, Xaqaslar bir müddət Ərəbistanda münasibəti-tüccariyyədə bulunmuşlardır. Bu isə qırğızların bilaxərə islamiyyətə bir meyil göstərmiş olmalarından naşi şayani-diqqət bir keyfiyyətdir. IX əsrdə hökumət bir aralıq təkrar Ajoların əlinə keçmişsə də, sonra yenə uyğurlara keçib axirləmr cümləsi, yəni həm qırğızlar, həm də uyğurlar Çingizə ərzi-təbəiyyət etməyə məcbur olmuşlar[2]. İştə görüyoruz ki, turklügün ərkaniəsasiyyəyi-tarixiyyəsi başlıca Tukuye (oğuz), uyğur və qırğız namlarilə üç şöbədən ibarət olub, digər adlarla müsəmmi türklərin səhnəyi-tarıxdə sonradan zühur etdikləri və hətta müsəmmi bulunduqları adların əksəriyyən bilaxərə bir zata mənsubiyyətdən naşi verildigi anlaşılıyor. Bu qəbildən olaraq "qırğız qazaqlar" da sonradan təşəkkül etmiş bir qövm isələr də, lakin əsil qırğızlara qərabət və müşabihəti-külliyyələrindən naşi haqlarında bir nəbzə burada bəhs etməmiz münasibdir, zənn edirəm. Qırğız qazaqları özlərinə sadəcə qazaq deyirlər.

Bu nam əvvəla Asiyayi-Vüsta ətrakının heyəti-müttəhidəsindən ayrılan köçəbə qəbilələrə verilirdi. Bilaxirə müxtəlif tərəflərdən ayrılıb bir yerə toplananlar yeni bir heyəti-müttəhidə hüsulə gətirərək "qazaq", yaxud "qırğız qazaq" namını mühafizə etdilər. Bu yeni heyət ancaq Çingiz dövründən sonra zühur edib bu cahangirin hökuməti onqazından və bilxassə Əbilxeyr xanın hökuməti-inqirazından sonra sərbəst qalan özbəklərdən təşəkkül etmişdir. Bunlar üç milyondan ziyadə olaraq, böyük bir əksəriyyətlə (əhalinin yüzdə səksəndən ziyadəsi) başlıca İşıq göl ilə Ural nəhri beynindəki ərazidə təəyyüş edirlər.

Ağmolla şəhəri işbu diyarın biladi-məşhurəsindəndir. Qazaqlar Qasımxan və sonra Aqnəzər xan dövrlərində 300.000 nəfərlik orduya malik bulunan böyük bir hökumət təşkil edə bilmişlərdir. Mərkəz hökumətləri bir zaman Taşkənd olmuşdur. Bilaxirə Qazaq hökuməti xanlarının yekdigərlə qovqaları və qabiliyyətsizlikləri yüzündən inqiraza yüz tutub BÖYÜK, ORTA və KİÇİK ordu namlarilə üç qismə ayrıldı... Bu gün qazaqların bir qismi Çin torpağında yaşayırsa da qismi-küllileri Rusiya imperatorunun təbəəsidirlər. Antropologiya elmi nöqteyi-nəzərindən bu türklər əxsi sairələr kibi həm moğol, həm Qafqaz çöhrəli bulunuyorlar.

Biniçilik, silahşurluq, igitlik, mərdlik, cəngavərlik, bunlarla bərabər istiqamət, doğruluq, müsafirpərvərlik, ciddiyyət, şeir və ədəbiyyata meyil və həvəs bilxassə bu qövmün əvsafi-guzidəsindəndir. Həmiyyəti-milliyyələri nəhayət dərəcədədir. Qövmiyyət və cinsiyyətlərinə fəvqəladə məzurdurlar. Qırğızlıqları ilə fəxr edirlər. Bu hal qara qırğızlarda daha ziyadə nümayan oluyor. Bunların cümlə əşayiri yekdigərlərinə bir ailəyi-vahidə əfradı kibi bir ittihadi-mənəvi ilə bir məhəbbəti-qövmiyyəyi-müqəddəsə ilə bağlıdırlar. Bu məhəbbət ruhlarının, qəlblərinin ən dərin nöqtəsindən nəbən edir, əylə yaşarlar. Hər əşirətin ayrıca bir əmiri vardır ki, Mənap deyilir. Lakin bunların cümləsi Ağa Mənap namında daha böyük bir əmirə itaət etdiklərindən bu vasitə ilə yekdigərlərinə mərbut bulunurlar. Cəngavərlikləri xariqüladə bəsalət və şücaətləri, isimlərindən də anlaşıldığı vəchlə

[1] Qırğız ləfzinə müşabihəti aşıkardır. Əxirən əl yazısı ilə asarı Misirdə kəşf olunub IX əsri-miladi səyyahlarından bulunan Əbülqasım ibn Xurdadbeh xaqasları qırğız namilə zikr etməsinə məbna "xaqas" ləfzinin çinli lisanında "qırğız"dan mühərrəf bulunduğu anlaşılır. Ş.Sami bəy "Qamusu"nda bu ismi "qırğız" şəklində yazıyor. Daha doğrusu, "qırkız" yazmaq icab edərdi. Çünki qırğız səhranəvərd, yəni "qırlarda gəzən" deməkdir. Sair türk əqvamı hökmdarlarına, əmirlərinə nisbətlə nam aldıqları halda qırğız isminin bu surətlə təşəkkül etməsi şayani-diqqətdir.

[2] Baladəki məlumat Pozdneyevin məqaləsindən iqtibas edilmişdir. Avropa lisanlarında qırğızlara dair xeylı asar və tətəbbüati-fənniyyə və ədəbiyyə vardır. Əz cümlə, Klaproth "La langue des kirghises" (Mem: ree a J'Asie). Dingelstedt "le regime patrarcal et le droit coutumier des kirgliz", 1891. Dal nam ədibin "Boki və Mayana" ünvanlı qırğızları təsvir edən romanı dəxi şayani-tizkardır.

hərəkətə, gəzməgə, təbdili-məkanə nəhayət mərtəbə meyil və həvəsləri sayəsində Asiyanın mərkəzində bulunan bu qövm tarixi-aləmdə inqilabati-əzimiyi-cahanda Vamberinin dedigi kibi, böyük rollar oynamışdır. Çingiz və Teymur kibi cahangirlər ən ziyadə bunlar vasitəsilə məramlarına nail olmuşlardı... ...Asiyayi-Vüsta "insan sellərinin nöqteyi-təsadüm və təlahüqidir... O nöqtədə təlatümlər, girdablar hüsulə gətirən qövm də qara qırğızlar olmuşlardır..."

Fridrix Rodzel, "Əhvali-əqvami-aləm" ünvanlı kitabi-mötəbərində Pamirin, yəni bu "Bami-cəhanın" cəhəti-şimalisində sakin qırğızları tərif edərkən haqlarında deyir ki, "Miləl və əqvamın həqiqi mayəsi vrai ferment des peuples bunlardır!.."

Bu qövmün zəkai-təbiisinə, istedad və qabiliyyəti-fitriyyəsinə heyran olamaq qabil deyildir. Hər hansı sənəti, elm və fənni təhsil etsələr, onda dərəqəb hünərlərini göstərərlər.

Heç şübhə yoxdur ki, bunlar rusun və Avropanın dairəyi-mədəniyyətinə idxal edilib, maarifi-cədidədən, ülumi-müsbətədən bəhrədar və müstəfid olur, tənviri-əfkar edərlərsə, Rusiya imperatorluğunun ən xeyirli ərkanından biri sırasına keçərlər. İçlərindən Rusiya məkatibi-aliyəsində kəmali-müvəffəqiyyətlə təhsil edib yetişən ərbabi-elm və hünərləri sözümüzə birər bürhani-mücəssəmdirlər... İstər İrtış, istər Volqa nəhri kənarı əhlindən olsun, qırğızların cümləsi türk şivəsi ilə qonuşurlar. Qara qırğızlarla qazaqların ləhcələrindəki fərq həmən ancaq bəzi hürufi-türkiyyənin əsvati-tələfüziyyəsindədir. Lisanlarındakı fəsahəti-təbiiyyə məşhurdur. Əsla məktəb görmüyənlərin belə bəlağətə, gözəl söyləməgə meyl və həvəsləri nəhayət dərəcədədir. Şeir nəzərlərində sənayei-nəfisənin ən məqbuli, ən mötəbərdir. Asari-şairanələri əşari-süniyyədən ziyadə əşari-təbiyyəyi-milliyyədir. Bu növ təbii əşar bunlarda pək tərəqqi etmişdir. Lisanlarında ağızdan-ağıza söylənən şeirlərdə, dastanlarda öylə xariqələr, bədiələr vardır ki, bunları mütaliə edən ülləmayi- "ətrakşünasani" böht və heyrət içində buraxmışdır. Hər iki qırğız qövmünün təbi-şairanələrində dəxi fərq vardır. Qazaq qırğızlar "lirik" deyilən əşari-hissiyyəyə, qəzəliyyata rəğbət və inhimak göstərdikləri[1] halda, daha parlaq, daha şəşəəli bir maziyi-tarixiyə, tarixi-qəhrəmananəyə

[1] Novruz bəy, Bəymurad və sairə qazaqların bu zəmində şöhrət qazanmış şairlərindəndir. Radlovun "Şimali türk ədəbiyyatı müntəxəbatı" ünvanlı təlifatı şayani-mütaliədir. Radlovdan başqa qırğız əşarinə dair xeyli əsər yazanlar olmuşdur.

malik bulunan qaraqırğızlar "epik" denilən əşari-təsviriyyəyi-hakiyədən, Firdovsiyanə dastanlardan zövq alır, öylə şeirlər vücuda gətirməgə meyil göstərirlər!.. Akademiya əzasından alimi-möhtərəm Radlov deyir ki: "Yunan şairi-əzəmi Homer zamanındakı sünuhati-milliyyənin dövri-dastanisini bu gün ancaq qırğız qövmündə müşahidə etmək mümkündür..." Qırğızların bu növ əşarı başlıca sarı noğay qəbiləsindən olan "Ərmanas" nam qəhrəmanın hünərlərini təsvir ediyor...

"Həyat", 1905, № 4, 9, 16, 22, 35, 52, 81, 82

QƏZETƏMİZİN DİLİ HAQQINDA BİR NEÇƏ SÖZ

Bizəmi qəzetəmizin dilini sadələşdirmək, yoxsa, cəmaətimizəmi öz ana dili olan türkcəyi öyrənmək lazımdır. Budur məsələ!.. Rəyimizə görə yazdığımızdan daha sadə Qafqazda söylənən şivələrə daha müvafiq bir surətdə yazmaq mümkün deyildir. Vaqion, qəzetəmizdə yazılan məqalə və bəndlərin şivəsi, üslubu müxtəlifdir. Lakin bunu da yaddan çıxarmamalıdır ki, yazanlarımız da Qafqazın və Rusiyanın müxtəlif şivə ilə mütəkəllim gušələrindən gəlmişlərdir. Birimiz Qarabağdan, birimiz Gəncədən, ya Şirvandan gəliriz. Birimizin vətəni lap Rusiyanın ortasındadır. O birimizin vətəni isə ya Osmanlı, ya İran sərhədinə yaxındır. Qəzetəmizi qiraət edənlər də böylədirlər. Amma həqiqət aranılırsa, bu şivələrin heç birinə, hətta qəzetəmizin ən ziyadə nəşr olunduğu Bakı şivəsinə belə rüchaniyyət verməmək icab edər. Cümləsini təvhidə çalışmaq lazımdır. Orta yerdə, vəsətdə durmağa qeyrət etməliyiz. Çünki, hər hansı şivəyi ayrı-ayrı ələ alsaq, hər birində bir nöqsan görürüz. Bəzi şivələrdə əfkari-aliyyə və hikəmiyyəyi-ifadəyə, məsaili-siyasiyyə, ya ictimaiyyəyi, mətalibi-iqtisadiyyəyi bəyana artıq söz qalmamışdır. O biriləri türkcə sərfi və nəhvi bilkülliyyə yaddan çıxardıb, artıq bir neçə türkcə sözü fars ya rus nəhvinə tətbiqən yan-yana düzərək ifadeyi-məram etmək istəyirlər. Şübhəsiz, böylə olamaz! Bakı şivəsi ilə yazaq? Yazarsaq qorxuram ki, qeyri türklər içində, türkcəyi yaxşı bilən türklər içində rüsvay oluruz!.. Ey qarc, şübhəsiz "Həyat"ın altıncı nömrəsindəki "Dərviş" imzalı "Balaca mütəfərriqə"yi oxudunuz. Orada qəzetəmizin dilini bəyənməyib tən və rişxənd edən zatın sözlərinə diqqət etdinizmi? Rus lisanına vaqif deyilsiniz, əlbəttə, o sözlərdən bir mənə

çıxarammadınız. Nümunə üçün bir daha burada dərc edib idrak edə bilməniz üçün tərcümə dəxi edəcəgəm: "Yahu... "Həyat" qəzetəsinin rəsmi-güşadına... təşrif gətirdinizmi? – sualına bir zat bu surətlə cavab veriyor:

– Bana "priqlaşeni" göndərməmişdilər və bir də vallah "zanyatiyam" o qədər çoxdur ki, sən öləsən[1], obed də yadıma düşməyir... Danış görək nə var idi, yaxşımı keçdi? "Reç" zad deyon oldumu! Və ilx.

Bu zatın yarım rusca və yarım türkcə olan bu sözlərini türkcədən başqa bir dil bilməyənlər üçün tərcüməyə məcburuz.

Ağa demək istəyirdi ki: – Bana dəvətnamə göndərməmişdilər. Bir də billah məşğuliyyətim o qədər çoxdur ki, "sən öləsən" günorta taamı da yadıma düşməyir... Danış görək nə var idi, yaxşımı keçdi? Nitq-filan irad edən oldumu?..

Hər zaman qəzetəmizin dili bu tərcümədə göstərildiyi kibi olacağından şübhəsiz bəzi zəvat bunu bəyənməyəcəklər. "Dəvətnamə", "məşğuliyyət", "taam", "nitq" və sair kimi sözlərə müğləq və öz təbirlərincə "qəliz"dir, ərəbcədir, anlaşılmıyor deyəcəklər. Nə qayıraq? Öz ana dilini bilməyən bir neçə zatın xətiri üçün türkcə hüruf ilə yazılmış rusca bir qəzetəmi çıxaraq? Qəzetimizin dilinə etiraz edənlərin bir qismi bu cür xəlqdəndir! Bunlar dəvət olunmaq, iş görüb məşğul olmaq, xörək yemək kimi ən sadə mətləbləri öz ana dillərində ifadədən aciz qalırlarsa, bunlara əhvali-aləmi, ülum və fünundakı tərəqqiyyatı, məsaili-siyasiyyə, iqtisadiyyə və ictimaiiyyəyi, ehtiyacati-zəruriyyəyi-milliyyəmizi, hikəmiyyəti-islamiyyəyi hansı dildə anladaq? Türkiyi-cədid artıq türkiyi-qədim deyildir. Türkiyi-qədim üzrə yazmağa qalxışsaq, heç kimsə sözümüzü anlamaz. Məsələn, Mir Əlişir Nəvai kimi desəm ki, "uçmaq" içrə həyat tapğaylar tamuğdan nəcat tapğaylar. "Uçmağ"ın behişt, cənnət və "tamuğ"un cəhənnəm, duzəx olduğunu içimizdə anlayan olacaqmı?.. Şübhəsiz xeyr! Nə üçün? Çünki bugünkü dilimiz türkiyi-cədiddir. Türkiyi-cədid isə bir tərəfdən dini-islamın, bir tərəfdən də vüquati-tarixiyyənin təsirilə ərəb və farsdan çox kəlmələr alıb müruri-zamanda bu iki dil ilə o qədər ülfət eləmişdir ki, artıq onların xəzaini-lüğəviyyəsini özünə mal eləmişdir. Hər nədənsə türklərin təbiət və məzaci-milliləri ancaq

[1] Yalan deyirsəm "mən öləyim deyəcək" – yerdə müxatəbin arzu olunmayan mövtə yəmin olub Qafqazın bəzi tərəflərinə məxsus qərib bir təbirdir.

dini-islam ilə mütədəyyin olmağı iqtiza etdirmiş ikən, lisanları dəxi ancaq farsi və ərəbi kəlmələr əxz və qəbulə meyil göstərib, sair lisanların kəlimatını bəyənməz, rədd edər!.. Bunun üçündür ki, rus, fireng, ingilis kibi Avropa əlsənəyi-cədidəsi tərəqqi və təkamül və tövsi eyləmək üçün yunan və latın lisanları kibi əlsənəyi-mürdədən istifazə etdikləri kibi türkiyi-cədid dəxi bu gün bir cəhətlə mürdə və bir cəhətlə zində olan ərəbin və farsın xəzaini-lüğəviyyəsini özünə bir məxəz ittixaz elədi. Bu surətlədir ki, türk şivələrindən biri olan osmanlı lisanı o dərəcə tövsi və təkamül etdi ki, ən ali, ən dərin fikirləri, ən nazik, ən rəqiq hissləri ifadəyə bugünkü ərəbi və farsi dillərindən belə müstəid və müqtədir olub bilaperva hər hansı Avropa dili ilə rəqabət edə bilir. Ancaq türkiyi-cədid ərəb və farsın lüğətinə ehtiyac göstərir. Yoxsa sərf və nəhvi qəvaidi-lisaniyyəsini qəbul etməz. Çünki, öz qəvaidi-lisaniyyəsi bu dillərin qəvaidi-lisaniyyəsindən fitrətən daha bəsit, daha asan və binaənəleyh daha mükəmməldir. Lüğət xüsusunda dəxi türkcəmiz ərəb və farsın hər kəlməsinə meyl göstərməz. Öz təbinə müvafiq olan kəlimatı alır. Bunun üçündür ki, yəzdan, giyti, kuhi, diroxt və ilx. kimi kəlimat dilimizə daxil olmayıb bunlara xuda, allah, ağıl, cahan, dünya, cəbəl, şəcər və ilx. kimi sözlər tərcih edilmişdir. Ülum və fünun tərəqqi etdikcə, ixtiraat və kəşfiyyat çoxaldıqca ətrafımızda, mühitimizdə yeni-yeni şeylər, fikrimizdə yeni-yeni mətləblər, mənalar peyda olacağından, əlbəttə, bu şeylərə, bu mətləb və mənalara yeni adlar vermək lazımdır. Avropa lisanları bu adları, bu yeni kəlmələri latın və yunan dillərindən alıb yaradıyorlar. Zənn edilməsin ki, yunan və latın dilləri cədid Avropa lisanlarından vəsc və mükəmməldir və mürdə olan məzkur lisanda hər yeni ixtira və kəşfə məxsus ad hazır və mövcuddur da, onun üçün böylə edilir! Xeyr! Bu lisanlar olmuş olduqlarından onların sadə və müəyyən bir mənə ilə olan kəlmələri alınıb bəsit, ya mürəkkəb bir halda başqa mənə ilə istemal edilir. Məsələn, sinini-əxirə zərfində icad olunan fotoqraf, teleqraf, fonoqraf, telefon və ilx. alətlərini ələ alalım. Bunları yunani-qədim bilmədiyindən lisanlarında bu alətlərin adı da olamayıcağı aşikardır. Amma "işıq", "səda", "yazı" bugünkü kimi yunanilər zamanında dəxi mövcud olduğundan, bu kəlmələrin müqabili, əlbəttə, onlarda da var idi. Bu halda avropalılar üçün "işıq" "səda" və yazıya məxsus öz kəlmələrini yenə bu mənalara həsr edib, yunanın kəlmələrini isə yeni icad etdikləri alat və ədəvata ad vermək və bu surətlə dillərini

zənginləşdirib tovsə etmək üçün istemal eləmələrinə nə manə var? Biz nə üçün avropalılar kimi hərəkət etməyəlim? Nə üçün biz də türkcəmiz üçün latın və yunan dilləri məqamında olan fars və ərəb dillərinə müraciət etməyəlim? Lazımdır ki, biz də "işıq", "səs", "yazı" sözlərini öz mənalarında mühafizə edib farsın, ya ərəbin bunlara müqabil olan "portov", "səda", "nəviştən" kimi kəlimatını yeni ixtira olunan alat və ədəvata tətbiq etməklə fotoqrafa – portovnəvis, fonoqrafa – sədanəvis, telefona – durşeno və ilx. deyəlim! Və bu surətlə dilimizi tovsə edəlim. Böylə etsək, şübhəsiz, çox keçmədən dilimiz farsiyə müəccəh ola biləcəkdir. Çünki fars özü "portovnəvis", ya "durşeno" kibi kəlmələri icaddan aciz qalıb fotoqraf, ya telefon deməyi tərcih edəcəyi halda türki-farsi kəlmələrindən mürəkkəb məzkur ibarələrlə təzyin etmiş olacaqdır.

İndi sual olunur ki, dilimizi əcnəbi lüğətlərlə doldurmaqmı lazım, yoxsa dilimizdəki nöqsanları ikmal üçün bu dilə münasibəti-diniyyə, tarixiyyə və ədəbiyyəsi olan ərəb və farsi dillərinə müraciət eləməkmi müvafiq məsləhətdir. Əlbəttə, içimizdə öz lisani-millisinin qədrini bilən hər fərd ikinci şiqqəyi tərcih edər. Ərəbi və farsi kəlimata müğləq, qəlizdir deyənlərdən sual edirəm ki, kapitalist, ekonomiya, pressa, direktor kibi sözlərimi, yoxsa sərmayədar, iqtisad, mətbuat, müdirmi müğləq və "qəliz"dir? Bir əsəri Avropa dillərindən tərcümə əsnasında sözü mənayi-həqiqi və müəyyəniləmi tərcümə etməli, yoxsa xalqımızın asan anlaması üçün mənayi-əsliyi təhrifmi etməli?

Keçənlərdə bir məqalədə rusca "Mir zaklyuçit" sözünü "sülh əqd etmək" surətilə tərcümə eyləmək istəyirdim. Rüfəqamdan birisi buna etiraz edib dedi ki, böylə tərcümə etsən kimsə anlamaz. "Sülh etmək" yazmalıdır. Lakin "sülh etməklə" "əqdi-sülh etmək" birmidir? "Sülh etmək" sadəcə barışmaq deməkdir. "Əqdi-sülh" isə qanun və nizam dairəsində, şahidlər hüzurunda əldə kağızlar, əhdnamələr tərəfeyn tərəfindən imzalanmış şərtnamələr olduğu halda barışmaq deməkdir. Əgər dilimizdə "sülh bağlamaq" demək mümkün olsaydı, əlbəttə, böylə tərcümə edərdim. Fəqət "sülh bağlamaq" təbiri çox qərib görüldüyündən də sözü haqqı ilə tərcümə üçün naçar "əqdi-sülh" ibarəsindən ayrılmadım. Biz mənayı pozamayız. Lazımdır ki, xalq öz dilini öyrənməyə rəğbət eləsin. Bu xüsusda gələcək nüsxələrdə daha danışarız.

"Həyat", 1905, №7

TOLSTOYLUQ NƏDİR

Bir ailə əfradı o ailənin əzası bulunduğu kibi millətlər də bəşəriyyətin üzvləridirlər. Bir ailənin əzası kimi millətlər də heç bir vaxt bir sinndə, bir yaşda bulunmazlar. Bəzilori hənuz sinni-tüfuliyyət, ya şəbabda bulunduqları halda, digərləri dövri-kəmalə yetişmiş, ya dövri-zəvalə üz tutmuş olurlar.

Bir fərdin gah-gah mübtəla olduğu iləl və əmraz əlayimi – zəvaldan sayılmayacağı kibi, millətlərin də vaxt-vaxt düçar olduqları mərəzi-siyasilər, böhrani-ictimailər zəval olamətindən ədd olunmamalıdır. Vaqiən möhlik mərəzlər, şəfanapəzir illətlər vardır. Fəqət əqəbində daha gözəl bir afiyyət hasil olan xəstəliklər də vardır. Zəval və şeyxuxətin əlaimi ayrı, mərəzin əlaimi ayrıdır. Bəzi fərdlərin zəval və məmatları ilə bərabər nəsilləri də müntəqe olur, bəzilərinin də biləks vəfatlarından sonra öz nəsillərindən övlad və əhfadları qalır ki, bunlar tüfuliyyətdən başlayıb yenidən səfəhati-həyatı bir-bir keçməyə başlarlar.

Millətlər də elədirlər. Bəzilori finikiyalılar, ya assorilər kibi bilkülliyyə məhv və münqəriz olurlar, bəzilori də zaval bulduqca yerlərində yenə öz nəsillərindən bir qövm təzə bir həyata başlar. Turanın (tukuye) oğuzları ilə İranın zəndləri bələdirlər: tukuyelərdan sonra uyğurlar, uyğurlardan sonra bugünkü türk və tatarlar; zəndlərdən sonra pəhləvilər, pəhləvilərdən sonra bugünkü farslar bir həyata başlayorlar.

Rusiyada bu gün müşahidə etdiyimiz əhval isə zaval olmayıb bir mərəz sayılmalıdır. Mancuriya alamı, inqilab böhranı mərəz əlayimidir. Bu mərəz hər nədənsə təmamilə rusların sinni-kəmalə yetişdikləri bir zamana rast gəldi. Əvət əsri-hazır bəşəriyyətin bir üzvi-mühümmi olan rus millətinin dövri-kəmalidir. Çünki meyvələrinin bolluğu və yaxşılığı bir ağacın kəmalda bulunduğuna dəlalət edər kibi, bu gün də bədayeyi-elmiyyə və ədəbiyyənin kəsrət və nəfasəti rusların sinni-kəmalə yetişdiklərinə dəlil və bürhandır. Şəcəri-milliyyətin meyvələri asari-elm və mərifətdir. Bu gün Rusiyada yetişmiş olan bir zümrəyi-kəsireyi-hükəma və ədəbaya bütün Avropa və Amerika qibtə ediyor. Lakin bu zümrənin sərəfrazı heç şübhə yoxdur ki, qraf Lev Tolstoydur. Tolstoy sadə Rusiyanın deyil, bəlkə bütün cahanın ən böyük ədəbasından biridir. Onun yazdığı əsərlər əksər əqvamın dillərinə tərcümə olunuyor, sürətlə və milyonlarca nüsxələrlə intişar ediyor. Onun hər bir sözü böyük bir diqqətlə istima olunuyor. Hər bir nəsihəti əzim bir rəğbətlə tələqqi ediliyor.

Onun əfkarından bütün aləmi-mədəniyyət feyziyab oluyor. Bu əfkar vaqiən səhv və xətalardan ari deyildir. Tolstoy çox dəfələr zəlalətdə bulunur. Lakin bu səhv və xətalar, bu zəlalətlər dəxi bədayepərvəranə olub ruhi-bəşəri məaliyyata sövq eliyor, ərbabi-ictihadın mənəviyyatını təhəyyic ilə məsaili-mühərrəqeyi-həyatiyyə və ictimaiyyənin həllinə kömək ediyor. Tolstoy bəlkə dərin bir mütəfəkkir degildir. Lakin hər halda vasc bir bəhri-bədaycdir.

Keçmiş əsrlərdə və sair məmləkətlərdə Şekspirin, Getenin, Jan-Jak Russonun, Viktor Hüqonun ədəbiyyatda qədr və əhəmiyyətləri nə isə, Tolstoyun da zəmanəmizdə, Rusiya ölkəsində əhəmiyyəti o qədərdir. Zatən rus və Avropa müntəqidi də onu zikr olunan məşahir ilə qiyas etməyi sevirlər. Ancaq bu növ qiyaslər Tolstoy haqqında bizə bir fikir verəmməz. Çünki Qərbin o məşahiri üdəbası dəxi Tolstoyun özü kimi bizim Şərq cəmaətinə hənuz məchuldur. Tolstoyun bulunduğu mövqeyi-bülənd, tutduğu məslək bədaye haqqında bir fikri-səhih etmək üçün anın nəzirlərini müsəlman aləmində arayalım: Yeni türklərdən Namiq Kamal bəy xatirə gəlirsə də, fəqət Kamal bəy Tolstoya qiyas olunmaz. Çünki Kamalın ömrü vəfa etmədi.

Kamal bəy dövri-kamalına hənuz yetişdiyi sıralarda və ancaq əlli, əlli beş yaşlarında bulunduğu halda, Osmanlı istibdadi-hazırının seyyiatı qarşısında qəhrindən çürüyüb Saqqız cəzirəsi mənfasında fövt oldu. Kamal Rusiyada və ruslar arasında dünyayə gələ idi, bəlkə behəqq bir Kamal olurdu. Tolstoy da Türkiyədə buluna idi, əsla Tolstoy olamazdı. Daha doğrusu, Rusiya idareyi-hökuməti Osmanlınınkı qədər səqim, Osmanlı idarəsi Rusiyanınkı qədər binnisbə məqul ola idi, Kamal Tolstoy olmasa da, Tolstoy mərtəbəsinə irtiqa, Tolstoy isə Kamal bəy olmasa dəxi Kamal dərdinə mübtəla olurdu. Bir də bu iki təb arasında heç bir vəchlə müşabihət yoxdur. Kamal atəşzəban bir ədib şairdir, onun kəlamı məhruqdur, od kibi yakar.

"Sərd tənan atəş əz u yaftənd...[1]

Tolstoy isə şirinzəban bir həkimdir". Sözləri çox dəfə məhruqülfuadlər üçün zülal yerinə keçər... "Məxzənül-əsrar" lisanilə burada

"Gərmrəvan ab ze u yaftənd"[2] –

deyə biliriz.

[1] Soyuq bədənlilər onda atəş tapdılar.
[2] İsti bədənlər ondan su aldılar.

Hər nə hal isə mühitlərin, dərəceyi-mədəniyyətlərin müxtəlif olmasındanmıdır, nədənmidir, türklər arasında Tolstoyun işini bulamıyoram. İrana keçəlim: Burada üç böyük şair vardır ki, onların üçünü bir araya gətirib Tolstoy ilə qiyas edərsək, bəlkə bu ədib haqqında daha dürüst bir fikir hasil etmiş oluruz. Üç şairdən muradımız Firdovsi, Sədi və həkim Sənaidir. Asarın mənzum və mənsur olmaq kimi fərqi-zahirisinə əhəmiyyət vermiyəlim, mənayə baxalım. Tolstoy ayrı-ayrı bu üç şairin heç biri degildir. Fəqət hər birindən guya bir hissə alıb təbində cəm etmişdir.

Tolstoyun həyati-ədəbiyyəsi üç dövrə təqsim oluna bilir. Birinci dövr Firdovsiyanə, ikinci dövr Sənaipəsəndanə, üçüncü dövr isə Sədi rəftarənədir. Birinci dövrdə Tolstoy Firdovsi kimi bir "Şahnamə" vücuda gətiriyor. "Hərb və sülh" ünvanlı əsəri-cəsim bir rus şahnaməsidir. Firdovsi Keykavus və Əfrasiyab dövründə vaqe iranilər ilə turanilərin mübarizə və müharibələrini vəsf və tərif edir. Tolstoy birinci Aleksandr və birinci Napolyon zamanındakı ruslarla firənglərin cəng və cidalını təsvir eləyir. Hər iki əsər bir silsileyi-hekayatdan ibarətdir. Hər iki əsərdə insan gah cəmaət və el şəklində, gah şəxs və fərd halında təsvir olunuyor. Hər iki ədib ara-sıra bəşərin əmaqi-ruhiyyəsini təmiq və təşrihə girişiyorlar. Hər iki ədib xeyir və şərin nədən ibarət bulunduğunu araşdırmaqda böyük bir cəhd və qeyrət göstəriyorlar. Hər ikisinin nəzəri-həkimanələri bir dərəcədə kəsgindir. Hər ikisi də əsərlərini öz millətlərinin vəsaiqi-tarixiyyələrini dərin və ətraflı bir mütaliədən sonra yazmışlardır. Hər ikisi də vətənpərvərdir. "Hərb və sülh"də yerlər vardır ki, Tolstoy Firdovsiyə təfəvvüq edər, "Şahnamə"də qitələr var ki, Firdovsi Tolstoya qalibdir.

Ancaq zənnimizcə "Şahnamə" daha şairanə və bülənpərvazanə olub, dövri-islamə qədər olan bütün İran tarixini itmam və təkmil etmişdir. "Hərb və sülh" isə daha təbii olduğu halda natəmamdır. Çünki Rusiya tarixinin bir qismi ilə iktifa edilmişdir. Firdovsi ömrünün axırına qədər tutduğu məsləkdən ayrılmadığı halda Tolstoyun həyatında mühüm bir böhran vaqe oldu. Bu böhrandan sonra başlayan ikinci dövrdə Tolstoy artıq nə Homerdir, nə də Firdovsi. Burada Tolstoyun halı həkim Sənainin halını andırıyor. Məlumdur ki, Sənainin həyati-ədəbiyyəsində mühüm bir təbəddül, əzim bir böhran vüqua gəldi. Sənai əvvəla dünyapərəst ikən və ömrünü paytaxtlarda, padşah və kübar məclislərində keçirməkdə ikən günün birində bu yolda bada gedən ömründən və o günə qədər yazmış olduğu əsər-

lərdən nifrət edib, illərcə cəm etmiş olduğu divani-əşarını chraq elədi. Özü də guşeyi-inzivayə çəkilib dünyadan əl çəkdi. Bundan sonra Sənainin mücahidatı fisəbilüllah olub, yazdığı şeylər fəzaili-əxlaqə, ehkami-diniyyə və əhvali-mənəviyyəyə dairdir. Sənainin fikri çox kərrə cavabsız qalan dərin-dərin məsələlərlə müztəribdir. Bununla bərabər biçarə Sənai özlərini din və məzhəb harisləri bilən üləmayi-əsrinin sərzənişinə düçar oldu. Onun "Hədiqə"si əqaidi-islamiyyəyə müğayir ədd olundu. Bütün bu hallar zəmanəmizdə, Rusiyada Tolstoyun başına gəldi. Tolstoy ibtida ömrünü Peterburqun aləmi-hay-huyu içində keçirən əhli-dünya bir zat ikən bilaxərə bütün mazisinə lənətxan olub, o vaxta qədər yazmış olduğu "Hərb və sülh", "Anna Karenina" kibi asari-mötəbərəsindən özü nifrət etdi. Şübhə yoxdur ki, bu əsərlər mətbuat vasitəsilə ziyadəsilə intişar etmiş olmaya idi. Sənai kibi Tolstoy da onları cəm edib chraq binnar edər, yakar idi. Fəqət hər halda chraqə məhkum etmişdir. Bu təbəddüldən sonra Tolstoy ribyondan olan filosoflar kibi vaxtını bir müddət şübhələr, tərəddüdlər içində keçirir, dünyanın faniliyi ona əzim bir yəs verir. Tolstoy bir an əvvəl həyatın əlindən xilas olub ölmək istiyor. Fəqət hər nədənsə ölməmiyor. Yavaş-yavaş bir təriqi-nicat sezməgə, o nicatı da dində görməyə başlayor. Miləl və əqvamın kütübi-diniyyəsini qarışdırmağa quyuluyor. Bu məqamə yetişdikdən sonra Tolstoyun bütün yazdığı risalələr dindaranə və fəzaili-əxlaqa dair oluyor. Bu risalələrin çoxunda Tolstoy İsəviyyəti-hazirədə batili haqdan ayırmağa cəhd etdiyi üçün bu üzdən keşişlərin tən və sərzənişinə giriftar olub, nəhayət rus kəlisasından tərd olunuyor.

Buraya qədər həkim Sənai ilə Tolstoy arasında müşabehət tamdır, zənn edirəm. Ancaq müşabihətlər burada bitir. Bundan sonra Tolstoy artıq Sənai də degildir. Sənai ömrünün sonuna qədər səbat edib, guşeyi-inzivasından çıxmadı. Tolstoy isə hissiyyati-kübaranədən nifrət elədi. Lakin guşeyi-inzivayə də qənaət edəmədi. Onun fikrincə kübar aləmində dəmgüzar olub xassə məxsus "Şahnamə"lər, hərbnamələr, məhəbbətnamələr yazmaq şüari-insaniyyətə yaraşır, mücahidatdan sayılmayacağı kibi zaviyənişin olub minacatlar, tövhidnamələr yazmaq da fisəbilillah çalışmaq degildir. Ədibi-aqil, insani-kamil xalqa, elə qoşulmalıdır. Bədənin bütün əzalatilə, qolla, bacaqla, barmaqla, beyinlə, alın tərilə işləyib çalışmalıdır. Əkinçi kibi, fəhlə və həmmal kibi, dərzi ya başmaqçı kibi iş görə bilməlidir. Və əlhasil çalışa-çalışa elə xidmət etməlidir. Yazıb-pozmanın o qədər

əhəmiyyəti yoxdur, hər nə yazılsa, dəxi elə, əksəriyyəti avamünasdan ibarət olan elə məxsus yazılmalıdır. Bu fikrə gəldikdən sonra Tolstoy məsləkini təqib edənlərə ibrət olmaq üçün elə qarışıyor. Bir kəndli kibi yaşamağa, yatıb qalxmağa, geyinməyə, işləməyə başlayor. Avamın məişətini islah, əxlaqını təhzib, fikrini tənvir üçün hər kəsin anlayacağı bir dildə bol-bol kiçik hekayələr, risalələr vücuda gətiriyor. Külliyyəti əhli-qəryə olan cəmaət də onlardan müstəfiz oluyor.

Bu gün rus köylülərinin əlində olan kitabçalar başlıca Tolstoyun əsərlərindən ibarətdir. Bu hal ilə Tolstoy rusların Sədisi olmuş olur. Zənnimcə İranda, hətta bütün müsəlman aləmində heç bir ədib, heç bir şair avamünnası, yəni külliyyəti-əhalini Sədi qədər ədəbiyyatdan müstəfid etmədi. Kimsə lisanı ümumin anlayacağı vəchlə onun qədər gözəl bir surətdə sadələşdirmədi. Kimsə onun qədər xalqa hüsni-əxlaq dərsi verəmmədi. Kimsə onun qədər hikməti-məişəti cəmaətə öyrədəmmədi.

Sədi özü hənuz bər həyat ikən təlifatı müsəlman aləminin hər tərəfinə, hər guşəsinə intişar etdi. Bu gün İranda, bəlkə müsəlman məmləkətlərinin çoxunda Qurani-Kərimdən sonra ən müntəşir kitab "Gülüstan"dır. Savadlı-savadsız, az-çox rəfah ilə yaşayan hər bir müsəlmanın xanəsində "Gülüstan" tapılır. Pir və bürna, mərdü zən, böyük, kiçik, fəqir-zəngin hər kəs az-çox "Gülüstan"ın hekayələrini bilir. Onun əbyatı ciftçidən, rəncbərdən başlayıb şah saraylarına qədər hər kəsin ağzında dolaşır.

Sədi də bugünkü Tolstoy kimi tuli-müddət yaşamış, uzun səyahətlərdə bulunmuş, əsgərlik etmiş, dünyanın hər gərm və sərdini görmüşdür. Asarı təcarübi-həyatiyyə ilə doludur. Sədi həyatın özü kibi gah xəndan və məsrur, gah qəmgin və məyus, gah lətifəgu, gah faciənəvisdir. Məsudlara nəsihət edər, fəlakətzədələrə təsəlli verər. Tolstoy da bu anda belədir. Tolstoy məsləkinin əsası dindarlıq və elpərəstlikdir.

Bu "elpərəstlik" haqqında bir nəbzə izahat verəlim. Zəmanəmizdə Tolstoy ilə bərabər bir sinif Rusiya ədəbasının ağzında, qələmində bir "narod" kəlməsi dolaşır. Bu "narod" nədir? Bunu türkcəmizə nasıl tərcümə edəlim? Tolstoyun narod ləfzindən muradı nə ümmət, nə millət, nə cəmaətdir. Bunu bir xalq, nas, ammə, əvamünnas, əhli-qəryə, əkinçi, ya fəhlə cəmaəti kimi kəlmələrlə də tərcümə edəməyiz, daima naqis qalır. Mənə qalırsa bizim xalis türkcə olan "El"dən başqa heç bir kəlmə haqqı ilə bu "narod" mənasını ifadə

edəməz, o halda "narodniçestvo" sözünü də tərkibi bir az səqim olsa da, ancaq elpərvərlik, ya elpərəstlik kimi mürəkkəb kəlmələrlə tərcümə edə biləriz. İştə bu elpərvərlik ilə həqiqi və feli, fəqət geniş bir dindarlıq tolstoyluğun əsasıdır. Gələcək nömrədə Tolstoyun bir az da tərcümeyi-halından bəhs edib, bədə vəqt və fürsət bulduqca asarından tərcümə edib, "Füyuzat"da dərc edəcəyiz. Mühərrirlərdən kim olursa olsun Tolstoyun asarından cəmaətimizin əhvalına müvafiq olanları intixab edib açıq, sadə, fəqət ədibanə bir surətdə tərcümə edərsə, məəlməmnuniyyə qəbula hazırız.

* * *

"Tolstoy məsləkinin əsası dindarlıq və elpərvərlikdir" dedik. Əcəba, bu dindarlıq nədən ibarətdir? Tolstoy xristian məzahibi-hazirəsindən birinin yolu ilə getməyə qeyrətmi göstəriyor? Xeyr, çünki Tolstoyun kəlisadan mətrud bulunduğunu biliyoruz. Tolstoyun özünəməxsus bir məzhəbi vardır ki, bu da ortodoks məzhəbi-hazirini guya təsfiyə edib isəviyyəti ayrı bir tərzdə anlamaqdan ibarətdir.

Tolstoy peyğəmbərlik iddiasında bulunurmu? Xeyr, bulunmuyor! Mövlana Cəlaləddin Rumi haqqında deyirlər ki, "nist peyğəmbər, vəli darəd ketab"[1]. Tolstoy peyğəmbərlik iddiasında bulunmiyorsa, heç olmazsa ortaya Molla kibi bir kitab çıxarırmı? Tolstoyun elə bir kitabı da yoxdur. Vaqiən Tolstoyun "Məzhəbim nədən ibarətdir" ünvanlı bir risaləsi vardır. Lakin Tolstoyun istər bu risaləsini, istər sair əsərlərini Şeyx Bəhai görmüş olsaydı, heç bir vaxt "Tolstoy darəd ketab" deməyəcək idi. Tolstoy nə peyğəmbərlik, nə də sahibi-kitab olmaq iddiasındadır. Fəqət bununla bərabər yeni bir məzhəb çıxarmaqda olduğu aşkardır. Bu məzhəbi təşkil edə biləcək əfkarı isə əsarında pərakəndədir. Biz keçən nüsxədə Tolstoyun çox kərrə zəlalətdə bulunduğunu, əfkarının səhv və xətadan ari olmadığını bəyan etdik. Bizim bu sözümüz həm ülum və fünuni hazirəyə, həm də islamiyyəti-əsasiyyəyə müstənəddir. Tolstoyun zəlalətdə bulunduğu öz əfkarının yekdigərə mübayin olması dəxi sabitdir. Mübayinət iki sözün yekdigərə xilaf və zidd olmasına deyirlər. Bəzi xristian ülaması deyirlər ki, Qurani-Kərimdə mütəəddid mübayinətlər var. Lakin böylə iddiada Quranın naqis və qələt tərcümələrini səthi bir surətdə

[1] Peyğəmbər yoxdur, lakin kitabı vardır.

mütalıə ilə iktifa edib ayati-kərimədən bəzinin nasix və bəzinin mənsux bulunduğuna vaqif olmayanlar buluna bilirlər...

Tolstoyun əfkari-məzhəbiyeyi-cədidəsi isə nasixlik, ya mənsuxluq keyfiyyətlərindən uzaq olub, çox kərrə apaçıq mübayinətlərdən ibarətdir. Bu xüsusda rus müntəqidinindən Yevgeni Solovyovun zikr etdiyi misallardan biri ilə iktifa edəlim: bir yerdə Tolstoy diyor ki, ən yaxşı arvad o arvaddır ki, öz zəmanəsinin həkəmiyyati-aliyyəsinə aşina olub nisvanın fitrətində məknuz olan vəzifeyi-müqəddəseyi-madəranəyi behəqq ifayə qeyrət etsin. Bu vəzifə isə o arvadın öz məsləki-həkimanəsi dairəsində çalışıb bəşəriyyətə xidmətə qadir ola biləcək, mümkün mərtəbə çoxca övlad tövlid edib, bunları təğziyə və tərbiyədən ibarətdir. Lakin Tolstoyun "Qara yesir nəğməsi" ünvanlı əsəri mütalıə olunursa, görülür ki, Tolstoy bu sözün əksini iddia eliyor. Bu əsərə görə ən yaxşı arvad özündə validəlik xasiyyətini məhv edəndir. Məsləhət qətiyyən zövciyyətdən ictinab edib əsla tövlid etməməkdir. Ruslar bu iki fikirdən hansının nasix və hansının mənsux olduğunu çox araşdırdılar. Lakin Tolstoydan bir cavabi-şafi alamadılar. Çünki Tolstoy özü şübhə və tərəddüd içindədir. Tolstoy bir adama bənziyor ki, səfərə çıxıb müttəsil yol gediyor. Yolu təftiş edə-edə, araşdıra-araşdıra gediyor, lakin yolu bir tərəfə çıxaramiyor... nöqteyi-məqsudə iriyəmiyor, hər vaxt yarı yoldadır... Əgər Tolstoy dindarlıq, ya elpərvərlik deyərək elə, əvamünnasə qarışıyor, xalq kimi alın təri ilə işləməyə qeyrət ediyorsa, özünü aldadır. Məsaili-məzəcədən xilas olmaq və bu surətlə bir təsəlli bulmaq istiyor. Hər halda yarı yolda bulunduğunu özü də hiss eliyor, anlıyor. Əgər Tolstoy məzhəbinin əssül-əsasına müraciət edərsək, burada bütün-bütün şaşırıb qaldığını da görüriz. Ədyanın əksəri kimi "Bəni nəvinə məhəbbət və müavinət et" – deyə vəz edən bu məzhəbin əssüləsası nədir? Tolstoy məzhəbinin əssüləsası şu qısa cümlə ilə ifadə oluna bilir:

"Fənalığa müqabilə etmə!"

Yəni zülm və sitəmdən, cövr və cəfadan, bəla və müsibətdən ibarət olan fənalığa qarşı səbr və təhəmmül elə!..

"Fənalığa müqabilə etmə" sözü tolstoyluqda bir qəziyyeyi-əsasiyyədir. Həman bütün sair qəziyyələr bundan nəticələnir. Lakin nəticələrdə o qədər qərabət, o qədər təzad və mübayinətlər, o qədər məhallar vardır ki, bunlara istinadən qəziyyeyi-əsasiyyənin qeyri-

məqul olduğuna hökm etmək olur. Yuxarıda zikr etdiyimiz Solovyov da zatən belə hökm ediyor. Tolstoy: "Fənalığa müqabilə etmə" yerinə "Fənalığa fənalıqla, cəbr ilə müqabilə etmə", yəni "fənalıqdan ari bir surətdə müqabilə et" deyə idi yenə bəlkə qəziyyənin bir məzhəbə əsas olacaq dərəcədə bir ləyaqəti olurdu. Lakin Tolstoyun sözündə heç bir qeyd və şərt yoxdur, söz qətidir. "Fənalığa müqabilə etmə", yəni "heç bir vəchlə müqabilə etmə! Vəssalam!" Lakin həyatın bütün zövqi fənalıqla mübarizədədir. Fənalıqla mübarizə caiz deyilsə, o halda "bəni-növinə məhəbbət və müavinət et" vəzifəsini nə surətlə ifa etməlidir? Bəni növinin alam və iztirabatını rəfə, yaxud tənqisə cəhd etmək, bu yolda mübarizə etmək, yəni fənalığa müqabilə etmək, "Bəni növinə müavinət et" sözünün şərtlərindən bir qismini təşkil etmiyormi? Hər halda anlaşılıyor ki, Tolstoy burada bir gərivəyə düşmüşdür. O gərivədə çapalayıb duruyor, oradan çıxacaq bir qapı bulamıyor. Əgər bu gün bizim Bakıda Əhməd bəy Ağayevlər, Qazi Ağa Mir Məhəmməd Kərim Ağalar və sair pişvalar Tolstoyun qövlünə ittiba etsələr, onların şəhərimizdə müsəlmanlar arasından yekdigəri qətli-fənalığını rəf üçün əsla ciddü cəhd etməmələri lazım gəlir. Çünki Tolstoyca bu ciddü cəhd, ələlxüsus "Difai" cəmiyyətinin təhdidatı fənalığa müqabilədən ibarətdir. Əcəba, Tolstoy özü burada bulunsa idi, sözündə səbat edərdimi? Tolstoyun bəzi sözlərinə baxılırsa, səbat edərdi kimi gəlir. Tolstoy Engelqard nam bir zatə yazdığı bir məktubda diyor ki, əgər xanəmə afrikalı bir zolus vəhşisi hücum edib mənim gözümün önündə ciyərparam olan övladımı xəncərlə doğrasa, mən əsla müqabilə etməm!" Tolstoy həqiqətən müqabilə edərdimi, etməzdimi bəhsi-axər. Lakin bu sözdə bir həmaqət olduğu aşkardır. Ey qarə, bu xüsusda o qədər böyük bir zata həmaqət isnad etdiyimdən naşi dilgir olma. Çünki Tolstoyun ara-sıra axmaqlıq xoşuna gediyor. Baxınız şair Fetə yazdığı bir məktubda nə diyor: "Təlifatımın altıncı cildini tamam edib verdim təbə. Noyabr ayının birində ehtimal intişar edəcəkdir. İndi mənim ən avara və məəttəl bir zamanımdır, nə düşünürəm, nə bir şey yazıram. Özümdə xoşuma gedən bir axmaqlıq hiss ediyoram. Axmaqlara böyüklük əsla yaraşmiyorsa da, lakin böyük adamlara ara-sıra axmaqlıq hər halda yaraşıyor. Hansı böyük adamı zikr edə bilirsiniz ki, onun ağzından bəzi kərrə axmaqca sözlər çıxmış olmasın".

Keçəlim. Tolstoyun böyük bir ədib və şair, böyük bir kəlam rəssamı Sədi kibi əxlaqiyundan böyük bir həkim olduğunu gördük.

Fəqət baniyi-məzhəb olmaq xüsusuna gəlincə, burada zəlalətdə bulunduğu və məsləkinin əsassız olduğu təbyin ediyor. Bu zəlalətlər nərədən nəşət ediyor, rus ülaması burasını çox araşdırıyorlar... Bizə qalırsa bu zəlalətin əsil səbəbini Tolstoyun ehkami-islamiyyəni bihəqq mütaliəyə rəğbət etməməsində aramalıdır. Tolstoy ömrünün bir qismini boşuna sərf edib ibrani və yunani lisanlarını əriz və əmiq təhsil edəcəyinə, ərəb və fars dilini gözəlcə öyrənib bu vasitələrlə bir də islamiyyəti tədqiq etməli idi. Şair Gete ömrünün axırında bu lüzumu hiss edib farscanı öyrəndi və bu təhsildən xeyli müstəfiz oldu.

Tolstoy etirafının bir yerində diyor ki, "Bən anlayordum ki, bizim bütün təfəkkürat və mülahizatımız öz məhvəri üzərində dönən bir təkərlik kibi, tilsimli bir dairədə dönüb durur, oradan ayrılamiyor". Nə qədər gözəl düşünsək yenə sualımıza bir cavab alamiyoruz, daima sıfır müsaviyi-sıfır oluyor. Bundan istidlal edirdim ki, ehtimal tutduğumuz yolun özü yanlış bir yoldur. Seziyordum ki, dinin verdiyi cavablarda ən dərin hikməti-bəşəriyyə məhfuz olub, o cavabları əqlə istinadən rədd və inkara haqqım yoxdur. Çünki məsaili-həyatiyyənin başlıca cavabları onlardır.

Bən bunu anliyordum. Lakin müşkül bununla asanlaşmiyordu. Bən hər bir məzhəbi qəbula hazır idim. Ancaq bu şərt ilə ki, o məzhəb əsla əqli inkar etməsin. Çünki belə bir inkar xətayə dəlalət edər. Bu səbəbdən Budda məzhəbini və islamiyyəti kitablar və xristianlığı həm kitablar, həm məni əhatə edən insanlar vasitəsilə mütaliə edirdim". Bu axırıncı cümlədən anlaşılıyor ki, Tolstoy şübhə və tərəddüdlər içində gəzərkən islamiyyəti dəxi kitablar vasitəsilə mütaliəyə quyulmuş, lakin o kitablar hansı kitablardır, zikr etmiyor. Zənnimizə görə o kitablar çox da mühüm kitablar olmasa gərəkdir. Çünki rast gəldiyim asarda Tolstoyun islamiyyətdən bir nəbzə bəhs etdiyini görmədim. Bir yerdə Tolstoy diyor ki, əxlaq nöqteyi-nəzərindən etiqadati-islamiyyənin dünya və üqbada vəd etdiyi feyzi-nəim şəxsiyyətə məxsus və qabadır (kəbuddur).

Xatirimə müsəlman şüərasından Feyzinin bargahi-kibriayə xitabən bu niyazları gəliyor:

Taəti ma tabeçənd bəhre-nəime-behişt,
Bənde nəba xəce kərd in hame bey şəra.
Həst amidəm qəvi əz to ke yabəm be fəzl
Dər dəme-xabe-əcəl xaki dərt mətəkka

Ta məgər əz nuri-to, bədr şəvəm bər sipəhr
Mitələbəm əz cahan, həm ço helal inziva
Zaviyeyi-təngna ba to məra laməkan
Badiyeyi-lakəman bito məra təngna[1].

Əfəndim, buna da deyəcək varmı?! Zənn edərsəm Tolstoya bundan bəliğ cavab olamaz. Lakin görünüyor ki, müşarileyhin bunlardan xəbəri yoxdur. Ortodoksluq Tolstoya yolunu qaib etdirdi. Tazədən dürüst bir yolu bulmaq üçün onun islamiyyətə aşina olması lazım gəliyordi. Böyük müfəssirlərimizdən, əllamələrimizdən, Fəxri Razilərdən, imam Qəzalilərdən, Zəməxşərilərdən, Siyutilərdən xəbəri yoxsa, heç olmazsa, ədəbiyyati-islamiyyəyə vüquf peyda etməli idi.

Üdəbayi-həqiqiyyeyi-İslamiyyənin sərəfrazları isə Mövlana Cəlaləddin Rumi ilə onun:

"Əttar ruh bud, Sənai do çeşme-u
Ma əz piye-Sənai və Əttar amədim"[2] –

deyə zikr etdiyi zəvatdan ibarətdir.

Şərq-İslamda, şəhərlərdə və kübar arasında müskirata meyil və işrət kimi bir fənalıq görünürsə də, lakin məəlməmnuniyyəti-islamiyyət sayəsində Şərqin əvamünnası arasında o fənalıqdan bir əsər görünmiyor. Halbuki Rusiyada bu bəlayə düçar olanlar başlıca əvamünnasdır. O əvamünnas ki, Tolstoy onun uğrunda bu qədər cəhd ediyor.

Biz Tolstoyun böyüklüyünü onun məzhəbində deyil, onun məsləki-ədəbiyi-ictimaisində görənlərdəniz. Tolstoy böyükdür, çünki xassın deyil, külliyyəti-əhali olan əvamın fikrini tənvirə, əxlaqını təhzibə çalışıyor. Tolstoy böyükdür, çünki dahiyeyi-hərbin ortadan götürülüb ümumi-cahanın miləl və əqvamı arasında sülhi-əbədinin

[1] Tərcüməsi: İtaətimiz nə vaxtadək behiştin nemətləri xatirinə olacaq
Bəndə tacir ilə bu cür alver etmədi.
Çox böyük ümidim var ki, səndən fəzlə tapım,
Əcəl yuxusu zamanı qapının torpağına söykənim
Bəlkə sənin nurundan fələkə doğru gedim.
Dünyadan hilal kimi guşəninin istəyim
Səninlə darısqal guşədə olmağımız mənə laməkandır,
Ucsuz-bucaqsız səhra sənsiz mənə darısqaldır.

[2] Tərcüməsi: Əttar ruh idi, Sənai onun iki gözü,
Biz Sənai və Əttarın ardınca gəldik.

təqririnə qeyrət ediyor. Tolstoy böyükdür, çünki məzahib arasında bir təriqi-ittihad və məvəddət arayor. İttihad və məvəddəti ayrı-ayrı hər məzhəbin göstərdiyi səvabların cümləsindən əla biliyor. Tolstoy böyükdür, çünki üluhiyyəti və iradətüllahın növi-bəşərə tövdi etdiyi vəzaifidir ki, əlindən gəldiyi qədər cəhd eliyor.

"Füyuzat", 1906, №1, 2

QIRMIZI QARANLIQLAR İÇİNDƏ YAŞIL İŞIQLAR

(12 dekabr)

Dekadent olmadığımız və olamadığımız halda məqaləmizin sərlövhəsi dekadentizmə qaydasında oldu. Dekadentizmə zəmanəmizin, yəni bu son on beş, iyirmi sənənin məhsulu olduğu kimi, zəmanəmizdəki novüsul bir növ sənaycnin, sənayci-nəfisənin, əşar və ədəbiyyatın vücuda gətirdiyi bir çox asar da dekadentizmə məhsuludur. Bir şey almaq üçün bir mağazaya gedərsiniz, orada sizə qərib-qərib rənglərlə, nəqşlərlə müzəyyən mənsucat, məfruşat, əsas və əvanibeytiyyə göstərib deyirlər ki, bunlar "dekadent şeyləri"dir. "Füyuzat"ın dördüncü nömrəsində, Zahid bəy Şamilin qeyrətilə Moskva şəhərində çıxacaq "Tərbiyeyi-ətfal" məcmuəsinə dair bir elanın başında kiçik bir şəkil görürsünüz. Sizə deyirlər ki, bu şəkilin xütut və nüquşu dekadent üsulundadır. "Füyuzat"ın ikinci nömrəsində Tofiq Fikrət bəyin nəsrə təhvil edilmiş əşari-cədidəsini oxursunuz, tərzi-əcib ifadəsinə, üslubi-qərib bəyanına təəccüb edərsiniz. Ehtimal heç bəyənməmək istərsiniz. Sizə bildirirlər ki, "Rübabi-şikəstə"dən məxuz olan bu şeirlər dekadent üsulunda şeirlərdən olub Tofiq Fikrət bəy də osmanlı dekadentlərinin sərəfrazlarındandır. Nəhayət, bu nömrəmizdə "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" sözlərindən ibarət qərib və naşənidə bir sərlövhəyə rast gəlirsiniz. Sizə ta ibtidadən ixtar edəriz ki, bu da dekadentizmə qaydasında bir sərlövhədir. Şübhə yoxdur ki, bu surətlə qulağınız "dekadentizmə" sözləri ilə dolduqdan sonra, siz də məqaləmizin məzmunundan əqdəm ehtimal bu dekadentizmənin nədən ibarət olduğunu bilmək istərsiniz. Lakin biz də bunu əriz və əmiq izaha başlayacaq olursaq sədədimizdən, yəni "Yaşıl işıqlardan" ibarət olan mətləbimizdən

bilkülliyyə ayrılıb pək uzaqlara düşmüş oluruz. Müxtəsərən də, hətta müfəssələn də dekadentizməyi anlatmaq qayət çətindir. Bəlkə də məhaldır. Bir də bunu anlamanın nə lüzumu var. Onu bir vəhm və xəyal kimi sezmək də kafidir. Dekadentlər diyorlar ki, biz "ləb" demədən siz "ləbləbiyi" anlamalısınız, biz gözlə görülməyəcək, qulaq ilə eşidilməyəcək şeylərə sizə bir-iki qısa söz ilə göstərməyə, eşitdirməyə çalışacağız, siz də öz qüvvəyi-müdərrikənizlə, surəti-intiqalınızla görüb eşitməyə çalışınız. Şayəd buna müvəffəq olamaz isəniz gözünüzü qulağa, qulağınızı da gözə çevirməyə və ələlümum həvasi-xəmsənizi yekdigərinə qəlb etməyə çalışınız, bununla da bir şeyi dərkə müvəffəq olmasanız, nəfsinizdə həvasi-xəmsədən başqa bir hiss, bir hissi-sadis peyda etməyə qeyrət ediniz. Şayəd bu surətlə də bir şeyə vaqif olamazsınız, o halda bizi anlamaqdan fərağət edib nafilə özünüzü yormayınız. Dekadentizmə təriqində olan şairlər şeirlərində rəssam və nəqqaş, nəqqaş və rəssamlar isə lövhə və rəsmlərində sazəndə və musiqişünas, sazəndə və musiqişünaslar isə ahəngi-nəğəmatlarında xətib, şair, rəssam olmaq istiyorlar. Hətta bəzi memarlar da bu xüsusda bunlardan geri qalmıyorlar.

Təbiblər isə... təbiblər də öz elmi-əmrazlarında, öz məhbəsi-əhvali-ruhiyyələrində bunların cümləsinə, hissiyati-təbiiyyələri istihaləyi-mərəziyyəyə düçar olmuş dəli, divanə və məcnun diyorlar, demək istiyorlar... lakin təbiblərin böylə dəmələri ilə məsələ həll olunmiyor. Çünki dekadentlər də bu iddiada bulunan doktorlara dərki-bədayedən, hissi-nəfaisdən hissi-sadisdən məhrum biçarələr ünvanını veriyorlar... haqq hansı tərəfdədir? Orası hənuz məchul... Ancaq şurası aşkardır ki, bunlar, bir dairəyi-məhdudə içində dönüb dolaşan və binaənəleyh o dairə içində mafövqi, mavərası təsəvvür olunmayan bədayeci-mükəmməleyi-sənətə lüzumsuz təqlidlərdən və köhnə sözləri təkrarlardan ibarət qalan yolları tərk ilə əşar və ədəbiyyat və sənayeci-nəfisədə külliyyətli bir təcəddüd vücuda gətirmək üçün özlərinə, əsla bu günə qədər eşidilməmiş, xatir və xəyala gəlməmiş, büsbütün yeni bir təriq, daha dürüstü təriqlər arayorlar.

Dekadentizməyə "simvolizmə" dəxi diyorlar. Bu kəlmələri ərəbidən alınma istilahat vasitəsilə türkcə ifadə etmək istəsək, bunlara "məsləki-inhitatiyun" və yaxud "məsləki-rəmziyun" demək lazım gəlir. "Dekadentizmə", yəni "inhitat və zəvala üz tutmaqlıq", "simvolizmə", yəni "rümuz və rümuzat ilə ifadeyi-məram üsulu" demək oluyor ki, dekadentizmə məsləkinin əsasi-batiniyyəsində guya inhitat əmarələri, üslub ifadeyi-zahiriyyəsində isə rümuzat ibarələri

mühüm bir rol oynuyor. Bunlara inhitatiyon adı ibtida düşmənləri tərəfindən istehza təriqilə verilmiş idi, çünki simvolistlərin vücuda gətirdikləri asar onların nəzərində şeir və sənətin zəval və inhitatına, tədəniyyə düçar olmasına dəlalət ediyordi. Lakin simvolistlər özləri bu yeni adı ayrı bir nöqteyi-nəzərdən bir məmnuniyyətlə qəbul etdilər. Bunlar dedilər ki, zəval və inhitat bizim asarımızda olmayıb bəlkə zəmanəmizdədir. Asarımız isə zəmanəmizin mükəmməl bir ayinəsi olduğundan məsləkimizə verilən bu ad dəxi məqbulumuzdur... "Məsləki rəmzyun" adına gəlincə, dekadentlər diyorlar ki, lisan və lüğətlərdə vaqe tərəqqiyyati-ləfziyyə bizim, yəni dekadentlərin tərəqqiyyati-mənəviyyəmizlə mütənasib deyildir. Tərəqqiyyati-lisaniyyə cüzi olduğu halda tərəqqiyyati-mənəviyyəmiz küllidir. Binaənəleyh hazırdakı lisanlar bizim əfkarımızı ifadədən acizdir. Bu səbəbdən biz əhvali-mənəviyyəmizi, əfkar və hissiyyatımızı ancaq bir növ dudisəhabə bürünən əmsali-mücəssəmə ilə və yaxud rümuzat ilə təsvir və ifadə edə biliriz. Onun üçün ifadatımız mübhəmat və kinayatdan ibarət əlmalı. Zatən şeir və sənətin məqbuliyyət və lətafəti də musiqi kimi qeyri-müəyyən və mübhəm olmaqdadır. Qarələr isə mübhəm olan bu rümuzat və kinayatdan özləri mənə çıxarmalıdırlar. Şair, ya rəssam heç bir vaxt fikrini açıq deməyəcək, ancaq zehn və qəlbində müzmər olan bir fikri təlqinə çalışacaq: nə sövtdə, nə rəngdə, nə də bir xətdə o fikir görünməyəcək, zikr olunmayacaq, şairin, ya rəssamın xəyal və vicdanında peyda olan bir hiss, bir fikir ancaq bir təsiri-mənəvi ilə gizli, üstüörtülü bir surətdə qarəinin, tamaşagiranın qəlb və vicdanına intiqal edib orada yenidən müqabili olan hissiyyat və əfkarı oyandıracaq, çünki:

Dər miyanə-raze-müştəqan qələm nəmahrəm əst![1]

Türk dekadentlərinin fikrincə avam olan türkün zatən qədimdən bəri dekadentizməyə bir meyli var idi. Çünki onun əlamətləri dilində məşhuddur. Ancaq keçmiş ədəbamız tərəfindən bu əlamətlər nəzəri-etibara alınmayıb tərəqqi etdirilməmiş idi. Türk dilindəki "qara günlər", "qara xəbərlər", "qırmızı yalanlar", "üz ağlığı" bu növ əlamətlərdən məduddur. Şübhə yoxdur ki, günün qarası olmaz. "Qaragün" ibarəsini ilk dəfə ixtira etmiş olan əcdadımızdan biri bununla bir halimənəviyi müxtəsər surətdə ifadə edərək "qəsvətəngiz olan qara

[1] Tərcüməsi: Dostların sirri arasında qələm nəmahrəmdir.

rəngli bir qaranlığın insanda hasil etdiyi təsir nə isə, bu müsibətli, bəlalı günlərin də təsiri odur" demək istəmiş idi. Maddətən siyah olan bir zənci, ya həbəşin istiqamətdən naşi mənən üzü ağ olduğu kimi bəyaz dərili bir qafqazlı da doğruluqdan, namusdan ayrılırsa, mənən qara üzlü olacağı təbiidir ilx.

Dekadentlər iddia ediyorlar ki, zəmanəmizdə hər tərəfdə kəsif-kəsif inhitat və zəval qaranlıqları peyda olmaqda ikən onların da rümuzat və kinayətdən ibarət və bir növ buyc-təsəvvüf nəşr edən əsərləri bu qaranlıqlar içində mübhəm-mübhəm işıqlardır. Yenidən təcəddüd və kəmali-feyzləri guya bir növ işıqlardan nəşət edə biləcəkdir. Ancaq feyz almaq həvəsində bulunan insanlar öz həvaslarına ayrı bir seyqəl verməyə qeyrət etməlidirlər...

Əşar və ədəbiyyat dekadentizməsi ilk əvvəl Fransa ölkəsində zühur etdi.

Verlen, Malarme və "Flor demal", yəni "Əzhari-fəna" ünvanlı divanı ilə məşhur Bodler bu məsləkdəki şüəradandırlar. Fransız dekatentizmə əfkarının vasiteyi-intişarı da ibtida "Lajon Frans", yəni "Cavan Fransa" adlı bir məcmuə idi. Çox sürmədən bunların əfkarı-məsləki dünyanın hər tərəfinə, hətta Yapon və Amerikaya qədər sirayət edib Rusiyaya və Türkiyəyə dəxi keçdi. Ən ziyadə müsaid olan bir zəmini də dedakentizmə bu iki ölkədə, yəni Rusiya ilə Türkiyədə buldu. Çünki bunların əhvali-siyasiyyə və ictimaiiyyələrində əvvəlki dövrlərə (Rusiyada altmışıncı, Türkiyədə isə 70-ci sənələrə) nisbətən bir irtica zəvalpəsəndanə əlaimi hökm etməyə başlamış idi. Rusiyada və ələlxüsus Türkiyədə hürriyyəti-əfkar və kəlam bilküllliyyə məfqud olmuş idi. Ancaq cəbr və təzyiq ilə vücuda gətirilən bu inhitat və zəval əsasən bir dövri-inqilabın müqəddəməsi idi. O inqilabın ki, Rusiyada başlamış, Türkiyədə isə qəribən başlayacaq, yaxud başlamaq üzrədir, çünki əxirən teleqrafların bizə gətirdiyi xəbərlərə görə Trabzon vilayətində Kerason qaimməqamı İbrahim paşanın həyəcana gələn əhali tərəfindən cəbrən təbid edilməsi, Ərzurum cəmaətinin qeyz və qəliyan edib siyasi məhbusları azad etmələri, bir neçə məmur qətl edib valiyi döymələri, əsgərin isə asilərə qarşı silah qaldırmaq istəməmələri qəribən Türkiyədə möhtəməl olan bir inqilabın müqəddiməsidir.

İştə hürriyyəti-kəlamın məfqud olduğu bu dövrlərdə və bu yerlərdə dekadentizmə sayəsində bir sinif üdəba və şüəra mübhəm-mübhəm rümuzat ilə əhalinin əfkarını tənvirə bir çarə kəşf etmişlərdi. Osmanlı dekadentizmə nəzminin ən mahir şairi "Rübabi-şikəstə"yi

yazan Tofiq Fikrət bəy olduğu kibi, nəsrinin də ən bəliğ ədibi "Mavi və siyah" mühərriri olan hekayənəvisi-şəhir Üşşaqizadə Xalid Ziya bəydir. Hər ikisi də türkün şivəsini naqabili-təqlid, hətta bəzi Avropa lisanlarına faiq bir surətdə dərəcəyi-qəsvayc-təkəmmülə isal edib üslubi ifadələri qayət səlis, qayət ahəngdar, qayət parlaq, fikir və xəyalları kimi qayət ruhlu və müəssirdir...

İştə zənn edərsəm, dekadentizmənin nə olduğunu bir az anlada bildim, lakin sədəddən bir xeyli uzağa düşdüm. Sədədimiz isə "Qırmızı qaranlıqlar içində yaşıl ziyalar" idi. Gərçi osmanlının Tofiq Fikrətləri, Xalid Ziyaları və bunların məsləki dəxi "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" isə də, lakin bizim məqsədimiz bunlar deyil idi. Əsil öz sədədimizə rücu edəlim.

* * *

Zəmanəmiz bir inqilab zamanıdır. Bəşəriyyət iləliyə doğru bir addım atmaq istiyor. Addım atdıqca qarşısına reaksiya, yəni irtica şəklində mühib bir qüvvət çıxıb onu geri atmağa çapaliyor. İnqilab ilə irtica güləşiyor, mübarizə ediyor, bu mübarizə nəticəsində ortalıq al-qanlara boyanıyor. O qanlardan süud edən buxarati-kəsif bir səhabə halını alıb bütün ətrafı zülmətə qərq ediyor. İştə qırmızı qaranlıq!.. İki qüvvətin müsadiməsindən ara-sıra hasil olan dəhşətli gurultular şirin və ləzzətli bir uyqu içində yatan biz müsəlmanlara rahət vermiyor, istər-istəməz iyqaz ediyor. Biz də oyanmağa, ayağa qalxmağa məcbur oluyoruz. İbtida sərsəm bir halda bulunuyoruz. Sərsəmliyimiz ilə nə tərəfə gedəcəyimizi şaşırıb müsadimənin içinə düşüyoruz. Ötəmiz-bərimiz əzilib yaralanıyoruz. Bir zülmətin içində biz də al - qanlara boyanıyoruz, derkən ağlımız başımıza gəliyor, özümüzə ayrı bir yol arayoruz. Bulur kimi oluruz da!.. Doktor Qarabəy Qarabəyovun daşnaksütunçulara və bilxassə Q.X. cənablarına "Kaspi" sütunlarında verdiyi cavabda olduğu kimi, "Biz özümüz bir yol bulub o yol ilə gedəcəyiz. Bizim başqalar ilə büğz və ədavətimiz yoxdur. Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan küllliyyəti-avam arasında nuri-məarifi əkməkdir" diyoruz. İştə bu nuri-məarif də, Qarabəy Qarabəyov özü də və bütün onun kimi münəvvərül-əfkar olan mücahidini-şübbanımız da yaşıl işıqlardır. Qırmızı qaranlıqlar içində peyda olan yaşıl işıqlardır. Yaşıl deyiriz, çünki öz müsəlmanlarımızdırlar. Ənvari-zümrüdün islamiyyə qən-

dillərini iqad qeyrətində bulunanlarımızdırlar... Ancaq bana öylə gəliyor ki, qonşularımızın özləri kibi ibtida sərsəm bir halda ayılıb bır yol görməyib tövən və kərhən qanlı müsadimələrə uğradığımız, daha doğrusu, uğradıldığımız kibi indi də alaca qaranlıqlar arasında sezib kəşf etdiyimiz doğru yolların da biganəsi, öz təbirimizlə "nabələdi" bulunuyoruz. Zənnimcə, bütün hüzn və kədərlərimiz, bütün məyusiyyətlərimiz bu üzdən təvəllüd ediyor: "Şərqi-Rus", "Həyat", "İrşad", "Dəbistan" və sairə kibi qəzetələr çıxıyor, müştəri tapılmıyor, tapılmadığı üçün ya bağlanıyor, ya "İrşad" kibi Əhməd bəyləri şəhər-şəhər, kənd-kənd, qapı-qapı gəzdirib əhaliyi vəzi-nəsihətlərlə iyqaz etməyə, bu surətlə müştəri qeyd etdirməyə məcbur oluyor. Məktəblər açmağa qeyrət ediyoruz, lakin nə miqdar kafi pul, nə milli proqram mucibincə kitablar və nə də öz din və lisanına haqqı ilə aşina, lazım qədəri müəllimlər buluyoruz. Həmiyyətli, qeyrətli cavanlar yığılıb müxtəlif namlərlə cəmiyyətlər təşkil ediyor, fəqət orqanizasiyaları qeyri-müntəzəm, irtibati-üzvləri zəif olduğu üçün çox sürmədən dağılıyorlar. Teatrın faydasını anlayıb həmiyyətməndani-şübbanımız darülibrətlər, darülbədayelər[1] meydana çıxarmaq üçün dram kompaniyaları təşkil ediyorlar, "Həmiyyət", "Birinci şirkət", "İkinci şirkət" filan oluyorlar. Lakin nə sədrə şəfa verəcək bir repertuar buluyorlar, nə də cəmaət tərəfindən bir rəğbət görüyorlar.

Həp işlərimiz bu qəbildəndir. Bu əhvalın səbəbi nədir? Burda xatırıma bir hekayə gəliyor: hənuz məktəbi-ibtidaidə ikən mənim dərs yoldaşlarımın içində iki şagird var idi ki, ikisinin də nəqqaşlığa, rəssamlığa fövqəladə istedad və həvəsləri var idi. Bunların çəkdikləri şəkillərə sair rəfiqlər hər zaman qibtə edərlərdi. Bir gün bu nəhəvəs nəqqaşların birini atası məktəbdən çıxarıb özünə köməkçi etmək üçün baqqal elədi. Digər yoldaşımız isə məktəbə davam edərək bir neçə ildən sonra ikmali-təhsil eyləyib öz istedadının saiqəsilə rəssamlıqda tərəqqi etmək üçün Peterburqa getdi. Orada sənayeinəfisə akademiyasına daxil oldu. Bu məktəbdə də üç-dörd il təhsil gördükdən sonra gözəl bir şəhadətnamə almaqla iktifa etməyərək, Almaniyanın Drezden və Münxen şəhərlərinə gedib bu şəhərlərdəki əsatiz-sənətdən dərs aldı və ən nəhayət bədayeci-sənətə təmamilə kəsbi-vüquf etmək üçün bir az Hollanda, Belçika və Paris muzeylərində gəzdikdən sonra İtaliya paytaxtı olan Rimə getdi, burada da bir-iki il qalıb Rafaellərin, Korrecioların, Mikel Anceloların, Leonardo da Vinçilərin, Tissiyanların, Botiçellilərin əsarını tədqiq və mütalə etdi. Bizim nəqqaş yoldaşımız ancaq bu qədər zəhmətdən sonra öz vətəninə övdət edib rəssamlığa başladı. Baqqal olan yoldaşımla bu rəssamın biri-birindən ayrıldıqlarının üzərindən tam igirmi sənə keçmişdi. Bir gün bizim baqqalın yolu Moskva şəhərinə düşdü, orada bir rəsm sərgisi açılmış idi. Baqqal da oraya tamaşaya getdi. Bir neçə lövhənin üzərində öz qədim yoldaşının imzasını görüb tanıdı.

Lövhələrin altında isə bir vərəqpərədə qiymətlərinə dəlalət edən bu sözlər yazılmış idi: üç min manat, beş min manat, yeddi min manat...

Bizim baqqal xəyala getdi. Vaxtilə yoldaşından ziyadə istedad və qabiliyyət göstərmiş olduğu bir sənəti tərk edib baqqallıq ediyordi. Baqqallıqda isə ayda yüz əlli, iki yüz manatdan, yəni ildə iki min manatdan ziyadə qazanamıyordı. Rəssam olan yoldaşı isə, şübhəsiz, sənədə qırx-əlli min manat qazanıyordı. Atası o zamanlar vəfat etmiş olan bizim baqqal şəhərinə övdət edər-etməz dükanı bağladı. Rəssamlıqdan otuz-qırx min manat qazanmaq mümkün ikən dükanın nə lüzumu var idi. Baqqal bir maqazaya gedib rəssamlığa dair bir çox alətlər və rənglər alıb yenidən rəssamlığa başladı. Bir neçə böyük lövhə vücuda gətirib sərgiyə göndərdi... Lakin, heyhat! Bu lövhələrə otuz, ya qırx manatdan ziyadə verən müştəri tapılmıyordı!.. Çünki baqqal bir şeyi xatirinə gətirmiyordı, bilmiyordı ki, lövhələr üç, dörd min manata getmək üçün əvvəlcə peterburqlarda, berlinlərdə, drezdenlərdə, münxenlərdə, romalarda igirmi sənə qədər çalışmaq lazımdır...

Baqqal öylə zənn ediyordi ki, yaşıl çəmənlərin, ağacların rəsmi yaşıl ilə boz rəngli daşların, qayaların rəsmi də ağ və qaradan məxlut rənglərlə çəkiliyor...

* * *

İştə bizim halımız da bu baqqalın halına bənziyor: Biz sədəmati-inqilabiyyə rəd və bərqin təsirilə ayılıb gördük ki, "Karvan rəfte-voma bər sərə rahim hənuz!.."[1]

Biz gördük ki, qonşularımızın irəli getməsinin səbəbi qəzetələr, mətbəələr, kitablar, məktəblər, mədrəsələr, sənətlər, cəmiyyətlər,

[1] Teatro, yaxud "tamaşaxana" adları Avropada hər növ teatrlara verildiyindən, bu istilahlar cəmaətin nəzərində bir az ləkəli olduğu üçün şübbani-qeyrətməndanımızın məqsudu olan Şillərlərin, Şekspirlərin, Molyerlərin, Mirzə Fətəli Axundovların teatrına darülbədaye nami verilsə, daha münasib olur zənn edəriz.

[1] Karvan gedib, hələ biz yolun yarısındayıq.

şirkətlər, orqanizasiyalar, teatrlar imiş!.. Biz də ələl-əcələ bunları yarım yamalaq düzəltməyə başladıq. Bilmiyoruz ki, qonşularımız qırx, əlli ildən bəridir çalışıyorlar. Bilmiyoruz ki, on min manatlıq rəsmlər yapmaq üçün Ayvazovskilər əvvəlcə otuz il qədər əmək sərf etmişlər...

Bərəkət versin ki, millətimizdə təbii bir istedad, keçmiş mədəniyyətlərimizdən bizə irsən intiqal edən bir istedadi-əzim var imiş. Yoxsa rəsmlərimiz, lövhələrimiz heç qırx, əlli manata da satılmayacaq idi!.. Lakin hər halda napaydar qəzetələrdən, məktəblərdən, məscidlərdən, cəmiyyətlərdən, darülbədayelərdən ibarət qırx, əlli manatlıq bu ictimai lövhələrimiz də "qırmızı qaranlıqlar içində yaşıl işıqlardır..." Əksəriyyən paydar olmasalar da gündən-günə ədədləri təzayid ediyor. İşığın biri söndükcə, yerinə digər ikisi qaim oluyor. Davam etməsə də sürətlə təkərrür ediyor: Bakıda "Həyat" sönüyor, Daşkənddə "Xurşid", Bağçasarayda "Millət" zühur ediyor. Daşkənddə "Xurşid" sönüyor, Bakıda "Təkamül", Moskvada "Tərbiyeyi-ətfal" nəşri-ənvar etməyə başlıyor... Cəmiyyətlərimiz də böylədir. Ötədə bir neçə zükur cəmiyyəti paydar olmayıb dağıldığı halda bəri də xeyirli-xeyirli nisvan cəmiyyətləri təşəkkül ediyor. "Şəfqət məclisi" bina olunuyor. Yaponlar ətfalə iki əl ilə də, həm sağ, həm sol əlilə yazmaq öyrədirlərmiş! Heyəti-milliyyəmiz nədən iki qanad ilə pərvaz etməyə çalışmasın? Rical bəşəriyyətin bir qanadı isə, nisvan da digər qanadıdır. Axır bu həqiqəti anlamış olmalıyız ki, qızlarımız məarifə həvəs, xanımlarımız cəmiyyət, komitet təşkilinə qeyrət etməyə başlıyorlar. Bakıda, Vladiqafqazda xanımlar tərəfindən ianə komitələri açılıb hər kəs həzrət Süleymanın qarıncası qədərincə bir hədiyyə gətirərək Qarabağ qəhətzədələrinə iki min manatdan ziyadə pul cəm etmələri və o yolda müsamireyi-xeyriyyələr vermələri şayani-diqqət və təhsindir.

İştə bunlar həp yaşıl işıqlardır. Əxirən peyda olan bu növ işıqların ən parlağı Bakıda irfanpərvər cavanlarımızın qeyrətilə təşəkkül edən "Nəşri-maarif cəmiyyəti" ilə Peterburqda bina olunan camei-kəbirdir. Hacı Zeynalabdin Tağıyevin təhti-rəyasətində olan məzkur cəmiyyətin daha birinci ictimaında cəmaətimizin həmiyyəti sayəsində on səkkiz min manata qədər bir məbləğ yığıldığını zikr edərsək, bu cəmiyyətin qüdrət və əhəmiyyəti özlüyündən təzahür edər.

Zikr olunan məbləğ təzayid etmək üzrədir: yövmi-güşadından çox keçmədən bu cəmiyyətə Məşqətə əhlindən bir zati-möhtərəmlə

əşrafi-bəldəmizdən Murtuza Muxtarov həzrətləri gözəl mülklər vəqf etdilər. Murtuza Muxtarovun vəqf etdiyi mülkünün qiyməti 18 min manat təxmin olunuyor. İştə bu cəmiyyətlər, bu nəqdlər, bu vəqflər həp yaşıl nur nəşr edəcək qəndillər, məşəllərdir. Ancaq bu günlərə qədər Rusiya müsəlmanları içində ötədə-bəridə mütəfərriqən iqad edilən bu növ qəndillərin arasında bir irtibat, həblülmətin vasitəsilə olan bir irtibat yox idi. Asari-ittihad məfqud idi, halbuki igirmi beş, otuz milyonluq bir cəmaəti birləşdirmək üçün bir üqdeyi-mərkəziyyə lazım idi. Çox şükür ki, axirüləmr bu üqdeyi-mərkəziyyənin də nərədə və nə vasitə ilə olacağını anladıq. Peterburq Rusiya imperatorluğunun və binaənəleyh Ümumrusiya müsəlmanlarının dəxi mərkəzidir. Ən əvvəl yazılmış, hətta həzrəti-Osman (rəziallahu ənhu)nun öz dəstxəttilə yazılıb bir rəvayətə görə xuni-şəhadətinə boyanmış bulunan Qurani-Kərimin müshəflərindən biri əlan bu şəhərdə bulunmaqda olub, vaxtilə türk cahangirlərindən Teymurləng tərəfindən Bağdaddan Səmərqəndə nəql edilmiş idi. İştə otuz milyon Rusiya müsəlmanları üçün böylə on üç əsrlik məshəfi-şərifdən daha gözəl, daha mətin maddi bir həbl, onun üzərində bina olunan camei kəbirdən daha mükəmməl, daha paydar bir üqdeyi-mərkəziyyə təsəvvür olunmaz. Ancaq lazımdır ki, o məbədi-müslimin, hifz edəcəyi bir gövhərin şərafəti, otuz milyonluq bir cəmaət ittihadının cəlaləti, Böyük Petro paytaxtının həşəmət və əzəməti nisbətində olsun...

Məlumdur ki, sənayei-nəfisədən müsəlmanlar beynində qədimdən bəri ən ziyadə tərəqqi edən sənət fənni-memari idi. Səbəbi bu idi ki, memarlığa haqqı ilə vaqif olan müsəlman ustadları cənabi-Həqqin hüsn və cəlal kibi iki sifəti-mənəviyyəsini xütuti-həndəseyi-memariyyənin ahəng və əzəmətindən ibarət bir növ rümuzati-cismaniyyə ilə möminin ixtar etmək istəyirlərdi. Müsəlman aləminin məşhur məbədlərində, ələlxüsus Hinddə, Misirdə, Əndəlisdə, İstanbulda, Şamda, İsfahanda bina olunanlarda bu hal nümayandır.

İndi bu sənətimizi Peterburqda aləmə qarşı müşəşə bir surətdə göstərməyə qeyrət etməliyiz... Bu günlərdə Qafqaz canişini qraf Voronsov-Daşkov həzrətləri ilə Gürcüstan ekzarxının hüzurunda kəmali-dəbdəbə ilə Batum şəhərində müəzzəm bir kəlisanın rəsmi-güşadi icra olundu.

Ruslar bu kəlisayı vücuda gətirmək üçün milyonlar sərf etdilər. Çünki niyyətləri öz həmməzhəblərini Həzrəti-İsa (ə.s.)-nın mavi

nurlarından müstəfid etməkdir... Otuz milyon qədər bir cəmaəti Həzrəti-Məhəmmədin yaşıl nurlarından feyziyab etmək üçün Peterburq məscidinin binasına hər birimiz bir manat, bir abbası, hətta bir qəpik versək, yenə milyonlar təraküm edər. Əsasən bu əmri-xeyrə də milyonlar lazımdır.

"Qotbe-cənubi-yə-şemalist del
Dər do tərəf hakim-o-valist del"[1].

Ey Rusiya ölkəsində olan ümməti-Məhəmməd, ey Qafqaz qitəsində bulunan əhli-islam, ey Bakı şəhərinə yığılan müsəlmanlar! Qəlblərimizin qütbi-şimaliyə qədər təvəssö edə bildiyini, orada dəxi hakim olduğunu göstərməliyiz. İsbat etməliyiz! Hər birimiz öz qüdrətimizə görə bu binaya bir daş, bir kərpic, bir sütun, bir qübbə ehda etməliyiz. Qəflətimiz nəticəsi olaraq bu təşəbbüs bir müddətdən bəri geri qalmış idi. Əxirən işin xeyri-əncamə yetməsi üçün ana yeni bir gərmi verildi. Hətta bizləri dəxi keyfiyyətə agah etmək üçün bir-iki həftə əqdəm generali-əlidövlət Şeyx Əli ixtiyar zəhmət edib Peterburqdan şəhərimizə qədər gəlib burada bir neçə gün müsafirətdə bulundu. İndi də müşarileyh Peterburqdan teleqrafla bizlərə gözəl bir müjdə veriyor. Müşarileyhin və Peterburq teleqraf agentasının verdikləri teleqrafların məzmunu budur:

Bu aralıq Peterburqda müsafir bulunan Buxara əmiri həzrətləri, Rusiya təxti-səltənətinin varisi bulunan vəliəhd ilə ilk yövm mülaqatlarını təyid niyyətilə, Peterburqun mərkəz qismində olan bir ərəseyi-məzkur günün yadigarı olmaq üzrə müsəlman məscidinə vəqf etmək istədiklərini əlahəzrət padşah imperatora bəyan etdilər. Böylə bir arzuyi həşəmətməab imperator həzrətləri təqdir və təhsin buyurub əmir həzrətlərinə bəyani-təşəkkür etdilər. Məzkur yeri Əmir həzrətləri 250 min manata almışlardır. General Şeyx Əli bildiriyor ki, bu münasibətlə Peterburq müsəlmanları arasında fövqəladə bir şadimani hökmfərmadır. Lakin bu sürur və şadimaniyə bütün Rusiya müsəlmanlarının iştirak edəcəyinə, həm də fel və əməl ilə iştirak edəcəyinə şübhə yoxdur... Nasıl şad və məsrur olmıyalım ki, qütbi-şimalının bir nöqtəsində bir nur peyda olub onun yaşıl şüaları

[1] Tərcüməsi: Cənubun şimalın qütbüdür ürək,
İki tərəfdə hakim, validir ürək

zülməti-həmradan müztərib olan otuz milyon qəlbi tənvir və əhya edəcək. Bu otuz milyon qəlb də həmahəngi-zərəbən olub həblülmətin ilə bir nöqtədə ittihad edə biləcəkdir... İnşaallah Peterburq məscidinin Tiflisdəki və Bakıdakı əmsalı ilə bərabər qəribən hüsni-əncamə yetdigini və eyni zamanda bir də bir məktəbi-ali-ruhaniyyə ciddən təşəbbüs edildiyini görməklə kamiyab oluruz...

Yaşasın yaşıl işıqlarımız, zümürrüdin sədalarımız, əxzər rayihələrimiz!..

"Füyuzat", 1906, №5

NİCAT MƏHƏBBƏTDƏDİR!..

(24 dekabr)

Ustade-kainat ke in karxane saxt,
Məqsud eşq bud, cahanra bəhanə saxt,
Ruzi ke, morğe-eşq bealəm qoşud bal,
Cayi nədid, dər dele-ma aşiyane saxt.[1]

Müslimi Şirazi

1906 sənəye-miladiyyəsi xitamə iriyor, Həzrət Məsih(ə)in təvəllüdündən sənəyi-şəmsiyyə hesabilə min doqquz yüz altı sənə keçiyor deməkdir. Yılın bu mövsimində, bu günlərində hicrəti-nəbəviyyədən yenə eyni hesabla 622 sənə əqdəm Fələstin qitəsinin (Beyti-ləhəm) adlı bir qəsəbəsində bir xurma ağacının altında (İncilə nəzərən bir axur yemligində) Həzrəti-Məryəmdən, cənab Haqqın hikmətilə və Cəbrailin nəfhilə hamil qalan Həzrəti- Məryəmdən dünyayə bir tifil gəldi ki, o tifil ənbiyayi-zişandan, cahanın bütpərəstliyinə, müşrikliyinə ilk dəfə əzəmətli bir sədəmə vuran Həzrəti-İsa idi... Peyğəmbər müşarileyh 33 sənə qədər imtidad edən müddət ömründə insanlara nəyi öyrətmək, təlqin etmək istiyordi?..

İsəviyyətin ilk ibtida intişar etdiyi məmləkətlərin birində, yəni Yunanıstanda gəzərkən kəndli, fəqir bir xristianın xanəsində rəsm yerinə müsəlman qaydasında divara asılı bir lövhə gördüm. "O löv-

[1] Tərcüməsi: Kainatın ustadı ki, bu karxananı düzəldi,
Məqsədi eşq idi, dünyanı bəhanə etdi.
O gün ki eşq quşu dünyayə qanad açdı
Bir yer tapmadı, bizim üzərimizdə yuva tutdu.

hədə açıq-mavi rəngli bir atlas üzərində zərrin bir xətt ilə yunaniyülibarə olaraq bu sözlər yazılı idi: "İman", "ümmid", "məhəbbət", işdə o üç qüvvət ki, İsa onunla naciyi-kainatdır". Zənnimcə, üç kəlmənin üçünü də daha şümullu olan bir "məhəbbət" kəlməsilə ifadə etmək mümkün olduğu kibi, məhəbbət kəlməsini də kələmətullah ilə, yəni İsa namilə ifadə etmək olur: məhəbbət, yəni İsa, İsa, yəni məhəbbət!.. Bu o qüvvətdir ki, ona 7 əsr sonra xatəmülənbiya vəlmürsəlin tazə bir ruhaniyyət, tazə bir rövnəq, tazə bir nuraniyyət, ila yövmülqiyamə sönməyəcək bir rövnəq və nuraniyyət verdi...

Məhəbbət nədir? Məhəbbət insanların haqq yolunda biri-birilərini və hər biri cümləyi sevmələridir. İslamın əzəmi-müctəhidindən olan imam Siyuti həzrətləri "İctihad"ın zikr etdiyi vəchlə diyor ki:

"İnsanlara məhəbbət, yeganə və həqiqi "hübbullahdır". ...Bu islamiyyətdə öylə bir həqiqətdir ki, onu qraf Tolstoy cənabları Yasnaya Polyanasında eşitsə, şimdiyə qədər bundan gözəl bir həqiqət kəşf edəmmədiyindən naşi çıldırır, dəli olurdu, zənn edərəm. Hər halda Tolstoyun və əmsalının bu həqiqəti alqışlayacaqlarına şübhə yoxdur... Lakin bəşəriyyət özü 13 əsr, yaxud 20 əsrdən bəri təcəlli edən bu həqiqəti alqışlayırmı?.. Heyhat?..

1907-ci səneyi-miladiyyə yenə bir çox əmsalı kimi al-qanlar içində qürub ediyor!.. Ah! Bu al-qanlar, bu qırmızı qaranlıqlar, bu şeş cəhətdən gələn "terror" alovları!.. Biz heç onlardan bəhs etmək istəməz idik, biz ancaq fikir və xəyalımızı nur, məhəbbət, hüsn, ahəng, nizam aləmlərində gəzdirmək, cahanın hər tərəfində ancaq bunların asarını görmək istərdik. Lakin nə fayda ki, məhəbbət və şəfqətdən bir əsər buraxmayan Stolıpin üsuli-idarəsilə buna müqabil yəs və alam içində hökmfərma olan terrorun nəticələri olaraq qurulan dar ağaclarının, məhbusların, mənfələrin mənzərəyi-kərihələri, dəhşətlə partlayan barıtın, dinamitin sədayi-mənfurları bizi bu növ səfalardan məhrum ediyor.

Biz bu növ hadisələri zikr və tedad etməkdən, qarələrimiz isə oxumaqdan yorulduq, bezdik. Bu gurultular, bu vəhşətlər, bu qanlar artıq əsabımıza, həvasimizə təsir etməz oldu. Lakin nə divani-ülfiəsgəri insanları asıb-kəsməkdən, həbs etməkdən, nə də inqilab terroristləri bomba atmaqdan, "Brauninq" sıxmaqdan yorulub usanmadılar. Rusiya vase bir qətlgaha döndü. İnsanlar məchul mövhum allahlara, bütlərə qurban ediliyorlar. Bu həftə məzkur divan gündə igirmi, otuz adam edam edəcək dərəcədə fəaliyyətini bir qat təzyid etdi. Lakin buna müqabil terror hadisatı da eyni nisbətdə çoxaldı,

təşəddüd etdi. Hər tərəfdən ancaq bomba səsi gəliyor. "Hər gün bomba partlayor" demək azdır. Bir qəzetə mühərririnin dediyi kimi, hər gün bombalar vəhşiyanə rəqs ediyor...

Bu həftə içində Rusiyanın müxtəlif cəhətlərində hər gün kərrat ilə vaqe olan terror hadisələrinin ən mühümlərini zikr etmədən keçəməyiz:

Bu ayın doqquzunda, Tver şəhərində "quberniya zəmindarlıq məclisinin" müzakiratında iştirak edən, şurayi-dövlət əzasından qraf Aleksey Pavloviç İqnatyev ictimaiyun, inqilabiyun firqəsinin göndərdiyi bir cavan adam tərəfindən qətl edildi. Müşarileyh sağ firqələrin ən fəal rəislərindən biri olub mühafizəkarlığı və mazipərəstliyi ilə məşhur bir zat idi. Ayın 15-də Omsk şəhərində Ağ Molla qubernatoru Litvinov küçədə gedərkən qətl olundu.

Bu qətllər hənuz unudulmadan, ayın 22-də Peterburqda bu şəhərin qradonaçalniki, yəni hakimi bulunan Fon Derlaunes vurulub qətl edildi. Vəqə şu yolda cərəyan etmişdir: Peterburqda tibb təcrübəvi müəssisəsi dairəsində əmrazi-cildiyyə, yəni dəri xəstəliklərinə məxsus bir şöbə bina edilmiş idi. Bunun rəsmi-güşadı münasibətilə məzkur dairəyə mülhəq kəlisada ayini-ruhani icra olunuyordu. Burada prins Oldenburqski tərəfindən dəvət edilmiş olan qradonaçalnik dəxi hazır idi. Ayinin xitamında kəlisadan çıxıb havlıya enərkən onun üzərinə bir cavan adam hücum edib bir neçə "Brauninq" gülləsilə vurub qətl etdikdən sonra öz-özünü dəxi vurub intihar edər... Burada şayanidiqqət bir cəhət vardır ki, o da vəqənin İsa məbədi ədd olunan kəlisa ilə Eskulap, yaxud Loğman məbədi olan darültib önündə cərəyan etməsidir. Kəlisa məhəbbət, üxüvvət və səlamət ruh mənşəi, məbəditibb isə şəfqət, insaniyyət və səhhəti-bədən mənbəi olmaq lazım gəlirkən, hər ikisi də zamanımızda hökmdən saqit olub təsirsiz bir hala gəlmişlərdir... Zatən bu anda kənisaların vəzifeyi-əsasiyyeyi-insaniyyətkariyi unutduqları, məkatibin, ələlxüsus məkatibi-aliyənin isə mənbəi-həyəcan və qələyanə döndükləri görülüyor. Üxüvvət və məhəbbətdən guya bir əsər qalmamışdır. Kəlisa önündə insanlar bir-birlərini öldürüyor. Məktəb içində insanlar bir-birini vuruyor. Bu haldan nərə azaddır? Heç bir yer!

Bomba isə əsla ehtiyat və tədbir bilmiyor, keyfincə "rəqs ediyor", istədiyi kibi atılıb-düşüyor, patlayor. Gah görə-görə, gah kor-koranə patlayor. Xarkov şəhərində vağzal, yəni mövqif ortasında patlayıb bigünah səfərçiləri, Kiyev şəhərində otel içində patlayıb bigünah müsafirləri, mehmanları, Varşava şəhərində firuna gətirilən xamur içindən çıxıb biçarə çörəkçini, bilməm nərədə əkin torpağını qüvvət-

ləndirmək üçün gətirilən gübrədən çıxıb fəqir əkinçiyi, Tiflis kibi bir çox şəhərlərin küçələrində, meydanlarında, xanələrində patlayıb heç bir şeydən xəbəri olmayan gəlib-keçənləri, qonşuları tələf ediyor. Fəqət əksəriyyən hədəf olanlar hökumət məmurları oluyorlar...

Bütün bu əhvalın səbəbi nədir, bilirmisiniz? Səbəbi Həzrət İsa ilə Həzrət Məhəmmədin yüzlərcə əsrlərdən bəri bəşəriyyətə təlqin etmək istədikləri məhəbbəti-mütəqabilənin nöqsan və məfqudiyyətidir!.. Rusiyada mühafizəkaran ilə inqilabpərvəranın, cəmaətlə bürokratiyanın, zəngin siniflərlə fəqirlərin, füqərayi-kasibənin arasında məhəbbət qalmamışdır. Sadə Rusiyada və xristian aləmində deyil, müsəlman aləminin bir çox yerlərində də hal və keyfiyyət bu mərkəzdədir. Fas ölkəsində Rəsuli firqəsilə Molla Əbdüləziz tərəfdarlarının və Molla Əbdüləzizə müavinət bəhanəsilə Fasa yerləşmək istəyən avropalıların arasında qətiyyən məhəbbət yoxdur. Məhəbbət olmadığı üçün bu günlərdə gələn teleqrafa görə Arsilada qoşunlar arasında müsadimə gözləniyor. Sinat (Serğat) qəsəbəsi isə topa tutulub yanıyor. Topun və bombaların səsi Təncə şəhərindən eşidiliyormuş...

Məğribi-əqsadə bu münaziənin, bu ədəmi-məhəbbətin əsbabı hənuz layiqilə anlaşılmadığı halda Afrikanın bəri başında, yəni Misir ölkəsində ingilislərlə müsəlmanların arasında başlayan münafirətin, füqdani-məhəbbətin səbəbi bir dərəcəyə qədər aşikardır. Bu da Misir əhalisi arasında hissiyyati-vətənpərvəranə və hürriyyətpərəstanənin oyanmasından ibarətdir. Misir qitəsində "Əl-misr lil-misriyin" tərazi getdikcə əvamünnas arasında tərəqqi etməkdədir. İngilislər əleyhinə olan bu hərəkatın riyasətində "Əlliva" qəzetəsinin sahibi Mustafa Kamal Paşa bulunuyor... "Əlcamiətülmisriyyə" adı ilə milli bir darülfünun bina edib, bu bina üçün 7435 lirə cəm etmələri misirlilərin oyanmasına dəlalət edər...

Misirdən Hindistana keçəcək olursaq, burada hal və keyfiyyətin bir az başqa dürlü olduğunu görürüz. Burada müsəlmanlar bir dərəcəyə qədər bitərəflik göstərdikləri halda bilməks ingilislərlə yerli qeyri müslimlər arasında, ədəmi-məhəbbətin, xüsumətin gündən-günə kəsbi-şiddət etdiyi görülüyor. Budda və Brəhmən məzhəbində olan hindular əhvali-ictimaiyyə, siyasiyyə və milliyyələrini islah üçün Kəlküttə şəhərində böyük bir konqre tərtib edib ingilis ziddinə olan əfkar və hissiyyatlarını aşikar bir surətdə bəyan etməkdədirlər. Bu da öz tərəqqiləri ilə yapon mədəniyyəti təsirinin nəticəsi olsa gərəkdir. Bu hərəkətin Mustafa Kamil Paşası Nabxayi Nauruci adlı bir hindu olub konqredə ingilis əleyhinə qayət atəşin nitqlər irad etmişdir...

Hindin qeyri-müslimləri hürriyyət və tərəqqiyə doğru böylə addımlar atmaqda ikən hər nədənsə bu aralıq Hindin 70 milyon nüfusdan ibarət müsəlmanları qonşularının xilafına olaraq ingilislərə münafirət deyil, bir meyil və məhəbbət göstərmək istiyorlar... Bu niyyətlə benqalalıların Kəlküttədəki konqrelərinə qarşı Hindustanın böyük mərkəzlərindən birində, ehtimal Loknau şəhərində bir müsəlman konqresi tərtib etmək üzrədirlər. Görünüyor ki, bu qitədə də dəxi ixtilaf və ədəmi-məhəbbət hökmfərmadır. Ancaq bu ədəmi-məhəbbət ingilislə müsəlman arasında olmayıb, "müsəlmanla məcus" və "məcus ilə ingilis" arasındadır...

Dağınıq və pərakəndə olan müsəlmanların halı ötədə-bəridə bu yolda ikən bu xalqın rəisi-mənəvisi ədd olunan zat, əcəba nə ilə məşğuldur? Bunu bilmək istəyən "Molla Nəsrəddin" məcmuəsində Fas səltənətinin halını təsvir edən bir rəsmə müraciət edə bilir... Lakin orada təbəssümdən başqa bir şey görməzsiniz. Halbuki müşarileyhin iştiğalatı çoxdur: tərəqqipərvəranə və ələlümum əhaliyə nəfəs aldırmıyor, almanlara tənəffüs üçün bol-bol imtiyaz məhəlləri göstəriyor. Məclisi-məbusanın qapılarına yeni-yeni kilidlər vuruyor və təxti-səltənəti də haqqı olmayan, fəqət bürokratlara bir çox haq verəcək olan bir növcavan üçün hazırlamağa çalışıyor... Hər halda bu qədər məşğuliyyətilə bərabər bütün məmləkətində cəmaətlə hökuməti yekdigərinə bağlayacaq bir rabiteyi-məhəbbət məfquddur...

Yuxarıdan bəri məqaləmizdə bir məhəbbət, bir rabiteyi-məhəbbət kəlməsi gediyor. Əcəba insanlar arasında istər Rusiyada, istər Avropada, istər məmaliki-islamiyyədə İsa və Məhəmmədin arzu və tələb etdikləri bu məhəbbəti nə ilə və nə vasitə ilə təmin etmək olur?.. O vasitəni bəşəriyyət kəşf edə bilmişmidir? Şübhəsiz etmişdir. O nədir?.. Hürriyyət və ədaləti-kamilə!..

Bunu Ərdəbil şəhərinin "nemət"ləri ilə "heydəri"ləri hənuz anlamayıb yekdigərlərinə qarşı bimənə və cahilanə bir ədavət bağlamaqda davam edirlərsə də, lakin məəlməmnuniyyə ələlümum İran hökumətilə əhalisi anlamışdır. Anladıqları üçün hürriyyət və ədalətin müqəddəs yollarını təmin üçün məclisi-milliyi-güşad etdilər. Bu son günlərdə Tehrandan gələn teleqraflar olduqca təsəllibəxşadır. Vaqiən şah həzrətlərinin xəstəlikləri davam ediyor. Məmafiə şah, vəliəhdi Məhəmmədəli Mirzə ilə bərabər qanuni-əsasiyi surəti-qətiyyədə imzaladılar. Bu münasibətlə Tehranda fişəngbazlıq və çiraqbanlıq oldu. Bundan başqa vəliəhd həzrətləri məclisi-milliyi iki sənə qədər tətil etməyəcəyini qətiyyən təəhhüd edib, o yolda bir əhdnaməyə

vəz-imza etmişdir. Ancaq bu müddət keçdikdən sonra məclisin tənzim etdiyi qanun layihəsi senat tərəfindən iki dəfə rədd olunursa, şah məbusları təbdil üçün məclisi dağıda bilir. Doğrusu, əvvəlcə haqqında dövran edən şayiələrə rəğmən İran vəliəhdi qanuni-əsasi və islahati-cədidəyə tərəfdar olub bu xüsusdakı əfkarını məbuslara söylədiyi bir nitqdə izhar etdi. Şimdiyə qədər məclisi-milli əzasının mücahidəsilə bir xeyli nafe nizam və qanunlar vücuda gəldi. Bu nizamata görə məclisi-məbusan xozineyi-maliyyəyə kontrol haqqına malik oluyor. Məclisi-məbusanın müsaidəsi olmaqsızın dövlət nə bir tərəfdən aqça istiqraz edə bilir, nə də dəmir yol təmdidi üçün kimsəyə bir imtiyaz verə bilir. Heyəti-vüzəra məsul tutuluyor, irad edilən suallara cavab verməyə məcburdurlar. Məclisin bilavasitə şaha ərizə təqdim etməyə haqqı vardır. Bir də məbusların yəminə sədaqətləri hökumətin qanuni-əsasiyə riayətinə qədərdir...

İran qanuni-əsasisi heyəti-ümumiyyəsi etibarilə ehtimal Belçika qanuni-əsasinə şəbəh olacaq. Məclisi-məbusan 162 əzadən ibarət bulunacaqdır. Məclisi-millinin məmnun olmadığı bir məsələ varsa da, o da hökumətin, məclisi-məbusandan başqa bir də məclisi-əyan namilə bir ikinci məclis təsis etmək istəməsidir. Məzkur məclis bir rəvayətə görə guya nisfi intixabat ilə, nisfi də şah tərəfindən təyin olunan əzadan mürəkkəb bulunacaqmış...

Hər nə hal isə İranda hürriyyət və ədalətə doğru böyük təşəbbüslər görünüyor ki, etiqadımızca bəni-növ bəşər arasında da ahəng və məhəbbəti təmin edəcək vasitələr başlıca bu iki nemətdən ibarətdir.

Fəxri-kainat əfəndimiz buyurmuşdur ki, zəlaləti-küfrdə bulunan bir məmləkət ədl ilə baqi qalacağı kibi, ədl olmayan bir ölkə islam namını hamil olsa da bəqapəzir olamaz...

Ədl olursa hürriyyət də olur, hürriyyət olursa məhəbbət və məvəddət də olur. Həzrəti-İsanın da, Həzrəti-Məhəmmədin də şər və qanunları bu həqiqətə müncərdir...

İşdə yeni mücahidini-ictimaiyyətimizin də məqsudu bu həqiqətdir. Hətta bu axır zamanda zühur edən bizim balaca Mehdinin böyük təkamülü də bu həqiqəti təlqinə çalışmaqdadır. İnşallah müvəffəq olur...

"Füyuzat", 1906, №6

MƏCNUN VƏ LEYLAYİ-İSLAM

Təcənnümə müstəid bəzi əsəbiyül-məzac insanlar fikirlərini müəyyən bir maddəyə həsr edə-edə nəhayət şüurlarına xiffət gəlib bir növ cənnətə mübtəla olurlar ki, o cənnətə lisani-tibdə "cənnəti-vahidə" təbir olunur. Bən İstanbulda iken rüfəqamdan bir türk təbibi bu cənnəti-vahidə mərəzi-əqlisinə mübtəla oldu. Düçar olduğu mərəzin əlamətləri daha məktəbdə iken sezilmiş olmalı ki, yoldaşları ona "islam hakimi" ləqəbini vermişlərdi. İslam hakiminin mərəzi-əqlisi bilaxərə tamamilə təhəqqüq edincə onu Üsküdar tərəfində Toptaşı məhəllində kain timarxanəyə yatırdılar. "Timarxanə" bimarxanə kəlməsindən qələt olub İstanbulda darülşəfayə, yəni məcənin xəstəxanasinə deyərlər. Biçarənin cənnəti-vahidəsi əlami-islamın dərdini kəşf etmək olmuş idi. Məzkur xəstəxanədə islam hakimini Osmanlı məcanin ətibbasından məşhur Helmi bəy təداvi ediyordu. Helmi bəy məsləkdaşının şəfayab olması üçün əlindən gəldiyi qədər qeyrət etdisə də lakin müvəffəq olamadı, islam hakimi günün birində vəfat etdi. Zənn ediyoram şimdi Qaraca Əhməd məzarıstanında mədfundur...

* * *

Vaqionin üzərindən bir neçə ay keçdi. Bir gün bənim nəzdimə bir qadın gəldi. Bu qadın islam hakiminin validəsi idi. Qəltuğunda bir məndil içində bir yığın kağızlar gətirmiş idi. Qadıncığaz dedi ki, bu övraqı mərhum oğlum yazmış idi. Bən yazmaq, oxumaq bilmiyoram... Zənnimcə hakimliyə dair olmalı, bəlkə içində istifadəli bir şeylər olur deyə sənə gətirdim. Oğlumdan bir yadigar olsun. Qadına təşəkkür edib gətirdiyi töhfəyi aldım, mütalioyə başladım. Təəssüf ediyoram ki, bir gün "Yıldız" xəfiyyələri gəlib bütün övrağımı zəbt etdikləri üçün islam hakiminin yazdıqları şeylər də o miyanda qayib olub getdi. Bunların arasında qayət şayani-diqqət bir məqalə var idi. Xatirimdə qaldığı kibi əzbər yazıb qarələrimə təqdim ediyoram.

Ancaq bunun bir dəli xəyalının məhsulu olduğunu unutmamalıdır.

* * *

İslam hakimi yazmış idi ki:

"Bir axşam evdə kimsə yox idi, mən də tənha odamda oturub siğara içiyordum... Şəms qürub etdi. Ortalıq yavaş-yavaş qaraldı.

Bən dərin-dərin əfkarə dalmış idim, lakin nə fikir etdiyimi, nə düşündüyümü xatırlamıyoram. Ancaq yadımdadır ki, fikrim nə yerdə idi, nə də göydə... Fikrim bənim bir ədəmabadda gəzib dolaşıyordu, gahgah o ədəmabadın uçurumlarına düşüyor, müdhiş girdablarına tutulub dərinliklərinə doğru enıyordu. Orada çapalıyordı. Xilas olmağa çalışıyordu. Girdablarla, uçurumlarla mübarizədən, mübarizeyi-fikriyyədən o qədər yoruldum ki, nəhayət bitab səndəliyəmin üzərinə düşüb bir cismi-camid kibi hər növ hərəkətdən məhrum oldum. Gözlərim odamın bir nöqtəsinə dikilib o nöqtədən ayrılamıyordu. İbtida qaranlığa qarışan cıqaramın dumanlarından başqa bir şey görəmiyordum. Nagah qaranlığın, dumanın içində yaşıl rəngli bir şərarə peyda oldu. Şərarə getdikcə nurlandı, nur getdikcə böyüdü, nəhayət, odamı tərifi-naqabil, qayət gözəl, yaşıl rəngli, zümrüdin bir işıq imla etdi. Işığın bana bəxş etdiyi zövqi-ruhani ilə bir müddət bihuş oldum. Sonra ayılub ətrafa diqqət edincə gördüm ki, qarşımda o nurlara bürünmüş qayət hüsna bir qız duruyor.

Qızın əlbisəsi pək qərib idi; başında osmanlı bayrağına bənzər, ay-yıldızla müzəyyən bir qırmızı örtü var idi. Geyindiyi ruba isə yaşıl olub köksündə sıyırma ilə işlənmə bir şiri-xurşid əlaməti görünüyordu. Belinə bağladığı Lahor, ya Kəşmir şalı ayaqlarına qədər enıyordu... Dedim kimsiniz? Buraya nə üçün gəldiniz? Dedi ki, bən islaməm, dərdimə, xəstəliyimə dərman aramaq üçün buraya gəldim... haziq bir təbib olduğunuzu bana xəbər verdilər... Xəstəligimi təşxis edib bana müdavat ediniz!..

B ə n. Nə qərib sözlər! Heç islam xəstə olurmu? İslam hər növ şaibədən, qüsurdan, xəstəlikdən, əsqam və iləldən mübərra deyilmi?

Q ı z. Məni anlamadınız, bən İslam dini deyiləm, bən islamisiyasi, daha doğrusu, islami-coğrafiyəm. İslam dininin burada, İstanbulda nə işi var? Onun bulunub ayrılmadığı yerlər Məkkə, Mədinə, Nəcəf, Kərbəla, Məşhəddir...

B ə n. Bu ayrı mətləb... həqiqətən islami-coğrafi xəstə ola bilir, nasıl ki, xəstədir də! Mən bunu çoxdan eşitmişdim. Bu gün o xəstəliyi tədqiqə fürsət bulduğuma çox məmnun oldum. Buyurunuz, oturunuz, sızı başdan-ayağa qədər müayinə edəyim.

İslamı bir kanapa üzərinə oturtdum. Çöhrəsi pək soluq idi, göz qapaqlarının iç təbəqəsinə diqqət etdim. Əmiq bir fəqrüd dəmə dəlalət ediyordu. Lisanına baxdım. Suyi-həzm əlaməti aşkar idi. Lakın ən maraq etdiyim üzv dimaq olduğundan ibtida bu üzvün

müayinəsindən başladım. Bunun üçün kəhhali-şəhir Əsəd bəyin çeşmbin alətinə müraciət etdim. Bən bunu Helmqolçun və sairənin çeşmbinlərinə tərcih edərəm. Çünki öz türk təbibimizin ixtirakordəsidir. Zaten avropalıların da ən ziyadə istemal etdikləri çeşmbin oftalmoskopi Əsəd bəydir. İşte bu çeşmbin ilə islamın qəri-eynini və oradan da əsəbi-bəsəri təriqilə əhvali-mərrəziyeyi-dimağını müayinə etdim. İbtida Avropa müşərrihlərinin (yəni elmi-təşrihibəşər üləmasının) əhəmm bir xətasını təshihə məcburam. Cümcümə denilən baş kasası üzamının qaidəsində tam ortada bir yer var ki, ona avropalılar "Sərci-türki" (*sella turcica*) yəni "türk əgəri" derlər. Halbuki islamın beynini çeşmbin ilə müayinə edərkən bunun "türk əgri" olmayub, "türk taxtı" olduğunu kəşf etdim. Taxt qayət müsənnə və mürəssə idi. Xəlifeyi – "Vərdi" bulunan sultan kəndisi də üzərində oturuyordu. Ruh dimağın mərkəzində bulunmaq icab etdigindən anladım ki müşahidə etməkdə olduğum zat bədəni-islamın ruhudur.

Əhvali-ruhiyyə ilə əhvali-cismaniyə yekdigərinə tabedirlər. Ruh əsab vasitəsilə bədənə hökm edər və hər tərəfdən məlumat alır, bədən də şərayin və qan vasitəsilə ruhu bəslər. Bədən xəstələnirsə, ruhu müztərib edər. Ruhun bulunduğu dəmağ xəstələnirsə, bədənin hər tərəfində bir hərcü mərc peyda olur. Binaənəleyh təxti-Türkiyə rast gələn üzvi gözəlcə tədqiq etmək lazımdır. Sultan pək rahətsiz olub, böyük bir təlaş içində idi. Vaqiən ətrafına şərayin vasitəsilə qan selinin isal etdiyi lira və məcidiyyə şəklində bir xeyli kərbüvatidəməviyyeyi-həmra və beyza cəm olunmuş idi. Ancaq bunlar "aorta" vasitəsilə əsla bədənə övdət edəməyib Sultanın ətrafına yığılmış bir sürü kazib curnallar tənzim edən xəfiyyə həşəratı, baxüsus Əbu əl-hüdalar, Ərəb-İzzətlər, Təhsin paşalar tərəfindən bəl olunuyordu, qalan qismini də bankirləri ilə qonsesyonçuları torba-torba daşıyıb götürüyorlardı. Bunların içində ən böyük rol oynayanlar almanlar idi... Sultan əsab vasitəsilə nə bir tərəfə hökm edə biliyordu, nə də bir tərəfdən məlumati-səhihəyə dəstrəs oluyordu. Burada doğru həvadis verən, ələlxüsus xaricdən gələn qəzetələrin, məcmuələrin, kitabların heç biri görünmüyordu, dəmağın uzaq bir guşəsində cümləsi bürokratlar tərəfindən chraq ediliyordu.

Sultanın hökmü də heç bir tərəfə yetişəmiyordu, çünki onun ətrafına cəm olan əcaib və qəraib bir tağım məxluqat bütün türüqiəsəbiyyeəyi sədd etmişlər idi. Bunları tədqiq edəlim: ön səfdə, sağ

tərəfdə duranlar vüzəra və vükəla ünvanını haiz olub əksəri atil, cahil, rüşvətxor vətən xainlərindən ibarət idi. Bunlardan səs-səda çıxmıyordu. Bağırıb çağıranlar, atılıb düşənlər, hətta rəqs edənlər, sol tərəfdə düvəli-əcnəbiyənin səfirləri ilə konsulları idi. Sultanı ən ziyadə rahətsiz edən də bunlar idi. Bunlar gah birər-birər, ağır-ağır tələbatda bulunuyorlar, gah şədidülmal müştərək notalarla təhdid ediyorlar idi. Millətin mənafeyi diyordu ki, gömrük rüsumatını təzyid edəlim. Bunlar bağırıyorlardı: Olmaz! Millətin mənafeyi diyordu ki, əcnəbi postalarını, qapitolasyon üsulunu ləğv edəlim. Bunlar bağırıyorlardı ki: Bu heç olmaz!.. Sultan iztirab içində ətrafına baxıyor, bunlara cavab verəcək, bunlara hədlərini bildirəcək, bunlara qarşı millətin haqqını müdafiə edəcək adam arayordu. Lakin kimsə bulamıyordu. Vüzəra və vükəlayə, bürokratlara tərəfi-nəzər ediyordu. Bunlardan səs çıxmıyordu, çünki, düvəli-əcnəbiyyədən təxsisatları var idi... Həqiqətən millətin mənafeyi və hüququnu müdafiə edəcək ortada bir kimsə yox idi... Çeşmbin aləti ilə dimağın uzaq nöqtələrini tədqiqə başladım... Bir çox məhbəslər, mənfalər, qürbətlər gördüm. Burada hədsiz-hesabsız adamlar inliyor, ah və vah ediyor idi. Əksəri "Məşrutiyyət! Qanuni-əsasi" – deyə fəryad ediyordu. Bunlar miyanında Səid bəyləri, Ziya Mollaları, İsmayıl Səfaları, Əbüzziya Tofiqləri, İsmayıl Kamalları, Səzailəri, Əhməd Rzaları, Übeydullaları gördüm. Həsrətkeş bulunduqları qanunun vazeləri, fədakarları Midhətlər, Süavilər "Şirpənceyi" – istibdad ilə şəhid edilmiş idi. Məşrutiyyətə, məclisi-məbusanə gəlincə, "Yellər əsiyor o yerdə", yaxud... "daşlar duruyor onun yerində!" Mənfalərin, məhbəslərin xaricində Amerikanın, Avropanın, ələlxüsus fransızların xristian missionerlərini gördüm ki, kəmali-hürriyyətlə icrai-ehkam edərək rumları, ermənilər və ələlümum xristianları qiyama təşviq ediyorlar idi. Təxti-türkinin qərbində bir kaç müqtədir və kamil adamlar var idi, lakin ağızlarına o qədər qızıl, altun doldurulmuş idi ki, səsləri çıxmıyordu. Çeşmbini təxtin arxa tərəfinə tövcih etdim. Burada bir sürü qadınlar gördüm ki, əsarət barı altında inliyor idi. Onların mühafizi olan siyah çobanlar isə özləri dəxi əsarətin ən mənfur, ən çirkin pəncəsinə giriftar olub, qanlı əməliyyatlarla rəcüliyyətdən məhrum edilmişlər idi... Ən ziyadə bu nöqtəyə təəccüb etdim. Anlamıyordum ki, küreyi-ərzin hər tərəfində, hətta Türkiyənin özündə əsirçilik ləğv edilmiş olduğu halda bu xadim ağalarını nərədən tədarük ediyorlardı. Əgər bunlar tənasül təriqilə əvvəlki

xadimlərdən vücuda gəliyorsa, bu mümkün degil idi, çünki dediyim vəchlə bunlar rəcüliyyətdən məhrumdurlar... Anlayordum ki, burada islamiyyət və məsturiyyəti-nisvaniyə naminə taqəti-bəşəriyyə fövqündə bir zülmi-cansuz, bir cinayəti-müdhişə xəfiyyən icra ediliyor!.. Bu qadınların, bu xadimlərin, bu xəfiyyələrin, bu elçilərin, bu əcnəbi mültəzimlərinin qiylü qallarından, bağırıb-çığırmalarından dəmağda bir vəlvələyi-sameə-xəraş gurluyordu... Buna artıq təhəmmül edəməyib, Əsəd bəyin çeşmbinini bir tərəfə fırlatdım. İslama sordum ki:

– Əfəndim, başınızda bir şey hiss etmiyorsunuz?

İslam. Əvət, başım çox ağrıyor, donuyor, qulaqlarım uğuldiyor... Gecələri əsla uyuyamıyoram... anladım ki, xəstəm əlaimi-mərəziyyədən südaə və səhərə mübtəladır.

İslam. Nə anladınız, xəstəliyimi təşxis edə bildinizmi?

Bən. Bu xüsusda bir hökm verə bilmək üçün bədəninizin sairə əcəzə və əzalarını dəxi müayinə etmək lazımdır. Ancaq şimdilik şunu anlaya bildim ki, beyniniz, dimağınız müzmin və münnid bir südai-istibdad və əsarətə mübtəladır!..

* * *

Bu mükalimədən sonra islamın köksünü "qər" və "isğa" etdim. Şirü xurşid əlamətinin fövqündə bir az solda kəlmeyi-şəhadət yazılı idi. Burası nahiyəyi-qəlb idi. Dedim ki, xanım əfəndi, qəlbinizin burada bulunduğunu bilirmisiniz, dedi ki, göstərdiyiniz yer hərəmeyni-şərifeynin bulunduğu Hicaz və Ərəbistan qitəsidir. Anladım ki, islamın təşrih topoqrafiyasında qəlbə Ərəbistan deyilir ki, onun üqdi-əsəbiyyəsi də Kəbeyi-şərifə ilə rövzeyi-mütəhhərədir. Əmrazi-daxiliyyə müəllimi Feyzi paşanın vaxtilə bizə öyrətmiş olduğu vəchlə sol əlimi sədri-islamın sol cəhətinə tətbiq edib sağ əlimin işarət və orta barmağı ilə nahiyeyi-qəlbiyəni kəmali-diqqətlə qər etdim, fəqət bu əməliyyatın nəticəsində fövqəladə bir heyrətə düçar oldum: islamın qəlbi kiçilmiş, zümur peyda etmiş idi. Turi-sina və Süveyş kanalı civarında olan Əqəbədən başlayıb Babülməndəb və Ümmandən keçərək, Bəsrə körfəzindəki Bəhreyin adaları ilə Küveytə qədər qəlbi-islamın, yəni Ərəbistanın bütün mühiti məfqud idi. Ətrafında əsmiyyəti-qəlbiyə yerinə qər ilə sədayi-cövhi hasil oluyordu. Bu hal, ələlxüsus Ədən şəhri civarında vazeh idi. Aşkar idi ki, qəlbi-islam bir "zümuri-mütərəqqi"yə düçardır. Bunun səbəbini anlamaq lazım

idi. Zehnimdə zümura bais ola biləcək bütün mikrobları yoxlamağa çalışdım. Xatirimə ingilis mikrobları gəldi. Lakin bu mikroblar qəlbi-islamə nə surətlə tari ola bilmişlər? Bunu dərk edə bilmək üçün firənglərin "stetoskop" və bizim "müsəmme" dedigimiz aləti-isğayə müraciət etdim. Müsəmmein bir ucunu islamın nahiyeyi-qəlbiyəsinə, bir ucunu da öz qulağıma tətbiq edib "zəiran" və "ğəmağəm"i-qəlbiyyəni istima etməyə çalışdım! Heyrət! Salim qəlblərin zərbanından hasil olan əsvati-təbiyyeyi-müntəzəmədən nə "tıq" və nə də "taq" eşidilmiyordu.

Əsvati-təbiyyədən baqi qalan ancaq Zəmzəmin zümzüməsi ilə hüccacın vəlvələsi idi. Fəqət "tıq" yerinə bir "tənini-mədəni" və "taq" yerinə də bir "zəiri-nəfxi" eşidiliyordu ki, bu səvtlərin hər ikisi də qayət əhəmiyyətli əlaimi-mərəziyədən məduddur. Müsəmme vasitəsilə tənin-mədəninin səbəbini anlamaq olmuyordu. Fəqət "zəiri-nəfxi" gözəl təhlil oluna biliyordu. Nəfxə, qeyri-müntəzəm və daimi bir gurultu ilə bir də mütəqate bir fısıltıdan ibarət idi. Əvvəla bu fısıltı marağımı cəlb etdi. İyicə diqqət edincə bunun şərifin xanəsində iki kişi arasında cərəyan edən bir mükalimədən ibarət olduğunu sezdim. Mükalimə edənlərin biri ümməradan olub əmrlər veriyor, biri də bədəvi bir ərəb olub "baş üstünə, baş üstünə" diyordi.

Amir diyordi ki:

– Əlimizə böyük bir fürsət keçiyor, Yənbu təriqilə Mədinəyə Rusiyadan qayət zəngin hacılar gəlməkdədir. Rəfaqətlərində türk əsgəri bulunmayacağını xəbər aldım... Dağ keçidində keçidin adını eşidəmədim, bunları mühasirə edib cümləsini qətl ilə paralarını, əmval və əşyalarını zəbt etməlisiniz... Bu işi mümkün mərtəbə sürətlə yapınız...

Burada qulağımı müsəmmein üzərinə ziyadə tətbiq etdim, anlamaq istiyordum ki, bu əmri verən şərifin özümü idi, yoxsa övnəsindən birimi idi. Nə faidə ki, müsəmme çeşmbin qədər mükəmməl olmadığından burası mənə məchul qaldı... Zeyri-nəfxini tərtib edən gurultulara gəlincə bunlar Ərəbistanda, Yəməndə, ələlxüsus Səna cəhətlərində Türkiyəyə qarşı üsyan edən bədəvilərlə şeyxlərinin bağırıb-çağırmalarından və bunlarla sıcaq qum çöllərində ac və susuz müharibə edərək bihudə yerə tələf olan osmanlı əsgərlərinin ah və ənininden hasil oluyordu. Bu üsyanın, bu ixtilalın başlıca səbəbi qəlbi-dimağə rəbt edən "əsəbi-müştərəki-kəbir" yollarının düçarifəlc olması idi. Dəmağ hərəkati-qəlbiyəni tənzim və idarə edə-

miyordu. Qəlb ilə dəmağın əlaqəsi müxtəl olduğundan Hicaz və Yəməndə bulunan bürokratlar biçarə bədəviləri öz keflərincə soyub yeyirlərdi. Ərəblər buna artıq təhəmmül edəməyib ardı-arxası kəsilməyən şurişlər, ixtilallar çıxarıyorlardı... Bu haldan ingilis mikrobları külliyyətlə istifadə edərək nahiyeyi-qəlbi tədricən istila eyliyorlar idi... Mikroblara qarşı məzaddi-əfən olaraq kafi miqdarda nə ədalət, nə barıt və nə axça var idi. Vaqion istima etdiyim tənini-mədəni ortada bir axça taqqırdısına dəlalət edər kibi idi. Ancaq bu taqqırtı əsnai-isğadə çox da vazeh olmadığından bunun mahiyyətini anlamaq üçün yeni kəşf olunan rentgen şüaətinə müraciət etdim. Məlumdur ki, bu şüai-xariqüladə vasitəsilə əxşayi-daxiliyyənin və əxşada peyda olan zayeat və tənəbbütati-mərəziyyənin rəsmini fotoqrafla almaq mümkün oluyor. İslamı rentgen cihazının qarşısına oturdub qəfəsi-sədri daxilindəki, əxşanın, yəni qəlb ilə riyəteynin fotoqrafını aldım...

Fotoqrafa diqqət etdim... Xəstəm qorxur deyə fotoqrafı ona göstərmədim. Orada qayət qorxunc bir lövhə var idi. Bir tərəfdə "həmçu əjdərha kuşadə-səd dəhan" yüzbaşlı yılana bənzər uzun vücudlu mühib bir heyvan rəsmi görünüyordu. Bu qəfəsi-sədrin sağına rast gələn şəryani-şizən, qəsəbati-hüveysilatdan ibarət rəyiyəminin, yəni ağ ciyərin sağ parçasının rəsmi idi ki, şirü xurşidin taxtına isabət ediyordu. Burası İran ölkəsi demək olduğundan mütaliəsini atiyə buraxıyoram. Burada tənini-mədəniyə dəlalət edər bir şey görünmüyordu. Lakin əjdərhanın solunda bir rəsm var idi ki, bu rəsmdə dəvərani-dəmin intizamına xidmət etməsi lazım gələn qəlbini iki üzeyn, (Yənbu və Ciddə) ilə iki bəteyn, (Məkkə və Mədinə)dən ibarət dörd cövfi və bütün bədəndən qanı qəlbə isal edən "vərid"lərlə, buradan təkrar onu bədənin hər tərəfinə sövq edən şərəyanlar aşikar görünüyordu. Dövran və cövlani-dəmlə tərəfdən gələn hücum axın-axın bətinlərə daxil olaraq Kəbə və rövzeyi-mütəhhəreyi-dili təvaf etdikdən sonra yenə yerlərinə övdət ediyorlardı. Əcəba bunlar zülali-Zəmzəmlə qidayi-ruh və bədən olan məarifi-islamiyyəni buradan hər tərəfə isal ediyorlarmı idi?.. Heyhat!.. Qahirədə, Nəcəfdə, Kərbəlada pərişan bir halda olsa da heç olmazsa mövcud olan mədaris və darülfünuni-islamiyədən buralarda, hökimi-dilagah Murad bəyin vaxtı ilə etdiyi dadü fəryadlara rəğmən, nə bir nişanə, nə də bir əsər var idi...

Bəteynlərin qürbündə bir lövhə görünüyordu ki, "tənini-mədəni"-nin nədən nəşət etdiyini mükəmmələn göstəriyordu; ingilis şapkalı

bir hərif bacağı-bacağının üzərində bir sandaliyə üzərində oturmuş idi. Bunun ətrafında başları çalmalı bir çox ərəb şeyxləri yerdə bardaş qurmuşlardı. İngilis əlindəki böyük bir torbadan ovuc-ovuc ingilis lirələri çıxarıb bu şeyxlərin qarşısına atıyordu ki, tənini-mədəni də bu lirələrin yerə çarpmasından hasil oluyordu... Əsasən Ərəbistanın üsyan gurultularına bir cəhətlə bais olan da yenə bu lirələr idi... İslamə sordum ki, sol böyrünüzdə nə hiss ediyorsunuz, dedi ki:

– Ürəyimdə hər vəqt bir çırpıntı var. Ara-sıra guya içəridən qaburğalarımın həzasından bir xəncər saplanıyor kibi bir taqım ağrılar duyuram. Əcəba, məndə də "mərəzi-üzviyyeyi-qəlb" dedikləri xəstəlikmi var?

B ə n (*xəstəyə təsəlli üçün*). Xeyr, əfəndim, əhəmiyyətsiz bir şeydir, dəmağınız düzəlirsə, qəlbinizdəki alam və övca da keçər gedər...

Hər halda bütün əzanız başdan-başa müayinə edilmədikcə təşxisi-mərəzə dair əsasən bir hökm veriləməz, şimdi şu səndaliyə üzərinə oturunuz da ciyərlərinizi mütaliə edəyim...

Ancaq şirü-xurşidi çıxarınız, çünki istima və isğayə mane oluyor.

İslam şirü-xurşidi çıxarub bir tərəfə ataraq köksünü açdı... Şu dilbəri-simintənin yasəmindən bəyaz, nəsrindən lətif olan köksü o qədər gözəl, o qədər rəna idi ki, təbib olacaq yerdə şair buluna idim, mütləq o sinəni, bunca şüəra və üdəba bəsləmiş olan o sinəyi nəzmən tərifə məcbur olurdum. Lakin təbiblər ələlümum lətafəti-zahiriyyədən ziyadə səlaməti-batiniyyəyə diqqət edərlər... Əsnayi-isğada duyduğum zəiraati-tənəffüsiyyədən xuraxuri-səfiriyyə, qətitə və təhti-fərqəiyyeyi tərifdən əvvəl, rentgen şüası ilə aldığım fotoqrafdakı yüzbaşlı əjdərhanın rəsminə dair bir az izahat verəyim: qəribədir, islam sinəsi üzərində şirü xurşid əlamətini hamil bulunduğu halda dəruni-sinədə nə arslan və nə də günəşdən bir nişanə görünmiyordi. Bunların yerində zürrüusi-kəsirə bir əjdərha ilə, bir də bunun ağızlarından fəvvarən edən bir atəş nümayan oluyordu.

Bu əjdərhanın, türuqi-tənəfüssiyyədən şəriyani-şiddətlə şüəbatı bulunan qəsəbatın istihaleyi-mərəziyyəsindən hasil olması möhtəməldir. Avropa kütübi-tibbiyyəsində qəsəbatür-riənin bu yolda bir istihaləyə uğramasına və ya uğramaq imkanına dair əsla məlumat verilmiyor. Hətta qeysərilər paytaxtı qədim Romada yetişən latın şüərasından məşhur Ovidin "Metamarfoza", yəni "İstehalat" ünvanlı əsəri-güzidəsində belə bunun əmsalına rast gəlmədim. Vaqiən bu

kitabda insanların mar və əjdərhalara təhəvvül etdikləri hekayə olunuyor. Lakin insan ciyərlərini bittəğyür əjdərhayə döndüyünə dair hərfi vahid belə yoxdur. Tibb kitablarında olan belə qüsurun başlıca səbəbi latın və Avropayi-cədid üləmasının İranın təbabətindən, tarixi-təbabətindən qafil və bixəbər bulunmalarıdır. İran tarixinə aşina olanlara məlumdur ki, hökuməti-müstəbidənin timsali-mücəssəmi olan Zöhhakın hinduca "Azidahakanın" umuzlarında iki əjdərha peyda olmuş idi. Ətibbaye-qədimeyi-İran əməliyyati-cərrahiyyə ilə bu əjdərhaları dəfaat ilə kəsib atmışlar idisə də fəqət yenə mərəzi-istibdada çarəsaz olamamışlar idi.

Rəvayətə görə guya bu dərdin öhdəsindən Gaveyi-ahəngər gələ bilmiş idi. Lakin bu rəvayət doğru deyildir. Çünki Gavə ancaq Zöhhaki-zalimin qətli ilə iktifa edərək kəndisindən əvvəl əttibanın kəsib atdıqları əjdərha başlarını yığıb ehraqi-binnar, yaxud bir surətlə məhv və nabud etməyi unutmuşdur. Halbuki, əttibayi-İran böyük bir ehtiyatsızlıqda bulunub bu başları kəsdikcə torpağa gömərək məvadi məzadi-üfuniyyə heç istemal etmiyorlardı. İşdə mürur zamanla yüzlərcə olan bu əjdərha başları birləşib islamın ciyərindəki məcariyi-tənəffüsiyyənin, yəni qəsəbat və həvisilatın çoxunu sədd etmişlərdi.

Rentgen şüası ilə aldığım fotoqraf bunu mükəmmələn isbat ediyor. Bundan anlaşılır ki, Türkiyə istibdadı birbaşlı olduğu halda, İran istibdadı yüzbaşlıdır. Türkiyədə bir müstəbid olub, onun hökmü-mütləqi də İstanbuldakı Yıldız sarayından südur edir. İranda isə hökumət surətən Tehrana məxsus ikən həqiqət halda hər bir şəhərin, hər bir vilayətin valisi xalqın başına bir hakimi-mütləq kəsilir. Bunların maaşları Tehrandan gəlməyir. Bunlar müstəqillən əhalidən "vergi" namı ilə soyub qopardıqları varidat ilə keçinirlər. Türkiyədə dərəbəyliyin kökü çoxdan qazılmış olub, aristokratiya deyilən nücəba və zadəgan güruhu yoxdur: burada nə bəy və nə də xan var. İranda isə hər başını qaldıran qolayılığla bəy, xan və hətta prins olur.

Rusiyada 1864-cü sənəyi-miladiyyədə kənd əhli mülkədarların əsarətindən xilas edildikləri halda İranda olan kəndlər cəmaətləri ilə bərabər mülkədarlarının malı, qulu, əsiridirlər. Əjdərhayi-istibdadın başları sadə bunlardan ibarət deyildir. Türkiyədə xan, mərsiyəxan və müctəhid sinfi olmadığı kimi, mollaların, xacələrin, seyyidlərin də əhali üzərində əslən bir nüfuzları yoxdur. İranda isə bürokratiyadan başqa bir də ayrı-ayrı molla, müctəhid, seyyid və s. hökumətləri vardır ki, bunlar çox kərrə kamali-müvəffəqiyyətlə bürokratiya hökumətinə,

daha doğrusu, hökumətlərinə qarşı dururlar!.. Bu növ hökumətitaliyyənin İran üçün ən təhlükəlisi seyyid və molla hökumətidir. Osmanlı türkləri ələlümum qədimdən bəri tutduqları din və məzhəbdən ayrılmadıqları halda, İran mollaları iki də, bir də yeni məzhəblər ixtiraına qalxışaraq molla hökumətinin dəxi təəddüdünə çalışırlar... Mollaların böylə yeni-yeni məzahib ixtira etmələrinə gəlincə bunun başlıca baisi əjdərhanın ağzından fəvvəran edən atəşdir. Zərdüştin azərkədəsi İranda hənuz sönməmişdir. İran torpağını hər nərədə qazsanız, altından atəşpərəstlərin külü ilə əxkəri zühur edər. Binaənəleyh ənasüri-islamiyyə qəlbgah olan Hicazdan bəda ilə gəlib İran deyilən ciyərdəki bu rəmmadi zərdüştiyə təmas etdikcə bir təğyirə uğramadan keçəməz!..

Qorxuram ki, fiziologiya elminə aşina olmayan qarelər bu nöqtələri anlamayıb mənə etiraz edələr. Bina bərin burada müəllim Şakir bəyin elmi – "Mənafeül-əza" dediyi fiziologiyanın ciyərə aid bəhsindən bir nəbzə məlumat verməyə lüzum görürəm. Təfsilat almaq istəyənlər Şakir bəyin elmi "Mənafeül-əza" ünvanlı kitabına müraciət edə bilərlər. Bir isabət olaraq Şakir bəyin İranda zühur edən əmrazi tədqiq üçün hökuməti-Osmaniyyə tərəfindən oraya ezam olundu[1].

Şübhəsiz nəticeyi-tədqiqatı bizim mütaliatımızı təsdiq edəcəkdir: məlumdur ki, qanın bədəndə dönüb dolaşması iki dövrandan ibarətdir ki, birinə dəvərani-səğir, digərinə də dəvərani-kəbir təbir olunur. Təmiz və qırmızı bir qan qəlbdən başlayıb, bütün bədəni dolaşdıqdan sonra hamizi-fəhm ilə məhmul olub rəngi siyahlaşdığı halda təkrar qəlbə övdət edər (dəvərani-kəbir). Sonra bu siyah qan qəlbdən cigərlərə sövq olunur. Bu üzvi dolaşıb hamizi-fəhmi türüqitənəffüsiyədən zəfir vasitəsi ilə rədd edər və bunun yerinə şəhiq vasitəsilə gələn müvəllüdül-həmuzə ilə birləşərək yerinə qırmızı rəngini əğz ilə təkrar qəlbə övdət edər (dəvərani-səğir). Bu surətlə dəvərani-kəbir ilə dəvərani-səğir daima yekdigərini vəli edir. İştə qanın əsnayi-şəhiqdə havanın müvəllüdül-həmuzəsi ilə imtizaçı ciyərin başlıca vəzifəsidir. Zatən yanmaq ümum əcsamın müvəllüdül-həmuzeylə birləşməsindən ibarət bulunduğu üçün Fransanın

[1] Cununa mübtəla olmuş olan "İslam həkimi"nin bu sözləri qismən doğrudur, bundan 10-12 il əvvəl darülfünunun tibb müəllimlərindən Şakir bəy İrana ezam olundusa da, bəzi mancələrin zühuri ilə Ərzurumdan irəli gedə bilmədi. Şakir bəy məşhur fiziolocist Klod Bernarın şagirdlərindəndir (*Ə.H.*).

məşhur kimyagərindən Lavuaze "tənəffüs əsasən bir ehtiraqi-bətidir" demiş idi. İştə azərgədeyi-əzimeyi-İran da aləmin ortasında bir ciyər hökmündə bulunduğu üçün ənasiri-mədəniyyənin heç biri bu mehraqda bir təğyirə, bir ehtirağa uğramadan nə Şərqdən Qərbə və nə də Qərbdən Şərqə keçəməz; Hinddən gələn Brəhmən və Budda məzhəbləri burada ayin zərdüştiyə münqəlib oldu. Yunanın cümhur mədəniyyəti ilə pərvərişyab olan İskəndər İranda Daralar kibi bir hökmdari-mütləq kəsildi. Roma cümhuriyyəti İranla təmasdan sonra hökuməti mütləqiyyeyi-qeysəriyyəyə təbəddül etdi. Dini – İsa İrana nüfuz edərkən, Manike Maniyi-nəqqaş məzhəbi şəklinə girdi.

Məşrutiyyətçi bədəvi ərəblər İrana təqərrüb edər-etməz "şireşotor və susmar"[1] yeyəcək yerdə "tace-kəyani" arzu edəcək oldular. Bilməyioram ki, Firdovsi kimi "Tofu, bər to ey çərxi-gərdan, tofu!!!"[2] demək caizmidir?! Əsasən, Firdovsinin "Şahnamə"si Darati-mütləqiyyətin mədh və sənasından başqa bir şey deyildir. Bunu Fransa məşrutiyyət və cümhuriyyətini pamal edən III Napoleon gözəl anlamışdı. Anladığı üçün "Şahnamə"ni fransızcaya tərcümə edən Jül Mola əlindən gələn müavinəti-nəqdiyyəni diriğ etməmişdi. Ancaq Jül Mol ilə Napoleonun nöqteyi-nəzərləri ayrıayrı idi. Jül Mol "Şahnamə"ni məzayeyi-şeriyyəsindən naşi tərcümə ediyordi. Napoleon isə fransızlara bir mütləqiyyət mədh və sənası eşitdirmək istiyordi. Hər nə isə sədəddən ayrılmayalım... Dini-islam dəxi bu ölkədən təğyirə düçar olmadan keçəməyib əlan o təğyiratında davam etməkdədir. Şimdi bu ciyərgah islamda davam edən ehtiraq vəzaifi-fiziolociyayi-tənəffüssiyədənmi, yoxsa əlaimi-mərəziyyeyihəməviyyədənmi ədd etməlidir. Lavuazye diyor ki, "tənəffüs bir ehtiraqi-bətidir". Bu doğru! Ancaq bu ehtiraq xaricdən gələn saf və təmiz bir hava sayəsində oluyor. İrandakı ehtiraq isə xaricdən gələn nəsim hava sayəsində olmayıb, İranın öz daxilindəki pozulmuş, fəsada uğramış badi-atəşini – Zərdüşti vasitəsilə vüqua gəliyor. Fikrimizi izah edəlim. İranın türüqi-tənəffüssiyyəsi hər tərəfdən qapanmışdır. Dəmir yol şöylə dursun, bu ölkədə heç adi yollar da yoxdur. Şah Abbas dövründən qalma yollar bütün xarab olmuşdur. Ciyərə hava ibtida boğazdakı həncərədən daxil olur. İranın xaricdən saf dəniz havası alacaq həncərəsi bilkülliyyə qapanmışdır.

[1] Dəvə südü içən, kərtənkələ yeyən

[2] Tfu sono ey zomano, tfu!

Xəlici-farsi Omana rəbt edən Hörmüz boğazına "kəşim" adı ilə bir ingilis müstəmləkəsi vərəmi çıxıb bu mənfəzi sədd etmişdir. Bu xüsusda vaxtı ilə Cəlaləddin Əfqaninin bağırıb çağırması kar etmədi. Şimalda isə Kaspi dənizində İranın bir gəmi işlətməyə haqqı yoxdur, çünki Fətəli şaha "şor su lazım degil" idi.

Əsasən, İrandan məzhəb iqtizası olaraq heç bir fərdin Avropada və s. biladi-mütəmədinədə təhsili-elmə getməyə haqqı yoxdur. Çünki Zərdüştün "pak və napak" nəzəriyyəsi bu gün mübaliğəyə uğrayaraq, bu nəzəriyyəyə görə bir kaç milyon müsəlmandan başqa məxluqüllah olan bir milyard yarım bəşəriyyətin kaffəsi əhli-kitabda daxil olduğu halda murdardır. Bakteriologiya elminin "asepsi və antisepsi" nəzəriyyələrindən bixəbər olan İranın "pak və napak" fərziyyəsi şayani heyrətdir: Bu fərziyyəyə görə qırx-əlli üyüzün kəlin, qoturun, keçəlin girib çıxdığı hovuzun suyu pak ədd olunduğu halda, təqdirxananın o mikrobsuz, rüsubsuz bərraq suları napak və murdar hesab olunuyor. İranın, yəni riəeyi-islamın əhvalına mükəmmələn aşina olan böyük bir fazil ən məşhur kitabının başında diyor ki: "Hər nəfəsi ke foru mirəvəd mommedde-həyat və çun bər miyayəd mofərrehe-hizat əst. Pəs dər hər nəfəs do nemət mövcud və hər nemət ra şokri vacib"[1].

Sədi burada ciyərin əfali-fiziologiyasından olan zəfir ilə şəhiqin əhəmiyyətindən bəhs ediyor. Ehtimal, Atabəy Sədi bin-Zəngi dövründə aləmi-islam İran vasitəsilə bir az nəfəs ala bilirdi və binaənəleyh böylə bir nemət üçün şükr etməyə də borclu idi. Lakin şimdi bu növ mülahizat ilə islamın köksündə isğa və istima edəcəyim əsvatın ğayətlə şayan diqqət olacağını anladım. Məsməiin bir ucunu qulağıma, bir ucunu da islamın köksünə tətbiq etdim. Eşitdim ki, zəirat "Xəraxəri qətitə, səfiriyyə və təhtiferqiyyə"dən ibarət idi. Xəraxəri ğətitə, vadiyi-cəhalətdə puyan olan əksəriyyəti-əhalinin dərin uyğuya dalıb xoruldamasından, xəraxəri-səfiriyyə, bürokratiya xanəndə və sazəndələrinin keyf edərək çalıb-çağırmalarından, xəraxər-təhti-ferqiyyədə əkinçi və əhli-kəsbü karın ah və zarı ilə ağlayıb göz yaşları tökmələrindən hasil oluyordu.

Xanım əfəndini bir az öskürtdüm. Bəlğəmindən bir miqdar alıb mikroskop deyilən xırdabin ilə müayinə etdim. Kox basillərindən

[1] Hər nəfəs ki, içəri gedib bu həyatın davamıdır. Əgər çıxırsa, insana ləzzət verir. Demək, hər nəfəsdə iki nemət mövcuddur və hər iki nemətə də şükr etmək vacibdir.

bir əsər bulamadım. Demək ki, islam sillürrəyə mübtəla degil idi. Bütün bu əlamətlər bir daül-bəhrə bir zeyqi-nəfsə dəlalət ediyordi. Bu hala məmnun oldum. Çünki daül-bəhr sillülrə kibi təhlükəli olmayub qabili-şəfa bir ərəzdir.

Bən. Əfəndim, köksünüzdə nə duyarsınız?

İslam. Ara-sıra uzun bir öskürək ilə boğulur kibi oluyoram. Nəfəs alamıyoram. Köksümdə bir tağım xırıltılar, ağrılar duyarım... Bilmiyoram vərəmmiyəm, nəyəm?

Bən. Xeyr, əfəndim, vərəm deyilsiniz. Düçar olduğunuz zeyqi-nəfəs ümumi bir xəstəliyin erazındandır ki, o ümumi xəstəlik keçərsə öskürəyiniz və nəfəsdarlığınız da keçər.

İslam. Ümumi dediyiniz xəstəlik nə xəstəliyidir? Adı nədir?

Bən. Bunu deyə bilmək üçün əhşayi-bətniyyənizi dəxi müayinə etməliyəm...

"Füyuzat", 1907, №17, 18, 20

"İNTİQAD EDİYORUZ, İNTİQAD OLUNUYORUZ"

Şərqi-islam bir-iki əsrdən bəri Türkiyədə yeni türklərlə Sultan Həmid idarəsinin müsadimatına və İranda keçən sənədən asarını göstərən tərəqqipərvəranın mücahidatına gəlincəyə qədər başdanbaşa bir bətaət və ətalət aləmi idi. Heç bir tərəfdə sədrə şəfa verəcək bir əsəri-fəaliyyət, bir həyat görünmüyordu. Bu dövrün adına "Xabi-qəflət" dedilər. Əgər ötədə-bəridə ortaya Avropa elmi ilə, Avropa ədəbiyyatı ilə pərvərişyab olmuş bir neçə müsəlman çıxmayaydı, ehtimal bu "xabi-qəflət" bir xeyli müddət daha davam edəcək idi. Əcəba şimdi biz xabi-qəflətdən oyandıqmı? Xeyr! Biz ancaq "xabi-qəflət"lə mübarizəyə başladıq. Alati-mübarizəmizdən biri də intiqaddır. Nəyi intiqad? Hər şeyi! İstər o şey yaxşı, istər fəna olsun. Hər şeyin yaxşılığını, ya fənalığını ancaq intiqad sayəsində meydana qoymaq olur. Məsələn, Musa Tahirovun qafiyə xatirəsi üçün söylədiyi mənalı-mənasız sözlər intiqad olunur-olunmaz onun mahiyyəti-şəxsiyyəsinin də nə olduğu öz sözləri ilə, öz cavabları ilə meydana çıxmadımı? Burada xatirimə bir vəqə gəliyor. Bir gün dostlarımdan, daha doğrusu, dost bildiyim zəvatdan biri bir məclisdə dedi ki, "Yaponiya Amerikadadır". Ehtimal, dostum əxirən sərzədə zühur olan Yapon-Amerika ixtilafı münasibətilə böylə bir xətayə düçar

olmuş idi. Biz bəyin səhvini düzəldərək dedik ki, "Ay oğul, Yaponiya Asiyadadır". Biz məclisdən çıxdıqdan sonra bəy əfəndi haqqında demiş idi ki, "Ə.H. şarlatanın biridir. Nə gimnaziyada, nə də universitetdə oxumamışdır. Tibb darülfünunda professorluğu şöylə dursun, heç o darülfünunun qapısını da görməmişdir. Yalandan həkimlik edərək verdiyi əlaclarla bir kaç adam öldürdüyünü hər kəs bilir və i.a." Şimdi vəlov ki, bu sözlər doğru olsun. Bunun "Yaponiyanın Asiyadamı, yoxsa Amerikadamı" bulunmasına nə dəxli vardır... Musa Tahirova diyorlar ki, fərrəq deyil, firqədir. Çingiz moğol və türk hökmdarıdır, İran hökmdarı deyildir. Musa Tahirov deyir ki, "Əhməd Kamalı iki-üç adam çağırmışdır, Qafqaz çağırmamışdır!" Əgər İngiltərənin Kembric, ya Oksford darülfünununda bir neçə alimi-müstəşriq Qarabağ yanlış şivəsində qafiyəbazlıq öyrənməklə ingilislərin bütün-bütün cahangir bir millət olacaqlarını dərk edib, Musa Tahirovu sənəvi bir kaç yüz min manat maaş ilə Qarabağın fərəhəfza yaylalarından İngiltərənin sisli-dumanlı havalarına o sənəti təlim üçün dəvət etsələr, Tahirov onlara əcəba nə cavab verəcək?.. "Əfəndilərim, ingilis kralı Edvard cənabları ilə vükəlasından və Londra parlamentinin cəmi əzasından başlayıb Birminham, Liverpul və Mançester fabrikalarında işləyən axırıncı əmələyə qədər cümlə İngiltərə xalqı dəvətnamənizə vəzi-imza etmədikcə bəndeyi-aciz məmləkətinizə ayaq basamammı" deyəcəkdir?.. Sədədə rücu edəlim. Əvət intiqadla hər şeyin mahiyyəti meydana çıxıyor. Kim bilir, daha nələr meydana çıxacaqdır? Biz ata-babalarımızın "həkəmiyyat" deyə satdıqları sözlərdən, "təriqi-nicat" deyə tutduqları yollardan, "milli" deyə geyindikləri libaslardan çıxmaq istəmiyoruz. Lakin bu sözləri, bu yolları, bu libasları bir kərrə hadiyeyi-tənqiddən keçirəcək olursaq, əksərisinin bu günə qədər ətalət və bətaətdən başqa bir şeyə yaramadığını görüyoruz. Başlayalım, "həkəmiyyat" deyə satılan sözlərdən bir kaçını zikr edəlim:

"Çirkabə daş atma, üzərinə sıçrar!"
"Tiz rəftar olanın payınə damən dolaşar!"
"Bedərya dər mənafe bişomar əst,
Əgər xahi səlamət dər kənar əst"[1]

Sədi

[1] Tərcüməsi: Dənizdə mənfəət saysız-hesabsız,
Əgər salamatlıq sahildədir.

və i.a. Bizə dedilər ki, "Çirkabə daş atma, üzərinə sıçrar!" Biz də bu sözü bir hikmət zənn edərək atmıyoruz. Lakin bir müddətdən bəri, ələlxüsus "İrşad" və təkfir edilən "Molla Nəsrəddin" qəzetələri bağlandıqları günlərdən bəri[1] ətrafımız çirkablarla dolmağa başladı. Bu çirkabların qoxusu, üfunəti getdikcə artıyor. Oralardan süud edən miyazmalardan insanlar xəstələniyor, qırılıyor, nə edəlim? Ata-baba sözünə itaətdə davammı edəlim? Xeyr əfəndim! Belə olmaz.

Çirkablara daş atmalıdır, həm də doluncaya, yox edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər daş atmalıdır, mümkün qədər böyük daşlar atmalıdır, qayalar yuvarlatmalıdır. Daş, qaya kafi deyildir. Oraları tibbin tövsiyə etdiyi zəhərli-zəhərli mikroböldürücü məvaddi-əfniyyə ilə doldurmalı, üzərinə neft qazı tökməli, sonra da atəş yağdırmalı, ta ki, üfunətindən, üzviyyati-sariyyəsindən bir əsər qalmasın! Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai! Çünki bu dövr kütəhdamənlər, tizrəftarlar dövrüdür. Damən qısaldıqca, heç bir vaxt tizrəftar olanın payınə dolaşmaz. Uzun damənlərdir ki, tizrəftarların, hətta ahəstərovların belə palərinə dolaşır. Dəmir yol, avtomobil, velosiped, telsiz teleqraf dövrü olan bu dövrdə prins Verqezenin İtaliya avtomobili sayəsində Pekin ilə Moskva arasındakı məsafəni 47 gündə teyy etdiyi, "Defore"nin on, on beş saatlıq məsafədən istədiyi dəqiqədə istədiyi adamla telsiz telefon vasitəsilə görüşə bildiyi, Parisdə "Lomir" firmasının nişasta hübubatından bilaistifadə ani-vahiddə cümlə əşiyanın rəngləri ilə bərabər fotoqrafını almağa müvəffəq olduğu və əlhasil, zaman və məkanın hər cəhətlə bu qədər qısaldığı bu günlərdə... ata-babalar sözü olan "Tizrəftar olanın payınə damən dolaşır" kibi bir zərbi-məsəl ən xəfif bir intiqada belə qarşı duramayacaq. Böyük bir qələt olduğu təhqiq edir. Sözü dəyişməli, belə deməlidir:

"Diraz damən olanlar, tizrəftar", hətta ahəstə rəftar belə olamazlar, olmazlar da. Koreyalılar kibi hürriyyətlərini də, istiqlallarını da, imperatorlarını da qaib edərlər, edərlər də. Yer yüzündən yavaş-yavaş nabud olmağa məhkum olurlar. Koreya imperatoru da Qarabağ şairlərinin kralı Musa Tahirov kibi diyordu ki, mən uzun damənli

[1] Təşəkkür olunur ki, "Molla Nəsrəddin" yenə açılıb mücahidatı ilə imdadımıza yetişdi. "İrşad" rəfiqi-möhtərəmimizin də istifadəgahi-ümumidə yenidən nəşri-ənvari həqq və həqiqətə müvəffəq olmasını cənabi-həqq ilə Əhməd bəy Ağayevdən təmənna edəriz.

milli əlbəsəmdən əl çəkməyəcəyəm, qısa damənli kəsirül-ədəd əsgərlərə uzun damənli qəlilül-ədəd əsgəri tərcih edəcəyəm... Nasıl ki, Musa Tahirov əski şairlərin ufaq, fəqət dilgüşa şeir qitələrinə uzun qafiyəli kəlalavər əski mənzumələri tərcih ediyor... Nəticə nə oldu? Nəticəni Koreya paytaxtı Seuldan iyulun 7-də çəkilən teleqraflar aləmə xəbər verdilər. Xəbər verdilər ki, tizrəftar olmaq üçün vaxt və zaman ilə avropalılar kibi qısa əlbisə geyən markiz İto imperator Ey Xunqun uzun ətəklərindən yapışıb taxtından, yeddi yüz sənəlik taxtından sürüklədi, yerə saldı, həqq-hökmdaridən əl çəkdirib, yerinə yaponların hər əmrinə baş əyə biləcək onun oğlunu oturtdu... Bəhanə də bilirmisiniz nə idi? Bəhanə bu idi ki, nə üçün Koreya imperatoru keçən sənədən bəri Yaponiyanın həqqi-himayəsini qəbul etdiyi halda Lahidə qısa əlbisəli millətlərin, bir tərəfdən Karneçinin milyonları sayəsində kəmali-dəbdəbə ilə sülh sarayının təmel daşını ataraq, digər tərəfdən də o sülh naminə dürlü-dürlü komediyalar oynayaraq, təşkil etdikləri məclisə, prins Yunqun təhti-rəyasətində uzun damənli bir heyəti-mürəxxəsə göndərdi? Şimdi alınan xəbərlərə görə Lahi konfransından qəti-ümid edən prins Yunq vətənin istiqlalı uğrunda bir-bir Avropa və Amerika hökumətlərini ziyarət edib, yapon himayəsi namilə giriftar olduqları əsarətin əleyhində protesto edəcəkmiş. Lakin şübhə yoxdur ki, hökumətlərin Koreya mürəxxəslərinə verəcəkləri cavab bu məalda olacaq:

"Əzizim koreyalılar, madam ki, bu qədər hürriyyət və istiqlal həvəskarı idiniz, nə üçün vaxt və zaman ilə bizim kibi qısa əlbisə geyinməyə rəğbət etmədiniz? Yəni başınızda yaponların nə qədər sürət və əcələ ilə qədim uzun əlbisələrini Avropa qiyafətinə təbdil etdiklərini görmürmidiniz? Şimdi iş işdən keçmişdir. Nafilə yerə hürriyyətdən-filandan dəm vurmayınız!.. Vadiyi-cəhalətdə puyan olaraq ittifaq və ictimai orqanizasiyalarından bixəbər qalan Koreya əhalisinin üsyanlarından, ixtilallarından da bir nəticə hasil olmayacaq. Çünki şimdiki halda hər təşəbbüslərində palərinə uzun damənlər dolaşacaq! Qəribədir, hər bir millətin ibtidayi-təcəddüdündə hökmdarlar daima uzun damənli libaslardan qorxmuşlardır. Rusiya imperatoru Böyük Petro bu xüsusda o qədər ifrata varmışdı ki, hətta uzun saqqallıların dəxi tərəqqiyə mane olmasından qorxuyordu. Qorxduğu üçün soqakda uzun saqqallı bir kəndli mujikə dəxi rast gəlsə, dərəqəb məiyyətinə onun saqqalının kəsilib qısaldılmasını əmr edərdi... Tərəqqiyə mane olan uzun əlbisəli yeniçəri əsakirini qətliam etdirən Sultan Mahmuddan sonra Osmanlı hökmdarlarının cümləsi bütün əsgərləri ilə bərabər Avropa qiyafətində bulunuyorlar. Xəlifə ruyi-zəmin olan Sultan Həmid bu gün geyinməkdə olduğu Avropa sitrə pantalonunu, Avropa boyunbağı ilə qulalı kömləyini, Sultan Mahmuddan əvvəlki əcdadının uzun Asiya əlbisələrinə təbdil edəcək olursa, Koreya imperatoru kibi təxti-şövkətindən endirildiyi, xəl (bu kəlmə İstanbul təbabətində yasaq edildiyi üçün aləmisiyasətdə əhyasını əlzəm gördüm) edildiyi gündür. Lakin Koreya imperatorunun taxtdan endirildiyi və Sultan Həmidin taxtında bərqərar qaldığı sadə, birinin diraz, digərinin kütah damən olduğu üçün deyildir. Zavallı Ey Xunq axır zamana qədər Çin və Macin Sədilərinə inanaraq İran bürokratiyası kibi "Əgər xahi səlamət dər kənar əst" fikrinə zahib olmuş və səvahilini kiçik bir flot, bir donanma ilə olsun müdafiəyə lüzum görməmişdi... Sultan Həmid isə bir az gec də olsa, bu gün bəhri-mühitdə mühib bir müsadiməyə hazırlanan yaponlarla amerikanlar kibi anladı ki, "səlamət kənarda olmayıb, əgər xahi səlamət dər bahar əst". Sultan Həmid bunu nəhayət anladı, anladı çünki Yunan müharibəsində qalib gəldiyi halda nə üçün Krid cəzirəsini qaib etdiyini öz gözü ilə gördü. Zatən bu axır zamanlarda Sultan Həmidin politkasında ufaq bir fəaliyyət əsəri görünməyə başladı. Osmanlı əsakiri Makedoniyadaki əşqiya çətələrini imhada bir müvəffəqiyyət göstəriyor. Eyni zamanda Babi-Ali Atinadakı yunan hökumətinə şiddətli bir nota verib, yunan zabitlərinin təbdili-qiyafətlə əşqiya çətələrinə rəyasət etdiklərindən naşi protesto ediyor, protestosunu hökumətlərə bildiriyor. Bitlis vəqəəsində bəzi hökumətlərin vəkillərini iskat ediyor. Babi-Ali gömrüklərini bir az islah ilə əmtəeyi-əcnəbiyyədən alınan rüsumu yüzdə üç nisbətində təzyidə müvəffəq oluyor. Bunu düvəli-əsnəbiyyə, hətta Fransa məclisi-məbusani belə təsdiqə məcbur oluyor. Digər tərəfdən Türkiyənin daxili politkasında da bir az nüfuzunun təzayüd etdiyi görülüyor. Sultan Mahmud zamanından bəri kiçik bir hökuməti-mümtazə halına girən Samos (Sisam) bəyliyinin əhalisi İstanbula bir heyəti-mürəxxəsə göndərib prins Konstantin Karateodorinin əleyhində şikayət ediyor. Lazım gələn tənbihatı almaq üçün Karateodori İstanbula cəlb olunuyor. İxtilallardan, üsyanlardan bizar olan Yəmən əhalisinin də hərəkəti buna müşabehdir. Bu əhali dəxi İstanbula bir heyəti-məbusə göndərdi. Heyət hüzuri-şahanəyə çıxarıldığı zaman Sultan bunlara Yəməndə ümuri-idarə, maliyyə, ədliyyə və zəbtiyyəcə

islahat icra etdirəcəyini vəd etdi. Bir az keçmədən ülumi-şəriyyə və hüquqi-üləmayi məşhurəsindən Mahmud Əsəd əfəndi ilə Sabit paşanın təhti-rəyasətində bir islahat komissiyonu İstanbuldan Yəmənə ezam olundu. Bütün bu əhval və vüquat İstanbul politkasında bir fəaliyyətin başladığına dəlalət ediyor.

Şübhəsiz, Sultan Həmid əhvali-zamanı düşünməyə başlayıb bir çox şeyləri yavaş-yavaş anlamağa müvəffəq oluyor. Anlamadığı bir şey varsa, o da yeni türklərlə barışmaqla məşrutiyyət və qanuni-əsasinin lüzumudur. Əgər ömrünün axırında olsun, mərhum Müzəffərəddin şah kibi bunu da anlayacaq olursa, bütün günahlarını əfv etdirib son nəfəsdə iman ilə getmək və tarixdə bir yeni nam buraxmaq kəndisinə nəsib və müyəssər olur.

Sultan bu günlərdə İrana doğru bir ətfi-nəzər edib görməli idi, nə qədər əmiq bir hissi-şükran ilə bu məmləkətin əhalisi qanuni-əsasi və məşrutiyyətin sənəye-dövriyyəsi münasibəti ilə məğfur Müzəffərəddin şahın namını təzkir ediyorlardı. Cəmadis saninin 14-cü günü iranlılar üçün ilələbəd bir eydi-hürriyyətdir. Çünki keçən sənə eyni gündə Sahibqiran qəsrində şahi-məğfur hürriyyət və məşrutiyyətə dair olan dəstxətti-mübarəkini elan etmişdi. İranın əsrlərcə, qərinələrcə, dünyalar durduqca səadət və hürriyyəti-tammə içində bu eydi-mübarəklə kamyab olmalarını əz dil və can təmənna edəriz, edəriz də yenə əlimizdən gəldiyi qədər İrana və iranlılara bütün aləmi-islam ilə bərabər qüsurlarını söyləməkdən çəkinməyiz. Bizim kibi ümum sair türklərin İrana olan məhəbbəti İranın şimalən həm türk, həm müsəlman, cənubən də ancaq müsəlman bulunduğu üçündür, yoxsa sadə farslıq üçün deyildir. İran farsları ilə bərabər bədəni-ümumi İslamda bir üzv bulunduqca bizim ona riayətimiz bər kamaldır. Lakin farslar İranı özləri ilə bərabər vücudi-İslamdan ayrı bir şey hesab etməyə və məzahibi-islamiyyənin heç birinə qənaət edəmiyərək, yenidən Zərdüştü "təqdisə" və mədəniyyətini əhyaya qalxışdıqca bizim onlarla heç bir əlaqəmiz olamaz. "Füyuzat"ın tutduğu yol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, islam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır, yoxsa farslaşmaq, Zərdüştün sönmüş mədəniyyəti ilə mədəniləşmək deyildir. Şəhərimizdə farsi lisanında çıxaraq üstüörtülü bir Şərq bürokratiyası qoxusu nəşr edən "Həqayiq" məcmuəsi "Həblülmətin" cərideyi-mötəbərəsindən ibrət almalı idi, anlamalı idi ki, farslığın, fars lisanının, fars əfkarının meydani-ictihadi

İranın cənubu ilə, Belucistan və Hindistandır, yoxsa Azərbaycan, Qafqaz, Rusiya və ələlümum Baykal gölündən Afrika Səhrayi-kəbirinə qədər imtidad edən türk aləmi-müəzzəmi deyildir. Nafilə yerə "Həqayiq" məcnun olan "islam həkimi"nin bədəni-islamda Türkiyəni sər ittixaz etdiyinə içəriliyor. Bu gün məcnunların deyil, bütün aləmi-İslam aqillərinin belə özlərinə ümumən bir rəisi-dini-ruhani ittixaz etmələri lazım gəlsə, o rəisi İstanbulda arayacaqlarına "Həqayiq" mühərrirləri şübhə etməməlidirlər.

Bir də məcnunlar intiqad ediləməzlər. Məcnunları ancaq müalicə edərlər, Məcnunu intiqad müntəqidin öz cinnətinə dəlalət edər. Burada intiqad caiz isə məccanini təsvir edən mühərrirə race ola bilər. O halda bu kibi mühərrirlərdən tələb olunur ki, təsvir etdikləri məcnunları həqqilə məcnunlara bənzətsinlər. Qələt hiss və xəyalə mübtəla olan bunlara zəbtsiz, rəbtsiz sözlər söylədə bilsinlər. Ədəbiyyatda təsvir edilən məcnunun sözlərində "Ədəmi-rəbti-məani"yə, bəlkə olsa-olsa irtibat və intizami-məaniyə etiraz olunur... Əgər "Rəfi-iştibah" mühərriri ağıllı ola-ola mühərriri deyil, mühərririn təsvir etdiyi islam həkiminin özünü intiqada qalxışmışsa, demək ki, onun məcnun olmayıb aqil bulunduğuna gizlicə qənaət hasil etmişdir. Bunu anlaya biləcək qədər bir əsəri-zəka göstərdiyindən naşi "Həqayiq" mühərririni təbrik edəriz. Çünki aləmi-İslamı müayinə və mütaliə xüsusunda İslam həkiminin aqil və salimüş-şüur bulunduğuna biz də qane olduğumuz üçün əfkarını "Füyuzat"a dərc ediyoruz. Ancaq aqil sözünü əql və məntiq, elm və fənn qüvvətilə tənqid etməlidir; əğraz və hissiyyati-təəssübkaranə ilə deyil! "Rəfi-iştibah"ın isə hər sətrindən qərəz və təəssüb qoxusu gəliyor.

"Məcnun və Leylayi-İslam" osmanlılıq, iranlılıq, ya əfqanlılıq nöqteyi-nəzərindən deyil, islamiyyəti-ümumiyyə nöqteyi-nəzərindən yazılmışdır. Binaənəleyh intiqad da o nöqteyi-nəzərdən yürüdülmək lazım gəlirkən "Həqayiq" mühərriri diyor ki, "Behökmi iraniyyət çənd səfheyi "Həqayiq"ra be intiqad və izahi an negarişat məxsus midarim..." Biz zatən şübhə etmiyorduq ki, bəzi iranilərdə islama, islamiyyət nəzərilə baxmağa istedad yoxdur. Çünki "atavizmə" (irsiyyəti-bəidə) icabatı ilə əfkar və mənəviyyatları ərəbin, türkün zərbeyi-islahlarına rəğmən fürsi-qədim mədəniyyətindən xilas olmamışdır. Lakin "həkim-iraniyyət"lə də mütaliə yürütmənin bir yolu var. Halbuki, baxınız bu "hökmi-iraniyyət"lə mühərrir əfəndi nələr, nə cövhərlər yumurtlıyor:

"Həkime-eslame"-ma... islamra be yek nəfər məriz təşbih kərde... qafil əz anki məzhəb pa nəmitəvan be yek nəfər adəm təşbih kərd və bedu nəsbəte-mərəz dad...

Mühərrir görünüyor ki, intiqada yönəltdiyi əsəri heç diqqətlə oxumamışdır belə. Çünki "Füyuzat"ın 258-ci səhifəsində yazılan budur:

– Qız... mən "İslam dini" deyiləm, mən "İslami-siyasi", daha doğrusu, "İslami-coğrafi"yəm...

Şimdi burada "Yek nəfər adəm"ə təşbih edilən maddeyi-dinmi, məzhəbmi, yoxsa məchul bir mərəzi-ətalətə düçar olan ümmi bir heyəti-ictimaiyyeyi-siyasiyyəmi?

Halbuki müşabihət şöylə dursun, bir heyəti-ictimaiyyənin sosiologiya elmi nəzərində bir fərddən – bir nəfər adamdan fərqi belə yoxdur. Nə yapalım ki, "Həqayiq" mühərriri elmi-ictimaədən, elmi-ruhi-ictimaiədən qətiyyən qafil bulunuyor. Əzizim mühərrir! Həkimi-islamı intiqaddan əvvəl bir az Herbert Sperserin sosiologiyasını, psixologiyasını mütaliə etməli idin. Və ya heç olmasa Draperin "Avropanın tarixi nəşvü nümayi-əqli"sini oxumalı idin. Oxumuş olsa idin, bilərdin ki, bu tarixdə bütün heyəti-ictimaiyyələrin nəşvünümaları, təkamülləri, zəval və inqirazları ayrı-ayrı fərdlərin əhvalına təşbih edilərək tərif olunmuşdur. "Həqayiq"in sözlərində asaritəəssüb və qərəz olmasa idi, bu vüqufsuzluqlar, bu məlumatsızlıqlar əfv oluna bilirdi. Qərəz və təəssüb hissi ilə "Həqayiq"in atidəki sözlərində əyandır:

"Hiç vəqt Osmani-ra bəraye-İran sər nemitəvan qərar dad və İran-ra be cəhəte Osmani qəlb... Kəlmeye-eslam əst ke, anha ra ələzzaher be yek surət dər-avərde, dər təhte-yek esm müərrefi minəmayəd. Bəli dər surəti ke, bequim İran məriz əst, Osmani dər halətə ehtezar əst və i.a."...

Görünüyor ki, "Həqayiq"in dərdi "Məcnun və Leylayi-islam"da Türkiyənin sərqərar verildiyidir!.. "Haləti ehtizarda" olan bir hökumət nasıl baş əddoluna bilirmiş?! Əzizim, aləmi-islam başdan-başa, Fasdan Cava cəzirəsinə qədər naümid bir halda isə, bu aləmin içində diri, canlı, mətin, qəvi, qəviül-şəkimə, ümidbəxş nicat bir dövlət varsa, o da ancaq və ancaq Türkiyə dövlətidir. Bərrən milyondan ziyadə şəci və müntəzəm bir əsgərə; bəhrən olduqca bir donanmaya, şəhərlər arasında bir kaç bin kilometro dəmir yollara, şəhərlərdə və qəsəbələrdə novüsuli-mütəədid, məkatibi-müntəzəməyə, olduqca bir mətbuaata malik olan Türkiyə dövlətidir. O Türkiyə dövləti ki,

İranın yüz sənəlik uyğusu (dahasını söyləmirəm) müddətində xaricdən aləmi-İslama gələn bütün sədəmata yeganə olaraq köksünü gərmişdir. Zatən İslamın bu üçüncü dövrü türk dövrüdür. İslam türklüklə payidar oluyor, aləmi-islamda Hinddən Misrə qədər İran da daxil olduğu halda nə qədər müstəqil və nimmüstəqil hökmdar varsa, həman cümləsi türk nəslindəndir, içlərində bir fars yoxdur. Çünki hökm və idarə edə bilmək bir müddətdən bəri türklərə vergi olmuşdur.

Qaldı ki, "kələmeyi-eslam əst ke anha-ra ələz zahir be yek surət dəravərde" cümləsi, bu cümlə ancaq Zərdüşti tədqis edən bir farsın ağzından çıxa bilir, yoxsa hər müsəlman bilir ki, "Əl-möminunə üxvətun və binaənəleyh müsəlmanlar arasındakı qardaşlıq zahiri bir şey olmayıb, batinidir də!.. Zöhhak, mar və əjdərha bəhsinə gəlincə, bu günə qədər İranda bürokratiya məmurları ilə mülkədarlardan, xanlardan başlayıb seyidlərə, mollalara varıncaya qədər hər yerindən qalxanın, əkinçi, rəncbər və kəsbü kar əhlinin başına birər ayrı-ayrı ağa kəsilmələrini, xurafatın kəsirür-rəüs əjdərhalarından başqa nəyə bənzətmək olur?..

Keçəlim, "Həqayiq"in yumurtladığı əsil ziqiymət cəvahir irəlidədir.

Anan ke... dər eyne cəhalət İranra bənəzəre-həqarət minegərənd və beçizi nemişomarənd, xub əst qədri bekotobe əsatide Orupa bengərənd və ançe nemidanənd dər yabənd. Çe, əlfəzl ma şəhəde bih əl-əda. Ta bedanəd ke Osmaniye taze be donya amədə-ra əvvəla ba Nrane kohənsal nətəvan moğayese nəmud və i.a."...[1]

Nə qədər mübtəzil və əsgi sözlər deyilmi?..

İranın xədəmati-maziyyəsini, mədəniyyəti-qədiməsini kim inkar ediyor? Ancaq bu gün hünər mazi ilə fəxr etməkdə deyildir, tazə bulunmaqdadır. Hal-hazırın və hətta istiqbalın ləvazimati-mədəniyyəsindən bir şey əldə edə bilməkdədir. İranın mazidə gözəl ədəbiyyatı var idi. Lakin bu gün ədəbiyyatdan, mətbuatdan bir əsər görünmüyor. Bu yolda hər nə varsa türklərdədir. Lisani-farsi bir əsrdən bəri tədənniyə üz tutduğu halda ("Həqayiq"in lisanı da buna dəlil ola bilir)

[1] Onlar ki... cəhalət üzündən İrana həqarət nəzərilə baxırlar və heç bir şeyi saymırdılar, yaxşı olardı ki, bir az Avropa alimlərinin kitablarına baxsınlar və bilmədiklərini tapsınlar. Düşmənlərdəki üstünlüyü görünüz. Bilsinlər, əvvələn yeni dünyayə gəlmiş osmanlını qədim İranla müqayisə etmək olmaz.

lisani-türki gündən-günə tərəqqi və təali etməkdədir. Finikiyalılar, asurilər, yunanilər də mazidə parlaq bir mədəniyyətə malik idilər, bundan naşi bu gün müşəşə bir mədəniyyəti-tazəyə malik bulunan ingilislərin, almanların, fransızların başlarına çıxacaq deyillər, ya İranı əxirən türklər əhya etdiyi kibi nim-mürdə olan Yunanı da zorla ingilislərlə ruslar əhya etdilər, yoxsa onların da vücudu finikiyalılar, asurilər kibi yer üzündən silinəcək idi.

Baxalım həqayiqnəvis daha nə həqiqətlər söyliyor:

"Cənab həkime filosof! İxterae-məzhəb ra çera fəğət nesbət ba İran midehid, məgər əhvale sayer, meləle İslamiyye-ra fəramuş kərdeid: hənəfi, şafei, hənbəli, maleki, sufi extiraate İran əst?.."

Əzizim, sualın bir kərrə dürüst ifadə edilməmişdir. Əvvəla, sufilik məzhəb deyil, təriqətdir. Binaənəleyh məzahibi-ərbəə ilə qarışdırılamaz. O məzhəblərə əlavə ediləcək bir məzhəb daha varsa, o da ancaq beşinci olan şiyeyi-Cəfəri məzhəbidir. Şimdi şiə məzhəbini burada zikr etməməkdən istidlal edə bilirəm ki, onu İran ixtiraatından ədd ediyorsan! Lakin yanılıyorsan, zikr etdiyin dörd məzhəb ixtiraatdan mədud olamıyacağı kibi, şiəlik də nə ixtiradır və nə də İran ixtiraıdır. Haqq bildiyimiz bu beş məzhəbin beşi də islamiyyətin ibtidayi-zühuruna qərib zamanlarda ya çox az sonra mövsuq və o vaxt əldə bulunan mənbələrə istinadən ictihad təriqilə təşəkkül etmiş məzhəblərdir. Binaənəleyh ixtira deyil, ictihaddır! Onların cümləsi zahirən cüzi ixtilafat ilə bərabər, batinən eyni məqsədə xidmət edirlər. Həblülmətin – islamdan ayrılmazlar!.. İslam həkiminin bəhs etdiyi məzhəblər isə bunlar olmayıb, ixtira təriqilə bilaxərə, min sənə İslamın zühurundan sonra yeni törəyən məzhəblərdir. "Füyuzat" isə bu kibi məzhəblərin hürriyyət itamələrini təsdiq etməklə bərabər bunları nə anlar və nə də anlamaq istər. Bəlkə əlindən gəldiyi qədər dəlaili-məntiqiyyə, əqliyyə və nəqliyyə vasitələri ilə intişarlarına mane olmağa qeyrət edər. Çünki, bunu hər kəs bilsin: "Füyuzat" məzhəb xüsusunda ən mühafizəkar bir məcmuədir. İslam da beş məzhəbdən başqa məzhəb tanımaq istəməz. Dini-İslam bu beş məzhəblə son sözünü söyləmiş, bitirmişdir. Bundan sonra məzhəb çıxarmaq caiz olmayıb, ancaq tərəqqiyyati-elmiyyə və kəşfiyyati-fənniyeyi-cədidəyə istinadən həqq olan məzhəbləri xalqa şərh və izah üçün ictihad etmək olur!

Anladınmı, dostum həqayiqnəvis! Atəşi-Zərdüştü heç bir vaxt təqdis edəmiyəcəyiz. Biz Zərdüştə, Budda və Konfuçeo ilə bərabər

ancaq hörmət edə biləriz. Nasıl ki, bu zəvat haqqındakı hissiyyati-ehtiramkaranəmizi "Füyuzat"ın ta birinci nömrəsində ifadə etmişdik... Əfəndim, qədim İstəxr şəhərinin xaraba daşları üzərində təsvir edilən rəsmlər kibi, haqqında bir şair tərəfindən

Zin nəqş-o-nigae dər-o-divar şekəste
Asar pəcidəst sənadidi-Əcəm ra –

denilən rəsmlər kibi dirazdamən olmaqdan əl çəkiniz, bir az da Avropa ülum və fünununu təhsildə yaponlar kibi tizrəftarlıq göstərib ondan sonra intiqada girişiniz[1].

"Füyuzat", 1907, №23

[1] "Həqayiq" məcmuəsi deyir ki, "Metamorfoza" kəlməsini "İstihalə" deyil, "Tənasüx" deyə tərcümə etməlidir. Biz isə deyiriz ki, tənasüx əsil metampsixoz kəlməsinin tərcüməsi olub, "Metamorfoz" isə yerinə görə gah istihalə, gah tənasüx tərcümə oluna bilər. Şair Ovid tənasüxə etiqad edənlərdən isə də, lakin yazdığı şairanə əfsanələrdə (ki bunları başdan-başa vaxtilə suroti-məxsusədə tədris və tətəbbö etmiş idik) ruhun bəd əl-mövt digər bir cismə hülulundan heç bir yerdə bəhs etməyib, insanların diri-diri olaraq heyvanlara təhəvvüllərini tərif edir. Binaənəleyh ünvani-əsəri də ancaq "İstehsalat" kəlməsilə ifadə oluna bilir. Əfəndim, ədib-alim keçinənlər kor-koranə qamuslara etibar etməzlər. Qamuslar belə çox dəfə tənqid və təshihə möhtac olurlar.

CƏLİL MƏMMƏDQULUZADƏ

(1869-1932)

SİZİ DEYİB GƏLMİŞƏM

Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bircə üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk[1] qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində laylay deyirdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi:

– Bala, ağlama, xortdan gələr, səni aparar! – Və siz dəxi canınızın qorxusundan səsinizi kəsib, ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaqda keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!

"Molla Nəsrəddin", 7 aprel 1906, №1

[1] Azərbaycanlı

ATALAR SÖZÜ

Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur, zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır. Belə ki, keçmiş hükəmanın, şüəranın sözləri hala baqidir. Buna görə türk hükəmalarının təcrübəli və işə yarar zərbi-məsəllərindən "Atalar sözü" namilə bir neçəsini məcmuəmizdə yazdıq ki, qarelərimiz oxuyub lazımi yerində onları dəsturləməl etsinlər.

Atı atın yanında bağlasan – xan görüb deyər: Birini bağışla mənə.
Ata malı olan yerdə özün qazandığın haramdır.
Adamın ölümü bikarların bayramıdır.
Ata və arvada etibar etmə – hər ikisini qat tövləyə və qapısını bağla.
Ac toyuq yuxusunda plov görər.
Aclıqdan kimsə ölməz – qələt eləyir, çörək vermə.
Açıq kağız ac qalmaz – küçələrimizin tozuna Allah bərəkət versin.
Axşamın işini sabaha qoy, sabahın işini axşama.
Adam yata-yata alim olur.
Adama sözü min kərə deyərlər, qanmasa eybi yoxdur.
Anlayana da qul ol, anlamayana da.
Olacağa çarə yoxdur, qoy hər nə olacaq olsun.
Ölüdən şeytan da əl çəkər, arvadlar əl çəksə.
Ölmə, eşşəyim, ölmə, yaz gələr, hürriyyət bitər.
Uşağın şüurlusu dərsdən qaçar.
Plovun yağlısını yeyən yaxşı fatihə verər.
At at ilə boğuşar, hökumətin işi rast gələr.
Eşşəyə gücü çatmır, müsəlmanı tapdayır.
İşləmək adamı puça çıxardar.
İşsizlik dövlətlilik açarıdır.
İkiarvadlı ev bərəkətli olar.
Başladığın işi yarıda qoy.

"Molla Nəsrəddin", 7 aprel 1906, №1

BİZİM "OBRAZOVANNI"LAR

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur; mən onu görəndə deyirəm:

– Hardan gəlirsən?

O mənə belə cavab verir:

– Ya xodil na poçtu.

Deyirəm:

– Dünən niyə bizə gəlmədin?

Cavab verir:

– K nam prişli qosti.

Deyirəm:

– Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

– Net, uje bılo pozdno.

Deyirəm:

– Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

– Postarayus, no slovo ne dayu.

Deyirəm!

– Xudahafiz!

Cavab verir:

– Do svidaniya!

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

– Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mənlə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verdi:

– Sluşay, kak-to stıdno, koqda obrazovannıy çelovek po-tatarski qovorit!.. (Yəni obrazovannının müsəlmanca danışmağı eyibdir!)

– Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, həmin mənim rəfiqim rus şkolunda oxuyan vaxt bir gün anasına deyib:

– Ana! Pajaluysta, mənə bir şey svarit elə! (yəni bişir!)

Anası cavab verib:

– Bala, nə dedin?

Rəfiqim cavab verib:

– Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

– Bala, nə bişirim?

– Çort yeqo znaet!.. Yadımdan çıxıb... Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana... Bir cür adı var...

– Bala, küftə deyirsən?

– Hə... hə... qofta, qofta!

"Molla Nəsrəddin", 14 aprel 1906, №2

NİYƏ MƏNİ DÖYÜRSÜNÜZ?

A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuənin vərəqlərini nökərlər samavar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola? Olmaya siz başa düşürsünüz ki, bir məmləkətdə iki padşah və bir əsrdə iki molla ola bilməz: ya Molla Xəsrəddin, ya Molla Nəsrəddin?

Heç eybi yoxdur, döyürsünüz döyünüz. Amma bunu da biliniz, ey mollalar ki, günlər dolanar, sular axar, zəmanə təzələnər və axırda yetim-yesir və keçəl-küçəl qardaşlarım dostu ilə düşmənini tanıyıb haman yoğun dəyənəkləri sizin əlinizdən alar və başlar... dəxi dalısını demirəm.

Və bu da o vaxt ola bilər ki, keçəl-küçəl, tumançaq və bambılı, bit və sirkəli qardaşlarım sizlə mənim təfavütümü başa düşərlər. Hərçənd ki, siz də mollasız və mən də mollayam və lakin bizim aramızda bir balaca fərq var.

Başağrısı da olur. Amma bu barədə bir neçə söz deməyi lazım görürəm.

Bizim təfavütümüz bir neçə qismdir:

Əvvələn, mən molla ola-ola müsəlman qardaşlarıma vəz edən vaxt deyirəm: bir Allaha sitayiş edin, bir də peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha də sitayiş edin, peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəlilə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ, mozalan – bunların cümləsinə sitayiş edin!

İkinci, mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız.

Üçüncü, mən bir müsəlman uşağı küçədə görəndə deyirəm: bala, burnunun fırtlığını sil. Və haman uşaq arxalığının sol qolu ilə başlayır burnunu silməyə. Amma siz mollalar haman uşağı görəndə deyirsiniz: gədə, qırışmal, qaç atana de ki, vədə elədiyini bu gün göndərməsə, bir elə bəddua oxuyaram ki, yeridiyi yerdə daşa dönər.

Dördüncü, mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütümüz də budur ki, mən heç olmasa bir parça qalın kağız üstə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm və paylayıram müsəlmanlara ki, oğul-uşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıqla ocağı yandırsınlar. Amma siz mollalar deyirsiniz: uşaqların da canı cəhənnəmə, nökərlərin də!

Siz mollalar deyirsiniz:

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karım,
Dünyavü cahan ac olur olsun, nə işim var?!

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Salma yadıma söhbəti-tarixi-cəhani,
Əyyami-sələfdən demə söz, bir də filani,
Hal isə gətir meyil eləyim dolmanı, nani,
Müstəqbəli görmək nə gərək, ömrdü fani;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Övladi-vətən qoy hələ avarə dolansın,
Çirkabi-səfalətlə əli, başı bulansın,
Dul övrət isə sailə olsun, oda yansın,
Ancaq mənim avazeyi-şənim ucalansın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Hər millət edir səfheyi-dünyadə tərəqqi,
Eylər hərə bir mənzili-məvadə tərəqqi,
Yorğan-döşəyimdə düşə gər yadə tərəqqi,
Biz də edərik aləmi-röyadə tərəqqi;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

"Molla Nəsrəddin", 28 aprel 1906, №4

BAKILILARA

Ay bakılılar, Allah xatirinə məndən əl çəkiniz. Mən xəta eləmədim ki, gəldim bir para məzhəkəli nağıllarla sizi güldürəm ki, könlünüz açılsın və xörəyiniz yaxşı həllə getsin! Yoxsa mən gəlmədim ki, onu-bunu özümdən incidəm.

İşin ibtidasında falı bəd vuran – o evi xarab Dəmdəməki oldu: götürüb o qədər yalan-palan yazdı ki, cəmi Bakı əhli məndən rugərdan oldular[1].

Dəmdəməki aradan çıxan kibi Bakının russko-tatarski uşkolasının pasledni klasının uçenikləri gəldilər meydana və öz müəllimlərindən o qədər iftira düzəltdilər ki, mən indi də xəcalət çəkirəm.

Boynuma alıram ki, böyük səhv etmişəm və bunu da ərz edirəm ki, mənim bu səhvimə məhz şagirdlərin məktubunun xəttinin və imla-inşasının gözəlliyi bais oldu. Və illa birdən-birə, əhvalatı təhqiq etməmiş məktubu dərc etməz idim.

Həqiqət, çox vaxt insan bir şeyin zahirinə çox tez aldanır. Bəndə də həmçinin. Dəxi nə bilim ki, həmin gözəl məktubun batini kizb və böhtanla doludur.

Sözün vazehi: haman mənə giley yazan şagirdlərdən mən özüm çox artıq dərəcədə dilgirəm. Əvvələn, kiçik hara, böyükdən şikayət etmək hara? Sizə nə borcdur ki, "uşteller çetire çasaya kibi ispat eləmirlər?" Onlar oxumuş adamlardır, intiligentdirlər. Obrazovannı adamın gecə saat dörddən irəli yatmağı harada görsənib? Və siz nə bilirsiniz ki, saat dördə kimi müəllimləriniz nəylə məşğul olurlar? Bəlkə elə həqiqət əhya saxlayırlar? Bəlkə gecələr şura bərpa edib

[1] Üz döndərdilər

millət dərdi çəkirlər? Madam ki, bunları siz bilmirsiniz, gilcy eləməyə nə haqqınız var? Bəli, əgər həqiqətdə bizim oxumuşlarımız gecələr klublarda ləhvü ləəblə vaxtlarını keçirib saat dördə kimi yatmayalar və gündüz saat onda durub "krasni yabloko kimi şişmiş gözlərini ova-ova uşkolun qapılarını atvarit edələr", o vaxt gilcy etməyə bəlkə bir az haqqınız ola.

Amma bilirəm ki, yalan deyirsiniz...

Bəli, bunlar hamısı keçən sözdü.

İndi də bir ayrı bambılılar ortalığa atılıblar: indi də prikaşşiklər istəyirlər Molla Nəsrəddinə dadansınlar.

A qardaşlar, axır bir deyiniz görüm, mənim nə vecimə ki, səhərlər saat altıda kantora gəlib axşam saat onda azad olursunuz? Dəxi mən nə edim ki, sizin müsəlman xozeyinləriniz cümə günləri də sizi qatırlar kontora, qapıları bağlayır və lampa işığına sizi işlədib, Allah yaradan günə sizi həsrət qoyurlar? Mənim nə borcumdu ki, məvacibiniz az, zəhmətiniz həddən artıq və rahatlığınız əbədən yoxdur.

Vallah məəttəl qalmışam, bilmirəm yazım, ya yox; yazmasam siz inciyəcəksiz, yazsam da "pervi ruski-tatarski uşkolanın pasledni klasının uçenikləri" kimi sizin də yoldaşlarınız başlayacaqlar "Həyat" və "İrşad"ın sütunlarında sübuta yetirməyə ki, Molla əmi səhv edib; bizim xozeyinlər cavanmərd, insandust, rəhmli, kəramətli, bizim halımıza yanan və bizləri öz övladı kimi səmim-qəlbdən istəyən və Vittedən və Durnovodan artıq hürriyyət tərəfdarlarıdırlar.

Vallah, məəttəl qalmışam: bilmirəm yazım ya yox. Yenə yazmamaq məsləhətdir.

"Molla Nəsrəddin", 19 may 1906, №7

NƏSİHƏT

Camaat vəkillərinə

Sizədir bizim ümidimiz, biz müsəlman camaatının ümidi, ey millət vəkilləri! Allah sizə yaxşı yol versin.

Gedirsiniz, gediniz, amma mollanın xeyir-duasını yadınızdan çıxartmayasız, ey millətimizin seçilmişləri! Gediniz, Allah sizə yaxşı yol versin. Gediniz, amma bunu hər dəqiqə yadınızda saxlayın ki,

sizin boynunuzda ağır təkliflər var ki, onları əmələ gətirməyi millətimiz sizdən tələb edəcək.

O təkliflər çox ağırdırlar.

Üstünüzə götürdüyünüz əhd və xidmət dünyada etdiyiniz savab əməllərin ən əfzəlidir və bu səbəbdən xoşbəxt bəndələrin xoşbəxtisiniz.

Gediniz, Allah sizə yaxşı yol versin! Gediniz, amma bu bir neçə nəsihətimi fəramuş etməyiniz.

Gedirsiniz Rusiyanın paytaxtı olan Fitilbörkə və orda sizin kimi bəyənilmiş adamlarla dizbədiz oturub aylarla, bəlkə illərlə güftügu edəcəksiniz. Amma, aman günüdür, nə edirsiniz ediniz, bircə bunu yadınızdan çıxartmayınız: həmişə ədəbli olunuz. Ədəbli, ədəbli, ədəbli!..

Aman günüdür, biz müsəlman millətini yetmiş iki millətin vəkillərinin içində biabır etməyiniz. Elə rəftar eləməyiniz ki, desinlər: Bu müsəlmanlar biədəb, bihəya və sırtıq millətdir. Aman günüdür, mənim bu nəsihətimi nəzərdə saxlayınız. Bunun da çarəsi heç dinməməkdədir.

Əgər xamuş olmağa aylarla, illərlə dözə bilsəniz, dözünüz və illa əgər səbrü qərarınız kəsildi və bir danışmaq istəsəniz, heç olmasa millətimizin xoş səadəti və tərəqqisi adına bu bir neçə tələbləri hökumətdən eləyiniz:

Əvvələn: tələb ediniz ki, İran məmləkəti ilə Qafqaz müsəlmanlarının arasında sərhəd götürülsün, belə ki, o tərəfdən bu tərəfə keçmək, şey gətirmək, adam gətirmək bimane olsun. Əgər işdir, həmin tələbin mənasını və səbəbini sizdən soruşsalar, deyiniz ki, sizə dəxli yoxdu. Bu mətləb İran məmləkəti ilə öz aramızda məxfi və məhrəmani işdir, özümüz bilərik.

İkinci: tələb ediniz ki, Rusiya hökumətinin yolunda canü dillə xidmət edən müsəlmanlara layiqincə vəzifə və ənam verilsin və bununla belə Rusiyanın müstəbid idarəsinin tərəfdarı olmayan müsəlmanları Saxalin cəzirəsinə göndərsinlər.

Üçüncü: (qalanını da sonra deyərik).

"Molla Nəsrəddin", 16 iyun1906, №11

MÜSƏLMAN İÇİNDƏ GÖRDÜKLƏRİM

Lemsə tayfasından Reynqart adlı bir şəxs miladi tarixinin 1892-ci ilində yer üzünü başladı piyada dolanmağa və dörd ilin müddətində belə məşəqqətli səyahətini tamam edib, səfərdə gördüklərini yazıb, bir kitab cəm etdi. Həmin kitabın bir cildini cənab Reynqart idarəmizə göndərib, təvəqqə edir ki, kitabın intişarı naminə onu oxucularımıza tərif edək. Müsənnifin kağızından belə məlum olur ki, kitabdan bir cild "İrşad" və "Həyat" idarələrinə dəxi göndəribdir.

Kitabın 895-ci səhifəsindən "Müsəlman içində gördüklərim" sərlövhəsi ilə Qafqaz və İran səyahətnaməsi başlanır. 912-ci səhifə Salahlı qəryəsindən danışır. Səyyah yazır: "Günorta vaxtı iki min əziyyətlə çatdım Salahlı kəndinə və küçədə bir uşaq görüb soruşdum:

– Ay uşaq, burada məktəb var?

Uşaq hər iki əllərinin şəhadət barmaqları ilə gözlərini bərəldib, "xox" elədi və qaçdı getdi. Sonra bir kişiyə rast gəldim və yenə istədim məktəbin olmağını, ya olmamağını biləm. Kişi mənə cavab verdi:

– Mən məktəb-zad bilməz.

Dedim:

– A kişi, heç olmazsa buranın ağsaqqallarından və hörmətli əhalisindən bir adam mənə nişan ver ki, onlarla görüşüm.

Kişi əlini bir tərəfə uzadıb dedi:

– Bax oturublar orada.

Üzümü haman tərəfə tutub gördüm ki, kəndin kənarında, söyüd ağacının dibində beş nəfər adam oturub. Yavıqlaşıb gördüm ki, bunlar yanlarına bir tuluğ çaxır qoyub, stəkanları doldurub içirlər. Əvvəl bunu soruşdum ki, "siz nə millətsiniz?" Hamısı birdən cavab verdilər ki, "əlhəmdülillah, müsəlmanıq".

Sonra mən xəbərdar oluram ki, bu ağalar Salahlının bəyləridirlər".

Kitabın 917-ci səhifəsində cənab Reynqart Şamaxı səfərini yazır: "Girdman çayını keçib, yetişdim Şamaxıya. Küçə ilə bir şəxs gedirdi. Divarın dibində oturan adamlar bunu görcək tez ayağa durub, salam verdilər. Mən bildim ki, bu şəxs mötəbər bir adam olacaq və çünki əlində təsbih də vardı, mən yəqin elədim ki, itaət əhli[1] olmalıdır. Mən bu cənaba diqqət etməkdə idim, bir nəfər adam mənə yavıqlaşıb dedi:

[1] Ruhani

– Ay aşna, nə çox hacı ayağa diqqət edirsən?

Dedim: – Hansı hacı ağaya?

Dedi: – O əlində təsbih gedənə.

Dedim: – Kimdir o vücud?

Cavab verdi ki: – O cənab, şəhərimizin mötəbər və mömin şəxslərinin biridir.

Dedim: – Maşallah!

Dedi: – Bir qulaq ver, sonra maşallah de.

Dedim: – Sözünü söylə.

Rəfiq başladı:

– Mən şamaxılı Əladdin Molla Qəni oğluyam. Biz beş qardaş və iki bacıyıq. Keçən zəlzələdə bizim evlər uçub dağıldı və biz hamılıqnan köçüb, Gəncədə başladıq sakin olmağa. Bu hacı ki, əlində təsbih gedir, bizim evimizi qəsb edib, imarət tikdirib, ildə üç-dörd dəfə həmin evdə qonaqlıq məclisi qurur və şəhərimizin bir para "alim" və "fazil"ləri gəlib haman evdə plov yeyəndən sonra namaz qılırlar və özləri də bunu bilirlər ki, o yer qəsbdir.

Mən bu sözləri eşitcək qaçdım haman hacının qabağına və soruşdum:

– Sən nə millətisən?

Hacı ağa üzünü mənə çöndərib cavab verdi:

– Əlhəmdülillah, müsəlmanam.

Dedim: – Çox sağ ol".

Kitabın 955-ci səhifəsi Rəşt şəhərindən söhbət açıb deyir: "Rəşt qazısı şəriətmədar Axund hacı Molla Mehdi Rəşt və ələlxüsus Gilan əhlinin başına elə bir it oyunu gətirir ki, xalqın fəryadı göylərə bülənd olur. Hər bir hakim Rəştə varid olan kimi Axund Molla Mehdi onunla əlbir olub, başlayır biçarə əhalinin dərisini soymağa və hər nə ki, fəqir-füqəradan qarət eləsə, hakimlə yarı bölür". Cənab Reynqart yazır ki, "mən istədim axundu ziyarət edəm. Cənab qazı bildi ki, mən Avropa əhliyəm və mənə hörmət qoyub yavıqlaşdı və ədəblə mənimlə əl-ələ verdi. Mən əl verib soruşdum:

– Cənab axund, siz nə millətsiniz?

Axund mənə cavab verdi:

– Əlhəmdülillah, müsəlmanam".

Kitabın 967-ci səhifəsi Bakıdan danışır. Səyyah bakılıları mədh edir və hətta [kitabın] bir yerində Bakı əhlini qamətdə və şücaətdə Rüstəm pəhlivana oxşadır. Amma heyif ki, burada kitabın bir neçə

vərəqi cırılıb. Bakı fəqərəsinin axırında yazır ki, "hər bir bakılıdan soruşdum ki, "mən ölüm, doğrusunu de görüm, nə millətsən?" – və hamı and içib söylədi ki, "ədhəmdülillah, müsəlmanam" (mabədi var).

İdarədən:

Bir kəs ki, istəyə cənab Reynqartın kitabını ələ gətirə, Tiflisdə hər gün nəşr olunan müsəlman ruznamələrinin birinə rücu etsin.

"Molla Nəsrəddin", 11 avqust 1906, №19

İFRATIN MƏNFƏƏTİ

("Həyat"ın 176-cı nömrəsini oxuyanlarla bir balaca söhbət)

Cənab H.K."Həyatın" söylədiyimiz nömrəsində "İfratın məzərrəti" adında yazdığı məqalədə deyir:

"Bir millətin heyəti-camiəsi nə qədər məsrur və şad və azad olsa, o qədər tərəqqi edər, o qədər iş görər, o qədər də şəci, rəşid, aqil və alim olar. Böyük Napalyon bir vaxt düşündü ki, Fransa millətinin birinci səbəbi-tənəzzülü hüzn və qəmdir, özü klublar açdı, rəqs etdi, xalqı müaşirətə təhrik etdi. Həmçinin böyük Pyotr, həmçinin sair Avropa mucibi-tərəqqiləri. Və lakin bizim İran millətini dövlət, üləma, sadat, əşraf, rüəsa – hamısı ağlamağa dəvət edirlər. Həzrəti-Hüseyn əleyhissəlamın şəhadəti dünyanın böyük müsibətlərindəndir. Hər sənə on gün məhərrəmi o büzürgüvar üçün məhzun olmaq müstəhəbb, müəkkəd və savabdır və lakin il on iki ay məhzun olmaq, ağlamaq, baş yarmaq, əlli milyon tümən xərcləmək milləti mərsiyəxan surətində gəda eləyib, çöllərə salmaq, əlbəttə, müzirrdir, bişübhə milləti fəlakət və əsarətə salar. Bir yerə nə işdən ötrü olursa olsun cəm olanda, toy məclisində, bayram görüşündə, qonaqlıqda və hər növ şadlıq və qeyri şadlıq məclisində və hətta ticarətxanalarda və bəlkə tərəqqi edib şüareyi-müabirdə, xalqın tərəddüdünü kəsib, iş-gücdən qoyub, başına vurub ağlatmaq, əlbəttə, milləti bu hala yetirər".

Cənab "H.K."-nın bu sözlərinin cavabında deyə bilərik ki, bütün yer üzündə yetmiş iki millətin içində heç bir məmləkət tapılmaz ki, müsəlman içində olan xeyir və bərəkətin yüzdən bir hissəsi orada ola bilsin.

Ax, fəda olum sənə, ey müsəlman aləmi! Nə gözəl imişsən!..

Allah o günü heç kəsə göstərməsin ki, birisi gedə düşə özgə millətlərin içinə, əlindən də bir iş gəlməyə, bir sənət və qabiliyyət sahibi olmaya! Yəqin ki, belə bir adamın dilənməkdən savayı bir çarəsi olmayacaq.

Amma di gəl müsəlman aləminə Allah min-min bərəkət versin! Əgər müsəlman içində "ağa" olmaq, çörək sahibi, hörmət-izzət sahibi olmaq istəyirsən, meydan genişlikdir, hər nə istəyirsən ol, Allah bərəkət versin. Əgər uşaqlıqdan arzu eləyibsən dövlət və cəlal sahibi olasan və özün də heç bir zəhmət çəkməyəsən, get mərsiyəxan ol; bu şərtlə ki, uca səsin ola; özgə bir şey lazım deyil.

Buradan bir haşiyə çıxaq.

Uşaq vaxtı, Molla Heydərin məktəbində oxuyan vaxt, mənim bir yoldaşım var idi; adı Qafar idi. Çox yaxşı oğlan idi. Amma dərs oxumağa bircə tikə həvəsi yox idi. Bir gün axund, Qafarın ayaqlarını fələqqəyə qoymaq istəyirdi. Amma Qafar bunu başa düşüb dərsdən qaçdı. İndi Molla Qafar Danabaş kəndində şöhrətli mərsiyəxanların biri hesab olunur.

Bəli, Allah müsəlman aləminə bərəkət versin! Meydan vüsətlidir, hər nə istəyirsən ol: sinəzən ol, növhəxan ol, məşəl yandıran ol, dəstəbaşı ol, şəbihgərdan ol... hər nə kefin istəyir – ol!..

Buradan da bir haşiyə çıxaq.

Avropa kitablarında və səyahətnamələrində müsəlmanlardan söz düşəndə yazırlar ki, müsəlmanlar il on iki ay ağlamaqla vaxtlarını keçirirlər.

Tutaq ki, bu sözlər səhvdir, çünki hərdənbir mərsiyədən sonra məsciddən çıxıb mütrüb məclisinə də gedirlər. Amma bunilə belə, o yerlərdə ki, mütrüb yoxdu, vaqiən il on iki ay müsəlmanlar ağlamaqla vaxtlarını keçirirlər.

Buradan da bir haşiyə çıxaq.

Qabaqca ərz elədiyim Molla Qafar mərsiyəxanla bildir bir dəfə görüşən vaxt mən ondan soruşdum:

– Ay Molla Qafar, sən Allah, məni bir başa sal görüm, nədən ötrü bir ilin ərzində üç yüz altmış beş gün xalqı ağlamağa dəvət edirsən və halonki, müsəlmanın müsibət əyyamı məhərrəmül-həram ayıdır?

Molla Qafar əvvəl sözün doğrusunu demək istəmədi. Amma sonra and verdi ki, bu sirri mən heç kəsə açmayım və başladı:

– Ay Molla Nəsrəddin, əgər biz mərsiyəxanlar durub bircə məhərrəm ayına iktifa eləyib qeyri ayları bekar qalsaq, pəs onda bizim ruzumuz haradan və kimdən yetişəcək?

Bir qədər fikir edib gördüm ki, rəfiqim doğru deyir.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 18 avqust 1906, №20

ABİRİN VƏ KİLAB

Bir neçə gün bundan əvvəl türk qəzetlərinin birində oxudum ki, rus ədibi məşhur Krılov "Abirin və kilab" adında bir təmsil yazıb. Çünki mən rusca az-çox oxumuşam və məlumdur ki, Krılovun təmsillərini mübtədi məktəblərdə oxudurlar, çox təəccüb elədim ki, bu təmsildən mənim xəbərim yoxdur. Açdım Krılovun məcmuəsini və vərəqləyib, "Abirin və kilab" adında bir təmsil tapa bilmədim. Sonra özözümə ha fikirləşdim ki, görəsən, "Abirin və kilab" nə deməkdir?

Axırı ərəbi bilənlərin birisi məni başa saldı ki, "abirin" – yəni ərəbcə keçənlər, yolçular; "kilab" – yəni itlər.

Burada mən barmağımı dişlədim: "A kişi, bu təmsili biz rus dərsi oxuyan vaxt əvvəlinci il oxuyub əzbərləmişik".

İndi mən çox heyfsilənirəm ki, ərəbcə savadım yoxdur; əgər olsaydı, ömrümdə bircə kəlmə türkcə nə oxuyardım, nə yazardım, nə tərcümə edərdim.

Mənim xəyalıma bir şey də gəlir: rusca oxuyanlara məlumdur ki, Krılov təmsillərini sadə rus dilində yazıb ki, rus milləti yaxşı başa düşsün. Əgər Krılov bilsəydi ki, türklər onun təmsillərini türk dilinə tərcümə edəndə yolçulara "abirin" və itlərə "kilab" adı qoyacaqlar, yəqin ki, Krılov da təmsillərini firəng, ya nemsə dilində yazardı.

Heyif ki, mən də özgələr kimi ərəb dilini dərin oxumamışam.

Hop-hop

"Molla Nəsrəddin", 25 avqust 1906, №21

MEYMUNLAR

Hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki, orada bir obrazovanni müsəlman ayağa durub deməsin: "Hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənək".

(Hələ məzəsi budur ki, bu nitqləri hamısı urus dilində söylənir və niyə urus dilində söylənir? – Bu sirdən də indiyədək heç kəs baş açа bilməyib.)

Bəli, keçək mətləbə.

Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?

Mən indiyədək heç bir yanda görməmişəm ki, iki obrazovanni müsəlman bir-birilə görüşəndə müsəlmanca danışsınlar. Amma hökumətin qanun və qərardadlarının içində heç belə bir qərardad yoxdur ki, iki müsəlmanın bir-birilə müsəlmanca danışmağına mane olsun.

Bəs bunu kim qoymur?

Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi oxuyaq. Tutaq ki, bunu hökumət qoymur. Bəs kim bizi öz dilimizdən utanmağa və öz dilimizlə danışmağı ar bilməyə vadar edir? Məgər bunu da hökumət edir?

Bir təbrizli Tiflisə gəlib bir həftə burada qalmaqnan adının axırına "of" qondarır. Məgər bunu da hökumət edir? Nə vaxt hökumət qaradovoy, ya pristav göndərib ki, get gör filan müsəlman oğluna nə ad qoyub və qızına nə ad qoyub və hökumət nə vaxt müsəlmanı məcbur edib qızının adını "Fatma" əvəzinə "Fatya" qoysun və oğlunun "Həsən" adını dəyişdirib "Qasanka" eləsin?..

Dil barəsində hökumət ermənilərə etdiyi rəftarın ondan bir hissəsini bizə etməyib. 1884-cü ildə bağlanan erməni məktəbləri ancaq bir neçə il bundan irəli açıldılar. Amma bununla belə heç kəs indiyə kimi görməyib ki, iki oxumuş erməni bir-birilə rusca danışsın.

İndi gəl müsəlman aləminə.

Gedirsən bir rəfiqin qapısını döyürsən. Bir balaca qız çıxır. Soruşursan: – Ağa evdə? Qız "Papa!" deyə-deyə qaçıb atasını çağırır. Girirsən içəri və qızın kefini soruşub deyirsən: "Maşallah, Münəvvər xanım, nə yekə qız olmusan?" Görürsən qız qaşqabağını saldı. Sonra məlum olur ki, qıza gərək "Varya" deyəydin; Münəvvər dedin, acığı gəldi. Hətta axır vaxtda İran məmurları da yavaş-yavaş adlarını çön-

dərməyə başlayıblar: hakimi vilayəti-Ərdəbil Həsənquluxan Cəfərxanov, naibi qonsulgəriyi-Gəncə və Badikubə dər qəryeyi Danabaş Mirzə Heydər Səlimxanov və qeyrə. İşlər bu sayaqdır.

Axırda həmin "Qasanka"lar və "Varya"lar böyüyüb, məclislərdə başlayacaqlar haray təpib çığırmağa: "Ay aman! Qoymayın! Hökumət ana dilimizi öyrənməyə mane olur".

Bir vaxt Nuxada da "millətpərəstlər" məclislərdə bu cür nitqlər söylərdilər. Amma indi həmin millətpərəstlər cənab direktorlara və qubernatorlara təkyə edib, ana dilinin müəllimlərini qapazlayıb saldılar eşiyə.

Bəli, əzizim, bu işlərin adına "Müsəlman işi" deyərlər.

"Molla Nəsrəddin", 3 noyabr 1906, №31

MƏSCİDLƏRİMİZ

Bizim məscidlərə cəm olanlara diqqət eləsək, görərik ki, məscidə gələnlər ancaq fəhlə, hammal, kankan[1], dilənçi, dəllək, pinəçi, nalbənd, çərçi və xırda-xuruş alış-verişçilər, baqqallar, kərbəlayı və məşədilər və kasıb hacılardır. Əgər əcnəbi millətin birinin yolu bizim məscidlərə düşsə, elə yəqin edər ki, müsəlman içində bir dənə də rəğbətli, dövlətli, səliqəli, təmiz və nəcib adam, bir dənə də bəy, xan, qulluqçu, oxumuş və sahibmənsəb yoxdur; yəqin edər ki, bizim müsəlman camaatı ibarətdir məhz cırıq-mırıq, ac və kasıb fəhlə-fühlədən, avam məşədi və kərbəlayılardan.

Niyə xan və bəylərimiz, oxumuş və sahibmənsəblərimiz məsciddən qaçırlar?

Peterburqda on min müsəlman var. Bunların içində neçə-neçə mütəşəxxis sahibmənsəblər, generallar, polkovniklər, obrazovannılar, təbiblər, xanlar və mülkədarlar var. Amma Peterburqun tək bir məscidinə yığılan ancaq kasıb tatarlardır ki, peşələri evləri gəzib paltar, köhnə qaloş və çəkmə və çirkli dava şüşələri alıb satmaqdır. Moskva həmçinin. Tiflisdə sünni məscidinə gedənlər ancaq Qazan tatarlarıdır ki, peşələri fayton sürməkdir. Şiə məscidinə gedənlər İran fəhlələri və hammallarıdır. Bakıda milyonçular və oxumuşlar məscidə getməzlər. Danabaş kəndinə məscidə gedənlər ancaq kasıb kəndlilərdir, mülkədarlar məscidə gəlməzlər.

[1] Quyu qazan

Kimdir dövlətliləri, oxumuşları məsciddən qaçırdan?

Bunu mən bir neçə dəfə bəzi məscidə getməyənlərdən sual eləmişəm və bu barədə bir neçə cavablar eşitmişəm. Əgər başağrısı olmasa, həmin cavabları yazaram.

Bir dəfə bir cavan bəyzadədən soruşdum ki, niyə məscidə gəlmirsən? Cavan mənə belə cavab verdi:

– Ay Molla Nəsrəddin, Allah atana rəhmət eləsin, axır mən başıma nə daş salım? Şalvarım elə dardı ki, diz üstə oturmaq heç mümkün deyil. Məsciddə də ustul yoxdu ki, ustul üstə oturasan. Qalmışam məəttəl. Dəxi nə çarə qılım?

Bu bəyzadənin cavabı.

Bir dəfə bir dövlətli xandan soruşdum ki, niyə məscidə gəlmirsən? Xan da belə cavab verdi:

– Əzizim Molla Nəsrəddin baba, mənim bu barədə heç təqsirim yoxdu. Məscidə getməməyimin səbəbi budur ki, məscidə gedəndə bilmirəm cibimə nə qədər pul qoyum. Məscidlərimiz ibadətxanalıqdan çıxıb, dilənçixana olublar. Mən girən kimi dünya və aləmin ac seyidləri və mollaları gəlib sərçə kimi düzülürlər, minbərin pillələrinə və başlayırlar pul istəməyə.

Mən xana dedim ki, mollaların bir yandan məvacibləri yoxdur, bəs siz onlara pul verməyəndə, onlar hardan çörək tapıb yesinlər? Xan cavab verdi ki, bunun mənə dəxli yoxdur.

Bu da dövlətli xanın cavabı.

O ki qaldı oxumuşlar, məscidə gəlməmələrinə bunlar da bir neçə səbəb qoyurlar. Əvvələn, deyirlər ki, məscidə cəm olanların çoxusu keçəl adamlardır və məlumdur ki, keçəllər həmişə başlarına quyruq yağı sürtürlər. Odur ki, məscidlərdən həmişə qovurma bozbaşının qoxusu gəlir. Bu səbəbdən oxumuşlar məscidə gəlmirlər.

Oxumuşların bir parası da bu cür deyir, bir parası da deyir ki, mən uşaqlıqdan adət eləmişəm çəkmə geyməyə, başmaq geyməyi öyrənməmişəm. Çəkməli gedirəm məscidə, məsciddə oturanlar tez qalxıb gəlirlər mənim yanıma və başlayırlar çəkmələrimə diqqət eləməyə və deyirlər ki, bu çəkmələr "Varşov"[1] çəkmələridir, bunları urus tikib, cəhənnəm ol, məsciddən çıx get, buraları murdarlama!

[1] Varşava

Oxumuşların bir parası da deyir ki, bizi məsciddən qaçıran mollaların moizəsidir. Məsələn, gedirik, otururuq, molla çıxır minbərə və başlayır:

– Ey müsəlmanlar, onu bilin ki, insanın qəlbində iki nöqtə olar. Biri ağ nöqtə, biri qara nöqtə. İnsan savab əməl tutduqca ağ nöqtə qara nöqtəni basar, amma günahkar bəndələrin qəlbində qara nöqtə ağ nöqtədən böyük olar və günah əməl tutduqca qara nöqtə ağ nöqtəni basar. Və cəmi xarici dərslərini oxuyanlar üçün heç bir nicat yolu yoxdur; çünki onların qəlbində olan qara nöqtə gündə-günə artıb, ağ nöqtəni basır. Allah xarici dərslərini oxuyanların üzünü hər iki dünyada qara eləsin! Amin, ya rəbbül-aləmin!

Budur oxumuşların cavabı.

Məscidə gəlməmək barəsində özgələr nə deyirlər desinlər, onlarnan işimiz yoxdur; amma oxumuşların bəhanələri nahaq və mənasızdır.

Əvvələn, tutaq ki, məscidə gələnlərin çoxusu keçəl adamlardır; tutaq ki, onlar başlarına quyruq yağı sürtürlər. Amma onların içində tək-tək elələri də tapılar ki, nə keçəldirlər və nə başlarına quyruq yağı sürtürlər. Və bir də məhz keçəlləri müqəssir tutmaq insafdan kənardır. Üfunətin çoxu corablardan və başmaqlardan gəlir, çünki məscidə gələnlərin çoxu corablarını ildə bir dəfə də yudurtmazlar və dəyişməzlər. Və bir də bunların nə eybi var?

Saniyən, çəkməli məscidə gedənlərin də sözləri əsilsizdir: nə eybi var, məgər mümkün deyil məscidə gedəndə bir özgəsinin təmiz başmaqlarını borc eləmək və məsciddən qayıdandan sonra sahibinə qaytarmaq?

Salisən, o ki qaldı əcnəbi dərsi oxuyanların barəsində mollanın vəzi, bu barədə də çox söz deyə bilərdim, o qədər söz deyə bilərdim ki, Avropanın kağız karxanalarında kağız tapılmazdı ki, mən sözümü yazıb tamam edim. Amma öz aramızdır, çox uzun-müşərrəf olduq...

İbrahim bəyin sözləri yadıma düşdü:

"Mürdəənd vəli zində – zindəənd vəli mürdə".

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 24 noyabr 1906, №34

QARNIYOĞUNLAR

Dedik bəlkə təzə müştərilərimizə təqvim və kitabçalar paylamaq vasitəsilə oxucularımızın qədərini bir az artıraq; amma Allah şeytana lənət eləsin; gündə gəlib, başımızın üstünü kəsir və başlayır ki, məsələ, götürün məcmuənizdə yazın ki, Təbrizdə vəliəhd "şahsevən" quldurlarını başına cəm eləyib, göndərir İran kəndlərini və şəhərlərini talan etdirir və bu cür qarət olunan malların bir hissəsini quldurlara paylayır, bir hissəsini özü götürür.

Məcmuəmizdə bu əhvalatı vəliəhd Məhəmmədəli Mirzə oxuyan kimi hökm eləyir məcmuəmizi İran sərhədində yandırsınlar.

Bu bir.

Yazırıq mədrəseyi-ruhaniyyənin pulları gəzdi, gəzdi, axırda tappıltı ilə düşdü incinerin[1] cibinə, – bunun cavabında hökumətdən məvacib alan ruhani rəislərimiz bu fəqərəni oxuyan kimi fitva eləyirlər ki, "Molla Nəsrəddin"ə pul verib oxumaq – çaxıra pul verib içmək kimidir.

Bu iki.

Osmanlı konsulu idarəmizə sifariş göndərir ki, "bir də Sultan Həmidin pisliyini yazsaz, yəni bir də yazsanız ki, Osmanlının xariciyyə vəziri gəlib, sultana ərz edəndə ki, sultan sağ olsun, Avropa hökumətləri Kriti hazırlaşırlar versinlər Yunan padşahına – sultan Əbdülhəmid yunanlı hərəmini yanına çağırıb deyir: "Bə xali hinduət bəxşəm Krit və Şamü Bosnara", İstanbula yazaram "Molla Nəsrəddin"i Osmanlı torpağına qoymasınlar".

Bu üç.

Məcmuəmizin çoxu Qarabağ və İrəvan tərəflərinə gedir. Bu gün də lənətə gəlmiş şeytan gəlib yapışıb yaxamızdan ki, "niyə yazmırsınız?"

Deyirik:

– Nə yazaq?

Dedi:

– İrəvan və Qarabağ vilayətlərinin aclarının dad-fəryadı sizin qulaqlarınıza çatmır?

Hərçənd biz bilirik ki, şeytanın qəsdi budur ki, İrəvan, Naxçıvan və Qarabağ qarnıyoğunlarını özümüzdən incidək ki, axırda məcmuəmizi İrəvan və Qarabağ mahallarında da haram bilsinlər.

[1] Mühəndis (rusca: "injener")

Amma şeytanın bu "qarnıyoğun" ləfzi bir neçə mətləblər mənim yadıma saldı.

İndi hər nə olacaq, olsun. Bizim də ümidimiz bunadır ki, bəlkə müsəlman qardaşlarımızın bəzisi günlərin bir günü məcmuəmizi əvvəlinci nömrədən 39-cu nömrəyədək vərəqləyəndə insafı ortalığa qoya və öz-özünə deyə: "Yox, Molla Nəsrəddin yalançı və böhtançı deyil".

Bəli, keçək mətləbə.

Qarnıyoğun... Çox məzəli sözdür.

Nədən adamın qarnı və boynu yoğunlayır?

Bununla işim yoxdur. Nədən yoğunlayır, yoğunlasın. Amma mən elə bilirdim ki, adamın bir az fikri, bir az dərdi olsa, qarnının piyi bir az əriyər və qarnı bir az nazikləşər.

Hər bir məmləkətdə, hər bir vilayətdə qarnıyoğun adam çoxdur. Qarabağda, İrəvan quberniyasında da qarnıyoğun az deyil. Bu cür adamların çoxu və bəlkə hamısı mülkədardır.

Qərəz, bununla da işim yoxdur.

Bir neçə gün bundan irəli mən gedib, Qarabağ və İrəvan quberniyasını gəzib-dolanmışam. Bu dəfə mən yəqin eləmişdim ki, bir dənə də qarnıyoğun adam görməyəcəyəm; ondan ötrü ki, İrəvan və Qarabağ aclarının vayılısı Tiflisdə gürcüləri ağladır. Məsələn, Qarabağda yüz altmış bir qarnıyoğun mülkədarı qabaqca mən tanıyırdım. Amma bu dəfə mən başıdaşlı nə gördüm? Heç birinin qarnı təfavüt eləməyib. İrəvan quberniyasında iki yüz otuz dörd qarnıyoğun xan, bəy, ağa var; heç bir təfavüt görmədim.

Burada lazımdır "lənət şeytana!" – deyib dayanmaq!

Ey mənim hörmətli oxucularım! Ey mənim munislərim![1] Mən bu sözləri ondan ötrü yazmıram ki, siz oxuyandan sonra məcmuəni qoyasınız kənara və bu sözləri yaddan çıxarasınız! Mən bu sözləri yazıram ki, siz oxuyub fikrə gedəsiniz. Mən bu sözləri yazıram ki, fikir edəsiniz, yazıram ki, fikir edəsiniz...

Erməni ləfzi bizlərdə söyüş kimi bir sözdür; bir müsəlmana erməni demək, onu bihörmət eləmək kimidir. Amma Yava cəzirəsinin ermənilər qafqazlı qardaşlarına ianə yığıb göndəriblər.

Yuxarıda söylədiyim qarnıyoğunların hamısını mən tanıyıram. Bunların bəzisinin o qədər dövləti var ki, Yava cəzirəsini satın ala bilər. Bəs aclar kimdirlər? Bunların öz rəiyyəti.

[1] Dostlarım

İrəvanda Baxşəli xanın otuz iki para kəndi var. Naxçıvanda elə mülkədar var ki, ildə otuz min, qırx min manat mədaxili gəlir. Əgər yalandır, qoy naxçıvanlılar yazsınlar ki, Molla Nəsrəddin yalan danışır.

Allah şeytana lənət eləsin!

Bunlar hamısı ötüşər.

Qərəz, mətləbdən uzaq düşdük. Amma həmd olsun Allaha, alimlərimizin mizaci-mübarəkləri səlamətdir. O ki qaldı kasıb və füqəralar, bunların dadına Allah-taala özü yetişər, bunların bəndəyə dəxli yoxdur. Xudavəndi-aləm öz yaratdığı məxluqun fikrini özü gərək çəksin.

Danabaş kəndində Molla Sadıq həmişə deyərdi:

– Millət deyəndə yer üzündə bircə müsəlman millətidir; özgə millətlər heyvan kimi bir şeydirlər.

Mən soruşardım:

– Hardan bunu bilirsən?

Deyərdi ki:

– "Ümdətül-əfkar" kitabında yazılıb.

Molla Sadıq düz deyirmiş. Amma bizim "Hophop" bir özgə cür deyir. "Hophop" deyir:

Hər nə versən ver, məbada vermə bir dirhəm zəkat,
Qoy acından ölsə ölsün binəva kəndli və tat.

Hər nə düz versən ver, oğlum, borcunu vermə tamam,
Hər nə alsan al, amandır, alma kasıbdan salam.

Hər nə etsən et və lakin etmə meydən ictinab,
Hər nə tutsan tut, məbada tutma bir kari-səvab.

Hər nə çəksən çək, vəli çəkmə xəcalət qübhdən,
Harda yatsan yat, ayılma, durma hərgiz sübhdən.

Hər yerə gəlsən gəl, amma gəlmə dərsə, məktəbə,
Hər kəsə uysan uy, amma uyma dinə, məzhəbə.

Hər nə çəksən çək, bəradər, çəkmə düz mizanüvi,
Çəkmə sən millət qəmin, çəkmə, çək öz qəlyanüvi.

Baxmasan eytamə baxma, baxma, bax löbətlərə,
Gəlməsən imanə, gəlmə, gəlmə, gəl lənətlərə.

Olmasan bir xeyrə bais, olma, ol bais şərə,
Etməsən imdad etmə, et sitəm acizlərə.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 8 dekabr 1906, №36

QAZANCIMIZ

Aşkardı ki, hər iş sahibi ilin axırında çotka və dəftərləri qoyar qabağına və başlar hesab etməyə ki, görsün qazancı nə olub və zərəri nə olub. Mən də bir həftə bundan irəli yoldaşlarımı yığdım başıma, qapıları örtdük və başladıq hesab görməyi; necə, məsələn, Ağdamda bir neçə müsəlman bir evdə oturub qapıları bağlayırlar və başlayırlar tədbir qurmağa və sonra gedib hökumətə xəbər verirlər ki, məsələn, filan müsəlman evində tüfəng saxlayır, flankəs keçən vaxtda filan xətanı eləyib.

Xülasə, yoldaşlarımı bir yerə cəm elədim və ağdamlılar kimi başladıq hesab görməyə.

Məlum oldu ki, biz doqquz ayın müddətində otuz doqquz nömrə "Molla Nəsrəddin" jurnalı yazmışıq və bu otuz doqquz nömrələrin içində yüz otuz doqquz mütrüb şəkli çəkmişik və bu şəkilləri çəkmək cəhətindən min doqquz yüz doxsan doqquz məşədi və kərbəlayıları özümüzdən incitmişik.

Pəh, pəh, pəh!.. Afərin belə qazanca, afərin belə alış-verişə! Doğrudan bu lap qədim Molla Nəsrəddinin yumurta alış-verişinə oxşadı!

Xülasə.

Bəli, doqquz ayın müddətində otuz doqquz nömrə məcmuə çıxartmışıq və bu otuz doqquz nömrənin içində yüz otuz doqquz çaxır içən piyan, yəni bədməst müsəlman şəkli çəkmişik və bu şəkilləri çəkmək cəhətindən min doqquz yüz doxsan doqquz mollanı özümüzdən incitmişik.

Pəh, pəh, pəh!.. Mərhəba belə alış-verişə! Həqiqət hər kəs bizə ağıllı desə, heç özünün ağlı yoxdu!

Qərəz, keçək hesabımıza.

Bəli, bu doqquz ayın müddətində otuz doqquz nömrə jurnal cızma-qaralamışıq və bu otuz doqquz nömrədə yüz otuz qumarbaz

şəkli çəkmişik və bu şəkilləri çəkmək səbəbindən min doqquz yüz doxsan doqquz mömin hacıları özümüzdən incitmişik.

Pəh, sən Allah, bu da bir alış-veriş oldu?

Bunlar hamısı keçəndən sonra, bu otuz doqquz nömrədə min doqquz yüz doxsan doqquz rəmmal, kimyagər, ilan oynadan, qüdrətdən həkimlik edən, qeybdən ruzi qazanan, tas quran, burun füləyən, falçı, qaraçı, qulibiyabani, damdabaca, əfsunkar, sehrbaz, kəndirbaz, quşbaz, itbaz, qurtbaz və nağıl, məsələ şəkli çəkmişik və bu şəkilləri çəkmək cəhətindən bütün islam aləminin yüz hissədən doxsan doqquz hissəsi biz ilə düşmən olub.

Maşallah belə alış-verişə! Maşallah belə alış-verişə!

Müxtəsər, keçək hesabımıza.

Bəli, yoldaşlarımızla oturduq hesaba, hesab elədik, elədik, elədik, elədik, bir də gördük ki, işıqlanır; necə ki, Qazax şəhərində bəylər axşamdan oturarlar qumara, oynarlar, oynarlar, oynarlar, oynarlar, oynarlar, – bir də görərlər ki, işıqlanır.

Buradan bir haşiyə çıxaq:

Hərdənbir oturaram və papağımı qabağıma qoyub fikirləşərəm və öz-özümə deyərəm: "Ay rəhmətliyin oğlu, axı bu müsəlmanlardan nə istəyirsən?", sonra öz-özümə cavab verərəm ki, "vallah heç özüm də bilmirəm ki, nə istəyirəm".

Məsələn, dünən yenə Misirdə çıxan "Sancaq" qəzetinin 67-ci nömrəsini qabağıma qoyub oxuyurdum, orada bir belə məqalə var idi: "Milləti-islamiyyənin inhitatı"; yəni "Müsəlmanların yuxarıdan guruppultu ilə aşağa düşməyi".

Bu məqaləni oxuyandan sonra, yenə öz-özümə dedim ki, axı ay rəhmətliyin oğlu, bu müsəlmanlardan nə istəyirsən? Sonra yenə öz-özümə dedim: "Vallah bilmirəm, nə istəyirəm".

Hə, bir şey yadıma düşdü, təzə xəbər: Maku sərdarı Murtuzaquluxan rəiyyətinə hökm edib ki, bir həftənin içində hər kənd iki yüz kəklik tutub sərdarın toy qonaqlığına gətirsin; əgər gətirməsələr, sərdar qonaqlara buyuracaq, hökmə əməl etməyənləri kəklik əvəzinə yesinlər.

Amma, öz aramızdır, hürriyyətdən qabaq belə hökmlər çıxmazdı.

Dəxi qabili-ərz bir sözüm yoxdu.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 6 yanvar 1907, №1

İDARƏDƏN

Oxucularımızın bir parası yazıb bizdən soruşurlar ki, nə səbəbə ingilis səyyahı Bekker dəxi Qafqaz meşələrindən bizə xəbərlər yazıb göndərmir.

Bunun səbəbi budur ki, cənab Bekker əvvəlinci məktubunu bizə göndərəndə şərt qoymuşdu ki, göndərdiyi məktubların biri çap olunmayınca dəxi o birini göndəməyəcək.

Biz Bekkerin axırıncı məktubunu çap edə bilmədik və bu cəhətə dəxi Bekker bizə bir şey yazıb göndərmir.

Bekkerin məktubunu çap etmədik, ondan ötrü ki, inanmadıq ki, məktubda yazılan əhvalat Qafqaz meşələrində üz vermiş ola.

Məktubun məzmunu budur:

Meşədə gördüklərim

Bir gün Bakıda bir evin qabağından keçirdim – gördüm bir belə səs gəlir:

Ay ağa aman günüdür, məni bağışla, yazığam... Evin qapısına baxıb gördüm ki, qapının yuxarısında yazılıb: "Müsəlman məktəbi". Mən əvvəl elə bildim ki, əlbət uşaqların birinin ayaqlarını qoyublar Molla Şükürün falaqqasına. Girdim içəri. Nə gördüm? Gördüm ki, bir zorba kişi yapışıb bir zəif kişinin yaxasından və çəkir küçəyə və iyirmi-otuzadək adam tökülüb bu zəif kişini döyürlər. Bir az da qabağa yeridim ki, görüm bu adamlar bu biçarədən nə istəyirlər. Bir şey başa düşmədim, ancaq bunu eşitdim ki, zorba kişi biçarənin peysərindən vura-vura deyir: "Bayıra çıx, filan-filan şüdə, bizə müsəlman müəllim lazım deyil". Bu biçarə də elə hey yalvarır ki, ay qardaşlar, rəhminiz gəlsin mənə, qoyun çıxım gedim. Amma əl çəkirlərmi? Kötək kötək üstündən gəlir... Müxtəsər, yazıq kişini saldılar küçəyə".

Bekker bizə göndərdiyi axırıncı xəbər həmin bu xəbərdir ki, çap etməmişdik. Hərçənd Qafqaz meşələrində olan işlər heç Amerika meşələrində də ola bilməz, amma genə ağla sığışmır bir nəfər aciz və fəqir və həqir və müsəlman aləmində vücudu bir qarışqa mənzələsində olan müəllimin üstünə iyirmi-otuz əliçomaqlı tökülüb döyə-döyə məktəbdən sala eşiyə.

* * *

Ay yüz il bundan sonra dünyada yaşayan nəvə və nəticələrimiz! Bəlkə yüz il bundan sonra "Molla Nəsrəddin"in köhnəlmiş və qat yemiş vərəqləri tozlanmış və çürümüş kitabların içindən çıxıb düşə əlinizə və oxuyasınız. Mən qorxuram ki, siz o vədə deyəsiniz ki, "bu rəhmətlik Molla Nəsrəddin bizim rəhmətlik babalarımıza böhtan deyib, çünki bu yazdığı əməlləri heç qədim əsrlərdə Germaniyanın çardaq altında yaşayan millətləri də tutmazdılar!".

Ey xoşbəxt nəvə və nəticələrimiz! Qorxuram belə deyəsiniz!

İmzasız

"Molla Nəsrəddin", 17 fevral 1907, №7

MİLLƏT QURBANLARI

Ay Molla Nəsrəddin baba, sən axır bir təcrübəli qoca kişisən, sən Allah bir məni başa sal görüm, millət yolunda can və malı fəda eləmək nə sözdür?

Məsələn, belə tutaq ki, birisi deyir "mən millət yolunda canımı və malımı fəda etmişəm". Mən ha fikirləşirəm, heç bu sözlərin mənasını başa düşə bilmirəm.

Dünən, məsələn, kitab dükanına getdim ki, bir cild "Məsalikülmöhsinin" alım. Soruşdum qiyməti neçədir? Kitabçı cavab verdi ki, qiyməti üç manatdır. Dedim bəlkə bu kitabçı bahacıldır, getdim bir özgə dükandan soruşdum, genə üç manat dedilər.

İndi, ay Molla əmi, sən Allah bir məni başa sal görüm, millət yolunda malı fəda etməyin mənası nədir?

Bağışla, Molla əmi, başağrısı verirəm, amma yadımdadır keçən vaxtlarda cənab Talıbov "İrşad" qəzetində yazmışdı ki, "mən malımı millət yolunda fəda etmişəm". Mən o vədə elə güman etdim ki, bəlkə cənab Talıbov əvvəl dövlətli adam imiş və var-yoxunu xərcləyib İran uşaqları üçün məktəb-zad açıb, ya vətən yolunda böyük pullar məsrəf edib və axırda özü kasıbçılığa düşüb. Amma sonra xəbərdar oldum ki, bunların heç birisi deyil və xəbərdar oldum ki, əvvəl Talıbov bir kasıb adam imiş, amma indi böyük dövlət qazınıb.

Genə fikrə getdim, dedim pəs görəsən bu ki yazır "mən malımı millət yolunda fəda etdim", pəs bu sözlərin mənası nədir?

Axırda xəbərdar oldum ki, cənab Talıbov kitab yazandır. Dedim hə, indi başa düşdüm və yəqin elədim ki, cənab Talıbov əlbət kitab yazır müsəlman qardaşlarına müftə paylayır ki, oxuyub adam olsunlar.

Molla əmi, hələ bir mən ölüm de görüm yazacaqsanmı mənim bu sözlərimi, ya yox?

Molla əmi, indi eşidirəm ki, cənab Talıbov yazdığı kitabların hamısı satılıb, məsələn, "Kitabi-Əhməd" – bir cildi iki manat, "Məsailülhəyat" – bir cildi bir manat, "Məsalikül-möhsinin" – bir cildi üç manat.

Molla əmi, sən Allah, incimə məndən, amma bir-iki mətbəəyə gedib kitab çap eləmək işlərini öyrəndim və hər yanda mənə cavab verdilər ki, bu kitablar hamısı qiymətindən üç baha satılır.

İndi mən cənab Talıbovun sözlərini yadıma salıram və nə qədər fikirləşirəm, fikirləşirəm, başa düşə bilmirəm ki, millət yolunda malı fəda etməyin mənası nədir? Sən Allah, Molla əmi, bir bax lüğətinə. Molla əmi, istəyirəm bir söz də deyim. İndi ki, başağrısı oldu, qoy sözümü deyim qurtarım.

Cənab Talıbov "İrşad"da yazmışdı ki, malından savayı canını da millət yolunda fəda edib.

Molla əmi, dəxi bu barədə mənim heç sözüm yoxdur: ancaq Teymurxan şuraya yolu düşən və cənab Talıbovun zindəganlığından xəbərdar olan iranlı qardaşlarımı bir dənə Allaha and verirəm, qoy desinlər: İranın hansı sərdarından, xanından və vəzirindən cənab Talıbovun istirahı, səadəti və cəlalı əskikdir?

Bağışla, Molla əmi, bəlkə mən qanmıram, avam adamam, amma onu bilirəm ki, canını millət yolunda fəda eləyən bu cür dövlət və cəlal sevməz. Belə olanda mən də arzu elərəm ki, cənab Talıbovun canı kimi kaş mənim də canım millət yolunda fəda olsun.

Hələ ki, xudahafiz, Molla əmi!

İmza: Millət yolunda canını və malını fəda edən bir nəfər Canfəda.

"Molla Nəsrəddin", 26 may 1907, №21

QIZ UŞAĞI

Qədim ərəblərin içində bir belə adət var idi ki, qız uşağı anadan olan kimi tutub onu boğarmışlar.

Amma şükür olsun Allaha, biz bu barədə ərəblərdən bir az yaxşıyıq. Biz qız uşağını boğmuruq.

Amma öz aramızdı, qız uşağı bir şey deyil. Mən bunu çox yerdə görmüşəm ki, qız uşağı olan evdə xeyir-bərəkət olmur və çox evə də qız uşağı düşmür. Mənim bir xalam var idi: gəlini oğlan doğanda qırxı çıxana kimi hər gün gəlinə quymaq pişirərdi, amma qız doğanda yavan çörəkdən savayı bir şey verməzdi yesin.

Bu hamıya məlumdur ki, birinin oğlu olanda xəbər gətirib muştuluq alırlar, amma qızı olanda evdə hamı yas saxlayır. Mənə uşaqlıqda nağıl edərdilər ki, mənim anam anadan olanda babam eşidib və istəyib gəlsin anamı boğsun. Amma boğsaydı, deyəsən pis olmazdı: nə mən indi dünyada olardım, nə bu sözləri yazardım, nə də oxucularımıza başağrısı verərdim.

Qərəz, evdə qız uşağı bir şey deyil. Amma söz buradadır ki, dəxi olandan sonra çarə nə: dəxi boğmaq ki, olmaz.

Sonra qız uşağı özbaşına başlayır böyüməyə. İki yaşa çatır, üç yaşa çatır, beş yaşa çatır və axırda gəlib çatır səkkiz yaşa.

Çünki hər bir yaranmış, hər bir canlı şey, hər bir heyvan gərək yavaş-yavaş böyüyə, qız uşağı da öz-özünə yekəlir. Hərçənd ki, heç kəs görmür ki, o yekəlir və heç kəsə lazım deyil onun yekəlməyi, amma qız yavaş-yavaş yekəlir.

Elə ki qız uşağı səkkiz yaşına çatır, bir gün görür ki, evlərinə üç nəfər arvad xəlayiqi gəldi. Arvadlar bir qədər qızın anası ilə danışıb gedirlər. Qız anasından soruşur: bu arvadlar niyə gəlmişdilər? Anası cavab verir ki, "o sənə borc deyil".

Axşam olur, qızın atası gəlir evə. Qızın anası əri ilə xəlvətcə bir neçə söz danışandan sonra qızı çağırırlar və deyirlər: a qız, sən indi yekəlib ağıllı-başlı qız olubsan, get ayaqlarını yu təmiz olsun və çadrasız küçəyə çıxma və hər kəs səni bundan sonra danışdırsa danışma. Çünki indi dəxi ayıbdı, maşallah sən ağıllı-başlı yekə qız olubsan.

Sabahkı günü haman üç nəfər arvad genə gəlirlər və bir az keçib qoyub gedirlər. Genə qız anasından soruşur ki, bu arvadlar genə nədən ötrü gəlmişdilər? Genə anası cavab verir ki, "sənə borc deyil".

Bir neçə gündən sonra qız baxıb görür ki, deyəsən işlər indi özgə işə oxşayır. Gələn, gedən, girən, çıxan, qonaq, çay, şirni, qənd, molla, qışqırıq, filan və filan.

Qız genə anasından soruşur ki, "bu nə qışqırıqdı?" Anası genə cavab verir ki, "sənə borc deyil".

Axırda qohum-qardaşlardan bir-iki arvad xəlayiqi yığışır, qızı zorman tutub uzadırlar yerə, qaşlarının tüklərindən bir neçəsini qopardırlar, qaşlarına və gözlərinə bir az qara mürəkkəb sürtürlər, yanaqlarına bir az gülnar qırmızısı yaxırlar, alnına və üzünə bir az gəc sürtürlər, başının tüklərindən bir az kəsib tel qayırırlar, sonra qızı durğuzurlar ayağa, çıxardırlar küçəyə, qabağına bir ayna tuturlar və başlayırlar mizləməyi.

Qız ağlayır, gözlərinin yaşını tökür, haray-dad eləyir ki, "axı məni hara aparırsınız?".

Arvadlar genə qıza deyirlər: "Çox danışma, atan gəlib qulaqlarını kəsər".

Yəni səkkiz yaşında qızı öz evindən zor ilə, çəkə-çəkə, mizləyə-mizləyə, qorxuda-qorxuda aparıb qatırlar bir özgə kişinin evinə və sonra qayıdıb gəlirlər. Qız ağlaya-ağlaya qalır özgə kişinin evində və nə qədər yalvarır ki, "ana, sən Allah, sən getmə burdan, barı sən də qal mənim yanımda ". Amma heç kəs qıza qulaq vermir. Çünki qız uşağı evdə bir şey deyil, başdan olmağı hamıdan məsləhətdir.

Sonra qızın qohum-qardaşları qayıdıb gələndən sonra bir zorba kişi gəlir qızın yanına.

Murdar və kafir urusların içində bir belə qayda var: hər kəs bir balaca qıza və yainki yekə qıza zor eləsə, haman adamı tutub göndərirlər on iki il Sibirdə katorqa çəkir.

Amma biz pakizə müsəlmanların da içində belə qayda var: bir kişi balaca qıza zor eləsə, biz haman kişini küçədə görəndə deyirik: "Allah mübarək eləsin".

Bunlar hamısı necə olur-olsun, amma qız uşağının evdən tez rədd olmağı çox məsləhətdir. Ondan ötrü ki, evdə qız uşağı bir şey deyil.

"Molla Nəsrəddin", 8 iyul 1907, №25

PAPAQ

73-cü nömrəli cənab "Təzə həyat"ın xoşuna gəlmir ki, rus qızları bizim papaqlara gülürlər və papaqlı müsəlmanla bir yerdə gəzmək istəmirlər. Cənab "Təzə həyat" təəccüb edir ki, ruslar papağı bir verstlikdən görüb qaçırlar.

"Təzə həyat"ın yazmağından mən belə başa düşdüm ki, cənab "Təzə həyat" burada rus qızlarını və xam rusları günahkar edir, nəinki papağı.

Əgər izin olsa, bu barədə bir az danışarıq.

* * *

Doğrudur, yer üzündə papağın şöhrəti çoxdur, rus qızlarının içində də çoxdur, xam rusların içində də çoxdur. Firəngistanda da papağın şöhrəti var; amma o dərəcədə ki, Sibir vilayəti və Saxalin cəzirəsində bizim papağımız şöhrət qazanıb, heç bir millətin şapkası o şöhrəti qazanmayıb, qazanmayacaq və hünəri də deyil qazansın.

* * *

Rus qızı papaqlı müsəlmanla ondan ötrü gəzmək istəmir ki, biçarə qız bunu yəqin bilir ki, əgər papaqlı müsəlman bağda adamların içində gəzə-gəzə qıza birdən-birə deyə ki, "mən ölüm qoy üzündən öpüm" və əgər qız buna razı olmaya, papaqlı müsəlman xəncəri çıxardıb istəyəcək soxsun qızın qarnına.

Bu səbəbə rus qızı papaqlı müsəlmandan qaçır.

* * *

Gör işlər nə yerə çatıb ki, Allahın xam rusları da papaqdan qaçırlar. Yazıqlar nə eləsinlər ki, gözləri qorxub.

Hər yanda ki, bir rus papaqlı müsəlmana rast gəlib, rus qabaqca şapkasını çıxardıb papaqlı qardaşımıza deyib: "Zdrasti". Amma bunun cavabında papaqlı müsəlman rusu bu cür başlayıb söyməyə: "Donquz oğlu donquz! Necə iyrənmirsən ki, donquz əti yeyirsən?"

Rus bir az baxıb və sonra deyib ki, "sənə bunun nədir zərəri?"

Papaqlı qardaşımız əlini uzadıb qəməsinə ki, çıxardıb soxsun xam rusun qarnına.

* * *

Papağın şöhrəti yer üzündə çox artıqdır. Dünya xəlq olunandan indiyədək ağzından südün qoxusu kəsilməmiş yeddi-səkkiz yaşında qız uşaqlarımızı çığırda-çığırda götürüb qaçanlar, çığırda-çığırda mollanın yanına aparanlar, mollanın yanından çığırda-çığırda öz evinə sürüyənlər, çığırda-çığırda özünə övrət edənlər və on yeddi gün həmin qızı çığırda-çığırda evində boğanlar kim olublar?

Cənab "Təzə həyat", buyur görək kim olublar?

Haman papaqlı qardaşlarımız olublar.

Amma dünya xəlq olunandan şapkalı millətlər içində belə işlər baş verməyib, verməyəcək və verə bilməz!

* * *

Hələ bunlar bir saatlığa qalsın kənara.

Kimdirlər bizim balaca uşaqların dalına düşənlər, bunların dərdindən ölənlər, bunların yolunda öz evlərindəki kəbinli övrətlərini gecələr evlərdə kişisiz qoyanlar, məktəb uşaqlarımızın Bakı küçələrində yollarını kəsənlər və bu tövr eşqbazlıqlar üstündə birbirinin qanını tökən cavanlar?

Həmin papaqlı qardaşlarımız.

* * *

Məsələn, səfərdəsən, yol ilə gedirsən. Görürsən uzaqdan iki-üç atlı gəlir. Uzaqdan diqqət edirsən ki, görüm əgər bunların başında papaq var, kəlmeyi-şəhadətimi oxuyum.

Allah rast salır ki, atlıların başında papaq olmur; məsələn, görürsən ki, şapkalı rus saldatlarıdır, yainki üç nəfər şlyapalı ruslardır ki, ovdan qayıdırlar. Elə ki uzaqdan papaq əvəzinə şapka görürsən, ürəyin sakit olur.

* * *

Bəs belədir cənab "Təzə həyat"! Əgər ürəyin sıxılmaq istəyir, ona sıxılmasın ki, xanım ruslar və rus qızları bizim papağı bəyənmirlər. Əgər ürəyin sıxılmaq istəyir, qoy buna sıxılsın ki, nə səbəbə özgə millətlərin şapkaları o şöhrəti qazanmayıblar ki, nə qədər bizim papaqlar qazanıblar.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 15 iyul 1907, №26

OĞLANLARINIZI OXUTMAYIN

İndi hər kəs bizim bu sərlövhəmizi görsə, xəyal edəcək ki, biz səhv edib oğlanlarınızı oxudun əvəzində, oxutmayın yazmışıq. Xeyr, biz səhvlə yazmamışıq, elə doğrusu odur ki, yazmışıq. Mən genə deyirəm: əgər oğlanlarınızı axırda evləndirmək fikrinə düşəcəksinizsə, əgər onu ev, əyal, övlad sahibi eləmək istəyəcəksinizsə, məndən sizə əmanət, məbada, oxudasınız. Siz görməmisiniz, siz bilmirsiniz, amma mənim başıma gəlib, mən görmüşəm və bilirəm, qulaq verin səbəbini deyim, oxutmayın deməyə haqqım var, ya yox və görün bu oxuyanlarda heç ağıl, kamal, şüur və səliqə olur, ya yox. Bəndəzadə Əhməd gimnaziyadan qurtaran kimi dedim, oğul, dəxi indi evlənmək vaxtındır, gərək səni evləndirim. Dedi, ata, hələ mən uşağam. Dedim, ay oğul, biz ata-baba görmüşük ki, adam on dörd, on beş yaşında evlənər, indi sənin on doqquz yaşın var! Dedi, ata, hələ mən uşağam, özüm də hələ gedib universitetdə oxuyacağam. Dəxi bir söz demədim, dedim get oxu, bala. Getdi Peterburqda oxudu, oradan da getdi nə bilim Parijə, hara. İndi hamısın qurtarıb gəlib, özünün də tamam iyirmi yeddi yaşı var. Çox sual-cavabdan sonra evlənməyi boynuna qoymuşam, amma deyir ki, mən gərək oxumuş qız alam. Dedim, yaxşı onu da elərəm, Kərbəlayı Qənbərin qızın alım sənin üçün. Gör mənə nə deyir, deyir ki, hansı uçkolanı tamam edib? Dedim, balam, uçkol nədi, Molla Bacıda neçə illər oxuyub, Quranı çıxıb, hər cümə axşamı mərhumə anası üçün bir yasin də oxuyur. Dedi işimə gəlməz. Dedim niyə? Dedi oxuyub kurs tamam etmiş olmasa, yəni təkmili obrazovaniyyə olmasa mən almaram. Çünki bunun xilafı olsa, nə o məni xoşbəxt edə bilər və nə mən onu.

Eləcə bu sözlərə dondum qaldım. Getdim bir neçə gün fikirləşdim, soraqlaşdım, axırda tapdım. Sevinə-sevinə gəldim dedim, oğul, tapdım. Dedi kimdi? Dedim Məşədi Fərzəlinin qızı. Dedi hansı uçkoladan qurtarıb? Dedim Bakıdakı qız məktəbindən: həm rusca bilir, həm də müsəlmanca. Dedi işimə gəlməz. Dedim niyə? Dedi: Mən bu qədər zəhmət çəkmişəm, məşəqqət çəkmişəm, nə bilim gedib harda, harda nə zillətlə ülumi-aliyə təhsil eləmişəm, indi insafdır gəlib, beş kəlmə əlif zəbərə Ə və üç kəlmə də A, B deyənlə təzvic eləyim? Heç yaraşarmı? Heç müsahibəmiz tutarmı? Elə mən bunları eşidən kimi lap naümid oldum, biixtiyar durdu gözlərimdən yaş tökülməyə. Əhməd belə görcək mənə rəhmi gəldi. Dedi, ata,

ağlama, ağlama, diriliyimi, rahatlığımı, istiqbalımı mülahizə etməyib sənin xahişini əmələ gətirərəm. De görüm neçə yaşı var? Dedim on beş! Elə bunu eşitcək dik qalxdı ayağa, dedi işimə gəlməz. Dedim niyə? Dedi uşaqdı, əqəllən gərək iyirmi yaşı ola.

Bax bunu deyirəm ha! Bu oxumuşların nə ağlı-kamalı olur, nə də səliqəsi. Sən Allah buna bax. Mən hələ elə bildim ki, deyəcək sinni keçib. Vaqiən qızın ki yaşı on ikini keçdi, bir qəpik qiyməti. Amma bu bifərasət deyir ki, uşaqdı. İndi, qardaşlar! Əgər biz oğlanlarımızı oxutsaq, gərək qızlarımızı da oxudub onlar üçün əyal hazır edək. Onda gərək bizim də qızlarımız iyirmi, iyirmi iki yaşa kimi gedib oxuyalar, təkmil olalar ki, ülumi-aliyə tamam etmiş oğlanlarımıza layiq olalar. O biqeyrətliyi və günah əmri də ki, biz etməyəcəyik ki, qızlarımız üzüaçıq gedib o payələrəcən oxusunlar. Pəs onda məndən sizə nəsihət: oğlanlarınızı da oxutmayın.

Qızdırmalı
"Molla Nəsrəddin", 20 oktyabr 1907, №39

ÖLÜLƏR

Qabaqca bir neçə söz

Bu məqalədə biz bir para acı sözlər danışmaq istəyirik; amma gərək danışmayaydıq. Ondan ötrü ki, bir yandan abunə elanı yazırıq ki, bizim jurnalımıza təzə il üçün abunə olsunlar və bizə pul göndərsinlər, bir yandan da başlamışıq müsəlmanlara sataşmağa. Söz yox, heç bir molla belə eləməz ki, biz eləyirik. Məsələn, qaydaya və adətə baxsaq, gərək abunə elanının altında biz belə bir dua eləyəydik:

"Ay bizə beşcə manat abunə pulu göndərən, Allah görüm səni yerin və göyün bəlasından hifz eləsin! Amin – deyən dil lal olmasın. Amin, ya rəbbül-aləmin!"

Hələ mollaları qoyaq kənara. Hətta yazıçılarımızdan, görürsən ki, bir parası elə yağlı dillər və sözlərlə camaata yaranır ki, heç mərsiyəxanlar da o sözləri bacarmazlar. Bir para adamlar qələmi əllərinə alan kimi yalandan başlayır: "Ay mənim yaxşı millətim! Qadan alım, ay mənim millətim! Nə qədər canım sağdır, – hazıram

sənə canımı fəda edəm, ay mənim gözəl millətim! Ay millətlərin padşahı millətim!.."

* * *

Amma, vallah, Molla Nəsrəddin yalan danışa bilməz; biz deyirik ki, belə milləti biz canü dildən istəyə bilmərik (bəlkə içində bir-iki yaxşısı tapıla).

Biz belə deyirik ki: bir millət ki, müsəlman qəbiristanının yanından keçəndə görə ki, bir özgə millət müsəlman ölülərinin sümüklərini çıxardıb, tullayır kənara və öz ölüsünü onun yerində dəfn edir, – biz belə milləti istəyə bilmərik.

* * *

Əhvalatı başdan başlayaq.

Keçən vaxtlarda Bakıda bir köhnə qəbiristan var idi. Hökumət müsəlmanlara təklif elədi ki, bu qəbiristanın ətrafına bir hasar çəksinlər ki, itlər gəlib, orada məşğuliyyət eləməsinlər. Müsəlman camaatı hökumətə ərizə yazıb cavab verdi ki, "bizim indi belə işlərə vaxtımız yoxdur; ondan ötrü ki, biz indi məşğuluq... mütrübbazlığa, lotu və qoçubazlığa və mollalarımız da ticarətə məşğuldurlar..."

Sonra Tağıyev qabağa düşüb, qəbiristanı hasarladı; amma müsəlman camaatına Tağıyevin hərəkəti xoş gəlmədi; çünki xalq elə güman elədi ki, Tağıyevin fikri axırda qəbiristanlığı sahiblənməkdir. Müsəlmanlar vurdular hasarı dağıtdılar. Sonra da hökumət baxıb gördü ki, müsəlmanlar istəmirlər öz qəbiristanlıqlarına sahib dursunlar. Hökumət bir az baxdı, baxdı, baxdı və öz-özünə dedi ki, "vallah, bura yaxşı yerdir və bu yer müsəlmana da lazım deyil".

Görüm nə deyəcəkdim?..

Mən deyirəm ki, Bakının qazısı indi bu saat gündə bir dəfə faytona əyləşib, haman qəbiristanlığın kənarında o tərəfə və bu tərəfə keçəndə görür ki, müsəlman ölülərinin sümüklərini qazıb, tullayırlar kənara. Cənab qazı sümüklərə baxıb, bir söz demir; amma yazıq sümüklər hər dəfə cənab qazını görəndə dilə gəlib deyirlər: "Bax, budur bizim diri qardaşlarımıza nicat paylayan, budur bizim qardaşların başının sahibi".

* * *

Vətəni istəmək təbii bir şeydir. Vətən də ibarətdir vətəndaşlardan, yəni insanın öz millətindən. Bir adam istəyir millətini istəsin, amma sabah vətəndaşlarını küçədə görən kimi ikrah eləyir. O biri gün yenə istəyir məhəbbət eləsin, amma o biri günü yenə iyrənir. Və iyrənmək çox asandır.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 9 dekabr 1907, №46

MIRT-MIRT

Vacib və lazımlı bir məsələ var ki, ona da heç diqqət eləmirik və qulaq asmırıq, deyirik: "Eh, necə olacaq olsun!"

Sözüm buradadır ki, bu axır vaxtlarda bizim yetişmiş qızlarımıza ər tapılmır və bir neçə il gözləyirlər, – axırda da hər kəs rast gəlir, – gedirlər, amma çoxu da qalır evdə və özünə layiq oğlan tapa bilmir ki, getsin. (Dövlətli qoca kişilərin kefidir ha!)

Bunun səbəbi nədir? Niyə qızlarımız çoxalıb və evlənən cavanlarımız azalıb?

Bunun səbəbi budur ki, oğlanlarımız gedib Avropa dərsi oxuyurlar və Avropa tərbiyəsi alırlar. Bunların da bir parası dərsi qurtarıb, vətənə qayıdıb gələndə öz yanlarınca rus, yəhudi, ya qeyri bir millətlərin qızlarından birini seçib gətirirlər və kəbin kəsdirib, özlərinə övrət eləyirlər.

Cavanlarımızın da bir parası qayıdıb gəlir vətənə ki, burada öz səliqəsinə müvafiq bir müsəlman qızı tapıb alsın. Amma gəzir, dolanır, xəbərləşir və axırda görür ki, dərs oxumuş və tərbiyə tapmış müsəlman qızı yoxdur. Bir neçə il də gözləyir, gözləyir və lap axırda ya bu da gəlir bir rus qızı, ya yəhudi qızı tapır, ya da "cəhənnəmə, gora!" – deyib, gedir bir müsəlmañ qızı alır.

Bəli, qızı alıb gətirir evə və öz-özünə deyir ki, "bəlkə bir tövr ötüşək!"

Bir gün səhər tezdən övrət yerindən durur, istəyir geyinsin getsin anasıgilə, kişi soruşur ki, "niyə gedirsən?", övrət cavab verir ki, "bu gecə yuxu görmüşəm, gedirəm anama deyim, getsin Molla Haqverdiyə kitaba baxdırsın". Kişi deyir ki, "nahaq yerə zəhmət çəkib getmə, ondan ötrü ki, yuxudan heç bir şey bilmək olmaz".

Övrətin bu sözlər xoşuna gəlmir, ərindən küsür və iki gün ərilə danışmır.

Bir neçə gün də keçir. Bir gün kişi diqqət eləyib görür ki, övrəti gündüzlər ayağına corab geymir, qardaşının da və qeyri yad kişilərin də yanında ayaqları çılpaq dolanır; amma, söz yox, üzünü və başını çarqatnan bərk-bərk gizləyir. Əri deyir ki, "ayıbdır, ayaqlarına corab gey", övrət cavab verir ki, "sən Allah ətimizi tökmə, evdə adam corab geyməz, adam yasa gedəndə, ya hamama gedəndə corab geyər".

Bu da kişinin acığına gəlir və burada da kişi iki gün övrətindən küsüb danışmır.

Bir neçə gün də keçir. Övrət görür ki, həmişə axşamlar əri qabağına kitab qoyub oxuyur, ya bir kağız götürüb yazır. Övrət bikar oturub başlayır əsnəməyə. Bir az keçir, övrətin yuxusu gəlir və kişi də kitabından və kağızından əl çəkmir. Bir az da gözətləyəndən sonra, övrət hirsli girir ərinin otağına və başlayır bu cür məzəmmət eləməyə: "A kişi, sən olasan Allah, bu kitabları və kağızları tulla cəhənnəmə, az bu cinlərnən və şəyatinlərnən mırt-mırt danış, canına yazığın gəlsin! Bu nədir yuxunu özünə haram eləyirsən ki, nə bilim nə var? Bir canına yazığın gəlsin, bir usan, ay bu kitab-mitabı icad eləyənin evi yıxılsın!"

* * *

Bu bir lazımlı və yenə lazımlı məsələdir. Əgər bu məsələni elə bu halətdə qoysaq, oxumuş cavanlarımızın heç biri müsəlman qızı almaz. Bu dərdə bir çarə tapmaq lazımdır; elə bu saat tapmaq lazımdır, sabaha da qoymaq olmaz!

Bizə qalsa, biz buna iki çarə bilirik:

1. Bunun bir çarəsi budur ki, oğlanlarımızı dəxi bundan sonra Avropa tərbiyəsinə qoymayaq; məsələn, Nehrəmin, Ordubadın cavan oğlanları həmişə Təbrizdə "elm" təhsil eləyirlər və vətənlərinə qayıdıb gələndən sonra evlənirlər və ömürlərinin axırına kimi də xoşbəxt yaşayırlar. Ya gərək belə ola.

2. Ya da ki, oğlanlarımızı Avropa dərsinə göndərəndə qızlarımızı da qoyaq dərsə ki, heç olmasa Avropa elmindən və tərbiyəsindən barı yarımçıq da olsa, bir az oxusunlar və öyrənsinlər.

Biz belə qanırıq və belə də deyirik. Hər kəs nə cür qanır, elə də qansın.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 10 fevral 1908, №6

MİKROBLAR

Elə həmin sözlərdir ki, eşidirik.

Hər bir qəzeti əlimizə alsaq, görəcəyik ki, elə həmin sözlərdir ki, ha eşidirik; məsələn, hər bir rastımıza gələn qəzeti açıb oxuyaq:

"Qərinələrlə məst olub cəhalətə uyduq, nə gördük, nə qazandıq? Hansı günümüzü xoş keçirdik? Hansı nicat yolunu açdıq ki, bizdən sonra gələnlər də bizim günümüzə düşməsin? Xaricilər desələr "biz elm oxuyub sənət öyrəndik, insaniyyət hüququnu anlayıb birbirimizə rəhm etdik, adam öldürməkdən qaçıb yetimə və fəqirfüqəraya kömək etdik və övladımızı oxudub bizdən sonra gələnlər üçün ruzi yolu göstərdik, siz nə elədiniz?" – biz hansı xoş əməllərimizlə onlara cavab verək?" və ilax.

Elə həmin sözlərdir ki, rus-yapon davasından indiyədək eşidirik... Elə həmin sözlərdir.

İndi müsəlman qardaş da bu cür sözləri eşidəndə, dinməz-söyləməz qəzeti bükür qoyur kənara və "eh!" deyib durur gedir işinə. Və çox əcəb eləyir; ondan ötrü ki, bunların hamısına bizim məhəllədə deyərlər "boş-boş danışmaq".

Bir naxoşun üstə həkim gətirəndə həkim əvvəl yapışır naxoşun nəbzindən, sonra qulağını qoyur döşünə və deyir ki, "sənin azarın, məsələn, qızdırmadır, yainki, boğaz ağrısıdır". Əgər həkim bircə bu sözləri deyəndən sonra, durub qoyub getsə və azarlıya bir müalicə yolu göstərməsə, biz həkimə çert qəpik də verməri; amma həkim azarlının azarını biləndən sonra, qızdırmaya xinə[1] verir, boğazı ağrıyanın boğazına "yod" sürtür, xolera tutana "butin" davası verir, yaralının yarasına "yodoform" sürtür. Bu davaların cümləsi bir növ zəhərdir ki, azarlının bədəninə daxil olanda naxoşluğun mikroblarını, yəni naxoşluğa səbəb olan həşəratı puça çıxardır ki, axırda azarlı şəfa tapır.

Bizim bəzi boşboğaz yazıçılarımız da oxşayırlar həmin təbiblərə ki, azarlının nəbzinə baxandan sonra, "xudahafiz" deyib börklərini axtarırlar.

[1] Kinə

* * *

Qərinələrlə millətimizin şirin canına milyonlarca ac mikroblar daraşıb qanını sormaqdadır və məhz bu həşəratdır milləti xəstə edən, məhz bu mikroblardır onu bədnam edən!

"Nicat, nicat" deməklə nicat yolu öz-özünə tapılmaz! "Məktəb, məktəb" deməklə məktəb öz-özünə açılmaz və açılsa da, "Çameyi-Abbas" kitabından savayı orada bir özgə dərs verilməz.

Müftə-müftə "nicat", "məktəb" deməklə "Fatıya tuman olmaz!" Lazımdır mikrobları millətin bədənindən kənar eləmək! Yoxsa nə göz yaşı tökməklə azarlı şəfa tapar, nə dua yazmaqla!

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 2 mart 1908, №9

MURDAR

İrəvan şəhərinin yavıqlığında Toxmaxangöl adlı müsəlman kəndinin dağılmaq xəbərini "Zaqafqaziya" qəzetində oxuduq.

Əhvalat belədir ki, otuz il bundan qabaq bir neçə müsəlman, şəhər yerini icarəyə götürüb, başlayıblar əkinçiliklə güzəran eləməyə və həmin yerdə dam-daş tikdirib, bir balaca kənd salıblar. İndi şəhər idarəsi müsəlmanlara deyir ki, "çəkilin gedin buradan!". Kəndlilər soruşurlar ki, "biz ki icarə pulunu tamam-kamal veririk, nədir bizim günahımız ki, bizi kəndimizdən qovursunuz?" Şəhər idarəsi cavab verir ki, "kefimiz belə istəyir". Müsəlmanlar möhlət istəyirlər ki, özlərinə bir özgə yer tapsınlar və evlərini öz əllərilə söküb dirəkpərdilərini və akoşkalarını çıxardıb aparsınlar. İdarə möhlət vermir və bir neçə gün bundan qabaq bir dəstə adam göndərib kəndi dağıdır.

Müsəlmanlar qaçırlar İrəvana ki, İrəvan müsəlmanlarından haray istəsinlər. Amma görürlər ki, cavan bəyzadə və xanzadələr dəstə-dəstə faytona minib, gedirlər vağzala ki, Tiflisdən gələn rus qızlarını faytona mindirib aparsınlar kefə. Kəndlilər hər bir tacirin və hacımöşədinin yanına gedirlər ki, sözlərini desinlər, – hamısı bunlara cavab verir ki, "itil cəhənnəmə!"

Sonra kəndlilər gedirlər məscid çarsusuna və görürlər ki, camaat məscidə tərəf hücum çəkib. Kəndlilər də camaatın dalınca gedirlər

göy məscidə ki, bəlkə orada bunlara bir tədbir tökən ola. Şəhərin vaizi çıxır minbərə və üzünü camaata tutub deyir:

"Taleyi cövza – yəni müsəlman bəndələrin bəzisi cövza taleyində olurlar; yəni hər kəs ki, cövza taleyindədir, xoşbəxt adamdır və həmişə xoşbəxtlik ilə gününü keçirir, amma bu şərt ilə ki, ürəyində olan dərdini heç kəsə söyləməsin; ondan ötrü ki, dərdlərə dərman edən tək bir Allahdır və bəndəyə dərdi söyləməklə heç bir əlac ola bilməz!".

Toxmaxangölü dağıtdılar. Deyirlər ki, həmin gün yağış yağırdı, hava da bərk soyuq idi. Övrətlər əmcək uşaqlarını bağırlarına basıb tökülmüşdülər küçəyə. Balaca uşaqlar ayaqyalın, titrəyə-titrəyə və ağlaya-ağlaya pərən-pərən düşmüşdülər.

İrəvanda yaşayan müsəlman qardaşlar bunu bilirlər; dəxi onlara bizim deməyə bir sözümüz yoxdur. Amma biz qeyri yerlərdə olan müsəlman qardaşlara istəyirik bir neçə söz deyək:

– Kəndlilər İrəvan şəhərini başdan-axıra kimi gəzib hər bir müsəlmana ki, pənah gətirdilər, hamısı cavab verdi ki, "itil cəhənnəmə, mənə nə borcdur!". Amma bu saat İrəvanda çox möminlər var ki, "Molla Nəsrəddin"i ehtiyatla bükür kağıza və bir cavan adam tapıb deyir ki, "al bunu, oxu görək Molla nə yazır". Cavan soruşur ki, "niyə özün oxumursan?!" Mömin cavab verir ki, "murdardı".

* * *

Yer üzündə mənim xəyalıma heç bir millət gəlmir ki, onun gözünün qabağında qardaşlarının kəndini dağıdıb övrət-uşağı çölə tökələr və o millət kənardan durub baxa.

Ölmədik, bunu da gördük!..

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 30 mart 1908, №13

DİL

Mən indiyə kimi inciyərdim o müsəlmanlardan ki, öz dillərini bilə-bilə bir-birinə rus dilində məktub yazırlar. Amma indi incimirəm.

Darülfünun qurtarmış cavanlarımızın hamısı rus dilində yazı-pozu eləyirlər; müsəlmanca savadı olanlar da eləyir, olmayanlar da eləyir. Əvvəllər mən buna razı olmazdım; amma indi razıyam. Hətta qəzet müdirlərimizdən bizə indiyədək bir neçə kağız gəlib: bunların hamısı rusca yazılıb. Müəllim rəfiqlərimiz də bizə rusca kağız yazırlar. Az qalıb ki, mollalarımız da rus dilində irsal-mərsul[1] edələr; amma eləmirlər. Məhz ondan ötrü ki, rusca bilmirlər.

Bu işlərə əvvəllər mən təəccüb elərdim, amma indi eləmirəm. Səbəbi var:

Müsəlman yazıçılarından mənim bir nəfər dostum var ki, qabaqlarda mənə kağız yazanda həmişə türk dilində yazardı. Amma iki həftə bundan irəli haman dostumdan bir kağız aldım; bu kağız rusca yazılmışdı. Rəfiqimiz dünən bir vacib işdən ötrü gəlmişdi idarəmizə və söhbət arasında axırıncı kağızını rusca yazmağının səbəbini soruşduq. Rəfiqimizin cavabını burada yazırıq ki, möhtərəm oxucularımız oxusunlar və oxuyandan sonra haman sözləri cib dəftərlərinə yazsınlar ki, bari bizdən sonra gələnlər üçün bir yadigar qalsın. Rəfiqimiz belə cavab verdi:

– Cənab Molla Nəsrəddin, mən bilirəm ki, şəxs gərək öz dilində danışsın və öz dilində yazsın. Amma mən müsəlman hürufatı ilə yazı-pozu eləməyi dəxi bilmərrə tərgitdim və buna iktifa eləməyib[2], evladıma da vəsiyyət edəcəyəm ki, müsəlman dili üçün təzə bir hürufat icad olunmayınca müsəlmanca bir kəlmə söz də yazmasın.

Mənim Fatma adında bir bacım var ki, həmişə anamla bir yerdə kəndimizdə olar. Bacımın beş yaşında bir azarlı oğlu var idi, mənim xahişimə görə bacım oğlunu gətirmişdi bizə ki, həmin bir-iki ay bizə qonaq olsun, həmi də İrəvan həkimləri uşağa müalicə eləsinlər. Anam və bacımın əri İsmayıl bəy qalmışdılar kənddə. Bacım Fatma da hamilə idi və doğmağına bir neçə gün qalanda əri İsmayıl bəylə

[1] Məktublaşma

[2] Kifayətlənməyib

gəldi İrəvana. Uşağı Russo həkim müalicə eləyirdi. Fatma doğdu və bir oğlu oldu. Bir gün keçəndən sonra poçta yolum düşdü və bir açıq kağız alıb kəndimizə Molla Cəfər rəfiqimizə müxtəsər yazdım: "Anama de ki, Fatmanın oğlu oldu". Kağızı saldım qutuya.

Molla Cəfər kağızı alır və elə bilir ki, mən yazmışam "Fatmanın oğlu öldü", yəni vəfat elədi; çünki molla bunu bilirmiş ki, bacım İrəvana gəlib naxoş oğluna müalicə elətdirsin və hamilə olmağını ya bilmirmiş, ya xəyalında deyil imiş. Əvvəl Molla Cəfər istəmir bu cür pis xəbəri anama yetirsin, hətta məndən narazı olub ki, qoca övrətə mən niyə bu tövr qəmli xəbəri yazıram.

Xülasə, üç gün keçəndən sonra, evdə oturmuşduq, gördük qapı döyülür və bir övrət ağlayır. Qapı açılan kimi biçarə anam "bala vay!" deyib, özünü çırpdı yerə və bihuş oldu.

Mən o saat işi duydum və bacımın böyük oğlunu və təzə doğduğu uşağı da gətirib qoyduq anamın qucağına. Handan-hana yazıq övrət gözlərini açdı və başladı uşaqların ikisini də öpüb qucaqlamağa.

– Allah Molla Cəfərə insaf versin!

– Allah müsəlman hürufatını da icad edənə rəhmət eləsin!..

Rəfiqim sözünü deyib qurtardı.

Mən də sözümü qurtarıram və ancaq bunu demək istəyirəm: hər kəs rusca, yainki ermənı və gürcücə, yainki avropalılar işlətdikləri hürufatla yazı yazmaq bilir, – bizim sözlərimizi başa düşər və bilər ki nə deyirik. Amma hər kəs bu dillərin heç birində basavad deyil, – yəqin ki, bilməyəcək nə deyirik.

* * *

Əvvəl mən təəccüb eləyirdim ki, bir az rusca "net-pet" deyən cavanlarımız müsəlmanca basavad ola-ola rus dilində yazı yazır; amma indi dəxi təəccüb eləmirəm.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 12 may 1908, №19

MÜSƏLMAN

Bakıda indi belə adət düşüb: məsələn, istəyirsən bir ev kirayə eləyəsən və görürsən ki, divara elan yapışdırıblar ki, "burada bu qədər otaq kirayə verilir".

Qapını döyürsən, ev sahibi çıxır qapıya. O da müsəlman, sən də müsəlman.

– Hə, nə istəyirsən?

– İstəyirəm evinizi kirayə eləyəm.

Əgər ev sahibi gördü ki, başında papaq var, sənə cavab verəcək ki, "mənim kirayə verilən evim yoxdur".

– Ay hacı, ay bəy, axır elan yapışdırıbsınız?!

– Xeyr, xeyr. Kirayə verilən evim yoxdur.

Amma ev sahiblərinin çoxu məndənə sənə cavab verəcək ki, "mən evimi müsəlmana vermərəm".

Bütün şəhəri gəzəsən, heç bir müsəlman səni evinə qoymayacaq. Axırda çarəsiz qalıb, gedirsən rus, yəhudi və ermənı evində otaq tutub qalırsan. Müsəlmanlar da evlərini verirlər ruslara, yəhudilərə, qeyri millətlərə.

Bu adətin iki yaxşı nəticəsi var: biri budur ki, müsəlman ev-darları müsəlmanlara evlərini kirayə verməyəndə müsəlmanlar da gedirlər özgə millətlərin evlərində qala-qala bunlarnan üns tuturlar, yavıqlaşırlar, mehribanlaşırlar və bu da axırda millətlərin bir-birilə dostlaşıb, bir-birinə qarışmalarına səbəb olur. Müsəlman evdarları evlərinə müsəlmandan savayı hər milləti qoymaqdan həmçinin belə nəticə hasil olur.

Yenə şükr eləmək lazımdır. Necə ki müsəlmanlar deyirlər: "Lənət heçə"; ruslar da deyirlər ki, "dünyada hər bir pis işin yaxşı tərəfi də var".

Yenə Allah bərəkət versin!

Qaldı bu adətin ikinci nəticəsi: ikinci nəticəsi də budur ki, Bakı müsəlmanları evlərini müsəlmanlara verməməklərindən bu çıxır ki, müsəlmanlar pis adamdırlar. Bu da ki köhnə sözdür.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 7 iyul 1908, №27

ŞEYTAN

Şeytan, şeytan, şeytan...

Müsəlman ömründə bir qədəm qoya bilmir, heç bir işə yapışa bilmir ki, orada şeytan olmasın. Dünyanın heç bir nöqtəsində, heç bir tayfa arasında şeytan o qədər modda deyil ki, biz müsəlmanların arasındadır. Hər bir işdə, hər bir məqamda, məscid və minbərdən başlamış – evlərimizə, küçələrimizədək öz qəlblərimizi şeytanın adı ilə doldurmuşuq.

Belə fərz edək ki, indi rəməzan daxil oldu. Vaizlərimiz minbərə çıxıb əvvəl xanlarımıza, əğniyalarımıza[1], qolu çomaqlılarımıza və qoçularımıza rəhmət oxuyub, axırda deyəcəklər: "Allah şeytana lənət eləsin!"

Balaca uşaqlarımızı "xortdan"dan və "damdabaca"dan qorxuzan kimi, müsəlmanları "əyyami-tüfuliyyət"də[2] şeytandan qorxuzublar ki, bir-birini öldürməsin və bir-birinin toyuğunu oğurlamasın.

Balaca uşaqlar gecələr yatmayıb şıltaq eləyəndə, anaları istəyiblər şirin yuxudan ayılıb uşağa süd versinlər, ya görsünlər niyə uşaq ağlayır və bəlkə uşağı birə sancır, ya bəlkə bir özgə dərdi var. Tənbəl analar uşağı xortdandan qorxuzublar ki, səsini kəsib yatsın. Uşaq, doğrudur, sakit olub, amma on beş yaşa çatana kimi uşaq elə bilib ki, dünyada bir xortdan var ki, gecələr gəlib ağlayan uşaqları götürüb aparır qaranlıq meşələrə... Həmçinin böyüklərimiz...

Neçə-neçə qərinələrdən bəri müsəlman elə xəyal eləyir ki, "şeytan" adında onun bir düşməni var ki, həmişə istəyir onu yoldan çıxartsın. Müsəlmanın təsəvvüründə bu şeytan bir hiyləgər məxluqdur, başında bir taskülah var, məsələn, Naxçıvanda balaca uşaqlar başlarına qoyan kimi bir şeydir və bu taskülahın ucu mizdir və ucundan zınqırov asılıb və bu şeytanın gödək paltarı var və şeytanın quyruğu var; gözündən biclik yağır və bir gözü də kordur. Bir gün bu kor şeytan istədi Bəni-İsrail qövmündən Bər Sisa adında bir abidi yoldan çıxartsın və fikirləşdi, fikirləşdi, axırda bir qızı xəstə elədi və qızın qohumlarına dedi ki, bu qızın davası həmin abidin əlindədir. Qızı apardılar abidin yanına və məlun şeytan abidi yoldan çıxartdı.

[1] Dövlətlilərimizə
[2] Uşaqlıq günləri

Və yenə rəvayətdir ki, İstanbulda iranlı və qafqazlı hürriyyətpərəstləri beş yüz lirə cəm eləmişdilər ki, göndərsinlər Təbrizin füqərasına və istəyirdilər bu pulları Qastilla adında bir Rum taciri vasitəsilə göndərsinlər, amma kor şeytan gedib iki nəfər şəxsin paltarını geyib (bu iki nəfərin biri "dəstmalçı" və biri də Hacı Həsənəlidir), bəli, bu iki nəfərin paltarını geyib, gedib Qastillaya gizlincə deyib ki, bu pul gedir Səttarxana patron-tüfəng almağa, xəbər verərik Rəhimxana sənin evini və kantorunu Təbrizdə dağıdar. Bu minvalla kor şeytan qoymur yığılmış pullar göndərilsin Təbrizə.

Özgə bir millət düşməndən ehtiyat eləyəndə müsəlman şeytandan qorxur; özgələri meşədə ayıdan ehtiyat eləyəndə müsəlmanın yadına "div" düşür; çöllərdə birisi qurddan qorxanda müsəlman "qulibiyabani"dən qorxur; özgə millət bir qaranlıq yerdə heç bir şeydən qorxmayanda, otuz beş yaşında igid müsəlman "cin"dən qorxur. Cindən, pirdən, mardan, cəldən, siyahdan, hənacədən, tərfandan, sələbdən... dünya və aləmdən müsəlman qorxur.

Həmişə müsəlman Allahı köməyə çağıranda deyir ki, "bari pərvərdigara, sən məni şeytandan saxla!", "pənah aparıram Allaha şeytani-rəcimdən".

"Tərəqqi"nin "Həmin adam"ı elə xəyal eləməsin ki, burada şeytandan murad Qarabağ və Naxçıvan şeytanlarıdır.

Burada şeytandan murad həmin kor şeytandır ki, taskülahından zınqırov asılıb; həmin kor şeytandır ki, müsəlman kitablarının hamısında onun tərifi var; haman kor şeytandır ki, indi bu saat Qarayazı kəndində "molla davası" salıb və axırda iş o yerə çatıb ki, mollaların ikisi də gəliblər Tiflisə və hərəsi dalına üç kəllə qənd alıb, biri qəndi daşıyır konsulxanaya, biri daşıyır şeyxülislamın idarəsinə.

Allah şeytana lənət eləsin!

Hələ çox çəkər...

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 15 sentyabr 1908, №37

NECƏ QAN AĞLAMASIN DAŞ BU GÜN, QIRXILIR GÖR NEÇƏ MİN BAŞ BU GÜN!

Bəli, başlar başlayıblar qırxılmağa. Dəllək dükanlarında macal yoxdur. Aşura günü iki yüz yetmiş milyon baş yarılacaq.

Və lakin bunlar hamısı köhnə sözlərdir. Amma burada bir mətləb var ki, bəlkə oxucularımız onu eşitməmiş ola. Bu barədə lazım bilirik bır az danışaq.

Yer üzündə qəribə bir əhvalat baş verəndə Avropanın fənni cəmiyyətləri çox xərclər çəkib adamlar göndərirlər ki, təzə vüquatı elm və fənn tərəfindən öyrənsin və sonra cəmiyyətə ərz eləsin.

Beləliklə, Avropada elm və fənn tərəqqi eləyib. Məsələn, Amerikanın filan şəhərində gün təmamən tutulacaq. Qabaqca haman şəhərə hər məmləkətin coğrafiya cəmiyyətlərindən dəstə-dəstə alimlər göndərilir ki, günün tutulmaq sirlərini dəxi də yaxşı öyrənsinlər. Məsələn, İtaliyada misli olmayan zəlzələ üz verib. Həmçinin yenə alimlər oraya doluşurlar ki, zəlzələnin hikmətlərini mümkün qədər öyrənsinlər.

Aşura işlərimiz avropalıların nəzərində elə bir qəribə və əhəmiyyətli əhvalatdır ki, bu barədə onlar indiyədək neçə cild kitablar yazıblar. İranın və Qafqazın böyük müsəlman şəhərlərində məhərrəmlikdə Avropa cəmiyyətlərinin üzvləri həmişə pişəzvəqt hazır olarlar və aşura günü qələmi və kağızı ciblərinə qoyub çıxarlar uca divarın üstünə və tamaşa eləyib, eşitdiklərini təfsilən yazarlar; gördüklərinin fotoqrafiya əkslərini götürüb apararlar.

Bu qisim səyyahların biri də dünən gəlmişdi idarəmizə. Bu cənab, Lissabon şəhərində bir cəmiyyətin üzvüdür. Onun bu il Qafqaza gəlməyindən qəsdi üç mətləb öyrənməkdir.

Əvvələn: əgər baş yarmaq şərən lazımdır, nə səbəbə başlarını yaranların içində indiyədək bircə əmmaməli molla görsənməyib?

İkinci: həmişə vaxtlarını qumar və çaxır məclislərində keçirən müsəlman "intelligentləri" nə qəsd ilə aşura günü dəstə qabağına düşüb baş yaranların qanlarını dəsmalları ilə silirlər?

Və üçüncüsü: səbəb nədir ki, baş yaranların hamısı ibarətdir məhz gədə-güdələrdən, baqqallardan və çaqqallardan; bunların içində bir nəfər də maarif əhli görsənmir?

Biz bu suallara cavab verə bilmədik və qonağımız çıxıb getdi. Bu heyndə qulağımıza hatifdən bu səslər gəldi:

– Bu günlərdə İranda istibdad ilə ədalət bərk çarpışır. Yekə bir millətin dini, namusu, hüququ, vətəni təhlükədədir. Köməksizlik ucundan ola bilər ədalət tərəfi basılsın. O vaxt milyonlarca məzlumun dadü fəryadı bugünkündən artıq göylərə qalxacaqdır. Bir udum suya həsrət qalıb can verən balaların, qarınları yırtılan anabacıların halı Kərbəla vaqiəsindən aşağı qalmayacaqdır!

Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa, – gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur.

Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir ki, həm Allah, həm də Həzrəti-Hüseyn razı qalsın. Yoxsa, Tiflisin, Bakının küçələrində qışqıra-qışqıra gəzib, yalançıqdan başımızı cızıb bir az qan axıtmaq Hüseyn övladına və Rüstəm nəslinə yaraşan igidlik deyil.

Bu gün Kərbəla meydanı Azərbaycan meydanıdır.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 11 yanvar 1909, №2

TƏRƏKƏMƏ

Bir yandan o biri yana keçmək, bu il burada, gələn il bir ayrı yerdə yaşamaq, yay fəsli yaylaqda, qış fəsli qışlaqda güzəran etmək qədim əyyamdan başlanıb. O vaxtlar sənət və ticarət yox imiş və insanlar heyvanların südü və əti ilə zindəganlıq edirmişlər. Heyvanları da bir gün bu çəməndə, o biri gün o çəməndə otara-otara özləri heyvanların dalınca hərəkət edərmişlər.

Bu sayaq yaşayan adamlar yer üzündə indi yenə az-maz tapılır. Qeyri yerlərdə bunlara "qaraçı" deyirlər, bizim içimizdə bunların adı tərəkəmədir. Rusiyada qaraçıların vətəni Bessarabiya səhrasıdır. Qafqazda da tərəkəmələrin mədəni Qarabağdır.

Hər bir yerdə, hansı bir dağın təpəsində bir alaçıq görsən və dağın ətəyində bir sürü qoyun-keçi görsən, bil ki, qarabağlıdır.

Qafqazda hansı bir yolla gecə vaxtı keçəndə, yolun kənarında bir çoxlu çadır görəcəksən. Faytonçu faytonu saxlayır ki, atlar dinclərini alsınlar. Birdən çadırın içindən bir belə oxumaq səsi gəlir:

Nənəm, a narış qoyun,
Boynu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış, qoyun.

Bəli, bunların hamısı Qarabağ tərəkəmələridir.

* * *

Üləmalar təbiətdə çox hikmətlər tapıblar. Firəngistanın məşhur həkimləri sübuta yetiriblər ki, bir şəxsin sifətləri və xasiyyətləri onun evladına yetişəcək, evladına yetişməsə, nəvələrinə, nəvələrinə yetişməsə, nəticə və kötücələrinə yetişəcək. Təbiətin həmin qanununun nəticəsidir ki, indi Qafqazda heç bir yerin adamları qarabağlılar kimi köçəriliyə mail deyillər. Qarabağlı öz vilayətində otura bilməz: dünya və aləm qarabağlı ilə doludur. Çünki qanlarında köçərilik xasiyyəti var.

Naxçıvanda iki mötəbər tacir olsa, biri qarabağlıdır. Qubada iki mollanın biri qarabağlıdır. Dünyada nə qədər tar çalan və oxuyan var – qarabağlıdır. Heç bir iş, heç bir sənət yoxdur ki, ora qarabağlı özünü soxmamış olsun. Bu kimdir? – Müəllim. Haralıdır? – Qarabağlı. Bu kimdir? – Şeyxülislam. Haralıdır? – Qarabağlı. Nə bilim, bu şahzadə – qarabağlı, bu xanzadə – qarabağlı. Tiflisdə qarabağlı dəstəsi, Aşqabadda qarabağlı məscidi. Xülasə, qarabağlı, qarabağlı.

* * *

İndi gələk Badikubə şəhrinə.

Cəmi müəllimlər – qarabağlı, cəmi injenerlər – qarabağlı. Hələ bu ötüşər: tamam qəzetçilər – qarabağlı. Doğrusu, insanda bir həya da yaxşı zaddır. Ruslar içində bir məsəl var deyərlər ki: "Çağırılmamış qonaq molla hacı Babadan pisdir". Bari-pərvərdigara, bu sırtıq qarabağlılar bu yazıq bakılılardan nə istəyir? Harada görsənib ki, bir şəhərdən bir adam çıxıb gedə bir özgə şəhərdə qəzet çıxarda? Nə Avropada belə adət var, nə Rusiyada.

Heç bir millət heç bir işdə bizə oxşamır. Hər işimiz tərsinədir. Qarabağlısan, yazıçılıq eləmək istəyirsən, cəhənnəm ol get otur öz Qarabağında, nə qədər istəyirsən yaz. Dəxi sənin Bakıda nə işin var? Məgər bizim öz Bakımızda öz yazıçımız yoxdur? Axır, insanda

bir həya da yaxşı zaddır. Biz vallah, billah, sizə çox hörmət qoyuruq, "xətir" saxlayırıq. Yoxsa indiyə kimi hamınızı qırıb qurtarmışdıq.

Bu harada görsənib ki, insan qarabağlı ola-ola gedə otura bir özgə şəhərdə qəzet çıxarda? Əgər bir moskvalı istəyə gedib Peterburqda alış-veriş eləyə, – peterburqlular onu baykot eləyib, içlərinə qoymazlar. Hər bir nataraş iş var, hamısı biz müsəlmanlardan baş verir. İşlərimiz hamısı köndələn düşübdür; üzümüzdə bircə tikə su qalmayıb. Dünyada hər nə qədər millət var, hamısı bizə nifrət göstərir; ondan ötrü ki, qarabağlılar gəlib doluşublar Bakıya. Qonşularımız bizə lənət oxuyur, ondan ötrü ki, Bakının ala qoyun gözləri baxa-baxa qarabağlılar gəlib burada ad çıxardırlar. Havada uçan quşlar bizim üstümüzə gülürlər, o səbəbə ki, əcnəbilərin gözünün qabağında Bakıda qarabağlı-bakılı davası düşür. Bu da bizim ittifaq və ittihadımız ("İttifaq" və "İttihad məktəblərini demirəm ha!). Bu da bizim ittihadımız, bu da bizim qeyrət və hümmətimiz. Doğrudan da, insanda bir həya yaxşı zaddır. Bu sözləri yazmaqdan qəsdimiz müsəlman qardaşlara bir belə vəsiyyət etməkdir:

Amandır, qardaşlar, huşyar olun.

Əvvələn, içinizə özgə şəhərdən gəlmə bir yad adamı qoymayın, qoymayın. Və saniyən, bu qarabağlılardan özünüzü gözləyin, amandır, gözləyin, gözləyin, gözləyin.

Və hər yerdə bir qarabağlı gördünüz – soy edin, çalışın, ərizə verməlidir – verin, şpionluq eləməlidir – eləyin, şəklini çəkməlidir – çəkin. Xülasə, hər bir vasitə ilə olsa, çalışın öz içinizdən rədd eləyin.

Amandır, qardaşlar, qeyrət, qeyrət (əgər varsa).

Amandır, qardaşlar, hümmət, hümmət (xudanəkərdə).

Ax bu qarabağlılar.

Lağlağı

"Molla Nəsrəddin", 6 sentyabr 1909, №36

DAĞARCIQ

Pişiklə nə tövr rəftar eləyirsən, elə də arvadla lazımdır rəftar eləmək.

Belə tutaq ki, sən evində bir pişik saxlayırsan və bu pişik yaxşı dolanmır; məsələn, qab-qaşığı gəlib yalayır. Əvvəl dəfə bircə məzəmmət kifayət elər; lazımdır demək ki, "ay heyvan, rədd ol!". Əgər gördün ki rədd oldu – çox əcəb. Yoxsa sənin nəsihətini qəbul eləməyib, başladı hələ bir qatığı da yeməyə, – o vədə götür "səndal" ağacını və bir neçə dəfə vur pişiyin başından ki, mavıldaya-mavıldaya çıxıb cəhənnəm olsun. Elə ki gördün ki, sənin pişiyin özünü qoyub bihəyalığa və evdə nə qatıq qoyur, nə ət qoyur, nə sözə baxır, nə utanır, nə Allahdan qorxur, – o vədə o binamus pişiyi tut qat bir dağarcığa, ağzını bərk bağla, al əlinə haman "səndal" ağacını, o qədər vur ki, canı çıxsın! Amma məbada dağarcığın ağzı bərk bağlanmış olmaya: əgər pişik oradan özünü xilas eləsə, üz-gözünü cırmaqlayıb qanadar.

Həmçinin arvad.

Gördün ki, sözünə baxmır, ata-anasını söysən kifayət edər. Yoxsa baxıb gördün ki, nəinki sözünə baxmır, hələ bəlkə üzünə də durur, – o vaxt götür "səndal" ağacını və başından bir-iki dəfə bərk vur; amma elə vur ki, ağac gözünə dəyməsin; çünki birdən vurub kor elərsən, onda da bir özgə arvad almaq xərcinə düşərsən.

Amma elə ki, arvad başladı cızıqdan çıxmağa, məsələn, sən gecələr, meyxanalardan və lotuxanalardan evinə gec gələndə, başladı övqatını təlx eləməyə, yainki gördün ki, beş-on arvad almağına narazılıq göstərib gedib ata-anasına şikayət elədi, – o vədə arvadını tut qat dağarcığa və o qədər vur ki, canı çıxsın!

* * *

İndi, ey mənim əzizim, dəxi çox da elmdən, məktəbdən dəm vurma: tutaq ki, qızını qoydun məktəbə, dərs oxudu və elmli oldu. Vallah, billah bircə tikə mənfəəti yoxdur: dağarcığa qatılandan sonra dəxi nə yazı yazmaq olar, nə də bir özgə şey mənfəət gətirər!

Bu mətləbi biz müsəlmanların içində heç kəs hələ lazımınca düşünməyib, savayı Bakıda məkatib komissiyası sədri cənab Makedonskidən və haman komissiyanın doqquz nəfər müsəlman üzvlərindən.

Məlumdur ki, Bakının bir neçə boşboğaz müsəlmanları bir vaxt çalışırdılar ki, şəhər tərəfindən bir dənə qız məktəbi açılsın. Bu

xəbəri eşidib biz vaqiən çox pərişan olduq və Dəmdəməkiyə yazdıq ki, bizə əhvalatı bildirsin görək bu nə axmaq sözdür danışılır. Dəmdəməki gedib işin həqiqətini Makedonski cənablarından və həmçinin müsəlman üzvlərindən soruşmuşdu. Müxbirimizə Makedonski xanın sözü bu olub ki, "mən çox səy edirəm ki, qız məktəbi açılsın, amma komissiyanın müsəlman üzvləri mənə deyiblər ki, hələ orucluqdur, bir az dayan". Üzvlərdən də bir nəfər doktor, Dəmdəməkiyə cavab verib ki, "qardaşım, Dəmdəməki, yaz Molla Nəsrəddinə ki, ürəyini sıxmasın, mən qızlarımızın oxumağına razı deyiləm; o səbəbə ki, hamısı birdir, dağarcığa qatılandan sonra elmin faydası ola bilməz".

Bəli, sözümüz oradadır ki, pişiklə arvadın çarəsi məhz dağarcıqdır. Sözünə baxmadılar, – qat dağarcığa, ağzını bağla, vəssalam.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 18 oktyabr 1909, №42

DÜŞMƏNLƏR

Bizim oxumuşların bəzisi aşura günü düşür baş yaranların qabağına və ağlaya-ağlaya dəstələr ilə bərabər dolanır. Bunlar iki qismdir:

Bir qismi mömin çinovniklər və yarımçıq qoca "intelligent"lərdir ki, ölümün yaxınlaşmağını görüb, istəyirlər bəlkə asan vəch ilə bir qədər savab qazanalar. Bu qisim "intelligent"lərimiz filcümlə yaxşı adamdırlar. Amma heyif ki, bir az axmaqdırlar.

Bir qismi də batində dinsiz, amma zahirdə özlərini camaatın nəzərində dindar qələmə verən oxumuşlarımızdır. Bunların çoxu qəzet yazanlarımızdır; amma içlərində tək-tük həkimlər və vəkillər də görürük. Bəzən də heç bir sənətin sahibi olmayıb, camaat arasında gəzən və camaat içində bəzi məmuriyyətlərə intixab olunmaq axtaran şəxslərdir. Və çünki bunların hamısı bir növ camaata möhtacdırlar, – bu səbəbdən hər bir bicliyi qəbul eləyirlər ki, avama xoş gəlsinlər və bu yol ilə camaatı öz tərəflərinə çəkib nüfuz qazansınlar. Bunlar da yaxşı adamlardır, amma şarlatandırlar.

* * *

Söz yox ağlamaq lazımdır.

Hər kəsdə vətən və millət məhəbbəti olsa, aşura günü çıxar bir uca yerə və müsəlman aləminə tamaşa eləyib, tez yenib gedər evinə və ikiəlli başına vura-vura deyər:

– Ax, biçarə qardaşlar, ax uzunqulaqlar!..

Amma Allahın heyvanlarının oyunbazlıqlarına etina eləmək və nadan kərbəlayı və məşədilərin vəhşiliklərinə hələ bir növ gedib şərik olmaq – haramzadalıqdır!

Molla Nəsrəddinin borcu kəçəl qardaşları xəbərdar eləməkdir ki, düşmənlərini tanısınlar.

Eşidən eşidər, – eşitməyənin canı cəhənnəmə!

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 1910, №3

QANLI FACİƏ

Yox, əzizim, qanlı faciə bu deyil ki, Daşkənd civarında Gödək qəryəsi əhalisindən 60 yaşlı Canbəy Muradovun 14 yaşında övrəti cavan nökəri ilə qoşulub qaçır və Muradovun bir nəfər qohumu başına 15 nəfər türkmən yığır, gedir qızı və oğlanı tutur, tikə-tikə doğrayır.

Xeyr, qanlı faciə bu deyil.

Yox, yox, mən ölüm, elə danışma, vallah küsərəm; qanlı faciə bu deyil. Qanlı faciə budur ki, yuxarıdakı əhvalatı nağıl eləyəndən sonra idarə tərəfindən yazırsan ki, "Bu uğurda tökülən qanların baisi 12 yaşındakı qızları 70 yaşındakı qoca kişilərə nikah edən mollanümalardır".

Budur qanlı faciə, mənim gözümün nuru.

* * *

Əgər bu sözləri yazanda huşun başında deyildisə, – sözüm yox; yoxsa qana-qana yazmış olsan, di qulaq as.

Dünya yaranandan Şamaxıda şagirdlər müəllimi döyən günə kimi heç bir elə ittifaq düşməyib ki, bir mollanın yanına gəlib, balaca bir qız uşağını 60 yaşında kişiyə nikah etmək istəyəndə molla bir dəqiqə dayana. Və mənim bu sözlərimi elə indi bu saatda hər bir molla oxusa, yenə başa düşməyəcək ki, dəxi niyə gərək dayansın və niyə haman saat sığəni oxumasın.

Molla nə qanır qanlı faciə nə deməkdir? Daşkəndin faciəsinin adı tək bircə sənin yanında "qanlı faciə"dir; amma mollanın və mollanümanın nəzərində şəri hökmü əmələ gətirməkdir; çünki zani və zaniyənin qətli hər halda vacibdir.

* * *

Qoy "Həqiqət"in 151-ci nömrəsinin dördüncü səhifəsindəki "Qanlı faciə" əhvalatını 300 milyon müsəlman oxusun, – tək bircə səndən savayı. Hər bir müsəlmanın borcu odur ki, tikə-tikə doğranmış 14 yaşında qıza və oğlana sədhəzar lənət oxuyub desin: "Mərhəba türkmənlərə, maşallah belə mücahidlərə".

Budur qanlı faciə.

* * *

Sən istəyirsən ki, mollalarımız 60 yaşında kişiyə 14 yaşında qızı nikah eləməsinlər. Çox əcəb, Allah atana rəhmət eləsin. İndi gəl açaq görək axund Ərəszadənin "Təşrihül-fərayiz" kitabının 13-cü səhifəsində nə yazılıb: "Əgər doqquz yaşa yetişməmiş bir qızı atası, ya ata babası ərə verə, – əri ondan, o ərindən irs aparar".

Bə niyə dinmirsən? Bir də görüm, kim sənə deyib ki, 14 yaşında qızı 60 yaşında kişiyə vermək olmaz?

Özgə şəhərləri bilmirəm, bizim küçədə hacı Məlikin 74 yaşı, övrəti Güllünün 12 yaşı var; bildir övrətin bir oğlu oldu, adını qoydular Həsən.

Budur qanlı faciə.

Məşədi Nurəli 60 yaşında bir kişidir. Keçən il 9 yaşında bir qız aldı.

Budur qanlı faciə.

Allahın göydə gəzən ayı hər gecə neçə-neçə qanlı faciələrə şahid olur. Və əgər kişilərin otağına zorla çəkib apardığımız balaca qızların göz yaşlarını bir yerə yığsan, təzə bir ümman dəryası əmələ gələr.

Budur qanlı faciə.

* * *

Bunların hamısını görə-görə və bilə-bilə və eşidə-eşidə gündə göbələk kimi artıb törəyən yazıçılarımız yazırlar, yazırlar, yazırlar, hər yandan yazırlar: yerdən, göydən, hürriyyətdən, şəriətdən, politikadan, İrandan, Turandan, əlfaz, ibarə, şəxs, imza, şöhrət, ad, nozm, qafiyə, yenə əlfaz, yenə ibarə...

Amma övrətlərimizdən bircə söz də yox.

Çünki ağaların xoşuna gəlməz; ağaların da xoşuna gəlməsə, mənə xeyir eləməz.

Bağışla, bilmədim, qələt elədim.

* * *

Budur qanlı faciə.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 11 iyul 1910, №27

ÇİÇƏK

Bir müsəlman kəndinə, müsəlman məhəlləsinə "çiçək" kimi müalicəsi asan bir uşaq naxoşluğu düşəndə yazıq uşaqlar bir-bir başlayırlar qırılmağa. Çox vaxt olur ki, naxoşluq elə o vədə qurtarır ki, dəxi o kənddə, o məhəllədə bir nəfər də uşaq qalmır.

Məlumdur ki, çiçək naxoşluğunu o uşaqlar tutur ki, onlara "çiçək" döyülməyibdir.

Yəni əgər uşağa vaxt ikən çiçək mayasını döysən, dəxi o uşaq çiçək naxoşluğu tutmaz (amma həkimlər məsləhət görür yeddi ildən sonra yenə uşağın çiçəyini döymək).

Xülasə, bu bir asan işdir: çiçəyin mayası hər bir aptekxanada satılır, ancaq lazımdır ki, kənddə, ya məhəllədə bir elə adam olsun ki, biçarə müsəlmanlara yazığı gəlsin.

Bir neçə qəpiklik neştər, bir neçə qəpiklik maya. Aptekçidən soruşsan ki, çiçəyi nə tövr döyüm? – öyrədər; həkimdən soruşsan, – daha yaxşı; feldşerdən də öyrənə bilərsən. Bunlar hamısı asandır; amma lazımdır ki, məhəllədə, ya kənddə balaca, günahsız uşaqlar qırılanda və anaları, ataları ağlar qoyanda elə bir Allah bəndəsi olsun ki, sahibsiz, dilsiz-ağızsız avam müsəlman qardaşlara rəhmi gəlsin.

Bir-iki manatlıq çiçək mayası ilə bir yeklə kəndin uşaqlarının çiçəyini döymək mümkündür. Əgər belə olsa, o vilayətdən çiçək azarı bilmərrə kənar olar.

Bunu kim elədin? Kimdir kəndlərdə avam camaatın sahibi?

Bu xüsusda bir neçə cavab ola bilər. Biri deyə bilər ki, kəndlilərin xeyir-şərinə qarışmaq, onların halına yanmaq – mülkədarların, bəylərin və xanların borcudur. Biri deyə bilər ki, kəndlilərə baş çəkmək, onlara yetişən bəlaların qabağında çalışmaq, kəndlilərə atalıq eləmək mollaların vəzifəsidir.

Mən bu iki cavabın heç birinə şərik ola bilmərəm; çünki bəylərin, xanların və mülkədarların kəndli işinə qarışmağının heç bir yaxşı nəticəsi ola bilməz və bir də yaraşan iş deyil ki, təşəxxüslü bir mülkədar, papağı yanqılıcı bir bəy, ya kefli bir xan girsin kəndlinin evinə ki, nə var, nə yox mən gəlmişəm sənin uşağuvun çiçəyini döyəm. Kəndli bir nanəcib tayfadır, üz verson qudurar, dəxi öhdəsindən gəlmək olmaz. Onsuz da axır vaxtlarda kəndlərdə də bir para cavanlar az qalırlar adamın sözünü qaytarsınlar və üstünə çığırıb söyməyincə böyüyə baş endirmirlər.

Qaldı mollalar. Bunlar da iki cəhətdən kənd uşaqlarının səlamət olmağını istəmirlər: bir cəhəti budur ki, uşaq ölən evdə həmişə molladan ötrü doşab halvası, bəzi yerlərdə ət şorbası bişir; az-çox pul da verilir. Demək, kəndə bir naxoşluq düşəndə mollanın da mədaxili artır. İkinci cəhəti budur ki, o uşaqlar ölməsələr qalsalar, iyirmi-otuz ildən sonra gözlərini açıb yada salacaqlar ki, otuz il əndən qabaq Bakıda qradonaçalnik, küçələrdə arvadlara sataşan cavanlara tənbəh eləyəndə, cavanlar qradonaçalnikə belə cavab vermiş imişlər:

– Ərz olsun qradonaçalnik cənablarına ki, biz, həqiqətdə müqəssirik; çünki küçə ilə keçən övrətlərə söz ilə sataşmışıq. Amma cənab qradonaçalnik sağ olsun, necə ki, hər bir müqəssirin tutduğu pis əməlini zəmanənin təqazasına və məkana nisbət mülahizə edəndə onun günahını bir növ xəfif tutub tənbehini də o dərəcədə azaldırlar, biz Allahın günahkar bəndələrinin əhvalına lazımınca diqqət edəndə aşkar olacaq ki, bizim də üzrümüz az deyil.

Bəli, küçə ilə keçən övrətlərə sataşmaq yaxşı adət deyil. Amma biz rus millətiyik, biz sataşdığımız övrətlər də rusdurlar. Bizim hələ onlarla danışmağımıza da dinimiz yol verir.

Amma bizim gözümüzün qabağında var Qafqazın müsəlman tayfası: müsəlman içində heç bir övrət cürət eləməz ki, müsəlman

kişilərinin içindən ötüb-keçsin; çünki ola bilməz ki, o övrətə bir söz atan olmasın.

Mən cahıl-mahılları demirəm; hər millət içində cahıllar və cavanlar tərəfindən küçə-bacada övrətə sataşmaq görünür. Mən mollaları deyirəm.

Müsəlman içində hər kənddə və hər şəhərdə bir Molla İsa var. Çox vaxt özləri üçün mitə[1] sığələrini mollalar küçədə oxuyurlar. Övrətin topuğuna baxan kimi zalım oğlu bilir ki, bu övrət kimdir və fürsəti fövtə verməyib nişanəyə qoyur.

Gəncədə Hacı Seyid Bağır özü üçün sığə elədiyi övrətləri küçələrdə tapır. Naxçıvanda Pirqəmişli mərhum bir molla, xoşuna gələn övrətə küçədə deyərdi:

– Mənə sığə olarsan?

Mən çox görmüşəm ki, mötəbər və sahibi-ehtiram bir axund küçədə yad övrətdən soruşur ki:

– Sən kimin övrətisən?

Söz yox, övrətlərimizin qulaqları o qədər qızışıb ki, belə-belə şeylərdən incimirlər; çünki elə bilirlər ki, bu özü də Allah əmridir. Bəlkə namünasib bir cavan oğlan küçədə bir dul övrətə sataşsa, övrət daşı götürüb çırpar uşağın başına, amma hacıya və mollaya söz yoxdur; çünki övrət görür ki, burada sığə olmaq məsələsi var. Və övrətlərimiz də öyrənibdirlər.

Gəncədə Kərbəlayı Səkinə ömründə iki yüz adama sığə olub. Hacı Seyid Bağır küçədə hansı dul övrətin baldırını yoğun görəndə, övrətə belə deyir:

– Əgər mənə sığə olmasan, cəddim ciyərini çıxardacaq!

Onunçün hər şəhərdə Kərbəlayı Səkinə xalalar az deyil. Ruhani atalarımızın tərbiyəsinin bərəkətindən, indi bizim övrətlərin içində elələri də var ki, sığə olmağı özlərinə bir peşə kimi eləyiblər. Çoxusu bəlkə özü kişiyə deyir ki:

– Məni sığə elə.

Xorasanı demirəm, orada belə işlər hər qədəmdə görünür. Bizim içimizdə də hər kənddə və hər şəhərdə belə xalalar tapılar.

Margilanda Curəxan adında bir sart qızı küçədən keçən iranlı və qafqazlını zorlan tutur ki, gərək məni sığə eləyəsən.

[1] Ömürlük sığə

* * *

Amma lazımdır bunu bilmək ki, çiçəyi döyülən uşağı soyuq yerdə saxlamaq yaxşı deyil.

Molla Nəsrəddin
"Molla Nəsrəddin", 20 yanvar 1912, №3

DƏRD

Dərdi mara nist dərman, əlqiyas!

Mənim tək bircə qardaşım var, dünyalarca istərəm və əgər lazım olsa, onun yolunda özümü ölümə verərəm. Atamın yadigarı, anamın yadigarı, atabir, anabir, doğma qardaş, canım, ciyərim, ətim, qanım, ruhum və iki gözümün işığı.

Amma dərd budur ki, gözəl bir övrəti var. Mən namərdəm əgər razı olam ki, qardaşımın başından bir tük əksik ola; amma hərdənbir xəyalıma gəlir ki, xudanəkərdə, bəlkə birdən biçarə qardaşımı əcəl gəldi tapdı, onda bəs övrəti necə olsun? Və mən bədbəxt necə razı olum ki, bir belə can bir özgə kişiyə ərə getsin; özgəsinə qismət olsun. "Ey müsəlmanan, çə dərman, əlqiyas!"

Bəzi vaxt olur ki, belə-belə qara xəyalat mənim yadımdan çıxır; amma hərdənbir qardaşımın övrətinin üzü üzümə sataşır və deyəsən qəsdən o saat xəyalıma gəlir ki, məsələn, xudanəkərdə, qardaşım vəfat edib. İnsanı xəyalat götürəndə, hər cür nataraş fikirlər adamdan əl götürmür; məsələn, guya ki, qardaşım vəfat edib, övrət də gözümün qabağında dolanır. Övrət də nə övrət! Yenə gözəl olmaya, cəhənnəmə-gəra, itilib qoyub gedər gəldiyi yerə.

Can bicəmal, söz yox,
Meyli cəhan nədarəd.
Hər kəs ki, in nədanəd,
Həqqa ki, on nədarəd.

Amma bu köpəyin qızının baldırlarına hərdən gözüm sataşanda...

Allah şeytana lənət eləsin!

Xülasə, belə dərd olmaz ki, mən çəkirəm və gecə-gündüz bu fikirdəyəm: "Gəştəəm suzanü giryan, əlqiyas".

Söz yox, qeyri millətlər bu barədə asudədirlər; qardaş öləndən sonra onun övrətini almaq qeyri millətlərə qədəğəndir. Odur ki, onlar belə-belə fikirlərdən uzaqdırlar. Öz aramızdır, bu da onların bişüurluqlarına dəlalət edir. Mən ki doğrusu, razı ola bilmərəm ki, bir belə nazənin qardaşımın əlindən çıxsın və gedib yad bir kişiyə övrət olsun; bir surətdə ki, onu özümə övrət eləməyə mənim ixtiyarım var; çünki müsəlmanam.

Zövqi çinan nədarəd
Bidust zindəgani.
Bidust zindəgani
Zövqi çinan nədarəd.

Amma Allah şeytana lənət eləsin!

Yenə and olsun Allaha ki, qardaşımın başının ağrımağına razı olmanam. Amma bilmirəm hamı mənim kimidir, yainki bircə mən bədbəxtin başına belə işlər gəlir? Bu tünbətünün qızı gözümə sataşanda həmişə qardaşımın ölməyi yadıma düşür və həmişə öz-özümə deyirəm ki, bax, dünyanın işini bilmək olmaz, əcəl hamısını gəlib tərk edəcək. Vallahı, billahı, min dəfə razıyam ki, mən ölüm, qardaşımın başına bir iş gəlməsin. Amma doğrudan doğrusu, mən belə biqeyrətçiliyi qəbul edə bilmərəm ki, qardaşımın övrəti yad bir kişinin qoynuna girsin, bir surətdə ki, uşaqları da mənim uşaqlarım yerindədir; əgər təfavüt qoyuramsa, Allah mənim atama lənət eləsin. Bir surətdə ki, bu biçarə nuri-didələrimin analarını almağa mənim ixtiyarım var; özümün də övrəti tək bircədir, ev-eşiyi də ancaq ikisi dolandıra bilər.

Allah şeytana lənət eləsin!

Kəs dər cəhan nədarəd,
Belə vəfalı qardaş.
Dərda ki, in müəmma.
Şərhü bəyan nədarəd.

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 12 aprel 1913, №12

KİŞİ GƏLİR

Mən təəccüb edirəm bir para müsəlman qardaşlara ki, evlərinə kişi qonağı gələndə övrətlərini çıxardıb aparırlar qonaqların yanına və oturub bir yerdə söhbət eləyirlər. Doğrusu, belə bir əməli mən xoşlaya bilmərəm və heç razı ola bilmərəm ki, mənim övrətim dünyada məndən savayı bir kişini görsün, bir kişi ilə danışsın.

Və bilirəm də ki, bu məsələ barəsində mənim tərəfdarlarım çoxdur və hədsiz şükürlər də edirəm ki, yer üzünün cəmi müsəlman qardaşları bu xüsusda mənnən yoldaşdırlar.

Və yenə mat qalmalı işdir ki, nə səbəbə bir para müsəlman qardaşlar razı olurlar ki, övrətləri yad kişilər ilə üzüaçıq danışırlar.

Görəsən, necə onlar qorxmurlar? Vallah, qurd ürəyi yeyiblər.

Amma, doğrusu, mən qorxuram.

Mən ondan qorxuram ki, mənim övrətim çıxa kişilərin içinə və görə ki, dünyada məndən də yaxşı kişi var.

Məhz bu səbəbə mən övrətimin qonaq qabağına çıxmağına razı olmuram; çünki qorxuram ki, məndən savayı bir özgə kişi görə, qəlbi dolana.

Əgər mənə yəqin ola ki, övrətim məni istəyir, onda heç zaddan qorxmaram; onda izin verərəm hər kəs ilə istəyir danışsın. Amma bir surətdə ki, onun mənə məhəbbəti yoxdur, – otaqdan kənara çıxmağına razı ola bilmərəm.

Məhəbbəti mənə ondan ötrü yoxdur ki, o heç bilmir məhəbbət nədir. Onu mənə on dörd yaşında könülsüz verəndə mənim qırx doqquz yaşım var idi; amma mənə ondan ötrü gəldi ki, bir kasıb qız idi. Mən özüm də bilirdim məni istəməyəcək, ancaq mənim pulumu istəyəcək, qızılımı istəyəcək. Amma nə eybi var, Allah müsəlmançılığa bərəkət versin; məndən savayı o kimi görəcək ki, məndən savayı özgəsinə məhəbbət yetirsin! Hərçənd hərdənbir aşpazımız ilə xəlvətə düşəndə sulaşırlar, amma mən də daha evdə kişi qulluqçusu saxlamıram.

Yenə Allah müsəlmançılığa bərəkət versin. Hərdənbir mənim Avropa tərbiyəsi tapmış tanışlarımdan mənə deyən olur ki, "niyə övrətini dörd divar içində dustaq saxlayırsan?" Mən də ona cürət ilə cavab verirəm:

– Müsəlman övrətinin yad kişiyə görükməyinə şəriətimiz izin vermir.

Amma bunu da bilirəm ki, mənim bu sözlərimə də inanan olmayacaq; çünki şəriətdən qorxmuram, övrətimdən qorxuram. Əgər şəriətdən qorxan olsaydım, binamaz olmazdım, gecə-gündüz çaxır içməyi özümə adət etməz idim; atabir, anabir bacımın atadan qalan mülkümüzdən olan hissəsini qəsb eləməzdim.

* * *

Və bir də qaldı ki, bir para ağzıqəşənglər başlayıblar qəzetlərdə yazmağa ki, nə bilim gərək övrətlər oxusunlar, tərbiyə tapsınlar, uşaqlarına tərbiyə versinlər, cəmiyyətlər tərtib eləsinlər, çalışsınlar, vuruşsunlar ta ki, millət qabağa gəlsin; yoxsa bu minval ilə getsə, İran da, Osmanlı da puça çıxacaq və övrətlərimiz yevropalı bacılarına özlərini yetirməsələr, yer üzündə heç bir islam milləti mədəniyyət meydanında qabağa dura bilməyib basılacaq və bir balaca Şvetsiya hökumətini təmsil gətirirlər ki, maarifin bərəkətindən Rusiya kimi kəl ilə baş-başa vurmağa hazırlaşırlar.

Kəs səsini namərbut!

Amma ravi rəvayət eləyib ki, bu heyndə içəri otaqdan dörd divar içində asılmış qəfəsdən belə bir səs gəlirdi:

– Ax, vay!.. Boğuldum!.. Boğuldum!.. Hava! Hava! Barı pəncərəni açın!.. Boğuldum!.. Hava!.. Hava!..

– Kəs səsini, bihəya! Kişi gəlir, yavaş danış!

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 11 aprel 1914, №13

AZƏRBAYCAN

Ax, unudulmuş vətən, ax yazıq vətən!

Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular.

Bəs, sən haradasan, ay biçarə vətən?!

Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsil mənalarını itirmişdi, qayıdıb əslini tapdı, inna lillahi və inna ileyhi raciun; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. . Dəxi bu dairələrdən kənar bəni-noi-bəşər üçün nicat yolu yoxdur.

Bununla bərabər, yəni "bavücudə inki" hər söz danışıldı, hər mətləbə əl vuruldu, hamı pəhlivanlarımız öz hünərlərini çıxartdılar meydana və lakin bununla bərabər bu qədər var ki, bircə lazımlı söz ki, mənim zəndəyi-zəhləmi aparır – haman söz Azərbaycan vətənimin üstündədir.

Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

– Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

– Dilim nə dildir?

– Azərbaycan dilidir.

– Yəni vətənim haradır?

– Azərbaycan vilayətidir.

Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir.

– Haradır Azərbaycan?

– Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayaziddən ibarət olsun.

Bilirsiniz, bu söhbət haradan yadıma düşdü? Bu söhbət oradan yadıma düşdü ki, keçən həftə Tiflisdə müsəlmanların milli komitəsində bir məsələyə baxılırdı ki, aya bizim bu məclisdə nə dil ilə gərək müzakirə olunsun. Biri dedi rusca, biri dedi osmanlıca, biri dedi ermənicə. Axırda belə qərar qoydular ki, türk dili müəllimlərinin və müəllimələrinin çoxusu türkcə danışmağı yaxşı bacarmır, bu səbəbdən bunlara izin verilsin ki, rusca danışsınlar. O ki qaldı rus darülfünunu oxuyub başa çıxan bəzi üzvlər, – bunlara da izin verildi ki, rusca danışsınlar və həqiqətdə mən ki gedib sümük sındırıb, illər ilə kafirlər içində əlimi murdar professorlara verə-verə elm oxumuşam, insafdırmı ki, bugünkü gündə də oxuduğum elmi gizlədim və rusca danışmayım? Hərçənd məclisdə oturan əsnaflar və hətta axundlar rusca danışılan mətləbləri başa düşmürdülər, – cəhənnəmə düşmürdülər, gora düşmürdülər?

O ki qaldı Bakı qurultaylarında olan səliqə, – bu barədə yaxşısı budur ki, heç danışmayım. Onsuz da düşmənimiz çoxdur, xəbərdar olar və gəlib baxıb və qurultaylarımızda olan nəzmü nizamı görüb bizə göz vurarlar; çünki nədənsə bizim bədxahların hamısı bədnəzərdir.

* * *

Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan?.. Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşginli, sərablı, goruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı quli-biyaban vətəndaşlarım, ey ərdəbilli, qalxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah ağlım çaşıb! Axır dünya və aləm dəyişildi, hər bir şey qayıdıb öz əslini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək haradır bizim vətənimiz?!

Gəlin, gəlin, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?!

Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım?!

Molla Nəsrəddin

"Molla Nəsrəddin", 27 noyabr 1917, №24

ƏHMƏD BƏY AĞAOĞLU

(1869-1939)

İSLAMLIĞA GÖRƏ VƏ İSLAMLIQDA QADIN[1]

GİRİŞ

ZAMANIMIZDA QADININ HÜQUQLARI İNKİŞAF EDİR

ŞƏRQDƏ QADIN NECƏ İDİ

Zamanımızda qadın hərəkatının gündən-günə bir az da artıq əhəmiyyət qazanması mədəni toplumlarda basının – mətbuatın, elm və sosial sahələrdə çalışan tanınmış şəxslərin bu mövzu ilə daha çox ilgilənmələrinə – maraqlanmalarına yol açmışdır. Avropa və Amerikada sosial yaşama şərtlərinin ağırlaşması patriarxal ailəni təməlindən sarsıtmış, qadın ailə yaşamında kişinin himayəsini itirərək özünü düşünmək, geyim-kecimini təmin etmək üçün kişilər üçün ayrılmış (o zamana qədər normal olan) çalışma alanına atılmağa məcbur olmuşdur. O biri yandan insanlarda duyğu dərinliyinin artması və haqq-ədalət məfhumlarının inkişafıyla yüzillərdən bəri qüvvətli cinsin zəifi əzməsi kimi gerçəyin doğruluğu haqqında da şübhələr yaranmağa başlamış, qadınların tərəfdarı olan axınlar doğmuşdur. Avropa və Amerikada qadına verilən hüquqlar hər gün daha da artaraq qadın kişisiylə bərabərləşirkən, Asiya və Afrikada milyonlarla müsəlman qadını ən ağır, ən acı bir köləliyə məhkumdu. Burada qadınlar ən ibtidai hüquqlardan məhrum olmaqdan başqa, təbii bir şəkildə böyümək, azad nəfəs almaq kimi bitkilərin və heyvanların faydalandıqları hüquqlara belə yiyə deyildirlər. Müsəlmanlardan daha geri olan hindlilər də bu baxımdan daha sərbəst düşünürlər. Hindlilər arasında cəsur, yenilik sevən bəzi kimsələr özləri-

[1] Əhməd bəy Ağaoğlunun "İslamlığa görə və islamlıqda qadın" əsəri 1901-ci ildə Tiflisdə rus dilində çap edilmişdir. 1959-cu ildə Həsən Əli Ediz tərəfindən türk dilinə çevrilmiş əsər Əhməd bəy Ağaoğlunun oğlu Səməd Ağaoğlunun ön sözüylə İstanbulda çap olunmuşdur.

ni insanların yarısının anası olan kiçik hind qızlarının müdafiəsinə həsr etmişlər. Onlar inadkar və zəhmətli bir çalışma sonunda cəmiyyətin və din xurafatı qurbanlarının vəziyyətini yüngülləşdirmiş və yaxşılaşdırmışlar. Hind islahatçısı Malabarinin həyatını və çalışmalarını incələyən bir yazıda[1] yaxşılığa yönəlmiş, məqsədin müqəddəsliyinə və doğruluğuna kəskinliklə – qəti olaraq inanmış bir adamın öz iradəsiylə ən aşılmaz görünən əngəlləri necə yendiyinə dair çox dəyərli örnəklər verilir. Müsəlman qadınlarının durumunun çətinliyinə və ümidsizliyinə baxmayaraq, hələlik bu vəziyyətə qarşı nə bir etiraz özünü göstərib, nə də bu məsələ ilə maraqlanan bir islahatçı ortaya çıxıb. Ancaq zaman-zaman türk və Misir basınında qadınlardan yana səslər yüksəlir, bəzi cəsur kimsələr müsəlman qadının dözülməz halından, bu vəziyyətin ailə və toplum üzərindəki zərərli təsirindən söz açmaqdadırlar, qadının həyat şərtlərinin düzəldilməsini, düşüncə və vücud qabiliyyətlərinin inkişafını gərəkli görməkdədirlər. Bununla belə, bunlar hələlik çox cılız, qərarsız, dolanbac bir şəkildə, hətta çox vaxt üstüörtülü ifadə edilmiş, müsəlman cəmiyyətinə çox təsir etməyən və etməyəcək şeylərdir.

Şübhəsiz, İstanbul və Qahirədə, başqa türk və Misir şəhərlərində qız məktəblərinin açılmasında, müsəlman qadınları arasında alim və ədəbiyyatçı nəslin yetişməsində bu səslərin təsiri az deyildir. Yenə də, bunlara ancaq avropalılar ilə sıx ilişgidə olan və Avropa tərbiyəsiylə yavaş-yavaş "avropalaşmış", yaşayışlarını da onlara uyğunlaşdırmış yüksək cəmiyyətlər içində rast gəlinir. Halbuki biz müsəlman qadının vəziyyətindən danışarkən sadəcə müsəlman xalqını düşünməkdəyik!.. O xalq ki "alafranqa" yaşayan yüksək cəmiyyətdəki dindaşlarına "zındıq"[2] kimi baxır, qadınların son dərəcə acınacaqlı vəziyyətində bir qədər dəyişiklik etməyi ağıllarına da gətirmirlər.

Qadınların iztirabını eşidən inadkar bir ruh yiyəsi çıxmayacaqmı? – Müsəlmanlar mənəvi və ictimai aləmdə irəliləməzlərmi?

Öz soylarından, öz dinlərindən qadınların iztirabını eşidən əsilli, inadkar bir ruh yiyəsinin çıxmaması müsəlmanların kökündən pozulduğunu göstərir?.. İslamlıq belə bir islahatçının ortaya

[1] Kəntömpörəri Revyüv. İndian reformetə Malabari.

[2] Z ı n d ı q (ərəbcə "zindiq"dən) – dinsiz, kafir; söyüş anlamında da işlədilir.

çıxmasına imkan verirmi?.. Yoxsa Mahundun[1], yaxud Volterin deyimi ilə "Zalım insan nəslinin" nəzəriyyəsini qəbul edənlər içinə zərrəcə mədəniyyət işığı sızmayan pozuq bir dairə içindədirlərmi?

Bu suala iki şəkildə cavab verilir. Nəticə ilə səbəb arasındakı fərqi yaxşıca sezə bilməyən, çox vaxt Qərbdə də (xüsusilə Rusiyada) bunları bir-biriylə qarışdıran, ümumiyyətlə, tərsinə hökmlər verən geniş xalq kütlələri belə düşünür: Müsəlman ölkələrində olub-bitənlərin, baş verən hadisələrin yeganə məsuliyyət daşıyanı islam dinidir. Bu nəzəriyyə olmasaydı, hər şey başqa cür davam edərdi. Bu düşüncəni müdafiə edənlərə görə, müsəlmanlar müsəlman kimi qaldıqca nə mənəvi, nə də sosial sahədə irəliləyə bilməyəcəklər. Bu adamlar pisliyin kökünü islamlıqda axtardıqları üçün qurtuluşun yeganə çarəsini bu dini ortadan qaldırmaqda görürlər. Keçmişdən qalan və əski Qərb-Şərq çəkişmələrinin xatirəsi olan bu köhnə düşüncə Qərb xalqlarının şüurunda əməlli-başlı özünə yer etmişdir. Dərindən düşünməyə alışmamış bəsit adamlar üçün bu, bir-birinə büsbütün zidd olan iki qütbün çarpışmasıdır. Qərb xalqlarının uzun zaman islamlığa düşmən ruhda olan Bizans və latın ədəbiyyatının təsiri altında qaldıqları unudulmamalıdır. Bu yöndən ən başda orta çağ ədəbiyyatının, xüsusilə səlib yürüşlərinə aid əsərlərin incələnməsi faydalıdır.

ORTA ÇAĞDA QƏRB İSLAMLIĞI NECƏ GÖRÜRDÜ?

Fransız saz şairlərinin və ya Orta çağ alman şairlərinin ağzında, yaxud dinin bütün buyruq və yasaqlarına uyan və yalqız həyat keçirən bir adamın atəşin vəzlərində "Dəvə sürücüsü"nün, "Yalançı ərəb Peyğəmbəri"(?!)-nin şəxsiyyət və inanışlarının çox gülünc saxtalaşdırılmasına özümüzdən asılı olmayaraq heyrət edirik! Bu saxtalaşdırmanın tonundakı səmimiyyət Orta çağda islam dini haqqında nə qədər dərin bir məlumatsızlıq hökm sürdüyünü, təsadüfi birisinin Məhəmmədə və islam dininə dair söylədiyi uydurmalara xalqın nə qədər asanlıqla inandığını açıqca göstərməkdədir. O dövrdə Məhəmməd buynuzlu bir şeytan, yaxud xalqı başdan çıxaran, buna

[1] M a h u n d – Şekspirin Məhəmməd peyğəmbərə verdiyi ad.

görə də cəhənnəmə layiq görülən Dəccal şəklində təsvir edilirdi. Ən parlaq zəkalar da bu çeşid xürafatlar ilə bəslənmişdilər. Dante "İlahi komediya"sında Məhəmmədi Ərafın[1] bir köşəsinə, bucağına ilk çağın – qədim dövrün filosofları ilə yan-yana qoymağa cəsarət etdiyi üçün az qala odda yandırılacaqdı. Buna görə Məhəmmədi cəhənnəmin bir bucağına, Fra Dolçino və Bertran de Born[2] kimi qarışıqlıq salanların arasına keçirməyə məcbur oldu. Florensiyalı məşhur rəssam və memar Orcaqne Piza qülləsinin divarlarında çəkdiyi Campo-Santo adlı cəhənnəmdə Məhəmmədi, İbn Rüşdü və Dəccalı bütün dinləri kiçildənlər ilə bir sıraya qoymuşdur. E.Renanın dediyi kimi: "Orta çağlar öz qəzəbini heç vaxt yarıda saxlamayıb; Məhəmməd bir hiyləgərdən, bir dəvə oğrusundan, papa ola bilmədiyi üçün yeni bir din icad edərək yoldaşlarından qisas almaq istəyən bir kardinaldan, iyrənc bir əyləncə düşkünündən başqa bir şey deyildi"[3].

Aradan yüzillər keçdi. Xalqın kor inancları keçmişdə olduğu kimi, ən yaxşı zəkalar üzərinə təzyiq göstərməkdə davam etdi. Bibliander, Hottinger, Marraqi və başqaları Quranla maraqlandılar. Ancaq onu rədd etmək kimi öncədən verdikləri bir qərarla bu işə girişdilər. Libnit və Şekspir xalqı əyləndirmək üçün müsəlman Peyğəmbərini istehza mövzusuna çevirdilər. Volter ünlü "Məhəmməd" həcvi ilə papanın əfvini qazandı. Volter bu həcvində Peyğəmbərə, onun xarakter və inanclarına əks olan bu sözləri deyirdi:

Jö dua rejic an diyö L'univec (s) pğevenü,
Mon amnic e detğüit, si L'omm e regonü.

Haqlı olaraq elmi tənqid yüzili adlandırılan XIX yüzildə də seçkin, sayseçmə zəkalar buna bənzər yanılmalardan özlərini qoruya bilmədilər. 1829-cu ildə ingilis alimi Çarlz Forster din adamlarının çox ilgiləndikləri ikicildlik böyük bir əsər nəşr etdi. İngilis alimi bu əsərində Məhəmmədin "Danyalın kəhanətləri"nin 8-ci bölümündə

[1] Ərəf (ərəbcədən) – cənnətlə cəhənnəm arasında bir yer.

[2] Bertran de Born – XII yüzilin trubadurlarındandır. Şeirləri, ümumiyyətlə, lirik, satirik və əxlaqi mahiyyətdədir. Şair bu şeirlərdə yaşadığı dövrün, yəni dərəbəy-feodal cəmiyyətinin mənzərəsini yaratmışdır (H.Ə.Ediz).

[3] E.Renanın "Etüd ə'histoğ ğeliqiös" və F.Mişelin "Roman de Mahomet" əsərlərinə baxın.

təsvir edilən keçinin kiçik buynuzundan başqa bir şey olmadığını, böyük buynuzun isə papa olduğunu ciddi şəkildə söylədi. Şərqi, onun xarakterini, yaşayışını alimin gerçəkdən, obyektiv olaraq aydınlatması, işıqlandırması işi ancaq XIX yüzilin ikinci yarısının payına düşdü. Dəmir yolunun ortaya çıxması sonucunda Şərq ilə münasibətlərin sıxlaşması; ticarət, sənaye və siyasətin ortaya atdığı zərurətlər; tarixin incələnməsində olduğu kimi dinlərin incələnməsində də tənqidçi metodun tətbiqi; nəhayət, avropalı alimlərə və mütəfəkkirlərə özlərinə yabançı olan dinləri daşıyan xalqların adət-ənənələrini sadəcə yerində incələmək deyil, eyni zamanda bunları gerçək sənədlərin işığında öyrənmək, bu günü dünənlə qarşılaşdırmaq – müqayisə etmək, dinlərin inkişafı zamanı uğradıqları dəyişiklikləri göstərmək imkanını da verdi. Bundan öncəki yüzillərdə insanların din inanışları fanatizmlə qarışıqdı. Yalnız özlərini həqiqətin nümayəndələri sanan bu insanlar başqalarının da bu çeşid istəklərinə qarşı laqeyd qala bilmirdilər.

QƏRBDƏ MÜSƏLMANLIQ HAQQINDA DÜŞÜNCƏLƏR DƏYİŞİR

Zamanımızda isə din kökləri ehtiras mövzusu olmaqdan çıxmış, ağıla söykənən bir məqsədə dönmüşdür. İnsan ruhunun orijinal bir təzahürü kimi maraq oyandıran dinləri bu şərtlər altında bilərəkdən saxtalaşdırmağın və ya onları gülünc şəkildə göstərməyin söhbəti ola bilməz! Bir kimyagərin təhlili laboratoriyasından necə çıxırsa, bir şərqşünasın əsəri də qələmindən o cür çıxır. Onun üçün bütün hadisələr, bütün ünsürlər eyni əhəmiyyət daşıyır, eyni dərəcədə gərəklidir. O, insan ruhunun bərabərliyini görərkən buna heyran qalır. Zamanımızda bu çeşidli səbəblərin təsiri altında gəlişən şərqşünaslıq elmi Şərq məlumatına, çeşidli dinlərə olduğu kimi, Məhəmmədə və onun inanışlarına dair bu günə qədər olan görüşləri büsbütün alt-üst etdi. Artıq Məhəmməd nə Qadikedə səcdə edilən Mahom şəklində bir büt, nə cəhənnəmə layiq görülən bir Dəccal, nə də "Danyalın kəhanətləri"ndə bəhs olunan keçinin başındakı kiçik bir buynuz deyildir. O, orijinal, yeni və bir çox fövqəladə yüksək fikirləriylə dünyanı sarsıtmış olan bir islahatçıdır. Məhəmməd nəzəriyyəsini papa olammayan kardinalın üzüntüsü ilə deyil, özündən 600

il öncə Böyük öyrətmən tərəfindən dünyaya elan edilən, ancaq onun bacarıqsız və qeyrətkeş şagirdləri tərəfindən, xüsusilə Ərəbistanda anlamsızcasına saxtalaşdırılan gerçəyə çata bilmənin şübhə və iztirabı ilə qıvrılaraq ortaya çıxartdı. Bu iztirabın ifadəsi Quranın ən duyğulu yerləridir. Məhəmməd ilk dəfə İsanın dini haqqında ona məlumat verən sabilərdən Quranda nə qədər böyük minnətdarlıqla danışır. Quranın üslubu heç bir yerdə İsanın doğulmasından, çəkdiyi acılardan, Məryəmdən – "Ruhülqüds"ün anasından danışdığı yerlərdə olduğu qədər yüksək, ilahi, toxunaqlı, həyəcanlı deyildir. Müsəlmanlar arasında Məryəm bəzi xristian məzhəblərində olduğundan daha çox sayğı görür. Məhəmmədin ürəyi ona qarşı dərin bir sayğı ilə doludur. Qızı Fatiməni istəyən Məhəmməd "Ruhülqüds"ün anası Məryəmdən sonra Fatimə qadınlar arasında "ikinci gəlir" demişdi. Məhəmməd İsanı öz inanışlarına görə anlamış, dərk etmişdi. Məhəmmədin dini də xristianlığın uğradığı saxtalaşdırılmanın özünə görə bir etirazıdır. Quranın bir çox yerlərində: "Mən İsanın gerçək dinini yenidən yaratmağa gəldim!" cümləsi təkrarlanmaqdadır.

Ünlü ingilis şərqşünası Maks Müller deyir ki: "İllər keçəcək, xristianlar böyük bir heyrətlə Məhəmmədin şəxsində İsanın ideya yoldaşlarından, müsəlmanlıqda isə xristianlığın məzhəblərindən birini görəcəklər. O zaman xristianlar və müsəlmanlar uzun bir tarix müddətincə aralarında olan din düşmənliyinə və din savaşlarına birlikdə eyni dərəcədə heyrətlənəcəklər"[1].

Avropa şərqşünaslarını bir yana qoyaq. Peterburqda rus mütəfəkkiri B.Solovyev də bu düşüncəyə çox yaxınlaşıb. Ancaq təəssüf ki, böyük xalq kütlələri bu düşüncələrdən uzaqdadır. Məhəmməd və onun dini inanışları haqqında demək olar ki, Orta çağda bəslənilən düşüncələri daşımaqdadırlar.

DİNLƏRƏ İNSANLARIN TƏSİRİ

Müsəlmanların bugünkü durumunu, gücsüzlüyünü, mənəvi yoxsulluğunu, sosial baxımdan təşkilatsızlığını sadəcə islamlığın təsirində görmək yanlışlıqdır. Belə düşünməklə həyatın canlı bir amili olan insanı heçə saymış və ona tamamilə passiv bir rol vermiş oluruq.

[1] Maks Müller. Zhe Məhəmet ənd zhe Məhəmet.

Halbuki mücərrəd bir anlam olan din öz-özlüyündə qüdrətsizdir, həyatı yarada bilməz. Nəhayət, dinlərlə onu mənimsəyən insanlar arasında açıqca duyulan və davamlı olan qarşılıqlı bir təsir vardır. İlk zamanlar insanların maddi və mənəvi ehtiyaclarını əks etdirən və böyük bir qüvvə halında ortaya çıxan, insanları hərəkətə gətirən dinlər zaman keçdikcə yeni yaşayış şərtlərinin təsiri altında qalmağa, yeni şərtlərə uyğunlaşmağa başlayır. Bir sözlə, inkişafın bütün qanunlarına boyun əyirlər. Yeni yaşayış şərtlərinin quruluşuna görə ya pozulur, ya da yaxşılaşırlar. Əks halda bir dinin sinəsində çeşidli məzhəb və təriqətlərin doğmasını anlada bilmərik. Ortaya çıxan ilk xristianlıqla orta çağ xristianlığını, nəhayət, zamanımızın xristianlığını müqayisə etsək, bunu açıqca görərik. Ana prinsiplərində bu dərəcədə bəlli olan bu dinin necə parçalandığını və dəyişdiyini xatırlayaq. İslamlıqda da eyni şeylərin olduğunu görürük. Zaman keçdikcə müsəlmanlıqda meydana gələn saysız-hesabsız məzhəb və təriqətləri bir yana qoyaq. Sadəcə olaraq, müsəlman qadınının bugünkü durumu ilə müsəlmanlığın ona verdiyi durumu və ilk müsəlman icmalarındakı qadının durumunu qarşılaşdıraq.

BİRİNCİ BÖLÜM

ƏRƏBLƏRDƏ İSLAMDAN ÖNCƏ QADIN

Hər şeydən öncə bunu göstərək ki, geriyə qayıdıb, ərəblərin islamdan öncəki yaşayış şəraitini araşdırmadan, ərəblər arasında olduğu qədər onları çevrələyən millətlər arasında da bu dövrdə yaşayan qadınların vəziyyətini anlamadan müsəlmanlığın qadına qarşı tutduğu mövqedən danışa bilmərik! Ancaq yeganə doğru və rasional araşdırma yolu olan belə bir araşdırma metodu sayəsində islamlığın qadınların inkişafında oynadığı rol haqqında qəti fikir söyləyə bilərik. O biri yandan, yenə eyni metodla Məhəmmədin ümumiyyətlə qadın, xüsusilə ərəb qadınları üçün nə etdiyini anlaya bilərik.

Bir çox araşdırıcılar bu metoda az əhəmiyyət verirlər. Buna görə də onların bilgi və ciddilik örtüyünə bürünən fikirləri səthi mahiyyət daşıyır. Onlar müsəlman qadınlarının bugünkü durumunu ələ alaraq bunu müsəlmanlığın təsiri kimi qələmə verirlər. Halbuki

belə bir metod yanlışdır. Məsələn, XIII və XIV yüzillərdə Avropada hökm sürən inkvizisiya, öldürmə və sürgün kimi qorxunc hadisələri xristianlığın təsiri ilə bağlasaq, görəsən, bizə nə deyərlər? Heç şübhə yoxdur ki, belə bir acınacaqlı bir nəticəyə ancaq gülmək olar. Halbuki günümüzdə islam öz orta əsrlər dövrünü yaşamaqdadır. İslamlıqda bu gün gözəçarpan qüsurlar orta əsrlərdə Avropada xristianlığa aid edilən əskikliklərdən fərqlənmir: o zamanlar xristianlar öz dinlərini bilmədikləri kimi, indi də müsəlmanların çoxu öz dinlərini bilmirlər. Beləliklə, xristianlıq orta əsrlərdəki katoliklərin əskikliklərinə, pis hərəkətlərinə görə nə dərəcədə məsuliyyət daşıyırdısa, bu gün də islamlıq müsəlmanların əskiklərinə, pis hərəkətlərinə görə o dərəcədə məsuldur. Bu qüsurların səbəblərini dinlərdə deyil, həqiqətən dinə düşmən olan bəzi əsaslarda axtarmaq lazımdır. Hər vaxt yalnız yaxşılığı, doğruluğu, ağıllı düşüncələri, axirət dünyasını, ruhun ölümsüzlüyünü, yaxşılıq və pisliyin əvəzi veriləcəyini qəbul edən din bu qüsur və pislikləri xoş qarşılayammaz! Müsəlmanların eşq və şərab şairi Ömər Xəyyam rübailərində görün nə deyir: "Əslində islamlığın heç bir qüsuru yoxdur. Bütün qüsur bizim müsəlmanlığımızdadır".

Hələlik müsəlmanların bugünkü durumuna toxunmadan, nəzəri baxımdan islamın qadına münasibətini, yəni müsəlmanlıq inanışına görə qadının durumunu araşdıraq. Ancaq ilkin olaraq, Məhəmmədin Ərəbistanda və Şərqdə qadını hansı durumda tapdığını, qadınlar üçün nə etdiyini, heç olmasa, nələri etməyə çalışdığını oxucularımıza anlatmağa səy göstərək. Belə bir araşdırma bir yandan müsəlmanlığın onu mənimsəyənlər, ona inananlar tərəfindən daha yaxşı başa düşüldüyü zaman müsəlman qadınının hansı durumda olacağını, o biri yandan da islamlığı tələm-tələsik araşdıran alimlərin islamın çox qadınalma qurumunu irəli sürərək ona qarşı hücumlarının nə qədər haqsız və yersiz olduğunu bizə qismən də olsa, anlatmaq imkanı verəcəkdir.

İRANDA VƏ ƏRƏBLƏRDƏ QADIN

Həzrəti-Məhəmməddən öncə Ərəbistanda və Ərəbistanla qonşu olan, onu çevrələyən ölkələrdə qadının həyatı qorxuncdu. Məsələn, İranda qadın tam mənası ilə bir kölə idi. Qapalı yaşayış sürürdü, dünyadan xəbərsizdi. Qanunlar qadın alğı-satqısına izin verirdi[1]. Din qanunları bir kişinin anası və bacısı ilə, bibi və xalası ilə, qardaşının qızları ilə onun evlənməsinə izin verirdi[2]. İranlı qadınlar həyatlarının bilinən bəzi vaxtlarında[3] evlərindən uzaqlaşmağa və "dehmə" adlanan məzara girməyə məcbur idilər. Onlara yemək aparanlar buraya gələrkən, öncə qulaqlarını, burun deşiklərini sıx-sıx örtməli, tıxamalı, əllərini bezlə sarımalıydılar. Çünki bu qadınlarla, bunları çevrələyən hava ilə hər cür təmas haram hesab olunurdu.

Qadının öz ailəsi içində, ərinin qarşısında vəzifələrindən və hüquqlarından danışmağa belə dəyməzdi. O zamanın qadınları sözün geniş anlamı ilə qeydsiz-şərtsiz ərlərinin əsiri idilər. Ərləri onlara bir qayda olaraq bir ev əşyası kimi baxır, istədikləri vaxt onları ata və ya sata bilərdilər. Onları öldürmək və ya yaşatmaq ərlərinin əlində idi.

Ərəbistandakı qadınların həyatı daha da pis idi. Ərəb ailəsində qız uşağının dünyaya gəlişi o ailə üçün pis bir əlamət, Allahın bu ailəyə olan qəzəbinin ən aşkar ifadəsi idi[4]. Ərəb öz qızını diri-diri quma basdırar, bir kölə kimi satar, istəsəydi, hər hansı bir ev heyvanı ilə dəyişə bilərdi[5]. Evlənmələr bilinən bir sıra qaydalardan və dinlə bağlı mərasimlərdən ibarət olan müqəddəs anlaşmalardan daha çox təsadüfi birləşmələr mahiyyətini daşıyırdı. Bu birləşmələr nə qanunla, nə də ənənələrlə bağlıydı. Tərəflərdən heç birini yerinə yetirilməsi gərəkən borc qarşısında qoymurdu. Hər halda ərəblərin ehtiraslı və savaşqan xarakterləri dolayısıyla bu evlənmələr azad bir eşq pərdəsinə bürünərək romantikləşdirilirdi. Amma gerçəkdə isə bunlar bayağı bir məşuqə yaşayışından o yana keçmirdi. İstər qadın, istərsə də kişi dilədiyi zaman bir-birini buraxa bilərdilər. Bütün ərəb ailə həyatının bağladığı yeganə maneçilik törədən əsas qadının qohumlarından ibarət güclü düşmənlərin intiqam alma qorxusu idi. Bu həyat

[1] Firdovsi. "Şahnamə"
[2] "Zend-e "Avesta"
[3] Aybaşı, doğum anları və s. nəzərdə tutulur.
[4] Jül Şoll. "L'İslam et son fondatoğ".
[5] Maşanov. "İslamiyyətdən öncə Ərəbistan".

tanınmış ərəb tarixçisi Təbərinin danışdığı bir hadisədə daha gözəl təsvir edilir: məkkəlilərlə Məhəmmədin tərəfdarları – mədinəlilər arasında keçən bir vuruşmada məkkəlilərin arvadları da ərləri ilə birlikdə döyüşə girmişdilər. Bunlara Əbu Süfyanın arvadı Hind başçılıq edirdi. Məkkəlilərin arvadları dəf və zəng çalaraq, şərqilər söyləyərək ərlərini həvəsləndirirdilər, qeyrətə gətirirdilər. Onlar ərlərinə belə deyirdilər:

"Biz Tariqin[1] qızlarıyıq!.. Çömələrək yeriyirik! Əgər düşmənlərimizi yenərsinizsə, sizi qucaqlarıq, yox, əgər yenilərsinizsə, onda sizi birlikdə buraxarıq!"[2]

ƏRƏB QADINLARI BÜTÜN HÜQUQLARDAN MƏHRUMDU

Məhəmməd meydana çıxdığı vaxtlarda Ərəbistanda poliqamiya özünün ən yüksək səviyyəsinə çatmışdı. O dövrdə elə bir varlı ərəb yox idi ki, onun 15, 20, hətta 100 arvadı olmasın![3] Bu qadınlar bütün hüquqlardan məhrumdular. Nə ərlərinin, nə də kişi qohumlarının mirasına yiyələnə bilməzdilər. Qız ataları müqəddəs bir adət kimi qızları ilə istədikləri şəkildə davranmaq hüququna malikdilər. Hələ beşikdə ikən onu kimə istəsələr nişanlaya, daha doğrusu, vəd edə bilərdilər. Qız böyüdükdən sonra atasının bu qərarına qarşı çıxammazdı. Məhəmməd hələ ilk vəzlərində böyük bir istiqanlılıq və səmimiyyətlə yaşadığı mühitdə qadınlarla əlaqədar bu vəhşi adətlərə qarşı çıxmağa başladı. Bu soylu, bu duyğulu varlığı Ərəbistandakı qadınların həyatı qədər heç bir şey bu dərəcədə həyəcanlandırmırdı. Qoruyucusu olmayan qadınların, kimsəsiz yetim qızların, yurdundan ayrılmış qərib adamların həyatı qədər heç bir şey onun duyğulu ürəyini coşqunlandırmır və üsyan etdirmirdi.

[1] Tariq – dan ulduzu, Zöhrə.
[2] Ət-Təbəri. Misir nəşri, səh. 265.
[3] Molla Fətullanın Quran təfsiri, səh. 333.

İKİNCİ BÖLÜM

İSLAM QAYNAQLARINA GÖRƏ QADIN

QURAN QADINLARI YÜKSƏLDİR

Quranda heç bir mövzu qadınlardan, yetimlərdən, qərib adamlardan danışıldığı yerlərdə olduğu qədər insanı ovsunlayan bu dərəcədə əsil, bu dərəcədə candan, səmimi bir üslubla yazılmayıb. Quranda qadınlardan danışan və "Nisa" surəsi adını daşıyan böyük bir bölüm var. Yalnız bu bölüm belə Məhəmmədin qadın məsələsinə nə qədər böyük əhəmiyyət verdiyini göstərmək üçün kifayətdir. Bu surə o dövrün ərəb kişilərini heyrətə salan bu cəsur və gözlənilməz sözlərlə başlanır:

"Ey insanlar! Sizi eyni maddədən yaradan, ondan da qadın tayını yaradan və ikisindən də bir çox kişi və qadınlar törədib yaradan Allahdan qorxun!"

Bu sözlər o dövrün bütə sitayiş edən ərəbi üçün, onun bütün adətlərini, anlayışlarını, dünya görüşünü alt-üst edən qorxunc bir yenilik idi və büsbütün bir inqilab mahiyyəti daşıyırdı. Bu sözlər qadınla kişinin eyni maddədən, eyni xəmirdən yaradıldığını, onların sosial bir fərd kimi bərabər olduqlarını, davranışlarına görə Allahın qarşısında eyni dərəcədə məsuliyyət daşıdıqlarını bildirməklə o dövrün bütə tapınan ərəbini rəzil edirdi. Daha sonra Quranda Adəmlə Həvvanın Allah tərəfindən yaradılması, demək olar ki, Tövratdakı kimi, ondan çox az fərqli anladılırdı. Quran hər şeydən öncə qız uşaqlarının diri-diri quma basdırılması kimi vəhşi bir adətə qarşı üsyan edirdi. Quranda bu hadisədən iki yerdə danışılır. Bunların birində qorxunc alovları və nəfəsi od püskürən ilanları ilə cəhənnəmin canlı bir mənzərəsi çəkilib və ərəbin coşqun xəyalı önündə diri-diri quma basdırılan və atasının ətəyinə sarılaraq: "Hansı suçumdan ötrü məni öldürürsən?" – deyə fəryad edən qızı canlandırılmışdır. Başqa bir yerdə isə Cənnətin eyni şəkildə canlı bir təsvirindən sonra "Uşaqlarınızı öldürməyin!" – nəsihəti verilir. Həzrəti-Məhəmməd həyatında da belə bir davranışın nə qədər ağır olduğunu ərəbin şüuruna yeritmək üçün heç bir fürsəti əldən qaçırmamışdır. Məkkənin ələ keçirilməsindən və bütə tapınanların islamlığı qəbul etməsindən sonra mərasimlə içilən andların birində "öz uşaqlarını öldürməmək" vədi əsas tutulub. Bundan başqa, ərəblərin

gözündə qadınların əhəmiyyətini artırmaq, şəxsiyyətlərini yüksəltmək məqsədini güdən və Həzrəti- Məhəmmədə aid edilən bir çox hədis və rəvayətlər zamanımıza qədər gəlib çıxmışdır. Bu rəvayətlərin bəzilərində qız uşaqlarının dünyaya gəlişi həmin ailəyə xoşbəxtlik gətirəcəyinə dair Allahın bir müjdəsi kimi göstərilir, ölən qız uşaqlarının göy üzündə bir Mələk halına gələrək yer üzündə qalan ata-analarının suçlarının bağışlanmasında və dilələrinin yerinə yetirilməsində vasitəçilik edəcəkləri söylənilir.

PEYĞƏMBƏRİN QIZINA MƏHƏBBƏTİ

İslamı yeni qəbul etmiş Bəni Təmim qəbiləsinin başçısı Qeys ibn-Asim bir gün Peyğəmbərin yanına gəlir. Bu zaman Peyğəmbər bir qız uşağını qucağında tutmuşdu və onu öpüb oxşayırdı. Qeys ibn-Asim soruşur:

– Öpüb qoxuladığın bu quzu kimdir?

Həzrəti-Məhəmməd:

– Qızım, – deyə cavab verir.

Qeys ibn-Asim:

– Qəribə şeydir, – deyə etiraz edir, – mənim də buna bənzəyən bir çox uşaqlarım oldu. Amma mən bunların hamısını da öpüb qoxulamadan diri-diri quma basdırdım.

Həzrəti-Məhəmməd:

– Bəxtsiz! – deyə qışqırır. – Demək ki, Haqq-taala sənin ürəyini insanlıq duyğularından məhrum edib!.. Sən insanlara verilən ən yüksək zövqlərdən birini dadmayıbsan!..

MƏHƏMMƏDİN TANIDIĞI QADIN HÜQUQLARI

Peyğəmbər başqa bir münasibətlə: "Allah Cənnəti anaların ayaqları altında qoydu"[1] demişdir. Beləliklə, qadınların mənəvi dəyərini yüksəldən Məhəmməd onların elə geniş hüquqlarını tanıdı ki, Fransa kimi bu günün bəzi məmləkətləri belə hələ bu hüquqları tanımaq üçün cəsarət göstərəmməyiblər[1]. Quranın qoyduğu

[1] Ernest Renan. "Etüd o'histoğ ğeliqiös".

[1] Bu əsərin 1900-cü illərdə yazıldığı unudulmamalıdır (*H.Ə.Edizin qeydi*).

əsaslara görə qızlar analarının və atalarının mirasını ala biləcəkdilər. Ata və analar bundan belə qızlarını satammayacaqdılar. Qız uşaqları ərgənlik çağına çatdıqdan sonra istədikləriylə evlənə biləcəkdilər. Müqavilə bağlamaq, imzalamaq, başqalarına sənəd vermək, sənəd almaq hüquqları olacaqdı. Qurana görə, evli qadınlar da hər hüququ olan vətəndaşlardır. Onların – ərlərinin köməyi olmadan – sərbəst şəkildə mallarını idarə etmək və mallarına sahib olmaq haqqı vardı. Ər arvadından əmzikli uşağı əmizdirməsini istəməkdən başqa heç bir istəkdə ola bilməyəcəkdi. Qadın ərinə, sadəcə olaraq, sədaqətli olmalı və ona itaət etməliydi. Bu söz dinləmə – itaət də uyğun, əlverişli bir şəkildə məhdud edilmişdi. Qadının ərinə baxması, onun mal və mülkünə göz-qulaq olması tamamilə özünün istəyinə bağlı bir iş idi.

QURANIN QADINA VERDİYİ DƏYƏR

Arvad ilə ər arasındakı hər bir anlaşmazlıq iki tərəfin nümayəndəsindən ibarət ikinəfərlik bir ailə məclisində həll olunmalı idi. Qadın istər ərinin, istərsə də uşağının mirasından bir fayda görə biləcəkdi. Evlənmə və nikah eşqə, sevgiyə söykənirdi ("Ancaq sevdiklərinizlə evlənin!"). Nikah müqəddəs bir əməliyyat mahiyyətini daşıyırdı. Bu əməliyyat din tələblərinə uyğun olub, qanun və dinin doğru gördüyü əsaslara dayanırdı. Nikah eyni zamanda qarşılıqlı bir anlaşma və təminat məzmunu da daşıyırdı. Bu anlaşma boşanma qəbul edildiyi zaman pozula bilərdi. Amma boşanma, qadının sədaqətsizliyini çıxmaq şərtiylə, ancaq qanun və dinin, bütün vicdanın doğru bildiyi səbəblərə dayanmalıydı. Boşanma zamanı ər-arvadına mihr[1] ödəməli, heç olmasa, üç ay üçün onun dolanışığını təmin etməliydi. Ərindən ayrılmış qadının kiçik yaşda uşaqlarını yanında saxlamaq haqqı vardı. Əri isə bu uşaqların dolanışığını, geyim-kecimini təmin etməyə borclu idi. Boşanma Quranın tanıdığı və qəbul etdiyi bir hüquq olmaqla bərabər, yenə də Qurana görə alçaq və iyrənc bir hərəkət kimi səciyyələndirilir: "Mənim üçün (yəni Allah üçün) boşanmaqdan daha mənfur, daha pis bir şey yoxdur. Ərlər hətta sevmədikləri arvadları ilə insan kimi və şəfqətlə davranmalı, onlarla

[1] Mihr – kəbin kəsilərkən ər tərəfindən arvadı üçün təyin edilən pul və s.

dostcasına və bir anlaşma içində yaşamalıdırlar". Arvadlarınızla sevgi və anlaşma içində yaşayın! Hətta onlara nifrət belə etsəniz, buna dözün!.. Allah buna görə sizə böyük mükafatlar ehsan edəcəkdir". Daha sonra Quran davam edərək deyir: "Madam ki, həyat sizi birləşdirmiş və bir-birinizə böyük andlarla bağlanmışsınız, necə olur ki, sevgi və barış içində yaşamayasınız!" Kişilər hətta yolunu azmış və nikah bağlarına sadiq qalmamış qadınlara qarşı xoş rəftarla və mərhəmətlə davranmalıdırlar. Qadınları sadəcə olaraq şübhəyə, hələ dediqodu və şayiələrə dayanaraq pis bir hərəkətlə suçlandırmaq qətiyyən olmaz. Qadının sədaqətsizliyi ədalətli olduqlarına və yalan yerə şahidlik etməyəcəklərinə tam inanılan dörd şahidin iştirakı ilə keçirilən səlahiyyətli bir məhkəmə tərəfindən sübut edilməlidir. Məhkəmə belə bir qadını səmimi bir peşmanlıqla bitən peşmanlıq həbsinə məhkum edir.

Quran davam edərək deyir:

"Qadınlar o qədər zəifdirlər ki, şeytanın hiyləgər oyunlarını başa düşməzlər və tez aldanırlar... Ona görə də onların bir çox suçları iltifatla qarşılanmalıdır!" Yolunu azmış qadınlar haqqında söylənən bu sözlər bir başqa Tanrı elçisinin söylədiyi sözləri xatırlatmırmı?.. Bu sözlər ən kiçik bir şübhə üstündə arvadlarını daşlayıb öldürən, tez özündən çıxan bədəvilərin üzərində o zamana qədər heç alışmadıqları yeni, ilahi bir təsir yaratmırdımı?..

BİRİNDƏN ARTIQ EVLƏNMƏ MƏSƏLƏSİ

İndi poliqamiya (çox arvadalma) bəhsinə gələk. Bir az bundan öncə, yuxarıda dediyim kimi, Məhəmməd bir Peyğəmbər kimi meydana çıxdığı vaxtlarda istər Ərəbistanda, istərsə də Ərəbistanla qonşu ölkələrdə məhdud olmayan bir poliqamiya adəti vardı. Yüz illər boyunca kök atmış və Şərqə aid xüsusiyyət kimi görünən bu adəti, bu qurumu tezliklə, bir anda aradan götürmək mümkün deyildi. Şərq insanlarının qədim yaradılışlarına və Şərq ölkələrinin iqlim şəraitlərinə dayandığı, söykəndiyi üçün bu adəti yıxmağın, aradan götürməyin bir ayrı çətinliyi vardı. Ancaq yenə də islamlıq bu sahədə Şərq üçün çox əhəmiyyətli işlər gördü. Qanunla, şəriətlə izin verilən arvadların sayını dördə endirməklə bərabər, bu məhdudiyyəti yerinə yetirilməsi çətin olan şərtlərə bağladı ki, gerçəkdən də bu məhdudiyyət monoqamiya (bir qadın) nəticəsinə gəlib çıxmalıydı. Burada

deyilən şərtlərdən ən əhəmiyyətlisi ərin arvadlara qarşı ədalətli olmaq zərurəti idi. Bu "ədalət" sözünü təfsir edən Qamus, İmam-i Fəxri-i Razi, Molla Fətulla görün bu haqda nə deyirlər: "Bu ədalət yalnız ərlərin öz arvadlarına qarşı xarici davranışlarını deyil, onların duyğularını da əhatə etməyə məcburdur. Ər bütün arvadlarına qarşı bərabər səviyyədə davranmaqla kifayətlənməməli, onların hamısına eyni duyğu bəsləməli, onların hamısını eyni dərəcədə sevməlidir".

Görəsən, bu mümkünmüydü?.. Bu məsələyə doğrudan bilavasitə Quran cavan verdi: "Ən yaxşı arzularınıza baxmayaraq, arvadlarınızın arasında bərabərliyi gözləməyə, onlara qarşı ədalətli olmağa gücünüz çatmayacaqdır".

Bu, insan gücünün xaricində olan bir şeydir. Çox qadın alanlar daim günaha batacaqlar. O halda nə etmək lazımdır? Bu suala yenə Quran cavab verir: "Arvadlarınıza qarşı ədalətli olmayacağınıza dair sizi qorxudan səbəblər varsa, o halda bir qadın alın! Ədalətsizliyə yol verməkdən, günaha batmaqdan sizi qoruyacaq ən yaxşı yol budur!"

İSLAMLIĞA HÜCUM EDƏN AVROPALI YAZIÇILAR HAQSIZDIRLAR

Qurandan aldığımız bu parçalar islamın monoqamiyadan yana olduğuna ən kiçik şübhəyə belə yer qoymur. Bu həm də müsəlmanlar öz dinlərini, onun ruh və istiqamətini daha yaxşı anladıqca, zamanla monoqamiyanın müsəlmanlar arasında üstünlük qazanacağını şübhəsiz edir. Buna görə də Quranı və Məhəmmədi insanların yarısına, yəni qadınlara düşmən olmaqda suçlandıran avropalı yazıçılar haqsızdırlar. Bu yazıçılar müsəlmanların əlverişsiz durumlarını və nöqsanlarını onların dini ilə bağlayanda da yenə haqsızlıq edirlər. Çünki əksinə, bu həyat və nöqsanlar islamlığa baxmayaraq, islamlığın özünə zərərli olaraq ortaya çıxmış və davam etmişdir. Quran əsil və böyük bir hücumu həyata keçirmişdir. O, Asiyada qadını ucaltmış, onun o zamana qədər Şərqdə görünməmiş və duyulmamış bir sıra hüquqlarını tanımış, onu xidmətçi qadın rolunu oynamaqdan həyat yoldaşı və ana mərtəbəsinə yüksəltmişdir. Peyğəmbər zamanında qadınlar özlərinin tanınmış hüquqlarına nə qədər əhəmiyyət və dəyər verdiklərini Molla Fətullanın təfsirində verilən bu hadisədən anlaya bilərik: Bir gün Həzrəti-Ömər camedə

vəz edərkən nikah zamanı qərarlaşdırılan mihrin (mihr-i muaccəl, mihr-i müəccəl)[1] götürülməsi fikrini müdafiə etmişdi. Bu zaman camedə vəz dinləyən qadınlardan biri ayağa qalxaraq: "Ya Əmirəlmöminin, bizə Allah və Onun elçisi tərəfindən bağışlanmış hüquqlardan bizi məhrum etməyə haqqınız yoxdur! – demişdir. Bu sözlərin qarşısında xəlifə öz sözlərini geri götürməyə məcbur olmuşdur...

ÇARŞAF MƏSƏLƏSİ

Məhəmmədi islamlığa çarşafı gətirməkdə suçlandıranlar da eyni dərəcədə haqsızdırlar. Əslində çarşaf Məhəmməddən çox öncə Şərqdə vardı. Ancaq qadınların örtünməsi və çarşaf azadlıq vurğunu olan ərəblər arasında yoxdu. Məhəmməd də onu gətirməyib. Etibarlı tarix qaynaqlarından öyrənirik ki, Peyğəmbərin və çağdaşlarının həyat yoldaşları səyahətlərdə və din savaşlarında ərlərinə yoldaşlıq edirdilər. Məhəmmədin həyat yoldaşlarından məşhur Ayişə Peyğəmbərin ölümündən sonra ordulara sərkərdəlik etdi. Ərəblər Peyğəmbərin ölümündən çox sonra, başqa millətlərlə yaxınlıq və işğalların doğurduğu varlanma sonucunda xasiyyətləri pozulduqdan sonra çarşafı qəbul etdilər. Bunun üçün o vaxtlar müsəlmanlar arasında sayca çoxalan, boş danışan və həyatın anlamını həzdə görənlər indi də qadınların azadlığı uğrunda savaşanlara qarşı ikiüzlü şəhvət düşkünlərinin əlində qorxunc bir silah olan iki ayətin müxtəlif cür başa düşülməsindən istifadə etdilər. Bu ayətlərin birində "zeynət"in (ədəb yerlərinin) örtülməsindən, digərində isə üz və baş örtüklərindən danışılır. Bunu söyləməliyik ki, ərəblər Məhəmmədin dövründə olduğu kimi, qismən bu günə qədər də geyimlərinə çox da diqqətli deyillər. Çölçü, qızğın, söz dinləməyən və təzyiqə boyun əyməyən bədəvilər və bədəvi qadınları böyük qruplar halında Peyğəmbərin yanına gəlir, çeşidli duruşda onun önündə yerə uzanırdılar (bu zaman onların yarıçılpaq vücudları görünürdü) və deyirdilər: "Ya Məhəmməd, bizə öz Tanrından danış!" Onların bu halı, bu davranışları, ümumiyyətlə bu ehtiraslı xalqın həyatlarının bütün xüsusiyyətlərinə daxil olmağa məcbur olan Məhəmmədin əxlaq duy-

[1] Mihr-i muaccəl – nikah bağlanarkən qadına verilən mihr bölümü; mihr-i müəccəl – qadının razılığı olmadan boşanma zamanı və ya ər ölərkən qadına verilən mihr bölümü.

ğularına sayğısızlıq idi. Bundan ötrü hər dəfə Tanrıya müraciət etmək, ondan ayət istəmək gərəkirdi. "Zeynət" haqqındakı ayətdə belə deyilirdi: "Ədəbli davranın!.. Yavaş danışın, bədənlərinizi örtün!" Bədəvi qadınlar və kişilər o zamandan bədənlərini örtməyə başladılar... Ancaq bədənlərinin alt tərəfini... Bədənlərinin üst tərəfi, sinələri, boyunları və başları isə açıq qalmaqda idi. Yenidən Tanrıya müraciət etmək lazım gəldi. Bu dəfə baş örtüyü haqqındakı ayət nazil oldu. Saçı örtən bu baş örtüyü, həm də boyun və sinəsini də Ərəbistanın qızmar günəşindən qorumalı idi.

Türk qadın yazıçısı[1] "Məşhur islam qadınları" adlı başlıca əsərində bunları yazır: "Gerçəklər gerçək olaraq qalmaqdadır. Şəhvət düşkünlərinin heç bir uydurması qadınlara qarşı davranışlarında Peyğəmbərin nurlu üzünü kölgələndirə bilməz!.. Etibarlı tarix qaynaqlarından öyrənirik ki, istər Həzrəti-Məhəmməd, istər ilk xəlifələr zamanında qadınlar tamamilə sərbəst şəkildə kişilər ilə görüşüb danışır, evlərinə hər iki cinsdən qonaq qəbul edir, küçələrdə kişilər ilə dolaşır, camelərə və digər ümumi yerlərə gedə bilirdilər. O dövrün tarixçilərindən birinin anlatdığına görə, Əbu Bəkirin qızı Əsmanın geydiyi çox nazik üst paltarının altından bədəninin bir hissəsini görən Peyğəmbər: "Ya Əsma, bir qadının əllərindən və üzündən başqa yerlərinin görünməsi uyğun deyil!" – demişdir. Həzrəti-Məhəmmədin qızı Fatimə atasının ölümündən sonra xəlifə Əbu Bəkirin yanına gələrək atasının bu sözlərinə etiraz etmişdir.

Məhəmmədin zamanında ərəblər arasında belə bir adət vardı: "Gənc dul qadınlar kişilərlə yaxınlıq etmək və özlərinə yeni bir ər tapmaq məqsədilə ümumi yerlərə gedirdilər. Bu adət "Tadcamun" adı ilə məşhurdur. Bu dul qadınların bəzisi bəzəkləriylə və geyimlərinin şıqlığıyla sərt xasiyyətli şeyxləri hirsləndirirdi. Şeyxlər bundan Peyğəmbərə şikayət edirlər. Peyğəmbər isə onlara: "Allahın onlara ehsan buyurduğunu mən onlardan ala bilmərəm" cavabını verir.

İslamlığın ilk dövrlərində camelərdə və ümumi yerlərdə islamlığı təbliğ edən, daha sonra isə din müəllimi kimi çıxış edən qadınlar çox idi.

Belə hesab edirik ki, bu gerçəklər, islam qadınlarının örtünməsi işində ikiüzlülərin dayandıqları, söykəndikləri ayətlər yanlış və hiyləgərcəsinə izah edilməzsə, Məhəmmədi və Quranı gözəl cinsi

[1] Bu yazıçının adını Həsən Əli Ediz, Fatimə Aliyə xanım kimi göstərir.

dəhşətə salan bir cin halına gətirən rəvayətləri qəti olaraq rədd və inkar etmək üçün yetər. Müsəlmanların örtünməyi necə və hansı yollarla mənimsədiklərini də aşağıda araşdıracağıq.

Qadınların durumunu yaxşılaşdırmaq yolunda Məhəmmədin sərf etdiyi səyləri qadınlar ürəkdən, böyük istəklə qarşıladılar. Bu mövzuda E.Renan deyir: "Qadınların Həzrəti-Məhəmmədə göstərdikləri istək, çalışmalarının ilk dövründə onun uğradığı sayğısızlığın böyük bir təsəllisi oldu. Məhəmmədin təqibə və sayğısızlığa uğradığını görən qadınlar onu sevdilər. İslamlığın birinci yüzili görünməmiş parlaq bir neçə qadın xarakteri ortaya çıxartdı. Bu böyük dövrün iki parlaq siması olan Ömərdən və Əlidən sonra iki qadın gəlir: bunlardan biri Ayişə, digəri isə Fatimədir. Müqəddəslik haləsi isə Xədicənin ətrafında parlamaqdadır".

ÜÇÜNCÜ BÖLÜM

MÜSƏLMANLIQDA QADINLARIN İNKİŞAFI VƏ QADINLARIN BUGÜNKÜ HƏYATI

Ümumiyyətlə, müsəlmanlıqda qadınların, inkişafı tarixini dörd dövrə ayırmaq olar: birinci dövr Məhəmməddən Əməvilərin hakimiyyətə gəlişinə qədər sürüb. İkinci dövr Əməvilərdən türk hakimiyyətinin qurulmasına qədər olan dövrdür. Üçüncü – türk hakimiyyəti dövrüdür. Dördüncü dövr isə qadının qəti olaraq süqut etdiyi dövrdür.

İSLAMLIQDA QADINLARIN İLK DÖVRÜ

İslamlığın ilk dövründəki qadınları, ümumiyyətlə, belə səciyələndirmək mümkündür: Sərtlik dərəcəsinə varan ləyaqət duyğusu, sıxıntı keçirməyə və igid davranışlara qarşı böyük bir istək, şərə və təbliğə meyil. Bu dövrün qadınları duyğularının yüksəkliyi, yaradılışlarındakı soyluluq-əsillik, igid xasiyyətləri baxımından xristianlığın ilk dövründəki qadınlara çox bənzəyirlər. Səmimi və gerçək bir inam, sərt bir ailə ləyaqəti, hər şeyə fədakarlıqla qatlanmaq... Bax, budur, o dövrdəki müsəlman qadınlarının təbiətinə xas cəhətlər... Xədicə varını, adını, cəmiyyətdəki mövqeyini,

hətta həyatını belə təhlükəyə qoyaraq, qüdrətli və varlı qohumlarının istəyinə baxmadan, şübhəli, üstəlik bilinməyən, ancaq "şeytanlar tərəfindən ələ keçirilmiş", Ərəbistanın bütün keçmişinə və yaşadığı şəraitə qarşı çıxmaqla dikbaşlıq göstərən cəsur bir yenilik tərəfdarının ardınca getməyə cəsarət edən bir qadındır. Xədicənin şəxsiyyəti Peyğəmbərin ömrü boyunca işıqlı bir cizgi kimi parlamaqdadır. Keçmişi soruşmaq anlamsızlıq olmasa, islamlığı araşdırarkən ağıla gələn bəzi düşüncələrə görə bu sualı soruşmaq yerində olar: Məhəmmədin çalışmalarının ilk səhifəsinə, yoluna işıq tutan bu parlaq sima – Həzrəti Xədicə olmasaydı, islamlığın halı necə olardı? Duyğulu Peyğəmbər dəfələrlə işgəncəyə və təhqirə uğramış, ələ salınmış, mənən bitkin, bədəncə yorğun, islamlığa çağırışla bağlı ətrafda yaranan şübhələrlə bezmiş halda Xədicənin yanına qayıtmışdır.

Xədicə dəfələrlə öyüdləri və şəfqətiylə, cəsarətverici sözləriylə onun sarsılan inamını qüvvətləndirmiş, o zaman hər bir kəsə dəlilik kimi görünən vəzifəsini yerinə yetirməsi üçün ona yeni bir güc aşılamışdır. Şübhəsiz ki, Məhəmməd arvadı tərəfindən başa düşülmək kimi az rastlanan bir xoşbəxtliyə çatan böyük islahatçılardan biri idi. Bu onun səmimiliyinə, sevgi duyğusunun gücünə, səmimiliyin sonucu olan fədakarlığına bir dəlildir.

Xədicə ona ilk iman gətirənlərindən biri idi. Ömrünün sonuna qədər də onun sadiq, vəfalı bir ideya yoldaşı olaraq qaldı. Xədicənin ölümündən çox sonra da Məhəmməd böyük bir həyəcan duymadan, gözləri yaşarmadan onu anımsayammazdı. Başqa qadınlar da ərlərinin və qardaşlarının Məhəmmədin yalınayaq keçdiyi yollara atdıqları tikanlı otları, çör-çöpü gizlicə toplayırdılar. Məhəmmədin ilk çalışma dövrlərində onu tez-tez qadın qələbəliyinin içində görmək olardı. Bu qadınlardan bəziləri kişilərin onun başına tökdüyü külü təmizləyirkən, bəziləri də ayaqlarındakı yaraları sarımağa çalışırdılar. O dövrdə Məkkədəki Qürcyş qəbiləsinin başçısı və Məhəmmədin amansız düşməni olan Əbu Süfyanın qızı Ümmü Həbibə də islamı qəbul etmiş, ərindən və atasından gizlincə digər müsəlmanlarla birlikdə ölüm qorxusu altında Həbəşistana qaçmışdır. O zamanlar Ümmü Həbibə ortodoks olan həbəş imperatoru Negüsün himayəsiylə gerçək bir ölümdən qurtulmuşdu. Ümmü Həbibə böyük məhrumiyyətlərdən və sıxıntılardan sonra Ərəbistana qayıdınca, hələ bütə tapınmaqda olan Əbu Süfyan qızını görmək üçün Peyğəm-

bərin evinə gəlir. Əbu Süfyanın Məhəmmədin həmişə oturduğu namazlıqda oturmaq istədiyini görən qızı: "Olmaz, orada oturmamalısan!" – deyə etiraz etdi. Atasının "nə üçün oturmamalıyam?" sualına Ümmü Həbibə dərhal bu cavabı verdi: "Çünki Peyğəmbər yeri-göyü yaradan Tanrımıza bu namazlığın üzərində ibadət edir. Sənin kimi insan varlığı cansız bütlərə tapınan kimsələr belə bir yerdə oturmağa layiq deyillər". Qızının bu cavabı qarşısında Əbu Süfyan: "Görürəm ki, qızım, bu sehrbaz hamınızı – bütün qadınları ovsunlamışdır" deyərək çıxıb gedir.

Həzrəti-Ömərin islamlığı qəbul etməsində də müsəlmanlar bir qadına borcludurlar. Əbülfidaya[1] dayanaraq E.Renan bu hadisəni belə yazır:

"Həzrəti-Ömərin islamlığı qəbul etməsi din psixologiyasının tayı-bərabəri olmayan bir səhifəsini təşkil edir. Ömər, Həzrəti-Məhəmmədin amansız bir düşməni idi. Yaradılışdan çox cürətli, qoçaq olması onu hələ ürkək olan və gizlənmək məcburiyyətində qalan müsəlmanları dəhşətə gətirən bir varlığa çevrilmişdi. Ömər bir gün qəzəbləndiyi bir vaxtda Məhəmmədi öldürmək üçün küçəyə çıxdı. Yolda qohumlarından bir gəncə rast gəldi. Bu gənc Ömərı qılıncla gördükdə haraya getdiyini, nə etmək istədiyini soruşdu. Ömərin nə məqsədlə küçəyə çıxdığını və nə etmək istədiyini öyrənincə: "Məhəmmədi öldürməkdənsə, sənin xəbərin olmadan ata-babalarının dinindən dönən bəzi qohumlarını cəzalandırmağın daha doğru olmazmı?" – dedi. Ömər: "Kimmiş bu qohumlarım? – deyə soruşduqda o gənc: "Yeznən Səid ilə bacın Fatimə" – deyə cavab verdi. Ömər dərhal bacısının evinə qaçdı. Bu zaman Ömərin bacısı ilə yeznəsi Səid dəri üzərində yazılmış Qurandan bir ayətə qulaq asırdılar. Ömərin ayaq səslərini eşidərkən Quran oxuyan qaranlıq bir yerdə gizləndi. Fatimə Quranın yazıldığı dəri parçasını qoynuna soxdu. Ömər içəri girincə "Qulağıma gələn səslər nə idi?.. Siz burada yavaşca nə danışırdınız? – deyə soruşdu. Bacısı: "Xeyr, heç bir şey oxumurduq, sən yanılırsan!" – deyə cavab verdi. Ömər yenidən: "Siz nə isə oxuyurdunuz, həm də mən sizin Məhəmmədin dinini qəbul etdiyinizi duydum!" – deyərək guruldadı və yeznəsinin üzərinə atıldı. Fatimə bədəni ilə ərinə sipər oldu. Ər-arvad ikisi də birdən böyük bir qürurla: "Bəli, biz müsəlmanıq, – dedilər. – Biz

[1] Əbülfida (1273-1331) – ərəb əmiri, tarixçisi və coğrafiyaçısıdır.

Allaha və Onun Peyğəmbərinə inanırıq, istəyirsən öldür bizi!" – Bu sözləri eşidən Ömər qılıncını qarasına endirdi və bacısını ağır yaraladı.

Ömər – bu, ələ-ovuca sığmayan adam öz əliylə tökdüyü qadın qanını gördükdə birdən-birə yumşaldı. Məcburi bir soyuqqanlıqla: "Oxuduğunuz şeyi mənə də göstərəsiniz" – dedi. Bacısı Fatimə: "Yırtıb atacağından qorxuram!" – dedi. Ömər Quranı bütöv olaraq geri verəcəyinə and içdi və Quranın ilk sətirlərinə göz yetirər-yetirməz:

– Nə qədər gözəldir, nə qədər ehtişamlıdır, Peyğəmbər indi haradadır? Bu saat ona biyət gətirməyə gedirəm, – dedi.

Bu dövrün ən tipik qadın nümunəsi Məhəmmədin qızı Fatimədir. Sözə baxanlığı, gözəl təbiəti, alicənablığı, ətrafındakılara sosial təsiri onu hər bir dövrdə bütün dünyanın ideal qadınına çevirmişdir. Ən etibarlı qaynaqlara dayanaraq Fatimənin adi olmayan bir portretini yaradan hind yazıçılarından Mir Əlinin[1] yazılarından Fatimənin şəxsiyyətini göstərməyə çalışaq. Məhəmmədin oğlanlarının ölməsi Peyğəmbərin bütün sevgisini qızı Fatiməyə verməsinə səbəb olmuşdu. Fatimənin tərbiyə edilib böyüdülməsi yüksək səviyyədə böyüdülən oğlanlarınkından fərqlənmirdi. Ciddiliyi, təvazökarlığı gündən-günə artırdı. Fatimə 16 yaşlarında Əli ilə evləndi. Bunların arasındakı bağlılıq və qarşılıqlı sevgi, uşaqlarına olan məhəbbətləri zamanamıza qədər müsəlman ailə həyatı üçün bir örnək təşkil etməkdədir. Bu kiçik və gənc ailə sadəliyi və ləyaqətiylə qısa bir zamanda təqlid edilməsi gərəkən bir örnək oldu. Ev işləri (Fatimə Peyğəmbər qızı olmasına baxmayaraq, ev işlərini özü görür, uşaqlarına özü baxırdı) ilə məşğul olması ona heç vaxt anasının tələblərini, onun yolu ilə gedənləri unutdurmurdu. Evin həyətində və ya camedə qadın, kişi cəmiyyəti qarşısında tez-tez vəz söyləyirdi. Bu vəzlərdən bir çoxu zamanımıza qədər gəlib çıxmışdır. Bunlardakı düşüncə nəcibliyi və duyğu yüksəkliyi ən yüksək səviyyəli çağdaş qadınlar üçün belə bir şərəf vasitəsidir. Mahiyyəti baxımından islamlıq meydana çıxdığı ilk dövrlərdə, tamamilə ilk xristianlıq kimi, bütə tapınanların əxlaqsız yaşayışlarına qarşı sosial və iqtisadi bir etiraz idi. Buna baxmayaraq, az sonra bu etiraza qarşı Məkkədə bütə tapınanların xeyrinə cavab təsiri yarandı. Ancaq mədinəlilər islamlığın bu etirazına qarşı daha ciddi davrandılar. Fatimənin

[1] Mir Əli. "Ze influens ov Vumən in İsləm".

verdiyi örnəklər mədinəlilərin adət və əxlaqlarına böyük təsir göstərdi. Əxlaqca düzgün olan mədinəli qadınlar ciddi davranışları, sakit görünüşləri və ailəcanlı olmaları ilə Romanın keçmiş ev qadınlarını və ya son yüzilliyin yeni ingilis qadınlarını andırırdılar. Bunlar çoxluqla xəlifələrin və onların müridlərinin vəzlərini dinləməyə gedir, din bilgisini və şəriət hökmlərini öyrənirdilər. Bu qadınlardan çoxu heç kimin yardımını gözləmədən uşaqlarını oxudub tərbiyə edirdilər. Məsələn, islamın ilk dövrlərində məşhur islam hüquqçusunun anası Rəbiə belə qadınlardan biri idi.

ƏMƏVİLƏRDƏN TÜRK HAKİMİYYƏTİNƏ QƏDƏR

İnkişafını ikinci, yəni Əməvilər və Abbasilər dövründə müsəlman qadını daha ziyalı, daha inkişaf etmiş bir varlıq kimi ortaya çıxır. O dövrdəki qadınların əxlaq düzgünlüyünə anlama bacarığı, zəka qıvraqlığı da əlavə olunur. Əməvilər zamanında müsəlman qadını kişilər ilə eyni şərtlər içində təhsil almaqda və tərbiyə görməkdə idi. O dövrün qadınları yalnız qanun, din, "ənənə" öyrənməklə qalmır, ayrıca şeir, ədəbiyyat, gözəl danışıq və xəttatlığı da oxuyub öyrənirdilər. Ümumiyyətlə, bütün məlumat şaxələri o dövr qadınlarının maraq və çalışma obyektini təşkil edirdi. Əməvilər zamanında Hişamə və Vəlidə adlı ərəb qadınları heç bir sahədə kişilərdən geri qalmırdılar. O dövrdə qadınların elm və ədəbiyyatla maraqlanması alışıldığı üzrə yalnız yüksək siniflərə aid deyildi. Tanınmış ərəb yazıçısı İbn Hallikanın[1] "Bioqrafik ensiklopediya"sı aşağı siniflərə mənsub mədəni və ziyalı qadınların örnəkləriylə doludur. Bunların arasında şeir, incəsənət, gözəl danışma sahəsində məşhur olan qadınlar da vardır. O dövrün tanınmış qadınları arasında Peyğəmbərin qızı Fatimənin nəvələrindən İmam Hüseynin qızı Sükeynə başda gəlirdi. İbn Hallikan onun haqqında: "Gözəlliyi ilə, zəkası ilə, fəziləti ilə o dövrün qadınları arasında birincidir" deyir. "Xəlifələr dövründə mədəniyyət" adlı əsərin yazıçısı De Slan Sükeynə haqqında bunları yazır: "O, dövrünün ən parlaq qadını idi. Məlumatı, durumu, zəkası, zərifliklə və incəliyi ətrafında ümumi bir ehtiram yaratmışdı. Çağdaşı

[1] İbn Hallikan -1211-ci il sentyabrın 23-də Ərdəbildə anadan olmuş ərəb yazıçısı və tarixçisidir. Ən ünlü əsəri öz keçmiş və ədəbiyyat baxımından çox dəyərli bir sənəd olan "Bioqrafik ensiklopediya"dır.

olan dövrünün ən yaxşı şairləri öyüd almaq üçün ona müraciət edirdilər". Fransız şərqşünası Perron Sükeynə haqqında belə deyir:

"La dat de (s) da m (es) dö son tamp, la plü bell, la plü qrasiyoz, la plü bğillant dö kalit"[1].

Sükeynənin görkəm, geyim baxımından da qadın-kişi çağdaşları üzərində böyük təsiri vardı. Zamanının modasını yaradan, ona istiqamət verən o idi. Dövrün qadınları ona bənzəməyə çalışır, üslubunu təqlid edirdilər. Zamanımıza qədər onun adını daşıyan və "Türrət-ül Sükeynə" adı ilə məşhur olan qadın türbanını o icad etmişdi. İncə və çox zərif olan bu türbanın bir ucu sağ qulağa doğru sallanırdı. Ancaq Sükeynənin nüfuzu icad etdiyi modalarda deyil, fikir və mənəvi təsirində idi. Onun evi zamanın məşhur şairlərinin, hüquqçularının və alimlərinin toplandığı yerə çevrilmişdi. Onu təqlid edən və onunla yarışan o dövrün məşhur müsəlman qadınları o zamankı yüksək cəmiyyətin qaymaq təbəqəsini özlərinə çəkməyə çalışırdılar. Sıx dostluq və arkadaşlıqla əhatəli olan Sükeynə xəlifəliyin dörd bir yanından gəlib ondan öyüd, yardım, himayə istəyənləri qəbul edərdi. İştirak etdiyi məclisləri qıvraq zəkası ilə, zərifliyi ilə, söhbətlərinin müxtəlifliyi ilə canlandırırdı. O eyni zamanda dövrünün kəskin bir tənqidçisi olduğu üçün ona göstərilən ümumi sayğıda bir qorxu payı da olduğu gerçəkdir. Sükeynənin bağlı olduğu Haşimi qəbiləsi ilə düşmənçilik edən Şam hökmdarları – Əməvilər Sükeynəyə çox da dost gözü ilə baxmırdılar. Ancaq bu çox zəkalı qadın öz rolunu o qədər təbii və o qədər ağıllı oynayırdı ki, ona sataşmaq üçün fürsət arayan düşmənlərinə ən kiçik bir bəhanə belə vermirdi. Sükeynə çağdaşı olan Əməvi xəlifəsi Vəlidin arvadı Ümmi-ül Bəneynin zəka və bilgisini çox bəyənirdi, dostluq etdiyi bu qadının vasitəçiliyi ilə xəlifənin sarayında nüfuz və təsir yarada bilmişdi.

Mir Əli deyir:

"İndiki müsəlman qadınlarının əqli inkişaflarının dərəcəsini təyin edən ən parlaq dəlil indi anlatdığımız bu gerçəkdir: Sükeynənin məzarının unudulduğu, ona aid bütün xatirələrin yaddaşlardan silindiyi bir vaxtda onun çağdaşı olan və İncilin hərfi hərfinə uyğunlanmasını – tətbiq edilməsini istəyən... Rəbiənin türbəsi dinlə bağlı olan bir ziyarətgah halını almışdır. Xaqani kimi İran şairləri[2] analarının Rəbiəyə bənzədilməsini özləri üçün bir şərəf saymışlar".

[1] İbn Hallikan. "Bioqrafik ensiklopediya".

[2] Mir Əli yanlış olaraq Xaqanini İran şairi saymışdır.

İndi isə Əməvilərdən sonra iş başına keçən Abbasilər dövrünə gələk. Bu dövrdə ərəb mədəniyyəti özünün ən yüksək zirvəsinə çatmış, Şərqdən vəhşi Çingiz sürülərinin Qərbi Asiyaya girməsiylə meydana gələn qəti və gözlənilməz süqutuna Qədər getdikcə inkişaf etmişdir. Bu dövrdə müsəlman qadınları əskidən olduğu kimi, cəmiyyət içində seçkin, görkəmli rol oynamaqda davam edir, hüquq və ilahiyyat təhsili alır, mədrəsələrdə və evlərdə dərs verirdilər. Sünni məzhəbinin ən geniş yayılmış qollarından biri olan Şafii məzhəbinin qurucusu imam Şafii kimi o dövrün ən başda gələn bəzi şəxsiyyətləri tamamilə qadınlardan feyz alırdılar[1].

Ancaq o dövrdəki müsəlman qadınının tərbiyə və yaşayış tərzi artıq olduqca gözə çarpamağa başlayan bir pozğunlaşmanın başlanğıcını acığa vururdu. Ərəb mədəniyyəti Abbasilər dövründə özünün ən yüksək zirvəsinə çataraq necə birdən-birə süqut etdisə, o dövrdə şəxsiyyətinin tam inkişafına çatan müsəlman qadını da, sonralar eləcə süqut etməyə başladı. Bu süqut tez zənginləşmənin, bununla bağlı olaraq, xüsusilə İran və Suriyanın təsiriylə əxlaq pozğunluğunun, yaşayış tərzindəki keçmiş sadəliyi itirmənin bir nəticəsi olaraq meydana gəldi. Unudulmamalıdır ki, Abbasilər dövrü xüsusilə İranın hakimiyyət dövrüdür. "İran onu fəth edənləri boyunduruq altına alır"dı. Böyük İskəndər və Qərbi İranda hakimiyyət quran İskəndərin mirasçısı Selevkilər İranın təbii və gerçək hökmdarlarından fərqlənmirdilər: bunlarda eyni xarakter, eyni adətlər, eyni meyillər gözə çarpmaqda idi. Abbasilərdə də eyni şeyləri görürük. İran orduları tərəfindən xilafət taxtına oturdulan Abbasilər əcəmlərə[2] olan rəğbət və meyillərini çətinliklə gizləməyə çalışırdılar. Soyca əcəm olan Bərməkilər bir neçə il boyunca xəlifələrin üstün tutduqları sevimliləri və ya vəzirləri kimi xilafət işlərini idarə etdilər. Bağdad Persepolis örnəyinə uyğun olaraq qurulur, bəzi saraylar isə bilavasitə İran saraylarının xarabalıqlarından gətirilən maddələrlə tikilirdi. Əcəm dili, əcəm musiqisi, əcəm xarakteri, əcəm adət və mərasim qaydaları bəzilərini saraya yaranmaq məqsədi, bəzilərini isə təmiz ərəb ünsürünə olan nifrətlərindən dolayı özünə çəkirdi. Sözün qısası, İran yalnız xüsusi milli bir din olan şiəliyi icad etməklə və islamlığın bağrına bir yığın təriqət soxmaqla deyil, eyni zamanda səhranın yarıvəhşi sakinlərinin əlinə o zamankı dünyanın yarısını verən sağlam ərəb yaşayışının təməllərini də dağıtmaqla itirdiyi müstəqilliyinin, qeyrət və şöhrətinin qisasını alırdı.

Abbasilərdən Harun ər-Rəşid, Mehdi və digər xəlifələr zamanında Sasanilər və Artokserkelər Ömərlərə və Əlilərə hakimdi. Bu ümumi axın çox təbii olaraq, ilk öncə yavaş-yavaş, sonralar isə tamamilə şəxsiyyətini itirən müsəlman qadınını da alıb sürüklədi. Çünki yuxarıda da gördük ki, iranlılarda örtünmə və poliqamiya əski əfsanələr və din kitabları tərəfindən də təsdiq edildiyi kimi, çox əski zamanlardan bəri mövcuddu. Abbasilər dövründə qadın tərbiyəsi qadınların əlində idi. Bu çeşid qadınları ancaq orijinal əsərləri ilə şöhrətli olduqdan sonra tərbiyəçi kimi qəbul edirdilər. Yüksək cəmiyyətə mənsub ailələr bu çeşid dayələrə böyük miqdarda pul verərək bir-birinin əlindən alır və beləliklə, onların aylıqlarını astronomik rəqəmlərə qədər yüksəldirdilər. Bu çeşid dayələr ilə əhatəli olan əsilli qadınlar ilkin oxuma-yazma, musiqi, ədəb qaydaları öyrənirdilər. Sonralar özlərini yavaş-yavaş qrammatika elminin, şeir yazmanın və daha başqa elmlərin təhsilinə həsr edirdilər. Bu qadınlar sıx-sıx alimlərdən ibarət jürilərin önündə qafiyə tutmaq və ya mücərrəd mövzulara dair müzakirələr etmək kimi yarışmalara da girişirdilər. Ərə gedib bir evin təkbaşına xanımı olduqları zaman öz salonlarını açır və bənzərləri olan indiki avropalı bacıları kimi, zamanlarının ən şöhrətli alimlərini, şairlərini, yazıçılarını, ədəbiyyatçılarını bir-birinin yanından alaraq salonlarına toplamağa çalışırdılar. Beləliklə, hər salon günün çeşidli məsələlərini, elm və incəsənət mövzularının müzakirə edildiyi bir akademiya halını alırdı. Bu dövrdə müsəlman qadınlarının yaşayış tərzində bəzi dəyişikliklər gözə çarpmağa başladı: salonlardakı qəbullar bir az darıxdırıcı idi. Bunlar zamana və əməyə bağlı idi. "Çünki, – deyir Fatimə Aliyə, – tualetlər ağırlaşdı, tualet üçün gərəkli olan şeylər ortaya çıxdı. Ümumiyyətlə, qadınlara xas cilvə böyük bir dəyər daşımaqda idi". Bu qadınlar bir işə görə və ya görüşmək məqsədiylə gələn qonaqlarını qəbul etmək üçün daim hazır, ayıq və diqqətli olmalı idilər. Bax bu qəbulların... doğurduğu sıxıntılardan, yorğunluqlardan qaçınmaq və evin həyatından yetərincə faydalanmaq üçün Suriyanın, Mesopotamiya və İranın "qrand (es) dam (es)"ları kimi

[1] Burada söhbətin mövzusu olan qadın irəlidə yenidən adı çəkiləcək Nəfisət-ül Tahirədir. Hicri 145, miladla 762-ci ildə doğulduğu sanılır (*H.Ə.Ediz*).

[2] Ə c ə m (ərəbcədən) – keçmişdə ərəb olmayanlara, xüsusilə iranlılara verilən ad.

salonlarında arxasında gizlənərək istənilən zaman istədiklərini qəbul edə biləcəkləri pərdələr qurmağı fikirləşdilər. Bu, ərəblər arasında qadının süqutunun başlanğıcı idi. Bu pərdələr zaman keçdikcə və hakimiyyətləri altına aldıqları, mədəniyyətcə özlərindən yüksək olan suriyalı və iranlıları təqlid edən kişilərin yardımı ilə getdikcə qalınlaşdı. Nəhayət, iki cinsi bir-birindən ayıran Çin səddinə döndü. Bununla birlikdə, incələdiyimiz dövrdə, Yəni IX və X yüzillərdə xəlifəlikdə qadınlar olduqca sərbəst və müstəqil bir vəziyyətdə idilər. Xilafətin yüksək məmurları iki hissəyə ayrılan böyük və möhtəşəm köşklərdə otururdular. Bu hissələrdən biri[1] kişiyə aid olub, kişinin qəbul salonu ilə iş otağı burada yerləşirdi. O biri bölük qadınlara aid idi və qadının yataq otağı, salonu və tualet otağı bu hissədə idi.

Evin bu ikinci hissəsi "hərəm" adını daşıyırdı. Fatimə Aliyə deyir: "Ancaq o dövrdəki hərəmlərin nə bugünkü hərəmlə bir əlaqəsi, nə də İran əndərunlarına[2] və ya yunan ginəkeylərinə[3] kiçicik bir bənzərliyi vardı. Bunlar daha çox avropalı xanımların indiki salonlarını andırırdı. Evin qadını şəxsi qonaqlarını kişi və ya qadın olmasından asılı olmayaraq həmin hərəmdə qəbul edir, evin kişiyə aid hissəsində öz işləri ilə məşğul olan ərinə əngəl olmadan əyləncə və toplantını burada keçirirdi. O dövrün ev qadınları necə idi, ailə və cəmiyyətdəki rolu nə idi, kimlərlə əhatəliydi, ətrafına necə təsir göstərirdi? Bütün bu suallara bu qadınlardan bəzilərinin şəxsiyyətini təsvir etməyə çalışaraq indi cavab verəcəyik.

Əs-Səffah (qantökən) ləqəbiylə tanınan ilk Abbasi xəlifəsi Əbül Abbasın arvadı Ümmü Salamənin əri üzərində böyük bir nüfuzu vardı. Bu qadın ərinin qorxunc qəzəbinin hücumlarını bir çox illər dayandırmışdı. Tarixçi Məsudi[4] "Qızıl çayırlar" adlı əsərində bu mövzu ilə əlaqədar olaraq bunları söyləyir: "Ümmü Salamənin əri üzərində nüfuzu o qədər böyükdü ki, Əbül Abbas arvadına gənəşmədən, hətta bəzən arvadının razılığını almadan heç bir qərar verməzdi". Xəlifə Mehdinin arvadı Hayzuranın da əri üzərində eyni xeyirli təsiri vardı. Bu qadın dövlət işlərinə açıqca və fəal bir şəkildə

[1] Məmləkətimizdə bunlara "Səlamlıq" deyilirdi (*H.Ə.Ediz*).

[2] Əndərun (farscadan) – keçmişdə evin ailə və qadınlara aid olan içəri hissəsi.

[3] Gyseykeion – əski yunanlarda evin qadınlara aid olan hissəsi (*H.Ə.Ediz*).

[4] Məsudi və ya al-Məsudi – ərəb tarixçisi və coğrafiyaçısıdır. Hicri IV yüzilin ən çeşidli yazılar yazan yazıçılarından biridir. Hicri 346, miladi 956-cı ildə ölüb (*H.Ə.Ediz*).

qarışırdı. Tarixdə Mehdini məşhur edən bir çox xeyirli və elmi tədbirləri gerçəkdən Hayzuranın hesabına yazmaq gərəkdir. Bu qadın sarayda dövlət adamlarını, böyük məmurları, şair və alimləri qəbul edərdi. Comərdliyinə və yoxsullara, əlsiz-ayaqsızlara göstərdiyi xeyirsevərliyə görə xalq ona bir qayda olaraq tapınardı. Harun ər-Rəşidin arvadı Zübeydə ilə bacısı Abbasə bu məsələdə Hayzurandan geri qalmazdılar. Zübeydə əfsanəvi Harun ər-Rəşidin həm arvadı, həm də əmisi qızı idi. Bir çox fəsilləri ona həsr edilən "Min bir gecə nağılları" bir yana dursun, bir çox Şərq və Qərb yazıçıları onun şəxsiyyətini diqqətlə incələmişlər, tərcümeyi-halına qalın cildlər ayırmışlar. Biz burada ancaq onun həyatından ən diqqətəlayiq bəzi gerçəkləri anlada bilərik. Zübeydə evləndikdən qısa bir zaman sonra alimləri, musiqişünasları, yazıçıları ətrafına topladı. Sonuncular ona Seyyidə (Xanım əfəndi) adını vermişdilər. Zübeydə xüsusilə yoxsul şair və yazıçıları qorumaqda böyük bir şöhrət qazandı.

Bağdad şəhəri böyüklük və ehtişamına görə ona borcludur. Yabançılara sığınacaq vermək işinə baxan xariqüladə karvansaraylar, yoxsullar üçün pulsuz hamamlar, camelər, su bəndləri onun comərdliyinin bir təzahürü idi. Amma o, geniş islam imperatorluğunun başqa sahələrini də unutmurdu; harada xarab olmağa və ya yıxılmağa başlamış ümumi binalar vardısa, onları təmirə qaçardı. Məkkəyə qurğusu bu gün də qalmış olan dadlı su gətirməklə o, adını yaddaşlarda əbədiləşdirdi. Suçular bu gün də Məkkənin küçələrində "Eyn-i Zübeydə – Zübeydənin gözləri kimi duru su" – deyə bağırmaqdadırlar. Zübeydə eyni zamanda çox təvazökar bir qadındı. Şəhərin bütün yoxsulları, əlsiz-ayaqsızları onun yanına sərbəstcə gələ bilirdilər. Gələnləri dinləyir, dadlı sözləriylə və ya maddi yardımları ilə onların könlünü alırdı. Şərqli yazıçılar Zübeydənin həyatına dair diqqətədəyər bir məsəli söyləyirlər: Harun ər-Rəşidin Zübeydəyə olan sevgisi dillərdə dastandı. Aylı bir gecədə Zübeydə xəlifə ilə sarayın bağçasında dolaşırkən həssaslığının coşqun bir anında ona: "Dəniz qızını necə göz önünə gətirirsən? – deyə soruşur. Harun ər-Rəşid böyük bir həyəcanla: "Ola bilər ki, sən dəniz qızından gözəl deyilsən, şərt olsun!"[1] cavabını verir. Amma bu sözləri söylər-söyləməz necə bir xəta etdiyinin dərhal fərqinə vararaq ağlını

[1] Şərt olsun "kəbinimə and olsun ki, elə deyilsə, ya da bunu etməsəm, arvadım boşanmış olsun" anlamında işlədilir.

başına toplayır. Əski ərəb ənənəsinə görə, belə bir söz boşanma üçün səbəb idi. Xəlifə əllərini ovuşduraraq böyük bir qorxu içində saraya qaçır. Ancaq məşhur Bəhlul Quranın məlum ayətini oxuyaraq: "Allah insanı bütün məxluqatdan daha gözəl yaratmışdır. Sənin Zübeydən də dəniz qızından yüz dəfələrlə daha gözəldir!" sözləriylə onu sakitləşdirir. Bağdadın saf ürəkli xalqı Zübeydə üçün belə məsəllər yaratmışdı.

Abbasilər dövründə Zübeydədən heç də az məşhur olmayan bir başqa qadın isə Harun ər-Rəşidin bacısı Abbasə idi. Zübeydə qədər mədəniyyətli, qabiliyyətli və xeyirsevər bir qadın olan Abbasənin şəxsiyyəti o zamankı əxlaq anlayışının parlaq bir təmsilçisi kimi də çox maraqlı idi. Harun ər-Rəşid bacısını dəlicəsinə sevirdi. O da Zübeydə ilə birlikdə xəlifənin rəsmi qəbullarında, alim və yazıçılar ilə təşkil etdiyi xüsusi toplantılarda iştirak etməliydi. Yuxarıda işarə etdiyimiz kimi, çatdığı mövqeyə görə İrana borclu olan Abbasi sülaləsi ətrafına xüsusilə soyca əcəm olan yüksək məmurları toplamış və əcəm ənənə və əxlaqını ərəblərə aşılamağa çalışırdı. Bir çox sahələrdə də əski İran – Sasani sülaləsini təqlid edirdi. Hələ Harun ər-Rəşidin zamanında xəlifə sarayında İran təsiri çox artmışdı – Harun ər-Rəşidin bütün nazirləri və saray böyükləri əcəmdi. Bunların arasında baş yeri Bərməki ailəsi tuturdu. Bərməki baş vəzirinin oğlu, gənc sərkərdələrdən olan Cəfər, Abbasəyə vurulmuş və sevgisinə qarşılıq da görmüşdü. Harun ər-Rəşid bunların sevişdiklərini sezmiş, onların eşq ehtiraslarını son həddinə çatdırmağa çalışmışdı. Abbasə ilə Cəfər bir sarayda yaşayır, demək olar ki, hər gün bir-birini görür, ancaq yaxınlaşmaqdan qorxurdular. Harun ər-Rəşid bunlara qarşı zülm və kəkinliyini büsbütün artırır. İki sevgilinin ancaq özünün yanında görüşmələri şərtiylə onların evlənmələrinə razılıq verir. Bu şərtlər altında iki sevgilinin eşqlərinin nə dərəcədə alovlandığını göz önünə gətirmək heç də çətin deyil. Tarixçilər Harun ər-Rəşidin xarakterinin bu qəribə əlamətini hələlik qəti olaraq açıqlamamışlar. Ancaq bunların hamısı da eşqə susamış olan iki sevgilinin birləşmək üçün səy göstərmələrindən şıltaq hökmdarın anlaşılması çətin olan bir zövq duyduğunu söyləməkdədirlər. Tarixçilər bu iki sevgilinin toyunun göstərişliyini, zənginliyini təsvir etmək üçün upuzun səhifələr ayırmışlar. Amma gənc aşiqlər səbir edəmmədilər, gizlicə görüşdülər. Abbasə hamilə oldu. Bu "cinayət"in izlərini yox etmək üçün doğulan uşaq Ərəbistana göndərildi və orada böyüdüldü. Ancaq yaman dillər yatmırdı. Olub-bitənləri dərhal xəlifəyə çatdırdılar. "Ziyalı despot" hirsindən, qəzəbindən dəliyə döndü. Cəfərin asılmasını, atasının isə zindana atılmasını əmr etdi. Bütün Bərməkilər gözdən düşdü. "Talleyinə güvənmə, o, Bərməkilərə belə yar olmadı" atalar sözü hələ də Şərqdə söylənməkdədir.

Xəlifə I Mütəzidin arvadı Qətr-ün-Nida da diqqətədəyər bir qadındı. Bu qadın, sarayında "Ədəbiyyatı, elm və incəsənəti sevən qadınlar birliyi"ni yaratmışdı. Alim və ziyalı qadınlar bu birlikdə toplanır və özlərini maraqlandıran müxtəlif məsələlər üzərində mübahisə edirdilər. I Mütəzidin ölümündən və hələlik uşaq yaşlarında olan oğlu Müqtədirin xilafət taxtına keçməsindən sonra, dövlətin idarəsi tamamilə Qətr-ün-Nidanın əlinə keçdi. Bu qadın nazirlərin məclisinə başçılıq edir, yüksək məhkəməyə üzv olur, ətrafında nazirlər və Xilafətin yüksək məmurları olduğu halda, yabançı elçiləri qəbul edirdi. XVI yüzildə yazmış və tərki-dünyalığı ilə tanınmış məşhur yazıçı Siyuti bir az da xoşuna gəlmədiyini bildirən bir əda ilə Qətr-ün-Nida haqqında bunları yazır:

"306 (miladla 918)-cı ildə xəlifə Müqtədirin anası bir xəstəxana tikdirdi. Bu xəstəxanaya da ildə 7000 dinarlıq bir təxsisat ayırdı. Bu zaman xəlifənin zəifliyi üzündən dövlətin idarəsi işi də qadınların əlinə keçmişdi. İş o dərəcəyə gəlmişdi ki, gənc xəlifənin anası sanki oğlunun hakimiyyəti ona verilmiş kimi, dövləti təkbaşına idarə edir, xəlifə adına rəsmi qəbullar qərarlaşdırır, dövlət işlərinə dair qərarlar verir, şikayətləri incələyir, hər həftə cümə günləri onları qəbul edirdi. Vəzirlər və digər yüksək vəzifəli şəxslər olub-bitənləri bilavasitə ona söyləyir, bu qadın öz adına qanun verirdi".

O dövrün müsəlman qadınlarının hamısı da, sosial fərq gözləmədən elmə böyük bir sevgi bəsləyirdilər. Məsələn, məşhur Fəxr-ün-Nisə Bağdad mədrəsələrində ədəbiyyat oxudur, Ümmülxeyir Fatma ilə Ümmülibrahim əl-Yəzdani adlı başqa iki qadın isə qadın və kişilərə ilahiyyatdan dərs verirdi. Seyyideyi Nəfisə məşhur imam Şafiinin müəllimi idi. Yenə bu qadın imam Şafiiyə camədə hamının gözü qarşısında xeyir-dua etmişdi. Bu dövrdə müsəlman qadını şəxsi hürriyyətinin başqa cəhətlərində də heç bir şərtə tabe deyildi. Məsələn, Əmir Asim tərcümeyi-halında səlibçilərə qarşı keçirdiyi savaşlarda anası ilə bacısının əldə silah ona yardım etdiklərini yazır. Xəlifə Mənsurun əmisi qızlarından ikisi bizanslı-

lara qarşı aparılan savaşlarda kişi geyimində iştirak etmişdi. Amma təəssüf ki, İran təsiri gündən-günə özünü daha artıq sezdirirdi. Pərdələr qalınlaşdı. Əndərunlar kimsənin yetə bilməyəcəyi bir yerə çevrildi. Sonda iyrənc hərəm ağalarının, ehtirasların, çəkişmələrin qəti hakimiyyət dövrü quruldu. Qadının şəxsiyyəti qəti olaraq yox edildi. Qadın özünü ətrafı üzərində xeyirli təsirlər göstərən əski zəka məşqlərinin əvəzinə, əxlaq pozucu nəticələri ilə hərəmin tənbəl, qayğısız yaşayışına həsr etdi. Təbiət, demək olar ki, müsəlman qadınını qorudu və müsəlmanlardan onun intiqamını çox zalımlıqla aldı. Bu, islam tarixinin ən qaranlıq dövrüdür. Burada tarix yalnız əxlaqın tam tənəzzülünün mənzərəsini deyil, eyni zamanda adi hərəm çəkişmələri hakimiyyətinin, hərəmağalarının və istəklilərin (favoritlərin) dövlət işlərində üstünlük yaratmalarının, zəhərin, xəncərin, kəməndin, sirli cinayətlərin, bir sıra saray üsyanının və ocaq ağaları səltənətinin də mənzərəsini gözlərimiz önündə yan-yana düzür. Bu soysuzlaşma ruhu ədəbiyyata və fəlsəfəyə də girir, bunları pozğunçu cəmiyyətin boğucu havası ilə doldururdu. Əskidən özünə yer edən rasionalizm elmə və fəzilətə olan sağlam və mərdcəsinə inam yerinə, indi teosofizm, ağlar skeptisizm, ruhun zəifliyini aşkar edən bulanıq bir mistisizm yer alır; ədəbiyyat bitməztükənməz bir fəryada çevrilir, acizlik içindəki zəif zəkalar təsəllini müqəddəs inanc və davranışları söyməkdə, indiki dekadentlərin zövqünə çox uyğun olan anlamsız simvolizmdə, qəribə təsvirlərdə tapırdılar. Bir sözlə, hər şey cəmiyyətin qəti bir məhvini göstərirdi. Bu məhvolma hər şeydən öncə, qadının həyatının dəyişməsilə bağlı idi. Ancaq əcəm təsirinin pozucu qüvvətinin hələlik girmədiyi yerlərdə, Türk-Tatarlarda, İspaniya Məğribilərində qadın sərbəstliyinin ənənələri hələ davam edirdi.

TÜRK-TATARLARDA QADIN

Türk-Tatarlarda qadınlar islamlığın qəbulundan öncə həmişə sərbəstlikdən faydalanmışlar. Daim köçərilik edən, çadırlarda yaşayan, hər an çeşidli hadisələrlə qarşılaşan qəbilələr üçün bu başqa cür də ola bilməzdi. Bu cür yaşamada qadın kişinin ən sadiq köməkçisi və yol yoldaşıdır. Qadın həyatın bütün təhlükələrini onunla bölüşürkən kişilərlə bərabər hüquqlara malik olmalıydı.

Hətta indi belə köçəriliyi buraxaraq şəhərlərdə yerləşən və şəhər yaşayışını sürən Türk-Tatar qəbilələrində qadınlar olduqca və mərhəmətsizcəsinə əzilərkən eyni qəbilənin köçəriləri içərisində qadın qapalılığın və çarşafın nə olduğunu bilmir. İslamlıq Türk-Tatar qadınları arasında ənənələrin yaratdığı həyatı sadəcə olaraq qəbul etdi. Bu hal onların iranlılar ilə qaynayıb-qarışmasına qədər davam etdi.

XIII yüzilin əvvəllərində Asiyada səyahət edən və Həştərxanda Özbək xanın ordusunu görən İbn-Bətutə o dövrdəki Türk-Tatarların qadına göstərdikləri mərd sayğısına və qadının faydalandığı azadlığa heyrət etmişdi.

Buna görə də, tarixin həmin dövrlərində islamlığı qəbul etmiş başqa millətlərdə qadınlar ailənin və cəmiyyətin pozulmasının başlanğıcını təşkil etdiyi halda Türk-Tatarlarda qadının tamamilə başqa bir həyatda olmasına heyrət edilməməlidir. Bundan başqa, Türk-Tatarlar təbiətlərinin son dərəcə sərt və qaba olması ilə bərabər, təhsilə də son dərəcə böyük bir maraq göstərirdilər. Qorxunc və qəddar Teymurləngin demək olar ki, bütün uşaqları öyrənimi sevirdilər. Onlar hər yerdə məktəblər, kitabxanalar, rəsədxanalar açır, alimləri qoruyur, ədəbiyyatçıları isə həvəsləndirirdilər. Hələ bundan çox-çox öncə Türk-Tatar qadınları Bağdad xəlifələrinin və ərəb mədəniyyətinin qüdrət və şöhrətinin ən parlaq dövrlərində görünməmiş qabiliyyətləri ilə ərəbləri heyran qoyurdular. O dövrdə ərəblərin çölçü və vəhşi olmalarına dair çeşidli əfsanələr söylənilən və ərəb birliklərinin Oksus[1] uğrunda fasiləsiz vuruşmalı olduqları Türk-Tatarlara dair heç bir məlumatı yoxdu. Bəzən savaşlarda ələ keçirilən Tatar (Türk – *çev.*) qadınları Bağdad və Şam bazarlarında cariyə kimi satılırdı. Bu cariyələrə həm dərilərinin rənginə, həm də başqa dəyərlərinə görə yüksək qiymət qoyulurdu. Onların yiyələri bu cariyələrə ərəb dilini, musiqi, rəqs, şeir oxumağı, qafiyə ilə danışmağı öyrədərək dəyərlərini daha da artırırdılar. Türk cariyələri onlara öyrədilən şeyləri inanılmaz dərəcədə tez qavrayır və varlıların evlərinə verilərək orada hörmətli, müstəqil mövqeyə çatardılar. Bir çox türk cariyələri xəlifə arvadları olmuşdular. Məşhur Bağdad xəlifələri Harun Rəşid (Harun ər-Rəşid), Məmun və başqaları Türk qanı daşıyırdılar: Xəlifə Mehdinin arvadı və Harun Rəşidin

[1] **Oksus** – Amu-Dəryanın qədim adı (*H.Ə.Edizin qeydi*).

anası Hayzuran, "Əmirə" və "Validə Sultan" adlarını almışdı. O zamana qədər bu adlar ancaq ərəb qanından olan qadınlara verilirdi. Bu qadın əriylə həmişə mənzum şəkildə məktublaşırdı. Onun bu şeirləri bizə qədər gəlib çıxmışdır. Türk-Tatarların Asiyanın qərbini işğallarından sonra Türk qadınları Misirdə Məmlüklər, Anadoluda Səlcuqlar, İranda Atabəylər arasında və Hindistanda çalışmalarına daha böyük müvəffəqiyyətlə davam etdilər. Suriyada səlibçilər yürüşü qəhrəmanı, məşhur Səlahəddin Əyyubinin Sittül-Şam (Şamın xanımı) adını daşıyan arvadı Xədicə ərinin hökmran olduğu bütün ölkələrdə kolleclər və məktəblər açdı. Şamdakı bu məktəblərin birinə bu qadının adı verilmişdi. Bir Səlcuq hökmdarının arvadı olan Turxan Xatun mülkünü təkbaşına özü idarə edirdi, onun müşavirləri və nazirləri vardı. Tarixçilərin yazdıqlarına görə, bu qadının İranda əxlaqın düzəlməsində böyük təsiri olub. Atabəy Saadın arvadı Tarxan Xan ərinin ölümündən sonra hökmdar naibi olmuşdu. Bu qadın alimləri həvəsləndirir, elm və sənəti qoruyur, cəhalət qaranlığı Qərbi Asiyanı bürüdüyü bir dövrdə "onun sarayı ən parlaq və seçkin bir yer" kimi gözə çarpırdı. Ancaq Tarxan Xan İranda hökm sürən və məşhur olan müsəlman qadınlarının nə ilki, nə də sonuncusu idi. Yenə Atabəylərdən olan Alma Xatun Şirazda hökmdarlıq etmiş və şəhəri gözəl sənət əsərləri ilə bəzəməklə məşhur olmuşdur. Tarixçilər onu "sarayında və hüzurunda tez-tez toplanaraq ədəbi, elmi, dini mahiyyətdə söhbətlər, müzakirələr edən şairləri və elm adamlarını sevən ilahi bir qadın" kimi təsvir edirlər.

MİSİRDƏ QADIN

Misirdə də qadınların həyat və təhsilləriylə cəmiyyətin üzərində böyük nüfuzu vardı. Bu qadınlardan birinin təşəbbüsüylə "Darül-Hikmət" adını daşıyan Elm Akademiyası qurulmuşdu. Bu akademiyada biliklər ilə yanaşı çeşidli fəlsəfi və təsəvvüf nəzəriyyələri də öyrədilirdi. Bu elmləri öyrədən və öyrənənlər arasında qadınlar qabarıq bir yekun idi. Misirdə təkbaşına hökm sürən iki şahzadə xanım: Sittül-Mülk və Saqru-Dür bu akademiyada oxuyurdular. Bu, sonuncu müsəlman imperatriçəsi adını almış, xariqüladə qabiliyyəti ilə, siyasi ölçülülüyü və nəzakəti ilə diqqəti çəkmişdi. Onun hökmdarlığı zamanında II Lüdovik səlib yürüşünü tərtib etmiş və II Lüdovikin əsarəti ilə sona çatan bu savaş müvəffəqiyyətsizliyə uğramışdı. Məmlüklər zamanında qadınlar cəmiyyətdə daha böyük rol oynayırdılar. Bağdadı təqlid edən Qahirənin xanım əfəndiləri salonlarında konsertlər verir, toplantılar tərtib edirdilər.

HİNDİSTANDA QADIN

İndi Hindistana keçək. Orada da Avropa tərəfindən də tanınmış bir sıra xariqüladə qadınla qarşılaşırıq! Bunlardan birini – Mehr-ün-Nisəni şair Moor "Lall Rok" operasında canlandırmışdır. Bu qadın ərəb və fars ədəbiyyatı sahəsində dərin bilgisindən başqa yaxşı musiqiçiydi. Xüsusilə bədahətən şeir söyləməyi də vardı. Sonralar məşhur və böyük Hind-Moğol imperatoru Əkbər şahın vəziri kimi bir mövqeyə yüksələn adi bir iranlının qızı olan Mehr-ün-Nisə Əkbər şahın oğlu Cahangir ilə evləndi və "Nuri-cahan" adını aldı. Hələ evləndiyinin ilk günü Nuri-cahanın əri üzərində olduğu qədər saray və xalq üzərində də təsiri dərhal diqqəti çəkməyə başladı. Bu qadının atası, qardaşları və bunlardan Asəf bu günə qədər Şərqdə ağıl və zəkanın rəmzi kimi yaşayırlar. Bunlar Nuri-cahanın təlqiniylə vəzirliyə yüksəldilər və Cahangirin ad-san qazanmasında önəmli rol oynadılar. Ancaq Nuri-cahan bütün imperatorluğun faktik hakimi idi. Həftədə bir dəfə oxunan xütbəni çıxmaqla, qüdrət və hakimiyyətin bütün bilirti – əlamət və vəsfləri ona aid idi. Yüksək məmurları və dövlət adamlarını o qəbul edirdi. Pulun üzərində Cahangirlə birlikdə onun adı da basılırdı. O, yoxsullara yardım edir, yetim qızların cehizlərini hazırlayaraq onları ərə verir, küskünləri ovundurur, yollar salır, xeyriyyə cəmiyyətləri yaradır, şəhərləri abadlaşdırır, məktəb və xəstəxanalar açırdı. Xüsusilə, onun təşəbbüsü ilə insanların qurban edilməsi, əri ölmüş qadınların əri ilə birlikdə diri-diri torpağa basdırılması kimi hind adətləri bir əmr ilə yasaq edildi.

İSPANİYADA QADIN

Heç vaxt Suriyanın və İranın təsiri altında olmamış İspaniyaya gəlincə... Orada müsəlman qadını ərəb hakimiyyəti müddətində kişinin yararlandığı bütün hüquqlardan tam bir bərabərliklə yararlandı. Əslində bu, başqa cür də olammazdı. Qadının şərəfini qoru-

yan, onu şeirləşdirən orta çağ alicənablığı bütün şıltaq ehkamı ilə ilk dəfə Üçüncü Əbdürrəhman və İkinci Hakimin səltənəti zamanında Qurtibədə[1] doğulub. Sonralar Bəni Nəsrin dövründə Qərnatəyə[2] də yayıldı. Əbdürrəhman sevgili arvadının heykəlini memarlıq sənətinin son sözünü təşkil edən (və arvadının adına tikdirdiyi) Əl Həmra sarayının qapısına qoydurdu. Qurtibənin və digər ispan şəhərlərinin abadanlığına, məşhur Əl-Zəhra sarayının tikdirilməsinə görə büsbütün Əbdürrəhmanın arvadına borcluyuq! Alim xəlifə İkinci Hakim nazirlərindən birinin arvadını özünün xüsusi katibəsi kimi işlədirdi. O dövrün İspaniyasında ədəbiyyat və elm sahələrində məşhur qadınların sayı o qədər çoxdur ki, bunların hamısını bir-bir saymaq mümkün deyil. Məsələn, bunlardan o dövrün ən məşhur şairləriylə birlikdə şöhrət qazanmış şair şahzadə xanım Vəlladəni, ilahiyyat professoru Ümmü-Səlaməni, Hassənəni və Vəd-əl-Kəbiri tərənnüm edən Ümü-Əlanı, nəhayət, qrammatika və rapsodiya[3] professoru Əl-Aruziyəni göstərə bilərik. İspaniya qadınları yüksək cəmiyyətə sərbəstcə girir, istər sarayda, istər kənarda keçirilən şənliklərdə, gəzintilərdə sərbəstcə iştirak edirdilər. Onlar eyni şəkildə sərbəstcə camelərə gedə bilirdilər. Zamanın şairləri onların camedəki varlıqlarını "misilsiz çayırlıqlardakı bahar çiçəkləri"nə bənzədirdilər. Saracən[4] cəngavərləri səfərə gedərkən silahlarının və ya dəbilqələrinin üzərinə "Allahın və görkəmli qadınların adına" – devizini yazdırırdılar. Qadının adı kişiyə vuruşmalarda cəsarəti verirdi.

İspaniyanın bir müsəlman ölkəsi kimi yox olmasından və Türk-Tatar qəbilələrinin Suriya-İran əxlaq və adətlərinin təsiri altına düşməsindən sonra seçkin qadın nümunələri getdikcə azalmağa və qadın sərbəstliyi hərəkatı sönməyə başladı. Hər yerdə və qəti olaraq hərəmələrin və hərəmağalarının hakimiyyəti bərqərar oldu və bu iyrənc, bu düşük, kobud qurumlar qoxumuş və pozucu təsirlərini hər yerə aşıladı. Müsəlmanların yüksək təbəqələri içindəki ailə həyatının qaranlıq mənzərəsi hər bir kəs tərəfindən bilindiyi üçün bunun

[1] İspaniyanın Kordova şəhəri. Vaxtilə Kordova xəlifəliyi yaşamışdı.

[2] İspaniyanın indiki Qranada şəhəri. Müsəlman İspaniyasının güneyində Qərnatə əmirliyi var idi.

[3] Rapsodiya – xalq mahnıları, nağılları mövzusunda yazılan musiqi əsəri.

[4] Saracən – latınca Saracenus sözündən alınmadır. Ərəblərdə əski köçəri qəbilələrindən birinin adı. Xristianlığın meydana gəldiyi dövrdə ərəblərə verilən ümumi ad (*H.Ə.Ediz*).

üzərində ayrıca durmağa ehtiyac görmürük. Əslində bu mühitə mənsub bir adam kimi onlardan danışmaq bizə çox ağır gəlir, ruhu və vücudu məhv edən qaranlıq bir yaşayışı əbədi sürməyə məhkum anamızdan və bacımızdan qayğısızca danışmağa gücümüz çatmır. Müsəlmanların qurtuluşu, onların maddi və mənəvi, hətta siyasi dirçəlişi sadəcə olaraq iki məsələnin: qadın məsələsinin və əlifba islahatının həll edilməsilə bağlıdır. Bu günün müsəlman qadını ancaq sərbəst və şüurlu bir ana, həyat yoldaşı olmaq şərtiylə sosial vəzifələrini faydalı bir şəkildə yerinə yetirə bilər. Ancaq bu şərtlər altında o, uşaqlarına sosial yaşamda çox əhəmiyyəti olan sağlam bir xarakter və iradə, yüksək duyğular və sağlam düşüncələr aşılaya bilər.

Ona gerçək inkişaf imkanı verməyən boğucu hərəm havasının içində tamamilə bir bitkiyə oxşar, həm də tənbəl bir yaşayış sürən qadın irqin tənəzzülündə də birinci dərəcəli rol oynayır. Əlifbanın çətinliyi oxuma-yazma təhsilinə bərk əngəl olduğundan müsəlmanların ağıl və ürəklərinin aydınlanmasına aparan yolları qapayır. Qadın və əlifba... Bax budur, müsəlman dünyasının onu yavaş-yavaş ölümə sürükləyən iki başlıca düşməni, iki əlacsız xəstəliyi... Müsəlmanlar ancaq son zamanlarda bu məsələ üzərində diqqətlə durmağa başlayıblar. Ancaq İstanbulda, Qahirədə, Bombeydə və Kolkuttədə bu sahədə sərf edilən, qızların və oğlanların bir məktəbə getməsini təmin etmək və əlifbanı dəyişdirmək şəklində ifadəsini tapan qorxaq səylər kafi deyildir. Bunlar sadəcə olaraq öldürücü, xroniki bir xəstəliyə qarşı tətbiqi tövsiyə olunan və təsiri müvəqqəti dərmanlardan başqa bir şey deyil. Müsəlman dünyasını oyandırmaq, onu mədəni millətlər cəmiyyətinə qatmaq üçün şiddətli bir sarsıntıya ehtiyac var. Müsəlmanların da, öz təkamül mərhələlərini keçirmələri, aralarından dəmir iradəli, cəsur və fədakar bir adamın çıxması gərəkdir. Belə bir islahatçı (reformator), yuxarıda gördüyümüz kimi, bilavasitə müsəlmanlıqda, onun tarix və ənənələrində bərəkətli bir torpaq tapacaqdır.

Təkrar edək: nə Quran, nə şəriət şəxsən yeniliyə əngəl deyildir. Ancaq bunların təbliğatçıları – üləmalar və şeyxlər şəxsi mənafeləri naminə müsəlmanlığa mədəniyyətlə uzlaşmayan bir mahiyyət verməyə çalışmışlar. Misir islahatçısı Məhəmməd Əli Misir şeyxlərini və üləmasını üç cərgə əsgərlə mühasirəyə aldığı sarayına toplayıb layihəsini hazırladığı İslahat fərmanına ölüm qorxusu altında onlara qol çəkdirərkən bunu çox yaxşı anlamışdı.

SÖZLƏR, SÖZLƏR!..

Mən tamam başqa şey haqqında yazmağa hazırlaşırdım. Lakin "Kaspi"nin son nömrələrinin birində "Müsəlmanların dostu" imzası ilə dərc edilmiş kiçik bir məqalə mənim fikirlərimi tamamilə başqa səmtə yönəltdi.

Həmin məqaləni oxuyandan sonra mən Şekspirin ümidsizliyə qapılıb "Sözlər, sözlər!" deyə qışqıran bir qəhrəmanını xatırladım.

...Bəli, sözlər, sözlər! Biz müsəlmanlar sözdə hamını geridə qoyanıq, dildə bizim tayımız-bərabərimiz yoxdur. Biz gəlişigözəl sözlər danışmağı, əla sağlıqlar deməyi, özümüzü maarifin, mədəniyyətin əsil tərəfdarları kimi qələmə verməyi bacarırıq, amma bu sözləri əməli işdə sübuta yetirmək lazım gələndə biz çətin və mürəkkəb bir məsələ qarşısında özünü itirərək, çaşıb qalmış balaca uşaqlara oxşayırıq. Biz dinməzcə başımızı aşağı salıb ümidsiz halda əlimizi tərpədirik.

Heç yerdə, heç birimizdə zərrəcə təşəbbüskarlıq yox, heç yerdə, heç birimizdə heç bir orijinal ideya yox, heç yerdə heç birimizdə heç bir cəsarətli fikir yoxdur, heç bir ülvi duyğu təzahür etmir. Hamı elə hey vurnuxur, onlar eyni, əzbərlənmiş ibarələri, haradasa oxuduqları fikirləri təkrarlayaraq sanki hipnoz edilmiş kimi davranırlar. "Mədəniyyət, maarif, nadanlığın aradan qaldırılması" və bizim əl-qolumuzu buxovlayan, bizi azadlığa çıxmağa qoymayan bu cür ibarələr sanki bizi tilsimləmişdir. Biz bu cür əzbərlənmiş söz və fikirləri təkrarlamaqla özümüzdən məmnun qalırıq. Guya doğrudan da nə isə mühüm bir iş görmüş, zülmətdən sivilizasiya işığına çıxmışıq. Guya daha heç bir borcumuz qalmayıb. Bunlar bizim psixologiyamıza xas olan cəhətlərdir və əlbəttə, bu barədə mübahisə etməyə dəyməz.

Məsələn, götürək elə "Müsəlmanların dostu"nu. O mənim "Tatar qadının beşik nəğmələri" adlı məqaləmi oxuyandan sonra tamamilə haqlı olaraq həmin məqalədə bir bədbinlik ruhu, bir məyusluq çaları olduğunu sezib. Müəllif oxucuları ruhdan düşməməyə, xalqın mədəni yüksəlişi naminə işləməyə çağırır. Əlbəttə, bütün bunlar çox yaxşı, çox pakizə. Lakin təəssüf ki, "Müsəlmanların dostu" bu qədər gözəl fikirləri həyata keçirməyin əməli yolunu göstərmir. Onun yeganə tövsiyəsi bundan ibarətdir ki, hər şeyi açıb-ağartmaq olmaz, keçmişə hörmətlə yanaşmaq lazımdır, çünki işığın bolluğu adamı kor edə bilər, biz keçmişə hörmət etməyəndə isə onu özümüzə qarşı qaldıra bilərik.

Əla! Sən demə, müsəlman mühitinə indi o qədər işıq saçılır ki, adamın gözləri ağrıyır. Köhnəlik isə o qədər amansız tənqidə və məsxərəyə məruz qoyulur ki, əcdadlarımız gor evində rahat yata bilmirlər.

Bəs hanı o işıq? Haradadır o? Mən onu cidd-cəhdlə, ürək ağrısı ilə axtarıram, amma əfsus ki, heç yerdə tapa bilmirəm. Əgər siz onun harada gizləndiyini bilirsinizsə, mənə də deyin. Hər halda mən heç nə görmürəm. Mənim dövrəmdə zülmət buludları o qədər qatılaşıb ki, özümü qaranlıq bir gecədə hiss edirəm. Sözün düzü, haraya getdiyimi bilmədən sövq-təbii ilə, kor kimi yeriyirəm. Fikirləşirəm ki, hər dəqiqə büdrəyib yıxılaraq, başımı yara bilərəm. Bizi kor edən – işığın bolluğu, mədəniyyət deyil, zülmətdir, nadanlıqdır. Baxın Rusiyadakı soydaşlarımızın vəziyyətinə. Onların halı necədir? Axı iş kəmiyyətdə deyil, keyfiyyətdədir. Bəs keyfiyyət sarıdan bizim nəyimiz var? Dilimiz yox, ədəbiyyatımız yox, iki cılız qəzetimizi saymasaq, mətbuatımız, ümumiyyətlə, yoxdur. Cəmi bir sısqa xeyriyyə cəmiyyətimiz var, o da öz iclaslarını Peterburqda keçirir. Vəssalam! Bəlkə "Müsəlmanların dostu" bizim gözlərimizi qamaşdıran işığın daha hansısa təzahürlərini bilir? Əslinə baxsan, biz müsəlmanlar Rusiyada artıq yükük. Bizimki yaşamaq deyil, sürünməkdir.

Yaşamaq – düşünmək və fəaliyyət göstərmək deməkdir. Bəs hanı bizim fikrimiz, hanı bizim fəaliyyətimiz? Onlar nədə əks olunmuşlar və nədə əks olunurlar? Axı biz hətta hüquqa görə, təbiətən bizə mənsub olan şeyləri də tələb etməyi bacarmırıq. Rusiyada yaşayanların hamısı danışır, fikirləşir, düşünür, hiss edir, ümumi həyata öz münasibətini bu və ya digər şəkildə bildirir. Fəqət, biz müsəlmanlar lal-dinməz, həyat əlaməti olmayan nəhəng bir kütlə kimi mövcuduq. Adama elə gəlir ki, guya bu ölgün vəziyyət bizi qane edir və biz bundan məmnunuq. Müsəlman ana gözüyaşlı, ürəyindən qara qanlar axa-axa öz uşağına laylay çalanda o öz körpəsinin həyatının maddi və mənəvi ehtiyac şəraitində keçəcəyini qabaqcadan bildiyinə görə onun halına acıyır, buna görə də ağlayır. "Müsəlmanların dostu" kimi adamlar isə hissə qapılaraq gözləri yaşarmış halda fəryad edir: "Rəhm edin, cənablar! Bu qədər işıq olmaz. Əcdadlarınıza hörmət edin, qocalarınıza ehtiram edin, onların gözləri bu qədər işıq bolluğuna davam gətirməz!

Ah, bu keçmiş! Axı o bizdən nə istəyir? Onun bizi hər mənada – həm maddi, həm zehni, həm mənəvi baxımdan məhv etməsi,

dilimizi, dinimizi, xalqımızı xəlqiliyimizi məhv etməsi yetməzmi! Bəs deyilmi?! Deyəsən, keçmişin xoşuna gəlmir ki, müsəlmanların heç olmazsa bir qismi hələ yaşamaqda davam edir. Onlar lənətlənsələr də, miskin bir kölgə kimi də olsa, hər halda yer üzündə yaşamaqda davam edirlər. Əgər belədirsə, həmin adamların da məhv edilməsi – onların qırıq qəlblərinin tamam viran qoyulması artıq əcdadlarımızdan asılı deyil!..

Bir də ki, bu əcdadlarımızın ehtiram iddiasında olmağa haqqı varmı? Gəlin açıq və səmimi danışaq. Əcdadlarımız bizə nəyi miras qoyub gediblər? Onlara nəyə görə hörmət etməliyik? Özlərinin səfehlikləri və ağılsızlıqları ucbatından şəhərləri, qarət olunmuş kəndləri tərk edib getdiklərinə görəmi, öz əcdadlarının əməyi ilə yaradılmış bütöv, nəhəng orqanizmləri viran qoyduqlarına görəmi? Əcdadlarımıza nəyə görə hörmət etməliyik? Öz əcdadlarının əqli və mənəvi sərvətlərini unudub sonrakı nəsillərə miras əvəzinə yalnız zülmət və nadanlıq, mövhumat və xurafat, əldən düşmüş bədən, quru ürək və kütləşmiş beyinlər qoyub getdiklərinə görəmi?! Əcdadlarımıza nəyə görə hörmət etməliyik? Zorakılıq qarşısında qorxub geri çəkilmək ənənələrinə görəmi, bizim qüvvələrimizi hələ də korşaldan, bizi yaşamaq qabiliyyətindən tamamilə məhrum edən güclülərin qabağında kor-koranə, mənasızcasına baş əymək xasiyyətinin nəsildən-nəslə irsən keçməsinə görəmi? İndi özünüz deyin, fərsiz övlad kimdir: öz əcdadlarından hazır aldıqları hər nə vardısa hamısını itirmiş bizim əcdadlar, yoxsa əcdadlarından qalan yeganə miras yalnız borclardan, yalnız mənfi kəmiyyətlərdən ibarət olan və indi insan kimi, başqa adamlar kimi yaşamağa cəhd göstərən bizlər?

Ah, siz heç narahat olmayın, cənab "Müsəlmanların dostu!" Bütün bunlara baxmayaraq, biz öz əcdadlarımıza dərin ehtiram bəsləməkdə davam edirik. Bu ehtiram bizim əcdadlarımıza zahiri münasibətlərimizdə olmasa da, qəlbən, təbiətən bizə xas olan cəhətlərdə təzahür edir. Əcdadımızın ruhu bizim daxilimizdə o qədər dərin kök salıb ki, biz ondan xilas ola bilmirik və o hər an özünü büruzə verir. Əcdadlarımız kimi, bizim də təxəyyülümüz əslində mövcud olmayan, fantastik müqəvvalar uydurmaqda davam edir və əcdadlarımız kimi, biz də bu müqəvvalardan qorxub onların qabağından qaçırıq. Əcdadlarımız kimi, bizdə də ləyaqət hissi, özümüzə və başqa adamlara hörmət hissi yoxdur, onlar kimi, biz də kobud qüvvə qarşısında,

baş vermiş fakt qarşısında boyun əyir, müti oluruq. Onlar kimi, biz də nə ürəkdən sevməyi bacarırıq, nə ürəkdən nifrət bəsləməyi; nə səmimi inanmağı bacarırıq, nə səmimi inkar etməyi, nə də həqiqi mənada əylənməyi. Bizim zehnimiz də, üroyimiz də, fikir, təfəkkür və hissiyyatımız da qocalarda olduğu kimi korşalıb. Keçmişimizə, əcdadlarımıza bundan artıq hörmət olarmı? Əgər biz özümüzdən əl çəkib cismimizi də, canımızı da başqasına təslim edirikso, bundan çox və bundan böyük ehtiram olarmı?

Cənab "Müsəlmanların dostu!" Siz bizi məscidə gedib dua etməyə çağırırsınız. Əcəba, bizim bu cür çağırışa ehtiyacımız varmı? Biz iddia edirik ki, molla da bizimdir, məscid də, din də, iman da. Bakı məscidlərindən birinin möhtərəm vaizlərindən birinin bu yaxınlarda təbirinco desək, bizim istədiyimiz odur ki, əli qardaş qanına batmış adamların heç biri məscidə gəlməsin; piştaxta arxasında, yaxud birjada öz yaxın adamını aldadıb qarət edənlər namaz qılmasınlar; məhkəmədə Qurana yalandan and içən adamların heç biri bundan dərhal sonra gəlib dua etməsin, Allahdan əfv diləməsin; biz istəyirik ki, məscid, dua və molla ikiüzlülüyü, riyakarlığı ört-basdır etmək vasitələri yox, daxilən saflaşma, mənəvi və əxlaqi baxımdan kamilləşmə mənbələri olsun.

Lakin siz bunu istədiyiniz, buna can atdığınız halda öz gücsüzlüyünüzü hiss edirsinizsə, öz səylərinizin səmərəsiz olduğunu başa düşürsünüzsə, onda istər-istəməz bədbinliyə, məyusluğa və ümidsizliyə qapılırsınız.

Burada gəlişigözəl sözlərlə adama təsəlli verməyin yeri deyil. Tamerin bu misrasını yada salıb ona əməl edin:

"On' de sespere en esperunt toujurs".

"Kaspi" qəzeti, 18 yanvar 1905-ci il, № 13

"BAKI, 8 DEKABR"

Biz azərbaycanlılar hələ siyasətdən baş çıxara bilmirik və başqalarını, xüsusən bədxahlarımızın əl atdıqları üsullardan biz istifadə edə bilmirik. Biz bütün Avropada hay-küy qoparmağı, bu dünyanın sözükeçən adamlarının "qapılarının dabanını çıxarmağı" bacarma-

mışıq, biz hətta hamı tərəfindən qəbul edilmiş bir işin Avropada özümüz üçün "yaxşı mətbuat" yaratmaq məsələsinin də öhdəsindən gələ bilməmişik.

Bu son 15 il ərzində Zaqafqaziya müsəlmanlarının həyatına yaxından bələd olan hər bir kəs bilir ki, Azərbaycan Cümhuriyyətinin ədliyyə naziri X.B.Xasməmmədovun bu sözlərində dərin bir həqiqət var.

Erməni-müsəlman münaqişələrinin ilk kədərli günlərindən başlayaraq, Rusiyanın mütərəqqi mətbuat orqanlarının əksəriyyəti müsəlmanlara münasibətdə düşmən mövqeyi tutmuş, onları irticaçılıqda, mütləqiyyətin dayağına çevrilmək cəhdlərində, qaragüruhçuluq meyillərində, vəhşiliklərdə və daha nələrdə, nələrdə ittiham etmişlər. İş o dərəcəyə çatıb ki, sanballı "akademik" orqanlarda Qafqazda əslində heç mövcud olmayan, lakin guya müsəlmanlar tərəfindən talan olunduğu iddia edilən şəhər adları peyda olmuşdur.

Rusiya paytaxtının mətbuatında qaldırılmış bu hay-küy, təbii ki, Avropa mətbuatında və ümumiyyətlə, dünya mətbuatında da müvafiq əks-səda doğurmuş, müsəlmanlar haqqında elə təsəvvür yaranmışdır ki, guya onlar Qustav Emarın romanında təsvir edilən qırmızı dərili adamların tayıdır. Müxtəlif dövlətlərin parlamentlərinə "qurbanlar" və "müsəlmanların vəhşilikləri" barədə məlumat almaq üçün sorğular daxil olmuşdur.

Bəzən görürsən, ailədəki uşaqların biri fərasətsiz olur. Özünün daha çevik, daha diribaş qardaşları üçün məsxərə və zorakılıq obyektinə çevrilən bu zavallı uşaq heç şikayət etməyə də cəhd göstərmir və müti halda gözləyir ki, anası gəlsin; anası isə bu uşağı incidənləri deyil, onun özünü kötəkləyir, çünki onlar qoçaq tərpənib, qabaqcadan "informasiya" yayır, fərsiz qardaşlarını günahkar kimi qələmə verirlər.

Biz məhz bu bacarıqsız uşağın vəziyyətində olmuşuq, Qafqazda həmişə güclülər zəiflərin "belinə miniblər".

Bütün bunlar bizim hay-küy qaldırmağı və "yaxşı mətbuat" yaratmağı bacarmamağımızın nəticəsidir.

Aydındır ki, başqalarında bizim barəmizdə yaranmış təsəvvür bizdən ötrü o qədər də sərfəli deyil. Buraya gələnlər həqiqi vəziyyətin həmin təsəvvürə tamamilə zidd olduğunu görəndə son dərəcə heyrətlənmişdilər.

Bu vəziyyət hələ də davam edir. Hakimiyyətsizlik və hərc-mərclik dövründə Qafqazda yaşayan başqa xalqlarla müqayisədə Azərbaycan türkləri və ümumiyyətlə, bütün Qafqaz müsəlmanları on qat, bəlkə də yüz qat artıq əziyyət çəkdiklərinə baxmayaraq, Qafqaz mətbuatının əksər hissəsi məhz həmin adamların əleyhinə təhrikçiliyi hələ də davam etdirir. Mütəmadi və planlı xarakter almış bu təhrikçiliyin təşkilində kadetlərdən tutmuş bolşeviklərədək, daşnaklardan tutmuş sosialistlərədək bütün ünsürlər heyrətamiz və mütəəssiredici bir həmrəylik nümayiş etdirirlər. Sosialistlər hətta sinfi mübarizə məsələlərini də arxa plana keçiriblər, indi onlar artıq, ayrı-ayrı siniflərə qarşı deyil, Azərbaycan türklərinə qarşı mübarizə aparır, özü də bu mübarizə sosial zəmində deyil, milli və hətta dini zəmində aparılır. Adamı incidən odur ki, məsələ müsəlmanlarla bağlı olanda Bakı sosialistlərinin siyasi rəhbərləri hətta bu cür əməllərə də əl atırlar.

Biz, öz siyasi məqsədlərinə nail olmaq üçün hansı vasitələrdən istifadə etmək lazım olduğunu o qədər də bilməyən siyasi düşmənlərimizə oxşaya bilmərik və bunu istəmirik. Biz özümüzün haqlı olduğumuzu tamamilə başa düşərək sakit və soyuqqanlı halda öz məqsədimizə doğru irəliləyirik. Nəhayət, biz inanırıq ki, kin-küdurət və xudbin niyyətlər üzündən həqiqətə göz yummayan adamların hamısı bizim təmasda olduğumuz bütün xalqlara loyal münasibətimizi, səmimiyyətimizi və hiyləgərlikdən uzaq olmağımızı etiraf edəcək və bunu qiymətləndirəcəklər.

Fakt göz qabağındadır. Kim istəsə, bunu yoxlaya bilər.

Azərbaycan Demokratik Cümhuriyyətinin
mətbu orqanı olmuş (1918-1919-cu illər)
"Azərbaycan" qəzetindən, 8 dekabr 1918-ci il, № 55

MÜSƏLMAN XALQLARIN VƏZİYYƏTİ

Birinci məqalə

XVIII əsrin ikinci yarısı müsəlmanlığın tarixində bir dövr təşkil edir – tənəzzülün başlanması dövrü!

Lakin bu dövrdən əvvəl bir-birinə tamamilə zidd iki mərhələ olmuşdur – daxili və xarici qüvvələrin yüksəliş mərhələsi (VII əsrdən XVI əsrə qədər) və durğunluq mərhələsi (XVII-XVIII əsrlər). Doqquz əsr davam edən birinci mərhələdə üç xalq – ərəblər, farslar və türk-tatarlar növbə ilə islamın istinadgahı olmuşlar. Birincilər islamın meydana gəlməsindən VIII əsrin yarısına kimi, ikincilər VIII əsrdən XII əsrə kimi, üçüncülər isə XII əsrdən indiyə qədər.

Bütünlükdə isə durğunluq dövrünə qədər islamın xarici təsiri getdikcə artan bir sürətlə irəliləmişdir. Müsəlmanlar arada İspaniyanı itirsələr də, əvəzində Avropanın o biri ucunda Şərq imperiyasının paytaxtı Konstantinopol başda olmaqla böyük bir ərazini ələ keçirmişlər. Həm də bu türk-tatarların sayəsində mümkün olmuşdur. Zəifləyib əldən düşmüş irqlərin – ərəblərin və farsların əlində az qala sarsılmağa və parçalanmağa başlayan müsəlman aləmini XIII əsrdə miras alan bu sağlam və qüdrətli xalq onun dərdlərinə yenidən əlac edə bilmiş, onu nəinki dağılmaqdan qorumuş, hətta dirçəldərək sərhədlərini xeyli genişləndirmişdir. Belə ki, tərəfsiz tarixçi son nəticəni çıxararkən və XIII əsrin islam ilə ərəblərin Əməvilər dövrü, yaxud farsların Abbasilər dövrü islamı arasında müqayisə apararkən etiraf etməlidir ki, türk-tatarlar aldıqları mirası nəinki qoruyub saxlamış, hətta onu xeyli artırmış və zənginləşdirmişdilər.

Tam əminliklə demək mümkündür ki, əgər türk-tatarlar olmasaydı, hazırkı halında islam da mövcudluğunu qoruya bilməzdi. İndi o tam şəkildə çökməyə, unudulmağa doğru gedən təlimlərdən birinə çevrilmiş olardı. Əgər islam səlib yürüşlərinin qarşısında duruş gətirmişdisə, əgər o, qüvvətli dini təbliğatlarla müşayiət olunan sürətli müstəmləkə fütuhatı dövründə birdəfəlik yoxa çıxmamışdısa, bunlar yenə də məhz türk-tatarların sayəsində mümkün olmuşdur. Bu irqin bir ovuc nümayəndəsi – Səlcuqlar əsrlərlə birləşmiş Avropanın qarşısında sinə gərib dayanmışdır.

Aslan ürəkli Riçardın dostu və düşməni sifətində Qərbdə və Şərqdə əfsanəvi ad qazanan Saladin (Səlahəddin) kimi Səlib yürüşlərinin qarşısına sipər çəkənlər də yenə həmin Səlcuqlardan idilər. Daha sonra onları türk-tatar xalqının başqa bir qolu – Osmanlılar əvəz etdilərsə saylarının azlığına baxmayaraq, tezliklə möhkəmliklərini və nələrə qadir olduqlarını göstərdilər. Bundan əlavə, XIV əsrdən bu günə kimi türk-tatarlar Konstantinopoldan tutmuş Çinə və Hindistana qədər, Şərqi Türkmənistandan tutmuş Afrika Tripolisinə qədər bütün nəhəng müsəlman aləmində hakim xalqdırlar. Hindistanda, İranda, Türküstanda, Zakaspi vilayətində, Türkiyədə, Misirdə və b. ölkələrdə hakim sülalələr, asılı və müstəqil vali knyaz nəsilləri, mülkədar sinfi, görkəmli hərbi və siyasi xadimlər hamısı türk-tatarlardandır. İlk Səlib yürüşlərindən başlayaraq bu günə qədər Qərbə qarşı uzun və ağır mübarizəni aparanlar da türk-tatarlar olmuşdur. Onlar müsəlman dünyasını az-çox müdafiə etmiş, onu tam parçalanmaqdan qorumuşlar. Lakin bütün bunlara baxmayaraq, bu xalq hələ də bir ağ günə çıxmayıb. Çinlilərə və yaponlara qohum olan türk-tatarlar onların mədəniyyətlərinə yad qalmışlar. Bu xalq tarixdə ilk dəfə XII əsrdə meydana çıxdığı halda (Ə.Ağaoğlu burada Osmanlı xanədanını nəzərdə tutur – *tərt.*) Avropa xalqları ilə müqayisədə ancaq hələ indi öz orta əsrlərinə qədəm qoyur və onun bütün həyatı hələ irəlidədir. Egey sahillərindən və Aralıq dənizindən Çinə qədər böyük bir ərazidə məskən salmış türk-tatarlar öz etnoqrafik, din və dil birliyi sayəsində gələcəkdə Köhnə Dünyada başlıca həyat ünsürlərindən biri olacaqları ilə bağlı müjdələrini verməkdədir. Bu xalqın hər yerdə gördüyümüz və hər kəs tərəfindən təsdiq edilən nadir mənəvi və fiziki keyfiyyətləri belə bir ehtimal üçün əsas verir. Nadir mənəvi keyfiyyətlər – doğruluq, namusluluq, sadəlik, mülayimlik, mərdlik, cəsurluq onların vücudlarının nadir keyfiyyətləri – möhkəmliyi, dözümlülüyü, irq təmizliyi və gözəlliyi ilə bağlıdır. Əgər bu xalq indiyə qədər zehni və elmi cəhətdən özünü göstərməmişsə, bu bir çox ciddi və aradan qaldırılması o qədər də asan olmayan əngəllərlə bağlıdır.

Həmin əngəllər içərisində birinci yerdə, təbii ki, türk-tatarların əsasən məskunlaşdığı Asiyadakı ümumi zehni vəziyyət dayanır. Bu qitə öz-özlüyündə zehni fəaliyyət üçün o qədər də geniş bir sahə deyildir. Lakin elmi hazırlıqlarının azlığına, habelə bu cür məşğuliyyətə təkan verəcək amillərin cüziliyinə baxmayaraq, türk-tatarlar

tarix səhnəsində göründükləri ilk zamanlardan intellektual sahəyə maraq göstərmişlər. Çingiz xanın nəvəsi Hülakü xan hələ bütpərəstlikdə qalmasına baxmayaraq, özünü müsəlman alimlərlə əhatə etmişdi. Müsəlmanlar arasında geniş yayılmış təqvim indinin özündə də onun adını daşıyır. İranın Marağa şəhərində hamının faydalanması məqsədi ilə qurduğu ilk rəsədxana üçün, Günəşlə bağlı bir sıra dəqiq bilgilər üçün, Ptolomey loqarifmlərinin təkamülü üçün Avropa, Hülakünün istəkli dostu Nəsirəddin Tusiyə borcludur. Ondan bir müddət sonra yenə bütpərəst, dəhşətli və qorxunc Teymurləng ayaq basdığı hər yerdə hər şeyi dağıtdığı və məhv etdiyi halda, ancaq alimlərə, ədiblərə, elm, incəsənət və ədəbiyyat əsərlərinə toxunmazdı. Onun paytaxtı Səmərqənd o dövr mədəniyyətinin, elm və incəsənətinin mərkəzi olmuşdu. Bir sözlə, qəddarlıqlarına və savadsızlıqlarına baxmayaraq, türk-tatarlar zehni məşğələlərdən heç zaman uzaq qalmamışdılar.

Özlərini geniş şəkildə dinc məşğələlərə həsr etmək, ərəb-fars mədəni və elmi fikrinin qoyduğu irsi daha da zənginləşdirmək baxımından türk-tatarlara mane olan ikinci əngəl onların tarix səhnəsinə gəldikləri zaman və şəraitlə əlaqədar idi. Türk-tatarlar Qərbi Asiyada ilk dəfə XII əsrdə görünürlər. Onların əsas özəyi isə islam dinini ancaq Qazan xan zamanında – XVI əsrdə qəbul etmişdi. O zaman islam dini türk-tatarlara əsla aidiyyəti olmayan səbəblər üzündən öz böhran dövrünü yaşayırdı. Əxlaq pozğunluğu və mənəvi naqislik artıq hər şeyi içəridən çürüdürdü. Dinin, əxlaqın, ali hakimiyyətin və cəmiyyətin pozulması bütün sahələrdə tam gücü ilə gedirdi.

Müsəlmanları yüksəklərə qaldıran əqli-elmi hərəkat mistisizmə, təsəvvüfə və bütün mədəni xalqların tənəzzülü üçün səciyyəvi olan əqli və mənəvi aşınmalara doğru gedirdi. Burada da, sözün əsil mənasında, bir zamanlar Qərbi Roma imperiyasında baş verən hadisələr təkrarlandı. O zaman Romanın artıq öz əsil-nəcabətlərini itirməkdə olan zadəganları vəhşi almanların basqıları qarşısında təslim olaraq yeni ağalarının müəllimləri sifətində çıxış etməyə başlamışdılar. Vəhşilər özlərinə tabe etdikləri müəllimlərindən dini də, ağıl və ürək üçün digər mənəvi qidaları da pozulma və degenerasiya dövrünün verdiyi şəkildə – pozulmuş, eybəcər, şikəst halda qəbul edirdilər. Və onlar aldıqlarının hamısını öz vəhşi, azğın təbiətlərinin süzgəcindən keçirərək daha da korlayırdılar. Bu pozğunluğun cazibəsindən çıxmaq, həqiqi dini, həqiqi elm və mədəniyyəti indiki halında yenidən bərpa etmək üçün Qərbə on beş əsr vaxt lazım oldu. Türk-tatarlar isə hələ indi özlərinin altıncı əsrini yaşamaqdadırlar. Digər tərəfdən, ərəblərin min iki yüz il bundan əvvəl xaricdən güclü təkan verdiyi Qərbin, necə deyərlər, öz üzərində işləmək üçün kifayət qədər boş vaxtı və imkanı vardı. Halbuki türk-tatarlar üçün tamamilə başqa şərait mövcud olmuşdur. Tarix səhnəsinə gəldikləri dövrdən onların daxili inkişafla məşğul olmalarının qarşısını alan əbədi və ciddi maneə meydana çıxır: türk-tatarlar həmişə özünümüdafiə vəziyyətində dayanmalı olmuşlar! Bir müasir Türkiyəyə nəzər salın. Bu ölkə zamanın və şəraitin doğurduğu zahiri maneələrdən nicat tapıb heç olmazsa iki il daxili məsələləri ilə məşğul ola bilirmi? Türk-tatarlar tarix səhnəsinə gəldikləri vaxtdan aramsız şəkildə belə vəziyyət içərisində qalmışlar. Onlar həmişə müharibəyə hazır vəziyyətdə olmalı, hər tərəfdən gözlənilən hücumları dəf etməli idilər. Onların özlərini də, mənsub olduqları islam dinini də hər zaman və hər tərəfdən sıxışdırırdılar. Onlar hər dəqiqə həm özlərinin, həm də islamın xilasını düşünməli idilər. Lakin ilk baxışdan islamı xilas edərkən və zahirən hətta onun ərazi və sərvətlərini artırarkən onlar zaman keçdikcə özlərinə fəlakət gətirən iki şeyi unudurdular və unutmaya da bilməzdilər: bu bir tərəfdən Qərbin tədricən əqli və əxlaqi baxımdan tərəqqi etməsi, o biri tərəfdən isə islamın özünün daxilində pozucu qüvvələrin meydana çıxması və baş qaldırması idi.

Daim savaşlarda olduqlarından onlar barıt tüstüsü, yaxud dəbilqə torunun arxasından Qərbdə elm və sənətin yüksəliş dövrünü, bütün köhnə dünyanı dəyişdirən Böyük Fransa inqilabını, hətta türk-tatarların öz istiqbal və istiqlallarını borclu olduğu şeyi – şəxsi igidliyi heçə çıxaran elmi kəşf və ixtiraları da görə bilməmiş, nəzərdən qaçırmışdılar. Daxildə isə müsəlmanlar arasında dinin, əxlaqın pozulması, dəyərlərin itirilməsi, hətta ən möhkəm cəmiyyətlərin dayaqlarını sarsıtmağa qadir olan bu proses artan bir sürətlə gedirdi. Biri-birindən qəribə, biri-birindən daha eybəcər təriqətlər, tam mənasız və əxlaqi baxımdan fəlakətli təlimlər, tarixə və təbiətə zidd cərəyanlar islamı parçalayıb didir, onu taqətdən salırdı. Gah bir, gah da başqa yerdə şöhrətpərəstlər kütlələri arxalarınca apararaq mənasız təlimlər vasitəsilə onlar arasına qardaş qırğını salır, nifrət və ədavət toxumu səpirdilər. Dərvişlər və saxtakarlar bazarların və meydanların birinci

şəxsinə çevrilir, küt fanatizm ideya və zövqlərə hakim kəsilir, riyakarlıq və ikiüzlülük hamının üz tutduğu ümumi dəyərlərə çevrilirdi.

Bütün təhsil və elm mərkəzləri – məktəblər, mədrəsələr, darülfünunlar, kitabxanalar və elmi cəmiyyətlər dağılır, yoxa çıxır, onların yerində isə müxtəlif qəhvəxanalar, əyləncə yerləri, dərvişxanalar peyda olurdu. Belə yerlərdə isə bir tərəfdən həşiş, tiryək, əxlaqsızlıq, o biri tərəfdən isə quru, küt sxolastika adamın cisminə və ruhuna hakim kəsilir, cəmiyyətin əsaslarını sarsıdaraq onu sağlamlıq, ağıl, hiss və ürəkdən məhrum edirdi. İslam artıq karton parçalarından tikilmiş böyük bir binaya bənzəyirdi: bu bina zahirdən parıldayırdısa da, içəridən boş və zibillik idi. Belə bir bina elə ilk zərbədəncə uçulmalı idi. Həmin zərbəni isə çox gözləmək lazım gəlmədi. XVIII əsrin ikinci yarısı gəlib çatdı və onunla birlikdə müsəlman dünyasının da qara günləri başlandı. Geniş ərazinin bir ucundan o biri ucuna kimi hər yerdə uçqun və çöküntü sədaları eşidilirdi. Hər yerə ah-nalə, fəryad və ümidsizlik, sükunət və xarabazarlıq hakim olmuşdu. Sanki dəhşətli dağıntıdan sarsılmış, vahimənə düşmüş dünya şiddətlə o yan-bu yana vurnuxaraq bu fəlakətli vəziyyətdən nicat və çıxış yolu arayırdı. Hər yerdə yollar bağlanmışdır. Hər yerdə ancaq xarabalıqlar, itki və tələfat nişanələri gözə dəyir. Və bu zaman həmin dağılmış dünya artıq üzünü özünə çevirir. Adamlar bir-birlərini ittiham etməyə başlayırlar. Bu isə ümumi yas və ümidsizlik mənzərəsini tamamlayır. İstedad və nüfuzuna görə zəmanəmizin görkəmli şəxsiyyətlərindən biri, Parisdə çıxan "Ürvətül-vüsqa" qəzetinin keçmiş naşiri və redaktoru Seyid Cəmaləddinin islamın müasir vəziyyətinə verdiyi dəqiq qiymət heç zaman yadımdan çıxmır. Seyid Cəmaləddin deyirdi ki, "mən islamı nəhəng bir vücud kimi təsəvvür edirəm. O, başını İstanbulda yerə qoyub, qollarının birini Afrikanın şimalına, o birini Krım və Orenburq üzərindən Çinə uzadıbdır, ayaqları isə bütün Qərbi Asiya boyunca dolaşır. Artıq bu vücudda nə bir sağlam yer və nə bir xəsarət almamış orqan var. Amma o, qanı axa-axa, yarımcan halda yenə öz dəmir püskürən nəfəsini bilirsiniz nəyə sərf edir? Sadəcə, kimin haqlı, kimin haqsız olduğu ilə bağlı höcətləşmələrə! Əmrmi, Zeydmi haqlıdır? Əmrinmi, yoxsa Zeydinmi ilahiyyatı yaxşıdır? Yalnız son nəfəs də canından çıxandan sonra o başa düşəcək ki, məhz bu höcət nəticəsində öldü!" Taleyin zərbələrindən sarsılıb məyus olmuş müsəlmanlar indi gəzib bu fəlakətin onların üzərinə haradan gəldiyini axtarırlar və vəziyyəti düzəltmək haqqında düşünürlər. Hazırkı vaxtda bu

məsələ ilə bağlı onların arasında biri-birindən tamamilə fərqli üç cərəyanın mövcudluğu müşahidə olunur. Bunlardan biri tərəqqipərvərlər, yaxud gənc türklər, o birisi mühafizəkar müsəlmanlar cərəyanı və nəhayət, üçüncü bu ikisinin arasında dayanan panislamist cərəyanıdır. Gələcək yazılarımızda bu cərəyanların hər birini ayrılıqda nəzərdən keçirəcəyik.

BAKI HADİSƏLƏRİ HAQQINDA HƏQİQƏT

Bakı qırğını ətrafında təşkil olunmuş təbliğat bütün gözlənilən hədləri aşıb keçmişdir. Yalnız bizim rus mətbuatı deyil, əcnəbi mətbuat da hər gün ən qərəzli, ən kobud və misli-bərabəri görünməmiş məqalə və xəbərlərlə, "işıqlandıran" və "aydınlaşdırılan" yazılarla doldurulur. Qanlı Bakı günlərinin bir neçə yüz bədbəxt qurbanının çəkdikləri əzablar və ölümləri haqqında deyilənləri cürbəcür şəkillərə salıb şitini çıxarırlar. Təbliğata rəhbərlik edən bacarıqlı əllər bütün vasitələrdən istifadə edir və nə yolla olursa olsun, öz çirkin məqsədlərinə çatmağa can atırlar.

Bu məqsəd nədən ibarətdir? Onun iki tərəfi vardır.

Birincisi, bədbəxt hadisə ilə bağlı bütün məsuliyyəti yerli hökumətin üstünə yıxmaq, ikincisi isə guya qara camaatın ilk çağırışı ilə dərhal günahsız adamların üstünə atılıb onları öldürməyə, qarət etməyə və evlərini yandırmağa hazır olan yerli müsəlmanları başkəsənlər və soyğunçular kimi qələmə verməkdir.

Müsəlmanlar bir tərəfdən polisin əlində üzüyola və şüursuz vasitə kimi, o biri tərəfdən isə yeganə hücumçu, təhrikçi və qatil tərəf kimi göstərilir. Guya polis onları qabaqcadan hazırlamış, silahlandırmış və təşkil etmişdir. Onlar da şüursuz quldur dəstələri kimi həvəslə polislə əlbir olmuşlar ki, əsrlərdən bəri sülh və asayiş şəraitində yaşadıqları adamları soysunlar və öldürsünlər. Hələ bu harasıdır? Ustalıqla təşkil olunmuş qəzet təşviqatı onu da müəyyənləşdirməyə dəfələrlə cəhd göstərmişdir ki, polislə əlbir olub qırğın törədənlər yalnız şəhərin başıpozuq ünsürləri – müsəlman camaatı arasında təsadüf olunan xuliqanlar, avaralar yox, həm də müsəlmanların ən şüurlu və mədəni qüvvələri olmuşdur.

Məsələn, İ.Doluxanov imzalı birisi "Rus" qəzetində "Qafqazın bəlası" başlıqlı məqaləsində Bünyadov familiyalı naməlum şəxsin

sözlərinə istinadən sübut etməyə çalışır ki, guya qırğından əvvəl Bakı mollaları, Baş molla (???) məsciddə ermənilər qılıncdan keçirməyə çağırmışdır. "Birjevıe vedomosti" qəzetində Bakıdan xəbər verən c-b Ramm (Protey) qırğında bütün təcavüzkarlıq rolunu müsəlmanların ayağına yazmışdır. Guya Bakı vəkillərinin apardıqları sorğu-sual yolu ilə əldə olunan və indi "Novosti" qəzetində çap edilən sənədlərdə Orlovskaya familiyalı birisinin dililə belə bir ifadə verilir ki, qırğına qədər müsəlman mühəndis Fərrux bəy Vəzirovun mənzilində erməni qırğını hazırlamaq və həyata keçirmək məqsədi ilə yığıncaqlar düzəldilmişdir. Bu yığıncaqlarda guya Məlikov (müsəlman, təbiət elmləri namizədi, müəllim, publisist), Musa Nağıyev (müsəlman, neft sənayesi sahibkarı) iştirak etmişlər.

İnsafınız olsun: əgər bütün bunlar belə olsaydı, əgər bütün bunlar həqiqət olsaydı, o zaman bircə şey qalırdı ki, bütün bu müsəlmanlar haqqında deyəsən: "Bu ki başkəsənlər və əclaflar dəstəsidir. Onlara nə Dağ-Mədən İnstitutu, nə din, nə sərvət təsir edir. Onların yeri hüquqi və zehni tərəqqiyə doğru qüdrətli addımlarla irəliləməyə can atan mədəni ölkənin hüdudları daxilində deyil, Saxara səhrasında olmalıdır". İmperiyada müsəlman əhalinin sakin olduğu bütün guşələrdən hüquq barədə, müsəlmanlara rus təbəəliyi verilməsi barədə xahişnamələr axıb gəldiyi bir vaxtda qəzet təbliğatçıları üzərlərinə necə böyük günah götürdüklərini, taleyin hökmü ilə və labüd bir surətdə onlarla birgə yaşamağa məhkum edilmiş insanlara necə dözülməz zərbə vurduqlarını başa düşürlərmi?

Bu təbliğatın ruslara müsəlmanlar barəsində olduqca acınacaqlı təsir bağışladığına və bağışlayacağına heç bir şübhə ola bilməz. Çünki rusların nə "Kaspi" səhifələrində yalançılıqda ifşa olunmuş həmin Doluxanovun gecikmiş peşmanlıqla etdiyi bu etirafdan xəbəri var ki, guya "Rus" qəzetinə "cəmiyyət işləri haqqında məlumatlarının olmadığı, müsəlman ruhanilərinin qırğın zamanı oynadıqları nəcib və insani rolun əbədiləşdirilməyə layiq olduğunu" bilmədiyi bir vaxtda yazmışdır, nə Rammın (Protey) Bakıya gəlişinin ilk günlərindən bütün bu qəzet təbliğatını təşkil edən yalan və saxtakarlıq burulğanına düşdüyündən, nə də Qafqazda pulla şahidliyin geniş yayıldığından və 25 manata Orlovskaya kimi şahidlərin dilinə istənilən sözləri, istənilən məhkəmə ifadələrini verməyin mümkünlüyündən xəbərləri olmayacaq.

Qanlı Bakı hadisələrinin şahidi, həm hadisələrdən əvvəlki, həm də sonrakı vəziyyətlə yaxşı tanış olan bir şəxs kimi biz tam qətiyyətlə təsdiq edə bilərik ki, müsəlmanların Bakı qırğınındakı rolu ilə bağlı bütün bu qəzet hay-küyü yalnız ağ yalan üzərində qurulmuşdur.

Biz bunu istər hadisələrin özünün, istərsə də onları müşayiət etmiş şəraitin sistemli təsviri yolu ilə müəyyənləşdirməyə çalışacağıq. Lakin qabaqca mətləbdən bir qədər kənara çıxmaq və qırğına qədərki hadisələrin ümumi mənzərəsini bir süjet formasında vermək istəyirik. Məqsəd oxucunun cürbəcür münaqişə törətməyə və ədavət salmağa asanlıqla zəmin hazırlayan psixoloji səbəbləri görməsinə imkan yaratmaqdır.

Heç kəsə sirr deyil ki, lap son zamanlara qədər Qafqaz hakim dairələri hər işdə ermənilər müdafiə edir və ruhlandırırdı. Ermənilər isə ağıllı və əlli-ayaqlı bir millət kimi özlərinin bu müstəsna vəziyyətlərindən bacarıqla yararlanırdılar. Onlar məktəblər açır, qəzetlər təsis edir, maarif və xeyriyyə cəmiyyətləri qurur, kitabxana və qiraətxanalar təsis edir və bütün bunların sayəsində həm zehni, həm də iqtisadi cəhətdən sürətlə qabağa gedirdilər. Nəticədə sayca nisbətən az olsalar da onlar diyarda üstün rol oynamağa başladılar. Müsəlmanlar isə böyük əksəriyyət təşkil etmələrinə baxmayaraq, hakim dairələrin inamsızlıq və şübhələri nəticəsində ətalət, cəhalət, zehni və iqtisadi yoxsulluq içərisində yaşamaqda davam edirdilər. Öz-özlüyündə də aydındır ki, müsəlmanların sayları ilə düz gəlməyən belə bir uyğunsuz vəziyyətləri əhalinin bu iki hissəsi arasında labüd ixtilaflar törədirdi. Halbuki diyarın Rusiyaya birləşdirilməsinin elə ilk günlərindən də çox asanlıqla görmək olardı ki, müsəlmanlar say və qabiliyyətləri nəticəsində bu birləşmədə üstün rol oynamalıdırlar.

Qafqaz müsəlmanları ağıllı, gözüaçıq və əməksevərdirlər. Onlarda qüdrətli, qənaətcil və işləməyi bacaran üçüncü silk vardır. Məlum mədəni inkişaf da onlara iqtisadi sərbəstlik hüququ verir. Lakin heyhat! Müsəlmanların mədəniyyət yoluna qədəm qoyduqları ilk günlərdən başlayaraq ermənilər qonşularını lazımi rəğbətlə qarşılamadılar. Özlərinin xristian dininə mənsubluqları və diyarda yüksək vəzifələr tutmaları sayəsində onlar əslində qanun təfsirçilərinə çevrildilər və qanunçuluqdakı etiqadla bağlı qeyri-dəqiq və kifayət qədər aydınlaşdırılmamış bütün sərfəli olmayan məqamları müsəlmanların əleyhinə yönəltdilər. Misal üçün, heç olmazsa, Zaqafqaziyada şəhər özünüidarəsi məsələsini götürün.

Zaqafqaziyada şəhər özünüidarəsi tətbiqinin ilk günlərindən onlar tələb etməyə başladılar ki, müsəlmanlar yəhudilərlə eyniləşdirilsin və şəhər özünüidarə orqanlarında onların nümayəndələrinin sayı qeyri-xristianlar üçün qanunda nəzərdə tutulmuş minimuma qədər məhdudlaşdırılsın. Və onlar bu məsələdə məqsədlərinə çatdılar. Uzun zaman müsəlmanların əhalinin əksəriyyətini təşkil etdikləri şəhərlərdə onların Dumadakı təmsilçiliyi bu minimumu ötmürdü. Müsəlmanlar yerli əhali olaraq qanunun onları nəzərdə tutmadığını, qanunvericiliyin Qafqaz əhalisinin bir hissəsini başqasının tabeliyinə vermək üçün heç bir əsas yaratmadığını sübut etməkdən ötrü nə qədər zəhmət çəkməli, mübarizə aparmalı oldular. Nəhayət, müsəlmanlara böyük iltifat göstərdilər, onlara şəhər özünüidarəsində geniş təmsil olunmağa icazə verdilər. Lakin yenə də şərt qoydular ki, müsəlman təmsilçilərinin sayı Duma üzvlərinin ümumi sayının yarısından artıq olmamalıdır. Və indi hətta Bakı kimi bir şəhərdə, – elə bir şəhərdə ki, əhalisinin 75 faizi müsəlmanlardan ibarətdir və ermənilər burada gəlmə ünsürlərdir, demək olar ki, bütün binalar, ticarət, sənaye müsəlmanların əlindədir, – belə bir şəhərdə müsəlmanlar yenə də ancaq Duma üzvlərinin yarısını təşkil edirlər. Bir müddət bundan əvvəl müsəlman qlasnılardan birisi Dumanın iclası zamanı şəhər özünüidarə orqanlarında müsəlmanlarla ermənilərin sayını bərabərləşdirmək üçün yuxarı instansiyalara rəsmi müraciət etmək zərurəti haqqında məsələ qaldıranda və ağlamsınaraq ermənilərdən müsəlmanlara yardım əli uzatmağı, onları öz səviyyələrinə qaldırmağı xahiş edəndə, erməni qlasnılar bir nəfər kimi belə bərabərləşdirmə əleyhinə çıxış etdilər. Erməni qlasnılardan biri isə xahiş etdi protokola yazılsın ki, məsələ yalnız müsəlmanların əksəriyyət təşkil etmələri sayəsində keçdi. İctimai xarakterli bütün digər müəssisələrdə – birja kontorlarında, ictimai məclislərdə və s. də belədir. Aydındır ki, bütün bunlar şəhər əhalisinin iki hissəsi arasında dostcasına münasibətlərin qurulmasını çətinləşdirir və qara qüvvələrin hər cür qarışıqlıq salmaları üçün təbii zəmin hazırlayırdı.

Lakin bu barədə danışarkən mən qətiyyən o fikirdə deyiləm ki, müsəlmanlarla ermənilər arasında hansısa dini, yaxud milli düşmənçilik olmuşdur. Əksinə, onlar əsrlər boyu sülh və dostluq şəraitində yaşamışlar və hətta indi də mədəniyyətin oxşarlıqları qorunan hər yerdə – ümumi zəhmətlə bağlı olduqları kəndlərdə və obalarda onlar səmimi qonşular kimi yaşayırlar, aralarında heç bir ədavət və

ayrı-seçkilik yoxdur. Lakin acgöz, iştahında əndazə bilməyəcək dərəcədə hərislik burjuaziyanın və onun arxasınca gedən mədəni plutokratiyanın yarandığı, mədəni inkişaf baxımından daha irəlidə olan ermənilərin hər sahədə ağalığı öz əllərinə almağa, müsəlmanları isə hər vasitə ilə gözdən salmağa çalışdıqları və onlara yuxarıdan baxdıqları bütün şəhərlərdə toqquşma və narazılıqlar labüd hal almışdır. Bu toqquşma və narazılıqlar araqarışdıranların hər zaman yaxşı cücərən ədavət toxumu səpmələri üçün çox münbit bir zəminə çevrilmişdir.

Məsələnin bu tərəfini aydınlaşdırandan sonra hadisələrin özünün təsvirinə keçirik.

* * *

Qırğından bir neçə həftə əvvəl şəhərdə həyəcan və təşviş doğuran şayiələr dolaşmağa başladı. Ermənilər arasında müsəlmanların onları qırmağa, müsəlmanlar arasında isə ermənilərin onları darmadağın etməyə hazırlaşdıqları haqqında söz-söhbət gəzirdi. Bu şayiələri kim, hansı məqsədlə yayırdı – indiyə qədər məlum deyil. Cəmiyyətin ziyalı təbəqəsi əvvəlcə şayiələrə heç bir əhəmiyyət vermirdi, sadəcə gülür və elə düşünürdülər ki, bu yalnız ictimai diqqəti fevralın 19-na təyin olunmuş fəhlə nümayişlərindən yayındırmaq məqsədi ilə işə salınmış vasitədir. Lakin cəmiyyətin aşağı təbəqələri bərk narahatlıq keçirir və əsəbiləşirdi. Şayiələr isə günü-gündən daha da geniş yayılaraq artıq həqiqi təşviş doğururdu. Bununla bir sırada şəhərdə ermənilərlə müsəlmanlar arasında o vaxta qədər görünməmiş sui-qəsdlər çoxalmağa başlamışdı. Camaat arasında gəzən şayiələrdə bunu iki erməninin – zənginlərdən Balabəy Lazarevlə Çaxmaqsazovun iblisanə əməlləri ilə əlaqələndirirdilər. Danışırdılar ki, müsəlmanlar onların arvadlarına, qadın qohumlarına və uşaqlarına sataşdıqları üçün bu ağalar özlərini təhqir edilmiş sayıb Şuşadan, Şamaxıdan və hətta az qala Türkiyədən başkəsənlər çağırmışlar ki, müsəlmanlardan intiqam alsınlar. Və doğrudan da ermənilərlə müsəlmanlar arasında qırğın başlandı. Əvvəlcə bir erməni bir müsəlmanı öldürdü. Müsəlmanlar həmin ermənini təqib etməyə başladılar. O isə daha bir müsəlmanı öldürdü, bir başqasını yaraladı və açıq şəkildə bildirdi ki, bundan sonra yenə də müsəlman öldürmək fikrindədir. Bir müsəlman qatil ermənini güdərək başından böyük sözlərinə görə onu qətlə yetirdi. Ermənilər bu öldürülən üçün təntənəli dəfn mərasimi düzəldib qəbiristanlıqda nitqlər söylədilər, onun ailəsi üçün

böyük məbləğdə pul topladılar. Qətli törədən müsəlman həbs olundu. O, istintaq kamerasından qazamata aparıldığı zaman yolda konvoydakı erməni əsgərlər tərəfindən öldürüldü. Əsgərlər onun sinəsinə bir neçə süngü yarası vuraraq qətlə yetirmişdilər.

Müsəlmanlar arasında şayiə yayıldı ki, Lalayev bu əsgərləri pulla ələ alıbmış. Onlar məhbusu qəsdən, erməninin heyfini almaq üçün öldürmüşdülər. Nə bu şayiələrin doğruluğunu, nə də onların hansı mənbədən yayıldığını tədqiq etmək fikrində deyiləm. Mən yalnız o faktları qeyd edirəm ki, onlar şəhərdə çox həyəcanlı, gərgin əhvali-ruhiyyə yaratmış ünsürlərin kimliyini nişan verir.

Camaat büsbütün ağlasığmaz şeylər danışırdı. Guya ermənilər Türkiyədəki erməni quldur dəstələrinin məşhur başçısı Androniki çağırmışlar, anbarları bomba və silahla doldurmuşlar, guya onların tanınmış adamlarının şərəfini təhqir etmiş müsəlmanlar üzərinə hücuma hazırlanırlar.

O zaman şəhərə heç vaxt görünməmiş və qatarların hərəkətini tam bir həftə müddətində dayandıran güclü qar yağmışdı. Qar əriməyə başlayanda yenə camaat arasında şayiə yayıldı ki, guya qar altından qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş 6 cəsəd çıxarılmışdır. Hamını həyəcan bürüdü. Bu həyəcan cəmiyyətin ziyalı təbəqəsinə də sirayət etdi.

Hadisələri önləmək və bu şayiələrin qarşısını almaq üçün kiçik bir erməni-müsəlman komitəsi yaradıldı. Komitəyə müsəlman və erməni ziyalılarının nümayəndələri daxil idilər. Qərara alındı ki, yayılan şayiələrin büsbütün boş və əsassız olduğunu xalqa başa salmaq ermənilərin və müsəlmanların nüfuzlu adamlarından xahiş olunsun. Habelə əhalini sakitləşdirmək, həyəcan keçirməyin əbəs olduğunu izah etmək məqsədi ilə erməni və türk dillərində səyyar vərəqələr buraxılması ilə bağlı razılıq əldə olundu. Lakin, təəssüf ki, daha gec idi.

Psixoloji gərginlik artıq son həddə çatmışdı və dəhşətli müsibətin başlanması üçün kiçik bir bəhanə lazım idi. Məhz məxsusi olaraq seçilmiş adamlar ermənilərə və müsəlmanlara müraciətin doğurduğu intibaları müzakirə etmək üçün bir araya gəldikləri vaxt ermənilər müsəlman Ağa Rəzi Babayevi öldürdülər. Ağa Rəzi Babayev Bakının varlı və böyük qohum-əqrəbalı adamlarından idi. Fevralın 6-da o, milyoner dayısı ilə birlikdə erməni kilsəsinin qabağından keçirmiş.

Adətən bazar günləri erməni kilsəsinin təkcə hasarının içərisində deyil, bayırında da çoxlu erməni toplaşır. Babayevlər erməni camaatının qabağından keçərkən atəş səsi eşidilir. İzdiham dərhal Babayevin üstünə atılıb onu sui-qəsd niyyətində təqsirləndirir. O özünü itirməyib tapançasını çıxarır, izdihama göstərərək atəş açmadığını, patronların hamısının yerində olduğunu deyir. Sonra həqiqətən də belə olduğu aşkara çıxır. Amma buna baxmayaraq, izdiham divan tutmaq üçün onu dövrəyə alır. Bu zaman qorodovoylar gəlir və Babayevin tapançasını alaraq özünü də polis şöbəsinə aparmaq üçün faytona oturdurlar. İzdiham faytonu gülləyə tutur. Qorodovoylar kimi Babayevin dayısı da qaçır. İki güllə yarası (sifətindən və qarın nahiyəsindən) almış Ağa Rəzinin cansız cəsədi faytona sərilir. Lakin qəzəblənmiş izdiham bununla da kifayətlənmir. Babayevin cəsədini çəkib faytondan yerə salır və küçə ilə sürüməyə başlayırlar. Sonra isə bıçaqla sinəsini bir neçə yerdən yaralayaraq ölünü bihörmət eləyirlər. Vəhşiləşmiş izdiham habelə təsadüfən buradan keçən iki büsbütün günahsız müsəlmanı da vurub yaralayır.

Qəziyyə xəbəri dərhal Babayevin qohum-əqrəbasına çatır. Təkrar edirəm: onun çoxsaylı qohum-əqrəbası vardı. Müsəlmanların və ermənilərin hələ də soyumamış qanlı intiqam hissləri yenidən baş qaldırır. Babayevin qohumları ermənilərin üzərinə hücum çəkdilər və onlardan qarşılarına çıxanları vurub öldürməyə başladılar. Axşam saat 10-na qədər hər iki tərəfdən 25-ə yaxın adam öldürüldü. Amma saat 10-dan sonra ara sakitləşdi. Ertəsi gün əhali, istər ermənilər, istərsə də müsəlmanlar öz adi, gündəlik işləri ilə məşğul idilər.

Bax elə bu məqamda hələ də əsəbləri tarıma çəkilmiş adamların əhvali-ruhiyyəsini bilən və baş vermiş hadisə ilə tanış olan inzibati dairələr özlərinin bütün bacarıq və məharətlərini işə salmalı idilər. Onlar çevik və qətiyyətli tədbirlərlə yenidən qan tökülməsinin qarşısını ala bilərdilər.

Ertəsi gün səhər saat 10 radələrində cahil erməni və müsəlman dəstələri toqquşdular və qırğın başlandı. Artıq bu əsil qırğın idi: dəhşətli, amansız, soyğunçuluq və qətllərlə, yanğınlar törətmək və başqa qorxunc hadisələrlə müşayiət olunan və həm də xalqın həddini aşmış vəhşi ehtirası ilə alovlanan bir qırğın idi. Bu vəziyyət çərşənbə gününə qədər davam etdi.

Bu dörd günün qanlı hadisələri haqqında çox yazılmışdır. Bu günlərin dəhşətlərini təsvir etməyə çox ustalıq, çox rəng, çox bəlağət sərf olunmuşdur. Burada onları bir daha təkrar etməyin yeri deyil. Lakin biz bir məqama diqqət yetirmək istərdik: təəssüf ki, bu məsələdən

danışarkən ermənləri günahsız quzu, müsəlmanları isə onların qanını içməkdən həzz alan vəhşi yırtıcı şəklində qələmə verməyə çalışırlar. Bunun da səbəbi aydındır – ermənilərin hər yerdə adamları var! Əslində isə əgər hər hansı təhrikçilik vardısa, bu həm ermənilər, həm də müsəlmanlar üçün eyni olmuşdur.

Burada oxucuların diqqətini müsəlman ziyalıların istər qırğın zamanındakı, istərsə də ondan sonrakı nəcib davranışına cəlb etmək istərdim. Qırğın zamanı nəinki ziyalı, hətta ən sadə müsəlman ailələrindən də eləsi yox idi ki, şəxsi təhlükəsizliklərini risk altında qoyaraq ermənləri gizlətməsin, onları müdafiə etməsin. Halbuki erməni ziyalıları tərəfindən bir təsadüfdə də olsun belə addım atılmamışdır.

Bu hələ hamısı deyil. Qırğını başlayan ermənilər olsa da, görəcəyimiz kimi, ona son qoyan müsəlmanlar olmuşdu. Faciənin davam etdiyi bütün dörd gün ərzində müsəlmanlar yerli qubernatoru əhatə edərək ona məktublar verirdilər ki, nə isə bir qərara gəlsin, hər iki tərəfdən ruhaniləri yığıb küçələrə çıxsın. Dördüncü gün qırğının hələ də davam etdiyini və getdikcə daha dəhşətli əndazə aldığını görərkən ümumun rahatlığı naminə öz həyatlarını təhlükə qarşısında qoyan kimlər oldu? Yenə müsəlmanlar – İsmayılbəy Səfərəliyev, Kərbəlayı İsrafil Hacıyev, Hacı Aslan Aşurov, Hacı Baba Aşurov, Kərbəlayı Abdulla Zərbəliyev, Həsənağa Həsənov və başqaları! Onlar telefonla zəngləşdilər və həyatlarını təhlükədə qoyaraq silahlı adamların müşayiəti ilə qubernatorun yanına getdilər. Elə qubernatorun yanındaca həm müsəlman ruhanilərini, həm də ermənilərin nüfuzlu adamlarını və ruhanilərini çağırmaq üçün dəstə göndərildi. Hamı toplaşandan sonra çoxları danışmağa tərəddüd etdiyi zaman bir şəxs irəli çıxıb dedi: "Cənablar, nə üçün yubanırsınız? İtirdiyimiz hər dəqiqə onlarla bədbəxtin həyatına bais ola bilər. Mən əlimdə Quran qabaqda gedəcəyəm. Qoy birinci güllə mənə dəysin". Bu sözləri deyən müsəlmanların qazısı Mir Məhəmmədkərim Cəfərov idi. Bu müsəlman qazisi qalanlara nümunə olub, onları ruhlandırıb bütün əhalini kütləvi şəkildə küçələrə çıxmağa məcbur etməklə, əsil bir sülhpərvərlik örnəyi göstərməmişdimi?

Bəs qırğından sonra? Müsəlmanların ziyalıları və adlı-sanlı adamları heç bir başqa məqsəd güdmədən camaatı sidqlə sakitləşdirdikləri, ona bu qardaş qırğınının bütün çirkinliklərini anlatdıqları halda, qəzetlərdə təbliğat təşkil edən ermənilər ortaya çıxdılar və bütün dünyaya hadisələrlə bağlı heyrətamiz dərəcədə şişirdilmiş ara-

qızışdırıcı teleqramlar yaymağa başladılar. Onlar öldürülmüş 10-15 min nəfərdən danışır, müsəlmanları qaniçən vəhşilər kimi təsvir edirdilər. Bütün Rusiya və Avropa ayağa qaldırılmışdı. Hər tərəfdə müsəlmanlara ümumi bir nifrət yaratmaq üçün arasıkəsilməz səylər göstərilirdi. Bu adamların faktları necə şişirtdikləri haqqında təəssüvür əldə etmək üçün təkcə onu demək kifayətdir ki, hakimiyyət dairələri deyil, məhz erməni insansevər cəmiyyətinin özü tərəfindən bütün məlumatlar toplandıqdan və diqqətlə araşdırıldıqdan sonra Bakı hadisələrində zərər çəkənlərin cəmisi 700 nəfər olduğu, onlardan 300 nəfərin öldürüldüyü və 400 nəfərin yaralandığı, öldürülənlərdən 130-a qədərinin müsəlman, 170 nəfərinin erməni olduğu aşkara çıxdı.

Bəli, rüsvayçılığa, özü də dəhşətli və heç cür bağışlanmayacaq bir rüsvayçılığa yol verilmişdir. Və müsəlmanlar özlüyündə baş verən hadisələrin rüsvayçılıq, biabırçılıq olduğunu dərk edib peşman olmuşlar, öz şeyxülislam, müfti və qaziləri ilə birlikdə göz yaşı tökmüşlər, kilsə və məscidlərdə ermənilərə qardaşcasına əl uzadıb sidqlə üzr istəmişlər.

Öz günahlarını yumağı arzulayaraq onu əsla kiçiltməmələri, başqasının üstünə yıxmamaları, ermənilərlə səmimi surətdə barışmaq istəmələri söz yox ki, müsəlmanların müsbət cəhətidir. Amma bununla bərabər müsəlmanlar qətiyyən özgənin günahını öz üzərlərinə götürmək niyyətində deyillər. Erməni cənablar nahaq və əbəs yerə öz biabırçılıq paylarını da müsəlmanların üstünə atmağa cəhd edirlər. Ermənilər və onların züy tutanları nahaq və əbəs yerə məsuliyyət və biabırçılığı təkcə müsəlmanların ayağına yazmağa can atırlar. Müsəlmanlar hər nə eləyiblərsə, ermənilərlə birlikdə və onlara cavab olaraq eləyiblər. Ona görə də bir tərəfdən qardaşlıq və birlik komitələri yaratmaq, heyifsilənmək və dostluq andı içmək, o biri tərəfdən isə redaksiyalara özünü satan arvadların, aşnası hesabına dolanan kişilərin, Zaqafqaziya məhkəməbazlarının sərsəm sözləri ilə dolu və Allah bilir, hansı yollarla əldə edilmiş sənədlər vermək ləyaqətsizlik və nanəciblikdir. Və bütün bunlar həmin adamların əleyhinə edilir ki, onlarla öpüşüb qardaşlıq və birlik andı verirlər!

Bu ayın 12-də Tiflis şəhərində Tiflis müsəlmanlarının dəvətinə görə Ümumqafqaz vilayətlərindən zübdə və müntəxab adamlar gəlib iclas edib şeyxülislamlığa dair müzakirə və müsalihədə bulunacaqdırlar.

İclasdan məqsəd haman "İrşad"ın dəfəat ilə və israr ilə müzakirə olunmuş şeyxülislamlığa dair məsələyi tədqiq və təftiş edib lazım olan hökumət dairələrinə rücu etməklə birdəfəlik bu məsələni həll etməkdir.

Əsil mətləb bu məsələ barəsində bir müfəssəl bəyannamə tərtib edib canişin hüzuruna təqdim etməklə bərabər, canişin həzrətlərindən şeyxülislamın ümuməhali tərəfindən intixab olunmasını istida etməkdir.

İndiyə qədər cari olan qanuna binaən şeyxülislamın intixab və təyini bilkülliyyə hökumətin mühəvvəlidir, əhali bilmərrə bu intixabda iştirak etməyib, bu qaydadan naşı olaraq və hökumət kişilərinin məəttəəssüf əhalinin vəz və əhvalından bixəbər olmasına bina ən əksər ovqat şeyxülislamlığa təyin olunan əşxas bu məqamialiyə layiq və münasib olmayırdılar və bu cəhətdən şeyxülislamlıq kimi məqami-alidən hökumət və əhali tərəfindən gözlənən və məlhuz olunan mənfəət və xidmətlər mədum və nabud qalırdılar.

İştə ümdə məqsəd bu qaideyi-əsəfəngizi təbdil etməkdir. Şeyxülislamlıq barəsində oylə bir qayda tərtib etmək lazımdır ki, həm bu məqami-müəzzəm öz isminə müsəmma olsun və həm o məqama haiz olan şəxs layiq və münasib olsun. Lakin vaəsəfa! Hər işimizdə olduğu kimi bu məsələdə də bəzi şeytan tinətli vücudlar və iğraz və mənafeyi-şəxsiyyəyə bənd və əsir olan zatlar əhali arasına növbənöv iftiralar və kizblər salıb əhalini vəhşət və dəhşətə salırlar. O cümlədən, məsələ, deyirlər ki, guya şeyxülislamın əhali tərəfindən təyin olunmasını arzu və tələb edən və bu yolda qələm və danışıq ilə ciddicəhd edən əşxas özləri üçün və özlərini şeyxülislam etdirmək üçün çalışırlar. Və çün bu məsələni, necə kim, ümumən millətimizə aid və millətimizin ehtiyacını rəfedici cümlə qeyri məsələləri, ərbabi-qələm və əshabi-zəkamız meydana atıb mövzuyi-müzakirə edirlər, məzkur şeytanlar camaata boylə təlqin edirlər ki, guya haman ərbabi-qələm və əshabi-zəkanın bu qədər səy və tələşlarından məqsədləri şeyxülislamı öz aralarından intixab etdirməkdir. Əvət, əqli-səlim və dirayətimətin sahibi zatlar bu iftira və kizblərin nə dərəcədə həqiqətdən uzaq

olduqlarını fövri düşünə bilərlər. Çünki əgər vaqiən ərbabi-qələm və əshabi-zəkamız bu fikirdə olsaydılar ki, özlərini şeyxülislam etdirsinlər, onlar üçün bu məqsədə çatmaq hökumət vasitəsilə daha asandır, nəinki camaat vasitəsilə. Ondan ötrü ki, ərbabi-qələmimiz hökumət kişilərinə və onların dairələrində olan əşxasa qeyrilərindən yavuqdurlar, onlar ilə əlaqədardırlar və öz sözlərini, xahişlərini qeyrilərdən yaxşı əda edə bilərlər. Lakin ərbabi-qələmimizin məqsədi özlərinin deyil, ümummillətin nəfidir. Qəti surətdə deyə bilərik ki, ürəfamızdan və ərbabi-qələmimizdən bir kişi belə yoxdur ki, nəinki şeyxülislamlıq iddiasına düşsünlər və hətta xəyallarına belə bu gunə bir fikir gəlsin. Ərbabi-qələmimizin qəsdi fəqət budur ki, iş bir növ ilə olsun ki, bir tərəfdən şeyxülislamlıq məqamı doğrudan-doğruya müəzzəm, möhtərəm olsun, o biri tərəfdən də bu məqama oylə bir şəxs təyin olunsun ki, bu həm alim və həm amil, həm dana və həm ğəyur, həm öz şan və məqamını bilən və həm iş görən fəal şəxs olsun. Lakin nə etmək? Əhalimiz cahildir. Hər bir kizb və iftiraya uyur, yerindən olur, öz mənfəətini asanlıqla düşünməyir və həm bu halətə ilə şeytanların, müzəvvirlərin dağdağə və təvəsvüsünə meydan verir.

Ümumən şeytanlar və müzəvvirlər iki növ əşxasdan ibarətdir.

Əvvəla, "hami"lərdən. Bunlar o şəxsdirlər ki, fəqət öz şan və hörmətlərinin fikrində olub bu şan və hörməti mühafizə etmək üçün əhalinin əlddəvam cəhalətdə qalmasını, hər bir ixtiyar və hüquqdan məhrum olmasını, daimi bir sıxıntı altında qalmasını xahiş və təmənna edirlər. Çünki əvza boylə olduqda onlar üçün mümkündür ki, gizlincə, əl altınca pul və əlaqə vasitəsilə öz xahiş etdiklərini keçirib də sonradan haman təyin etdikləri şeyxülislam vasitəsilə hər nə istəsələr etsinlər. Bu gunə adamlar üçün millət, millətin ehtiyacatı, şeyxülislamlıq və qeyr qeyri-ali səviyyədir. Bunlar üçün fəqət şan və ehtiram lazımdır. Şeyxülislam kim olsa olsun, hər nə edirsə etsin, fəqət onların adamları olsun, onların əli ilə təyin olunmuş olsun.

Saniyən, hirs və təmə sahibi olub öz mənfəəti-şəxsiyyələri üçün ümummilləti, millətin cümlə hüquq və ehtiramını qurban etməyə hazır olanlardan bu gunə adamlar üçün də nəf deyil ki, şeyxülislamın təyin olunmağı əhaliyə verilsin; çünki bu növ adamların elm və əməli, ləyaqət və istedadları xəlayiqə məlum olduğundan, əlbəttə, əhali tərəfindən şeyxülislamlıq kimi məqami-özmaya təyin olunmazlar. Bunlar üçün şeyxülislam təyinini hökumət əlində olması daha nəfli-

dir. Çünki bunlar yuxarıda zikr olunan hamilərin vasitəsilə daha asan vəchlə öz məqsədlərinə nail ola bilirlər.

Bizə yetişən xəbərlərə görə olan şeyxülislamlıq üçün canişin dəftərxanasına oylə adamlar tərəfindən ərizələr verilib ki, əsla savadları belə yoxdur ki, əsla islam, şəriət, şeyxülislam belə nə olduğunu bilməyirlər, nə islamdan, nə şəriətdən xəbərləri var. Nə zəmanə ehtiyacatına vaqifdirlər və nə hökumətə əlaqə etməyə ləyaqət və istedadları var.

Aşkardır ki, əgər şeyxülislamın intixabı camaat əlində olsaydı, bu gunə adamlar şeyxülislamlıq fikrinə düşməyə belə cürət etməzdilər. Lakin olan hökm-fərma olan qaydanın bərəkətindən bu gunə adamlar bir tərəfdən hökumət kişilərinin bunların nə növ adam olduqlarını bilməmələri, o biri tərəfdən isə öz hamilərinin himayət və vasitələrinə xatircəm olub nəinki millətin şeyxülislamı olmaq iddiasına cürət və küstahlıq edərlər və hətta arxayındırlar ki, əgər təyin şimdiki qayda üzrə olsa, şeyxülislam onların birisi olacaq.

İştə biz millətə də vacibdir ki, bu gunə şeytanların iqvalarına uymayıb öz mənafeyi-milliyyəmizi və əsasi-dinimizi mühafizə etmək üçün çalışıb bu qaideyi-məşumi təbdil edək.

Bu təbdilin nə növ olması barəsində şeyxülislamlıq nədir, şeyxülislam kim, hansı sifətə dara olan şəxs olması xüsusda "İrşad" bu axır vaxtlarda uzun-uzun bəyanatlar vermiş, dübarə təkrar etməyə lüzum yoxdur.

Min-min şükürlər olsun ki, Qafqazın hər yerindən "İrşad"ın səsinə səs verildi, hər yerdən sədalar gəldi, Tiflis müsəlmanları bu yolda qeyrilərdən daha irəli gedib işi qövldən felə gətirmək üçün məclis tərtib etmişlər və hər bir şəhərə dəvətnamələr göndərib məsələnin müzakirə olunması üçün Tiflisə vəkillər istəmişlər.

Hər bir millətini sevən hümmətli müsəlman gərək bu halətə şad olsun, ayıqlığa qədəm qoymuş, öz mənfəət və zərərlərini düşünməyə başlamış və öz hüquq və mənafeyini mühafizə etmək üçün şüru etmiş millətimizin daha danışığa, qeylü qala kifayət eləməyib iş görməyə müsəmməm olmasından bu bir nişanədir.

İştə ümidvarıq ki, Bakı əhalisi də cünbüş və hərəkətdən geri qalmayacaq və Tiflis məclisinə göndərmək üçün layiq və müstəid adamlar intixab edəcəklər. İntixab etmək üçün haman bu adamları qəzetimizin əvvəlinci səhifəsində nəşr olunan elana müvafiq çaharşənbə günü sübh saat 11-də camaat Qasımbəy məscidinə dəvət olunur.

Ümum camaatımızdan və bilxassə ürəfadan xahiş və təmənna olunur ki, məsələnin əhəmiyyətini nəzərə alıb millət və islam namına həmiyyət edib Qasımbəy məscidinə izdihamla təşrif gətirsinlər.

Bu şurada fəqət Tiflis məclisinə getmək üçün və orada məsələni hərtərəfli müzakirə edib ümuməhalinamə olaraq canişin hüzuruna ərizə və bəyanat təqdim etmək üçün vəkillər təyin olunacaq. Ümidvarıq ki, üləma və ürəfamız himmət edib izdihamla gəlib vəzifəni ifaedici layiq və müstəid adamlar intixab edəcəklər.

YENƏ KÖÇ MƏSƏLƏSİ

Srağagün Tiflisdən Hacı Zeynalabdin Tağıyev cənablarına cənab Şeyxülislamdan belə bir teleqram gəlmiş: "Bu fevral ayının 15-də İrəvandan gəlmiş müsəlman nümayəndələri erməni nümayəndələri ilə bərabər hüzuri-canişinə yetişib erməni-müsəlman hadisatından zərərdidə olan erməni və müsəlmanlara ianə tələb edəcəklər. Lazımdır ki, siz tərəfdən də burada bir nümayəndə olsun".

Bu teleqram gəldikdə Hacı Zeynalabdin cənabları Gəncə qubernniyasında zərərdidələrə ianə cəm etmək üçün təşkil olunmuş ianə komitəsini dəvət edib bu məsələni mövzuyi-müzakirə etdi. Bəd əz müzakirə qət olunmuş ki, komitə tərəfindən doktor Qarabəy Qarabəyov Tiflisə azim olub, qeyri nümayəndələr ilə bərabər hüzuri-canişinə yetişib məsələni hərtərəfli bəyan eləsin.

Lakin bu məsələdə ən diqqət olunacaq bir nöqtə varsa, o da ümumi və millət işlərində bizlər ilə ermənilər arasında olan təfavütdür. Ermənilər hər məsələdə, hər işdə, hər milli və ümumə dair hərəkətdə kəmali-ittihad və ittifaq və səbatü qədəm ibraz etdikləri əsnada, biz müsəlmanlar kəmali-pərişanlıqla, ədəmi-ittihad və ittifaq ilə iş görürük. Rus zərbi-məsəli ki, "Hər kim ki, çomağı tez götürdü – çoban odur" – biz müsəlmanlar barəsində yəs və kədəramiz bir həqiqətdir.

Hər kəs nə istəyir edir. Hər kəsin başına nə gəlir – deyir, xəyalına nə yetişir – edir. Daha qeyrilər ilə müxabirə etmək, məsləhət etmək, bir dəsturləmə ilə iş görmək bizim qaydamız deyil. Məsələn, haman bu köç məsələsi. Bakı müsəlmanları bir fikirdədir, Gəncə qubernniyasının əhalisi qeyri xəyalda və İrəvan və qeyri yerlərin əhalisi bir təşəbbüsü-salisədədir. Və hər kəs özünü qabağa atıb millət naminə danışıb, özünə millət vəkili deyərək milləti hər dürlü bəlalərə düçar edirlər.

Odur ki, ermənilər də bizim bu halımızdan istifadə edərək, həmişə öz xahişlərinə müvafiq müsəlman millətinin tərəfindən adamlar tapıb öz məqsədlərincə işlətməkdədirlər.

General Qoloşşapovun təyini məsələsində canişin həzrətləri böyük dəvam və səbat ilə bu generalın Şuşaya təyin olunmasını ermənilərin iqdamat və səylərinə bərəks olaraq rədd etməkdə idi. Lakin ermənilər yorulmadılar. Onlar bilirdilər ki, axırda müsəlmanların arasından bir-iki adam tapıb millət naminə olaraq onlar ilə bərabər hüzuri-canişinə ərizə göndərib generalın təyinini təmənna edəcəklər. Və vaqiədə də boylə oldu. Şuşa müsəlmanları tərəfindən 2-3 adam öz başlarına teleqraf göndərib generalın təyin olunmasını ermənilər ilə bərabər xahiş etdilər.

Nəticələri məlumdur!

İştə hər bir işimizdə biz bu cür rəftar edib axırda da baxtımızdan, Allahımızdan, dövrandan küsürük. Halbuki gərək əvvəlcə öz səfahətimizdən, öz bikifayətliyimizdən küsək.

Hər nə isə bu ianə məsələsində də eyni surətdə hərəkət edirik. Bakı nümayəndələri erməni rüəsasının köç məsələsində görkəzdikləri inadı görüb də ianə barəsində ermənilər ilə birlikdə iş görməyi rədd etdilər. Ermənilər rücu etdilər Tiflis müsəlmanlarına. Orada müsəlmanlara vəkil olacaq adam bulmayıb İrəvana rücu etdilər və şükürlər olsun ki, İrəvan əhalisindən millət vəkilləri gəlib millət naminə olaraq millətinin ən həyati, ən ümdə məsələsini düşünməyərək millət tərəfindən iş görürlər. Daha qeyrilərdən, qeyri zərərdidələrin əhvalatından müttəle olub onların xahiş və təmənnalarını bilmək lazım deyil!! Təki bizə rücu edən kirvələrimizdən olsunlar. Sonra nə olacaq olsun!

Qarabəy Qarabəyovun həmiyyət və qeyrətinə əminik ki, məsələnin nə olduğunu, Gəncə quberniyasının nə dərəcədə təhlükədə olduğunu həm bu vəkillərə, həm canişin həzrətlərinə hərtərəfli bəyan edəcək və bu vəsilə ilə millətimizi ona qurulan dolabdan xilas edəcək!

Keçəngünkü nömrəmizdə cənab Şeyxülislamdan Hacı Zeynalabdin Tağıyev həzrətlərinə gələn teleqrafı çap eləmişdik. Bu teleqramda cənab şeyxülislam, Tağıyev cənablarına yazmışdı:

"Əlan canişin dəftərxanasından mənə rəsmən xəbər göndərmişlər ki, İrəvandan müsəlman vəkilləri gəlib ermənilər ilə bərabər bu ayın 15-də hüzuri-canişinə yetişib hökumətdən birlikdə 2 milyon ianə istəyəcəklər. Lazımdır ki, sizin də burada vəkilləriniz olsun".

Cənab Tağıyev bu teleqramı alıb fövrən müsəlman pişrevlərini cəm etdi və müzakirədən sonra qət olundu ki, doktor Qarabəy Qarabəyov Bakı tərəfindən Tiflisə gedib ianə və köç məsələsi barəsində həm İrəvandan guya gəlmiş vəkilləri və həm də canişin həzrətlərini hərtərəfli müttəle etsin.

Qarabəy getdi, ikinci gün cənab Hacı Zeynalabdin Tağıyevə və "İrşad"a Qarabəydən belə bir teleqraf çıxdı:

"İrəvandan gəlmiş əsla bir vəkil yoxdur.

Görünür ki, bu işi tərəfi-müqabil özündən icad etmiş və şeyx cənablarını səhvə salmış tərəfi-müqabilin gücü ilə canişin dəftərxanasından Şeyx cənablarına yalan olaraq kağız yazılmış, cənab Şeyx hüzuri-canişinə gəlib Bakıdan vəkil istədiyini bəyan etdikdə canişin həzrətləri buyurmuş ki, şeyx nahaq yerə zəhmət çəkib, çünki İrəvandan heç bir vəkil gəlməyəcək".

İştə qəribə deyilmi?

Qəribə deyilmi ki, daşnaksakanlar canişin dəftərxanasını məcbur edirlər ki, cənab şeyxülislama yalançı rəsmi kağız yazsınlar?

Qəribə deyilmi ki, şeyxülislamla ki, iki milyon camaatın şeyxidir, bu gunə zarafatlar edirlər?

Qəribə deyilmi ki, şeyx həzrətləri daşnakların və qeyri müfəttinlərin əllərində oyun-oyuncaq olub onların təlqinatlarını bedunitəhqiq qəbul edib onların məramlarına uyğun iş görür?

Qəribə deyilmi ki, bizim hamımızı bisərpa qoyun sürüsü kimi hesab edib güman edirlər ki, bizim ilə hər iş görmək mümkündür?

Yenə qəribə deyilmi ki, canişin həzrətləri müsəlmanları şəhər Dumasına vəkil intixab etmək barəsində qeyri-tayfalar ilə müsavi etdikdə Quba şəhərində müsəlmanların vəkilləri qeyri tayfaların vəkillərindən artıq olması cəhətinə Bakı quberinski prisutstviya bu intixabı pozmuş və müsəlmanlara təklif etmiş ki, seçkini qədimi sayaq

üzrə, yəni müsəlman tərəfindən vəkillərin ədədi yarıdan artıq olmayaraq istəsinlər.

Bunların cümləsi qəribə və çox qəribədir!

Bizim rüəsa və pişrevlər onun-bunun qabağına xüsnu və xüşnu edib übudiyyət və sədaqətlərini izhar etmək əvəzinə, gərək bu qəribə işlərin, bu görünməmiş təcavüzatın, bu adı olmayan hüquq və ixtiyaratımızın payimal olmalarının fikrinə qalsınlar.

Lakin kimə deyirsən? Qara daşda ürək var, qan var, bizim rəislərdə ürək, qan yoxdur. Onlar fəqət öz ciblərinin, öz mənafeyi-şəxsiyyələrinin fikrinə qalıb bir-birləri ilə əlləşməyə məşğuldurlar. Rəis olmayanda da meydana atılıb iş gördükdə qabaqlarına səddi-İskəndər kimi düşüb, "Bu kimdir, haralıdır, nə cürət edir?" – deyib cümlə işlərimizi pərişan edirlər.

Xudaya, sən özün bizim imdadımıza çatıb bizi bu övzadan xilas et!

YENƏ YUXUYA GETDİK

Altı-yeddi ay bundan əqdəm camaatımızın arasında müşahidə olunan ayıqlıq nişanəsini, güşiş və həyəcanı görənlər gələcəyimiz üçün böyük-böyük ümidlərdə bulunurdular. Xəyalda rəngbərəng nəqşələr çəkilirdi. Hər kəs qeyrisinə ümid və öyüdlər verirdi. Məktəb, mədrəsə, elm, fənn, tərəqqi, təali, mədəniyyət sözləri tənha qəzet səhifələrində deyil, ağızlarda belə vird və zikr olunmuşdu. Hər yerdə cəmiyyətlər, məclislər tərtib olunub millətin ehtiyacat və dərdlərinə əlac aranmaqda idi.

Lakin bir az keçdi. Ümid üfüqünü təzədən qara buludlar tutdu. Təzədən ata-babamızdan irsi-pədərimiz olan uyquya uyuduq. Bir guşəsi açılmış gözlərimizi təzədən kəsalət və qəflət mürgüsü alıb ağızlarımız yumuldu, başlarımız aşağı düşüb cümlə ruh və qəlbimiz süstləndi.

Necə oldu o açılan məktəblər? Necə oldu o bina olunan mədrəsələr, qiraətxanalar, "cəmiyyəti-xeyriyyələr", "nəşri-maariflər"?

Kəndirbaz kimi bir az meydanda atılıb-düşüb təzədən qayıtdıq qədimki halətimizə.

Əlan Qafqaz dairəsinin hər yerindən gələn xəbərlər hər yerdə bu binaların, bu cəmiyyətlərin, bu məclislərin pərişan bir halətdə dolanmalarından yəsamiz xəbərlər gətirməkdədir.

Buna səbəb nədir?

Səbəb haman o adamlardırlar ki, bu gunə təşəbbüsata qədəm qoyurlar, özlərinin tutduqları işə, girişdikləri əmələ etibarsızlıqları, sidqü səfadan uzaq olan etiqadsızlıqları ilə rəxnə salırlar. Əgər bunlar haman işlərin nə dərəcədə lazım olduğuna, nə dərəcədə vacib olduğuna etibar edib sidqü səfa ilə meydana girsələr, yəqin ki, bir az işkal, çətinlik gördükdə asanlıqla işdən əl çəkməyib səbati-qədəm, istiqaməti-məzac sayəsində gördükləri işləri axıra apardılar. Lakin bunların əksəri bədbəxtanə nə tutduqları işə inanırlar və nə də haman işləri sidqü səfa ilə tuturlar. Bunların çoxlarını iş meydanına atan şöhrətpərəstlik, həmkar ilə rəqabət və digər mülahizati-şəxsiyyədir. Şöhrətpərəstlik, rəqabət və ya mülahizati-şəxsiyyə isə insanın əqli və qəlbi üçün oylə bir qəvi qüvvət və möhkəm mühərrik deyildir ki, insanları ələddəvam fəal, işgörən, xeyirverən etsinlər. Bir işi başlayıb şöhrətpərəst öz iştiharını hüsulə gətirdikdən sonra haman işdən fövrü soyuyur. Rəqabətlə filan işə qarışıb həmkarı pəjmürdə etdikdən sonra rəqib üçün iş görməyə daha bir qeyri-səbəb, bir qeyri-mühərrik qalmayır. Və həmçinin mülahizati-şəxsiyyə.

Bəndə bu ilki səyahətim əsnasında çox yerdə çox şəxslər gördüm ki, çox odlu danışıb "millətin tərəqqisi və təalisi yolunda canımdan və malımdan keçməyə hazıram" – deyirdilər, məktəbi, mədrəsəni, mədəniyyəti, tərəqqini millət üçün bir caddeyi-həyat nəzərə verirdilər və bu yolda hər nə qədər zəhmət olsa çəkməyə özlərini mühəyya deyirdilər. Lakin bir qaç ay keçdi. Bu şəxslər məramlarına çatdılar və əlanlıqda gələn xəbərlər görkəzir ki, bunlar haman dedikləri tərəqqi və təalinin, mədəniyyət və məktəblərin ən şədid və ən əvvəlinci düşmənləri olmuşlar. O vaxt oylə danışmaq, oylə rəftar lazım imiş, şimdi bu gunə danışmaq, bu gunə rəftar.

Aşkardır ki, bu gunə şəxslərdən bizim millətimizə əlac olmaz. Onlar nə qədər dövlətli, nə qədər elmli, nə qədər sahibi-nüfuz olsalar, genə şərdən savayı xeyirləri yetməz. Çünki bunların əqidəsi, yolu, mətləbləri yoxdur. Bunlar hər işdə özlərini, öz mənfəəti-şəxsiyyələrini, öz şöhrət və ismi-rəsmlərini mülahizə edirlər. Bu gün tərəqqipərvər, sabah xuliqan – bu şəxslər ancaq millətimizi oynadıb öz əllərində öz mülahizələri üçün alət edirlər.

Millətimizin gözü bu şəxslər barəsində nə qədər tez açılsa, bunları nə qədər tez tanısa, onların oyunlarına yol verməsə, bir o qədər tez millət özü öz dərd və ehtiyaclarına əlac edər. Və illa bu gunə şəxslərə ümid olub da millətin nicatını onlardan gözləmək əbəsdir.

NƏRİMAN NƏRİMANOV

(1870-1925)

GÖZ YAŞI TÖKDÜRƏN CƏZİRƏ

Kaş mən bu cəzirəyə getməyəydim. Kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş "əfəndim, su!..", "əfəndim, yemək!", "əfəndim, paltar!" sözlərini eşitməyəydim. Kaş çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim!

Min iki yüz insan balası hazır ölüm növbəsində durubdur. Altı min də bu növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir qeyri-sirayətedici mərəzmi bunları cəzirəyə qurban edəcəkdir?

Yox, yox!

Aclıq! Susuzluq və soyuq!

Müsəlmanlar: əfəndim, su!.. – deyib gözlərinizə baxdıqda guya demək istəyirlər: Siz insanmısınız? İnsaniyyətə dair qanunlarınız varmı? Siz millət balasısınızmı? Zavallı millət balalarına cavabınız nədir?

Sizə baxan, sizi mühakiməyə çağıran bu gözlərdə siz bu sözləri oxuyursunuz? Oxuyub da ürəyiniz sıxılır, gözləriniz ixtiyarsız yaşarır.

Mən ağladım... mən... gündə mərəzlər arasında gün keçirən, gündə dürlü-dürlü xəstələrin ah-naləsini eşidən, onların axır dəqiqələrinə öyrənmiş, tab gətirə bilməyib ixtiyarsız ağladım...

Ağlamamaq mümkündürmü? Vaxtında atanın göz işığı və sonra uşaqlar pərəstdarı və daha sonra vətən qəhrəmanı bir insan indi ilanlar məskəni olan susuz bir cəzirədə can verirkən, quru, partlamış dilini çıxarıb deyir: "Əfəndim, su!", "əfəndim, yemək!" İndi mən də qulaqları eşidənlərə, vicdanları oyanmışlara üzümü tutub da o zavallı cəzirə əsirlərinin sözlərini təkrar edirəm: "Əfəndim, su!", "əfəndim, yemək!", "paltar!" Bu göz yaşı tökdürən cəzirə sizi gözləyir, sizə ümid bağlayır. Əmin olunuz, siz də mən gördüyümü görsə idiniz və bir şey əlinizdən gəlməməyini düşünsəydiniz, siz də mənim kimi deyərdiniz: kaş bu cəzirəyə getməyəydim!

"Hümmət" qəzeti, № 21 28 noyabr 1917-ci il

HƏFTƏ FƏRYADI

"Fikrinizdəki doğru dilinizdə olursa, dərinizə saman təpərlər".

Bu sözləri də biz atalar sözü və məsəllərin cərgəsinə qoymaq istəyiriz. Siz deyəcəksiniz: belə "atalar sözü" yoxdur, biz eşitməmişik. Bizim eşitdiyimiz "doğru söyləyəni doqquz kənddən qovarlar"dı ki, osmanlılarda zərbi-məsəldir. Biz deyəcəyiz, nə olur əfəndim, zindəganlığımıza baxıb da vaxtın təqəzasına görə bir məsəl də biz uydursaq, böyükmü xəta olur?

Bu məsəlləri millət zəmanəyə görə təcrübə gücünə edir, gah vaxt məsəllər bir neçə millət üçün ümumi olur. Belə olan surətdə ümumi məsəlləri olan millətlərin bir şeydə bir tövr tərəqqi və ya tənəzzül tapmağına diqqət etməyə, ya bir neçə millətin xasiyyətlərinin, adətlərinin bir-birinə oxşamağına nəzər yetirmək. Məsələn: gürcü milləti ilə türklərin bir mənada olan məsəlləri çox çoxdur. Hətta rus millətinin də bir neçə məsəlləri bizimkilər ilə bir mənada işlənir. Məsələn: "Yağışdan çıxdım, yağmura düşdüm"; rus deyir: "Oddan çıxdım, alova düşdüm" [...] Nə isə, bu məsəllərə artıq diqqət etməlidir. Az söz ilə bütün millətin keçmişdə və ya hal-hazırda fikri ilə və yainki adəti ilə aşina olmaq şübhəsizdir.

İndi biz də zəmanənin təqazasına baxıb da təcrübə gücünə özümüzdən bir məsəl uydururuz. Əlbəttə, təcrübə və ya səbəb olmasa, uydurduğumuz "atalar sözü"nün mənası da olmaz, ümumi məsəl də olmaz. Məsələn, "heç kəs öz ayranına turş deməz" zərbi-məsəli səbəbsiz törənməyibdir. Bu məsəlin törənməsinə nə səbəb olmağını bilmək istəyirsiniz isə, zindəganlığımıza diqqət ediniz; bir bəzzaz taparsınızmı kəndi çürümüş bezinə "çürük"dür desin? Bir baqqal taparsınızmı qurdlu pendirinə "qurdludur" desin? Bir qəssab olarmı iylənmiş ətinə "iylidir" desin? Bir qoca kişi taparsınızmı, cavan övrətlər hüzurunda 60, ya 70 yaşında olduğunu desin? Bir həkim, bir təbib olarmı "Mən naxoşun azarını anlamıram" deyib də qeyri həkimə azarlısını həvalə etsin?

Xeyr, əfəndim! Hər kəsin kəndi malı, kəndi biliyi kəndisinə xoşdur. Belə də gərək olsun, mən deyə bilərmiyəm ki, mənim bezim, pendirim, ətim pisdir? Kim alar? Mən deyə bilərmiyəm ki, mənim altmış, ya yetmiş sinnim var? Mənə hankı gözəl rəğbət edər? Mən deyə bilərmiyəm; filan naxoşun azarı nə olduğunu bilmirəm. Təşxis edəmirəm... Birisini edəmirəm, ikisini, üçünü, sonra? Nə tövr mənə baxarlar?

Bu qədər təcrübədən sonra "heç kəs öz ayranına turş deməz" məsəli ortalığa gəlibdir. Siz elə bilirsiniz "adam adama gərəkdir" atalar sözünün səbəbləri yoxdur? Buyurunuz, əfəndim! İki il bundan müqəddəm Bakı müsəlmanlarına adam lazım deyil idi, hər gecə bir-birini öldürürdülər. "Şeytanın", görünür, müsəlmanlara heyfi gəlibdir: müsəlmanları öz erməni qonşuları ilə yağı etdirdi: erməni-müsəlman davası meydana gəldi, müsəlmanlar dedilər: dəxi yetər! İndi adam "adama gərəkdir". Bir-birimizi puç etməmək, gücümüzü bir yerə cəm edib, düşmənin müqabilində durmalıyız... Bəli, bir neçə vaxt ittihad etdilər, bir-birini öldürmədilər...

İndi erməni-müsəlman davası qurtarır!.. Boş durmaqdan fayda yoxdur... İndi bizə "adam gərək deyil"... ölünüz! Öldürünüz! Sonra belə fürsət elə düşməz, yenə başı qarışar...

Bu əhvalat bir qeyri məsəl də tərədir: "Nə tökərsən aşına, o çıxar qaşığına".

Bəli, filankəs mənim bibim nəvəsini öldürübdür, mən onun qardaşını gərəkdir "mələdəm" deyib də başına "cürlər", köməkçilər toplayır...

Camaatımız isə bağda, kantorlarda, mağazalarda, otaqlarda papiros, ya qəlyan damaqlarında oturub söhbət edirlər. Qatillərin "igidliklərindən" dəm vurub, axırda "nə tökərsən aşına, o çıxar qaşığına" məsəli ilə kəndilərini rahat edirlər... "Nə etmək? Vurma, vurulma!"

Bəli, bu sözlər ilə camaat rahat olur, fəqət keçən həftə bir yetim qızın sözlərini bu camaat düşünsə idi, yəqin ki, bədbəxt müqatilələrə bir "sərəncam çəkərdilər".

Bu balaca yetimçə "atamı istəyirəm" deyib kişilərin gözlərinə baxırdı. Deyəsən, istəyirdi desin: "atamı "sizdən", "siz camaatdan istəyirəm", nahaq yerə canlar puç olur. Camaat isə bu yetimlərə cavab verməyib, başlarını aşağı salır, "ağlayır". Nə olardı bu yetimçələr ələlə verib camaatdan kəndi atalarını istəyə idilər! Bəlkə əsil günah kimdə olmağı dəxi də aşkar ola idi... O vaxt ürəkləri yanıb boş söhbət etməkdən isə "iyidlərin" qoçaqlığından, qoçuluğundan dəm vurmaqdan isə, bəlkə qeyrətə gəlib bu böyük bəladan milləti xilas edələr, bəlkə qeyri millətləri bizim üstümüzə güldürməyələr, "ağlatmayalar".

Yoxsa ümidinizi hökumətə tutubsunuz? Ay bədbəxtlər! Yenədəmi sizə quyu qazanları tanımırsınız? Gözünüzün qabağında olan əhvalatları görmürsünüzmü? Ya qəzetləri oxumursunuz? Ya oxuyub da anlamayırsınız? Yəqin ki, anlamırsınız. Anlamayanda oxumağınızdan nə hasil? "Oxuduğunu söyləmə, anladığını söylə" məsəlini eşidibsinizmi? Bu çox gözəl məsəllərdəndir.

Həqiqət hal, tələbələrimiz də iyirmi il "dizlərini yağır" edirlər. Anladıqları nə olur? "Şikayətmi?" Təharətmi? Rus tələbələrimiz elm təhsil edirlər, axırda ana dilinin lazım olmamağınımı anlayırlar? "Yarımçılıqlar" müəllimləri kəndiləri "yarımçılıq" olmaqlarını anlamırlar? Ya xeyr "mən çox da Marksın inşasını oxumuşam. Engelsi mütaliə etmişəm, lakin anlamışammı? Onların dediklərinə əməl edirəmmi? Yoxsa "müqəllidlik" edib, özümü qeyrisinə oxşadıram...

"Mancuriya Bahadırı" cənab Kuropatkin də yaponun barəsində çox oxumuşdu, hətta neçə ay səyahət edib Tokioya gedib çıxmış idi. Yaponun "gizlin" işlərini pək gözəl bilirdi, "Liliput" saldatlarını görmüş idi. Lakin bir şey anlamışdımı?.. Tokiodan başqa bir qeyri şeyə diqqət etməmişdi. Tokio çox xoşuna gəlmişdi. "Allah qoysa, mən rus-yapon sülhnaməsinə Tokioda qol çəkdirəcəyəm" deyib, bir də Tokio şəhərinə getmək istədi...

Yaponlar isə cənab Kuropatkini anlamayan bilib, Tokioya buraxdılar, "anlayan" bilsəydilər buraxmazdılar... İşin aqibəti göründü.

Vitte Kokovosov cənabları da dövlətin nəqdiyyə məsələsi barəsində pək gözəl oxumuşdular. Lakin anladılarmı? Vitteyə avropalılar "dirsək göstərdilər". Kokovosov isə vətəni bir neçə ilin müddətinə satdı.

Cənab Durnovo da hürriyyətpərəstlərin proqramlarını təfsilatı ilə təlim etmişdi. Onların tələbinə cidd-cəhd edirdi. Lakin onların proqramlarını anlayıb da, köklərini kəsdimi? Yoxsa, işi yarımçılıq qoyub qaçdı?..

Ha!.. Bu tövr təcrübələr "oxuduğunu söyləmə, anladığını söylə" məsəli kimi atalar sözünün törəməyinə səbəb olur. İşdə "fikrinizdəki doğru dilinizdə olursa, dərinizə saman təpərlər" sözlərini məsəl əvəzinə işlətmək olmazmı? Bu sözləri təsdiq edən əhvalatlarmı, ya təcrübələrmi yoxdur? Nərədən başlayaq?

İsa peyğəmbərin təvəllüdünə 424 il qalmış filosof Sokrat fikrindəki sözləri dilinə aldığı üçün zəhərləndi, fikri yolunda qurban oldu, getdi... [...] Bu səbəbə görə vətəndaşımız məşhur və fazil qraf Tolstoyu kilsədən qovdular, tərd etdilər.

Zəmanə filosofu xristianlara nə yamanlıq etmişdi, ya edir?

Lev Nikolayeviç 1861-ci ildən bu günədək xristianları daha düz yola dəvət edir, "Siz əsil xristianlığı puç edirsiniz, İsanın sözlərini anlamırsınız" sözlərini yazır isə də "xristian hamiləri" ona "kafər" deyirlər...

Hörmətli qraf axırda "Mənim məzhəbim nədən ibarətdir" ünvanlı bir gözəl kitab yazıbdır.

Qrafın əqidə cəhəticə hamı əfkarı bu kitabdadır, din və məzhəb barəsində, xüsusən xristianlıq barəsində gözəl mətləblər həll edir. "İslam öz ehkamına tabe olanlara müəyyən bir yol göstərdi, lakin "xristian hamiləri" nə qoydular? İsanın dininə təğyir verib, özlərindən təzə din düzəltdilər..." Görəsən, cənab qraf belə mətləbləri yazıb islamın bir müəyyən yol qoymağını biz islamın əməllərinə baxıb yazır, yainki Quran, məscidi nəzərindən keçiribdir, elə də gərək olsun, yoxsa hal-hazırda bizim əməllərimizdə nə bir islam nişanəsi var ki, onu görüb belə islama qüvvət verən bir mətləb yazsın?

İndi bir yaxşı fikir ediniz: Pobedonosevlərin ağalıq vaxtlarında ilminskilərin, çerevanskilərin islamdan xristianlığa dəvət edən vaxtlar hörmətli qraf bu fikirlərini dilinə alıb "xristian" hamilərindən nə gözləyə bilərdi? Bizim təsəvvürümüzə hələ yaxşı qurtarıbdır... Biz biçarə "üç cüt, bir tək" oxumuşların da canları hələ yaxşı qurtarır. Biz fikrimizdəkini dilimizə alanda üzümüzə lənətlər yağır, canımız belə qurtarır. Nə etmək? "Bu, lənət" Tripovların patronlarından, durnovların qazamatlarından yaman deyil ki, bu "vətən hamiləri" hürriyyəti boğdularsa, siz "islam hamiləri" də fikrimizdəkini dilimizə alanda boğursunuz!

– Yox, cənab "islam hamiləri!" Siz zəmanəyə uyuşdunuz, siz yüz illər ilə islamı qaranlıqda tutmuşdunuz, siz islamda olan azadəliyi bilmərrə basdırmışdınız... İndi bəsirət gözü ilə dörd ətrafınıza baxınız. Özgə bir aləmdir, özgə bir zəmanədir! Nə əcəb, indi zəmanəyə uymursunuz?

Heç olmasa, hal-hazırda Tavriçeski zalda Rusiya dumasının üzvlərindən ibrət götürünüz, qulaq veriniz, nələr söyləyirlər, nerəyə getmək istəyirlər. Bu gözəl nitqləri hələ "Duma"da söyləyirlər, "parlament" olsa nələr söylənərdi! Əcəba!

Təəccüb etməyiniz, əfəndim! Bəli, parlament olsa, qeyri sözlər eşidərdiniz "Parlamentlə" "Duma"nın təfavütü çoxdur, əfəndim! "Parlament" "parl" sözündən firəngcə "söyləməyə" deyilir? Parlament, yəni söylənən yer. Bir yer ki, orada hər nə dərdin, fikrin olsa, açıq söyləyə bilərsən... Fəqət "Duma" sözü rus lisanında "fikir" deməkdir.

Yəni nəyin barəsində və nə tövr fikir etməyə ixtiyarınız var, heç kəs manc olmaz. Lakin "fikrinizdəkini dilinizə alsanız, dərinizə saman təpərlər..." Duma parlament olmağına hələ çox qalıbdır... Çoxmu qalıbdır, azmı qalıbdır, iştə bir məsələ daha!..

HƏFTƏ FƏRYADI

Bu gün istəyirəm qarələrimə bir balaca hekayə söyləyim. Nağıl demirəm, əfəndim, hekayə deyirəm. Nağıl ilə hekayənin təfavütü var. Nağıl o hekayədir ki, ittifaq düşməyibdir. Mənim kimi biri oturub ağzına nə gəlibsə yazıbdır. Lakin hekayədə ittifaq düşmüş şeyin barəsində söylənir. Bu barədə "nəql"dən muradımız Azərbaycanda "nağıl" və osmanlıda "məsal" deyilən xəyali hekayələrdir, yoxsa elmdə və tarixdə qəbul olunan bir mənadan istemal etməyiriz. "Məsal" məsələdən qələt olduğu kimi, nağıl da nəqldən qələtdir. Müharibə mənasına gələn "dəva" yerinə "dava" və övrət yerinə "arvad" yazmaq daha münasib olduğu kimi yuxarıda zikr olunan mənada "nəql" yerinə nağıl: ya məsəl yazmaq, əlbəttə, məsləhətdir.

Keçən günlərdə rus jurnallarının birində bir qəribə hekayə oxuyub da özümə söz verdim ki, qarələrim ilə bu barədə söhbət edim.

Həqiqət hal, hər həftə fəryad etmək də yaxşı deyil. Onsuz da qəzetimizin günlük nömrələrində "Ac camaat, ayılınız!" deyib də çığırışırıq. Axırda görürsən məqalələrin başına baxıb deyəcəklər: "Bu məqalə heç, bunu oxumamalı, bu köhnə əhvalatdır: millət dalda qalıbdır, millət zəlil olubdur, millət filan olubdur, filan da filan olubdur. Böylədə qəzetə yazmaq olarmı?

Həmişə bir şeyin barəsində! Tamamdır! Eşitdik! Çanağınızda qeyri bir şey varsa, onu meydana çıxarınız". Bir para qarələrimiz bu sözləri deyib də məqalələrimizi oxumazlar. Bu təsəvvürdə olan oxuyanlar az deyil. Bunlar üçün gələcəkdə nə olacaq, millət və ya vətən tərəqqi edəcəkdir, ya yox? Bu təsəvvürdə olanlar üçün birdir, təfavüt yoxdur. Bunlar "Ah, keçən günə gün çatmaz, calasan günü-günə" – deyib də istiqbaldan bir şey gözləməyirlər... Bunlara hal-hazırda söyləyiniz... Bunlara lazım olan şeylərdən "nəql" ediniz... Lakin bu barədə fikir edən yoxdur. Bu tövr qarələrin dərdlərinə əlac tapmayırlar, aramayırlar...

Elə bircə axundların ətəklərindən tutub deyiriz: insaf ediniz, mədəniyyətə bərəks olsanız da müridləriniz "qara məxluqun" əxlaq ətvarını düzəldiniz, yüz dəfə təharətdən söyləyəndə bir dəfə də adam öldürmənin nə qədər böyük günah olmasından vəz ediniz...

Ya xeyr, zəngin cavanlarımıza nəsihət ediriz: gecədə yüz manat "fəqir arvadlara" xərc edəndə heç olmasa, ayda on manat da yetim mütəllimlərə veriniz. Yainki milyonçulara deyiriz:

– Azarxana tikdirməyirsiniz, əlsiz-ayaqsızlar üçün darüləcz bina etməyirsiniz, çünki belə şeylər sizin təsəvvürünüzdə xeyir iş, yəni Allah sevən iş deyil. Laməhalə Bibiheybət ziyarətgahının yolunu düzəldiniz... Ya xeyr, incinarları, mühəndisləri məzəmmət edib yazırız:

– Qardaşlar, insaf ediniz. Biçarə ac tələbələrimizə siz kömək etməyəndə, onlar üçün siz iş tapmayanda, onlara kim kömək edəcəkdir?

Siz özünüz də bir vaxtında bunlar çəkdiklərini çəkirdiniz. Unudubsunuzmu? Bunlar da keçər gedər. Bunlar gözümüzün qabağındadır. Görürüz, könlümüz də xarab olur. Söyləyiriz, yazırız. Deməyə haqqımız var. Ya xeyr, "sözümüz" qurtarıb da böylə şeylərdən bəhs ediriz. Nə etmək, əfəndim! Siz də bu işdə sənətkarsınız. Gərək, yazıb kağızınızı doldurasınız... Fəqət bir hərəkətinizi anlamayırız. Bizə, vətənimizə dair olan şeylər barəsində yazırsınız. Bunu da bağışladıq. Burada oturub İrandan, osmanlıdan dəm vurmağınızın mənası nədir? Hələ tutalım, rus vəzirlərinin hərəkətləri sizə məlumdur. Rus qəzetlərində oxuyursunuz, ona görə də yazırsınız...

Osmanlı, İran vəzirlərini görürsünüzmü? Onların barəsində bir əhvalat oxuyubsunuzmu? Tutalım Osmanlı vəzirlərinin barəsində hərdənbir əcnəbi qəzetlərində əhvalat olur. Yainki Misirdən və qeyri yerlərdən gələn qəzetlərdə bir para əhvalat olur. Lakin İran vəzirlərinin barəsində bir əhvalat bilməyib yazmağınıza təəccüb ediriz!

Bu biçarələr "haçan bir iş gördülər ki, əməllərində, fellərində nöqsan görüb də onları bəzəməyə ixtiyarınız ola? Bizim əqidəmizə bunlardan "məzlum", "fəqir", bunlardan ziyada millətini, vətənini sevən vəzirlər heç məmləkətdə tapılmaz. Bir yaxşı fikir ediniz: bu vaxtadək cəmi Avropada bir vəzir tapmazsınız ki, "səyahət"in vətənə və millətə gətirdiyi mənfəəti dürüst anlasın. Özləri hər il səyahətə çıxırlar. Bu heç! Bir millətə fikir veriniz, bir yer taparsınızmı oraya iranlı "səyahət" etməsin!.. Bu milləti öz ixtiyarına qoysaydılar, vətənindən bir ağac o kənara çıxmaz idi. Çıxmayan surətdə nə hürriyyət sözünü eşidərdi və nə də onun ləzzətini anlardı...

"Biçarə" vəzirlər bunu çoxdan anlayıblar. Ona görə milləti vətəndən dağıtmağa həmişə cidd-cəhd ediblər. Bunların belə gözəl "politikasını" Kitay vəzirləri düşünsə idilər, bu vaxtadək millətini dörd divarın içində saxlamazdılar...

Xeyr, İran vəzirlərinin fikirləri, onların "politikası" bir qeyri "dəstgahdır"[1]. Bu "politika"nı anlamaq üçün "astrologiya" – elminücum oxumalı. Kimdir sizin mədəniyyətli Avropada bu elmi bilən, oxuyan? Xeyr, əfəndim, əsil söz budur: yazırsınız, gördüyümüz, eşitdiyimiz şeylərin barəsində yazınız. Burada oturub Bağdaddan dəm vurmağımızın mənasını anlamıram, həmçinin anlamıram: filankəs filan işi görməyir, filan da filana xeyir verməyir. Filan aclara baxmayır. Bu sözlərdən mənə nə mənfəət? Siz gələcək üçün çalışırsınız. Gələcəyin öz sahibi var. Nə məsləhət olsa, özü bilir. Bizim nə işimiz! Və bir də kim bilir, gələcəyə kim qalacaq, kim qalmayacaq? Siz ağzınızı açanda söyləyirsiniz: biz millət, vətən üçün çalışırız. Biz insaniyyətə qulluq ediriz. Buyurunuz əfəndim, biz millətdən deyilikmi? Biz də insanız, ya! Biz də həmin vətənin oğullarından hesab olunmuruqmu? Belə isə haçan bizim də dərdimizə qaldınız, haçan gündəngünə zəiflənən bədənimizə bir əlac tapdınız? Tibb elmini oxuyub da cavanları müalicə etməyi bacardığınız kimi, onu bizim küpəgirən qarı nənələr də bacarırlar. Əlinizlə bizim kimi solmuş, qocalmış, vaxtı keçmiş adamlar düşəndə deyirsiniz: bədən zəifdir, azara tab etməyəcəkdir... Sizin günləriniz sayılıbdır...

Belə sözlər ilə bizə təselli verirsiniz? Yox, yazanlarda insaf olsa, min dəfə cavanlardan yazanda bir dəfə də biz qocalardan yazarlar. Əlinə qələm alan yazır: mən filan hacıdan filan dünya işlərindən ötrü pul istədim, vermədi... Daha deməyir ki, dünyanın filan ləzzətini mən indi görməyirəm, ondan ötrü mən niyə pul verim? Sən bir şey et ki, mən "yenə" də haman ləzzətləri hiss edim, keçən kefləri görüm, onda əlbəttə mən də özümü bu dünyadan hesab edib onun işlərinə qarışaram, nerədə kömək etmək lazım isə edərəm. Yoxsa, "Hacı, filan uşağa kömək etmək lazımdır: "oxuyub gələcəkdə millətə kömək edəcəkdir" sözləri ilə bizi tora salmaq olmaz. Gələcəkdə kömək edəcək! Cəhənnəmə edəcək! Mənə nə mənfəət? Heç kömək etməsin.

Eşidirsiniz, əfəndim! Bu təsəvvürdə olan qarcalarımız də var. Bunlar üçün də bir şey yazmaq lazım gəlir. Qəzet ümumi milli hesab olanda bunlar da millətin hissəsi hesab olunurlar. Gərəkdir bunların da dərdlərinə əlac aramaq. Bunlara da "nicat" yolu tapmaq. İstədikləri nədir? Bunlar keçmişdən dəm vururlar. Keçmişi qaytarmaq istəyirlər... "Keçmişdə gördüyümüz ləzzətləri bizə versəniz, sizin hal-

[1] Dəstgah qələt olan bir kəlmə şivəmizdə "şayan tamaşa"dır, hadisə ya mənzər mənasında istemal olunur.

hazırda mübtəla olduğunuz qəmlərin rəfinə çalışacağız": deyirlər, pul ilə olursa, milyonlar sərf etməyə hazırız: ancaq cavanlığı, cavanlığı qaytarınız... Əcəba!!!

Təəccüb etməyiniz, əfəndim! İstəməyə haqları var. Cavanlıqda pul qazanmağa məşğul olublar: layiqincə kef etməyiblər! İndi pul zibil kimi, fəqət həvəs yox. Qüvvət gedib. Bədən gün-gündən zəifləşir... "Ay keçən günə gün çatmaz, calasan günü-günə!"

Bu barədə mən çox kitablara baxdım, jurnallara diqqət etdim. Hətta Bakı kimi milyonçu şəhəri buraxıb Parisdə oturub cavanlaşmağa çarə arayan Meçnikova müraciət etdim. Axırda arzuma çatdım.

Jurnalların birində "Cavanlaşmağa çarə" ünvanlı bir ləzzətli hekayə tapdım. İndi mən söyləyirəm:

Firəngistan şəhərlərinin birində Markiz Molankinnam, pək zor dövlətli, zəngin, qoca, sərkeş bədəninin günbəgün zəifləşməsini hiss edərkən fikir edirdi: "Ah, nə olardı dövlətimin yarısını alıb da mənə cavanlığımı qaytaraydılar!" Bu fikirdə olarkən bir gün qəzetdə oxuyur: "Məşhur professor Kroun Bekar[1] cavan olmağın əlacını tapıbdır". Bu xəbər Markizə böyük şadlıq gətirdi. Axırda məqsuduma çatdım deyib də haman professorun yanına getməyə hazırlaşdı. Markiz hazırlaşarkən keçən günləri yadına saldı: nə gözəl günlər, nə xoşbəxt saatlar. Yenə ey günlər, ey saatlar siz mənim ilə yoldaş, dəmgüzar olacaqsınız.

Markiz bu fikirləri başında dolandırarkən professorun qapısına çatdı, zəngi vurub otağa daxil oldu. Bir azdan sonra professor gəlib sordu:

– Nə buyurursunuz, əfəndim!

– Mən eşitdim ki, siz, cənab professor cavanlaşmağa əlac tapıbsınız. Doğrumu, əfəndim?

– Kaç sinnindəsiniz?

– Mənim sinnim altmışdan bir az çox olar, əfəndim. Lakin cavanlığımı çox yaman keçirtmişəm. Gecələri gündüz etmişəm...

– Zərər yoxdur, əfəndim! Bu sinnində insanın bədəni hələ dərman qəbul edər. Bu vaxtda bədənin əsil təzələnmək vaxtıdır. Mən sizə kömək edəcəyəm, buyurunuz mənim ilə.

Markiz şadlığından az qaldı ağlasın. Bunlar professorun iş otağına getdilər. Markiz professorda bir müqəddəslik görüb də onun ətəyindən öpmək istəyirdi...

[1] Görünür Markiz sevincindən (Braun Sakarı) qələt oxuyubdur.

Professor bir balaca şişə götürüb dedi:

– Görürsünüzmü, əfəndim! Bu şişədən bir hissə dərya dovşanının qanından götürüb it küçüyünün qanının bir hissəsi ilə qarışdıracağam.

– Əfəndim, hərgah sizin üçün təfavüt yox isə, təvəqqe edirəm dərya dovşanının qanından çox götürəsiniz. Mən xahiş edirəm.

– Zərər yoxdur, əfəndim. İstədiyiniz kimi edərəm. Bu sözlərdən sonra professor qanları qarışdırıb dedi:

– Görürsünüzmü əfəndim, nə gözəl rəngdə mayc bir dərman oldu!

– Bəli, çox gözəl! Adam içmək istəyir!

– İçsəniz, bu dərmanın əsərini görməzsiniz. Bunu indi mən əlimdəki iynə ilə qanınıza gərəkdir vuram. Bir santimetr mükəsb olsa kifayət edər.

– Nə söyləyirsiniz, əfəndim! Bir santimetr! Siz yoxsa istehza ilə buyurursunuz.

– Xeyr, əfəndim, nə qədər artıq olsa yaxşıdır.

– Mən kəndi bədənimi bilirəm, qüvvətim çox azdır. Artırınız, əfəndim, artırınız!

– Böylə olan surətdə bir hissə də artıracağam.

– Xeyr, əfəndim bir hissə azdır, mən bədənimi yaxşı bilirəm. Təvəqqe edirəm yeddi santimetrədək bu dərmandan mənim bədənimə daxil edəsiniz.

– Vay, mən onsuz da dərmanın qədərini artırmışdım. İndi siz yeddi santimetr istəyirsiniz, qorxmayırsınızmı?

– Xeyr, əfəndim, nə qədər çox olsa o qədər yaxşı deyilmi? Bəlkə tez cavanlaşam.

Professor bir söz söyləməyib altı santimetr qədərində haman dərmandan Markizin bədəninə iynə ilə daxil edib dedi:

– Sabah bədəninizdə hərarət hiss olunacaqdır və getdikcə yavaş-yavaş cavanlaşacaqsınız...

Markiz çox razılıq edib getdi. Sabahı yuxudan oyanıb pəncərəni açdı, çünki bir az isti idi. Sonra qüvvətini sınamaq üçün bir stolu (masanı) əli ilə götürdü. Gördü həqiqət gücü artıbdır. Ondan sonra əlinə qələm aldı. Bir ay bundan müqəddəm fikrindəki şeyi qələmə gətirə bilməyirdi. İndi haman fikrini bir neçə saatın ərzində yazıb tamam etdi... Nahar vaxtı araya gəldi. Markiz qeyri xörəklərə baxmayıb qarnını yemişlər ilə doldurdu... Bir neçə gün paltarını düzəldir idi. Cavana layiq paltar alır idi. Çox vaxt aynanın qabağında

durub da özünə, paltarına sığal verir idi. Evdən çıxanda yerişini cavanların yerişinə oxşadır idi... Dükanlardan yemiş alıb yolda gedə-gedə yeyir idi. Markiz qocalıqda bir cavan Liliya adlı qıza məhəbbət bağlamış idi. Ancaq qocalığına görə cürət edib izhari-məhəbbət edə bilməyir idi.

İndi haman yar yadına düşüb. Gedir ki, vüsali-canana nail olsun. Qızın qapısına gəlir. Bunun müqabilinə qızın qulluqçusu çıxır. Qulluqçu "nə istəyirsiniz?" deyə sorur. Markiz özünü nəinki cavan, hətta balaca bir tifil dərəcəsində cavanlaşmış hesab etdiyindən qulluqçuya deyir ki: – Mən Liliya xalamı istəyirəm... Mənə oynamaq üçün oyuncaqlar verəcəkdir. Mənim xalamı çağırınız. Tez-tez! Oynamağımın vaxtı keçir...

Bu sözləri deyib Markiz uşaq kimi burnunu qurdalayır... Qulluqçu bunu görüb də qəh-qəh edir...

– Gediniz, əfəndim! Mənim xanımımın uşaqlar ilə işi yoxdur. Gediniz, inşallah böyük adam olanda gələrsiniz...

Markiz bu sözləri eşidib dedi:

– Yaxşı mən göstərərəm. Gedib anama şikayət edəcəyəm... Markiz bu sözləri deyib küçəyə çıxdı, ətrafına baxıb ucadan ağladı. Balaca bir uşaq kimi yolunu guya itirib bilməyirdi nerəyə getsin. Qorodovoy bunu görüb sordu:

– Nerədə olursan, balaca uşaq?

Markiz cavab verir:

– Baba! Mama! Qağa! Lulu!

– Ah, biçarə, sahibsiz uşaqlar! Nə səbəbə "bunları" küçəyə qoyurlar...

Bu sözləri qorodovoy fikrindən keçirirkən balaca Markizin əlindən tutub polisiyə apardı...

Cavanlaşmağa həvəsləri olan qoca qarelərimiz bu hekayənin nəticəsini bilmək istəyirlərsə, rica edirəm ki, bir az səbir və təhəmmül göstərib gələcək həftəyə qədər gözləsinlər!..

"Ah, biçarə, sahibsiz uşaqlar!" Nə səbəbə "bunları" küçəyə qoyurlar?.." Bu sözləri qorodovoy fikrindən keçirərkən, "balaca" Markizin əlindən tutub polisiyə apardı... Keçən felyetonu bu sözlərlə qurtardım. Cavanlaşmaq həvəsi olan qoca qarelərimizdən təvəqqe etdim ki, hekayənin nəticəsini bilmək istəyənlər bir az səbir etsinlər.

İştə siz də səbir ediniz. İndi cavanlaşmış markizin başına nə gəlməyini bilmək istəyirsiniz... Ah, qoca əfəndim! Nə söyləyim,

özünüz bir yaxşı fikir ediniz... Altmış-yetmiş sinnində qoca kişi bu gün gözünüzün qabağında küçəyə çıxa, "Mən Liliya xalamın yanına oyuncaq almağa gedirəm. Məni sən incitmə, yoxsa gedib anama şikayət edərəm. Mən yolumu itirmişəm, deyib küçənin ortasında ağlaya-ağlaya: "Mama, Papa, Qağa, Lulu!" deyə belə bir qoca kişiyə siz nə tövr baxacaqsınız?

Divanə deyib də ondan qaçacaqsınız, beləmi, əfəndim? Lakin qorodovoy haman "Tifil" qoca qeyrilərinə əziyyət yetirməsin deyə əlindən tutub polisiyə aparacaqdır.

Polisə isə erməni kəndində olan azarxanaya göndərəcəkdir...

– Ah, qoca əfəndim, dərdinizə əlac tapılmayır. Cavan olmaq çox istəyirsiniz, lakin mümkün deyil, əfəndim!

"Gər qara daşı qızıl qan ilə əlvan edəsən
Rəngi təğyir tapıb, ləli bədəxşan olmaz".

Solmuş gülü diriltməkmi olar? Köksüz ağacı becərməkmi olar? Yox, əfəndim, bu məsələlərdə dəhrə ilə müharibəyə çıxmaq olmaz... Sizin üçün keçən günlər vaqiə olacaqdır. Bir də o günləri görməyəcəksiniz... Gördükləriniz kefləri edə bilməyəcəksiniz...

Cavanlaşmağa həvəsiniz çox da artıq olsa, Markizin gününə düşəcəksiniz...

Yox, zəngin qoca əfəndim! Bu "xəyal-plovdan" əlinizi üzünüz. Bir qeyri fikirdə bulunmağınızı rica ediriz. Gedən günlərdən heyif-silənməmək. Cavan olmaqdan muradınız nədir? Tutalım ki, indi cavan oldunuz. Cavan olub da həmişə bu cavanlıqda qalmaq istəyirsiniz! Beləmi? Yəni həmişə baqi qalmaq istəyirsiniz... Bədəniniz ləzzət çəkmək istəyəcəkdir. Fəqət, görürsünüz, bədən ruzigarın sədəmələrinə davam etməyir. Puç olur; haman ləzzət çəkən bədən axırda həşərata nəsib olur. Bir yaxşı fikir ediniz! Nə aləmdir! Dünən qu tükü balışda bəslənən bədən, indi qara torpaqda yatır... Dünən cəmi dünyanı kəndi ixtiyarına almaq istəyən bədən indi üç arşın bezə kifayət edir, dünən əlvan parçalar, qızıl-gümüş, qaş-daş ilə bəzənən bədən indi üç arşın bezə bürünmüş, dünən ən heybətli heyvanları əlində qul edən bədən, indi özü balaca qurdlara yem olmuş! Dünən nəzrü niyaz ilə bəslənən, uğrunda malü mülk, din və iman, millət, insaniyyət fəda edilən bədən, bu gün bir hala gəlmiş ki, əl sürtməkdən çəkinirsən, iyrənirsən!.. Əlin dəysə, gərək bir neçə dəfə sabun ilə yuyub təmizləyəsən!..

Bundan daha fəna, mənasız şey olarmı? Birdəmi başınızdakı yüz min qara yazıları, yüz min fikirləri diriltmək istəyirsiniz? Yenədəmi kəndinizi yüz min dərə-təpələrə, yüz min quyulara, girdablara, açılmaz düyünlərə, ruzigarın yüz min oxlarına mübtəla etmək istəyirsiniz? Yenə də mi gündə min dəfə nəfsinizi satmağa, pərvanə kimi odlara yandırmağa, saatda dəfəat ilə ölüb dirilməyə, tək bir nəfəs üçün min nəfsi puç etməyə, vicdanınıza minlərcə ləkə salmağa çalışırsınız?! Bundan, bundan ötrümü cavanlaşmaq istəyirsiniz? Yoxsa bir "ali" fikirdən ötrü. Yoxsa sizə peşmanlıq üz verir?

Həyatınızın axırda puç olmağını, özünüzdən sonra bir nişangah qalmamağını, adınızın bilmərrə pozulmağını indi düşünüb də səhvinizi düzəltmək istəyirsiniz? Fəqət nə ilə? Nəyin vasitəsilə? Paroxodlara malik olmaqlamı, zavodlar, saraylar, kaşanələr bina etməkləmi? Ya əllərindən miras yeməkdən başqa bir şey gəlməz övladları tərk etməkləmi adınızı baqi qoymaq istəyirsiniz? Bir oğul ki, onun səbəbinə qumarxanalarda, "qəsdinlərdə", meyxanalarda qatillər, mütriblər, "məşhur" arvadlar məclislərində adımız çəkiləcəkdir! Bundan ötrümü "novruzu" geri qaytarmaq istəyirsiniz? Bundan ötrümü həyatınızı təzələməyə ciddi-cəhd edirsiniz? Ah, biçarə zəngin qocalar.

Markizlər! Bu murad ilə "təzədən dünyaya gəlmək" istəyirsiniz isə, istəməyiniz! Bir bədən ləzzətindən, məxsusi nəfsinizdən ötrü isə vay sizin halınıza! Bədənin yoldaşı ruhu bilmərrə unudursunuzmu? Unutmayırsınız isə, ruhunuza yem aramaq istəyirsinizsə, cavanlaşmağa ehtiyacınız yoxdur, əfəndim! Bədəninizin puç olmağına bir gün, bir saat qalmış da ruhunuza ləzzət verə bilərsiniz. Adınızı dillərdə baqi qoyarsınız, yetmiş ilin ərzində etdiyiniz xətaları düzəldərsiniz... Vasitəmi soruşursunuz?

Vasitə çoxdur, əfəndim! Lakin sizə, əqidənizə, sinninizə münasib vasitə söyləməyəcəyiz. Sizə deməyəcəyiz: bir qız məktəbi açınız, millətə tərbiyəli məlumatlı qızlar, analar hazırlayınız, çünki uşaqlarımızın tərbiyəsizliyindən atalarımız, analarımız qanlı yaşlar tökürlər. Onların tərbiyəsizliyindən əcnəbilərə gülünc olmuşuq... Sizə deməyəcəyiz: darülfünunlar açınız. Çünki ümumi vətən, millət işlərində elmsizlik bizi ayaq altına verir. Sevdiyiniz din-məzhəb hamisiz qalır... Sizə deməyəcəyiz: hal-hazırda hürriyyətə çalışınız, hürriyyətpərəstləri dost tutunuz, onlara kömək ediniz, çünki onlardır əsil insaniyyətə yol açanlar, onlardır millətləri, məzhəbləri bir-birilərinə yavuqlaşdıranlar. Onlardır fəqirlərin, kasıbların pərəstarı,

onlardır möhürlü ağızları açanlar, paslanmış ağıllara seyqəl verənlər, ixtiyarsızlara ixtiyar verənlər, qulları azad edənlər, ədaləti meydana gətirib zülmü puç edənlər. Bunlardır yüz illər ilə gizli-gizli bizə quyu qazanları indi aşkar edənlər. Kor gözlərimizi açanlar, kar qulaqlarımızı dələnlər. Dərdlərimizi göstərənlər. Fəryadımızı eşidənlər...

Yox, əfəndim! Bu barədə də söyləməyəcəyiz. Vaxtınız keçibdir... Həmçinin söyləməyəcəyiz: yetim, oxuyan uşaqlara kömək ediniz. Darülfünunlarda həftələr ilə ac qalan tələbələrə rəhm ediniz, çünki gələcəkdə bunlardır qələm müharibəsində qabaqda durub düşmənə cavab verənlər, bunlardır dininizə, dilinizə böhtan deyənlərin gizblərini üzlərinə vuranlar, bunlardır millətə, vətənə dair məsələlərinizi layiqincə həll edib asana çıxaranlar... Yox bunu da sizdən tələb etməyəcəyiz: bu məsələ də cüzidir. İstədiyiniz "şan və şövkəti" bununla qazana bilməyəcəksiniz... Bir ya iki yetim, fəqir uşağı oxutmaq ilə istədiyiniz "adı" qazana bilməyəcəksiniz, fikir edirsiniz: biz filan uşağı oxutduq, qurtardı. Onun alnında yazılmayıbdır ki, bunu filan hacı, filan tacir oxudubdur. Bir dəfə qəzetədə yazmaq ilə bizə kifayət etməyir...

Habeləmi, əfəndim! Bələdirsə, həmişəlik yetimlər üçün bir məktəb açınız, aldığınız prosentlərin cüzi bir hissəsini bu xeyir işə vəqf ediniz, bir uşaq yox, minlərcə uşaqları xoşbəxt ediniz. Minlərcə ata-analarımızı qazamatların, sudların qapılarından çəkindiriniz, saldatların ürəyinə dağ çəkən sözlərindən xilas ediniz... Həm həyatınızda, həm həyatınız puç olandan sonra adınız söylənəcəkdir. Ruhunuz təzə qalıb cavanlaşacaqdır... Siz bina etdiyiniz məktəbdən tərbiyə alıb qurtaran uşaqlardan xeyirli işlərin, yaxşı əməllərin sadir olduğunu atalarımız, analarımız gördükcə sizləri yada salıb rəhmət oxuyacaqlar...

Bəlkə bu xeyir iş də sizin ürəyinizdə yer tapmayır. Ağlınız, əqidəniz ilə sağdış etməyir: fikir edirsiniz: elm dünya üçündür, doğru, məktəbin həmişəliyi məni, adımı baqi qoyacaqdır, lakin orada oxuyan uşaqlar elm təhsil edib kəndi dünya mənfəətləri üçün çalışacaqdır. Dünya elmlərini oxuyub, kim bilir nə əqidədə olacaqdır?.. Mənim axirətimə nə mənfəət?

Böylə isə, buyurunuz, əfəndim! Bir nicat yolu da göstərmək istəyiriz: siz dininizi, məzhəbinizi sevənlərdənsiniz... insan qocalanda dinpərəst olar... Cavanlıqda buraxdığı namazları qəza qılar, yediyi orucları tutar. Dininizə rövnəq vermək istəyirsiniz... Dinə rövnəq

verənləri dost tutursunuz... Belə isə ruhanilər üçün bir məktəb açmağınızı gözləyiriz. Oxuyursunuz, görürsünüz: hal-hazırda ruhanilərimiz zəmanənin təqazasinə hazır deyillər. Xətaları, səhvləri çox, məlumatları az. Qeyrətləri var isə də "əllərində olan yaraq" korşdur, kəsmir... İndi bunlar üçün bir məktəb (Duxovni seminariya) açıb zəmanənin təqazası ilə tərbiyə verməyə, elm kəsb etdirməyə sözünüz nədir? Bunlar dininizə rövnəq verən deyillərmi? Axirətinizə dair məsələləri həll edən bunlar deyillərmi? Xeyrinizdə, şərinizdə, məclislərin başında oturanlar, diri ikən sizə tul ömür istəyənlər, öləndən sonra namazınızı qılıb rəhmət oxuyanlar bunlar deyilmi? Əcəba! Belə şəxslərə kömək etməyəndə, belə şəxsləri elmin gücü ilə ucaltmayarda bunların qəlblərinə, ağılları ilə qüvvət verib dinin rövnəqi üçün bu vaxtadək qəsdən pünhanda saxlanan nöqtələri, düyümləri açmaq üçün pul xərc etməyəndə nerədə xərc edəcəksiniz "ağlınıza" görə "müqəddəs" ola bilməzlər?...

Ah, zəngin qoca oxucularım! Başınızı aşağı salıb da nə fikir edirsiniz? Yoxsa yenə də bir qeyri nicat yolu istəyirsiniz? Nə etmək, mən sizin qulluğunuzda durmuşam? Bildiyim, anladığım məsələləri araya gətirəcəyəm. Sizin əqidənizə müvafiq bir nicat yolu da göstərəcəyəm. Lakin söyləmək ilə, yazmaq ilə ürəyimdə olan şeyi desəm də sizin ürəyinizi yumşalda bilməyəcəyəm. Gərəkdir sizin əlinizdən tutub bir yerdə seyr edək, qaranlıq, nəmli zirzəmiləri, padvalları gəzib orada yarımcanları, can verənləri göstərəm: biçarə, sahibsiz, beş balaca yetim sahibi arvad quru yerdə uzanıb, başının altında əsgi-üsgüdən toplamış balış yerinə düyünçə! Qızdırmanın, baş ağrısının hərarətindən balıq kimi çapalayır; əllərini yerdən-yerə vurub qabıq qoymuş dilini çıxarır. Çatlamış dodaqlarını sorur... Amandır balalarım, bir qaşıq su, su deyib gözlərini yetimlərə süzdürür. Dilli balalar isə "ana, suyumuz yoxdur" deyib boyunları buruq cavab verirlər... Dilsizlər hərə bir küncdə palçığa bulanmış, aclarından nalə edirlər... Yarımcan arvad balalarından utanıb daha su istəməyir. Üzünü əli ilə tutub gözlərindən qanlı yaşlar tökür... Sonra əllərini dayaq verib sümükləri dəridən görünən cəmdəyini yarım qiblə edir... Bunu görüb də deyəcəksiniz: Allahı sevərsiniz, məni xilas ediniz. "Tamaşa" üçün qeyri padvala, zirzəmiyə daha getməyirəm... Nə istəyirsiniz məndən alınız, buraxınız məni... Mənim böylə əhvalatları görməyə ürəyim yoxdur. Bu danışıqda qeyri zirzəmidən yenə də "Çörək! Su!" sədası gəlir...

Ah, qoca, zəngin qardaş, imarətinizdə, xalılar ilə döşənmiş otağınıza, tövrbətövr xörəklər ilə zinət tapmış süfrənizə, xörəkdən sonra iskəncəbi ilə buzlu su içməyə və sonra qəlyan xoruldadıb qu tükü balışlarda rahat olmağa nə tez qaçırsınız? Hələ belə zirzəmilərdə can verənlərin mindən birini görüb ürəyiniz xarab oldu. Hamısını görsəydiniz, Markiz kimi qorodovoya nəsib olardınız...

İndi yenəmi bir söz tapacaqsınız? Yenə də mi qan ilə dolmuş ürəyinizi daş etmək istəyəcəksiniz? Yenə də mi bir səbəb tapıb qeyri nicat yolu arayacaqsınız? Araya-araya nicat yolu tapmayıb o dünyaya köçməyinizdən qorxuram.

Yox, əfəndim, vaxtı fövt etməyəcəyiz. Susuzluqdan dodaqları çatlayanlara, yüngül mərəzə mübtəla olmuş, yersizlikdən, quru çörəksizlikdən, vaxtsız ölüb yetimləri başıaçıq, ayaqyalın küçələrə salanlara bir xəstəxana, bir darülxeyrat təamxanası bina etməkdən baş qaçırdıb da yenədəmi "millət", "insaniyyət" sözlərini ağzınıza alıb çeynəyəcəksiniz?

İştə bu sözlər də sizin əqidəniz ilə düz gəlməsə, eşitdiyiniz əhvalat daş olan ürəyinizi yumşaltmasa, mən də sizin barənizdə daha bir də felyeton yazmayacağam. Buna siz şad olursunuz. Fikir edirsiniz: "Bizim də istədiyimiz budur ki, bizi rahat qoyasınız, bizim barəmizdə heç bir şey yazmayasınız".

Biz sizi rahat qoyduq... Əcəba! Vicdanınız sizi rahat qoyacaqmı?

HƏFTƏ FƏRYADI

Müxbirlərimizdən biri idarəyə kağız yazır. Həmin kağızda cənab müxbir üzünü Borçalı bəylərinə, zənginlərinə tutub deyir: "Ey gözəl Borçalının minlərdən dəm vurub təkəbbürlüklərindən kimsəni tanımayan, özlərini pişrov sayan fitnəkar bəyləri, ağaları və qızıllı-gümüşlü kəndxudaları! Haçana kimi insafdan kənar olub ciblərinizin xatirəsi üçün özünüzü qəflət uyğusuna məğlub edəcəksiniz? Fəqir-füqəra, əlsiz-ayaqsız heyvanabənzər "çoban-çoluqlar"ımızı oğurluğa, yol kəsməyə nahaq qan tökməyə və qeyri pis-pis işlərə iqva edəcəksiniz? Tövrbətövr hiylələr, məkrlər, böhtanlar və fitnələrlə başlarına döyüb, min-min zəhmətlə, cövrü cəfa ilə qazandıqları pulları əllərindən zülm ilə alıb çöllərdə avara-sərgərdan qoyacaqsınız? Polisə qulluqçuları ilə siğə qardaş olub fəqir-füqərənın qan təri ilə qazandığı pulu onların (polisə qulluqçularının) uğrunda xərc edəcək-

siniz? Nə vaxtadək eyş-işrətə məşğul olub məclislərdə quru-quru millət tərəqqisi barəsində "gop" edəcəksiniz. Bilmirsinizmi boş "gop" ilə plov olmaz: yağ, düyü gərəkdir? Haçan ətrafınıza nəzər yetirib həmsayələrinizdən ibrət götürəcəksiniz? Məgər bu axır vaxt əziz, bəlakeş Qafqaz vətənimizdə vaqe olan nahaq qanlı hadisələr, top, tüfəng, bomba səsləri siz borçalıları xabi-qəflətdən oyatmadımı? Dost-düşmənlərinizi tanıdıb sizə yaxşı-yamanı bildirmədimi? Məgər qəzetələr verdikləri məlumatlara nəzər yetirib görmürsünüz, eşitmirsinizmi ki, qeyri şəhərlərdə, ölkələrdə, sizin din qardaşlarınız qeyrətə gəlib tərəqqi yolunda artıq hümmət, həmiyyət göstərirlər?"

Cənab müxbir kağızını bu sayaq yazıb Borçalı bəylərini, ağalarını, kəndxudalarını tərəqqi yoluna dəvət edir, lakin Borçalı zənginlərinə deyilmiş sözləri biz cənab müxbirə demək istəyiriz: "Əfəndim! Fikriniz əla, niyyətiniz daha ziyadə pək gözəl! Fəqət "plov üçün yağ, düyü gərəkdir!". Görməyirsiniz, eşitməyirsiniz ki, qeyri şəhərlərdə, ölkələrdə sizin din qardaşlarınız qeyrətə gəlib tərəqqi yolunda artıq hümmət, həmiyyət göstərirlər..." sözlərilə Borçalı bəylərini, ağalarını qeyrətləndirmək olmayacaqdır. İnsan meymun misal bir heyvandır "gördüyünü götürər". Böyük Pyotr insanın bu psixologiyasını pək gözəl anlamışdı. Bilirdi ki, Avropanın elm və fənndə tərəqqi etməyi barəsində quru sözlər demək, yazmaqla bir şey olmayacaqdır. Gərək idi göstərmək, bu məqsəd ilə Peterburqu özünə paytaxt hesab etdi. Oradan Avropaya "pəncərə" açdı, Rusiya milləti başlarını pəncərədən uzadıb Avropa millətlərinə "baxdılar", onlarda olan "elmi və fənni" yavaş-yavaş əxz etməyə başladılar.

Bəli, bəli, ruslar gördülər avropalılar "özlərilə" bir arşın saqqal gəzdirmirlər, bunlar da saqqallarını ya gödəltdilər, ya dibindən qırxdırdılar. Avropalılar uzun xalat, on arşından şalvar geymirlər, bunlar da şalvarlarını dar, xalatlarını qısa etdilər. Avropalılar bir arşın papaq geyib başlarına ağırlıq vermirlər, bunlar da papaqlarını gödək etdilər, Avropa arvadları kişi məclislərinə daxil olurlar, küçələrdə seyr və tamaşa yerlərində azadə gəzirlər, rus arvadları da bunları təqlid etməyə başladılar. Bundan savayı umurati-dövlətə dair məsələlərə də ruslar artıq diqqət etdilər: çinovniklər üçün dərəcə-dərəcə "çinlər və nişanlar" düzəltdilər. (...)

Görürsünüz, müxbir əfəndim! Ruslar boş, mənasız sözlər ilə meydana çıxmadılar, "gördüklərini götürdülər", özlərini avropalılara oxşatdılar.

İndi siz gözəl niyyətlə meydana gəlib Borçalı bəylərini, ağalarını tərəqqi yoluna qoymaq istəyirsiniz, biçarə fəqir-füqəranı onların fitnələrindən xilas etməyə çalışırsınız. Onlara insaf nə olmağını bildirmək istəyirsiniz, fəqət hansı yol ilə, kimin və nəyin vasitəsi ilə? Borçalı bəyləri, ağaları insandırlar, bunlar gərək görüb-götürsünlər, sizin din qardaşlarınız qeyri şəhərlərdə hümmət, həmiyyət göstərirlər deyib də keçmək olmaz. Onlara müəyyən yol göstərməli, haman "qeyrət, hümmət, həmiyyət" görünən şəhərlərə "pəncərə" açmalı, tainki görüb-götürsünlər. Məsələn, mən Borçalı bəylərinə nəsihət verən olsa idim, deyərdim: cənab bəylər! Gözünüzü açınız, qulaqlarınızdan pambığı çıxarınız, görünüz, eşidiniz. Bakı kimi "kasıb" şəhərdə sizin din qardaşlarınız necə "qeyrət, hümmət, həmiyyət" göstərirlər. Bakı camaatı elmin, fənnin, sənətin mənfəətini anlayıb qət ediblər ki, hamı gərək uşaqlarını oxutsun, bu səbəbdən Bakı gimnaziyalarında və ibtidai məktəblərində "uşaqlara" yer yoxdur. Ona görə müsəlman uşaqları üçün təzə gimnaziya, realni uçiliş və qeyri sənət məktəbləri camaatın öz xərcinə açılacaqdır. Açılan məktəblər bəs etməməyinə görə uşaqları evlərdə müəllim tutub oxudacaqlar. Müəllim isə indi azdır, ona görə Qori seminariyasını Bakıya köçürəcəklər və bir qeyri seminariya, darülmüəllimin açmaq üçün çox pul yığılıbdır... Camaat yetim uşaqları da öz xərcinə oxudur! Cəmiyyəti-xeyriyyəyə zəngin hacılar "böyük köməklik" edirlər, cəmiyyəti-xeyriyyənin kasası "dolub", böyük prosent götürməyinə görə cəmiyyəti-xeyriyyənin pulunu banklar götürmürlər... Şəhərin küçələrində bir ayaqyalın arvad, bir başıaçıq yetim tapılmır... Korlar, şillər, qocalar üçün bir darüləcza tikilir, kasıb fəqir-füqəra üçün azarxana "bu yavuqda" qurtaracaqdır... Bakıda çıxan qəzetələr camaata çatmır. Bir nömrəni on-iyirmi adam bir yerə yığılıb oxuyur, qəzetələr çox olmağa görə camaat adlarını unudurlar. Hamı qəzetələrə "Kaspi" deyirlər. Adə, bir o "Müsəlman Kaspi"sini gətir oxuyum, deyib qəzetələrin üstə ac qurd kimi düşürlər. Bunların qəzetələrə olan həvəsi siyasi işlərində gözlərinin açılmağına səbəb olur. Camaat, xüsusən müsəlman cavanları hürriyyət yolunda canlarını fəda etməyə, qanlarından, başlarından, var-yoxlarından keçməyə hazırlanırlar, kimyagərlik, qiyam və inqilab kimyagərliyi öyrənirlər. Bu sənəti təhsil üçün Amerikaya qədər axın-axın gedirlər. Gedirlər də orada öz icadkərdərləri olan bombalara əvvəl-əvvəl özləri qurban olurlar...

Camaatın gözü hürriyyətin yolundadır. Gündə Dumaya teleqramlar göndərir, "hürriyyət, müsavat, ədalət" istəyiriz deyirlər. Dövləti özünə düşmən bilib Dumaya ümid bağlayıbdır. Ancaq indi "anlayıbdır" ki, iki ilin ərzində nahaq yerə tökülən qanlara səbəb dövlət imiş...

O ki qaldı şəhər işlərinə "tərəqqi" daha ziyadə aşkar olunur: Qosudarstvennı duma şəhər dumasını da qeyrətə gətiribdir... Bağları, səfiyyələri, daçaları özlərinə haram edib gecə-gündüz şəhərin barəsində "məşvərət" edirlər. Çox söz lazım deyil, şəhərin işlərinə bir balaca diqqət etsəniz, Dumanın qeyrətini anlamaq olar: küçələr mərmər kimi tozsuz-torpaqsız, gündə iki-üç dəfə sulanır, suyun "bolluğundan" ağaclar, otlar tozədən göyərir... Suyun "bolluğundan" Mixaylovski "balnisədə", azarxanada naxoşları vanna gərək olmasa da gündə "iki dəfə çimdirirlər", belə işlər pulun gücü ilə olar. Pul sarıdan şəhər kassası xoşbəxtdir. Kassa "dopdolu", qlasniyaların qeyrəti, hümməti "aşıb daşıbdır". Belə olan surətdə şəhər abad olmazmı?

Qaldı şəhərdən kənar promıslalarda, zavodlarda işləyən fəhlələrin halı! Nə isə, axır vaxt xozeyinlər "insafa" gəlib fəhlələrin məvaciblərini artırıblar... Təzə kazarmalar tikilir, hamamlar bina olunur. Fəhlələr üçün qiraətxanalar açılır, uşaqlar üçün yeni kitablar bina olunur...

Xülasə, böyük bir dəstgahdır! Bakı camaatı, "xüsusən müsəlmanlar" birdən-birə ayılıbdır, belə "qeyrət, hümmət, həmiyyət, müsavat, ədalət" bu vaxtadək görünməmişdi, bunları da bu yola qoyan hürriyyət olubdur. Bakı camaatı, "xüsusən müsəlmanlar", "azadəliyi" sevənlərdənmişlər, "azadəlik" veriləli gecələr "iş" görünmür. Hər kim hər kimi öldürmək istəsə, gündüz günortaçağı bazarda və ya qeyri qələbəlik, tünlük yerdə aşkar öldürə bilər... Oğurluq həmçinin gecə olmur, gündüzlər olur...

Buyurunuz, müxbir əfəndim! Borçalı bəylərinin zülmündən dad çəkən yoldaşımız! Bəylərinizə, ağalarınıza, qızıllı-gümüşlü kəndxudalarınıza nəsihət edəndə Bakını heç vaxt unutmayınız. Bakı Qafqazın "gözü" hesab olunur. Buraya böyük ümidlər bağlanır idi və bağlanır... Burada olan "tərəqqini" görüb bilsəydiniz, yəqin ki, Borçalı bəylərinə "üstüörtülü" qeyri şəhərlərdə din qardaşlarımızın "tərəqqi"sindən söyləməzdiniz, aşkara deyərdiniz: "Ay Borçalı bəyləri, baxınız Bakı müsəlmanlarına "ibrət" ediniz".

Ola bilsin ki, Bakı borçalılara uzaqdır, əlləri çatmır. "Tərəqqi"nin əsərini görmürlər, hiss etmirlər...

Belə olan surətdə onlar Tiflis camaatının, xüsusən oradakı müsəlmanların hümmət və həmiyyətlərinə diqqət etməlidirlər. Orada da fəna işlər görünmür. Tiflis müsəlmanları ittifaq edib qət ediblər ki, ermənı-müsəlman hadisəsindən sonra şəhərlərə, kəndlərə başıaçıq, ayaqyalın yetimləri ilə qaçan sahibsiz arvadları vətənlərinə qaytarsınlar. Bunların "qeyrəti" qəbul etmir ki, sahibsiz arvadlar, ya əllərindən var-yox gedən kişilər qeyri şəhərlərdə, kəndlərdə qalıb dilənçilik etsinlər. Bunların "insafı" rəva görmür ki, Tiflis kimi şəhəri atıb qeyri yerləri özlərinə vətən etsinlər...

Bəli, bu barədə böyük məclislər qurulur, gecə və gündüz məsləhət olunur; talan olmuş vətəndən sərgərdan düşmüş vətəndaşlarına nə tövr kömək etmək məsələsi hal-hazırda müzakirə olunur... Ruhanilərimiz bu məsələni ruhanilərə dair məsələlərdən baş bilib öz məclislərini pozurlar, indi buna məşğuldurlar...

Borçalılara "ibrət" üçün bu da az olsa, Gənceni göstərmək olar. Əhli-Gəncə duxovnı seminariya açmaqda böyük bir "qeyrət" göstəriblər. Bir ayın ərzində bir "milyon" pul yığıb "məscid hücrələrin"dən bir "böyük imarət" tikdirirlər... Yerin bolluğuna və pulun çoxluğuna görə haman yerdə "duxovnı akademiya" üçün də imarət tikmək fikrindədirlər...

Xülasə, nerəyə baxırsınız, ürəyinizə "fərəh" gətirən əməllər görünür... Belə, qəlbimizi şadlandıran, bizə ürək verən "qeyrətimizi", "hümmətimizi", "həmiyyətimizi" artıran şey birmi, ikimi, üçmü? Hankı şəhərə baxsanız, müsəlmanlar böyük "tərəqqidə", böyük "səadətdə" bulunurlar.

Lakin Borçalı bəyləri, ağaları kimi qeyri-ölkələrdə xabiqəflətdə qalanlara təəccüb etməlidir! Nə əcəb bunlar qeyri şəhərlərdə din qardaşlarının hümmətini görüb, ya eşidib hümmətə gəlməyiblər?..

Yoxsa görüblər, eşidiblər...

Ruslar Avropanın mədəniyyətini "anlayan" kimi bunlar da "millətpərəst" nə olmağını anlayıblar. "Millətpərəst" olublar... Yağsız, düyüsüz plov bişirmək istəyirlər... "Şəksiz, gördüklərini götürüblər..."

Xeyr, əfəndim! Meymun xasiyyətini insandan almaq olmaz. Bu bir təbii şeydir.

İnsan özünü nahaq yerə çətinə salmaz. Bir şeydə, ya bir işdə məxsusi mənfəətin olmadı, nə lazımdır onun künhünə getmək. İndi hamı özünə "millətpərəst" deyir: ah, nə olar! Borçalı bəyləri özlərinə

"millətpərəst" deyəndə böyükmü şey olar... Hal-hazırda bu, moda hökmündə olubdur.

Cənab Qremıkin də özünə "millətpərəst", "vətənpərəst" deyib kəndliləri acından qırır, təqsirsizləri qazamatlarda aylarla saxlayıb onlara ağla gəlməyən əziyyəti verdirir. "Millətpərəstlik", "vətənpərəstlik heysiyyatı" daha ziyada artırsa, "patriotlar" biçarə cühudların evlərini talan etdirirlər, kişilərini, arvadlarını qırdırıb uşaqlarını yetim qoyurlar; biçarə müsəlman ilə ermənilər bir-birilə vuruşdurub Qafqazın torpağını nahaq qana boğar və ortaya bir Komissarov deyil, yüzlərlə komissarovlar çıxardıb Peterburqun gizli, qara və qaranlıq bir guşəsində deyirlər ki:

"Qətl və qarətlər bizim əlimizdədir, onları qayıran bizik: istərsək on kişilik, istərsək on min kişilik qətl və qarət tərtib ederiz"... Əfəndim, işdə "tarixi" olan bu sözlər və vətənpərəstliyin ən uca mərtəbəsidir! Siz də bu cürmü vətənpərəstlik, millətpərəstlik istəyirsiniz?

HƏFTƏ FƏRYADI

Yaman ad qazanıb "ölənlər" adsız ölənlərdən nəflidirlər!

Mən bilirəm çox adam mənim bu sözlərimə qol qoymayacaqdır. Lakin nə etmək? Hamı bir fikirdə, hamı bir təsəvvürdə olmaz...

Bir neçə adam mənim sözlərimə qol qoymayacaqdır, deyə mən fikrimi gizlədimmi? Gizlətməyəcəyəm, qoy hər kəs nə fikirdə olur-olsun. Lakin mən yenə deyirəm: "Yaman ad qazanıb ölənlər, adsız ölənlərdən nəflidirlər." Buyurunuz əfəndim: mənim kimi "şair" bunların əhvalını nəzmə çəksə, bir "dadsız-duzsuz" hekayə çıxar... Heç bir nəf görünməz, siz deyə bilərsiniz ki, mənim şeirdə əlim yoxdur, ona görə də yazdığım da "dadsız-duzsuz" olur. Nəf görünməyir...

Əvət, əfəndim! "Şeirdə mənim əlim yoxdur" sözlərinin altında mən özüm iki əllərimlə qol qoyaram...

Şeir yazmaq asan deyil. Ya gərək yatanda sənə "vergi verilə, yəni vaqiədə deyələr: sən sabahdan şairsən, başla şeir yazmağa. Sən də şeir yazarsan... yainki xeyr, gərək neçə illərlə dərs oxuyasan, dillərə aşina olasan. Məsələn, istəyirsən ki, rus şairi olasan, gərəkdir rus dilindən başqa qeyri, firəng, nemsə, ingilis, yapon... dillərində oxumalısan... Ya xeyr, türk şairi olmaq istəyirsiniz, gərək fars, ərəb, "türk" dillərinə aşina olasınız. "Türk" dili isə bir neçə hissəyə bölünür:

məsələn, "nuni-sağırlı" türk dili və "nuni-sağırsız" türk dili. "Nuni-sağırsız" türk dili yenə bir neçə yerə bölünür. Məsələn, "türki-Çəmbərəkəndi", "türki-İçərişəhəri". Hələ yenə var!..

Xülasə, bu bir böyük elmdir. Buna azından 7-8 il lazımdır türk "dillərini" oxuyasınız, sonra başlayasınız şeir deməyə, ya yazmağa... Böyük zəhmətdir. Mən cavan vaxtımda bu elmi oxumadım. İndi qoca vaxtımdamı oxuyacağam? Nə lüzumu var? Gərək elə şeir iləmi fikrimizi söyləyək?

Xeyr, əfəndim! Biz "söz düzməyi" öyrənməmişik, öz fikrimizi "dadsız-duzsuz" hekayə ilə söyləyəcəyiz. Ondan savayı, "dostlarının" barəsində yazdığım əhvalatı heç bir şair nəzmə çəkə bilməz, çünki həqiqi əhvalat özü çox "dadsız-duzsuz" əhvalatdır. Məsələn, səhər yerindən durub üzünü yuyur, çay içib işə gedir, saat on ikidə, ya birdə "piti", ya "çölmək", ya "xəmiraşı", ya "düşbərə" yeyib üstündən qəlyan xoruldadır, bir az yatıb rahat olur, sonra yenə də durub çalışır, çapalayır axşam dükanını, ya mağazasını, ya kantorunu bağlayıb evə gedir. Şam yeyib yenə də qəlyan xoruldadır, sonra başını balışa atıb özü də xoruldayır... xoruldayır... səhər yenə də durur... bu gün dünənki kimi, dünən bugünkü kimi... hər gün bir "fikir ilə", bir "qayda-qanunla" güzəranını keçirir...

Bu tövr həftələr keçir, aylar, illər keçir.

Belə bir cənabdan nə zərər! Axırda dostumuzu "təşrif" aparır: Buyurunuz, belə bir vücudun yoldaşa, ya bir qeyri adama, ya millətə və ya vətəninə nə xeyri?

Gəldi, baxdı, dolandı getdi... Belə vücudun "adı da" özü ilə bərabər quylanır; zəngin isə qırx gün "adı" çəkilir; kasıb isə özü "təşrif" aparan gün "adı" da "təşrif" aparır... Bir əsər-əlamət qalmır. Öz yavuq adamlarından başqa bunun ölməyi heç kimə təsir etməyir? Heç kimin ürəyini atəşləndirmir, heç kimin ürəyinə soyuq "kompres" qoymur... Dostumuz, məsələn, çox tamahkar olsaydı, dükanı, ya mağazanı cümə günləri açsaydı, özünə tabe olanlara tövrbətövr əziyyətlər versəydi. Yainki xeyr, kantorda, prikaşikləri səhər saat altıdan axşam saat 9-dək işlətsəydi, məvaciblərini əskiltsəydi, nəinki həftədə bir gün, bəlkə ildə üç gün də bayram etməyə rüsxət verməsəydi. Ya xeyr, "xoşrəftar"ı ilə, "üç mərtəbə söyüşü" ilə məşhur olsaydı – yəqin ki, böylə bir şəxs – "xozeyin" öləndən sonra ona tabe olanlar, ya sağlığında onunla əlaqəsi olanlar öləndən sonra deyərdilər: "Ah, yaxşı oldu ki, öldü, canımız

qurtardı. Bir az "rahat" olarıq"... heç olmasa bir neçə yad adamı təşrif aparmağı ilə sevindirir...

Qırx gün yox ki, bəlkə illərlə adı məclislərdə deyilir...

Çünki buna oxşayan bir adamın barəsində söhbət edəndə həmin dostumuzu yada salıb deyəcəklər: filankəsdə belə sifətlər var idi. Hələ bundan artıq onu tanıyan, bilən başlayacaq həmin filankəsin "yaxşı" işlərindən, "gözəl" hərəkətlərindən məclisdə nəql etməyə...

Böylə adamların isimləri baqi qalmağına şübhə yoxdur...

Buyurunuz Borçalıya, Qazağa, Şamaxı, Quba uyezdlərinə, indiyədək məclislərdə "Halay bəyin", "Kərimin", "Məşədi Məcidin" adları dillərdə zikr olunur. Vaxtında bunların barəsində qəzetlərdə məqalələr yazırdılar, Peterburqdan teleqramlar göndərilir idi.

Nedoqrat, Kruşevin, Qrinqmut cənabların "adları", "yəhudilərin" arasında məşhur olan Alekseyevin, Kuropatkinin "adları" rus kəndlilərinin məclislərində söylənir, söylənəcəkdir. Bu hələ həyatlarında, amma öləndən sonra "isimləri" tarixlərdə yazılacaqdır, milyonlarca adamlar oxuyacaqlar, düşünəcəklər, anlayacaqlar... 19 qərinə bundan müqəddəm olan zalım padşah Neronu hansı tarix oxuyan unudar? Xalqa etdiyi zülmləri hansı oxucu bilmir?

Yəqin ki, bu ali cənablar da bizim dostumuz kimi günlərini qəlyan xoruldada-xoruldada keçirtsəydilər, "ismi-şəriflər"i nə məclislərdə söylənərdi, nə də tarixlərdə yazılardı. Yəqin ki, Tripov "patronlara heyfiniz gəlməsin" sözlərini deməsəydi, həyatında ismi bu "şərafətlə", öləndən sonra daha artacaq "şöhrətlə" söylənməzdi və söylənməyəcək idi.

"Xeyr, əfəndim! "Nə o yanlıq və nə bu yanlıq" ilə dolanacaq etməkdən nə hasil, nə səmərə? Əlinizdən gəlməyir laməhalə, "yamanlıq edib ölmək, yaxşılıq məsləhətdir". Tainki qalanlara bir xeyir olsun...

"Gəldi, baxdı, dolandı, getdi!" Hamı belə bir nəzərdə, belə bir xasiyyətdə olsaydı, məlumatımız çox az olardı.

Nerədən bilərdik ki, "neronlar", "zöhhaklar" kəndi ixtiyarlarını göstərmək üçün insanın qanını su yerinə axıdıblar? Nerədən bilərdi ki, ayda əlli, ya yüz, ya min, ya on min manat alınan məvacibə insan dinini, imanını, vicdanını satar? Nerədən bilərdik ki, "qüvvətsiz qüvvətlinin" yanında həmişə təqsirkar olar? Ya xeyr, "zəngin" yalan da söyləsə, "kasıb" bəli, bəli deyər? Nerədən bilərdik ki, fəhlələrin yaralı əllərilə milyonlar qazananlar haman fəhlələri heyvan

dərəcəsində bilirlər. Nerədən bilərdik ki, doğru söz söyləyənlər, haqq yolunu arayanlar dar ağaclarına nəsib olarlar, qazamatlarda çürüyərlər, topun, tüfəngin güllələrinə nişanə qoyularlar? Nerədən daha bilərdik ki, yerin, göyün bir Allahından başqa bir də qeyri "məbud" da olarmış?..

Ah, zavallı "dostlarımız", yaxşılıq əlinizdən gəlmirdi, yamanlığa nə sözünüz? Siz dünyaya "gəldiniz, baxdınız, dolandınız, getdiniz". Bəlkə qeyriləri bununla bəs, buna kifayət etməyirlər, "məlumat" arayırlar... Tək yaxşılığa, gözəl sifətlərə dair məlumat "məlumat"sız, əsərsiz olar, ləzzəti olmaz...

İnsan həmişə şirin şey yesə, haman şirinin ləzzətini bilməz, lakin bir acı dərmandan sonra şərbət içsə, dodaqlarını da dili ilə yalayacaqdır...

Hər işimiz belədir, əfəndim!

Ərəbistanın istisini hiss etməsəniz, Rusiyanın yelsiz, yanaq qızardan (morozuna) sazağına qiymət qoymazsınız, aclığı görməyən adam, toxluğun ləzzətini bilməz, azarlı olmayan adam saf bədənin qədrini anlamaz, zülm çəkməyən millət hürriyyət nə olmağını düşünməz. Açıq deməli: yaman, fəna işlər olmasaydı, yaxşı işlər də olmazdı, bu, təbiidir.

İnsanda bu qüvvə, yeni bir şeyi, ya bir hərəkəti bir qeyri-şeydən, qeyri hərəkətdən seçmək böyük bir dərəcəyə çatıbdır. Halhazırda bir neçə üləma bu məsələni həll edib əqil, nitqilə insanı heyvandan ayırır. Lakin bu qüvvə, yəni gördüyümüz, eşitdiyimiz, anladığımız şeylərə təfavüt qoymaq və sonra bir-birinə oxşayan şeyləri bir yerə toplayıb qeyri bir yerə toplamış bir cinsdən olan şeylərdən ayırmaq, tərcih vermək qüvvəsi insanı heyvan dərəcəsindən xilas edir.

Həqiqət, belə bir qüvvə insanda artıq dərəcədə olmasaydı, o da heyvan kimi bir halətdə qalardı. Elmdə, fənndə, dolanacaqda, heç bir vaxt tərəqqi edə bilməzdik...

Əlbəttə, bu qüvvə hamıda bir dərəcədə olmur, birində az, birində çox olarkən artmağı işlətməyə, təcrübəyə bağlıdır.

"Biləcəridən" uzaq bir qeyri yerə getməmiş olsanız, qeyri gözəl şəhərlərdən – Lissabondan, Odessadan gələn şəxs sizə çox da dedi: Bakı çox üfunətli, zibilli, tozlu şəhərdir, küçələri dar, mostovoyu yaman, faytonçuları adamın üstünə baxıb minik qəbul edirlər. Şəhər "ağaları" narzan, borjom, şampan içəndə, kasıblar qurdlu, mikroblu

suya da həsrətdirlər... Zənginlər günlərini bağlarda (daçalarda), axşamlar klublarda keçirəndə, kasıblar qorxularından küçəyə də çıxa bilmirlər... Hər dəfə çıxanda da gərək vəsiyyət edəsən. Bir də gördün, bir-birinə "zarafatca" güllə atdılar, gəldi sənin böyrünə dəydi... İndi bağda da oturmaq mümkün deyil. Bir də gördünüz bir "qalmağal" düşdü: kişilər qaçdılar, arvadlar "vay" deyib özlərindən getdilər, uşaqlarını götürüb qaçarkən bir-birinə toqqaşıb yerə dəydilər, vaveyla səsi ölkəni götürdü, ata oğlu, ana qızını, qız anasını tanımır, hərəsi öz canını qurtarmaq istəyir... Qorodovoylar isə qorxularından daha tək-tək gəzmirlər. Beşi, onu bir yerə cəm olub qaranlıq yerlərdə "madonnalar" gözləyirlər, ya onlar ilə söhbət edirlər...

Bəli, belə bir şəhərdən başqa qeyri şəhər görməyənə qeyri şəhərləri yüz tərif et, yenə deyəcək:

"Allah verib bizim Bakıya..."

Bəli, əfəndim! Allah artıqlığınca veribdir, fəqət nə hasil?

Cibə lazım olan qızıl yerdən çıxır, lakin insana lazım olan "qızıl", insanı heyvandan ayıran "qüvvə" nerədədir?

Nə isə, bu qüvvə bizdə alçaq dərəcədədir. Yaxşı ilə yamana hələ təfavüt qoya bilmiriz, "Allah bizə veribdir" deyib arxayın oturmuşuq, nə şəhər, nə camaat, nə dövlət işləri bizi ayıltmır...

Deyə də bilmiriz ki, hamı burada olanlar yaxşı sifətlər göstərib o dünyaya köçürlər, ya xeyr, hamı yaman işlərdən sonra "təşrif" aparırlar, ya xeyr "gəldi, baxdı, dolandı getdi" qanunu ilə dolanacaq edərkən, bu "puç" dünyadan əl götürürlər. Heç birini deyə bilmiriz. Yaxşı da var, yaman da, "dərviş" misallı olanlarımız da az deyil...

Bununla belə, heç birindən ibrət almaq xəyalımız yoxdur. Xüsusən yaman sifətlər ilə "ölənlərə" diqqət etmiriz. Bunlardır bizə tərbiyə verən, bunlardır bizim gözümüzü açan, bunlardır bizi quyulardan, uçurumlardan saxlayan, bizə gələcəyi təlim edən və halhazırda səhvlərdən xilas edən...

Biz isə "neçə il" bir səhvdə olarkən sonradan gözümüz görə-görə, ağlımız "kəsə-kəsə" yenə səhv etdik...

Bağırtımız ölkəni götürübdür, lakin əlimiz nerəyə çatacaqdır? Bundan sonra yaman ad qazanıb "ölənlərə" artıq diqqət olunsa böyük mənfəətlərə sahib olarıq. Adsız ölənlərdən nə mənfəət!

HƏFTƏ FƏRYADI

Ölmək sənə gər verərsə dəhşət,
Müştaqi isən bağa və ömrün.
Cəmiyyətə sən gəl eylə xidmət
Qüdsiyyətin anla belə ömrün.
Baqi bu cahanda tək camaat
Hər fərdi bəla onunla qismət.

Şiller

Nə gözəl sözlər! Nə həkimanə fikirlər! Bəli, istəyirsiniz adınız baqi qalsın, tək özünüz üçün, öz nəfsiniz üçün yaşamayınız, həmcinslərinizi arayınız, arayıb tapınız, sonra toplanınız, cəm olunuz və cəm olub birlikdə ümumi və müştərək bir məqsədə çalışınız. Təklikdə bədəninizlə bu əfkarınız, amalınız, mənəviyyatınız da fani olar, fəqət ümumi işdə çəkdiyiniz zəhmətlərin asari baqi qalar, çünki baqi qalan ancaq "camaat" olacaqdır...

Haman camaatdan ötrü çəkdiyiniz zəhmətlər, əlbəttə, baqi qalıb isminiz həmişə zikr olunacaqdır. Biz istərdik Şillerin bu sözləri qızıl suyu ilə, gözəl xətt ilə yazılıb bir qitə, bir lövhə halında hər müsəlman evində gözə dəyən yerlərə asılsın, tainki uşaqlarınız həmənəqt oxuyub əzbər edə bilsinlər, bəlkə əzbər edə-edə axırda bu sözlər qəlblərində yer edib gələcək balalarımız indiki kəsələti bədbəxt millətin üstündən götürələr. Yüz illər ilə əqlini, ixtiyarını buxovlatmış "camaatı" buxovdan xilas edib insaniyyət, camaat, millət, vətən nə olmağını və hankı yol ilə yeriş edib insan cərgəsinə daxil olmağını bildirələr...

Biz doğrusu, hal-hazırda həyatını "sürükləyən" camaatdan bir şey gözləmiriz... Bunların tərbiyəsilə böyüyüb axırda camaatın üzvü də hətta pişvaz olanlara da böyük ümidlər bağlamırız. Özləri nə edirlər, nə etmişlər ki, "bunların" vasitəsilə tərbiyə alanlar da bir hümmət, bir qeyrət, bir həmiyyət göstərərlər...

Bəlkə ikinci, hətta cürətlə deyə bilərik ki, üçüncü arxa, üçüncü bətn bizim başımızı bir yerə yığıb bizim də "insan" olmağımızı andıralar, bizə də "camaat" olmağa qabiliyyətimizi göstərələr.

Biz ümidimizi ancaq bunlara bağlamışıq. Yoxsa bu nə həyat? Nə dolanacaq? Nə camaat? Nə insaniyyətdir?

Siz güləcəksiniz, deyəcəksiniz, əcəba, bu silsilənin ikinci, ya üçüncü bətnlərindən nə olacaq, ya gələcək balalarımız nə işlər

görəcəklər! Bizə nə? Dərdimiz indi azmıdır ki, bir də yüz il bundan sonra əhvalatlar olmağının dərdini çəkək? Siz təəccüb edəcəksiniz, lakin sizin böylə sözlərinizə biz təəccüb etmiriz. Sizin tərbiyənizi, dolanacağa, təsəvvürünüzü bilib də, siz bizə tutduğunuz irada irad etmiriz...

Biz çox da dedik ki, insan tərəqqi üçündür. Bu gün dünyaya gəlib-gedən sonradan yeni dünyaya gələnə bir yol "gərəkdir" göstərsin, tainki yeni dünyaya gələnlər bunları insan görüb daha ziyadə tərəqqi edələr, tərəqqi yolunu "sirati-müstəqimi" qayadan-daşdan, tikandan, quyudan, uçurumdan təmizləyib insan üçün ümumi bir nöqtəyə, bir kəbeyi-amala yeriş etməyi daha ziyadə asan edələr...

Nədir o bir nöqtə? Hanı cəmi bəşəriyyətin qibleyi-müştərəkəsi ki, bütün insanlar xah müsəlman, xah nəsrani, ya yəhudi, xah bütpərəst o nöqtədə ittihad edə biləcəklər? Hansı bir nöqtədir ki, insan haman nöqtəyə bir az çatıb da rahat nəfəs alacaqdır? Özünü həqiqət dünyanın padşahı görüb, verilən nemətlərin qədrini bilib onu bəxş edənə mədhlər söyləyəcəkdir?

Biz həmin nöqtəyə hürriyyət adı qoysaq, siz yenə gözlərinizi açıb təəccüblə bizə baxacaqsınız, sonra aşkar deməsəniz də, fikrinizdən keçirəcəksiniz... Ah, biçarə nə yaman səhvdədir. "Sizin" fikrinizlə dünya, həyat nə olmağını dürüst anlamamağımıza istehza edəcəksiniz. Lakin biz yenə də "sizin" istehzanıza təəccüb etməyəcəyiz, niyə də edək? İnsan hamı bir təsəvvürdə olsaydı, biri hürriyyət yolunda can verərkən, ol biri haman yarımcan cəmdəyi ayağı ilə çığnamazdı...

Yox əfəndim! Təəccüb etməyəcəyiz.

Rus şairlərindən biri deyir: "Həyat axmaq bir zarafatdır"... Siz də belə bir təsəvvürdə olsanız, kimin sözü var! Siz də hürriyyət barəsində bir qeyri fikirdə olmağınızı söyləsəniz, kim bir şey deyə bilər? Biz hürriyyəti belə anlamışıq, biz deyiriz: sizi yaradanı arayırsınızsa, onun göndərdiyi ehkamı sevirsinizsə, hürriyyətə çalışınız...

Siz deyirsiniz: hürriyyət odur ki, mənim heç kəsdən möhtaclığım olmasın. Vaxtı fövt etməyib yalan, doğru öz dolanacağımı xoş keçirməkdən ötrü pulun olsun. Pul ki, oldu – "hürriyyət" yəni azadəlik əlindədir. Heç kimsədən ki, ehtiyaclığın olmadı "azadə" bir adamsan, nə istəyir sən elə, nə qədər kef çəkirsən çək, "kimi" istəyirsən al, "kimi" istəyirsən sat, "kimi" istəyirsən öldür və ya öldürt, "kimi" istəyirsən "dirilt" daha bundan artıqmı da "azadəlik?". "Pul hürriyyəti" olan vaxt kimdir mənim yolumu tutan? Kluba da gedərəm,

teatrda lojada da oturaram. "Məni" əvvəl oraya qoymayan adamlar ilə "bərabər" oturub çörək yeyərəm, şampanı içərəm, hələ istəyirsən tans da edərəm. Buyurunuz, bu da sizin "bərabər", müsavat istədiyiniz! Məndən ədalətmi gözləyirsiniz, buyurunuz: bundan müqəddəm bir adam əmanət tapşıranda onu alət edirdim, indi etməyirəm. Ancaq prosent alıram. Bundan müqəddəm yüzə otuz prosent alırdım, indi on eləmişəm. Bundan müqəddəm iki-üç arvad alanda köhnələrini zirzəmidə saxlayırdım, təzəni yuxarı mərtəbədə. Birinə zər alanda, o birinə çit alardım, birinə can deyəndə, digərinə çor deyərdim; indi xeyr, hərəsinə ayrı ev tuturam, köhnəyə zər də almasam, çılpaq da qoymuram, çor da deməsəm, aylar ilə üzünü görmürəm...

Buyurunuz, bu da sizə ədalət. İndi görürsünüz ki, hər şey, yəni "hürriyyət" cəm "quyruqları ilə" bir pula bənddir. Pul oldu, "hürriyyət" də olacaqdır. "Müsavat", "ədavət" də onunla belə...

Yox çaşmısınız, düz yoldan kənar düşübsünüz, zülm pulsuzluqdan olar... Bir yaxşı fikir ediniz, yəqin ki, mənim sözümü təsdiq edərsiniz, daha bundan sonra zəhmət çəkib hürriyyətdən dəm vurmazsınız. O ki, qaldı cənab Şillerin sözlərinə, yəni öz adını öləndən sonra baqi qoymaq istəyənlər gərəkdir camaat işinə qarışalar, o da bizim təsəvvürümüzcə düz deyil. İsmin baqi qalmaq üçün övlad lazımdır. Lakin övladın üçün çalışıb onu "bizim hürriyyətə" çatdırmaq, biz "hürriyyəti" pul qazanandan sonra hiss ediriksə, övladımız uşaq vaxtından haman "hürriyyəti" hiss edəcəkdir. Klublarda, restoranlarda, qəstinlərdə "azadə" kef çəkəcəkdir. Madonnalara "yüzlüklərdən yorğan qayıracaqdır", adı hər yerdə çəkilib deyəcəklər: "Bu filankəsin oğludur!" Bu da siz buyurduğunuz "tərəqqi yolunu asan etmək!" Bu da ismimin baqi qalmağı! Daha nə istəyirsiniz?! Məqsədimiz bir ikən yolumuz ayrıdır. Siz bir yol ilə gedib istəyirsiniz hamı hürriyyətə çatsın, mən bir ayrı yol ilə gedib öz nəfsimi "hürriyyət"ə çıxarmaq istəyirəm. Hamı mənim kimi hərəkət etsə, axırda görərsiniz ki, hamı "hürriyyətə" çatıbdır...

Bəli, cənab qare! Belə bir "hakimanə" sözlərinizə də yenə də təəccüb etməyiriz. Nə vermişik ki, nə də tələb edək? Nə vaxt biz sizə hürriyyət nə olmağını söylədik? Nə vaxt? Nə vaxt yaxşını yamandan ayırıb sizə tərbiyə verdik? Nə vaxt yaralarınızı açıb da əlacını göstərdik?

Bizə belə sualları verməkdə haqqımız var. Lakin əsil səbəb kim oldu? Kim idi bizim ağzımızı yüz illər ilə bağlayan? Kim idi bizi ana

dilinə həsrət qoyan? Kim idi milli hissiyyatımızı mürur ilə puç edən? (...) Kim idi tarixi-müqəddəsi xarici dildə oxutduran? Kim idi səni özünə qul edib cəmi ixtiyarını çığnayan? Bizmi, ya bizdən bir qeyrisi?

Bu bir ilin ərzində top-tüfəng, bomba səsi, talan olmuş kəndlər, ayaqyalın, başıaçıq vəhşi kimi öz yollarından qaçanlar, küçələrə tökülən yetimlər sizi ayıltmadımı? Dostunuzla düşməninizi tanımadınızmı? Ya tanıyıb da anlamadınız. Bütün bəlanın içində olarkən dininiz, diliniz əldən gedərkən, camaatınız qaranlıqda boğularkən, ancaq öz nəfsinizi bəsləməyə məşğul idiniz...

Biz öz günahımızı gizlətməyəcəyiz. Bizə cürətsiz, xəyanətçi deməyə ixtiyarınız var. Biz indi əlimizə qələm götürüb sizi toppuzlayan bu işlərin hamısını bilib də, anlayıb da əlimiz qələm tutarkən, başımız işləyərkən, vaxtında yaralarımızı cürət edib açmamışıq. Kərpici kərpic üstə qoymamışıq. Canımızı haqq yolunda fəda etməmişik. Bunlar hamısı haqq! Hər nə desəniz haqqınız var...

Lakin bu bir ilin ərzində özgələr vasitəsilə bir növ ixtiyar alıb meydana çıxmışıq, cürət edib doğru, haqq yola dəvət etmişik. Keçən səhvlərimizi yavaş-yavaş düzəltməyə cidd-cəhd ediriz. Siz camaat bunun müqabilində nə etdiniz?

Heç bir şey etməyirdiniz, laməhalə yüz illər ilə həsrətində olduğumuz "cəmiyyəti-xeyriyyə"yə kömək edə idiniz. Kor-şil, yetim, sahibsiz oxuyan uşaqlarımız əlləri qoltuqlarında qalıb "cəmiyyəti-xeyriyyət"dən kömək gözləyirlər... "Cəmiyyəti-xeyriyyə" isə bacardığı yerədək kömək edib, indi qalıbdır pulsuz. Bir belə "cəmiyyətə" kömək edib onun halından xəbərdar olmayanda daha danışmağa da hünərimiz olacaqmı?

Yox, əfəndim! "Camaat" nə olmağını hələ anlamamışıq. Anlamağımıza da çox qalıbdır. Biz ikinci, üçüncü bətn silsiləsini gözləyiriz, sizin balalarınızdan olan balalar bizim sözlərimizi anlayıb dərdimizi, camaat nə olmağını anlayacaqlar.

Anlayıb da dərdimizə çarə tapacaqlar: onu da yəqin ediniz: sizin nəvələriniz sizin üstünüzə, sizin hürriyyətə olan təsəvvürünüzə güləcəklər.

Sizə istehza edəcəklər, sizə indi Dumanın qovulmağı əsər etməyirsə, sizin də həyatınızın fani olmağı əsla onlara əsər etməyəcəkdir. Çünki siz təklikdə çalışıb çapaladınız, camaat işinə qarışmadınız, qarışsaydınız, qalardınız baqi...

HƏFTƏ FƏRYADI

Bu gün məşhur rus şairlərindən Krılovun "Abirin və gilab" ünvanında olan hekayəsi xatirimə gəlibdir. Çox pürməna bir hekayədir! Qulaq veriniz:

"Bir gün iki yoldaş yol ilə keçirdilər və öz işləri haqqında söhbət edirlər. Birdən darvazanın altından bir böyük it "öö", "öö" edib bunlara hürdü. Bunun səsinə bir neçə it hürməyə başladı. Bir az keçmişdi əlliyə qədər it cəm oldu. Yoldaşların biri istədi bir daş götürüb bunlara atsın. O biri yoldaşı buna mane olub dedi: "Qardaşım, dur, dur, sən səhvdəsən, bir daşla sən itlərin səsini kəsməyəcəksən, bəlkə daha ziyadə hirslənib hürməyinə bais olacaqsan. Yaxşısı budur ki, öz yolumuz ilə gedək. Mən bunların xasiyyətinə yaxşı bələdəm". Həqiqət, bunlar on addım qədər irəli keçəndən sonra itlər yavaş-yavaş səslərini kəsdi. Bir azdan sonra səsləri heç çıxmadı".

Bu hekayədən sonra cənab Krılov qissədən hissə nə olduğunu söyləyir: ürəkləri büğz və fəsadla dolu olan həsud adamlar hər nəyi görsələr mütləq ona irad tutub hürmək istərlər. Sən isə öz yolunla get, bunları "öö... öö"-sünə qulaq vermə. Hürərlər, hürərlər, axırda səslərini kəsərlər.

Tarixi-ədəbiyyatdan belə məlum olur ki, bu hekayədə Krılov kəndi halını yazıbdır. Bunun gözəl və mənzum hekayələrinə nə vaxtında həsəd aparan çox imiş. "Krılov yazmaq bacarmayır, ya pis yazır, ya yazdığı hekayələrdən insana mənfəət yoxdur" – deyib həsud münəqqidlər hürərlərmiş, havlarmışlar, halbuki Krılovun yüz iyirmi il bundan müqəddəm nəzm ilə yazdığı hekayələr, misallar, indi də məktəblərdə oxunur, əzbərlənir, hər kəsi müstəfid edir. Rusca bir oxuyan tapmazsınız ki, İvan Andreyeviç Krılovu tanımasın.

"Krılov baba" hamı mütəmmədin millətlərdə məşhurdur.

Buna "baba" qocalığına görə demirlər, bəlkə dünyagörmüş bir nəsihətçi olduğuna görə deyirlər.

Bəli, Krılov baba zikr olunan hekayədə öz halını qələmə gətirsə də, bizə də bir böyük dərsi-ibrət vermiş olur. "İt hürər karvan keçər, yel qayadan nə aparar" türk məsəli kimi bizə deyir: ağılları paslanmış, gözləri korlaşmış, ürəkləri büğz və həsədlə dolmuş, qabiliyyətsiz, korafəhm adamların "öö... öö"-sünə, qeylü-qalına heç bir vaxt qulaq vermə mək, onların taqsırlarından keçmək. Hürürlər qoy hürsünlər, sən başını aşağı salıb öz işinin dalınca get. Hövləyə-höv-

ləyə axırda yorularlar, səslərini kəsərlər, vicdanları varsa bir az qızararlar, dillərini açmağa daha utanarlar... Vicdanları varsa! Vicdanları yoxsa, qızarmasalar da axırda yorulub pis hərəkətlərindən əl çəkərlər.

Hər halda, bu adamları ağılları paslanmış, gözləri ümməyə düçar olmuş, əllərindən "öö... öö"-dən başqa bir şey gəlməyən acizlərdən hesab ediriz. Çünki bu biçarələr bir şeyə irad tutanda xəbər alsanız nə tövr etmək yaxşıdır, nə tövr yazmaq, ya nə tövr dolanmaq, ya nə tövr söyləmək, bunlar həmişə cavab verirlər: "Biz belə istəyiriz, kefimiz belə istəyir".

Nə səbəbə? Dəliliniz nədir? – suallarına bunlardan cavab gözləməyiniz. Gözləməyən surətdə, bunlar ilə nə söhbət etmək? Qoyunuz yorulanadək hürsünlər!.. Hürsünlər. Amma bu hürənlər də özlərini camaat üzvü hesab edirlər. Binaəleyh bunların yaman sifətlərini aşkara çıxarmaq lazımdır. Kərrəatilə yazmaq, fəna hərəkətlərini, ağılsız, fikirsiz sözlərini üzlərinə çırpmaq vacibdir. Camaata gərək bildirmək ki, sənin aranda belə bir "ağıllıları gözlərində", tərbiyədən məhrum üzvlər var: ona andırmaq ki, belə adamlar ilə nə tövr rəftar etmək.

Bunların hərəkətlərini ört-basdırmaqmı, yainki açıq-aşkar elanmı etmək, tainki camaat bilib özlərini və uşaqlarını bu bədbəxtlərin yaman sifətlərindən xilas etsinlər. "Hürənlərin" bir qismi var ki, onları diqqətsiz qoymaq olmaz!.. Yəqin ediniz ki, bu qism "Hürənləri" diqqətsiz qoysa idik, indi Rusiyada qringmutlar, pixnolar, kruşivanlar və əmsalı çoxdan vətəni "altı-üst" edib öz məqsudlarına çatmışdılar. Çoxdan hürriyyət baydağını darmadağın dağıdıb biçarə kəndlini yenə də yüz illərlə ayaqyalın, başıaçıq, yarı buğda, yarı arpa qara çörəyə möhtac qoymuşdular. Bunların kizblərini, iftiralarını, böhtanlarını hər saatda, hər dəqiqədə üzlərinə vurmasaydılar, biçarə yəhudi milləti indi rus torpağından yox olmuşdu. Biçarə müsəlmanlar, ermənilər indiyədək bir-birinin qanını içə-içə Qafqaz səhrayi-Kəbirə çevirmişdilər. Hər iki millətin yurdlarında bayquşlar uluyacaq idi!.. Kazanlılar, başqırdlar və qeyri müsəlmanlar çoxdan missionerlərə yem olmuşdular...

Əşxasi-müzirrin böyük bəla olmaqlarını camaata vaxtında məlum etsə idilər, yəqin ki, yapon-rus davasında milyonlarca canlar tələf olmaz idi!..

Bəli, bunlar "hürürdülər, uluyurdular", camaatı uçuruma dəvət edirdilər... Lakin çirkin məqsədlərinə çatmadılar, vətənini, millətini,

camaatını sevənlər ittifaq və ittihad edib bunların müqabilinə çıxdılar, uçurumu aşkar göstərib, qeyri bir yol göstərdilər. Nicat yolunu: hürriyyət, müsavat, ədalət nə olmağını və nə tövr hərəkət edib qaranlıqdan işığa çıxmağın təlim-tərbiyəsini vaxtında verdilər... Verib də bütün vətəni yüz milyon nüfusu tövrbətövr bəlalardan xilas etdilər, yüz illərlə paslanmış ağır zəncirləri dağıtdılar...

Xeyr, əfəndim, bir zamanlar qudurmuşların "öö... öö"-sü böyük bir bəla olmuş idi. Hürənlərin sözlərinə, fikirlərinə, hərəkətlərinə diqqət etməmək olmazdı. Olmazdı deyiriz, ondan ötrü ki, bu qudurmuş qurdların sözlərinə qulaq asan var idi. Onlara aldanan, onların "öö... öö"-sünü, ulamasını zümzümə və nəğmə hesab edənlər var idi, qaranı ağ, ağı qara yerinə işlədən az deyil idi və deyildir də!..

Bəli, hürmək də var, hürmək də. Açıq söyləməli: hürənlərin "öö... öö"-sündən, hərəkətindən ümumi camaat işinə bir zərrə gəlirsə, onların ağızlarını bir növ ilə, ya heç olmazsa, Germaniyada cari olan bir üsul ilə yummaq, bağlamaq lazımdır. Hər halda bunlara qulaq asılmalıdır! Adamın dalınca, ya xeyr özünə çox şey deyərlər, xüsusən indi ki azadəlik verilibdir, nə istəyirsən söylə, kimə irad tutursan tut, kim-kimədir!

Məsələn, bundan müqəddəm bağda iki arvad bir yerdə oturanda söhbətləri bu idi: bu arvadın libası çox uzundur, o qızın paltarının rəngi şlyapasına yaraşmır, filan xanım gəzəndə boynunu əyir... Nə bilim daha nə tövr iradlar. Lakin bu sözləri bir-birinə "pıçı-pıçı" edib yavaşcadan söyləyirdilər. İndi xeyr, azadəlik verilməyə görə, görürsünüz öz iradlarını, diqqətlərini açıq-aşkar söyləyirlər.

"Azadəlik" verilməyə görə heç kəs də incimir, dilgir olmur, eşidən "azadəliyin" səbəbinə irad edənləri bağışlayır... Lakin insaf ilə işə baxsaq, doğru "azadəliyin" səbəbinə indi iradı, diqqəti ucadan söyləyirlər. Amma iradedicilərin ədədi nə isə azalıbdır. Əvvəllər arvadlar, qızlar demək olur ki, çox yarısı belə işlərlə məşğul idilər, indi isə belələri çox azdır. Həqiqət sözümdür. İnanmırsınızsa, buyurunuz bağa, qızlar, arvadlar oturan yerdə oturunuz, qulaq asınız, görərsiniz belə cəfəngiyat ilə məşğul olan az olacaqdır. Bu da azadəliyin səbəbinə; indi xanımlardan, qızlardan "bu gün filan teleqramı oxudunuzmu? Filan yerdə böyük iğtişaş var, eşitdinizmi? Filan vəzir istefa verir, hürriyyətin filan mücahidi-məşhuru həbs olunubdur". Belə söhbətlər eşidərsiniz, nə isə, indi söhbətlərin zəmini dəyişibdir. Ağıllar, zehinlər qeyri yerdə, qeyri məsələlərdə işləyir, irad söhbət

eşidəndə də bir məqalənin, ya bir nişanın pis, yaxşı yazılmağı barəsində eşidirsiniz, ya xeyr filan firqənin əqidəsi yaxşıdır, ya pisdir, filan firqə səhv edir, ya düz yol ilə gedir.

Həqiqət, dürüst diqqət etsəniz, görərsiniz ki, zəmanə təğyir tapıbdır. Adamlar təhəvvül edibdir, bəli, adamlar bir növ təhəvvül edibdir ki, indi bir "parə kişilərimiz də" irad tutmağa ayaq qoyublar, Allaha şükür: "azadəlik" bizə də sirayət etdi. Bundan əzəl "bir para cavanlarımız" arvadlara irad tuturdular, onların hərəkətlərinə, paltarlarına baxıb diqqətlərini söyləyirdilər. İndi "azadəlik" verilməyinə görə kişilərə də irad tuturlar.

Məsələn, bu günlərdə "bir para cavanlar" bağda bir böyük ittihad və ittifaq edib gələnin-gedənin üst-başına, ağzına, burnuna, bığına, saqqalına baxırmışlar... Axırda ittifaqlarını göstərmək üçün oxumuş müsəlmanlardan birinə götürüb bu məzmunda bir kağız yazırlar: "Filan, təvəqqe ediriz, saqqalınızı erməni saqqalına oxşatmayasınız". Ha, ha, ha!!!

Gülürsünüz! Əfəndim, gülməyiniz əfəndim! Doğru sözümdür, yoxsa inanmayırsınız, kağızı alan mənim üstümə gəlmişdi, şikayət edirdi. Deyir, görürsünüzmü, bizim "bir para cavanlar" nə ilə məşğul olurlar. Bundan sonra gəl "bunlar" üçün işlə, qanını xarab et... Hətta, yazanların adları da məlumdur. Camaat "ağıllı", "kamallı" vaxtın təqazasına görə söhbət edən belələrini bilmək istəsə, qəzetəsiz elan etmək olar, çünki layiq görməyiriz "belə cavanlar kampaniyasının firmasına ləkə vurulsun". Ondan savayı, bu "firma" onsuz da məşhur imiş. Mən ancaq bilməyirmişəm. İndi mən də bildim. Bu "firmanın" üzvlərindən russki-tatarski şkolalarında oxuyublar, rusca oxuyublar. Ola bilməz ki, Krılov babanın hekayələrini oxumamış olsunlar.

Ey bədbəxt millət! Dərdimiz, qəmimiz azalmaqdansa, güngündən çoxalır; fəryadımız kəsilməkdənsə, gün-gündən ucalır; gözümüz açılmaqdansa, gün-gündən örtülür. Ağlımız seyqəl tapmaqdansa, gün-gündən paslanır...

Belə iradları bundan müqəddəm mollalardan, qocalardan eşidirdik, indi "cavanlardan" eşidirik. Afərin, gələcək millət balalarının atalarına! Afərin, etdiyiniz "ittifaqa".

Siz filan oxumuşa saqqal barəsində nəsihət veribsiniz, lakin mən də sizə nəsihət verməsəm də ürəyimdə olanı deyəcəyəm: zavallı cavanlar! Bir adamın saqqalı barəsində ittifaq etməkdənsə, Şişə

kəndlərində acından, susuzluqdan, dərmansız, köməksiz, yurdları viran, uşaqları yetim qalmış din qardaşlarınızın barəsində ittifaq edib hərəniz bircə manat göndərə idiniz... Onda bilərdik ki, dini-islamı saqqal ilə tanımayıbsınız... Bu yolda iradınız diqqətə alınardı, bu yolda sözləriniz eşidilərdi... Fəqət bu hərəkətinizdə Krılov baba sizə cavab verər.

HƏRDƏNBİR

Öz ruznaməmdən

Bu mühərrirlər qəribə adamlardır! Bunların qəribə söhbətləri olur! Allah göstərməsin ki, iki bir-birinə zidd əqidəli mühərririn bəhsini! Bunlar bir yerə düşüb söhbət edərlərsə, gərək qulaqlarını tutasan. İkisi də bir əqidədə, bir təsəvvürdə həməfkar olurlarsa, söhbətləri çox xamuşluq ilə keçir. Bağırmaq, çığırmaq olmur, hirslənirlər, bir-birinə öz hissiyyatlarını söyləyirlər, gülüşürlər. "Kimin məqaləsi kimə nə tövr əsər etdi? Kim nə tövr anladı?" Söhbətləri böylə etidal ilə olduğundan günləri bir az asudə keçir. Bəzən bunlar səfayi-xatirə ilə bir kitab, ya bir məqalə oxuyub hərə öz təsəvvürünü söyləyir...

Lakin əsil tamaşa, iki bir-birinə müxalif rəyli mühərrir söhbət edəndədir! Çığırmaqlarından əlavə, bir də eşidirsiniz stullar qırılır, qəzetələr cırılır. Çay içirlərsə stəkanlar sınır, qədəhlər qırılır. Xülasə, daha nə deyim! Nələr, nələr olmur? Həmin məclisdə olsanız yenə yaxşıdır, heç olmasa, bir söz də siz deyərsiniz, on kərə onlar bağıranda, bir kərə də siz bağırarsınız...

Yoxsa, ayrı bir otaqda oturub çığır-bağırtını eşidəsən, bəhs edənlərin üzlərini görməyəsən, adlarını bilməyəsən, gözlərini o yan-bu yana gəzdirib ancaq qulaqlarını şiş edəsən, söyləməyə də haqqın, ixtiyarın olmaya! Ondan savayı bir oxuyub-yazmaq da imkan xaricində ola!.. Xülasə, yaman halətdir!

Böylə bir halətdə mən çox vaxt bulunuram. Mən olduğum otağın qonşuluğunda bir mühərrir olur, bunun yanına öz yoldaşlarından biri gələndə söylədiyim vəchlə təhəmmülfərsə bir qalü-məqaldır, başlayır... Bu günlərdə axşam oturub qəzetəyə göz gəzdirirdim. Nəzərimə biçarə Spiridonovanın kağızı düşdü, kərrat ilə oxuyurdum. Gözlərimdən bilaixtiyar yaşlar axırdı... Öz-özümə fikir edirdim: ey

biçarə məzlumə, bu zəif, qüvvətsiz bədən ilə nə oldu ki, axırda bu qədər ağır zəncir ayaqlarına, əllərinə vururdun? Sənin "tayların" gəlinliyə hazırlanıb saraylarda güzəran keçirtmək istəyirlər, pərqu balışlarda, yumşaq döşəklərdə nazpərvərdə olaraq, gündə rəngbərəng xörəklər yeyib üstündən lətif-lətif şərbətlər içmək fikrindədirlər. Bunların ən böyük arzuları budur ki, şirin bir yuxuya doyandan sonra kənizin biri ayaqlarını geyindirsin, biri paltarını tutsun, biri də tualetinə kömək etsin, başını darasın, saçlarını hörsün. Sənin tay-tuşların özlərini bu günlərə bəsləyirlər.

Sən yazıqsan, məzluməsən. Zəifə, nə günlər çəkirsən! Qaranlıq, quru, nəmli yerlərdə uzanıb iyimiş bozbaş verəndə yeyirsən, vermə-yəndə qalırsan ac, ənva mikroblarla dolu, ilıq, bulanıq bir su da sənin şərbətin olmuşdur. Nə oldu? Nə səbəbə bu günləri özünə qəbul etdin? Sən bir zəifə qız ola-ola nerədən bu rəşidlik, bu mərdlik səndə bulundu. Bu günlərdən qorxmadın? İştə qüvvətli oğlanlarda, ürəkli kişilərdə bu qədər cürət tapılmaz ikən nə əcəb sən bu işi dəröhdə etdin? Bu fikirləri mən zehnimdən keçirirkən qonşum bulunan mühərririn qapısı açılıb "Mən əqidəmi hər halda pula satmayacağam" sözləri ilə otağına yoldaşı bulunan digər biri daxil oldu. Səsindən həmişə dava ilə, gurultu ilə mübahisə edən bir advokata oxşatdım, oxşadıb da söhbətin aqibətini gözlədim.

Qonşu mühərrir: – Yenə üz veribdir? Çox ağzı atəşli gəlibsən.

Qonaq advokat: – Canım, mən advokatlığı tərk edəcəyəm. Üç kişi gəlib yanıma ki, bizim oğlanı hər tövr olsa Sibirə getməkdən xilas edəsən!.. Beş min manat pul veririz! Dedim, oğlanın qatil olduğu mənə yəqindir. Mən necə gedim məhkəmədə onu yalandan müdafiə edim? Mən nə beş min manatı istərəm və nə də bir yalanı müdafiə edərəm!

Qonşu mühərrir: – A canım, sənə nə?! O oğlan qatildir, ya deyildir, sən pulunu al, cibinə qoy. Altı-yeddi baş külfət sahibisən, borca batmısan, bu beş min manatı almasan, hamı uşaqların acından qırılacaq?

Qonaq advokat: – Qoy acından qırılsın!

Qonşu mühərrir:– Keçənlərdə məhkəmədə danışdığın sözlər elə şeylər idi ki, sənin özünü də tutub axırda nəf və həbs edərlər. Övlad və əyalına yazığın gəlirmi?

Bu sözlərin üstündə advokatın lap acığı tutub çığırmağa, bağırmağa başladı, dedi ki, sizin cürətsizliyinizin səbəbi mənə aşkardır. Siz duma bağlandı deyə, eylə bilirsiniz ki, hürriyyət, məşrutiyyət

məğlub olacaqdır. Bu zəndə bulunduğunuz üçün qalib kimi görünən tərəfə tamah etməyə başlayırsınız. Xeyr, xeyr bunlar boş xəyaldır.

Mən əqidəmi pula satmayacağam. Qoy nə olur-olsun, qızım, oğlum, o balaca balalarım aclıq çəksinlər, qoy mən məramıma yetişməyim... Ancaq tutduğum yoldan, etdiyim fikirdən əl çəkməyəcəm. Elə bu günlərdə açıq meydana çıxıb öz rəyimi söyləyəcəyəm, bağıracağam. Eşidən eşitsin, eşitmək istəməyən qulaqlarını bərk-bərk tutsun...

Mən bunu anlamışam ki, hürriyyət olmayınca bizim millət ayılmayacaqdır. Mən açıq-aşkara deyirəm: hürriyyətə zidd olan, millətinə, vətəninə ziddir. Bunu deyib qapını bərk çırpıb getdi. Qonşu mühərrirdən daha səs çıxmadı.

YALNIZ ƏLDƏN SƏS ÇIXMAZ

Qəzetəmizin 46-cı nömrəsində 25 nəfər zərgərin tərəflərindən yazılmış məktubu nəzərdən keçirdiz. Haman məktubun barəsində bir neçə söz demək istəriz, fəqət müqəddimə üçün bir balaca hekayə söyləriz: bir qoca kişi ömrünün axırını yavuqlaşmış görüb oğlanlarını yanına çağırdı. Onlara bir dəstə nazik çubuq ağacları bir yerə bağlı verib dedi: "Görüm sizdən kim bu bağlı çubuqları qıra biləcəkdir". Oğlanları bir-bir güclərini sınadılarsa, heç biri dəstəni qıra bilmədi və qoca kişi çubuqları açıb dedi: "İndi gücünüzü sınayınız!" Oğlanları nazik çubuqları çox asanlıqla qırıb dedilər: "Bu çox asan işdir!".

Qoca gülə-gülə oğlanlarına deyir: "Əzizlərim! Siz də bu çubuqlar kimi hərgah bir yerdə olsanız, yəni sizin aranızda ittifaq olsa, heç kəs sizə güc gətirib sizi puç edə bilməz. Vaxta ki, aranızda nifaq oldu, vaxta ki, bir-birinizdən ayrıldınız, sizin puç olmağınıza çox ehtimal var, necə ki, bu yerə tökülən çubuqlar...

İndi siz də əzizlərim – 25 zərgər qardaşlar! Bu hekayəyə dürüst diqqət ediniz. Hal-hazırda hamı sənətkarlar, qəsbkarlar cidd-cəhd edirlər cəmiyyətlər düzəltsinlər, tainki bunların başları bir yerə bağlı olsun. Məgər siz sənətkarların dərdi azdırmı? Hərgah sizdən biriniz ümum dərdinizi dövlətə və ya cəmiyyətə söyləsə, onun sözünün qüvvəti olmayacaqdır. Vaxta ki, dərdiniz cəmiyyət tərəfindən söyləndi, nəinki cəmiyyətlər, hətta hökumətin də borcudur sizin sözlərinizə diqqət edib tələbinizi yerinə yetirsin.

Hökumət və ya cəmiyyət bir nəfərin bərəksinə gedə bilər. Amma cəmiyyətin yox... Məsələn: bu gün istəyirsiniz günlük zəhmətinizin qiymətini və yainki qayırdığınız əşyaların qiymətlərini artırasınız və ya xeyr camaat işinə qarışasınız, ol vaxt cəmiyyətimiz olmasa sözünüzə nə dövlət, nə Duma və nə camaat qulaq asar. Vaxta ki, tələbiniz təsdiq olunmuş cəmiyyət tərəfindən söyləndi, yəqin məqsudunuza çatarsınız, çatmasanız da dərdiniz və tələbiniz hər bir cəhətdən diqqətə alınacaqdır. Cəmiyyətinizin necə ki, yazırsınız kassası olacaqdır. Bu kassanın mənfəəti nədir? Belə fərz ediniz ki, sabah sizin yoldaşlardan biri kasıb oldu və ya xeyr, naxoşladı, haman yoldaşlarınız tövrbətövr səbəblərə görə qara günündən ötrü pul yığmayıbdır, evində beş-altı baş külfət ac qalıb. Bu biçarə nə tövr zindəganlıq etsin? Sizin insafınız, qeyrətiniz rəva görürmü dünənki yoldaşınız və ya onun övrəti əlinə kisə alıb qapı-qapı gəzsin? Elə ittifaqlar azdırmı? Qardaşlarım! Ruzigara ümid bağlamaq olmaz! Qara gün hamı üçün var. Bundan savayı kassanın pulu sizə qeyri işlərdə də lazım olacaqdır.

Tutalım siz, zərgərlər, hamınız zənginsiniz və hamınız qara gün üçün tədarük edibsiniz, lazım bilirsinizmi ayda yığdığınız puldan bir qədər ayırıb bir müsəlman yetimi oxudasınız. Biz insanız: öz qarnımızdan savayı əlsiz-ayaqsız, kasıb din qardaşlarımız var, kömək lazımdır!.. Siz zəngin qardaşlardan kömək olmasa, kimdən olacaqdır? Quru sözlər ilə millət tərəqqi tapmaz, əməl lazımdır, qeyrət gərəkdir olsun.

Xülasə, cəmiyyətiniz olsa, həm dünya və həm axirət işlərinizə mənfəət olacaqdır. Ancaq cəmiyyət qərar edəndə məxsusiyyətlik olmasın; qeyri cəmiyyətlərin proqrammalarını götürüb onlara binaən özünüz üçün proqramma düzəldiniz. Ümid ediriz ki, 25 zərgər qardaşlarımız bu xeyir işdə bizimlə həməfkar olub cəmiyyət qərar etməyə ciddü-cəhd etsinlər... "Yalnız əldən səs çıxmaz" sözlərini unutmayıb birləşməyə çalışsınlar ki, cəm fərddən güclüdür!

CÜMƏ SÖHBƏTİ

Yoldaşlıqda gər olmuya ittifaq
Əmrlər yerimməz, olunar nifaq...
Düz gətirməz əhli-nifaq işləri,
Ağrıyar başları, sınar dişləri...

Bu sözlər məşhur "Balıq, ördək və xərçəng" əhvalatının müqəddiməsidir. Uşaq vəqti bu əhvalatı bizə dərs verən böylə bir nəsihət verirdi: balıq, ördək və xərçəng arabaya qoşulub çəkmək istədilərsə də, lakin çəkə bilməyirdilər, ondan ötrü ki, bir cinsdə deyildilər. Demək ki, bunlar bir cinsdə olsaydılar, yəni xasiyyətləri, zatları bir olsa idi, qoşulduqları arabanı bir yerə aparıb çıxardardılar. Yəni ittifaq bir cinsdə, bir zatda olan canlı şeylərin aralarında ola bilər.... Balıq, ördək, xərçəng bir xasiyyətdə deyildilər isə də, hərəkətlərindən ittifaq görünür idi. Arabaya qoşulmaqları ona dəlalət edir. Bununla belə "başları ağrıyıb dişləri sındı", arabanı yerindən tərpədə bilmədilər: balıq su olan tərəfə, ördək havaya və xərçəng geriyə zor edirdilər...

Bəli, əsil mətləb budur: ittifaq bir cinsdə, bir xasiyyətdə olan canlı şeylər edə bilərlər və ittifaq olan yerdə nifaq olmaz... Müəllimimiz böylə bir nəsihət edərdi, biz müəllimimizi sevərdik. İndi getdikcə məhəbbətimiz dəxi də gərəkdir artsın. Nə səbəbə artmasın? İnsanın qədrini bir öləndə bilərlər, bir də qeyrilərilə təfavüt qoyanda.

Məsələn, bizim müəllimimiz həmişə söylərdi: "Uşaqlar, ciddcəhd ediniz, ibtida kəndi dininizi, dilinizi öyrəniniz, siz dininizi, ana dilinizi bilməsəniz, millətinizə yavuq olub onun dərdini anlamayacaqsınız. Anlamayan surətdə onun dərdinə əlac edə bilməyəcəksiniz. Əlac etməyən surətdə nəyə lazımsınız? Lazım olmayan surətdə millət deyəcək: oxutmaq fəna işdir. Uşaqlarımız oxuyurlar, lakin bundan nə hasil? Öz mənfəəti üçün oxuyub axırda mənim dilimi, dinimi bəyənməməkdən isə oxumasa məsləhətdir... Böylə olsa, millətinizə böyük xəyanət etmiş olursunuz..." Bu nəsihətləri müəllimimiz söyləyir idi, insafən iş də görür idi. İndi "bu sözlərin əvəzinə" söyləyirlər: "Uşaqlar! Ana dilinizi unutmayacaqsınız, unutsanız da zərər yoxdur. Ana dilinin cibinizə xeyri yoxdur. "Xarici" dillərə səy ediniz. Çörək onlardadır... Mənim məsləhətimə əməl etməsəniz, "yarımçılıq" cərgəsinə daxil olarsınız..." "Axmaq" şagirdlərindən biri çox da millətdən dəm vuranda müəllim qeyzlənib

deyir: "Ah, nə çox millət! Millət! Söyləyib boğazınızı yırtırsınız? Millət mənim cibimdə... Xa, xa, xa!!!" İyirmi il bundan müqəddəm bizə deyirdilər: oxuyunuz uşaqlar! Millət sizi gözləyir... İndi iyirmi ildən sonra deyirlər, millət mənim cibimdə... Böylə iki bir-birinə bərəks əqidələr! Böylə bir-birinə zidd millət müəllimləri! Hankını dost tutmaq? Hankısına uşaqları tapşırmaq? Hankısı "hörmətə" layiq?

Mənimmi təsəvvürümü gözləyirsiniz? Gözləyiniz, əfəndim! Söyləsək, yenə də "ətir" məsələsində mahir "diqqətçilərim" köhnə hamamdan dəm vuracaqlar... Yenə də "divarın quyruğu var" deyən iftiraçılar məqalələr "düzəldəcəklər". Yox, əfəndim! Biz kəndi təsəvvürümüzü söyləməyəcəyiz, vəqta ki, bizim sözlərimiz bir neçə qareyə ağır gəlir. Kəndi sözlərimizi açıq-aşkara çıxartmaq vacibmi olubdur? Axırda bu iz bir payəyə çatar ki, "mərc" ilə məqalə yazmağı adət edərlər... Xeyr, əfəndim, fikir ediniz, hankı müəllim millət işinə yararsa, özünüz sözləyiniz. Biz isə ancaq bunu deyə biləriz ki, ikinci müəllimin ürəyi "açıqdır", "saf" adamdır, ürəyindəki dilindədir. Bundan savayı, çox məlumatlı "bütün" adamdır, "yarımçılıq" deyil! Dəlilmi istəyirsiniz? Buyurunuz, əfəndim! Təsdiq etsəniz də, etməsəniz də biz anladığımız düyünü açacayız, bəli, məzkur müəllim məlumatlı gərəkdir ola, yəni millətin işlərinə xəbərdardır: çox gözəl anlayıbdır!.. Dürüst diqqət ediniz: bir millət ki başına dəydiyi toppuzu anlamıya, bir millət ki öz əli ilə özünə quyu qaza, bir millət ki yaxşı ilə yamana fərq qoymaya, bir millət ki aşkar "bəlanı" özündən rəf etməyə qadir olmaya, bir millət ki bir-birindən təfriqə düşüb bir-birinin əqlindən, ruhundan, dərdindən xəbər tutmadı... Bu millət barəsində nə demək olar? Hərgah millətin hümməti, həmiyyəti ittifaqı olsaydı, yəqin ki, onu "cibə" qoymazdılar, yəqin ki, onun lisan müəllimləri "ah, ana dilindən nə mənfəət" sözlərini fikirlərindən keçirtsələr isə də, açıq deyə bilməzdilər. Kara nə söyləyirsən, söylə! Kora nə göstərirsən, göstər! Lalın barəsində nə yazırsan, yaz! Kimdir cavab verən? Kimdir həqq ilə ağızları bağlayan? Kimdir? Buyurunuz! İndiyədək rus qəzetələri biçarə Spiridonovanın barəsində protestlər ilə doludur; kişilər, övrətlər, oğlanlar, qızlar qəzetələrdə göz yaşı ilə yazılmış məktublar dərc edib binəva qızı axır nəfəsdə cəlladların əlindən xilas etmək istəyirdilər... Bu ittifaq, ittihad Avropanı da hərəkətə gətirdi... Siz nə etdiniz? Tutalım siz siyasi məsələsində "Dardanel" yuxusuna mübtəla olubsunuz... Tutalım "Bəndərə gələn dava gəmilərinə" ümid

bağlayıbsınız... Tutalım "ac quzğunlara" rəhm etdiniz... Orenburq nə oldu? Hankınız bir məktub yazıb kəndi qəminizi izah etdiniz? Hankınız boykot məsələsini anlayıb səs-səsə verdiniz?

Yox, əfəndim! Yox! Tamamdır! Qəzetəni vəqt keçirməkdən ötrü oxuyursunuz isə oxumayınız, ol vəqti pul qazanmağa işləyiniz...

"Kim kimi öldürdü" əhvalatlarını bilmək istəyirsiniz isə istəməyiniz, sizə də sirayət edər. Ümumi millət işlərini bilməkdən ötrü oxuyursunuz isə diqqətlə oxuyunuz: hər mətləbə, hər kəlməyə, hər nöqtəyə xüsusən çoxca nöqtələrə diqqət ediniz, vaxtınız var isə sətirlərin arasına da bir nəzər yetiriniz, oxuduğunuz məqaləni təkrar ediniz, yoldaşınızdan sorunuz, bəhs ediniz, hamısından artıq fikrinizi cəmən söyləyiniz, ittifaq, ittihad ediniz! Yoxsa dininiz, diliniz, ixtiyarınız məzkur arabaya yüklü olub, özünüz balıq, ördək, xərçəng olsanız, arabanız bir yana çıxmayacaqdır. Biri suya gedər, biri havaya uçar, biri də geridə qalar. Yükünüz isə tar-mar olar... Tar-mar oldusa, axırınız nə olmağını anlamayırsınızmı? Anlayırsınız isə niyə oxuyub da, başınızı boş yerə yırğalayırsınız? "Bunlar cəfəngiyatdır, bunlar adam aldatmadır, bunlardan bir şey çıxmaz, Allah özü yar olsun" deyirsiniz, sonra qəlyanı xoruldadıb sakit olursunuz... Pulunuzmu yoxdur? İş görənlərinizmi yoxdur? Nə vaxt bunları cəm edib bunlar ilə ittifaq etdiniz? Ya edib də axırda nifaq gördünüz? İttifaq! Nifaq! Bir-birinə zidd, bir-birini puç edən sözlər! Ay çıxanda gün gizlənən kimi, gün çıxanda ay gizlənən kimi, ittifaq işləyəndə nifaqın nə işi? Fəqət nə etmək? Bu barədə biz "xoşbəxt" hesab oluruz, çünki bizim "günümüz" çıxanda "ayımız" da doğur...

Əcəba!

Bəli, əfəndim, çox təəccüblüdür! İttifaq nifaqı puç edərkən bizdə bir-birini "doğuzdurur". Yüz illər ilə ruhanilərimiz bağlayan ittifaq iki qardaşın arasına nifaq salmadımı? Müftəxor vəzirlər həmişə ittifaq edib islam məmləkətlərini puç etmədilərmi? İndi etməyirlərmi?

Ah, tutalım, bu səhvlər mazidə cəhalətdən olmuş, hal-hazırda "törənən" "ittifaqlara" sözünüz nədir? Buyurunuz, əfəndim! Biz bir-bir söyləyiriz, lakin unutmamaqdan ötəri siz dəftərə yazınız, ürəyiniz daşdan isə hümmətiniz, həmiyyətiniz, qeyrətiniz hələ oyanmayıbsa və oyanmağa ümidiniz yox isə zildə yazdığımız "ittifaq azarına" dair nüsxələri tez-tez oxuyunuz, bəlkə şəfa tapdınız, indi şəfa tapmasanız da bəlkə qulaqlarınız doldu, "qulaqlarınız dolarkən" bəlkə diliniz öyrəşdi, diliniz öyrəşərkən bəlkə uşaqlarınızın yanında tez-

tez təkrar etdiniz, tainki gələcəkdə bunlar da sizin kimi "xoşbəxt", "millətpərəst", "hürriyyətpərəst" olmayalar...

İndi yazınız, əfəndim: "ittifaq" azarları bunlardır:

Zənginlərimizə dair azar: bunlar ittifaq ediblər ki, əlsiz-ayaqsızlara pul verməsinlər, sahibsiz naxoşlarımıza azarxana tikilməsin, sahibsiz qoca övrətlərimiz ömürlərinin axırında rahatlıq görməsinlər, bu hamı müftəxorlar köməksiz qalıb o dünyaya köçmələri məsləhətdir. Bunlardan "mənfəət" görünməyir... Əbəs yerə havanı korlayırlar...

Bu azara dair nüsxə: evdən kantora gedəndə gözünüzə qara eynək taxınız, ətrafa baxmayınız... Ürəyiniz yumşaq olub qorxursunuz isə ittifaqı pozasınız kantora fayton ilə gediniz...

Kantora daxil olandan sonra kantor nökəri gələnə "ağa yoxdur" deyib canınızı "şeytanın" vəsvəsəsindən qurtarar... Lakin bunlar yeni bir azara da düçar olublar: yetim, oxuyan uşaqlara kömək olunmasın, bu, "gözəl" ittifaqdır! İnsafdan kənar işdir: kəndi uşağımı oxutmuram, qeyrisinin oxumağınamı pul verəcəyəm?

Nüsxə: bunlar yanınıza gələndə deyiniz: "yox atam, mənim "qeyrətim" qəbul etməz ki, pulumu bu yolda xərc edim, çünki sən də qurtarandan sonra filankəs kimi namaz qılmayacaqsan, oruc tutmayacaqsan, səndən millətə nə mənfəət?

İkinci. Cavanlarımıza dair azar: Rusiyada aclıq olmağına görə bunlar ittifaq ediblər ki, Rusiyadan gələn "övrətlərə" kömək etsinlər...

Nüsxə: qəsdin sahiblərilə dost olmaq.

Üçüncü. Müəllimlərimizə dair azar: ana dilinin həqqində ittifaq ediblər: uşaqlar kəndi dillərini "gözəl" bilmirlər; insan da öz dilində yazanda və ya söyləyəndə qələt buraxarmı, böylə olan surətdə sərf-nəhv lazım deyil.

Nüsxə: sərf-nəhv kitablarını gizlədiniz. Qeyrilər lazım görsələr "yoxdur" deyiniz, hankı kitabdan oxudaq?

Dördüncü. Cümə günü dükanlarını açan xozeyinlərə dair azar: "İttifaq" namə qayıdıb dükanbadükan gəzirlər, qol qoydururlar ki, cümə günü dükanlarını açsınlar.

Nüsxə: qorodovoy "aşnalarınıza" pul veriniz, bağlı dükanları zor ilə açsınlar...

Beşinci. İnjinerlərimizə dair azar: bunlar böyük ittifaq ediblər ki, fəhlələri "qurdlardan" mühafizat etsinlər.

Nüsxə: xozeyinlərimizə deyiniz. Tələbələr, studentlər ictimaiyun, inqilabiyun firqəsindəndirlər...

Altıncı. Yazanlarımıza dair azar: ərəb-fars kəlmələrini nerədən olsa arayıb tapmaq, ana dilini "dövlətləndirmək".

Nüsxə: "Molla Nəsrəddin"in 3-cü nömrəsində Axund Mirzə Əbülqasım Axundun mövizəsini təkrar ediniz.

Yeddinci. Həkimlərə dair azar varsa da, özləri yaxşı bilirlər...

Hələ fikrimizə gələn "ittifaqlar" bunlardır. Lakin dürüst diqqət ediniz. Bu ittifaqlar axırda nifaq doğulmağına səbəb olacaqdır. Bu ittifaqların puç olmağına şəkk yoxdur...

Durnovo ilə Vittenin ittifaqı puç olanda bunlara nə var? "Bu cənablar"ın ittifaqı bütün Rusiyada vəqtində nifaq salıb həqq yolunu arayan hürriyyətpərəstləri axırda bir yerə cəm etdi. Bunlar gördülər ki, hamısı ümumi bir dərdə mübtəladırlar... Dərdin əlacını həqiqi ittifaqda gördülər... İttifaq edib də nə oldu? Dövlət dumasına sol firqədən əjdahalar seçildilər. Vitte bunları görüb "yorulmuşam, mənə rahətlik lazımdır" dedi...

İndi siz nə fikirdəsiniz? Etdiyiniz "ittifaqlar" çoxmu dövran edəcəkdir? Məgər vədə etdiyimiz qara taxtalar boşmu qalacaqdır? Ya ki, "boykotlamaq" felinin failimi olmayacaqdır? Yoxsa fikir edirsiniz ki, bizim ağzımız yenə də otuz il bağlanacaqdır? Siz də öz bildiyinizi edəcəksiniz? Yox, əfəndim, çox səhvsiniz! Getdi sizin "rahətlik" vəqtiniz! İndi bahar gəlmiş... zimistan qələmləri sınmış... siz "ittifaqçılar" yükünüzü yolun ortasında qoyursunuz isə indi adam tapılar ki, haman yükü bir yana çəkib çıxartsın...

HƏFTƏ FƏRYADI

Əqidə

Əqidə – inanılan şey, etiqad, iman deməkdir. Yəni insan bir şeyə inanır ona ibadət edir, onu hər şeydən müqəddəs bilib ruhunu, ağlını, tam vücudunu onun yolunda sərf etməyə çalışır...

İnsan ya elm, tərbiyə və ya təcrübənin təsirindən müəyyən bir əqidə sahibi ola bilər.

Tutalım ki, bir adam müəyyən bir əqidə sahibidir. Məsələn, həyat-dirilik nə olmağını böylə düşünür: Dünya beş gündür, beşi də puç. Bu dünya eyş-işrət meydanıdır. İkinci dəfə daha bu dünyaya gəlməyəcəksən. Bu keçən gün, keçən saat, keçən dəqiqə ömründən

gedir, mümkün olduqca onu ver zövq-səfaya ta ürəkdə qalmasın arzun, köçəndə darülbəqaya. Bu müəyyən bir əqidədir... Bu əqidənin sahibi həyat-diriliyin nə olmağını böylə anlayıbdır. Şəksiz bunun feli, qövlü, ruhu, hissiyyatı əqidəsinə müvafiq gərəkdir hərəkət etsin.

"Dünya beş gündür, beşi də puç" əqidədə olan nə tövr gərəkdir zindəganlıq keçirsin? Səhər yerindən durub çayını içər, çaydan sonra ya kantora, ya dükana və yainki zavoda gedər. Namaz qılır, qılmayır, o bizim işimiz deyil, özü bilsin öz Allahı. Günlük məişətində öz həmcinsləri ilə nə tövr tərəfdar edir, kimi aldadır, hankı yetimin pulunu yeyir, hankı adama quyu qazıyır, bu da bizim işimiz deyil. Fəqət onu bilirik ki, günorta aş qazanını doldurub kəlləni atır, axşam yenə də çay içib xörək yeyib, qəlyanı xoruldadır və sonra bir az uşaqlar ilə oynayır, bir az da arvadına yaxşı-yaman deyib genə də kəlləni atır.

İl uzunu bu tövr ömür keçirir. Fəqət haman bu əqidədə olub da bir parası, yəni bir para rəndələnmişlər, üzdən pak, təmiz, ruh sarıdan ən zəiflər, axşam çaylarını və xörəklərini klublarda yeyərlər. Bunlar da dünənki ərəqçin örtəndilər. Fəqət zəmanənin təqazası kluba getməyi, klubda çörək yeməyi, səhər saat üçə, dördə tək qumar oynamağı bunlardan tələb edir. Yaxşı fikir versəniz, görərsiniz, həqiqət bu iki qısım adamların müəyyən bir əqidəsi vardır, yəni dünyaya nə üçün gəlmələrini bu tövr anlayıblar; həyat nə olmağını bu tövr düşünüblər. Bunların hərəkətləri, yəni durub-oturuşları, bütün həyatları müəyyən bir əqidədə olmaqlarını göstərir: Dünya beş gündür beşi də heç. İnsan yaranıbdır ölməkdən ötrü, ye, iç, kef et, dünyanın hər bir ləzzətini dad!.. Böylə bir əqidə sahiblərinə, əqidələrinə müvafiq zindəganlıq edənlərə mən heç vaxt təəccüb etmirəm, çünki bir şey ki, təbii yol ilə gedir, ona təəccüb etməməli. Məsələn, bu qisim adamlardan tutalım ki, biri qeyri bir əqidəyə qulluq edir, fikir edib özü üçün bir yol tapıbdır. Doğrudur, deyir: dünya beş gündür, fəqət bu beşgünlük dünyada gizlin xəzinələr, gizlin sirlər, qüvvələr, mühüm məsələlər, açılmayan düyünlər, təbii qanunlar vardır. Bunları aşkar etmək, təbii qanunları həll edib meydana buraxmaq insanın vəzifəsidir. Mən insanam isə bu məsələlərin birini biqədri qüvvə mən gərəkdir həll edəm, tainki dünyadan köçəndə insana məxsus olan vicdan "gərdişin hankı bir qüvvəsini ümum insandan ötrü həll etdin?" sualını verəndə isə mən məğrurluqla cavab verəm.

Həqiqət, yuxarıda zikr olunan "müəyyən əqidə" sahiblərindən biri böylə bir müqəddəs əqidədə olub, həyatı müdam gərdiş ilə müharibədə, təəccüb deyilmi?

Odur ki, deyirəm zikr olunan hərflərin "əqidələri"nə və əqidələrinə müvafiq hərəkətlərinə heç vaxt təəccüb etməməli.

Dünya və həyat nədir? İnsan nə yol ilə yeriş edib də "insanlıq" dərəcəsinə çatmış? Suallarına bünövrəsiz bir adam cavab verə bilməz. Yəni demək istəyiriz: Gərdişə (prirodaya) yavuq olmaq, onu sevmək, onun gizlin xəzinələrini tapmağa səbəb olur. Bu da oxumaq ilə olan bir şeydir. Bünövrəsiz, yəni elmsiz böylə bir mühüm məsələlərə girişmək çətindir. Bu "müəyyən əqidə" sahibləri elmdən məhrum olub da bunlardan qeyri bir şey tələb etmək, ya qeyri bir əqidə, məslək gözləmək olarmı?

Yox əfəndim!

Təbii alma toxumundan gərəkdir alma ağacı bitsin, deyilmi? Biz buna təəccüb etməyiriz. Biz təəccüb ediriz özlərini "müəyyən bir əqidədə" olanlara oxşadan "balta başlılar"a, "döşləri nallılar"a, "başları qaqartlılar"a. Balta, nal qaqart bunların darülfünunda elm təhsil etmələrini guya göstərir. Rusiyadakı və Avropadakı darülfünunlar Molla əmi yazdığı "Mazandaran" darülfünunlarına oxşamırlar. Bu darülfünunlarda həqiqət mükəmməl surətdə müəyyən bir şöbəyə dair elm oxunur. Məxsus bir sənətə dair lazımınca məlumat verilir isə ümum məsələlər, yəni insanın ağlını hərəkətə gətirən, ruhunu təmizləyən məsələlər də müdam müzakirə olunur.

Demək ki, bir sənətdən savayı darülfünunda xahiş edənlər üçün elmlər dairəsində ümum həyata dair geniş bir meydan açılır. Fəqət görən göz, eşidən qulaq, sağlam beyin, hissli ürək gərəkdir olsun. Bunlar oldu isə, şəksiz müəyyən bir əqidə də meydana gəlir.

İndi məndən sorarsınız: Bizim oxumuşların əksəri hankı bir yol ilə gedir? Hankı bütə sitayiş edir? Hankı bir nöqtəyə yeriş edir? Doğrusu, bu suala birdən-birə cavab vermək çətindir. Fəqət bunu təkrar edə bilərəm ki, insanın həyatına, yeni dolanacağına baxıb onun məsləkini bilmək mümkündür.

Bu mənim təsəvvürümdə, ola bilsin də bu təsəvvür səhv olmuş ola. Səhv deyilsə, yəni siz də bu təsəvvürdəsiniz isə bir para bizim intelligentlərin məsləkləri əqidələri barəsində nə üçün məndən sorursunuz?

Buyurunuz klublara, restoranlara, daha nə bilim nerəyə! Nerəyə, nerəyə... Yainki buyurunuz cəmiyyətlərə... Cəmiyyətlərdə oturub bunların hərəkətlərinə, nitqlərinə baxınız, diqqət ediniz: ikiüzlülük, "filan hacının qaşqabağına" baxıb sözünü dəyişmək, qaraya ağ, ağa qara demək. Vicdanını, əqidəsini qara pula satmaq – bunların hamısını özünüz görürsünüz, eşidirsiniz.

Diplomlu provokatorların, şpionların, "cəmiyyətlər"in millətin minlərcə pullarını yeyib sonra haman cəmiyyətə, haman millətə xəyanət edənlərin hələ sözlərini danışmıram...

Həqiqət hərdənbir oturub fikir edirsən: Bir millətin müəyyən bir yolu, məqsudi olmadı isə, o millətin istiqbalı dəhşətli bir fırtınaya düçar olacaqdır, deyilmi? Düz bir yol, saf, sağlam, dəyanətli bir əqidə kimdən gözləmək? "Əlbəttə, Oxumuşlardan?.. Deyib xəcalətinizdən başınızı aşağı salacaqsınız... Və ürəkdən ah çəkib deyəcəksiniz: Ah, bədbəxt millət! Müqəddəs bir əqidəni "sən" kimdən gözləyirsən?

DƏRDLƏRİMİZİN ƏLACI

Axır vaxt qəzetələrimizdə milli ehtiyaclarımız barəsində bəhs olunmaqdadır. Müzakirəyə qoyulmuş məsələlərdə diqqət olunar isə 1915-ci ildən bəri meydana atılmış məsələləri görüb də deyəcəksiniz: əcəba, daha bir qeyri məsələ yoxdur? Doğrudan da, indi müzakirəyə qoyulmuş məsələlər çoxdan çeynənilmiş məsələlərdir. Fəqət nə üçün bir yeri toplayıb durmuşuq? Zahirimizə baxırsınız, guya tərəqqi yolunu tutub gedirik, batinimizə diqqət olunar isə hərəkətimiz xərçəng hərəkətinə bənzəyir. Məsələn, qəzetələrimiz göbələk kimi bitməklə ikən yazılarımızın təsiri çox az görünür. Maarif cəmiyyətlərimizin ədədi artmaqda ikən haman cəmiyyətlərin ruhlarına əl uzadacaq oluruqsa, pərişan bir halda yaşamaqlarını görərik.

Milli məktəblərimiz günbəgün artmaqda, ziyalı oxumuşlarımız da həmçinin: fəqət yenə də dad, fəryad edirik: qəzetələrimizi oxuyan az; intelligentlərimiz milli işlərdən kənar gəzirlər, deyib də bar-bar bağırırıq. Bu bağırtılar, bu gurultular da təbiidir. Çünki doğrudan da görürük ki, işlərimizdən meydana bir şey çıxmayır.

Mühərrirlərimizdən bir parası işlərimizin böylə pərişan bir halda olmağını cürbəcür səbəblərdən asılı görürlər: camaatımız

hələ qaranlıqdadır. Oxumuşlarımız, iş bilənlərimiz camaat işlərindən qaçırlar, balalarımız lazımınca tərbiyə almayırlar... Bu səbəblər düz, fəqət bu səbəbləri kənar etmək üçün nə lazım? Hərgah desəniz elm, bəs elm oxumuş, iş bilənlərimizin milli işlərdə soyuqluğa nə çarə? Deyəcəksiniz bu müvəqqəti bir şeydir. Gələcəkdə lazım olan tərbiyə verilərsə, oxumuşlarımız milli işlərdən qaçmazlar.

Böylə olan surətdə gələcəkdə və ya indi tərbiyə verənlər üçün bir yol göstərmək lazımmı? Lazımsa hankı yol ilə getməliyiz, hankı nöqtəyə, hankı ideala yeriş etməliyik. Həmən vaxt hankı bir məsləkdə olmalıyıq?

Ümum müsəlmanlar üçün müqəddəs bir məslək həqiqəti-islam nə olmağını bilməkdir. Müdam tərəqqi, müdam gərdişilə mübarizə və haman mübarizənin vasitəsilə tapılmış gizlin xəzinələri insanlar üçün meydana gətirmək, yəni insaniyyətə xidmət – bundan ali və müqəddəs bir məslək, bundan artıq qüvvətli bir nicat yolu olmaz. Fəqət bir dinə qulluq edən bir çox tayfaların özlərinə məxsus məsləkləri ola bilər. Çünki din bir tayfaları bir nöqtədə birləşdirərsə, hər bir tayfaya məxsus bir çox adətlər haman tayfaları bir-birindən ayırar. Ona binaən hər bir tayfa və millətin məxsusi bir məslək, bir ideal dalınca yeriş etməyi də təbiidir.

Fəqət bir millətə məxsus məslək ümum ideal üçün bir yoldur. Məsələn, ümum ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün, millətə lazımdır özünü tanıtsın. Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə xüsusi məsləkin dalınca yeriş edə bilməz. Bu yolda yeriş etməz isə ümum müqəddəs məslək nə olmağın da düşünməz.

İndi biz islama qulluq edən bir çox tayfalardan biriyik: məlum bir qanun altında yaşayıb, özümüzə türk deyib də xüsusi bir məslək dalınca getməliyikmi?

Getməliyik desəniz, özümüzü gərəkdir tanıyaq. Fəqət tanımaq üçün nə lazımdır?

Milli dil, milli məktəb, milli mətbuat və qeyri-qeyri şeylər deyilmi? Dil, məktəb, mətbuat dairələrində cüzi tərəqqi etmişik isə, 1905-ci il səbəb olubdur.

Əcəba! Bu on ilin ərzində bizə can verən, bizim yüz illər ilə paslanmış beynimizi pasdan təmizləyən, məhəbbət nə olmağını düşündürən, bizi insanlar cərgəsinə salan, hüququmuzu bildirən, ümum müqəddəs ideala yol açan, ilk səmərəsini nə tez unutduq.

Bəli unutduq! Unutmasaydıq, indi hər başdan bir səs çıxmazdı. Qəzetələrimiz, ehtiyaclarımız barəsində yazıb bir-birinə bərəks təsəvvürlər meydana gətirməzdilər. İşlərimizin pərişan bir halda olmağını uydurma səbəblərdə görməzdilər. (...)

Sənə can, ruh verən, səni qaranlıqdan işıqlığa salan "yolu" məhv edərsənsə, özünü fövt edərsən.

Biz haman yolun düz, həmvar, baqi qalmağına gərəkdir çalışaq: tam səadətimiz bu yolda, istiqbalımızın xoşbəxtliyi onda. Əqlimizi, bədənimizi, ruhumuzu bu yolda işlətməliyik.

Bugünkü pərişan halda bulunmağımız, cəmiyyətlərimizin karsızlığı, seçkilərimizin gülünc vəqnələri, oxumuşlarımızın milli işlərdən qaçmaqları, mətbuatımızın, ədəbiyyatımızın dərinsizliyi, məktəblərimizin ruhsuzluğu, tərbiyənin acı meyvələri, bunların hamısının əlacı haman müqəddəs "yoldur". Bu yolda tərbiyə alırıqsa, həm özümüzü tanıyarıq və həm ümum müqəddəs məsləkə yavuqlaşarıq.

...Məsləkimizə müvafiq təsəvvürümüzü zəmanənin böylə bir vaxtında mümkün olduqca aşkar yazmışdıq... və fikrimizin xülasəsi də bu idi: bir millət özünü tanımayınca, hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətə bağlıdır. Bu hürriyyət isə tamamilə olmasa da 1905-ci ildən cüzi verilibdir. Məsələn, 1905-ci ilədək Rusiyada 20 milyon müsəlmanın bir "tərcüman" qəzetəsi var idi. Demək də olmazdı ki, 20 milyon müsəlman tək bir balaca "Tərcüman" qəzetəsinə kifayət edir. Xeyr! Müsəlmanlardan qəzetə vermək fikrində çox adam var idi, fəqət izin vermirdilər. Qəzetəyə izin vermək məsələsi Petroqradda nazirdən asılı bir məsələ idi. Buradan da hamıya bir cavab gəlirdi: bəli, müsəlmanlar üçün, əlbəttə, qəzetə lazımdır. Fəqət ministrin gizlin sirkulyarına görə türk dilində qəzetəyə izin yoxdur deyirdilər. İndi isə, yəni 1905-ci ildən qəzetəyə izin almaq üçün Petroqrada və ministrə müraciət etmək lazım gəlmir. Qubernator və ya qradonaçalnik bu izni çox asanlıq ilə verirlər. Gözümüzün qabağında gündə bir qəzetə batır, biri çıxır.

1905-ci ilədək məktəblərdə ana dili yox idi, demək olar. Zatən gimnaziya və realnilərin proqramlarında ana dili heç yox idi. Ancaq şəriət dərsləri var idi. O da ki Allaha pənah! İndisə, yəni 1905-ci ildən bəri nəinki şəriət və hətta ana dili bu məktəblərdə oxunur. Bu ilədək ana dilinə nəinki əhəmiyyət verilmirdi, hətta tarixi-müqəddəsi rus

dilində keçmək təklif olunurdu. Bu təklifə görə də tarixi-müqəddəsi müsəlmanlardan rus dilinə tərcümə edənlər də tapıldı.

İndi isə böylə təklifləri eşitməzsiniz; 1905-ci ilədək müsəlmandan handa bir yaxşı müəllim olmuş olsa idi də, onun qulluğu nəinki hesaba alınmayırdı, hətta gimnaziya və realnilərdə dərs verməyə bu müəllimlərin ixtiyarları yox idi. İndi isə bu müəllimlərin qulluqları nəinki hesab olunur, hətta müsəlmandan inspektorlarımız da vardır! Bu ilədək "Maarif cəmiyyəti" nə olmağını ancaq qeyrilərdə görürdük. İndi isə müsəlman maarif cəmiyyətlərini hər şəhərdə görmək olar.

1905-ci ilədək camaat dərdlərini ancaq pristav və qubernatora deyə bilərdilər. İndi isə bütün millətin dərdləri apaçıq dövlət dumasında müzakirəyə qoyulur. Daha bir çox məsələlər var ki, 1905-ci ildən sonra həyatımızın tərəqqi yoluna düşməyinə səbəb olubdur. Səbəb olub da özümüzü tanımağa yol açıbdır. Özümüzü tanıdıqsa, hüqumuz nə olmağını düşünəcəyiz. Ona görə bu halın davamına və daha genişlənməsinə səy etmək lazımdır. Lakin nə yol ilə?

Məsələn: Bu gün Rusiyada dövlət Duması vardır.

Böylə olan surətdə çalışmaq ki, vəkillərimiz millətin dərdlərin bilən olsunlar və haman dərdlərə çarə nerədən olmağını düşünsünlər, yəni demək istəyiriz, bir vəkil ki, millətin dərdini düşündü, o həmən vaxt səsini bu yolda verəcəkdir. Bu yolda verərsə, bu yolda işləyən firqələrə kömək olub, onların istədiklərini keçirməyə səbəb olar...

Böylə vəkilləri nerədən tapmaq?

Əlbəttə, vəkil camaatdan seçilir. Böylə olan surətdə camaatın özündə müəyyən bir məslək, bir əqidə ilə haman camaatın vəkili də olmaz vaxt məsləksiz bir adam olar. Vəkilin müəyyən məsləki olmuş olsa da, böylə müəyyən məsləksiz camaatın vəkili lazımınca iş görə bilməz, tələb olmayanda lazımınca kirdar da və hətta hünər də olammaz. Bəs görünür, camaatdan başlamalıyız. Camaata müəyyən bir yol göstərməliyiz. Bu yolu kim gərək göstərsin? Biz cavab verib deyərdik: Mətbuat və "cəmiyyətlər".

Hər zamanda deyilmiş ki, mətbuat ikinci bir dövlət qüvvətindədir. İndi demək olmaz qəzetələrimizi oxumurlar. Mən iyirmi il bundan müqəddəm Amerika faytonçularının kuzlada oturub qəzetə oxumaqlarını kitablarımın birində təəccüb bir şey hesab edib yazmışam. Fəqət iki il bundan müqəddəm Hacıtərxanda olarkən müsəlman faytonçularını kuzlada qəzetə oxuyan gördüm! Deməli, qəzetələrimizi oxuyurlar, düşünürlər.

Fəqət bizim vəzifəmiz onlara müəyyən bir yol göstərmək və haman yolda tədriclə məlumatlar verib hazırlamaqdır.

Məsələn, rus qəzetələrindən "Russki vedomosti" qəzetəsi 53 ildir bir məsləkdalınca gedib özü üçün müəyyən oxucular qazanmış. Bu oxucular haman qəzetədə bir məqalənin başını görüb də hankı nöqteyi-nəzər ilə məsələ müzakirəyə qoyulmağını məqaləni oxumamış bilirlər.

Bu qəzetə ilə yanbayan "Moskovski vedomosti" qəzetəsini görürsünüz isə haman məsələni qeyri bir nöqteyi-nəzər ilə meydana gətirməyini bilirsiniz.

Bir qəzetənin müəyyən bir məsləki olursa, müəyyən də oxucusu olacaqdır. Müəyyən oxucu müəyyən bir qəzetə oxuyarsa, mürur ilə bu məsləkdə tərbiyə tapar, öyrəşər, sevər. Bir gün haman qəzetə olmaz isə bir şey itirmiş kimi özünü hiss edər.

İndi mətbuatımızda böylə bir müəyyən məslək varsa, əlbəttə, müəyyən oxucular da olacaqdır.

Bizə deyə bilərlər: böylə şeyləri hələ meydana gətirmək indi tezdir. Əlbəttə, gələcəkdə olacaqdır. Bunun cavabında biz də deyiriz: "Ay camaat, biz dalda qaldıq, elm dalınca gediniz" sözlərinin də vaxtı keçdi. Ona binaən lazımsa, indidən gərək başlamaq və elmə ehtiyacımız varsa, quru sözlər ilə dəvət etməmək, elmi meydana qoymaq, yəni demək istəyiriz.

"Elm dalınca gediniz" deməkdənsə, elmi oxutmaq lazımdır. Haman elm araya gələr isə xalqın beyni açılar, özünü tanıyar, özü ilə özgəyə fərq qoyar, həyat mübarizəsini düşünər və axırda bir məsləkəqidə tutub gedər. Camaat elm nə olduğunu düşünərsə, onu sevər. Alim adamın qədrini bilər və bilib də ciddi-cəhd edər ki, camaat və cəmiyyətin işlərini adamlara tapşırsın!

Camaata elmi nə yol ilə oxutmaq?

Bir müəllim otuz, qırx uşağa elmi öyrədib onları bir yol ilə aparan kimi bir qəzetə də camaatın müəllimi yerində ona gərəkli məlumatlar verib bilmədiyi şeyləri öyrədə bilər. Qəzetənin dördden bir hissəsinin elmi, fənni məqalələrə sərf edəriksə, camaata böyük xidmət göstərmiş olarıq.

Əlbəttə, bu yalnız bir qəzetənin işi deyil, bu yolda cəmiyyətlərimiz də gərəkdir ciddi surətdə işləsinlər, fəqət işləyirlərmi və halhazırda işləyə bilirlərmi!

Doğrudan-doğruya cəmiyyətlərimizdə get-gedə bu məsələnin meydana qoyulması, yəni gərəkli məlumatları camaat arasında bir "cəmiyyət" vasitəsilə intişar etmək ağır görünür.

Hamı cəmiyyətlərimizin gözəçarpan bir səhvi qara adamın rabitəsi olmamaqdadır.

Məlum, məşhur on-on beş adam ildən-ilə seçki düzəldib özlərini və öz adamlarını seçirlər. Qara adamın bu işlərdən xəbəri olmayır. Hətta elə "qoçaqlar" vardır ki, seçki günü yüz manatdan keçib öz adamlarını üzv yazdırırlar. Özünü və istədiyi adamları keçirirlər. İşləyən olsa, yenə yaxşı, ya heç gəlmir, ya gəlirsə işlərdən başı çıxmır. Quru bir ad üçün və ya, doğrusu, sözünü keçirtməkdən ötrü tamam cəmiyyətə səhlənkarlıq edir.

Bu cəmiyyətlərə ehtiyacı olan qara adam üzvlük pulunu verəndən sonra daha bir il cəmiyyətin üzünü görməyir. Onunla ruhani rabitəsi olmayır, cəmiyyət hiss etdiyini hiss etməyir. Cəmiyyətin nə yolda işləməyindən xəbəri yox.

Doğrudan, hərgah cəmiyyətlər pul yığmaqdan və ianə verməkdən ötrü meydana gəlirlərsə, onda bu qədər cəmiyyətin bir şəhərdə olması əbəsdir. Bir cəmiyyət başına cəm olub da var qüvvətlərini bu yolda işlədirlər, pul cəm edib ianələrini verirlər. Zatən bu fikirdə olanlar da var: deyirlər bu cəmiyyətləri gərəkdir birləşdirmək. Böylə fikirdə olmaq da məsləksizlikdən olsa gərəkdir. Bu şəhərdə cəmiyyətlərin çoxalmağı təbiidir. Çünki hamı bir fikirdə olmaz, biri deyir: Millətə yardım etmək üçün cəmiyyəti-xeyriyyə lazımdır, yəni millətin yetimlərinə, korlarına, şillərinə kömək gərəkdir.

Bir qeyrisi deyir: Xeyr, bununla çox da iş görmək olmaz. Gərəkdir məktəblər açılsın, qiraətxanalar meydana gəlsin. Bu fikirdə onlar nəşri-maarif cəmiyyəti düzəltdilər.

Daha bir qeyriləri bu təsəvvürdə olurlar: Gərəkdir qara adama ruh vermək, camaatın gözünü açmaq, camaatın içinə girib onun ehtiyaclarını bilmək və bilib də ona yardım etmək. (...) Bu fikirlərin hamısı təbiidir, həmçinin cəmiyyətlərin də ayrı-ayrı açılması və yaşaması təbiidir. Fəqət nə üçün cəmiyyətlərimizin işləri getmir, yəni cəmiyyətə lazım olan mənfəəti camaata vermirlər, camaatı tanımayırlar! Tamam cəmiyyətlərin tərəqqisinə mane olan şey əsil mətləbi düşünməkdir.

Qədimdə bir qayda var idi. Seçki məsələsi araya gələndə camaat həmişə qoca, dünyagörmüş bir adam seçərdilər, qeyrilərinə

nisbətən məlumatlı, iş bilən, həyatın uçurumlarından, ruzigarın sədəmələrindən keçmiş bir adama işlərini tapşırardılar. Yüz illər, min illər bundan müqəddəm olan adamlar düşünürdülər, bilirdilər ki, iş yaxşı getməkdən ötrü bilik lazımdır. İndi isə 20-ci qərinədə göydə uçarkən üzləri qızarmaya-qızarmaya, deyirlər ki, iş görməkdən ötrü pul lazımdır. Ona görə iş başına həmişə elmsiz, zəngin, dövlətli adam seçmək gərəkdir. Doğrudur, Napalyon bir vaxt deyibdir: Müharibə üçün lazımdır: əvvəla, pul, ikincisi, pul, üçüncüsü, pul. Fəqət indi haman Napalyon qəbirdən baş qaldırıb onu Rusiyadan qaçıran qarın səngərlərdə əriyib buğlanmağını görsə idi, yəqin deyərdi müharibə üçün lazımdır: əvvəla, elm, ikincisi, elm, üçüncüsü, elm. Fəqət beynimizin nası o qədər qalın düşübdür ki, gözümüzün korluğu bir dərəcəyə çatıbdır ki, biz yenə deyirik, iş görmək üçün ən əvvəl pul lazımdır. Yəni iş başına dövlətli keçirmək gərəkdir. Təəccüb burasıdır ki, böylə bir batil, böylə bir insanın şəninə yaraşmayan əqidə hazırda cəmiyyətlərimizdə işləyən bir neçə oxumuşlarda da vardır... Əlbəttə, böylə bir fikirdə olan oxumuşlarımız azdır. Bunlar millətin canında irinli, çirkli yaradırlar. Operasiya olunarsa, çirk dışarı tökülüb, camaatın, millətin canı bunlardan xilas olar.

Bu operasiya kimin vəzifəsidir? Biz deyərdik mətbuatın, bu müqəddəs qüvvət, bu müqəddəs əqidəsini bildirsin gərəkdir. Böylə bir əqidə sahiblərini çubuqlamalı və əqidələrini elmi-tarixi yol ilə puç etməlidir. Daha doğrusu, mətbuatın vəzifəsi ümumi millətin işlərini bilmək, bilib də təhlilində aciz qalmamaq və daim millətin hüququnu mühafizat etməkdir. Böylə bir ağır vəzifə bir adamın işi deyil, bu yolda lazımınca işləmək üçün elmi qüvvət lazımdır. Ona görə biz deyiriz: madam ki, mətbuatımız meydanında elmi, fənni qüvvət yoxdur, qəzetələrimizin camaata lazımınca mənfəəti və təsiri olmayacaqdır.

MƏMMƏD SƏİD ORDUBADİ

(1872-1950)

QANLI BAKI FACİƏLƏRİ HAQQINDA

1905-ci ilin 6 fevralında qəflətən baş verən və hər iki millətin tarixinə qara bir peşmançılıq səhifəsi olan Bakı faciəsinə dair qələmə alınmışdır.

Məqsədin ərzi. Müqəddimədə söylədiyimiz kimi, hər hansı xəyala uymuşdularsa, ermənilər müsəlmanlar əleyhinə qiyam fikrinə düşüb müxtəlif təşəbbüslərdə bulunurdular. Onlar hər tərəfdə müsəlmanları sıxışdırmaq, acı-acı sözlərlə münasibətləri kəsmək kimi ürək sıxan rəftarlara başlamışdılar. Müsəlmanlar isə işin axırını çox böyük bir hüznlə xatırlayıb, ancaq əsas müdafiəni əldən buraxmayıb ayıq dolanırdılar. Məhəlli hökumət isə bir sıra yüngül cinayətlərlə baş girləsə də, belə mühüm işlərin qabağını almaq kimi əməllərdən uzaq idi. Bundan anlaşılır ki, bir-birindən dostluq əlaqəsini kəsmiş hər iki millət bir-birinə qarşı buraxılmışdı. Bu vaxt ermənilər artıq müsəlmanları sıxışdırmağa başlamışdılar. Ermənilərin bir qismi iğtişaşı alqışlamırdılarsa da, güclü və nüfuzlu tərəfi iğtişaşın bu gün baş verməsini sabahdan münasib sayırdı. Halbuki bu halı istəyənlər partiya komitələri olduğundan sözləri təsirsiz deyildi. Necə ki, elə də oldu. Olub da, fevral ayının 2-də Ağarza adlı bir müsəlman Quba meydanı adlanan yerdə erməni komitəsi tərəfindən öldürüldü. İslamlara təsir edən belə bir faciə baş verdikdə, daha açıq desək, müsəlmanlar milli heysiyyətlərini təhqir olunmuş görüncə, təsəvvür edin, müsəlman könüllülərini saxlamaq olarmı?! Belə-belə işlər müsəlmanları son dərəcə qəmgin edib çaşdırdığı halda müsəlman başçılarından intiqam üçün hökm verilmədi. Nəhayət, istintaq və ya sair bir iş üçün aparılan müsəlman məhbusu yolda erməni saldatı tərəfindən günahsız öldürülüb, müsəlmanlar daha da dağdar edilir. Bu vaxt dünyamızı qan dəryasına sövq edən fevral ayının altısıydı. Bu gün elə bir gün idi ki, ermənilər araya qarışıqlıq salmaq istədikləri halda, müsəlmanlar buna məəttəl qalmışdılar. Beş dəqiqə sonra bir-birindən münasibəti kəsib, biri-birinin qətlinə çalışan hər iki mehriban qonşu artıq bir-biri ilə ehtiyatla

dolanırdılar. Nəhayət, süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb yaxıldı deyilsə, daha düz olar. Görəsən o partlayıcı maddə həqiqətdə bomba imiş? Bəli, bu bomba altısında baş verən Bakı faciəsidir ki, bütün Qafqaza burada atəş açıldı. Bu gün hər tərəfdə, yəni Bakının bütün sahələrində iğtişaş gözlənirdi. Babayev adlı bir müsəlmanın ölmək xəbəri yayılandan sonra müsəlmanlar da açıq-açığa hərbə qalxaraq ermənilərə yürüş etdilər. Dördüncü sahədə də atışma başlanıb, tərəflər biri-birini heyrətli dərəcədə bombardman edirdi. Ermənilər tam ciddiyyətlə işə başlamışdılar. Babayev adlı müsəlmanın qətlindən yarım saat sonra Voronsovski küçədə konka konduktoru Artyom Şinkov öldürüldü, Tsitsiyanovski və Çadrovi küçədə bir naməlum rus naməlum şəxslər tərəfindən qana boyanıb yerə sərilir. Bu adamlar öldükdən sonra bütün sahələrdə tam şiddətlə atışma başlanıb, aramsız olaraq hər iki tərəfdən döyüş silahlarına əl atılmışdı. Həmən gün və gecəsi şəhərdə böyük gurultu – şaqqıltılar zahir olurdu. Gecə sübhə kimi şəhərdə atışma səsi var idi ki, şəhər tezdən küçələrdə öldürülmüş 13 nəfər azarxanaya aparıldı. Fevralın 7-də yenə hər tərəfdə atışma başlanıb, ermənilər ümumi hərbi qiyama başladıqlarından müsəlmanlar da açıq-açığa tüfəng, tapança götürüb, hərbə girişməkdə idilər. Ermənilər bu halda müsəlmanların hücumuna davam gətirə bilməyərək qaçmaqda və evlərinə pənah aparmaqda idilər. Damlardan, pəncərələrdən müsəlmanların və gəlib-keçən bütün tayfaların üzərinə ardı-arası kəsilmədən atəş açılırdı. Krasilnikovların evlərindən, Madrid mehmanxanasından və Krasilnikovların o biri evlərindən ki, Bazar və Qubernski küçələrinin küncündədir, böyük atəş açılırdı. Mayılovun və Korsakovun evlərindən və Məlikovun evindən ki, hamam da ordadır, müsəlmanların qarşısına vahimənli atəş açılmışdır və yenə Tağıyevin evinin yuxarı mərtəbəsindən gəlibgedən camaata fərq qoyulmadan güllə atılırdı. Bu vaxtda Bakının və zavodların elə bir yeri qalmamışdı ki, iğtişaş sirayət etməsin. Ümumcamaat bir-birinə qarışıb silah işlətməkdə idi. Övrətlər uşağın əlindən tutaraq o tərəf-bu tərəfə qaçırmışlar. Ancaq heç bir tərəfdən aman tapmayıb sərgərdan qaçırdılar. Bu vaxtlar Balaxanıda böyük vuruşma və yanğın düşüb. Müsəlmanların dil bilənləri ermənilərə hifz edirdilər. Həmən gün elə bir gün idi ki, küçələrdən əlli nəfərə qədər erməni ölüsü yığıldı. Müsəlmanlara gəldikdə, yaralı və ölülərə daşıyıb öz evlərinə aparırdılar. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdıldı və qarət edildi. Ermənilərdən isə Minas Simonov, Muqdusi Oqanesyans, Ayrapetyans qardaşlarının və başqalarının dükanları qarət edildi. Bu dükanların qarətin dayandırmaq üçün polis qulluqçularının əlində lazımınca müdafiə aləti olmadığından onları qarətçilərdən qorumaq mümkün olmadı. Yəni qarətə son vermək mümkün və imkan daxilində deyildi. Zira, qarətçilərin çoxu, müsəlmandan – İran fəhləsi, ermənidən isə Türkiyədən gəlmə daşnaksütyun və sair könüllülər idi. Buna görə də bu qarətçilərin əməlinə son vermək olmaz idi. Fevralın yeddisində, yəni müharibənin şiddətli zamanında iyirmi nəfər kazak abxəda çıxıb, hər on nəfəri bir dəstə olaraq, birisi Şamaxinskidə, digəri Bazarda idi. Atışmanın şiddətli vaxtı xidmət halından məhrum və aciz qalan pristavlar bu kazaklardan kömək tələb etsələr də, az olduqlarına görə, onlardan "kömək edə bilmərik" cavabını alırdılar. Saat on iki radələrində şəhərin halı təhlükəli bir vəziyyət almışdı. Müsəlmanların könüllü cavanları çox cəsarətlə ermənilərə və onların nizami saldatlarına qarşı dururdular. *Müsəlman başçılarına gəldikdə ermənilərə yeri düşdükcə hifz və himayət edirdilər.* Bu əsnada hökumət tərəfindən hər tərəfə on nəfər olmaqla dəstə ilə saldat göndərilirdi ki, bu da bir xoş xəyal imiş. Zira, on minlərcə müharibə edəni bir-birindən ayırmaq üçün on deyil, minlərcə saldat və ciddi surətdə çalışan komandalar lazım idi. Sakitliyi bərpa etməyə əmr alan dəstələrdən Salyan polkunun podpolkovniki Kuzminskinin komandası altında on iki nəfər saldat saat on birdə şeypur-balaban ilə çıxsa da, camaat bir az dağılır, fəqət onlar keçib gedəndən sonra yenə qarət və qətlə davam edirdilər. *Bir sahənin pristavı şəxsən polkovnikin yanına gedərək, "əmr veriniz saldatlar bir neçə atəş açıb camaatı hədə ilə dağıtsın" dedikdə, "sizə borc deyil, biz öz qulluğumuzu yaxşı bilirik" cavabını almışdı.* Söz yoxdur ki, pristavlar kimi, atəşin şiddətlə getdiyi məhəllədə vəzifədə olan şəxslər də elə cavab aldıqda xidməti boşlayıb güllə düşməyən bir yerə gedəcəkdir. Necə ki, belə də olurdu. Deyilənlərdən məlum olur ki, *iki qanlı camaat birbirinin öhdəsinə buraxılmışdı.* Amma burasını da deməliyik ki, *müsəlmanlar insafı əldən buraxmayaraq hər tərəfdə ermənilərə hifz edir, evlərində saxlayıb yemək-içməklərini verirdilər.* Krasnovodsk və Suraxanski küçələrində, kilsənin küncündə və Bolşaya Morskaya

küçəsində müharibə tam şiddətlə davam edirdi. Bu küçədə müsəlmanlar bir çox ermənilər hifz etdilər, o cümlədən yüz doxsan beş nömrəli evdə Akim İsayeviçin ailəsi və özü hifz olunub, qətl-qarətdən kənar qalmışdılar, mühafizəçi müsəlman isə Ağakişi Əliyev və Əliyevin qardaşı Hüseynqulu Kərbəlayı Abdulla oğlu idi. Bu barədə ermənilərin özləri məktub vasitəsilə razılıq etmişlər ki, imzaları aşağıda göstərilir: Mikayıl Artyomyans, Babacanov, Sarkis Minayeviç Ovanesov. Müharibənin ən şiddətli getdiyi yerlərdən biri Malakan bağının ətrafı idi. Orada da bir çox erməni hifz edilmişdi. Ağadadaş Vəliyevin evində Arşak Durniyans adlı bir erməni iki nəfər gimnaziyada oxuyan çocuqları ilə hifz olunub yemək-içmək verilmişdir. Həmən erməni ailəsi öz qonşusu Hüseynqulu Mahmudov və Məşədi Hənifə Cəfərov tərəfindən mühafizə edilmişdi. Qeyd olunmalı hal burasıdır ki, həmən məhəllədə olan ərsiz, sahibsiz müsəlman övrətləri dəstələrin qarşısına çıxıb qonşu ermənilərin əmlak və canlarını hifzə çalışmışlar. Arşak Durniyans bu barədə razılıq məktubu da yazmışdır. Məktubun tarixi 19 fevral 1905-ci il idi.

Bu qanlı günlərdə altı fevraldan başlayıb Stepan Avetisov, Arzumanovlar və başqaları hifz olundular. Bir müsəlmanın evində ki, əvvəlinci müharibədə əmisi oğlu Ağarza Babayev ermənilər əlində öldürülmüş, vaqiədə islamiyyətin şan-şöhrət, insaf və mürüvvətini aləmə bildirmişdir. Baxınız, əmisi oğlu erməni əlində vəhşicəsinə öldürülür, özü isə bir çox ermənini mühafizə edib, Davud Oxanesovun bütün ailəsini və tamam o evdə olan kirayənişinləri yeməklə doyurub, qətl-qarətdən xatircəm edir. Yaşasın insaflı qardaşlarım! Yaşasın ki, islamın şan və əzəmətini aləmlərə bildirmişlər. Küçələrdə o tərəf-bu tərəflərdə qan tökən ermənilər isə ələ keçən əlsiz-ayaqsız müsəlmanları qırıb-kəsməkdə idilər. Müsəlman övrətləri o tərəf-bu tərəfdə erməni qorxusundan titrəyib, çoculunu unudurdu. Fəqət yenə bu əzəmətli bacılar kişilərinə qoşulub min il bir vətəndə yaşadıqları ermənilərə himayət edirdilər. Buna şahid üç nəfər müsəlman övrətinin əlli nəfər ermənini hifz etməsidir ki, dörd gün müddəti bunların cümləsini yeməklə doyurmuşdur. Razılığı imza edən Qaraxanyans adlı bir ermənidir ki, məktubu yazı stolunun üstündə əmanət saxlanmışdır. Yaşasın ismətli və mürüvvətli analarım. Yaşayıb da insaflı çocuqlar tərbiyə etsinlər. Fevralın səkkizi gecəsi məmuriyyət və şöhrətlə məşhur olan Bakı şəhəri cəhənnəmə çevrilib bir tərəfdən bombaların partlaması, digər tərəf-

dən uca və ali imarətlərin yanıb vulkanlara bənzəməsi, bir tərəfdən neft zavodlarının, budkaların yanğısından səmaya qalxan alovlar insanı çaşdırıb qoyurdu. Bu gecə hər tərəfdən mühafizəçi qoşun dəstələri götürülüb, şəhər mühafizəsiz qalmışdı. Şəhər içində qarətçilər və bir də xələflərinin bihud qana qərq olmalarını görüb axirətdən Bakı şəhərinə tökülmüş ruhlar idilər ki, bizim belə halımızı görüb lənət oxuya-oxuya yerlərinə qayıtmaq arzusunda idilər. Bu gecə vəhşilər qətl-qarətə əl açıb bir çox müəssisələr və fabrikaları yandırıb dağıtdılar. Ən başlıca qarət Tsitsiyanovski və Qubernski küçələrində başlanıb hər iki tərəfə böyük xəsarətlər yetirildi. Fevralın səkkizində hər tərəfdə qətl-qarət davam edirdi. Necə ki, Mirzə Aramyansın mağazininin əşyaları qarətçilərdən alınıb arabalarda polis idarəsində mühafizə olunmaq üçün aparılırdı. Saat ona yaxın Suraxanski, Vorontsovski küçələrində Aslanovun evinə tökülüb, üç-dörd ev dağıdıb talan etmək istədilərsə də, mühafizəçilər tərəfindən mane və müdafiə edildi. Yuxarıda qeyd edilmiş küçələrin küncündə və bulvarlarda qarət tam şiddətlə davam edirdi. Gecə qaranlıq düşdükdə həmən evləri qarətdən sonra yandırmağa başlasalar da, qaradovoylar sandığı atəşli halda aşağı atıb söndürürlər. Bu vaxt Suraxanski küçədə bir müsəlmanın evi faciəli surətdə qarət olunur və yandırılır.

Bu islam evi ermənilərlə dolu olub ki, hamısı qətl-qarətə məşğul imişlər. Bu barədə dördüncü sahənin pristavı lazımi yerinə mümkün olan məlumatı vermişdir.

Ermənilər isə bu tərəflərdə müsəlmanları şiddətli surətdə bombardman edirdilər. Bu halətə heç kəs davam gətirə bilmirdi. Necə ki, bütün qoşun dəstələri də atəşin şiddətindən davam gətirə bilməyib hamısı qaçmağa üz qoydu.

Atışma getdikcə daha da artdığından iki nəfər müsəlman məzlum surətdə qətl edildi. Həmən bu vaxtda pristavlar polismeysterin tərəfindən məmur olub Dağıstan polkunun bir dəstəsi ilə yanğın komandasına köməkdə bulunacaq idi. Yanğın dəstəsi təşəbbüsdə bir az təxir etdiyindən dördüncü sahənin pristavı bir dəstə qoşun götürüb Aslanovun evinin həyətinə daxil olur. Pristav və qoşun əhli evə daxil olar-olmaz, naməlum şəxslər tərəfindən ev şiddətlə atəşə tutulur. Pristav cənabları heç bir tədbir görmədən qoşun dəstəsini götürüb öz yerinə qayıtmağa məcbur olur. Qaranlıq düşdüyündən fərq qoyulmadan erməni və müsəlman əmlakı və əşyası ya qarət və

talan olunur, ya da yandırılırdı. Bu gün Bakının halı elə təhlükəli, elə qarışıq idi ki, atışmanın, yanan imarətlərin, alovun şiddətli təsirindən öldürülmüşləri heç bir tərəfdən yığmaq, yaralıları azərxanaya aparmaq mümkün deyildi.

Bu növ ilə Bakının hər tərəfində şiddətli qətl-qarət və atışma başlanıb ayın 10-a qədər ardı-arası kəsilmədən cinayətlər baş verirdi. Balaxanıda neft zavodlarında iğtişaş hökm-fərma olub yanğı əməli də şiddət tapmaqda idi. Ancaq Balaxanıda iğtişaşda iştirak edən bir çox ermənilər olub, bir çox da müsəlman fəhlələri hərbə, qətl-qarətə başlamaq istərdilər. Fəqət, müsəlman başçıları iğtişaşın qabağını alıb, ermənilərı və sair millətdən olan fəhlələri hifz və himayə edər idi.

Müsəlmanların bu insaflı rəftarından razılığa dair bir çox məktublar əlimizə gəlib çatsa da, bunların cümləsini Rono cəmiyyətinin fəhlələrindən gələn razılıq məktubları bir daha təsdiq edir. Bu fəhlələri mühafizə edən zatların bir neçəsinin isimləri aşağıda yazılır: Hacı Nəcəfqulu İbrahimov, Ata Sultanəli Haşımov, Əbdüləli Babayev, Hacıyev qardaşları, Məşədi Qulu Ağaməhəmməd oğlu, Məşədi Ağahüseyn Molla Həsən oğlu, Hacı Fətəli Ağaəli və başqalarıdır ki, hamısının adları qaralamada qeyd olunub. Razılıq məktubunu imza edən, ümumən, Rono cəmiyyətinin fəhlələridir. Əlimizə çatan məlumatlara əsasən, müsəlmanlar Bakıda ermənilərı mühafizə etməsəydi, üç minə qədər erməninin qana qəltan olması yəqin idi.

Müharibə fevralın 6-dan 10-na qədər tam şiddətlə davam etdiyindən erməni və müsəlmandan tələfat min nəfər olmasa da, mal və zəruri əmlaka dəyən zərər milyonları keçməkdə idi. Hökumət bu mərəkələri sakitləşdirməyə çıxdısa da, elə bir ciddi iş görmədiyi hamımıza məlum və aydındır.

Bakıda olan bütün əhvalatı bu yerə, yəni bu səhifələrə çıxarmağa gücüm çatsa da, hər iki milləti belə vəhşi hərəkətlərdən xəbərdar etməmək niyyəti ilə bundan artıq məlumat verməyi lazım bilmədim.

Yuxarıda verilmiş məlumatlardan anlaşılır ki, ermənilər büsbütün Bakıda məğlub olub fəlakətə uğramışlar. Digər tərəfdən ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə baxdıqda belə məğlubiyyətə insan son dərəcə təəccüb qalır. Zənnimcə, həmin bu məğlubiyyətə ermənilərin özləri səbəb olmuşlar. Belə ki, müharibədən qabaq bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlar da ermənilərin bu fikrini başa düşüb özlərinin mühafizəsi qayğısına qalıblar...

Hərgah ermənilər bu müharibəni müsəlmanların xəbərsizliyi əsnasında açmış olsaydılar, o vaxt müsəlmanlara min yox, on minlərlə tələfat verə bilərdilər. Ancaq burasını da deyək ki, Bakı müsəlmanları ciddiyyətlə iğtişaşda iştirak etməyərək, düşdükcə mühafizəçi olurdular. Bunları isbat üçün bir çox məktublar vardır. Amma yuxarıda bir neçə yerdə məlumat verdiyimizdən, burada təkrara lüzum görülmədi. Ümid ki, bundan sonra bu iki millətin bir-birinə məhəbbət və sədaqətindən başqa bir xəyalı qalmanışdı.

Burasını da söyləyim ki, intiqam üçün tərəflər də bir pis xəyalda qalmayıb, necə ki, əvvəllər yenə bir vətəndə tam asudəlik ilə yaşayıb, sair hüquqlarımızın mühafizəsinə çalışmaqla yenə keçən şan-şöhrəti qazanacağıq.

Bütün bunlardan sonra oxuculara məlum edirəm ki, bu yazımda olan əhvalatı diqqətlə oxusun və rast gəldikləri qüsurlarımı əfv etsinlər.

KƏDƏRLİ NAXÇIVAN HADİSƏLƏRİ

1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər. Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdə də belə hallar hər dəqiqə gözlənirdi. Hər vəziyyətdə, erməni siyasətini götür-qoy edəndə elə belə də olmalı idi. Zira, *ermənilərin rəyincə, "bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın" – deyib hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar.* O zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri ilə əhatə olduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər.

Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi, hər saatda əksər toplanışına əlverişli olduğundan ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müharibəyə çağırırdılar. Belə ki, may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini – müsəlmanlar erməni kəndi Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar. Bu xəbər şəhərə çatdıqda camaat bir az da həyəcana başlayıb, narahat olurlar. Ermənilər bu gündən başlayıb, dükanları bağlayıb müsəlmanlara məlum olmadığı halda kilsəyə və evlərinə yığışırdılar. Bu tərz ilə may ayının 7-də Tunbul adlı erməni-müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürürlər (Tunbul kəndi erməni-müsəlman kəndidir. İki hissəsi müsəlman, bir hissəsi ermənidir). Bu yerdən müqayisə olunmalıdır ki, ermənilərdə nə qədər tədarük var imiş ki, bu azlıqda yenə müsəlmanlara qələbə xəyalında idilər. Müsəlmanlara gəldikdə qorxudan qol-qanad açа bilməyərək heyrətdə qalmışdılar. May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar. Əvvəlinci şikayətləri: *"Ermənilər bizə nə etdilər isə keçdi, fəqət, yenə yığışıb bazara gəlsinlər"* – *demək idi. Ayın 9-da Cəhri müsəlmanları qubernatorun hüzuruna gəlib, bu sözləri şikayət etdilər: "Bizim kəndin yolları hər tərəfdən erməni əlindədir. Bu səbəbdən təvəqqe edirik, yolları hökumət mühafizəsinə alasınız". Bu tövr ilə hər tərəfdən müsəlmanlar şikayətə gəlməkdə idilər. Nə fayda ki, hamısı cavabsız qalıb, şikayətçilərə məyusluqdan başqa bir şey qalmadı.* Bu tərəfdən şikayətləri cavabsız qalan müsəlmanları ermənilər cürbəcür söyüşlərlə incidirdilər. Həmən may ayının 9-da naxçıvanlı Əli Hacı Bayramzadə səhrada Əliabad adlı erməni kəndliləri tərəfindən çeşmə kənarında gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetişdi. Bu xəbər şəhərdə daha böyük dəhşətlərə səbəb oldu. Ayın 11-də Kültəpə adlı erməni kəndinin varlısı erməni fədailəri tərəfindən ailəsiylə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya tərəfindən cəzalandığı məlum oldu. Varlının adı Xaçaturdur. Həmən günün gecəsi vitse-qubernator Baranovski yol ilə gedən bir ermənidən çoxlu bomba zəbt etdi. Yenə

həmən gecə, yəni may ayının on birində ermənilər bütün şəhəri atəşə tutdular. İki saat yarım müddətində şəhərdə beşaçılan tüfənglərin səsləri, alov və tüstüdən savayı bir başqa iş nəzərə gəlməz idi. Müsəlmanlar da tək-tək o atəşlərə qarşı atəş açırdılar. Bərəkət versin ki, *həmən gecə müsəlmanlardan bir nəfər də tələf olmadı. Ermənilərdən isə tələfat olmamış deyildi. Bununla belə, hər yerdə gizlədikləri kimi, yenə gizlətdilər. Bu gecə müdhiş bir gecə idi.* Heç kəs – böyük, kiçik, hətta barmaq boyda balalar da yata bilməzdi. Hərdənbir bir tərəfdən bir güllə açılıb şüşə pəncərələr qabağında ildırım kimi çaxıb beşikdəki balaları da yatmağa qoymurdu. Camaat hərə bir xəyalda idi. Zira, eşikdə dəhşətli külək əsirdi. Heç aram tutmayaraq divarlara güllələr dəyməkdə idi. O gecəni müsəlmanlar qarışıq xəyallar ilə cəhənnəm guşəsi olan yataqları içində qovrulaqovrula sübh etdilər. Bəli, etdilər! *Səhər tezdən, ayın on ikisində, yenə vitse-qubernatora şikayətə gəldilər.* Gecənin atışmasını deyib, əncam çəkməsini tələb etdikdə *"Əgər onlar sizə atəş açır, siz də tutub onların tapançalarını alınız"* – *cavabını aldılar! Qubernator bir də "mən bilmərəm"* – *deyib camaatı qaytardı. O halda gözü qızmış ermənilərdən və özünü itirmiş müsəlmanlardan bir nəfər olmadı söyləsin ki, "cənab qubernator, bəs buraya nə üçün təşrif gətiribsiniz?"* Həmən gün şəhər və ətrafı qorxulu olduğundan Naxçıvan camaatı və iranlı fəhlələri – hamı şəhərdə və bazarda idilər. Ona görə iranlı fəhlələr qubernatorun sözünə əməl edərək, ermənilərdən bir sıra açılan şeylər zəbt etməyə başlayıblar. Saat on radələrində bir dəstə erməni fədailəri bazarın başında durub, ayaq tərəfdə olan müsəlmanları gülləbaran etməyə başladılar.

Bu əsnada xəbərsiz olan vitse-qubernator, Cəfərqulu xan – şəhər rəisi, İrəvan qlavası Ağamalov, pristav Mehdi xan – Ordubadski cənabları atışma səsinə gəldilər. Yolları erməni bazarından düşdüyünə görə, həmən gün qubernatorun əmrilə açılmış bir neçə erməni dükanlarından qubernator və onun yoldaşları gülləyə basıldılar. Bu əsnada erməni dükanlarına yaxın olan müsəlman dükanlarından da atəş açıldı. Atışma iki saat çəkdi. Bu müharibədə məşhur erməni tacirləri Adamov şagirdlərilə, Xalatov uşaqları ilə və başqaları qətlə yetirildi. Adamovun dükanına naməlum səbəbdən od düşüb tamam yandı. Bu müharibədə müsəlmandan beş nəfər öldü və bir neçəsi yaralandı. Erməni dükanları əksəriyyətilə, müsəlmanlardan 10 dükan qarət edildi. Müharibə vaxtı polis qulluqçusu naçalnik

Angil qətlə mane olmayıb, "Tez vur, oğlum! Tez ol, oğlum!" deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "Tez olunuz! Tez aparınız!" deyib camaatı qızışdırırdı. İki saat tamam qətl-qarət uzandıqdan sonra hər tayfa çəkilib öz tərəfinə getdi. Qubernator cənabları bu hadisələri görür və eşidirdi. O günün gecəsi vəhşətli, dəhşətli bir gecə olduğundan hamı evlərində oturmuşdu. Saat on iki radələrində erməni tərəfindən şiddətli atışma başlanıb bütün şəhəri gurultu içinə almışdı. Şiddətli atəş ermənilərin ipək zavodundan açılırdı.

Gecə atışmasını cənab qubernator bir saat sonra kəsdirdi. Ermənilər, nəhayət, sakit oldular. Sübh çağı bu xəbər ətrafda çox pis və qorxulu təsir oyatdı. Odur ki, hər tərəfdə qırğın və qətl-qarət başlandı. Əvvəlcə, yarı erməni, yarı müsəlmanlardan ibarət olan Cəhri kəndində qətl-qarət başlandı.

Bu gündən başlayıb ermənilər dükanlarını kilsəyə yığışdırıb, müsəlmanlara qarşı zülm və acı töhmətlərdən çəkinmədilər. Hər gündə bir hiylə, hər halda bir hoqqa çıxarmaqda idilər. Bu vaxtda, necə ki məlumdur, şəhərdə çox hökumət qoşunu mövcud olub, camaatı hər saatda təhqir etməkdə, belini, cibini axtarmaqda idilər.

Müxtəsər, Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, nə hökumət, nə filan sidq ilə belə işləri yoluna qoymaq fikrində deyildi. Noyabrın 26-na qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində dəfələrlə sülh edib, bir-birilə əl-ələ vurdular. Axırda yenə bu sülhlər hər iki tərəfə ədavətdən başqa bir səmər vermirdi. Necə ki, hər saatda bu iki tayfanın arasında yeni bir ədavətin ortaya çıxacağı gözlənilirdi. Noyabrın 26-da birdən-birə camaat bir-birinə dəyib tələm-tələsik dükanları yığışdırıb, evlərinə qaçdılar. Hər kəsdən işin nə yerdə olduğunu soruşduqda əllərini bir-birinə sürtüb, heyran-heyran adamın üzünə baxardılar. Camaat arasında müxtəlif xəbərlər danışıldığı kimi, Çeşmə-Basardan da bu xəbər yetişdi: *Bu gün kazaklar sülh və asayişi təmin etmək üçün Çeşmə-Basar kəndinə gedərkən Hacı Nəsir Hacı Nağı oğlunun evini qarətə başlamışlar, bu vaxt qabağa durub mane olmağa çalışan Hacının bir zavallı oğlunu öldürmüşlər. Müsibətə düçar olmuş Hacı oğlunu qana bulaşmış görərkən çaşıb bir güllə kazaklara atmış, elə buna görə də onun ailəsi biədəblər tərəfindən qətl edilmişdir.*

Bu xəbər Naxçıvan camaatını nəhayət dərəcədə pərişan etmişdir. Zira, bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və

naçalnik Angillər idi. Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmən gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar. Həqiqətən də o gecə atəşli, ürəkdağlayan, yanğılı bir gecə idi. Həmən gecə saat yeddi radələrində böyük və dəhşətli sədalar eşidilirdi. Məlum olduğu kimi, həmən səs bazar qarovullarının səsi imiş. Hərdənbir beşaçılan sədaları da eşidilirdi. Camaat evlərindən çıxıb bazara girmək istəsələr də, kazaklar hər tərəfdən atəş açıb mane olurdular.

Xülasə, güllə səsi iki saat davam edib camaatı heyrət içində qoymuşdu. İki saatdan sonra güllə səsi kəsib, bir az sakitlik oldu. Bir azdan şəhəri tüstü bürüyüb bazar tərəfdən qəmli bir işıq şəhəri arasıra işıqlandırdı.

O vəziyyətdə bazar yanar dağ və vulkanlara bənzəyirdi. Bir saatdan sonra məlum oldu ki, hərif kazaklar və ermənilər əlbir olub müsəlman bazarını tamam qarət edəndən sonra od vurmuşlar. Bu halda şəhərin hər guşəsindən nalə ucalıb, bir saatın içində küçə və meydanlar camaatla dolmuşdu.

Camaatda biaramlıq nəhayət dərəcədə idi. Bazarın yanmaq gurultusu, camaatın ah-naləsi, xüsusən tüfənglərin şaqqıltısı, kazakların sədaları şəhərə böyük bir vəlvələ salmışdı.

Camaatın üç yüzü birdən bazara tökülüb yüz il zəhmətlə qazandıqları dövləti yanıb kül olmaqda gördülər. Ədəbsiz kazaklar bazarı hər tərəfdən yandırıb yolları da kəsmişdilər. Tamam iki saat yanğından sonra Angil, Krılov bazara təşrif gətirib kazaklara "camaatı qovunuz" əmrini verib söhbətə başladılar. Bir neçə dəqiqədən sonra kazaklara atəş əmri verməklə fəqir Məşədi Həsən Məhəmmədqulu bəy oğlunu vurdular. Camaat vəziyyəti düşünə-düşünə dağılıb evlərinə getdilər. Bu vaxtda dəmiryol vağzalında olan insaniyyətpərvər gürcü qardaşlardan müsəlmanların köməyinə gəldilərsə də, artıq iş işdən keçmişdi (Allah onlardan razı olsun). Sübhə kimi bazar tamam yanıb kül oldu.

Camaat gündüz bazara gəlib qızarmış torpaqdan başqa bir şey görmədilər. Üç gün üç gecə bazar-dükanın tüstüsü çıxmaqda idi. Təxminən 85 dükan, 75 anbar və boş dükan yandırıldı. Üç gün, noyabrın 27-dən 30-na qədər bazarda əsla yeməli bir şey tapılmır. Camaat son dərəcə ehtiyac içində keçinirdi. Çox evlərdə aclığın insana əziyyət verən şiddətindən yata bilmirdilər. Noyabrın 29-cu

gecəsi saat yeddi radələrində uzaqdan qorxulu bir gurultu gəldi. Camaatda cinayət yerinə getməyə əsla cürət olmayıb, bir saatdan sonra bu xəbərlər ətrafa yayıldı. Şəhərin ikinci hissəsində kazaklara yaxın olan bir müsəlman evini onlar atəşə tutub qarət etmişlər. Yarım saat sonra yenə bir atəş sədası eşidilib kazaklar tərəfindən icar olunduğu meydana çıxdı.

Ayın otuzunda Cəhri kəndinin ermənilər və kazaklar tərəfindən yandırılması camaatı çox pərişan etdi. Bu gün İrəvan general-qubernatoru cənab Paskeviç şəhərə təşrif gətirməklə, camaat yığışıb dərdlərini deyib çarə istədilər. Və Cəhri faciəsini də ortaya qoyub şikayət etdilər. Qubernator isə "eyib etməz, mən işə yaxşı baxaram" – deməklə camaatı dağıtdı. Müxtəsər iki gün cənab qubernator keyfə məşğul olub, Cəhri kəndi tamam yanıb qurtarandan sonra qubernator Cəhriyə yollandı. Dekabrın ikisində qubernator gedən vaxt camaat yığılıb şəhərin ikinci hissəsinə kazaklar tərəfindən od vurulduğunu deyib kazakların götürülməsini tələb etdilərsə də, "yaxşı, demişik "mera" (tədbir) götürsünlər, gedib Cəhriyə, qayıdıb işlərə əncam verəcəyəm" – cavabını verib aradan çıxdı.

Müsəlmanları bu hala qoyan hökumətin belə "meraları" (tədbirləri) deyilmi? Müsəlmanlar qayıdıb kazaklardan ərizə yazıb, qubernator qayıdanda təqdim etmək həvəsində olduqları halda, qubernator gecə saat on birdə qayıdıb, müsəlmanların xəbəri olmasın deyə, ahəstə, vaqon ilə İrəvana yollanmışdı. Budur bürokrat idarəsinin müsəlmanlar üzünə açdıqları qəmli hadisə pərdələri.

Atalar demiş kimi, məzlum ən zalımdır.

Yuxarıda deyilənlərə bunu da əlavə edim ki, əvvəlinci hadisələrdə əsas zərər ermənilərə və sonrakı hadisələrdə isə müsəlmanlara dəymişdi.

EÇMİƏDZİN. ÜÇKİLSƏ HADİSƏLƏRİ

(*Xüsusi məktublardan*)

İrəvan iğtişaşlarında məlum oldu ki, müsəlmanlar hərb fənninə yaxşı bələd deyillər və bundan əlavə hamılıqla döyüş silahından məhrum olduqlarından mahalda ermənilərin təcavüzünə məruz qalan camaata əsla bir köməkdə bulunmadılar. Buna görə ermənilər qol-

qanad açıb Qırxbulaq mahalına hücuma keçib müsəlmanları son dərəcə pərişan etdilər.

Digər tərəfdən Üçkilsə müsəlmanlarını qətl-qarətə başlayıb, coğrafi ərazinin namünasibliyi ucundan islamlara misli görünməmiş cəfalar edilmişdir. Dağılmış kəndlərin kədərli əhvalatları aşağıda olduğu kimi, sıra ilə nəql edilir.

Eçmiədzinin coğrafi vəziyyəti. Eçmiədzin mahalı dediyimiz məşhur Xanavəng çayı ilə Anpur suyu arasında geniş bir ərazini tutan gözəl seyrangahları ilə, bağçaları ilə məşhur olan bir yerdir. Şimalında Ələyiz dağları, Abaran ölkələri, böyük Ermənistan adlanan Aleksandropol, Pənbək, Şoragöl vilayətləridir. Qərbi Anpur suyu, şərqi ilə Xanavəng çayı, İrəvan vilayətləridir. Cənubunda "Üçkilsə" deyilən qədim erməni məbədgahı və erməni mərkəzi yerləşir.

1905-ci il ermənilərin müsəlmanlar əleyhinə qiyamları və yaxud əsgər toplanışı. İyun ayının 3-də Abaran ölkəsindən Şoragöl, Pənbək, Aleksandropol erməniləri bir yerə yığışıb Uşu adlı islam kəndinə hücuma keçdilər. Həmən ayın üçüncü günü İlançalan erməni kəndi ilə Uşu kəndi arasında hər tərəfdən istehkamlar qurulub saat 9 radələrində müharibə başlanır. 8 saat şiddətli müharibədən sonra ermənilər davam gətirməyib bir çox tələfatdan sonra qaçmağa məcbur olurlar. Sağ qalıb qaçanlar əlacsızlıqdan özlərini Xanəvəng çayına vurur, bir neçəsi suya batdıqdan sonra o biri sahilə keçirlər. Bu müharibədə müsəlman cavanlarının atdığı güllələrin birisi də boşa keçməyib ermənilərin köksünə dəydiyindən çoxları dava meydanında sərilib qalmışdı. İyun ayının dördündə ermənilərin dəstələri son dərəcədə pozğun və müharibəyə hazır olmadıqlarını düşünüb davanı təxirə saldılar. "Bu müsəlmanları belə az qüvvələrlə məğlub etmək olmaz" deyə yenə ətrafdan əsgər yığmağa başladılar. Hər saatda piyada və süvari halında müsəlmanların gözü önündə, hər erməni dəstəsi (firqələri) gəlib öz hissələrinə birləşdilər. Müsəlmanların isə hər tərəfdən yolları kəsildiyindən bir nəfər də olsa köməyə gələn yox idi... Müharibədən qabaq ermənilər bütün yolları kəsdiyindən heç tərəfdən get-gəl mümkün deyildi. Hər tərəfi bağladıqlarından hücumlarını ancaq şimal tərəfdən icra edirdilər.

İyun ayının 5-ci günü. Ayın beşində müharibəni ermənilər başlayıb bir neçə döyüş keçirdikdən sonra məğlub olub istehkamlarına çəkildilər. Bu müharibədə müsəlmandan 2 nəfər qətl olub, bir nəfər də yaralandı. Bu halı gördükdə ermənilər 6 və 7-ci gün

müharibəni dayandırıb yenə əsgərlər toplamağa və əsgəri nöqsanlarını düzəltməyə çalışırlar. Ancaq hər tərəfdən səngərlərə mühafizə əsgərləri qoyulmuşdu.

İyun ayının 8-dəki hadisələr. Bu gün hər tərəfdən müharibə başlanıb. Bu müharibədə ermənilər məhz sürətli atəş açan beşaçılan tüfənglərdən istifadə edirdilər. Ona görə müsəlmanlarda olan azçox berdanka tüfənglərin güllələri düşmən mövqeyinə təsir etmirdi. Bu səbəbdən müsəlmanlar səngərləri boşlamayıb davam etdiyindən artıq tələfatlara düçar olurdular. Digər tərəfdən müsəlmanların patronları və sair hərbi ləvazimatları qurtarmaqda idi. Müharibə səhərdən axşama kimi davam etdi. Müsəlmanlar yavaş-yavaş istehkamları tərk edib Uşu kəndinə çəkildilər. Müsəlmanlar artıq müharibəni mənasız bilsələr də, yenə "gözümüz baxa-baxa kəndi düşmənə buraxmarıq" – deyib döyüşə girişdilər. Bu vaxtda arvad-uşağı məscidə yığıb özləri vuruşmada idilər ki, aşağıda təfsilatı ilə verilir.

Uşu daxilində müharibə. Axşama iki saat qalmış erməni bölükləri (diviziyaları) hər tərəfdən hücuma başladılar. Ermənilər kəndə yaxınlaşdıqda bir qoca erməni keşişinin başı üstündə hərbi bayraq müharibəyə məxsus mahnılar oxuyurdular. Erməni keşişi böyük məharətlə kənd içində əlində xaç erməni piyada bölüklərinin qarşısında durub onları hərbə ruhlandırırdı.

Bu müharibələrdə ermənilərin şan-şöhrətinə ziyan vuran bir iş vardısa, o da müharibə vaxtında südəmər körpələri, qoca qarıları öldürmək idi. Ermənilərin hücumunu görən Paşa Budaq oğlu bir müsəlman məscid qapısına gəlib, arvad-uşağı məsciddən çıxarıb, yolsuz keçidlər, dağlarla aparıb yüksək yaylaqlarda Sürməli kürd tayfalarının himayəsinə tapşırır. Bu vaxt axşama bir saatdan da az qalmışdı ki, kənd içində müharibə başlandı. Axşam alaqaranlıqda davam edən xəncər müharibəsində müsəlmanlardan dörd nəfər: iki əlil kişi, iki qoca şəhid oldu. Müsəlmanlar bu müharibədə xəncərlə, ermənilər tüfənglə müharibə edirdilər. Ona görə bu müharibədə 180 nəfər erməni tələf olub, bir o qədər də yaralandı. Ermənin çoxluğundan, demək olar ki, bir nəfər müsəlmanın qarşısına 15 nəfər erməni çıxırdı. Ona görə də müsəlmanlar artıq kənddə durmağı münasib bilməyib kəndi boşaltdılar. Ermənilər hər tərəfdən kəndə od vurdular. Bir sıra müqəddəs əşyalar, Quran – kitab, başqa bu kimi əşyalar da yandırıldı. Müsəlmanların zərəri iki yüz min manat təxmin edilirdi. 9 iyunda aşağıda adları qeyd edilən kəndlər dağıdılıb, məşhur

Təkyə adlı islam kəndi üzərinə hücum başlanır. Dağılmış kəndlər bunlardır: Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, Anpur çayının sahilində İrgu, Əngirsək kimi 7 məşhur kənddən ibarətdir.

1905-ci ilin 9 iyununda baş verən Təkyə müharibəsi. İyun ayının doqquzuncu günü saat 12 radələrində, məşhur Təkyə adlı islam kəndinə hücum oldu. Müsəlmanlar tamamilə silahsız, ermənilər isə mükəmməl silahlı olduqlarından müsəlmanlar kəndi boşlayıb, arvad-uşaqlarını götürüb yüksək təpələr başına pənah apardılar. Axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadə cənablarının böyük imarətlərinə od vurulub iki yüz cild Quran və müqəddəs kitabları da yandırıldı. O cənabın kitabxanası və qazı idarəsinə məxsus kitablar eləcə məhv edildi. Qazının xidmətçisi yüksək qayalardan baxdığı vaxt Quranları ermənilər süngülərə keçirib məşəl kimi yandırırmışlar. Əvvəlcə islamların gizləndiyini güman edib məscidə o qədər güllə vurmuşdular ki, divarlar bal şanı kimi dəlik-dəlik olmuşdu. Sonra məscidin minbərini və sair müqəddəs əşyaları da odlamışdılar. İyun ayının 10-da Eçmiədzində 9 məşhur islam kəndi dağıdıldı, hökumət isə heç bir tədbir görmədi[1].

[1] Mənə hər yerdən məktublar gəlir. Bəzi yerlərdə hökumət etinasızlıq göstərdiyi kimi, bu mahalda da etinasız rəftar edib bir çarə qılmadı. Ümid edirəm ki, hər iki millət bunun mənasını gözəlcə başa düşür.

ÖMƏR FAİQ NEMANZADƏ

(1872-1937)

DİLİMİZ VƏ İMLAMIZ

Ədəbiyyatı olmayan bir millətin, dilsiz insanə oxşuyacağını söyləmək üçün dəlilə, təfsilə hacət yox sanıram. Çünki ən böyük şahid keçmiş hallar, indiki vüquatlardır. Bundan ötrü örnək, misal axtarmaq üçün də uzaqlara getməyək: iştə başda çərkəz, ləzgi... dilləri, sonra da bizim türkcəmiz. Mədənilik ləzgilər, çərkəslər arasında yayıldıqca öz dilləri də yoxluğa doğru yayılacaq. Bir vaxt olacaq ki, o kimi dillərin tarixdə ancaq adları qalacaq. Neyçün? Çünki yazısı, imlası, ədəbiyyatı yox. Bu bir həqiqətdir; çaxotkaya, vərəmə tutulmuş bir bəxtsiz adamın öləcəyi qədər bəllidir. Türkcəmiz, hər nə qədər tez-gec, həqq rəhmətinə gedəcək olan o dillər kimi deyildir. Amma bugünkü qaydasızlıq naxoşluğuna vaxtilə dərman etmək çarəsini axtarmazsaq, onun bu yaman halının da çox uzanacağından qorxulur.

Bu qorxu, millətini sevən hər həmiyyətlini düşündürsə gərəkdir. Çünki dadlı dilimizin yavaş-yavaş aşağıya doğru düşdüyünü görürüz. Sevgili dilimizin aramızdan artıq qiyməti gedir. Halbuki bu zamanda hər millət öz dilin saxlamaq üçün varını yox, canını belə fəda edir. Nə edək? Bizim bir çox işlərimiz kimi bu da böylə düşür: qafqaziyalı, elmli iki türk yarım saata qədər öz ana dilləri ilə danışsalar darıxırlar. Bir kazanlı ilə bir qafqazlının beş, on dəqiqə türkcə danışa bilmələri isə çox az görünür. Yazıları da bunun kimi. Bu suç, bu təqsir hərçəndi adamlardan başqa, əql imdada varsa, böyük və bağışlanmaz təqsiri yenə bizdədir. Hər kəs bilir ki, Kazan ilə Tiflis kimi uzaq məmləkətlərin arasında yox, Bakı, Naxçıvan, Şəki kimi yaxın məmləkətlərin dilləri arasında belə az-çox bir ayrılıq var.

Havanın, təbiətin, adətin bu təsiri inkar edilməz. Burası bəlli. Həm bu hal yalnız bizdə deyil, dünyanın hər tərəfində də böylədir. Nə hacət! Cənub məmləkətlərin rusları ilə şimaldakıların ahəngi, şivəsi bir dərəcədəmi? İstanbullularla ərzurumluların söyləməli birmi? Əsla. Amma o ayrılıq, bu təfavüt ilə bərabər qaydada və imla, dillərinə məhəbbət sayəsində bir şəhərlilər kimi dərdləşir, anlaşırlar. Demək ki, bu gün çoxumuzun türk dili ilə danışmaq, yazmaq istəməməyimizə səbəb qayda, imla, məhəbbətimizin yoxluğudur. Bu

qədər gərəkli dilimizin gerçəkdən bünövrəsi olan bu qayda və imla xüsusi indiyə qədər bizdə nə üçün meydana gəlməmiş? Burasını yazmaqdan irəli buna münasibəti olan bir balaca təfsil verim: bu gün özü ilə danışanları mədəniyyətliyin yuxarı qatlarına çıxaran hər dilin mütləq və mütləq nizamla bir sayaq da yüngül əlifbası qaydası, imlası, ədəbiyyatı vardır. Bunlar da yenə mütləq öz başına, halına görədir. Bununla bərabər heç bir dil bugünkü mükəmməlliklərinə öz sözlərilə çatmamışdır. Hamısı bir-birilərinin köməklərinə, yardımlarına möhtac olmuşdur. Dildə ən varlı bildiyimiz ərəbcə belə əbrani, əsuryani, yunanidən... bir çox sözlər almış, bu gün də Avropadan hər vaxt almaqdadır. Hələ fransızların latınlardan, ərəblərdən; rusların fransızlardan, ərəblərdən, tatarlardan aldıqları sözlərin çoxluğu insanı heyrətə salır. Rusların özgələrdən aldıqları sözlərin sayı 75 mindən artıq olursa, bizimkini qiyas etməli. Bəli, hər dil özgə dilin yardımına möhtac ola-ola gəlmişdir. Bu bir təbii qaydadır. Nə cürə ki aciz, elmsiz bir adamın güclü, elmli bir adama ehtiyacı var; öylə də maarifdən geri qalan millət dilinin mədəniyyətli, zorlu millətin dilinə ehtiyacı var. Dillər ayrı olduqca bu ehtiyac qiyamətə qədər də olacaqdır. Sözüm, qəsdim bunda deyil. Hər dil özgə dildən minlərcə söz almış, lakin hamısı öz təsrifini, səltənətini də sürəkləmişdilər. Bizimki kimi özgələrin kefinə, qaydasına əsir olan heç bir dil yoxdur. Məsələn, fransızlar ərəblərdən aldıqları "qəmbiz"i (köynəyi) "şəmis", "əmirəlbəhr"i "amiral" (ruslar – admiral), "firəqəteyn"i "fəraqat"; latınlar ərəblərin "darül-sənaye"sini "tərsanə"; ruslar ərəblərin "tərifə"sini "tarif", "xəzinə"sini "kazna", "əlcəbr"in "alqebra"; ərəblər yunanların "asterolab"nı "usturlab", "Yevangel"ini "İncil", "ətir"i "isir", "nomuz"u "namus", farsların "sütun"unu "üstəvanə", "əndazə"sini "həndəsə", bizim "əntar"ı "əntəri", "arvad"ı "övrət" surətində, biçimində yazmışlar. Bunlar bu kimi dəyişdirilən sözlərin milyonda biridir. Mənim qəsdim ancaq bir-iki örnək, nümunə göstərməkdir. İştə anlaşılır ki, hər dil özgələrdən aldığı sözləri öz danışığına uyğun halda çevirmiş, pozmuş, yazmış ki, təbii hal da budur. Özgələrin "qayidə"sini olduğu kimi qəbul etmək təbiətsizliyində, yolçuluğunda isə türk ilə farsdan özgə heç bir dil tapılmamışdır. İştə tarix, iştə meydan, iştə dillər! İndi gələk məqsədə: farscanı özlərinə buraxaq; türkcəmizin bu zamanə, bu çağa qədər yüngül bir əlifbası, məzbut bir qayda və imlası olmamağı ancaq öz dilimizi bəyənməmək cəhalətindəndir, fars, ərəb dillərinin hər cürə gərəkli, gərəksiz sözlərini, hələ bizə əsla gərək olmayan qaydalarını dilimizə doldur-

duğumuzdandır: hər barədə onları təqlid etmək dərdini istəyimizdəndir. Bu müqəllidlik, bu cəhalətlə dilimizin ahənginə əsla gəlişməyən, şəə, zifda, löhm, mütərərri, xübz, müzəmmə, müsəlləsat, müavvizəteyn... daha bunlara rəhmət oxudacaq böylə minlərcə yad sözləri xatirələrinə, könüllərinə heç dəymiyərək olduğu kimi almışız, yazmışız, yazırız. Böylə tək-tək sözlərin dərdinə yenə səbir etmək olar. Amma dilimizi bərbad edən, anlaşılmamağına səbəb olub bizə çox gərək olmayan (...) minlərcə ərəbcə, farsca qaydalar və ibarələrdir. İndilik bir neçə fənn, şəriət kitabları ayrı olduğu halda, türklərin dillərinə heç yaraşmayan bu kimi qaydaları yazmağa, işlətməyə nə zorumuz, nə məcburluğumuz var. Hələ yad sözlərin, qaydaların ən sadələrini yazdım. Mənimlə bərabər hər kəs deyə bilər, dilimizdə öylə çətin sözlər, öylə ibarələr var ki, Allah göstərməsin, onları saymaqmı olar?!

Sözümün qısası, türkcəmizin varlığını, yaşamağını hamımızın bilikli, hünərli olmamızı, avam üçün yazılan kitabların, qəzetlərin anlaşılmasını istəyirsək bacardığımız qədər "gərəksiz" və "artıq" olan ərəbcə, farsca sözləri, hələ qaydaların çoxunu buraxıb, türkcələşdirdiyimiz *təxum, adəm, övrət, dəva, ərəq, mütbəx, əba*... daha bu kimi türkcələşmiş sözləri *toxum, adam, arvad, dava, araq, mətbəx, aba*... yazmağı sınamalıyız. Bilirəm, bu fikrim indi qəbul edilməyəcəkdir. Nasıl ki, vaxtilə indiki kimi bir az türkcə yazmaq eyib idi. Öylə də bunlar bu gün eyib sayılacaq, yazanın biliksizliyinə hökm ediləcək, zərəri yox, bir vaxt olar mənim bugünkü fikrimdə eyib görülməz. Yavaş-yavaş qəbul edilər(...).

Bu gün məktəblərimizin çoxunda qəbul edilən söfti üsulu öyrətmək qaydasına görə də bundan sonra imlamızın bacarıldığı qədər danışıldığı kimi, yəni səsli hərflərlə yazılacağı anlaşılmaqdadır. Zaman ən böyük düzəldən, tərbiyə edəndir. Bu, həqiqəti də bir vaxt meydana çıxaracaqdır. Bu barədə hamı öz ürəyinə və vicdanına sorsun, müraciət etsin. Boş yerə etiraz edəcəklərinə işin yox. İnsafla cavab yazanlarla danışırız, bilmədiklərimi öyrənərəm. Bitirmədən burasını söyləyim ki, türkcə yazmaq yüngül, asan iş deyil. Bu yazdığımda belə nə qədər ərəbcə sözlərin yerinə türkcə yazmaq istədim bacarmadım, biləmədim. Məqsədim işə başlamaqdır. Əlbət, yavaş-yavaş öyrənəriz. Sonra yüngül, dadlı olar. Yazacağım hələ bitməmişdir.

"Şərqi-Rus" qəzeti, 7 aprel 1904, №40

NƏ ÜÇÜN HAQQIMIZI İSTƏMİRİZ?

Zəmanəmizdə bizim kimi boş xəyal və quruntu ilə vaxt keçirən, fürsətdən istifadə etməyən heç bir millət olmasa gərəkdir. Hərçəndi bu malxulyanın bir qismi bir az əvvəl hakim və müstəqil olan bir millətin övladı olduğumuzdan keçmiş parlaq tarixlərimizin, siyasətdəki şan-şöhrətimizin hələ ürəklərimizə verdiyi sevincdən, ümid və qeyrətdən meydana gəlirsə də, böyük və zərərli qismi cəhalət və qəflətimizdən zühura gəlməkdədir. Öylə cəhalət ki, hər kəsin öz vəzifəsini, borcunu, xeyrini unutdurub ismi var, cismi yox ənqa kimi – yuxarılarda, Qaf dağlarında ərşi-ələlarda gəzdirir. Öylə qəflət ki, gözümüzün önündə duran ac, çılpaq, səfil, yetim, gözüyaşlı, yurdsuz, kimsəsiz uşaqlarımızın halını bir dəqiqə olsun mərhəmət nəzərinə verməz. Öylə cəhalət ki, təlimsiz, tərbiyəsiz, tənbəl, səfih, mirasa, ata qazancına göz dikən ləyaqətsiz, millətin gələcəyi üçün vəbadan daha qorxulu, ilandan daha zərərli, zəhərdən daha kəskin, ölümdən daha iztirablı olan əxlaqsız bir çox dövlət cavanlarımızın halını, gələcəyini düşünmürüz də. Məsələn, "Tibet"də ingilislərin hankı yol ilə irəli getdikləri, rəislərinin adı nə olduğu, hankı dağdan, dərədən aşdıqlarını, keçdiklərini və bu barədə Londonda parlamentdə Çemberlinin söylədiyi nitqini incədən incəyə düşündürür, yaponiyalıların Port-Arturdan neçə verst və hətta sajen və arşın məsafədə durduqlarını "Lyaoşin" təpəsinə yaponiyalıların hansı saat və dəqiqədə və hansı dağın ətəyindən gəldiklərini və davada vəfat edən əfsərlərin adlarına qədər – bir tükü, qılı qırx parça edərcəsinə bir diqqətlə o dərəcə uzaqdakı keçən hüdudları bizə öyrətdiyi halda ingilislərin nə qüvvətlə, səbəblə dünyanın o gözəl-gözəl yerlərini topsuz-tüfəngsiz, qansız-qışqırıqsız zəbt etdiklərini və yaponialıların bu nisbətdə qeyrət və şücaətlərini və bu davanın əsil səbəbini bildirməz. Öylə qəflət ki, bu gün ən böyük ülamamızdan başlayıb da ən aşağı bir kəndlimizə varıncaya qədər hər kəsin gecə və gündüz fikrini-zikrini minlərcə verst uzaqdakı davanın zahiri, adi vüquatları ilə məşğul etdiyi halda dörd gözümüzün önündə millətimizin səfalət, zillət, həqarət uçurumuna doğru sürükləndiyini göstərmək deyil, xəyala belə gətirmir. Halbuki bu gün bizim ölüm-dirim məsələmiz maarifdir. Öylə maarif ki, bu gün dava kimi ən nazik və dəqiqəsi milyonlar qiymətində olan bir vaxtda belə müharib dövlətlərin hər ikisi də bir tərəfdən davaya məşğul olduqları halda, digər tərəfdən onu da əldən buraxa bilmirlər. Bəlkə

bir tərəfdən davaya ianə toplanırkən, digər tərəfdən də maarifə sərmayələr ayrılır. İanələrin davaya yağdırıldığı bir vaxtda, keçən ayda Moskvada bir dövlətlinin təzə yapılacaq bir məktəbə 50000 manat ianə verməsi, rus və Yaponiya hökumətlərinin bu yaxında Berlində məktəblərin islahı xüsusunda qurulan konqreyə dərhal əzalar göndərmələri, böylə bir vaxtda belə maarifə aid təşəbbüs və hərəkətləri, bir millətin canı və ürəyi yerində olan maarifin əhəmiyyət və lüzumunu gözəl isbat edir.

Bununla bərabər, tarix həqiqətlərindəndir ki, neçə minlərcə səlib əhlinin bir ovuc mərifətli müsəlmanlara məğlub olmaları xristianların gözlərini açmış və qovğa Avropa üçün maarif başlanğıcı, səadət mübdəsi olmuşdur. Bunun kimi hər hansı millət olursa olsun məğlubiyyətdən sonra nöqsanlarını bilib hamı güclərini maarif tərəfdən sərf etmələri hökumət və nicat qanunu iqtizasından əvvələn gəlmişdir. Bu barədə tarix misallar ilə doludur. Biz müsəlmanlar ki, iki-üç yüz ildən bəri hər cəhətlə məğlub ola-ola gəlməkdəyiz. İtirdiyimizi qazanmaq və yenidən maariflə qüvvətlənmək üçün gündüz deyil, gecə belə çalışmaq fərz olunduğunu yazmaq belə artıqdır.

Bəli, maarifdən xeyli pay götürmüş, bu gün qovğa kimi ən təhlükəli bir halda bulunmuş dövlətlilərin bir gözü yenə maarif cəhətində olursa, biz də hənuz başlanmış olan maarifimiz üçün yas gətirməyib qeyrət etməyimiz meydana çıxır. Xüsusilə şövkətli padşahımızın və böyük dövlət kişilərimizin bu günlər də bizə olan daha artıq hörmət və əmniyyətləri bizim bu yolda çalışmamız üçün böyük bir nemət və qənimət olur. Biz Rusiya müsəlmanları hökumətimizin ədalətinə qarşı hər vaxt sədaqət göstərməyi borc bildiyimiz halda, dava kimi dar günlərdə hər dürlü ianə və köməklə ixlas və sədaqətimizi bir qat daha artırmağı da gözəl biliriz. Bu cəhəti boş sözlə deyil, yaralı vətəndaşlarımız üçün hər tərəfdən topladığımız ianələr, etdiyimiz dualarla çox möhkəm isbat etdik. Buna görə çox fəxrlə, cürətlə aləmə bildirmək istərəm ki, ruslardan sonra hökumətimizə, vətənimizə sədaqət göstərən, bu qədər müxtəlif millətlərin ən birincisi biz müsəlmanlarıq. Rus qəzetlərinin də təsdiq etdikləri vəchlə bir islam quberniyasından – fəqir cəmaətimizdən – toplanan ianənin məcmuu ümumi polyakların ianəsindən artıqdır. Digər millətlər də bu nisbətdədir. Sürməli uyezdinin naçalnikinin rəsmi kağızında, oradakı kasıb, fəqir müsəlmanlardan beş-altı min manat toplandığı halda, özgə varlı millətlərdən ancaq-ancaq üç yüz manat toplandığını hər kəs "Şərqi-

Rus"da oxumuş, sədaqətimizi qiyas etmişdir zənn edirəm. Burasına da diqqət lazımdır ki, bu ianələrin çoxu millət başçılarımız olan üləmamızın qeyrəti ilə toplanmışdır. Hətta bizim bu dərəcə müavinət və dualar ilə göstərdiyimiz sədaqət və ixlas əsərləri bir çox rus məmurlarını heyrətdə qoymuş və bir para yanlış, əsassız fikirləri də zehinlərdən çıxarmışdır. Bir çox müsəlman əfsərlərinin, saldatlarının bu davadan rus vətəndaşları kimi, kökslərini düşmən güllələrinə qarşı verib vətənin mühafizəsinə çalışdıqlarını söyləmək belə artıqdır. İştə bu surətlə həm can, həm mal ilə əmniyyət və etibarını qazandığımız hökumətin bizdən qanun daxilində bir şey əsirgəməyəcəyini bilməliyiz. Boş xülya və xofla indiyə qədər itən və qalan haqqımızın meydana çıxmasına hökumətimizin sühulət göstərəcəyinə əmin olmalıyıq. Hər vaxtın, halın bir təqazası var. Elə bilirəm ki, indi bir az vaxt gəlmişdir. Fürsəti fot etməyək! Bizim həyatımıza vasitə olacaq tazəliyin çox lazımlı bəzi xüsusiyyətlərini hökumətimizdən yavaş-yavaş istəyək. Bu gün millət başçıları yerində olan bəzi üləma adlılarımızın, axundlarımızın, mollalarımızın milləti xaki-əndraz və pərişanə doğru sürütdəyib götürdüklərini hər kəs qışqırır. Bu halda bunların islah və tərəqqi çarəsi milləti batmaqda olduğu tədənnidən xilas etmək demək olduğundan nə qədər gücümüz, həmiyyətimiz varsa, onların zəmanimüqtəziyyata müvafiq tədris və tərbiyələrinə sərf etməkliyimiz lazım görünür. Buna görə indiyə qədər bir-iki zəif təşəbbüslə edilməyən müsaidəyə əsla məyus olmuyaraq indi və bundan sonra hiddətlə çalışmalıyıq. Ümumi Qafqaz üçün bir mədrəseyi-ruhaniyyə meydana gətirməliyik.

Prixod mollalarına cəmaətin qaydasız, keyfi olaraq verdikləri "imanlıq xərc"in bundan sonra məzbut və nizami üsul ilə verilib o millət başçılarının məişətlərinin rus, gürcü, erməni ruhaniləri kimi – vaxtilə təmin etmək üçün mühəllinə təvəsüt etməliyiz. Cəmaətin kefinə, mərhəmət və insafına qalacaq zaman deyil. Məişət darlaşdı. Zaman təqazası dəyişdi. Biz də buna görə dəyişməli, hərəkət etməliyik. Yoxsa irəlidə quru namaz qıldıran da tapılmayacaqdır.

Bir çox şəhərlərdəki sənət ziraət və şəhər məktəblərinin xərcinin bir qismini, bəlkə böyük bir hissəsini biz müsəlmanlar veririz. Nüfusa, pula nisbətlə ildə bir neçə uşağımızın pulsuz oxudulmağı da nizam daxilindədir. Halbuki cəmaətimizin göz yummasından, məhəlli qazılarımızın, böyüklərimizin diqqətsizliyindən o kimi yerlərimizi, haqqımızı özgələr zəbt etməkdədir. Bu kimi yerlərdə dörd göz olub

millət balalarımızın rus məktəblərinə girmələrinə çalışmalıyıq. Bu yolda cəmaəti alışdırmalı, təşviq etməliyik. Çünki zəmanəmizdə rus məktəblərindən ürkmək, ictinab etmək maarif bağçamıza gələcək ən qüvvətli bir su arxını kəsmək deməkdir.

Balalarımızı bir tərəfdən rus məktəblərinə göndərməklə bərabər buralara gedəmiyənlər üçün də hər şəhərdə, hər böyük kənddə xüsusi məktəblər açmalıyıq. Üsuli-cədid məktəblərimizi çağlatmalıyız. Xərab olan mədrəsələrimizi canlandırmalıyız. Bu barədə fikir və xof lazım deyil. Qanun müsaidədir. Ancaq o qanunu bilib ona görə çalışmalıyız. Bu kimi işlərimizə şayət – (olmaz ya) mane olan nizamdan bixəbər kiçik məmurlar bulunursa, böyüklərə müraciət etməli.

Hər şəhərdə mütləq və mütləq ucuz qiymətli, hətta pulsuz qiraətxanələr açmalı, göydə yıldızlar, "fin xuançin"dən xəbərlər axtaracağımız yerə gözümüzün önündəki milli, vacibli hallarımıza – fürsətdən vaxtında istifadə edib – çarələr axtarmalıyız. Nə üçün lazımi məsələlərə çalışmayırız, nə üçün haqqımızı istəməyiriz?

"Şərqi-Rus" qəzeti, 5 may 1904, №52

DƏVƏT

Həqiqət və sidq olan yerdən riya və yalançılığın, həmiyyət və qeyrət bulunan məhəldən dənaət və tənbəlliyin qaçacağı kimi mərifət və hürriyyət nuru doğan yerdən cəhalət və əsarət qaranlığının gedəcəyi də şəksizdir. Şükürlər, minlərlə şükürlər olsun ki, hər millətin, hər nəfərin səbəbi-istirahəti, vasiteyi-bəqası, aləti-tərəqqisi olan mərifət və hürriyyət işığı bu axır vaxtda bizim də gözlərimizə, uzaqdan da olsa, görünməkdə və gələcəyimiz üçün böyük ümidlər verməkdədir. Nə üçün verməsin ki, dəyişməyən, bir qərarda qalan ancaq Allah və həqiqəti-mütləqdir. Məxluqun şan və sifəti, hal və iqtizası zamana görə dəyişməkdir. Xüsusilə bu zaman qısa fikirlərlə heç ümid edilməyən, ölçülməyən, zəif təsəvvür və xəyallara gəlməyən məhsul və vüquatı doğan bir anaya bənzədilsə yeri vardır.

Elə ana ki, dünən milyonlarca əhalini hali-əsarətdə tutan bir hökuməti-zaliməyi, bir dövləti-müstəbidi bu gün yenə o məzlum cəmaətin qiyam və istirdadi-hürriyyəti qarşısında tir-tir titrədən bir qüvveyi-əzimə, bir fikri-təcəddüd meydana gətirir.

Elə ana ki, heç ümid edilməyən bir vaxtda dünyanın halını, insanların fikrini alt-üst edən qəribə bir məxluq, əcaibə bir yəcuci-məcuc törədib insanların əvvəlinci ocağı-bucağı olan Asiyanın, insaniyyətin birinci qucağı olan asiyalıların insaniyyət düşməni, tənbəlliyin mənbəyi olmadığını ancaq bir-iki əsrdən bəri mədəniyyət ustadı və rəhbəri olan qərblilərə bildirir.

Elə ana ki, dünyanın qaranlıq və cahil vaxtından, suların bulantısından istifadə ilə qonşu haqqına, rəiyyət malına təcavüz edənləri, özgələrin malını halal-haram deməyib qarnına dolduranları kötək zoru ilə qusdurur.

Elə ana ki, özünə, əmrinə tabe olmayan qafil, nadan övladını xakiməzəllətə, vərteyi həlakə yuvarladır, az zamanda böyüyü kiçik və rəzil, kiçiyi böyük və ali eylər. Odur ki, zəmanəmizin bu hürriyyətəngiz, bu heyrətamiz təsiri səbəbi ilə əqsayi-şərqdə yağan qanlı qarlar, axan qırmızı sular nəinki yalnız o tərəfin, bəlkə şiddəti sirayəti sayəsində bizim də rəngimizi, halımızı, gələcəyimizi dəyişdirməkdə bahar çiçəkləri kimi hər kəsin başında tazə fikirlər açmaqdadır. Cənnətməkan mərhum və məğfur Kamal bəyin "Qəza hər feyzini, hər lütfünü bir vaxt üçün saxlar" buyurması kimi qəzavü qədər kim bilir daha nə feyzlər, nə lütflər hüsulə gətirəcəkdir. Lakin bu feyzlərdən, bu hallardan, bu çiçəklərdən, zəmanənin bu mərhəmətindən bizim də istifadə etməyimiz lazımdır. Bundan sonra da olsa mərifətlilərin ayaqları altında aciz heyvanlar kimi əzilməmək üçün qeyrət və hərəkətə gəlməyimiz lazımdır, labüddür. Bizim üçün istifadə və tərəqqi qapısı indilik, təbii, top-tüfəng və dinamit ilə açılmaz. Onlar "bu halda" bizim heç bir işimizə yaraya bilməzlər. Biz bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan maarif və mətbuat olduğunu bilməliyik.

Maarifin və mədəniyyətin bu gün ən birinci vasitəsi, ən qüvvətli naşiri isə kitab və qəzetlərdir – mətbuatdır. Bunların məhəlli zühuri isə, təbii mətbəələrdir. Buna görə deyə bilərik ki, hər millətin mədəniyyət və qüvvəti mətbəələrin sayı ilə mütənasibdir. Yəni mətbəəsi, mətbuatı çox olan millətlərin sərvət və qüvvətləri də çoxdur. Əks halda mətbuatı yox və ya az olan millətlərin mədəniyyət və gücləri də yox hökmündədir. İndi biz bu mücərrəb nişanələri nəzərə alıb Qafqaziyyədə müsəlman mətbəə və mətbuatının "yox" hesabında olan azlığının ərz edərsək, Qafqaz müsəlmanlarında mərifət, ticarət,

sərvət, qüvvət və rahətin də yoxluğu meydana çıxır ki, hər sahibi-insafın bildiyi bir həqiqəti biz bir az açıq söyləmiş oluruq.

Bu halda Rusiyada hüsni surətlə davam edən mətbəələrimizin ən birincisi, mətbuat-qəzetlərimizin millətə ən xeyirlisi və nəfisi hamıya məlum olan möhtərəm "Tərcüman"dır. Lakin bir "Tərcüman" ilə otuz milyon xalqın ehtiyacı görülə bilməz... Bizə beş-on deyil, yüz mətbəə, bir-iki deyil, on beş-iyirmi qəzet, jurnal lazımdır. Heyif, çox heyif ki, guya islamiyyətin, daha doğrusu, indiki müsəlmanların mətbəə və tazə mətbuat ilə heç işləri-gücləri yox imiş kimi bu xüsus əsla nəzərə alınmır; millətin ən birinci vasiteyi-bəqası olan bu cəhət digər işlərimiz kimi köhnə halda səfalət və səfahətimizə dəlalət edəcək çirkin, qəmli bir surətdə buraxılır. Halbuki ən güclü top və tüfəngdən artıq bizi mühafizə edəcək mətbəə və mətbuatdır. Çünki cahil və qafil bir şəxsin və ya bir millətin əlinə pul gücü ilə zəmanəmizin ən böyük, ən sürətli atılan topları, tüfəngləri, maşınları keçsə belə, davamı-bəqasi çox azdır. Məsələn, dülgərlikdən bixəbər olan bir kimsənin əlinə kərki (kəsər) verilib, bir kürsünün yapılması xahiş edilsə, o kəs bacarıqsızlığı səbəbinə kərkini əlinə vuracağı, taxtanı xarab edəcəyi kimi, elmsiz və mərifətsiz bir şəxsin və ya bir millətin ixtiyarına habelə dünyanın bütün topları, tüfəngləri verilsə, yenə axırda özündən yüz kərə az və kiçik, amma mərifətli, qeyrətli və həmiyyətli bir millətə boyun əyəcəyi, acızliyini, bacarıqsızlığını izhar edəcəyi aşkardır. Bu həqiqətə şahid gətirməyə nə hacət: bu gün əksər müsəlman hökumətlərinin həqarət halları, bir ovuc mərifətli avropalılara boyun əyib təslim olmaları gözümüzün önündə dağlar kimi şahid deyil də nədir? Bir az daha izah edək: Farsın (məğrib), Tunisin, Misirin, Zəngibarın, Məsqətin, Burensonun, Somalinin, Buxaranın, Sudanın, Xivənin və özgə bəzi müsəlman hökumətlərinin bugünkü qan ağladacaq halları, ürək parçaladacaq vəziyyətləri gələcəyimizi fikr edən hər sahib-həmiyyəti qəm dəryasında boğsa şayan deyilmi? Kim nə deyirsə desin, maarifi, mətbuatı olmayan millət dünyanın ən dəhşətli cəng alətinə qərq olsa, quru sözlə yeddi deyil, yetmiş övliyə qüvvətinə sahib olsa, xəyal ilə yetmiş deyil, yeddi min arşın uzanan zülfüqara malik olsa, yenə axırı pərişanlıq və peşmanlıqdır. Burasını yaddan çıxarmayaq ki, "ciddi mətbuatı, qeyrət və həmiyyəti olan millətin qüvvəti və rahəti də olur" qaydası indiyə qədər hökm sürmüş və bundan sonra da qiyamətə qədər sürəcəkdir. Buna görə bizlər, əyər bir an əvvəl maarif silahı ilə silah-

lanmazsaq, tez-gec mərifətli, gözüaçıq millətlərin ticarət və sənaət zorları, fikri-siyasət qüvvətləri, amali-milliyə gücləri altında bugünkündən yüz kərrə daha bədtər bir halda əziləcəyimiz iki kərrə iki dörd edər qədər aşkardır.

Boş iftixar, cahilanə ümid, bixəbəranə təsəlli, üsulsuz rəftar, elm və mərifətsiz icrayi-din və məzhəb bizi nə dünyada və nə də axirətdə sahi-salamətə çıxara bilər. Buna görə bizlər... mütləq dünya ümurunda qonşu mərifətli millətlərin bugünkü tərəqqi yollarını, məsləklərini tutmalıyıq ki, bu yol və məslək də ancaq birdir. O da mətbəə və mətbuatın çoxalmasına və bu sayədə zəmanəyə görə hər cür məktəb və mədrəsələrin guşadına, maarifi-milliyyətimizin hüsul və nəşrinə çalışmaqdır.

Mətbuat səbəbilə irəli getmiş millətləri burada bizə nümunəyi ibrət olmaq və şahid gətirməyə hacət yoxdur. Bir vətən qardaşı, bir məmləkət övladı olan qonşumuz ermənləri, gürcüləri nəzərə alaq. Tiflisdə qonşularımızın qırxa qədər mükəmməl mətbəələri var. Hər həftə yüzlərcə təzə kitablar nəşr edilir. Bizlərdən çox-çox əvvəl elm və mərifət yolunu rəhbərləri salamat, sənət və ticarəti vasiteyi-qüvvət və qüdrət bilən vətəndaşımız ermənilər hələ bir yanda dursun... gürcülər də bizə nisbətlə qəflət və dəliliklərini bir dərəcədə qanıb hüquqi-milliyyələrini mühafizə etməyə, mədəniyyət aləminə addım atmağa başladılar. Bu başlayış, bu hərəkət şəksiz bu axır vaxtlarda açdıqları mütəəddid, mükəmməl mətbəələri, ciddi qəzetləri, kitabları səbəbilədir... Gürcü vətəndaşlarımızın Tiflisdə gündəlik bir neçə böyük və xeyirli qəzetləri var. Bu yaxında, bəli, bu yaxında iki gündəlik qəzetə daha rüsxət aldılar.

Demək ki, o qədim gürcü qonşularımız da bizdən əvvəl tərpənib, bizdən əvvəl gözlərini açıb bir neçə gündəlik və böyük qəzetə, bir çox qayət böyük mətbəələrə sahib oldular. Cənab haqq daha ziyada artırsın... vətəndaşımız ermənilərin qeyrət, həmiyyət və tərəqqiləri isə daha özgə bir halda, daha gözəl bir surətdədir. İndiyə qədər mövcud olan dörd böyük və nəfli qəzet və jurnallarına bu il bəli, bəli, bu keçən ayda iki qəzet daha əlavə etdilər. Demək ki, yaxında Tiflisdə altı erməni qəzet və jurnalı nəşr ediləcək. Nə xoşbəxtlik, nə ali hümmət. Nə gözüaçıqlıq, bərəkallah! Qeyrət, həmiyyət və vaxtdan istifadə belə olmalıdır. Bu kimi qədim qonşumuz kim bilir daha neçə tazə qəzet və jurnal üçün hökumətə rüsxət ərzihalı vermişlər. Həm də verməlidirlər. Hərçəndi qonşularımızın bizə görə qəzetləri, kitabları

çox artıq isə də, Avropanın ən kiçik hökuməti olan Şvetsariyaya (İsveçrə), ya dünənki bolqarlara nisbətən bugünkü qəzetləri, kitabları çox az, bəlkə heç deməkdir. Bu səbəblə hamımız çalışmalıyıq. Çalışan qul məhrum qalmaz. Allah çalışan qulun din və məzhəbinə əsla baxmayıb dünya ümurunda hər kəsin çalışdığı qədərincə verər.

Yuxarıda qonşularımızın bizə görə olan tərəqqilərini zikr etməkdən qəsdim onlara həsəd etmək, çox görmək deyil, qəsdim budur ki, qonşularımız ilə bərabər biz də rahət və insanca yaşamaq üçün mərifət və mədəniyyətdə mütləq onlarla bərabər olmalıyıq. Çünki bir vətəndə, bir evdə yaşayan bir məmləkət övladlarının elmləri, qanacaqları bir payədə olmalıdır ki, bir-biriləri ilə qardaşca rahət yaşaya bilsinlər. Bəli, aradakı ixtilaf cəhətilə axırı peşmanlıq və zərərdən özgə bir şey olmayan qəza və vüquatə meydan verilir ki, insanlıq, qonşuluq nöqteyi-nəzərincə nə qədər baisi-təəssüf edilsə, yenə azdır. Halbuki vətəndaşlıq, qonşuluq vəzifəsi nəinki bir-birilərilə heyvanca qovğa etmək, bəlkə mühafizeyi-vətən üçün yekdigərinə kömək və müavinət verməkdir. Qonşu evini yıxanın heç vaxt evi abad olmaz... Xülasə, mərifətli qonşuların arasında mərifət və insanca yaşamağımız mütləq zamana görə elm və mərifətimizin olmağına bağlıdır. Burasını bildikdən sonra hamı ömrümüzü, varımızı bu məqsədə sərf etməyimiz vacib görünür. İstədiyimiz bu mərifət və rahətin qapısı isə qeyrilərdə gördüyümüz kimi, ancaq mətbəə, mətbuatdır – maarifi-milliyədir. Heyif, min kərə heyif ki, din və millətin əsil ruhu olan elm və mərifətin qüvvətini hər kəs qanıb gecə-gündüz o məqsədə çalışdıqları halda bizlər əshabi-kəhfdən, yaşıl külah geyən mələklərdən... bilməm daha nələrdən, nə xəyallardan kömək və müavinət ümid edirik? Budur ki, bizlərdən əlli-altmış kərrə az olan qonşularımız qeyrət və fərasətləri cəhətilə bir xeyli təzə kitablara, qəzetlərə sahib olduqları halda bu böyük Qafqazda bizim mükəmməl bir mətbəəmiz, yarım jurnal və məcmuəmiz belə yoxdur. Hərçənd Rusiya hökuməti Rusiyanı müsəlmanlara bildirmək və Şərq ilə daha ziyada kəsb-münasibət etmək üçün türk dilində bir qəzetin vücudunu vacib bilib, "Şərqi-Rus" adında bir qəzet ehdas və mühərrirliyini məlum olan şəxsə həvalə elədisə də, o da hər nədənsə çox davam edə bilməyib əcib bir yuxuya tutulmuşdur. Bizlərə heyiflər olsun ki, təzədən nəşr edilməyinə dua ilə məşğuluq. Aman yarəb! Hər kəs gün-gün irəli getdiyi halda bizlər hər işdə, xüsusilə maarifdə fərsəx-fərsəx geri gedirik. Bilməm bu gedişlə halımız nə olacaq? Nə üçün bizlər də öz

dərdimizə qalmırıq? Nədən məyus oluruq? Nə üçün əli qələm tutan həmiyyətli, məlumatlı mühərrirlərimiz yazılarını bu xüsusda qanlı yaşla yazmırlar? Xüsusilə, zəmanəmiz özgə zamandır, demək olmaz ki, həmişə bu halda qalacayıq. Xeyr, xeyr! Ümidi kəsmək Allahın nemətindən, mərhəmətindən əl çəkmək deməkdir. İnşallah gələcəyimiz üçün ümidlərimiz, xahişlərimiz ziyadə böyükdür. Lakin bizlər fürsəti itirməyib millət qeydinə, məişət dərdinə, vətən halına qalmağa artıq başlamalıyıq? Bizlər hənuz bu yolda nə üçün çalışmıyaq, başlamıyaq ki, qonşularımız bu başlayacağımız yolun yarısını çoxdan keçib nihayətə, məqsədə çatmaq üçün nəinki mallarını, canlarını belə fəda edirlər. Heyif ki, bir millətin oxumuşları millətlərinin dərdində iştirak edib istiqbali-millətləri üçün rahatlıqlarını, varlarını turban etdikləri halda, bizim əksər abrazovannılarımız guya filosofluq, farmazonluq satıb hər şeydən biqeyd, bidərd qalıb, rahat-rahat ömr sürürlər? Bu hal ilə, bu qeydsizliklə, bu həmiyyətsizliklə bərabər nə üzlə, nə cəsarətlə biz də özümüz bütün ömrünü millətin insan olmasına, rahat yaşamasına sərf edən peyğəmbəri-zişanın tabeyi-ümməti hesab edəcəyik? Millətin qeydinə, dərdinə qalan xəlifələrin, padşahların, üləma və hükəmanın əcəba hansı biri zəhərsiz, xəncərsiz döşəgində rahat-rahat vəfat etdi? Tariximizə baxılsın: millətin salamatlığı üçün can fəda edən böyüklərimizin həddi-hesabı varmı?

Nə hacət, hər il məhərrəmlikdə zahirən başımıza kül-saman töküb üst-başımızı qanlara bulayıb, guya böylə əməl və rəftarlar ilə matəmini saxladığımız nuri-çeşmi-millət, müxəffər şühadayi-ümmət olan həzrəti imam Hüseyn əleyhsalamın vaqeyi-şəhadəti bizlərə nümuneyi-ibrət, misali-qeyrət deyilmi? Heyif, sədd həzar heyif ki, o şahidi-millətpərvərin matəmini bu zəmanəyə görə özgə cür tutmaq, mərsiyələrimizi daha təzə bir sayaq millətpərvəranə üzrə oxutmaq lazım gəldiyi halda sahibinin niyyət və məsləkindən bixəbər hərəkət edən cansız maşın kimi qayırdığımız iş və əməldən özümüz də bixəbər bulunuruq. Məhərrəm ayının beş-on günündə aciz uşaqlar kimi "yalnız" başımıza küllər töküb zəncirlərlə öz-özümüzü vurub yaralamaq, ayə, ali bir niyyət uğrunda şəhid olan bu nümuneyi qeyrət o mücəssəmi həmiyyət üçün yas və matəm saxlamaqmıdır? Hər insaf sahibindən sorarım: lazım deyilmidir ki, hər kəs tutduğu işin, icra etdiyi matəmin nədən ötrü və nə cür bir zati-şərif üçün olduğunu layiqi ilə bilsin.

Lazım deyilmidir ki, bu ali uğurda biqayidə xərc edilən milyonların dərgahı-ilahidə qəbula keçəcəyi ümid edəcək bir yolda sərf

edilib-edilmədiyini qansın. Lazım deyilmidir bilək ki, o qərarətileyn rəsul bir cüzi, bir ovuc qövm və təlüqatı ilə öz qüvvətindən neçə min kərə artıq olan bir qüvvəti-əziməyə nədən ötrü qarşı durdu?

Lazım deyilmidir bilək ki, nə üçün bu riqqətəngiz, o ciyərsuz hal ilə şəhadətə, o dəhşətamiz surət ilə fədaicanə razı oldu?

Şəksiz ki, qeyrət və həmiyyəti qəlbi ali hümmətinə sığmayan bu millət aşiqi şəhadəti-ölümü, xeyr, bu ölüm surətində əbədi varlığı, əsarət və həqarət ilə yaşamağa tərcih verdi.

Şəksiz ki, təlüqatının, hümmətinin hüququnu mühafizə etmək, hürr və müstəqil yaşamaq, özgələrə boyun əyməmək ən birinci müqəddəs niyyəti idi.

Şəksiz ki, niyyət buyurduğu kimi həyat olmadığı surətdə məqsədi-alisi, hüquqi-qövmiyyəsi, istiqbali-milliyyəsi yolunda qurban olmağı canına minnət bildi.

Şəksiz ki, niyyət və məsləkində səbat və qərar edib Kərbəla dəhşətini hürriyyəti-vicdaniyyə, əsbiyyəti-qövmiyyə, heysiyyəti-milliyyə, hüquqi-insaniyyə qanına qərq etməyi məhz o tökülən qanların verdiyi qüvvətlə gələcəkdə açılacaq olan millət çiçəklərinin hüsn-surətlə yaşamaqları üçündür. Heyhat, harda o niyyətlər, o fədailiklər, harda bizim bugünkü qafilanə rəftarımız, başlarımıza bimənə, cahilanə kül-saman tökməklə iktifa etməyimiz?

Baxınız: o ali, qütsi niyyətlər ilə bizim bugünkü cahilanə, müqəllidanə əməllərimiz arasında nə böyük təfavütlər var? Allah eşqinə deyiniz: öylə bir zati-qütsi-məabin şəhadətini yad ilə matəm lazım aladasını ifa etmək hüququ milliyədən, mərifəti-diniyyədən bixəbər bir qisim əvamü nasın yalnız başlarına küllər, döşlərinə zəncirlər vurub küçələrdə gəzmələri iləmi olar? Ey şühiddini-həqiqət, vəhədaniyyət, ittihad naminə deyiniz: böylə bir zati-səxavət göstərib, "ehsan" adı ilə bəzi dövlətlilərimizin kasıblardan artıq bir-birilərinə "qonaqlıq" vermələri iləmi şahi-şühədanın ruhi mübarəki şad edilmək istənilir? Aman, əziz qardaşlar! Əsas və həqiqətdən nə qədər uzaqlaşmışıq! Budur ki, bu uzaqlaşmağımız, rahət zənni ilə bugünkü həqarət və zillətlə yaşamağımız etdiyimiz əməl və tutduğumuz işlərin təbii niyyətsiz, fikirsiz olduğundan, yəni həqiqətdə nə cür çalışmaq gərək olduğunu bilmədiyimizdəndir. Bugünkü əksər əmələ və rəftarımız müvafiq şəri və əqli olmadığına, hüquqi-insaniyəmizi mühafizəyə, istiqbali-milliyəmizi təminə əsla yaraya bilmədiyinə əlbət

əvamünnasımızın əqli irməz, fikri çatmaz. Çünki onlar zəmana görə məlumati-aləmiyyətdən, üsuli-vəzi-aləmdən bixəbərdirlər. Bu xüsusda onlarda o qədər qüsur axtarmaq, bu barədə onlardan bir şey gözləmək olmaz. Əlbəttə, hər kəsin elminə, dövlətinə, mənsəbinə görə xidmət, pul, iş istəyirlər. Bu xidmətlər, bu işlər əlbət və əlbət ki, oxumuşlarımızdan, abrazovannılarımızdan, xüsusilə millət ataları hökmündəki rəisi-ruhanilərdən gözlənir. Amma heyif, minlərcə heyif ki, əksər ruhanilərimiz, abrazovannılarımız ancaq öz hallarına, öz qarınlarının dərdinə qalıb bütün milləti istərsə zülm və cəhalət atəşi tutsa, tərpənməmək, dinməmək fikrindədirlər.

Aman yarəb, nə üçün beşgünlük dünya məhəbbətini, beş-on dəqiqəlik yalançı rahəti, az vaxtda puç olacaq cüzi mənfəəti dünyəviyi-əbədi həyatə, mənəvi və mükafata tərcih edirlər? Oxumuşluq sifəti, böyüklük rütbəsi, milləti cəhalətdən, səfalətdən qurtarmaq bu vəchlə həmnövünə müavinət etmək deyilmi? Həqiqət, kül, torpaq başımıza ki, hər millətin abrazovannıları millətin salamatlığı üçün əvamünnas ilə hər cür rəftar, millətin hürriyyəti uğrunda mallarını deyil, canlarını belə fəda etdikləri halda bizim abrazovannılarımız safdil cəmaəti, hənuz maarif və millətpərvərlik aləminə addım atmağa başlamış qardaşlarımızı yersiz, vaxtsız rəftarları ilə, yazıları ilə, maarif və mədəniyyətdən uzaqlaşdırmağa bir növ səbəb olurlar. Aranı bu vəch ilə xarab edən bəzi həmiyyətsiz, qeyrətsiz abrazovannılarımızın bəd rəftarlarına baxıb cəmaətimiz, ümumiyyətlə, oxumuşlara küskün və onlardan şikayətçi kimidirlər. Hətta bu küskünlük təəssüf ediləcək elə bir haldadır ki, hər iki tərəfdə də arzu edilən hüsni-niyyət, sədaqət və müavinəti milliyyətinin büruzə çıxmasına ciddi mane olur. Bununla da qalmır: sadə cəmaətimizin böyük bir qismi hər yerdə əskik olmayan bir neçə bihəmiyyət, biqeyrət, biməslək müsəlman adındakı meymunların rəftarına baxıb mədəniyyəti o meymunların səfalətlərindən ibarət zənn edirlər. Müsəlmanlığın ehkam və əsasından qətiyyən bixəbər olub bir əxlaqsıza olan eşqindən və ya qulluğa olan tamahından ötrü təbdilidin edən səfehlərə, məcnunlara baxıb, ümumiyyətlə, oxuyanlardan, rusca oxumaqdan üz çevirirlər; uşaqlarını rus məktəblərinə verməmək fikir-cahilanəsinə düşürlər ki, nə qədər təəssüf edilsə, o qədər azdır... Başında bir az əqli və fikri olan müsəlmana layiqmidir ki, günün işığına qarşı duran milçəyə acıqlanıb günün işığını istəməsin və ya çörəyin acısına, yanığına rast

gəlib çörəkdən əl götürsün? İnsan üçün bir az elmlə abrazovannı (?) olmuş biəhəmiyyət, biqeyrət bəzi müsəlmanlara baxıb elm və maarifdən uzaq durmaq da mümkün və insan sifəti deyildir.

Baxınız, bu balaca təvəqqenaməmi yazmaqdan qərəz nə idi, dərdqəm bizi haralardan haralara apardı. Əsil məqsədi qoyub bizə nə haşiyələr yazdırdı. Belə uzun haşiyələrdən oxuyanların ürəkləri darıxmamaq üçün biz yenə məqsədə gələk: arada törəyən həmiyyətsiz abrazovannıların, işin əsil əsasını fikir edə bilməyən avamın hallarına baxmayıb ümidvarıq ki, xatir və xəyala gəlməyən bir çox müsərrətamiz halları, məhsulları doğulan zaman bizim istiqbalımız üçün də xeyirli işlər, səmərələr meydana gətirir. Çünki zəmanəmiz özgə zəmanədir. Zəmanəmizdə bir az görünməyə başlayan hürriyyət, ədalət, insaniyyət günəşi hərçənd bizim üstümüzdə, bizim üfüqümüzdə də doğulacaqdır. Lakin o günün işığından vaxtında istifadə etmək üçün indidən hazırlanmağımız, fürsəti itirməyib dərdləşməyimiz lazımdır. Dərdləşmək, görüşmək, xəbərləşmək, ərzi-hal etməyimiz üçün də əlbəttə, işə yarar, sözə keçər, qədri bilinər ümumi "dil"imiz olmalıdır. Bu ümumi nüfuzlu dil dəxi millətlərdə olduğu kimi, şəksiz, "mətbəə" və "mətbuatdır". Zira mətbəə və mətbuatı olmayan millətin dili yox hökmündədir. Dili olmayanın da mövcudiyyəti yox deməkdir. Dünyaya, ətrafa baxınız: hansı millətin mətbuatı çoxsa, o millətin sərvət, qüdrət və rahəti də çox deməkdir. Əks halda mətbuatı, yəni mənəvi dili olmayan millətin digər millətlər arasında nəinki etibar və nüfuzu, bəlkə adı-sanı da yoxdur. Çünki hər millət öz sağlamlığını, öz varlığını ancaq mətbuat ilə mühafizə edir. Sevgili millətimin istiqbalına, qüdrəti-atiyəsinə mənim ümmidim pək çoxdur. "Şərqi-Rus" idarəsində ola-ola özgə bir məsləkdə məlum olan xidmətim müddətində çap edilmək üzrə hər tərəfdən gələn yüzlərcə məktublar, məqalələr, əsərlər məndə şadlı ümidlər, həyatbəxş fikirlər oyadırdı. Cəmaətimizin bundan sonra da olsa qonşularımızdan ibrət alıb təzə kitabları, təzə əsərləri oxuyacağına, yəqin hasil etdim. Bu yəqin ümidlə hər dürlü cismani, ruhani zəhməti qəbul edib bu halda müsəlmanlarımız arasında gəliri-qazancı az, amma məna xidməti böyük, gələcəkdə şəni, qüdrəti artıq olan müntəzəm bir "mətbəə" güşadı fikrinə düşdük. "Cənab haqq şərik olanlarla – ittifaq edənlərlə bərabərdir" hökmünə əməl edib, mən əziz yoldaşlarım: əhli-qələmdən Məmmədquluzadə, tüncardan Şeyx Ələsgər Bağırzadə bu üçümüz ittihad edib Allahın tofiqi ilə Tiflisdə bir müsəlman

mətbəəsi açdıq, adını "Qeyrət" təsmiyyə etdik. "Qeyrət" mətbəəsinin ən birinci qəsdi-məsləki türkcə, farsca, ərəbcə kitablar təb və nəşr etməkdir. Ümidvarıq ki, millətin ən böyük ehtiyacı olan təzə kitablar və əsərlərin millətimiz arasında rəvacından ötrü bu xoş məsləki, xidməti buraxıb, təmini-məişət üçün yalnız ticarət kağızları çap etməyə məcbur olmarıq. Biz mətbəənin rəvac və tərəqqisini hərflərin gözəlliyində, edilən sifarişlərin doğru və xoş çap edilməyində, vaxtında hazır olmasında bilib, Allahın tofiqinə və bundan sonra yatmayacaq olan millətimizin həmiyyət və müavinətinə arxa verib heç bir dürlü məsrəf və xərcdən geri durmayacağıq. Az bir vaxtda mətbəəmizdə Misir və İstanbulun ən yaxşı və gözəl hərflərindən iki növ hərf hazır etdik və bundan sonra ehtiyaca və mühərrirlərin xahişinə görə Misirdən, İstanbuldan yenə lazım olacaq gözəl hərflər, qəliblər gətirmək niyyətindəyik. Hər cür səy ilə "Qeyrət" mətbəəsini elə bir hala gətirmək niyyətindəyik ki, həmiyyətli mühərrirlərimiz, yazıçılarımız, sövdəkarlarımız əsla zəhmət və çətinliyə düçar olmasınlar. Hərçənd xidmət ilə bərabər ticarət və çoxlu qazanca qənaət edib Qafqazda yüzlərcə olan qeyri millət mətbəələrinin arasında bu təzə müsəlman mətbəəsinin hüsn surətdə zavalına qeyrət edəcəyik.

Bununla bərabər əsil fikir və niyyətimiz budur ki, əldən gəldiyi, gücümüzün çatdığı qədər fənni, elmi, sənai, ədəbi tarixi kitabların nəşrinə vasitə olaq. Təzədən yazılacaq kitablardan savayı maarifdə xeyli irəli getmiş müsəlman millətlərinin ən gözəl və nəfli kitablarını Azərbaycanda işlənən ədəbi və bir dərəcə ümumi dilə çevirib nəşr eləyək. İndi biz acizanə yazılan bu "Dəvət" ilə Qafqazdakı hamı hamiyyətli mühərrirləri, müəllimləri, müdərrisləri nəşri-asar fikri-müqəddəsinə mütəvazianə, müstərrəhimanə dəvət edirik. Uzaqdakı mühərrir və müəllimlərimiz əsərlərini təb etdirmək üçün Tiflisə qədər gəlib zəhmət çəkmələrinə belə hacət yoxdur. Hər kəs açıq dil və açıq xətt ilə yazdıqları əsərləri xahiş buyursa, bizə göndərə bilər. Biz özümüz burada senzura verib rüsxət alarıq. Xüsusi edəcəyimiz şərt və müqavilə ilə gözəl surətdə çap etməyə qeyrət edərik.

Qeyrətli mühərrir qardaşlarımız acizanə olan bu fikirlərimizdə iştirak edirlər isə elə etmək ola bilər ki, bir neçə ay sonra (bu halda bir-iki böyük kitab çap etməyə məşğuluq) hər ayda, bəlkə, hər iki həftədə bir müntəzimən birər kitab və məcmuə nəşr edə bilək. Nə etməli, çarə nə? Madam ki, Qafqazda milli bir təb şirkətimiz, nəşri-asar heyətimiz yoxdur və bu halda olmağa da rüsxət verilmir və yaxud

demək də ola bilər ki, fədakarane bir surətdə rüsxət almağa hənuz çalışanlarımız yoxdur, bu surətlə də olsa millətimizi maarifdən, elmdən xəbərdar etməyə qeyrət etməliyik. Gözümüzü dörd açıb qəsb edilən hüquqi-milliyəmizi, hürriyyəti insaniyyəmiz istəməliyik. Dərdimizi, ehtiyacımızı bildirməliyik. Bununla bərabər millətimizə tərəqqi yolları olan ülum və fünuni-hazirədən, mükarim əxlaqdan, vəzaifinsaniyyədən, məhəbbəti-milliyyəyi-vətəniyyədən məlumat verməliyik. Biz bu fikrimizi ən əvvəl məsləkdaşımız mühərririfəzailpərvər İbrahimzadəyə ərz etdik. Aldığımız cavab da təvəqqe və fikrimizi qayət xoş hal ilə qəbul edib "Qeyrət" mətbəəsi vasitəsilə hər vaxt kiçik, böyük əsərlər, məqalələr nəşr edəcəyini bildirməklə bizi bu ağır işimizin əvvəlində məmnun etdilər. Ümidvarıq ki, bu "Dəvət" və müraciətimizdə sair həmiyyətli, qeyrətli mühərrirlərimizi dəxi qəsd və məsləkimizdən xəbərdar olub aciz, lakin sevgili millətlərinə, hər şeydən artıq maarifə möhtac olan qardaşlarına "Qeyrət" mətbəəsi vasitəsilə də vəzifeyi-müqəddəslərini əda edərlər.

Cəmaət və millətimiz təzə kitabları oxumurlar, – deyə, onları həmişə töhmət etmək, əlbəttə, olmaz və burası da hərçənd doğrudur ki, cəmaətimiz təzə kitaba, əsərə pul verməyə öyrənməyib. Bir kitab və qəzetdən qırx-əllisi oxumaq istəyir. Amma çarə nə? Yenə həmd və şükürlər etməliyik qırx-əllisi bir kitabdan da olsa oxurlar. Oxumaq istərlər. Əlbəttə, belə-belə oxumağa həvəs edərlər. İnşallah bir vaxt olar ki, bizim cəmaətimiz da başqa millətlər kimi kitab və qəzeti çörək kimi insan qəzası bilib hər kəs öz azuqəsini özü üçün alar. Biz bundan sonra, yəni çəkdiyimiz bunca əziyyət, gördüyümüz bunca sıxıntı və təcrübələrdən sonra ümidvarıq ki, məzmun və mündəricatı nəfli, dili və yazısı açıq kitabların oxunacaq vaxtları artıq çatmışdır. Ona şəkk-şübhə yoxdur ki, bundan sonra gözlərimiz açılmaz, başlarımız işləməzsə, biz Rusiya müsəlmanlarının adları – Gəncə, Şəki, Şamaxı, Bakı, İrəvan, Naxçıvan, Qarabağ... xanlarının adları kimi, yalnız tarix səhifələrində qalar. Aman-aman! Bu kimi məyusiyyəti, ümidsizliyi nəinki yazımıza, xəyalımıza belə gətirməyək. İnşaallah irəlidə tərəqqi ümidimiz, bizim də mərifətli millətlər arasına keçməyə yolumuz çox-çoxdur. Bu qədər ki, bu ümidin ancaq mətbəə, mətbuat, bunların vasitəsilə maarifi-milliyyəmizin nəşr edilməyində bilməliyik. Həmd olsun cəmaətimizin lisanı və mənası açıq yazılan kitabları oxumağa başlamışlardır. "Lisan" dedim də, yadıma gəldi: yazılan kitabların rəvac və məğlubiyyəti, intişarı mütləq və

mütləq lisanın açıqlığındadır, asan anlaşılacaq kitablar təbii çətin anlaşılır. Çətin, zor anlaşılan kitabları isə, əlbət, əksər oxuyan sevməz. Az oxuyan istəməz. Cəmaət üçün yazılacaq kitablar əlbət və əlbət ki, mümkün mərtəbə cəmaət dilinə yaxın olmalıdır. Əks halda heç gözləməyək ki, avam dediyimiz əksər cəmaət ibarəli yazılıb, asan anlaşılmayan kitablarımızı pul verib alalar. Bu səbəbə deyə bilərəm ki, kitabın oxunmasını, rəvacını istəyən mühərrirlər əldən gəldiyi qədər açıq dilli, açıq mənalı yazmağa hümmət buyurmalıdırlar. Həqiqətən, hamımız çalışmalıyıq ki, çətin və mənalı ərəbi, farsi sözlərin yerinə türkcə sözlər yazaq. Yazı yazmaqdakı hünər və mərifəti ərəbi, farsi sözlərin çoxluğunda bilməyək. Bəlkə mümkün mərtəbə sadə yazmağı özümüzə adət edib, özgələrə də nümunə, örnək olaq. Bu sözləri mən yaza-yaza, bu lafları mən vura-vura bu balaca "Dəvət"də xeyli uzun mətləb və cümlələr, çox ərəbi, farsi sözlər yazmağımın səbəbi, əlbəttə, hər kəsin yadına gələr və gəlməlidir. Ümumcəmaət üçün yazılacaq kitab, əlbəttə, belə yazılmaz. Mən bu məcmuəni xüsusilə oxumuşlara qarşı yazdığım və indi də deyə bilməyəcəyim bir keyfiyyət də işin içində olduğu üçün belə yazmağa məcbur oldum. Yoxsa özüm ibarəli yazıların düşməniyəm. Təkrar edirəm: bizim dərdimizə dərman edəcək hüquqi-milliyəmizi, vəzaifi-insaniyyəmizi bildirəcək hüsni-əxlaq, məhəbbəti-tövsiyə və diniyyə dərsləri verəcək mətbuatı gələcək və səlamətliyimiz üçün vasitəyi-yeganə hesab etməliyik. Bununla bərabər bəzi müsəlman adında müfsid, xainimillət, düşməni-həmiyyət olan dənilərin, ədəbsizlərin məsləklərini qanıb zahirlərinə aldanmamalıyıq. Bir məsləkdə, bir sözdə, bir qərarda, bir fikirdə durmayıb, pul və mənfəət gələn tərəfə baxıb oynayan abrazovanni nafilərin yazıları ilə ərbabi-həmiyyətin yazıları fərq edilməlidir. Hərçənd bir vaxt, hətta tez vaxt olacaq ki... adamların boyaqları, iç üzləri meydana çıxacaq, onları hər kəs tanıyacaqdır...

Aman-aman, əziz qardaşlar! Zəmanəmiz çox mərhəmətsizdir. Çalışmayana heç bir zad vermir. Zəmanəmizin bir saatı itiriləcək, fürsətin bir dəqiqəsi əldən qaçırılacaq zaman deyil. Yaxşı, bəlkə, yəqin bilməliyik bu zamandakı cüzi qəflətimiz, yuxulamağımız gələcəkdəki ümidlərimiz tez sağalmaz yaralar, zərərlər vuracaqdır. Hər işin bir vaxtı, hər vaxtın bir işi vardır. İndiki vaxtın işi odur ki, gözlərimizi dörd yerinə səkkiz açıb özümüzün hər vaxt məqul olan milli və şəri adət və üsullarımızı şiddətli tutmaqla bərabər, qonşularımızdakı məhz mərifətli işləri, xeyirli üsulları mütləq götürməliyik. Məri-

fətli millətlər arasında aciz, zəif, həqir qalmayıb hünər və sənətdə onlar ilə bərabər olmalıyıq. Hürr, müstərih, qorxusuz, insanca yaşamalıyıq. Yoxsa mərifətli millətlərin arasında rahat yaşamağı bacarmayıb xəyala ümid bağlamaq, minillik ata-baba yurdlarını, cənnət kimi yerlərimizi buraxıb geriyə hicrət etmək... Öz elm və mərifətsizliyimizi öz dil və əməllərimizlə təsdiq etmək deməkdir. Gəliniz, ey milləti ruhu olan əziz mühərrirlər, gəliniz. Arada əskik olmayan bəzi xüsusi, şəxsi hallara əsla baxmayıb, əl-ələ veriniz! Fənni, ədəbi, sənai əsərlər yazınız, tərcümələr ediniz. "Qeyrət" mətbəəsi mənfəətli milli əsərləri ucuz və hüsni surətdə təb etməyə hər vaxt hazırdır. Millətimizin hər cür səlaməti üçün böyük-kiçik deməyib çalışaq.

Yek vücud, yek rəy, yek cəhət olub çalışaq!.. Yuxarıdakı yazılarım möhtərəm mühərrirlərə qarşı hərçənd xitab və vəz kimi görünürsə də, əsil məqsədi haşa vəz və əxtar deyildir. O xüsus mənim elmimdən, gücümdən, həddimdən artıq olduğunu bilirəm. Mən bu "Dəvət" ilə həmiyyətli mühərrirlərdən ancaq bir təvəqqe edirəm.

Həqiranə fəryad eləyirəm, acizanə yalvarıram. Təvəqqemi qəbil buyuran olursa, millətimiz üçün də xoşbaxtlıq!

Hərəkət insandan, bərəkət Allahdan.

Əsər 1905-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində eyni adla nəşr olunmuşdur.

AĞACI QURD İÇİNDƏN YEYƏR

Bir neçə ay əvvəl Rusiya müsəlmanları bir xeyli qeyrət və hərəkətə gələn kimi oldular. Uzun qəflətdən birdən-birə ayıldıqlarını guya göstərmək istədilər. Hər tərəfdən hay-huy qopdu. Hər yanda qulaqlarımız "islah-reforma" sözlərilə doldu. Yaralarımıza məlhəm vurulacaq sandıq. Zəif vücudumuza qüvvət gələcək xəyal etdik. Hər qəlbdə bir fərəh, bir ümid oyandı. Hər başda tazə bir çiçək açılacaq kimi oldu. Hər səmtdə bir təlaş, hər kəsdə haldan narazılıq görünürdü. Hər əhəmiyyətli, bilikli müsəlmanda millətinin dərdinə çatmaq, qayil qardaşlarının qeydinə qalmaq kimi böyük-böyük fəzilətlər, böyüklüklər büruz etdi. Hər yandan millət vəkillərimiz böyük şəhərlərə toplandılar. Bitməz-tükənməz dərdlərini, dala qalmalarının səbəblərini, həqir, fəqir olmaqlarının baislərini axtardılar. Dərdləşdilər,

hətta uzun-uzadı mübahisələr, münaqişələr etdilər. Böyük zəhmətlər ilə, uzun diqqətlər ilə millətin naxoş və zəif vücudunu müayinə etdilər. Hər həmiyyətli, bilikli həkimlər kimi millətin ehtiyaclarını, qara dərdlərini ağ kağızlara köçürdülər. Məlhəm verilmək üçün uzun-uzadı reseptlər, ərzi-hallar yazdılar. O yazılan məlhəmləri almaq üçün yolun uzaqlığına, zəhmətinə baxmadılar. Peterburqa qədər getdilər. Ərzi-hallarını dövlət şurasına dövlət kişilərinə verdilər. Bununla da kifayət etmədilər: dərdlərini, istədiklərini paytaxt qəzetinə yazdırıb aləmə elan etdilər. Böyük dövlət kişiləri ilə üz-üzə görüşdülər. Zərurətlərini, dərdlərini, dil ilə də bəyan etdilər. Sonra?.. Sonra nə olacaq? "Biz istəklərinizə baxarıq, özgə millətlər ilə haqlarınızı bir etməyə mümkün qədər çalışarıq..." cavabını aldılar. Yerlərinə sağ və salim qayıtdılar. İndi onlar ilə bərabər müsəlman camaatı verilən ərzi-halların, alınan vədlərin xeyirli nəticələrini gözləyirik. Bəli, biz də qeyri-məzhəb – rus təbəəsinə verilən hüquq və müsaidələri gözləyirik. Biz də bu mədəniyyət, insaniyyət əsrində hər xüsusda mədəni insanlar cərgəsinə qoyulacağımızı gözləyirik. Bəli, hamımız gözləyirik. Abrazovanımız, alimimiz, ruhanimiz, hamımız gözləyirik. Heç kəsdə ciddi hərəkət, işinin dalına, peşinə getmək yox. Guya Peterburqa, Tiflisə vəkillər göndərib ərzi-hallar verməklə hamı borcumuzu, işimizi qurtarmış hesab edirik. Aman, nə yaman xasiyyətimiz var. Bir işin, bir tədbirin sifdəsində cuşə gəlirik, barıt kimi alovlanırıq, göylərə qalxırıq. Lakin çox keçməyir ki, yenə sükutlaşırıq. Yenə sönürük. Yenə diblərə enirik. Xüsusi işlərimiz kimi ümumi işlərimizi də "Allah kərim" quyusunun lap dərin yerinə tullayırıq. İştə bu qəflətimizdən, bu bədbəxtliyimizdəndir ki, verilən ərzi-hallardakı bəzi istəklərimizə acı-acı cavablar alırıq da, xeyrimiz belə olmayır.

Bəli, bəzi məsələlər, xüsusilə ölüm-dirim məsələmiz olan "maarif və məktəb" məsələmiz xüsusi şüarlarla qurtarılır. Həll edilir ki, biz hələ ağzımızı açıb cavab, ümid gözləyirik. Məsələn, keçən həftə Tiflisdə "ibtidai məktəblərində nə sayaq dərs verilməlidir" məsələsinə baxılırdı. Bu şuranı Zaqafqaz maarifinin müdiri-ümumisi (papeçitel) meydana gətirdi. Bu əhəmiyyətli məclisdə bizdən az olan qonşularımız gürcü və ermənilərdən doqquz müəllim ola-ola, bizdən ancaq iki yarım müəllim var idi. Biri Soltan Məcid Qənizadə, digəri Muxtarov, yarısı da Hacı Kərim Sanıyev idi. Danışıq və məsləhət arasında Qənizadə müsəlman dərslərinin bir az artıq olmasını xahiş etdi. Buna cavabən qospadin Sanıyev: "Kak mojno – heç müm-

künmü" və qeyri laflar ilə etiraz etdi. Qori darülmüəlliminin baş mürəbbi və müəllimi Smirnovun gözünə girdi, iltifatına nail oldu. Sonra söz hansı ildə hansı müsəlman dərsinin oxunması xüsusinə gəldi. Cənab Qənizadə həzrəti-peyğəmbərin və islamın ətrafa nə sayaq ilə yayıldığının tarixi ikinci ildən başlamaq lazım olduğunu söylədi. Smirnov ilə Hacı Kərim Sanıyev buraya şiddətli etiraz etdilər. Bu dərslərin axırıncı illərdə oxunmasını məsləhət bildilər. Çünki axırıncı ildə şagirdlərin çoxu məktəbdə qalmayır. Bundan savayı əgər müsəlman uşaqları tarixi-müqəddəsdən qısaca tarixlərin irəli öyrənsələr ürəklərində yer tutar. Sonra özgə şeylərə yer və vaxt qalmaz. Bərəkət versin ki, Muxtarov onların bu rəyinə yoldaş olmadı. Heç bir cəhətlə dinib-danışmadı. Bu məclisdə ortaya qoyulan rəylər, danışıqlar qurtardı. Guya təzə proqram tərtib edildi. Bu təzə "proqram" 1880-ci ildə keçmiş sərdar Voronsovun vaxtında tərtib edilən köhnə proqramın bir az öyrülüb-çöyrülməsindən başqa bir şey deyildi. Ayda dörd manat vəzifə ilə o qədər ağır yükü boynuna götürən müəllimlərin, müsəlman dərslərinin və verilən məvaciblərin barəsində sonra yazaram. İndi biz müsəlman vəkillərinə və sahib rəylərinə gələk. Müsəlmanların ehtiyacı və nə yol ilə rahət və mərifətli olacaqlarını nəzər alıb ona görə qərəz və riyasız söz danışmağa dəvət olunan abrazovannılarımızdan bir az bəhs edək. Bəhs edək, amma məsələ çox uzun, buraya sığmaz. Yaxşıdır ki, burasını da yenə sonraya buraxıb əvvəlinci şuraya çağırılan Sanıyev ilə bir az danışaq: A cənab, bildinizmi ki, nə cür böyük və ağır bir iş görməyə çağırıldınız? Bildinizmi ki, neçə milyon müsəlmanın diriliyi və ya ölümü zati-fərasət mabeyinizin yadı-ixtiyarına verildi? Bildinizmi ki, bu zəmanəyə, millətinin bu halinə görə ehtiyacımız, dərdimiz nədir? Əgər bilib, ona görə müsəlman dərslərinin az olmasını istədinizsə, qeyrət və qanacağınıza söz yox... bilməyib, özgənin ağzına baxıb danışıbsınızsa, qeyrət və fərasətinizin nəhayəti yox... Millətin vəkili yerində olduğunuz üçün sizə bir neçə söz soruşmağa məcbur oldum. A təcrübəli müəllim, Gəncə və qeyri yerlərdəki müəllimliyinizdə nə qayırırdınız? Gəncə müsəlmanlarının sizə olan hörmətləri müqabilində nə iş gördünüz? Heç bir kərə təcrübə etmək istədinizmi ki, vəkili, əqillisi, böyüyü siz cənabınız olan bu məzlum millət uşaqlarının tərəqqisi nə yol ilə əmələ gəlir? Heç bilmək istədinizmi ki, ana dili ilə olan təlim sayəsində millət balaları nə cür tərəqqi edirlər? Heç eşitmədinizmi ki, sizin kimi müəllimlərin ayağı Gəncə müsəlman-

rus məktəbinə girməkdən əvvəl məktəbin tərəqqisi, şagirdlərin sanısı nə mərtəbədə idi? Ana dilinin nə dərəcədə gərək olduğunu müsəlman kəndlərində dərs verən gürcü və erməni müəllimlərindən heç duymadınızmı? Gürcü müəllimləri müsəlman kəndlərində müsəlman dilinin lüzumunu rəislərinə rəsmən yaza-yaza siz heç öz ana dilinizi, ananızı tanımaq istəmirsiniz? Nə deyim. Bu barədə yazılacaq sözlər çox. Lakin "Həyat"ın qiymətli sütunlarını belə adi yazılar ilə doldurmaq istəmirəm. İş, söz öz nəfsinizə məxsus olsaydı, sizin üçün bir məqalə deyil, bir hərf belə yazmazdım. Burasını da deyim ki, təqsir yalnız sizdə deyil. Bu beş-altı milyon müsəlmanın içində təcrübəli, məlumatlı müəllim yalnız sizmi göründünüz? Halbuki çox müsəlmanlar ilə bərabər maarif rəisləri də bilirlər ki, heç bir yerdə üz suyu ilə müəllimlik vəzifəsini yerinə yetirmədiniz...

Ay mənim sevgili məzlum millətim, vaxtdır oyanaq. Vaxtdır iş görək. Bu sentyabr ayının on beşinə qədər hər uyezdə, hər quberniyada millət vəkilləri seçilib camaatın rahatlığını, məmləkətin abadlığını müzakirə edəcəkdir. Aman, aman, olmaya ki şeytanlara, suya verənlərə, bir neçə istəkan çayın xatirinə aldanıb quzu şəkildəki qurdları vəkil seçəsiniz. İş əhəmiyyətlidir. Zəman nazikdir. Olmaya ki, özünüzü içinizdən qurd yeyə, olmaya ki, öz əlinizlə öz qəbrinizi qazasınız. Sonradan of-tuf yol etməz. Bilmirsək, qonşularımızdan dərs və ibrət götürək.

"Həyat" qəzeti, 7 avqust 1905, №65

QƏBAHƏT SİZDƏ VƏ BİZDƏ

"İrşad"ın 112-ci nömrəsində "Hadi" imzası ilə ən bəsirətli bir alimimiz tərəfindən yazılan məqaləni diqqətlə oxudum. Məqalənin ibtidası xeyli bəsirət və həqiqətnümadır, fəna filillah bir alimi-rəbanın ürəyindən qopan avazi-qüdsi və ruhanidir. Çox az alim tərəfindən izhar edilə bilən mütəvazehanə, lakin alicənabanə, doğrudan hadiyanə etiraflardır. Bu zamanda çox nadir eşidilən münsifanə, fəzlanə, xudapəsəndanə kəlimatdır. Cənabi həqq belə həqiqət bin, şikəsteyi-nəfs, fədakarani-millət fazilləri öz elmi-hürriyyəti ilə aramızda artıq eləsin.

Fəzilətli cənab Hadi əfəndi həzrətlərinin məqalələri ümumiyyətlə gözəl yazılmışdır. Ancaq məqalələrin axırlarını eyni ilə qəbul

etməkdə fikir və vicdanıma nə qədər dedim ki, "hər nə yazılmış isə çox əla, sənin xoşuna gəlmirsə, gəlməsin. Bəlkə həqiqət elədir. Hər sözü çəkib uzadıb peşindən düşmək "hüsn-zənnin" xilafıdır. Xüsusilə bu cür fazil rəbbanilərin qabağında dinmək sənin həddin deyil..." Lakin nə çarə ki, belə zəif sözlər ilə məhkəmeyi-vicdanımı aldadıb rahat ola bilmədim. Zira hər yandan müddəi qüvvələr vicdanımın üstünə tökülüb dedilər: "Nədən öz fikrini, doğru zənn etdiyin sözü açıq demiyəsən? Bu nə yaman adətdir ki, alim Hadiləri də müdara və yalançılıq ilə aldadasan? Halbuki bilmədiyini öyrənmək eyib deyil, bəlkə fəzilətdir..." İştə bu tövr bir mühakimə ilə vicdanıma məğlub olub aşağıdakı fikri-qasiranəmi ərzə cəsarət eləyirəm:

"Hadiyi-möhtərəm əfəndi! Buyurursunuz ki, "üləma islamın rükni-əzəmidirlər. Üləma avam camaata görə şəhərin hasarı və heyvanatın çobanı kimidir..."

Bəli, əfəndim, bəli. Bunda heç şəkk yox ki, üləma həmişə hasar və çoban kimidirlər. Şəkk yox ki, şəhərin hər cür xoş və bədbəxtliyi hasarın dərəceyi-mətanətinə, sürünün səlamət və həlakəti çobanın mərtəbeyi-dərayətinə nə tövr bağlı isə, camaatın səadət və zilləti də üləmanın suyi-məlumat və həmiyyətinə o surətlə bağlıdır.

Əfəndim! Məqalənizin ibtidasındakı bu cür kəlam və qəziyyələrinizin nəticəsindən bunu çıxarmaq olur ki, "camaatın səadətinə üləma səbəb olan kimi zillətinə də yenə üləma səbəbdir". Halbuki zati fazilanələri bu açıq nəticeyi-məntiqiyyənin ziddinə olaraq məqalənizin axırında "camaatın səadətinə üləma səbəbdir, amma zillətinə dövlətlilər" buyurursunuz. Halbuki bir camaatın səadətinə üləma səbəb olanda, zillətinə heç vaxt özgələri bais ola bilməz. Madam ki, bir camaatın rükuni-əzəmi, səbəbi-tərəqqisi üləmadır, şəkk yox ki, səbəbi-zilləti də yenə onlardır. Bəli, madam ki, şəhərin səlamətliyi hasardan, sürünün rahatlığı çobandandır, əlbəttə, xərab və pərişanlıqları da yenə hasar və çobandandır. Belə olmuyan surətdə gərək deyək ki, "sürünün rahatlığı çobandan, amma həlakəti özündəndir". Belə isə Rusiyanın indiki idarəsi kimi mənasız bir şey olur.

Əfəndim, buyurursunuz ki, "ruhaniləri məzur bilirəm. Onlar əhvali-üləmadan bixəbərdilər, səbəbi dövlətlilərdir. Haçan dövlətlilər ruhanilər barəsində əlac və tədbir etməkdə səy etdilər. Haçan dövlətlilərin xəyali-şəriflərinə düşdü ki, mədrəsələrə gedib tələbələrin əhvalından xəbər alsınlar? Zənnimcə, bu biçarə camaati-islamın

zillətinə bais olan əvvəl dövlətlilər, sonra ərbabi-maarif, axırıncı dərəcədə ruhanilərdir".

Əfəndim, mən təsdiq edirəm ki, dövlətlilərimiz ruhanilərin qeydinə qalmırlar. Lakin bu xüsusda mən də bunları məzur görürəm, zira dövlətli də olsalar avamdılar, avam camaatdan biridirlər, nadandılar, məzurdular. Onlar da sizlərə, bizlərə baxırlar. Onlar da avama dair işləri, tədbirləri elm sahiblərindən gözlüyürlər. Əlbət ki, üləma və ərbabi-maarif təhsili-elm üçün mədrəsələr, məktəblər kuşadı fikrində, tədbirində olmazlarsa, nadan dövlətlilər heç vaxt onun xəyalında belə olmazlar. Madam ki, üləmanı çobana, camaatı (dövlətlilər ilə bərabər) heyvanat sürüsünə oxşadırsınız, o halda nə haqqımız var ki, sürüdən çobanlıq gözlüyək? Biz yatdığımız, öz dərd və qarnımızın qeydinə olduğumuz halda dövlətlilər gəlib bizə demiyəcəklər ki, "İslam Quranı bilməyə, Quranı bilmək elm və fənn bilməyə, elm və fənn bilmək məktəb və mədrəsələr açmağa bağlıdır". Demək ki, məktəb və mədrəsəsi olmayanın nəinki rahat məişəti, bəlkə dini-imanı da ola bilməz. Buna görə də ey üləmalar, ey sahibi-maariflər, gəlin həmiyyət edək, məktəblər, mədrəsələr qayıraq. Əlbət ki, belə tərğib və təşviqlər ilə bərabər işə ürəkdən çalışmaq dövlətlilərin deyil, elm sahiblərinin borcudur. Heç rəvadırmı ki, biz öz borcumuzu özgələrdən gözlüyək?

Əfəndim, buyurursuz ki, "haçan dövlətlilər mədrəseyi-ruhaniyyə bina etdilər?.." Bu sualınız müqabilində mən də cəsarətlə ərz edirəm ki, haçan elmin şərəfi ilə camaat arasında nüfuz və mal sahibi olan ruhanilər, maarifpərvərlər avam camaata və avam dövlətlilərə ürəkdən deyib çalışdılar ki, "bizdən həmiyyət, sizdən qeyrət, gəlin zamana görə məktəb və mədrəsələr açaq?" Alimlər haçan dedilər və özləri də baş çəkdilər ki, gəlin, cəmaət, cəmiyyəti-xeyriyyələr qayıraq, arada itib gedən zəkat və fitrələri bir müntəzəm sandığa yığıb gərək olan vaxtda müstəhəqq olanlara verək?

Alimlər haçan dedilər ki, elm və fənn təhsili ilə bərabər lamə-halə öz namus və canımızı mühafizə üçün zəmanəmizin iqtiza etdiyi, qonşularımızın təsdiq etdikləri əsbabi-nicata təşəbbüs edək? Alimlər və sahibi-maariflər haçan Allah rizası üçün, camaat xatiri üçün bir işə can və dildən iqdam etdilər də dövlətlilər və avamlar, yəni camaat dallarından qaçdılar? Heç vaxt inana bilməm ki, sahibi-elmlər boş sözləri "xala xətrin qalmasın" kimi çürük rəftarları buraxıb ciddi bir iş peşindən düşsünlər də, cəmaət gəlməsin? Burasını da ərz edim ki,

xəyal ilə plov bişmiyəcəyi kimi boş sözlərlə, quru vəzlərlə də iş görülməz. Ciddi iş görmək istəyən vaiz və sahibi-elm mütləq felən çalışmalıdır. Bir alim əgər söz ilə bərabər əməl ilə də çalışırsa, əcəba nələr, nələr vücuda gətirməz? Bir baxın Şamaxı kəndlərindəki əzəmətli məscidlərə ki, hər birisi 40-50 min manat ilə vücuda gəlmiş asari-əzəmiyyədəndirlər. Kimdir bunları meydana gətirən? Kim olacaq, Allah rizası üçün çalışan Hacı Əbdülməcid əfəndi və onun təşviqi ilə pullarını məmnuniyyətlə bəzl edən avam camaat və avam dövlətlilər. Kimdir yenə Şamaxıda yeddi-səkkiz min manatla mükəmməl bir üsuli-cədid məktəbi bina edən? Yenə cənab əfəndi ilə camaat. Aya bu camaat yenə həmin deyilmidir ki, bundan əvvəl belə şeyləri yadlarına da gətirmirdilər. Aya bu camaat yenə həmin camaat deyilmidir ki, Cümə məscidinin yanındakı faydalı gözəl bir mədrəsənin pərişanlığına uzaqdan tamaşa edib dururdular? Kimdir o asarəziməyə səbəb? Şəksiz üləma. Kimdir sonradan mədrəsənin pərişan olmağına, camaatın nifağına səbəb? Camaatmı?..

Kürdəmirdə, Ağdaşda o gözəl məscidləri vücuda gətirən kimlərdir? Üləma və camaat! Sonradan pristavlar peçatladıb əbdullahı ibadətdən mən etdirən kimlərdir? Avam camaatmı? Yox, vallah...

Bakıda ünas məktəbinin güşadına, Şəkidə üsuli-cədid məktəbinin açılmasına mane olan kimlərdir?

Bakıda bir neçə saatın içində mədrəseyi-ruhaniyyə üçün altmış min manat verən kimlərdir? Millətin ruhu hökmündə olan elə bir məhəlli-müqəddəsin inşasını təxirə salan kimlərdir? Əfəndim, bunlara və bunlar kimi yüzlərlə hallarımıza baxanda islamın zillətinə bais əvvəl siz alimlər, ikinci biz, bir cüzi oxumuşlar ərbabi-maarif və ən axırda dövlətlilərdir. Zəmanəmizin əksər alimləri (alim və rəbbaniləri haradan tapaq, əlbət ki, qəsdim adlı alimlərdir) öz dərd və qeydlərinin dalına düşdükləri kimi, ərbabi-maarifin çoxu da vaxtlarını klublarda, qumarlarda, içki və əyləncə məhəllərdə keçirməkdədirlər. Ağızlarından arabir çıxardıqları "vamillətə" sözləri dillərinin ucundadır. Əksər sözləri puçdur, quru siyahıdır. Millətə lazım olduqları vaxt yüz verst uzaqda qaçırlar. "İntelligentliyi" kraxmallı köynəkdən, başa şapka keçirməkdən, millətin ağır işlərində qaçmaqdan ibarət bilirlər. Avam camaatın qabağında nümunə olub millətə faydalı, ciddi bir iş görmürlər. Davaları, təfaxürləri, asıb-kəsmələri ancaq dillərindədir, xəyallarındadır. Demək ki, camaat-islamın zillətinə səbəb avam dövlətlilər, avam camaat deyil, bəlkə ruhanilər və ərbabi-maarifdir.

Xülasə, sizlər "bizim əlimizdən nə gəlir, boş deyib yazmaqdan qeyri..." dedikcə həmişə zillətdə qalacağıq. Binaəleyh siz quru duanı, biz boş deməyi buraxıb ciddi iş görməyə başlamadıqca heç bir işdən ümid gözləməməliyiz. Belə sözlərlə qəzet sütunlarını boş yerə doldurmaqdan savayı bir şeyə dəyməz. Xülasə, bizə dua və söz bəsdir. Siz də, biz də iş görməliyiz. İş, iş, iş...

"İrşad" qəzeti, 24 may 1906, №121

TİFLİS, 22 İYUN, SÜBH SAAT SƏKKİZ

Şəhərdə hər tərəf qapalı.

Heç bir tərəfdə tüccari, şəxsi bir hərəkət yox.

Nə bir araba səsi, nə fayton gurultusu, nə qonka hərəkəti və nə də insan tərəddüdü var.

Hər kəs bir yanda durub dəhşətli bir hadisəyə müntəzir. Deyəsən bu gün bura əzəmətli Tiflis şəhəri deyil. Türküstanın sükunətli, amma qan qoxusu, hökumət zülmü gələn bir çölü!

Bu günün gecəsində, göydən enən hürriyyət və ədalət mələkləri samai-təlqinlər ilə sabahın dəhşətli sükuniyyətini xəbər verdikləri üçün sübh tezdən bazara çıxmışdım. Şəhərin özgə yerlərindən hənuz xəbərim yoxdur. Lakin müsəlman bazarının ümumiyyətlə qapalı olmağı, məndə hüzn içində bir sürur peyda etdi.

Müsəlmanları hürriyyət və ədalət yolunda qonşuları ilə əl-ələ vermiş görüb, nəhayət dərəcədə şad oldum.

Bildim ki, müsəlmanlar da bu gün mühakimələrinə qəti baxılacaq olan 27 fəda əsgərin asılmaqlarına "tətil" ilə kömək etmək istəyirlər.

Məmnun oldum ki, müsəlmanlar daha əvvəlki kimi məvacibxor, biqeyrət abrazovanni və ruhani müsəlmanların fitnələrinə aldanıb insanlığın məşuqi-həyatvari olan azadəlikdən kənar durmayırlar. Ürəyimdə deyirəm: İlahi! Bu günləri də gördüm ki, müsəlmanlar öz xahişləri ilə, öz qanacaqları ilə dükanlarını bağlayıb vətənin həyati-siyasiyyəsinə, qonşuların hərakəti-hürriyyəti-pərvanələrinə qəlbdən şərik olurlar.

Mən bu xəyalda idim ki, uzaqdan qulağıma gələn hürriyyət mahnısı, marselyoza havası ortalıqdakı sükutu pozdu.

Mən belə dəhşətli sükut arasında marselyoza havasına əsla ümid etmədiyim üçün mat və heyran qaldım.

Çox çəkmədi, qorxunc silah və əsgərlər ilə mühasidə edilmiş bir dəstə yavuqlaşdı. Məyər məhkəməyə asılmaq qərarını duymağa gedən 27 vətən qurbanları, Menqrelski polkunun müttəhim əsgərləri!

Bu hürriyyət fədailəri ğayət şad və sürur içində həqiqətən millət xadimlərinə yaraşan bir igidliklə marselyoza havasını oxuya-oxuya qabağımızdan keçdilər.

Bunların bu qəhrəmanane rəftarları bəzi adamlara, xüsusilə əsgərlərə əks-təsir edib bir çox mərhəmətli gözlərin yaşardığını gördüm.

* * *

Günorta, tamam saat bir.

Tiflisin ən izdihamlı – şənlikli olan Qolovinski caddəsindəyəm, guya burası şəhər caddəsi deyil, dava meydanının bir səmti.

Ortada davaya müntəzir sükunətli bir hal, küçələrdə adam çox az.

Faytondan, atdan əsər yox. Qulağa gələn ancaq əsgərlərin ayaq səsləri.

Görünən yalnız tüfənglərin parıltısı. Buralarda hər yana baxsan əsgər, top, pulemyot, tüfəng gözə çarpar.

Deyəsən tamam bir dava meydanı!

Bir yanda dəhşətli toplar düzülmüş, bir tərəfdə pulemyotlar hazırlanmış.

O biri yanda kazaklar atəş açmağa müntəzir. Polkların biri bu yandan gəlir, o biri yandan gedir. Hətta əsgəri dairələrin damları üstündə əsgərlər əsgəri aynalar, durbinlər ilə ətrafı göz altında tutur. Gələni dayandırırlar, keçəni axtarırlar.

Əlimdəki müsəlman qəzetlərini intibahnamə zənn edib məni də səkkiz dəfə dayandırdılar. Əziyyət verdilər.

Bəli, toplar, pulemyotlar, vəhşi kazaklar hər tərəfə dəhşət salır, zəif qəlblərə qüvvətli görünürlərdi.

Lakin mənə qüvvətli və dəhşətli görünən əsir halətində yaşayan cahil əsgərlərin çoxluğu, topların heybəti deyildi, bəlkə bunca camaatın, bu əziz şəhərin bir vücud kimi səmayi-hürriyyətdən gələn ilahi bir qüvvəyə tabe olub ittifaq etmələridir.

Bu gün Tiflisdə ən aciz çörəkçinin, hətta fağır suçunun "tətildə" iştirak edib hökuməti böyük bir qüvvətlə təhdid etməyi camaat qüvvətinin nə qədər əsaslı və davamlı olduğunu çox aşkar bildirirdi.

Bu kimi tətillərin zahiri mənası az kimi görünürdü, amma mənən qüvvəti çox böyükdür. Bu gün ümumi Tiflis camaatı hökumətə açıqdan-açığa bildirdi ki, hamı camaat hürriyyət və ədalət tələb edənlər ilə bərabərdir.

Bəli, bilindi ki, yüz yetmiş milyon miqdarında bir əzim camaat hökumətin hərəkəti-hazırəsini məhz zülm və vəhşilik hesab edib, bu cür idarədən narazıdır.

Bilindi ki, bundan sonra camaat razı olmayacaq ki, hökuməti-zalimə hürriyyət tərəfdarlarını bir-bir yox edib, yenə idareyi-müstəbidəni davam etdirsin.

Xülasə, camaat bugünkü ümumi tətil ilə, camaat silahı ilə bildirir ki, əyər hökumət 27 vətən fədaisini bağışlamayıb boğazlayacaq olursa, camaat uzaqdan tamaşaçı olmayıb əllərindən gələn fədakarlığı sərf edəcəkdirlər.

* * *

Bu saat ki, məktubumu qurtarıb poçta verəcəyəm, axşam saat səkkizdir. Bu vaxta qədər şəhər sükutluğunda davam etdi. Bundan sonrakı əhvalı sabah yazaram.

Danışırlar ki, əsgərlərin mühakiməsi bir neçə gün davam edəcəkdir. Müttəhim əsgərlər mühakimə qurtarıncaya qədər məhkəmədə qalacaqlardır.

"İrşad" qazeti, 25 iyun 1906, №149

MƏZLUM ƏN BÖYÜK ZALIMDIR

Dünən Şəkidən, möhtərəm yoldaşımdan aldığım məktub pərişan ürəyimi bir qat daha pərişan etdi. Məni pərişan edən yalnız hökumətin zülmü deyil, o zülmə, o həqarətə boyun əyən camaat halətidir.

Şəkinin birinci üsuli-cədidə məscid məktəbi hamıya məlum olsun gərək. Bu məktəb camaatın ixtiyarında, camaatın həmiyyətilə bir neçə il gözəl davam etdi. Faydalı səmərələr verdi. Bir az sonra hər nədənsə camaatın bəziləri yanlış bir fikrə düşdülər: məktəbi, o millət ocağını və istiqbal ümidgahını hökumətin ixtiyarına, xasiyyətləri məlum bir

para qulluqçuların əlinə verməyə çalışdılar. Biçarələr elə güman edirdilər ki, hökumət idarəsi bizə camaat idarəsindən daha nəfli olacaqdır. Binəvalar elə xəyal edirdilər ki, hökumət bizə gerçəkdən atalıq edib, bizim dərdimizə qalacaqdır. Halbuki yazıqlar daha ondan bixəbər idilər ki, öz ixtiyarlarını, öz haqlarını öz əllərilə bir para zalımların, rəhmsizlərin pəncələrinə verib, məktəbi bünövrəsindən yıxmağa özləri səbəb olurdular.

Zatən çox çəkmədi; məktəb hökumətin ixtiyarına keçdi, müsəlman dərsləri azaldı, müsəlman dərsləri əhəmiyyətdən düşdü. Camaat əvvəlki rəğbətini kəsdi.

Uğrunda hamının qurban olduğu camaat idarəsi əvəzində məktəbdə istibdadi-idarə hökm sürməyə başladı. Məktəb bir neçə il belə davam etdi.

Lakin bu il, haqq və ədalətin meydana çıxmaq istədiyi bu il Şəkinin həmiyyət və maarifpərvərləri məktəbin belə davamı millət üçün böyük bir təhlükə və həqarət olduğunu qanıb məktəbi təzədən öz ixtiyarlarına almaq, diriltmək, böyütmək istəyirlər və bu niyyətlə bacarıqlı, məlumatlı, müqtədir bir müəllim də məktəbə götürürlər. Amma direktor ağanın keyfi gəlmir ki, müsəlmanca – camaatın xahiş etdiyi tək oxunmağa rüsxət versin.

Görünür ki, direktor ağa qayda və qanunsuz öz ixtiyarına keçirdiyi "məscid" məktəbini cəngindən buraxmaq istəmir ki, camaatın müraciətinə müqabil belə bimənа bir hökm göndərib: "Bu məktəb 1898-ci ildə camaatın öz xahişilə direktor idarəsinə keçibdir. Onu təzədən pozmaq olmaz..."

Baxınız övladi-bəşər mürəbbisi olacaq mədəniyyətli direktorun bəhanəsinə, müstəbidanə hökmünə!

Burada direktor ağadan soruşmalı: Cənab, madam ki köhnə qaydanı təzədən pozmaq olmaz, siz nədən ötrü 1898-ci ildə məktəbi, camaatın ixtiyarında ola-ola, alıb öz cənginizə keçirdiniz? Nə üçün köhnə qaydanı, bəlkə, qanunu pozdunuz? Təbii, deyəcəksiniz ki, "camaat xahiş etdi, mən də əməl etdim".

Çox əcəb. İndi də yenə o camaat xahiş edir ki, öz qədim haqlarını, ixtiyarlarını özlərinə aid edəsiniz, buna sözünüz nədir?

Əgər belə açıq və sərih bir haqqı camaata verməzsiniz, onda aşkar demək istəyirsiniz ki: "Ay həqir müsəlmanlar, sizin əqliniz yox, bombanız yox, sizin cürətiniz yox, məsləkiniz yox, mən sizin nəyinizdəm qorxuram ki, xahişinizi əmələ gətirim, sizinlə öz keyfim nə cür istərsə elə rəftar edəcəyəm".

Bax, bu surətdə sizə heç bir sözüm yox, rəftarınızda, fikrinizdə haqlısınız, elə isə yenə gələk özümüzə. Kimdir müsəlmanlara bu dərəcə zülm edən? Kimdir bizi maarifdən, mədəniyyətdən uzaqlaşdırıb vəhşi, aciz buraxan? Kimdir məktəblərimizin olmamasına çalışıb dilimizi, dinimizi binaənəleyh varlığımızı itirməyə çalışan? Kimdir direktorlara, naçalniklərə, qubernatorlara bu mərtəbə cürət və yol verən?

Xülasə, kimdir bizi bu günlərə, bu zillətlərə, bu əsarətlərə salan? Yalnız hökumət qulluqçularımı? Yox! İnanız yox! Ya kim? Kim olacaq, məhz biz, məhz bizim səfil, heyvani təbiətimiz, məhz həqarətə, zülmə, döyülməyə səbir edib boyun əyməyimiz, əziyyətə, korluğa, söyülməyə, əzilməyə, qorxmağa, qanacaqsızlığa öyrənib adət etməmiz, məhz bizim öz günahımız, öz qəflətimiz, bizlərə rəva görülən zülmləri, həqarətləri qanmayıb zalımlara, müstəbidlərə köməkçi olmamız, bizi ən ziyadə səfil və sərgərdan qoyanlara ən ziyadə məhəbbətlə itaət edib, yeri düşəndə kömək etməyimiz, özümüzə edilən zülmlərin zülm olduğunu qanmayacaq qədər korluğumuz, cəhalətimizdir.

Budur ki, mürüvvətsizlər, rəhmsizlər də bizim bu qanacaqsızlığımızı, bizim bu korluğumuzu yaxşı qanıb məzlum başımıza olmayan oyunları oynayırlar. Bizi istədikləri təki öz məxfi qəsdlərinə, öz şeytanlıqlarına alət edirlər. Öz əlimizlə öz ixtiyarımızı, öz məktəblərimizi qəsd edib bizi uzaqdan baxdırırlar.

Demək ki, əsil zalım və günahkarlar zülm edənlər deyil, bəlkə zülmə, həqarətə səbir edənlərdir.

* * *

Şəki camaatı nədən ötrü xahiş edir ki, məktəbin müsəlman müəllimlərini "direktor" təyin etsin? İyirmi min nəfər nədən ötrü bir yarım uçitelin məvacibini xəzinədən istəyir?

Müsəlman müəllimləri nədən ötrü rəsmi(?) müəllim olmaq istəyirlər?

O qədər camaat nədən ötrü gözləyir ki, öz "məscid" məktəblərində öz Quranlarını, öz şəri hökmlərini, öz dillərini oxumağa direktor ağa rüsxət versin.

Onların bu cür bimənə rüsxətlərini, amiranə hökmlərini gözlədiyimizdəndir ki, bu gün məscid məktəblərimizə də, ruhumuza da sahib olmaq istəyirlər.

Bəsdir bu qədər səbir, bəsdir çəkdiyimiz bu qədər həqarət. Vaxtdır ki, cümləmiz ittifaq edib tələb edək.

Cənablar, biz öz dilimizdə oxuyub dilimizi, milliyyətimizi bilmək istəyirik. Biz öz dilimizə, dinimizə məxsus olan məktəblərimizi özümüz idarə etmək istəyirik. Biz öz xahişimizlə rusca, firəngcə, nemescə oxuyub mərifətli, mədəniyyətli olmaq istəyirik. Biz istəyirik ki, bir para milli işlərimizi özümüz idarə edib bizim adətimizdən bixəbər olan cahil və zalım qulluqçular bizim başımıza bəla olmasınlar.

...Bəli, vaxtdır, biz də tərpənək, hüququmuzun mühafizəsinə çalışaq, haqq və müsavat yolunda tökülən qanların səmaya əks edib süni şəfəqlər təşkil edən belə həngamələrdə aciz və miskinlər kimi qafilanə yatmayaq...

Xülasə, məzlumluq ən böyük zalımlıq demək olduğundan belə bir alçaq təbiəti, bəsdir, üstümüzdən götürək!

"İrşad" qəzeti, 18 oktyabr 1906, №245

MİLLƏTPƏRƏSTLİK ZAMANIDIR

Hamı deyir camaatımız nadan və qafildir. Bəli qafildir. Həqiqətdə o qədər qafildir ki, xırda bala kimi öz xeyir və şərini belə qanmır.

Hətta nadanlığın, korluğun verdiyi sərməstlik və sərsəmlik ilə çox vaxt öz əli ilə özünü kəsir, canına qəsd edir də yenə xeyri olmur. Ələlxüsus, camaat hüququnun mühafizəsinə ən ziyada çalışacaq bu zamanda özlərinin qanını əmib soran, özlərinin səfalətinə bais olan zalım hakimlərə, fitnəkar pişvalara, düşməni-hürriyyət ağalara kömək edib zülm və istibdadın artmağına ən ziyada özləri səbəb olurlar da yenə fərqinə varmırlar. Amma bununla belə deyə bilməm ki, camaatımız həmiyyət, qeyrət və namusi-milliyyədən bütün-bütün məhrumdur.

Xeyr, xeyr, camaatımız elm və hünərsiz isə də fitri alicənablığını, qədim adəti olan füqərapərvərlik, zəifnəvazlıq və təəssübkeşlik xasiyyət və qüvvələrini hənuz itirməmişdir. Ancaq uzun müddət yatmaq səbəbilə o gözəl qüvvələr uyumuş, sıxlanmış, paslanmışdır.

Bu müvəqqəti uyuşuqluğu, bu çirkin pası götürmək, silmək isə o qədər çətin deyildir.

Həqiqi üləmamızın, həmiyyətli ürəfamızın, qeyrətli müəllimlərimizin bir az vaxt millət dərdinə qalıb çalışmalarına, zəhmət çəkmələrinə bağlıdır. Bəli bir o qədər ki, camaat gözünün qabağında beş-on fədakar millətpərvər bulunsun, camaata Allah rizası üçün rəhbər və hadi olsun, daha o yanısı asan və müvəffəqiyyətbəxşdir.

Bəli, hər yerdə tək beş-on canıyananımız, millət dərdi çəkənimiz olsun, o vaxt görəcəyiz ki, türklük o qədim füqərapərvərliyi, o fitri alicənablığı nə cür büruz edib, nə möcüzələr göstərir.

O vaxt görəcəyiz ki, islamın əmr etdiyi xeyir və ehsanat nə sayaq meydan alır. Bu barədə heç bir millət bizimlə müsabiqəyə girə bilməz. Bu həqiqət dəlilə möhtac deyildir sanıram. Əlcəzair, Suriya, Misir, Anadolu, İran, Türkistan və Əndəlisdə xeyir və ehsanat ilə vücuda gələn asari-əzimdən sərfi-nəzər otuz-qırx il əvvələ gəlincəyə qədər Gəncədə, Şəkidə, Şamaxıda, Batumda vücuda gəlib bu gün xərabəyə üz qoyan mədrəsələr, məscidlər, vəqflər, körpülər, arxların cümləsi iki-üç arxa əvvəlki atalarımızın, dünənki əcdadımızın xeyir və ehsanatı səmərəsi deyil də, nədir?

İstiladan sonra əxlaqımızın pozuqluğuna, gözəl milli adətlərimizi yaddan çıxarmağımıza, milli maarifimizi, qədim təhsilimizi tərk edib, daha doğrusu, tərkə məcbur olub tazələrdən də bixəbər olub ortada meymun kimi qaldığımıza baxıb əcdadımıza həmiyyət və qeyrətsizlik kimi dəni sifətləri nisbət vermək zehi insafsızlıq, zehi nadanlıqdır.

Əcdadımız öz zamanlarının təqazası ilə ehtiyacına, əfkarına öz zamanlarının sərvət və qazancına görə çox böyük işlər görüb, xeyli vəqflər, əzəmətli məscidlər, mütəəddid mədrəsələr, dövlətli kitabxanələr buraxmışlardır. Hələ əcdadımızın füqərapərvərliyi, hər kənddə, bəlkə hər evdə ayrıca füqərayi-qəriblərə məxsus otaq bulundurmaları, riyasız xeyir və ehsanları nəinki bizdə, bəlkə Avropada belə dastan olubdur. Bugünkü iyirmi-əlli minli tacirlərimizin yerində (hələ milyonçularımızı demirəm) əgər əcdadımızın ən tamahkarı olsaydı, görərdin ki, Şəkidə, Şamaxıda, İrəvanda, Gəncədə, Axalkələkdə (Bakını demirəm) nələr, nə əsərlər meydana gələrdi!

Amma bu gün nəyimiz var? Bir Tağıyevdən savayı hansı bir dövlətlimiz özbaşına bir məktəb, bir mədrəsə, bir kitabxanə vücuda gətirib? Füqəra camaatın pulu ilə, alın təri ilə dövlətlənən hansı bir

bəyimiz, ağamız bir mədrəsə və məktəbə iki dükan və ya beş arşın bez vəqf edib. Hər tərəfə baxsan, müsəlmanların içində fəqirlik, nadanlıq, bacarıqsızlıq, məhkumluq son bir mərtəbəyə varıb. Hər yana baxsan, dövlətlilərimiz, bəylərimiz öz kef və mənfəətlərindən savayı heç bir şeyi fikir etmirlər. Qarabağ və Zəngəzur aclarının ahu fəryadları istər göylərə çıxsın, yetim, çılpaq balaların göz yaşları istər çaylar təşkil etsin, sahibsiz, hamisiz qalan anaların, bacıların irzi-namusları istərsə düşmənlərin təcavüzünə düçar olsun, heç kəsdə bir təəssübi-milliyyə, bir qeyrəti-diniyyə oyandırmır. Deyəsən islam aləmi şiddətli bir savuğa tutulub donub! Deyəsən islam aləmini bərk sehirləyiblər! Bəli, elə sehirləyiblər ki, məmləkətimizin, əzamızın biri və ya bir neçəsi kəsilib xarab olur, vücudi-millət zəifləyir də, yenə bizdə bir tərpəniş, bir oyanıqlıq görünmür. Deyəsən o kəsilənlər, o xarab olanlar bizdən deyil!.. Amma bunlarla belə yenə deyirəm: millətimizin fitri və xəlqi olan füqərapərvərlik xasiyyəti, xeyir və ehsanata olan meyli hənuz qayib olmamışdır. Bəlkə bir az uyuşub paslanmışdır. Bəsdir ki, bu pası silib o cövhəri-safi, o xasiyyəti-insanpərvəranəni meydana çıxaracaq hər şəhərdə camaatın qabağında beş-on sahibi-həmiyyət, fədakarani-millət olsun. Ol vaxt nə Şəkinin, Şamaxının, İrəvanın mədrəsələri xəraba qalar, nə məscidlərin minarələri sərnigun olar, nə də Zəngəzur aclarının fəryadı ürəkləri parçalar. Yenə təkrar edirəm: bəli, təki avam camaatın başında onları təşviq edəcək beş-on həqiqi, fədakar üləmamız, həmiyyət və cürətli abrazovannımız, xeyir və ehsanat sahibi dindar, gerçəkdən Allahı tanıyan dövlətimiz olsun, cəmaətimiz daldan gəlməyə, sözə baxmağa, iş görməyə hazırdır.

Yapon-rus davası əsnasında bəzi üləmamızın, pişvalarımızın əlayağa düşüb ianə yığmaları heç yadımdan çıxmaz. Mən o vaxt mərhum "Şərqi-Rus" qəzeti idarəsində idim. Gün olmazdı idarəyə rus bahadırlarının, rus qoşununun mədhini mütəzəmmin mənzumələr gəlməsin. Həftə keçməzdi ki, rəisi-ruhaniyyələrimiz, sədaqətli bəylərimiz tərəfindən "Qırmızı xaç" mənfəətinə ianə siyahısı göndərməsin. Bu kimi kağızların çoxluğundan, müdirlərimizin onları dərc etdirməkdəki israrından o qədər təngə gəlmişdim ki, (nə yalan söylüyüm) çoxunu xətm olmuyaraq cırıb səbətə tökürdüm. Hələ ruhanilər tərəfindən yazılan xristianlığı həqq, bütpərəstliyi batil bildirən və bu münasibətlə Yaponiyanın məğlub ediləcəyinə fitvalar oxuyan o qədər kağızlar, hədyanələr alırdım ki, hiddətimdən başım ağrıyırdı.

Amma ürəyimi ən ziyada parçalıyan bunlar deyildi. İki-üç qəpiklik mənfəəti-şəxsiyyəsindən ötrü ayəti-Quraniyyəni xahişi təki çevirib camaatın hakimlərə qul kimi tabe olmaq lazım olduğunu yerlərə keçmədən isbat etməyə çalışan həyasız din düşmənlərinin kağızları idi. Bu cür mədh və fitva yazanlar qalsın ianə siyahısını göndərənlər öylə yadıma gəlir ki, ən ziyada müfti, şeyxülislam, Şamaxı, Şəki, Cavad, Göyçay fazilləri idi. İndi əsil sözüm bunda deyil. Bu xırda yaddaşımla burasını bildirmək istəyirəm ki, camaat üçün çox da vacib olmuyan "Qırmızı xaç" sandığına ruhanilərimizin, sədaqətli bəylərimizin tərğibi ilə ianə toplanırsa, dinimizin, insafımızın, mövcudiyyətimizin əmr etdiyi bir xüsusə – Zəngəzur aclarına ianə toplamaq çətinmi? Hardadır "Qırmızı xaç" sandığına ianə toplamaqla nami-sədaqətpərvərliyini qəzetlərin başlarında yazdıranlar? Hardadır bu gün o mərhəmətli rəislər, qazılar, o sədaqətli, o səxavətli bəylər? Əcəba bu gün Zəngəzur aclarına ianə yığmaq, o bir sürü yetim uşaqların qanlı yaşlarını kəsmək, minlərcə çılpaq qocaları, arvadları bu qışın mərhəmətsiz sovuğundan, qarından qurtarmaq qədər savablı, mərhəmətli bir şey varmı? Avam, fanatik dediyimiz kasıb camaatdan "Qırmızı xaç" üçün ianə yığanlar əcəba ac və susuzluqdan qayaların dibində can verən bir aləm din qardaşlarımızı bir neçə loğma çörək ilə ölümdən qurtara bilməzlərmi?

Yenə təkrar edirəm: camaatımız üləmaya, nüfuzlu bəylərə, sahibi-mənsəblərə o qədər mütidir ki, onlar əgər istəsələr, nəinki məcruhinə məxsus olan "Qırmızı xaç", bəlkə kilsələrin qara xaçlarına belə bir vəsilə, bir tavil ilə ianə yığmağı bacararlar. Belə olan surətdə, aya, onlar bacara bilməzlərmi ki, Zəngəzur mahalından göyə qalxan ahu fəryad buludlarını Qarabağı qırmızıya çöndərən göz yaşlarını bir cüzi mərhəmətlə sakit edələr.

Ey füqərayi-kasibanin alın təri ilə dövlətli olanlar, ey millət səbəbilə sahibi-mənsəb və nüfuz alanlar, ey bu millətə pişva və ağa olmaq istəyənlər, ey ürəklərindəki bir cüzi mərhəmət və insafı olanlar! Zaman bu zamandır, zaman "insanlıq – müsəlmanlıq" zamanıdır, millət xadimi ilə hadimi bilinəcək zamandır, riyakar ilə xülusların, mərhəmətli ilə mərhəmətsizin, dindar ilə dinsizin, mələk ilə şeytanın bilinəcək zamanıdır. Belə bir zamanda vaxtı olub da ianədən qaçan, dil ilə yalançı təəssüflər ilə köməkçi görünənlər millətin ən şarlatanı, ən əxlaqsızı və ən mərhəmətsizidir. Lazımdır ki, hər kəs bəqədri-qüvvə malən və nəqdən ianədə bulunsun.

Harada olursa olsun, kəndlilərdə ümumiyyətlə pul azdır. Amma hər kəsin anbarında az-çox taxılı vardır. Müfti, şeyxülislam, qubernski qazılar bacara bilərlər ki, hər şəhərdə, hər obşestvada uyezdnı qazıların, məhəlli bəylərin, ruhani mollaların rəyasətləri ilə bir komissiya təşkil edib kəndlilərdən taxıl cəm etsinlər.

Əgər işə diqqətlə can yandırılsa, kəndlərdə elə ev olmaz ki, bir pud taxıl və ya on kilo ianə etməsin. Kəndlərdən yığılan taxılları aparmaq da kirayə pulu istər. Taxıl verə bilməyənlər yığılan taxılları araba və ya heyvan ilə daşıyıb ianədə bulunurlar.

Ey ürəyində bir zərrə mərhəməti olanlar, ey insana dost və millətpərəst görünənlər! Məmləkətimizin, camaatımızın bir payı aclıqdan həlak olur. Bunların bu ciyərsiz həlakı isə bizi daha dəhşətli, daha təhlükəli həlakətə sürür. Əgər Zəngəzura, Qarabağa vaxtında kömək edə bilməsək, o əhəmiyyətli yerlər əlimizdən çıxarsa, yaxşı biliniz ki, cümləmiz qeyrət və namussuzluqla yad olunmaqdan savayı bütün məmləkətlərimiz, bütün həyatımız əbədi təhlükələrə düçar olacaqdılar. Halbuki bu bir aləm yetim balaların həyatını qurtarmaq gələcəkdəki təhlükənin qabağını indidən saxlamaq o qədər çətin bir zad deyil. Hərəmiz bir günlük tütün pulundan, iki saatlıq zövqdən, bir saatlıq qazanc və muzddan keçsək, həm ac qardaşlarımızı həlakətdən, həm də özümüzü təhlükədən qurtarmış oluruq.

Qardaşlar! Həqiqi dindarlıq xüluskarı-millətpərəstlik, yetmiş il ibadətin bir saat xeyir və ehsanat etməklik zamanı bu zamandır. Gəliniz biz də əcdadımızın həqiqi nəvələri olduğunu bildirib türklüyümüzü, müsəlmanlığımızı isbat edək.

"İrşad" qəzeti, 1906, №282

KÖMƏKLƏŞƏLİM

Həyat həmişəlik bir davadır. Bu davada hər kəsin düşməni isə birdir: zəhmət və məşəqqət – əski ədiblərcə çərxi-fələk.

Kim zəhmət və məşəqqətə tab edib tutduğu işdə səbat göstərirsə, o, çərxi-fələyin qolunu bükmüş, düşmənini həlak etmiş olur. Buna görə böyük-kiçik, zəif-qüvvətli – hər kəs çalışır ki, düşməninə qarşı dursun, onu alt etsin ki, gələcəkdə rahat yaşaya bilsin.

Yaşamaq üçün bu çalışmaq, vuruşmaq və alt etmək keyfiyyəti yalnız əql və elmin bu gün öyrətdiyi yol deyil, bəlkə o, xaliqin məxluquna bəxş etdiyi təbii bir xasiyyət, əzəli və əbədi bir qanundur. Qanuni-həyatdır, şəriət deyimi ilə – sünnəti-ilahiyyədir. İştə bu sünnət və qanuni-ilahiyyə sirrini, elmini kim yaxşı qanıb həyat və məişət meydanında təbiətin kərəm və sərdinə qarşı döş gərib davam edərsə, haqqın qalibiyyət və rahat yaşamaq mükafatı da ona nəsib olacaqdır. Bunda din və millət ayrılığının təsiri yoxdur. Ədalət və mərhəmət ilahiyyə kimi ümumidir. Bunda möminliyin və kafirliyin işi yoxdur. Çünki mömin və kafirlik qanuni-ilahiyyə nəzərində bizim bildiyimiz kimi deyil.

Qanun və sünnəti-ilahiyyəyə arifanə iman edib əməl elən mömin və salehə inanmayıb əsbabə təşbih etməyən və yalnız Allaha "təvəkkül" edən kafir və xasirdir.

Nə mutlu və xoşbəxt o şəxs və ya o millət ki, kitab və sünnəti-ilahiyyənin dərin sirlərini, əmrlərini qanıb ona görə tədbir və əməldə bulunduqdan sonra Allaha "təvəkkül" edə.

Hansı millətin nicat tapacağını uzun düşünməyə hacət yox. Qüvanın təbiiyyəyi, adəti-ilahiyyəyi, saməd layi təcyir, baqi bilib, "keyfi məyişə", "kun-fəyəkun" və qeyri bu kimi ayətləri o qüvvənin əmri-tətbiqindən ibarət olduğunu etiqad edən millət "sofə-yəfəlhun" vədi-ilahiyyəsinə məzhər olub fələh və nicat tapacaqdır.

Xoşbəxt o millətə ki, "sirati-müstəqim" üzrə yüyürüb ehtiyacati-həyatiyyə qəvaidi-ictimaiyeyi-mədəniyyəyə kəraməti-qalibiyəyə vaqif olub və gələcəyini "hal"da deyil, "mazi"də düşünmüş, "hal"da isə tətbiqə başlamışdır.

Bir surətdə ki, imdiki şüurlu millətlər babalarımızın "Bir didə ki, nuri-həqiqət ola, eylər ayineyi-əmruzidə fərdayi-tamaşa" hünərinə də razı deyillər. Onlar fəryadi əmruzda deyil, "diruzda" tamaşa etmək istəyirlər.

Bizlərdə isə babalarımızın fəryadi-əmruzidən tamaşa etmək hünəri deyil, bugünkü fəlakətimizi "bu gün" düşünmək də yoxdur. Hələ bizi öz kefimizə buraxsalar, istəyəriz ki, sabahı bu gün deyil, bu günü sabah düşünəlim.

Vaxt olur, birdən başımıza vururlar, əzayi-mayəmizdə bəzisini kəsirlər, mövcudiyyətimizi təhlükəyə alırlar. Əvvəl vaxt bir az ayılırız, tərpəniriz, gələcəyimizi düşünürüz, çapalayırız, əl-ayaq vururuz.

Lakin çox keçmədən yoruluruz, əski halımıza qayıdırız, əski adətimizə başlayırız, işlərimizi yenə Allaha tapşırırız.

Halbuki vaxtımız o vaxt deyil. Gələcəkdəki bəlalardan özümüzü nə cür mühafizə edəcəyimizi, sünnəti-ilahiyyəyə nə cür yanaşacağımızı düşünməyimizin ən məcburi vaxtıdır. Biz isə gələcəkdəki bəlalardan qurtulmaq yolunu deyil, bu gün başımıza gəlmiş bəlaları dəf etməkdən aciziz. Odur ki, bugünkü hərbzədələrimizə, o bağrı yanıqlarımıza etməkdə olduğumuz köməyi də belə həmin əski adətimizə, yəni tezdən yorulmağa başlayırız. Halbuki hələ heç bir iş eləməmişiz. Hələ imdi-imdi bir az işə başlamışız.

Beş-on gündür ki, Qars tərəflərinə gedən vəkillərimiz müsibətzədələrimizi tapıb görə bilmişlərdir. Bir sözlə, işə yeni bismillah demişlərdir. Fədakarlıqlarını heç vaxt unuda bilməyəcəyimiz hörmətli vəkillərimizin təhqiqlərinə görə ehtiyac çox böyükdür. Bizim topladığımız cümlə ianə ancaq bir az vaxt üçün kifayət edər. Kömək isə uzun müddət lazımdır. Bu qanlı müharibənin vurduğu fəlakət hələ-hələ tezdən qurtulası deyil.

Hərb düşkünlərimizə yorulmuyaraq, aranı kəsməyərək kömək etmək vacib. Heyif ki, bir çox şəhərlərimiz, bir çoxlarımız birdəfəlik beş-on manat verməklə vəzifeyi-milliyyəmizi qurtarmış, acları tamamilə doyurmuş, hər işi bitmiş hesab ediriz.

Hələ bəzi yerlərdə "bizim öz (?) möhtaclarımız da var, yığılan ianələrin hamısını özgələrə (?) – qarslılara göndərməyə nə hacət, bir azını da özümüzünkülərə verəlim..." səsləri eşidilir.

Hələ heç bir şey eləməyə-eləməyə, ehtiyacımızın mində birini yerinə yetirməyə-yetirməyə həmiyyətimizin daşqınlığından şikayət ediyoruz. Lakin düşünmüyoruz ki, içimizdəki möhtaclarımızın ətrafında bir çox dövlətlilər, qonşular, tanışlar var. Heç mümkün deyil ki, səsləri eşidilib kömək edilməsin.

Amma o bədbəxtlərin ətrafında kimlər var? Onlar yalçın qayalar, yırtıcı itlər, qoxumuş meyitlər, səssiz dərələr, yıxılmış evlər, xunriz simalar, qulyabanilər, qudurmuş insanlardan özgə kimləri görürlər. Ah-vaydan, dərin inildilərdən, qorxulu ayaq tappıltılarından, ölüm təhdidlərindən, cigərsuz səslərdən başqa nə eşidirlər.

Heç insafdırmı ki, içimizdəki möhtaclar, tənbəllər ilə bir dəqiqədə cahanın ən suzişli zülmünə düçar olmuş o çalışqan möhtaclara, aclıqdan ölüm halına düşmüş o dövlətli fəqirlərə bir göz ilə baxılsın! Of, kaş eşitməsəydim! Bəzən öz qəzetlərimizdə bilməm harda bir

hacının və ya bir əfəndinin ianə verməməyi bir yana dursun, verənlərə də manc olduğu yazılır.

Bilməm inanayımmı ki, böylə bir vaxtda, yəni hər kəsin maldan deyil, candan belə keçməyə hazır olduğu bir həngamədə insan qiyafəsində iblislər, ilanlar, müsəlman adlanan məlunlar, kafirlər, Əli nəslindən şümürlər hələ içimizdə yaşıya biliyorlar. İnanayımmı ki, içimizi içimizdən yeyən qurdların hərəkətinə, yaşamasına hələ həmiyyəti-milliyyətimiz yol veriyor. Doğrudur, bir neçə qurd və xain manceti ümumi gedişə, həmiyyətə bir zad edə bilməz. Öylələri hər zaman hər yerdə buluna bilər – deyirlər. Lakin unudulmasın ki, öylə xəbis vücudları, öylə zərərli tikanları böyüdən şəhərlər də bütünbütün bigünah deyillər.

Beş-altı milyonluq biz Qafqaz müsəlmanlarının üç-dörd ayda toplaya bildiyimiz beş-on min manat üzümüzü qızardacağı yerinə hələ eşidirəm ki, bəzi cəmiyyətlər, heyətlər "Novruz" teatrı və qeyri vasitələrlə "qarslılar" adı ilə yığdıqları pullardan özləri üçün də pay çıxıyorlar. Barı böylələr öz köməkliklərində davam etsələr yenə söz götürər. Lakin öylə bir dəfə etdikləri köməyin bir payını da özləri alırlarsa, bu "qarslılara" kömək deyil, qarslıları özlərinə köməkçi etməkdir, o bədbəxtlikləri öz bəxtlərinə bəhanə etməkdir.

Həqiqət, gələcəyimiz qorxuludur. Ətrafa baxıram: hər kəs özünün rahatlığı, öz başının salamatlığı fikrindədir. Hər kəs öz bacardığı yol, ibadət və adət ilə öz həyatını qurtarmaq qeydindədir. Abid ibadəti ilə, ruhani fitrə və zəkat yığmaqla, intelligent öz mənfəətinə xidmətlə, dövlətli pul cəm etməklə öz canını, bəli, yalnız öz canını xilas etmək fikrindədir.

Bundan anlaşılır ki, millətin hakimi olan əfkari-ümumiyyə bizdə əsla oyanmamış. Öz həyatını millətin həyatına bağlamaq əməli-ülvisi bizdə hələ doğmamış, millətimizə yetişən dərdin öz dərdimiz olduğu hələ hiss edilməmiş.

Millətdən ayrılanın həyati-həqiqiyyəsindən də ayrılacağı bizdə hələ dərk edilməmiş.

Millətinə kömək özünə kömək demək olduğu hələ başlarımıza girməmiş.

Millətinin hüququnu, istiqbalını düşünmək, onun yolunda əldən gələn fədakarlığı göstərmək ibadətlərin ən savablısı, vəzifələrin ən müqəddəsi olduğu həqiqətinə bizdə hələ iman edilməmiş.

Milləti pərişan olanın özü də bir yol ilə bir vaxt pərişan olacağını bildirən sünnəti-ilahiyyəyə bizdə hələ etiqad edilməmişdir.

Bunun üçündür ki, hər işimiz pərişan, hər halımız virandır. İçimizdə çoxları var ki, haqqın əmrlərini, fərzlərini yalnız namaz-oruc ilə həcc, və zəkatdan ibarət bilir. Yenə çoxları var ki, namaz qılmaqlığı, zəkat verməkliyi mədəniyyətin bir sifəti güman ediyor. Bunların hər ikisi də yanlışdır.

"Xaliqin ən əhsən məxluqu, ən xəlqlisi, yəni yaxşı xasiyyətlisidir və insanların ən xeyirlisi insana xeyir verəndir" ayət və hədislərinə görə hər bir xeyirli fikrimiz, faydalı hərəkətimiz, nəfli əməlimiz, isbatımız, tədbirimiz, elmimiz, köməyimiz və xidmətimiz birər ibadətdir. Buna görə bugünkü ibadətimizin ən birincisi gələcək bəlalardan özümüzü mühafizə etmək tədbirlərinə yapışmaqla bərabər, bugünkü bəlamızı başımızdan dəf etməyə olunca gücümüzlə çalışmaqdır. Bugünkü bəlamız, dərdimiz isə hərbzədə qardaşlarımızın dərdidir. Bu gün ən birinci işimiz onlara kömək olmalıdır.

Birkərəlik beş-on manat verməklə vəzifəmizi qurtarmış hesab etmiyəlim. Hərbzədələrimizin gələcəyi keçmişlərindən daha qorxuludur. Onların bir kərə qarınlarını doyurmaq böyük bir həmiyyət və insanlıq deyil. Ən azından üç-dörd ay köməyimizi əsirgəməməliyiz. Onları, doğrusu, ehtiyacdan qurtarmaq və gələcəkdə boynumuza daha ağır yük olmamaq üçün imdidən həm yemək, toxumluq, həm də cütalət və heyvanları tədarük etmək lazım. Bunun üçün də milyonlar istər.

Bunların həpsini, təbii, biz bacarmarıq. Hökumətin köməyi, həm də çoxlu köməyi lazım. Bu xüsusda Duma vəkillərimizin, iş içindəki başçılarımızın həmiyyəti gərək. Hökumətimiz bu işlər üçün üç milyon pul buraxmışdır. Fürsəti fot etməyib istifadə etmək lazımdır.

Bunlarla bərabər hər kəsdən əvvəl cüzi də olsa özümüz özümüzə kömək etməyi bilməliyiz. Burasını da bilməliyiz ki, millətin qədrini, dərdini bilib kömək edənlərə kömək edirlər. Öz köməyimiz az da olsa, həmişə çalışmalıyız. Bu vasitə ilə həm bir zad yığarıq, həm də imdiyə qədər ancaq özünü düşünməyi öyrənənə millətimiz əfradına köməkləşməyi öyrətmiş oluruz.

Hər cahil millətdə olduğu kimi, bizdə də ümumi işlərimizdə tez yorulmağımız var. Budur ki, axır vaxtlarda kömək səsləri kəsilmiş kimi görünüyor. Heç bir şəhərdə ikinci, üçüncü və dördüncü ianə yığmaq xəbəri eşidilmiyor.

İanə dəftərçələri vasitəsilə alışmamış camaatdan kəramətlə pul yığmaq doğrusu çətindir. O halda biz də özgə millətlər kimi cürbəcür vasitələrə müraciət edəlim. Bakı, Gəncə, İrəvan, Naxçıvan, Qarabağ, Şamaxı, Şəki və qeyri şəhərlərimizdə teatro, musiqi axşamları, qaçqınlar günü tərtib edib bilet və kağız nişanları ilə ianələr cəm edəlim.

İanəmizə möhtac olanlarımız yalnız Qars tərəfdəkilər deyil, Acaradakı gürcü müsəlmanları bizim din qardaşlarımızdır. O tərəflərdə də mütləq öz müsəlman vəkillərimizi göndərib öz əllərimizlə öz köməyimizi göstərməliyiz.

Xristian gürcüləri rəsmi rüsxət alıb köməyi başlamışlardır. Bizdən isə bir hərəkət yox. Bu isə bizim üçün çox böyük töhmətdir, cəhalətdir.

Millətimizin istiqbalı eşqinə, qanuni-həyatın sünnəti-ilahiyyənin, əsil ibadət və mənfəətin nə olduğunu düşünəlim. Düşünəlim də gələcək günlərimiz üçün köməkləşəlim. Heç bir çətinliyi, namümkünlüyü bəhanə etmiyəlim. Çünki...

"İqbal" qəzeti, 17 aprel 1915, №915

ÇOX UTANDIQ

Utanıram, inanmaq istəmirəm ki, Bakı kimi bir şəhr, Qars tərəfindən göndərilən 40-45 yetim uşağı saxlaya bilmiyə. Saxlaya bilmiyə də qazimat ilə aləmə elan edə ki, "cəmiyyətin işi çoxdur, yetim uşaqlara, öylə xırda işlərə baxmağa vaxtı yoxdur. Hər kim nökərliyə nə qədər uşaq istəyirsə, gəlsin aparsın!"

Cəmiyyət burda bir şeyi yaddan çıxarmış: əgər gözə gələn qız və oğlanları pul ilə nökərliyə verməydi və ya birkərəlik satsaydı, cəmiyyət sandığına xeyli pul yığışardı və bu vasitə ilə cəmiyyət üzvlərini ianə yığmaqdan qurtarardı.

Vay cəmiyyəti-xeyriyyə! Vay milyonlu şəhər! Vay bədbəxt millət! Məgər quru adın varmış!

Mən öylə bilirdim ki, Bakı nəinki 40-45 yetimi, bəlkə bir neçə yüzünü də saxlamağa hazırdır.

Halbuki min zəhmətlərə yığılan və Bakının mərhəmət qucağına sığınan 5-10 yetimi də başdan dəf etmək, onun-bunun qapısına tullamaq istəyir.

Aman yarəbbi, nələr eşidirik, nələr görürük. Nə demək, bu nə demək ki, 4-5 milyonluq bir camaat 1-2 yüz yetim balasını bir yerdə saxlamağa gücü çatmaya!

Of, doğrudan da ölmüşük, doğrudan da yalançı bir adımız qalmış! Doğrudan da milli dirilik, mədəni insanlıq adına bir qəpiyə dəymərik.

Nədir bu rəzalətlər? Nədir bu alçaqlıqlar, bu murdar xasiyyətlər?

Sizdən soruşuram: 40-50 yetim uşağı bir yerdə saxlamağı bacarmayan bir millət nə cür insanca yaşamaq xəyalında, hələ "ağalıq" iddiasında ola bilər?

Bir düşününüz! Sizin qucağınıza can atan balalar kimlərdir: evi-eşiyi talan olunmuş, anası-atası boğazlanmış, 11-12 yaşındakı bacısı aylarca canavarların əlində qala-qala dəlilənib axırda tələf olmuş, bütün qohumu yox edilmiş, yarı canda qalmış öz millət balalarınızdır. İnsan sevdiyi itin balalarını belə bir dərəcə alçaqlamaz ki, İsmailiyyə binasının padvalında belə bir neçə həftə saxlana bilməyib çöllərə tullanmaq istənir!

Nə olar, İsmailiyyə imarətinin zahiri zinətinə əskiklikmi olar ki, yuxarı qatında yaralı qoşunlar, altında yaralı millət balaları bulunsun!

Bizim günümüzdə, millətin ehtiyacı üçün yapılan İsmailiyyə binasının bir neçə otağı və ya otağın polu millət balalarından əsirgənirsə, daha bu əzəmətli imarət nədən ötrü tikilmiş?

Ey kimsəni bəyənməyən millət! Ey savab üçün Ərəbistan, İran çöllərini aşıb "hacı", "kərbəlayı" olmağa can atan ağalar! Hara gedirsiniz, nə fikir edirsiniz? "Kərbəla"dan yüz qat yanıqlı, dəhşətli olan bugünkü Kərbəla qurbanları mərhəmətinizə can atmışlar! Ayağınızın yanına – Bakıya qədər gəlmişlər...

Siz hara gedirsiniz? Savabmı, insanlıqmı, millətpərəstlikmi, hacılıqmı, məşədilikmi, ağalıqmı, nə, nə istəyirsiniz: hamısı, hamısı bu gün burda qapımızın yanındadır!

Utanaq, çox utanaq ki, Bakı kimi Qafqaz müsəlmanlarının mərkəzi olan bu şəhər 40-45 yetimi saxlamaqdan aciz qala.

Şəriətdən, insanlıqdan utanmırsaq, qonşularımızdan – onların fədakarlığından olsun həya edək.

Mən bilmirəm niyə qəzetlərə, teleqramlara tökülüb xəbər axtarırsınız ki, bir şey bilmək, ürəginizi şad etmək istəyirsiniz, məgər Bakının dövlətli bir imarətində, millət binasında 5-10 yetimə yer tapmayıb it-pişik yavruları kimi dışarı tullamaq xəbəri az qəribə xəbərlərdənmidir?

Ac, çılpaq qalmış, davanın ən şiddətli zərbələrinə düçar olmuş 5-10 millət balamızın ürəklərini şad etməkdən artıq şadlıqmı axtarırsınız?

Yerdə gəzməyi bilməyə-bilməyə nə hünərlə göylərə uçmaq, böyük ümidlər dalınca düşmək xəyalında bulunursunuz?

Amerikada bir müəllim, məşhur bir milyarderçimi olmaq istəyirsiniz? Banda erməni qəhrəmanı Aram hamı millətini "ya ölüm, ya dirilik" bayrağı altına çağırmış... filan öylə olmuş, filan iş böylə getmiş... bu xəbərləri nədən ötrü oxuyursunuz? Sizə, bizə nə?

Gözüyün önündə ac, çılpaq ulaşan 5-10 gözü yaşlı, ürəyi odlu millət balasını bir yerdə saxlamaq mərhəmətində bulunmayan bir camaatın ürəyində nə millət hissi, nə vətən qeyrəti, nə din və məslək əqidəsi ola bilər!

Bakı cəmiyyəti-xeyriyyə idarəsinin işi çoxsa, özgə işlərə baxmağa vaxtı azsa, əcəba, cəmiyyətin idarə adamlarından özgə adamları yoxmu, əgər yoxsa, cəmiyyət haradan əmələ gəlmiş? Məgər Bakıda heç kəs qalmamışmı? Yəni 5-6 kişidən ibarət bir heyət vücuda gələ bilməzmi ki, cəmiyyətin himayəsində olacaq yetimlər evini idarə edələr? Yəni bu öylə böyük, çətin işdirmi? Əgər cəmiyyətin pulu qurtarıbsa, kişiləri də mi qurtarıb ki, çarəsini fikir edələr, cürbəcür vəsaitlərlə pul yığalar?

Deyəcəksiniz: "Qafqaz Bakıdanmı ibarətdir? Bakının milyonları çox, dərdi də çoxdur. Hər kəs gərək özünə kömək etməlidir, yalnız Bakıya göz dikmək nə insafa, nə də əqlə sığmaz!"

Doğrudur, çox doğrudur: hər kəs özünə görə kömək etməlidir. Özümüz işsiz, ianəsiz oturub yalnız dövlətlilərə göz dikmək – gözsüz qalmaq, milləti tənbəlliyə, xırsızlığa öyrətmək deməkdir.

Burası məlum, lakin özgə yerlərə görə bu işdə Bakı "özünə görə" özünə düşən borcu, sanıram, başa gətirəcəkdir. Söz yox ki, çoxdan–çox, azdan – az olar.

Bakı özünə sığınan 40-50 uşağı saxlamaqdan aciz olsa, özgə yerlərə deməyə nə haqqımız var? Bakıda olan 40-50 uşağı paylamağı da yoxsa bir hünərmi sayırsınız? Bu qədər uşağı o yol ilə nəinki bir şəhər, ən xırda bir kənd belə can-başla qəbul edər.

Üç cüt bir tək müsəlmanı olan Tiflisdə "yetimlər evi" üçün 80 min manat yığıldı, bunun min manatı Bakıya göndərildi, qalan pul ilə cəmiyyəti-xeyriyyə "yetimlər evi" açdı. Bu evə hər yandan nə qədər qaçqın gəlsə, qəbul edəcək, bir vaxt saxlanandan sonra 20-dən artığı

Bakıya göndəriləcək, 20-si həmişəlik saxlanacaq. Cəmiyyətin qərarı böylə oldu.

Cəmiyyətin bundan ötrü olan yığıncağında bir neçə xanım, Bakıya arxayın olmamağımızı bəyan etsə də, mən özüm bu fikrə razı olmadım. Bunu Bakı üçün həqarət və əskiklik hesab etdim.

Bakının dövlətinə, zahirinə, yüzlərcə intelligentlərin vücuduna, dövlətlilərin şirin sözlərinə məgər mən yalnız aldanmamışam? Keçən həftə Qarsdan, mənə görə, göndərilən 34 uşaq bir az burda qaldı, bunlardan 2 oğlan burda yetimlər evində itmiş bacılarını görən kimi birbirinə sarılıb ağlaşmağa başladılar, yarım saat bunları ayırmaq mümkün olmadı. Bacıları ah-fəryad elədilər ki, qardaşlarımızı bizdən ayırmayın, qoyun xəstə qardaşlarımıza biz özümüz baxaq.

Müfti əfəndi, çarəsiz qalıb uşaqları saxladı və Bakı cəmiyyətinə kağız yazıb təvəqqe etdi ki, uşaqları saxladığından ötrü inciməsinlər. Məgər Bakı cəmiyyətinin canına minnətmiş! Kim böylə xəyal edərdi, yoxsa 10-15-ni burda saxlardı!

Doğrudur, Bakı cəmiyyəti idarəsi bir neçə şəxsin çalışmasına, ümidinə qalmışdır, xüsusilə yayda hər kəs Mərdəkan bağlarına, Kislovodski parklarına çəkilmiş, öz rahatlığının, öz canlarının qeydinə qalmış. Sözüm yox, insan yaşadıqca səhhət və sağlam yaşamalıdır! Təbiətin zorlu qolunu büküb insanca ömür etməli. Lakin həyatın ölüm sızıları ilə, aclıq qorxusu ilə can verməkdə olduğu böylə, qara günlərindən qeydsiz yatmaq, Qars dağları ətəklərindən, özgələrin əllərindən yığılan yetimləri əvvəlcə istəyib də sonradan peşman olmaq, onun-bunun qapılarına tullamaq bakılılar adına layiq olmasın gərək.

Böyük ağaclara sarılan sarmaşıqların, zinətli balkonları örtən çiçəklərin kölgələri altında pianonun səsinə qulaq verib də Qars tərəflərindən qopan millətin ah və əninini eşitməmək, onların dərdinə qalmamaq, türklük, müsəlmanlıq, insanlıq adına yaraşmaya gərək!

Yenə təkrar edirəm, madam ki, bizdə beş-on öz yetimimizi insanca saxlamağa ləyaqət yox, öz balalarımıza mərhəmət yox – ya biz nə haqq və nə üzlə özgələrdən mərhəmət və ədalət gözləyirik?

Bizim kimi ölmüş, duyğusuz, zalım bir millətə mərhəmət nəyə lazım? Haqq və hürriyyət nəyə gərək? Bu gedişlə, bu qanacaqla, bu qeydlə siz sanırsınız ki, bugünkü rahatlığınız davam edəcək?

Heyhat, nə çoxdur xam xəyal. Bu həmiyyət, bu qeyrətləmi böyük əməllərin, uca fikirlərin, ulu ümidlərin dalına düşmüşük! Cənabiləqq bəlkə öz ulu intizar, ulu fikirlərin üsulunu bizim kimi qorxaq, xəsis, duyğusuz qansızların ümidinə qoymaya.

İnciməyin, siz inciməyin ey millətin kökü, təməli yerində olan qara camaat! Ey ürəkdə millət namusu olanlar!

Ümidimiz yenə sizədir, ey bəzi həmiyyətli bakılılar, ey gənclilər, ağdaşlılar, şamaxılılar, şəkililər, kürdəmirlilər! Üzümü sizə tutub yalvarıram: hər biriniz 10-20 uşaq götürünüz, saxlayınız. Yekə bir şəhər 5-10 yetimi bir yerdə saxlamaqdan aciz olmasa gərək!

Tiflis kimi bir yerdə 20 uşağın (bir baxıcı xanım, iki qulluqçu arvad, bir müəlliməsiylə bərabər hamı yemək, içmək və tərbiyələri) xərci 3 min neçə manatdır.

Bu ölüm-dirim vaxtında əlimizdən heç bir şey gəlmirsə, barı, bu ocağı sönmüş qardaşlarımızın yavrularını bir az zaman insanca saxlayaq.

Əcəba, hansı şəhər istəsə böylə fədakarlığı bacara bilməz?

Umuram ki, ürəyində bir az millət hissi, namusu olan bir müsəlman razı olmaz ki, bizə sığınan saf əxlaqlı balaları küçələrə töküb öldürək.

Əlbəttə, hər şəhərdə bir cəmiyyəti-xeyriyyə və ya nəşriyyə var. Tələsiniz! Bu cəmiyyət adından Bakıya adam göndərib İsmailiyyə padvalının tozlarında qalan və onun-bunun qapısına tullanmağa hazır edilən öz qardaş-bacılarınızı qurtarınız. Qoymayınız heç kəsə bir uşaq da verilsin! Uşaq saxlamağı həvəs buyuran ağaların ürəklərində doğrudan mərhəmət varsa, saxlayacaqları uşaqların pullarını "yetimlər evi" idarəsinə versinlər.

"Yetimlər evi" üçün pul yığmaq çətin deyil. Əl verər ki, ürəkdə istək, millətə eşq və məhəbbət olsun! Əl verər ki, baş-başa verib fikir edəsiniz, başlayasınız.

Bəsdir, utanaq!

"Yeni iqbal" qəzeti, 3 iyul 1915, №58

İŞIĞIMIZ SÖNMƏYƏCƏKDİR

Bu son çağlarda milli ehtiyac və diləklərimizdən ötrü yazılmaqda olan məqalələr bizim mətbuatımızda öz yoluna, öz həyatının qeydinə yavaş-yavaş düşmək istədiyini göstərən birər şahidlərdir.

Belə şahidlərdən biri də cənab Üzeyir bəyin bir az qabaq yazdığı "Nəyimizin vaxtıdır?" məqalələridir.

Üzeyir bəy o uzun məqalələrində düçar olduğumuz dərdləri birbir sayır, bugünkü halımızı, yəni hər işdə tənbəlliyimizi, qeydsizliyimizi, həmiyyətsizliyimizi, bacarıqsızlığımızı çox doğru, çox ətraflı olaraq təsvir edir. Hətta naxoşluğumuzun qorxulu olduğunu da göstərir. Lakin, çox heyif ki, səbəblərini və əlacını açıq göstərmir. Ümumi bir sözlə: "İçimizi, çölümüzü düzəldək" deyir.

Amma nə cür düzəldək? Burasını mühərrir cənabları ya bizdən qısqanmış və ya sonraya buraxmış olmalıdır ki, üstünü açmayır. Açdığı ancaq burasıdır ki, deyir:

"İndi bu on ilin ərzində bu milli təşəbbüslərimizdən Qafqaz müsəlmanları tərəqqi və təkamül yolunda "bol-bol" mənfəətlər görməli idilər; bu tərəqqi və təkamül mənbələrindən saçılan işıqların dairəsi hər il getdikcə böyüyüb, cəhalət qaranlığının ən uzaq guşələrini işıqlandırmağa başlamalı idi; halbuki əksini görürük: işıq dairəsi ildən-ilə sönməyə maildir və bu sayaq ilə qalarsa, bu gün dəxi sönəcəyi aşkardır".

Xeyr, əzizim, xeyr! İşıq dairəmiz sönməyə mail olsa da arxayın olunuz, sönməyəcəkdir. Bəlkə getdikcə böyüyəcək, o qədər böyüyəcək ki, ta babalarımızın keçməmələri üçün çəkilən Çin səddini də keçəcəkdir.

İşığımızın sönəcəyi 1905-ci ilin verdiyi "hüquq" ilə bu on il içində bacarmadığımızla isbat edilmək istənilir. Lakin elə sanıram ki, o "hüquq" ilə bu "on" il içində ancaq bu qədər tərəqqi ola bilər. Çünki tərəqqi və təkamülün bağlı olduğu iki qüvvət ki, biri mənəvi, digəri siyasidir, bizdə indi-indi vücudlarını hiss etdirməyə başlamışlardır.

İslamın verdiyi mənəvi qüvvət, zatən çoxdan zəifləmiş, siyasi qüvvət isə 1905-ci ildə oktyabrın 17-dən... bu halda hansı "mənbələrdən" saçılan işıq ilə bizim cəhalət qaranlığının, hələ uzaq guşələri qalsın, yaxın guşələri işıqlanmalı idi?

Təkrar edirəm, tərəqqi və təkamül mütləq iki şərtə bağlıdır: ya dini və ya siyasi təbəddülat. Bu təbəddülat və inqilablar hərçənd

məmləkətin mühitinə, millətlərin təbiət və əxlaqlarına görə az-çox müxtəlifdir, amma nəticə cəhətilə hamısı birdir.

Doğrudur, bizdə 1905-də siyasi təbəddülat oldu. Lakin bu təbəddülat və inqilab tezdən böyük səmərələr verən təbiətdə deyildi. Bəlkə əsil təbəddülatın başlanğıcı, birinci təkməsi ilə, ikinci və üçüncü təkmələr üçün təbiətən dala və geri getmək lazım idi. Amma bu dala getmələr bütün-bütün dala çəkilib yıxılmaq üçün deyil, biləks qabağa getmək fikri ilə rahatlanıb daha zorlu təkmələr vurmaq üçündü.

Bəli, 1905-1906-cı illərin təsiri ilə biz də hamı ilə bərabər "qızışdıq", bir az çalışdıq. Sonra yavaşladıq, sanki yorğunluğumuzu almaq istədik, aldıq. İndi yenə hamı ilə bərabər biz də qızışmaya başlayırıq, çalışmaya üz qoyuruz.

Bu bizim üçün çox əskiklik deyil.

Bu, inqilab və təkamülün təbii qanunudur. Hamının başına gələn bizim başımıza da gəlməkdədir.

Burasını da boynumuza alalım ki, 1905-ci ildə bizim payımıza düşən iş ancaq inqilabçıları yamsılamaq oldu. Əsil təbəddülata isə biz hələ təzə hazırlaşırız.

Umulur ki, ətrafımızda keçən vaqiələr, cahanı titrədən dəhşətli inqilablar bizim bu hazırlaşdırmamızı da tələsdirir. Və bir tərəfdən bu kimi xarici səbəblər, digər tərəfdən camaatımızın özündə olan təbii istedad yanmağa başlayan işığımızı "söndürmək" deyil, daha da artıq parladır.

Heç ola bilərmi ki vaxtı ilə İbn Sinalar, Fərabilər, Cövhərilər, Uluğ bəylər, Cəlaləddin Rumilər, Əlişir Nəvailər, Füzulilər və qeyrilər kimi türk oğlu türk alimlər yetişdirən bir millətin işığı asanlıqla sönsün?

Hələ əskilərə, uzaqdakı tazələrə də getməliyəm. Hər dürlü hüquqdan məhrum məmləkətimizdə belə ən cahil və həmiyyətsiz vaxtımızda adi mirzələrdən – Fətəli Axundovlar, ən fağır baqqal Məşədi Ələkbərdən – Sabirlər, Şamaxı mühitində əsir qalmış seyidlərdən – Seyid Əzim Şirvanilər kimi ədiblər, şairlər 12 manata qulluq edən kəndli əmələlərdən Murtuza Muxtarov kimi müqtədir texniklər və qeyrilər yetişdirən bu millət işığının gələcəkdə gözlədiyimiz "haqq və ədalət" altında daha artıq parlayacağı "aşkar" deyilmi?

Doğru, bu gün o işıq sönən kimi görünür, lakin əsla sönməz, çünki o işıq özgə işıqdır, çünki özümüz kimi işığımız da qəribə xasiyyət-

lidir. Görürsən ki, bu işıq əsrlərdən bəri gah ətrafı qaplamış, bir çox yerlərdə hala baqi qalan böyük mədəni əsərlər vücuda gətirmiş, gah azalıb kiçilmiş, həm də o qədər kiçilmiş ki, indiki kimi sönəcək zənn edilmiş, lakin sönməmiş. Bir az sonra yenə birdən parlamış, qüvvətli məşəllər meydana gətirmiş, böyüdükcə böyümüş, sonra yenə alçalmış, alçalmağın son dərəcəsinə gəlmiş, hər kəs sönəcək zənn etmiş, lakin sönməmiş. Yenə parlamağa üz qoymuşdur.

Madam ki, mədəniyyət aləminin fəxr etdiyi Fərabilər və İbn Sinalar parladan əski bir millətin, bu gün milyonlarca nəvələri – torunları var və həm də özlərini aləmə saydıracaq böyük bir kütlə surətində vardırlar, onların işıqları da var olub artacaqdır. Buna isə heç bir şübhə yoxdur.

"Açıq söz" qəzeti, 20 yanvar 1916, №90

MƏN KİMƏM?!

Zamanamızda, yəni din və əbudiyyətdən, cins və millətlərin hökm sürdüyü böylə bir çağda insan öz soy və millətini tanımamaq, daha doğrusu, özünü bilməmək ən böyük günahlardan, silinməz ləkələrdən biridir.

Lakin bu ləkə tezliklə gedən ləkəyə də bənzəmir. Bu ləkə yaman ləkədir.

Bu, ləkə surətində oyla yılancıq (qanqrena) yarasıdır ki, millətimiz vücudunu, türklük varlığını yavaş-yavaş gəmirir, yox edir.

Bu gün həm də kiçik millətlərin, xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası ilə bu qədər qan tökülən bir vaxtda bizim özümüzü tanımamazlıq bəlası dərin düşünülürsə, qarayaradan da, taun çibanından da daha acılı və daha zəhərlidir. Hər kəs öz millətini tanıyıb onun yolunda ağladığı, onun uğrunda gözünü kor etdiyi böylə bir həngamədə biz öz millətimizi sevmək deyil, onun hətta quru adını da bilməyib ortada çaşıb qalmışız. Çoxdan çürümüş əqidələr, təriqələr tiryəkisinin beynimizə verdiyi sərsəmliklə hərlənib dururuz.

Bu hal ilə kim üçün və nədən ötrü çalışacağımızı da, təbii, itirmişik. İtirməsək də bilə bilinməyən və bilinmədiyi üçün də sevilməyən bir millət üçün kim dəlidir ki, can yandırsın?

Kim olursa olsun, insan bir nəfər, bir millət və ya bir fikri-əməl uğrunda o vaxt can yandırır ki, ona o zaman aşiq olur ki, onu yaxından tanıyıb ürəkdən sevsin, yoxsa quru və yalançı göstərişlərlə arada məhəbbət, eşq deyil, bayağı dostluq belə olmaz.

Mən iddia etmək deyil, uca səslə bağırıram ki, biz özümüzü tanımırız, biz öz millətimizin boş adını belə bilmiyiriz.

Nə olub, niyə dodağını büzdün? Görünür söylədiklərimdə şəkkin var. Çox yaxşı, buyur bərabər soruşalım. Kimdir o?

– Marağalı Məşədi Əliəsgər.

– Bu kim?

– Şamaxılı Əbdülqafar.

– O biri?

– O da ərzurumlu Dursun ağa.

Bunların birincisindən soruşalım:

– Məşədi, siz nə cins və nə millətdənsiniz?

– İranlı və şiə məzhəbəm.

– Əbdülqafar ağa, sən?

– Mən də qafqazlı babıyam.

– Dursun ağa, sən bir az oxumuşa bənzəyirsən, gərək soyunu, millətini tanıyasan.

– Mən də osmanlı və sünniyəm.

– Daha özgə?

– Özgə heç!

Siz çox da deyiniz ki, "sünnilik, şiəlik, babılıq bir məzhəb və əqidədir", cins və millət isə başqadır.

Dünyada ən kiçik bir böcəyin, ən yaramaz bir otun soyu və cinsi bəllidir, ya bu qədər böyük bir insan yığıncağının bir cinsi yoxmu?

İştə bəla da burasıdır ki, həm var, həm də yoxdur? Vardır: onun üçün ki, biz də özgələr kimi insanız. Bir də, təbii, bir millət soyundanız. Yoxdur: çünki varlığımızı bilmiyiriz ki, soyumuzu da biləlim.

Gəliniz bir də qonşularımızdan soruşalım:

– Şakro Çaparidze, sən nə məzhəbdənsən?

– Pravoslav.

– Nə millətdənsən?

– Gürcü.

– Demitri, sən?

– Mən də pravoslav məzhəbindənəm.

– Millətin?
– Urum.
– İvan, məzhəbin?
– Pravoslavnı.
– Millətin?
– Rus!

Həddin yox ki, bir oxumuş gürcüyə gürcülüyündən savayı özgə bir ad verəsən, o saat özünü alçaqlaşdırılmış hesab edər və səndən bərk də inciyər.

Ya bizdə? Bizdə isə lap tərsinədir: sənin də həddin yox ki, salmaslı bir türkün oğlu türkə "şiə"yə "türk" deyəsən, o saat səndən üz çevirər və bəlkə də səni düşmən hesab edər. Bir də Axalsıxlı bir ağaya soruşunuz: o gələn kimdir?

– Əcəmə bənzəyir.
– Eyi, dəhduş diqqət et!
– Öylə kəndidir, əcəmdir, qızılbaşdır.
– Qoy olsun, bir az söylətəlim.
– İşin yox, burak dəf olsun. Qızılbaşdan nə eşidəcəksən ki?

Biçarənin xəbəri yox ki, qızılbaş deyə məsxərəyə aldığı öz soyundandır, öz millət qardaşıdır.

Amerikalılar Təbrizə gəlib məktəblər, xəstəxanalar açırlar və böyləliklə şiə türklərinə məhəbbət göstərirlər, yardım edirlər və ya edər kimi görünürlər ki, gələcəkdə məsləklərinə, ticarətlərinə xidmət eləsinlər.

Lakin bəlaya baxınız ki, biz Qafqaz türkləri öz ayaqları ilə yanımıza gələn iranlı şiə türk qardaşlarımıza yüz çeşid ad qoşub uzaqlaşırız. Üzdən də olmasa, arxadan min dürlü yaman deyiriz. Söz başında "ac tat" deyə də təhqir ediriz.

Tiflis guşələrində aclıqdan, azardan can verən iranlı türk əmələlərinə – yırqatlarına "persiyan" gözü ilə baxıb keçiriz, fəlakətlərinə soyuqqanlı tamaşa ediriz.

Ya Qafqazda yaşayan iranlı şiə türkləri? Onlar daha qafil! Bunlar bizdən daha artıq uzaqlaşmaq istəyirlər: məktəblərini, məclislərini, hətta bəzi yerdə məscidlərini də ayırıb özlərinə "şiə-fars" rəngi verirlər, balacalarına, yəni öz türk oğullarına türkcəni də əsirgəyirlər, oxutmurlar. Şiəliklə farslığı heç münasibəti olmayaraq cahilanə birləşdirmək öz türklərinə balta vurmaq, öz sözlərini, öz ata-babalarını danmaq istəyirlər. Ya İranın içi ilə çölü? Oralarını daha soruşma, keç!

* * *

Çox yaxşı, keçəlim Bakıya. Böyük "İslamiyyə" mehmanxanəsinə gedəlim. Göyçək və pak bir masanın (mizin) ətrafında oturan oxumuş və dünyadan xəbərdar, hətta sözündə millətpərvər görünən qardaşlarımızdan soruşalım. Soruşalım ki:

– Soy və millətiniz nədir?
– Əlhəmdülillah müsəlmanız.
– Şiəsiniz, yoxsa sünni?
– Heç biri deyiliz, təkcə müsəlmanız.
– Özgə, daha bir adınız-zadınız yoxmu?
– Xeyr, xeyr, xeyr!

Birincilərlə ikincilərin cavablarından anlaşılır ki, aralarında xeyli təfavüt var. Birincilər məzhəb və əqidə çevrəsindən çıxmamış, ikincilər isə bir az irəli gedib din dairəsində qalmış. Əgər məndən soruşulsa, aralarında heç bir təfavüt yox. Hər ikisi də birdir. Hətta deyə bilərəm ki, birincilər daha həqiqi, ikincilər isə daha xəyalidir.

Xəyalidir, çünki əqidə və məsləkləri qaldırmaq mümkün deyil, əqidə tərəqqinin yoldaşıdır, bunları ayırmaq isə dəlilikdir.

Hənəfi ilə şəfailiyin birləşmədiyi bir yerdə sünnilik ilə şiəliyi birləşdirmək xam xəyalların ən xamıdır.

Nə zərəri var? Qoy hər kəs öz əqidəsində, öz ictihadında, öz imanında olsun.

Nə var, ey oxucu! Niyə başını qaşıdın, niyə üzünü turşutdun? Sultan səlimlərin, Nadir şahların və bir çox islam recal və üləmasının çalışdıqları, hətta o uğurda can fəda etdikləri bir məsləkə toxunduğumdan ötrümü məndən inciyirsən?

Yox, yox, incimə. Əgər onlar din və əqidənin xasiyyətlərini, vəzifələrini, mövqelərini həqqi ilə bilsəydilər, boş-boşuna o qədər çalışmaz və nahaq yerə də o qədər qan tökülməyə səbəb olmazlardı.

Əgər onlar "dini-islam"ın bir ağac, əqidələrin də o ağacın birər dalları olduğunu və o ağacın böyüməsi üçün dalların mütləq ayrılmaq, genişlənmək ehtiyacında bulunduğunu qanıb onlara yol və hürriyyət versəydilər, islamiyyət heç vaxt bu qədər cığırından çıxmaz və o qədər boğuşub əzilməyə, kiçilməyə də məhəl qalmazdı.

Çox təəccüb ki, hətta çox cahillik ki, islamiyyət bütün əqidələri: istər şəfai, cəfəri, hənəfi, maliki olsun, istərsə vəhabi, rafzi, babi, şeyxi və qeyri olsun, öz vücudunda birləşdirib, yerləşdirib böyüdə-böyüdə biz sanki daha ağıllı bulunmaq istəyiriz.

Zatən islamiyyət gövdəsində birləşmiş dalların, əqidələrin vəziyyətlərini bəyənməyib, biz "ikinci dəfə" daha birləşdirmək və birləşdirirkən də bütün-bütün sındırmaq xamlığında bulunuruz.

İslamiyyət ağacı dallarının, əqidələrinin böyüməsini, yayılmasını hər əqidə sahibi özünə zərər sanmaqla neçə yüz illərdən bəri birbirilərini qırıb tələf etməyə çalışdıqları və bütün qüvvələrin o uğurda sərf etdikləri məgər bəs deyilmi ki, bu gün biz də ata-babalarımızın yanlışlıqlarını, o mühitin, o vaxtdakı halın törətdiyi fənalıqları təkrar etmək cinayətində bulunalım.

Yox, yox. Şimdi mühit özgə olduğu kimi, istədiyi zad, törətdiyi fikir və əməl də özgədir.

Qoy beş deyil, on deyil, istərsə yetmiş iki əqidə olsun!

Hər kəsin ürəyindəki etiqad və imanına, o xüsusi hərəmxanəsinə qarışmaya nə haqqımız var?

İnsanlığa zərərli olmayan əqidə və azadlıqdan bizə nə zərər ola bilər. Bir də gərək biləlim ki, din qovğaları, din əqidə və ixtilafları, din təklifləri özgə yerlərdə çoxdan məzara getdi. Biz hələ gözlərimizi qapıyıb ölənləri diriltmək, diriləri öldürmək sehrbazlığından, xurafata, xəyalata qurban olmaq, ibtidailikdən, cəhalətdən qurtula bilmiyəcəkmiyiz?

* * *

Ey qafqazlı türk, sən çoxdan islam qeyrətini çəkirsən və bu qeyrətlə, hətta öz varlığını, öz adını da itirmişdin.

Sən islam uğrunda o qədər çalışmış, əqidə qovğalarında o qədər zərər çəkmiş, o mərtəbə yorulmuşsan ki, axırda bu gün onların adlarını çəkmək istəməyib, təkcə müsəlman olmaq xəyalına düşmüsən.

Lakin, əzizim, o qədər qorxma! Yenə aldanma ki, mərifət olan yerdə əqidə ixtilafı zəhmət deyil, rəhmətdir.

Ey türk, dini əqidələr qovğasından daha çox qorxma! Qorxma ki, onların hökmü keçməyə, onların yerlərini indi siyasəti-məişət və siyasəti-bəşəriyyə əqidə və məsləkləri tutmağa başlayır.

Ey türk, sən çox da rahatsız olma və şəkkə də düşmə: dini olsun, dünyəvi olsun, əqidəni gizlətmə. Səndən soruşduqları vaxtda ki, "dinü əqidən nədir?", sən də haman söylə: şiəyəm, sünniyəm, babıyam və müsəlmanam.

Ey türk, sənin başına çox işlər gəlmişdir, çox əqidələr dolmuşdur. Çox şeylər bilmişsən və bu gün də çox cahil deyilsən! Bir çox ədiblərin, müəllimlərin, mühəndislərin, doktorların, advokatların, məktəblərdə yüzlərcə tələbələrin var!

Ey türk, olduqca çox şey bilirsən. Sənə daha sırf cahil xeyir və şərin qanmayan demək olmaz.

Sən, sən ey türk! Zamanın bir çox icadlarını, təzə fikirlərini, hətta bir çox modalarını da öyrənirsən, hətta dini əqidələrin çürüməyə üz tutduğunu sezib dünyəvi əqidələrə iman etməyə də başlayırsan.

Əvət, çox şeylər, fənlər bilməyə çalışırsan. Bir çox hünərlər də öyrənmişsən. Havalara çıxıb və yıldızların nə olduqlarını yaxından bilmək, yerin içərilərinə girib mahiyyətini anlamaq istəyirsən. Ancaq, ancaq bircə xüsusda cahilsən. O barədə heç bir zad bilməyirsən. Hər şeyi öyrənmək istədiyin halda sənə ən lazımlı, sənə ən birinci fərz olan vəzifədən xəbərin yox...

Nə var, niyə darıxdın? Niyə yenə can sıxıntısının acısını bığlarından, dodaqlarından almağa başlayırsan?

Doğrusu, tütün çəkənlərdən olsaydım, burda mollaların salavatı kimi, bir papiros çəkməyi tövsiyə edərdim.

Hə, ey türk! İstər darıx, istərsə qarıx, yaxandan əl çəkəcək deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə "Kimsən?" dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən türkəm. Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan!

Sənin bu türklüyünə nə şiəlik, nə babılıq, nə də dinsizlik mane ola bilməz.

Sən, ey türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən. Sən gərək bilməsən ki, dünyada hələ şiə, sünni, babı, şeyxi adları yox ikən sən var idin. İslamiyyət Ərəbistan qumluqlarında doğmadan əvvəl belə sən Altayın ətəklərində ətrafın gözəlliyinə tamaşa edib zövq alırdın. Orada uzun seyr və səyahətlərə hazırlanırdın.

Ey özündən xəbərsiz türk! Mədəniyyət əsrləri, nizam, idarə və asayiş üsulu "yasaq" qanunları hənuz Bağdad, Şam, Paris və Londonda yox ikən, sənin yurdunda var idi.

Sən öz dadlı dilini cığırından çıxarıb bugünkü acınacaq hala salan, ərəb əlifba və yazısından əvvəl sənin göyçək əlifba və yazın var idi.

Ey özünü itirir, unudur dərəcədə müsafirpərvərlik, özgələrə hörmət göstərən türk, yaxşı yadına sal ki, sənin ruhun, sənin qanın, sənin düşüncən, sənin varlığın hənuz sənin özündə ikən, sən bugünkü kimi dilsiz, yazısız, yəni milli nişanəsiz deyildin.

Ey sadə ürəkli türk, dünən, bu gün öz varlığını, öz mədəniyyətini göstərə bilib, indi sənə "köhnə barbar" gözü ilə baxıb bugünkü mədəniyyətlərin haqsızlıqlarına baxıb incinmə. Səni lazımilə tanımadıqlarını bilib məyus olma.

Yox, yox, sən də çox insafsız bulunma, öz-özünü hələ tanımadığın bir vaxtda çox da özgələrdən incinmə!

Ümid ki, tez vaxt olur, yüzdə doqquzu hələ yer altlarında qalıb gizlənən əski mədəni nişanələrin, əski əsərlərin yavaş-yavaş dünya üzünə çıxar. Sən də ol vaxt artıqlığı ilə üzə çıxarsan, gələcəkdə daha güclü yaşamaq istedadını göstərərsən.

Bəsdir, bəsdir, ey türk, bir az ayıl! Ayıl da bir çox toz-topraqlarla dolan, ağırlaşan dini əqidə pərdəsini gözlərinin üstündən qaldır. Əlayağını bir az tərpət. Vücudunu, varlıq ağacını saran, korlayan tikanları, sarmaşıqları, yad ağacların yapraqlarını, dallarını qır, at, qurtul. Vücuduna Allahın günəşi, havası dəysin. Başını bir az yuxarı qaldır. Öz varlığını, öz vücudunun qiymətini bil. İndiyə qədər yadlar üçün, özgə varlıqlar və vücudlar üçün özünü həlak etmisən, barı bundan sonra olsun ayıl, bir özünə gəl, öz gününə çalış.

Ey türk, zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalırsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb yigitcə yaşamaya vücudumuzda qüvvət və taqət qalmamış ola.

Ey türk, keçmişlərindən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsil vücudunu tanı, qədrini anla.

Ey türk, yaxşı bil ki, bugünkü məhşərin suri-israfili elmə, milli ittihada dəvət ediyor!

İndinin siyasi fəlsəfəsi tərəqqiyi millətçilikdə görüyor. Zamanın şövkət və səxavət binası millətçilik bünövrəsi və təməli üstündə quruluyor.

Əsrin ruhu azad millətçiliklə bəsləniyor, böyüyor. Keçmiş əsrlərin, keçmiş siyasi əqidələrin cızdığı coğrafiya sərhədlərini indiki etnoqrafiya yavaş-yavaş pozuyor.

Keçmiş əsrlərdə daşıb ətrafa yayılan millət selləri yavaş-yavaş kiçilib öz qaynağına və ya çoxdan yataq elədiyi yerlərə çəkiliyor.

Vaxtilə özgələrin sıxışdırılması ilə və ya cahangirlik doliliyi ilə yerlərindən firlayıb aləmi rahatsız edən millət ordolarına indi: "Hər kəs öz milləti yerində" komandası veriliyor.

* * *

Bu gün eyidən-eyiyə qanıram ki, dini əqidədən sonra insanda doğan dünyəvi əqidələrin birincisi millətpərvərlik əqidəsidir, ictimai fəlsəfənin baş, özünü tanımaq fəlsəfəsidir, millətini bilmək elmidir.

Millətpərəstlik əqidəsi özgə əqidələrin mərhələsi, keçididir.

Vaxta ki, insan batil və xurafat əsirliyindən qurtulub özünü, özünün hüququnu bilməyə başladı, ondan sonra mühit və ehtiyacın təsirilə hər nə qaydaya girərsə girsin.

Bu halda ki, mövqeyimizə, mühitimizə, elmimizə, ehtiyacımıza bizim ən birinci əqidəmiz isə azad millətpərəstlik əqidəsi olmalıdır.

İndi gələlim əsil məqsədə. Ey şiə, ey babı, sünni türk qardaşlarım, diriliyimizin milli ittihadda olduğunu biləndən sonra daha rəva görməməliyiz ki, millətimiz kütləsini meydana gətirən azanın bir qismi Anadolunun izsiz, şənliksiz, dağılmış, qorxunc bucaqlarında yalnız başlarına ac, çılpaq buraxılıb tələf olalar.

Ey pak ürəkli türk, bu millətçilik zamanında hər millət öz nüfuzunu artırmaq, o nüfuzla öz nüfuz və qüdrətini böyütmək üçün yüz dürlü tədbirlər, fədakarlıqlar edər. İnsaf deyil ki, biz hazır əlimizdə olan minlərcə nüfuzumuzun – həm də ən gənc və qəvi bir qüvvətin – yardımsızlığından, bir loğma ətmək bulamamazlıqlarından tələf olmalarına özümüz bilə-bilə səbəb olalım.

Ey uca mərhəmətli türk, sənin köhnə mərhəmətin, ehsanın, nişanələrin – o böyük camelər, mədrəsələr, körpülər, xəstəxanalar, çeşmələr... hələ sənin əcdadını hörmətlə yad etdirirlər. İndi sənə nə oldu ki, milyonlarla vücuda gələn əsrlərdən deyil, aclıqdan, çılpaqlıqdan, "ölümdən betər" bir hala düşən öz qardaşını qurtarmaq mərhəmətindən aciz görünüyorsun. Yazıq, yazıq!

"Qardaş köməyi" məcmuəsi, may, 1917-ci il

MİLLİLƏŞMƏK

Canlı işlər, tarixi dəyişikliklər bizə göstərir ki, hər cəmiyyət, hər fərd, hər dürlü ənənəsindən, müqəddəsatından, imkan və etiqadından az-çox əl çəkdiyi halda milli dilindən əsla və əsla vaz keçməmişdir. Və heç vaxt da keçəməz. Çünki hər millətin ədəbiyyata malik dili o millətin ruhu, nişaneyi-mövcudatıdır. Ondan məhrum olduğu gün mərhum olmuş, ondan uzaqlaşdığı gün qəbrinə yaxlaşmış deməkdir.

Tarix bizə göstərir ki, bir millətin cahangirliyi, hökuməti, hətta yeri-yurdu da əlindən alınsın, madam ki, milli ədəbiyyatı var, o millət məhv edilməz. Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz.

Dünyada bədbəxt o millətdir ki, özgə millətin silahından ziyada dil və ədəbiyyatına əsir olaraq yaşamaqdadır. Hələ, zəmanəmizdə milli ədəbiyyatına malik olmayan bir millətə hədd-rüşkə çatmamış bir bala nəzərilə baxıb cəmiyyəti-əqvam ailəsinə qəbul edilməməsi, öz müqəddəratının özünə verilmək istənilməsi bizim kimi öz dil və ədəbiyyatını sevməyənlər üçün nə gözəl bir dərsi ibarətdir.

Əlifba və ədəbiyyatlarının mövcudiyyəti min il qabaqlara çıxaran və bununla köhnə bir mədəniyyətə sahib olduqlarını iddia edən millətlər boş görüntü üçün deyil, İştə bu gün üçün, bugünkü cəmiyyəti-əqvamın imtahanı üçün hazırlanırlardı. Və bu gün də özünü qanan hər millət səbilikdən qurtulmaq, həddi-rüştə çatmaq və ya onu keçib mərtəbeyi-əhəmiyyətə yetişmək üçün bütün var qüvvələrini milli dil və ədəbiyyatlarının tərəqqisinə sərf etməkdə və bu səyin dərəcəsi nisbətdə istibdad və cəhalətin pəncəyi-zaliminden qurtulub hürriyyət və müsavata nail olmaqdadırlar. Çünki bu gün ən acı təcrübələrdən sonra qəti və müsbət bir həqiqət olaraq qəbul edilmişdir ki, insanları qara cəhalətdən, istibdaddan xilas edən yalnız və yalnız ədəbiyyatdır.

Müstəbid hökumətin, keyfi idarənin, zalimanə üsulun ən böyük düşməni ədəbiyyatdır. Ədəbiyyat olan yerdə istibdad, istibdad olan yerdə ədəbiyyat yaşıyamaz. Bu səbəblə idi ki, müstəbid və zalım padşahlar keyfi idarələrinin bəqayi-davamı üçün ən ziyada müraciət etdikləri tədbir ədəbiyyatı qısmaq, hürr mətbuatı yox etməkdi.

Milli ədəbiyyatın silahdan min kərə güclü, əhəmiyyətli olduğunu bu gün hər dürlü qail və keşməkeşlər içərisində ola-ola ən ziyadə qeyrət və səylərini milli ədəbiyyatın tərəqqisinə, ülumun nəşrinə

sərf edirlər. Çünki yaxşı bilirlər ki, xalq hürriyyət və müsavatın qədrini, ləzzətini ancaq və ancaq öz milli dilləri ilə anlaya bilərlər. Və yenə ancaq bu anlayışla hürriyyət və istiqlalın mühafizəsi uğrunda fədayi-can edə bilərlər.

İştə bu düşüncələrə görədir ki, bu gün xüsusiyyəti-milliyyənin yeganə şüarı olan "milli dil"in mühafizə və tərəqqisi uğrunda ən ziyadə çalışanlar sosialistlərdir. Bu isə onlar üçün təbii bir qüsur deyil, bəlkə fəzilətdir.

Doğrudan da görürüz ki, dil məsələsində ən mütəəsib millətçilik edənlər yarımmədəni hindlilər, əfqanlar, türkmanlar deyil, mədəni ukraynalılar, polyaklar, bolşevik ruslar, sosialist gürcülərdir.

Əcəba, biz nasıl?

Burada türkcəmizin göyçəkliyindən, türk ədəbiyyatı tarixindən bəhs edəcək deyiləm. Ancaq burasını yada salmaq istəyirəm ki, fransız dili Qərbdə nə isə, Yaxın Şərqdə də türk dili odur.

Qərbdə fransız dili nə cür ümumi dil xidmətini görürsə, Yaxın Şərqdə, yəni Qafqaziyada, İranın yarısında, Türkistanda, Rusiyanın cənubi-qərbində, Krımda, Anadoluda, Rum elində, Suriyada, İraqda türk dili öyləcə ümumi dil vəzifəsini görür. Oralarda bir türk bir arpavuza, bir ərəb bir kürdə, bir iranlı bir gürcüyə, bir erməni bir ruma, bir yəhudi bir assura məram anladacağı zaman mütləq türkcə söyləməyə məcburdur. Çünki onların heç biri o birinin dilini bilməz, lakin hər kəs az-çox türkcə bilir.

Türk dili oralarda bütün dillərə hakimdir. Türkcənin bu hakimiyyəti qarşısına imdiyə qədər heç bir dil çıxmamışdır. Hərçəndi bir vaxt ərəb və fars dilləri osmanlıların az bir qisminə, onların rəsmi yazılarına hakim olmuşdur. Lakin heç vaxt ümumi xalqa, xalq ədəbiyyatına hakim olmamış və ola bilməz də.

Türk dilinin Yaxın Şərqdəki hakimiyyətinə şahidlər axtarmaq lazım deyil, onunla danışan 60-70 milyonluq böyük bir kütlənin şahidliyindən daha möhkəm nə ola bilər?

Türkcənin yazı və mətbuat aləmindəki zəifliyinə gəlincə bundan qüsur, bəzilərinin sandığı kimi, türkcənin özündə, onun əskik və qabalığında deyil, başına bəla etdiyi əlifbasındadır. Doğrudan da türkcəmizə danışıq və ahəngini olduğu kimi göstərməyə, yazmağa əsla yaramayan ərəb əlifbasını qəbul edəndən sonra öz varlığını, öz istiqbalını itirmiş və bu günə qədər ərəbliyə əsir olaraq həqiranə ömür sürmüşdür.

Vaxtdır ki, həqiqi, ictimai bir inqilab ilə dilimizi bugünkü yaramaz və çirkin əlifba əsirliyindən qurtarıb öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edəlim. Və bunun sayəsində dilimizə danışıqda qazandığı ümumilik şərəfini mətbuatda da qazandıralım. Və bu yol ilə xalqa savad öyrədəlim, onlara qolayca bilgi və maarif qapılarını açalım.

Hamıya ümumi təlim verəlim, elmin ləzzətini datdıralım. Və ancaq bundan sonra camaatdan hürriyyət, ədalət və müsavat qanunlarına tamamilə riayəti, istiqlal yolunda, xalqçılıq uğrunda can verməyi istiyəlim.

Yoxsa özgə cür hamısı boş, hamısı qayırma, hamısı küy-kələkdir.

Zaman, ehtiyac və həyat bu gün bizdən çox şeylər gözlüyür, daha ciddi, daha xeyirli, daha əqilli, daha elmi yolda çalışmamızı tələb edir.

Qurduğumuz xalqçı cümhuriyyətdə hər zaddan qabaq xalqın murad və mənfəətini nəzərə almaq lazım gəlir. Cümhuriyyətimizin bünövreyi-əsasını meydana gətirən qara xalqın üzünü ağartmaq, üstlərindən cəhalət qaranlığını qaldırmaq, məişət ağırlığını atmaq xalqçılığın şah əsəri, yeganə vəzifə olur.

Xalqçılar bu vəzifə və şah əsərini isə ancaq milli ədəbiyyat vasitəsi ilə vücuda gətirə bilərlər.

Milli ədəbiyyat xalqçıların əlində parlaq bir məşəldir. Ancaq bu məşəl ilə xalq hürriyyətin mənasını düşünər, müsavatın imkanını qanar, ədalətin doğruluğunu görər, istiqlalın qədər və qiymətini bilər.

Şu qədər ki, milli ədəbiyyatın parlaq bir məşəl halını alması, ondan layiqilə istifadə etmək üçün o millət, o xalq tərəfindən sevilməsi, ona qiymət verilməsi, ona hörmət edilməsi şərtdir. Xüsusilə buna xalqdan artıq xalqçılar, xalq idarəsi başında əyləşən ağalar riayət etməlidirlər.

Görəlim bizim ağalarda, bizim xalqçılarda bu hünər, bu fəzilət varmı?

İştə, can alacaq əsil nöqtə!

"Azərbaycan" qəzeti, 21, 24 təşrini-sani (noyabr) 1919, №327, 328

NƏ ETMƏLİYİK?

Bir xeyli zamandır ki, ermənilərin Naxçıvan, İrəvan və Qarabağ mahallarında qurduqları duzəx və tələlər, polis və qoşun əlilə gördükləri işlər öylə bilirdik məhəlli xırda vəqiələr ilə qurtarıb keçəcəkdir. Öylə güman ediyorduq ki, ermənі-müsəlman toqquşması yalnız hökumət müftinlərinin və onlara allanan avam camaətin çıxartdıqları müvəqqəti bir faciədir. Öylə sanırdıq ki, iki qədim qonşu arasına buraxılan bu dəhşətli və xanimansuz od siyasi inqilaba Qafqazda bir sədd çəkmək üçün yalnız hökuməti-müstəbidə qulluqçuları tərəfindən meydana çıxarılan gəlib-keçici bir mərəz və bəladır. Məgər nə qədər aldanmışıq! Məgər nə mərtəbədə qafil və bəsirətsiz olmuşuq! Məgər nə dərəcədə bifəhm və safdil olmuşuq ki, ermənilərin İrəvan və Qarabağ səmtlərində hər cür hazırlaşmaqlarını görə-görə, hər cürə fitnə və fəsadlarını hiss edə-edə hər növxainənə hərəkətlərini qana-qana özümüzü lazımi yolda müdafiə etməyi yadımıza belə gətirmədik.

Bəli, yadımıza belə gətirmədik ki, ermənilər çox-çox əvvəl, gecə-gündüz, kişi-arvad hazırladıqları qanlı faciələri bizim oğul-uşağımızın başında oynayacaqlar, hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqlar.

Güman etməzdik ki, rus generalları – bizim sədaqət və itaətimizin əvəzində ermənilər ilə bir olub bizi bu dərəcə dəni vasitələr ilə qıracaqlar.

Bu inanmaqlığımız, bu sadədilliyimiz səbəbilə idi ki, böyügümüz, kiçiyimiz, yazıçımız, müxbirimiz... bir sözlə cümləmiz qonşu ermənilər ilə yenə qədimsayaq üzrə, sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan ediyorduq. Və bu surətlə millətimizin gözünü qafilanə bağlayıb böyük bir təhlükə və uçuruma sarı hazırlayırıq ki, o təhlükənin əvvəlinci zərbəsini Qarabağ vüquatı çox açıq meydana çıxartdı. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq.

İndi lazımdır ki, ermənilərin niyyət və tədbirlərini kəmal ilə bilib, ona görə özümüzü mühafizə eləyək.

Burasını heç vaxt yaddan çıxartmayaq ki, ermənilər hər nə cür olsa özləri üçün mütləq bir "Ermənistan" vücudə gətirmək niyyət qəbisindədirlər. Və bu niyyətlərini hüsula gətirmək üçün də mütləq bizi İrəvan, Qarabağ və Kars səmtlərindən çıxartmaq məcburiyyətindədirlər. Bilməliyik ki, ermənilər bu niyyətlərinə çatmaq üçün hər cür fədakarlığı gözə almışlardır: Müsəlmanları həyəcana gətirib və üstlərinə hücum etdirəcəkdirlər, özləri bilə-bilə qırılacaqlardır, sonra durub Yevropaya

öz məzlumiyyətlərini ağlayacaqlardır. Yavaş-yavaş öz qəsdlərinə planlar, yollar hazırlayacaqlardır. Öz gücləri ilə bacara bilmədiklərini, bu uğurda cəm etdikləri milyon-milyon pulların, rüşvətlərin zoru ilə rus məmurlarına gördürəcəklərdir. Kars, Naxçıvan, İrəvan və Qarabağ səmtlərində həmişə öz niyyətlərinin hüsuluna çalışacaqlardır. Heç bir an bizi zəif və zəlil etməkdən geri durmayacaqlardır. Gah fürsəti qənimət bilib beşikdəki uşaqlarımızı da doğrayacaqlardır, gah işlərinin məsləhəti üçün alçaqcasına yalvarıb barışacaqlardır. Amma bilməli ki, bu barışıq gələcəkdə ki, xainanə rəftarlarına pərdə çəkmək üçün qurulan tülkü duzağıdır. İndiyə qədər havaxt ki, ermənilər müsəlmanları sülhə dəvətə can və dil ilə gəliblər, həmişə deyirdim ki, bir neçə gün sonra davaya hazır olmalı və həqiqətdə də sülhü mütəaqib həmişə davanı gözləmişik. Burasını yaxşı bilməliyik ki, ermənilər ilə nə cür hüsn rəftar və hətta qardaşlıq belə etsən, onlar öz siyasi qəsdlərindən əsla əl çəkməyəcəklərdir. Həmişə çalışacaqlardır ki, bizi bir fənd və hiylə ilə yuxuladıb, inandırıb, altdan öz işlərini, tədarüklərini görsünlər.

Ermənilər, Ermənistan dağlarında özlərinə məxsus əsgəri yol qayırmağı çoxdan fikir ediyordular. Lakin rusların qorxusundan böylə bir işə bir bəhanə və dəstavüz tapa bilmirdilər. Amma indi erməni-müsəlman davası və yolların kəsilməsi onların əllərində gözəl bəhanə oldu. Rus məmurlarının əqilləri də ki, şükür Allaha, bir toyuq qədər yox...

Bəli, ermənilər indi ruslar ilə bir olub bizi İrəvan, Qarabağ səmtlərində zəiflətdikdən sonra gələcəkdəki, fürsətə intizar edib Rusiyanın inqilab və zəfini gözləyəcəklər. Və birinci fürsətdə Rusiyadan qabaqca "avtonomiya" istəyib, yavaş-yavaş özlərinə "Ermənistan" hazırlayacaqlar.

Ermənilərin osmanlıdan çoxdan əlləri çıxdı. Ümidləri qaldı Qafqaza və İrana. İran da həmd olsun tez-gec oyanıb vətənin namusunu mühafizə edəcəkdir. Tək qalır ermənilər üçün Qafqaz. Budur ki, burada gecə-gündüz min hiylə və fənd ilə çalışacaqlar ki, müsəlmanları öz ticari davaları ilə, rus tüfəngləri ilə zəiflədib zamanın fürsətini gözləsinlər.

İşin həqiqəti apaşkar bələdir, ermənilər bizimlə məhz siyasi niyyətləri üçün davaya məcburdurlar. Yoxsa bizimlə həmişəliyə heç vaxt düşmən deyildirlər. Hakəza müsəlmanlar da ermənilər ilə heç vaxt düşmən deyildirlər ki, bu neçə qanlı davalara nihayət verilməsin. Nədən ötrü Şəki, Şamaxı, Zaqatala, Batum, Axalsix...dəki müsəlman və ermənilər bir-birləri ilə qardaşca yola gediyorlar? Ondan ötrü ki, oradakı ermənilərin siyasi qəsdləri yox, orada müsəlmanları davaya məcbur etmiyorlar.

Halbuki, İrəvan və Qarabağda iş belə deyildir. Buralarda həmişə düşmənçilik, həmişə qətl və qarət ermənilərin ən birinci planıdır.

İndi burasını qəti surətdə biləndən sonra bizə lazımdır ki, düşmənin qabağına düşmən kimi çıxaq. Öz hüququmuzu mühafizə etmək üçün lazımdır. Bəlkə fərzdir ki, "daşnaksütyun" kimi qüvvətli milli bir cəmiyyət təşkil edib xain qonşularımıza öz hədələrini tanıdaq. Hər yerdə müntəzəm və gözətçi cəmiyyətimiz olmalıdır. Bunun üçün şəkili, şamaxılı, bakılı, qarabağlı, dağıstanlı, bilməm haralı deməyib cümləmiz bir vücud kimi müttəhid iş görməliyiz.

Ey bu gün biqəm və bihiss yatan üzvlərimiz! Siz zənn edirmisiniz ki, ermənilər sabah qüvvətli bir Ermənistan təşkil etdikdən sonra sizləri yerinizdə rahat qoyacaqlar? Xəyal edirmisiniz ki, birəhm bir millətə fürsət verdikdən sonra rahat və arxayın oturacaqsınız? Xeyr, xeyr, yatacaq zamanı deyildir. Bu gün ermənilərin niyyətləri və bizim safdilliyimiz məlum olduqdan sonra bilicilərimizə, başçılarımıza fərzdir ki, bir saat rahat olmayıb gələcək üçün çalışalar. Bizə bu halda hər bir partiyadan artıq, qüvvətli bir milli partiya lazımdır. Qoy içimizdə sosialist də, federalist də, kommunist də olsun. Amma bu gün hamısından artıq hüquqi-milləti müdafiə edən qüvvətli milli bir partiya lazımdır.

Mən elə bilirəm ki, sosial-demokratlıq məzlumluq haqqını mühafizəyə çalışmaqdır. Bu halda ermənilərin siyasi niyyətlərinə, məhz milli istiqlallarına qurban olan bunca məzlum müsəlmanların köməyinə çatmaq, zalımların əllərindən xilas etmək ən birinci insaniyyətpərəstlikdir, ən gözəl demokratlıqdır. Bu saətdə bizə əcələ lazım olan milli bir cəmiyyətdir. Digər cəmiyyətlərimiz də, əlbəttə öz qaidələrində əmələ gəlib davam edər. Qəlbi zəiflik, yalançı insanlıq, bixəbəranə sosial-demokratlıq vaxtı deyil. Ən əvvəl bu gün odlar içində yanan, zərurətlə can verən yaxın qardaşlarımızın ah və fəryadlarına çatmalıyıq. Bu gün insanlıq və sosializmin əmr etdiyi vəzifə budur. Yoxsa yumşaq kürsülərin üstündə oturub, insanlıqdan dəm vurmaq, yalnız iki şahı mənfəətdən ötrü ittihad edib sosial-demokrat olmaq, mənfəətpərəstlikdən özgə heç bir zad deyildir.

Xülasə, keçmiş və indiki vüquatdan ibrət alıb, mətin qəlbli, durbin nəzərli, salim fikirli zilqurba – hamisi olmalıyıq. Hər şeydən əvvəl öz milli mənfəətimizi nəzərə alıb əcələ bir cəmiyyəti-ittihad təşkil etməliyik.

Bir cəvan

"İrşad", 4 avqust 1906-cı il, № 183

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

(1884-1955)

CAVANLARIMIZA

Millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirməkdədir. Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqənin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə cəfəngiyat və mövhumata, hekayə və vəzlərlə dolmuş qulaqları küll Rusiyanı çulğayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollalar göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən naşi pərdeyi-zəlam və qəflət ilə örtülən gözləri hürriyyət, insaniyyət və həqqaniyyət yolunda tökülən qanları, onu (özünü) əhatə edən rəzalət və zəlaləti görmiyor. Və daha doğrusu, əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhvəl adamlar kimi hər bir şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür. Elmə həvəs etmiyor, mərifət kəsb eləmiyor, kəsbruzi yolunda lazım olan səy və guşiş etmiyor, Allah özü yetirər – diyor.

Giriftar olduğu fəqr və faqəyə təhəmmül ediyor. Sahibkar və dövlətlinin hər bir cövr və sıxıntısına səbr ediyor. İnsana yaraşmaz ağırlıqlarda, ən alçaq bir məvacib və şərtlər üzrə işliyor. Hər cəbr və zülmü, nə qədər ağır və şiddətli olsa da çəkiyor. Hər ədalətsizliklərə səbr edib dinmiyor, göydən belə yazılıb – diyor.

Hər bir hiyləkara düçar olur, var-yoxunu əlindən aldadıb alırlar, bir yavan çörəyə möhtac ediyorlar. Bunların hamısını görür, hamısının ağrısını qəbul ediyor – yenə də ümid üzməyir, Allah Kərimdir – diyor.

Bu qədər cəfa və əzalardan təngə gəlir, nəhayət, özünə bir çarə axtararaq hökumətə güvənir, polisəyə şikayət edir, bir neçə gün gedir-gəlir, yol ağardır, axırda özü müqəssir olur, dərdinə çatan olmuyor, yenə də sakit-sakit durub əli qoltuğunda heyran və sərgərdan qalıyor.

Nə eləsin, nə çarə qılsın, kimə dərdini deyib, kimdən imdad istəsin, hər yanə gedir zülm, hər tərəfə qaçır təəddi, hər şəxsə sığınır əza, hər guşəyə varır cəfa, hər səmtə dönür ədalətsizlik, xülasə, hər

yanda yalan və zülmət görüb aciz qalır, nə eləməyin bilmir, çarə yolunu tapmıyor. Özünə bir yol göstərən, dərdinə dəva deyən görmüyor. O biri yandan isə hallı mollalar, rövzəxanlar və qeyri bu kimi şəbədəbazlar, o zülm və zülmətin əmirləri, o şəriət və millətin hadimləri[1], o pula səcdə edən dənilər bu biçarəni səbrə, təhəmmülə, hər bir şeyə razı olub, "Allah tərəfindən müqəddərdir, razı olmaq gərək" deməyə alışdırıb və bu zəifin, bu məzlumun başaltını yastıqlayıb, onu yatırdırlar. Bəstəri-qəfləti döyüşüb cəhalət yuxusuna alışdırırlar. Bu da yatır, mürəbbilərin verdikləri tərbiyə ucundan elə bərk yatır ki, hər bir ağrı və sancıları da bilmərrə yadından çıxarıyor. Bu minval ilə bir xeyli zaman yuxulayır. Hərdən bir bəzi həmiyyətməndən tapılıb bunları oyatmaq istiyor, lakin qarovulda duran laylaçılar haman şəxsi qovub onu ayılmağa qoymuyorlar. Zira yatanlar ayılarsa öz həqlərini alarlar, qasiblər isə rüsvay olar.

Nəhayət, Rusiya inqilabı alovlanır, bir kirdar düşüb hay-küy qopur, bu hay-huy və mərəkənin səsindən yatmış olan millətimiz yavaş-yavaş ayılmağa başlayır, ayılır, ayılır da yön tutub bir yana getmək, vasilə tapıb bu əsarətdən qurtarmaq, xadim tapıb hadimlərin əlindən çıxmaq istiyor.

Budur, müsəlman füqərası, füqərayi-kasibəsi öz qeyri-münəzzəm tətilləri ilə ürəkdən fəryad edib çağırır ki, ey millətin cavan qüvvəsi, ey hər bir cəmaətin tərəqqi və təaləsinə səbəb olan millət cavanları, gəlin, siz Allah gəlin, bizi əsarətdən qurtarıb rahi-səadət və səlaməti bizlərə göstərin. Qərinələr ilə uyuduğumuz xabi-cəhalət və qəflətdən oyandıq, bir daha yatmaq, bir daha düşmənlərin laylasına uymaq istəmiyoruq. Sizi and veririk insaniyyət və həqqaniyyətə ki, bizim əlimizdən tutub bizləri nicat və fəlahə yetirəsiniz!!!

Ey millət-millət deyib bar-bar bağıranlar, ey öz elm və bilikləri ilə fəxr və mübahat edən cavanlar, ey tələbəlik və studentlik faxirlibası ilə müzəyyən ziyadarlar, ey cəmaət müəllimi adlanan zəvatigiramlar, ey təbən hürriyyət və azadlıq məftunu olan millət balaları! Biçarə füqəra ürəyinin ən dərin guşəsindən gələn bu səda fəryadı, millətimizin çox qismi olan bu füqəra və kəsəbənin yanğılı fəryadlarına guş veriniz! Giriniz bunların içinə, göstərin onlara o yolu ki, onunla mənzilə yetişə bilsinlər.

---

[1] Hadim – dağıdan, sökən

Havaxta kimi bətalət, havaxta kimi kəsalət bizlərə qabil olub, fəqət özümüzə məşğul olub öz qardaş və yoldaşlarımızı fəramuş edəcəyiz?

Bir baxın özgələrə, bir baxın ətrafınıza, bir görün qeyri-millət cavanları nə qayırırlar, nə yolla iş görüyorlar. Necə gör hürriyyət və füqarə yolunda candan və başdan keçiyorlar.

Hər sahibi-vicdan, mərhəmət və şəfqətə lazım və bəlkə vacibdir ki, füqərayi-kasibənin və ümum millətin yanıqlı ürəyindən gələn bu sədaya öz ürəyində yer verib onun dərdini öz dərdi, onun əsarətini öz əsarəti bilib ona imdad əlini uzatsın, ona yol göstərib belə bir fəlakətdən qurtarmağa səy etsin.

Gəlin, yoldaşlar, iştə insaniyyətə dəyər iş fəqət budur!

"Təkamül", 23 dekabr 1906, № 2

YUXUDUR, YOXSA HƏQİQƏT?

İnsan bəzən ixtiyarsız olaraq fikrə gedir və bəzi şeylər düşünür. Məsələn, Qaradağda bir yolkəsən, qaniçən, adamöldürən bir qəddar adam var, adı Rəhimxandır. Təbrizin ətrafına bütün od vurub, qiyamətlər qoparıb, neçə yüz nəfərin həyatını əlindən almış bu zülmkarın əlindən uşaq və yaşlıların ahu-nalələri göyə ucalıb. O elə vəhşiliklər eləmiş ki, onu qələmlə yazmaq, dillə söyləmək mümkün deyil.

Rəhimxan!..

Elə ki, bu mənfur adı eşidirik, dərhal Azərbaycanın yanmış kənd və evləri, o qəddar şəxs və onun dəstəsinin dəhşətli əməlləri gözümüz önünə gəlir, xarabalarda o biçarə südəmər uşaqların, qocaların, dul sahibsiz qadınların ahu-nalələri qulağımızda səslənir və əlləri qana batmışlara qarşı bizi intiqama çağırır.

Rəhimxan!..

Budur, qarşımda qan rəngli, div sifət, cəhənnəm əndamlı, gözlərindən od tökülən, dişləri və caynaqları qana bulaşmış, mənhus şeytan qiyafəsində bir əhrimən dayanmışdır. Bu həmin iblisdir ki, azadxahların üzünə azuqə yollarını bağladı, məşrutəçiləri ot yeməyə məcbur etdi.

Bu həmin qəddardır ki, öz vəhşi hərəkətləri ilə Təbrizə o qədər təzyiq göstərdi ki, müsəlmanların şərəf və namusları Çələbiyan həşəratlarının əlilə qarət olundu.

Bu məlun rusların Təbrizə azuqə gətirdiklərini düşündüyü üçün onlara qarşı da müqavimət göstərirdi. Məhəmmədəli Mirzənin rəmzi teleqramını görüb Qaracadağ dağları arasında gizləndi.

Nə hökumətin hökmünə, nə də məşrutəçilərin əmrlərinə qulaq asırdı. Ancaq Təbrizdən apardığı əsirlərin müqabilində özünə nicat istəyirdi. Bu qayda ilə ruslar istədiklərini edənə qədər orada qaldı. Bir dəfə eşitdik ki, bir dəstə rus qoşunu özlərinə dəyən zərər və ziyanın əvəzini çıxmaq adı ilə onu tutmağa gedirlər. Vuruşdular, həbs etdilər, sonra buraxdılar, qayıtdılar, hay-küy saldılar ki, Rəhimxandan pulları aldıq.

Adam burda fikrə gedir və şübhəyə düşür ki, görəsən bu əhvalat nə olan şeydir? Məgər belə də iş ola bilərmi? Əcəba, bəlkə iş ayrı cürdür? Nə edəsən, bu da bir fikir və xəyaldırmı? Bəlkə Rəhimxanın qorxusundadır ki, huşum başımdan çıxır? Hər halda necə olursa olsun istəyirəm yəqin edim ki, rusların bu pul almaları bəhanədir, bu dava, bu vuruş, bu həbs – hamısı bir oyundur. Həbs nə üçündür! Həbs onun üçündür ki, bəzi görüş və müzakirə üçün şərait və bəhanə olsun.

Məgər bu müqəddimə olmadan ruslar üçün Rəhimxanla görüş mümkün deyildi? Bəlkə diplomatik qaydaya görə bu düz olmazdı.

Bu hiyləgər müharibə əhvalatından sonra birdən ruslar hamısı Təbrizə qayıtdılar, Rəhimxanı azad etdilər, guya söhbət tamam oldu.

Təsəvvürə elə gəlir ki, getdilər, tutdular, yenə gəldilər, burada şəkk-şübhə yeri yoxdur...

Bunların ardınca yeni bir hadisə baş verdi. Nə hadisə? Rəhimxan birdən naxoşlayır, yorğan-döşəyə düşür, iflic olur. İndi nə etsinlər? Təbrizlilərdən həkimmi istəsinlər? Bu da heç cür mümkün deyil. O çöl vəhşisi Rəhimxan fikir edir ki, bu hiylə İran siyasətçilərinin ağlına gəlməz. O, Təbrizdə rus konsuluna sifariş göndərir ki, ona rus həkimi göndərsinlər. Şübhə yoxdur ki, rus konsulu iflic olmuş, yorğan-döşək xəstəsinin xahişini qəbul etməyə bilməz, onun dadına çatmaya bilməz, bu onun insani borcudur. Bu da diplomatik məsələ deyil ki, İrana kömək etməsinlər.

Bu yerdə yenə də insanın fikri qarışır. Güman yaranır ki, deyəsən Rəhimxan axı heç xəstə deyildi. Elə həkim özü də konsulxananın casususdur, gedir ki, Rəhimxan ilə konsulxana arasında vasitəçi olsun. Allah bilir, biz ki həqiqəti bilmirik, necə qaranlığa daş ataq.

Hər halda İsanəfəs[1] həkim gələn kimi naxoş dərhal sağalır, iflic ayağa qalxıb cuşa gəlir. Naxoş və iflic yatağından bir qaniçən Rəhimxan qalxıb şahsevənlərlə əlbir olub təzədən çapqınçılığa başlayır. Nə oldu? Rəhimxan sağaldı. Amma Ərdəbil və Meşkinin işi şuluq oldu. Şuluqluq nə qədər çox olsa, Rəhimxanın da səhhəti bir o qədər yaxşılaşar. Əgər ruslar Rəhimxandan bütün bu zərər və ziyanın əvəzini götürmüşdülərsə, bu qədər hazırlığı görmək üçün bu qədər sərmayəni o hardan gətirdi? Burada şübhə artır ki, ruslar Rəhimxandan pul almayıb, bəlkə ona pul veriblər...

Xəyalın cilovunu çəkmək mümkün deyil, onun meydanı intəhasızdır.

Hər halda iranlılar Avropa qoşunlarının nizələrindən, diplomat və müəllimlərindən indiyədək qorxurdular. İndi lazımdır ki, həkimlərindən də qorxsunlar. Lakin heç nədən qorxmayan yeni kabinəmizə təəccüblənirik!..

Bəlkə mən də boş yerə qorxuram, bəlkə bunlar hamısı xəyaldır, mənim nəzərimdə canlanan Rəhimxanın vahiməsinin təsiridir.

Bəlkə mən vasvasıyam? Bilmirəm...

"İrani-nov", 26 oktyabr 1909, № 50

EDAMIN AĞIR XATİRƏSİ

Edam elə bir vasitədir ki, bəşərin mədəni cəmiyyəti başqa çarə olmadıqda ona ən son vasitə kimi müraciət edir. Bu yolla öz müqəddəs əsaslarının dağıdıcıları ilə mübarizə aparır.

Ağıllı və mədəni cəmiyyətdə edam o zaman həyata keçirilir ki, o biri cəzaları iqtidar özü üçün məqsədəuyğun saymır və onu məqsədinə çatmaq üçün yeganə vasitə hesab edir.

Cəza vermək fəlsəfəsi intiqam almaq fəlsəfəsinin əksinədir. Çünki təqsirlərə görə cəza vermək bəşəriyyətin keçmişinə xətt çəkmir, lakin gələcəkdə onun təkrarının qarşısını alır. Bu cəhətdən də hər tənbeh və cəza, o cümlədən edam cəzaları pis işlərin və məhkumun təqsirinin nəticəsidir. Amma hökmün icra olunduğu və ümumən cəmiyyətin mənafeyi nöqteyi-nəzərindən, onun qanunları adlanan bu hal nəticə olmayıb başlanğıcdır.

[1] İsanəfəs – schrkar

Bir nəfər günahkarın edam olunması günahın başa çatmasının elan olunması deyil, bəşəri qanunları cinayətkarlara çatdıran xəbərdarlıqdır ki, bundan sonra belə cinayətlərə yol verməsinlər.

Bəşəriyyətin ən yaxşı nümayəndələri və yaxşı insani məslək sahibləri edamı cəzalardan kənar ediblər. Onlar heç cür bir adamın edamla öldürülməsinə razı olmayıblar. Onlar deyirlər ki, əgər adam öldürmək böyük dünyəvi cinayət hesab olunursa, bir başqasının da həyatını əlindən almaq lazımdırmı? Belə də vəhşilik olar ki, yırtıcı vəhşilər kimi həmcinslər bir-birini həlak edələr?!

Hər hansı bir cinayət müqabilində intiqam almaq üçün edama əl atmaq ağıllı bəşər cəmiyyətinə layiq deyil. Bu, düzgün məslək tərəfdarı olmağımıza baxmayaraq, biz hüquqi cəhətdən edam cəzasının tətbiq olunmasına etiraz etmirik. Çünki indiki şərait, mövcud vəziyyət istər-istəməz bunu tələb edir. Bu işə hələlik biz üstünlük veririk.

Biz daxili məslək hissləri ilə jurnalistlik vəzifəmizi yerinə yetirmək üçün bir bədbəxtin edam olunduğu yerə – Topxana meydanına getdik. Bu, dünyanın ən ağır bədbəxtliyinə layiq görülən, İran səadətini istəməyənlər cərgəsinə daxil olmuşlardandı. Biz də buraya yığışanların əxlaqi keyfiyyətlərini seyr elədik. Bu məcburi seyrin nəticəsini edamın ağır xatirəsindən başqa bir şey kimi izah edə bilmərik.

Məlum olur ki, istər istibdadın, istərsə də qanlı inqilab illərinin təsiri bizim mənəviyyatımızda özünü göstərir.

Məlum olur ki, biz bu zülm və sitəmə elə mübtəla olmuşuq ki, indi cəzanı intiqamdan ayıra bilmirik.

Niyə bizim polis məmurları bir nəfərin öldürülməsini məmləkətin yaşaması üçün vacib hesab edirlər?

Niyə bu qədər ləyaqətsizlik meydana gəlir? Niyə onlar, polis məmurları ölkəyə lazım olan tədbirləri həyata keçirmirlər? Niyə onlar mücahidlərə və qeyrilərinə icazə verirlər ki, cəlladlıq etsinlər, qanuna və nizam-intizama zidd hərəkətlər etsinlər?

O günlərin polis məmurları, bəzi mücahid və silahlı adamların zorakılıq və tərbiyəsizliyini görüb, təəssüf ki, aşkar eləməyiblər. Ona görə də xalq hələ də bir aydın məsələni anlaya bilməyib ki, əslində edam zorakılığa qarşı yönəldilmişdir. Niyə görə polis camatın davranışını qaydaya sala bilməsin? Ola bilməz ki, məhkumun əllərini bağlasınlar və halqanı boğazına keçirsinlər ki, asanlıqla boğulsun. Bu mənfur mənzərəni elə etmək olmazmı ki, qərəzli xarici

müxbirlərin əlinə bəhanə verilməsin və məhkumların əl-ayaq çalmaları, bu faciəli mənzərə adamların insanpərvər hisslərini korlamasın?

Biz mücahidlərə təəccüb edirik ki, onlar bu bədbəxti öldürmək üçün bu qədər səy göstərməklə mücahidliyin müqəddəsliyini və azadlığın tələbini yaddan çıxarıb, cəlladlarla yarışa çıxırlar. Çox maraqlıdır, görəsən məhkumun boğazına ip salmağın nə qədər fəziləti var ki, mücahidlər bu həzdən məhrum olmaq istəmədilər?!

Bu bədbəxt məhkumdur, dar ağacına gedir. Ölkə də cəlladsız deyil. Bəs bu hərəkət nədir?

Qəribədir, görəsən mücahidlər bu nalayiq hərəkətlərilə polisin işlərinə müdaxilə etməklə nə məqsəd güdürlər?

Bu məsələ o gün bizi heyrətə saldı və düşünməyə məcbur etdi.

Amma bir az düşündükdən sonra səbəbi mənə aydın oldu. Özümə təsəlli verib, bu gözlənilməz hadisəni müəyyən qədər təbii hesab etdim.

Bu hərəkət nə qədər namünasib və nalayiq olsa da təbiidir. Buna məcburi təbiilik demək olar. Bir şey ki məcburidir, o qədər də tənqid oluna bilməz.

Kim bilmir ki, bu fəsad əhli və zülmkarlar məzlum millətə nələr etməyiblər! Bu istibdadın zülmlərini kim bilmir. Bu bədbəxt də onlardan idi (bu Müvəqqərüssəltənə də o altı nəfərdən idi. Sabiq məşrutə zamanı Naibüssəltənə Əzdülmülkün evində həbs olunmuşdu. Camaat onların sürgün olunmasını dövlətdən istəmişdi. Milli Məclis də bu 6 nəfərə görə dağıdılmışdı). Məgər boynu vurulmuş ruhülqüdsün[1] səsi xalqın qulağına çatmır?

Məgər bunların azadlıq tərəfdarlarına məhkəmə və istintaqsız verdiyi işgəncələr xalqın yadından çıxıbdır?.. Yox! Bütün bunlar istibdad zülmünün axırı idi. İranlılar indi də istibdadın təsəvvürə gəlməyən neçə illik zülm və işgəncəsi altında inləməyirlərmi? Odur ki, adam bu zülmləri fikirləşəndə məzlumların halı göz önünə gəlir və fikirləşir ki, ən ağır işgəncələr və əziyyətlərdən sonra, onun əllərinin buxovunu açıb zalımı da əlibağlı ona versən, o vaxt görərsən ki, biçarə intiqamdan əl çəkməyəcək və ona qarşı olmuş işgəncələri o da həmin zalıma verəcək!..

İzdihamın da hökmü belədir. Çünki İran əhli hələ başa düşməyib ki, onların məzlumiyyətinin səbəbkarı ayrı-ayrı adamlar deyil, mövcud üsuli-idarə, quruluşdur.

[1] Ruhülqüds – müqəddəs ruh

Əsas budur!..

Bir zülmkar onların əlinə düşəndə güman edirlər ki, bütün zülmlər onun əli ilə olubdur.

Biz gərək bu cür hərəkətlərdən uzaq olaq, özümüzdə ən yaxşı sifətləri tərbiyə edək və bütün dünyaya çatdıraq ki, bizim köməyə ehtiyacımız var. Biz gərək insanlıqdan xaric olmayan hiss və duyğularımızı qoruya bilək.

Bunu bilməliyik ki, bütün əzab-əziyyətin səbəbkarı həmin məlun köhnə istibdad üsuli-idarəsidir, onun əsas dayaqlarından biri isə edamdır.

Məmurların cəzalandırılmasında yeni tədbirlərlə edam icra edən bizim daxili işlər nazirliyi minlərlə təşəkkürə layiqdir.

Bəli, gərək bilsinlər ki, məşrutiyyət dövlətində edama məhkum olmuş bir adamın da hüquqları pozulmayacaq.

"İrani-nov", 31 yanvar 1910, № 121

QUYRUQLU ULDUZUN TƏSİRLƏRİ

Neçə vaxtdır ki, bizim səmada bir quyruqlu ulduz peyda olubdur. Elə bir mömin yoxdur ki, onu görüb təsirindən qorxmasın.

Mən o zaman Laləzar xiyabanında gördüm ki, bir dəstə keçəpapaqlı dayanıb bu qəribə ulduza baxır və öz təəssüratlarını birbirlərinə söyləyirlər. Biri deyirdi, çox vaxt belə hadisələrdən sonra qəhətlik baş verir, o biri isə təsəlli verib deyirdi ki, əgər bu ulduz Şərqdə görünsəydi, qəhətlik olardı. Bu isə Qərbdədir, zərəri yoxdur. Hətta mən eşitmişəm ki, xeyri də vardır, çörək ucuz olar.

Bu ulduzun adına yerin işini qurtarıb göylə məşğul olanlar "Hali"[1] deyirlər. Böyük ağıl sahibi olub münəccim və ya ulduzşünas kimi tanınanlardan birinin adına görə onu belə adlandırıblar.

Deyəsən Avropa da Tehranın Laləzar xiyabanı kimidir. Çünki bu günlərdə orada da həmin ulduz müzakirələrə səbəb olmuşdur. Orada da mətbuat və camaat arasında müzakirələr keçəpapaqlıların Laləzar xiyabanındakı müzakirələrindən fərqlənmirdi.

Bir dəstə münəccim və başbilənlər deyirlər ki, "Hali"nin quyruğu vardır. O, iyli və zəhərli qazlarla qarışıq olan uzun bir quyruqdur.

[1] Hali – xəbərdar, agah.

Öz hərəkəti zamanı may ayına yaxın həmin quyruq yer atmosferinə dəyib onu zəhərləyəcək, yer kürəsində bütün canlıların boğulmasına səbəb olacaq. Əgər boğulmasaq da, ağlımızı itirib, gic və yaxud sərsəri ola bilərik.

Göründüyü kimi, böyük qüvvə və qüdrət sahibi Avropa da belə sözlərdən ehtiyat edib kütləvi surətdə həlak olmaqdan qorxub titrəyir.

Görün təbiət necə qəddar bir düşməndir ki, insanlar belə fütuhatdan sonra yenə də ondan xatircəm deyillər.

Başqa bir dəstə isə deyirdi ki, qorxusu yoxdur. Əvvələn, ehtimal ki, onun quyruğu heç bizim tərəfə gəlib çatmaya; ikinci, əgər belə bir təsadüf baş versə, elə mühüm bir hadisə törəməz. Çünki "Hali"nin quyruğunun işığının zəif və zərərsiz işıq olmaqdan başqa heç bir ziyanı yoxdur.

Nəhayət, biri nikbin, o biri bədbin olan iki dəstə bir-birinə qarşı üz-üzə dayandı. Necə ki istiqraz məsələsində biz iki yerə bölünürük. Bir dəstə deyir ki, bu üzük və sırğa ilə ölkənin dərdinə əlac olmaz, gərək xaricdən borc (istiqraz) alınsın, o biri dəstə isə deyir ki, nə istiqraz? İstiqraz üçün qoyulan şərtlər ölkədən ötrü öldürücü zəhərdir. Çarə yenə daxili ianə və istiqrazdadır. Ümid yenə o üzük və qiymətli sırğayadır.

Şəxsən mən özüm də quyruqlu ulduz məsələsinə heç cür inanmayan o nikbinlərdənəm. İnanmıram ki, biz boğulaq və yaxud divanə olaq. Əslində bu fikri heç ağlıma gətirmirəm, buna əsla inamım yoxdur. Bu barədə səbir edirəm, sinəm od tutur, başım ağrıyır. Mən dərdli sinəmdə bir aləm ümidlər, bir dünya arzular bəslədiyim vaxtda bu əqidəyə necə şərik ola bilərəm.

Mənim arzularım var ki, yenə öz neştərimi işə salım. Mənim bu firavan ümidlərim və sonsuz arzularım fəlakət fikrinin nakam ürəyimə yol tapmağına macal vermir. Mən heç cür öz ümid və istəklərimi kənara qoyub, bəşəriyyətin bu böyük təhlükəsinin təsiri altına düşə bilmərəm.

Mən indi arzu edirəm ki, Tehranda çörək məsələsinin həllini bu çörəyə həsrət olan gözlərimlə görüm. Görüm daxili işlər nazirliyinin möhtərəm vəkillərə verdiyi sözün aqibəti necə olacaq. Nə edəcəklər ki, nəticədə yazıq tehranlılar bundan sonra çörək əvəzinə torpaq yeməsinlər? Ət şirkəti də əti bahalaşdırarsa, cəhənnəmə! Amma mən o günü görmək istəyirəm ki, əhaliyə əti əvəz edən bir şey versinlər. Heç olmazsa demək olsun ki, mənim nökərim hər

gün qoyun əti yeyir, amma onun tamı başqa cürdür. Lakin qorxuram ki, "bu necə ətdir?" – sualına desəm ki, keçidir, məni məhkəməyə cəlb edələr...

Hələlik elə bir adam görməmişəm ki, qulağı və gözü möhkəm bağlanmış bazar əhlini bir qədər oyadıb, möhtərəm şəxsləri öz tərəqqiləri üçün vasitə etmiş boşboğaz yavaların ağzına bir mədəniyyət yumruğu vurub, tamah dişlərini qarınlarına töksün.

Arzu edirəm ki, bəzi yarımvərəq qəzetələr öz adlarını "İran müfəttişi" qoyub, müxbir adı ilə xalqın cibinə girməyə, bununla da mətbuatı abırdan salıb, xəcalətli edib, keçmişdəki kimi ağızlarına gələni yazmağa cürət etməsinlər.

Hazırda istəyirəm ki, ədliyyə işləri elə mükəmməl təşkil olunsun ki, ədliyyə orqanları və idarələri Nəsrəddin şah dövründəki müxtəlif partiyabazlıqdan əl çəkib, haqq və ədalət tələblikdən ibarət bir partiyaya mənsub olsunlar.

Arzu edirəm ki, dövlət kitabxanasının kitabları həbsdən azad olub xalqın istifadəsi üçün ümumi kitabxanalara verilsin.

Hələlik Milli Məclisin üzvlərinin elə bir kamil heyətini görməmişəm ki, öz müxtəlif qiyafətlərilə İranın bütün təbəqələrini o gözəl sarayda nümayiş etdirsinlər!..

Arzu edirəm ki, Milli Məclisdə partiyaların öz məsləkinə görə yer tutmalarını sağ, sol və mərkəz təşkil etmələrini, nəhayət, üzlərindən pərdəni götürüb, öz varlıqlarını olduğu kimi göstərmələrini və həsrət çəkən xalqa öz məsləklərini bildirib, onlara şadlıq bəxş etmələrini görəm!..

Prins Ərfəüddövlənin Tehrana gəlişi zamanı "Şəms" qəzetəsinin nə edəcəyini çox görmək istəyirəm.

Yüksək vəzifə sahibi ağaların qeyri-qanuni işlərdən əl çəkəcəkləri barədəki arzum hələ də ürəyimdə qalıb.

Hələ ki Gilan poçtxanasının rəisi ağayi Mirzə Məhəmmədəli xanın qəflətən ölümünün və ağayi Mübaşirülmülkün laqeydliklə qəhvə içməsinin səbəbini bilmirəm?..

Hələ də bilmirəm ki, Milli Məclisin mücahidlərin işləri üçün ayırdığı çoxlu pul necə oldu? Tərksilah olunmuş bu mücahidlər bəhanə axtaranların bəhanələrinə son qoyacaqlarmı?

Hələlik nə rus qoşunlarının çıxarılması üçün keçirilən tədbirlər barədə, nə də bu çağırılmamış qonaqların çıxıb getmək istəklərini eşitmişəm.

Hələ də məlum deyil ki, şənbə günü ağayi Naibüssəltənənin qarşısında hərbi parad keçirən 12 yaşlı generala dayə tapıblar, ya yox? Hələ də vəkil və nazir cənablarının xaricilərdən minnət qəbul etməmək üçün daxili istiqraz haqqında qərar qəbul etdikləri o qələbə gününün ləzzətini unutmamışam!..

Təəssüf! Hələ də hər yerdə haqqında danışılan və müzakirə olunan mötədilliyin mənasını lazımınca anlamamışıq.

Heysiyyətsiz bələdiyyə üzvlərilə o Millət Məclisinin hörmətli vəkilləri ağayi Tağızadə və Mötəmənülmülk arasındakı mühakimənin nəticəsini görmək istəyirəm. "Möhtərəm" üzvlərin dediyinə görə, cürət edib onlara rüşvət veriblər.

Hələ də bilmirəm ki, Azərbaycanın teleqraf xəttinin aqibəti necədir! Deyirlər ki, guya İran teleqraf xətti ən əvvəl rus konsulxanasına, sonra oradan teleqrafxanaya gedir: bu düzdür, ya boş sözdür?!

Hələ maarif idarəsinə gedib öyrənə bilməmişik ki, onlar maarif işlərinə necə rəhbərlik edəcəklər, işlər necə görüləcəkdir? Məddahlar və təəssübkeşlər elm ocağından kənar olunacaqlar, ya yox?

Hələ də bilmirəm ki, səbəb nədir ki, günahı insaflı adamların qələmi, kağızı və ürəyini yandıran Əzəmüddövlənin işinə indiyə qədər baxılmayıb?

Bilmək istəyirəm ki, bizim ölkədə zəruri işlərin həllində elm sahiblərilə cahillərə nə vaxt fərq qoyulacaq? Nə zaman həyati məsələlərdə cahil ilə alimə fərq qoyub, darülfünun məzunlarının şikayətlərinə qulaq asılıb, onlara kömək ediləcək. Yazıqlar zülm və işsizlik əlindən təngə gəliblər. Bəs nə vaxt nadanlardan yaxa qurtaracaqlar?

İstərəm biləm ki, baş küçənin (Şahabad) abadlaşdırılması başa çatdırılacaqmı?

Hələ də arzu edirəm ki, məhəlli mətbuatın abunəçilərinin sayı 5 minə çatsın!.. Əgər bu mümkün deyilsə, heç olmazsa, idarə pulunu öz ana südləri kimi yeməsinlər!..

Çoxlu ayrı arzularım da vardır. Onları bir-bir burada deyə bilmərəm, qorxuram oxucuları yorub həvəsdən salam, onları yuxuladam.

Mənim qələmimin zəhərini ziyankar adamlar dadıblar. Ona görə də məndən xilas olmaq üçün partiya başçıları və ayrı-ayrı şəxslərin tərəfdarları deyirlər ki, ağayi "Niş" filan partiyanın tərəfdarıdır. Və yaxud özü partiya yaratmaq istəyir. Bu sözlərdən sonra gərək heç İranda qalmayaq. Ona görə ki, bizim iranlıların hər müqəddəs şeyi korlamaq istedadları var. Avropanın müqəddəs "partiya" sözünü bir

şəklə salıblar ki, sadə, avam adamlar adi "partiya" sözünü az qala "yezid" sözü kimi qəbul edirlər.

Bu yazıq bəlalı ürəyimdə o qədər arzum var ki, boğulmaq və ya divanə olmaq istəmirəm.

Bu dəhşətli quyruqlu ulduz xəbərinə heç inanmıram, inana bilmirəm! Qəzet müxbirlərindən birinə təsəlli verən bir rus professoruna da tam ciddiyyətlə əhsən deyirəm. O demişdir: "XX mədəniyyət əsrində bir ulduzun quyruğundan qorxmaq, bəşəriyyət üçün eyibdir!" Vallah belədir ki, var! Biz iranlılara, xüsusilə eyibdir ki, o məğrur quyruqlunun qabağına milyonlarla intizamlı ordu çıxaraq. Öz üç minillik tariximizdə İrana əl uzadan tamahkar əcnəbilərə qarşı qeyrətlə hərəkat yaradırıq, amma tələsiklikdən bir-birimizə dəyirik və çaxnaşmaya düşürük. Rus və ingilisləri qorxudan bizim ciddiyyət və səmimiyyətimiz kifayətdir ki, bir dəfə qətiyyətlə o ulduza baxsaq, onun atasını yandırarıq.

Quruluşumuzun yeni islahatlarına and içirik ki, nə "Hali" ulduzundan, nə də onun quyruğundan qorxuruq!..

Bizim elə sərdarlarımız var ki, qılıncları özlərindən uzundur. Amma bütün bu rəşadət və şücaətlə yanaşı görürük ki, xeyr, ölümdən xilas olmaq istəmirik. Öz xoş arzularımız və nikbinliyimizin əksinə olaraq pis niyyətlilərin təsiri altına düşəcəyik. Niyə? Ona görə ki, onların iddialarını həqiqətə çevirən əlaməti görürəm.

Bu məsələ mənim fikrimi çox məşğul edibdir. Həmişə dünyada baş verən hadisə və əlamətlərin sonunu gözləyirəm ki, görüm işin nəticəsi nə olacaq. Çox təəssüf ki, may ayı yaxınlaşdıqca o dəhşətli əlamətlərin nəticəsi də aydınlaşır.

Məsələn, neçə müddət bundan əvvəl Parisdə, sonra Məkkədə tufan olub, sel gəlib, sonra Amerikadan sel xəbəri gəldi. Hətta bizim qonşu Bakıda da tufan kimi bir şey baş vermişdir.

O zaman bir dəstə bədbin ulduzşünaslar belə ehtimal etdilər ki, bunların hamısı "Hali"nin əlamətləridir. Amma yenə inanmadım, arzu və ümidlərimə heyfim gəldi. İndi görürəm ki, adamlar yavaş-yavaş divanə olurlar. Odur ki, bundan sonra qorxuram. Deyəsən yer üzünün əhalisi divanə olmaq istəyir.

Sübut istəyirsiniz?

Hə?! Bu da sizin parlamentlərinizdəki vuruşmalar! Tamaşa edin! Fransa parlamentində stulları bir-birinin başında sındırırlar.

Avstriyada qələmdan və çernilqabını bir-birinin üzünə vurub yaralayıblar.

Rus dumasında bazar söyüşləri yağdırılıb, az qalıb ki, rus yumruqları işə düşə.

Osmanlı Müəssislər Məclisində bir-birinin boğazından tutublar, dad-fəryadlar göyə çıxıb.

Bizim Milli Məclisin coşqunluğunun nəticələri məhkəmə cəzalarında öz əksini tapır.

Bilmək lazımdır ki, dünyanın hər yerində parlament üzvləri, o ölkənin vəkilləri ən qabiliyyətli vətən övladlarından seçilirlər. Baş verən pis və yaxşı hadisələrdə hamıdan əvvəl onlar günahkar bilinməlidirlər.

Bu nöqteyi-nəzərdən parlamentlərin divanəliyini tənqid etsək, məlum olar ki, bu "Hali"nin, quyruqlu ulduzun təsirinin əlamətidir.

Bu səbəbdən ümidim kəsilir, əl-ayağım süstləşir, bədənim titrəyir. Qorxuram ki, çoxlu arzularıma çatmayam. Mayın 5-i gələ, o vaxt nakamlıq və kədər içində boğulam, yainki gic və divanə olam, yaxşını pisdən ayırmaqda aciz qalam.

Əgər "Hali"nin şərafətli gəlişi baş tutmasa, belə mətbuat və vicdan azadlığının möhkəm qanunları və gömrük tarifi haqqındakı qanunlar kifayətdir ki, bir iranlı mühərriri gic eləsin.

"İrani-nov", 30 mart 1910, № 166

BAKI QOÇULARI

Mən "Niş" neçə müddətdir ki, Bakıdan uzaq düşmüşəm. Həqiqətən o mədəni şəhər haqqında xatirələrim məni çox sıxır. Axı uzun müddət orada bəzi qəhrəmanlıq mənzərələrinə adət etmişdim. Doğrudan da Tehranda belə mənzərələrin olacağını təsəvvürümə gətirə bilmirdim. Çox dilxor idim. Hətta bir neçə dəfə istədim ki, tikanlı yazılardan əl çəkib yenə də o rəşadət və qeyrət meydanına gedim və orada yaşayım.

Həqiqətən neçə dəfə bu fikrə düşdüm, sonra bir hadisə baş verdi və getməkdən vaz keçdim.

Oxucu cənablar, yəqin bizim hissiyyatımızı başa düşmürsünüz və öz-özünüzə deyirsiniz ki, bu "Niş"in də sözü qurtarıb, türklər demişkən, "yarəm, yarəm" oxuyur. Mənim dərdimdən xəbəriniz olmadığı üçün sizin təsəvvürünüz düzdür. Həqiqətən, Bakının elə təbii mənzərəsi vardır ki, adam onu Tehrandan üstün tutur. Oranın

mürdəşir toz-torpağı adamların gözlərini kor eləyir. Öz aramızda qalsın Tehranın toz-torpağı Bakıdakından az deyil. Tehranın toz-torpağı ona görə çoxdur ki, burada bələdiyyə idarəsi yoxdur. Əgər Bakı kimi burada da bələdiyyə idarəsi olsaydı, altı min ildən çox tarixi olan bir ölkə neçə müddət qabaq şəhər islahatı və müəssisələr üçün 27 milyon manat xaricdən borc edib, şəhəri elə bir hala salardı ki, Parislə rəqabət edərdi.

Deyəcəksiz ki, bu, çox böyük mübaliğə oldu! Yəqin İran oxucuları üçün yazıldığından bu belə deyilmişdir.

Amma bir belə sərvətlə Bakıda böyük bir bələdiyyə idarəsi olmasına baxmayaraq, şimal küləyi əsəndə gərək evin içərisində də hər kəs dəsmal götürüb üz-gözünü silsin və qulağına pambıq tıxasın.

Bəs bu hansı mənzərədir ki, mənim diqqətimi cəlb eləyib?

Bəli, bu mənzərə Bakı qoçularının güllə atma mənzərəsidir.

Bakıda qoçu adlanan adamlara burada məşədi deyirlər.

Amma güman etməyin ki, Bakı qoçuları Tehran məşədiləri kimi biqeyrətdirlər, yox! Onların dəsgahı var, hörmətləri var, cah-calalları var. Kim onlara salam verməsə, dərhal təpəsinə bir güllə vurarlar.

Xülasə, onların cah-calal və qüdrətləri bizdəki "uzaq ol", "kor ol", "bir yerə yığışmayın" kimi olmasa da, ondan geri qalmır.

Bütün Bakı varlıları başqaları üzərində üstünlük qazanmaq üçün qoçulardan istifadə edib, köməklik alırlar, onlar da öz ağalarının məqsədini yerinə yetirmək üçün küçədə, bazarda dəstə-dəstə olub bir-birini gülləyə tuturlar. Gecə-gündüz daş dalında, divar arxasında gizlənib bir-birini öldürüb, canlarına qəsd edənlər də onlardırlar. Azacıq pul müqabilində adamların başını qoyun kimi kəsməyə hazır olanlar da onlardır.

Bəli, mənim diqqətimi cəlb edən elə bunlardır, Bakı küçələrində baş verən haman bu mənzərələrdir.

Bir də görürsən dəniz kənarında gəzən qadın, kişi, uşaq birbirinə dəydi, arvad-uşaq arasına çaxnaşma düşdü, hərə bir tərəfə qaçdı. Elə bil ki, yırtıcı bir vəhşi onlara hücum etmişdi. Soruşursan ki, nə xəbərdir? Heç kəs sənə cavab vermir, hər kəs ancaq öz canının hayındadır, onların gözü sənin əlindədir. Əgər artıq ayağın olsaydı, onu səndən kirayə edib, tez qaçıb canlarını bu təhlükədən qurtarardılar. Əgər çox israr edib soruşsan dilləri tutular, danışa bilməzlər.

Nəhayət, məsələ məlum olur. Sənin sualının cavabında deyərlər ki, o biri küçədən mauzer səsi gəlir. Əgər qəzetlərin sabahkı nömrə-

lərində veriləcək məlumatdan daha geniş məlumat almaq istəsəniz, səs gələn tərəfə gedin. Bakı "məşədilərinin" "qeyrətini" öz gözlərinizlə görərsiniz. İki dəstə müsəlman cavanları üz-üzə durub rəşadət və şücaətlə bir-birlərinə güllə atırlar. Onlar anlamırlar ki, bura adamların gəl-get və ümumi gəzinti yeridir. Polis gələn kimi müharibə dayanır. Çox vaxt bir neçə nəfər bu "rəşadət" meydanında qalıb xalqın nifrəti ilə üz-üzə gəlir, bəziləri də cəhalətlə dünyadan gedirlər. Mən uzun müddət Bakıda qaldığıma görə bu mənzərəyə adət etmişdim. Tehranlılara bu qəribə mənzərə təəccüblü görünər.

Burada gələn kimi naxoşladım. Çünki "tərki adət be mövcibi-mərəz əst"[1]. İndi şükür etməliyəm ki, qeyrətli mücahidlər neçə vaxtdır ki, mən "Niş"i bu əlacsız xəstəlikdən xilas ediblər. Bakıdakı qoçubazlığı buraya da gətiriblər.

Mən elə bilirdim ki, Bakıya gedib bir daha o mənzərələri görməyəcəyəm. Ona görə ki, deyirlər Bakıya çox zülmkar bir hakim təyin olunub, qoymur küçələrdə adamlara əziyyət versinlər.

Bütün Bakı "məşədilərinin" bir hissəsini həbs, bir hissəsini də sürgün ediblər. Əlhəmdülillah, qeyrətli mücahidlərin bərəkətindən bundan azad oldum. Məgər oturub bu sətirləri sərbəst yaza bilməyim o möhtərəm zatların sayəsində deyil?!

Xüsusilə bəzilərinin faytonda oturub divanə adamlar kimi gərdənlərini çəkən görəndə Bakı qoçuları yadıma düşür, az qalır deyəm ki, "sənin o hündür, yaraşıqlı qədd-qamətinə qurban!"

Qoçularla bunlar arasında fərq budur ki, onlar öz silahlarını gizlədir və əyinlərində rəsmi paltarları da yoxdur. Bu da ondan irəli gəlir ki, Rusiyada istibdad, bizdə isə məşrutədir.

Mənim halımı dəyişən budur ki, Bakı qoçuları güllə atanda yapon qoşunu Tiflisdə deyildi... Amma demək lazımdır ki, indi Rus qoşunu Qəzvindədir!..

"İrani-nov", 2 aprel 1910, № 168

[1] Adəti tərk etmək xəstəliyə səbəb olar.

VƏSİYYƏTNAMƏ

Sabah vəd olunan quyruqlu ulduzun görünəsi gündür. O, çox sürətlə bu başıbəlalı, həsrət çəkən Yerə yaxınlaşır. Bizim yaziq Yer kürəsinin həsrəti ürəyində qaldı. Ədalət və bərabərlik naminə nə qədər qanlar töküldü, nə qədər rəzalətlər çəkdik. Yenə də nəticəsi olmadı. Həmin zülmlər, qeyri-bərabərlik və biganəlik hökm sürməkdədir. Həyat zorluların, fəlakət isə yoxsullarındır. Hələ də azlıq dünyanın çoxluğuna hakimdir. İndi tənbəllər şad, zəhmətkeşlər isə kədərlidirlər.

Tamam dünya bir parça bədbəxtlik, vətən övladı səadətdən məhrum...

Alimlərin çoxu təselli verirlər ki, bu ulduzun bizim Yerə heç bir zərəri olmayacaq. Buna baxmayaraq, hər halda vəsiyyət yaxşı şeydir, xoşagələndir, uzunömürlülüyün səbəbi, can rahatlığıdır.

Mömin gərək vəsiyyətsiz ölməsin, odur ki, möhtərəm oxucular, mən "Niş" də vəsiyyət edirəm.

Əvvəla, heç qorxmayın, əvvəl-axır hamımız öləcəyik. Belə olan tərzdə yaxşı olar ki, elə hamımız birdən ölək. Bu, ona görə yaxşıdır ki, ikinci dəfə qiyamət vaxtı gələndə bəlkə ağıllanaq, bir-birimizlə doğru rəftar edək, qərəzi kənara qoyaq, bir yerə toplaşıb bir azad İran məmləkəti yaradaq, rus və ingilisi də yaddan çıxarmayaq!..

Amma əgər elə şəxslər tapılsa ki, rüşvət, yaltaqlıq və tanışlıqla, mədhiyyə və qəsidə deməklə özlərini bəşəriyyətin bu təhlükəsindən xilas edə biləcək, İran ərazisində qalacaq və yenidən insan övladını yaradacaq, onlardan xahiş edirəm mənim təcrübəmi nəzərə alıb, bir neçə maddədən ibarət olan aşağıdakı vəsiyyətnaməmə əməl etsinlər:

1. Yüksək vəzifəyə layiq görmədiyiniz şəxsi həm özünüzü, həm də başqalarını aldadıb böyük tarixi şəxsiyyət fərz etməyin. Çünki bu cür etsəniz, öz təcrübəm əsasında deyirəm, öz başınıza bəla gətirərsiniz.

2. Əgər təzə təşkil edəcəyiniz məmləkətin əsasları köhnədirsə, labüd olaraq inqilabdan keçərək bir milli hökumət təşkil edin.

Öz aranızda meydana gələn siyasi nəzəriyyələr və professional ixtilafları şəxsi ixtilaflara çevirməyin və bir-birinizi tənqiddə sağlam ağlı əldən verib fitnəkarların təsiri altına düşməyin ki, bizim kimi "etidal və başqaları"na düçar olmayasınız və qeyri-məlum ibarələrin

müəlliflori kimi gözübağlı olub, bir-birinizin canına düşüb düşmənləriniz üçün məsğərə alətinə çevrilməyəsiniz.

3. Siyasi nəzəriyyələr meydanında nə qədər bacarırsınız fikir atınızı oynadın, amma bu at oynatmaq iranlılıq çərçivəsindən kənara çıxmamalıdır.

4. Siyasət meydanında nə qədər mühafizəkar olsanız da, orta yol seçin və ya həddən artıq qızğın olmayın, bir-birinizi ittiham etməyin! Çünki, gördük və yəqin etdik ki, əgər quyruqlu ulduz gəlməsəydi, qarşılıqlı ittiham və intriqa bizi boğardı.

5. Əgər nazir olsanız və ya İranda təzə yüksək vəzifəyə çatsanız, öz hərəkətlərinizdə mülahizəli olun. Elə etməyin ki, sizin məlumat və üzrxahlıqlarınız məmləkətə və onun azadlığına xələl gətirsin.

6. Əgər millət vəkili olsanız, öz vəzifənizi bilin və heç vaxt ondan kənara çıxmayın. Heç vaxt nazirlik kabinələrinə biri üçün vasitəçi kimi getməyin. İcra sahibinin işlərinə müdaxilə etməyin ki, öz icra qüvvənizi öz hüdudlarında saxlaya biləsiniz.

7. Əgər, Allah eləməsin, çətinliyə düşüb gözlədiyinizin əksinə olaraq jurnalist olsanız, ən azı sərxoş halda heç bir şey yazmayın, yoxsa öz milli mətbuatınızın bədnam olmağına bais olarsınız.

8. İdarəyə və ya Milli Məclisə vəkillər seçilən zaman, elə adamı seçin ki, onun özünün müstəqil fikri olsun, vicdanla rəy versin, gözləməsin ki, görək filankəs nə rəy verəcək, mən də onun əksinə rəy verim.

9. Əgər bir hadisə zamanı siz öz millətinizə layiqli xidmət etsəniz və məşhur qəhrəman olsanız, çalışın ki, hərəkətləriniz ad-sanınıza uyğun olsun. Belə olmazsa, sabah xidmətiniz bir qara qəpiyə dəyməz.

10. Öz çalışqanlığınıza görə bir yerə hakim təyin olunsanız, elə etməyin ki, sizə baxıb zalımlara rəhmət oxusunlar.

11. Bizim əlimiz daha çatmayacaq, amma "İrani-nov"da dünən yazılmış suallara siz cavab verin. "Həyya əla xeyrül-əməl![1] ruhunu özünüzdən razı salın.

Ulduzun vaxtı çatır, əlim əsir, halım dəyişir, üzr istəyirəm. Əgər bu 10-11 maddəyə əməl etsəniz kifayətdir.

"İrani-nov", 17 may 1910, № 206

[1] Ən yaxşı işlər görməyə tələsin!

DİL İCTİMAİ MÜHÜM BİR AMİL KİMİ

İnsanlar arasında cəmiyyət vücuda gətirən iki mühüm amil vardır. Bunlardan biri din, digəri də dildir. Məlum olduğu üzrə, din müxtəlif dillərlə mütəkəllim və müxtəlif cinsdən olanları birləşdirdiyi halda, dil ancaq bir növdən və bir cinsdən olan insanları birləşdiriyor.

Dinmi böyük bir amili-ictimaidir, yoxsa dil? Daha vəzeh bir təbirlə dinmi mətin bir cəmiyyət vücuda gətirə bilər, yoxsa dil? Buna, özümüz bir cavab vermədən əvvəl, islam aləmində məşhur olan Şeyx Cəmaləddin Əfğaninin bir mütaliəsini nəql edəcəyiz. Dövri-inhitat[1] keçirməkdə olan aləmi-islamda əksəriyyətlə məqbul görünən bir nəzəriyyəyə rəğmən, mərhum Şeyx siyasi ittihadi-islam məsləkinin məbdəi olmaq həsbilə dinə və onun ictimai qabiliyyətinə ən çox əhəmiyyət verənlərdən olduğu halda, hindistanlılara xitabən yazmış olduğu bir məqaləsində diyor ki:

"İnsanlar arasında dairəyi-şümuli-vəsə olub bir çox əfradi yekdigərinə mərbut qılan iki rabitə vardır: biri dil vəhdəti (vəhdəti-lisan), digər təbirlə cins və ya cins birliyi (vəhdəti-cinsiyyə), (Şeyx cins kəlməsilə irq və ya milliyyət mənasını qəsd ediyorlar), digəri din. Vəhdəti-lisanın, yəni vəhdəti-cinsiyyənin (irqin, milliyyətin) heç şübhə yoxdur ki, dünyadakı bəqa və nəbatı dindən daha davamlıdır, çünki az bir zamanda dəyişməz. Halbuki, ikincisi bəylə deyildir. Bir dil üzrə danışan irqi görürük ki, minillik bir müddət əsnasında dil vəhdətindən ibarət olan cinsiyyətə bir xələl gəlmədiyi halda, iki-üç dəfə din dəyişiyor. Deyə bilərik ki, dünya işlərində dil birliyinin təsiri din birliyindən daha qüvvətlidir. Bunun üçündür ki, xristian bir yunanlı bütpərəst Əflatun, Ərəstun və Sokratla mərbutiyyətindən naşı təfaxür[2] edir. Halbuki hindi bir xristianın din birliyindən naşı xristian Nyuton və Qaliley ilə iftixar etməsi heç də yaraşmaz (yağşımaz)".

Əvət, dil təbiidir, binaən əleyh əslidir, millətlə bərabər hasil olur. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil olmaz.

Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bun-

[1] Dövri-inhitat – tənəzzül dövrü

[2] Təfaxür – fəxr etmə

ların ən mühümmüdür. Dil milliyyət həyatının ən mütəkamil bir şəklidir. Dil bir millətin ən qiymətli sərvəti, həyatının ən fəyyaz mənbəyini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və ənənət da daxildir. Qədimdə isə "dil" demək "millət" demək hökmündə idi. Məhəlli qəzetələrin birisində (rusca qəzetələrdən biri) – "dil milliyyətin üç rübünü təşkil edir" – deyə dilin milliyyət təşkil edən amillər miyanında əhəmiyyəti-fövqəladəsi təyin olunurdu. Bu, həqiqətən böylədir. Yenə məzkur qəzetə mühərririnin təbirini işlədiyoram:

"Dil – bu bir millətdir, millətin üç rübü dildir"[1].

Milliyyət naminə vaqe olan mübarizələr bir kərə tədqiq olunarsa, görünər ki, ən çox müdafiə olunan dildir. Milliyyət və mədəniyyəti-milliyyə naminə icra olunan mübarizələrin dil və dilə mərbut olan məktəb, ədəbiyyat, mətbuat uğrunda olduğu aşkardır.

Həqiqətən dil milləti hər şeydən daha gözəl təmsil edir. Millət dil vasitəsilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilir. Adəm oğlunun sözü bəzi riyazi və fənni məfhumları andıran əlcəbr və ya kimya əlamətləri kimi ölü hərflər deyildir. Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar, tərəqqi edər. "Esperanto" və "volopok" təbii bir dil deyildir və heç bir zaman da bir dil ola bilməyəcəyini iddia edən mütəfənninlər çoxdur. Bir dil bir alimin xüsusi surətdə ixtira elədiyi bir şey deyildir. Dil milyonlarla insanların və bir çox nəsillərin müştərək vücuda gətirdikləri bir məhibədir[2]. Dil qanlı və canlı, adətən üzvi və zihəyat[3] bir vücuddur. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhi və onun şəxsiyyəti-müştərəkəsidir.

İştə bunun üçündür ki, bir dili öldürmək, bir milləti öldürmək deməkdir. Və yenə buna görədir ki, hər bir təmsil[4] həmən dili təzyiq etməklə başlar. Dil durduqca, millət də durar, öldümü, millət də canını bağışlar. Dillərini unutmağa başlayan millətlər axırı qəti bir ölüm olan həlakətli bir yola girmişlərdir.

Bu qədər bir əhəmiyyətə malik olan dilin mühafizəsi bittəb dil sahiblərinə ən çox lazım olan şeylərdən biri, bəlkə də birincisidir.

[1] Doktor Şərrin mütaliatı "Türk yurdu"ndan iqtibas edilmişdir. – *M.Ə.*

[2] Məhibə – fəxr etmə

[3] Zihəyat – canlı

[4] Təmsil – assimilyasiya

Çünki o, dindən daha qüvvətli bir amili-ittihad və millətin ən doğru bir mümossili olduğu kimi, millətlərin yeganə vəsileyi-tərəqqisidir də. Millətləri maddətən etila etdirmək, mədəni və mütərəqqi qılmaq üçün dinlərindən deyil, dillərindən istifadə edilir. Hətta dinin tərvici üçün belə dilə ehtiyac vardır.

Bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik. Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə əvəma məxsus bir dil ədd olunur, xass farsı və ərəbi bilməsilə iftixar edərdi. Sonra Füzuli əleyhirrəhmənin təsiri-fəyyazı təhtində yetişən bir çox azərbaycanlı türk şairləri bu təhlükəli nisyanın önünü aldılar, "yaman-yaxşı" bir ədəbiyyat vücuda gətirdilər. Türkçülük edən bugünkü cavanlarımız "İran məhsulu" ədd etdikləri azərbaycanlı mərsiyənəvis raciləri, dilsizləri, qumri və dəxilləri bir nəzəri-istixfaf ilə görüyorlarsa da, əminəm ki, irəlidə Azərbaycan türklərinin gərək milli tarixi-intibahlarını və gərək tarixi-ədəbiyyatlarını yazmaq sədədinə düşən ciddi mühərrirlər lazım gələn təqdiratı onlardan əsirgəməyəcəklərdir.

Fəqət mövzumuzdan ayrılmayaq: dilin mühüm bir amili-ictimai olmasını isbat etmək sədədində idik. Bittəb bu xüsusda daha ziyadə söz söyləmək olardı. Fəqət məqaləmiz ona müsaid deyildir.

Yalnız imzanı atmadan əvvəl fövqəladə əhəmiyyət verdiyimiz bir şeydən daha bəhs etmək istəyirik.

Məlum olduğu üzrə, dillər daimən iki mühüm cənbəyə malik olmuşlardır. Biri danışıq (əvam) dili, digəri də ədəbi yazı (xass) dili.

Qanun təkamüli-ictimaiyyətə də şamildir. İctimaiyyətdə hər bir şeyin müəyyən bir təkamülü vardır. Məsələn, bu gün cümhuriyyət şəklini almış olan hökumət üsuli-idarələri dövri-bədavətdə[1] mövcud əşirət atasının iqtidar və hökuməti mütləqəsinin mütəkamil bir şəklidir. Təməddünün asar və füyuzatı, bilxassə, mənəviyyat əvvəlcə məhdud əllərin inhisarında qalmış, sonra get-gedə vüsətlənmiş və qəbilələrə, bütün millətə təmsil olunmuşdur. İdareyi-hökumətdə əvvəl bir şəxsin haqqı ədd olunurkən, sonra bütün millətin də bu haqqa şərik olduğu əsas qəbul olundu. Din də, elm də, qismən dil də (dilin yazı qismi) böylə olmuşdur. Bir zaman vardı ki, din rəyasəti, elm, fənn və təhrir ancaq "kahinlər"ə məxsus idi. Onların inhisarında

[1] Dövri-bədavət – köçərilik, bədəvilik dövrü

idi. O zamanların mədəniyyətinə "kahinlər mədəniyyəti" deyilir. Sonra siyasətdə olduğu kimi, sairə xüsuslarda da demokratizm (inamiyyət) hüsula gəldi. Əvvəlcə yalnız kahin vasitəsilə Allaha mütəvəssil olmaq qabil ikən, sonralar hər kəs bizzat Allahına müraciət edə bildi və nəhayət, din şəxsi və vicdanı bir əmr olaraq tələqqi olundu. Öylə də yazı əvvəlcə kahinlərə məxsus ikən, sonra ümumiləşdi. Və hətta məlum olduğu üzrə, bəzi mütərəqqi məmləkətlər də maarifi-ibtidaiyyə təhsili qanunən məcburiyyət təhtinə belə alındı.

Bunun üçündür ki, bədəvi bir halda yaşayan bəzi tayfalara təsadüf olunur ki, danışıq dilləri olduğu halda, yazı dilləri yoxdur. Və yenə lüzumi dərəcə tərəqqi etməyən millətlər vardır ki, onlarda yazı dili varsa da, danışıq dilindən çox fərqlidir.

Türkcənin indiki halı da müttəəssif böylədir. Yazı dilinin danışıq dilindən fərqi sairə mədəni dillərdə olan fərqdən çoxdur. Dilimizi həqiqətən də millətimizin ruhu və onun vasiteyi-bəqası məqamında görmək istəyirsək və onu cameiyyəti-milliyyəmizdə ən mühüm bir ittihad və tərəqqi amili ədd edirsək, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyız. Bu xüsusda da başqa bir vaxt.

"Şəlalə", 10 avqust 1913, № 27

OXŞAMA

Məhərrəm münasibətilə

Ağlamaq ayı gəldi. Bu mənə övraqi-pərişanım arasında fövqdəki, ünvan təhtində yazılıb buraxılmış olan məqaləmdən bir qismini nəşrə münasib bir zaman kimi göründü. Hər kəs ağlayır, mən də oxşama və ağlamadan bəhs edərsəm, münasibətsiz olmaz – deyə düşündüm.

* * *

Ağlamaq adətim deyildir. Çox güləyən deyilsəm də, ağlağanlığım da yox kimidir. Bir ifadeyi-cəbriyyə ilə anlatmaq lazım gəlsə, zənn edirəm ki, yenə gülüşüm zaidli[1] çıxar. Hətta uşaqlığımı xatırlayanlar belə mənim sakit və samit bir bala olduğumu söylərlər. Bala uşaqların istədiklərini almaq üçün yeganə silahları olan giryədən[1] mən çox az istifadə eləmişəm.

Yadımdadır. Məscidə çox gedərdim. Namaz mənə şərən vacib olmadığı zamanlar belə bir çox qəza namazları keçən saqqallıların eləmədiyi ibadətlərin icrasına həvəsli idim. Ramazan gecələrində məscidə gedər, sübh açılana kimi namaz qılardım – gecə namazı. Ən çox həzz aldığım yer məscid idi. Bir zamanlar məktəbə, sonra mətbəəyə nə kim bir həvəslə gediyor idimsə, o vaxt məscidə də öylə bir həvəslə gediyordum. Məsciddə qazanılacaq savabların hamısına məzhər olmaq da müntəhayi-amalım idi.

Fəqət, bütün bu iştiyağım[2] və bütün bu təmayüllərimlə bərabər şiə məscidinin ən böyük fəzilətini və ən böyük savabını təşkil edən ağlamaqdan məhrum idim. Rövzəxan meydani-Kərbəlanı, oradakı faciələri təsvir ediyordu. Məzlumlar şahının qanlı bədənini Ərəbistanın qızmış qumları üzərinə səriyor, üzüyünə qəsd edən saribanə barmağını kəsdiriyor, Həzrət Abbasın qollarını qələm etidiriyor, Əliəsğər, o balaca südəmər balanı babasının qolları üstündə təşnələb[3] oxlatdırıyor, əhli-beyt[4] xeymələrini oda yandırıyor, Zeynəb əleyhissalamə ürəkyandırıcı növhələr oxutduruyordu. Xülasə, ağlatmaq sənətinin nə kimi artistlikləri varsa, hamısını icra eyliyor, müvəffəq də oluyor. Bir tufani-giryədir qopuyor. Məscidin günbəzləri gumbulduyor, tağlar çatlamağa gəliyor. Xalq hay-hay ilə ağlıyor, alınlarına döyüyor. İçlərində qəş olanlar, səsləri qısılanlar, sinəçak olanlara baxmayaraq, müvəffəqiyyətlə sərməst olan sənətkar təsiri daha da artırmaq istiyor: "Ağla, ağla, öylə ağla ki, Kərbələda ağam eşitsin" – deyə xalqın canına qıymış kimi növhəsinə daha da kədərəngiz bir ruh veriyor, təsviratını olduqca müzlimləndiriyordu. Fəqət bütün vücudumla ağlamaq və cənnəti bükamla[5] almaq istiyordum – heç bir qismlə məqsədimə nail ola bilmiyor, sanki gözlərim muncuqdandır kimi bir qətrə yaş tülf edərək hədəqəsini[6] nəmnak etmiyordu. Bütün təmayülati-dindaranamə rəğmən gözlərimin

[1] Zaid – lazımsız

[1] Giryə – ağlama
[2] İştiyaq – arzuetmə
[3] Təşnələb – susamış
[4] Beyt – ev
[5] Büka – ağlama
[6] Hədəqə – göz orbiti

susuzluğu məni "təbaka"[1] ilə iktifa etmək məcburiyyətində bulundururdu. Bu məcburiyyət o zaman ki, tələqqiyatımca çox əlim idi.

Yalnız rövzə və yaxud növhə məclislərindən ibarət olan söz aktyorluğu deyil, ağlatmaq üçün icra olunan məhərrəm nümayişləri də məni ağlada bilmiyordu. Nə xəncər vuranların ağ kəfənlərinin qırmızı qanlar ilə boyanmaları, nə taxtalar üzərində başı kəsilmiş cənazə təşbihati, nə də qolları zəncirli əsirlər, nə də kürəkləri dalağa dönmüş zəncirvuranlar, nə də bədənlərinə oxlar, qıfıllar, xəncər və nizələr keçirən "ələmdarlar", heç bir şeyi, mütləqa heç bir şeyi məni ağladamaz idi. Bəzən bu daşqəlbliliyimə hətta acığım tutuyor, özümdən ikrah da ediyordum. Fəqət, nə eləməli, gözümdə yaşım yox!..

Bəli, bir möminin həyatı ancaq göz yaşı ilə inciləşir. Mən də bir mömin olmaq fikrində idim. Ancaq həyati imanımın incisiz olacağına mütəəssif idim. Bu məni o vaxt bəlkə də izhar etmədiyim bir vicdan təzyiqi altında bulunduruyordu.

Fəqət sonra ağlar vaxtlarım oldu. Nadir olsa da ağladım. Və zənn edirəm ki, çox səmimi olaraq ağladım. İnsanın darğınlığında, müsibət və matəmlərində yeganə müdari-təsəllisi olan acı giryələrə nail oldum. Yalnız dini bir təsir deyil, bəşəri bir təsirlə ağladım. O vaxt ağlamaqda bir mükafat olduğunu ümid ediyor, ağlamaq istiyordum, fəqət ağlaya bilmiyordum. İndi ağlamağımın heç bir bahası olmadığını biliyordum, fəqət bilaixtiyar ağlıyordum. Mənə böylə təbii bir ağlamağı ilk dəfə arvad növhələri bəxş etdi.

Babam ölmüşdü, həyətimizdə arvadların oxşaması ucalmışdı. Bu oxşama mərsiyəxanlardan qüvvətli çıxdı. Hay-hay ilə ağladım və özümdən getdim. Ondan sonra arvadların giryəsinə qarşı özümdə daima bir zəf hiss eləmişəm. Heç bir arvadı ağlar görəməm. Haman ona rəfiq giryə ollam.

* * *

Zaman və məkan müsaid olsaydı, bəqiyyəsi yazılıb məqalə tamam olardı. Diqqət olunursa, bu da ağlanır haldır.

"İqbal", 19 noyabr 1913, № 509

[1] **Təbaka** – yalandan ağlama

BƏSİRƏT GƏRƏK!

Dünyada yaşaya bilmək, xoşbəxt və məsud yaşaya bilmək üçün böyük bir bəsirət[1] lazımdır. Yaşamaq yollarını bilmək, onun rah və çahını[2] görmək üçün olduğu kimi yaşaya bilməməyin yaşayışdakı ədəmi-müvəffəqiyyətlərin[3] səbəblərini anlamaq, anlayıb da çarəsinə baxmaq üçün də bəsirət lazım.

Bittəb bu bəsirət, bu həftədən etibarən intişarına başlanan "Bəsirət" deyildir. Bu "Bəsirət" ancaq bunu edə bilər ki, mətlub olan bəsirətə xadim olsun.

Həyatın müvəffəqiyyətləri bəzən daha ziyadə müvəffəqiyyətlərə nail olmaq üçün bəsirəti mövcib olursa da, çox kərə olur ki, çeşmbəsirəti qapar, halbuki ədəmi-müvəffəqiyyət hər an və hər zaman bəsirət və intibahı mövcib olmalıdır.

Biz müsəlmanların, biz türklərin həyatımız əfradımızı sərməst qürur edəcək qədər müvəffəqiyyətlidir? Əlbəttə, yox! Mövcud olan bilcümlə asari-tərəqqi və intibaha rəğmən, yenə də demək olar ki, yox...

Bu yoxluq bizdə, təbii olaraq, bir varlıq vücuda gətirmək üçün fəaliyyətimizi təhrik etməlidir. Bunu ediyorummu? Çox az!..

Çox az, diyoruz ki, doğrudur. Çünki görüyoruz: Rusiya hüdudu xaricində vaqe olan işlər deyil, öz hüqüqumuza, öz həyatımıza təəllüq edən daxili işlər, qanungüzarlıq və dövlət həyati-siyasiyyə və mədəniyyəsində vaqe olan xüsuslar, şəhər işləri və bələdiyyə məsələlərində görünən uyğunsuzluqlar dəxi bizlərə necə ki lazımdır təsir etməyir və bizdə lazım gələn təsiri göstərmiyor. Başqa xüsuslarda da böylə.

Bu hal nədən gəliyor? Necə oluyor ki, bizə istədikləri şeyi qəbul etdiriyorlar. Necə oluyor ki, təkliyimizdə narazı olduğumuz hər bir şeyi məcmumuza qəbul etdiriyorlar? Biz də ona biduni-sual və cavab[4] təzəmmül ediyoruz.

Bizdə bəsirətmi yoxdur? Görmiyormiyiz?.. Bəsirətlilərimiz var, görənlərimiz də var. Fəqət fəal bir bəsirət və müsbət bir nəzərdən məhrumuz. Bu məhrumiyyət haradan gəliyor?.. Əlbəttə, bunun çox

[1] **Bəsirət** – gözüaçıqlıq
[2] **Çah** – quyu, çuxur
[3] **Ədəmi-müvəffəqiyyət** – müvəffəqiyyətsizlik
[4] **Biduni sual və cavab** – sualsız və cavabsız

səbəbləri ola bilər və vardır. Mən mümkün olarsa, gələcəkdə onlardan da bəhs və qarələrimlə mübadileyi-əfkar edəcəyəm. İndilik bu qədər deyəcəyəm ki, bəsirətsizlik şəklində görünən fəaliyyətsizliklərimizi yəsavər[1] bir tərzi-təfəkkürümüz mövcib oluyor.

Giriniz millətimizin, bilcümlə təbəələri arasına, danışınız onlarla: münəvvər, mütədəyyin, molla, tacir, kəsəbə, əsnaf – hər kəslə danışsanız həyatımızın qeyri-müvafiq olduğundan bəhs edər. Bittəb, hər kəs də bu uyğunsuzluğu özünəməxsus bir nöqteyi-nəzərdən təhlil edər. Bu təhlilat biri-birinə tamamilə zidd olarsa da bir şeyi də ələlümum ittihad edərlər. O da özümüzün geridə qalmasından, işlərimizin pərişan olmasından ibarətdir. Fəqət geridə qalan irəliləməli, pərişan olan düzəlməli, bunun çarəsi nə?

Bu sualın cavabına gəlincə əksəriyyətlə hər kəs diyor ki: "Canım müsəlmançılıq böylə olar. Müsəlman düzəlməz!"

Bu hər bir bəsirəti faidəsizləndirən, hər bir fəaliyyət və hərəkəti öldürən ölü nəzəriyyə, fəna yəs məəttəssüf diqqət olunubsa görülmüşdür. Avamımıza, xassımıza, böyügümüzə, kiçiyimizə, hamımıza təsir etmişdir. Həm də o qədər müfrid bir surətdə ki, ən adi şeyləri gördükdə belə haman hökm ederiz ki: "canım müsəlmandan adam olmaz" və "müsəlmançılıqdır" tərzi təfəkkür mənhusi beyinləri istila etmiş, təbiidir ki, heç bir bəsirət və intibahdan faidə gözləmək olmaz.

Bir millətin müxtəlif təbəqələrinə mənsub olanlar öz millətləri haqqında bu qədər yanlış bir tələqqiyə tutulub da haqqına-nahaqqına bu yəsgətirici şiyui[2] təkrar edirlərsə, oylə bir mühitdə ictimai məsələlərdə nə kimi hərəkətlər və nə kimi müvəffəqiyyətlər gözləmək olar? Heç bir şeyi!

Belə bir mühitdə, şəhərin əksəriyyəti müsəlman əlində olduğu halda bələdiyyəsində müsəlman qlasnılar əqəliyyət təşkil edər, kimsə bir söz deməz. Bələdiyyə dairəsində müsəlman müstəxdimlər[3] barmaqla hesab olunar, təbii olar. Xalqın mənafeyini müdafiə üçün intixab olunan qrasnılar ildə iki dəfə cələsəyə gəlməzlər, yenə də seçilərlər. Bütün cəmaət işləri əhllərinə deyil, müəyyən bir neçə nəfər arasında təqsim olunar. Hər kəs baxa-baxa qalar...

[1] Yəsavər – məyusluq gətirən
[2] Şayui – intişar, yayılma
[3] Müstəxdim – qulluğa qəbul edənlər

İşlərimizin düzəlməsi üçün məncə hər şeydən əvvəl ruhumuzu, ruhi-minkəsirimizi[1], xəstə ruhumuzu tədavi etməliyik. Bu yolda bəsirət qazanmalıyız.

Hər şeydən əvvəl özümüzü öyrənməliyiz. Kimiz, nə millətiz, haradan gəlmişiz. Özümüz nə, mahiyyətimiz nə olduğunu bilməliyiz. Sonra da bilməliyiz ki, biz heç də həyatından qəti ümid etmiş bədbəxtlər deyiliz. Biləks anlamalıyız ki, böyük tarixə malikiz. Tarixdə parlaq günlərimiz olmuş. Qafalarımıza soxmalıyız ki, "müsəlman adamdır. Müsəlman adam da olar və hər vaxtda adam olmaq istedadındadır". Allah bilir ki, hələ münəvvərlərimiz (intelligentlərimiz) ağzından "canım müsəlmançılıqdır" cümləsini eşitdikdə ürəyim nə qədər ağrıyır. Məlumdur ki, bəziləri bu sözü ürək yanğısı və intibah üçün söyliyorlar. Fəqət yenə bir məyusiyyət təmayi haiz olduğu üçün tənqidə səzadır[2].

Bəlkə də hal-hazırdakı surəti-tədənnimiz və müsəlmançılığın bugünkü əhvalı böylə yəsalud[3] bir hökmün təminə vəsilə oluyor. Buna bir söz deyə bilmərəm. Fəqət, bu halda dəxi münəvvər qismimiz başqa bir şey ilə mükəlləfdir. Bu halın haradan gəldiyini cəmaətə bildirməlidir; anlatmalıdır ki, bu hal daimi deyildir, müvəqqəti olan bu halın islahı öz əlindədir. Bunun üçün də hər şeydən əvvəl münəvvər qismimiz birləşməli, bəsirətə gəlməli, öhdəsinə düşən böyük vəzifəni və onun ifasındakı qüsurun böyük məsuliyyətini xatirinə gətirməlidir.

Həqiqətən də heyran qalmalıdır. Bakı kimi böyük bir müsəlman şəhərində, bir şəhərdə ki bu qədər əhli maarif vardır, bu qədər doktorlar, injenerlər, advokatlar, müəllimlər, bilməm nələr vardır, Rusiya müsəlmanlarının ali təhsil görmüşlərinin zübdələri[4] buradadır, heç rəvamıdır ki, öz vücudunu hər yerdə və hər bir məclisdə hiss etdirəcək dərəcə bir "ittihadi münəvvərin" olmasın. Hanı bu münəvvərlərin qəzetələri, hanı onların cəmiyyətləri, hanı onların şəhər dumasındakı fəaliyyətləri, hanı onların buları-şuları?..

Əcəba, bir kərə "müsəlmandan adam olmaz" – deyə tamamilə özlərinə məşğul olmağamı qərar verdilər? Yoxsa, heç bir mərifət və

[1] Ruhi-minkəsir – qəmli ruhumuz
[2] Səza – layiq
[3] Yəsalud – yasa batmış
[4] Zübdə – seçilmiş hissə, qaymaq

fəzilətə bir mənqur[1] qiymət qoymayan Bakının pullu ruhunun təzyiqi altında onlar da mı milyonları güdüyorlar? Güdsünlər! Heç eybi yox! Fəqət, bunu da unutmasınlar ki, münəvvər bir adam üçün hər nə qədər milyon güdən də olsa, bir ehtiyacı-mənəvi də var ki, o da yaşadığı mühitə az da olsa fayda vermək, onu işıqlandırmaqdı. Əcəba, bizim münəvvərlərimiz bu ehtiyacı hiss etmiyorlarmı? Ediyorlarsa, hanı bəs asari?

İştə bizim arzu etdiyimiz bəsirət maarifməndlərimizin, beistilah, intelligentlərimizin bəsirətidir. Allah onlara bəsirət verərsə, əlbəttə ki, halımız böylə qalmaz. Çünki... bəsirətə gəlin və adi bəsərlərin (gözlərin) görmədiyini, görə bilmədiyini onlar görər. Bir dərd görüldümü, təbiidir ki, çarəsi də tapılar.

"Bəsirət" qəzeti, 12 aprel 1914, № 1

SƏTTAR XAN

Teleqraf məşhur Səttar xanın vəfatı xəbərini gətirdi.

Son zamanlar Səttar xan unudulmuşdu. Artıq adı dillərdə dastan deyildi. Fəqət bir vaxt vardı ki, bu ism günün mövzusunu təşkil ediyordu. Avropa qəzetələri belə Səttar xan ismini Qaribaldi ilə bərabər tutuyorlardı. İştə bu vaxtilə İran Qaribaldisi olan zat ölmüşdür.

Səttar xan hər nə qədər cismən indi ölmüşsə də Təbriz meydanı-hürriyyətində qazandığı şöhrətini məəttəəssüf daha 1910-cu ildə Tehranda vaqe Atabəy parkında öldürmüşdü.

Fəqət bu həzin xatirəni çox da qurdalamayayım. "Üzkürü əmvatikum bilxeyr"[2]. Səttar xanın xeyrindən də bir çox söz söyləmək olar. Əlbəttə, vaxtilə bütün qəlblərdə böyük bir hüsn təvəccöh qazanmış olan bir zatın hüsn xatiratı dörd-beş sənə zərfində unudulamaz.

Millətin bətnindən yetişmiş olan bu qəhrəman hər nə qədər avamlığı cəhətindən onun-bunun intriqalarına qurban oluyordusa da, fitrətən bir çox məziyyətlərə malik idi.

Mərhum Səttar xanla bir çox kərə mülaqi[3] oldum. Fəqət müşarilileyhlə vaqe olan görüşmələrimdən bir neçəsi heç bir vaxt yadımdan çıxmaz.

[1] Mənqur – pul vahidi
[2] Ölüləri xeyirliyə yad edin.
[3] Mülaqi – müsahib

Mərhumla ilk dəfə Təbrizdə görüşdük. Biz Təbrizə varid olan gündən bir gün əvvəl Səttar xanla Bağır xan – bu Təbriz istilalının iki sərkərdələri – rus qoşunlarının şəhərə gəldikləri nəticəsində özlərinin həbs olunmalarından xof edərək ehtiyat üçün Osmanlı konsulxanasında bəstə oturmuşlardı.

İştə Səttar xanla da ilk dəfə burada görüşdük.

Xan bizi Qafqasiya müsəlman mətbuatının nümayəndəsi olmaq sifətilə qəbul edərkən olduqca iltifat göstərib zimmən müsəlman mətbuatına qarşı haqlı bir tənqiddə bulundu. Dedi ki, Təbriz vaqiələri bütün aləmi maraqlandırıb buraya bir çox əcnəbi qəzetələrinin müxabirini cəlb elədi. Təəssüf olunur ki, ancaq vəqələr bitdikdən sonra müsəlman qəzetəsinin müxbirini qəbul etmək şərəfinə nail oluyoruz.

Mən bu tənqidin haqlı olduğunu təsdiq etməklə bərabər mövcud olan səbəblərin bəyanı ilə mənsub olduğum mətbuatı müdafiə etdikdən sonra, müsahibəmizin zəminini dəyişdirmişdim.

Müsahibəmiz əsnasında bir çox sözlər söylədik.

Səttar xan sevdiyi xor-xor qəlyanını çəkə-çəkə (diyorlar ki, Səttar xan qəlyanı çox-çox seviyor, hətta davanın qızğın vaxtında belə mətanətini qeyb etməyərək ondan əl çəkməzmiş) bu sözləri bəyan ediyordu:

– Artıq bizim vəzifəmiz bitdi. Bizimki əsgərlik idi. Vəzifəmiz dəxi köhnəni yıxmaq və dağıtmaq idi. Bu yolda əlimizdən gəldiyini elədik. Yıxa bildiyimiz qədər yıxdıq. İndi tikmək zamanı gəlmişdir. Bunun üçün başqa qüvvətlər, yəni alimlər və mütəqənninlər[1] lazımdır. Böylə emaredicilər hər yerdə olsa tapmalı və onların arxasında durmalı və işləyin deməliyiz.

Doğrusu, xanın bu sözləri məndə böyuk bir təsir oyatmışdı. Bu təəssüratım o zaman "Tərəqqi" sütunlarına da keçmişdi.

İkinci dəfə Səttar xan Tehrana gələrkən onunla görüşdük. Mərhuma şahanə bir istiqbal hazırlanmışdı. Demək olar ki, bütün Tehran o gün istiqbala çıxmış idi. Şahabada qədər yollarda çadırlar qurulmuş, hər əsnaf və hər təbəqə özünə görə xeymələr, çadırlar dikəltmişdi ki, qəhrəmani-məşrutiyyəti orada istiqbal etsin.

Üçüncü xatiratım olduqca həzindir.

Səttar xanın öz səyi və himmətilə vücuduna çalışmış olduğu məşrutiyyət hökuməti artıq nüfuzunu payidar etmək istəmişdi. Binaənə-

[1] Mütəqənnin – qanunvericilər

leyh əllərində silah olaraq küçələri gəzən mücahidlərin tərksilah etdirilməsinə qərar vermişdi. Gözlənilməli idi ki, bu qərarı hər kəsdən əvvəl Səttar xan qəbul eləsin. Heyhat! Xan Tehran intriqaçılarının damində idi. Hökumətin bu məşru tələbindən boyun qaçırtdı. Mücahidlər Atabəyi parkına doldular. Hökumətə qarşı durdular. Nəticə parkın hücumla alınması və Səttar xanın da ayağından yaralanması kimi fəci bir hala müncər oldu. Yaralandığından sonra özü ilə görüşənlərə Səttar xan özünün bu səhvindən mütəəssir olduğunu söyləyirdi:

– Ax, bu məlunlar başıma nələr gətirdilər? – deyə intriqaçılara lənətlər oxuyurdu. Təbriz qəhrəmanının intriqa qurbanı olduğunu hökumət də qəbul eləmiş, binaənəleyh onun şikəst olmasına qarşı bəyani-təəssüb izhar elədiyi kimi, yarasının müalicəsini də öz öhdəsinə almışdı.

Park vəqəsindən sonra Səttar xan artıq bir guşeyi-inziva ixtiyar edib, o surətlə yaşamağa və Təbrizdə çıxardığı böyük ada istifa edərək adi bir həyat keçirməyə razı olmuşdu.

Bu kərə gələn teleqraflar artıq bu adi həyatın da bitdiyini bildiriyorlar.

Səttar xan əvvəlki şöhrətilə mütənasib parlaq bir nəticə əldə edib, müvəffəq bilməram olmadısa, bunda biz bilən, özündən ziyadə yetişdiyi mühit və o mühitin giriftar olduğu siyasi və ictimai şərtlər müqəssirdir.

İran məşrutiyyəti arzusuna nail olub, təkamül edə bilmədiyi kimi, onun qəhrəmanları da öylə bir fəci bir xatiməyə məhkum idilər. Fəqət bu ədəmi-müvəffəqiyyətlər tamamilə ümidsizliyi tövlid etməyib, vaxtilə bu zavallı qəhrəmanların məhrum olması az təqviyə etməyəcəkdir.

Bu nöqteyi-nəzərdən Səttar xan İran tarixi-təcəddüdünün unudulmaz bir simasıdır.

Allah rəhmət eyləyə. Amin!

"İqbal", 10 noyabr 1914, № 786

DİRİLİK NƏDİR?

I

Dirilik, işdə bir mövzu ki, səhifələr dolusu yazı yazdıra bilər, fəqət biz "dilirik"i anladığımız kimi anlatmaq üçün hal-hazırda dirilik üçün olunan hərblərdən və dirilik naminə icra olunan şəttatlardan daha bəlığ bir bəyan olamaz zənnindəyiz.

Dünyanın mütəməddin millətləri öz diriliklərini təmin üçün cəhənnəmi silahlarla müsəlləh olub, biri-birilərinin üstünə hücum ediyorlar. Nə əcaib bir tələqqi ki, istədikləri kimi dirilə bilmək üçün ölümü qəbul ediyorlar. Dirilik üçün ölüyorlar.

Dirilik üçün ölmək! Avropa diriliyi bu dərəcədə müəzziz tutuyor və ona bu qədər əhəmiyyət veriyor. Halbuki Şərqdə, ələlxüsus, Şərqi-islamda yalqız olmaq üçün diriliyorlar. Başqalarında məqsəd dirilik isə, bizim məqsədimiz ölümdür. İştə diriliyi və dirilik fikrini avropalılar kimi anlayıb və anlada bilmək diriliyin məqsədini təşkil ediyor.

Avropalılarca dirilik məhz qüvvətli olmaqdan ibarətdir. Bədənən və ruhən qüvvətli olmaq. Gərək bir insan və gərək bir millət elmən və bədənən qüvvətli olmayınca dünyada yaşaya bilmək nemətindən məhrumdur. Yaşaya bilmək üçün icabında yaşamağı belə fəda edə biləcək qədər rəşid olan millətlərdir ki, dünyada dirilik haqqı qazanıyorlar.

Müdafieyi-nəfs və mübarizeyi-həyat xassəsi zatən bütün mövcudatda qovulmuşdur. İnsan deyil, heyvanlar dəxi öz nəfslərini müdafiə və öz diriliklərini mühafizə üçün var qüvvələri ilə çalışıyor, çarpışıyorlar.

İnsanlar bilafərq millət və məzhəb düşməni – ümumiləri olan təbiətlə mübarizə etmək məcburiyyətindədirlər. Gördüyümüz mədəniyyət içində bulunduğumuz imran iştə bəşəriyyətin təbiətlə etdiyi davalardan aldığı qənimətlərdir. Hər hankı millət ki, təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidir, o millət təbiətdən alınan qənimətdən də daha ziyadə istifadə ediyor. Hələ yalnız bununla qalmayıb dünyanın nemətlərini təqsim edərkən, diri millətlər özlərinə hər kəsdən ziyadə pay çıxarıyorlar. İştə bu xüsus, ümumi diriliyindən başqa insanlar arasında bir də xüsusi bir dirilik vücuda gətiriyor ki, bu xüsusi diriliklərin ən mütəkamil bir şəkli milli diriliklərdir. Millətlər qüvvətli və tərəqqi olmadıqca dirilik mənayi-həqiqi və maddisilə anlamadıqca, təbiətdən alınan qənimətlərdən

hissələrinə ancaq bir qutlayəmut[1] düşər. İştə bu qutlayəmutə qənaət edən millətlər kargahı[2] bəşəriyyətdə ən süfla[3] xidmətlər ifa edən vəsli-əmələlərdir. Neft mədənlərində çalışan "çornı raboçilər" kimi.

Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə ediyor ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalqız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil ediyor. Yuxarıda başqaları dirilik üçün öldükləri halda, bizim ölmək üçün dirildiyimizdən bəhs etmiş idik. İndi təkrar bu bəhsə övdət edəlim.

Biz, yəni islam aləmi və islam millətləri dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq dünya diriliyinə qərib bir nəzərlə baxmağa başladığımız zamandan bəri başqalarından ruzəxari[4] və onlardakı tərəqqi və imranın əsir və dəstgiri[5] olduq, bunu etiraf etməliyiz. Bizcə, dünyanın diriliyi bir manqirə[6] deyməz. Beş gün dünyadan ötrü insan çalışmasa, daha məqul bir iş görmüş oluyor. Çünki bu dirilik müvəqqətidir, burası da bir karvansaradan ibarətdir. Doğrudan da islam aləmi ilə Avropa aləminin abadlığı müqayisə edilərsə, birincisinin xaraba bir karvansaradan ibarət olduğu həman anlaşılar.

Fəqət düşünməlidir ki, bu gün dünyanın ən möhkəm səngərlərini xak ilə yeksan edən topların müqabilində köhnə karvansaraların halı nə olar?

Bu kimi karvansaraların insanı yaşada biləcəyindən bəhs etməyəlim. Bunlar ölümü çarçəşm ilə gözləyən bir abidin hüzuri-qəlbilə razü niyazına da kafi gəlməz.

Belə dünyaya bir qələm çəkib də bütün diriliyi axirət diriliyindən ibarət bilməyi, bir əmri din bilmək səlim düşünülərsə, böyük bir xətadır. Çünki bunun nəticəsi maddi və mənəvi bir fəlakətdir ki, dünyanı da, axirəti də bərbad edə bilər. "Əddünya məzrəətul axirə"[7]. Məzrəəni abad etmək lazımdır. Buna da ancaq dirilər

[1] Qutlayəmut – xırda hissə
[2] Kargah – iş yeri
[3] Süfla – ən aşağı
[4] Ruzəxar – orucunu yeyən
[5] Dəstgir – əsir
[6] Manqir – xırda pul
[7] Dünya – axirətin əkin yeridir.

yarar. Dirilik isə elmən, ruhən və cismən qüvvətli olmaqdan və diriliyi sevməkdən ibarətdir.

Nəzərə bir az qəribə gəlsə də demək istəyirəm ki, dirilik dünyanı sevməkdən ibarətdir. Mənayi xassı isə dünyapərəstlikdir.

Diriliklərin ən qiymətlisi də milli dirilikdir.

"Milli dirilik" mövzuində bir silsilə məqalət yazmağı möhtərəm qarelərimə vəd etməklə bərabər, bu pərişan sətirlərdə yetirmək istədiyim fikri xülasə etməklə xətm məqal edəcəyəm. Dirilik nədir?

Filosoflar və sufilər nə deyirlərsə desinlər: dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir.

İştə mətbuata yeni çıxan "Dirilik" də öz milləti üçün böylə bir dirilik arzu edir.

"Dirilik", 16 sentyabr 1914, № 1

MİLLİ DİRİLİK

I

Qarelərimizə bu xüsusda bir "silsilə məqalat" vəd etmişdik. Bu vədimizə şamil olan məqaləmizin bir qismində demişdik ki, "mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə uyğun olan xüsusi, xüsusi olduğuN qədər də qiymətli bəzi şeylər əlavə ediyor ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil ediyor".

Bu fikrimi imdi burda açacağam: sevdiyim, namusu-millətpərvəranəsinə şübhə etmədiyim rüfəqadan birisi, qayət səmimi olaraq bir gün mənə belə bir sual vermişdi:

– İslam millətləri üzərinə təsəllüt[1] icra edən mütəməddin millətlərin təsəllütləri nəticəsində bəşəriyyət nöqteyi-nəzərindən hasil olan parlaq nəticəni gördüyümüz halda, milliyyətpərvərlik naminə inad edib də islam millətlərinin müstəqil qalmalarını arzu etməkdən nə kimi bir fayda gözlüyoruz?

Mən bu suala cavab olaraq, bu faydanı biz deyil, bəşəriyyət və mədəniyyəti-bəşəriyyə dəxi bəkliyor – deyə cavab verincə, müsa-

[1] Təsəllüt – ağalıq

hibim yalnız dəlil və sübutla qane olacağını bəyan etmiş idi. Mənim onlarca müsəmmən[1] ədd olunan bəyanatım isə bir vəchi-ati[2] idi.

Hər millətin yaşadığı mövqe, keçirdiyi tarix, mənsub olduğu irq nəticəsi olaraq bəzi xasiyyətləri vardır ki, o xasiyyətlər onlara məxsusdur. Ondakı bu xüsusiyyətlər aləmi-mədəniyyətdə xüsusi bir taqım ibda[3] və ixtiralar vücudə gətiriyor ki, onların əsillikləri (orijinalnost) müdəqqiqlər[4] nəzərində fövqəladə qiymətlərə dəyər şeylərdir. Diqqət olunmuşsa, hər millətin bir şeydə mahir olduğu görülmüşdür. Almanlar sənaətdə, fransızlar zərafətdə[5], ingilislər gəmiçilikdə, belçikalılar ictimai təşkilatda, italyanlar musiqidə, başqaları da sair xüsuslarda şöhrət tapmışlardı. Hər millətin özünəməxsus bir saheyi-mədəniyyəti vardır ki, orada onun ibraz elədiyi məharəti digər bir millət göstərə bilmiyor. Bunların bu xüsusiyyətlərindən isə mədəniyyəti-bəşəriyyə bir çox əsli şeylərə və gunagun asari-sənət və dühaya malik oluyor. Alman milləti, german irqi özünün istiqlalını təmin eləməsə və öz mədəniyyət xassəsini mühafizə etməsə idi, bəşəriyyət Şopenhaur, Fixte, Gete, Faust, Qutenberq və Lüter kimi dühaları da görməyəcək idi. Fransa digər bir irq və qövmiyyət içində münhəl olub da öz mənliyini itirsəydi, bəşəriyyət 19-cu əsrin fikirləri üzərinə hökumət edən o fikir qəhrəmanlarını – Jan Jak Russo, Didro, Monteskyö, Viktor Hüqo və Volterləri də qayib edəcəkdi. İtaliya milliyyətini anlamasa, özündəki xudadadi qüvvətlərdən xəbərsiz qalsa, yəni başqa bir milliyyət tərəfindən yoğrulub həzmi-rabedən keçilsə idi, indi nə dünyanın birər ammeyi-zərafətini təşkil edən heykəllər vardı, nə də Mikelancelo kimi heykəltəraşlar.

Nə uzaqlara gediyoruz. Bir kərə təsəvvür ediniz ki, Rusiyanın istiqlalı olmasa, rusca da məhkum, məğlub bir lisan olsa, başqa bir millət tərəfindən, məsələn, Rusiyanı maddi, mənəvi bu qədər təsir və nüfuz altına almış alman milləti tərəfindən kamilən təmsil (assimilə) edilsəydi, əcəba, biz Puşkin, Lermontov, Dostoyevski, Tolstoy, Şalyapin, Meçinkov və sairəyə malik olacaqmı idik? Məlum ki, yox!

[1] Müsəmmən – qiymətli
[2] Vəchi-ati – aşağıdakı kimi
[3] İbda – yaradıcılıq
[4] Müdəqqiq – tədqiqatçı
[5] Zərafət – burada zərgərlik

Millətlərin ümumi şəxsiyyətlərindən keçəndən sonra bu məsələ ilə əlaqədar olan ayrı-ayrı fərdləri alsaq, yenə təmsil (assimilyasiya) ilə istiqlalın mədəni və ibtidai fərqini görəcəyiz. Zənn ediyorum ki, əgər bir statistik tutulsa, görüləcək ki, daima müqtədir sənətkarlar mənsub olduğu milliyyətlə, maddi və mənəvi rabitə və əlaqələrini daha ziyadə saxlamış olanlar arasından çıxıyor. Məsələn, yaxşı bir rus mühərriri olub da öz həyatını kəmalınca təsvir etmək bir rus qəlbinin, rus vicdani-ümumiyyəsinin tərcümanı ola bilmək üçün ruslar kimi düşünmək, onlar kimi hiss edə bilmək lazımdır. Bunun üçün də rus olmaq, rus yaşamaq və rusları olduqca bilmək gərəkdir. Halbuki ruslaşmış bir müsəlman balası, yaxud təmsil olunmuş bir erməni dığası, yaxud döndərilmiş bir yəhudi övladı nə qədər özlüyündən uzaqlaşmış olsa da, yenə böylə bir rus ola bilməz. Əvvəla, bilmiyincə də ondan yaxşı və müfid bir rus mühərriri çıxmaz.

Binaənəleyh, ondakı ibdai-qüvvətləri əqim[1] qalar, bundan isə yaşadığı mühit zərər çəkər. O mühitdə bu kimilər çox isə əqamət[2] bir nəfərə deyil, bir milliyyət və bir qövmiyyətə sirayət edər. Demək, bəşəriyyət ailəsinə daxil olan bir fərdin zatı, əhəmiyyət və qiyməti əskilər. Binaənəleyh, bəşəriyyət bir çox zəkalardan məhrum qalar.

Özlüyündən çıxarılıb da başqa bir milliyyətə təmsil etdirilən şəxs təmsil edən mühitə böyük bir fayda verə bilmədiyi kimi, əslindən mənsub olan mühitə də böyük bir fayda yetirə bilməz. Çünki aldığı hal və tərbiyəsilə özünkülərdən uzaqlaşmış olar. Onlar bunu, bu da onları anlamaz. Demək ki, "əz anca rande əz inca mande"[3], məyub[4] və səqti[5] bir şey vücuda gələr.

Bizim mühitimizdəki rusca oxumuşlarımızı tədqiq etsək, görəcəyiz ki, ali diplom almış, böyük təhsil görmüşlərimiz arasında ancaq o qismi az-çox iqtidarlı və mənsub olduğu mühitin işlərilə əlaqədardır ki, az-çox türkcə savadı var və öz milliyyətinin nə olduğunu biliyor. Sırf rusca ilə böyüyüb də özlərindən xəbəri olmayanlar isə əksərən mənsub olduqları mühitin ehtiyaclarına qarşı laqeyddirlər. Bu laqeyd və bu səmərəsizlik, əlbəttə ki, böyük bir

[1] Əqim – sonsuz
[2] Əqamət – sonsuzluq
[3] Ordan qovulmuş, burdan da qalmış
[4] Məyub – eyibli
[5] Səqti – yaramaz

əqamətdir. Böylə əqim fərdlərə malik olan heyətlər hər nə qədər fəal olsalar da fayda verməzlər, mədəni əqamətə məhkumdurlar. Qatır da fəaldır, eşşək qədər davamlı, at qədər qüvvətlidir. Fəqət əqimdir və tənasüldən məhrumdur. Həyatını həmişə başqalarına mədyundur. Həyatın hambalı olmaq kafi deyildir. Onun müvəllidi olmaq gərək. Qatırdakı qüvvət və davam müvəqqətidir. Artırılıb və tərbiyə edilməsi qeyri-mümkündür. Halbuki atdakı qüvvət, eşşəkdəki davam qanuni-təkamül və təvarüsün bütün hökmlərinə tabe zihəyat birər qüvvət mənbələridir.

Kənardan bir millətin gəlib təsəllüt təriqilə digər millətə qalib gəlməsi, onun bilcümlə şəxsiyyətlərini məhv edərək özünə təmsil də eynilə qatır hasil etmək kimi bir şeydir. Təmsil təriqilə təməddün etmək hər nə qədər ibtidai – əmrdə nəzərə bəzi parlaq nəticələr göstərsə də, həqiqətdə heyəti-bəşəriyyədə ki, əsli qüvvələri korlamaqdan və onları doğmaq və artırmaq xassəsindən məhrum etməkdən başqa bir şey deyildir.

Bu gün İranı keçirməkdə olduğu bu ən fəlakətli günlərdən "xilas" etmək üçün əlindəki istiqlal kölgəsindən də məhrum edib, başqa mütərəqqi bir millətin idarə və təmsili altına versəniz, ehtimal ki, Ənzəli bir neçə ilin zərfində Bakıya meydan oxuyacaq qədər tərəqqi edər. Və bəndər bu şəhər də Bombeydən heç də geri qalmaz. Fəqət bu səri tərəqqinin müqabilində əmin olunuz ki, İran bir daha nə Firdovsi yetirər, nə Sədi, nə Hafiz.

Milli istiqlal, ələlxüsus, millətlərə xüsusiyyətlərinin mühafizəsini təmin edən istiqlal daima bəşəriyyətə saheyi-mədəniyyətdə yeni və əsli bir taqım ibdalar, ixtiralar nəvidindədir ki, mədəniyyəti bəşəriyyə dediyimiz şey də bu bədaət və ixtiraların məcmuindən ibarət bir yekundur.

Biz qafqasiyalılar bir nöqteyi-nəzərdən tərəqqiyatı-madiyyəmizcə iranlılardan da, osmanlılardan da irəlidəyiz. Misirlilər də kəza, Hindistan da böylə. Bununla belə dəftəri ixtiraati-aləmdə cüzicə də olsa da nə bir ismimiz var, nə də bir rəsmimiz. Halbuki İranın heç olmasa "Mahmudiyyə" namilə bir sitarə kəşf edən Mahmud xanı, Türkiyənin də ismi Avropa qamuslarında bir lisani-təqdirə səbt və zəbt olunan Münir Paşa kimi müxtərə bir doktoru vardır. Tofiq Fikrət, Əbdülhəq Hamid kimi böyük şairlərə malikiyyəti üçün də Türkiyə öz istiqlali-millisinə borcludur.

Heç şübhə yoxdur ki, dünyanın millətlərə bölünərək qərar tutması mədəniyyəti-bəşəriyyə nöqteyi-nəzərindən bir zaiddir. Millətlərdəki

mənliyin ədəmi-istiqlalı və onlardakı zatı xasiyyətlərin başqalarının xasiyyətləri içində münhəll olması bu zaidləri heç şübhə yox ki, mübəddəl bir naqis ediyor. Naqislərin ədədi çoxaldıqca, müadilənin qiyməti azalmaq elmi-cəbr qaydalarındandır.

Dustanə bir söhbətin xatiməsini təşkil edən bu bayağını yuxarıda zikr olunan rəfiqimə qarşı aşağıdakı vəchlə təlxis etmiş idim:

Əcələ bir surətdə maddətən tərəqqi edib mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib, mənəviyyatca müstəqil qalmağı təcrih edirəm. Çünki millətin də, bəşəriyyətin də faydası bundadır.

Binaənəleyh, başqalarını təmsil üçün deyil, öz mənliyini mühafizə üçün çalışan millətpərəstlik mədəniyyəti-bəşəriyyə naminə təqdir və təsdiq olunmalı zəruri və faydalı böyük bir fikirdir.

"Dirilik", 2 oktyabr 1914, №2

MİLLİ DİRİLİK

II

Birinci məqaləmizdə başqalarını təmsil üçün deyil, öz mənliyini mühafizə üçün çalışan millətpərəstliyin mədəniyyəti-bəşəriyyə naminə təqdir və təqdis olunmalı, zəruri və faydalı böyük bir fikir olduğunu söyləmiş və məqaləmizə xitam vermişdik.

Millətpərəstliyin və milli diriliyin nə olduğunu yaxşıca bilmək üçün əvvəlcə millətin nə olduğunu öyrənmək və onu öyrənmək üçün nə kimi vasitələrə rücu etmək lazım olduğunu anlamaq gərəkdir.

Bizdə "millət" kəlməsinin mənası çox yanlış bir surətdə tələqqi edilməkdədir. Nə qədər ali təhsil görmüş, mədəni həyat və mədəni məmləkətlər görmüş adamlarımıza təsadüf edərsiniz ki, "hansı millətdənsiniz" deyə verəcəyiniz suala: "müsəlmanam" – deyə cavab verir. Və bu cavabın heç də namüvafiq olduğunu düşünməz. Halbuki həmən adam özü bir nəfər rusa "ti iz kakoy natsii" – deyə verdiyi suala "xristianin" cavabını alsa, məzkur cavabı olduqca gülünc və cavab verən şəxsin cəhlinə dəlil tutar. Əslində bizdə "ümmət" kəlməsilə "millət" kəlmələrinin fərqi ayrılmamışdır. Bəlkə də qədimdə "ümmət" ilə "millət" arasında fərq olmayıb, qövmiyyət və cinsiyyət

cəməsini andıran "millət" kəlməsi həmkiş[1] və həm dinlik cəməsinə elm olan "ümmət" kəlməsilə qarışmış və "milləti-islam" təbiri məşhur olmuşdur. "Millət" nasyon (natsiya) mənasına alacaq olursaq, bu heç də həmdinliyi bildirməz. Bu, dindaşlıqdan əlavə bir çox "daşlıqları" da came olduğu kimi, bilxassə dil birliyini lazım gətirər. Mənaye-müasiri ilə "millət" kəlməsi iştə bu dil birliyindən hasil olan cəmiyyəti ifadə edir. Fəqət başlıca dil birliyindən ibarət olmaqla bərabər, "millət" məfhumu başqa xüsuslara da şamildir.

Avropa qamusları "millət", "nasyon" kəlməsini bu surətlə tərif edərlər:

"İnsanların əxlaq əsasları üzərində qurulmuş ittihadlarının böyük bir şəklinə "millət" deyilir. Millət daxilində olan müxtəlif heyətlərin bir-birlərilə bərabər yaşamasına müttəhid, bir dirilik keçirmələrini arzu etmələri şərt olduğu kimi, o cameəyə daxil olan bəzi heyətlərin digərinə təsəllüt etməməsi də əlzəmdir. Şəraiti-tarixiyyə "millət"in dövlət şəklindəki mövcudiyyətinə mane olsa da, mədəni və ədəbi şəkildəki zühuri hər halda mümkündür. Məsələn, əcnəbilər tərəfindən parçalanmış, qitə-qitə olunmuş İtaliya heç bir zaman milləti-vahidə olmaqdan qalmadığı kimi, indiki halda üç dövlət arasında bölünmüş olan lehləri[2] kəmali cəsarətlə bir millət saymaq olar. Öz-özlüyündən məlumdur ki, birliyi dərk eləmək və onu arzu eləmək tarixi bir zəmində və insanların tədricən qövmiyyətdən milliyyət və milliyyətdən də millət dərəcəsinə çıxmaları ilə hasil oluyor".

Burada işlənilən qövmiyyət, milliyyət və millət sözlərinin fərqini isə qamuslar böylə təyin edirlər:

"Qövmiyyət – narodnost" – yalnız nəsil və dil birliyi; "milliyyət – natsyonalnost" – dil və mədəniyyət-birliyi və "millət – natsiya"da – mədəniyyət və milli diriliyi dərk etməklə hasil olar. Yəni bir ata-babadan yetişmə və bir dildə danışan kiçik bir tayfa və ya qövmə – qövmiyyət sözü itlaq olunar: Şahsevən kimi Şahsevəndən bəhs edərkən bir qövmdən bəhs olunar. Artıq Şahsevən milliyyəti deyilməz. Bir çox bu kimi qövmiyyət və tayfalar cəm olub bir dil ilə bərabər müəyyən bir mədəniyyətə malik olan azərbaycanlılardan bir milliyyət kimi bəhs etmək olar. Şimali türk-tatar, Krım, Türküstan, Azərbaycan və Qərb türkləri osmanlıları cəm və milliyyətlərin bir neçə böyük şəklinə haiz olan cameyyətə isə "millət" kəlməsi verilir.

[1] Həmkiş – həmiman

[2] Lehlər – polyaklar

İştə bu surətlə slavyan, german millətlərinə müqabil vəz oluna biləcək kəlmə türk, fars və ərəb kəlmələri ola bilər. Müsəlman və yaxud islam kəlməsi deyil, bunlar ancaq isaviyyətlə xristianlıq kəlmələrinə müqabil qoyula bilərlər.

"Milliyyət" və "millət" sözlərinin qəlibi bu surətlə tərif olunduqdan sonra əsil milliyyət və yaxud milləti və onun məfhumunu vücuda gətirən ünsürlərdən bəhs edəlim.

Milli mədəniyyət və yaxud millət, dil birliyi, adət və əxlaq birliyi, ənənati-tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuundan mütəşəkkil bir məhsuldur.

Əgər millətin haiz olduğu əczalarını biri-birindən ayırıb aralarında bir nisbət təyin edəcək olurlarsa, yüzdə əqəllən səksən dil birliyi olduğunu rəna görürlər. Dil millətin böyük hissəsidir. Onun zahiri və batinidir. Millətləri biri-birindən ayıran ən böyük əlamət, iştə bu dil damğasıdır. Millət təşkilində ənənati-tarixiyyənin də böyük mədxəliyyəti vardır. Fəqət bəzən bu ənənə millətin ittihadına rəxnə yetirəcək bir şəkildə də ola bilər. Halbuki dil ilə dində bu cəhət olamaz. Fəqət din cəhəti yenə dil qədər mətin və möhkəm hesab oluna bilməz. Çünki dil daimidir, baqidir. Tərəqqi və təkamül edirsə də, əsaslı bir etila və təğyirə uğrayamaz. Halon ki, tarixdə bir çox dinlər dəyişmiş olan millətlər mövcuddur. Zatən heç bir millət yoxdur ki, dinin kərratla dəyişmiş olmasın. Məəmafih, əxlaq və adat üzərindəki fövqəladə təsiri nöqteyi-nəzərindən dinin də millətdə böyük iştirakı vardır. Dil ilə bərabər dində də bir olan millətlərin mərifəti-qövmiyyətləri daha tez hasil olub, aralarında milli vicdan daha əvvəl inkişaf ediyor.

Millətlərin həyatı da ancaq bu milli vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsirilədir ki, milli ideal hasil oluyor. Milli idealın (imanın) hüsulu ilədir ki, millətlər özlərinə şanlı, şərəfli bir dirilik təmin edə bilərlər.

Sairə yerlərin müsəlmanları kimi, biz Rusiya müsəlmanları milliyyətdən əvvəl din cəhətinə əhəmiyyət verdik. Bütün hərəkati-tərəqqipərvəranəmizdə din naminə dirilik göstərmək istədik. Türkcə qəzetə çıxardıq – adına müsəlman qəzetəsi dedik. Türkcə teatrolar, operalar düzəltdik – ünvanlarını müsəlman teatrosu və müsəlman operası dedik. Məktəb açdıq, rus-müsəlman məktəbi namini verdik.

Cəmiyyətlərimizin sifətləri yenə "müsəlman" kəlməsindən ibarət oldu. Halbuki elədiklərimizin hamısı türkcə olub və türk asari-mədəniyyəsini diriltmək üçün idi. Müsəlmanlığın ibtidai təsirindən gələrək biz özümüzü müsəlman adlandırdığımızdan əsil milliyyətimizin ünvanını təşkil edən türklüyə əhəmiyyət verməmiş, həman "müsəlman" adına qənaət eləmiş idik. Hələ də etməkdəyiz. Hələ bu qənaətlə də qalmamışıq, başqaları bizə "tatar" və "persiyan" demişlər, ona da etiraz etməmişik. Bu tamamilə ondan gəlmiş ki, biz özümüzü necə ki lazımdır tanımamışıq. Özümüzü əməllicə tanımış olsaydıq və milli diriliyin nə kimi əsaslar üzərinə qurulması lazım olacağını kəmayənbəği bilsəydik, əlbəttə ki, "müsəlman operası" deməyəcək, bunun "xristyanskaya opera" qədər gülünc bir şey olduğunu dərk edəcək idik. Öylə də türk səhnəsinin opera artisti olmaqla iftixar etdiyimiz halda, nami-müstəar[1] ittixaz edərkən "ski" ədatına ehtiyac göstərməyib Ağdamski, Sarabski əvəzinə Ağdamlı, Sarablı deyəcəydik. Öylə də "müsəlman səhnəsi" deyil, "türk səhnəsi" deyəcək və baş faciə oynayanımız Ərəblinski deyil, Ərəbli olacaqdı. Fəqət bu kimi xüsuslar milli ruhun əsaslı bir surətdə inkişaf etməsi ilə, milli vicdan və milli imanın hüsulə gəlməsi nəticəsində bittəb öz-özündən düzələcəyindən böylə bir vicdan və imanın nə surətlə hasil olacağından da bəhs olunmalıdır. Bu xüsusda da gələn nömrədə.

"Dirilik", 14 oktyabr 1914, № 3

MİLLİ DİRİLİK

III

Milli vicdan ilə imanın nə surətlə hasil olacağından bəhsi bu nömrəyə vəd eləmişdik.

Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanından hasil oluyor. Hər millət deyil, hətta bir şəxsin özünə görə bir əməli vardır. Buna başqa təbirlə meyil və arzu dəxi demək olar. Bunun firəngcəsi "ideal" gəliyor. Osmanlıcada son zamanlarda bunu "məfkurə" deyə tərcümə edənlər də vardır.

[1] Nami-müstəar – təxəllüs

Hər şəxsin arzu və əməli bittəb özünün iqtidar və məsləki ilə mütənasib olur. Məsələn, bir müəllimin məktəb müdirliyinə nail olmaq istəməsi onun üçün bir əməl təşkil edir. Bir mühərririn qəzetə sahibi olmağı arzu eləməsi onun idealıdır. Öylə də bir çobanın böyük bir sürü sahibi olmaq diləməsi onun məfkurəsidir. Demək ki, bir şəxs öz iqtidar və bacarığı dairəsində müntəha nəyə malik olmaq istərsə, o şey onun əməlidir. Əməlsiz kimsə yoxdur. Onsuz yaşamaq naqabildir.

Əməl fəaliyyətə, fəaliyyət də tərəqqiyə mövcib oluyor. Şəxslər əməlsiz yaşaya bilmədikləri kimi, millətlər də əməlsiz yaşaya bilməzlər. İştə millətin ümumən də mövcud olan hakim bir əməl və arzu yolunda bəslənən gizli hisslər milli vicdan ilə imanı tövlid ediyorlar.

Fəqət bu milli əməlləri kimlər zühura çıxarıyor və milli vicdan nə surətlə zahir oluyor? Bunu anlıyalım:

Yuxarıda kimsənin əməlsiz olmadığını iddia etdik, fəqət əməldən əmələ fərq vardır. Şəxsi əməllər hər nə qədər müşkül və istehsalı çətin də olsa, böyük ola bilməz. Yəni ona böyük və milli əməl deyilməz və o milli vicdanın tələb elədiyi də olmaz. Məsələn, bir hambal millioner olmaq əməlinə düşər və bu çətin məqsədə nail olsa belə, bu əmələ böyüklük nami verilməz. Fəqət bir fərd öz mühitinin faydasını düşünərək şəxsi üçün deyil, qövmi və yaxud milləti üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar, bu kimi adamlara da böyük əməlpərvərlər, yaxud məfkuraçi ismi verilər.

Məsələn, ruslarda Böyük Pyotr, Lomonosov; firənglərdə Jan Jak Russo, Napoleon; almanlarda Lyuter, Bismark; osmanlılarda Sultan Məhəmməd Fateh, Midhət Paşa; iranlılarda Nadir şah ilə Firdovsi; əfqanda Əmir Əbdürrəhman xan bu kimi böyük əməlpərvərlərdəndir.

Böyük milli əməl bəsləyənlər əvvəl nəzərdə görüldüyü kimi, o qədər də az deyildirlər. Onlar hər zamanda olmuşlar və vardırlar. Yalnız şöhrətləri, iqtidarları və gördükləri işlərin əndazəsinə görədir. Öz şəxsi məqsədi xaricində mühitinin ehtiyacı ilə məşğul, onun səadəti naminə əməl bəsləyən və o əməllərə öz şəxsi əməlləri kimi xidmət edənlər həmən böyük əməlpərvərlərdəndirlər. Bir millət arasında bu kimilər məhdud, ya məfqud olarsa, o millət müstəqil və sağlam bir vücud üzü görməz və başqalarının ziri-dəsti[1] olub, ayaqları altında əzilər, gedər. Çünki, şəxslərə mümkün olmadığı kimi,

[1] Ziri-dəst – əlaltı

millətlərə də əməlsiz yaşamaq qabil deyildir. Fəqət böyük əməlpərvərlər bu böyük əməli haradan alıyorlar?

– Əsil arasında yaşadıqları mühitin özündən.

Bir mühit, daha vazeh bir təbirlə, bir millət əfradının ürəklərində milliyətləri və mühitləri haqqında bəzi arzular vardır. Fəqət bu arzulara bir şəkil və surət verməkdən özləri acizdirlər. Müştərək bir əməl bəsliyorlar, fəqət bu bəslədiklərinin nədən ibarət olduğunu təyin edə bilmiyorlar. Aralarından bir iqtidarlısı çıxıb da bu hər kəsin mübhəm bir surətdə hiss etdiklərini müəyyən bir şəkil və surətə qoyunca, baxırsan ki, bir çoxları özlərinin də mübhəm bir surətdə hiss etdikləri şeyin məzkur əməlpərvər tərəfindən təyin olunanın eyni olduğunu görüyorlar. Demək ki, əməlpərvər birisinin qələmə və yaxud dilə gətirmək surətilə təsvir etdiyi bu lövheyi-istiqbal bir ayineyi-xəyaldır. Hər kəs özünün istədiyini o aynada inikas etmiş buluyor və dərhal özünün dəxi o fikirdə olduğunu izhar ediyor.

Ayrı-ayrı əməlpərvərlər tərəfindən təsvir və təyin olunan, başqa təbirlə, ehzar olunan milli əməllər layihəsi xalqın əsil düşünüb də hiss və arzu etdiyilə təvafüq edirsə, məzkur əməl səri[1] bir surətdə xalq arasında intişar edər və bollu tərəfdarlar qazanar. Yoxsa məhdud bir dairədə intişar tapıb, nəhayət, nisyan[2] bucağına atılıb qalar.

Məsələn, Fransa inqilabi-kəbirindən əvvəl mövcud olan üsulihəyatdan Avropa xalqı bizar olmuş və əqillərin o vaxta qədər hakimi olan nəzəriyyə və fəlsəfələr köşəmiş hər kəs halın böyləliklə davam edə bilməyəcəyini düşünmüş idi. Cəmaət digər bir tərzi-həyat arıyordu. Və hər kəs özü-özlüyündə də əhvalın nə yolla dəyişməsi lazım gələcəyini mübhəm bir surətdə hiss etməkdə idi ki, Russo o müdhiş[3] qələmi-nəqqadı[4] ilə zühur etdi. Mövcud olan tərzi-həyatı başdan ayağa tənqid edərək, tazə bir həyat əməlinin əndazəsini göstərdi. Bütün Avropa həmən Russonun yazdıqlarını alqışladı, hər yerdə filosof özünə atəşli tərəfdarlar tapdı. "Pussoluq" xalqı elə bir həyəcan və ğəlyanə gətirdi ki, xalq onun vəz eyləmiş olduğu əsasların müdafiəsi üçün canını fədaya hazır olub, əməl uğrunda biintiha qalanlar belə töküldü.

[1] Səri – tez
[2] Nisyan – unutma
[3] Müdhiş – heyrətamiz
[4] Qələmi-nəqqadi – tənqidçi

Papalıq hədd və əndazədən çıxmış bipayan cinayətkarlıqları və sui-istemallarından bizar olan xristianlıq aləmi Lyuterin zühuru ilə təsis edən protestantlığı dəxi öylə bir hərarət və səmimiyyətlə qarşıladı. Çünki Lyuter mühitinin mübhəm bir surətdə düşündüklərini tədvin eləmiş və müəyyən bir şəklə qoya bilmişdi.

Bolqar milləti bir zaman məhv və nabud olub getmişdi. Hər kəs bir daha bolqar deyə millət vücuda gələcəyindən naümid idi. Hətta zəmanəsinin ən mütəfəkkir bir simasını təşkil edən Volter belə bolqarlar haqqında "münqəriz bir millət" demişdi. Fəqət sonra bolqar böyük əməlpərvərləri Vazovlar və Bayajılar zühur etdilər. Bolqarların təbir edə bilmədikləri əməllərini qələmə gətirib onları şeirləndirdilər. Böyük Bolqar tarixi yazılıb burada bolqarların ən nazik hissiyyatlarına təsir edən və onlarda ruhi-milli oyadan vəqələr canlandırıldı. Binaənəleyh "yox"dan bir "var" əmələ gəldi. "Münqəriz" millət dirildi, özünü Avropaya tanıtdı. Yunanıstan da böylə oldu. Əgər vaxtilə təsis edən "Etr" cəmiyyəti millətini başına cəm edib də türkləri vətəndən qovmağa müvəffəq oldu isə, məhz o öz millətinin vicdan və imanını doğru bir surətdə təhlil edərək, xalqın mübhəm bir surətdə, duyduğu milli əməlləri həqiqətilə dərk və təbir edə bilmək sayəsində oldu.

İştə bu xariqələr icad edə bilən böyük əməllərin müvəllidi olan milli vicdanı dərk və milli imanın iqtiza elədiyi böyük əməlləri kəşf və təfsir edə bilmək üçün hər şeydən əvvəl məzkur mühiti və yaxud milləti öyrənmək, onun mazisini bütün təfsilatı ilə tədqiq etmək lazım gəldiyi kimi, bir millətin mənəvi mövcudiyyətindən ibarət olan dilini də tədqiq eləmək, millətin yüzdə doxsan rüknünü təşkil edən bu mövhibeyi-üzmanın bütün dəqayiqini[1] aramaq və sonra da o istiqbal üçün bir çox giranbaha maddələr saxlamış olan mazini[2], o xariqələr yarada bilən ana dili ilə millətə anlatmalıdır.

Böylə milli bir dərs nəticəsində də heç şübhə yoxdur ki, milli vicdan təsis edər, o dəxi böyük və milli bir əməl tövlid edər.

"Dirilik", 1 noyabr 1914, №4

[1] Dəqayiq – incəliklər
[2] Mazi – keçmiş

MİLLİ DİRİLİK

IV

Keçən məqaləmizdə böyük milli əməlin nə kimi bir qüvvətə malik olduğu ilə, onun mahiyyətindən və nə surətlə hasil ola biləcəyindən bəhs etmişdik, bu kərə yenə o mövzu üstündə duracağız.

Milli bir idealın (böyük əməlin) təsisinə nədən lazım görülüyor? Bunu yaxşıca dərk edə bilmək üçün bir az keçilmiş və keçirməkdə olduğumuz milli həyatımız ilə onun təzahürlərinə təhlil və intiqad baxışı ilə baxmalıyız. Nə görüyoruz?

Bizdə bir çox cəmiyyətlər təsis olunuyor. Bir çox kitablar nəşr olunuyor. Böyük-böyük yapılar, binalar tikiliyor. Fəqət bunları nə kimi bir məqsədlə yapıyoruz? – deyə varid olan suala cavabımız çox da səri və müəyyən bir şəkildə deyildir. Yəqinəm ki, "millət üçün yapıyoruz" – cavabını verməkdən aciz deyiliz. Fəqət bu qədərlik bəsit bir cavab kafimidir? Həmən xeyrat və maarif ilə iştiğal edənlərə millətinizin əməli və millətinizin təqib elədiyi məqsəd nədir? – deyə sorulsa, labüddən cavabında məəttəl qalarlar. İştə işlərimizdə ümumi böylə bir rabiteyi-həqiqi olmadığından gördüyümüz işlərimizdə arzu olunan ruh və bütün müəssisati-xeyriyyəmizi biri-birinə bağlayan həblülmətinin yoxluğu hər zaman sızılıyor. Qocaman böyük bir cəmiyyəti-xeyriyyə binası yapdırarız. Amma milli bir müəssisə olmaq üzrə yapılan bu binanın hansı tərzi-memaridə yapılacağına heç də əhəmiyyət verməriz. Qabağımıza gələn ilk mühəndisi tutub da "al, bizə bir bina yap" – deyiriz. O da götürür bir az "qotik"dən, bir az "renesans"dan, bilməm nədən, cüziyyətcə də "mavr" (ərəb) tərzi-memarisindən qarışıq bir kompazisiyon yapar. Daşı daş üstə qalar, müdhiş bir bina, ali bir imarət vücuda gətirir. Bu əzəmət, bu böyüklük, əlbəttə ki, bizi fərəhləndirir, qəlblərimizə bir şadlıq gətirir, fəqət bir çox xərclərlə hasil olan təzyinat[1] bizə türklüyün, müsəlmanlığın keçmişdəki əzəmət və ehtişamını andıra bilsəydi, bizim də özümüzə məxsus memarlıqda bir üsula, həm də gözəl, ali təqlidaşıyan bir üsula malik olduğumuzu bütün tamaşakaranə bildirsəydi; əlbəttə ki, binanın maddi əzəmətilə mütənasib mənəvi bir böyüklüyü də olardı və həqiqətən də bu böyük əməlin möhtəşəm bir abidəsi kəsilərdi.

[1] Təzyinat – bəzək şeyləri

Müəyyən milli əməllər bəsləyən millətlərin tacirləri belə kantorlarında apardıqları mühasibat dəftərlərini öz ana dillərində yazırkən bir kərə bizim xeyriyyə və maarif işlərilə məşğul olan cəmiyyətlərimiz mühasibatına da diqqət olunsun. Bütün rusca, hələ mühasibat dəftərləri (bəlkə də böyləliyi təftiş üçün lazımdır, – deyə müdafiə olunur) oyanda, məktubat da ruscadır. Nitqlər dəxi çox kərə rusca irad olunur.

Sənələrdən bəri qiraətxanamız vardır. Fəqət nədir o qiraətxana? Tapılarmı orada istədiyimiz mətbuat? Varmı orada nəşr olunan milli qəzetlərin məcmuləri?

Hərdənbir bu ədibə, o cəmaət işi görənə yubiley yapıyoruz. Fəqət bu gün Mirzə Fətəli Axundovu tədqiq etmək istəyən bir münəqqid mövcud olan kitabxanalarımıza gedib, ona dair bir qədər olsun, məlumat yığa bilərmi? Və yainki Azərbaycan türk tarixi ədəbiyyatı ilə iştiğal etmək istəyən başqa milli bir müəssisə, xüsusi bir məhəll tapa bilərmi ki, oradan istədiyi vəsaiti əldə etsin?

Yox!

Halbuki qiraətxanamız da, kitabxanamızda çoxdan bəridir ki, var.

Rusiya məmləkətinin bir cüzini təşkil ediyoruz. Rusiyada yaşıyoruz, onun vətəndaşlarıyız. Bittəb, madam ki, burada diriliyoruz, diriliyimizin bir çox ehtiyacları vardır. Bu ehtiyacların bu vaxta qədər nədən ibarət olduğunu müdəvvər[1] və müəyyən bir şəklə gətirə bildikmi?

1905 və 1906 sənələrində Rusiyaya tarixi bir zaman gəldi. O zaman hər təbəqə və hər millət özünün çoxdan bəri düşünüb də bir məfkurə (ideal) kimi bəslədiyi şeyləri haman meydana qoydu.

Onu və bunu istiyoruz – dedilər. Yalnız biz bir əmri-vaqe qarşısında bulunduq. Nə istəyəcəyimizi, etiraf edəlim, bilmədik. Bunu bilən tək-tək fərdlərimiz var idisə, onların da bildiklərini bizə bildirməyə vaxt yox idi, Rusiyanın keçirmiş olduğu o məşhur sənələrdə biz bir təlatümə düçar olan gəmiyə bənzəyirdik ki, haraya gedəcəyini və sahili-nicati nə tərəfdə gördüyünü bilmiyordu. Hər halda bir tərəfə olsa da sükan saxlamaq lazım gəliyordu. Biz də bizimlə bərabər təhlükəyə tutulmuş olan digər millətlərin gəmiçilərinə baxdıq, yolumuzu onların getdiyi səmtə düzəltdik. Bittəb, əlimiz sükanda titrəyir və ürəklərimiz məchul bir aqibət qabağında çarpınıyor idi.

[1] Müdəvvər – ümumi forma

Əvət, tufana tutulan bir gəmi üçün hədəfsizlik nə qədər mühlik[1] isə, tarixi saatlarda bulunan bir millət üçün də əməlsizlik o qədər mühlikdir.

O zamandan bu vaxta qədər az ömür keçməmişdir. Müharibələr mütənasibətilə həddi-rüşdə[2] yetişdiyini isbat edən Rusiya təkrar bir əmri-vaqe qarşısında bulunursa, titrəməz bir ələ malikmiyiz ki, milliyyət gəmimizin sükanını bərk-bərk tutub da məqsəd tərəfə yol aparsın?

Burası cayi-sual.

Məncə, gəmiçilikdə məmul olan asimanşünaslığa aşina olmayıb da gedəcəyiz. Yolun yıldızını tanımadığımızca əli titrəməz sükançını da bulamayacağız. Məqsədimizi nişan verən o parlaq yıldızı daha kəşf də bilmədik. Kəşfini axtaranlar bəlkə də vardır.

Fəqət, daha budur kəşf olundu – deyə meydana çıxanlar görülmədi, yaxud görülmüşsə də gördüklərini ümumiyyətləşdirə bilməmişlərdir.

Bu yıldızı nə cürə kəşf etmək olar? İştə hamımızın üstündə düşünməsi lazım olan bir məsələ!

Bu vaxta qədər elədiyimiz xətadan, artıq ayrılma zamanı gəlmişdir. Nədir o xəta?

Biz bu vaxta qədər bütün ümumi və milli işlərdə ancaq zahirə baxmış və qalibi təqlid etməyə çalışmışıq. Bunda bir dərəcəyə qədər müvəffəq də olmuşuq. Yabançı birisi, məsələn, Bakıya gəlsə və türkcə bilməyib də yalnız zahirimizlə haqqımızda bir fikir edinmək istəsə, onu alıb bir kərə Nikolayevski küçə ilə keçirsəniz: Buradakı milli olmaq üzrə yapılan ali imarətləri göstərərsiniz, sonra kitab mağazalarına aparıb, caməkanları[3] dolduran bir çox əsərləri ona nişan verirsiniz. Şübhəsiz ki, bu qərib səyyah Bakı türklərinin olduqca mütəməddin və əməlpərvər bir millət olduğuna hökm edər, gedər.

Fəqət həqiqətən də böyləmidir? Yuxarıdan bəri söylədiklərimiz iştə böylə olmadığını isbat ediyor. Xətamızı da burada aramalıyız.

Məncə, bunu başqa yanda aramağa lüzum da yox. Digərlərincə bilmiyorum, məncə, bu olduqca vazeh və aşkardır.

Bizdə işlərimizin ruh və mənəviyyatına aid olmaq üzrə böyük bir boşluq var: Əməl (ideal) boşluğu, bu boşluq hər tərəfdən hiss

[1] Mühlik – təhlükəli

[2] Həddi-rüşd – yetkinlik həddi

[3] Caməkan – burada: rəf mənasındadır.

olunuyor. Bunun mürəvvici olmaq məcburiyyətində olan mətbuat demək olar ki, hamıdan ziyadə idealsızdır.

Böylə olunca, nəzərə gəliyor ki, ibtidai-əmrdə mətbuatdan başlamalı, mətbuata bir ideal, bir məslək verməli. Fəqət bunu nə cür etməli?

Bu xüsusda az-çox doğru bir fikir edilə bilmək üçün mətbuat və ədəbiyyatın mahiyyətcə necə bir şey olduğunu bilmək lazım gəlməzmi?

Mətbuat və ədəbiyyatı mühitin, başqa bir təbirlə, millətin həyat və heysiyyətini inikas etdirən bir ayinə təsəvvür edərsək, şübhəsiz, böylədir, ondan nöqsanlarını islah üçün əsasi bir vasitəyə müraciət olunmalıdır.

Məlumdur ki, mağazaların caməkanlarını dolduran yazılar əksəriyyətlə cavanlarımızın qələmindən çıxıyor. Cavanlar içlərində bəzi xudpəsəndləri olmaqla bərabər – çox kərə də səmimiyyət və hüsniyyətlə qələmə sarılıyorlar. Arzu olunan nəticəni verə bilmiyorlarsa, qüsur özlərində deyil, mühitimizin əməl nöqteyi-nəzərindən boşluğundadır. Böyük əməllərə malik olmayan yazıçıdan, əmin olunuz ki, fövqəladə və müasir bir əsər gözləmək xətadır. Binaənəleyh böyük əməllər nəşrinə xidmət edəlim ki, bütün nöqsanlarımızı ancaq bu islah edə biləcək. Ancaq budur ki, işlərimizə bir ruh verəcək, diriliyimizə milli bir dirilik bəxş edəcəkdir.

Digər bir nəzərə görə də həqiqi ədəbiyyat ancaq o ədəbiyyatdır ki, mühitin ehtiyacına cavab versin və millətin həyatını və həyatı yaralarını, necə ki lazımdır, təsvir eləsin.

Şübhəsiz ki, bu nöqteyi-nəzər səhihdir, binaənəleyh istədiyimiz bir ədəbiyyatı vücuda gətirmək, hüsulunu arzu etdiyimiz fikir və məslək cərəyanını doğura bilmək üçün hər şeydən əvvəl milli ehtiyaclarımızı öyrənib də öyrətməliyiz.

Ehtiyaclarımız lüzumu dərəcəsində anlaşıldımı, sonra çarəsini düşünmək və bu düşüncə əsasında da diriliyimizin müncisi ola biləcək böyük əməli tapmaq müşkül bir iş deyildir.

"Dirilik", 16 noyabr 1914, №5

MİLLİ DİRİLİK

V

Milliyyətin ümdə rüknünü təşkil edən şey dildir. Dil adətən hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Dil milliyyətin hamısını təşkil etməsə də, yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milliyyəti məhv edib aradan götürmək qəsdində olan siyasilərdə əsil bunun üçündür ki, təmsil (assimilyasyon) əməliyyatı icra edərkən ən birinci fikirlərini dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. Qədim zamanlardakı insanlar daha mübtədi bir halda idilər. Din daha qüvvətli bir ictimai amil edd olunurdu. Hakim millətləri özləri kimi etmək üçün dini tədbirlərə təvəssül ediyorlar və əlləri altındakı millətlərin etiqadına ilişiyorlardı. Halbuki dildə daha mühüm bir qüvvəti-ictimai olduğunu dərk edən avropalılar bunun əksinə hərəkət etdilər. Dincə heç bir təzyiqdə bulunmayıb və yəqin ki, bu xüsusda şədid tədbirlər ittixaz eləməyib, bütün hümmətlərini ziri-hakimiyyətlərinə aldıqları millətləri milliyyətcə məhv etməyə qoyuldular. Bunun üçün də məzkur millətlərin dillərindən başlandı. Milli məktəblər təzyiq edildi, ana dili təhdid olundu.

İştə yalnız burası nəzəri-etinaya alınmış olsa, millətlər dəxi təcdid etmək istədikdə və milliyyətcə mənlik hasil eləmək fikrinə düşdükdə, təbiidir ki, hər şeydən əvvəl dillərindən başlamalıdırlar. Çünki dil bir nöqteyi-nəzərdən haman millət deməkdir. Buna hər kəsdən ziyadə biz türklər əhəmiyyət verməliyiz. Türklər xasiyyətcə olduqca mütədəyyin bir millətdirlər. Bu tədəyünləri sayəsində islamiyyəti qəbul etdikdən sonra o qədər etiqadati-diniyyəyə mərbut olmuşlardır ki, adətən türklüklərini belə itirmişlərdir. Zatən islam özünə mömin olan müxtəlif millətlərdən bir millət vücuda gətirəcək qədər qüvveyi-təmsiliyyə olduğuna etiqad edənlər vardır. Hətta böyük bir türk hökuməti təsis edən osmanlılar belə bu axır zamanlara qədər özlərinin bir türk hökuməti olduğuna qənaət etmək istəməyib, kəndilərinə "islam hökuməti" demişlər. Türklərdəki bu məhviyyət və təmsilə ədəmi-müqavimət xüsusiyyəti türkləri haman türklər bulunan ölkələrin hər tərəfində anlaşılır. Ümumi bir türkcəyi, farsi və ərəbi nüfuzdan mübərra saf bir türkcəyə malik olmaqdan məhrum qılmışdır.

Milliyyət və mədəniyyətimizin xüsusiyyət və təmamiyyətini təmin edəcək olan birinci əsas təəccüb deyilmidir ki, istiqlal və təmamiyyətə yabançı olan təsirata hər şeydə ziyadə giriftar olmuşdur? Bu gün bilatərəddüd demək olar ki, heç bir tərəfdən müstəqil və əcnəbi dillərin nüfuzundan azad xalis bir türkcə yoxdur. İstanbuldan tutub Kaşğarə kimi hamımız, təbir caiz isə, pozuq bir dil ilə danışmaqda və daha qarışıq bir dil ilə yazmaqdayız.

Bu qarışıqlıqdan qurtarıb da həqiqi bir dil istiqlalına nail ola bilmək üçün nəzəriyyələrin nə qədər müxtəlif olduğu məlumdur. Dilin əhəmiyyəti – ictimaiyyəsi haqqında bəslənən nəzəriyyələrin ixtilafı qədər, islah yolunun layihələri də o qədər müxtəlifdir. Kimsə hər şeydən əl çəkib də bütün yabançı kəlmələri fərd ilə qədim türkcəyə, uyğurcaya müraciət etmək qədər irəliyə gediyor. Kimsə ərəbcə və farsca lüğətləri türkcə istiqlalının ən qəddar düşməni edd ediyor. Onların türki və məhəlli şivədə mövcud lüğətlərlə əvəz olunmasını tələb ediyor. Bəziləri də türkcədəki, farsi və ərəbi lüğətləri ancaq istilah üçün qəbul edib sairlərini tullamaq tərəfdarıdırlar. Zərəri yalnız əcnəbi tərkib və üslubdan görənlər də az deyildir. Türkcəmiz haqqında pərvərdə olunan bu qədər müxtəlif nəzəriyyələr ilə onların müvafiq olub-olmadığından bu məqalədə bittəfsil mübahisə etməyəcəyiz. Bu xüsusda bəlkə də başqa bir vaxt möhtərəm qarelərlə mübadileyi-əfkar edəriz. Bu qədərlik zikrimiz isə yalnız məsələyə münasibəti olduğu üçündür. Bu xüsuslarda vaqe olan münaqişə və müzakirələrin bütün türk aləmində hər daim vaqe olduğu hər kəsə məlumdur. Bu yolda ki, fikir mübadilələri göstəriyor ki, türk aləminin hər tərəfdən az-çox türklüyün rüknünü təşkil edən bu dil məsələsinin həlli əlzəm görülüyor. Bu özü də bizdə milli dirilik ilə dirilmək istədiyimizə böyük bir dəlildir. Fəqət bu xüsusda qəti qərara gələ bilmək üçün hələ bir çox elmi tədqiqatlar lazımdır. Ancaq bu tədqiqlərin nəticəsindən hasil ola biləcək elmi müqəddəmatdan sonradır ki, məsələnin həlli qəbul olacaqdır. Bu müqəddəmatlar hazır olmadığı müddətcə həman məsələnin həllinə qalxışmaq bir az əcələ olur. Ehtimal ki, arzu olunan nəticələri hasil etməz. Məəmafih bunlar hazır oluncaya qədər ədəbiyyatımız ilə dilimiz tamam durğun bir halda qalsın təklifini də etməyiriz. Yalnız bunu söyləmək istəyiriz ki, müqəddəmati-məsələ hazır olmayanadək məsələyə qəti bir qərar vermək mümkün olmayacaqdır.

Müqəddəmat isə aşağıdakı tədbirlərdən ibarət ola bilər:

Bu günə qədər bizdə bütün türk şivələrinin lüğətlərinin cəmi, həqiqi bir lüğət kitabı yoxdur. Hətta əsil türkcə olmaq mənası ilə osmanlıda belə bir lüğət kitabı yazılmamışdır. Yazılan lüğət kitabları ancaq lisani-osmanı deyilən indiki üç-dörd dildən qarışıq osmanlı türkcəsinin lüğəti olmuşdur. Avropa, rus müstəşriqləri tərəfindən bəzi kamil və naqis lüğətlər yazılmışsa da, bunlarda hələ dediyimiz məsələdə hakim olacaq bir dərəceyi-əhəmiyyətə malik deyildilər.

Biz çox kərə dilsizlikdən şikayət ediyoruz, bizdə bir çox kəlmələr yoxdur – deyə, həmən ərəbcə, farsca, yaxud da rusca və ya fransızcaya müraciət ediyoruz. Halbuki qədim uyğurcanın tədqiqi, çığatay ləhcəsinin təhlili, Kazan və Orenburq tatarlarının şivəsi deyil, evimizdə arvadlarımız arasında, kəndlərdə xalq miyanındakı dilə müraciət etsək, bu kəlmələrin müqabillərindən bir çoxunu bularız. Keçənlərdə "panika" sözünün gözəlcə bir tərcüməsini mən evimizdə oturub, ailəmizlə söhbət elədiyim əsasda kəşf etdim. Məgərsə, "panika" – "çaxnaq" imiş. Bu qədər qəşəng, az-çox mənus[1] bir kəlmə durduğu halda, biz bu kəlməni bu vaxta qədər həmən həyəcan, vəlvələ, təşviş, xəlcan, bilməm nə kimi kəlmələrlə tərcümə edərək gəlmişik ki, mənanı da ifadə edə bilməmişlərdir.

İştə cavanlarımız üçün mövcud maraq eyni zamanda da olduqca faydalı bir məşğələ, hər kəs bulunduğu yerdəki lüğətləri, zürub-əmsalı[2] və sair xalq ədəbiyyatına aid olan parçaları eynilən toplayacaq olarsa, görərsiniz ki, həmən arzu olunan türk lüğəti vücuda gəldi.

Hər şivənin lüğəti yazıldıqdan sonra bittəb orta və ümumi bir türkcə lüğəti yazmaq da asan olacaq və böylə böyük bir lüğət vücuda gəldikdən sonra "təsfiyeyi-lisan"[3] – deyə məşhur olan dil təmizləmək məsələsi də imkan daxilinə girə biləcəkdir.

Darülfünunlarda oxumaqda olub da, millətlərinə az-çox bir xidmət etmək istəyən cavanlarımız iştə buyursunlar tətil zamanı məmləkətlərinə gəldikdə xalq arasına girsinlər, xalqın ehtiyaclarını öyrənib ona çarələr axtardıqları kimi milli dilimizin ehtiyaclarına da onlardan dərman arasınlar.

Bilməlidir ki, bu dil süni bir yolla xəlq oluna bilməz. Dil təbii bir məxluqdur. Onun xəllaqı isə ədəba və mühərrirlər olmayıb, xalq özüdür. Bir şair ilə bir ədibin ərəb və ya fars qamuslarını vərəq-

[1] Mənus – doğma, yaxın
[2] Zürub-əmsal – zərbül məsəllər
[3] Təsfiyeyi-lisan – dilin təmizlənməsi

ləyib də xoşuna gəldiyi bir sözü həmən mətbuata atmaqla dil islah deyil, xarab olar, pozular, indiki türkcənin halına düşər. Halbuki xalq arasından götürülən lüğətlər yonulub da ədəbi bir şəkil alsa, o zaman ədəbiyyat milliləşər və ancaq o zamandır ki, ədəbiyyatdan gözlənilən faydanı türk millətləri də ala bilərlər.

Milli dilin dirildiyi üçün lüğətləri yığmaqdan başqa xalq ədəbiyyatını toplamaq, camaat arasında olan hekayələri, əfsanələri cəm edib, elmi bir surətdə təhlil və təsnif etmək də lazımdır. Bunlar ədəbiyyatı xalqa yaxınlaşdırmaq üçün lazımlı şeylərdir. Çünki müəyyən bir ədibin öz biliyini daxil edib də şəxsi hisslərlə deyil, xalq kütləsi tərəfindən ümumi bir vicdan və hiss nəticəsi olan bu əsərlərdə xalq və millətin rühi-əslisi həmən təzahür etməkdə və o millətin nə kimi bir ruh və hissə malik olduğu və nə kimi xüsuslarının möhtaci-islah və tərbiyə olduğu rəna bir surətdə görünməkdədir.

Köhnə ədiblərlə ədəbiyyatın tarixini yazmaq, bir türk tarix ədəbiyyatı vücuda gətirmək dəxi bu nöqteyi-nəzərdən olduqca müfid və lazımdır.

Bu xüsusları nəzərə alaraq çox yaxşı olardı ki, şəhərimizdə mövcud olan maarif cəmiyyətlərindən bu xüsuslara əhəmiyyət verib də bu cəhətləri təşviq edən olaydı.

Təşviqin nə kimi vasitələrə malik olduğu məlumdur. Bunlardan ən müəssiri isə, bizcə maddi bir fayda təmin edən müsabiqələr ola bilər. Fəqət bu kimi milli işlərdə ən böyük saiq[1] xalqı sevmək və milliyyətinə dəli bir aşiq qədər mərbut olmaqdır.

Ey millətin istiqbalını təmin edəcək türk gəncliyi, hardasan?!

"Dirilik", 1 dekabr 1914, № 6

MİLLƏTİN BİR RÜKNÜ DƏ DİNDİR

VI

Din hər nə qələr dildən sonra gələn bir amil isə də, bəzi şərait daxilində ondan daha müəssir bir qüvvət şəklini də ala bilir, ümumi bir dil nə qədər dil əhlində ümumi bəzi xislətlər və ideallar tövlid ediyorsa, ümumi bir dinə malik olmaq dəxi o dərəcədə böyük bir

[1] Saiq – sövq edən

təsir icra edə bilər. Müxtəlif din və məzhəblərə malik olan bir dil sahiblərinin "milliyyət" olaraq vahid mədəni bir kütlə vücuda gətirmələri müşkül olduğu halda, bir din və bir dilə malik olanlarca bu müşkülat mütəsəvvir deyildir.

Dil bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də din bir millətin dilinin baqi qalmasına və bu münasibətlə milliyyət fikri və amalının inkişafına səbəb oluyor.

Ermənilərin kiçik bir millət olduqları halda bu günə qədər mənliklərini mühafizə edib də bir millət olaraq qalmaları həmən dinləri sayəsindədir. Erməni dili bir məzhəbə məxsus dil olduğu üçün millət tərəfindən hifz edilib saxlanmış və ermənilər kilsəni dinin bir amili olmaq səbəbilə göz bəbəyi kimi bəsləmiş və katalikoslar daimən onun hamisi, mücəddidi və müəllimi olaraq gəlmişlərdir. Yaxınlarda Tiflisə gəlmiş olan indiki erməni katalikosu qəzetçilərlə elədiyi bir müsahibə əsnasında "nə qədər ki mən sağam, qoymaram ki, erməni kilsəsi ilə erməni dilinə bir kimsə toxunsun" – deyə dil ilə dinin nə qədər yekdigərinə müəyyəd və yar olduğunu göstərmişdir.

Millətin bir avamlıq dövri vardır ki, o zaman hər şeyə ancaq dini bir qüdsiyyət nöqteyi-nəzərindən əhəmiyyət verir. Bu qüdsiyyəti-diniyyə etiqadı onu bir çox bəlalardan mühafizə etmək xassəsinə malikdir. Rusiya türk və tatarlarını yaxşıcasına tədqiq etmiş olan mütəvəffi[1] macar müstəşriqi[2] Vamberi: "Rusiya tatarları bu gün milliyyətlərini mühafizə edə bilmişlərsə, həmən dindəki təəssüblərinə mədyundurlar[3]" – demişdir. Bu, həqiqətən də böylədir. Din təəssübü olmasaydı, ehtimal ki, pobedonovsevçilərin təmsil politikası indiki natamam nəticələrlə deyil, daha parlaq müvəffəqiyyətlərə nail olacaqlardı.

Qurani-Kərimin müxtəlif islam qövmlərinin dillərinə tərcümə edilməməsi xüsusi ilə ayini-diniyyənin ərəbcə təkəllüm olunması islamiyyəti bir azca milli istiqlala, bilxassə milli dil istiqlalına yardım etmək xassəsindən məhrum eləmişdir. Tədəyyününü ibtidai bir hal ilə yaşamaqda olan bir türk ilə fars bittəb öz dilindən ziyadə ərəbcəyə əhəmiyyət vermişdir. Ərəbcəni müqəddəs sanmış, ona ehtiram eləmiş, binaənəleyh öz dilini, yazısını unutmuş, tam

[1] Mütəvəffi – mərhum
[2] Müstəşriq – şərqşünas
[3] Mədyun – borclu

ərəbləşmişdir. Ərəb təmsili bu cəhətdən bir çox istifadə eləmiş, islami qəbul edən millətlər həmən ərəbləşməyə üz tutmuşlardı. Fars və türk üləma və mütəfənninlərinin ən namidarları həmən dünyalarca məşhur olan əsərlərini ərəbcə yazmışlardır. Vaxtilə İran və fars dili yox idi. Bütün məmləkət bir ərəb ölkəsi olub, ərəb dili ilə ədəbiyyati-ərəbiyyə hər tərəfdə hakim idi. Türkistan (Turan) da öylə, vaxtilə ərəb nasiyonalizmi ilə, imperializminə tərəfdar olan Bəni Üməyyə sülaləsi ərəb təmsilinin bu xüsusundan çox istifadə etmiş və adətən bütün möminlərə müsavat və bərabərlik təmin edən islamda minali məhkumə hökmünü haiz bir çox xilafkirlərin vücuda gəlməsinə də səbəb olmuşlardır. İslam olmaqla bərabər milliyyət və mənliklərini xətərdə hiss edən millətlər birləşib ərəblərdən olan abbasilərlə ittifaq etdilər və Bəni Üməyyə dövlətinin inqirazına səbəb oldular ki, bu xüsusun təfsili, tamamilə mütaliəsi, mövzumuzun xaricindədir.

Quranın qeyri dillərə tərcümə olunmaması ilə adab və ayini-diniyyənin münhəsirən ərəbcə ilə tilavət olunması ərəb olmayan millətlər arasında əxlaq nöqteyi-nəzərindən bir çox sui-nəticələr[1] verdi. Xalq dua və sənalarda bulunarkən lazımdır ki, dua əsnasında söylədikləri ilahi sözlərdən bir şeyi anlayıb da qəlbi ilə hərəkəti birləşsin və özündə böyük bir səmimiyyət görə bilsin. Halbuki böylə ola bilmədi. Təbiətilə işin arasında bir məchuliyyət və o münasibətlə bir təvəhhüm, sonra da xurafat daxil oldu.

İştə ayini-islamiyyə ilə Qurani-şərifin ərəbcəyə məxsus olaraq qalmasından ərəbcə təmsili bir qədər istifadə etdisə də, islamiyyətin mənəviyyəti-əxlaqiyyəsi qaib etmiş oldu. Bu nöqteyi-nəzərdən islama tabe olan qeyri ərəb millətlərin mədəniyyətcə itirdikləri isə saymaqla qurtaran şeylərdən deyildir.

Din və onun ehkamı mütədəyyinlərincə anlaşılmaz bir hala gəlirsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar, öylə də islam, bir məişət və həyat-dini olaraq təsis elədiyi halda mütədəyyinləri ilə öz arasına bir məchuliyyət girdi. Bunun nəticəsində islam həyatından və həyati-islamla yaşamaq gümanında olanlar isə əsil islamdan uzaqlaşdılar. Bunun üçün də müxtəlif islam millətlərindən olan islam mütəfəkkirləri arasında islam deyə tanınan şeyin möhtacı-islah olduğunu düşünənlər gündən-günə çoxalıyorlar.

[1] Sui-nəticə – pis nəticə

Şübhəsiz, bu yolda bir islah lazımdır. Böylə bir islah vücudə gəlmiyincə islam millətləri düçar orduqları ətalətdən müşkül ki, çıxsınlar. Bu islah həm islamın ümumi mənfəətinə, həm də islam millətlərinin xüsusi faydasına mütəzəmmindir. İslah olunmuş, ilahi əsaslarına icra olunmuş həşv və zəvaiddən qurtarıb, ictimai və milli əsaslara mümaniət etməyəcək fəlsəfi bir hala qaytarılmış islam dini o vaxt qüvvətli bir amili-tərəqqi və eyni zamanda da islam millətlərinin milliyyət və mədəniyyətlərinə xadim mühüm bir mühərrik olacaqdır. İndiki hal ilə belə din yenə bizim üçün milli bir amil olmaq məziyyətindən tamamilə ari deyildir. İslam təəssübü, yuxarıda deyildiyi kimi, vücudumuzu daha mühlik xətərlərdən saxlamış olduğundan əlavə milli ədəbiyyatımızın vücudə gəlməsinə də səbəb olmuşdur.

Xass hər nə qədər ərəbcə və ya farsca öyrənmiş tənəvvür və təməssül etmiş isə də, avam həmən əsilliyini də mühafizə eləmiş, türk oğlu türk qalmışdır. Böyük türk kütləsi eyni zamanda da mütədəyyin olaraq qalmışdır. Əlbəttə ki, kütlədə türklük, bilməm nəlik əməli olmamış, fəqət bu kütlə nə qədər avam da olsa, bittəb dini bir qəzayi-ruhaniyyə istəyirdi. İştə türk avam və kütləsinin bu arizuyi-təbiisi hər yerdə türk ədəbiyyati-diniyyəsini vücuda gətirmiş və ərəbcənin bütün qüvveyi-təmsiliyyəsinə rəğmən türkcə həmən təsis edərək gəlmişdir və müsəlman türk qövmləri də milli ədəbiyyata malik olmuşlardır.

Biz Azərbaycan türklərinin ədəbiyyatını tədqiq edəcək olan, şübhəsiz, ən əvvəlcə mərsiyələrdə dayanmaq məcburiyyətini hiss edəcək. Mərsiyələr isə nədir? Azərbaycanlı türklər şiə avamının hissiyyati-məzhəbiyyəsinə ruhani bir qəza olaraq farslaşmış və yaxud ərəbləşmiş Azərbaycan üdəba və şüərası tərəfindən yazılması hiss olunmuş asari-ədəbiyyə deyilmidir?

Əvamünnasdakı həyəcani-diniyyə həmən avam şairlərini tövlid etmiş avam şairi də təbiətlə avamın öz dililə danışmaq məcburiyyətində qalmışdır. Bu məcburiyyət də bizə bugünkü türklüyümüzün ən böyük dəlili olan türkcə yazı ilə türk ədəbiyyatını bəxş edə bilmişdir.

Fəqət yuxarıda zikr olunduğu kimi, əgər Quran dili ilə dua və ayin dili münhəsrən ərəbcə olmayıb da hər millət öz dili vasitəsilə bu qüdsiyyətdən bilavasitə istifadə edə bilsəydi, o zaman islam millətlərinin ədəbiyyatı indiki mütədənni bir halda qalmadığı kimi, islam

aləmi də bugünkü halından başqa bir halda yaşardı və hər halda məsud olardı.

Dilimizdən bəhs edərkən onun əğlata uğradığından bəhs etmiş, islahına möhtac olduğunu söyləmiş və islahına nə surətdə başlamaq lüzumunu idrakımız qədər bəyan eləmişdik.

Dinimizdən bəhs edərkən yenə bu pozuqluqdan şikayət etmək məcburiyyətində qalırız. Bu da islah olunmaqla həşv və zəvaiddən qurtarmalı, öylə əsaslarla vəz olunmalıdır ki, islam millətlərini tərəqqi edib, bir millət olaraq təsis eləmələrinə mane olmasın.

Bu da ancaq sair xüsusların islahı ilə bərabər Qurani-şərif ilə başlıca dua və ibadətlərin türkcəyə tərcümə olunub xalqın ruh və qəlbinə ğəza[1] verəcək bir surətə qoyulması ilə hasil ola bilər.

Dini də bir amili-mədəni ədd elədiyimiz ehtimal ki, bəzilərinə bir az qərib gələcəkdir, çünki məşhur olan bir nəzəriyyəyə görə din ilə milliyyət fikri yekdigərlərinə nəqizdir[2]. Bilxassə islam nəzəriyyəsi qövmiyyət nəzəriyyəsilə heç də etilaf[3] kəsb edə bilməz. Fəqət bizcə bu ilk nəzərdə səhih kimi görünüyorsa da, həqiqətdə bu iki məfhum ("müsəlmanlıq" və "millətçilik") yekdigərilə çox əla etilaf edə bilər. Ancaq istər ki, bu məfhumlar elmi surətdə bir-birindən ayrılsın, nərədə etilaf edib, nərədə ixtilaf elədikləri düşünülsün. İxtilaf elədikləri nəzərlərdə isə də etilaf etdikləri bir çox nöqtələrin də mövcud olduğu və bu iki nəzəriyyənin müxtəlif deyil, mötəlif olduğu dinlərin bir beynəlmiləliyyət və dillərin isə milliyyət vücuda gətirdikləri nəzəriyyəsini qəbul etdikdən sonra, həmən aşkar və bu xüsusda bəhs etmək belə artıq olar.

Silsilə məqalatımızın birisi iştə mədəniyyəti-milliyyənin üç rüknünü təşkil edən "milliyyət, beynəlmiləliyyət və əsriyyət" mövzusuna münhəsir olacaq. Orada bu xüsusun tamamilə fövzihinə bəqədri-məqdur[4] çalışarız.

"Dirilik", 16 dekabr 1914, № 7

---

[1] Ğəza – qida
[2] Nəqiz – zidd
[3] Etilaf – birlik
[4] Bəqədri-məqdur – bacardıqca

MİLLİ DİRİLİK

VII

Milliyyət amillərindən birisi də tarix ilə adat və ənənatdır. İlləridə bir miknət[1] və qüvvət tapa bilmək üçün millətlər həman tarixlərindən istimdad edərlər. Zəif düşdükləri, əzilib inqiraza tərəf çəkildikləri, hətta inqiraz bulub, hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq dəmlərini xatirə salmaqla istiqbal üçün bir ümid bəslərlər. Keçmişini iyicəsinə tədqiq etmiş olan millətlər daima mazinin ölüb torpaqlar altında çürümüş olan qəhrəmanlarından birər ideal modeli yapıb da onu gələcəyin bir nümuncyi-həmasəti[2] kəsdirirlər. Hazırdakı halları ilə kiçik və mühəqqər görünən millətlər daima tarixdə böyük bir ism və rəsm sahibi olduqlarını arayıb-araşdırar və göründüyü kimi, məqhur olmağa deyil, tarixin səbt etmiş olduğu kimi, qəhhar da ola biləcəklərini istidlal ilə irqdaşlarını məzəllətli bir həyatdan qurtarmağa çalışarlar.

Bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad və təməddün amili təsəvvür oluna bilməz.

Mütəməddin millətlərin milli və mədəni həyatlarının nə yolda tərbiyə edildiyinə diqqət olunarsa, bu mətləbin həmən nə dərəcədə doğru olduğu asanlıqla görünər. Mədəni millətlərdə tarix, həm də vətən və milliyyət tarixi, ən mühüm dərslərdən birini təşkil edər. Vətənin mazidə keçirdiyi şanlı günləri və bəşəriyyət aləminə bəxş edə bildiyi səmərəli və faydalı xüsusları həmən tarix dərs kitablarından ballanaraq[3] övladi-vətənin yadına nəqş etdiriliyor. Vətən və millət əfradi həmən müəyyən bir üsul ilə böyük və bəşəriyyətə, mədəniyyətə dəyərli xidmətlər yetişdirmiş olan bir nəsili-nəcibə mənsub olduğuna qənaət yetirərək böyüyür. Haradan gəldiyini, tarixdə nələr elədiyini və nə kimi qüvvələrə malik olduğunu bilib, izzəti-nəfsi ilə istiqbala qarşı bir ümid olaraq yaşayır.

Tarixdəki məziyyətləri tədqiq ilə onu nəsli-hazır hüzurunda canlandırıb ruhlandırmaq və bundan istiqbala aid olmaq üzrə parlaq və

[1] Miknət – imkan
[2] Nümuncyi-həmasət – qəhrəmanlıq nümunəsi
[3] Ballanaraq – faydalanaraq

milli nəticələr hasil etdirmək arzusu ədəbiyyatda böyük bir məsləkdir. Ədəbiyyatda və sair sənayei-nəfisədə təqib olunan bu məsləkə isə "romantizme" ("həmasət"), məslək əhlinə də "ərbabi həmasət" deyilir.

Fəqət millətlər arasında bu nöqteyi-nəzərdən türk millətindən məzlumunu tapmazsınız. Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışıdır. Bu məchuliyyətindən əlavə türk tarixi başqa bir çox təcavüzlərə də uğramışdır. Tarix yazanlar türklərə məğlub olan millətlərdən olduqları üçün bu qövmin göstərdiyi həmasət və qəhrəmanlıqlar həmən vəhşət və yəğmagərlik şəklində göstərilmiş, hər yerdə və hər zamanda, bilxassə, türk cahangirliyinə təsadüf edən zamanlarda adət olan xunrizlik[1], qətl və qarətlər türklər tərəfindən vaqe olunca tərzil[2] edilmiş, başqaları tərəfindən zühur edincə təqdir və təhsinə[3] şayan görülmüşdür. Türk cahangirləri və türk qəhrəmanlarının adi təlqin və tərzil edilmişdir.

Nə qədər, təəssüf ki, təlin[4] edənlər zümrəsində türklər özləri də bulunmuşlardır. Ərəb türkləri bir təsirə, Şərq türkləri digər təsirə tabe olub, yekdigərini söyə-söyə gəlmişlərdir. Tatar və səlcuqi müharibələrinin nəticəsi olaraq qədim osmanlı tarixlərinə baxsanız, həmən "tatar-xunxar", "ətraki-biidrak" tərkiblərinə hər səhifədə rast gəlirsiniz.

Yenə bu özünü bilməməzlik, yenə bu əcnəbi təsirlərə tabe olmaqlıq üzündən olaraq Azərbaycan türkləri qərbdəkilərinə "rum" demiş, onlar da bu tərəfdəkiləri "əcəm" ismilə yad etmişlərdir.

İştə burasını türk gəncliyi dərk etməli və düşünməlidir ki, bu gün türk milləti böyük bir tarixə malik olduğu halda tarixsiz yaşayır və dünyanın hər tərəfinə yayılıb da böyük bir millət təşkil elədikləri halda türklər bir-birindən bixəbər, hətta yekdigərinə düşmən olaraq ömür sürüyorlar.

Son sənələr məlum olduğu üzrə intibah sənələridir. Bu yolda da bir neçə qədəm atılmışdır. Türklüyün intibah mərkəzlərini təşkil edən nöqtələrdə türk tarixi və türk mərifəti-qövmiyyəsi yolunda az-çox ciddi və qeyri-ciddi hərəkətlər görülməkdədir. Türk tarixini öyrən-

[1] Xunrizlik – qan tökmək
[2] Tərzil – alçaltma
[3] Təhsin – tərif
[4] Təlin – lənətləmə

mək və türklərdən qalan asari tədqiq və təhqiq eləmək üçün bəzi arzu və meyillərin zühura gəldiyi görülməkdədir.

Hər yerdə olan türklər həmən olduqları yer haqqında kafi qədər məlumat toplasalar və öz şöbələri haqqında tarixi və ictimai həqiqətlərə təəllüq edən maddələri cəm etsələr, heç şübhəsiz ki, irəlidəki böyük türk tarixini yazacaq müərrixə lazım olan maddə toplanmış olar. Bu xüsusda şimali türk qardaşlarımız daha ciddi hərəkət ediyorlar. Onlarda "Tatar tarixi" həmən yazılmağa başlanmış və bir cildi də nəşr olunmuşdur. Bu xüsusda biz azərbaycanlılar hamıdan çox işıqlanmaq ehtiyacındayız. Aramızda hələ bir çoxları var ki, türklüklərinə şübhə etmədədirlər. Keçənlərdə bu xüsusi düşünərək Kiyevdəki türk tələbələri Azərbaycan tarixini yazacaq olan şəxsə, hətta tələbələrin qüvvəsi yetəcək qədər bir mükafat da elan etmişlərdi.

Tarixi öyrənmək və millət arasında tarix dərsini təmin etmək ittihad və ittifaqı mövcib olduğu qədər, bəlkə ondan daha artıq, vüquati-tarixiyyə özü də millətləri qaynadıb-qarışdıran bir amildir. Bu xüsusda başqaları üzərinə hücumlar icra edən təcavüzkar tarixdən ziyadə başqalarının hücumunu dəf edib də müdafiədə olan tarix faydalıdır.

Türklüyün son zamanlara aid olan tarixi isə bu qəbildəndir. Fəqət bunun böylə olduğunu bildirmək yenə müərrixlərimiz və mühərrirlərimizin öhdəsinə tərtib edən bir vəzifədir.

Tarixdən əlavə milliyyətin birləşməsi və saxlanmasına müavinət edən vəsilələrdən digərləri də adət ilə ənənatdır.

Çox kərə görüyoruz ki, elm və məziyyət kəsb edib əhli-ürfan olanlarımıza milli adətlərimizin bir çoxu nədənsə əcib və qərib gəliyor. Bu adət onlarca "ne kulturnu" ədd olunur, toylar başqalaşır, düyün, dərnəklər ayrı bir şəkil alır. Gəlinin belinə qurşaq bağlanıb da məsum bir çocuq tərəfindən gəlişinin şəninə oxunan:

"Anam, bacım, qız gəlin, əli-ayağı düz, gəlin,
On iki oğlan istərəm, bir dənə də qız, gəlin" –

kimi sadə və ülvi arzuları mütəzəmmin qitələrin oxunması bəyənilməyib və "vençalnı kostyum"la şampanskiyə tərcih olunur.

Daha bədtərləri var: üsküler, atəşbazlıqlar, xonça və şəmlər qaldırıb onların yerini yolkalar tutmaqdadır.

Keçəndə bir müsəlman xanımını gördüm. Övladı ilə bərabər gəlmiş yolka dəstgahı alıyordu. Uşaq anası ilə rusca danışıyordu:

"Mama, vot deduşka, kupi to kupi" – deyə anasının yanında fırlanıyor, rojdestvo bayramında bir rus uşağı nə kimi hiss edib və nədən sevinirsə, həmən o qismi hiss ediyor və sevinirdi. Ananın da övladının böylə bir surətdə fərəhlənməsindən qəlbən şad olduğu sezilirdi.

Fəqət mən, nəzakət və ümumi qaydaya müqəyyəd olmasaydım, heç olmazsa, onların bu "sevinclərini" alt-üst edər, bildiyim kimi onları təhqir və təqdir eləyərdim.

Fəqət onlarda da nə təqsir...

Bəli, təmsil yalnız dildən, dindən gəlməz, nəzərə kiçik və əhəmiyyətsiz gələn adət, əxlaqın təmsili də olduqca xətərlidir.

Təsəvvür ediniz dediyim uşağın halını: dil açıb anasıyla rusca danışmış. Atası mağazadan gələndə yenə onu rusca dindirmiş: həyətdə yoldaşlarını rus görmüş, onlarla o dildə söhbət eləmiş, oyun oynarkən rus oyunlarını oynamış, məktəbdə dəxi eyni tərbiyəyə tabe olmuş. Bayramlarda yolka bəzəyib ətrafına da dönüb-dolaşmış, ən axırı da məlumdur ki, daxili Rusiya şəhərlərinin birində ali tərbiyə alıb "obrazovannı" olacaq. Fəqət böylə bir "obrazovannı"dan bizim "neobrazovannı" millət nə gözləyə bilər və o özü istərsə, "millətinə" nə kimi bir fayda yetirə bilər? Heç nə!

Yəqin ediniz, millət öylə gözəl bir cavanı itirdiyindən naşi, əlbəttə, mütəəssif olacaq. Fəqət o da öz millətindən ayrıldığı üçün bədbəxt olub qalacaq!

Burasını nəzər diqqətə aldıqda milli dilimizi, dinimizi, tariximizi gözlədiyimiz halda, adət və əxlaqımızı da gözləmək məcburiyyətini hiss ediyoruz. Uşaqlarımızı həmən öz ruhumuzla tərbiyə etməliyik. Firidun bəy Köçərlinin "Balalara hədiyyə" nam məcmuəsinə topladığı hekayə və ənənələrə təhqir gözüylə baxmamalıyız.

Mədəni millətlərin məktəblərində uşaqlara məxsus bir çox oyunlar vardır. Bu oyunlar, bu hekayələr bizdə də yox deyildir. Onları arayıb bulmalı, şəkil və surətə salmalı, milli ruh və mədəniyyətlə təltif etdirib də həmən tətbiqinə başlamalı.

Köhnə üsul məktəblərimizdə üsgü və bayram xonçaları bəzərdik. Yeni üsul məktəblərimizdə də bunu yeni üsul ilə daha müntəzəm və mənalı bir surətdə icra edə biləriz.

Toylarımız bundan əvvəl milli aşıqlar və sazandələr vasitəsilə icra olunuyordu. İndi heyhat, milli türk havasının yerini gürcü zurnası tutuyor. Bundan əvvəl toylarda hər kəs istərsə qalxıb rəqs edərdi. Sonra bunu mənfur "mütrüb" rəqqasına, indi də daha mənfur əcnəbi "rəqqasəsilə" əvəz etdilər.

Milli mədəniyyətin nədən ibarət olduğunu dərk edənlər və bu mədəniyyətin nə surətdə münqəriz olduğunu görənlər, şübhəsiz ki, bu kimi nərəva halları gördükdə ürəkləri ağrıyor və bu ürək ağrıdan hallara qarşı bir millətin üqəlasının laqeyd olduğu görülüncə, bu ağrı daha da şiddət ediyor...

Əcəba, daimi olaraq ürək ağrısına məruz qalacaqmıyız?

"Dirilik", 1 yanvar 1915, №8

ÜZEYİR HACIBƏYOV

(1885-1948)

BİR XANIM ƏFƏNDİNİN BİZLƏRƏ HÜSNİ-TƏVƏCCÖHİ

"Peterburqskiye vedomosti" qəzetinin 210-cu nömrəsində rusca bilən qarələrimizə ismi məlum Maqda Neyman xanım Qafqaz müsəlmanları barəsində öz rəyini yalandan adlanmış bir "qoca administrator"un dili ilə rus camaatına izhar edir.

Maqda Neyman xanım deyir ki:

"– Mənim rəyimə gəlincə, əsrlərcə şəqavət və sui-rəftar üzrə güzəran edən və bundan naşi zatən şəqi və şərir olan Teymurləng ordusu nəslini (yəni biz türkləri), Şimali Amerikanın "qırmızı dəri" vəhşilərini – mədəniləşdirmək namümkündür... Bizim mühərrirlərin bəzisi iqnaiyyət izhar edəndə ki, guya mərifət, elm və ədəb ilə Zaqafqaziya türklərinin xülq və xasiyyətlərini təbdil edərək, onları rus mədəniyyətinə tərfi etmək olar, onda mənim gülməyim tutur. Əcəba, bu yırtıcıların təbiəti-cinsiyyəsinə mədəniyyətin bir təsiri olarmı?"...

Görürsünüz Maqda Neyman xanım nə dərin mənalı sözlər deyir?! Xanım çox fikir və zikirdən sonra yəqin etmiş ki, biz türk tayfasına mədəniyyət və mərifət bilmərrə əsər etməz. Əcəba, bu bir tazə kəşfiyyat deyilmi? Xeyr a!.. Cəsarət edib deyə bilərəm ki, xanım səhv edir. Necə ola bilər ki, ədalətli olan "Haqq sübhanəhü və təala" tək bir türk tayfasını yaradanda onun xəmirəsində istedad qoymayıb, binəva türklərin xislət və təbiətlərini qabili-mədəniyyət və mərifət yaratmaya? Bu ola bilməz, xanım, haşa! Olsa da sizin heç bir haqq və səlahiyyətiniz olmaz ki, bu surətdə bədbəxt türkləri müqəssir tutasınız. Çünki Allahın işinə bəndə nə qayırsın?! Yox! Yenə təkrar edirəm ki, Allah-taala adildir. Elə iş ondan baş verməz. Və belə olan surətdə, sizin bu dərin mənalı sözlərinizin – incimə-yinizin heç bir mənası gərək olmasın.

Ola bilər ki, Maqda Neyman xanım biz türklərin mədəniyyət sarıdan həqiqətdə də pəsmandəliyimizi nişan vermək istəyirmiş. Ancaq qərəzkarane yazmağına görə həqdən kənar düşmüşdür. O halda dəxi biz deyək ki, doğrudur, cümlə Qafqaz əhalisi bilümum

və biz türk tayfası ba xüsus Avropa miləli-mütəməddinəsinə nisbətən ümumiyyət etibarilə yarımvəhşiyik. Ancaq burası nəzərdə tutulmalıdır ki, avropalılar bu dari-dünyayə ana bətnindən mədəniyyətli halda düşməmişlər. Bəlkə, əsrlərcə ömür edərək, mədəniyyət təriqini tapıb, ondan bəhrəyab olmuşlar.

Biz türk tayfası dəxi əsrlərcə ömür etmişiksə də məəttəəssüf, kənardan biruz edən səbəblərə bina rahimədəniyyəti tapa bilməyib, sərgərdan qalmışdıq. Əlhal, "lillahil həmd vəlminnə", işıq qapısı üzərimizə açılmaqdadır. Və biz türk tayfası əl-ələ verib, cümləmiz mədəniyyət və mərifət sarayına daxil olmağa amadəyik. Çifayda, bəzi fasid və məfsud şəxslər belə bir fürsətli həngamda bizlərə xələl yetirir, öz məsiyətli və qəbahətli qəsd və niyyətlərinə nail olmaq üçün biz ətşan tayfanın mədəniyyət bulağından su içməyimizə mane olurlar.

Qərəz, gələk mətləb üstünə. Türklərin elm və ədəb əxz etməyə naqabil olduqlarını sübut etmək üçün Maqda Neyman qareləri inandırır ki, (bilmirəm kim ona inanar!) türk tayfası 500 il (?!) öz həmdin iranlıların təhti-hökumətində güzəran keçirdilərsə də, onlardan heç bir şey əxz edə bilmədilər (!).

Nə deyim! Haqq-taala mənə bir şairlik əta buyurmuş olsaydı, xanımın kəşfiyyatında belə bir məharətinə gözəl nəzmlər ilə bir mədhnamə yazardım. Hörmətli xanım, kitab oxumaqla Qafqaz türklərinin hal və övzasından vüqufiyyəti-külli hasil etmək olmaz. Və oxuduğunuz cəfəngiyatı dəstaviz edərək, belə əhəmm məsələlərdən mübahisə etməklə özünüz heç, darüssəltənətdə intişar olan "Peterburqskiye vedomosti" kimi bir böyük cəridəni bədnam edirsiniz. Nə qayırdığınızdır? Məgər, İranın bir şeyi qalmışdı ki, Qafqaz türkləri onu əxz etməmiş olalar? Türkmi Firdovsiyə, Hafizə nəzirə etmiyor? Türkmi fars dilini öz məxsusi dili tək istemal etmiyor? Türkmi tərzi-məişətində, güzəranında, adət və ərkanında, xülq və xasiyyətində iranlıdan seçilir? Hərgah siz 30 il bundan əqdəm, qəflətən, Zaqafqaz şəhərlərinin birinə düşsəydiniz, inandırıram sizi, bilməzdiniz ki, rus torpağındasınız, yainki Qəzvin şəhərində? Əcəba, siz güman edirsiniz ki, belə kizb və yalan sözlər ilə rus camaatını aldada bilərsiniz?! Lövhəşalla! "O fikirdən daşın, yaxşı olmaz bu hədyan". Qəribə budur ki, Maqda Neyman xanım öz yazdığı yalanını özüdəcə aşikar edir. Bir tərəfdən camaatı inandırır ki, "Qafqaz türklərinin elm, ədəb əxz etməyə qabiliyyətləri yoxdur, onlar hər bir

tərəqqi və mədəniyyətin düşmənidirlər". Bir tərəfdən dəxi deyir ki, "axır zamanda türklər dövlətdən tələb edirlər ki, hüquq və imtiyazatda nəsranilərlə müsavi olub, məktəblər güşad etməyə haqları olsun". Hərgah türklər elm və mərifətə zidd olsaydılar, məktəb açmaq istərdilərmi? Türklər "qırmızı dəri" vəhşilər tək olsaydılar "haqq" ləfzini anlayardılarmı? Hüquqda müsavi olmağı tələb edərdilərmi? Heç nə... Görünür ki, xanımın qələm, mürəkkəb və kağızı müftə imiş.

Görək sonra nə deyir.

"Yaxşı olardı ki, bileydik, görək onlar (türklər) o məktəblərdə nə dildə dərs verəcəklər. Axı onlar əsrlərcə özlərinə ədəbiyyat və ədəbi dil icad edə bilmədilər? Siz deyirsiniz ki, onlar qəzetə nəşr və kitab təlif etmək üçün fars və Osmanlı dilləri ilə mənfəətbərdar olarlar? Onda nə olsun. Bəs biz onların Osmanlı və fars ilə ruhani müttəfiq olmalarına kömək edəcəyik? Nə mənzur ilə? İttihadi-islam əhəmiyyəti üçünmü?"

Qarelərimizdən təvəqqe edirik ki, xanımın bu sözlərinə artıq diqqət yetirib düşünsün: Əcəba, xanım bilir ki, türk kimdir və nə dildə danışır? Məlum ki, bilmir və illa belə cəfəngiyatı bilən adam yazarmı? Xanımın qulluğuna ərz olsun ki, türk dili əmələ gəlir ərəb, fars və məhz türk dilindən. Yəni türk dili ibarətdir üç dilin birbirinə qatışmasından. Ancaq xanım elə güman etməsin ki, guya biz türklər fars və ərəb dilini dünən öz məhz türk dilimizə qatışdırmışıq. Xeyr! (Biz vəhşi tayfayıq, bizdə o fərasət hanı?!) Ərəb və fars dili min ildən bəri türklər arasında işləndiyinə görə, əlhal, türklərin öz ana dili olubdur. Və bunu da xanım bilsin ki, türklər mədəniyyətin ən baş dərəcəsində də olsaydılar yenə də öz türk dilindən ərəb və fars əlfazını xaric edib, məhz türk dilini vəsiləndirmək üçün saxta sözlər icad etməzdilər. Necə ola bilərdi ki, bir türk alimi durub "ağıl" ləfzini tullayıb, əvəzində (məsələn) "baş dolu eləyən" deyəydi. Görək "ağıl" ləfzinin nəyi pisdir? Niyə rus "qaloş" ləfzinə "mokrostop" demir? Niyə erməni "fədai" əvəzinə bir erməni sözü demir?.. Bizim dilimiz sarıdan xanım arxayın olsun. Və dilimiz ilə tanış olmaq istəyirsə, qəzetimizi mütaliə etsin.

Yox, iş bizim dilimizin qeydində olmaq deyil. Maqda Neyman xanım bizim dilimizdən qorxur. Çünki ittihadi-islam vüquə gələr. Mərhəba bu dəqiqliyə, kəramətli xanım! İnandırıram sizi, əbəs yerə təşvişə düşürsünüz! Siz kimi şəxslər min-min yerdən baş qovzuyub "ittihadi-islam" deyib qışqıra, yenə dövləti qorxuda bilməzsiniz.

Çünki dövlət bizi də yaxşı tanıyır, sizi də. Rusiyanın durbin şəxsləri çoxdur, siyasi işlərdə mahir zəvati çoxdur, dəqiq kəsləri çoxdur, müttəle adamları çoxdur. Bunlar hamısı yəqin bilirlər ki, türk tayfasının ən ümdə mətlubi ruslarla müttəhid və müttəfiq olmaqdır. "İttihadi-islam" ləfzi dəxi gözübağlıcılıq hiyləsi ilə ortaya atılmış bimənа sözdür və bunu da xanım özü yaxşı bilir. Amma əksinə, yazmaqda məqsəd var. Bəs, Maqda Neyman xanım dedi ki, Qafqazın türkləri vəhşi və yırtıcı heyvan surətindədirlər, onları elm və mərifət sahibi etmək namümkündür. Çünki onların zatında elm ilə münəvvər olunmaq qabiliyyəti yoxdur. Və əlavə türkləri qoymamaq ki, fars və ərəb dilləri ilə nəfibərdar olsunlar və illa "ittihadi islam" vüqu olar... Bəs nə etməli? Xanım cavab verir: Qafqaz türklərinin cəmi bəyzadələri və xanları quldur və soyğunçudurlar. Zəhmətkeşliklə işləri yoxdur. Onların yerlərini əllərindən alıb, rus mühacirlərinə və yainki Osmanlıdan qaçıb gələn ermənilərə verməliyik. Özlərini dəxi buraxmalı, o yol, o da onlar, qoy hara istəyirlər getsinlər. Və qalanlarının da əsləhəsini alıb, hüququnu təhdid edib, özlərini də hər halda (zinhar) sıxıb incitmək... Düşündünüzmü qarelər, ürəyi nazik xanımın qəsdi nədir? Biz türkləri vəhşi heyvan mənziləsində tutaraq, rəftar etmək.

Əcəba, hansı əhli-insaf belə dəhşətli sözlərdən nifrət etməz? O sözləri yazandan ictinab etməz?

Bədbəxt türklər! Böhtan, kizb və iftira altında qol çalan türklər! Biinsaf və bimürvət və bivicdan müharrirlər qələminin oynağı olmuşsunuz. Hər əli qələm tutan sizin barənizdə bir iftira yazmasa olmaz! Əcəba, buna səbəb nədir? Qafqaz iğtişaşatıdırmı? Elə isə, genə bədbəxt türklər...

MƏRƏZLƏRİMİZDƏN BİRİ

Dünyada ən alçaq sifətlərdən birisi, zənnimcə, cürətsizlikdir. Bu sifət çox vaxt insanın bədbəxtliyinə belə səbəb olur. Cürətsiz adamdan yaxşı iş baş verməz. Sairlərin müsibətinə dəxi bais olar. Cürətsiz yoldaşdan uzaq olmaq yaxşıdır. Cürətsiz adam heç bir təşəbbüsə müvəffəq olmaz. İşini xarab edər, heç bir səmərə görməyib, əldən buraxar. Halbuki hər bir işdə cürət lazımdır.

Cürət insana qanad verər və müvəffəqiyyətini təmin etmiş kimi olar. Bu gün ticarət, sənət, elm kəsb etmək, fənn öyrənmək kimi böyük işlərə iqdam edən kəs cürətlilik sifətinə haiz olmazsa, layiqincə faydamənd olamaz. Cürətsiz həmişə cürətlinin ayaqaltısı olar. Bir ailə ərkanından tutmuş dövlətlərə kimi cürətli ilə cürətsizin arasında böyük bir fərq müşahidə olunur. Cürətli səadət və xoşbəxtlik sayəsində dolanarkən, cürətsiz məzəllət altında mütəzəyyiq fəna bir övza ilə ömür keçirər. Cürətli oğul, yox mənziləsində olan ata evini abad edər, cürətsiz isə atasının abad evini xarabazara döndərər.

Bu gün cürətli ingilislər, amerikalılar kürreyi-ərzin hər bir nöqtəsində hökmfərmadırlar. Cürətsiz İran isə əğyar təcavüzündən dəxi özünü qorumağa qadir deyildir.

Biz, Rusiya müsəlmanları dəxi artıq bir cürət sahibi olduğumuzu meydana çıxara bilmərik; bizdə cürət ölübdür, əhya etmək lazımdır.

Ticarətimizin həmcivarlarımıza nisbətən kəsadlığı, dürlü-dürlü mənfəətli sənətlərdən məhrum olmağımız, elm və fəndə dala qalmağımız, hamısı bizim cürətsizliyimizdən naşidir. Bizi saxlayan tək bizim bəsalətimizdir ki, o da belə qalsaq, yavaş-yavaş itər və yox olar. Cürətsizlik bizi mədəniyyətdən uzaqlaşdırır. Odur ki, bizlərdən gözə görkəmli və şayani-diqqət əməllər nüdrətən sadir olur.

Biz bir işə iqdam etmədən qabaq öz acizliyimizi iqrar edərək, məzkur işdən heç bir şey çıxmayacağını hökmən özümüzə yəqin edirik və şövqü həvəsdən düşüb, əbəs yerə fürsətimizi əldən buraxırıq. Birimiz bir iş tutmaq istədikdə, digərimiz ona mane olub, cürətsizlərə mənsub bir əda ilə "sən, yaxud biz bacarası iş deyil" – deyə bu işdən sərfi-nəzər etməyi dəxi tövsiyə edirik. Biz eşidirik ki, filan müsəlman filan böyük işə iqdam edibdir. Yaxud filan işdən ötrü Amerika kimi bir yerə getmək istəyib. O saat biz (guya ilhami-rəbbani ilə) o işlərdən bir şey çıxmayacağını qəti xəbər verib, "çünki müsəlmanlardan belə-belə işlər baş verməz, bu ittifaqda ermənidən danış, biz müsəlman belə işləri bacarmarıq" kimi cəbunlara məxsus bir ümidsizliyə bunu da əlavə edirik.

Belə çıxır ki, biz hər bir ittifaqda nikbinlərdən ədd olunduğumuz halda, tək bir bu yerdə bədbinalığı qəbul edirik. Görünür, bizim öz qüdrətimizə etiqadımız yoxdur. Varmışsa da itibdir. Budur ki, indi bizim cürətsizliyimiz və acizliyimizə müqəər olmağımız hər bir iş müqabilində əl-ayağımızı bağlayıb, bizi hərəkətsiz buraxır. Cürətsizlikdən başqa bir də, ümumiyyət etibarilə, digər bir fəna sifət dəxi

müşahidə olunur. Bu da acizlikdir. Balaca bir müsibət və bədbəxtliyə düçar olanda biz özümüzü bilmərrə itiririk. Əslinə baxsan, bu da bizim cürətsizliyimizdən doğan bir sifətdir.

Söz yoxdur ki, bir işə iqdam edib, baş aparmağa çalışan adam bu yolda neçə-neçə maneələrə və çətinliklərə düçar olacaqdır. Zəhmətsiz bal yemək olmaz – öz türklərimizin zərbi-məsəlidir. Lihaza, biz bu məsəl fəhvası ilə müvafiqət eləməyib, başladığımız işi cüzi bir çətinliyə təsadüf edəndə buraxıb əl götürürük. Halbuki insan başladığı işi başa aparmaq üçün təsadüf edən maneə və çətinlikləri birbir dəf və rəfə çalışmalıdır ki, məqsədinə nail olduqda da kamiyab olsun. Və illa, hər bir çətinlik müqabilində aciz qalıb, məqsədimizdən sərfi-nəzər etsək, mütləqa başqalara möhtac olacayıq. Möhtaclıq da, məlum olduğu üzrə, insanın tənəzzülünə yardım edən bir bədbəxtlikdir. Hər bir sahibkara lazımdır ki, həmişə tərəqqiyə mayil olsun, ətalət və bətaət ilə iş görsək, gündən-günə tənəzzüldə qalacayıq. Əsrimiz isə tərəqqi əsridir.

Bizim hər birimiz gərək işini tərəqqiyə mindirməyə çalışsın. Ona görə də hər bir təşəbbüs müqabilində özümüzü aciz bilib, cürətsizlik etməməliyik. İnsan ruzigarın önümüzə yumalatdığı çətinliklərlə mübarizədə olmaq üçün yaranıbdır... Acizlik və cürətsizlik göstərməkdənsə, mübarizə edib, ruzigara basılmamaq əfzəldir.

DÖVLƏT DUMASININ QURULMASI

Millətimizin bir çox hissəsindən ötrü Dövlət dumasının əhəmiyyəti, yəni vacib və lazım olduğu bir o qədər aydın olmadığını və seçki işinin, yəni Dövlət dumasına üzv seçmək əmrinin hələ Qafqazda qurtarmadığını nəzərə alıb, haman dumanın nə dərəcədə əhəmiyyətli olduğunu bir neçə sözlə bəyan etməyi lazım bildik.

Bu duma söhbətindən qabaq Rusiya padşahlığında, belə bir böyük məmləkətdə məmləkətin varlığına və padşahlığın davamına səbəb olan millətin və camaatın müreffəhülhal dolanmağına elə bir etina olmayıb millətdən tələb edilirdi ki, hökumət tərəfindən qərar edilmiş qanuna (zakonlara) dürüst əməl edilsin. Daha bunu nəzərə almırdılar ki, görək bu qanunlar millətdən ötrü nəfdir və ya zərərdir. Söz yoxdur ki, hərgah bu qanunlar millətdən ötrü nəfli olsaydı, millət müreffəhülhal dolanardı və heç bir kimsə durub hökumətdən

şikayət etməzdi. Lakin bu bir-iki ilin ərzində vaqe olan iğtişaş, bir o qədər tökülən qanlar, tələf olan canlar bildirdi ki, millət indiyədək pis dolanırmış və indi də yenə elə pis dolanmağa daha millətin tabü tavanası yoxdur, ona görə millət şikayət edir və öz şikayətini də bu iğtişaş ilə hökumətə elan edir. Bəs nə üçün millət şikayətini dili ilə hökumətə demirdi və yaxud yazıb bildirmirdi və bunu qoyub iğtişaş salırdı? Çünki bu cürə siyasi deyilən şeyləri dil ilə danışıb və yazı ilə yazmaq olmazdı, zira danışıq və yazı azadlığı yox idi. Heç kəsin ixtiyarı yoxdu ki, durub öz halından dil ilə yaxud yazı ilə şikayət edəydi. Bir kəs bunu etsəydi, ona tənbeh olardı. Bəs nə üçün camaat bir yerə yığılıb şikayət üçün padşah yanına getmirdi? Çünki əvvələn, belə-belə siyasi işlərdən ötrü bir yerə yığılmaq olmazdı, zira yığılmaq və ya bir yerə cəm olub dərdləşmək azadlığı yox idi. Hər kəs bu işi görmək istəsəydi, ona inqilabçı deyib tənbeh edərdilər və saniyən, padşah ilə camaat arasında duran və camaatın padşaha yolunu kəsən vəzirlər qoymazdılar ki, camaat padşaha ərzi-hal etsin. Çünki camaatın pis dolanmağına özlərinin səbəb olduğunu anlayıb bilirdilər ki, camaatın ehtiyacatına əncam verilsə, onlar əvvəlki ixtiyaratdan düşərlər və bu da onlara zərər və ziyan yetirər. Ona görə öz mənfəətlərini nəzərdə tutub, millətin haqq şikayətinə mane olurdular. Və habelə, camaat ilə padşah arası bağlı kimi idi. Məlum ki, əgər millət üçün qanunlar verməkdə camaat özü də iş görsəydi, vəzirlər milləti sıxa bilməzdi...

Bu tərəfdən dəxi millətin ehtiyacatı gün-gündən artırdı, kəndçilərin özlərini dolandırmağa və hökumətə xərc verməyə kafi qədər yeri yox idi və halonki belə bir böyük Rusiyada nə qədər boş yer var idi və bu yerləri yerə möhtac olan kəndçilərə verməyib, bəzisinə xəzinə yeri, bəzisinə udel yeri, bəzisinə kabinet yeri və bəzisinə mülkədar yeri deyib, nəfini özləri götürürdülər və bununla da belə, yazıq kəndçidən xərc alırdılar.

Fəhlələrin dəxi işləri çox pis idi. Yazıq fəhlə gündə on dörd saat işləyib, cüzi muzd alırdı və bununla belə bilmirdi ki, dincəlmək nədir, bayram nədir, tərəqqi nədir, əhlü əyal nədir, ev nədir, eşik nədir? Ancaq onu bilirdi ki, işləmək lazımdır ki, özü, əhlü əyalı acından ölməsin. İl uzunu gecə-gündüz on dörd saat işləyən adamın daha nə vaxtı qalır ki, durub evdə xalq kimi əhlü əyali ilə danışıb gülsün, bir az istirahət eləsin, övladının təlim və tərbiyəsinə baş qoşsun, özü də bir xalq üzü görüb, onlar cümləsindən olduğunu anlasın, Allahına ibadət etsin və sairə.

Kəsbkar və sənətçi alış-verişçilərin də halı yaman idi. Bu "pryamoy və kosvenni naloq" deyilən vergi və xərclər binəvaların evini yıxırdı. Kasadlıq-filan nəzərə alınmırdı. Ticarət və sənət tərəqqi əvəzinə tənəzzülə düşürdü. Ancaq hiyləgərlər və təmellüqçülər pul qazanıb, onlar da bir yandan xalqı dartıb sökürdü. Mədəniyyət və maarif, yəni elm, fənn camaat arasında yayılmırdı. Çünki elm öyrənmək hamıya vacib deyildi və pulsuz da məktəb açmaq istəmirdilər. Açılmış məktəblərin də dərs vermək və dərs oxumaq işlərini elə ağır şərtlərlə bürümüşdülər ki, nə oxudan bir şey oxudurdu və nə də oxuyan bir şey qazanırdı. Elm və tərbiyədən artıq oxudanın oxuyan üstündə ağa olduğunu öyrədirdilər, yəni belə bir tərbiyə verirdilər ki, şagirdlər uşaqlıqdan başının üstə bir ağa olduğunu görüb, böyüyəndə də vəzirlər kimi ağaların əmrlərinə sözsüz, hərəkətsiz əməl etməyə öyrəşsinlər.

Bundan savayı Rusiya məmləkətində hamı bərabər deyildi, hamıya bir gözlə baxmırdılar. Birinə hörmət edirdilər, o birisinə məhəl qoymurdular. Biri olurdu qul, o biri onun başının sahibi. Birinə çoxlu ixtiyar verirdilər, o birini o ixtiyardan məhrum qoyurdular və bir də Rusiyada bir çox müxtəlif millətlər olduğundan, hər milləti bir nəzərdə görmürdülər. Bu xüsusda rus olmayan sair millətlərə çox pis baxırdılar. Belə ki, bu sair millətləri yuxarıda zikr olunan ümumi ixtiyarlardan məhrum etdikləri bəs deyil, xüsusi yəni hər millətin özünəməxsus ixtiyarları da əllərindən alırdılar. Və bundan savayı, ruslara verilən ixtiyarları bunlara vermirdilər. Bu xüsusda hər bir ixtiyaratdan məhrum və məyus olan biz müsəlmanların halı hamıdan yaman idi ki, bizi ruslaşdırmaq və nəsrani etmək işi dəxi var idi.

Qərəz, Rusiya təbəəsində bu ağır hal gün-gündən şiddətlənib, camaatda istitaət və tab-tavana qalmamağa başladı. O tərəfdən-bu tərəfdən "Belə dolanmaq olmaz!" kimi gileylər eşidilirdi. Bu gileylər yavaş-yavaş artıb, hər bir tərəfə yayılmağa üz qoydu. Yapon davasından sonra daha camaat səbir eləməyib şikayətə, yəni iğtişaşa başladı. Çünki Yapon davasında rus dövlətinin basılmağı camaatı qandırdı ki, belə hökumət ilə nə camaat saxlamaq olar və nə də düşmən qabağına çıxmaq olar. Ona görə bu cür hökumətə bir nəhayət çəkmək vacibdir. Camaatın bu arzusu elə şiddətli idi ki, bunu hüsulə gətirmək üçün candan və maldan keçməyi lazım bildilər və habelə iğtişaş başlandı.

Əvvəl hökumət iğtişaşı yatırtmaq üçün elə bir çox şiddətli tədbirlər görməyi lazım bilmədi, çünki Yapon kimi balaca (lakin azad)

dövlətə basılmağı onu Yapon davasını əvvəldən heç arzu etməyən millət qabağında şərməndə etmişdi. Və bundan savayı əcnəbilərin, yəni sair dövlətlərin də Rusiyanın bu daxili iğtişaşına diqqət yetirib, camaatı doğru hesab etməyi hökuməti məcbur etdi ki, millətin bu şikayətinə bietina baxmasın və bir də iğtişaş getdikcə şiddətlənirdi. Ona görə əncam çəkmək lazım idi. O idi ki, hökumət öz tərzi-idarəsini, yəni dolanacaq üsulunu dəyişməyə məcbur olub, camaatın dövlət işlərinə qatışıb, padşah ilə bir yerdə iş görməsinə razı oldu. Camaatın padşah ilə iş görməsi nəyə lazım idi? Padşahın yanında olan vəzirlər camaatın ehtiyacatını dürüst bilmirlər və bilirlərsə də, özlərinə zərər olduğundan dinməyib bildiklərini edirlər. Camaat isə özü öz ehtiyacatını yaxşı bilir. Binaənileyh bunu da anlayır ki, filan qanun camaata nəfdir və filan qanun zərərdir. Bəs zərərli qanunu yox edib, yeni nəfli qanun tərtib etmək üçün camaatın özü iş görməlidir. Və bundan savayı camaat bütün vəzirlərin də işlərinə baxmalıdır ki, camaata zülm və sitəm olub-olmadığını bilib, lazımi tədbirlər görsün. Və habelə qanun verən camaat ilə padşah olur. Vəzirlər ancaq camaat ilə padşah verən qanunları icra edirlər və ona dəxi camaat göz yetirir ki, qoyduğu nəfli qanun düzcə icra edilsin. Lakin bu qədər camaat gedib padşah ilə bir yerdə iş görə bilərmi? Məlum ki, görə bilməz. Bəs nə etməli? Camaatın içində layiqli, yəni camaatın hər bir dərd və ehtiyacatını dürüst anlayan və bununla bərabər camaatın getdikcə hər bir barədə tərəqqi edəcək yolunu bilən adamlar vardır. Camaat öz əvəzinə bu adamları seçib göndərər; bunlar padşah yanında bir məclis qurub, özləri qanun tərtib edərlər və bu qanunları padşaha təqdim edərlər ki, təsdiq etsin. Və o qanunlar üzrə də camaatın işi yeriyib, camaatı müşkül, ağır şərtlərdən azad edib, həm camaata və həm də dövlətə mənfəət verər. Haman bu məclis, yəni seçilmişlər məclisi Avropa dövlətlərinin hamısında var. Odur ki, o dövlətlər bizim dövlətdən elmli, sərvətli, qüvvətli olubdur, Yaponiyada, İngilisdə, Almaniyada və sairlərində belə məclis çoxdan bəri qurulub, dövləti getdikcə tərəqqiyə mindirir. Amma İran, Çin və Osmanlıda olmadığından, bu dövlətlər onun-bunun yemi və xörəyi olubdur. Əhalisi də, necə ki görürük, zillətdədir. Bu seçilmişlər məclisinə hər yerdə bir ad qoyurlar. Bunun ümumi adı parlamentdir. Rusiya hökuməti bu məclisə Qosudarstvennaya duma adı qoydu. Biz də öz türk dilimizdə Dövlət duması, yaxud məclisi-məbusan deyirik.

* * *

Qəzetimizin dünənki nömrəsində Dövlət dumasının, yəni millət seçilmişlərinin millətin nəfi üçün padşahla bir yerdə işləməsinin nə qədər vacib və lazım olduğunu bəyan etdik. Onu da yazdıq ki, Rusiyada iğtişaş başlandıqdan sonra hökumət millətə zərər və ziyan yetirən əvvəlki dolanacağını dəyişdirməyə, yəni millət seçilmişlərini çağırıb bir yerdə işləməyə razı oldu. Və bununla, hökumət özgə bir tərzə düşməyə qədəm qoymuş kimi oldu. Əvvəlki dolanacağını dəyişmək lazım gəldi. Belə ki, hökumətin millətdən ötrü zərərli olan əvvəlki dolanacağına hökuməti-müstəqilə və müstəbidə deyirdilər, yəni belə hökumət ki, dövlət işlərində millətin əl və ayağını bağlayıb və ağzını yumub, ancaq əmr edir ki, keyfi istəyib verdiyi qanunlara millət əməl eləsin. Bunun binəva millətə nə qədər ağır olduğunu yuxarılarda bəyan etmişdik və camaatımızın özü də öz təcrübəsi ilə bunu anlayıb, yaxşıca bilir və bir də hökuməti-müstəqilə və müstəbidəsi olan İran, Osmanlı millətlərinin də bizdən ikiqat ağır olan dolanacağı hamımıza məlumdur.

O biri tövr hökumətə ki, Rusiya elə olmaq istəyir, hökuməti-məşrutə deyilir. Yəni belə hökumət ki, millət padşah ilə bir yerdə öz-özünü dolandırır və hər bir sıxıntıdan azad olur. Qaradovoydan tutmuş vəzirlərədək heç birinin ixtiyarı olmur ki, millətə zülm və sitəm etsin. Bunlar hamısı millət qabağında öz əməllərindən cavabdəhəndə (məsul) olurlar. Və adilanə qurulmuş məhkəmə, yəni suddan savayı, heç bir çinovnik milləti tənbeh edə bilmir (və halonki, indi bir yasavul bütün kənd əhlini nahaq yerə döyüb söyür və heç bir kəs də buna bir söz demir). Qərəz, bütün dövlət, camaat diriliyinin yaraları olan çinovniklər pəncəsindən qurtarıb, millət özü hökm sürən olur və binaileyh, nahaq yerə döymək, rüşvət almaq, kef havası ilə iş görmək-filan – heç biri mümkün olmur.

Əlqissə, Rusiya hökuməti hökuməti-məşrutə olmağa meyil elədi, yəni Dövlət duması, yaxud millət məclisi qurmağa razı oldu. Lakin hökumət bu xeyir işi məcburən əmələ gətirirdi. Ona görə özünü yenə də ixtiyarın saxlamaq üçün millət məclisinin qurulmağını ağır şərtlərlə bürüyüb, məclisin gücünü azaltmaq istədi. Ona görə, əvvələn, millətin hər bir adamına istər xan olsun, gəda olsun, dövlətli olsun, kasıb olsun vəkil seçmək ixtiyarı vermədi. Yəni vəkilseçən millətin sayını azaltdı. Belə ki, padşahlığa xərc və naloq verməyənləri seçidən kənar elədi. Və saniyən, yerdə qalan adamlara da vasitəsiz-zadsız vəkil seçmək ixtiyarı vermədi. Dedi: "Siz öz içinizdən adamlar seçin, o adamlar da öz içlərindən vəkil seçib göndərsinlər ki, dövlət duması qurulsun". Daha belə vəkil seçmək işini dördqat balacalandırdı. Odur ki, deyirlər ümumi külli seçki haqqı (vseobşeye izbiratelnoye pravo) əvəzinə dördmərtəbəli (çetıryoxstepennoye) seçki haqqı verdi. Əlbəttə, bu cürə rəftar, yəni bu cürə vəkil seçkisi camaata xoş gəlməzdi. Odur ki, camaat Dövlət dumasına bir o qədər seçilmirdi. Və bir də hökumət hökuməti-məşrutə olduğunu elan etməmişdi. İğtişaş davam edirdi və artmağa başlayırdı. Artdı, hər yerə yayıldı, quru qoşununun və dərya qoşununun içində peyda oldu. Və dönüb inqilab (revolusiya) olmağa yaxın oldu. Hökumət gördü ki, camaat dediyindən dönmək istəmir (çünki camaat cana doymuşdu). Naçar hökumət məşrutənin gerisi olan azadlığı elan etdi, yəni millətin hər bir ehtiyacatını qəzetlərdə yazmağa razı olmayan senzorları kənar elədi. Yığılıb öz ehtiyacatını danışmağı qadağan edən qanunları götürdü, ruslaşdırmaq və nəsrani etmək və bir dindən o biri dinə keçməyə qoymamaq əmrini pozdu və hər bir şəxsi hər bir zülm və cövrdən azad etdi. Bu bəşarəti bütün əhaliyə bildirmək üçün padşah bir manifest verdi və bu azadlıq manifesti keçən 1905-ci sənə oktyabr ayının 17-də verildiyi üçün manifestin adına 17 oktyabr manifesti deyildi. Oktyabrın 17-də vaqe olan bu böyük bayram bizim hamımızın yadındadır. Ah, nə böyük şadlıq ilə biz bu günü istiqbal etdik! Bu gün bütün millət şad və məsrur və bəxtiyar görünürdü! Hamı can çürüdən zindandan xilas olmuş adama bənzəyirdi. Azadlıq! Hürriyyət! Tək bir bu söz bizə təzə ruh verib, qəlbimizdə olan kin-küdurəti, keçmiş zülm və sitəmləri unutmağa məcbur edirdi!

Çox adam şadlığından ağlayırdı!.. Belə bir qoca, qəvi, lakin istibdad zindanında çürüməyə tullanmış millətin o zindani-cəfadan qurtarıban, azadlıq çölündə sərbəst dolanmağa qədəm qoymasını görüb də, hansı hürriyyətpərvər adam sürurdan ağlamazdı?! Və hansı istibdad qulu (iranlılar və osmanlılar) rus millətini azadlığa buraxılmış görüb, öz baxtına acı bir istehza ilə gülməzdi?!

Qərəz, millət arzu etdiyi azadlığı alıb, haman dəm nəfbərdar olmağa başladı. Qəzetlər senzor əlindən qurtarıb, çoxdan bəri börk yırtan dərdləri öz səhifələrində sadalamağa başladı. Camaat polisə qoyulmaqdan azad olub, mitinqlər, yəni məclislər qurub öz ehti-

yacatını açıb da, dərman aramağa şüru etdi. Və hökumət məşrutəyə müvafiq dolanmağa başladı.

Lakin... Minlərcə təəssüflər olsun ki, belə bir şadlıq ilə istiqbal olunan azadlıq çox müddət çəkmədi. Millət aldanıldığını gördü... Rusiyanın üzünü gizlənmiş və fürsət axtaran istibdadın qara buludları bürüdü. İstibdadın, amansız istibdadın göyü guruldayıb, zülm və sitəm sədayi-dəhşətəngiz ilə məmləkətin hər tərəfinə səs saldı. Və yağdı, lakin nə yağdı? Qan yağdı, göz yaşı yağdı, azadlıq əsəri yuyulub getdi. Və bir-iki ay ondan əvvəl azadlıq çölünə buraxılmış kimi görünən bəxtiyar camaat təkrar istibdad zindanının dibində çapalayan göründü.

* * *

Keçən nömrədə bəyan etdik ki, oktyabrın 17-sində padşah tərəfindən verilmiş azadlıq onun dalınca hökumət tərəfindən icra olunan şiddətli və zülmlü tədbirlər arasında itib-batdı. Belə çıxdı ki, padşah millətinə vermiş azadlığı, milləti padşahdan ayıran hökumət, yəni vəzir-vüzəra tutub geri aldı. Aya, hökumətin belə bir şiddətli iş görə bildiyinə səbəb nə oldu? Millətin qoşun qismi ilə bərabər digər bir qismi ki, o qismə daxil olan adamların adına xuliqan deyirlər, bunlar hökumətə tərəfdar çıxıb, onun əlində kor alət və karastı oldular, hökumət isə bunların kömək və vasitəsilə binəva millət haqqında hər bir zülm və sitəmi rəva görməkdən çəkinmədi, guya iğtişaş əvəzində millətdən intiqam və qisas alırdı.

İndi bir özgə məsələ. Bəs qoşunun hökumətə tərəfdarlığına və millətin içində xuliqanlar peyda olmasına səbəb nə idi? Ona da səbəb o idi ki, millət içində böyük və qüvvətli ittifaq və ittihad yox idi. Əlbəttə, ittifaq və ittihadsız görülən iş də, ələlxüsus azadlıq almaq, yəni köhnə hökuməti puç edib, təzə hökumət düzəltmək kimi böyük bir iş ittifaq və ittihadsız başa gəlməzdi. Gəlsəydi də, davamlı və baqi qala bilməzdi. Vaqiən, əgər millət arasında böyük ittifaq və ittihad olsaydı, qoşun heç bir vaxt millətdən üz döndərə bilməzdi və xuliqan da olmazdı, ya az və cüzi olardı. Ona söz yoxdur ki, qoşunun, ələlxüsus, su qoşununun içində millətin həqiqi və qanacaqlı övladı çox idi. Bunu deməsək, Sevastopol, Mancuriya və Peterburqun səngəri olan Kronştat hadisələrini danmış olarıq. Hətta "Bütün rus ləşkəri hökumətə tələblər göstərib, əncam istəyirdi" – desək, heç xəta etmərik, lakin bu tələblər cüzi olduğuna görə, hökumətdən ötrü ağır deyildi. Ona görə hökumət qoşun qisminin tələblərinə tez bir zamanda əncam verdi və ondan sonra qoşunun hökumətə deyəcək bir sözü olmayıb, qulluğuna əməl etməyə məcbur oldu. Ələlxüsus, qoşunun kazak qismi millətə düşmən və hökumətə dost olduğunu bildirib, əvvəlincinin zərərinə və ikincinin xeyrinə iş görürdü və indi də görməkdədir.

Xuliqanlar isə özgənin müsibətindən nəfbərdar olmaq arzusunda olan adamlardan olub, guya padşahpərəstlik niyyəti ilə hökumətə kömək göstərmək üçün şeytançılıq, ara vurmaq, fitnə salmaq ilə milləti hərdən hökumətin zülmünə giriftar edirdilər. Belə alçaq adamlara provokator, yəni aravuruşduran, yaxud müfəttin (fitnə salan) dəxi deyilir. Bunların içində heyvandan yalnız bir dil ilə seçilən adamlardan tutmuş, universitetlər və sair ali məktəblərdə oxuyub dərs qurtarmış adamlar dəxi vardır. Təəccüb burasıdır ki, bu xuliqanlar özlərinə "vətənpərəst" və "təəssübkeş" deyirlər. Halbuki vaqedə vətənin böyük düşməni bunlardır və bir də təəccüb burasıdır ki, bunlar haman azadlıq elan edilən günün səhərisi zühur edib, hökumətin birinci dəfə üstün (üsgün) olmağına səbəb və kömək bunlar oldular. Guya bu "vətənpərəst"ləri kim isə, qəsdən əvvəlcə hazırlayıbmış ki, lazım yerdə istemal etsin.

Demək olur ki, əgər millət içində ittifaq və ittihad bərk olsaydı, nə qoşun üz döndərərdi, nə də xuliqanlar zühur edərdi. Bütün millət də aldığı azadlıq sayəsində dolanıb indiyə qədər vətən xeyrinə neçə-neçə səmərəli işlərə şüru etmişdi. Lakin bu xüsusda milləti də çox qınamaq olmaz, çünki Allah tərəfindən hər kəsin qəlbinə qoyulmuş bu azadlıq arzusu, əsrlərcə davam edən azadlıqsız əzabı millətin bir çox adamlarının qəlbində o qədər böyümüşdü ki, onlar heç güman etmirdi ki, bu arzunu hüsulə gətirməmiş bir kəs rahət ola... Və bir də hökumətə bunun dəxi artıq nəfi oldu ki, birinci cəbr və zordan sonra belə bir qiyama davam etməyə öyrənməmiş millətin bir çox hissəsi ürəksizlik edib, haman dəm sakit oldu, yerdə qalan igidlər isə hökumət ilə müharibələr edib, azadlıq yolunda fəda olurdular. Hökumət dəxi çox qazanmırdı, onun da kişiləri bu yolda "qurban" olurdu...

Qərəz, cəbr, zor, zülm, sitəm getdikcə artırdı, senzurasız çıxmasına izin verilmiş qəzetlər bir-birinin dalınca bağlanırdı, azadə qurulmasına rüxsət verilmiş mitinqlər və məclislər dağıdılırdı; əmniyyəti-şəxsiyyənin iyi, tozu yox idi. Kimini basırdılar, kimini kəsirdilər, kimini asır-

dılar, kımını sürürdülər, kimini tutub dustaq edirdilər. Həbsxanalar ağzına qədər dolmuşdu, hətta ac adamlara (fəhlə qisminə) çörək verməyi də qadağan etmişdilər. O idi ki, neçə-neçə pulsuz naharxanalar hökumət tərəfindən bağlandı...

17 oktyabrdan sonra neçə-neçə firqələr dəxi törədi, bunlardan ən alçağı "monarxist" ya "monarşist"lər firqəsidir ki, bunlar padşahbaz, padşahpərəst olub, hökuməti-müstəqilə və müstəbidə tərəfdarlarıdır. Üzvlərinin çoxu xuliqandır. Ən odlu firqə isə "anarxist" və ya "anarşist"lərdir ki, bunlar hər bir rahətlik və sakitliyə biganə olub, hərc-mərc və nizamsızlıq istəklisidirlər. Bunların üzvləri hökumət tərəfindən elə bir zülm gördükdən sonra hər bir azadlıq və hürriyyətdən dəstbərdar olan və azadlığa olan etiqadını itirmiş adamlardır. Sair firqələrdən üzv tərəfindən zorlusu "hökuməti-məşruteyi əvamiyyə" və ya "qanunu-əsasiyi-əvamiyyə" (Konstitutsionno-demokratiçeskaya yaxud "kadet" və ya "Narodnaya svoboda") firqəsidir ki, bunlar yalnız bir azadlıq tələb edirlər. "İctimaiyyun-inqilabıyyun" (sosial-revolyusioner) firqəsi dəxi vardır. Bunlar zəhmətkeş sinfini toplayıb, onların nəfini gözləmək üçün hökumət dolanacağını birdən-birə, cəbr ilə də olmuş olsa, təzələşdirib, ziraət cəmiyyətləri qurmaq istəyirlər. Tələb və məramca ən gözəl və ən göyçək firqə "İctimaiyyun-amiyyun" (sosial-demokrat) firqəsidir ki, bunun bütün tələbləri pəsəndidə olub, baş tələbləri hər nəyə desən dəyər. Bu tələb isə kasıb və dövlətlini bərabərləşdirib, bu gün pul ucundan və dövlətin çox və azlığından dünyada törənən həsəd, büxl, kin, ədavət, qüdrətsizlik, məhəbbətsizlik, üz döndərmək, yalan, saxtakarlıq, riyakarlıq, dava, müharibə və sairə məzmum şeyləri yox etməkdir.

Bu üç axırkı söylədiyim firqələrin hamısı istəyirlər ki, millət bilavasitə padşah ilə bir yerdə hökumət dolandırsın və dövlətin qanunlar qərar etmək işləri büsbütün millətin əlində olsun, nəinki vəzir-vüzəranın. Binaənileyh millət seçilmişlərinə külli-ixtiyar verilib, heç bir şeylə onun ixtiyarı təhdid edilməsin, yəni balacalanmasın. Lakin birinci şərt budur ki, millət seçilmişləri də bu seçki qaydası ilə seçilsin:

Seçki gərək ümumi külli olsun, yəni uşaq, dəli və qoşun əhlindən savayı hamının vəkil seçməyə ixtiyarı olsun, bu ixtiyar hamıda bərabər olsun (ağanın və nökərin ixtiyarı bir olsun). Bu ixtiyar kişiyə verilən kimi, arvada da verilsin. Seçki məxfi olsun, yəni hər seçkiçi hansı adamı istəyirsə, onun adını xəlvətcə yazıb versin, çünki seçki bu cür məxfi olmayıb aşkar olsa, o surətdə zəif adamlara qüvvətlilər güc edib

istəmədiyi adamı seçməyə məcbur edərlər. Seçki gərək vasitəsiz olsun, yəni haman birinci seçkidə seçilən adamlar vəkil adlanıb, millət məclisi qurmağa getsinlər.

* * *

Bəs vaqiən hökumətin millət məclisi qurmağa özünün artıq meyli olsa idi, o surətdə seçki haqqını ümumi külli, bərabər və məxfi olmaq qaydası ilə edərdi və nahaq yerə bu haqqı balacalandırmazdı. Və bundan savayı millət məclisindən başqa ayrı bir məclis qurmazdı ki, qanunlar verməkdə onun da millət məclisi kimi haqqı olaydı. Halbuki hökumət millət məclisinin belə bir naqis qurulması ilə iktifa etməyib, bir də özgə məclis qurdu. Və ona da, millət məclisinə verdiyi ixtiyaratı verdi, yəni qanun verməkdə onu da işə çəkdi. Bu məclis nə məclisdir?

Bu məclisin adı rusca Qosudarstvennıy sovet və ya Verxnyaya palatadır ki, türkcə biz buna Dövlət şurası deyirik. Bu məclisin üzvləri kimdir? Məclis kimlərdən qurulubdur? Bu məclisin üzvləri bürokrat və burjua adlanan adamlardandır. Bürokratlar, yəni məmur, qulluqçu, daha yaxşı – çinovnik və sahibmənsəblərdəndir. Vəzirlərdən tutmuş hər bir sahibmənsəb cümləsi bürokratdırlar. Hanki məmləkətdə ki, bürokratlar güclü və ixtiyarlıdır, o məmləkətin işi xarabdır, çünki ixtiyarlı bürokratın vücudu ilə millət özü heç bir iş görə bilməyib, həmişə bürokratların buyurduğuna əməl etməyə məcbur olar və heç bir ixtiyarı olmaz ki, durub bürokratların tutduğu əməllərə nəzər yetirsin ki, görək, aya, bu əməllər millətdən ötrü nə qədər ağırdır və milləti əzməkdə bürokratın nə haqqı vardır. İxtiyarlı bürokrat millətə qəyyum hesab olunur, millət dəxi onun qulu yerində görünür. Heç insaf deyildir ki, millət öz xeyir və şərini gözəlcə anladığı yerdə durub, uşaq kimi qəyyum əlinə verilə; halbuki bu qəyyum öz mənsəbini bütün millətin xeyrinə satmaz. İrana və Osmanlıya bir nəzər edək. Millətin qoyun sürüsü kimi dolanıb pərişan və sərgərdan qalmağına səbəb nədir? Bürokratiyanın gücü və ixtiyaratı...

Burjualar isə – bunlar da pul güdənlərdir, hər biri böyük iş sahibləridir ki, zəhmətkeş və əkinçi adamların vasitəsilə pul qazanıb, heç zəhmətkeşin halına qalmırlar. Bunlarınkı az adamı çox işlədib, çox da pul və sərmayə qazanmaqdır. Onlar mühafizə edib gözlədik-

ləri yalnız bir puldur, sərmayədir. Zəhmətkeşlərin məişətini yüngülləşdirmək onların ağlına gəlməz, zəhmətkeşin elmli, əqli-səlim sahibi, qanacaqlı olmağı onlara xoş gələn şeylərdən deyil və bir də zəhmətkeş nə qədər möhtacdırsa, bir o qədər də onlara nəfdir. Çünki zəhmətkeş üzüqara möhtaclığın ucundan hər bir əzab və zəhmətə razı olub, burjuanın keyfi istədiyi kimi işləyəcəkdir. Mülkədarlar dəxi burjua qismindəndir.

Bunlar böyüklük və ağalıq kimi şeyləri çox sevərlər. Bunların əqidəsincə kəndçi yaranıbdır ki, ağasına qulluq edib, ona pul qazansın, lakin nə tövr qazansın, nə ilə qazansın, qazanmağa iqtidarı varmı – bunlar daha ağanın işi deyil. Mülkədarın yeri var, kəndçinin yeri yoxdur. Ona görə kəndçi yerə möhtacdır və bu möhtaclıq da onu nökərçiliyə məcbur edir. Bu gün bütün Rusiyanı bürüyən aclığa səbəb kimdir? Mülkədarlar!

Bəs Dövlət şurasının üzvləri haman bu bürokrat və burjualardandır. Bunların bir qismini padşah özü üzv təyin edir və qalanları da seçki qaydası ilə seçilirlər. Bunlardan savayı Dövlət şurası üzvlərindən bəziləri də pravoslaviyaməzhəb ruhanilərin başçılarıdır. İştə aşikardır ki, həmin bu Dövlət şurasında olanlar əvvələn, milləti həmişə qısqı və əziyyət içində saxlayan çinovnik, bürokratiyanın vəkilləri, millətin zəhmətkeş qismini güzərəndan salan burjua və dövlətlilərin nümayəndələri, kəndçi sinfini ac qul məqamına gətirən mülkədar və dvoryanların seçilmişləri və bir də din azadlığına həmişə mane olan pravoslaviya ruhanilərinin başçılarıdır. Dövlət dumasına, yəni millət vəkillərinə verilən ixtiyar Dövlət şurasına da verilir. Dövlət dumasının qanun verməyə ixtiyarı olan kimi, Dövlət şurasının da qanun verməyə ixtiyarı vardır. Lakin iş buradadır ki, Dövlət duması vermək istəyən qanunu gərək Dövlət duması qəbul etsin və illa qəbul etməsələr, qanunun hökmü işləyə bilməz. Ta ki gərək buna padşahın özü baxa. İndi məlum olduğu üzrə, Dövlət duması elə qanunlar vermək istəyəcəkdir ki, bunların vasitəsilə bütün millət qısqı və əziyyətdən qurtarıb, müərffəhülhal dolana bilsin. Binaənileyh, bürokratiya və burjua siniflərinin də bu qanunlar vasitəsilə ixtiyaratını getdikcə azaldacaqdır. Belə olan surətdə Dövlət şurası ki, bürokratiya və burjuaziya yığıncağıdır, bu qanunların verilməsinə razı olarmı? Doğrudur, Dövlət duması dəxi Dövlət şurası vermək istəyən qanuna razı olmaz və bu qanunların baxılması padşahın özünə qalar. Lakin padşah ilə millət arasında Dövlət şurası

kimi keçmiş hökumət nümayəndələrinin sədd və süpər olması Dövlət dumasını hər bir ixtiyardan salmış kimi olar... Odur ki, Dövlət şurasının vücudu onsuz da naqis və natamam, bir tövr ilə yığılmış Dövlət dumasının özünü daha cüzi bir məclis mənziləsinə salır. Halbuki Dövlət dumasından başqa böyük və külli ixtiyar sahibi heç bir məclis olmamalıdır. Bunu da unutmayalım ki, Dövlət şurasında müsəlmanlardan bir vəkil də yoxdur və olmayacaqdır. Bu xüsusda ədibi-şəhirlərimizdən Ə.İbrahimov cənabları "Ülfət" qəzetində yazıb, Dövlət dumasının müsəlman vəkillərinə təklif edir ki, Dövlət şurasına müsəlman vəkili daxil etmək məsələsini dumada danışsınlar. Lakin mənim zənnimcə, bunun heç lüzumu yoxdur. Bir məclis ki, Dövlət dumasına zidd ola, orada müsəlmandan vəkil oldu, olmadı birdir. Yaxşı olardı ki, heç Dövlət şurası bilmərrə qurulmayaydı. Amma nə etməli ki, bu məclis quruldu. Və quruldu ki, neçə yüz illərdən bəri yığılmış millət ehtiyacatının rəf olmasına sədd və mancə ola...

* * *

Bir tərəfdən Dövlət dumasına millətdən üzvlər seçmək işinin elə naqis və balaca olması və digər tərəfdən də Dövlət şurası kimi bürokratlar yığıncağı qurulması milləti həvəsdən salıb, Dövlət dumasına olan etibarını kəsmiş kimi oldu. Dumanın əhəmiyyətini, yəni lazım və vacibliyini heç kəs nəzərə almırdı. Çünki bilirdilər ki, belə dumadan heç bir şey, heç bir mənfəət çıxmayacaqdır. Bu isə hökumətə çox xoş gəlirdi, hökumət duma açılacağını vədə verdiyinə peşman olmurdu. Zira ki, bunu yəqin etmişdi ki, hürriyyətpərvər adamlardan heç bir kəs elə naqis dumaya daxil olmağa razı olmayacaqdır. Razı olanlar da "vətənpərəst" və "təəssübkeş" adlanan 17 oktyabr firqəsindən olacaqdır, bunlar da hökumətin ağzına baxıb, "sür dərəyə" zərbi-məsələnə tabe olacaqdılar. Bundan maməva, hökumət belə güman edirdi ki, dumada hürriyyətpərvər adamlardan olsalar da, çox az olacaqdırlar. Ona görə onların rəyi dumada şayani-diqqət olmayacaqdır və bir də hökumət bunu özünə yəqin etmişdi ki, dumada hürriyyətpərvərlərə xələl və məmaniət yetirən hamıdan artıq kəndçilərin vəkilləri olacaqdır...

Qəribə budur ki, hökumət dumanın bütün millət nəzərində belə cəri bir şey hesab olunduğunu yəqin bilə-bilə, genə də istəyirdi ki,

dumanı bacardığı yerəcən heç zad məqamına yetirsin. Binaənileyh, əvvələn, Rusiyanın ətraf və əknafında dumaya vəkil seçmək işini qəsdən təxirə saldı. Odur ki, duma aprelin 27-də açıldı. Amma indiyədək bizim Qafqazdan oraya bir vəkil də göndərilməyibdir. Və saniyən, hər bir quberniyanı "voyennoye polojeniye" (idareyi-ürfiyyəyi-əsgəriyyə) altına alıb qoymurdu seçkidən qabaq camaat yığılıb, duma xüsusunda danışsınlar, dumanın nədən ibarət olduğunu əhaliyə qandırıb, layiqli adamlar seçməyə vadar etsinlər. O idi ki, dumaya bir qədər ümidi olan adamların da həvəsi itib, hər yerdə kəsalət və ətalət ilə istər-istəməz iş görülürdü.

Bir tərəfdən dəxi repressiya deyilən cəbr və zülm davam edirdi. Binəva millət bilmərrə istitaətdən düşmüşdü. Bir çox adamlar, ələlxüsus, yəhudilər Rusiyadan baş götürüb qaçırdılar. Bu cür dolanacaq nə vaxta kimi davam edəcəkdir, Allah bilirdi. Lakin bu dolanacağa dəxi tab gətirmək qeyri-mümkün idi. Binaənileyh, millət belə bir ağırdan ağır haldan çıxmaq üçün bir əncam axtarırdı. Əncam dəxi bu idi ki, ya qiyam edib, hökumətin belə bir tab gətirilməsi mümkün olmayan ağırlığını üstündən atmaq və ya hər nə tövr naqis də olmuş olsa, Dövlət dumasını ümid ağacı bilib ondan əl üzməmək. Əvvəlinci əncam məlum səbəblərə görə mümkün deyildi. Labüddən ikinci əncamdan yapışmaq lazım gəlirdi. O idi ki, dumanın açılmasına bir az qalmış millət içində dumaya həvəs artmağa başladı. Əvvəl dumaya özünü salmaq istəyən "17 oktyabr" və ya monarxistlər firqəsi idi. Ondan sonra "kadet" və yaxud məşruteyi-əvamiyyə firqəsi kəmali-şövq və həvəs ilə öz adamlarını dumaya salmağa səy və qeyrət etdi. Və elə bir cəld iş gördü ki, "17 oktyabr" firqəsini basıb keçdi. Bunun dalıncan ictimaiyyun-amiyyun firqəsi tərəfindən də dumaya üzv hazırlamaq əlamətləri göründü. Millətin birdən-birə dumaya olan belə həvəsi hökuməti əndişəyə saldı. Daha millətin dumaya layiqli üzvlər hazırlamaq əmrində bu qədər cəld və sürətlə iş görməsinə mane ola bilməyib, hökumət özünü qorumağa başladı. Ən əvvəl pul sarıdan özünü təmin və arxayın etmək üçün beş prosent ilə külliyyətli borc elədi. Və saniyən bu zülm və sitəmin davamına səbəb olan Vitte, Durnovo və kompaniyaya mənsub adamları belə bir "hünər"dən sonra qocalıb yorulduqlarına görə qulluqdan çıxardıb, əvəzində tazalarını qoydu. Bundan başqa, Dövlət dumasının açılmasından iki gün əvvəl dövlət üçün əsas qanunlar elan edildi. Və bu qanunlar Dövlət dumasının cüzi bir məclis olduğunu ikinci dəfə camaata bəyan etdi.

Lakin daha dumanın işi qurtarmışdı. Aprelin 27-si yetişdi, vəkillər Peterburqa yığıldı və Duma kəmali-təntənə ilə açıldı. Və hökumət ancaq burada qandı ki, bu duma o özü güman etdiyi dumaya bənzəmir və buraya yığılan vəkillər hökumətin əmrinə qulaq asmaq üçün yığılmayıbdır. Bunlar millətdən ötrü həqiqi hürriyyət və azadlıq qazanıb, camaatı istibdad zindanından qurtarmaq üçün and içib gəlibdilər. Vəkillərin padşah həzrətlərinin nitqinə cavabən yazdıqları adres bunu aydın surətdə hökumətə bildirdi.

Adres göndərilməndən indiyə kimi bütün Rusiya deyil, bütün aləm gözləyirdi ki, görək hökumət dumanın bu adresinə nə cavab verəcəkdir. İndi bu may ayının 13-də vəzirlər heyəti dumanın adresinə cavabən bir para bəyanat verib, dumanın baş tələblərini rədd edir. Duma isə, necə ki bugünkü teleqramlardan göründü, vəzirlər heyətinin bu hərəkətindən dilgir və mütənəffir olub, öz dediklərində qayim durmağı qət edibdir. İştə, bu gündən belə bütün aləmin ənzarı Peterburq tərəfinə cəlb olunubdu. Hər kəs deyir görək nə olacaqdır. Lakin bunu unutmamalıdır ki, vəkillər fəda olmaq istəsə də, öz camaatını istibdaddan qurtarmağa and içən kimi, millət dəxi, candan keçiləcək isə də, öz vəkillərinə kömək etməyə and içibdir...

TƏƏSSÜFLƏR OLSUN

Hərgah millətlərin tərəqqisini, yəni qabağa getməsini ölçə bilən bir ölçü olsa idi və o ölçü ilə müsəlman millətinin qabağa getməsi ölçülsə idi, onda məlum olardı ki, biz bir addım qabağa, iki addım dala, dörd addım qabağa, üç addım dala, iki addım dala, beş addım qabağa eləyə-eləyə qabağa gedirik.

Bir kəlmə, biz təzə yerimək öyrənən uşağa oxşayırıq ki, bir addım atıb sonra yıxılır; durub bir addım daha atır, amma ayaqları birbirinə dolaşıb yenə yıxılır, yenə durur, addım atır, bədəni ağırlıq edib yıxılır, durur və i.a.

Uşağın bu cürə yıxıla-dura getməsinə səbəb nədir?

Məlumdur ki, onu yeridən əzaların cismani qüvvətsizliyidir.

Yaxşı, bəs bizim bu cürə – bir dala, bir qabağa addım atıb yıxıladura "qabağa getməyimizin" səbəbi nədir?

Onun da səbəbi bizi qabağa aparan əzaların, yəni iş başında duranlarımızın qüvvətsizliyidir. Amma bizim əzalarımızın qüvvət-

sizliyi cismani qüvvətsizlik deyildir, yəni əzalarımız çolaq, şil və şikəst deyildirlər. Onların qüvvətsizliyi mənəvi qüvvətsizlikdir!

Mənəvi də qüvvətsizlik budur:

Cəmiyyət, yəni cani-dildən işə girişməklik yox! Fəaliyyət, yəni oyaq və ciddü cəhd ilə iş görmək yox, hamısından bədtər mətanəti-qəlb, yəni cürət, ürəklilik yox, həvəs yox, şövq yox, arzu yox...

Vallah, mən bilmirəm ki, bu əzalarımız öz xüsusi işlərində nə tövrdürlər. Amma onu bilirəm ki, millət işinə qalanda, bunların hamısı mənəvi qüvvətsizdirlər ki, rusca buna besxarakternost deyirlər. Türkcəsinin dürüstlüyünü bilmirəm. Burada da bizim əzalarımızı balaca uşaqlara oxşatmaq olar.

Görürsən ki, bir balaca uşaq anasının qucağından yerə düşüb bir qədər gedir, birdən qabağında bir pişik görüb, tez qayıdıb qaçır anasının qucağına, sonra düşüb bir də gedir. Bu səfər də bir ayrı şeydən, məsələn, öz kölgəsindən qorxub, yenə qayıdıb qaçır anasının qucağına.

Bizim əzalarımız da öhdələrinə götürdükləri bir işi o qədər aparırlar ki, nə qədər bu iş özbaşına gedə bilər. Amma elə ki işin qabağına bir balaca əngəl çıxır və burada işi aparmaq üçün əngəli itələmək lazım gəlir, o halda əzalarımızın əli-ayağı boşalıb, işdən əl götürməyi məsləhət bilirlər. İş dəxi "Ördək, balıq və xərçəng"in çəkdikləri araba kimi hamanca yerində qalır...

Bu bir!

İkinciyə qalan yerdə, bizim bir dərdimiz də budur ki, bəzi adamlarımız elə bir işin dalınca gedirlər ki, o işin nədən ibarət olduğunu özləri də bilmirlər və binaənileyh, gördükləri işdən heç bir səmərə hasil olmur.

"Ördək, balıq və xərçəng" hekayətini yazan rus ədibi Krılov bir ayrı hekayəsinin başında bu sözləri yazır:

"Əgər başmaqçı durub bulka çörəyi bişirə və bulkaçı da başlayıb başmaq tikə, bu cürə işdən əziyyətdən başqa heç zad çıxmaz".

Bizim "bulka çörəyi" bişirmək istəyən "başmaqçılarımızın" və "başmaq" tikmək istəyən "bulkaçılarımızın" əsil məqsədinə baxsan, doğrudan da, "bulka" bişirmək və "başmaq" tikmək deyil. Bəs nədir?!

Özlərini göstərmək!

Bəli!.. Yuxarıda zikr elədiyim Krılov cənabları belə bir hekayə dəxi yazıbdır:

Günlərin bir günü ayı, meymun, keçi və bir də eşşək bir musiqi məclisi düzəltmək istəyiblər. Biri əlinə tar, biri saz, biri zurna və

biri dəf alıb başlayıblar çalmağa. Amma görüblər ki, səs-küydən başqa heç zad çıxmır və çaldıqları havacat heç kəsin sümüyünə düşmür. Deyiblər ki, yəqin pis oturmuşuq, gəlin yerimizi dəyişək. Durub yerlərini dəyişiblər, çifayda, çaldıqlarından yenə heç bir zad çıxmayıbdır. Görüblər ki, bir bülbül uçur, haman dəm durub bülbülə yalvarıbdılar ki, ay bülbül, sən allah, bir bizi başa sal görək nə tövr oturaq ki, bizim çaldığımızdan bir şey çıxsın.

Bülbül də gülüb deyibdir ki, canım, siz musiqişünas deyilsiniz. Binaənileyh, nə tövr otursanız, lap mil dursanız, çalğınızdan heç zad çıxmaz.

Əlbəttə, çox yaxşı olardı ki, bizim də haman adamlarımız bir işgörən bülbülü gördükdə ona məsləhət edəydilər. Lakin heyhat!.. Çünki bizim haman adamlarımızın məqsədi iş görmək olmayıb, özlərini göstərməkdir. Ona görə də işbilən bülbülü gördükdə hoy-huy salıb, daş atırlar ki, bülbül qaçsın.

İşbilən "bülbül"ümüzdə də o cürət, o ürək yoxdur ki, bunların hərəsinin başına bir qapaz salıb deyə: Durun belə! Yazıq camaatı damaq eləməyin!

Odur ki, deyiblər: Bülbülümüzdə həvəs yox, qarğamızda səs.

BAŞÇI LAZIMDIR

Tarixi bir həqiqətdir ki, bir millətin təkamül və ya inqilab təriqilə tərəqqi və təməddüninə səbəb o millətin başında duran bir və ya bir neçə tərəqqipərvər və təcəddüdxah firqələr olubdur.

O firqələr öz millətin cürbəcür təriqlər ilə, doğrudan da, irəli aparmaq yolunda böyük fəaliyyət göstərib, qabaqlarına çıxan hər dürlü mümaniətlər ilə mübarizə və mücahidə etməklə bilaxir öz məqsudlarına nail olublar.

Firəng, nemes, ingilis, amerikanlar, yaponlar və sairələr bugünkü tərəqqi, təməddün və rifahi-hal ilə asudə məişət keçirmələrində haman başlarında duran və onları təriqi-səadət və tərəqqiyə yönəldən firqələrinə borcludurlar.

Bu gün bu millətlər dərəceyi-tərəqqinin o payəsinə çıxıbdırlar ki, hər bir fərdləri öz xeyir və şərlərini layiqincə anlayıb, əsil insan kimi yaşamağı bilirlər və onun sayəsində də sərbəstanə və qeydsiz ömür sürürlər. Orada hər bir fərd vəzir olsun, fəhlə olsun, təfavütü

yoxdur, öz-özlüyündə, öz tərzi-məişətində onu təsdiq edə biləcək və onun hüququna və hürriyyəti-şəxsiyyətinə xələl yetirəcək heç bir şeylə müqəyyəd deyildir, məgərinki, bunun hürriyyəti-şəxsisi başqalarının hüququna təcavüzdən ibarət olmasın. Bu isə onlar üçün qeyd deyildir, çünki ölkənin hüququna toxunmaq, ya hürriyyəti-şəxsisinə əl atmağın böyük bir şər olduğunu hər bir fərd çox gözəl anlayır.

İnsanlıq vəzifəsi isə şərdən çəkinməklikdir.

Xülasə, onlar hamısı birlikdə hər bir yaxşını təqdir və hər bir yamanı təkdir və təqbih etməyə qadirdirlər.

Yaxşı ilə yamanı dürüst anlamaq üçün də mütləq elm və bilik lazımdır ki, o da onlarda vardır. Elm və bilik sahibi olmaqlarının da başlıca səbəbi yuxarıda ərz etdiyimiz üzrə öz mücahid firqələri olubdur.

Bu anda dəxi biz görürük ki, məsələn, qonşumuz erməni, gürcü, yəhudi millətlərinin başlarında öz firqələri durub ətradi-milləti kəmali-səbat ilə irəli sürməkdədirlər. Odur ki, məsələn, bu gün Yevropadan dala qalmış olan Rusiya dövlətinin ümumtərəqqi və təcəddüd işlərində də iştirak edənlər ancaq bu millətlərdir. Mücahid firqələri illərcə çalışıb-vuruşmaqla bu millətlər birdəfəlik tərəqqi və təcəddüd yoluna...

Keçək bizə! Əcəba, bizim millətimizi qabağa aparan kimdir? Hanı bizim başımızda duran firqə, yaxud firqələr? Hanı o tərəqqi və təali bələdləri ki, bu gün cəhalət çöllündə, köhnə və çürümüş əqidələr palçığına batmış olan millət karvanını tərəqqi və təcəddüdün rahat yoluna sala bilərlər? Hanı?

Yoxdur! Karvan batıb qalıbdır...

Bizim də sair millətlərdə olan kimi başçı firqəmiz olmasa, əcəba, tərəqqi və təcəddüd edə bilərikmi? Haradan edə bilərik? Məgər ziyalılarımız, ürəfa və intelligentlərimiz bunu bilmirlər? Anlamırlar? Neyçün heç bir təşəbbüs yox?! Neyçün oxumuşlarımız heç bir asari-həyat göstərmirlər.

Camaatımızda müşahidə olunan cüzi tərəqqi və təcəddüd əlamətindən naşi təselli tapıb da, arxayın oturmaq yaramaz!

Bu əsrdə tısbağa qədəmi ilə tərəqqi etmək heç tərəqqi etməməyə müsavidir.

Burada milləti irəli sürüyə bilən qüvvət lazımdır!..

ÖZ QƏDRİMİZİ BİLMİRİK

50-60 il, daha doğrusu, bir yüz il bundan əqdəm Bakının ətrafı otsuz-ələfsiz bir düz olub, heç bir kəsə mənfəət vermirdi. Bu səbəbə görə oranın qədrini bilən, bu yerlərin içində yatan milyonlardan, qızıldan xəbərdar olan bir kimsə yox idi. Çox ola bilsin ki, içərisində milyonlar yatan bu yerlərin üstündə acından ölənlər də az deyildi. Amma bir gün oldu ki, bu yerlərin qədr və qiyməti bilindi.

Bu yerlər artıq möhtərəm və əziz oldu. Hər bir parçaları qızıl qiymətinə bərabər oldu. Yer isə öz içindəki sərvətü samanını dışarı çıxardıb, milyonlar qazandırmağa başladı. Bu milyonlar sayəsində Bakı da, onun ətrafı da kəsbi-əhəmiyyət edib getdikcə abadlaşmağa başladı.

İndi bizim elmdən, sənayedən məhrum qalmış olan camaatımızı haman bu ziqiymət yerlərə təşbih etmək cayizdir. Zira heç onsuz deyil ki, camaatımız əfradı içində bütün müddətə xeyir və mənfəət yetirib xalqı başıuca edəcək adamlarımız olmasın! O adamlar vardır. Lakin onlar hələ öz istedad və qabiliyyəti-xariqüladələrini büruzə vermirlər. Çünki içərisində yaşadıqları şərait müsaid deyildir. Bütün camaatımızı bürümüş olan cəhalət hər bir şeyin, hər bir təşəbbüsün qabağını bir səddi-ahənin kimi kəsir, qoymur.

Nədəndir ki, Yevropada hədsiz adamlar çıxır ki, öz ağıl, fərasət və qabiliyyətləri ilə deyil, yalnız öz millətlərinə, bəlkə ümum insaniyyətə həm maddi və həm mənəvi mənfəət yetirirlər. Amma bizim içimizdən elələri çıxmır?!

Məgər Allah-taala bizi qabiliyyətsiz, istedadsız yaradıbdır? Xeyr, bizim hamımızın xilqəti birdir. Ancaq mühitimiz olan şərait bizim dahilər üçün müsaid deyildir. Bizdən də ümuminsaniyyət dahiləri çıxmağa yol vermirlər. Və işıq gələn yerləri bərk-bərk bağlayıblar. Doğrudan da, novicad və ehtiram edilib də xalqa mənfəət yetirən şeylərin adına "min əməli-şeytan" deyəndə, hankı müsəlman oğlu müsəlman telefon, teleqraf, maşın və sair bu kimi şeylər icad etmək fikrinə düşərdi? Sair elmlərə, sənətlərə dəxi bu nöqteyi-nəzərdən baxıldığı zaman onların tərəqqisi mümkün idimi? Onları tərəqqi etdirən dahilərin zühuru qabil idimi?! Hələ indiyə qədər, deyil elm, bilik sayəsində, bəlkə öz istedadi-xudadatının zorundan, güc-bərəkətindən şairlikdə, ədiblikdə şöhrət qazanmış olan üdəba və şüəralarımız təlin və təkfir edilməyibdirlərmi?

İngilislər sərvəti-təbiisindən milyonlar qazanmaqdan başqa, dünyanın ən gözəl və qiymətli bir yer guşəsi olan Hindistanı tək bir nəfər adamlarına dəyişməyə razı deyildirlər. Bu adam kim idi? Şairi-milliləri olan məşhur Şekspir idi. İngilis əhli o şairi bütün Hindistandan əziz tuturdular.

Belə bir ağır şərait içində yaşadığımız halda bizim içimizdən ingilislərin şekspirlərinə müqabil adamlarımız olmadığı təbiidir, lakin orasını unutmamalıdır ki, bizim millətimiz içində indi və ya gələcəkdə şekspirlər istedadında yaradılmış adamlar yox deyildir. Vardırlar və bədbəxtlik burasıdır ki, biz öz cəhalətimizlə o dahilərin zühuruna mane oluruq. Onlar üçün müsaid şərait hazırlamırıq ki, öz zühurları ilə həm bizi sairlər içində başıuca etsinlər, həm də insaniyyətə bir xidmət göstərsinlər.

İndiyə qədər, bu neçə illər ərzində içimizdə dahilik üçün doğulmuş əfradımız belə cahil mühit içində tərəqqi edə bilməyib, bütün istedadları ilə itib-batıbdılar... Söz yoxdur ki, əgər Edison da bizim içimizdə doğulub belə şərait üzrə yaşasaydı, o da bu gün icad etdiyi xariqüladə makinalara şeytan əməli dəyərdi. Və ola bilsin ki, bu gün bizim içimizdə Edisonun ixtiraatına şeytan əməli deyən şəxslər Yevropada doğulmuş və bəslənmiş olsaydılar, onlar da Edison kimi cürbəcür ixtiraatları ilə aləmi-insaniyyətə xidmətlər göstərə bilərdilər, lakin nə fayda ki, elə olmayıbdır.

Lakin indi bu iyirminci əsrdə vaxtdır ki, daha biz öz insanlığımıza diqqət yetirək. Özümüzün də sairlər kimi məharətlər göstərə biləcək insan olduğumuzu nəzərə alıb, bir kərə o qara pərdəni üstümüzdən ataq. Məharət və ustadlığımızın üstünü bürüyən kəsif qabaqları yırtaq və içimizdə mövcud olan sərvətü səmanın zühuruna və zühuru ilə həm özümüzə və həm bütün insaniyyətə xidmətlər göstərəcəyinə mane olmayaq. Bəsdir ki, indiyə qədər xalqın ağıl və fərasəti ilə mənfəətbərdar olurduq. Qoy bundan sonra da xalqın bizdən istifadə etməsinə yol açılsın!

RƏHBƏRLƏRİMİZ

Hər bir millətin təkamül və yaxud inqilab təriqilə tərəqqi və təməddününə səbəb o millətin başında duran, rəhbəri olan bir və ya bir neçə tərəqqipərvər və təcəddüdxah firqələrin olması tarixi bir həqiqətdir.

Haman firqələrdir ki, öz millətini müxtəlif yollarla irəli aparmaq yolunda ciddü cəhd edib və böyük mərdanəlik və fəaliyyət göstərib, qabaqlarına çıxmaq və hər bir cürə mümaniətlər ilə mübarizə və mücahidə etməklə bilaxirə öz məqsudlarına nail olublar.

Firəng olsun, nemes olsun, yapon olsun – bu tayfalar hamısı bugünkü tərəqqi, təməddün və rifahi-hal ilə asudə məişət keçirmələri də haman başlarında duran və onları təriqi-səadət və tərəqqiyə tuş edən firqeyi-mücahidlərinə borcludurlar.

Firqeyi-mücahideyndən məqsudumuz bir neçə adamın, özlərini millət rəhbəri hesab edib, tərəqqi etmək adı ilə bilib-bilmədikləri işlərə mübaşir olmaq deyildir. Bəlkə hər kəs milləti tərəqqi etdirəcək bir sənət, bir əmələ öz qəlbində bir şövq və həvəs hiss etdiyi surətdə haman əmələin dalınca düşüb, onu xalq arasında nəşr və təmim etmək, onunla xalqın ya ağlını və yaxud hissiyyati-aliyəsini nəşvü nüma etdirməklə xalqa maddi və yaxud mənəvi bir xidmət göstərmək işində davam etməkdədir.

İştə mütərəqqi və mütəməddin millətlərin dərəceyi-tərəqqinin ali payəsinə nail olub da, bizlərə nisbətən xoş gün keçirmələri öz karkün adamları sayəsindədir.

Bu gün o millətlərin tərzi-məişəti də bizimkindən dəfələrcə xoşraqdır. Orada hər bir fərd mənafeyi-ümumiyyənin nədən ibarət olduğunu və bu mənafeyi-ümumiyyə ilə hər kəsin də mənfəəti-şəxsiyyəsi təmin edildiyini dürüst anlayıb əsil insana yaraşan bir tərzlə ömür sürürlər. Orada hər bir fərd, hər kim olursa olsun, özözlüyündə öz tərzi-məişətində onu təzyiq edə biləcək və onun hüququna və hürriyyəti-şəxsiyyəsinə xələl yetirəcək şeylərlə müqəyyəd deyildir, məgərinki bunun xələl hürriyyəti-şəxsiyyəsi başqaların hüquqi-şəxsiyyəsinə təcavüzdən ibarət olmasın. Bu isə onlar üçün heç bir qeyd olmayıb, bəlkə özləri arzu edən şeylərdəndir. Çünki özgənin hüqquqna toxunmaq, ya hürriyyəti-şəxsiyyəsinə əl atmağın böyük bir şər və zərəri olduğunu hər bir fərd çox gözəl anlayır. Xülasə, onlar hamısı birlikdə hər bir yaxşını təqdir və hər bir yamanı

təkdir və təqbihə etməyə qadirdilər. Yaxşı ilə yamanı da dürüst anlamaq üçün elm və sənaye sahəsində tərəqqi etmək lazımdır. Bu elm və sənayenin, yəni tərəqqi yolunun xalq üzərinə açılmasına da səbəb başçı firqələridir.

Lakin bizlərdə hələ elə rəhbərlər yoxdur, yox olmalarına da səbəb ümum camaatımızı bürüyən, əhatə edən ətalət və kəsalətlə bərabər, rəhbərliyə layiq olan şəxslərimizin məişətcə dar gün keçirmələridir.

Bu halda bizim hər bir fərdimiz öz tərəqqisi üçün bir rəhbərə möhtac olduğunu hiss edir. Lakin bu rəhbərlər öz rəhbərlik işlərinə ehtimam və diqqətlə məşğul olmaq üçün məişətcə təmin olunmalıdırlar. Doğrudan da, rəhbər olmaq istedadını haiz olan şəxslərimizin öz aramızda qədr və qiymətləri bilinməsə, onlar təminiməişət üçün başqa yerlərdə, başqa tayfalar içində və ya başqa bir yolda işləməyə başlayıb, xalqa fayda verə bilməzlər.

MÜƏLLİMLƏRİMİZ VƏ MƏTBUAT

Keçən sənələrdə yenə də heç olmasa bir para müəllimlərimiz qəzetlərdə nafe məqalələr yazmaqla oxuyanlara bir növ mənfəət yetirirdilər. Lakin bir neçə zamandan bəridir ki, müəllimlərimizdən heç bir səs-səmir yoxdur. Guya bunların mətbuat səhifələrində müzakirə olunacaq heç bir ehtiyacları, mühüm məsələləri yoxdur. Və guya oxucularımızın bunların məqalələrinə heç bir möhtaclığı dəxi yoxdur, halbuki həqiqətdə belə deyildir. Müəllimlər əhalimizin savadlıları və əhalimizə savad öyrədən olduqlarından onlar mətbuata daha artıq əhəmiyyət verməlidirlər. Əhalimizin övladı mütəəllimlərimizin bilavasitə ağızdan söylədiyi sözlərə möhtac olduqları kimi, övladların ataları da müəllimlərin onlara dair söyləyəcək olduğu sözlərə möhtacdır. Bu sözləri də ancaq mətbuat vasitəsilə söyləmək mümkündür. Bir çox məsələlər vardır ki, təlim və tədrisə dair bir müəllim bilən şeyi çox vaxt o biri müəllimlər bilmirlər. Bir çox məsələlər vardır ki, o barədə müəllimlərin fikri lazımdır. Ümumi müəllimləri bir yerə yığmaq və orada təlim və tədris xüsusunda danışmaq, fikir verib fikir almaq nə qədər mühüm bir işdir. Amma müəllimlər ictimaa bu halda həmişə mümkün deyildir. Halbuki belə bir ictimai möhtac olmayıb da, mətbuat vasitəsilə

mübadileyi-əfkar etmək mümkündür. Bu isə zənn edirəm ki, çətin bir iş deyildir. Təlim və tərbiyə məsələlərindən başqa min cürə ümumi məsələlər vardır ki, onların həlli yolunu da bir çox müəllimlərimiz gözəlcə bilirlər.

Ona görə də bu yolda dəxi qələmləri ilə çox kömək edərlər.

Kənd müəllimlərimizin isə bu yolda vəzifələri daha artıqdır. Məlumdur ki, kəndlərimizin qismi-əzəmi cəhalət guşəsinin timsalıdır. Bu qaranlıq yerdə bir işıq varsa, o da kənd müəllimidir. Hər bir kəndin hər bir cürə ehtiyacı kənd müəlliminə gözəlcə aydındır. Belə olan surətdə bu barədə dinib-danışmamağın nə mənası vardır! Necə ola bilər ki, yanında olan adamların çəkdiyi əziyyətləri, ehtiyacları görə-görə və bilə-bilə bu barədə sükut ixtiyar edəsən və danışmayasan. Halbuki səni danışmamağa məcbur edən heç bir şey yoxdur...

Yenə də Rusiya müsəlmanları içində içəri Rusiyanın müsəlman müəllimləri bu barədə mətbuat vasitəsilə həm özlərinə və həm də əhaliyə bir çox mənfəətlər yetirirlər. O tərəflərin qəzetlərini açdıqda içində bir-iki nafe məqaləyə təsadüf olunur ki, müəllifləri müəllimlərdir. Amma bizim Qafqaz müəllimləri bu qədər ehtiyacatın vücudu ilə mətbuata əhəmiyyət vermirlər. Bir kəlmə, öz mühitlərinə laqeydanə bir nəzərlə baxırlar. Bu isə arzu olunan işlərdən deyildir...

"MİLLƏT GERİDƏ QALDI"

Mən and içərəm ki, bizim millətin doğrudan da geridə qalmağına bir səbəb də haman bu "millət geridə qaldı" sözüdür ki, daha gündə onlara qulaq asmaqdan təngə gəlmişik. Görürsən iki qərib müsəlman bir şəhərdə görüşürlər. Birisinin də əlində qəzet var. Haman saat başlayırlar ki, "millət geridə qaldı", bizi xabi-qəflət basdı, vay halımıza, vahəsrəta və sair. Bu cürə boş və bimənə sözlər ki, içində bir qəpiklik mənfəət yox, savayinki ürək bulanması və bir də baş ağrısı. Bu cürə kiflənmiş və çürümüş sözləri hamıdan çox deyən içimizdə bir sinif adamlardır ki, onların müsəlman millətinə olan zərəri nəflərindən çoxdur və millətin geridə qalmağına səbəb məhz onlardır. Həqiqətdə geridə qalmaqla irəli getməyin nədən ibarət olduğunu bilməyən bu adamların heç məsləki, əqidəsi olmur və hərçənd hürriyyət və ədalətdən dəm vururlar, amma onların da nəmənə

şey olduğunu başa düşməyib, hər bir əməllərində də tərsinə iş görürlər. İki zidd məsləkli qəzeti ki, bunun biri camaatın əxlaqını pozub tərəqqisinə mane ola və o biri də camaat üçün tərəqqi yolu açə, bunlar bir-birindən seçə bilməzlər, məhz bir "xətir" üçün ya o qəzetə və ya bu qəzetə tərəfdar olarlar.

Camaata elan edirəm ki, bu cürə adamlardan bacardıqca uzaq olub, bir də onlar "millət geridə qaldı" dedikdə sözlərinə qulaq asmasınlar.

BİZ NƏ TÖVR İŞ GÖRÜRÜK?

Biz iş görmək istədikdə bir şeyi yadımızdan çıxardırıq.

O şey nədir?

O şey nərdivandır!

Necə yəni nərdivan! Nərdivan nədir?

Nərdivan bir alətdir ki, onun vasitəsilə adam tədriclə yuxarı çıxa bilər. Hər kəs nərdivansız yuxarı çıxmaq istəsə, elə yıxılar ki, təpəsi dağılar.

Bu belə! Bundan başqa, bir də biz həmişə başımızdan yekə iş görürük.

Amma bunun səbəbi var. Səbəbi də budur:

Qonşularımız siçan boyda işlər gördükdə, biz yatmışdıq. Sonra onların işi böyüyüb, keçi boyda olanda da, biz yatmışdıq. Sonra onlar eşşək boyda işlər görməyə üz qoydular, biz yenə yatmışdıq. Qonşularımızın eşşək boyda olan işi irəliləyib camış yekəlikdə oldu, amma biz yatmışdıq. Və camış dönüb dəvə olanda da, biz yatmışdıq. Biz ancaq o vaxt oyandıq, nə vaxt ki, qonşularımız fil boyda işlər görməyə başladılar.

Qərəz, gözümüzü ovxalayıb dedik ki, nə var? Biz də o boyda işlər görə bilərik və başladıq fil boyda işlər görməyə.

Axırı nə oldu?

Axırı belə oldu:

Filin bir ayağını qayırmamış yoruluruq və durub qaçırıq. Sonra utanırıq, deyirik, gəlin təzədən başlayaq, ancaq burasını iqrar eləyirik ki, filə gücümüz çatmır. Deyirik ki, ondan balacasını qayıraq. Fildən balaca nədir? Əlbəttə, dəvə. Qərar qoyuruq ki, dəvə boyda qayıraq, başlayırıq. Amma yenə dəvənin ayağı tamam olmamış yorulub qaçırıq. Sonra yenə yığılırıq, deyirik ki, dəvə iridir, ondan balacasını başlayaq. Ondan balaca nədir? Camışdır. Başlayırıq camış boyda iş görməyə, lakin camışa da gücümüz çatmır. Aşağa enirik (halbuki, qonşular fildən yuxarı çıxırlar). Deyirik ki, eşşək boyda iş görmək, amma eşşək də bizə güc eləyir. Tuturuq keçini. Görürük yox, keçiyə də tab gətirə bilmirik. Onda məsləhəti qoyuruq siçan üstünə.

Amma onda da görürsən ki, içimizdən bir pişik çıxdı və siçanı yedi!..

Biz belə iş görürük.

BİZ İLƏ YEVROPALILARIN TƏFAVÜTÜ

Yevropalılar ağappaq və tərtəmiz bir libas kimidirlər. Biz də kirdən rəngi məlum olmayan mündəris bir paltar kimiyik. Odur ki, haman ağ və tərtəmiz paltarın üstə bir balaca ləkə düşəndə, o saat məlum eləyir, amma kirli paltarın üstünə min o qədər ləkə düşsün, məlum eləməz. O səbəbdəndir ki, məsələn, Firəngistanda birisi ildə, ayda bazarda bir güllə atanda qəzetlər bir həftə o barədə danışırlar, camaat böyük həyəcana düşür... Halbuki bizim yerdə gündə beş-altı adam öldürülür, heç kəsin qulağına girmir...

Ağappaq qar kimi təmiz bir pencəyin üstünə bir damcı mürəkkəb düşərsə, yarım verstdən məlum eylər, amma bizim bədənimizdəki çirkin paltarın üstünə bir girvənkə mazut tök, bir addımdan məlum eləməz.

* * *

İkinci təfavüt.

Bu halda, yəni bu iyirminci əsrdə yevropalılar səy edirlər ki, quş kimi havada uça bilsinlər. Amma biz bədbəxtlər hələ indi çalışırıq ki, adam kimi dünyada yaşaya bilək... Şeir:

Onlar əvvəl adam imişlər ki,
indi də quş olmaq istəyirlər,
Bəs biz əvvəl nə imişik ki,
indi adam olmaq istəyirik?

* * *

İndi keçək başqa məsələlərə.

Təkəbbür və lovğa adamdan hamının zəhləsi gedir, amma hamı da o cürə adamlardan çəkinir və həmişə onlara yol verməyə məcbur olur.

Hər halda, bu məsəl ki – ağac bar gətirdikcə başını aşağı tutar – hamının xoşuna gəlir. Amma burasının unutmaq olmaz ki, barı çox olan ağacın başını o qədər də aşağı tutması ağacın özü üçün zərərdir, çünki sınar.

O səbəbdəndir ki, ağacın qədr və qiymətini bilən bağbanlar o cürə ağaclara bir dayaq qayırırlar ki, bu "başıaşağılıq"dan ona bir zərər və sədəmə yetişməsin. Halbuki bizdə tək-tək tapılan barlı "ağaclar" bar verib başıaşağı olduqları halda, onun barından mənfəət aparanların daha da başından basırlar ki, binəva puç olsun!

BİZ QIZIŞIRIQ...

Hər bir qızmış şey axırda soyuyan kimi, biz də əvvəl qızışıb sonra soyuyuruq. Məsələn, günlərin bir günü qızışıb məktəb açırıq. Budur, müavini-müdir, nazir, müavini-nazir; müəllim, müavini-müəllim, mübəssir, mütəbbiq, xəzinədar, buxalter, kağızaparan, kağızgətirən, storoj, müavini-storoj – qərəz, bir batalyon adamı çağırıb məktəb açırıq və deyirik ki, gərək bu məktəbdə ərəb dili, fars dili, türk dili, rus dili, firəng dili, alman dili, ingilis dili, şəriət, təbiət, hikmət, həndəsə, hesab, hifzüs-sihhə, üsuli-dəftər, coğrafiya, tarix, filan, filan, filan oxuyub, uşaqlarımız məktəbi qurtaran kimi alimi-fazil və filosofi-kamil olsunlar.

Bir il keçir...

Biz yavaş-yavaş soyuyuruq...

Məktəb də yavaş-yavaş soyuyur...

İki il keçir...

Biz lap soyuyuruq...

Məktəb də lap soyuyur...

Üç-dörd il keçir.

Biz soyuyub buza dönürük...

Məktəb də soyuyub buza dönür.

Sonra oturub papağımızı geri edib, ah çəkirik və deyirik ki:

– Ah! Bu məktəbin bir zamanı vardı ki, dəm-dəstgahı dillərdə söylənirdi, amma indi? Müdirlər, müəllimlər dağıldı, uşaqlar dağıldı. Ata-analarda həvəs qalmadı. Elə müsəlmanın işi belə olar!

Daha əvvəldə bir fikir eləmirik ki, axı bir bu qədər camaatı ki, məktəbə yığmışıq və məqsədimiz də uşaqlarımızı filosof etməkdir, bunları dolandırmaq lazımdır; dolandırmaq üçün pul lazımdır; pul tapmaq üçün əlləşmək lazımdır; əlləşmək üçün həvəs lazımdır; həvəs üçün başda fikir lazımdır; fikrimiz də gərək bu cürə olsun: "İşin bünövrəsini xırda götür, qoy sonra böyüsün, yəni təbiətin yolu ilə get!"

Təbiətin yolu deyir ki, insan, heyvan, nəbatat – anadan doğulanda balaca olsun, sonra yavaş-yavaş böyüyüb həddi kamala yetsin.

Həmçinin ticarət, həmçinin sənət, həmçinin hər bir işimizdə bu yolla getmək lazımdır.

Əvvəl xırda, sonra böyük, nəinki əvvəl böyük, sonra xırda...

BİZ HAMIMIZ QAFQAZLI BALALARIYIQ

Daha bəsdir, ağlımızı başımıza cəm edək, minlərcə illərdən bəri əşg ilə qan sellərinə qərq olan Vətənimizin belə bir dəhşətamiz mənzərəsini pozub, ittifaq gününün şəşəəsi altında nurlanmağa qeyrət edəlim.

Biz hamımız qafqazlı balalarıyız, aramızda ülfət olsun, bir-birimizə üz tutaq, yekdigərimizə rast gəldikdə qəlbimiz məhəbbət, sevgi hissindən nəşət edən fərəh ilə məşhun olsun. Yekdigərimizin qəm və fərəhindən hissiyab olaq.

Biz hamımız Qafqaz balalarıyız. Qafqaz haqqında qəlbimizdə bəslədiyimiz məhəbbət təbiidir ki, gərək bizi bir-birimizə mərbut etsin. Qərəz və tərəflikdən müstövli büğz və ədavət kimi dəni hisslərdən özümüzü təmizləyək. Bəsirət gözü ilə halımıza bir nəzər ataq: hamımız Qafqaz balalarıyıq, zərurət və ehtiyacımız birdir. İstiqbalımızın rəfah və səadətini təmin edəcək qüvvə hamımızın hümmət və qeyrətinə bağlıdır. Yalqız əldən səs çıxmaz. Birimiz müsibət qaranlığına giriftar olduqda, digərimiz onun təxlisinə canidildən müsai sərf etməlidir. Birimizə bəxtiyarlıq işığı üz çevirsə, digərimizi də ondan hissəyab etməliyik. Birimizə bədbəxtlik ariz olsa, digərimiz xoşbəxt ola bilməz. Biz bunu özümüzə yəqin etməliyik. Bu

nöqteyi-nəzərdən, səadətə nail olmağa çalışanımız digərimizin də səadətinə qeyrət etməlidir.

Biz hamımız Qafqaz balalarıyıq. Birimizin düşməni varsa, hamımızın düşmənidir, dəfinə hamımız çalışmalıyıq. Birimizi bir təhlükə təhdid edirsə, hamımızı təhdid edir, nicatımız ittifaqdadır. Din, millət ayrılığı bizim ittifaqımıza sədd olmasın gərək. Biz hamımız Qafqaz balalarıyıq. Həmrəylik, həmfikirlik, həmməsləklik, həmkarlıq bunlar hamısı bizim vəzifeyi-müqəddəsələrimizdən ədd olunsun gərək. Əks surətdə heç bir işimiz düz gətirməz, taleyimiz nifaq və ədavət üçün bizi bir-birimizə uğratmayıbdır. Biz bunu isbat etməliyik.

Biz hamımız Qafqaz balalarıyıq, mədəniyyət və mərifətlimiz cəhalətdə qalanımıza, qüvvətlimiz zəifimizə, sərvətlimiz tavanasızlarımıza arxa olmalıdır. Bu əsas üzrə dolanmalıyıq ki, əğyardan yetişən zərbələr də bizim üzərimizdə əsərpəzir olmasın.

Biz Qafqaz balalarıyıq. Bundan belə, bizim səyimiz, ciddcəhdimiz yekdigərimizə müavinət və riayət etməyə münhəsir olsun gərək, birimiz digərimizin hansı bir sui-rəftar və münasibətsizliyindən şakirdirsə, bu ikinci əvvəlincinin şikayəti bica olduğunu isbat etməlidir. Aramızda hər bir münaqişə və müxalifatı təsviyə etməliyik.

Biz Qafqaz balalarıyıq, bizim ümumi məktəblərimiz, mədrəsələrimiz, qəzetələrimiz olmalıdır. Ümumi ittifaqlar, ictimalar, məclislər qurub ehtiyaclarımızı, hər bir dərdimizi müzakirə edib, əlaclar aramalıyıq. Biz öz ruhani və cismani qüvvələrimizi bir yerə qatıb hanki bir yolda sərf etsək muradımıza nail olarıq.

Bundan belə bizim "lozunq" virdi zəbanımız bu olmalıdır ki, birimizin səadət və xoşbəxtliyi hamımızın səadət və xoşbəxtliyinə bağlıdır. Bundan belə biz, qafqazlılar, bunu özümüzə rəhbər edib, buna müvafiq iş görməliyik.

Bunların hamısını əvama təlqin etmək icab edər. Bu da qəzetə vasitəsilə mümkündür. Qəzetələrimizin bundan belə ümdə vəzifəsi əvamımızı xudşünaslıq məqamına gətirməkdir. Qəzetələrimiz nameləum və bimənə mübahisələri, nəfəs qaldıran məqalələri, araqızışdıran mükalimələri tərk edib ittifaqa dair səmimiyyət qoxulu məqalələr yazsalar və ittifaq fikrini qüvvədən felə gətirəcək təriq və vasitələri əvama bəyan və izaha başlasalar, az çəkməz ki, öz məqsədi-alilərinə nail olarlar.

Ürəfa nə pişrovlərimiz dəxi ittifaq üsulunu təmin edəcək təşəbbüslərdə bulunmalıdırlar. Bunun da başı ümumi məktəblər açıb, ümumi bir qəzetə nəşr etməkdir.

Bəs, himmət edəlim, qeyrət edəlim! Qafqaz balaları! Keçən keçdi. Keçənə güzəşt deyərlər, keçmişi unudaq, gələcəyin dərdinə qalmaq lazımdır. Görürsünüz ehtiyaclarımız, zərurətimiz hamısı birdir. Sənə nə lazım isə, mənə də o lazımdır. Mənə nə lazım isə, sənə də o lazımdır. Ehtiyaclarımız yetişibdir, rəf etmək lazım, rəf edilməsə nəyə məhkum olduğumuzu pişəzvəqt bilmirsiniz, düşünürmüsünüz.

Ehtiyacatımızın rəfi də qafqazlılar, özümüzün himmət və qeyrətinə bağlıdır. Biz hamımız Qafqaz balalarıyıq. Birimizin səadət və xoşbəxtliyi hamımızın səadət və xoşbəxtliyinə bağlıdır, xoşbəxtliyimizi, səadətimizi arzu ediriksə, əlimizdən gələni himmət və qeyrəti müzayiqə etməyək!

MƏKTƏB MƏSƏLƏSİ VƏ F.A. CƏNABLARI

"Məktəb məsələsi" ünvanı ilə yazdığı bu ikinci məqaləni əvvəlincisinə mabəd surətində yazacaq idim. Çünki dərmiyan etdiyim məsələyi-mühimmə xüsusunda öz təsəvvüratımı izhar etməyi vəd etmişdim. Lakin (F.A.) rəfiqimizin "Yüz ildir getdik və əlx" məqaləsi bizi bu məsələdən bir haşiyə çıxarmağa məcbur etdi.

Həmin bu "məktəb" məsələsinə bihəqqin aşına olan (F.A.) rəfiqimiz kimi mühərrirlərimizi biz qaldırdığımız məsələ xüsusunda öz təsəvvürati-qiymətdaranələrini yazacaqlarını biz kəmali-intizar ilə gözləyirdik. Lakin bu "Yüz ildir getdik və əlx". kimi məqaləni heç gözləmirdik, hətta yuxumuza da girməyirdi. Amma doğru deyirlər ki, "İş olanda olur".

Bizi artıq məyus və mükəddər edən odur ki, (F.A.) rəfiqimiz yazdığımız məqaləni dürüst oxuyub, fikrimizi anlamaq əvəzində, məqaləni nə səbəbdən isə təhrif və fikrimizi təğyir etməyi səlah görübdür. Məsələn, mən yazmışam ki, "Dilimizin heç bir imtiyazı yox və kəsbi-ruzi vasitəsi də yalnız, bir rus dilidir... Aşikardır ki, bütün camaatı ana dilində olan məktəblərə təşviq və tərğib etmək üçün o məktəblərdən gözlənicək maddi təminatı indidən təmin etmək lazımdır. Bu bir çox mühüm məsələdir ki, mərifət və mədə-

niyyətimiz, zənnimcə, yalnız bir bundan asılıdır". Amma (F.A.) rəfiqimiz mənim bu sözlərimi dəyişdirib, əvəzində bunu yazıbdır ki, guya mən böylə demişəm: "Dilimizin heç bir imtiyazı yox və kəsbi-ruzi vasitəsi də yalnız bir rus dilidir... ki, mərifət və mədəniyyətimiz, zənnimcə, yalnız bir bundan asılıdır. İnsaf yahu! Bu, buna bənzər ki, məsələn, birisi bir məqalə yaza və o məqalənin bir yerində qeyd edə ki, "namaz qılmaq vacibdir" və haman məqalənin digər bir yerində yaza ki, "adam öldürmək haramdır", sən də binəvanın "namaz qılmaq" ilə "haramdır" sözlərini bir-birinin yanına yazıb deyəsən ki: Ay camaat, filan adam yazır ki, namaz qılmaq haramdır!

Və sonra da bir qədər istehza yazıb "oxucu qardaş"ı da köməyə çağırasan...

"Oxucu qardaş" özü gördü ki, (F.A.) bəradərimiz haman bu tövr edibdir. Ancaq bilmirəm ki, bunu "oxucu qardaş"ları güldürmək üçün edibdir, yoxsa bu cürə anlayıbdır. Hər halda özgələrin rəy və təsvirinə qarşı bu ehtiramsızlığı mən heç vaxt özümə layiq bilməzdim... Hələ bu dursun.

(F.A.) bəradərimizin bir hərəkəti məni hamıdan artıq təəccübləndirir ki, rəfiqim mənim məqaləmi təhrif elədiyi bəs deyilmiş kimi, məqalədə ifadə etdiyim bütün fikrimə də təğyir verib üstündən də bir etiraz yazır və kəmali-yəs ilə bu sözləri də axırda deyir:

"Xülasə, məqalədən böylə anladım ki, (??) indiyədək qəzetələrdə yazılan "milli məktəblər", "ana dili" və qeyri sözlərin hamısı boş-boş sədalər imiş, bürokratların əlindən xilas olmuş məktəbləri yenə dübarə onlara vermək istəyirlər (!) və əlx". Lap aşikar görünür ki, bəradərim (F.A.) özgənin fikrini bu gunə təğyir edib mətbuata salmağı bilmərrə müğayiri-ədib hesab etməyir.

Mənim məqaləmdə ifadə etdiyim fikrim budur ki: "Əlan rus ibtidai işkolalarında oxuyan uşaqlar oranı ikmal etdikdən sonra sair böyük işkolalara girib, təhsillərinə davam edə bilərlər və yaxud haman ibtidai məktəblərdə oxuduqlarına iktifa edib rus dilinin bərəkətindən bir iş tapıb kəsbi-ruzi edə bilərlər. Amma müsəlman ibtidai məktəbi olsa, onu ikmal etmiş şagirdlər nə böyük işkolalara girə bilərlər, nə də bir iş tapıb kəsbi-ruzi edə bilərlər. Ondan ötrü indidən fikir etmək və çalışmaq lazımdır ki, gələcəkdə açmaq fikrində olduğumuz müsəlman məktəbləri, axırda şagirdlərə maddi bir kömək verəcəyindən xalqı ümidvar edə bilsin ki, camaatımızın hər

bir sinfi uşaqlarını müsəlman məktəblərinə qeyd etməyə şövqmənd olsunlar", vəssəlam. Mənim fikrim budur ki, əvvəlimci məqalədə yazmışam və müsəlman məktəblərindən axırda kömək çıxartmaq məsələsi xüsusunda da öz təsəvvüratımı söyləyəcəyimi vədə vermişəm. Məktəblərin bürokratlar əlinə verilməsini arzu etməmişəm, "milli məktəb" və "ana dili" boş-boş səda olduğunu söyləməmişəm. Rəfiqimiz (F.A.)-nın bu gunə nalayiq sözləri mənə isnad verməsi çox təəccübdür.

Şayani-diqqət burasıdır ki, (F.A.) əfəndi yazdığı məqaləsində ana dilini və milli məktəbləri guya müdafiə edib, axırda ana dilinə və milli məktəblərə dair kutahbinanə və təəssüf ediləcək dərəcə dairəsi təng olan nəzərini dəxi meydana çıxarır.

Rəfiqimizin ağzı dolusu söylədiyi "ana dili" və "milli məktəbi" və bu xüsusda qopardığı qiyamətlər və hay-huylar, bilirsiniz nədən ibarətdir? İçində müəllim olduğu russko-tatarski işkoladan ki, orada həm rusca və müsəlmanca oxunur!..

Əfəndim, bəradərim! Əgər "ana dili" və "milli bir məktəb söyləməkdə muradınız vaqe"də yalnız russko-tatarski işkolalardırsa... bu əqidənizə də şərik deyiləm, çünki bu mühüm məsələyə mən vasc nəzər ilə baxmaq istəyirəm.

Mən milli məktəb ona deyərəm ki, orada bütün elmlər öz ana dilimizdə tədris olunur. Rus dilinin bu elmlərə dəxli, təsərrüfü yoxdur. Rus və müsəlman işkolasını ibtidai anadilli məktəb hesab etmək, zənnimcə, dilimiz və millətimizi təhqir etməkdir.

Əfəndim, əgər siz bu məsələdə ermənilərə təqlid edirsinizsə, siz də gərək bu əqidədə olasınız. Çünki ermənilərin nəinki, yalnız ibtidai milli məktəbləri, hətta üç kilisa da ali məktəbləri dəxi vardır. Gələcək məqaləmizdə ana dili və milli məktəblər xüsusunda bir qədər vəsi surətdə yazmağı dərəhdə edib də əlan bunu kəmal heyrət və təəccüblə əlavə edirəm ki, (F.A.) rəfiqimizin "ana dili" və "milli məktəbi" (ki onu müdafiə etmək üçün, hətta həqiqəti gizlətmək istəyir) yalnız bir russko-tatarski işkolalardan ibarət bilməsi hamısından bədtərdir!

Çox təəssüflər olsun! Rəfiqimizin bütün məqaləsi başdan-ayağa "subyektivno" yazılmış bir şeydir.

Rəfiqimiz ana dilini və milli məktəbləri guya müdafiəyə qalxır, bunun üçün bu vasitəyi-nicatımız olan dilə məktəbə dair mənim ifadə etdiyim fikir və nəzərimi kəmali-ehtimam ilə gizlədib, əvəzin-

də mənim başıma vəhşiyanə və divanələrə mənsub bir əqidə soxub onu da xalqa bildirir və özü də tənqid eləməyə başlayır, yəni məni dəli ələ salır və bu hərəkəti də özünə layiq bilir. Lakin o bir tərəfdən də ana dilinə və milli məktəblərə dair həqarət ilə baxdığı nəzərini ifadəyə məcbur olur.

Rusca bilməyin kəsbi-ruzi üçün bir mənbə olduğunu rəfiqim inkar edir və halonki özü rus dilinin sayəsində kəsbi-ruzi edir. Bu həqiqəti danıb da özünü bir maska altında gəzmək üçün köhnə tərzi-idarənin pisliyindən dəm vurur. Daha bunu bilməyir ki, rus dilinin kəsbi-ruzi mənbəyi olduğu bir ayrı məsələdir və köhnə tərzi-idarənin də pisliyi özgə bir məsələdir. Qafqazın imtiyaz və istiqlalına gəldikdə rəfiqim uşaq kimi danışır, deyir ki, Qafqaz kəsbi-imtiyaz etsə də yenə rus dilinə möhtac olacaqdır. Mən bunu inkar etməyirəm. Ancaq Finlandiyada da rus dili istemal olunur, bainhəmə bütün müəssisələrində, divanxanalarında, dəftərxanalarında öz dilləri işlənib bir o qədər də əmələlər üçün mənbəyi-ruzidir...

Qərəz ki, (F.A.) rəfiqimizin bu gunə baş-ayaq və ayaq-baş vurmasından məqsədi nə olduğunu anlamadım.

ORDAN-BURDAN

Bir firəng ilə söhbətim

Günlərin bir günü, yəni bir neçə zaman bundan irəli nə tövr oldusa bir firəng ilə tanış oldum. Firəng məni, mən firəngi söhbətə tutdum, bir xeyli danışdıq, elədik; axırda firəng məndən soruşdu ki, bir de görüm bu Qafqazda nə qədər müsəlman vardır? Dedim, altı dəfə doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquz və bir də altı müsəlman! Dedi, bu zəhməti çəkmə, altı milyon desə idin ağzın yorulmazdı. Dedim, mən müsəlmanam, doqquz yüz doxsan doqquz min doqquz yüz doxsan doqquzun mənə artıq təsiri olur, nəinki bir milyonun. Firəng bu sözə razı oldu və sonra yenə soruşdu ki, bu altı milyon müsəlmanın içində neçə qəzetə verilir. Dedim Allahdan gizli deyil, səndən nə gizli olacaqdır: bu altı milyon müsəlmanın içində bircə dənə qəzetə verilir. Bunu dediyimi gördüm, firəng yerindən elə sıçradı ki, guya kişini ilan dişlədi! Və üzündə elə bir heyrət və təəccüb əlaməti göstərdi ki, mənim özüm

də quruyub mat qaldım və ürəyimdən keçirtdim ki, yazıq altı milyon müsəlman bir gör sənin içində bircə dənə qəzetə verilməsi yad firəngə nə pis təsir elədi və halonki, sənə qalsa istərsən ki, heç qəzetə yerli-dibli olmasın! Amma sonra bildim ki, firəngi təəccübə gətirən altı milyon müsəlmanın içində bir qəzetə olması deyilmiş, çünki o məndən soruşdu ki, "Müsyö, indiyədək, nə təvarixdə, nə də heç bir abrazovanni yerdə görülməyibdir ki, bir dənə qəzetənin altı milyon müştərisi olsun! "Neujeli" sizin bir danə qəzetinizin altı milyon müştərisi var?! Firəng bu sualı mənə verdikdə, məndən bir qəhqəhə çıxdı ki, firəng elə bildi dəli olmuşam... Dedi, nəyə gülürsünüz? Dedim: – Heç, onu deyirəm ki, qəzetimizin altı milyon müştərisi yoxdur, bir qədər azdır.

Dedi: – Beş milyon?	– Əlli min?
Dedim: – Bir qədər azdır.	– Yox, azdır.
Dedi: – Dörd milyon?	– Otuz min?
Dedim: – Bir qədər azdır.	– Yox, azdır.
Dedi: – Üç milyon?	– On min?
Dedim: – Bir qədər azdır.	– Yox, azdır.
– İki milyon?	– Beş min?
– Yox, azdır.	– Yox, azdır.
– Bir milyon?	– Dörd min?
– Yox, azdır.	– Yox, azdır.
– Beş yüz min?	– Üç min?
– Yox, azdır.	– Yox, azdır.
– Üç yüz min?	– İki min?
– Yox, azdır.	– Yox, azdır.
– Yüz min?	– Bir min?
– Yox, azdır.	– Yox, bir az çoxdur.
– Doxsan min?	– Bəs neçə?
– Yox, azdır.	– Min səkkiz yüz!

Bu sözü demişdim ki, gördüm rəfiqim firəng tez bir fayton çağırıb düz vağzala sürdürdü və o gedən firəng oldu ki, getdi. Bir neçə vaxtdan sonra firəngdən bir kağız aldım ki, içində bunu yazmışdı:

"Altı milyon tayfanın içində bir dənə qəzetə ola və o qəzetənin də min səkkiz yüz müştərisi ola, o tayfadan heç bir yaxşı şey gözləmək olmaz, a molla!" Bu sözlər məni çox yandırdı, tez götürüb cavabında yazdım ki: "Nə olsun, biz müsəlmanlar beləyik, amma siz firənglərin də yedikləri həmişə qurbağa ilə tısbağadır!"

HALIMIZA DAİR

Vətənimiz olan Qafqaziyada əhalimizin tərəqqisi cəhətindən qabaqda olan bir şəhərimiz varsa, o da Bakıdır. Doğrudur Bakı şəhərində yaşayan və ədədcə müsəlmanlardan az olan sair tayfa əhlinin tərəqqisi onlardan ədədcə çox olan Bakı müsəlmanlarından iki-üç qat artıqdır. Amma genə də hər nə tövr olsa, sair şəhərlərimizə nisbətən Bakı şəhəri bu yolda çox qabaqdadır. Bu şəhərdə həm elm və həm hünər və sənayei-nəfisə get-gedə tərəqqiyə düşməkdədir və bu tərəqqi içində tərəqqiyi-məkusə bənzər bəzi hadisələr baş verirsə də, lakin bu hadisələrin nəticəsi yenə də həqiqi tərəqqinin müzəffəriyyətini bildirməyə başlayır. Doğrudur, bu şəhərdə hələ çox adam vardır ki, tərəqqini başqa bir rəngdə anlayır və bir çoxları da vardır ki, tərəqqinin nə olduğunu heç də anlamırlar. Bir çoxları da vardır ki, əhalinin tərəqqi etməsindən zərər və ziyanlarına düşdüklərini anlayıb ap-aşkara düşməni-tərəqqi olublar.

Bir çoxları da vardır ki, anlamadıqlarından tərəqqiyə düşməndirlər – ürfi bu böyük şəhərdə hər bir cür fikir sahibi vardır. Amma yenə də həqiqi tərəqqi tərəfdarları getdikcə çoxalmaqdadırlar. Və bunların da həqiqi həyat və məişət haqqında qəbul etdikləri əqidə o qədər böyüyüb, o qədər tanınıbdır ki, onları hər vəch ilə olur olsun bu əqidədən daşındırmaq mahaldır. Bərəkət olsun ki, belə bir kamil əqidəni pozmaq və pozdurmaq xəyali-xamində olanlar da öz cəhalətləri ilə o qədər məşhurdurlar ki, daha bundan sonra onların sözləri heç kəsə təsir edə bilməz.

Kimi elm ilə, kimi ağıl və təcrübə ilə bir kərə anlayıbdır ki, indiyə qədər sürdüyümüz həyat deyildir. Bəlkə həyat içində bir məmatdır. Doğrudan da minlərcə atalar, əvvəllərdə gələcəyi heç də nəzəri-etibarə almayıb, günlərini qəflətdə keçirdikləri bir zamanda birdən-birə öz qəflətlərini anlayıb övladlarına tərbiyə verirlər ki, onlar gələcək həyati-bəşəriyyəyə hazır olsunlar. Özləri kimi bir çox lazımlı şeylərdən məhrum olmasınlar. İndiki əsrdə sairləri kimi yaşamaq üçün hazırlanmış adamlar lazım olduğunu hər kəs düşünməyə başlayır.

Lakin, çox təəssüf olsun ki, Bakıdan başqa, sair müsəlman şəhərlərində tərəqqi bulmaq yolunda heç bir fəaliyyət müşahidə olunmur. Bu şəhərlərin adamlarında tərəqqi fikri varsa da, haman

fikir hələlik qüvvədən felə qoyulmur. Hətta əvvəllərdə, yəni bütün Rusiyanı xabi-qəflətdən oyadan zərbədən sonra bu yerlərdə də "ləbbeyk" sədası eşidilməyə başlamışdısa da, indi o səs daha gəlmir.

Bu hesabdan kənd və kəsəklərimizə gəldikdə oralar haman yazıq gəlməli halda baqi qalmaqdadırlar. Kənd adamlarımız arasında heç bir oyaqlıq hiss olunmur. Zatən bu təəccüb deyildir. Onların öz özbaşlarına oyanmaqlarına hələ bir çox vaxt istər. Digər tərəfdən onları oyadan da yoxdur. "Xoftəra xoftə key konəd bidar" (yatan yatanı oyada bilərmi), xoftə olmayanlarda da daha artıq həvəs qalmayıbdır.

ORDAN-BURDAN

Bizim yerlərdə qumar oynamaq elm oxuyub adam olmaq kimi çətin bir şey deyildir.

Bir çox atalar elə ki görürlər oğlanları oxuya bilməyirlər, həmin saat məktəbdən çıxardıb qumarbazlığa qoyurlar.

Qərəz, sözüm bunda deyil, onu qandırmaq istəyirəm ki, ən məşhur qumar bizim yerdə "dördaşıq"dır; bu "dördaşıq" üstündə yaxşıca sərmayə qazanıb "adam" olanlar və həmin "dördaşıq" üstündə atadanqalma sərmayəni fənayə verib əli qoynunda qalanlar burasını yaxşıca bilirlər ki, "dördaşıq" oyunda da iki şey var: "toxan və alçı".

Hərifin biri həmişə istər ki, aşıqlar "alçı" dursun, o birisi də gözünü dikib "toxanlara" müntəzir olar.

Bəzi vaxt olur ki, həmin "alçı" atmaq arzusunda olan hərif ümidini ələlxüsus baş aşığa bağlayıb aşıqları hündürdən tullar, amma aşıqlar yerə düşəndə gözləri pər-pər çalar. Görər ki, aşıqların üçü də "toxan" durub, baş aşıq da bir az əgri durubdursa, amma yenə də "toxana" oxşayır. Onda həmin hərifin əhvalı bizim indiki hökumətin əhvalına bənzər. Çünki hökumət dəxi bu ikinci duma üstə camaat ilə "dördaşıq" oynayırdı, aşıqlar dəxi duma vəkillərindən ibarət idi.

Hökumət tamam səkkiz ay səy və tələşdə idi ki, ikinci dumanın vəkilləri "alçı" dursun, yəni hökumət nökəri olsun.

Amma nə fayda, görünür ki, qumarbazlıqda hökumətin əli gətirə bilməyir, çünki necə ki, indi məlum oldu, duma vəkillərinin hamısı "toxan" durubdurlar və Peterburq ilə Moskva vəkillərindən ibarət

olan "baş aşıq"lar da hərçənd bir qədər əyri düşübdürlər, amma yenə də "toxana" hesabdırlar.

İndi, ey "alçıya" ümid bağlayıb "toxan" atanlar!

Görünüz hökumət nə haldadır!

* * *

Hələ hökumət o yana dursun, bir baxın görün, Tiflisə gedən Bakı vəkili cənab Qarabəyov nə haldadır ki, buradan oraya qarpız ümidi ilə gedib, orada heç şorba xiyarı da tapmayıblar. Görünür ki, cənab Qarabəyovu, yəni bütün Bakı camaatını teleqram vasitəsilə aldadıbdırlar və bunları aldatmağa məcbur olan şeyxülislam cənabları olubdur. Şeyxülislam cənablarını da aldadan canişin həzrətlərinin dəftərxanası olubdur. Canişin həzrətlərinin də dəftərxanasını aldadan erməni "daşnaqsaqanları" olubdur. Erməni "daşnaqsaqanları"nı aldadan da onların ürəklərini özünə paytaxt etmiş şeytani-rəcim olubdur.

İndi məzəli burasıdır ki, görək əsil yalançılara nə cür tənbih olunacaqdır.

Əgər baxıb görsə ki, bu cürə qırmızı yalançılığı zarafata salıb gülürlər, onda bəd olmaz ki, biz də işimizi irəli aparmaq üçün o cürə "hiyləyi-siyasi"lərə əl ataq, çünki gündə on dəfə yediyimiz "hiyləyi-şər" ilə günah hesab olmayan halda, "hiyləyi-siyasi"lər bu günlərdə lap savabdır.

ORDAN-BURDAN

Dünən bir neçə nəfər "ürəyi yuxa" adamlar məni görüb hər biri mənə bu sözü dedi:

"Proqress" qəzetinin üçüncü nömrəsində Zəngəzur acları barəsində Qarabəyov yanıqlı bir məqalə yazmışdı, oxuyandan sonra az qaldı ki, ağlayam.

Dedim: – Mən də həmin məqaləni oxudum, amma oxuyandan sonra az qaldım ki, oynayam.

Dedilər: – Nə üçün?

Dedim: – Nə təfavütü var? Biz ağlayıb bikef olmaqla, ya oynayıb şad olmaqla Zəngəzur aclarının qarnı tox olmaz ki, səndən onlara çörək vermək olsun, istər ağla, istər mil dur.

"Ürəyi yuxa" adamlar bu sözün üstündə məndən bərk incidilər.

* * *

Amma, cənab oxucu! Sən məndən incimə, qoy sənə bir söz deyim.

Cənab oxucu! Fərz elə ki, sənin qardaşın və ya əziz bir adamın dəryaya qərq olub batmaqdadır; yazıq ha əl-ayaq çalır, özünü birtəhər sahili-nicata sala bilsin, amma dağ boyda ləpələr bir-birinin dalınca qardaşının üstünə hücum edib, binəvanı boğmaqdadır: o tərəfdən də bir nəhəng balıq ağzını əjdaha kimi açıb istəyir ki, qardaşını udsun, sən də kənarda durub qardaşının müsibətinə gendən tamaşa eləyirsən, özünün də əlində uzun ağac var və nəhəng balıqları öldürən bir karastı dəxi varındır. Aya, insafdırmı ki, sən ağacı qardaşına uzatmayıb balığı da öldürməyəsən???

Deyəcəksən ki, xeyr, insaf deyil!

Çox yaxşı, peyğəmbərimiz (s) bizə buyurubdur ki, cəmi müsəlmanlar bir-birinə qardaşdır. Bəs, bundan belə məlum olur ki, Zəngəzurda böyrü üstünə yıxılmış Kərbəlayı Məhəmmədcəfər sənin qardaşındır. O yazıq aclıq dəryasına qərq və "tif" naxoşluğu balığına da taam olmaqdadır.

Aya insafdırmı ki, sən bu əhvalatı bilə-bilə səhər ertəsi yağ çörək ilə çay, günorta vaxtı kələm dolması, dovğa və axşam da rəngli plovunu doyunca yeyib, o yazıq Məhəmmədcəfərə bir dənə çörək vermiyəsən???

İndi bu bir söz idi dedim, ancaq təvəqqe eləyirəm ki, məndən inciməyəsən!

ORDAN-BURDAN

Müsəlmanlarda bir məsəl var, deyirlər ki: "Ağac bar gətirdikcə başını aşağı dutar". Amma, bainhəmə müsəlmanlarda bir qayda vardır ki, onların "ağacları" bar gətirdikcə başlarını yuxarı dutub, ancaq hökumət qapazı dəydiyi zaman başlarını aşağı duturlar ki, qapaz vurana "rahət" olsun.

* * *

Yenə müsəlmanlarda bir məsəl var ki: "Yaxşılıq elə at dəryaya, balıq bilməsə, xalıq bilər", amma bainhəmə müsəlmanlarda bir qayda da vardır, yaxşılıq elə at onların içinə, sairlərin xoşuna gəlsə də, müsəlmanların acığı tutar.

* * *

Yenə müsəlmanlarda bir məsəl var ki: "Əl əli yuyar, əl də üzü", amma bainhəmə müsəlmanlarda bir qayda vardır: əl əli sındırar, əl üzün, gözün tökər.

* * *

Yenə müsəlmanlarda bir məsəl var ki: "Əyri otur, düz danış", amma bainhəmə müsəlmanlarda bir qayda vardır ki, həmişə düz və diz üstə oturub, əyri-müyri sözlər danışırlar.

* * *

Yenə müsəlmanlarda bir məsəl var ki...

Müsəlmanlarda məsəl çoxdur, amma, nə eləmək, əməl azdır və bir yerdə ki, məsəl çox ola və əməl az ola, o yerin işi... sözün doğrusu, çox uzundur.

ORDAN-BURDAN

"Molla Nəsrəddin"

Dövlət dumasını bağladılar...

"Molla Nəsrəddin" jurnalını da bağladılar...

Dövlət dumasını bağlayan hökumət oldu...

"Molla Nəsrəddin"i də bağlayan hökumət oldu...

Ancaq təfavüt burasındadır ki, Dövlət dumasını bağladılar, padşah əmri ilə, amma "Molla Nəsrəddin" jurnalını – donos ilə...

Bəli, alimi-məşhur olan qədim Molla Nəsrəddini dəxi müstəbid və müstəbidlər xadimləri haqq və haqqaniyyəti üstündə sevməyib, o qədər incitdilər ki, yazıq axırda özünü dəliliyə vurdu...

"Molla Nəsrəddin"in bir o qədər "siyasi töhməti" yox idi ki, hökumət əhlinin xatirinə dəyə və onu da "müzirr məsləkinə görə" bağlaya idi. Xeyr! "Molla Nəsrəddin"in rus hökuməti ilə bir o qədər işi yox idi. Bəlkə onun işi "bizim öz hökumətimiz ilə idi". Yəni "Molla Nəsrəddin" haqq söz danışırdı.

Və haqq və həqiqət acı olduğuna görə biz həmişə "şirni" yeməyə öyrənmiş "hökumətimiz"in xoşuna gəlmədi və gəlməyən surətdə "hökumət" hökumətə donos verib, haqq və həqiqət ağzını yumdurdu...

Lakin yumdura bildimi?

Bu özgə məsələdir. Bunu, get cəmaətdən xəbər al, desin!

ORDAN-BURDAN

Kimdən nə soruşdular

Loğman həkimdən soruşdular ki, ədəbi kimdən öyrəndin?

Dedi: – Bakının işkol uşaqlarından.

Dedilər: – Nə tövr?

Dedi: – Təfsilə ehtiyac yoxdur.

* * *

İskəndəri Zülqərneyndən xəbər aldılar ki, cəsarət və şücaəti kimdən öyrəndin?

Dedi: – Nəvvab Eynüddövlə ilə Sərdari Nüsrət Rəhim xandan.

Dedilər: – Nə tövr?

Dedi: – Onların yerinə utandığımdan.

* * *

Hatəmi-Taidən birisi soruşdu ki, bu səxavət və kəraməti kimdən öyrəndin?

Dedi: – Bakının bəzi milyonçu hacılarından.

Dedilər: – Nə tövr?

Dedi: – Əhvalat uzundur.

* * *

Firdovsi əleyhi-rəhmədən soruşdular ki, şeir yazmağı kimdən öyrəndin?

Dedi: – Müsəlmanların indiki mütəşairlərindən.

Dedilər: – Nə tövr?

Dedi: – Mən də onlar kimi ləğviyyat yazmadım.

* * *

Bir müsəlman uşağından soruşdular ki, bu qədər söyüşü kimdən öyrəndin?

Dedi: – Hamısını dədəmdən.

Dedilər: – Nə tövr?

Dedi: – O mənə söydükcə, mən də əzbərlədim.

ORDAN-BURDAN

Bir qədər qəzetəçilik dərsi

Müəllim. Qəzetəyə hər cür şey yazmaq olarmı?

Şagirdlər. Xeyr, olmaz.

Müəllim. Necə olmaz? Bəs qəzetənin başında "Hürriyyət" yazılıbdır?

Şagirdlər. Doğrudur, hürriyyət yazılıbdır, amma hürriyyət ondan ötrü yazılmayıbdır ki, hər kəsin ağlına nə gəlsə götürüb qəzetəyə vurdursun.

Müəllim. Çünki o halda qəzetə nə olar?

Şagirdlər. O halda qəzetə zibil səbəti olar.

Müəllim. Çox yaxşı, bəs o surətdə kim kimdən inciməlidir, qəzetənin müdirimi yazı yazıb da yazdığı çap olunmayandan, yoxsa yazı yazıb da yazdığı çap olunmayan qəzetənin müdirindən?

Şagirdlər. Qəzetənin müdiri yazı yazıb da yazdığı çap olunmayandan inciməlidir.

Müəllim. Nə üçün?

Şagirdlər. Çünki yazı yazıb da yazdığı çap olunmayan müdirin qəzetəsini zibil səbətinə döndərmək istəyirmiş.

(Bəzi yazı yazıb da yazdıqları çap olunmayan şəxslərdən təvəqqe olunur ki, bu sözlərdən hələ tez inciməyib, dərsin dalına qulaq assınlar).

Müəllim. Bəs qəzetəyə nə tövr məqalə yazmalıdır ki, çap olunsun?

Şagirdlər. Əvvəla, qəzetənin məsləkinə müvafiq olsun.

Müəllim. Məsələn, nə tövr?

Şagirdlər. Məsələn, qəzetənin məsləki budur ki, tərəqqiyə mane olan şeylər rəf edilsin. Ona görə əgər birisi durub yaza ki, dəmir yolu şeytan əməlidir və gödək paltar geymək haramdır, o surətdə onun məqaləsi çap olunmayıb, zibil səbətinə düşər.

Müəllim. Və saniyən?

Şagirdlər. Və saniyən mətbuat qanunlarına müğayir olmasın.

Müəllim. Nə tövr?

Şagirdlər. Mirzə, onu müdir özü canının qorxusundan yaxşı bilir.

Müəllim. Və salisən?

Şagirdlər. Və salisən, qərəzi şəxsi ilə yazılmasın.

Müəllim. Nə tövr?

Şagirdlər. Məsələn, Əli Vəli ilə qumar oynaya, Vəli də Əlinin pulunu uda. O surətdə Əli götürüb qəzetəyə belə bir şey yaza: "Ay, cəhalət bizi basdı, qəflət yuxusu axırımıza çıxdı. Biz nə vaxtadək öz hüququmuzu anlamayıb, onun-bunun əlində müztər qalacayıq? Bir insaf edin, özgə millətlərin cavanları elm və ədəb dalına düşüb millətə xidmət etmək yolunda can qurban edirlər. Amma bizim cavanlarımız, əz on cümlə, məsələn, cənab Vəli bəy, gündüz axşama kimi klublarda leylaclıq edib, qumar oynayır və xalqın pulunu udur. Möhtərəm müdir, təvəqqe edirəm ki, adımı yazmayıb, imzamı "Canı yanan" qoyasınız. Bu cürə kağızların da yeri zibil səbətidir.

Müəllim. Xub. Və rabəən?

Şagirdlər. Və rabəən, şəxsi işlər yazılmasın.

Müəllim. Nə tövr?

Şagirdlər. Məsələn, biri belə yaza: Müdiri möhtərəm, çox təvəqqe edirəm ki, mənim bu kağızımı çap edəsən. İsrağa gün mən çəkmə almaqlıq qəsdilə Məşədi Filanın dükanına getdim. Məşədi Filan məndən 12 manat nəqd pul alıb, bir cüt çəkmə verdi. Çəkməni geyib bir gün gəzəndən sonra gördüm çox dardır və ayağımı

bərk sıxır. Əhvalatı Məşədi Filana nəql elədim. Dedi, mən nə qayırım? Dedim, çəkməni geri al və ayrısını ver. Dedi, olmaz, xarablamısan! Nə qədər elədim olmadı. İndi bu əhvalatı cəmi müsəlman qardaşlarıma bildirib sual edirəm ki, aya rəvadırmı ki, həmi pulum getsin, həm də çəkmə ayağımı çolaq eləsin! Bu da səbət malıdır.

Müəllim. Xub və xamisən?

Şagirdlər. Və xamisən bimənа şeylər yazılmasın.

Müəllim. Nə tövr?

Şagirdlər. Məsələn, bu gün tək və tənha əyləşib öz-özümə fikir edirdim. Müsəlman millətinin xar və zəlil olmağı barəsində. Hansı ki, ayrı millətlər hamısı qabağa gedir, amma biz bədbəxtlər geriyə qalıb, hansı ki, gərək biz hamı millətlərdən qabaqda olub, yüzlərcə məktəblərimiz olub, uşaqlarımız dərs oxuya idi. Hansı ki, indi küçələrdə "əlməndə" oynayırlar. Müdir möhtərəm, təvəqqe olunur ki, çox tez qəzetənizdə çap eləyib, adımı da "Nalan" qoyasınız.

Müəllim. Müdiri möhtərəm, bu məqaləni tezmi çap edər?

Şagirdlər. Deyir, müdiri möhtərəm, bu məqaləni cırıq-cırıq eləyib öz-özünə deyər: bunun əvəzinə bir əhvalat yazıla idi, yenə bir şey olardı.

Müəllim. Və sadisən?

Şagirdlər. Və sadisən, fitnə və fəsad qovzayan olmasın.

Müəllim. Nə tövr?

Şagirdlər. Daha onu burada yazmaq lazım deyil. Çünki məqalə yazan özü bilir ki, fitnə qəsdi ilə yazıbdır.

Müəllim. Çox gözəl, dərsinizi yaxşı bilirsiniz. Əgər müsəlman yazıçıları da bu dərsləri əzbərləsəydilər, nə olardı?

Şagirdlər. Özlərinin və müdirin vaxtını zaye etməzdilər. 7 qəpiklik markanı, iki qəpiklik mürəkkəbi və bir qəpiklik qələmi kor qoymazdılar və zibil səbətini ağzınadək doldurub xidmətçinin də əziyyətinə səbəb olmazdılar.

İdarədən. Ay olaydı ha!

ORDAN-BURDAN

Sual. Heç elə şey ola bilərmi ki, bir şeyin adı ola, amma özü yerli-dibli olmaya?

Cavab. Bəli, olar! Məsələn, Bakı ilə Gəncənin "cəmiyyəti xeyriyyələri"nin adları var, amma özlərindən heç bir əsər yoxdur.

* * *

Sual. Həsənqulu, nə qayırırsan?

Cavab. Dəstəmaz alıram!

Sual. Nədən ötrü?

Cavab. Dünən əllərimlə bir müsəlmanın başını kəsmişdim, indi Ağdaş vaizi Molla Səməd əfəndinin sözlərinə əməl edib, dəstəmaz alıram ki, əllərimin günahı rəf olsun!

* * *

Bir əcnəbi (*kamal təəccüblə*). Bu ölən kimdir ki, bu dəbdəbə, bu təntənə, bu cah-cəlal ilə cənazəsini təşi edibsiniz və belə atəşin nitqlər söyləyirsiniz?

Müsəlman. Bu ölən, müsəlman millətinə ən böyük qulluqlar göstərmiş və millət yolunda hər bir şeyi qurban etmiş bir şəxsdir!

Əcnəbi. Bəs nədən vəfat edib?

Müsəlman. Deyirlər ki, acından...

* * *

Sual. Nədən ötrü müsəlmanlar bir bu qədər cəmiyyətlər düzəldirlər?

Cavab. Ondan ötrü ki, axırda "cəmiyyətin" adamları bir-birilə savaşsınlar.

Sual. Yaxşı, məgər ayrı yerdə "cəmiyyətsiz" savaşmaq olmazmı?

Cavab. Olar, ancaq "cəmiyyət" içində savaşanların hər biri "həqq, həqqaniyyət" və "millət" adına savaşıb, öz şəxsi düşmənçiliyini pərdələməyə yol tapırlar.

* * *

Sual. O kimdir ki, yazıq camaatın alın tərilə, əl zəhmətilə hüsula gəlmiş bütün rizq və ruzisini öz altına qoyub, nərildəyə-nərildəyə, guruldaya-guruldaya, xurduxaş eyləyir və özü də heç doydum deməyir, camaat da gendən durub tamaşa edir və yaxın durmağa qorxur? İndi deyirsiniz ki, Məhəmmədəli şah və ya İran xanları! Xeyr!.. Dəyirman daşı...

* * *

Sual. Hacı Səfər, nə üçün bidamaqsan?

Cavab. Balam, üstümə kağız gəldi ki, gərək 3 gündən sonra 5 min manat pul verəm.

Sual. Paho, görünür ki, anarxistlər yazıblar!

Cavab. Xeyr, kağız bankdan gəlibdir.

* * *

Şamaxı yolundakı müsəlman gecə kurslarının müəllimlərindən birisi mənə rast gəldi, gördüm binəvanın əhvalı çox pəjmürdədir. Soruşdum ki, nə olubdur?

Dedi: – Başım da ağrayır, belim də!

Dedim: – Bəs səbəb nədir?

Dedi: – Başımın ağramağına səbəb odur ki, başımda olan biliyi çıxardıb gecə kurslarının mütəəllimlərinə verdim. Belimin də ağrımağının səbəbi odur ki, oradaca paltonumu da çıxardıb, vallah mən heç kəsə vermədim, amma hər kəssə, görünür ki, başımdakı biliklə bərabər əynimdəki paltonu da istəyirmiş. Ona görə də hər ikisini də aparıbdır.

Dedim: – Zərər yoxdur, biz müəllimlər nəşri-maarif yolunda elm və biliyimizdən başqa, hərdənbir paltomuzu sərf etməliyik.

ORDAN-BURDAN

Məzhəkə

Kəndlinin biri buğdasını, baramasını aparıb bazarda dəyər-dəyməzinə satıb bir dana at, bir dana eşşək və əyninə də bir dəst paltar alıb evinə tərəf gedirdi...

Bir nəfər bəy bunu gendən gördü və təəccüb elədi ki, kəndlinin həmi atı var, həmi də eşşəyi. Daldan kəndliyə yaxınlaşıb başına elə bir qapaz saldı ki, kəndli ancaq bir saatdan sonra ayıla bildi və ayılandan sonra da baxıb gördü ki, eşşək yoxdur.

Yasavul kəndlinin atına baxıb şikayətinə qulaq asdı, amma şikayət "haqqı" az olduğuna görə kəndliyə bir neçə dana qamçı çəkdi və dedi: – Bağla atını burada, get ətrafı gəz, bəlkə eşşəyin tapıla. Kəndli atını yasavula tapşırıb eşşəyi axtarmağa getdi. Çox gəzdi, çox dolandı, hərçənd bəyin qapısında bir eşşək gördü ki, öz eşşəyinə çox oxşayırdı, amma o cürnə şeyləri fikrinə gətirməyə cürət eləmədi.

Və qayıtdı ki, bəlkə yasavul bir kömək eyləyə, amma nə yasavuldan və nə atdan bir nişan da görmədi.

Kəndli xövfə düşdü, öylə bildi ki, bunlar hamısı yuxudur. Onun üçün üzünü çimdiklədi ki, ayılsın, amma gördü ki, xeyr, yatmayıbdır. Bikef və bidamaq bir çayın qırağında oturub evinə qayıtmağa utanırdı, gördü ki, bir nəfər sarıqlı gəlir. Kəndli durub ikiqat əyildi və genə bidamaq yerinə oturdu. Sarıqlı dedi ki: – Nə var ki, belə bidamaqsan? Kəndli ağlaya-ağlaya əhvalatı nəql elədi.

Sarıqlı bunun tazə libasına diqqət yetirib dedi: – Mən sənə əlac edərəm.

Yazıq kəndli şadlığından bilmədi ki, nə qayırsın, özünü yıxdı sarıqlının ayağına. Sarıqlı dedi: – Sənin atını da, eşşəyini də cin oğurlayıbdır və o cin də sənin bu libasındadır. Ona görə bu libası ovsunlamaq lazımdır. Və illa başına çox bəlalar gələr.

Kəndli cin adını eşidən kimi dəlitək paltarını çıxardıb tulladı. Sarıqlı bir dua oxudu və dedi: – Bir qədər yat!..

Onsuz da it kimi yorulmuş kəndli başını yerə qoyan kimi yuxu basdı və yuxusunda gördü ki, eşşəyi də, atı da tapılıb, kişnəyə-kişnəyə bunun yanına çapırlar. Kəndli sevindiyindən öylə çığırdı ki, öz səsinə oyandı və oyanıb gördü ki, nə sarıqlı var, nə paltar. Binəvanı

vəhşət basdı. Əlinə bir çomaq alıb özünü qoruya-qoruya kəndinə yetirdi. Xalq yığılıb dedilər ki, a kişi dəli olubsan-nədir. Lüt gəzib özünü qoruyursan. Dedi: – Atımı oğurladılar, eşşəyimi oğurladılar və paltarlarımı oğurladılar. İndi qorxuram ki, özümü də oğurlayalar.

BƏYANİ-MƏSLƏK

"İrşad" və "Tərəqqi" qəzetələrində mühərrirlik etdiyimiz zaman bir takım qəzetəçi sənətindən layiqincə müxbir olmayan şəxslər məqalələrinin məzkur qəzetələrdə çap olunmadığından naşı, bizə etiraz edib "hürriyyəti-kəlamə yol vermirsiniz" deyirdilər. Lakin bu şəxslər orasını unudurdular ki, hər bir qəzetənin müəyyən bir məsləki olmalıdır. Ona binaən həman qəzetədə yazılan hər bir məqalə də həman məsləkə müvafiq olub, onun, yəni o məsləkin qarelərə təlqini yolunda xidmət etməlidir.

Əks surətdə, yəni qəzetənin müəyyən bir məsləki olmadığı halda, o qəzetəni oxuyanlar ondan az mənfəət görürlər.

Əvvəla, məslək nədir? Və saniyən həmin "Həqiqət" adlı nəşrinə başladığımız qəzetənin məsləki nədən ibarət olacaqdır?

Bu iki suala qüvvəmiz daxilində cavab verməyə çalışacağıq.

Söz yoxdur ki, xalq arasında mübtəsil oxunan bir şeyin oxucular bir təsiri olub. Bu təsir sayəsində oxucuların fikri də cümbüşə gəlib bir yol, bir məslək tutmaq istəyir.

İndi əgər həman oxunulan şey qəzetə olsun, jurnal olsun, daim bir məslək üstündə qalıb o yoldan, o məsləkdən o yan-bu yana sərpməzsə, oxucularının da fikri həman məsləkə alışıb hər kəs müəyyən bir fikir, bir əqidə sahibi olar.

Bu isə oxucular üçün mənəvi bir tərbiyədir. Yox, əgər qəzetə müəyyən bir məslək təqib etməzsə, bu halda o qəzetə oxuculardan sui-təsir hasil edər: oxuduğunu ağıl və insaf ilə tənqid və təkid etməyə alışmamış oxucuları da özü kimi məsləksiz edib, əxlaqını da pozar.

Çünki məsləksizlik – yolsuzluqdur, əxlaqın pozğunluğudur. Məsləksiz qəzetə müzirr olan kimi məsləksiz insan da müzirridir. Əlbəttə, məsləkin yaxşısı da vardır, yamanı da vardır.

Amma yenə də məsləksiz insan yaman məsləkli adamdan daha zərərlidir. Çünki yaman məslək müəyyən olduğu halda, onun zərrətini rəf etməyə çarə tapmaq asandır.

Məslək nədir?

Məslək – hər kəsin etiqad etdiyi bir yoldur; ümumi xoşbəxtliyini, asayiş və aramını, rəfain-halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəs əd olunmalıdır. Belə bir məsləkə xidmət edən şəxs həman məsləkə xəyanət etməməlidir. Bəlkə o məsləkin daha ali və daha müqəddəs bir yola yaxınlaşması üstündə çalışmalıdır, insan öz məsləkini dəyişə bilərmi?

Əvət, insan yaxşı bir məsləkdən daha gözəl bir məsləkə keçə bilər. O gözəl məsləkdən daha gözəlinə keçə bilər. Yəni özü tərəqqi etdiyi kimi, məsləki də o yolda tərəqqi edə bilər. Amma yaxşı bir məsləkdən pis bir məsləkə keçmək olmaz. Keçərsə, əxlaqsızlığı bildirər.

Hər kəs öz ağıl və insafı izn verdiyi yaxşı bir məsləki qəbul etdiyi kimi, biz dəxi öz aciz ağıl və bolluca insafımızca müqəddəs əd etdiyimiz və ümumxalq üçün baxüsus əfradundan olduğumuz millətimiz üçün mənfəətli bildiyimiz məsləkimizi həmin bu "Həqiqət" qəzetəsi vasitəsilə əhaliyə təlqinə çalışacağıq.

Bizim məsləkimiz nədir?

Bizim məsləkimiz odur ki, millətimizin tərəqqisinə bais olan hər bir həqiqi vasitə və vəsilələrə yol verməli və millətimizi cəhalətə və yaxud tərəqqiyi-məkusə sövq edən şeyləri dəf və izalə etməlidir. İştə qəzetəmizdə yazılan məqalə və əxbar həman məslək daxilində yazılacaqdır. Məsləkimizə müvafiq olmayan məqalələrdən, əz cümlə bunu saya bilərik: fitnə və fəsad qovzayan, qərəz-şəxsi ilə yazılmış olan, bir şəxsin heç kəsə zərəri olmayan və mənfəəti-aməni xələldar etməyən hərəkatını tənqid edən və yaxud heysiyyəti-şəxsiyyəsinə toxunan, insanlıq hissiyyatını təhqir edən məqalələrə heç bir halda yol verilməyəcəkdir. Bundan başqa, savadsız və məlumatsız şəxslərin bir əhvalata və ya bir hadisəyə dair yazılmış məqaləsi kəmali-məmnuniyyətlə qəbul edildiyi halda, onun elmi, ədəbi və ümumiyyətlə, ağlı məqalələrinə də yer verilməyəcəkdir.

İştə hələlik bu qədər.

İndi Allahdan tofiq diləyib işə başlayırıq.

DİL

Zənni-acizənəmcə, dilimizin islahı barəsində yazmadan qabaq, dilimizin əbqasi xüsusunda danışıb demək daha əfzəldir.

Çox vaxt rus qəzetələrində bu növ xəbər oxunur: filan müsəlman qəryəsində hökumət bir məktəb açdı, lakin əcnəbi dilinə qarşı xüsumət ibraz edən əhali bu məktəbə həvəslə uşaq qoymurlar. Yaxud filan məktəbin müəllimi rus olduğuna görə əhali məktəbə uşaq vermək istəmir. Bundan başqa, özümüz də bir çox ataların ağzından bu sözü eşitmişik ki, filan məktəbdə müsəlmanca oxunmadığına görə biz də oraya uşaq qoymaq istəmirik.

Əvvəl nəzərdə bu cürə əhvalat hər kəsə, yəni milli tərəqqi tərəfdarlarına çox xoş gəlir. Onlar belə zənn edirlər ki, rus məktəbinə, rus müəlliminə "müsəlman dili olmamazlığa" qarşı etiraz edən müsəlmanlar öz ana dillərini o qədər sevirlər ki, o dil tədris edilməyən məktəbə uşaq qoymaq istəmirlər. Yəni bugünkü polyak, yaxud leh tayfası kimi hərəkət edirlər. Öz məktəblərinin tərəqqisini arzu edirlər.

Lakin heyhat, zahirdə xoş görünən bu əhvalatın batininə əl vurulsa, çox puç, əsassız və kədəravər nəticələrə düçar olunar. Polyakların əcnəbi dildə tədris edilən məktəblərə qarşı qəlblərindəki nifrət, öz millət və milliyyətlərini sevməkdən və milliyyətlərinin ən böyük bir əlaməti olan dillərinin qədir və qiymətini bildiklərindəndir. Çünki onlar burasını çox gözəlcə anlayıblar ki, hər bir millətin bütün milliyyəti ilə bəqasına baş səbəb onun dilidir və dilinin tərəqqisidir.

Amma bizim adamların xristian dillərinə qarşı ibraz etdikləri xüsumət məhz fanatizm ucundandır, nəinki millət və milliyyətlərinin və milliyyət əlaməti olan dillərinin qədir-qiymətini bilməkdəndir.

Bunun dəlili çoxdur.

Bir ərəbdən soruşursan ki, sən kimsən?

Deyir:

– Ərəb!

– Sən nə dindəsən?

– İslam.

– Nə dildə danışırsan?

– Ərəb.

İslam olmayan ərəbdən də bu sualları etsən, cavabında deyər ki, mən ərəbəm, dinim xristian dinidir, dilim ərəb dilidir. Bir farsdan da

bu əhvalatı soruşsan, deyər ki, mən farsam, dinim islam dinidir, dilim fars dilidir. Bir ləzgidən də bunu soruşsan, deyər ki, özüm ləzgiyəm, dinim, əlhəmdüllah, islamdır, dilim də ya alaz, ya əmdi, ya qumuk, ya çərkəz və s. dilidir. Həmçinin rus, gürcü və sairə. Amma bizim bir nəfərimizdən sor ki, sən kimsən? Deyər müsəlmanam.

– Hankı millətdənsən?

– Müsəlman millətindən.

– Nə dinindəsən?

– Müsəlman dinindən.

– Nə dili danışırsan?

– Müsəlman dili.

Halbuki özü türkdür, dini islam dinidir, dili də türk dilidir. Daha burasını düşünən yoxdur ki, müsəlman adında millət yoxdur, müsəlman adında dil yoxdur, müsəlman – yəni islam dinini qəbul etmiş bir adam deməkdir. Din başqa, dil başqa. Din başqa, milliyyət başqa. Dində dil yoxdur, dində milliyyət də yoxdur.

Əgər bu gün yaponlar islam dinini qəbul etsələr, onlar ancaq din cəhətincə müsəlman olarlar, amma dil və milliyyətcə yapon qalırlar.

Hərçənd mətləb o qədər aydındır ki, bu barədə artıq danışmağın lüzumu olmasın gərək. Lakin genə də bir para oxucularımızı mülahizəyə alıb tövzih məqal üçün bunu da əlavə edirik ki, bizim bu sözlərimizdən məqsəd müsəlmanları bölük-bölük edib ittihad-islami pozmaq deyildir. Çünki əvvəla, ümummüsəlmanlar doğrudan da cürbəcür millətlərdən əmələ gəlməkdədir və saniyən ittihadı-islam ondan ibarət deyil ki, ərəb, fars, türk və sair islamlar bir-birinə qarışıb bir millət olsunlar. Bu, mümkün olan iş deyildir. Çünki ərəb nə qədər istəsə də, heç vaxt türk ola bilməz. Ya türk çalışsa da, heç bir vaxt dönüb ərəb ola bilməz. Bu, təbii bir qanundur. Palıd ağacı heç vaxt armud ağacı ola bilməz. Əgər palıd ağacını armud ağacı eləmək istəyiriksə, mümkün olmaz. Palıdın ancaq kökü palıd bələsi əvəzində alma meyvəsi almaq mümkündür. O halda da palıdı calamaq, peyvənd eləmək lazımdır. O surətdə genə palıdın özü yox, onun üzərincə qalanmış şaxdan alma gözləmək olar. Əlbəttə, əgər iş calanmağa qalsa, insanı da calamaq mümkündür. Məsələn, bir türk Ərəbistana gedib ərəb arvadı alar, sonra oğlunu da ərəb qızına evləndirər... Əlbəttə, nəvəsi ərəb olar...

Amma madam ki, bizim bu surətlə ərəb və ya fars olmaq təşəbbüsündə deyilik, ona görə türklüyümüzdə baqi qalırıq. Buna görə də dilimiz türk dilidir. İndi həmin bu türk dilimizin əvvəla, baqi qalması və saniyən tərəqqi etməsi və islah olunması barəsində çalışmalıyıq. "Baqi qalması" sözlərinə oxucularımızın diqqətini cəlb etməkdən məqsədimiz, dilimizin baqi qalmamaq ehtimalı olduğunu bildirməkdir. Çünki doğrudan da əgər biz öz ana dilimizə indiyə qədər baxdığımız nəzərlə baxmaqda davam edərsək, yəni heç bir əhəmiyyət verməsək, ola bilər ki, günlərin bir günü dilimiz itər, batar, yox olar və bir millətin də ki dili batdı, onda o millət özü də batar, çünki bir millətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir.

İndi dilimizə əhəmiyyət vermədiyimiz nə yerdən məlumdur? O barədə gələn sofər.

* * *

Biz öz dilimizə əhəmiyyət verməmişik. Dilimizin qədrini və qiymətini bilməmişik. Buna şahid, əvvəla, üsuli-qədim məktəblərimizdir, hankı ata öz övladını üsuli-qədim məktəbinə qoyduqda o məktəbdə oğlunun nə dildə dərs oxuduğuna əhəmiyyət veribdir?.. Heç biri... Atalarımız ancaq bununla təsəlliyab olubdurlar ki, o məktəblərdə "müsəlmanca" oxunur. Və müsəlmancadan ibarət guya ərəb və fars dilləri imiş, çünki həmin məktəblərdə bu dillərdən başqa özgə bir dil oxunmur. O, – eyb olmasın – məktəblərin – yenə eyb olmasın – "proqramı" məlumdur: əvvəlcə çərəkə, sonra cüzi-Quran, sonra Quranın məddi, ondan sonra "Gülüstan", "Bustan", "Əbvab", "Tarixi-Nadir", "Hafiz" və sairin fars kitabları.

Odur ki, o cür məktəblərdən çıxmış, daha doğrusu, qaçmış uşaqlar, təbiidir ki, türkcə heç bilməzlər, farsca danışmaq bacarmazlar, ərəbcə ancaq qiraət oxumaq bilərlər. O da şərtnən ki, ərəbcə kitabda zirü zəbər qoyulmuş ola.

Əhalimizi təşkil edən əfradın bir parası molla və "şibhi molla"lardır, bir parası mollaların müridləridir, bir parası da intiligentlər və "şibhi intiligent"lərdir. Bir parası da bunların müridləridir.

Mollalarımızdan türkcə biləni, yəni türk sərf və nəhvinə mütabiq yazıb danışmaq bacaranı yox dərəcəsində azdır. Mollalarımızın

müridlərindən "savadlı" olanları varsa, onlar da yazı-pozularını, məktub-filanlarını farsca yazarlar, o da min cür qələt ilə. Məsələn, hesablarında – roqəni səmərqənd – pinc batman, mali-zəri-rusi – həft – arşın, qəbz – əz hacı... filan vüsul şüd divist pəncah mənat nəqd. Hələ bunlardan bəziləri türkcə bilməməyi özləri üçün bir "fəxr" də hesab edirlər. Təsadüfən əllərinə düşmüş türkcə bir kitabı açıb farsca oxuyurlar.

Bundan başqa, üsuli-cədid məktəblərində guya "müsəlmanca" oxunmuyur – deyə şikayət edən bu cənablar, indi də "taza modaya" görə hesab kitablarını, məktublarını rusca yazdırmağa qeyrət edirlər. Kart vizitləri üzərlərində adları rusca, dükan qabağındakı elanları əksərən rusca, dəftər-kitabları, buxqalterləri yəhudi, ya rus olmaq şərti ilə rusca, təqvimləri rusca, blankları rusca, konvert (zərf)ləri üzərində adları rusca, rusca olmayanları da farsca. İmza və qolları ənvait müsibətlə oxuna biləcək surətdə rusca. Özləri də xoş müqəddəsdirlər, "müsəlmanca" dərs istəmirlər. Yəni bir məktəb açasan ki, içində yalnız ərəb və ya fars dili təlim edilə – zərər yoxdur – "müsəlmanca"dır deyə iktifa edirlər.

İntiligentlərimizin də türkcə bilməmələri və onların müridlərinin də türkcə bilmək istəmələri aşkar bir əmrdir.

Deməli, nə o tərəfdə qeyrəti-milliyə var, nə bu tərəfdə! Millət və milliyyət nə olduğunu o tərəf anlamır, bu tərəf də anlamaq istəmir.

İçimizdə bir ovuc millət qədrini bilən, öz milliyyətini sevən adamlarımız varsa da, bunların bu yoldakı səy və zəhmətləri ancaq özlərinə qalır, qəzetə yazırlar, özləri oxuyurlar. Türkcə kitablar nəşr edirlər, ancaq özlərini xərcə salırlar, başqa milli təşəbbüslərə əl vururlar, məyus olurlar, çünki bu tərəf puç, o tərəf bərbad, yerdə qalanlar da bisavad.

ŞEYX MƏHƏMMƏD XİYABANİ

(1880-1920)

AZƏRBAYCAN

(Məqalə)

"...Azərbaycan; bəhanə axtaran özgələr və kin-küdurətli özününküləri qarşısında vurdu, vuruldu, öldürdü, öldürüldü, həyatın çətinliklər və çək-çevirləri içərisində inqilab və təkamül yolunu keçib yaşadı.

Ucadantutma qırğınlar, soyğunlar, zülm və işgəncələr Azərbaycandakı istiqlaliyyət hərəkatını və azadlıq tələblərini məhv edə bilməyəcəkdir.

Özgələr və "özümüzünkülər" ürəklərində saxladıqları yaramaz fikirlərini həyata keçirmək məqsədilə bu torpağın yaralı sinəsi üzərində dar ağacları qurdular. Zülm və vicdansızlığın qara kölgəsini bu qana boyanmış torpağın üzərinə saldılar.

Lakin bu ölkənin qeyrətli cavanları və qəhrəman qocaları başlarını rəşadət səmalarında uca tutub, zülm və ədalətsizlik dünyasını öz ayaqları altında gördülər.

...Öz gənc həyatını həqiqət və azadlıq yolunda mərdliklə fəda edən Azərbaycan övladları içərisində elə məsum balalara təsadüf etmək olurdu ki, dar ağacları belə onların zəif vücudları qarşısında titrəyirdi. Bunların hədəqədən çıxmış gözləri, göyərmiş dodaqları və sıxılmış boğazları cəlladları qorxudur və rənglərini qaçırırdı.

Müharibə əleyhinə olan qüvvələr, daxili və xarici düşmənlər soyulmuş bu varlı əyaləti öz maceraları üçün meydan təyin etdilər. Təərrüz və zülmün qanlı pəncəsi bu vətənin nazənin vücudunu parçaladı, qalib və məğlubların yandırdığı atəşlər abad yerləri yaxıb külə döndərdi. Duz-çörək qanmayan ünsürlərin qanlı xəncəri Azərbaycanın hörmətdən salınmış qızlarının vücudunda elə yaralar açdı ki, onların qanlı dodaqları bir daha yumula bilməyəcəkdir.

Hələ də azərbaycanlının qanı axıdılmaqdadır. Bu gün Tehranın gözü Azərbaycanın parçalanmış vücuduna dikilmişdir. Dodaqlardan eşidilən kəlmələrdə, qələmlərin yazdığı sözlərdə təqdir səsləri və təhsin nəvaları eşidilməkdədir.

Lakin, ey qeyrətli Azərbaycan, ey Vətən müftunlarının istiqamətli övladları, ey azadlığın qorxu bilməyən qəhrəmanı, ey tərifləre ehtiyacı olmayan Azərbaycan!.. Ey Azərbaycan! Bütün bu təqdir və təqdislər sənin verdiyin şəhidlərin qanı bahasıdır.

Bunlar sənin həqiqətən ölməmiş cavanlarının, cavanmərd qocalarının, əzmkar uşaqlarının, təsəlli tapmamış qadınlarının və qızlarının səsidir ki, təqdir və təqdislori İran səmalarında tərənnüm edir.

Bu eşitdiyin onların səsidir, dinlə və ayıl!
Ey Azərbaycan, ey demokratik Azərbaycan!
Başını qaldır!

Tutalım ki, bu gün fəlakət və səfalət girdabında boğaza qədər müsibətlərə batmış, vücudun əziyyətlərə düçar olmuş, ən ağır ehtiyaclar içərisində gücsüz və qüvvətsiz əl-ayaq çalmaqdasan. Tutalım ki, qışın bu şaxtası lüt vücuduna qorxunc neştərlərini sancmaqdadır. Pərişan, solğun və yurdsuzsan. Tutalım ki, çox bədbəxtsən. Tutalım ki, müharibədə iştirak edən ölkələr sənin qədər xar olmamışlar. Təqsirli millətlər sənin qədər əzab və işgəncələrə düçar olmamışlar.

Dünyanın ən günahkar asiləri hamısı xilas oldu. Sən isə hələ giriftarsan...

Tutalım ki, başdan-ayağa yaralanmış və parçalanmışsan. Bununla belə o abırlı başını yüksək tut, vətənin qəlbindən gələn təsəlli səslərini dinlə, qoy bu səs sənin ürək və ruhunda dərin bir intibahın qüdrətli tufanını doğursun. Çünki sən yıxılmış pəhlivana, ayağa düşmüş qəhrəmana bənzəyirsən ki, onun ayağa qalxması üçün qeyrət və həmiyyət damarlarına təsir etmək ən yaxşı çarə və tədbirdir.

Əgər xəmirmayandakı həyat gövhəri və fəaliyyət atəşi tamamilə sönmüş və məhv olmuşsa, hərgah əvvəlki varlıq deyilsənsə, sənə rəhmət oxumalıdır. Lakin əgər parlaq gövhərin işarələri, o həmiyyət atəşinin hərarəti sənin damarlarında hələ də varsa, sənin qarşında bir xoşbəxt səhər durur. Qoy o kamiyab sabah və məramə nail olmaq səhəri sənə mübarək olsun, ey demokratik Azərbaycan!

Sən təcəddüd və təkamülün geniş meydanının yalnız yolçususan; çətinliklər görmüşsən, imtahandan çıxmışsan, budur qarşında yeni bir dövr açılır.

Fədakarlıqlarının nə qədər böyük səmərə verdiyini gördün, əzildin, qanın axıdıldı, həyatından yalnız bir quru nəfəs qaldı. Lakin məqsəd mənzilinə çatmaq üçün şərəfətli bir yola qədəm qoydun.

Zülm, işgəncə, əzab, müsibət, dar ağacları, zəncir və zindanlar nə qədər möhkəm olsalar belə, sənin istiqamət və mətanətin qarşısında bir-bir əzilib məhv oldu. Təhdidlər, hücum və əziyyətlər, mühasirə və qırğınlar səni parça-parça edib altını-üstünə çevirdi. Lakin məğlub edə bilmədi.

Yıxıldın, yerə dəydin, lakin hər dəfə yeni bir qüvvətlə ayağa qalxıb yüksəldin, hadisə və vaqiələr sənin əzm və iradənin üzərindən keçdi. Lakin onların ölüm və məhvindən sonra sən yenə də yaşadın və səlamət qaldın... Sənin o həyat dövrün səndən əsgərlik, fədakarlıq istədi, qan istədi, sən bunları bol-bol ona təqdim etdin.

Çıxışlar, qiyamlar, üsyanlar, müharibələr istədi, hamısına dözdün, suyu üzünə bağladılar, çörəksiz və yeməksiz qaldın. Lakin öz məqsədinə çatdın, istibdadı yıxıb məhv etdin.

Bu bir sökmək və dağıtmaq əməliyyatı idi ki, sən gərək köhnə və çürük, min yerdən çatlamış binanı yerlə yeksan edəydin, etdin!

Bu gün bir tərəfdə bir-biri üzərində qalanmış xaraba və viranələr, keçmişin zəhmətləri, təxiri qabil olmayan ehtiyaclar, səfalət və fəlakətin saysız-hesabsız tələbləri, zamanın qəm və qüssələri səslənməkdədir.

O biri tərəfdə isə mərkəz mətbuatının səsi, yəni vətənin ən parlaq və bariz fikirlərinin sədası qulağına çatmaqda və sənin nəcib fəzilətlərinə afərin oxumaqdadır.

O vaxt çatmışdır ki, sən bu ibrətamiz mənzərə qarşısında bir dəqiqə dayanıb fikirləşəsən...

Əgər sən həmin inqilab və mübarizənin vücuduna maddi qüvvə vermiş demokratik Azərbaycansansa, əgər məşrutənin xəmirini yoğurmuş və bərkitmiş qan sənin damarlarında axırsa, vətəndə gedən islah və təmir dövrəsinə hazır olub, özündə səy və çalışqanlıq taparsan.

Pozmaq, dağıtmaq asandı. İndi təmir və bərpa etməlidir. Abadlaşdırmalıdır.

İstibdad əleyhinə qiyam, əcnəbi istilasına qarşı müqavimət, pozğun daxili ünsürlərlə mübarizədə şücaət və qeyrət, həmiyyət və istiqamət tələb olunur.

Bunların hamısı pak övladlarının vücudunda vardır.

Məzkur məqsədləri sözdən işə keçirmək, nəhayət, istibdadın binasını yıxmaq, zorakılıq, inad və soyğunçuluqları məhv etmək lazım idi. Bunlar hamısı sənin varlığında ən yüksək dərəcədə vücudə gəldi.

Budur, artıq keçmişin zəhmətlərindən istifadə dövrü gəlib çatmışdır. Keçmişin xarabaları üzərində gələcəyin sarayları yüksəlməlidir.

Bu sarayların yüksəlməsi fikir və düşüncə tələb edir. Uzağı görən, uzağı düşünən fikir. Ağıllı və tədbirli fikir. Yaradıcı və canlandırıcı fikir. Tətbiq və icraedici düşüncə. İslah edib intizam yaradan fikir. Səbir və səbat, yenilik, dissiplin və təşkilat, ayıqlıq, ümidvarlıq və fədakarlıq tələb edən fikirlər olmalıdır.

Bəli, fədakarlıq və həmişə fədakarlıq!

Heç vaxt yorğunluğa və yasa qapılmamalıdır: Heç vaxt!

Xüsusilə bir xalqın ağır həyat yükü bir nazik tükdən asılı olsa belə... Ey Azərbaycan! Ey bu əyalətin qeyrətli, demokratik qüvvəti! Sən keçmişdə vətənin dayağı olmuşsan, gələcəkdə də elə olacaqsan.

Bu günün nəcabət və şərafət müsabiqəsi səndən vəfa və sədaqət gözləyir.

Bu təklifin altından boyun qaçıra bilməyəcəksən.

Ey əziz Azərbaycan, sən bir iti görən gözsən ki, İran sənin lə... mədəniyyətə baxır. Sən bir həssas və mütəəssir olan ürəksən ki, bu vətən dünya işığını sənin lə hiss edir.

Ey ölməz Azərbaycan, bu ümidləri doğrult, başını yuxarı tut, yaşa, həmişəlik yaşa!.."

HÜSEYN CAVİD

(1882-1941)

MÜHARİBƏ VƏ ƏDƏBİYYAT

Tuhaf şey!.. Nerəyə getsən, hər nəyə baqsan, bir sarsıntı, bir pərişanlıq hökmfərma... Bütün könüllər iztirabda, bütün ruhlar həyəcanda, bütün gözlər intizarda...

Kürreyi-ərzin, şu canavar yatağının bir bucağı, bir nöqtəsi yoq ki, duyduğumuz saldırışlardan, eşitdiyimiz gurultulardan mütəəssir olmasın! Yanardağlardan seçilməyən toplar, insanları deyil, səhraların vəhşilərini belə dəhşətlər içində bıraqıyor. Dünyamız, şimdiyə qadar hənuz böylə qorqunc bir bəlayə rast gəlməmiş, böylə müdhiş bir inqilab görməmiş. İskəndər, Napaleon kibi cihangirlər, Çingiz, Teymur kibi bahadırlar məzarlarından baş qaldırıb da şu müharibəyi seyr etsələr, şübhəsiz ki, heyrət və təəssürdən kəndilərini alamazlar. Zatən bu müharibə, bir müharibə deyil də, müsri bir bəladır, bir taundur, aləmşümul bir fəlakətdir...

Fəqət bu fəlakət hər kəsi bir dərəcədə düşündürmiyor, hər ölkədə bir təsir bıraqmıyor. Birini güldürürkən, digərini ağlatıyor. Birini məyus və müztərib ediyor da, digərini qəhqəhə və müzəfəriyyətlə sevindiriyor.

Bütün dünya gözdən keçiriləcək olursa, hər şeyin dəyişdiyini, hər halın başqalaşdığını görməmək mümkün deyildir. Bu dəyişmənin, bu başqalığın yeganə səbəbi isə, əlbəttə, içində bulunduğumuz müharibədir.

Müharibəyin hazırdakı müvəffəqiyyəti, bir çoqları texnikada, texnikanın mükəmməlliyində görüyorlar. Halbuki bu qalibiyyətləri yalnız texnikada deyil, başqa qüvvətlərdə də aramalıdır. Çünki yalnız yaqıb-yıqıcı toplar, növicad çəpəllinlər, boğucu qazlarla iş aşmaz. Bunlar ilk baqışda gözə çarpdığı için hər kəsi düşündürüb duruyor. Halbuki bu müdhiş silahlardan daha müdhiş almanların müharibədəki yeni nəzəriyyələri, yeni planları, əskərindəki kəskinlik və bütün məmləkət xalqındakı əhvali-ruhiyyədir. Bu ölkənin əhvali-ruhiyyəsində isə, fənni-tərbiyənin, ədəbiyyat və fəlsəfənin təsiri inkar olunmayacaq şeylərdəndir.

Rus-Japon müharibəsində, bəzi mütəfəkkirlər, japonların qalibiyyətini onların komandanlarında, zabitlərində deyil, ibtidai məktəblərdə, məktəb müəllimlərində, müəllimlərin xalqa vermiş olduğu tərbiyədə aramışlardı. Şübhəsiz ki, bu nəzəriyyə almanlara, alman ordusuna daha ziyadə şamil olsa gərək...

Bizdə – Rusiyada ibtidai, orta və ali məktəblərin azlığı bir nöqsan təşkil etdiyi kibi, bu məktəblərdə keçilən bütün elmlər, bütün fənlər də olduqca səthi və nəzəridir. Halbuki almanlarda böylə olmayıb da bütün-bütünə bunun əksinədir. Orta və ali məktəblər kənara dursun, ibtidai köy məktəblərində belə hər elm, hər fənn son dərəcə səmimi bir tətbiqat və əməliyyat ilə keçilir. Yalnız darülfünunlar deyil, köylərdə də səyyah bir professora təsadüf edilir. İctimai, fənni, ədəbi konfranslar verilir. Fənni həqiqətlər olduqca tətbiqi bir surətdə göstərilir. Və ona görə də hər bir alman yalnız dinləməklə qalmaz, dinlətmək də istər. Görməyi kafi bulmaz, göstərməyi də arzu edər. Hələ onlarda ibtidai məktəblərin məcburi olması, oğlan-qız, kimsənin müstəsna tutulmaması, daha başqa bir feyz, daha başqa bir fəziletdir.

İştə böylə bir mühitdə böyüyən, böylə bir ölkədə yaşayan tələbə və talibələr ikmali-təhsildən sonra, bir də kəndi filosofları, ədibləri tərəfindən yazılmış əsərləri mütaliəyə başlarlar. Şübhəsiz ki, ən faydalı düşüncələr, ən ciddi mühakimələr də yalnız fəlsəfə və ədəbiyyat vasitəsilə əldə edilə bilir. Çünki düşünməyə başlayanlar, xilqət və təbiətdə bir qayə, bir nəticə arayan gənclər, yalnız mütaliə sayəsində kəndi məsləkini təyin edə bilir, kəndi aradığını bulur.

Əgər bir millətin fəlsəfə və ədəbiyyat kitabları həssas, xəyalpərvər, laübali qələmlərlə yazılmışsa, şübhə yoq ki, o millət, o nəsil cərəyana qapılıb da həp o yolda hərəkət edər və mümkün deyil, aqıntıya qarşı bir dürlü kürək çəkəməz. Məsələ, bir gənc bir şeir, bir hekayə, bir roman, bir tarix, bir faciə oquyacaq olursa, dərhal kəndisinə ruhdaş, məsləkdaş olmaq üzrə bir qəhrəman seçər, bir tip bəyənir və o ruhda yaşamağa yeltənir və o məsləkdə yaşamaq istər və bu yazılan əsərlər isə, adəta, aləmşümul bir müəllim yerinə keçər, qarələrin ruhlarına nüfuz etməyə başlar.

İştə məzkur əsərlər zəhərli, əxlaqsız, gevşək bir mevzu təqib edərsə, er-gec bütün oqucularını da zəhərləmiş olur. Kəskin, ciddi və mətin bir yolda yazılmışsa, şübhəsiz, qaredə də eyni fikri, eyni duyğuyu oyandırmış olur.

Ədəbiyyat, bir millətdəki əhvali-ruhiyyənin inikası deməkdir. Gələcək nasıl isə, şimdiki ədəbiyyat və fəlsəfənin təsir və nüfuzuna qapılır və hiç bir dürlü də qurtuluş imkanı bulamaz.

Şimdiki iranlılar, bilxassə farslar, göz önünə gətirilsin, bütün İranın əhvali-ruhiyyəsi təhlil edilsin, bütün şəhərlər, bütün köylər, əfyunçuluq, şürbilik, səfsətə və laübalilik içində yuvarlanıb gediyor. Müstəsna olaraq az bir qismi çıqdıqdan sonra, hər kəsdə, hər qafada bir ətalət, bir məskənət görülüyor. Əcəba, ruhları əzməkdə olan bu gevşəklikləri, bu səfaləti doğuran kimdir, nədir, hanki səbəblərdir?

– Şübhəsiz ki, ədəbiyyat...

Ruhanilər və hakimlərin korluq və bəcəriksizliyi də təsirsiz deyil, amma eyicə diqqət buyurulsa ən mühüm səbəb, yenə ədəbiyyat və mətbuatdır.

Firdevsi, Sədi, Nizami, Hafiz, Xəyyam kibi nadireyi-fitrətlər müstəsna; onlardan sonra gəlib də dünyayı beş quruşa almayan zahidməslək ədiblər, laübali və məsxərəçi şairlər, əxlaqsız və yaltaq məddahlar, əcəba hanki rəzalət qaldı ki yapmadılar? Nə saçmalar, nə əfsanələr uydurmadılar?!

Bu hal Türkiyədə də əskik olmamış... Bir kərə tarixi-ədəbiyyat gözdən keçirilsə, Ruhi kibi laübali məşrəblər, Nəfi kibi yayqaraçılar, Nabi kibi ölgün bir fikir daşıyan fəlsəfəçilər, Nədim kibi səfahətpərvər xərabatilər kəndi yazıları ilə türklərin sağlam və sarsılmaz ruhlarını pozub gevşətdilər. Şinasi devrinə gəlincəyə qadar, bəlkə ondan da sonra həp bir diziyə əcəm ruhu, əcəm fəlsəfəsini izlədilər.

Avropa yolunu tanır-tanımaz, bir də fransız müqəllidliyi meydan aldı. Həm də fransızların az-çoq ciddi və məharətli ədəbiyyatı deyil, hoppa, dəgərsiz və çürük əsərləri təqib olundu, tərcümə edildi və kəndiligindən xüsusi əsər yazanlar belə, bir dürlü təqliddən yaqayı sıyıramadılar. Həm də əskilik ilə yeniliyi, əcəmilik ilə fransızlığı qarışdıraraq iki çürük, iki əxlaqsız uçurum arasında qaldılar. Yalnız Rza Tevfiq, Əbdülhəq Hamid, Tevfiq Fikrət kibi məşahir, bir də milli ənənələri, milli duyğuları dinləyən bəzi gənc ruhlar, gənc qələmlər köhnəlikdən, müqəllidlikdən sıyrılmağa başladılar. Namiq Kəmal kibi özünü hər kəsə sevdirə bilən böyük bir hünərvəri belə pək küçük, pək darruhlu buldular və haqları da var...

"Açıq söz", 25 oktyabr 1915

* * *

İşto, türk-fars ədiblərinin kəndi millətinə, millətin əhvali-ruhiyyəsinə olan təsir İngiltərədə, Fransada, İtaliyada, Almaniyada, Rusiyada və sair məmləkətlərdə də eyni dərəcədə şamil və hökmfərmadır.

Məsələ ingilizləri alalım: onların ötədən bəri, cihangirانə bir əməl arqasınca qoşmaları, hər yerdə nüfuz qazanıb da hər ölkədə rol oynamaları, siyasi qüvvətlərə mədyum olduğu kibi, fəlsəfi-ədəbi təsirlərdən də varəstə deyildir.

İngilizlər məğrurdur, soğuqqanlıdır, düşüncəli və durbindir. Əlbəttə bunlar, bu sifətlər, mühitə, milli ruha, milli tərbiyəyə race sifətlərdir. Lakin Şekspir kibi dahilərin əməlpərvər, aləmşümul əsərləri, Herbert Spenser kibi böyük filosofların nüfuzlu, mətin, sarsılmaz və kəskin fəlsəfələri, şübhəsiz ki, hər ingilizdə, bütün xalq ruhunda böyük və səmimi bir təsirə malikdir.

Fransanın da Jan Jak Russo kibi həssas və məriz bir ruha malik olan filosofları, bir taqım xəyalpərəst, hoppa şairləri bəzi əxlaqsız, modaçı romançıları, şübhəsiz ki, fransız həyatına, fransız mühitinə təsir etməmiş deyildir.

İtaliyaya gəlincə, əski italyanlarla işimiz yoq... Biz şimdiki italyanları yalnız musiqiçi – çalğıçı tanıyoruz. Çalğının bəslədiyi ruh və əxlaq hər yerdə, hər kəsə bəlli olduğundan, onlardan, onların oynayacağı roldan bəhs etmək lüzumsuz görüldü.

Rus-alman mühitinə gəlincə, bu mühitdəki həyat və ədəbiyyat daha başqadır. Rus-alman sözü araya gəlir-gəlməz, həm ədib, həm filosof olmaq üzrə iki böyük sima, iki nüfuzlu mütəfəkkir qarşımızda dikilib durur. Onların biri məşhur Tolstoy, biri də alman filosofu Nitşedir.

Son zamanlarda bu iki müqtədir dahinin Rusiya və Almaniyada oynadığı müvəffəqiyyət, inkar edilməyəcək bir nüfuz və qüvvətə malikdir. Tolstoy qocaman və möhtəşəm romanlarilə, ufacıq, sadə risalələrilə, munis bir qayeyi-əməl, məsihapəsəndanə bir məslək izləmiş, izlədiyi qayeyi-əməli, düşündüyü məsləki, rusiyalılara, bilxassə ruslara bəyəndirmiş, milyonlarca qarələrini, İncili-şərifin əvfedici təlimatilə yaşatmağa çalışmış, az-çoq müvəffəq də ola bilmişdir.

Məzkur Nitşeyə gəlincə o, daha başqa bir yol, daha başqa bir qayeyi-əməl təqib etmiş. Onun əsərlərində, Tolstoyun düşündüyü "mərhəmətlərdən" əsər yoq...

O, zəiflərin əzilməsini qayət təbii bulur. Məhəbbət, mərhəmət kibi duyğuların xəyalpərəstanə, mənasız şeylər olduğunu isbata çalışır, həm də isbat etməkdən aciz qalmaz.

Ona görə də Tolstoy Nitşeyə "yarımdəli alman" – deyə tənqid və müaxizə edir və onun məcnunanə əsərlərinin Rusiyada təb və nəşrinə, tərcümə edilməsinə, nüfuz qazanmasına qızmaqdan bir dürlü kəndini alamaz. Və onun yürütməkdə olduğu fəlsəfənin yaqıcı zəhərdən başqa bir şey olmadığını da ilavə edir.

Lakin eyi düşünülürsə Nitşe fəlsəfəsinin batini pək də zahirinə bənzəməyərək, daha səmimi bir mərhəmət və məhəbbətlə nəticələnir. O, Tolstoyun düşündüyü nüqtəyə acı olmaqla bərabər, daha kəskin və həqiqi adımlarla ilərləmək istər: "Hər kəsin məqsudu bir, amma rivayət müxtəlif..."

Rusiyada Nitşenin qareləri az deyildir. Rusiyanın məşhur ədiblərindən, mətin üsluba, dərin düşüncəyə malik olan Dostoyevski – o böyük dahi və ruhşünas belə Nitşe yolunu, Nitşe ideyasını daha əvvəl ortaya sürmüş. Şimdiki bərhəyat ədiblərdən Leonid Andreyevin faciələrində də az-çoq Nitşe ruhu görülməkdədir. İştə bunun için Tolstoy Nitşeyə qızdığı kibi Andreyevə yazdığı bir məktubda diyor ki:

"Leonid! Leonid! Sən bəni qorqutuyorsun, fəqət bən səndən qorqacaq deyilim!"

Demək ki, qoca Tolstoy bu cümlə ilə məslək və fikircə kəndinə müxalif sayılan, Nitşe ruhuna yaqınlaşan Andreyevi bir dürlü düşündürmək, müaxizə etmək istiyor.

Hər halda Tolstoyun ən ziyadə nüfuz qazandığı bir Rusiya olduğu kibi, Nitşenin də ən çoq rol oynadığı məmləkət, şübhəsiz, Almaniyadır... İştə, demək olur ki, bu böyük mütəfəkkirlərin ən səmimi təsirləri hər yerdən ziyadə kəndi məmləkətlərinə olmuşdur. Bu iki məmləkətdən hər birini gözdən keçirəcək olsanız, təbii, binlərcə, on binlərcə darülfünunlara, rüşdi, edadi məktəblərə rast gələrsiniz və milyonlarca tələbə və talibənin elm arqasınca qoşulduğunu, məzkur məktəblərə dəvam etdiyini görürsünüz.

Bəlli bir həqiqətdir ki, hər məktəbdə bir çoq dərslər oqunduğu kibi ədəbiyyat, fəlsəfə, tarixi-fəlsəfə dərsləri də keçiliyor və hər məmləkətin ən məşhur ədibinin, ən nüfuzlu filosofunun əsərləri və əsərlərində qayə də birər-birər təhsil və tənqid edilir.

Eyni zamanda bütün gənc dimağlar (beyinlər) birər fotoqraf kibi duyub bəllədiyi həqiqətləri böyük bir məraq ilə alır və o

həqiqətlər get-gedə inkişaf edərək ümumi bir duyğu, ümumi bir düşüncə, ümumi bir əhvali-ruhiyyə təşkil edər.

İştə bu gün müharibə meydanında seyr etməkdə olduğumuz yigitlər, qalibiyyət arqasınca qoşan qəhrəmanlar, həp məzkur məktəblərin məhsulu, həp məzkur darülfünunların pərvərdeyi-irfanıdır.

Demək ki, bugünkü müharibədə yalnız toplar, tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və fəlsəfəsilə bəslənən beyinlər də ayrıca haizi-əhəmiyyətdir.

Fəqət bugünkü müharibənin gələcək ədəbiyyata icra edəcəyi təsir keçmiş ədəbiyyatın bugünkü müharibəyə verəcəyi təsirin qatqat fevqində olsa gərək...

Əvət, bugünkü müharibənin hazırlamaqda olduğu zərbə, pək qorqunc, pək təhlikəlidir. Şu müdhiş inqilabdan hiç bir qüvvət qurtulamayacaq. Bütün elmlər, fənlər umulmaz dərəcədə sarsılacaq, dəyişəcək. Şübhəsiz ki, ədəbiyyat da bu aqıntıya qapılmaqdan kəndini alamıyacaq. Bəlkə daha kəskin, daha sağlam adımlarla yürüyəcək, daha doğru, daha mətin bir yol izləyəcək... Və şimdiyə qadar qaraladığımız saçmalar, bugunkü parça-tikə ala-bəzək ədəbiyyatımız da büsbütün alt-üst olacaq. Gənc münəqqidlərin nəzəri-istehzasına uğrayacaq. Həm də insafsız, mərhəmətsiz, etinasız bir surətdə yırtılıb atılacaq. Heyhat!.. Son nədamət isə fayda verməyəcəkdir.

"Açıq söz", 26 oktyabr 1915

HƏSBİ-HAL

1

Bir millətin tərəqqi və tədənnisini bilmək için o millətin məktəblərini, daha doğrusu, ibtidai məktəblərini görmək kifayət edər. Avropaya meydan oquyan Almaniyanın, qoca Rusiyayı həyəcana düşürən Japoniyanın bütün bu tərəqqiyyati-ciddiyyələri həp ibtidai məktəblər sayəsindədir.

Türkiyədə əsnayi-inqilabda vüquə gələn müvəffəqiyyətlər, qılıc parıltısından, qol zorundan ziyadə məktəb tərbiyəsinə və o məktəbləri idarə edən müəllimlərə mədyundur.

Demək ki, bir millətin hər halını tədqiq etmək için ən doğru meyar, ən kəsdirmə yol o millətin məktəbləridir. Dünyada hər iş,

hər hərəkət bir qanuna, bir rəhbərə möhtacdır ki, o rəhbər də olsa-olsa yenə məktəblər ola bilir. Hər kəs yaşamağa möhtacdır. Rahat və məsud yaşamaq için də xüsusi bir məslək, bir iş tutmaq iqtiza edər. Lakin hər iş sahibi öz işini layiqilə becərə bilmək için bəhərhal qüsurlarını anlayıb, sənətində mahir olmalıdır, o məharəti bizə öyrədən şey isə elmdir, məktəbdir. Zira elmi-iqtisad bilməyən bir tacir mənfəət yerinə zərər görür. Tarixi-ədyan, fəlsəfeyi-din bilməyən bir xoca hidayət, şəriət yerinə səfsətə, zəlalət toxumu saçar.

Elmi-ziraətdən başı çıqmayan bir mülkədar, yaxud əkinçi buğda əkərsə çavdar biçər, həndəsə bilməyən bir memar qübbə ilə uğraşırkən divarları çatlamış bulur.

Təlim və tərbiyədən anlamayan bir müəllim tənviri-əfkar edəcək yerdə fəsadi-əxlaqa bais olur. Fəzilət yerinə rəzalət öyrədir, elm yerinə cəhalət törətmiş olur.

Məktəb təbiətin bir məkəsi-həqiqisidir. Aləmi-təbiətdə hər nəyə təsadüf etsək, onun ən mükəmməl tarixini, ən gözəl nümunəsini məktəb sıralarında görə biliriz. Hasili hər hanki məsləkə süluk etsək, məktəb otağını ziyarət etməkdən müstəğni ola bilməyiz. Lakin məktəb də "məktəb" nami-məcləbəsinə haqqilə layiq olmalıdır. Şimdiyə qadar məktəblərimiz bir ətalətxanədən başqa bir şey deyildi. Hətta nafiz bir nəzərlə tədqiq edəcək olsaq, o pərişan hal şimdi belə hökmfərma olmaqdadır. Bir çoq məktəblərdə müəllimlər vaqt öldürməkdən başqa bir şeyə yaramıyorlar. Daima şagirdlərdən miskinanə bir inqiyad, cahilanə bir itaət istərlər. Dərsləri hərfi-hərfinə tutuquşu kibi əzbərlətməyi kəndilərincə üsuli-cədid zənn edib öz-özlərini aldatıyorlar.

Ciddi müəllim pək şərəfli, pək böyük bir adamdır; əgər üsuli-təlimi və öz vəzifəsini bilirsə. Cahil müəllim pək bayağı, pək aşağı bir insandır, əgər həddini aşıb təlim və tərbiyə meydanına atılırsa...

Qafqasiyanın yedi, səkiz yıl bundan əvvəlki halı xatirdədir. Məktəb naminə iki-üç evcik ya var, ya yoq idi. Allaha şükür, bu son zamanlarda ötədə-bəridə beş-üç məktəbə təsadüf etmək mümkündür ki, bu da şayani-təbrik bir haldır. Lakin təəssüf ediləcək bir nöqtə varsa, o da bu məktəblərin nasıl idarə olunmasıdır. Heyəti-idarənin kimlərdən və nə nev əzalardan mütəşəkkil bulunmasıdır. Məsələn, bir köydə, qəsəbədə, ya bir şəhərdə bir məktəb təsis etmək için ilk öncə bir seçki vüqu bulur. Təbiidir ki, seçki işi ümumə aid və əksəriyyəti-araya tabedir. Rəyə iştirak edilir isə yüzdə doqsan beş payı

təcrübəsiz, elmsiz, onun-bunun ağzına baqanlardır. Açıq təbir ilə fanatizm əsirləri, cəhalət qurbanlarıdır. Yerdə qalan beş nəfər isə az-çoq təlim və tərbiyə işinə vaqif olsa belə, nə yapsınlar! Əksəriyyəti-araya malik olamayıb yoq hökmündə qalırlar. Ən nihayət seçki xitam bulur, bir taqım mühafizəkarlar əzalığa səlahiyyət qazanıb mükəmməl bir idarə vücudə gəlmiş olur. Şimdi heyəti-idarə bu səlahiyyət və müvəffəqiyyətlərində həqirmi?

– Əsla...

Həqiqəti-hal nəzəri-diqqətə alınır isə həpsi nüfuzlu, mötəmid, xalq arasında özünəməxsus bir heysiyyətə malik olan adamlardır. Yalnız işin uyğunsuzluğu məzkur heyətin dərəhdə etdikləri və mübaşir olduqları iştə həqqilə dərin bir vüquf və təməyyüzə malik olmamalarıdır. Onun için də təsis edilmiş məktəbə lazım olan fədakarlıqlar ifa ediləmiyor. Təlim və tərbiyədə haizi-əhəmiyyət olan nüqtələr bütün nəzəri-diqqətdən qaçırılıyor. Sadə "üsuli-cədid" ünvanilə iktifa edilib, əski, pozuq müəssisələrdən daha bərbad bir surətdə qarışıb gediyor. Yarım-yamalaq bir nümayişdən başqa hiç bir sağlam nəticəyə müvəffəq olunamıyor. Heyətin ədəmi-isabətindən istifadə edərək bir taqım cahil, təcrübəsiz, fənni-tərbiyəyə biganə adamlar da dürlü-dürlü yaltaqlıqlar, iltimaslar sayəsində dərs işlərinə daxil olub ortalığı zirü zəbər ediyorlar. Yarınkı gün qəzetə sütunlarına göz gəzdirirsən; filan məktəb bağlandı, filan qiraətxanə Allahın rəhmətinə getdi, filan müəssisə qapadıldı. Fəqət niçin? Cəhalət!

İran məclisi-milliyyəsinin bugünkü halı hər kəsə məlumdur. Hər işdə bir tərəddüd, hər təşəbbüsdə bir qətiyyətsizlik görünməkdədir. Biçarə millət də müvəffəqiyyətsizliklərini düşünərək yürək oğuşdurmaqdan başqa bir şey yapamıyor.

Fəqət bais kim?.. Yenə millət kəndisi.

Səbəb nə?.. Yenə cəhalət!

İranlı arqadaşlarımdan birilə İran intixabatı haqqında dərdləşirdik. Diyor ki, haman intixabat başlar-başlamaz, görürsən ki, filan şəhərdə, ya filan gündə xalq bir-birinə girib çıqıyorlar. Kimi seçəlim? Seçmiyəlim? Nihayət, ya qolu zorba nüfuzlu, fəqət cahil bir xanı, yainki günü keçmiş, qaimül-meyl, saimün-nəhar ağsaqqal bir xocanı məclisi-milliyyəyə doğru fırlatıyorlar. Şimdi bu müstəbid, cahil xan, yaxud şu mömin, zahid xoca ingilis, rus politikasının qarşısında nə yapa bilir? Təbii hiç... Yapacaqları bir iş varsa, o da biçarə

millətdən ayda bir qaç yüz tümən məbusluq haqqı naminə cib xərci almaqdır. Bu hal 34 sənə əvvəl Türkiyə məclisi-məbusanında da vüqu buldu. Lakin son inqilabda, yəni iki yıl əvvəl "İttihad və tərəqqi" cəmiyyəti hürriyyəti istirdad edər-etməz, seçki məsələsini əsla nəzəri-diqqətdən çıqarmadılar. Məmləkətin hər tərəfinə dağılıb cəmiyyət şöbələri təsis etdilər. Söz ilə, dil ilə, qorqu ilə, xülasə bir istibdadi-əhraranə ilə xalqı, avam cəmaəti huşlu, başlı, qanlı, canlı, zəki, fəal məbuslar intixabına vadar etdilər.

Bu üsulun nümunəsini İstanbulda belə görmək mümkün idi. Fəqət onların bu təşəbbüsatı sayəsində məbusların üçdə iki payı ancaq məbusluq naminə layiq zatlar ola bildi. Üçdə bir payı isə yenə "əski tas, əski hamam!" təbirinə ləyaqət qazananlardır ki, onlar da bir taqım dişi düşmüş paşalardan, nüfuzlu mülkədarlardan, ağlı qaçmış xocalardan və Ərəbistan yadigarlarından ibarətdir. Məclis işə başladığı zaman diqqət edəcək olsan, görürsən ki, kimi dışarıda sığara içməklə məşğul, kimi də məclisin müzakirəsinə ağıl irdirə bilməyib uyumağa amadə kibi görünür. Gənc qəhrəmanlar isə hər tərəfdən peydərpey od yağdırıyorlar, odlu fikirlər saçıyorlar. Mevzui-bəhs edilən maddələrdə hər kəs kəndi hissiyyatını dinləyib istedadına görə sözə iştirak ediyor. Hər biri təcrübəli, mühakiməli, diplomalı olduğu halda yenə söyləyəcəyi sözlərdə ixtisas "ispetsializm"ə riayət etməkdən çəkinmiyor. Biri elmi-iqtisadda mütəxəssis və təcrübəkar isə iqtisad məsələsinə ən çoq bəyani-fikir edən o olur. Biri siyasi isə, o da siyasiyyata aid bir çoq mütaliat sərf ediyor. Hasili, müxtəlif işlərdə, müxtəlif əfkara malik olduqları halda "təqsimi əmal" qanununa riayət edər, hər kəs öz istedad və ixtisasına görə söz söyləyər, onun için də bütün Avropanın nəzəri-diqqətini cəlb etdilər. Hürriyyət və heysiyyətə malik bir millət olduqlarını isbat elədilər. Lakin bu müvəffəqiyyətlərin başlıca səbəbi "İttihad və tərəqqi" cəmiyyətinin əl altından yapdığı istibdadi-hürriyyətpərvəranədən başqa bir şey deyildir. Bir qətiyyəti-riyaziyyə ilə müsbətdir ki, Asiyada, Japoniyadan başqa hər tərəfə baqsan yüzdən 99 pay avam, bir pay ancaq iş bilir, maarifdən anlar adamlardır. Rəy məsələsinə gəldikdə, təbiidir ki, qələbə avam, cahil tərəfində olacaqdır. Cühəla isə elmin fəzilətini və nə yolda ilərləməsini təqdir edəməz, çünki cahildir. Maarif sevən adam hiç bir zaman cahil qalmaz idi, şübhəsiz, təhsil edib alim olmuş olurdu.

Fəqət şimdi nə yapmalı? Hər işimizə müdaxilə edən də yenə onlar... Yeganə bir çarə varsa hər kəs, daha doğrusu, gözü açıq adamlarımız insafı araya qoymalı, şəxsiyyətdən, qərəzkarlıqdan vaz keçməli, hər işi iş sahibinə tapşırmalı, hər seçkidə də yuqarıdakı istibdadi-əhraranəyi unutmamalı və hər işdə, hər təşəbbüsdə ixtisas və istedadı nəzəri-diqqətə almalıdır.

Sözümüz pək uzun sürdü. Nerdən başladıq, nerdə bitirdik. Yazmış olduğum şu dağınıq fikirlər xəyalımda belə yoq idi. Təlim və tərbiyəyə aid bir qaç sətir yazmaq istərkən dağdan-daşa, dərədən-təpəyə düşdük. Fəqət hər məktəbin ilk əsası onun təsisindən və heyəti-idarəsindən başladığı için yenə faydasız çıqmaz zənn edərim. İnşallah, gələcək nömrələrdə bir qaç dəfə təlim-tərbiyə haqqında həsbi-hal edəriz.

HƏSBİ-HAL

2

Təlim və tərbiyə haqqında veriləcək atidəki məlumat bir taqım mevsuq mənbələrə istinad edər. Onlar için mütaliəsi faydasız olmaz zənn edərim.

Tərbiyə (pedaqogika) nədir? Və nə yapmalıdır? Alman hükəmasından filosof Kant diyor: "Tərbiyə, təbiəti-bəşəriyyənin bütün qabiliyyətlərini müntəzəmən və mütənasibən təməniyyə etdirməli və bütün insanları qayeyi-müqəddərinə isal eyləməlidir".

İngilis hükəmasından Lokk da diyor ki, "Tərbiyə insanları fəzilətli, cəmiyyətə faydalı və kəndi məsləklərində məharətli bir hala gətirmək için ən qolay və qısa olan üsuldur".

Filosofi-şəhir Herbert Spenserə gəlincə, o da: "Tərbiyənin qayəsi bizi mükəmməl surətdə yaşamağa hazırlamaqdır" deyir. Şimdi bu cümlələri vücudə gətirən kəlmələr bir-birinə pək bənzəmiyorsa da nəticə və qayə bir olduğu dərhal nəzərə çarpıyor. Fənni-tərbiyənin insanları bəxtiyar edəcəyi, parlaq və məsud bir həyata nail eyləyəcəyi hər kəscə müsəlləm bir həqiqət olsa gərək. Lakin tərbiyənin eyi bir nəticəyə vasil olması mürəbbiyələrin, müəllim, əfəndilərin səviyyeyi-irfanına, təşəbbüsati-ciddiyyəsinə bağlıdır. Onun için müəllim "elmi-həyat", "elmi-ruh", "elmi-əxlaq" kibi tərbiyə

xüsusunda lazım olan şərtlərə vaqif olmalıdır. Kamilən olmasa belə, səthi surətdə bilməsi faydadan xali deyildir.

Elmi-həyat, məktəb şagirdlərinin yeyib-içmək, gəzib-oturmaq, zəif və qüvvətli olmaq kibi hallarından bəhs edər. Bədənin və bədəndə olan nəşvü nümanın hanki təsir ilə və nə səbəblə dəyişə biləcəyini göstərir.

Elmi-ruh, çocuqların fikrini, hissiyyatını, əxlaqını öyrənib bilmək için böyük bir vasitədir. Onunla (elmi-ruh ilə) şu təbii halların təcəlli və təhəvvülünü, hanki təsirlər ilə dəyişdiyini və nə surətdə tərbiyə və islah ediləcəyini bir dərəcəyə qadar bilmək mümkündür.

Elmi-əxlaq isə xeyir və şərin nədən ibarət olduğunu, tərbiyədə nasıl bir qayə təqib edildiyini və həyatın nə tərəfə sürükləndiyini öyrətir.

Xülasə, bu üç elm fənni-tərbiyə için birər mühüm əsas təşkil eder.

Bir məktəb otağına girilsə, orada olan şagirdlərin çöhrələrinə (fizyanomiya) diqqət edilsə bir-birinə bənzəmədikləri dərhal gözə ilişər, çöhrələri müxtəlif olduğu kibi, əxlaq və təbiətləri də müxtəlif olacağı şübhəsizdir. Bəzi çocuqlar inadcı, söyüşən, bəziləri həlim, dalğın, kimisi haylaz, yaramaz, kimisi də çin fikirli və zərif olur.

Onların təbiətlərində bu ixtilaf olduğu halda, bəzi vaqt da birdənbirə bu əxlaqlar dəyişməyə yüz tutar, biri inadcı ikən yumşaq, biri miskin ikən zəki və fəal olur.

Bu səbəblərə məbni yekrəng bir tərbiyə daima mənfəət yerinə zərər verir. Bir müəllim elmi-ruh yardımilə bu müxtəlif təbiətlərin cərəyanını nəzəri-diqqətə almalıdır ki, çəkdiyi zəhmətlər hədər olmasın. Bir müəllim bir artist qadar ruhaşina və təbiətşünas olmalıdır.

Lakin bir çoq həriflər də var ki, məzkur şəraiti öyrənir də tətbiq edəməz, yenə zəhmətləri nəticəsiz qalır, çünki hər məsləkdə olduğu kibi, təlim və tərbiyə için də hər müəllimdə azacıq istedad bulunmalıdır. Nəzəriyyat pək də fayda verməz.

Bir çocuq anadan doğduğu gündən etibarən yedi-səkiz yaşına qadar ata-anası yanında yaşar, qoşar, ev tərbiyəsi, ailə tərbiyəsi alar, sonra da məktəb otağını ziyarət edər; arzusuna, istəyinə görə beş, on, on beş il də məktəbdə keçirər.

Şimdi ev tərbiyəsi ilə məktəb tərbiyəsinin hər ikisi çocuqlarda dürlü-dürlü təsirlər bağışlar, bir çocuq evdə ata-ana tərbiyəsi sayəsində xəluq, çalışqan, mütəşəbbis bir qəhrəman olduğu halda məktəbə dəvam edər-etməz əxlaqı, təbiəti büsbütün dəyişir, fəna, uyğunsuz bir hal kəsb etmiş olur.

Bu halı törədən xassə isə yoldaşlarından, arqadaşlarından aldığı əxlaqlar, müəllimlərdə, mürəbbilərdə gördüyü əhəmiyyətsizliklərdir və bu təsirlərin ən əhəmiyyətlisi də yenə müəllimlərə racedir. Müəllimlər tərbiyədən anlayanlardan olsalar, şübhəsiz ki, nə məktəbdə, nə də məktəblilərdə (məktəb şagirdləri) müzirr əxlaq, fəna təbiətlər bulunmaz; bulunsa da pək səthi, pək təsirsiz qalır. Şimdi bu məsələnin bir də əks tərəfi var, nasıl ki, bir çocuq evdə pək sırtıq və əxlaqsız olduğu halda bir məktəbə girər-girməz də haman dəyişir, inanılmayacaq dərəcədə zəki və uslu olur.

Ailə, məktəb tərbiyəsindən başqa bir də tərbiyeyi-ümumiyyə vardır ki, məktəb təhsili ikmal edildikdən sonra 35, 40 yaşına qadar insanda dəvam edər. Bu tərbiyə yalnız mühiti-ümumiyə race bir tərbiyədir. Çoq zaman mühiti-ümumi, insanın ailə içərisində, məktəblərdə aldığı tərbiyəyi büsbütün dəyişdirib başqa bir aləmə, başqa bir cərəyana tabe edər. Bu xüsusda maddi və mənəvi bir taqım təsirat insanın aldığı tərbiyələri zirüzəbər edəcək dərəcədə məsləkinə müğayir hallara sevq edə bilir.

Azacıq muşikafanə bir nəzərlə baqılsa deyilə bilir ki, bütün bu tərbiyələrin ən əhəmiyyətlisi, ən müqəssiri olsa-olsa yenə tərbiyeyi-ümumiyyə (təsiri-mühit) ola bilir. Yalnız mühiti-ümumi təsirindən yaqayı qurtaracaq bir müəssir var ki, ona da (nəfs) deyilir. Nəfs əksəriyyən ilərıki tərbiyələrə tabe olmaqdan varəstə ola bilməz, lakin mətanəti-fevqəladəyə malik olan insanlarda isə daima qabilitəhəvvül, daima qabili-islahdır.

Ailə tərbiyəsi və vücud sağlamlığı (səhhəti-bədən) həyati-bəşəriyyənin ən mühüm əsasını təşkil edər. Vücudun sağlam olmasının yeganə səbəbi və müəssiri isə ata-anadır.

Bir çoq çocuqlar anadan xəstə doğar. Xəstə yaşar və xəstə bir vücud ilə tərki-həyat edərlər. Bu xəstəliyi icad edən ata-anadan başqa kimsə deyildir. Çünki bir çoq xəstəlikləri irsi olaraq evlada intiqal edər. Çocuğun atası anasına nisbətlə pək az irasi-məzərrət etmiş olur. Çocuqlara sirayət edən xəstəliklərdə ən dərin fəlakətlərə yol açan analardır. Çünki çocuq ana rəhminə düşdüyü zamandan başlayaraq doquz ay qadar qanından, təvəllüddən sonra da sütün-

dən bir çoq müzirr səhhəti-təcdiyat ilə illətlənir və mühlik mərəzlərə düçar olur. Biçarə məsum böyüdükcə vücudundakı təhlükəli xəstəliklər də onunla bərabər böyüməyə başlar.

Bir çocuq ilə dünyaya gələn xəstəliklər ata-anasının irtikab etdiyi naqabili-əfv bir günahdan başqa bir şey deyildir. İştə, Herbert Spenserin ata-analara xitabən söylədiyi şu qısa cümlə şayani-təəmmüldür: "Qəvaidi-səhiyyəyə hər bir müxalifət, bir günahi-maddidir". Bir çoq çocuqlar da olur ki, ata-anasından hiç bir vəchlə məasir olmadığı halda yeyəcəyi, içəcəyi, geyəcəyi yüzündən xəstələnir, tənəffüs etdiyi hava, hərəkətsizlik, valideynin qeydsizliyi bütünbütün səhhətini ixlal edər. Çocuqları təmiz, saf bir havada yaşatmaq, sihhi bir surətdə bəsləmək, sıq-sıq yıqamaq, oynamaqdan, o yan-bu yana qaçmaqdan mən etməmək, müzürri-səhhət libas geydirməmək, sərbəstliyinə mane olmamaq... ata-ana için boyun borcu qadar mühüm birər vəzifədir. Hər şeydən əvvəl çocuqların yeyib-içəcəkləri nəzəri-diqqətə alınmalıdır. Çoq yemək (xörək) müzürri-səhhət olduğu kibi, az yemək də faydalı deyildir. Yeməklərdə ən çoq diqqət ediləcək nüqtə bəsləyici (müqəddi) olmasıdır. Yemək, qarnı doldurmaq, yaxud ləzzət duymaq için də deyildir. Bəlkə həyatı idarə etmək, vücudu bəsləmək içindir. Bir də ən çoq diqqət ediləcək şey yeməklərin müqərrər, müntəzəm bir saətdə, bir zamanda olmasıdır. Yoqsa hər saətdə, hər yarım saətdə ağızda (saqqız çeynər) kibi bir şey yuvarlamaq, bütün-bütün müzürri-səhhətdir. Çünki bu hal həzmi, mədəyi xərab etməkdən başqa bir şeyə yaramaz.

Fəqət bu qaydayı gözətəcək, nəzəri-diqqətə alacaq kimlərimiz var!? Qafqasiyada çocuq tərbiyəsindən anlayan qaç anaya təsadüf edə biliriz? Çocuq tərbiyəsinə diqqət etmək için tərbiyə görmüş analar lazım deyilmi? Hanı ana yetişdirəcək məktəblərimiz? Hər hanki qəzetəyə baqsan millət böylə? Vətən şöylə? – olmalı kibi bir çoq məqalələr, xülyalar görünür. Lakin xülya ilə, boş xəyal ilə iş aşarmı? Vətəni, vətənin qiymət və əhəmiyyətini, tərəqqi və səadətini kimdən bəkləyə biliriz? Beli bükülmüş, ətəh və ətalətə uğramış ixtiyarlardanmı? Bir taqım biqeyd, laübali gənclərdənmi? Yaxud saf, təmiz, məsum, ləkəsiz nevzadlardanmı? Şübhəsiz ki, vətənə, millətə, millətin gələcəyinə ağlayacaq, tərəqqisinə çalışacaq olsa-olsa, ancaq ana qucaqlarında, məktəb sıralarında çırpınan məsumlar ola bilir. Fəqət bu nevzadların yeyib-içməsinə, geyinib gəzməsinə, təlim və tərbiyəsinə diqqət edəcək analar nerdə? Erkək qisminin maddi surətdə doğub böyüməsinə qadınlar səbəb olduğu kibi, mənəviyyatca da münəvvərəlfikr, tərəqqipərvər olmalarına yenə yeganə vasitə qadınlardır, demək ki, tərəqqinin ilk vasitəsi qadın və qız məktəbləridir.

HƏSBİ-HAL

3

Ayşə Sədiqə xanım "Təlim və tərbiyə" adlı kitabında diyor ki: "Çocuqlara hər kim olsa dərs verir, fəqət tərbiyə və əxlaq dərsini hər kəsdən eyi validə verir. Çocuğun birinci mürəbbiyəsi validədir. Validəsi olmayanlara yenə bir qadın məmur edilir. Çünki zəmanisəbavətdə çocuqlara xidmət edə biləcək qadınlardır. Demək oluyor ki, bir qövmün səadəti və tərbiyəsində qadınların böyük təsiri vardır. Bunun için hər şeydən ziyadə qadınların tərbiyəsinə etina edilməlidir. Tərbiyəli validələr yetişdirməyə qeyrət edilməlidir".

Qadınların cəmiyyəti-bəşəriyyədəki qiymət və əhəmiyyətləri yalnız bir cümleyi-həkimanə ilə gözəlcə isbat edilə bilir ki, o da şudur: "Cənnət anaların ayaqları altındadır" – buyurulmuşdur.

Qafqasiya türklərindən şu kəlami-müqəddəsi bir qaç kərə eşidib duymamış bir nəfər təsəvvür olunmaz zənn edərim. Müsəlmanlıq bir avropalının dediyi kibi quru bir lafdan ibarət isə... hiç! O əmri-qüdsiyyəyə itaət isə... Hanya! O nerədə? Japoniyalılar islamiyyəti qəbul etmək fikrində imiş! Diyorlar islamiyyətin erkəkqadın haqqındakı təhsili-elm, hörməti-mütəqabilə, müsavat kibi bir çoq şeyləri o kitabdan, bu kitabdan oquyub duysalar, ehtimal ki, təbdili-məzhəbə həvəslənərlər, lakin bir qaç müdəqqiq, müfəttiş göndərib də göz-gözə tədqiq etsələr, müsəlmanların əfal və hərəkatına göz qoysalar şaşıb qalmazlarmı?

Əcəba?! Qızlar, oğlanlara nisbətən maddiyyatda ikidə bir həqqi-vərasətə malikdirlər. Rəsuli-əkrəm təlim və tərbiyədə hiç fərq qoymadığı halda təhsili-elmi kişiyə, övrətə müsavi bir surətdə fərz buyurduğu təqdirdə, nasıl olur da ki, böylə bir əmri-müqəddəsi hiç məsabəsində tuturuz. Əcəba, səkiz-doquz yaşında bir qız yalnız ibtidai, yaxud rüşdi təhsil görürsə, şəriətə müxalifmi zənn

olunur? Bir çoq mübarək ağızlar, qadınların tərbiyə görür-görməz itaətsiz olacaqlarını söyləməkdən çəkinmiyorlar, əcəba məktəb, təlim və tərbiyə insana itaətsizlikmi öyrətir? Yaxud insaniyyət, şəfqət, mərhəmət, nəzafət – evlada məhəbbət, böyüklərə itaət nə olduğunumu təlim edər?

Sadədillik xoş bir şey olsa da, bu qadarı, bu dərəcəsi sevilir bir şey deyildir. Bugünkü gün ehtimal ki, bir taqım səfsətəamiz quruntular ilə, boş xəyallar ilə kəndimizi mütəsəlli edəlim... Fəqət yarın? Yarın hər işimizdə olduğu kibi, qız tərbiyəsi haqqında da başımıza, gözümüzə vuracayız, kor-peşman olacayız, lakin nəticə bir yana çıqmayacaq. On yıl əvvəl oğullarını məktəbə verməyən, tərbiyəyi sapqınlıq ədd edənlər şimdi nerdə? Hər tərəfə baqarsın eyi, fəna, istər-istəməz hər kəsdə evladını tərbiyə etmək məraqı qabarmaqda, coşmaqda!.. Hər şəhərdə, hər qəsəbədə oğlanlara məxsus iki-üç ibtidai məktəb açılmaqdadır. Lakin üç-dört illik yarım-yanlış məktəblər səkiz-doquz sənəlik ev tərbiyəsini təbdil və islah edə biləcəkmi zənn olunur? Heyhat!..

Biçarə çocuq iki-üç yaşından başlayaraq məktəb otağına girincəyə qadar xurafat uçurumlarında yuvarlanır gedər. Bir otaqdan digər otağa girəcək olsa "damdabaca"lar ilə qorqutulur. Başı açıq dışarı çıqacaq olsa göydən başına adamcıl qurt dərisi düşər. Qaranlıq bir yerə getsə cinlər, divlər ilə təhdid edilir. Hasili ənvai-mevhumat ilə zavallının mənəviyyatı alt-üst olur. Otuz yaşına gəlsə belə, o qorqunc kölgələr bir dürlü başından çıqamaz olur. Ev tərbiyəsinin doğurduğu ən gözəl tərbiyə, ən xoş əxlaq, yalançılıq, kindarlıq, bədnəfslik, arsızlıq, itaətsizlik, qorqaqlıq kibi bir taqım rəzil, murdar əxlaqsızlıqlardan ibarətdir. Binəva çocuq sabahdan aqşama qadar küçədə, bacada, toz-topraq içində yaşar, qoşar, nihayət bir yeri səqətlənir, yaxud ordan-burdan dürlü-dürlü müsri xəstəliklərə hədəf olur gedər. Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin" deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o qan qusmuş cönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlansın" – diyor.

Şimdi böylə vəhşi, cahilanə bir həyatdan, ölçü-biçisi olmayan bir mühitdən, pozuq, uyğunsuz bir tərbiyədən nə fayda hasil ola bilir? Təbii hiç...

Bir gavur çocuğu ana qucağında hənuz bir yaşında ikən yediyi qaletlərdən əlifbayı öyrənməyə başlar, ev divarına baqsa hesab

cədvəlləri görür, əmali-ərbəəyi üç-dört yaşında gülə-gülə, sevə-sevə öyrənir. Beş-altı yaşına varır-varmaz məktəb həvəsilə əl-ayaq vurmağa, çırpınmağa başlar, məktəbə girdiyi zaman əxlaqı, dərsi, zəkası, həvəsi yerində olub, fəal mütəşəbbis, qəyur bir insan olmağa çalışır, bir azdan sonra qarşınızda iyirmi yaşında universitetdən məzun fazil bir əfəndi bulursunuz, bir çoq heyrətamiz baqışlar ilə süzdükdən sonra, o bəyənmədiyiniz gavuru alqışlamağa məcbur olursunuz.

Şimdi, o istedad, o fevqəladəlik ona nerədən gəldi? Göydən zənbil ilə̇mi endi? Yaxud Allah-təala o zəka və istedadı onlaramı münhəsir etmişdir? Təbii, bunların hiç birisi deyil! Yalnız qələbə və müvəffəqiyyət çalışanlarındır və çalışmaq yolunu bilən ərlərindir.

Lakin bu nöqtəyi eyicə nəzərdə tutmalı ki, təbiət kimsəyə yüz görməz, kimsənin əlində baziçə olmaz. Cənabi-Həqq təbiətə öylə bir qüvveyi-qahirə, öylə bir qüdrəti-qalibə vermiş ki, daima qalib gəlir, məğlub olmaz. Kəndisinə qarşı durmaq istəyənləri pənceyi-qəhrində əzər, örsələr, məhv edər, yaşatmaz. Uzağa getmək lüzumsuz, yalnız on yıl bundan əvvəlki halımızı düşünsək nə dərəcə dəyişdiyimizi, sevmədiyimiz, ürkdüyümüz halda, bir çoq nöqteyi-nəzərdən təbiətə nasıl boyun əydiyimizi apaçıq görüb anlarız.

Bu gün azacıq təbiətə qarşı durub evladını tərbiyədən məhrum bıraqanlar, yarınki gün cigərguşələrinin zillət, fəlakət odunda yanıb-qavrulduqlarını ağlaya-ağlaya seyr edəcəklər... Çocuqlar məsumdurlar, onunçin yapdıqları işlərin hiç birindən məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq yalnız ata-analarıdır. Qızını, oğlunu tərbiyə etməkdə müsamməhə valideyn qanun və əxlaq nəzərində şiddətlə məsul tutulmalıdır. Çünki cəmiyyəti-bəşəriyyə için müzirr bir adam hazırlamış olurlar. Xeyirsiz, xain, ədəbsiz evlad yetişdirib onları tərbiyə və islaha çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli insanlara müsəllət olmaq için bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar. Böylə qeydsiz, tərbiyəsiz ata-ananın nə dərəcə məsul olacağı, nə müdhiş cinayət işlədiyi hər kəscə məlum, aydın bir həqiqətdir.

Bu il olmasa belə bir qaç il sonra təhsili-ibtidainin istər qız, istər oğlan için məcburi tutulacağı şübhəsizdir. Lakin bizim istədiyimiz kibi deyil. Ümumrusiya türklərinin səmimi dostu (?) "Pruşkeviç"lərin istədiyi kibi olacaq, şimdi xanım qızlar milli mək-

təblərdə ana dilini oquyub öyrənməsələr, yaxud ata-anaları tərəfindən məhrum edilsələr, bir-iki il sonra zor ilə, qəhr ilə oqumağa məcbur olacaqlar. Bir də cəbrə, təzyiqə nə hacət, artıq iyirmi ilə otuz hesab etmək için anaların təsbihlər ilə, qızların barmaqlarilə komediya çıqarmaları çəkilir bir dərd deyildir. Azacıq da utanıb qızarmalıyız.

HƏSBİ-HAL

4

Təlim və tərbiyə məsələsində ilk nəzəri-diqqətə alınacaq nöqtə məktəblərdir, məktəb otaqlarıdır. Məktəblər, səhhəti ixlal etməyəcək dərəcədə havadar, yuca yerlərdə yapılmalıdır. Pis, murdar, üfunətli yerlərdən uzaq olmalıdır. Xəstəxanə, həbsxanə, məzarıstan kibi yapı (bina)lara yaqlaşmamalıdır. Xırıltı, gurultu çoq olan mövqelərə yanaşmamalıdır. Məktəb binası mümkün dərəcədə günəş yerlərdə vaqe olmalı, rütubəti çoq olan yerlərdən həzər edilməlidir. Günəşə mane olacaq kölgələr ilə mühat bulunmamalıdır. Çünki pək çoq xəstəliklərin günəşsizlik və rütubət yüzündən vücudə gəldiyi aydın bir həqiqətdir.

"Günəş girməyən yerə təbiblər girər" məsəli məşhuri-aləmdir. Buracıqda bir az haşiyə çıqmaq istərim. "Rütubət" sözilə "tərbiyə" kəlməsini düşündükdə Naxçıvandakı "Məktəbi-tərbiyə" ilə onu istila edən müzürri-sıhhat rütubəti xatırlamamaq bir dürlü əldən gəlmiyor.

Naxçıvanın şu milli məktəbi, – fəqət şimdi deyil, ilk açıldığı zaman öylə idi. Nili-mübarək üzərində, yəni, "Bazar çayı" üstündə vaqe bir məktəbdir. Məzkur məktəb məscidi-camein qoltuğuna sığınmış dar bir yerə təsadüf edər.

Xaricdən şəhərə varid olmuş bir səyyahi-zavallı məktəbin divarlarına göz gəzdirəcək olsa (yarım arşın qədər) xəcalətdən tərləmiş olduğunu müşahidə edər.

Fəqət məscidi-came? Naxçıvanın gözbəbəyi məsabəsində olan o böyük bina? On beş-iyirmi bin manata mal olan o məbəd nə oldu? İştə, o da məzkur çayın nəmli, vərəmli öpüşlərilə söndü, getdi, doğuş ilə ölüşü bir oldu. Bir qaç yerdən rəxnədar oldu, qübbəsi çatladı, qapısı bağlandı.

Zatən məzkur məktəbin də orada vaqe olması məscidə mücavir olmaq için idi. Şimdi bu məktəbin günəşsizlik, darlıq, rütubətə məruz

olmaqdan başqa digər qüsurları da var ki, onlar da qismən güzərgah olması, məzkur çayın şırıltısı, bazarın gurultusu kibi bir çoq müğairi-fənni-tərbiyə maneələrdən ibarətdir. Lakin bu məktəbin ilk təsisini və niçin orada yapılmasını eyicə anlamaq için bir az da təfsilata ehtiyac var. Bu məktəb on beş-on altı yıl əvvəl təsis olunmuş. Şəhər qlavası Cəfərqulu xan Naxçıvanski cənabları ilə şəhər hakimi Slavaçinski bu xüsusda pək fədakarlıqda bulunmuşlar. "Cidilli bağ" adlı geniş, havadar, gözəl bir yerdə məktəb təsisini xalqa təklif etmişlər isə də kimsə razı olmamışdır. Bazardan, məsciddən uzaq bulunduğu, həm də vəqf yer olduğu bəhanə tutulmuşdur. Şəhər hakimi, xan və bir qaç gözüaçıq əfəndilər məktəbin orada yapılmasına nə qadar tələş etmişlər isə də bir çoq mühakiməsiz hərifləre məram anlatamamışlardır. Səkiz-doquz bin rübləyə dəyən o gözəl yeri şəhər duması parasız, pulsuz məktəbə hədiyyə etdiyi halda, kimsə təqdir etməmişdir. Lakin orayı bir qaç yıl sonra bir xristian pək ucuz, pək dəyərsiz bir qiymətə almış; o vəqf (?) yerdə geniş, gözəl, bağlı-bağçalı bir klub yapdırmışdır.

Şimdi anlaşılır ki, vəqf olan bir yerdə məktəb deyil, klub yapmaq belə mümkün imiş!..

Lakin yeni yapılan zaman bağda vaqe qız məktəbi isbat ediyor ki, xalq işin əhəmiyyətini azacıq təqdir etməyə başlayor.

Çünki burası da Məktəbi-tərbiyə için intixab edilmiş bir qadar gözəl və havalı bir yerdir. Zənn edərsəm burası da vəqf olmalı, lakin hər nədənsə bir kərə yapılıyor yer deyildir. Hər nədənsə əgər bugünkü duyğular, görklər, bilgilər on beş yıl əvvələ təsadüf etsəydi, təbii o dürlü çürük xülyalara, mevhumatlara yol açılmazdı, o vaxt işin həqiqəti düşünülməmişdi, şimdi artıq düşünülüyor, düşünülməyə başlıyor.

Qomşu kirvələrimizdə məşhur bir məsəl var ki, o da "Musurmanın sonki ağlı bənim olaydı" cümləsidir.

Həqiqətdə gözəl tədqiq edilsə pək təcrübəli, pək mənadar bir söz olduğu dərhal anlaşılır.

Bunca təfsilatdan məqsəd, Naxçıvan işlərini təsvir etmək deyil, bəlkə Qafqasyada sakin bütün türklərin hər şəhərdə, hər qəsəbədə (vəqf yeri) köhnə məzarıstan kibi bir çoq qiymətli, əhəmiyyətli yerləri əldən çıqarıb mevhumata sapmalarını ərzi-ixtar etməkdir. Bu dürlü uyğunsuzluqlara deyil bir şəhərdə, Qafqasyanın hər şəhə-

rində təsadüf etmək mümkündür. Bir az diqqət edilsə, bir çoq "bulvar"ların, şəhər bağçalarının, kilisələrin həp öylə "məzarlıq, vəqf yeri" dediyimiz yerlərdə inşa olunduğu nəzərə çarpar. Biz, vəqf yeridir, günahdır deyib qorqmuş, çəkilmişiz, bir arşın qadar hasar çəkməyi belə əsirgəmişiz. Hökumət isə bu cəhalətdən istifadə edərək yağlı-yavan, yaqşı-yaman gözünə ilişəni kəndi mal etmişdir.

Mevzui-bəhsi aşdıq, söz cığırından çıqdı. Artıq haşiyəyi kəsib də yenə sözümüzə, bəhsimizə gələlim.

Əvət, mümkün dərəcədə məktəb binası günəş işığından məhrum olmamalıdır. Lakin işıq bir tərəfdən gəlməlidir. Zira iki yaxud bir qaç tərəfdən gələcək olsa, müxtəlif kölgələr bıraqır ki, o da göz için müzürdür.

İşığın sol tərəfdən gəlməsi daha faydalıdır. Çünki, sağ tərəfdən gələcək olsa, yazı yazarkən sağ əl dəftər üzərində öz kölgəsilə şagirdləri rahatsız edər. Sınıfın (klasın) pəncərələri də olduqca çoq və aydınlıq olmalıdır. Məktəbin dört-beş arşın (rus arşını) enində günəş bir dəhlizi (koridoru) və tənəffüsxanəsi olmalıdır. Hər məktəbin mümkün dərəcədə kəndinə məxsus bir də gözəl bağçası bulunmalıdır ki, çocuqlar orada sərbəst gəzinə bilsin, saf, təmiz hava ala bilsin. Rəfi-ehtiyac için qədəmxanələri olduqca uzaq bir guşədə bulundurmalı, qulluqçulur nəzafət haqqında pək ziyadə diqqətli olmalıdır.

Sınıflarda nəzəri-diqqətə alınacaq şeylərin ən mühümmü sıra "skameyka"lardır. Sıraların ölçüsündə çoq diqqət lazımdır. Əldən gəldiyi qadar onları sıhhı, fənni bir ustaya ismarlamalıdır. Yoqsa şagirdlərin boyuna görə olmayıb da fəzləcə yuca ya alçaq olursa pək məzərrətlər iras etmiş olur. Bir də müəllimlər daima çocuqların sıra üzərində aldıqları vəziyyətə diqqət eyləməlidir. Fəna vəziyyətlər boyun, kürək, bel gəmiklərini əyər, gəmiklər əyildikdə əzayi-daxili də böyük zərərlər görmüş olur. Bu zərərlər bədənin xarici, daxili əzasından başqa, fikir üzərində də təsiribəxş olur. Fikrin müstərih və oyanıq olması için bəhər hal baş şaquli (dik) bir vəziyyət almalıdır. Öylə olmazsa təbii qan dimağ (beyin)də sərbəstcə cəvəlan edəməz. Beyin qanın cərəyani-sərbəstanəsindən məhrum olunca fikirlər, duyğular da məhdud və əqim qalmış olur. Çünki dimağ qan ilə, əfkar və ehtisasat da dimağ ilə ərzi-fəaliyyət edər.

Bir də bir sırada iki çocuqdan ziyadə oturmamalıdır. Çünki bir sırada dört-beş tələbə oturacaq olsa ehtimal ki, biri müsri bir

xəstəliyə tutulmuş olur da ondan digərlərinə də sirayət edər. Amerikada, Avropanın bəzi yerlərində hər tələbəyə bir sıra təxsis edən məktəblər pək çoqdur. Sınıfda dərs müddəti pək uzun sürməməli və 45 ya 50 dəqiqəyi aşmamalıdır. Hər dərs arasında sınıfların havasını dəyişdirməlidir. Çünki tələbənin tənəffüs etdiyi zaman havaya hamizi-qarbon dağılır, tər və yağ ifrazatı təbəxxür edərək sınfın havasını olduqca zəhərlər, bərbad edər.

Sınıf süpürüldüyü zaman quru süpürgə ilə süpürülməməlidir. Zira müzirr mikroblar ilə havaya qalqıb uçuşan tozlar bir azdan sonra sıraların taxtaları üzərinə enər, qonar, sonra tənəffüs edildiyi zaman məzkur tozlar ilə bir taqım mikroblar hiss edilməyəcək dərəcədə çocuqların nəfəsləri ilə ta cigərgahlarına qadar yol bulub bir çoq qorqulu xəstəliklərə səbəbiyyət vermiş olur.

Bir çocuq təhlükəli bir mərəzə, keçici bir xəstəliyə düçar olmuş olursa məktəbə gəlməyə, dərsə dəvam etməyə məcbur edilməməlidir. Müvəqqət bir zəman için evlərinə göndərilməlidir. Tədavi edib sağlamlaşdıqdan sonra təkrar qəbul edilməlidir. Bəzi çocuqların xəstəliyinə diqqət etməyib də ata-anası başından atmaq niyyətilə, müəllim də qeydsizlik və etinasızlıqla sınıfa qəbul etməkdən çəkinməz isə, şübhəsiz ki, bir çoq biçarə məsumların da fəlakətinə yol açılmış olur.

Bir də aşı (çiçəyi döyülmək) şəhadətnaməsi olmayan bir çocuq əsla məktəbə alınmamalıdır və məktəbə alınan çocuqların yaşlarına da pək ziyadə əhəmiyyət verməlidir. Yedi yaşdan aşağı olanları pək də qəbul etməməlidir. Çünki pək küçük çocuqlar, cır ağaclar kibi cılız, zəif bir vücud ilə dərsə başlayınca sıqılır, zəhmət çəkər, həm vücudca, həm də fikircə zəif qalır, ilərləyəməz, atidə də pək çoqları təhlikəli bir surətdə zərərdidə olur.

Çocuqların əlil, miskin bir şey olmaları arzu edilməzsə, dərs arasında, baxüsus böyük tənəffüslərdə (cimnastik) və bir taqım oyunlar oynamağa müsaidə etməlidir. Xayır, sadə müsaidə deyil, təşviq və tərğib eyləməlidir.

Cimnastikdə tələbəyi bir komanda altında müntəzəmən hərəkət etməyə alışdırmaq məktəblərin inzibatını təmin edər.

Bir çoq oyunlarda da müəllim çocuqları sərbəst bıraqır kibi görünməlidir, lakin sezdirməksizin əl altından nəzarəti də unutmamalıdır. Cimnastik və sairəyi layiqilə ifa etmək için ya o xüsusda mütəxəssis bir müəllimə, yaxud ona dair yazılmış əsərlərə müraciət etməlidir.

Herbert Spenser diyor ki, "əgər istiqbalda hal-hazır mədəniyyətimizə vaqif olmayan bir asari-ətiqə məraqlısı məktəblərimizdə oqunan kitabları, proqramları, xüsusi imtahan kağızlarını bulacaq olursa, bunların sahiblərinin qətiyyən çocuq sahibi, yəni bir baba (ata) olması ehtimalının mevcud olmadığına qail olacağı kibi, his şübhəsiz ki, "bunlar monastıra aid tərzi-tədris olsa gərək" deməkdən kəndini alamayacaqdır".

İştə bu sözün sahibi qoca bir ingilizdir. Bu mütaliəyi yalnız ingiliz mühitinə, məktəblərinə baqaraq yürütmüşdür. Lakin müşarileyh bizim bu məktəb, mədrəsə nami verdiyimiz səfalətxanələri, bu ətalət ocaqlarını görəcək olsaydı nə söylərdi əcəba!

Yuxarıkı sözlərə diqqət edilsə, təbii, daha şiddətli, daha şayaniləkdir bir təşbih qullanacağı dərhal nəzərə çarpar.

Məktəblərimizin proqramları eyicə düşünülsün; dərslərin ən mühüm qismini təşkil edən və ən çoq rol oynayan maddələr, bir taqım səfsətələrdən, ruhsuz gəvəzəliklərdən başqa bir şeymidir?

İyirminci əsr mədəniyyəti bu uyğunsuzluqlara əsla təhəmmül etməz.

Zira təlim və tərbiyə saf dimağları (beyinləri), ləkəsiz vicdanları ləkədar edəcək bir alət deyildir.

O tərbiyə – bəşəriyyəti qaplayan çirkinlikləri, paslı beyinləri silib təmizləmək için mənəvi bir seyqəl kibi tələqqi edilməlidir.

Mümkün olsa gələcək həsbi-halda şu məsələyi səthi surətdə təhlil edəriz.

Qafqasyanın hal-hazırı ancaq həqiqətpərvər qəzetələr ilə, ciddi, mütəşəbbis müəllimlər ilə kəsbi-səlah edə bilir.

Bunların hər ikisi həyati-ictimaiyyəmizi bizə əks etdirən islahata təbdil edib çalışan bir ayineyi-təbiətnüma müşabihəsindədir. Müəllimlərin vücudə gətirəcəyi təbdil isə digərinə nisbətlə daha əhəmiyyətlidir.

Fəqət müəllim öyrənib, öyrətdiyi kitablara iktifa etməməlidir. Bir çoq tərbiyəyə, ictimaiyyatə, təbiiyyatə, əxlaqiyyətə aid kitablar da mütaliə eyləməlidir. Və mütaliəsindən bir nəticə, bir mühakimə çıqarmalıdır. Olduqca kəndi mənəviyyatını, kəndini, vicdanını təsfiyə və islaha çalışmalıdır, tainki söylədiyi sözlər, verdiyi nəsihətlər hüsni-nəticə verə bilsin. "Söyləyənə baqma, söylədiyinə baq" dəsturunu əldə sərmayə ittixaz edənlər bu xüsusda çoq yanlışdırlar.

Hər söz sahibinin sözü ilk öncə ruhilə və vicdanilə uzlaşmalı, müvafiqət etməli, sonra müxatibə söylənməlidir.

Bir ərəb ədibi diyor ki, "Qəlbdən çıqan sözlər, daima qəlbə nüfuz edə bilir. Qəlbin xəbəri olmayıb da ağızdan fırlayı verən sözlər, dinləyənin bu qulağından girib o birindən çıxıb gedər".

Demək ki, sözün təsirbəxş olması için, söz söyləyənin eyi bir qəlbə, parlaq bir vicdana, gözəl bir əxlaqa, həqiqi bir məlumata malik olması icab ediyor.

Bir müəllim öz-özünü bir riyazəti-mənəviyyə ilə islah etdikdən sonra, şübhəsiz ki, hər sözü, hər duruşu, hər halı bütün şagirdlər nəzərində böyük bir əhəmiyyətlə tələqqi olunur. Kəmali-sürət və mətanətlə hər kəsin ruhuna nüfuz edə bilir.

Bir də müəllim yalnız məktəbdəki şagirdləri tərbiyə etməklə qalmayıb, mümkün dərəcədə kəndi nüfuzunu – sözlərinin əhəmiyyətini təmim və tövsiə çalışmalıdır. Şimdi bizim yalnız məktəblərimiz deyil, bütün həyati-ictimaiyyəmiz belə saf, parlaq bir tərbiyəyə möhtacdır.

Müəllimlərimiz azacıq muşikafanə, durbinanə hərəkət edəcək olsalar, şübhəsiz ki, bütün mühitimizi islah etmiş olurlar.

Sınıf (klas)da hər iki gündə bir, çocuqların əlbisəsinə, yüzünə, əllərinə baqıb kirli və ya təmiz olduqlarına diqqət edilməlidir.

Müzürri-səhhət hallar, işləklər büsbütün mən olunub əsbabı yumşaq, tatlı bir dil ilə tələbəyə anladılmalıdır və təkrar edilməməsini şiddətlə tənbih etməlidir.

Bir müəllimin, çocuğun anlayacağı tərzdə eylədiyi pədəranə tövsiyələr və tənbihlər, əmin olmalı ki, pək gözəl nəticələr verir. Hər fənalığın, pisliyin, pintiliyin səbəbləri tələbəyə anlatıldıqca, şübhəsiz ki, ata-anaları, qövm və əqrəbaları, hətta yaşadığı mühit belə mütənnəbih olub kəndilərini islah etməyə çalışırlar.

Xalq şimdi məktəbi, ondakı tərbiyəyi azacıq hüsni-tələqqi etməyə başlamış. Müəllim əgər uslu, namuslu, həlim, səlim bir əfəndi olursa, təbii, dört-beş sənə zərfində yalnız bir ibtidai məktəbi deyil, məktəblə əlaqədar olan böyük bir köyü (kəndi), köy xalqını tamamilə islaha müvəffəq olur.

İbtidai məktəb proqramı olduqca təmiz, qullanışlı, aydın, qolay və mənfəətli olmalıdır. Xurafata, mevhumata aid süprüntüləri mümkün mərtəbə sınıflara bıraqmamalıdır. Əvvəldən girmiş olsa da süpürüb təmizləməyə diqqət və qeyrət etməlidir.

İbtidai məktəb için türk dilində müxtəsərcə qiraət, kitabət, elmi-əşya, coğrafiya, hesab, türk tarixi və islam tarixi kibi şeylər kifayət edər.

İkinci ildən etibarən rus dili də təbii ilavə edilməlidir. Çünki onsuz da iş aşmaz.

Fəqət müəllim, bunlar ilə iktifa etməyib bir çoq həqaiqi-fənniyəni, bir taqım hadisati-tərbiyəni xülasə edərək ağızdan, açıq, müəssir bir üslubla tələbəyə təlqin etməlidir. Həftədə bir-iki dərs yalnız bu işə münhəsir edib tələbənin gözünü açmalıdır.

Bir çoq təbii levhələr ilə məktəb otağı təzyin edilməlidir, çocuqlar zəhmət duymayacaq dərəcədə bir taqım xoş mevzulardan bəhs edilməlidir. Kor-korano "sür dərəyə" qanununu əsla tələbəyə hiss etdirməməlidir, çünki təşəbbüsi-şəxsidən bütün-bütün məhrum qalmış olur.

Qafqasyada müəllimlər

Qafqasyanın ibtidai məktəblərində türkcə dərs verən müəllimlər təqribən üç qismə bölünür:

Birinci qısım, Aras aşırı qoşub gələn fanatizma dəllalları.

İkinci qısım, seminariyada (darülmüəllimin) ikmali-təhsil etmiş əfəndilər.

Üçüncü isə yeni üsulda tərbiyə görüb müəllimliyə həvəskar olan gənclərdir.

Birinci qısmı təşkil edənlər müəllimdən başqa hər şeydirlər. Həzarpeşə və pək qurnaz hərifdirlər. Buqələmun kibi hər saətdə bin rəngə girməyə müstəiddirlər.

Aras kənarına varır-varmaz hərif bir kərə düşünür, hər şeydən əvvəl kəndisi için bir sərmayə arar. Bir yerə baqar, bir göyə baqar, aradığı sərmayəyi iki arşın göy bezdə bulur. Marağada darğa şagirdi ikən, Aras suyu içər-içməz anadan doğma seyid olur. Sonra ağa mübarək qədəmləri ilə Qafqasyanın şu otlu, sulu toprağını müzəyyən buyurur. Beş-on gün yüz suyu tökər, yalvarır-yaqarır, amma fırıldağı işləməz, fəryadı bir yana çatmaz, çünki cəmaət həpsi etiqadsız, seyidə baqan yoq!..

Bir də baqarsın ki, hərifin ağlına bir şey gəldi. Belindən göyü açıb bir yana fırlatdı. Özünü bir əttar dükanına verdi. Beş-altı şahılıq

həbdən, tozlu-topraqlı otdan-filandan aldı, şələsinə cibləşdirdi. Ya Əli, ya məded önünə gələn qəsəbələrdə köylərə yüz qoydu. Şimdi köyün hər tərəfinə qulaq versən təbibbaşı (?) cənablarının seytişöhrətşüarı tənindəz olmaqdadır. Lakin iş, təbibliklə də bitməz. Bir ucdan öldürdüyü, tələf etdiyi zavallıları öz əlilə kəfənlər, öz əlilə məzara qoyar. Sonra icab edərsə, mərsiyəsini də özü oqur, hasili para çıqacaq yer bulundumu? Yəhudi bəzzazı kibi sağına-soluna, eninə-boyuna, hər tərəfinə ölçər-biçər, yeri goldikdə fala da baqar, dua da yazar, cin də tutar. Fəqət... Fəqət xudanəkərdə bu işlərin həpsində bir rəvacsızlıq, bir etinasızlıq görürsə, büsbütün məsləkini dəyişdirir. Kitabçılarda "vətən dili" çoq, tuhafiyəçilərdə vorotnik, qalstuk bol...

"Vorotnik", "qalstuk" boyuna keçirildikdən sonra məzadçılardan, genə mal satanlardan bir dəst də gözəl kostyum alıb əyninə taqar. Bir məktəbə dəvam etməyə başlar.

İştə sana yeni fabrikadan çıqmış qanlı-canlı "arpazovanmı" bir müəllim!.. Yalnız bircə diplomu (attestatı) əskik...

Lakin orası da qolay, zira çənəsi gevşək bir taqım cahil mühafizəkarlara qarşı beş-on gün boyun büküb yaltaqlıq edərsə, hər saçmasına bəli, bəli deyərsə, şübhəsiz ki, ən zəki, ən təcrübəkar müəllimlər sırasına keçmiş olur. Fəqət ədəbsiz imiş, əxlaqsız imiş baş yoq, keçər-gedər, yalnız hacı əfəndinin, yaxud kərbəlayı kişinin boş damarını buldumu? Artıq əsrin əflatunlarına şıllaq atmağa başlar. İşi yoluna qoyduqdan sonra həmiyyət, qeyrət qanı coşub-daşaraq qızğın, dəhşətnak nitqlər söyləməyə başlar, iştə küçücük bir nümunə:

"Cəmaət, cəmaət! Vətən, məmləkət xərab oldi. Bahəmə bunnan belə piş əzvəqtdən ileri, əqsami-mütənəvvie məktəbxanələr açmaq lazimdir. Qazutlərin dilsuz və yürəkyandıran həvadisati insanın qulağində guşzəd olanda dər hoqiqətdə vətən dər hoqqində nə eyliyəcağını bilmiyüb, gözlərinin sirişki abi-nisanın suyu kimi axır". Bu bir. (?)

İkinci qısım də rusca təhsil edib türkcə dərs verən əfəndilərdir ki, dəröhdə etdikləri dərslər əksəriyyətlə ibtidai məktəblərə münhəsir kibidir.

Muşikafanə bir nəzərlə baqılsa sair müəllimlərə nisbətən onlar pək eyidirlər, pək faydalıdırlar. Hissiyyati-milliyyəyə azacıq biganə olmaqla bərabər bir taqım çürük, təhlikəli mevhumata aşina deyillər ki, bu da pək böyük qazancdır. Onlarda olan fəzilətlər və qüsurlar ayrı-ayrı nəzəri-diqqətə alınmalıdır.

Onların seminariyalarda və sair məktəblərdə görüb öyrəndikləri şeylər həp müntəzəm, mürəttəb (sistematik) bir tərzdə olmuşdur. Onların təhsilində çürük və faydasız şeylərə pək az təsadüf edilir. Gördükləri fənn ilə, elm ilə bərabər fənni-tərbiyə "pedaqogika"ya da eyicə diqqət ediyorlar. Bir çoq dəfələr nümunə için müdirlər, nazirlər tərəfindən onlara dərslər verilib gözəlcə tənqid olunuyorlar.

İştə on-on iki illik təhsil və təcrübə sayəsində hər nasıl olsa müəllimlik için bir istihqaq qazanmış olurlar. Onun için Qafqasyanın pək çoq yerlərində ən ciddi çalışanların qismi-küllisini onlar təşkil ediyorlar. Hətta bir çoq ufaq-təfək yeni təb olunmuş əsərlər belə onların həmiyyətilə meydani-intişara atılıyor ki, bu da xalqı mütaliəyə alışdırmaq için böyük bir müvəffəqiyyətdir. Lakin, bəzi əfəndilər müstəsna olmaq şərtilə, bir çoqları azacıq sapıyorlar ki, o sapqınlıq da bir taqım yanlışlıqlar, uyğunsuzluqlar doğurmuş olur. Nümunə olmaq üzrə bir qaç sətir yazı bu yanlışlığı isbata kafidir. İştə rusca oqumuş, türk dilində müəllimlik edən arqadaşlardan birisinin məktubundan bir parça: "Əfəndim, mən istiyorum getmək iyunun on beşində mineralnı sulara, hanki ki, olar çoq mənfəətli məndə olan cüzi naxoşluğa.

...bəy də gedəcəkdir mənilə bərabər, ancaq qalmaq için orada iyirmi beş gün hərgah siz də istərsiniz gəlmək, olar mənim için çoq yaqşı və çoq xoşbəxtlik..."

Bu da iki. (?)

İlk nəzərdə insan, şu cümlələrin türk dilində olduğuna əsla şübhə etməz, çünki hər kəlməsinə diqqət etsə düzgüncə, türk sözləri olduğunu təsdiqdən kəndini alamaz. Lakin cümlələrdəki ahəngə, o qarışıq mübtəda, xəbərlərə bir musiqişünas sameəsilə qulaq versə, dərhal "xaxol" ruhilə düşünülmüş, türk kəlmələrilə vücudə gəlmiş bir əcubə olduğunu anlar.

Bu hal, bu qarışıqlıq yalnız bəzi müəllimlərə məxsus deyildir. Şəhərlərdə iqamət edən, ruscaya azacıq aşina olan tüccar və kəsəbəyi dəxi ifsad etməkdədir.

Elmsiz, saf bir köylüyü (kəndli) qonuşdurunuz, onunla həsbi-hal ediniz, eyicə diqqət edəcək olursanız, şəhərlilərə nisbətən onları türk ləhcəsinə, türk ruhuna daha yaqın, daha munis bulursunuz.

Şimdi yuqarıda yazılmış iki qısmı bir arada müxtəsərcə xülasə edəlim.

Əvvəlinci qısımda göstərilən budalaların nə fikri, nə duyğusu, nə lisanı, nə də əxlaqı ki, əxlaqsızlıqdan başqa bir şey deyildir, bizə gəlməz, Qafqasya için lüzumsuz və bimənadır.

Hələ lisanları, ədəbiyyati-atiyəmizi rəxnədar edəcək dərəcədə müzirr və təhlikəlidir, onun için də şayani-ehtirazdır.

İkinci qısım isə fikircə, əxlaqcə, maarifcə şayani-istifadədirlər.

Hələ türk lisan və ədəbiyyatını azacıq nəzəri-diqqətə alsalar, türk sərf və nəhvinə beş-on ay qədər göz gəzdirsələr, şübhəsiz ki, vətənə, millətə çoq, həm də pək çoq xidmət etmiş olurlar. Fəqət əhəmiyyətsiz bir vəziyyət alacaq olsalar, təbiidir ki, lisanımızı bərbad etməkdə əvvəlinci qısımdan geri qalmayacaqdır.

HƏSBİ-HAL

5

Şimdi üçüncü qısma gələlim.

Üçüncülər: "yeni üsulda tərbiyə görüb, yaxud görmək istəyib, müəllimliyə həvəskar olan gənclərdir" demişdik.

Bunların – bu müəllimlərin bir payı ibtidai türkcə, rusca təhsil görüb bir fəaliyyəti-cavanmərdanə ilə çalışanlardır ki, sayları pək az, xidmətləri isə pək çoqdur.

Bir payı da vaqtilə yalnız mədrəsələrdə uğraşıb yorulmuş əfəndilərdir ki, şimdi işin mahiyyətini anlayıb candan, yürəkdən, gecəli-gündüzlü çalışıb ilərləmək istiyorlar. Bir tərəfdən türkcə tarixə, ədəbiyyata, lisanə diqqət edib, bir tərəfdən də xüsusi olaraq az-çoq ruscaya həvəs ediyorlar. Onların bu dürlü açıqgöz olmaları ciddən şayani-təqdirdir.

Fəqət bunlardan bir taqım gənc xocacıqlar da var ki, yaşadığı əsrin mədəniyyətini bilməyərək, yaxud bilmək istəməyərək, azacıq etinasız kibi görünüyorlar.

Fəqət onlar da işin əhəmiyyətini biləcəklər. Lakin az deyil, pək çoq peşimançılıq çəkəcəklərdir.

Maarifpərvər zatların borcudur ki, hər yerdə onları şirin dil ilə, məhəbbət ilə çalışıb ilərləməyə təşviq etsinlər. Təşviq etsinlər də həm onları, həm də kəndilərini qayeyi-məqsədə nail etsinlər, edə bilsinlər.

Məhəbbət bəşəriyyətin ən dərin, ən ülvi bir təcəlligahıdır.

Məhəbbət anlı-şanlı ordulardan, vulkanlı toplardan daha ziyadə qələbə və müvəffəqiyyət ehraz edə bilir.

Qafqasyanın bəzi yerlərində, daha doğrusu hər yerində az-çoq bir münazicyi-şəxsiyyə cərəyan etməkdədir. Bu münazieyə yol açan da bir taqım xüsusi məhəbbətsizlikdən başqa bir şey deyildir.

Bir mühafizəkar bir təcəddüdpərvəri, açıqgöz bir gənci uzaqdan görüncə, yaxud ona aid bir söz eşidincə dərhal sinirləri (əsabı) oynamağa başlar. Görməyə gözü olmaz, lakin haqqı da var...

Yeniyetmə bir gənc, yaxud tərəfdari-təcəddüd bir əfəndi də mühafizəkara, əski fikirli bir xocacığa təsadüf edərsə, əsla ona yaqınlaşmaq istəməz. Yaqınlaşsa da müstəhziyanə suallar ilə zavallıyı xırpalamaq, qızartmaq istər.

Əvvəlki quşqulanmasında, yaqın durmamasında, nifrət və məhəbbətsizlik etməsində ikinciyə nisbətən azacıq haqlıdır. Çünki həqiqətdən uzaqdır. Həqiqi elm, fəzilət nə olduğunu eyicə kəsdirəmiyor. Onun için də bu tərəfə məhəbbətsizlik göstəriyor.

Fəqət ikincilər, yəni münəvvərəlfikr olanlar isə, bir çoq nöqteyi-nəzərdən yanlışdırlar. Və sataşmaq, təkdir etmək kibi bir taqım hərəkətlərindən məsuldurlar. Zira aldıqları vəziyyət əksəriyyətlə onları islah edəməyib ədavətlə qarışıq bəzi dargınlıqlara yol açır.

Şimdi bu iki qüvvət uzaqdan bir-birinə yan baqarsa, biri havaya, biri suya çəkmək istərsə arabanın (məqsədin) olduğu yerdə qalacağına şübhə edilməməlidir.

Yaxud bir araya gəlib də bir-birinə yaqlaşmaq istərsə və yaqlaşır-yaqlaşmaz bir şiddəti-mexanikiyyə ilə çarpışır isə – təsir-əks təsir qanununca hər ikisi zəhmət duyar. Hər ikisi zərərdidə olur. Hər ikisi şiddəti-müsadimə ilə geri firlayıb ayrı, qeyri yaşamağa, küsgün bir vəziyyət almağa məcbur olur. Bu vəziyyət isə büsbütün tərəqiyyati-mədəniyyətimizə mane olub daima ənvari-həqiqətə qarşı bir zülməti-təhəmmülgüdaz hazırlanmış olur.

Bir də təfsilə nə hacət... Pisliyi qurcalamaq, qarışdırmaq, xasseyi-şaməyi incitməkdən başqa bir şeyə yaramaz ki!

Mədəniyyətdən məqsəd rifahiyyət və səadətə nail olmaq isə, təbii, onu hər kəs alqışlar, hər kəs sevər, hər kəs istər.

Bir mədrəsənişin tələbə, bir gənc xoca ki, yeni-yeni xocalığa hazırlanıyor, şübhəsiz ki, məsud yaşamaq için sairlərdən daha ziyadə daireyi-mədəniyyətə girmək istər. Xar və zəbun qalmaq istəməz.

Daha açıq təbir ilə – onlar Molla Nəsrəddinin "tavlamıxda bağlanıb qalmış buzovuna bənzər", mıxdan açılınca dört əlli, dört ayaqlı qaçmaq istərlər. Onları həyati-mədəniyyəyə alışdırmaq için beş-altı aylıq rəhbərlik kifayət edər. Lakin şu rəhbərlikdə mülayimət və məhəbbətdən əsla uzaq bulunmamalıdır. Onları inadla, məzəmmət ilə deyil, qardaş kibi sevə-sevə daireyi-ittihada çağırmalıdır.

Mümkün dərəcədə hər şəhərdə, hər qəsəbədə bir qaç əzadan mürəkkəb bir cəmiyyət təşkil edilməlidir. Bəzi şəhərlərimizdə olan nəşri-maarif cəmiyyətləri kibi vaqt qaib etmədən qəflət, cəhalət uçurumlarında yuvarlanan o biçarələri müəllimliyə təşviq etməli, çalışdırmalı, bəzi ufaq-təfək məsarifi dərəhdə etməlidir. Müxtəsərcə qiraət, hesab, türk tarixi, islam tarixi, coğrafiya, qəvaidi-lisan kibi bir taqım mühüm, fəqət qolay şeyləri az bir zamanda öyrədib pərvaz eyləməlidir.

Keçən həftələrdə Ə.T. əfəndilərinin bu məsələyə dair yürütdükləri mütaliəyi hər kəs oquyub, görmüşdür. Onun için pək də təfsilə hacət yoq zənn edərim.

Fəqət burasını bilməli ki, bu hal inqilabi bir haldır. Bu üsul dəvam etsə-etsə ancaq iki-üç sənə dəvam edə bilir. Pək ziyadə uzanması arzu ediləcək dərəcədə fayda verməz, çünki bu qısım müəllimlərin beş-on aylıq təhsili ibtidai məktəbləri yarım-yamalaq idarə edə bilir, çocuğu az-çoq qiraət, kitabət, tarix, lisan... və sairə kibi şeylər ilə müstəfid edərsə də, fəqət bir çoq nöqteyi-nəzərdən nəticə qüsurlu çıqa bilir.

Beş aylıq təcəddüd, iyirmi beş illik mevhumat ilə paslanmış dimağları (beyinləri) hiç də silib təmizləyəməz. Bəhərhal əski küp yenə az-çoq sızmağa başlar. İcab edən fəzali-əxlaqiyyəyi, hissiyyati-milliyyəyi tələbəyə təlqin edəməyib, xoş bir qayəyə varamazlar. Çünki o kibi fəzilətlər tədrici təkamül bir təhsilə möhtacdır.

Sürətlə alovlanan hər şey, hər əməl, hər duyğu səbat göstərməzsə pək çabuq sönər, yaşayamaz, sürətlə münqəriz olur, yarım-yırtıq, qırıq-tökük işlər daima nəticəsiz qalır.

Təcrübəkar müəllimlərə, həqiqətaşina xocalara malik olmaq için er-gec iki böyük müəssisəyə ehtiyacımız var ki, biri milli bir darülmüəllimin, digər də ruhani bir darülelmdən ibarətdir.

Bu xüsusda fəzilətpərvər şeyxülislam həzrətlərinin keçənlərdə "Həqiqət"də bir məqalələri də var idi.

O məqalə, Qafqasyada ciddi və həqiqi bir darülelm təsisini tövsiyə ediyordu. Və orada təqib ediləcək proqramı da ayrıca gös-

təriyordu. Məzkur proqramı bəyənənlər pək çoq oldu. Fəqət öylə bir mütaliəyi-haq bəyanına təqib edilmədi. Cavabsız qaldı, əqim qaldı, nəticəsiz qaldı...

Bəli, bin dürlü hava və həvəsə qarşı pərəstiş edən milyonlar, bir çoq rəzilanə, səfilanə işlərdə kül olub gedən altınlar, öylə bir nidayi-həqiqətə qarşı susdu, qaldı. Səs vermədi, lal oldu.

İllərcə ərz olunduğu kibi hər şey öz yerində, öz vaqtında yapılacaq. Qış keçib gedəcək, yüzü qaralıq kömürə qalacaqdır.

Lakin anlaşıldığına görə bu iki darülelm, şimdilik ayrı-ayrı açılamıyacaq. Cəmaətdə az-çoq həvəs varsa da para (?) cənabları pək də aldırmıyor, müsaidə etmiyor, daha doğrusu, məsləhət görmüyor.

Zatən Ərdəbil dəlləkləri baş ucunda hazır; kəndini zəhmətə, məşəqqətə, məsrəfə soqmaq fəzlə deyilmi ya?

Bununla bərabər hər halda bizim için alim və müəllim yetişdirəcək müntəzəm və mürəttəb bir müəssisə lazımdır.

Azacıq himmət, qeyrət edilərsə bu iki arzunu bir nöqtədə birləşdirərik. İki bostanı bir ırmaqdan sirab edə bilərik. Müntəzəm bir darülmüəllimin təsis edilsə, müəllim qıtlığı çəkməkdən qurtularıq.

Sınıflar təqib edildikcə edilir. Səkiz-doquz sənə dərsə dəvam olunur. Müəllimliyə istihqaq qazanıldığı təqdirdə təlim və tədrisə həvəskar olanlar müəllimliyinə gedər. Axund (alim) olmaq arzusunda olanlar isə iki-üç sənə dəxi ayrıca darülmüəllimin proqramına ilavə olunmuş, ilahiyyat şöbəsinə dəvam edər. Dünya və axirət elmlərini mükəmməlcə təhsil etmiş olur. Və həqiqi, mühakiməli, doğru bir məlumata malik olunur. İştə o zaman haqqilə alim adına layiq alimlər görərik. Və müəllim qıtlığı çəkməkdən də azad olarıq.

Hüseyn Cavid

URMİYƏDƏN

O kəs kim elmdən məhrum, cəhlilə "fanatik"dir,
Demə insan o nadanə ki, bir heyvani-natiqdir.
Rəsuli-Sadiqə min üç yüz il sabiq deyib Xaliq
Ki, bielm olsa insan cinsi-heyvanata lahiqdir.
Nə şərə aşina, nə ürfə danadır o nabina,
Ona bir yaxşı palanilə bir əfsar layiqdir.
Təkəllumdən səva bielm insanın nə tərcihi
Ki, hər halətdə heyvanilə hər halı müvafiqdir.

Kürrəyi-ərzdə bəni növi-bəşərin nisbəti heyvanata nə dərəcədə olursa, əhli-elmin şərafəti əvamünnasə dəxi o mənzilədə məhsub olur; necə Qurani-mübində Xudavəndi-cahanafərin buyurur: "Avamlar heyvana oqşar, bəlkə ondan da azğın olar". Bəlkə elmsiz kimsələrin heyvanatdan dəxi əskik və gümrah olmağına işarə olunur; pəs bu surətdə elmi-şərif təvəssütilə insan yer yüzündə cəmiişərafət və səadətə malik olub sair bielm qardaşlarından imtiyaz tapır.

Elmdir ki, ətfali-xürdsali növnihal vəzilə gülşəni-kamalda cuybari-zülali-maarif vasitəsilə sirab etdirib, abü həvayi-insaniyyətlə nəşvünüma verib, gunəgun ülum və fünun əsmarilə cilvələndirib, sayədar və pürbar ağaclar kibi dərəcəyi-fəzl və kəmalata yetirir. Elmdir ki, insanı zülməti-cəhalətdən kənar edib ənvari-hidayətlə qəlbini rövşən qılıb ixtiraati-cədidə və tərəqqiyyati-mütəəddidə sahibi edir. Məzmuni – "Beşikdən qəbrədək elm tələb edin!", bu barədə bir dəlili kafidir; əgərçi bu təkidat biz müsəlman qardaşlara yetişib, amma diqqət nəzərilə mülahizə buyurulanda bu hədisi-şərifə məhz miləli-xaricə və düvəli-mütəməddinə amil olub günbəgün səy və ehtimam edib mütəəddid ülum və fünun təhsilinə rövnəq verib hər dəqiqə cəmi tərəqqiyyat və kəmalatə malik olmağa çalışıb bir an ğəflətdə bulunmayırlar. Belə uzaq şəhərlərdən iki-üç aylıq məsafəni teyy edib, qürbət ixtiyar qılıb təhsili-elm etmək həvasilə uçub "Elm Çində də olsa, tapıb öyrənin!" məzmuni – dürər məşhuninə rövnəqəfza olub, leylü və nahar səmənərvar nari-qeyrət və mədəniyyətdə yanmaqdadırlar. Əvvəla bu müəyyən və müsəlləm ki, həzrəti-Rəsuli-Əkrəm zamanında Mədinə ilə biladi Çin arasını üç-dörd ay zərfində teyy etmək məhal və mümtəne bir əmr imiş (coğrafiya elminə rücu edilsə məlum olur), pəs bu kəlami-mübarəkdə olan israr və təkiddən məqsud filhəqiqə məhz tələbi-elmə təşviq və tərğib etməkdir. Və saniyən bu məzmuni-alidən hanki

elmin təhsil olması, nə dildə və nə lisanla olmağına işarə olunub şərh və bəst verilməyib ki, aya bu elmi ingilis lisanında öyrənmək və ya Fransa dilində əxz etmək lazımdır və yaxud ərəb lisanından əlavə dildə olsa günah və qeyri-caizdir. Əstəğfürullah! Hiç bu barədə, əlsinceyi-mütəəddidə xüsusunda istisna olunub özgə bir irad varid olmayıbdır.

Pəs əsri-haliyyəmizdə olan müsəlman qardaşların ğəflətindən və ülumi-mütənəvvə füyuzatından bibəhrə olmaqlarından məqami-əfsusda bulunuram ki, nasıl bədbəxt və nadan olmuşuq! Belə ki, İranda gözəl şəhərlərdən məhsub olan və abü həva və seyrü səfadə sair biladdan imtiyaz tapan şəhərlərdən birisi də sükunət etdiyimiz "Urmiyə" şəhridir; bir tərəfdə imperator canibindən rus şkolası, bir səmtdə ingilis məktəbxanəsi, bir mövqedə Fransa məktəbi güşad olunub ki, hər birində mütəəddid dillərdən əlavə bir müsəlman müəllimi ərəb, fars və türk dillərinin təliminden ötəri təyin olunub, hər üç məktəbdə məccanən təlim və tərbiyəyə talib və rağib olub tərəqqiyi-millət yolunda səy edir.

"Əcəb deyil ki, ovçu qaçar ovunun dalınca,
Məzəlidir ki, ov qaçar ovçunun dalınca".

Necə ki, məsdəri-vilayətdən yetişibdir: "Mən əlləməni hərfən qodyəsyərəni əbdən", yəni "hər kəs mənə bir hərf təlim etsə, məni özünə əbd etmiş kimidir!" Amma bu biçarə məktəbdarlar ahü dad çəkib bu cahil və bihimmət cəmaətlə bu fərmayişin əksinə əməl edib deyirlər ki: hər kəs bizdən bir hərf öyrənsə həqiqət bizi özünə əbd edib və sərəfraz qılıbdır. Lakin bu təkidatla yenə əlacpəzir olmayır; məgər bir neçə nəfər xanzadə bu məktəblərdə təhsil edirlər ki, bir para dövləti işlərdən ötəri gələcəkdə lazım olmağını təsvir edib Parij, London və Peterburq yollarını teyy etmək zəhmətini nəzərə alıb burada təhsili-elmə məşğul olublar. Bir neçə nəfər xanzadəyi çıxandan sonra bəqiyyəsi tamam erməni, yəhudi və nəsara uşaqları ki, bunlar ülum və fünunə, əlsinceyi-gunaguna tərvic verib və kəmali-şövq və rəğbətlə rövnəqəfza olublar. Hətta fars və türk dillərini danışıb yazmaqlarını müsəlman yoldaşlarından artıq dərəcəyi-təkəllümə yetiriblər. Və illa tüccar və sair əsnaf ətfalı bu xüsusda əlləddəvam kənarəculuq edib bu mətləbə əbədən iqdam qılmayıb və pak-pakizə olan ağızlarını, firəng və ingilis lisanında təkəllüm etməklə murdarlığa tənəzzül etməyə razı olmayırlar. Və

ədəmi-təlim və tərbiyə cəhətilə nə məsaili-şəriyyədən bir məsələ qanıb və nə əhkami-Qurandan bir mətləb anlayıb və nə lazım olan fars və türk dilindən kəma hüvə həqqüh bəhrəyab olublar. Bu biçarə uşaqlara bu barədə yenə məzəmmət yeri yoqdur, çünki bunların ataları hənuz 70 yaşında bisavad olmaq səbəbinə təkalifi-şəriyyə ittilaində bilmərrə qasir olub, ancaq məsələyi-təharəti yüz məşəqqətlə öyrənib babi-nəcasətdə ğərq olub məbhut və mütəhəyyir qalıblar.

Pəs bu hal üzrə ki, nə üsul və fürüə dana və nə əhkami-məsailə aşinadırlar, nə də zamana görə lazım olan elmi-sənaət, ziraət, ticarət, tibb, hikmət, həndəsə və heyətdən xəbərdardırlar. Heyhat, heyhat! "Çe nisbət xakra ba alem-e pak". Filhəqiqə mülahizə edəndə beş günlük dünyadır, hiç bu zəhmət və məşəqqətə dəyməz ki, müsəlman qardaşlar firəngiməab – "yevropeyski" olub öz dininə vəfa qılmayıb bilmərrə bidin və laməzhəb olsunlar?!

Əgər müsəlmanlıq budur ki, bizim müsəlmanda var,
Vay onun sabahına ki, bu günün arxasınca gələcək!

Filvaqe, diqqət nəzəri ilə baxanda əcnəbilər "balon" vasitəsilə neçə günlük məsafəni bir saət zərfində, elmi-sənaət təhsili qüvvəsilə, teyy etməyə qadir olurlar; bunlar bizim için böyük mətləblər deyil ki, şayani-təəccüb və mayci-təhəyyur olsun! Hətta elm sayəsində insan nəinki kürreyi-ərzi səyahətdə aciz və qasir, bəlkə tamam əflak və səmavatı bir anda seyr etməyə mühit və dara ola bilirmiş, bizə nə?..

Pəs bu surətdə zəhəmati-müşkiləyə mütəhəmmil olub sərfi-övqəti-şərifə qılıb kəsbi-elm və sənət etmək bihudə və bimənə bir iş olmağı bizim indimizə aşkar və hüveydadır! Və bundan qəti-nəzər bəsirət gözilə baxan biz müsəlman milləti Rəsuli-Əkrəm həzrətlərindən yetişən o əmri-nəvahinin hanki birisinə amil və peyrəv olmuşuq ki, əlavə bir təkidati-elmiyyə və sənaiyyəsinə də rövnəqəfza olub, təməddün və tədəyyün xüsusunda buyurduğu fərmayişata himmət və sədaqətlə əməl edib, kəmali-səy və ehtimamla çalışıb, tainki miləli-mütəməddinə nəzərlərində mövhun və sərnigün olmayaq!

"Şərqi-Rus" qəzeti, 21 may 1904

NAKAMLIQ

Böyük bir ziyai-əbədi

Bu gün qara topraq əcəlin pənceyi-qəhri Qafqasiyanın Rusiya türklərinin, daha doğrusu, bütün türk ünsüri-nəcibinin yorulmayan, qəhrəman və çalışqan bir evladını ağuşi-əbədisinə alıyor.

Mirzə Abdulla Məhəmmədzadə, A.Sur, Abdulla Tofiq imzalarını qəzetə sütunlarında görüb bilməyən pək az qare bulunur zənn edərim.

İştə o fəal gənc getdi. Nakam olaraq tərki-həyat etdi!

Gəncədə məbadiyi-ülumu təhsil etdikdən sonra üç sənədən ziyadə İstanbulda ikmali-təhsil ilə məşğul olub tarix və ədəbiyyatda böyük bir ləyaqət göstərmiş olan bu dəyərli cavan əfsus! binlərcə əfsus ki, dünyadan kam almayaraq, arzularına yetişməyərək millətinə, vətəninə lazım olan ən qiymətli bir zamanında millətini, vətənini tərk etdi, yalnız və yalnız ailə və arqadaşlarının, əhibba və vətəndaşlarının yüreyinə unudulmaz bir həsrət qoyub getdi.

Mərhum müşarileyh yaşasaydı, ədəbiyyatımıza pək böyük mənfəətlər, pək qiymətli əsərlər bəxş edəcəkdi. Zatən göstərdiyi nümunələr istiqbalının nə dərəcədə parlaq olduğunu müdəqqiq qarelərə təslim etdirmişdir zənn edərim.

Fazili-hünərvər, ədibi-siyasətpərvər İbrahimov Sənətullabəy əfəndinin mərhum (A.Sur) haqqında yazmış olduğu mütaliatı hər kəs oquyub düşünmüşdür zənn edərim. Onun türk dilinə, türk ədəbiyyatına olan xidmətləri pək parlaq olacaqdı, əfsus ki, kəndisi söndü, getdi...

Əvət, şu bir sənə zərfində Qafqas, ulu Qafqas, sevgili evladlarından üç qiymətli vücud qayb etdi.

Birincisi möhtərəm şair mərhum Sabir həzrətləri idi. Mirimumileyhi Tiflisdən Şamaxıya, yəni məzari-ədəmə doğru yollandığı sırada görmüşdüm. O lətif və düşgün sima hala gözümün önündə təcəssüm edib duruyor. Qafqas öylə nadir vücudə bir də pək çətinliklə malik ola bilir.

İkincisi vətənpərvər üləmamızdan hacı molla Ruhulla həzrətləri idi ki, ziyayi-təhəmmülgüdazı islam ruhilə bəslənmiş hər bir vətəndaşını məhzun və dilxun etdi.

Üçüncüsü isə şu iki mərhumun hiç birilə qabili-qiyas olamaz. Çünki onlar kamilən olmasa belə yenə az-çoq yaşayıb və istədikləri qadar millət və vətənlərinə ifayi-xidmət edə bilmişlərdir.

Bu isə (A.Sur), hənuz yeni-yeni qol-qanat açıb, təşəbbüsatda bulunub vətən yavruları için, onların tərəqqiyatı için çalışıb-çabalamaqda ikən, ölüm, o acı həqiqət, o müdhiş qüvvət fürsət vermədi. Biçarəyi aldı götürdü, şu mütəşəbbis, gənc ədibimizin səbəbi-irtihalına gəlincə Tiflisdə iki ay zərfində xəstəxanədə bir qaç dəfə əməliyyati-cərrahiyyə (operatsiya) icra edildikdən sonra qurtulmayaraq nihayət, əcəlin ağuşi-dəhşətnakına qovuşmuşdur. Cənabi-Həqq validəsinə, qardaşlarına və arqadaşlarına, dostlarına və vətəndaşlarına səbri-cəmil əta eləyə...

Hüseyn Cavid

İdarə:

Bu xəbər dünkü qəzetəmizin təb makinasına verildiyindən sonra əlimizə düşdüyünə görə bir gün təxirə düçar olmuş isə də, cənnətməkan Abdulla Tofiq haqqında bəzi xatirat və təfsilatı havi olduğuna görə, dərci əlzəm bilinmişdir.

"İqbal", 14 may 1912, № 59

ŞƏFİQƏ ƏFƏNDİZADƏ

(1882-1959)

QADIN SƏSİ

Kamal əfəndinin ailəsi əslən türk olub milli gözəl bir tərbiyə almış olduğundan çox nəcib güzəran edirlər.

Kənardan baxan bu ailəyə həsəd edirdi. Ailə içində söyləmələri əsil türk şivəsində olduğu kibi, dolanmaları da nəzakət və lətafətin son dərəcəsində; adət və üsulları da türk üsulunda idi.

Ailənin rəisəsi Fəridə xanım övladlarını milli ruh, milli tərbiyədə bəsləmiş, balaca vaxtından onların əsəblərinə, damarlarına islam qanını yerləşdirmişdi.

Bu xanım çox müddətlər Avropada sakin olduğu halda aldığı tərbiyədənmi, əmdigi süddənmi, nədən isə əcnəbi lisanını mükəmməl dərəcə bildigi, əcnəbi adətlərinə bələd olduğu halda ailələri arasında əcnəbi lisanı eşidilməz, əcnəbi adətləri görülməzdi.

Biganə bir türk bu ailə arasına düşsəydi kəndisinin Avropada olduğunu unudub Şərq müsəlmanları içindəki bir ailədə zənn edərdi.

Fəridə xanım dostlarının, qonum-qonşularının ailələrini kəndi ailəsi kibi xoşbəxt görmək istədigindən hər vaxt onlara bu yolda nəsihət edərdi.

– Qızlarım! Necəsiniz? Keyfiniz yaxşıdırmı?

Millətin üzvləri olacaq balalarınız nə haldadırlar?

– Sağ olunuz, yaxşıdır.

– Yaxşı olsunlar, var olsunlar, onların vücudlarilə fəxr edəcəgiz inşallah, qızım, onlara kəndinizmi mürəbbiyəlik edərsiniz? Afərin... afərin böylə də lazımdır. Əcnəbi mürəbbiyələrinin tərbiyəsindən övladlarımızı əcnəbiləşdirməkdən başqa bir tərbiyə gözləmək olmaz.

Təbii, hər kəs tərbiyə etdiyi çocuğa kəndi adətini sevdirməgə çalışıyor. İmdidən küçük yaşdan çocuqlarımıza kəndi millətini sevdirməli, vəzifələrini bildirməliyiz.

Çünki onlar bizdən bir qat daha tərəqqi ediyor. Biz ata-ana mazi adamıyız, övladlarımız istiqbal adamıdır. Biz ədəmə məhkumuz, bizi məmat bəkliyor.

Çocuqlarımızın yaşamaq haqlarıdır, onları vətən və millət bəkliyor.

Ona görə də vətənlərini, millətlərini sevdirmək hər bir ata-ananın borcu və birinci vəzifəsidir.

Fəridə xanım, oğullarından çox qızlarını oxutmağa, milli tərbiyə verməyə səy etmişdir. Bunu gören bəzi dostları "Ay Fəridə xanım! Qız övladına bu qədər təlim nə lazım, iştə bu qıza lazım olan qədər elm oğrətmiş, lazımdan artıq da tərbiyə vermişsiniz, kifayət degilmi? – derlərdi. Fəridə xanım onların cavabında:

– Bundan sonrakı istiqbalımızın parlaqlığı, gəlocək günlərimizin məsuliyyəti, tərəqqisi, bizim qucaqlarımızda böyüyən qız yavrılarilə olacaqdır.

Bugünkü fəlakəti açıqca söyləmək icab edərsə, biz qadınlara aiddir. Bakınız mədəni millətlər nə diyorlar: "Analar müəllimlərin ən həqiqi kömokçiləridir".

Bir çocuq ilk tərbiyəsini anası qucağında ögrənəcək, vətən və millət hisslərini yenə oradan alacaqdır.

Qadınlıq aləmi öylə bir aləmdir ki, ailə, millət, vətən, cəmiyyət, mədəniyyət, insaniyyət, şəfəqqət, mərhəmət kibi müqəddəs şeylər həp o aləmdədir, orada nəşvü-nüma bulur. Əgər qızlarımız aləmi-irfandan məhrum qalmış olurlarsa, o millətin halı nasıl olur.

Madam ki, bu qədər cəmiyyətin əsil binası, kökü qızlarımızdır. Madam ki, millətin hər bir halında məsul ünas taifəsidir. Təlim-tərbiyədə də oğullarımızdan artıq qızlarımıza əhəmiyyət verməlidir.

Fəridə xanımın bəslədigi fikri, amalı anlaşıldı zənn edəriz.

İştə islam qanlı Fəridə xanımın yetişdirdigi böyük oğlunun tahil zəmanı gəlmişdir.

Fəridə xanım canından ziyadə sevdigi övladına qız intixabının qeydinə qalmışdır.

Gecə sabaha qədər gözünə yuxu getməyib dərin-dərin xəyallara dalıyor. Gündüz saətlərlə düşünüyor, əcəba, Fəridə xanımı ən çox düşündürən nədir?

Fikrində nə kibi qız intixabı qərarlaşmışdır?

Təbii, milli tərbiyə görmüş, millətini sevən, millətin yolilə gedən qız istiyor.

Xudanəkərdə əks halda bir qız qismət olursa...

İştə Fəridə xanımı da ən çox düşündürən məsələ burasıdır.

Əgər əcnəbi tərbiyəsi görmüş bir qız qismət olursa, ta ata-baba əsrlərinin gəldigi kibi cığır korlanıb tazə bir cığır təqib etmək lazım

gəlir ki, bu da güc bir məsələ! Küçük yaşdan bəri damarlarında kökləşmiş, təbiətlərində çağılmış adəti tərk etmək qolaymıdır?

Fəridə xanım dünyagörmüş, əqli başında, millətini sevən bir xanım olduğundan hər kəsin hüsnü təvəccöhini qazanmış, kəndisini hər kəsə sevdirmiş idi.

Odur ki, hər kəsin müşkül işi olsa idi, Fəridə xanımın yanına gedər və rəyini soruşardı.

O cümlədən oğul evləndirmək barəsində soruşulan suallara o da böylə məsləhət görərdi.

Bir qadın nə qədər dilbər, nə dərəcə gözəl olursa olsun, adəmiyyət feyzindən binəsib isə səhra çiçəgi kibi naməqbul və qiymətsizdir.

Qadın kəlməsi altında pək çox və zəiflər vardır. Onlardan ən birinciləri: validəlik, mürəbbiyəlik, rəfiqəlik, rəislik böyləmi?

Əgər bir qadın elmü maarif nurundan binəsib, kəndi vəzifəsindən bixəbər, milliyyətindən biganə olursa, aşkardır ki, kəndisinə tapşırılan vəzifələrin heç birini layiqilə ifa edəməz. Öylələrinin yetişdirdigi övladlarından milləti için zərərdən başqa bir şey görülməz.

Çocuqlar anadan çılpaq dünyaya gəldigi kibi düşünmək, anlamaq, bilmək, söyləmək kibi şeylərin həpsindən məhrum olaraq dünyaya gəliyor.

Bir çocuq qəzayə, ana südünə nasıl möhtac isə, dünyaya tanış olmaq için də mürəbbiyəyə öyləcə möhtacdır. Mürəbbiyə də təbii validə olmalıdır. Çünki heç bir kənar insan ananın olduğu kibi sədaqətli ola bilməz, demək ki, bir ana həm südilə, həm milli tərbiyəsilə övladının həm anası, həm mürəbbiyəsi olmalıdır.

Böylə olursa gözlənilən məqam əldə edilə bilir ki, o sayədə millət dirilir, ruhlar birləşir.

Ona görə də gəlin olacaq qız nə sırf avam, nə də aləmdən bixəbər olmalıdır.

Və nə də kəndi aləmindən bixəbər olub da sırf əcnəbi tərbiyəsi görmüş olsun.

Gözləyək ki, təlimilə bərabər milli tərbiyəsi də olsun.

Fəridə xanım yadlara böylə məsləhət gördigi halda kəndi övladına qismət olacaq qızın kim və nə kibi tərbiyəsi olduğunu düşünərək bu fikirlə sabahı açdı.

Geyinib dəstəmaz aldı və namazını qılıb yüzüni dualar qəbul eləyən Allah-taalaya çevirib əllərini yuxarı qalxızdı və sidqi dil ilə bu cür dua və niyaza başladı:

– Ey ərhəm əlrahimin olan Allah, ey saf və sadiq qəlbdən gələn duaları qəbul edən Allah, ey ulu tanrı! Üzümü sənə tutub sondən niyaz edirəm, bu halda böyük bir işin qarşısındayam imdiyə qədər suyumla bəslədigim, ruhumla oxşadığım, vücudumla pənahəndə olduğum oğlumu sənin köməginlə evləndirmək istiyorum, sən yenə millətini sevən, çocuqlarına layiqlə ana olan oğluma münasib bir zövcə qismət elə, bənim evimə, bənim sağlığımda ocnəbi adat və üsulini salma.

* * *

Qarlı, çovğunlu bir qış günü idi. Fəridə xanım namazını qılıb peçin yanındakı döşəkcə üzərində oturub təsbehini çeviriyordu, bu vaxt qapı dalından bir səs gəldi. Gələn insanın kim olduğuna müqtədir ikən balaca nəvəsi Muxtar qaça-qaça gəlib iki əlilə bərk qapını itələdi. Qapı açıldı. Daldan birisi qovurmuş kibi Muxtar özünü nənəsinin qucağına salmaq için tələsirdi.

Nənəsi də qollarını açıb sevgili Muxtarını qucaqlamış ikən o biri tərəfdən mürəbbiyə hövlnak gəlib Muxtarı iki qolları dibindən tutub yuxarı qalxızdı və həman alub o biri otağa apardı.

Çünki mürəbbiyə təhti-tərbiyəsinə aldığı çocuğun kəndi vəzifəsindən başqa bir dil öğrənməginə, başqa bir təbiət götürməginə hiç vaxt razı olmazdı.

Burada mürəbbiyəyi qınamıyoruz. Təbii, hər kəs vəzifəsini icra etməgə çalışmağa borcludur.

Fəridə xanım çox düşündü, bir-iki dəfə başını o tərəf-bu tərəfə sallayıb dərindən bir ah çəkdi. Fəridə xanım kəndi kəndinə diyordı: Əstəğfürullah rəbbi vətub aliyə, biz nə qələt elədik oxumuş qız aldıq. Oğlum aşiq olmamışdı ki, onu təqsirləndirəyim, bizi altadan onun mükəmməl dərəcə rusca bilməsilə bərabər türkcə də çox gözəl oxuması oldu.

Nə biləyim ki, onun anası qızını zərrə qədər ev idarəsindən, çocuq tərbiyəsindən məlumat verməmişdir.

Nə biləyim ki, analar qızlarını bir elm ilə kifayətləndirib də gələcəkdə millətin anası olacağını ona təlim etməmişdir.

Bən istər kəndi qızlarıma, istər ətrafımdakılara olsun milli təlim-milli tərbiyə deyib dad çəkdigim halda, Allah bənə milli tərbiyədən əsla xəbəri olmayan birisini qismət elədi... Şükür kərəminə... Hər

şey yola gedər, ancaq kəndi övladına biganə rəftar eləməgini hiç bir vicdan sahibi qəbul eləməz. Hiç bu da insafmıdır ki, iki yaşında, ağzından hələ süd qoxusu gələn cigərparçanı bir əcnəbi qadının ümidinə buraxıb da aramızda moda almış olan böylə çirkin bir işlə iftixar edilsin. Böyləsi bir bənim gəlinim degildir. Çoxlarının evində mürəbbiyələri var. Əcəba, bu işdən iftixar edən xanımlarımız çocuqlarını tərbiyədən acizmi qaldılar ki, xanələrində əcnəbi bulundurmaqla həm millətin rüknü olacaq övladının təbiətlərini bərbad, həm də bununla fəxr ediyorlar.

Hələ bəzi modaya qapılmışlar, evlərində mürəbbiyə bulundurmayı kəndlərinə məzirət sanıyorlar.

Heyhat! Nə böyük qəflət!

İştə nur topu kibi Muxtarımı, gözəl sevimli nəvəmi bu nerədən çıxması məlum olmayan əcnəbinin əlinə tapşırdılar ki, əli-əlbət bizim və bizim kibi sırf milli tərbiyə görənlərin əksi. O şimdi kəndi milli adətlərini öylə Muxtarımın beyninə dolduracaq ki, gələcəkdə o yüzdən çox böyük cəzalar görəcəgiz. Hələ bəlkə türklük binası ilə təməli tökülmüş binamızı tarumar edəcəkdir. Qəhr olsun böylələri... Bənim sögməgə də haqqım yox... A... o demiyor ki, sən kəndi adətindən çıx da bənim adətimə gir, biz kəndimiz yalvarıyız, parələr, hədiyyələr veriyoruz ki, sən gəl kəndi adət və üsulunu bizim cigərparça övladıma öğrət, hələ bacarsan kəndi milli adətlərimizdən nifrət etdir, uzaqlaşdır.

Keçən gün Gülsüm xanımgilə getmişdim. Onlarkı da bu madmazeldən varmış bilmiyordum. Bən onu əvvəl görəndə böylə xəyal elədim ki, yəqin bu kəs paltartikəndir.

Ona görə də daha bunun nəçi olduğunu xəbər almağı lazım bilmədim. Gülsüm xanım, gəlini Anaxanım bir yerdə oturmuş söhbət eliyirdik. Anaxanım tez-tez bu arvadın sözüni aralığa gətirməgindən şübhələndim, yenə suala hacət görmədim.

Anaxanım darıxdığından daha saxlaya bilməyib kəmali iftixar ilə bu qadının mürəbbiyə olduğunu söylədi. Və çocuqları tez vaxt içində cəlb etməkdən məmnun qaldığını da əlavə etdi. Mən yerimdə hərəkətsiz qaldım, gəldigimə peşman oldum. Düşündüm ki, sən Anaxanım ömrünün içində böylələrilə oturub durmadan, bunların elmini təlim almadın, imdi də nə onların, nə kəndi elmindən, şəriətindən xəbərin olmadığı halda iki kəlmə danışıq bilməklə böylə ileri getmişsənsə, kəndi çocuqlarına kəndin tərbiyə verməgi

özünə ar hesab edib də əcnəbilər əlinə tapşırırsan?.. Bən bu fikirdə ikən Gülsüm xanımın da gözü bəndə imiş, o da Anaxanımın o biri otağa keçməgindən mənfəətbərdar olub:

– Bacı! Niyə böylə dərin fikrə getmişsən? Bənə əsər eyləyən şey sənədəmi əsər eylədi? Allaha and olsun, bu ayağıqırılmışın ayağı bizim evə girən gündən bənim qarnım doyunca xörək görmiyibdir.

Dedim:

– Əvvəldən razı olmaya idin, manə olaydın.

– Ax, ay bacı! Məgər bənim sözümə qulaq asan varmı? Hələ oğlum da razı degildi. Oğlum diyordu ki, bizə mürəbbiyə nə lazımdır. Altı-yeddi yaşına qədər kəndi dilimizi bildi bəsdir, sonra o biri elmləri də gedib məktəbdə öğrənər.

Zəmanəmiz dağılsın bacı! İmdi gör-götür dünyasıdır, bizləri layiq edən kimdir? Keçənlərdə toyda bacılıqlarına rast gəlmiş, onların həpsinin söhbətləri evlərində saxladıqları mürəbbiyələri barəsində imiş.

İştə o vaxtdan evdə dinclik qoymadı, gündə ərilə dava-qalmağal saldı ki, bizim çocuqlarımıza da mürəbbiyə saxla, axırda məramına çatdı.

Əlavə bir şey daha bəni yandırıyor. Hələ saxladıqları ay yarım degil o qədər paylar, hədiyyələr almışdır ki, hesabı yoxdur. Keçən gün anadan olan güni imiş. Nə bilim demiş ki, bənim anadan olan günümdür, izin veriniz bir-iki yoldaşımı yanıma dəvət eləyim, bunlar da izin verdilər, gəlinim oğluma iki həmmal dalı meyvəcat aldırtdı, ondan başqa yüz iyirmi manat verib saat zənciri aldılar və ona bağışladılar.

Bacı, qurban olum sana! Bunlar çəkilən dərdlərdənmidir? Nə yaxşı ki sən gəldin, yürəgim lap dolmuşdu. Dərdimi sənə söylədim bir az fərəhləndim dedi.

Pərvərdigara, şükür kərəminə! Bu dərdlər ilə qovrulan bir mən degiləm, çoxlarıdır.

O gün həmamda qədim dostlarımdan Hacı xanımın gəlininə rast gəldim, binəva bəni görməginə nə qədər şad oldu. Onun da yürəgi dolu imiş, onun da dərdi həpsinin dərdindən çox, yazıq üç əvvəlinci balalarını mu tək siyah qanatları arasında qeyb etdikdən sonra, axırda bu iki əlindəki balaları qalıblar, üç balanın dağını çəkən zavallı insan məhəbbətini son iki balasına salmış ikən bu iki balasının da diridiri yüzlərinə həsrət qalmış, onun da əri körpə uşaqlarını mürəbbiyə əlinə tapşırmış, mürəbbiyə də uşaqları anasının yanına qoymuyor, yazıq həm göz yaşını tökdü, həm də danışdı. Diyor ki, atasına

yalvardım ki, qoy balalarım bir saat yanıma gəlsinlər, balalarımı doyunca görmək üçün cigərim kəbabə dönür, qəlbim dögünür, ağlım başımdan çıxır.

O da diyor ki, boş danışma! Uşaqlar sənin yanına gəlib nə öğrənəcəklər, səndən nə tərbiyə götürəcəklər dimək lə biçarənin yüreginə dağ vurmuş.

Bunlar həpsi görənək bəlasıdır. Bu görənək bizim aramızda öylə kökəlmiş ki, az-çox məlumatlı xanımlarımız da hər məclisdə çocuqlarının türkcə söyləmək bilmədiklərini fəxr ilə bir-birinə anlatıb, qeyri-əcnəbi dillərini gözəlcə bilməklərindən uzun-uzadı söhbətlərə dalıyorlar.

Çox heyf ki, imdiyə qədər bir böylə qafil yaşadıq, istər qız, istər oğlan balalarımıza vətəni, milləti sevdirmək, gələcəkdə nə ilə xoşbəxt olacağımızı yavrularımızın qulaqlarına doldurmadıq.

Məlumdur ki, çocuqlar bir qaç sənələr ağuşi-şəfəqqətdə qalır, vücudi böyür, fikri, zəkası, qüvveyi-hafizəsi də genişlənir, mini-mini qəlbində böyük-böyük hisslər oyanır. Yavaş-yavaş sözlər söyləməgə başlar, gözləri görməgə, qulaqları eşitməgə, fikri düşünməgə alışır.

Nə eşidirsə zehnində yerləşir, onu təqlidə başlar, nə görsə ufacıq beyin qutusunda yəqub hifz edər.

Vücudi böyüdügi kibi fikrində vəzh edilən şeylər də böyür, kökləşir. İştə bu vaxtında gələcək yollarını aydın göstərmək lazım idi ki, düz yolları ilə gedə idilər, biz o yolları təmizləmədik, süpürmədik, daşlı, qayalı, tozlu, torpaqlı, güllü, tikanlı yollara oğullarımızı saldırdıq.

Onlar kəndi kəndilərinə yol aradılar. Kəndi yollarından yol seçə bilməyib əcnəbilərin təmizlədikləri, süpürdükləri yollara kəndilərini atdılar. Zavallılar nə yapsınlar, bəziləri öz atalarından görəmədilər, bəziləri də küçük yaşdan əcnəbilərin əlinə düşdülər. Orada o mənbədən pərvəriş tapdılar.

İmdi də biz onlardan milli dil, milli adət görmiyoruz, əks təqdirdə onları günahkar hesab ediyoruz. Daha onu düşünmiyoruz ki, hər kəs əkdigini biçər. Hələ eylələrini tanıyorum ki, kəndisi türk qızı türk olduğu halda, məclisdə türkcə qonuşmağı kəndinə ar hesab ediyor da, yarım yamalaq əcnəbi lisanilə kəndisini əcnəbilərə bənzətmək istiyor.

* * *

Hey getdi əski zamanlar, hey!.. Əski zamanlarda qadınlara hörmət də var idi... məhəbbət də var idi... Hər bir nüfuzda kişilər ilə bir müsavi dərəcədə idik... Heyhat!.. O zamanlar keçdi... Uçamalar bardağ oldu... İmdi oxumuşlarımız çoxaldı... Daha bizləri bəgənmiyorlar... Yüzümüzə baxmağa, sözümüzə qulaq asmağa belə tənəzzül buyurmuyorlar.

Odur ki, imdi hər qaidələr dəgişdi... Milli adətlərin yerinə əcnəbi adətləri qonuldu... milli dil əvəzinə əcnəbi dili dəb düşdü.

Milli adətlərimiz unuduldu... Milli dilimiz tərk oldu getdi: nəvəm Parisdə təhsilini bitirdi... amma bizi də yidi bitirdi, ...ağırlığınca paralar xərclətdi... amma bu paralarla nələr qazandığını anlamıyoruz, bir az da artıq məlumat bilmək istəsək, – siz bir şey anlamıyorsunuz, bən darülfünun cəmi fənlərini qazanmışam, – diyor.

Keçən gün yanıma gəldi. – Nənə keyfin necədir? – dedi.

– Allahın amanında olasan yavrum, – dedim. Yanımda oturmaq için kəndini döşəgin üstünə saldı. Sonra... Sonra dimdik qalxdı. Döşək üstə oturmadı... taxtda rahatlana bilmədi... bəni, babasını bəgənmədi... sözlərimizi bəgənmədi... hərəkətimizi bəgənmədi... bir şeyimizi də bəgənmədi. Evin qaidəsini pozmağa... adətlərimizi dəgişdirməgə çalışdı.

İştə nəvəmin Parisdən gətirdigi fənlər! Bundan təbii daha nə ola bilər. İştə beş sənə içində gecəli-gündüzlü çalışdığı təhsilin səmərəsi... Bundan artıq nə gözliyordunuz. On beş il bundan əvvəl olunan dadü fəryadları, ağlanan səsləri eşidən olsa idi... qızlarına milli tərbiyə verməydilər, hər əcnəbi qadınlara çocuq tərbiyəsiyçün evlərinin ən ali mövqeyinlə yer verməsəydilər, məclislərdə əcnəbiləşməglə fəxr eləməsəydilər... şimdi də oğullarımızın, nəvələrimizin gülüncü, məsxərəsi olmazdıq.

Evində əcnəbi saxlamaq müdasına qapılmasaydıq, milli tərbiyə ilə tərbiyələnən gözəl-göyçək qızlar şimdi evlər küncündə qırxəlli yaşında ixtiyarlar şəklinə girib də ərsiz qalmazdı.

Nur topu kibi, gül damlası kibi oğullarımız əcnəbi tərbiyəsi səmərəsi olaraq əcnəbi vilayətindən birər qız ilə qayıtmaz idilər.

* * *

Bədbəxt qadınlar, kimsəsiz qadınlar, elmü maarif nurilə işıqlanmağa haqqılə layiq ikən şimdi əsirələr kibi hüquqsuz, səhra çiçəkləri kibi suyumsuz, qiymətsiz yaşayan bədbəxt qadınlar.

Millətimiz, sənin yüzündən böyük-böyük mövqelər tutmaq ehtimalı var ikən, çox təəssüf ki, zükurlarımız imdiyə qədər düşünmədilər, qızlarına millət yetişdirmək təlimini öğrətmədilər, qızları için milli məktəblər, hünər evləri açmadılar.

Sonra da qızlarının ən birinci vəzifəsi olan övlad tərbiyəsi vəzifəsini əcnəbi qadınlar əlinə verib də, "səndən nə tərbiyə götürəcəklər" kibi təhqiramiz sözlərlə qadınlarımızı, qızlarımızı töhmətləndirdilər.

İştə o sayədədir ki, biz də böyləcə hər haqqımızdan məhrum yaşıyoruz.

SALMAN TURXAN

(1884-1941)

QUL

Şüəramızın əşarı, üdəbamızın asari ərəb və fars boyunduruğunda olduğu kibi adlarımız da bu iki dillərin əsiri və qullarıdırlar. Əzəl gündən nə cür düşübdürsə, deyəsən, bu "qulluq" paltarı türk millətinin boyuna ölçülüb və biçilmişdir. Əbu Nəsr Fərabi, İbn Sina, Mollayi Rumi, Cövhəri, Xosrov Dəhləvi, Nizami Gəncəvi, Xaqani Şirvani kibi ən böyük füzəlayi-namdar türk oğlu türk olduqları halda yazdıqları əsərlərini başdan-başa ərəb və fars dillərində yazmışlar və sonradan gələn sairlərimiz dəxi onların "iz"ləri ilə gedib hər birisi bu böyük ustadlara peyrəvilik elamişlər. Hələ türk soltan və padşahlarının üləma və müctəhidlərinin fars dilinin rəvac tapmağı yolunda etdikləri səy və qeyrəti bir-bir sadalamaq istəsək, o barədə ayrıca bir kitab yazmaq icab edər. Yalnız bu kifayətdir ki, Sultan Mahmud Qəznəvi türk ola-ola farslar için "Şahnamə" tədarükündə olub "həkim Firdovsi"yə hər beytinə bir qızıl (altun) vəd eyləyəndə türklərin Firdovsisi olan "Qudatqu bilik"[1] "Buğraxan"ın xidmətində sağ və salamat idi. Müxtəsər səlxa (sırf) türk dilində indi də olsun, bircə sərum (sətir) yazımız yoxdur ki, o yazıya baxıb fərəhlənək. Hədislər, xətibələr, dualar, ziyarətlər, hamısı ərəb və fars dillərində yazıldığı kibi ibadətimiz də başdan-ayağa ərəbcədir. Biz elə zənn edirik ki, təam sərf etdikdən sonra bir ərəb şairi tərəfindən düzülən "süfrə duası"nın əvəzinə türkcə bu milli şairimizin qoşduğu "tapşırma"nı oxusaq böyük bir günaha mürtəkib olmuş olarıq. "Aşdır, daşdır, yaxşıya yanaşdır, yalandan uzaşdır, bəlayiq yola, bərəkət dola, yalavaca[2] səlam

[1] Buğraxan türk hökmdarlarından olub dördüncü əsrin axırlarında Mavərahünnəhr ilə Türküstan arasında vəfat etmişdi. Ləqəbi Şəhəbüddövlə, adı Harun, atasının adı Süleyman, babasının adı İlək xandır. Hərçəndi Buğraxandan Ş.Sami pək bir-iki sətir yazmağa iktifa etmişsə də lakin hind müvərrixləri ondan ötrü bir neçə səhifələr ayırmışlar (*Salman*).

[2] Yalavac – türkcə peyğəmbər deməkdir ki, bəzən yalavac bəzən də yolavac yazmışdır və o cümlədən Xaqani Şirvani qəsidələrinin birində yazmış "Xosrov Dəvəlcəlalətin əzmlik və səltənət, müstəhəq xilafətin – öz yolavac tüngəri" və habelə əski türkmən kitablarında yalavac yazıldığı kibi çalpişlu türkləri də yalavac deyib duruyorlar (*Salman*).

ola, tanrı yoluna bismillah allahü əkbər". Bən güman etmirəm ki, dörd kəlmədən ibarət olan (allahüm müzd vəla tənqis) cümləsi bu ikicə kəlmə ana dilimizdə deyilmiş "Aşdır-daşdır" sözlərinin necə ki lazımdır mənasını ifadə edə bilsin, bu tapşırmanı saf yürəkli batır (qəhrəman – bahadır) övladlarından olan "türkmən qardaşlarımız əski yunanlar "Homirus"un sözlərini hövsələlərində hifz elədikləri kibi bunlar da neçə əsrlərdən bəri öz milli şairlərinin tapşırmasını və habelə başqa "qoşma" "düzmə"lərini yadlarında saxlayıb nəsilbənəsil oxuya-oxuya gəlmişlər və bu gün yenə sevə-sevə oxumaqdadırlar.

Sədəddən ayrılmayıb yenə əsil mətləbə qayıdaq. Məqaləmizin sədrində iri hərf ilə yazdığımız "qul" sözü ərəbcə "əbd", "qulam" və farsca "bəndə", "çakər" sözlərinin eynidir. Məlumdur ki, əski və yeni ərəb adlarının bir çoxunun əvvəllərinə bir "əbd" sözilə "qulam" sözü ilhaq olub iləklənmişdir ki, onun ilə o şəxs kimin qulu, əbdi, qulamı, çakəri, köləsi olduğu bəllənir. Bu əbd və qulam sözləri haçan (nə vaxt) ortaya çıxmış və vəchi təsmiyələri nədir? Orası ilə bizim işimiz yoxdur, qoy bu "nöqtə"ni tarix yazanlarımız araşdırıb təhlil eləsinlər. Bu vəzifə dəxi onların müqəddəs vəzifələrinin birisidir. Ancaq belə xəyalə gəlir ki, yuxarıda yazdığımız kibi, farsların "bəndə" və "çakər"ləri ilə türklərin "qul"u ərəb adlarına ilhaq edilən əbd və qulam sözlərinin eynən tərcüməsidir. Hələ adlarımızın yüzdə doxsan səkkiz faizi ərəb və fars adları olduğu kibi əbu, qulam və qul dəxi onlardan bizə yetişən mirasdır. Ərəbin Abdullahı, farscaya tərcümə ediləndə Xudabəndə, türkcəyə də çevriləndə Tanrıqulu olur. Dürüst diqqət ilə düşünüb zaiqəyə tapşıranda aydın və aşkar surətdə məlum olur ki, tərcüməyə də iktifa eləməyib Əliqulu, Həsənqulu, Hüseynqulu yaza-yaza yenə Əbdüləli, Qulaməli, Əlibəndə, Əbdülhəsən, Qulamhüseyn adlarını işlətmişik. Hər bir işdə ifrat dərəcəsinə çıxdığımızdan "qulluq" vəzifəsində də dəxi intiha dərəcəyə varıb hər kimə qul olub və hamının qapısında da panbağ-panbağ (aciz-aciz) boynumuzu burmuşuq. Yuxarıda yazdığım qulluqlar çox ola bilər ki, dindar və doğru müsəlmanlığımızdan yana nəşat etmişdir və məhz möminligimizi bir daha sübut etmək için pak və müqəddəs adlara qul olub və onun ilə də şərafət qazanmışıq, vaxt ikən bəlkə də bu qulluqlar lazım və vacib imiş? Lakin bunlardan savayı yenə adlarımızda sansız-hesabsız əbdlik, qulamlıq, qulluqlar vardır ki, bu çağacan onların qaynağını, mənbəyini axtarıb tapa bilməmişik. Kim bilir, şayəd yaradılışda biz elə qul yaranıb qul da doğulmuşuq! Və

açun (dünya) varkən də bu qulluqda baqi qalmalıyıq? Çox yaxşı olardı ki, incə düşünən mütəbəhhər ədiblərimiz ilə nazikxəyal, müşkaf təbli şairlərimiz vaxt ikən tağları, daşları tir-tir titrədən "hür" azad türklərin haçağdan və nə səbəbə görə qulluq zənciri ilə sarındıqlarını ətraflı yazıb aşkara çıxara idilər. Çünki adlarımızdan belə anlaşılır ki, biz Allaha, peyğəmbərə, imamlara qul olduqdan başqa yenə bir çoxlarına qul olmuşuq və bu adət hələ indi də bizim aramızda mütədavil olub dövran sürməkdədir. Misal için götürək bu adları:

Təhmasibqulu, Nadirqulu, Şahqulu, Səfiqulu, Ocaqquluı, Şeyxqulu, Pirqulu, Hacıqulu, Nəcəfqulu, Xanqulu, Bəgqulu, Həzrətqulu[1], İmamqulu[2], Nəzərqulu, Məxdumqulu, Ələmqulu, Tuğqulu, Abasqulu ta ola maşallah...

Heyf olsun ki, bu məqaləcığazı düşündügüm kibi yazmaq mənə mümkün olmadı və bir çox sözləri dügümləyə-dügümləyə üstüörtülü deyib keçdim. Lakin müxtəsər vəch ilə olsa da, bu mətləbi yazmamış keçə bilməyəcəgəm. O mətləb də budur ki, adlarımıza əsri cəhalətdə sitayiş edilən "büt"lərin və yenə əsri səadəti dərk etmiyən və yaxud dərk edib də dini-islamı qəbul eləmiyən bütpərəst ərəblərin adları qarışıb ki, ata-babalarımızın səhlənkarlıqlarından o adlar ilə öz məsum balalarını adlandırıb biçarələri onlara da qulluq eləməgə məcbur etmişlər. Biz o adlardan burada məhz bir "səbəb"ə görə zikr etmək istəmədik. Fəqət etiraz edən olsa, dəlillərimizi "Açıq söz" vasitəsilə deməgə hazırıq.

Yuxarıda şairlərimizin də ərəb, fars qulları, əsirləri olduqlarını demişdik. Lakin şeirdə işlətdikləri təxəllüslərində sırf ərəb, fars lüğətlərindən götürdüklərini aydınlatmamışdıq. Təəssüf olsun ki, təxəllüslərdə də Qulam, Əbd, Çakər, hətta Əbdin cəmi olan İbad və habelə balaca qulcuğaz mənasını ifadə eləyən "əbid" kəlməsini dəxi istemal etməkdən çəkinməmişlər. "Azərbaycan tarixi ədəbiyyatı" ilə uğraşanlar neçə-neçə bu təxəllüslərdə olan şairlərin kəlamlarına təsadüf etməkdədirlər.

---

[1] Həzrət – tatar qardaşlarımızın istilahınca axund deməkdir; Vəli Həzrət, Mahmud Həzrət.

[2] İmam – dəxi bu mənayə qərib olub pişnamaz mənasıdır. Soltan əş-Şüərayi Füzuli Bağdadi bir kəlamda buyurur:

"Fəqihi sanma sadiq məntiqinin quluna fel etmə,
İmami bilmə aqil ixtiyarın sənə tapşırma" (*Salman*)

Mərhum "Mirzə Məhəmməd Rza Təbrizi" Azərbaycanın mümtaz ürəfa və ümərasından olduğu halda, yenə nədənsə təxəllüsüni "bəndə" ixtiyar etmişdir. "Çakər" təxəllüslər isə imdinin özündə də vardır və habelə Şah Abbasın dərbar şairi olan türk Həsən bəgin təxəllüsü o qədər yaraşıqsız oksik təxəllüsdür ki, insan yazmağa da həya ediyor. Bütün (təzkirə) müəlliflərinin yazılarına inanmaq olarsa, Həsən bəg kibi şuxtəb və şirin kəlam şairin təxəllüsü səg (it) imiş. Hələ Həsən bəgə bir mərhəmətli-şahanə olaraq başqa "səg təxəllüs şairlərdən" seçilmək üçün Şah Abbas tərəfindən "səg ləvənd" deyə bir lüğət dəxi əta olunmuş idi. Bu mətləbi "Atəşkədə" müəllifi Hacı Lütfəli xan Azər təxəllüs ilə Ş.Sami bəg dəxi təsdiq edirlər. Biz Həsən bəgin şeirlərin görməsəydik, çox ola bilərdi ki, ona isnad verilən təxəllüsə də tezlik ilə inanmaya idik. Amma imdi qəbula məcburuq. Balədə məzkur müəlliflərin yazmalarına görə, Həsən bəgin bir gün dərbarə gəlib Şah Abbasın ova getdiyini öğrəndigindən axşama bu beyti təməllüq için yazub şaha təqdim edir:

"Səhər amədəm buqeyət beşekar rəfte budi
To ke "səg" nəbərde budi beçe kar rəfte budi".

Ədəbiyyatımızda bu cür beytlər az degildir. Hənuz "Məcmueye əşarı" çap olunmamış bir Azərbaycan türk şairinin kəlamlarında da buna oxşar və lap bu ruhda yazılmış bir beyt vardır ki, eynən yazıram:

"Dut bəni kuyində boynu bağlu itlərdən hesab
Hansı it kuyində bən tək belə əfqan eləmiş"

Bundan başqa yenə bir məşhur zəbərdəst şairlərimizdən ...in bunlara bənzər bir beyti xatırımızdadır:

"Təqsim edəndə itlərinə süfrə-süfrə nan,
Hər ruz bəxş edə bana bir parə, qaneəm".

Yadıma gəlir ki, təxminən il yarım bundan əqdəm Bakıda nəşr olunan "Kaspi" qəzetəsində bir balaca xəbər yazılmış idi. O balaca xəbər də bu idi ki, Bakının adi konduktorlarından İzmailof familyalı bir şəxs bələdiyyə rəisi Biç cənablarına ərizə yazıb və etdigi konduktorluğundan da istefa vermiş idi. O zaman İzmailof öz istefasına bunu dəlil göstərmiş idi ki, bələdiyyə əzalarından olan Olyanski ona eyni mükalimədə "sən" deyə xitab etmiş və bu xitab isə onun için ən böyük təhqirdir. Bələdiyyə rəisi dəxi İzmailofun ərizəsini haqlı sandığından Olyanskiyə bir yerli-yataqlı beytin (məktub) yazıb bundan sonra "sən" kəlməsini tərk edib onun yerinə "siz" sözü işlətməgini tövsiyə etmiş idi. Deməli, adi bir konduktor öz şərəfini mülahizə eləyib özünə sən xitab edilməgə razı olmadığından ərizə verib istefaya çıxır. Amma biz hər yerdə öz-özümüzü əsgildib dəyər qiymətdən salırıq və hər kəs ilə danışanda da qulunuz, nökəriniz, çakəriniz, bəndəniz, əbdiniz, qulamınız deyə yaltaqlıq edirik və heyni təkəllümdə (ayıb olmasın uşaqların anası) deməklə ədəbli (?) olduğumuzu göstəririk. Cigərgüşə olan övladımızı birisi bizdən soruşduqda "qulbeçəniz; qız olsa koniziniz" deyib kiçilirik. Söz yox ki, bunların hamısını özümüz törədib və bu əskik günlərə düşməgimizə də yenə özümüz bais olmuşuq. Təmkin və vüqarlı şəxsləri forslu, təkəbbürlü hesab edib yaltaqçıları isə şikəstənəfs, təvazöli sanmışıq. Yəqindir ki, bizi bu günlərə salan qulluqdur. Qul olan şəxsdən də bundan artıq bir iş gözləmək olmaz.

Keçənlər keçib, gələcək qeydinə qalıb artıq türk olduğumuzu etiraf etməliyik. "Qulluq" ləkəsini adlarımızdan silib uşaqlarımıza gözəl-gözəl türk adları qoyub özlərini də türk ruhunda bəsləməliyik. Bunlar hamısı türk adlarıdır ki, get-gedə xalqımız tərəfindən unudulmaqdadır: Ayxan, Günxan, Taqxan, Dənizxan, Göğxan, Yulduzxan, Turxan (Mümtaz deməkdir), Batırxan, Gümüşxan, Oğuzxan, Laçınxan, Tərlan bəg, Tuğan bəg, Torqud bəg, Uğurlu bəg, Özləq bəg, Qara bəg, Aydın bəg, İldırım bəg, Ağsunqur, Ağca, Ağa, Xanlar, Bəglər, Qaplan, Arslan, Qaqaş, Qızıl Arslan, Qaya bəg, Ağalar, Daşdəmir, Özdəmir, Qılınc, Baysonğur, Adıgözəl, Oruc, Yolbars (şir), Elcan, Qaragöz, Qaraxan, Qutluğ, Yoldaş, Tanrıverdi, Qoşun, Orduxan ilax. Bizim bu gözəllikdə adlarımız ola-ola daha nə vacib olubdur ki, ərəbdən, farsdan ad borc alaq. Doğrudur dördbeş ildən bəridir ki, adlarımıza bir neçə gözəl adlar qarışdırıb yeniligə rəğbət göstərmişik. Amma nə etməli ki, onların özü də ərəb adlarıdır. Bənim əqlim kəsməyir ki, dünyada bir ərəb tapılsın ki, ərəb adını kənara tulluyub və övladına da götürüb türk adı qoysun və yenə inana bilmirəm ki, bir fars şairi öz ana dilində bircə fərd yazmayıb amma türk dilində bir böyük divan bağlasın. Və heç xəyalına gəlmir ki, bir gürcü arifi erməni dilində yazılmış bir əşar oxuyub

başlasın tərif eləməgə ki, bax bizim şairimiz nə gözəl şeir deyib, amma biz belə degilik. Kim bizim üzümüzə xoş baxsa, onun yolunda var-yoxumuzdan keçərik və necə ki bu çağacan da keçmişik. Vaxtdır ki, gözümüzü açıb diqqət ilə ətrafımıza tamaşa eləyək, sellər, yağışlar islada bilmədigi səhraların bəşər qanı ilə bol-bol suvarılıb lehməliginə döndügüni düşünək. Tarixdə "Söhrab"ın "Rüstəm" qabağına çıxarıldığını oxuduqda təəccüb edirik. Amma imdi milyon-milyon rüstəmlərin söhrablar əllərində doğrandıqlarını nəzərə almırıq, tarixlərdə misli görünməmiş olan bu aləmşümul dava söz yox ki, qulluqdan xilas olmaq içün edilir. Analar övladlarından, xanımlar kişilərindən, bacılar qardaşlarından, pullular pullarından, qəhrəmanlar canlarından məhz qulluqdan azad olmaqdan ötrü keçirlər. Biz də bu qulluqdan azad olmaq içün var qüvvəmiz ilə çalışmalıyıq, qulluq bizim izzətü nəfsimizə toxunub qeyri-azad millətlər yanında başıaşağa və xəcalət edir, ağalar ilə yan-yanaşa oturmaq üçün (Ağa) olmalıyıq, yoxsa sədrə göz dikmiyib yenə dəhlizdə boynu burulu durmalıyıq. Vaxtdır ki, qulluq adını rədd eliyib ağalıq eləməgə olan qabiliyyətimizi göstərək. Necə ki, bir fars sairi deyir:

"Naqabil əst anke be mətləb nəmirəsəd
Vər nə zəmanə dər tələb mərd qabil əst".

Aşqabad, 12 fevral 1917-ci il

ƏLİ RAZİ ŞAMÇIZADƏ

(1886-1938)

GƏNCƏDƏN[1]

Bir neçə gün bundan müqəddəm yolum düşdü məscidə. Gördüm məktəbdar axund Məşədi Molla Yusifin məktəbinin qabağında böyük həngamə var. "Qoyma ha... qoyma a... gədə, tut!" – səsi göylərə qalxıbdır. Getdim ki, görəm nə vaqe olubdur. Gördüm ki, axund öz şagirdlərini yığıbdır qabağına, əlində beş girvənkə qərari konfet, hərdən birini, ikisini götürüb tullayır göyə. Çağırır ki, ədə Məhəmmədhəsən, qoyma, bu sənindir, bax əgər özgəsi alsa, daha verməyəcəyəm!

Konfet aşağı gələndə uşaqlar Badkubənin biçarə fəhlələri kimi bir-birinin üstünə tökülür, deyəsən ki, kazaklar qovalayır. Xəbər aldım ki, axund, bu nə qonaqlıqdır? Dedi, şagirdim Həsənqulu Quranı çıxıbdır, onun şirinliyidir. Özü də bir manat aş pulu almışam.

Dedim, cənab axund, altı gün bundan qabaq həmin şagird "Yasin"də deyilmi idi?

Buyurdu ki, həqqi-təlimdən beş manat durur idi, Quranı çıxanda almalı idim, ona görə hər vərəqdən bircə sətir oxutmuşam, bu da kifayətdir.

"Molla Nəsrəddin", 1906, № 15

BİR ARVADIN CAVABI

Hörmətli molla əmi!

Yazıb sizdən təvəqqe edirəm, bizim bu kağızımıza yer verəsiniz. Keçmişdə jurnalınızda hamamdan, tiryəkdən, molladan, falaqqadan, cadu-pitikdən, üzərlikdən, ilandan, qurbağadan və s. belə şeylərdən yazırdınız. İndi, yəqin ki, sözüz qurtarıb. Yapışmışsınız biz arvadların yaxasından. Məsələn, 23-cü nömrənizdə arvadların qaşınmalarından yazırsız. Qaşınmaq nə eyibdir? Adamın bir yeri gicişəndə qaşınar.

[1] "Gəncədən" "Heyvərə" imzası ilə "Molla Nəsrəddin" jurnalında başqa müəlliflərin də yazısına rast gəlmək olar. Gəncədən yazan "Heyvərə" imzası Ə.Razinindir.

Əgər qaşınmaq arvadlara eyibdir, bəs kişilər niyə qaşınırlar? Mollaların qaşınmaq əski peşəsidir. Və Bakı vağzalında dünya görmüş bir müsəlman qardaşın qulağını qurdaladığı və dırnağını təmizlədiyi məgər sənin yadından çıxıbdır? 24-cü nömrənizdə yazırsınız ki, arvadlar pul hesabı bilmirlər. Bunu gərək siz heç yazmaya idiniz. Arvadlar başına nə kül töksün? Hansı məktəbdə arvadlara elmi hesab oxudubsunuz ki, pul hesabı bilsinlər və bir də mən görüb eşitmişəm ki, çox şeylərdə pulu barmaqları ilə hesab edirlər və iyirmiyə iki on, yüzə iki əlli deyirlər.

25-ci nömrədə arvadların saqqız çeynəməyinə lağ edirsiniz, guya müsəlman xanımlarının adı çəkiləndə onların saqqız çeynəməyi yadınıza düşür. Saqqız çeynəməyin nə eybi var? Bəs saqqızı nədən ötrü qayırıblar və saqqız olmasa çərçilər nə ilə alış-veriş elər? Niyə rus xanımlarının smiçkə çırtlamağı eyib deyil, bizim saqqız çeynəməyimiz eyibdir? Və mən çox kişilər görmüşəm ki, arvadları saqqız çeynəyəndə deyir ki, ay arvad, ondan bir az qır mənə də ver.

26-cı nömrədə arvadların başmağına lağ edirsiniz, bəs sən özün molla kişisən, insaf ilə söylə, rus və erməni təkin çəkməni geyib pirə getmək olarmı və o ziyarət qəbul olunarmı? Və bir neçə nömrənizdə müsəlman arvadlarının libasını çəkib başlayırsınız üstünə gülməyə. Məsələn, jurnalınızın 17-ci nömrəsində atlar müsəlman arvadlarını küçədə görüb hürkürlər. Məlumunuz ola ki, o atlar rus atlarıdır. Onlar heç müsəlman arvadları görməyiblər. Hərgah rus xanımlarının libasını və onların at minib, üzü açıq kişilər ilə gəzdiklərini müsəlman şəhərində, məsələn, Təbrizdə, ya Mazandaranda görsələr, yəqin ki, o yerin atları, hətta adamları da onlardan hürküb qaçarlar. Və xülasə, səndən təvəqqe edirəm ki, müsəlman arvadlarının şəklini jurnalınızda çəkməyəsiniz. Çünki rusca bizim təlim alanlarımız o şəkilləri görüb bizdən vəhşilənirlər. Və çox ittifaq olur ki, dönüb rus qızı alırlar. Bu da siz mollalara heç xeyir deyil, çünki kəbin pulu sizin cibinizdən çıxıb keşişlərin cibinə girir.

"Molla Nəsrəddin", 1906, № 28

CƏHRƏÇİ XALAYA CAVAB

Ay arvad, sənə görüm Zənuz pirləri qənim olsun! Səni görüm, qiyamət güni uruz arvadlarınan həşrin qopsun! Səni görüm, bu dünyada mömin adamlara həsrət qalasan. Ay başıdaşlı, sənin üzündə məgər bircə tikə həya yoxdur ki, bir para veyil kişilər kimi götürürsən qəzetlərə kağız yazırsan. Vay-vay, qoyma bağrım çatdadı, mən sənin yerinə utandığımdan az qalıram yerə girəm! Ay başıküllü, necə kişilərdən xəcalət çəkmədin? Məgər bu qədər həyasızlıq olardı ki, sən eylədin? Məgər sən o kağızı yazanda bilmirdin ki, özünü də biabır eləyəcəksən, bizi də? Ay səni görüm əcinnəyə, şeytana rast gələsən, sən müsəlman arvadı ola-ola necə qızarıb-bozarmadan əlinə qələm aldın? Ay səni görüm əlin elə qurusun ki, bozbaş qabına əl uzada bilməyəcən.

Elə yalan sözləri niyə bir-birinin dalına düzüb "Molla Nəsrəddin"in 27-ci nömrəsində yazıbsan? Yazırsan ki, arvadlar pul hesabı edə bilmirlər. Ondan ötrü ki, məktəbdə oxumayıblar. Utan, utan, bir də belə sözləri danışma, yaxşı, bizim Zeynəb bacı da məktəbdə oxumayıb, bə niyə pul hesabı bilir. Keçən həftə ərinin cibinnən iki dənə gümüş pul çıxarmışdı ki, versin məhəbbət duası yazdırsın. Mən soruşdum ki, bu pulların hamısı nə qədərdir? Dedi, biri bir abbasıdır. Bunlar nə bir çətin hesabdı? Yəqin nə məktəb, necə məktəb? Vallah ay qız, sənin əqlin çaşıb, yəni deyirsən ki, müsəlman qızları da urus-erməni qızları kimi məktəbə getsinlər? Necə qeyrətin qəbul eləyir? Bu sözləri danışırsan? Onda bəs müsəlman qızları ilə urus, erməni qızının təfavütü nə olsun? Mən bilirəm axırımız nə günə qalacaq, çünki görürəm ki, bəzi laməzhəb müsəlmanlar istəyirlər qızlarını məktəbə göndərsinlər. Məhz onların bəlasıdır ki, dünyavü aləm bir-birinə dəyib, heç bir fikrinə gətirirsənmi ki, Urusiyyətdə niyə bu qədər nahaq qan tökülür? Niyə Qafqazda erməni-müsəlman davası düşdü! Niyə Şamaxıda zəlzələ oldu? Niyə Tehranda iğtişaş başlandı? Niyə Bakıda müsəlmanlar bir-birini boğurlar? Bilirsinizmi bu işlərin səbəbi nədir? Rəhmətlik anam – Allah ölənlərinizə rəhmət eləsin! – həmişə hamamdan evə qayıdanda, çünki yolu erməni məhəlləsindən düşərdi, mənə deyərdi, ay qız Xanpəri, mən sənə deyirəm, sən də yadında saxla ki, bir vaxt olar, yeri-göyü bəla tutar. Deyərdim, niyə, ana? Cavab verərdi ki, on iki-on üç yaşında ərlik urus,

erməni qızları başıaçıq məktəbdən qayıdırlar. Bunların heç birisi kişidən qaçmırlar.

Mən onda xırda idim. Yaxşı qana bilmirdim. Amma indi başa düşürəm ki, rəhmətlik arvadın sözü doğru imiş. Vay, bizim halımıza!..

"Molla Nəsrəddin", 1906, № 29

XANPƏRİ BACIYA CAVAB

Hörmətli Molla əmi!

Keçən nömrənizin birisində imansız Xanpəri qarğış dilin açıb olmazın sözləri mənim haqqımda demişdir. Nə eləyim, bu orucluq olmaya idi, görərdin onun cavabında nələr söylərdim. Bir yandan oruc-namaz, bir yandan corma-çocuqların küyi, qalmaqalı və gecələrdə cəhrənin dızıltısı məni lap taqətdən salıbdır. Yoxsa indiyə kimi o həyasızın abrını ətəyinə bürüyərdim. Bircə bundan xəbər alasan ki, ay utanmaz, söylə görək, həyasızlığa kim qurşanıbdır ki, bu qədər həyadan danışırsan? Arvad gərək arvadın namusunu çəksin. Səndə heç namus yoxdur. Başındakı yaylıq sənə haram olsun. Mən yamanlıq eləmədim ki, yazdım, Molla əmi, arvadları bu qədər biləyinə dolama. Onların olar-olmaz eyiblərini açıb lağa qoyma. İndi isə razılığın əvəzində başlayırsan mənə qarğış eləməyə. Və arvadların bir para gizlin sirlərin açmağa. Məsələn, deyirsən ki, Zeynəb bacı ərinin cibindən pul oğurlayıb məhəbbət duası yazdırır. Get özün fikir elə, mənim qəzetə əhval yazmağımmı çox eyibdir, yoxsa biz arvadların sirrini açıb kişilərə bildirməkmi? Bir də görünür ki, sən Molla əminin 12-ci nömrəsində çəkilən şəklə heç baxmayıbsan? Bax gör nə çəkilir: Kişi öz gözəl, Allahın əmri ilə aldığı arvadını körpə balası ilə gözüyaşlı qoyub gedib uyubdur urus ləçərinin birisinə. Habelə işlər olanda arvad başına nə daş salsın, ay canı yanmış?! Ürəyi yanan məhəbbət duası da yazdırar, ocağa da qaçar. Allah bir eyləsini sənin qabağına çıxarsın, onda dadını görərsən. Və bir də məhəbbət duası yazdırmaq və kişilərin cibindən pul oğurlamaq, başına cürbəcürə oyunlar gətirmək bizim aramızda olan sirlərdir, bunların hamısını açmağa dursaq, onda kişilərin yanında nə hörmətimiz olar? Məgər sənin rəhmətlik nənən Xanpəri ki, adı sən başı küllüyə qoyulubdur, tutduğu əməllər sənin yadından çıxıbdır? Eşitmə-

yibsən ki, o rəhmətlik Məstəli şaha cadu qurdurub bir dəqiqədə Paris şəhərini necə dağıdıb, altını-üstə çevirdi və biçarə Müsyö Jordanı dəli eləyib çöllərə saldı? Şəhribanı xanım bunu görəndə rəhmətlik nənəm nə dedi: – Xanpəri, Parisin dağılması təəccüb deyil, təəccüb odur ki, kişilər həmişə bizə deyirlər: "Caduya-pitiyə inanmayın". Necə inanmayaq ki, adam öz gözüylə belə işləri görür?! Və rəhmətlik nənəm cavabında dedi: – Eh, xanım, əgər kişilərin əqli var, niyə biz onları hər qədəmdə min yol aldadırıq? Və öz bildiyimizi edirik? İndi biz də gərək sənin böyük nənənin getdiyi yol ilə gedək, yoxsa bir qara pulluq da bizim qiymətimiz olmaz.

"Molla Nəsrəddin", 1906, № 32

GƏNCƏDƏN. TEATR MƏSƏLƏSİ

Ay molla əmi, bu günlərdə başıma bir iş gəlib. Ha istəyirəm yazam, amma qələmi əlimə götürən kimi tək səbir gəlir.

İndi də qələmi götürmüşəm, qorxuram yenə də səbir gələ, de, qoy barı tez yazım qurtarım.

Ay molla əmi, bu teatr dəstgahı Gəncədə baş tutandan bəri mənim işim heç rast gəlmirdi. Görürsən, gah naxoş olurdum, gah alışverişimdə ziyan çəkirdim, gah yuxuda əjdaha görüb belə qorxurdum ki, var-yoxumu verirdim Molla İskəndərquluya dua yazdırırdım. Ha fikirləşirdim ki, belə bəlalara bais nədir? Bilə bilmirdim.

Bir gün teatr cəmiyyəti məndən xahiş etdi ki, bir əba tapım. İrəlilərdə də mən teatr üçün bir para libas tapıb verərdim ki, teatr məclisində geysinlər. Bu dəfə də əbamı vurdum qoltuğuma ki, aparım teatra. Qədim dostum Molla Həmidullah Miyanəli mənə rast gəldi və əbanın əhvalatını soruşdu və mən də cavab verdim. Gördüm dostumun rəngi bozardı və bir qədər mənim üzümə baxıb dərin bir ah çəkdi. Genə bir az mənə baxandan sonra yapışdı əbadan və başladı dartmağa.

Dedim: – Yavaş, qardaş, sözünü de, görüm əbanı niyə dartırsan.

Dostum guya ki, heç mənim sözlərimi eşitmirdi ki, elə əbanı çəkir.

Dedim: – Axı, yekə kişisən, sözünü de, görüm nə istəyirsən?

Molla əbanı boşladı və üzünü məndən çöndərdi ki, getsin və gedəgetdə mənən soruşdu: – Qiyamətdə nə cavab verəcəksən?

Dedim: – Kimə?

Dedi: – Allaha.

Dedim: – Nədən ötrü?

Dostum bir az uzaqlaşıb, çöndü mənə tərəf və əlindəki ağacı göyə qovzayıb başladı: – Ay məlun, sənin kimi laməzhəblər şəriətin belini sındırdılar, belə də xilafi-şər iş olar? Sən məgər bilməyirsənmi ki, həmin əbanı geyib teatr çıxardacaqlar? Xub, xub, inşallah sabah Allahın cəzasına yetişərsən.

Xülasə, əbanı apardım. Haman gecə teatr məclisində əbanı geyib dərviş şəbihi göstərirdilər. Mən də baxırdım. Və dostumun sözləri yadıma düşürdü. Öz-özümə deyirdim: – Pənah Allaha.

Sabah oldu, gördüm ki, gözlərim bərk ağrayır. İndi bu saat elə bərk şiddətlə ağrayır ki, gözlərimi açа bilməyirəm. Bu gün axşam Mirzə Cavad həkimin sözünə baxıb getdim hamama və həcamət qoydurdum. Mənfəətini görmədim. İndi bu sözləri yazmaqdan qəsdim teatr məclislərinə libas verən qardaşlarımı xəbərdar eləməkdir ki, bu işlərin nəticəsi söz yox ki, axirətdə məlum olacaq. Və lakin bu dünyada da həmişə bu cür adamlar növ-növ bədbəxtliklərə düçar olacaqlar.

Hələ bəzi biar adamlar teatrlara övrət libası da aparırlar.

Ay aman, Allah, nə günlərə qaldım?!

"Molla Nəsrəddin", 1906, № 37

CƏNAB MOLLA ƏMİ!

Məlum ola ki, bən də çox millətpərəst adamam. Sənin yaman gününü istəmirəm. Pişəzvəqt səni ayıq eləyirəm, məbadə, məbadə, cindarlara şəkk gətirəsən. Ağzın, ya gözün, ya qulağın əyilər. Mən gördüyümü görmüşəm. Dünən bizim Zalxanın başı ağrayıb yatmışdı. Qonşularım dedilər ki, bunun sümük azarı var. Buna cindar Molla Şəbanqulunu gətirin, bir neçə heykəl yazsın. Müxtəsər gedib mollanı gətirdik. Molla əvvəl bir qədər qəribə-qəribə cinlərin adını oxudu, zəfəran, müşk və soğan suyu ilə dualar yazıb tapşırdı ki, bunun ikisini kasaya salıb qarasını çıxardıb bir sabah, bir axşam içsin və bir neçə dualar da yazıb buyurdu ki, birisini atası çörəkdən əvvəl suyunu çıxardıb içsin, birisini də həmçinin anası. Vəlhasil, molla duanı yazıb tapşırıb gedəndən sonra uşaq deyəsən ayıldı, lap anadan doğma

kimi oldu. Gecə yatıb səhərdən gördük uşaq yaxşıdır. Daha lap arxayın olduq. Belə-belə təcrübələri görüb mən ondan ötəri yazıb səni ayıq etdim, məbadə, şəkk gətirəsən. Yenə bir naxoş uşaq var idi, apardıq "Tısbağa piri"nə, orada mücavir bizdən iki manat on qəpik alıb, bir qədər torpaq kağıza büküb verdi dedi, suya salın, için və uşağa da içirdin. Qərəz, uşaq da içən kimi rahatlıq tapdı. İndi, molla əmi, yazıb xalxəlayiqə məlum edərsən, daha hər kimin azarlısı olsa, doktor, həkim lazım gəlməyəcək. Cindarlar ilə iş eləmək olar, biləsiz.

"Molla Nəsrəddin", 1907, № 15

EŞQ VƏ MƏHƏBBƏT[1]

Bu dünya bir dünyadır ki, bunda yaşayanlardan insan növi, yəni hər bir şəxs öz nəslinin artırılması üçün öz həmcinsindən birisi ilə bir yerdə üns tutub yaşamağa məcburdur. Əgər belə olmasaydı, təbiət ağacı meyvə verməzdi. Belə olan surətdə də insanlar günbəgün fəna halə düşüb, tənazül kökündən bilmərrə kəsilərdi. Nəsil və övlad doğulmadıqda bir zaman cəmi insanlar məhv və nabud olub köklərinin yer üzündən götürülməsi aşkardır.

Xudavəndi-aləm nəslin artmasını fikirdə tutaraq təzvici bir təbii ehtiyac surətinə almışdır. İnsanlarda gördüyümüz meyil və həvəs həmin təbii ehtiyaca məbnidir. Bu meyil, həvəs isə hər iki tərəfin xüsusi zatında olur, bu meyil, həvəs və hiss – təbii hər bir insanda mükəmməl olduqda eşq və məhəbbət nami alır. Buna binaən hükəma və ədəbaların eşq və məhəbbət barəsində həkimanə sözlərindən bəzisini burada yazmağı münasib və faydalı gördüm:

1. Məhəbbət hər şeyə qələbə edər. – Verjil.
2. Bir qadının ən qiymətli sərvəti zövcinin məhəbbətidir. – İstubc.
3. Məhəbbətə düçar olanların ruhi gözlərinin içində rəqs edər. – Oqapyus.
4. Məhəbbət bizə hər şeyi öyrədir. – Plufarq.
5. Məhəbbət bir müəllimdir. Hər kəsin qəlbində olsa, çocuq kimi ona itaət edər. – Ə.Razi.

[1] "Bağbanlar" bura daxil deyil. Bu hesab ümumi metrik dəftərindən götürülübdür.

6. Məhəbbət bir darülülumdur. – Ə.Razi.

7. Sevmək, sevgilinin fikir və zehnini almaq, onun kimi düşünmək, onun gözü ilə görmək, onun qəlbi ilə hiss etmək. Əlhasil – təbiəti təbdil etmək, onun kimi olmaq deməkdir. – Berni.

8. Aşiqin xəyalı məşuqə bir kölgə kimidir, haraya getsə, ardınca gedir. – Ə.Razi.

9. Bir qadın yalnız bir erkəyi məsud etməyə borcludur. – Ə.Razi.

10. Məhəbbət qadınların qəlbində təğənni eyləyən quşdur. – Alfons Qar.

11. Məhəbbət qəlbi – insanda təğənni eləyən quşdur. – Ə.Razi.

12. Bir qadın hər bir şeyini əfv edər, yalnız kəndisini sevməyəni əfv edə bilməz. – Jan Jak Russo.

13. Həyat bir çiçəkdir, bal da onun meyvəsidir. – Viktor Hüqo.

14. Bir erkək görmək ilə, istər bir qadın görmək ilə təslim olursa, hər ikisi xoşbəxt olur. – Ə.Razi.

15. Məhəbbət kimsəyə rəhm etməyən insafsız zalim. – Ə.Razi.

16. Könül məhəbbət qabağında bir uşaqdır. – Sözaisin.

17. Məhəbbət səmai ülviyyətin bir şəhridir. – Rasin.

18. İnsan birisinə məhəbbət verdiyi vaxt zamani – hazir o qədər gözəl görünür ki, sabahı düşünmək mümkün olmaz. – A.Qjon.

19. Məhəbbət hərbdən daha qüvvətlidir. – Düzon.

20. Məhəbbət bir qüvvətli pəhlivandır, hamı onun əlində acizdir. – Ə.Razi.

21. Məhəbbətə düçar olanı məzəmmət etmək bir yaralının yarasına duz tökmək kimidir. – Ə.Razi.

22. Məhəbbət bir sarı illətdir ki, sovlət elədiklərini çılğın bir hala gətirər. – Hamilton.

23. Məhəbbət haradan gəldiyini, nə cür qurtardığını və əsli nə olduğunu bilmədiyimiz bir şeydir. – Madmazel Doskodori.

24. Məhəbbət bir balaca uşaqdır, onun əlindən tutub həmişə gəzdirməlidir. O da özünə rəhbərlik edənin gözlərini çıxarıb rəhbərini və özünü də kor eləyib, qayib olmasına çalışan bir kordur. – B.Lusq.

25. Məhəbbət gözün düşmənidir. İnsanı kor eləyib getdiyi yoldan azdırar və bir qaranlıq quyuya salmağa çalışar. – Ə.Razi.

26. Məhəbbət nə qədər tez tutuşmuş və sürətlə yanmışsa, o dərəcə ömrü az olan bir oddur. – A.Riqar.

27. İnsan 18 yaşında pərəstiş edər, 20 yaşında sevər, 26 yaşında arzu edər, 40-da təfəkkür edər. – Pol Duqoq.

28. Məhəbbət bir oda bənzər, nə qədər gözəl örtülüb basdırılırsa, o qədər gözəl və uzun müddət yaşar. – A.Dususi.

29. Məhəbbət erkəklərin ömri içində bir dəfə hesab olunursa, qadınların bütün ömürlərini təşkil edər. – Madam Dustael.

30. Məhəbbət qəlblərə qapısı açıq evə girən yeldən daha asan girər. – Vidland.

31. Məhəbbət keçmişi və gələcəyi unutdurar. – Madam Dusvinye.

32. Eşq odu yanan kimi insanı da yandırar. – Məsəl.

33. Məhəbbət bir düşməndir. Məxluqatın əksəri ona qurbandır. – Şopenhauer.

34. Məhəbbət bir oddur, lazımdır düşən yeri alovlanmamış söndürmək. – Ə.Razi.

Xülasə, əqvali-həkimanələr ki, eşq və məhəbbət barəsində dinləmişdir təmamən yazmaq arzusunda bulunsaq qaç cild kitab şəklinə girər ki, birər cildi yüz səhifədən ziyadə olar.

Ancaq eşq və məhəbbət barəsində olan əqvali-həkimanəyi mükəmməl bilmək və mütaliə qılmaq arzusunda olan Adolf Reyqarın tərtib etdiyi və doktor A.Mənifin tərcüməsi "Məhəbbət, izdivac, qadınlar" nam kitabı mütaliə qılmalıdır.

Bu halda insaf və vicdan ilə çalışmalıdır ki, eşq və məhəbbət insanı bəxtiyarlığa yetirsin.

Eşq, bir uşaq ana qarnında olarkən onun qəlbində yerləşdirilmiş bir ağır, qiymətli gövhərdir və bəlkə dünya və axirətin xoşbəxtlik mayasıdır.

Eşq və məhəbbət insanın bədənində bir misilsiz hakimdir. Eşq gərçi ruhani olub gözəl asardan isə də, bulunduğu yerdə elektrik kimi bərq dili-şərarələrindən alovlar peyda olmaqdadır, bunun qüvvəti damarlar vasitəsilə bədənin cəmi yerinə sirayət edir. Ancaq o elektrikin qüvvətindən insanın cəmi üzvləri titrəməyə başlar, ah çəkdiyi dəmdə ağzından tüstü şəklində bir buxar havaya qalxar...

İnsan uşaq vaxtında qəlbinin beşiyində yatan eşq, uşaqlıqdan həddi-büluğa yetişərkən oyanır. Bəzi bədəndə əlaməti və nişanəsi tez aşkar olur, bəzi bədənlərdə isə əlaməti və nişanəsi gec bilinir. İnsan xah erkək, xah dişi, ananın qarnından dünyaya gəldikdə, onun qəlbində eşq və məhəbbət, ürəyinin beşiyində südəmər uşaq kimi şirin uyğuya məşğul olar. Uşaq hədd-büluğa çatarkən haman uşaq

uyğudan ayrılıb böyüməgə başlar, guya ki, bu uşaq bir od parçasından törəmiş od parçasıdır. İki cavanın qəlbində oyanan eşq və məhəbbət hərarəti irəlidən bir-birini tanımayan arvad və kişi, yəni – zövc və zövcə guya bir yerdə durmuşlar və çox zamandan bəri bir-birini tanıyırlarmış. Buna bais eşq və məhəbbət odudur. Evlənməkdə ittihad, yəni birlik eşqdir. Hansı evdə bu ip qırılsa, bu evdə xətircəmlik və xoşbəxtliklə rahat yaşamaqdan bir nişanə belə tapılmaz.

Vəsileyi-ittihadi-ailə, yəni bir evdə bir külfətin birlik və xoşbəxtliklə yaşamaqlıq vəsiləsi olan eşq və məhəbbət olmayınca cəhənnəm odunda yaşamaq bundan yaxşıraqdır. Belə cəhənnəm odundan qurtarmaq çarəsi talaq verib ayrılmaqdır. Bundan başqa bir çarə yoxdur, hətta arvadlar arasında məşhur bir söz var ki, "talağımı satın aldım", yainki "mehrim halal, canım azad" deyirlər.

Bizim Qafqaz məmləkətində bəlkə ildə on mindən ziyadə talaq vaqe olur. O cümlədən 1907-ci sənə miladidə bir sənə içərisində Gəncə şəhərində yalnız şəhərdə 79 talaq vaqe olubdur.[1] Bu qədər talağın müqabiləsində 509 nikah cari olunubdur. Deməli, hesaba görə ərə verdiyimiz qızların yüzdə on altısı talağını alır, yainki əri boşuyur.

Buna ümdə səbəb budur ki, hər iki tərəfin bir-birinə eşq və məhəbbəti olmayır. Oğlanın qıza, qızın oğlana meyli, həvəsi olmayıb, bir-birini bir divi-ifritə şəklində görürlər. Şəksizdir ki, bir insan sevmədiyini görmək istəməz və onun ilə bir yerdə yaşaya bilməz. Yaşasa da ömrünün hər bir dəqiqəsində özünü bir cəhənnəm içində əzab çəkən görər. Amma bizim müsəlmanlar, yəni atalarımız – uşaq nədir, eşq-məhəbbət nədir – deyib öz qız balalarını istədiyi şəxsə verib, bir əsarət qurbanı etməkdədirlər. Qız balaları on beş yaşına gəlməmiş başlarından rədd eyləməyə çalışırlar. Və halon ki, qız on beş yaşında özünü yeni tanımış olur, başqasını necə tanıya bilir. Gəncə şəhərində on-on üç yaşında bir məsumə qızı ərə verən çoxdur. Və halon ki, qız özünü hələ tanımamış ər, ev, bala nədir anlayırsa, yenə ömrünün hər bir dəqiqəsini məşəqqətlə keçirtməkdədir. Zavallı qız gedir bir evə. Beş-altı nəfərin içinə ki, hər biri bir xasiyyətdədir. Bilməyir ərin xasiyyətini götürsün, qayınananın, qayınatanın, qaynın, yainki baldızın. Xülasə, hər ağızdan bir söz çıxır. Hər bir nəfərdən bir fərman sadiq olur. Bəxtsiz zavallı bilməyir hansı sözü dinləsin, hansı fərmanə itaət etsin. 13 yaşında elmsiz, tərbiyəsiz bir tifil səğirə beş nəfər insanı dolandıra bilərmi? Qayınana həmişə şikayət edir ki, gəlinim nəyə lazımdır, əkmək, bişirmək, paltar yumaq... bilməyir, ancaq yaxşı yemək-içmək, geymək bilir. Ər: "Nəyə lazımdır bu?.. Libasım vaxtında yuyulmayır, yeməyim vaxtında hazır olmayır, bozartmanı ki, duzsuz eləyir, filan... filan..." Xülasə, hamısının fikri budur ki, 13 yaşında bir zavallı, elmsiz, tərbiyəsiz olduğu halda, hər bir işi görməkdə dərrəcəyə-qüsur və nöqsanı olmasın. Burası yəqindir ki, belə olan surətdə talaq məsələsi meydana girir. Zavallı qız ağır yükləri götürməkdən bir az çəkmir ki, qönçə kimi dodaqları ağarıb, gül kimi üzü saralır. Gözləri çuxura düşüb, bədən günbəgün saralıb-solur, incəlib zəifləşir. Belə olan surətdə həmin zavallının anası övladını bu halda görcək sorar: "Qızım sənə nə olmuş, söylə, zəifləşmisən?"

Qız: "Anacığım, evimizin ağır yüklərinə təhəmmül edə bilmirəm. Ana, dürlü-dürlü əzab içində yaşayıram. Məni vururlar, söyürlər, incidirlər. Ana, məni öz əllərinizlə cəhənnəmə saldınız."

Qızın sözlərinə ana tab gətirə bilməyib axirü-ələmdarda bir ədavət aşkar olur. Yenə talaq məsələsi düşür ortaya. Yainki, niza vaqe olub, cinayət sadiq olur. Bundan əlavə, oğlan qızı, qız oğlanı sevmədiyi halda hər iki tərəf bir bədbəxtliyə, bir böyük bəlaya düçar olurlar ki, yüzdə biri canını xilas edə bilməyib, qara torpaqların qucağında kamali-istirahət ilə yatmağa məcbur olur.

Xülasə, bunlardan vaz keçirik. Mətləbdən uzaq olmamaq üçün fövqdə nağıl etdiklərim, cümləsi mükəmməl surətdə hekayələrimdə ərz ediləcəkdir. Ancaq bu kitabçada eşq və məhəbbət barəsində söyləməkdən başqa bir şeyi söyləyə bilməriz. Gələlim mətləbə: bir xanım qızın yaşı çoxalıb həddi-büluq vaxtını keçirdikdə neçə illərdən bəri qəlbinin beşiyində olan od parçası dediyimiz eşq şərarisi oynayır. Fəqət qəlbindəki eşq odunun şərarəsi alovlanıb yandıqca, tüstüsü bir ah olub ağzından çıxdıqca qüdrəti olmaz özünü toxdatmağa. Buna binaən anası qızına böylə nəsihət edir: – Qızım, bundan sonra sən gərək gizlənəsən. Oğlanlara, kişilərə özünü göstərməyəsən. Sən bir adamın malısan. O adamın səndə bir əmanəti var. Əmanətə xəyanət olmaz. Gərək bu əmanəti ismət və ülfət sandığında ehtiram ilə pak-pakizə saxlayasan. Evində anan ilə çalış, romanları oxuma. Eşq və məhəbbətə dair yazılan kitabçaları oxuma. Eşq və məhəbbət barəsində yazılmış şeir və qəzəllərdən izhari-nifrət et. Onları görməkdən gözlərini yum, dinləməkdən qulaqlarına yumruq tut.

[1] Bu əhvalat "Talaq" nam hekayədə tamamən nəql olunur.

Əlbəttə, anaların belə nəsihətləri və qadağanları dinləməyə ixtiyarı vardır. Analar övlada nasch olmağa məcburdur.[1] Lakin gözü Tanrıdan başqa bir kimsə yuma bilməz. Analar öz övladlarını kor etməyə çalışarlarsa da acizdirlər. Hətta bəzi analar da var ki, qızları elmsiz, tərbiyəsiz olduğu halda, qızlarını qonşuya getməyi, yanından uzaqlaşmasını hökm edirsə, müvəffəq olmurlar. Çünki göz nə qədər yumulu olsa da, bir dəfə açılacaq bir muncuq misalında didə bu böyüklükdə dünyanı görməyə qadir olur. Əvət, biçarə qızın qəlbindəki hərarəti-eşq günbəgün artıb bir davasız və acı dərdə düçar edir.

Zavallı, biçarə qızın həyasından və ismətindən məlakə üzünə bənzər üzü qıpqırmızı qızarır. Özü-özündən xəbəri olmayaraq, pərdəli yetişir, bu biçarəni qəlbində olan naxoşluqdan ancaq izdivac qurtarır. Yəni öz sevdiyinə qovuşdurmaq, çünki erkəklərdə olan eşq qızlarda olan kimi pərdədə qalmaz. Tez aşkar olar.

Arvadların diriliyi üç qisimdir... birisi uşaq vaxtı – qəlbində eşq yatan zaman, ikincisi eşqi yuxudan ayılan vaxt – cavanlıq zamanı, üçüncüsü – eşq mayəsinin bir başqa tövr ilə cilvələnib zahir olan vaxtı (kəmalə yetişmək zamanı), lakin bu son zamanda olan şeylərə tərəf çəkir. Bu üç dövr və zaman hər arvadda vardır.

Eşq insanlarda günbəgün artar. Eşqin insana olan təsiri nə qədər aqil insanda olsa, onun cəmi ixtiyarını əlindən alıb divanə edər, ancaq bir insanda hərarət eşqi aşkar olan kimi lazımdır dərhal evləndirmək, könlü sevdiyini ona təzvic etmək. Evlənmək əmri təbiət ilə və dini-məzhəbcə bir diri yaşamaqlıq suyudur. Hər iki tərəf bu sudan içdikdə hərarəti-eşq sönər. Təzədən bir dirilik taparlar. Hərarəti-eşqi heç bir şey söndürməz, məgər evlənmək suyu.

Ancaq burasını da söyləmək gərəkdir ki, zəmanəmizcə oğul və qızı evləndirməkdə çox xatalarımız olur. Şəraitimizcə və ümumi hükəma və ədəbaların rəyincə oğlan və qız hətta həddi-büluğa yetişəndən sonra bir-birini sevməsələr, bir-birinə meyil və məhəbbət etməsələr, onlara əqli-nikah cari etmək böyük qəbahətdir. Gərək oğlan və qız kəmalınca kəbir ola. Yəni fövqidə zikr etdiyimiz ikinci dövrdə ola (21-22 yaşında bir-birlərini kəmalincə sevib, eşq və məhəbbətlərini yekdigərə elan edələr və bir-birlərinin əxlaq əhvalatından xəbərdar olalar). Sonra onların şəriətə müraciət edib əqli-nikahları olmasını istinad edələr. Şəriət isə onların iqrarınca əqli-nikahı cari edib, hər iki həsrət çəkəni bir-birinə qovuşdurar.

Əfsus, səd-əfsus ki, bu gözəl hökmü və kari-möhsənəni unudub, bir pis adət icad etdik ki, bu cürə adəti-qəbihə bəyənmədiyimiz büdpərəstlərdə də yoxdur. Məsələn, atalarımız, analarımız canlarından əziz sevdikləri övladlarına bir qan içən cəlladdan betər görsənirlər. Oğlanlarımızın əksəri həyadan, məzəmmətdən, töhmətdən və qorxudan ürəklərində olan dərdlərini açmağa qadir deyillər. Böyüklərə itaət vacibdir. Məsələnin fəhəvasınca eşq və məhəbbətlərini bədəndə və arzularını qəlbdə gizli saxlayıb, ancaq kəndilərinə belə təsəllilərdən verib, min əzab və möhnət içində yaşarlar. Nə eyləməli, çox da mənim könlüm filan qızı sevir, insan dünyada çox şeyi arzu edir, lakin müvəffəq ola bilmir...

Bir ata öz oğlunu evləndirmək istədikdə oğlunun razılığına baxmayıb və eşq məhəbbətdən xəbərdar olmayıb, öz kefincə hər kimin qızını istəsə alır. Oğlu narazılıq izhar edərsə, ona aqvalideyn deyib hər bir yerdə töhmətləndirir. Qızlarımız isə bətni-madərdən düşdükdə ata və analarını bir cəllad libasında görüb, onlardan bir səs çıxdıqda ağarıb, əfil-əfil əsirlər. Biçarə qızlarımız kəbir də olsalar və səğir də olsalar ata və analarına iki qəpik, bir para misalında olurlar. Ata-analarımız isə qızlarının razılıqlarını nəzərdən uzaq tutub, öz xahişlərinə görə haraya istəsələr xərc edirlər. İçimizdə ən bəxtsiz və məzlum olanlar və zillət ilə yaşayanlar qızlarımız və arvadlarımızdır. Bunların hər bir hüquq və ixtiyarlarını qəsb eləyib heyvanatdan da alçaq tuturuq. Həmişə sirləri, fikirləri ürəkdə, mətləbləri, arzuları könüllərində, dərdləri gizlin pərdədə, sözləri ağızlarında qalır. Dilləri bağlı, hər bir elmdən, maarifdən, tərbiyədən uzaq olurlar.

Ata evində, ata-ana və qardaşa, ər evində ərə, qayına, baldıza, qayınataya, qayınanaya əsiri-müqəyyət olurlar. Heyvanatdan da zəlil yaşayırlar. Dəftəri-ümumi hesabına görə Qafqazda arvad və qız oğlan və kişilərdən az yaşayıb çox vəfat edirlər. Sübut üçün metrik və ümumi dəftərlərinə müraciət etməlidir. O cümlədən 1907-ci sənə miladidə bir sənədə Gəncə şəhərində 168 nəfər arvad və qız vəfat edibdir. Ancaq kişi öz əcəli ilə 112 nəfərdir[1]. Burada məlum olur ki, vəfatda arvad kişidən 56 nəfər artıqdır. Bundan əlavə adətlərimizin ən böyük qəbihi bir cavana və 13-14 yaşında qızı 40-

[1] Hərçənd bu nəsihətlər oxumuş qıza deyilir, lakin oxumamış qızlara da çox deyilir. Məsələn, roman əvəzinə eşq və məhəbbətə dair söylənilən nağılları dinləmək.

[1] Xəncər və güllə yarasına – yəni öz dindaşlarının bəd cəbbaranəsilə ölən kişilər birə yüz doqquz nəfərdir (hesaba görə Əzraildən artıq... *Müəllifin qeydi*).

50, 60 yaşında bir qoca kişiyə verməyimizdir. Bu qəbil adətimizə çox qız balalar qurban olmaqdadır. Osmanlı təbiblərindən ədibi-şəhir doktor Hüseyn Rəmz bəy "Eşq və izdivac" adlı risaləsində yazır: Bir gün məni bir xəstəyə baxmağa apardılar. Xəstənin xanəsinə gedib, otağına girdiyim zaman xəstənin dəmir çarpayı üzərində gözəl, qayət təmiz və pak ipək yorğan-döşək içində gördüm. Bu xəstə 20-22 yaşında, Allah-təalanın yaratdığı gözəllərdən ən birincisi olduğunu gördüm. Gözəllikdə və nöqsansızlıqda misli olmayan bu xanım zinətli libas içində idi. Həmin xəstənin naxoşluğuna baxdıqda nə gördüm. Ağ ciyərləri fəna və həlakə üz tutmuş. Bu nazik bədən tezliklə həlak, torpağın içinə girəcək, o nərgiz kimi gözlər, o bədirlənmiş ay kimi üz, o sərv kimi qamət qara torpaqlar altında pozulub xak ilə yeksan olacaq!..

Bu xəstənin arzusu könlündə qalmağı, təzədən, dübarə dünyadan kam almayıb qəbir evinə gəlin getməyi mənə yəqin oldu. "Təbibin olsa da kəz bimərizin səhhətin sevir" föhüsaqınca təsəlli verib lazım olan davaları yazıb evimə qayıtdım. Necə gün bu minval ilə xidmət oldunsa da, getdim, gəldimsə də xəstəyə yaxşılıq üz vermədi. Daha da naxoşluğu günü-gündən şiddət etdi. Yazdığım davalardan bir mənfəət hasil olmadı. Yenə bir gün xəstənin yanına getmişdim, bir də baxdım gördüm ki, bu binava zavallı gəlin ölüm mənzilinə yaxınlaşıb bir-iki saata kimi ölər. Zavallı bu halı özü də anlamışdı. Bu halda məni yanına çağırıb ürəyində neçə zamanlarla saxladığı gizlin sirrini işarə edib dedi:

– Ay doktor bəy!.. Sizi çox yordum, zəhmət çəkib neçə gün buraya gəlib-getdiniz. Təşəkkürlər edirəm, çox razıyam sizdən, lakin mənim dərdimin dərmanı olmadığını mən çoxdan bilmişdim. Mən atamın alış-verişinin rəvacı uğrunda qurban oldum! Mənim əhvalatımı, macəramı bilmədiyiniz halda mənə acıdığınızı görürəm.

Doktor bəy! Cavanlıqda kim özünə ölüm istər?! Mən də qeyri cavanlar kimi gülmək, oynamaq, bir çox zaman yaşamaq istərdim. Ürəyimdə dürlü-dürlü arzular, mətləblər, diləklər məni bu dünyaya bənd etmişdi. Bu qədər xəstə olduğum halda yenə ölməyimə güman etmirdim. Fəqət bu günlərdə halım başqalaşdı. Hər nə qədər məzarım mənə həmişəlik bir gəlin otağı olacaqsa da, yenə gözüm bu dərdli, bu qəmli dünyada qalır. Doktor, neçə müddət mənə baxıb bir əlac etmək üçün buraya gəlib-getdinizsə də, nə tövri oldusa da mənim ərimi görə bilmədiniz...

Əgər mənim ərimi görəydiniz atam hansı olduğunu bilməzdiniz. Onu mənə ata, yainki qayınata hesab edirdiniz?

Bilirmisiniz, izdivacın riştеyi-ittihadı eşq və məhəbbətdir. Eşq və məhəbbət maya kimidir... artdıqca artar, izdivacın qədrini artırar. Hansı könüldə eşq və məhəbbətdən əsər olmasa, o könüldə həmişəlik nifrət hasil olar. Atam mənə zülmi-qədr etdisə də, mən onu bağışlayıram. Atam diriliyimə səbəb olmuşdu. Məni öz nəfəsinə fəda etməkdə ixtiyarı var idi. Mən də onu haqq ilə icra edirəm. Doktor, sizi belə matəmli və ağlar sözləri ilə müəssir eyləyirəm, məni əfv buyurasınız! Burasını düşünün ki, yaşamağımın son dəqiqəsi olan bir halda belə Kəbə ehtiramlı atam yanında bulunmayıb, nə də yaşamaq vaxtımın nuru olmağı lazım gələn ərim yanımda bulunmayıb? Hər ikisi məni bu ölüm yorğan-döşəyinə atıb öz işlərilə məşğuldurlar. Zahirdə yad, fəqət batində, məhrəm olan siz həkimdən başqa mənə indi bir kəs həmhal ola bilmir. Bu da bəxtsizliyimizin meyvəsidir. Doktor, mənim dərdim eşq və məhəbbət dərdidir! Bu da bir cür çarəsiz dərddir. Allah səndən razı olsun, daha zəhmət çəkmə. Bir-iki saat keçər ki, ölərəm! – dedi.

Biçarə xəstə bu can yandıran sözləri dedikdə məni ağlamaq tutdu. Gözümdən damcı-damcı yaş töküldü. Xülasə, oradan genə evimə qayıtdım. Dörd saat qədəri keçdi ki, eşitdim biçarə vəfat eləyibdir. Bu qızcığazın düşməni-həyatı olan vərəm dərdinin səbəbini ata-anası nə qədər fikirləşdilərsə də bilmədilər. Fikirləşə-fikirləşə özləri də vərəm naxoşluğuna düçar oldular. İki ay çəkmədi ki, qızın anası vəfat etdi. Zavallı qızcığazın atası da anasını təqib etdi. Bundan əlavə gözümlə gördüyüm əhvalatdan birisi də budur ki, bir gün rüfəqalarımdan birisini məhzun gördüm. Məhzunluğunun səbəbini soruşduqda bir gözəl qızı sevməsini söylədi. İlaxır.

Bir müddət keçmişdi ki, rəfiqimin evlənmək xəbərini eşitdim. Rəfiqim ilə görüşüb onu təbrik etdikdə bir ah çəkib gözü yaşarmış yerə baxdı. Dedim:

– Rəfiq, niyə bu hala düşdün?

– Ay rəfiq! Sevdiyim qızı bir başqasına tözvic etdilər. Məni də sevmədiyim və görmədiyim bir başqa qıza zövc etdilər. Mən isə buna təsəlli verib, görüşüb ayrıldım. Qaç müddət keçmişdi ki, rəfiqimin mehmanxanada şərabxorluğa və zinayə mürtəkib olmasını eşitdim və görüşüb ona nəsihət və məzəmmət etdikdə belə cavab verdi:

– Ah, rəfiq! Sevdiyim qız dörd ayın gəlini oldu. Vəfat etdi. Sevmədiyim zövcəmi bir dəqiqə belə görmək istəmirəm. Bir tərəfdən sevdiyimin qəmi-hicranı, bir tərəfdən də sevmədiyim zövcəmin qəmi məni məhsur etmiş, fikir, xəyalat məni dürlü-dürlü mərəzlərə düçar etməkdədir. Buna binaən şərabxorluğu özümə adət etmişəm. Fikir, xəyalatdan uzaq olmaq üçün məst olduqda da zinayə mürtəkib oluram. Xülasə, bədənimdə və qəlbimdə dərdi-qəm və hərarəti eşq şiddətdilər.

Bır qaç gün də keçmişdi ki, rəfiqim həbsxananı teleqraf gətirdi.

Mən isə bunun bu sözlərinə mütəhəyyir olub yenə təsəlli verib, nəsihət etdim. Qaç gündən sonra rəfiqimin məstlik halında bir nəfər rəfiqini tapança ilə vurub öldürməsini eşitdim. Rəfiqimi də həbs etdilər. Bir qaç gün də keçmişdi ki, rəfiqim həbsxanada vəfat etdi. İndi diqqət edin, görün hər ildə bizdən neçə yüzlərcə əziz balalar bu pis adətlərimizə qurban olurlar. Eşq və məhəbbət bir böyük bəla olmağı şübhəsizdir.

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

(1887-1943)

ƏCƏMİLİK MÖHÜRÜ VƏ ONUNLA MÜBARİZƏ

Azərbaycan türklərinin həyatına ətraflıca nəzər yetirib, bu həyatı qeyri-türklərin, məsələn, əvvəlki hallarında qalmış türkmənlərin dolanışığı ilə müqayisə etsək, bu iki tarixə yavuq qövmin arasında böyük bir təfavüt görərik. Bu təfavüt bundan irəli gəlmir ki, biz türkmənlərə münasib mədəni bir tayfayıq – özümüzə məxsus ədəbi dilimiz, ədəbiyyat və musiqimiz mövcuddur: maarif yolunda da onlardan çox-çox irəli gedib məktəb, mətbuat və bir xeyli də mükəmməl təhsil görmüş alimlər yetirmişik. Əsil məsələ bunlardan ibarət deyil, söz ondadır ki, bizim tərzi-həyatımıza, adət və ayinlərimizə bir xeyli türklüyə yabançı əməllər qarışıb, möhkəm mövqelər məşğul ediblər. Bu amillər də, əlbəttə, tarixi səbəblərdən irəli gəlir. İran hökmranlığının, əcəm mədəniyyətinin nəticəsi olub. Hansı tərəfdən həyatımıza nəzər yetirsək, adət və ayinlərimizə, milli mədəniyyət məhsullarımıza İranın qoyduğu fəna izlərə rast gələrik. Hər yeni iş (mədəniyyət ya qeyri-mədəniyyət nəticəsi) şəhərlərdə əvvəl baş verdiyinə görə əcəmlik möhürü də kəndlərimizə artıq təsir edə bilməyib şəhərlərimizdə dövran sürməkdədir. Məsələn, arvadların qapanmağını götürək. Çarşab ("çadışəb" fars sözüdür) gəzdirmək türkmən elində adət olmayan kimi, bizim kəndlərimizdə də və Anadolu köylərində də adət deyil. Şəhərlərimizdə də İran mədəniyyətinin dövlətindən şədid bir halda yaşamaqdadır. Və hansı möhürlərdə ki əcəmlik təsiri daha da artıqdır, orada çarşab ilə kifayətlənməyib rübənd də (fars sözüdür) gəzdirirlər. Kəndli türk arvadının açıq gəzməyi, "çadırşəb" və "rübəndin" fars kəlmələri olmağı açıqca isbat edir ki, türklərdə belə adət yox imiş...

Tərbiyəmizə gəldikdə burada da haman təsirə rast gəlirik. Uşağı çağıranda gərək "bəli" desin. "Hay" desə, onu ədəbsiz sanarlar. Deməli, türkün hayı, İranın... "bəli"sindən alçaq tutulur.

Köhnə məktəblərdə uşaq öz dilində oxuyub yazmır – kitablar və yazılar fars dilində olur. Təbiidir ki, bu məktəblərdən çıxanlar özləri ilə həmişə bir farslıq daşıyırlar. Bunun üçün də şairlərimiz əsərlərini fars dilində yazır, fars hərflərini təqlid edirlər və cəmiy-

yətimizin adi üzvləri də məktub, sənəd, ticarətə dair hesablar və qeyri şeylər yazdıqda yenə fars dilinə müraciət edirlər. Qəribə burasıdır ki, iki türk bir-biri ilə öz dillərində danışdıqları halda, bir-birinə kağız yazdıqda fars dilində yazırlar. Cənab Nəvvab türk şairlərinin tərcümeyi-hallarını farsca yazır, türk oxucularına təqdim edir. Halbuki cənab Nəvvab türk dilini bilir və bu dildə şeirlər də yazıb.

Ədəbi qaydaları da farsdan götürmüşük. Şair gərək şeirlərini məhdud bir dairəyə salsın. Qafiyələrin qurtaracağı "əlif" olsun. Sonra v, t və i.a. Bundan əlavə qeyri-təbii eşqi mədh edib əxlaqı pozğun fikirlər nəşr etmək də əcəmlərdən qalıb. Badəni və uşağı tərif edən ədəblərin də izincə camaat gedib. Qeyri-təbii məhəbbət türk icadı deyil, çünki türk ünsürü təkə, qırğız və tatarlar arasında buna rast gəlmirik. Bu murdar adət qədim yunan və Roma dövlətlərindən Bizansa, oradan da İrana keçib. Sonralar İranın ədəbiyyatı ilə də Türküstana və Azərbaycana sirayət edib. Arvadların qapalı olmaqları bu adətə əlverişli bir zəmin hazırladıqlarından indi də camaatımız bu fənalıqdan xilas ola bilmir.

Türküstan qövmlərinin ruhani həyatını nəzərə aldıqda onların qeyri dindar olduqlarını bilirik. Qırğızlar müsəlman adını daşıdıqda dinə əsla möhtac deyillər. Türkmən obalarını dolandıqda məscidə rast gəlməzsən. Təkə nişanlarının (müsəlmanlarının) özlərinə məxsus libasları olmaz. Camaat geyinən çapandan geyib başlarında da dəri papaqları olar. Mollaya müqəddəs bir nəzər ilə baxıb onları uca mərtəbələrə mindirən müridbazlıq ömürlərini boş-boş dini mübahisə, cənnət və cəhənnəm məsələsi ilə keçirmək – türkmən arasında adət deyil. Bu sağlam qövmlər dünya ilə məşğuldur. Bunların qayələri – şücaətli ömür sürüb şan və şərəfə malik olmaqdır. Uzaq Şərqdən gəlib Qafqaz, Anadolu və Balkan dağlarını aşıb macarlara tərəf üz qoymaqlıq da türklərin şücaətpərvərliklərindən və müzəffəriyyət aşiqi olmaqlarından irəli gəlir. Azərbaycan türklərində bu əsil türkə mənsub nişanələr qalmamağına səbəb yenə İran hökmranlığının mənhus nəticəsi olan riyakar xəlifəsidir ki, başımıza çəkib cənnətə yol axtarırıq. Özümüzün də əqidəmiz budur ki, bizdən pak, doğruçu millət dünyada yoxdur. Bizdən savayı hamı murdardır, dünya da "darfənadır". Bundan başqa, bir darbəza da vardır ki, gərək ora üçün çalışasan. Bu da əcəmlərdən iqtibas olunan bizim fəlsəfəmizdir. Bu fəlsəfə sayəsində murdarları darfənaya verib özümüz gözümüzü darbəzayə dikmişik. Ümidimiz də budur ki, hər mömin qardaşa darbəzada bir neçə gözəl huri verəcəklər, əbədi ləzzətə nail olacağıq.

Məzhəbbazlıq, dərviş, duaçı, falçı, seyid və mərsiyəxan kimi ixtira və icadlar da İran həyat əqliyyə məhsulları olub oradan bizlərə töhfə olub.

Yuxarıda söylənəndən məlum oldu ki, əcəmin pozğun mədəniyyəti Azərbaycan türk həyatına bir elə ağır möhür basıb ki, indi də onun nüfuzundan xilas ola bilmirik. Heyif ki, bu nüfuz ilə mübarizə etməyə hələ bizdə qüvvə yoxdur. Zənnimcə, onda mübarizəyə müqənnid ola bilərik ki, aşağıda bəyan olan fikirlər qüvvədən felə keçə. Fikirlərim səkkiz fəsildən ibarətdir:

1. Gərək bizim bir cəmiyyətimiz olsun ki, dilimizi farslıqdan xilas eləsin. Bu da onda mümkündür ki, cəmiyyəti fəal və kamil amillər təşkil edələr. Və hər müəllif kitabını çapa verməzdən qabaq cəmiyyətə göstərib qüsurlarını düzəltdirə. Beləliklə də, ədəbiyyatımızın iki axıntıdan da uzaq olub, osmanlı və ərəb dillərinin nüfuzu altına düşməz. Bir də ədəbiyyatımız ədəbsiz kəlmələrdən və qeyri qüsurlardan xilas olar.

2. Gərək müstəid və geniş məlumatlı münəqqidlərimiz ola, qələmləri qüvvəsi ilə dil və ədəbiyyatımızı düz yola çıxardalar. Ədəbi dil el ədəbiyyatından götürülməlidir. Bunun ilə ehtiyaclar dəf olmasa, fars və ərəb sözlərinə əl atmaq olar. Ədəbiyyat ayıq bir məsələni təqib etməlidir. Həqiqətnəvisliyə artıq meydan verməlidir, şeiri nəzmdən uca tutmalıdır. Çünki nəzm qafiyənin düzlüyü üçün fars və ərəb kəlmələri ilə şu istemal edir. O söz ki, türkdə var, onun əvəzinə qeyri söz yazmaq, danışıqda işlətmək, əlbəttə, böyük xətadır. Məsələn, "su" ola-ola "ab" və ya "qan" əvəzinə "xun" demək kimi. Şeirnəvislikdə də ki, belə xətalardan çəkinmək mümkün deyil. Amma şeir ilə yazan qafiyə düzlüyünə möhtac olmayıb həmişə "arvad" əvəzinə "zən" və ya "qadın" kimi xətalardan əsərini uzaq saxlaya bilər.

El ədəbiyyatını toplamaq dilimizə artıq genişlik verəcək. Bu nöqteyi-nəzərdən Firidun bəy Köçərli həzrətlərinin "Azərbaycan türklərinin ədəbiyyatı" sərlövhəli kitabı ziqiymət bir əsərdir. Köçərlinin "Balalara hədiyyə"si və Mirzə Məhəmməd Axundovun "Məclis yaraşığı" da bu yolda böyük xidmətlər edirlər.

3. Milli musiqimiz türkləşməlidir. Bunun ilə həm farsa qalib gələrik, həm də türk mədəniyyətini ləzzətli bir mövqeyə gətirərik ki, hamı məhəbbət və rəğbət göstərib ona yavuqlaşar. Məsələn,

Üzeyir bəy Hacıbəyov cənablarının operaları bizim aramızda kəsbi-şöhrət edən kimi, türkmən və onlara qonşu – kürdlərin arasında parçaları ağızlarda oxunmaqdadır. Bir kürd uşağının "Söylə bir görüm ey ərəb" oxumağı türklüyün müvəffəqiyyəti deməkdir.

4. Qızlarımızı mükəmməl surətdə oxutmalıdır. Onları hüquqsuzluq təzyiqindən qurtarmalıdır. Arvad elmli və əri ilə müsavi olsa milli ruhlu və tərbiyəli övladlar yetirər. Təbiidir ki, belə uşaqlar gələcəkdə öz tərbiyələri sayəsində nə farslığın və nə qeyri millətlərin nüfuzu altına düşməyib öz milli yolu ilə milli qayələrə (ideala) doğru gedər.

5. Türk məktəblərinin sayını artırmalıdır. Onların içində ruhani sinfi yetirmək üçün ədadi və ali məktəbi bina etməlidir ki, oradan kamil mollalar çıxıb biçarə camaatımızı İrandan gələn əcəm ətvarlı mollanümalardan və mərsiyəxanlardan xilas etsinlər.

6. Bizi farsların nüfuzu altına salanlardan biri də fars ədəbiyyatıdır. Lazımdır farsların Firdovsi, Sədi Hafiz kimi dahilərini Azərbaycan türkcəsinə tərcümə etməklə tahı fars dilində onları oxumağa ehtiyac olmasın. Tərcümə, əlbəttə, "dəhri-həqai" kimi olmamalı, tərcümənin birinci şərti düzgünlük və sadəlikdir. Tərcümə nəsrdə olunsa bu iki şərtlər də lazımınca yerinə yetirilir.

7. Firdovsi və Sədilərin öz millətlərini nəşr etməkdə müvəffəqiyyətlərini gördükdə bizə də çalışıb dahilər yetirmək lazım gəlir. Bunların vasitəsi ilə həm özgələrin mənəvi... (söz oxunmadı. Ehtimal ki, "təsirindən" olmalıdır) qurtararıq, həm də öz nüfuzumuzu qonşularımız arasında artırarıq.

8. Azərbaycan türklərinin tarixini sadə bir dildə yazdırıb nəşr etməlidir ki, camaat özünün türk olmağını bilsin. Keçmişini öyrənsin və milli vəzifələrini düşünüb gələcək üçün çarələr arasın. Yoxsa hər kəsdən soruşursan: "Sən kimsən?" Deyir: "Müsəlman". Tahı bunu bilmirlər ki, dinimiz müsəlman dinidir, millətimizsə türk millətidir.

Rəy və fikirlərimi bildirdim. Bəlkə möhtərəm oxucular bu yolda bir qeyri də vasitə göstərəcək! – Razıyam! Ancaq hamımızın fikri bu olsun ki, əcəm hökmranlığından qalma fəna "yadigar"ları özümüzdən uzaqlaşdıraq.

1913

DİL MƏSƏLƏSİ

Dil barəsində arabir yazılır. Hərə ortalığa bir fikir atır, yenə məsələ əvvəlki dairəsində qalır. Camaatımızın anlamadığı, başa düşmədiyi bir dildə yazanların sayı gün-gündən artır. Bircə bunu bilməli ki, bu yazıçıların qəliz ibarələr işlətməkdə fikirləri nədir? Bu məsələ məni artıq dərəcədə həvəsləndirir. Çünki camaatımızın gələcəyi üçün bu da lazımlı və həlli vacib işlərdən biridir. Buna görə qələm sahiblərinə rast gəldikdə bu məsələ barəsində söhbət açıram, rəylərini bilmək istəyirəm. Belə söhbətlərin nəticəsi olaraq düşünürsən ki, qəliz ibarə işlədənlərin və osmanlı dili ilə yazanların çoxusu əqidə və məsləklə iş görmürlər. Məhz "belə yazıblar, yazırlar, biz də onlara baxıb yazırıq" demək xahişindədirlər. Bir çoxları "türk dilini birləşdirmək" istəyirlər. Buna görə də osmanlı dilini ümumi bir dil sayırlar və bu dildə də kitablar, qəzetlər və jurnallar yazıb Azərbaycan türklərinə verirlər. Halbuki bunların özlərinə məxsus gözəl, asan və möhkəm dilləri var.

Dilin birliyi üç-dörd adamın bir dildə yazmağı ilə olmaz: dil gərək işlənsin, mürurla gəlib birləşsin. Dil qayırmaq zəiflik sevməz, zor gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qolqanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsil dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır. Qələm sahiblərimiz buralara yönəlib bunları öz dilləri ilə danışdırıb yol göstərməkdənsə, özləri düz yoldan çıxıb, camaatı da avara qoymaq istəyirlər. Hərgah yazıçılıq etməkdən məqsəd fars və ərəb sözləri işlədib bilik satmaq isə, bu ayrı bir məsələdir. Yoxsa camaatın mənfəəti də mülahizə olunursa, gərək o camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub, bundan bir hissə götürsün.

Gərək yaddan çıxmasın ki, Azərbaycanda neçə milyon adam var və onların çoxu geridə qalıblar. Bu səbəbdən də gün-gündən əsir olub, əcnəbilərin ayağının altına düşürlər. Torpaqları, əkin yerləri əllərindən çıxır, ticarət gedir, sənətdən xəbərləri yox, milliyyət və tərəqqi nə olduğunu bilmirlər...

Bu camaatı qaranlıqdan çıxartmağa ən əvvəl dil lazımdır ki, deyəsən: "Ay qardaş, uşaqlarını məktəbə qoy, əkin yerlərini satma, gözü açıq ol..." Bunları hansı dillə danışdırmalı ki, başa düssün? Əlbəttə, camaatın öz dili ilə, Azərbaycan türkcəsində. Osmanlı dilini bunlar bilməzlər.

Belə olan surətdə qəzet və jurnallarımızı osmanlı dili ilə doldurmaq camaata yol göstərmək olmayıb, onu yoldan çıxartmaq deməkdir. "Necə" sözü əvəzində "nasıl", "arvad" əvəzində "qadın", "ata" yerinə "baba" və ya "pədər" yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirməkdən savayı bir şeyə yaramır.

Yaxşı olardı yazıçılarımız ata-baba dilimizə qayıda idilər. Onda mətbuatımız bir ovuc savadlının malı olmayıb, ümumin, yəni azsavadlıların və heç savadı olmayanların da mənfəətinə qulluq edərdi.

1914

QULLUQ VƏ ƏSRLİK

"Böyük dura-dura kiçik danışmaz" – bu bizim ev tərbiyəsinin əməl əsasıdır. Bunun nəticəsi nə olur, məlumdur. Gözü açıq, hər şeyi bilmək istəyən uşaqlar böyüklərin rəyasətlərinin qabağında susub, ixtiyarsız bir qul halına gəlirlər. Belə tərbiyə ilə böyümüş uşaqlar özbaşına bir iş görməyə qadir ola bilmirlər. Bunlardan banilik, müasirlik gözləmək boş bir xəyaldır. Çünki uşaqlıqda qul kimi böyüklərə tabe olub, onların yanında danışmağa cürət edə bilməyən balalar irilənib kişi olduqda da uşaqlıqdakı tərbiyələrinin iyi burunlarından getmir. Yəni yekələndə də yeni bir "böyük" axtarırlar ki, ona tabe olsunlar.

Bir müsəlman cəmiyyətinin məclislərinə gedərdim. Otağın yuxarı tərəfində həmişə iki molla oturardı və onlardan aşağı sağ və sol divarların qabağındakı döşəkçələrin üstündə cəmiyyətin qeyri üzvləri əyləşərdilər. Bir məsələ müzakirəyə qoyulduqda ən əvvəl, əlbəttə, mollaların rəyi sual olunardı. Bunların hərəsi öz rəyini bildirərdi (buna sözüm yoxdur). Qeyri üzvlərə gəldikdə, biri öz fikrini bəyan etməyə cürət etmirdi. "Tahı ağa buyurdu, mən nə deyim", ya "mən də ağa deyəndən deyirəm" sözlərilə qənaətlənirdilər. Çox

ittifaq düşdükdə, sağ divarın dibindəki üzvlər onlara tərəf oturan mollanın sözünü təsdiq edirdilər, o biri tərəfdə oturanlar da öz mollaları ilə həmrəy olurdular. Daha hər kəs öz fikrini bəyan edib, doğruluğunu qeyrilərə də qandırsın – bu yox idi.

Bunun səbəbi nədir ki, yazıq üzvlər fikirsiz, şəxsi rəysiz, cəsarətsiz bir qul halına gəliblər? Əlbəttə, həmən "böyük dura-dura kiçik danışmaz" sözləridir ki, bir möhkəm qanun sanılıb ev tərbiyəmizin binasına qoyulub!

Ev tərbiyəsinin yoxluğu bizi qanadı kəsilmiş bir quş halına gətirib, ancaq quş ilə bizim təfavütümüz budur ki, onlarda qanadı kəsildikdə də uçmağa bir meyil görünür, bizdə isə heç bir meyil və həvəs yoxdur. Biz quluq, qulluqdan da çıxmağa əsla razılıq göstərmərik. Sözümün doğruluğunu isbata yetirmək üçün bir müsəlman məhəlləsinə gedin, oturun otağın bir guşəsində, qapıdan girənə zənn eləyin. Molla içəri girən kimi gedəcək yuxarı başa (buna sözüm yoxdur). O ki qaldı qeyri adamlara, bunlar otağa daxil olduqda, bir az duruxacaqlar. Bilirsiniz duruxanda nə fikir eləyirlər? Özlərinə yer axtarırlar. Məclisin yuxarı başı (mollanın ətrafı) həmişə boş olar, lakin oraya getməyə cürət etməzlər: orada "böyük" oturar. Odur ki, hər kəs özünə başqa yer axtarır. Yer də olmasa, xalqı aralayıb, güc ilə sığışır.

Aşağı başın darkeşliyi, isti vəziyyəti yuxarı başın geniş və asudəliyindən uca tutular.

Gördünüzmü biz quluq. "Yuxarı" sözündən qorxuruq; həmişə özümüzü alçaq tutmağa meyil eləyirik. Bu səbəbdən də əcnəbilər arasında ləyaqətsiz bir mövqe məşğul edirik. Belə də gərək olaydı, çünki "niyyətin hara, mənzilin də ora" deyiblər.

Bir şəxs və ya millət üçün niyyət çox şərtdir. Hər kəs niyyətini uca tutub və cəmi fikir və səyini onun əmələ gəlməsinə sərf eləsə, əlbəttə, peşman olmaz. Bir ingilis və ya bir nemsə öz vətənindən çıxıb, bizim məmləkətlərə üz qoyduqda fikri bu olur ki, gəlib böyük bir işə başlasın. Doğrudan da, görürsən səy və bacarığı sayəsində bir elə iş başladı ki, bizim aramızda misli yoxdur. Müsəlmanlar isə belə deyillər: bunlar həmişə başlanmış bir işə yapışmaq meylində olurlar. Və ya bir "böyük" axtarırlar ki, ona tabe olsunlar. Məsələn, dağıstanlı ləzgi, inquş və ya qeyri qövmə mənsub bir müsəlman vətənindən çıxdıqda fikri bu olur ki, gedib bir dövlətliyə nökər olsun. Və ya 20-30 manata qulluq edib, hökumət məmurlarını inqilabçı-

dan və ya qeyri bir təhlükədən hifz eləsin... Zavallı türklərin niyyəti meymundan savayı ayrı yerə getmir: bir meymunu götürüb, düşürlər cəmi Rusiyyətin canına və başlayırlar millətimizin adına lətələr vurmağa. İranlılar fikirlərini hammalığa, xırda-xuruşluğa, müftəxorluğa verirlər və i.a. və i.a.

Rusiya Türküstanı aldıqdan sonra bir neçə yerlər abad olub, şəhərlər əmələ gəldi. Erməni, yəhudi və qeyri gözüaçıq millətlər bu şəhərlərdə cəmi ticarəti və qeyri mənfəət gələn yerləri əllərinə aldılar. Qarabağın, Şirvanın kəndçi ermənləri ayağı cındır çarıqlı buralara gəlib, indi hərəsi böyük bir dövlət və mülk sahibi olublar. Müsəlmanların gələnləri də baqqallıqdan yapışdı. Bunların dədəbabası bu işdən savayı ayrısını görməmişlər; bunlar da o yoldan çıxmadılar: kişilər "gördüklərini qoyub, görəcəyə getmək" istəmirlər. Öz cızıqlarından çıxmırlar: "Azacıq aşım, ağrımaz başım" deyib özlərini zəhmətə salmırlar. "Beşgünlük" dünyaya vəfa yoxdur: çəkməsilən müsəlman da ölüb, qəbrə qoyulacaq, karxana və zavod sahibi xaçpərəst də. Qoy nə olur olsun!" Millətimizin bu fəlsəfəsindən sonra siz hələ şikayət edirsiniz ki, Bakının neft mədənləri müsəlmanların ola-ola əcnəbilərə keçib, milyonlarını onlara verirlər.

Gəncə, İrəvan, Qarabağ bəyləri böyük mülkə, geniş torpağa malik ola-ola onları dolandıra bilmirlər. Ağalıq edə bilmirlər. Ancaq cəmi fikirləri bu olur ki, görsünlər pristavın dəftərxanasında bunlara bir yer olarmı, orada qulluq eləsinlər. Bəylərimiz o qədər alçaq tinətdirlər ki, pristavlara baş endirməyi özləri üçün fəxr bilirlər. Bir dəftərxana katiblik şapqası bunlara o qədər ləzzət verir ki, onun yolunda cəmi namus və qeyrətlərini verməyə hazır olurlar. Nişanın qüvvəsi də ki məlumdur – mollalarımız qeyrətdən əl çəkib, nişandan əl çəkməyən kimi, əyan da bunlardan geri durmur.

Bəs biz quluq! Bir adam axtarırıq ki, ona deyək:

– Ağa, qulluğunda hazıram!

– Mənə görə quluq!

– Qulluğuna müşərrəf olmaq eyni səadətdir!..

Biz alçağıq. Çünki "Yenilik", "Təzəlik", "Ucalıq" sözlərindən ürkürük. İnsaniyyət yoluna, mədəniyyət yoluna yeni bir cığır açmağa müqtədir deyilik. Əcnəbilər gedərlər, biz baxarıq. Onlar elmdə, fəndə, ədəbiyyat və sənayeyi-nəfisədə də yeni yollar açıb, tazə üslublar icad edirlər; biz laqeyd qalarıq. Artıq-artıq tərəqqi meyilli olsaq, onların izincə düşərik.

İz ilə getmək də qulluğun bir qismidir. Amma nə fayda, bələlik bizə artıq xoş gəlir. Götürün ədəbiyyatımızı oxuyun, əsla təzəliyə bir meyil görünmür. Ədəbiyyatımız, ələlxüsus, yeni yazılarımız tamam bir meymunluqdan ibarətdir. Şair əlinə qələmi alırmı, götürüb qaşı kamana və kirpikləri də oxa bənzədir. Daha bunlar mülahizə eləmirlər ki, qaşı kamana oxşatmaq onu ilk söyləyən şairin kəlamında gözəl göründü. Ona əhsən deyildi. Sonradan yüzlərcə şair adlanan onu təqlid edib, yenə qaşı kamana bənzətməklə təzə bir şey vücuda gətirmədilər, bəlkə o şairin də gözəl kəlamını rəğbətdən saldılar.

Bəzi şairlərimiz hürriyyəti mədh eləyirlər. Bunlar osmanlı şairlərinin izincə getmək istəyirlər. Bunu düşünmək istəmirlər ki, osmanlı şairi istibdadın ağırlığından əzilib "Hürriyyət" deyə ah-fəğan eləyirdi. Onların səslərindən dəhşət və zülm eşidilərdi. Bunlar hamısı təbii: əzilənin halı çığırtısından bilinir.

İndi gərək bizim şairi nə vadar edir ki, hürriyyətdən yazır? Bu damı istibdadın zorbalığından gecə və gündüz rahatlıq tapa bilmir? Bunu da mı hər tərəfdən xəfiyyələr təqib edib, ağzını açmağa imkan vermirlər? Şairlərimizin xüsusi həyatı ilə aşına olduqda, görürük ki, bunlar nəinki istibdad ağırlığını hiss edirlər, həyatda laqeyd bir ömür sürürlər və günlərini eyş-işrətdə keçirirlər.

Bəs, bunlar təqlid üçün hürriyyəti mədh eləyirmişlər. Odur ki, bunların kəlamını oxuyanda nə hürriyyətin feyzini hiss edirsən, nə də istibdadın ağırlığını; ürəyimiz heç bir iztirab və həyəcan ilə dolmur. Çünki şair hissiyyat ilə yazmasa, oxucuya bir təsir bağışlaya bilməz!

"Millət" sözünü doğruçu millət xadimlərilə bərabər hər sərsəri də ağzına alıb, "millət dalda qaldı", "milləti gərək qabağa aparaq" deyə-deyə qiymətdən salan kimi, "hürriyyət" sözü də hissiyyatsız şairlərin dövlətindən gülünc bir hala gəlib. Az çəkər ki, şeirin özü də əvvəlki hüsnünü itirib gözdən düşər. Səbəb də həmən iz ilə getmək xülyasında bulunan təqlidçilik qulları olarlar. Çünki bizim üçün təb, ilham, Allah vergisi mənasız sözlər olub. Şeiri sənətə (peşəyə) döndərmişik; guya hər kəs istəsə şair ola bilər, hər nə desələr yazar, müəyyən vəqtdə sifariş verilən şey kimi hazır edər. Avropanın müqtədir şairlərinin tərcümeyi-halını oxuduqda görürük ki, bunlar uşaq vaxtlarından şeir yazırmışlar. Bizim Sabir də 8-9 ya-

şımda şeir yazmağa qədəm qoymuş. Deməli, bir şəxsdə təb olsa, uşaqlıqdan bəyan olunur. Adam ki 30-40 sinnində başladı şairlik iddiasına düşməyə, buna şair deməyib, özündən müştəbeh olmuş bir axmaq desək, səhv etmərik. Çünki bunlar bənzətmə və nəzirələr yazmaq ilə şeiri daşlayıb bihörmət etməkdən savayı bir iş görə bilməzlər. 40 yaşında "nərəstə" şairin "təbi", ya qoca qarının eşqi – ikisi də gülünc hallardan biridir. Bununla belə şairlik iddiasına düşənlərimizin sayı günü-gündən artır. Qəzetə sütunlarımız təxmis və təcnis ilə doludur. Heç bir usanmaq, utanmaq görünmür. Tənqidçilərimiz də yoxdur ki, yazalar təbi olanları təbsizlərdən, ağıllıları divanədən aralayalar. Ədəbiyyatımız bir dərəbəylik olub, hər yetən qələm götürüb dahilik eşqinə düşüb.

Keçək hekayənəvisliyimizə.

Bura da bir tənqidçilik meydanına dönüb, nə milli dil var, nə milli ruh. Qəhrəmanlar bir-birilə osmanlı dilində danışırlar. Özləri də Avropa həyatına bənzər bir ömür sürürlər. Oğlan qıza görüş təyin edir, görüşürlər, bir-birilə ədəbi dildə danışırlar, bir-birinə şeir oxuyurlar. Qız da bilikdə, məlumatda, istedad və qabiliyyətdə oğlandan geri qalmır. Deyirsən: "Pərvərdigara, bu yazıçılar hansı məişəti belə təsvir edirlər?" Məgər biz o qədər mədəni olmuşuq ki, qızlarımız oğlanlar ilə görüşüb danışa bilirlər? Məgər qızlarımızın biliyi və təcrübəsi bir o qədər genişdir ki, hər şeyi lazımınca dərk eləyib düşünürlər?.. Yox, qardaşım, bizim məişət belə deyil! Bizim qızlarla (görüş dursun kənarda) ərə verdikləri adamın sifətini görmək hələ mümkün olmayan işlərdən biridir. Özləri də dilsiz-ağızsız və başlarını dolandırmağa qüdrətli olmamaq dərəcəsində təcrübəsiz şeylərdir.

Deməli, hekayənəvislərimiz avropalıları təqlid edirlər. Bunlar da şairlərimiz kimi ədəbi əsirliyi qəbul edib, qələmlərində qulluq zənciri daşıyırlar.

Faciənəvislərimiz də bunlardan geri qalmırlar. Bunların da qəhrəmanları pəncərəni açıb, gecələr kainata xitabən nitqlər söyləyirlər, "Ey yıldızlar, dağılın, tökülün yerə!.." kimi sözlər deyirlər. Görün nə gülünc işdir: bir kərbəlayı və ya onun oğlu ulduzlar ilə söhbət eləyir! Bu da təqlidçilikdən əmələ gəlir. Şekspirin bəzi qəhrəmanları ulduzlara müraciətən sözlər deyirlər. Burasını unudurlar ki, böyük ingilis şairinin təsviri ilə deyil, zaman və məişət ilə bizim əsrin və həyatın arasında böyük məsafə və dedikcə artıq təfavüt var.

Cəmiyyət təşkilinə və fəaliyyətinə gəldikdə burada da həmən iz məsələsinə rast gəlirik. Cəmiyyətimizin proqramları tamam bir-birinə bənzəyir. Burada da köhnə yol ilə gedilir, kənara çıxmaq yoxdur.

Bizə bir zəmindarlıq cəmiyyəti vacib işlərdən biridir ki, kəndçilərimizə təzə qaydada yeni ixtira makinaları ilə yer əkmək öyrətsin: yeri nə növ qüvvətləndirməli ki, məhsulu artıq versin... belə-belə çox şeylər öyrətməlidir. Kəndçilərimizi savadlandırmalıdır, onların tərəqqisi yolunda çalışmalıdır. Bir çox kəndçilər sucuq, qamışlı, kol-koslu və ya susuz yerlərə malik olduqda o yeri mənfəətsiz hesab edib, əcnəbilərə satırlar. Bizim bir qüvvəli cəmiyyətimiz və ya zəmindarlıq bankımız olsa belə yerlər satılmaz. Xərc qoyular, kol-kosu təmizlənər, suyu qurudular və ya su gətirilər.

Avam kəndçini öyrətməlidir. Çalışmalı ki, kəndçilər əkin yerlərini satmasınlar. İnanın ki, əkin yerləri müsəlmanların əlindən çıxdıqda, onların vücudu bir qəpiyə dəyməyəcək, qiyamətimiz onda qopacaq. Millət əkin yerindən və onda sakin kəndçilərdən ibarətdir. Bunların tərəqqisi millətin tərəqqisidir. **Şəhərlərin tərəqqisi milləti fot olmaq qorxusundan hifz edə biləcək!** Biz bu nöqtəyə diqqət yetirmirik, amma sonra peşman olacağıq.

Zəmindarlıq cəmiyyətindən başqa bizə bir çox qeyri cəmiyyətlər də lazımdır. Hanı bizim ticarətə, sənətlərə dair cəmiyyətlərimiz? Milli banklarımız? Ticarətimiz özgələrin əlində. Pullarımız özgə cibində. Hanı yazıq arvadlarımızı himayə edən cəmiyyətlər? Əcnəbilər arasında heyvanları himayə edən cəmiyyətlər var ki, onlara əziyyət vermək qadağan olub. Bizlərdəsə arvad kimi əziz məxluqu əzib döyürlər, küçələrə tullayırlar. Buna bir acıyan tapılmır.

Hanı dil və ədəbiyyatımızın genişliyinə çalışan cəmiyyət? Ədəbiyyatımız istedadsız, başsız bir neçə yarımçıqların dövlətindən əcnəbi ədəbiyyatına əsir olub. Qafqaz, Türküstan, İranda gün-gündən asan və gözəlliyi sayəsində tərəqqi edən dilimiz lüzumsuz bilinib atılır və yerinə camaatımız başa düşmədiyi osmanlı dili götürülür. Tarixi, etnoqrafi və qeyri cəmiyyətlərə ehtiyac görünürsə, təşkil edən yoxdur. Nəşriyyat cəmiyyətimiz yoxdur, hər yazıçımızın yaxası bir tacirin əlindədir. Keçmişlərin əsərləri çap olunmamış qalır, fikirləri və zəhmətləri siçanlara yem olub. Həsən bəy Məlikzadənin "Zəminədarlıq" sərlövhəli neçə cilddən ibarət olan qiymətli kitabı təb olunmamış qalır. "Heyvanların əqli" adlı böyük bir elmi-fənn əsərləri də var ki, heç yerləri də məlum deyil ki, kimdədir.

Mirzə Fətəli Axundzadə kimi böyük yazıçımız, ədəbiyyatımızda həqiqətnəvislik kimi ayıq bir məsləkin banisi yavaş-yavaş yaddan çıxıb gedir, əsərlərinin ikinci təbinə şüru edən yoxdur. Firidun bəy Köçərli müqtədir bir ədib on beş il zəhmət çəkib üç cild "Azərbaycan türklərinin ədəbiyyat tarixi"ni vücuda gətirib. Bunları çap etdirən yoxdur, cəmiyyətlərimiz də ona etinasızlıq edirlər. Eşitdiyimə görə, bu əsəri cənab Firidun bəy Bakı "Nəşi-maarif"ə göndəribmiş ki, təb etdirsin. Cəmiyyət qət eləyib ki, ədəbiyyat tarixi bir o qədər də millətə lazımlı kitablardan deyil.

Pərvərdigara! Nə böyük xəta eləyirlər. Ədəbiyyat tarixi həyati fikrimizi, onun tərəqqisini göstərib, milli simamızı həm özümüzə, həm əcnəbilərə göstərən bir kitab olduqda, bizə mədənilik adı qazandırdıqda niyə lazımlı olmasın, bilmirəm. Bu kitabı... Bir əcnəbi yazsa, Avropada onun ilə böyük ad qazanardı. Görəsən bəs bizim aramızda Firidun bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini niyə şövq və həvəs ilə qarşılamırıq?

Keçmişimiz naməlum, hal-hazırımız pərişan, özümüz qul, fikrimiz qul, işlərimiz başsız, fəaliyyətimiz cürətsiz – yol həmən yol, kənara çıxmaq yoxdur. Ali məktəbə gedənlər hakimlik, vəkillik və incinarlıqdan savayı ayrı sənət tanımırlar. Diş həkimliyini "dalan sənəti" deyə boykot edirik. Rəssamlıq, heykəltəraşlıq kimi zərif və həvəsli sənətlərə əsla etina olunmur. Rusiyada 30 milyon türkün bir rəssam və ya heykəltəraşı yoxdur.

Musiqi məktəbi tanımaq istəmirik. Bunların hamısının səbəbi qullara məxsus bir cürətsizlikdən irəli gəlir. Qulluq nişanəsi həyatımızın hər bir guşəsində müşahidə olunur. Buna səbəb nədir? O deyilmi ki, bizim özümüz qulluğa artıq meyil və həvəs göstəririk. Məsələn, bir adamı yaxşı bilib tərif etdikdə, "filankəs çox Allah bəndəsi adamdır" deyirik. Halbuki Allah-taala insanı yaratdıqda onu "bəndə", "əbd" və "qul" deyə yaratmayıb, onu məxluqun əşrəfi bilib, ona ağıl kimi böyük bir qüvvə əta edib. Bu ağlın dövlətindən də insan ətrafındakıları özünə tabe edib, şəxsi və ümumi mənfəət üçün işlədib. Ağıl olmasaydı at, eşşək, dəvə, inək kimi heyvanları və toyuq, xoruz, qaz və ördək kimi quşları öyrədib, insan onları öz diriliyi üçün qiymətli bir mənbə qayırmazdı. Həmən ağlın vasitəsilə insan təbiətə qalib gəlir, onun uca dağlarını yarıb dəmiryollar salır, zəhmli dəryaların təlatümə gəlmiş səthi ilə gəmilər işlədir. Hava ilə də mübarizə edir, buludların arasında uçquclar seyr etdirməkdədir. Bəs insan qul olmağa yox, ətrafındakıları özünə qul eləmək üçün yaranıb. İnsana qul sənəti vermək Allaha nasaz gələn hərəkətlərdən biridir. Biz buna baxmayaraq, yenə özümüzə qulluq isnad veririk. Bircə kişilərə verdiyimiz adlara diqqət edin: "Allahqulu", "Məmmədqulu", "Həsənqulu", "Hüseynqulu", "Əliqulu", "Vəliqulu", "İmamqulu" və qeyri. Hələ bu Allah, peyğəmbər və imam quluları dursun kənarda, biz özümüzü adi şəxslərin də qulu hesab edirik. Məsələn, "Şahqulu", "Ağaqulu", "Xanqulu". İnsanın şəni, qədir və qiyməti müsəlman aləmində o qədər alçaq tutulur ki, bunları pir və ocaq kimi cansız və mənasız şeylərə də qul verirlər: "Pirqulu", "Ocaqqulu" kimi.

Biz türk ola-ola mən güman eləmirəm ki, bizim təbiətimizdə qulluq və ocaqlıq olsun. Bu adlar da bizə ərəblərdən qalmadır. Din – islamın intişarından qabaq ərəblər bir xeyli Allah və ilahələrə iman edirdilər. Bunların ən böyüyü yeri və göyü xəlq edən idi ki, adına "Allah-taala" deyirdilər. "Ərəb... izhar etmək üçün kişi övladını Allah-taalanın qulu adlandırırmış. "Əbdullah" o zamanlar kişilərə verilən addır, Allahqulu deməkdir.

"Allah"dan savayı ərəblərin etiqad etdikləri "Manaf", "əzza", "Lat", "baqi" və qeyriləri idi.

Bunları nəzərə aldıqda "Əbdülmanaf", "Əbdüləzza" kimi qədim türk adlarının mənası aşkar olur.

İslamiyyət "Allah-taala"nın sifətlərini artırdı. Bu da kişi adlarına sirayət etməmiş olmadı: "Əbdülkərim", "Əbdüləzim", "Əbdüləziz", "Əbdülbaqi" kimi bir xeyli yeni adlar əmələ gəldi. Bu yolda ərəbləri təqlid etmək, şiəlik aləmində daha da tərəqqi edib ifrata üz qoydu: "Əbdüləli, Qulaməli, Əliqulu", "Əbdülrza, Qulamrza – Rzaqulu"; "Əbdülhüseyn – Qulamhüseyn" – "Hüseynqulu"... kimi adlar icad olundu. Cail mütəəssiblər bu yerə gəldilər ki, özlərini "Kərbəlayı", yəni Əlinin iti də adlandırdılar... Bəs bu alçaqlıq da bizə bir xeyli qüsurlar ilə özgələrdən qalmadır. Ulu babalarımız oğullarına "Dağ", "Qaya", "Dəniz", "Gün", "Ay" və "Ulduz" kimi adlar qoyardılar. Onda adlarına müvafiq də şan və şərəf ilə ömür sürərdilər.

O zamanlar türklük dağ kimi qüvvətli və qaya kimi möhkəm idi; fikirlər gün kimi parlaq, niyyətlər ulduzlar kimi yüksək idi.

Biz məgər həmin türklərin hümmətlərindən deyilik?

Bizə ən əvvəl lazımdır ki, özümüzü qulluqdan xilas edək.

Dürüst düşünməlidir ki, biz insanlar qulluq üçün yaranmamışıq, şan və şövkət ilə ömür sürməyə gəlmişik. Bunu düşündükdə, türklərə məlum olacaq ki, şan və ad ilə ömür sürmək meylində olan bir millət gərək mədəni olsun. Gərək "fəqirlik", "yoxsulluq" və "alçaqlıq" kimi sözlərdən nifrət eləsin. Həmişə dövlətli, qüvvətli və salamat bir millət olmağa çalışsın; çünki təbiət qanunu zəiflik tərəfdarı deyil, zəif gərək fot olsun! İnsaniyyət sürətlə qabağa getdikdə zəiflər ancaq ayağa dolaşırlar; belə mənalar ortalıqdan götürülməlidir. Fəal və dünyaçı Avropanın tənbəl və axirətpərvər Şərqə axıb gəlməsi həmən təbiətin qanununa tabedir; parlaq ömürdən gözləri qamaşıb, dünyaya "darfəna" ad qoyanlar yox olunacaqlar!..

Bir də deyirəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxartmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixlərini oxuyun. Məzhəbbazlıq yuvası olan İranın hal-hazırdakı zəlalətinə nəzər yetirin. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir.

Türk oğlu türk olun! Türklər heç vədə dünyanın şövkətli həyatından əl çəkib axirət yolu üçün çalışmayıblar. Həmişə ağalıq ediblər. Şanlı yaşayış üçün qılınc vurublar. Bu fikrin doğruluğunu türk və islamın düşmənləri belə inkar etmirlər. Böyük Volter deyir: "Türk həyatında dini məsələ üstdə baş vermiş bir qafilə görünməmişdir. Qafilə dursun kənarda, türk arasında dini mübahisə, bir üsyan, bircə qarışıqlıq isə də tarixdə qeyd olunmayıb".

Bəzi mütəfəkkirlərimizin "müsəlman Lüteri" gözləməsi də yaxşı fikir gərək olmasın. Özündən müştəbəh olmuş bir divanə çıxıb yeni bir məzhəb icad etməsindən başqa Lüter məsələsi ayrı işə müvafiq ola bilməz. Mühüm bir Lüter axtarıb ona tabe xəyalında olunca yaxşı deyilmi hər bir dolaşıq dini və milli məsələlərimizi zəmanəyə və ağıla müvafiq özümüz həll edək? Allaha şükür, cəmiyyətlər, nədvələr (konqralar) vasitəsilə hər bir məsələnin həllinə çalışmaq mümkün olan işlərdən biridir. Daha özümüzə "böyük" axtarmağın nə mənası var? Bizə kəskin ağıldan və zəmanə tələbatından uca bir şey ola bilməz!

Nicatımız mədəniyyətə bağlıdır! Mədəniyyət də bundan ibarətdir ki, ən əvvəl dədə-babamızdan qalan əkin yerlərimizi, kənd və şəhərlərimizi əlimizdən çıxartmayıb onlarda zürəət, ticarət və

sənətin tərəqqi etməsinə çalışmalıyıq. Bunu düşünməliyik ki, ana dilimizin tənəzzülü millətimizin tənəzzülüdür. Ona görə türk dilinin genişliyinə çalışmalıdır. Bu dili sevməlidir, bunda danışmağı eyib yox, fəxr hesab etməlidir. Vətənimizin hər guşəsində tazə üsul ilə məktəblər açmalıdır. Tərbiyə və təlimdə qızlar ilə oğlanlara təfavüt qoymamalıdır; ikisini də kamil oxutmalıdır. Qızların elmini və təcrübəsini artırmalıdır ki, kişilərə möhtac olmayıb, özləri öz başlarını dolandıra bilsinlər. Həkimlik, mamalıq, müəllimlik, dərzilik, əkin və ticarət işlərilə arvadları tanış eləsək, milli dövlətimiz artar. İndiki kimi arvadlar müftəxor olub, kişilərin üstə düşməzlər. Ruhani işlərimizin islahına çalışmalıdır, ruhani məktəbi açmalıdır ki, mollalarımız ətabata möhtac olmasınlar. Oradan gələn ruhanilər bizə cəhalətdən və mütəəssiblikdən başqa heç bir şey gətirmirlər. Yeni fikirli ruhanilər erməniləri və Balkan islamlarını dirildən kimi, bizi də canlandıra bilərlər.

Müəllimə və müəllimlər yetirmək üçün milli məktəb açılmalıdır. Belə məktəb qurtarmışlar aramızda milli toxumlar saçmağa artıq lazımdırlar.

Ədəbiyyatımızı əcnəbi əsirliyindən qurtarmalıdır; təqlidçilik kifayət edər, indisə ortalığa milli bir şey çıxartmalıdır. Musiqimiz millətimizin şan və adıdır, onun tərəqqisi bizim nüfuzumuzu qonşularımız arasında artırır. Musiqikarımız Üzeyir bəy Hacıbəyov cənablarının qədri bilinməlidir...

Operamızın gələcəyi çox parlaq görünür. Rus teatrı bunu gözdən sala bilməz. Bu şərtlə ki, burada da təqlidə aləmi-islamda ilk opera vücuda gətirməyini təşviq etməlidir. "Opera dramanı öldürdü" deyib çığırmaq və operanı mənfəətsiz bilmək böyük xətadır! Opera teatrımızı diriltdi və ona əbədi bir ölməzlik qazandı! Teatrımız drama möhtac olsaydı, erməni teatrı kimi çoxdan fot olmuşdu. Səbəb budur ki hal-hazırda müqtədir dram yazanlarımız yoxdur: Nəcəf bəy Vəzirov və Əbdürrəhim bəy Haqverdiyevlərimizin qələmləri əvvəlki qüdrətlərini itiriblər.

Operamızın dövlətindən teatrımız erməni, gürcü və hətta rusların da nəzərini özünə cəlb eləyib. Ermənilər qədimdən bizim musiqimizin aşiqi olduqları kimi, indi də ona bac verməkdədirlər. Operamız musiqimizin nüfuzunu ermənilər arasında daha da artırdı. Bir millət ki, qeyri-məcburi bir halda özü nüfuzunu əcnəbilər arasında artırmağa qüdrətli oldu, o millət qaranlıqdan çıxıb, mədə-

niliyə qədəm qoyur. Operamızın daha da böyük xidmətləri olacaq: Rusiya müsəlmanlarının ittifaqına böyük bir vasitə olacaq. İndilikdə "Leyli və Məcnun"un parçaları təkə – türkmən və dağıstanlılar arasında yayılıb ağızlarda oxunmaqdadır. Beləliklə, türk dili tərəqqi edir və dağıstanlılar kimi xırda qövmlər mədəniyyətimizi qəbul edib türklüyə daxil olurlar.

Bundan savayı operalı bir camaat "millət" adını daşımağa haqlıdır. Avropanın mədəni mərkəzlərində "bizim opera belə oldu, elə oldu" deyildikdə millətimizə bir ayrı nəzərlə baxırlar: tərəqqi etmiş deyə hörmətini saxlayırlar. Bizə də Avropanın rəğbətini qazanmaq vacib işlərdən biridir. Erməni milləti hər bir mədəniyyət məhsullarını, məsələn, ədiblərinin tərcüməsini, rəssamlarının çəkdiyi şəkilləri, heykəltəraşlarının yapdığı heykəlləri, böyük artistlərini, cəmiyyətlərini və qeyriləri Avropanın gözünə soxan kimi, biz də bu yolda çalışmalıyıq. Avropanın əfkar-ümumisini bizim tərəfə döndərən şeylərdən biri də operamızdır.

mart, 1914, Aşqabad

BİZƏ CİDDİ MƏTBUAT ÇOXDAN LAZIM İDİ

On il olar ki, Qafqaz türkləri sabit bir mətbuata malikdirlər. Doğrudur, Rusiyada ilk qəzet nəşr edən Qafqaz türkləri olmuşlar, lakin bu qəzet uzun bir müddət davam etmədiyi üçün, mətbuatımız tarixi ancaq 1904-1905-ci illərdən başlanır. "Həyat" qəzeti ilə mətbuatımız yeni bir dövrə girib, yeni bir həyat sürməyə başlayır.

Bu dövrün özündə də sabitlik ayrı bir dövr alır. Bir qəzet uzun bir müddət başa getməyib bağlanır, amma mətbuatsız qalmırıq, bir qəzetin əvəzinə bir ayrısı çıxır, bir müdirin yerini bir ayrısı tutur. Bu hal ilə mətbuatımız indi də ömür sürür.

Deməli, mətbuatımız xarab olmuş lampaya bənzəyir – gah yanır, gah keçir, yandıqda işıq vermir, işıq verdikdə şöləsi həmişə bərqərar olmur. Mətbuatımızın bu qeyri-sabit halı oxucuların və millətin halına da sirayət etməmiş olmur.

Mətbuatımız tarixi bu müxtəsərcə sətirlər ilə qurtarır gedir.

Məsələ dürüst aşkar olmaq üçün bu sətirləri şərh etmək lazım gəlir. Məqaləmizin məqsədi də bundan ibarətdir.

"HƏYAT" DÖVRÜ VƏ ONUN QÜSURU

Yaponların Uzaq Şərqdə ruslara qələbə çaldıqları cəmi Asiyaya əcib bir təsir buraxdı: əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib, ayılmağa başladılar. İslam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini açdı, kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri "maarif" deyə səsləndilər. Məktəb, mətbuat, xeyriyyə və maarif cəmiyyətləri ortalığa çıxdı.

"Həyat" qəzeti də bu qızğın dövrdə Bakıda nəşrə başladı. Cəmi ərbabi-qələmlərimiz [...] "Həyat"ın ətrafına toplandılar. Bu ciddi və tərəqqipərvər qəzet başa getmədi.

"Həyat"ın bağlanmağına ümdə səbəb müştəri azlığı oldu. Müştəri azlığı da onun üçündü ki, əvvəla, Qafqazda savadlı adam az idi. İkinci, savadlı olsaydı da, qəzet alıb oxumağa camaat öyrənməmişdi. Üçüncü, "Həyat" bir elə dildə yazırdı ki, onu ancaq pürsavad adamlar oxuyub, feyz ala bilirdilər. Xalq isə az savadla belə qəzetləri oxuya bilmirdi.

"Həyat" bağlandısa da, onun təsiri mətbuatımızda dərin izlər buraxdı. Qəzetlərimiz xalq malı olmayıb, bir ovuc ibarəbazlara qulluq eləməyə başladı. Əli bəy Hüseynzadənin istedadı, məlumatı və tərcüməyi-halı gözübağlıca kimi oxucuların və ələlxüsus müəlliflərin həvəslənənlərin ağıl və məsləklərinə qalib gəldi. Hamı bir ağızla onun dahiyi-əzim olmağını söyləyib inandılar. Mətbuatımızda təqlidçilik meydanı açıldı: qəliz ibarələr ortalığa çıxdı. Dilimiz təzədən məhv olmağa başladı... Hüseynzadənin dövlətindən ərəbləşmiş osmanlı dili "ədəbi"lik iddiasına düşdü. Mətbuatımız bilməmrə xalqdan ayrıldı. Nə xalq qəzetlərin dilini bildi, nə də qəzetlər xalqın. Biçarə camaatımız dərdləri dərmansız bir halda can vuruşdurmaqda qaldı.

Həqiqət halı düşünənlər çox idi, lakin səsləri eşidilmirdi.

Deyirlər bir dəfə sabiq "Əkinçi" müdiri məşhur Həsən bəy Zərdabi "Füyuzat" məcmuəsinə baxıb soruşub:

– Bunu kimin üçün yazırsınız?

– Camaat üçün, – demişlər. Həsənbəy gülümsünərək demişdir:

– Elə isə camaatın dilində yazın ki, camaat da başa düşsün.

Əlbəttə, Həsən bəyin haqq sözləri heç kəsə kar eləmədi. Çünki sadə dildə yazmaqlıq o zaman bisavadlıq kimi tələqqi olunurdu və bu dərddən hər kəs yazıçılıq meylində olsa idi, gərək bir xeyli fars

və ərəb ibarələrinə malik ola idi. Adi türk sözləri yerinə ərəb ləfzləri işlətmək mod olmuşdu.

Deməli, "Həyat" qəzeti və onun müaqibləri camaatımızı qəzet oxumağa rəğbətləndirməyə çalışmaqdan, onun bu yolda həvəsini artırmaqdan, dəxi də camaatı qəzetdən uzaqlaşdırdılar. Qəzet camaata yad və düşünülməz bir şey oldu. Hökumət məktəblərində təhsil edənlərimiz az savadları ilə milli qəzetdən bir az da uzaqlaşdılar.

"Həyat" dövrü belə keçdi.

CİDDİ MƏTBUAT MÜVƏFFƏQİYYƏTSİZLİKLƏRİNİN QEYRİ SƏBƏBLƏRİ

Dil məsələsindən başqa bir xeyli səbəblər camaatımızı qəzet oxumaqdan usandırdı, mühərrirlərimiz arasına nifaq düşdü. Gərək bu nifaq qəzetlərimizin sütunlarına sirayət etməyə idi. Çünki qəzetçilikdən məqsəd millətə yol göstərməkdir. Şəxsi nifaq, şəxsi qovğa mətbuata dəxli olmayan işlərdən biridir. Heyfa ki, burada da yarımçılıq büruzə verildi. Qəzetlərimiz şəxsi-qərəzə, böhtan və iftiraya, söyüş və biədəbliyə vasitə oldu. Milli məsələlər yaddan çıxdı. Oxuculara dəxli olmayan, millətə baş ağrısından başqa bir şey bəxş etməyən sözlər və söhbətlər ortalığa çıxdı. Biçarə oxucular tənga gəldilər. Ümid bağlayıb, göz dikdikləri adamların da nə dərəcədə şəxsi-qərəz və məsləksizliyə aludə olmalarını gördülər. Ciddi mətbuat nüfuzunu yavaş-yavaş itirməyə başladı [...].

Bu dövrdən tutmuş indiyədək mətbuatımız axsamağa başlayır. Müqtədir yazıçılarımız fikirlərini bəyan etməyə lazımi bir qəzet və ya məcmuə tapmayıb, sükuta qərq olur, onların əvəzində ortalığa elmsiz, biliksiz adamlar çıxırlar. Məslək məsələsi bilmərrə itir, məqalələr daddan, gözəllikdən, mənadan uzaqlaşır. Hərə ilk öyrəncəyini qəzet idarəsinə aparır. Bir məsələ üstündə təkrar-təkrar danışılır. Birisi bir söz dedikdə, bir ayrısı da haman sözü təkrar söyləyir. Oxucunun yeni fikirlərdən əsla xəbəri olmur. Budur, görürsən qəzet düşüb molla əlinə – orucdan, namazdan, təharətdən söhbət açılıb, min il danışılıb, aləmin zəhləsini tökən söhbətlərin yenidən ortalığa çıxıb qəzet vasitəsilə bəyan olunmağı oxucunu zara gətirir. İnsaniyyətin qazandığı hədsiz-hesabsız elm və fənlər əvəzində, oxucuya növhələr, dini vəzlər və nə bilim nələr təqdim edirlər. Arif qismi mətbuatdan dəxi də nifrətlənir.

Qəzet beləcə yavaş-yavaş qiymətdən düşməyə başladı. Orucov qardaşlarının qəzetləri hürrəndiş oxucuların məsləklərinə müvafiq idisə də, sabit bir proqrama tabe olmayıb, ehtiyacı dəf eləmirdi. Avropa mədəniyyətindən, onun məhsullarından yenə oxucularımız lazımi məlumat ala bilmirdilər. Qəzet başına gündə bir mühərrir dəvət olunduqda, qəzet sabit bir məslək təqib edə bilmirdi. Bu səbəbdən həmişə də bir dil işlənməyib, hər sərmühərrir qəzeti yeni bir dildə yazırdı. Bundan əlavə, çox vaxt sərmühərrirlər qəzetçiliyə lazımınca hazır olmadıqlarından, qəzeti oxuduqda bunun təcrübəsiz və biliksiz mühərrirlər tərəfindən qələmə alınmış olduğu gözə sıçrayırdı...

Belə olduqda ciddi qəzetlərimiz həmişəlik olaraq camaatımızın rəğbətini qazana bilməzdi. Avropa qəzetləri sabit məsləklərlə ətraflarına milyonlarca adamlar toplayırlar. Həmişə onlara rəhbərlik edirlər. Ona görə böyük-böyük məsələləri qəzetlər vasitəsilə həll eləyirlər. Mətbuatın Avropada olan qüdrət və qüvvəti bizlərdə yoxdur. Bunun ümdə səbəbi budur ki, mətbuatımız başında ləyaqətli adamlar durmurlar.

Qəzetçilik bizlərdə ad, şöhrət, mod və qazanc məqsədi ilə olur. Görürsən varlığından heç kəsin xəbəri olmayan bir şəxs həftəlik bir məcmuə nəşr etməyə başladı. Nə tövr məcmuə olsa olar, xərcini çıxardacaq. "Müdir" cənablarının da fikri budur ki, bir neçə vaxtlığa adı çıxsın. Bir neçə aylığa ağzına gələni yazır. Özgələrin ağızlarında dastan olmuş fikirlərini yenə də təkrar eləyir, qəzetçiliyi bununla qurtarır.

Libas modaya tabe olan kimi mətbuat da bizdə modaya bac verirdi. Bir vaxt moda belə şiddət eləmişdi ki, hər yetən "müdirlik" iddiasına düşürdü.

MƏZHƏKƏNƏVİSLİK

Mətbuat bir fikrə meydan verdiyi kimi, bəzi ayrı-ayrı fikirləri də yox etməyə gərək çalışsın. Mətbuatın əsil məqsədi haqqı intişar edib, nahaqqa qalib gəlməkdədir. Nahaq ilə də iki cür mübarizə etmək olar: ya ciddi məqalələrlə, ya məzhəkə təriqi ilə. Məqsədə çatmaq yolunda məzhəkə dəxi də məqbul görünür. Ona görə mətbuat tərəziyə bənzəyir: Bir şaxəsi ciddi qəzet və məcmuələrdən, o birisi məzhəkə və həzl jurnallarından ibarət olur. Bir fikrə çatmaq

üçün mətbuatı vasitə etdikdə tərəzinin müvazinətinə çalışmalıdır. Mətbuat müvazinəti pozulduqda lazımi nəticələrə də çatmaq mümkün olmur. Ciddi mətbuatın məqsədi tikmək və yaratmaqdır. Məzhəkənəvislik isə uçurmaqdan ibarətdir. Məzhəkə uçurduqca, ciddi mətbuat da tikməli və təmir etməlidir. Müvazinət itib, məzhəkə qüvvət tapdıqda köhnəlik uçurular, yox olar. Lakin məqsədə nail olmaq olmaz. Çünki yenilik əmələ gətirməyə məzhəkə lazımınca qadir deyil. Bu qeyri-salamat bir hal bizim mətbuatda dövran sürüb və indi də sürməkdədir. Nədənsə bizim Qafqaz mühərrirləri həmişə məzhəkənəvisliyə meyilli olurlar. Yüz əlli il bundan əqdəm yaşamış şairimiz Molla Pənah Vaqifdən tutmuş son müqtədir şairimiz Sabirədək hamısı məzhəkə yazmağa, həcvguluğa artıq həvəs göstəriblər. Teatrnəvislərimiz də bu yolda artıqlığınca cəhd eləyiblər. Mirzə Fətəli Axundov yetmiş il qabaq komediya hüsula gətirib. Sonrakı yazıçılarımız da onu təqlid ediblər.

Əsrlərcə məzhəkə ilə tərbiyə tapan millətimiz aşkardır ki, "Molla Nəsrəddin" jurnalının zühuruna artıqlığınca sevindi. "Molla Nəsrəddin" də əvvəl illər doğrudan gözəl və cazibəli idi, məsləki sabit və salamat, yazıları kamil və şirin, dili asan və xalqa yavıq. Özü də mahir rəssamlar qələmindən çıxmış şəkillərlə müzəyyən idi. Həqiqətdə "Molla Nəsrəddin" jurnalı ilə biz fəxr edə bilirdik.

Ciddi qəzet və jurnallarımız çətin dilləri, duzsuz yazıları və məsləksizliyi ilə oxucuları zara gətirdiyi zaman "Molla Nəsrəddin" şöhrət tapıb, vətənimizin hər bir guşəsində oxunurdu. Tüccar, əsnaf, əyan, əşrəf, avam, xas – hər bir sinifdə rəğbət qazanırdı. Kəmsavad baqqallarımız, çörəkçilərimiz höccələyə-höccələyə oxuyur, "Molla Nəsrəddin"dən ləzzət apardıqları kimi, studentlərimiz, doktorlarımız, laqeyd bəy və hökumət məmurluğunda olanlarımız da ondan həzz alırdılar. Çox ailələrdə arvadlar toplanıb, balaca uşaqlara oxutdurub qulaq asardılar.

Belə olduqda məzhəkənəvisliyin təsiri ciddi mətbuat təsirindən artıq olaraq camaat arasında yayılırdı. Məzhəkənin işə keçdiyini görərək, qəzetlər də əsil məqsədlərini unudub məzhəkəyə meydan verməyə üz qoydular. "Molla Nəsrəddin"dən savayı arabir ayrı həzl məcmuələri də ortalığa çıxdı. Mətbuat müvazinəti bilmərrə itdi. Hamı uçurmağa üz qoydu, amma tikmək meylində olan olmadı. Uçurduqda da yaxşını pisə qarışdırıb, uçurdurdular. Cəmi köhnə binalarımız, milli və dini imarətlərimiz məhv olub getdi.

MƏTBUATIMIZDAKI MƏVAZİNƏSİZLİYİN NƏTİCƏSİNƏ

Məzhəkənəvislikdən yadigar olaraq bizə bir gülüş qaldı. Cəmi rişxəndimizi bu gülüşlə bəyan edirik. İstər haqq, istər nahaq rişxəndli gülüşümüz hər yerdə büruzə verilir. Heyfa ki, təkcə pisə rişxənd etmək əvəzində, yaxşını da pisə qatırıq gedir. Bu hal millətin hər bir sinfində müşahidə olunur və şiddətli nəticələr verməkdən qalmır. Köhnə yol gülünc olub itdi. Təzə bir yol göstərən də olmadı.

Həmişə rəhbərə möhtac olan qara xalq yolu bilmərrə itirdi. Adət və əxlaqlarına yerli və yersiz o qədər gülünmüş və əskikləri o qədər üzünə vurulmuş, təkrar olunmuşdu ki, zavallı xalq özünü bu həqarətdən saxlamaq üçün doğma adət və əxlaqını unutmağa, onlara xor baxmağa başlamışdı.

Bu surətlə mənliyimizdə əgərdən-əskikdən başqa bir şey, dəyərli və qiymətli bir var görməməyə öyrəşən camaatımız yavaş-yavaş özlüyündə laqeydlik göstərdi. Dilimiz əcnəbi sözlərlə dolmağa başladı. Çox yerlərdə türkcə danışmağa utandılar. "Türkcə danışma – eyibdir" deyə bir gimnazistin birinə müraciət elədiyini çox görmüşəm. "Müsəlman" ləfzi fəhş və eyib ifadə edən bir kəlmə oldu... Hər kəs nə bitərbiyə iş gördüsə, onu görən şəxsin müsəlmanlığına yozdular. Halbuki pis əməllər müsəlmandan baş verdiyi kimi, qeyri dinə və millətə məxsus şəxslərdən də baş verir. Müsəlman və ya qeyri müsəlman dəməməli, tərbiyəli və tərbiyəsiz desək, dəxi doğru olar. Bu həqiqət məqsədsiz gülüşlər içərisində buludlandı. Birisi oğurluq etdikdə deyirlər: "Müsəlmandan ki yaxşı iş çıxmaz". Halbuki müsəlman oğru olmayıb, qeyri dinə tabe olanlardan da doğru olub. Amma nədənsə cəmi pis əməlləri müsəlmanlıqdan görürük.

Milli bayramlarımız camaatımızın gözündə hüsnünü yox etdi. Xalq da dədə-babadan qalma gözəl bayramlarını şad bir halda keçirməyə qorxdu. Bəziləri hətta qələm götürüb, Novruz bayramının canına düşdülər. Neçə əsrlər millətə xidmət edən, ona şadlıq və fərəh verən bir əziz günü şərafətdən salmaq istədilər. Halbuki Novruz şairanəliyi ilə əcnəbilərin də rəğbət və məhəbbətini qazanır. "Bahar bayramı" adı ilə cavanlarımız arasında günü-gündən tərəqqi eləyir. "Novruz"u yox eləmək meylində olan mühərrirlər bilmirəm millətə hansı bayramı verəcək idilər?

Bundan əvvəl balalarımız milli oyunlarımızı oynardılar. İndi çoxusu utanıb, onlardan əl çəkir. "Südlü sümük", "başıqovurma", "cızıqdançıxma", "leygələ" və bir çox başqa oyunlarımız var ki, uşaqların hərəkətinə, şadlığına səbəb olub, onları millilikdə sabit saxlayır.

Çox yerdə atalar oyunu bilmərrə balalar üçün lüzumsuz bilirlər. Yolu itirmiş yazıq atalar elə güman edirlər ki, uşaq sübhdən axşamadək kitab üstə otursa, çox bilik qazanar. Dəxi bunu bilmirlər ki, uşağı yormazlar, oxutduqda da dərs şeylərini oyuncaq şəklinə salarlar ki, uşağın həvəsi və meyli artsın. Bir hacı oğlunu mənim yanıma oxutmağa qoymuşdu. Yazıq hacı tez-tez yanıma şikayətə gələrdi ki, oğlum ağaca çıxır. Biçarə elə bilirdi ki, əcnəbi balaları ağaca çıxmırlar və ağaca dırmaşmaq da ədəbsizliyə dəlalət edir. Bir şagird məktəbdən xilas olub, bikar vaxtında tar çalarmış. Atası tarı alıb atır ki, nə tarbazlıqdır. Yol azmış kişi yenə elə güman eləyir ki, tar çalmaq eyibli bir işdir. Halbuki milli musiqi milliyyətimizin möhkəmliyinə böyük xidmətlər edir.

Məzhəkənəvislik sabit bir halda qalmayıb ifrata üz qoydu, millətimiz dəxi də rəxnədar oldu. Bikar mühərririn biri bir gün də qələm götürüb, milli nağıllarımızı həcvə qoydu. Belə xəta törətdikdə görəsən bir dəlil və sübut göstərdilərmi? Əlbəttə yox. İnkar etmək yolu asan olduğu üçün bu yola müraciət etmək fikirləri əlbəttə biliksizlik bəlasından qurtarır. Lakin hər şeyi inkar etməklə də millət çox şey itirir. Nağılların millətimizin həyat, əqliyyə və xəyaliyyəsinin məhsulu olduğunu gərək idi düşünəydik. Onda dərin bir fəlsəfə olmağını gərək qana idik. Amma qanmaq istəmədilər. "Bu da qədim işdir" – deyə nağılı hörmətdən saldılar. Əcnəbilər isə nağıla bu nəzərlə baxmırlar, onu hər yerdə toplayıb təb etdirirlər ki, məhv olmasın. Avropada az-az ədiblər tapılar ki, nağıl yazmasın. Avropalılar nağılları bihörmət etmirlər, amma biz nağılı həcv edirik. Biz millətin əsrlərcə vücuda gətirdiyi nağılları çölə tullayırıq, onlara yiyə olmuruq.

Əcnəbi dildən tərcümə olunmuş həyatımıza yad, ruhumuza zidd hekayə və nağılları uşaqlarımızın oxumağını rəva görürlər. Bizim şirindilli, maraqlı nağıllarımız kənarda qalır. Uşaqlara ağır, ağıl həzm eləməyə qadir olmayan nəsihət kitabları yazılır, uşaqları kitabdan nifrətləndirirlər. Bunu düşünmürlər ki, nəsihət yazmaq qaydası mədəni millətlər arasında çoxdan dəbdən düşmüşdür, çünki

uşağa quru nəsihət heç vaxt kar eləməz, uşaq gördüyünü götürür. Sən uşağın yanında yalan danış və uşağa tapşır ki, yalan danışmasın. Bunu uşaq heç vədə qəbul eləməz. Uşağın yanında doğru danışmalıdır ki, o da doğruçuluğu öyrənsin. Yaxşı deyilmi ki, Avropanın əsrlərcə qazandığını biz də əxz eləyək? Dəxi zəmanəyə müvafiq olmayan fikirlərə niyə meydan veririk?

"AÇIQ SÖZ" DÖVRÜ

Rus-yapon müharibəsi bizə "Həyat" ilə "İrşad"ı bəxş etmiş idi. Böyük Avropa davası da "Açıq söz"ü vücuda gətirdi. Məsləksiz mətbuatdan inciyib kənara çəkilmiş mühərrirlərimiz yenə də qəzet başına toplandılar. Dərdlərimiz müzakirə olunur, halımızı təsvir edirlər.

Yaxşı olardı ki, müqtədir yazıçılarımızın "Açıq söz" başına toplanmaları ittifaqı olmayaydı. Bunlar himmət edib, həmişəlik olaraq bircə də olsa ləyaqətli bir qəzetin davamına çalışa idilər. Yazmalı dərdlərimiz çoxdur. Qara camaatımızı öyrətməlidir. Bunun üçün də artıq bilikli olmalıdır. Ala-yarımçıq xəbərlər, kəsik-küsük biliklər camaatı yoldan çıxardır. Camaata bütün məlumat verməlidir. Bunun üçün də qəzetdə iştirak etmək üçün mütəxəssislər dəvət etməlidir.

Mərhum Həsən bəy Məlikzadənin zəmindarlığa dair böyük əsərləri var. Gərək bunlar çoxdan təb oluna idi. Lakin himmətsizliyimiz sayəsində onlar ortalıqda yox olub gedir. Barı, heç olmasa, Həsən bəyin əsərlərini mürurla qəzetlərdə çap eləyə idilər. Onlardan camaatımıza böyük mənfəətlər hasil olar. Qonşularımız erməni və gürcülər zəmindarlıq cəmiyyəti qayırıb kəndçilərinə təzə üsulla yer əkmək öyrədirlər. Əkinəcək torpaqlarını mühafizə edirlər ki, əcnəbilərə satılmasın. Bizim cəmiyyətimiz olmamağı bəs deyildir, bu barədə qəzetlərimizdə bircə söz də yazılmır. Halbuki torpaq məsələsi millət üçün həyati və zəruri məsələlərdən biridir. İqtisadi məsələlər bu saat cəmi dünyanı məşğul eləyir. Hər kəs öz millətini varlı və tavanalı eləməyə çalışır. Çünki yoxsul xalq tərəqqi edə bilməz. Bu fikri əmələ gətirmək üçün iştirakı-əməliyyat (kooperasiya) tərtib edirlər. Bu şirkətləri cəmi şəhər və kəndlərə yayırlar, xırda borc bankları açırlar, xalqa pul lazım olanda əllərindən tuturlar...

Bizim camaat isə fəqirlik torbasını daşıyır.

Elmsizliyi cəhotinə hər kəs başına vurub onun çörəyini əlindən alır. Tamahkar tacirlər bir tərəfdən, müamiləçilər də bir tərəfdən yazıq millətin qanını sorurlar.

Bu barədə qəzetlərdə yazan yox, iş görən yox.

Arvad məsələsi millətin tərəqqisi yolunda böyük maneə təşkil edirdi. Bu məsələ barəsində danışıldı. Arvadların elmsiz olmalarının nəticələri ortalığa tullandı. Şükürlər olsun, məsələ həll olunmağa üz qoydu. Qız məktəbləri açıldı, atalar həvəslə qızlarını məktəbə göndərdilər. Ancaq məsələnin vacib tərəfi qaldı kənarda. Tərbiyənin mahiyyət və keyfiyyəti haqqında dinən olmadı. Bir qəzet yoxdur ki, "cəmi pis hərəkətlərimiz tərbiyəsizlikdəndir" deməsin. Bu "tərbiyəsizlik" sözünü qəzetlər təkrar-təkrar söyləyiblər və söyləyirlər. Lakin bircə mühərrir isə də tərbiyə barəsində oxuculara məlumat vermədi, oxucular da tərbiyənin nədən ibarət olmağını bilmirlər.

Bu barədə gərək yazıla idi, həm də çox yazıla idi. Bu məsələyə dair Avropada cərəyan edən fikirlər camaatımıza bildirilməlidir.

Məsələlərimiz çoxdur. Dərdlərimiz başdan aşıb. Deyib danışan yoxdur. Müəyyən fikirlər var ki, Avropada hüsula gəlib, bizim camaata məlum deyil. Mətbuatımız bu halda qalsa, o fikirlər yenə bizim üçün gizli qalacaq. Yazılmalıdır, kamil yazılmalıdır. Öyrənməmişdən qəzet başına gəlməməlidir. Yoxsa "qaş qayırdıqda göz çıxarılar".

Oxucuları təkcə Avropa davası ilə məşğul etmək fayda verməz, bu ötəri bir şeydir. Bu gün var, sabah yoxdur. Bizə varlığımız ilə həmişə mərbut olan məsələlərin müzakirəsi lazımdır. Bu barədə danışmalıdır, oxucuların rəğbətini buraya döndərməlidir...

Məzhəkənəvislik yıxdığı binaları yenidən tikməlidir. Məharət göstərməlidir. Mətbuat müvazinətini düzəltməlidir. Bunun üçün də ləyaqətli qəzet və jurnallar nəşr etməlidir.

Məsləkin sabitliyinə, məlumatın salamatlığına diqqət etməlidir. Bu yolda möhtərəm "Açıq söz" və "Yeni iqbal"ın vəzifələri böyüyür. Müvəffəqiyyətlərini haqdan diləyirik.

1916

AZƏRBAYCAN MUXTARİYYƏTİ AYILIN, TOPLAŞIN!

Türk millətinə xitab

Əsrlərlə qılınc zərbəsi ilə istila olunub, millətlərin qan və göz yaşları ilə bir-birinə bitişdirilən torpaqlar başsızlıq sayəsində məhv olub gedir. Şəddadın zülm ilə abad olmuş imarəti uçur, dağılır. Böyük ölkə bir-birinə dəyir: Rusiyanın qiyaməti qopur. Geniş bir dövləti mərkəz bir orta idarəyə qadir deyil. Hökumətə gündə bir adam daxil olub, biri çıxır. Sabit idarə yox, nizam yox, qayda yox, əmin-amanlıq yox. Güclü gücsüzü döyür, əzir və təhqir eləyir; abrı və namusu ara yerdə gedir. Başsızlıq gün-gündən ölkəni ağzına alır; nahaq qanlar tökülür, abadanlıqlar talan olunur.

Bu hal getdikcə şiddət eləyir və eləyəcək, aləm viran olur və olacaq. Rusiya hökumətindən cəmi millətlər ümidini çəkib öz başını öz ətəyinə bükməyə başlayır. Rusiya millətləri hərə öz cəmiyyət və şuraları ilə idarə olunmağa üz qoyur, qoşun toplayırlar. Hər millət öz fərdini axtarıb tapır; əl-ələ verib camaatın halına qalır. Çünki milli himmətdən savayı özgəsi milləti bu dəhşətli zamanda müdafiə eliyə bilməz!

Bu sətirləri millətlər şurasından qayıdarkən yazıram. Orada eşitdiyim məruzələrdən sónra od tutub yanıram. Çünki cəmi millət öz yükünü təpəyə vurub və vurur. Biz isə köhnə ətalət və kəsalət ilə yaşayırıq.

İndiyə kimi bizim nə mərkəzi bir şuramız, nə milli bir idarəmiz var. Qafqazda sayda hamıdan artıq ola-ola, əlahiddə bir millət təşkil edə-edə, mal və dövlətə malik ola-ola öz milli işimizi öz əlimizə ala bilmirik.

Ey nəcib türk milləti, ayıl! Bir rəşadətli balalarını yad et! Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalandığın kifayət edər.

Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır. Ədəmi mərkəziyyət binası qurulur. Ölkə federasion üsuli ilə idarə olunmaq istəyir.

İndiyə kimi Peterburq hər millət üçün qanun yapıb, əmrlər veriyordu, indi isə qanunları millətlərin milli məclisləri yazacaq. Hərənin öz malı, öz dövləti, öz səadəti özünə məhvəl olacaq.

Pəs böylə bir gözəl yaşayış üçün niyə çalışmırsınız? Niyə fürsəti fot eləyirsiniz? Keçirirsiniz. Sonra peşman olarsınız! Bu zaman firqəbazlıq zamanı deyil. Onlar üçün sonralar da vaxt olacaq. İndi toplaşın, milli idarə yapın, sonra firqə qeylü qalını salarsınız.

Ey "Hümmət"çilər! Ukraynanın cəmi firqələri ittifaq edib, Ukrayna muxtariyyətini yapdılar. Muxtariyyət olmasa, ölkə başsızlıq bəlasından xilas olmasa, orada firqə həyatı da olmaz. Pəs əqidə davası eyləmək zamanı deyil. Mərkəziyyəti öldürüb, yerində ədəmi mərkəziyyət payidar edilməlidir. Milli idarə qoy çöl tərəfdən düzəlsin, sonra içini düzəltdikdə mübahisə edərik.

Ey dini firqələr! İslamiyyəti hər şeydən qabaq tutursunuz. Bizim dediyimiz sizin əqidəyə zidd deyil. Əlimizdə milli idarə olsa, din şərafəti də artar. Köhnə idarə tərəfindən dinimiz hər an, hər dəqiqə təhqir olunurdu. Yeni idarə üçün çalışmalı ki, tahı bir də o qədim vaxtlar geri qayıtmasın!

Ey dövlətlilər! Pul qazanmaq asandırsa da, saxlamaq bu saat çətindir. Çünki dərəbəylik zamanında heç kəsin canı və malı əminamanlıq tapmayacaq. Əgər istəyirsiniz ki, mal və dövlətiniz əlinizdə qalsın, qazandığınız pulların bir hissəsini millət sandığına verin milli idarə yapmağa sərf eləsinlər. İnanın ki, milli idarəmiz olmasa, can, mal və namusunuz əldə qalmayacaq. Rusiyada törəyən işlərdən sizin xəbəriniz yoxdur. Bunun axırı çox pərişan olduqda da sədəməsi ancaq bizə toxunacaq. Çünki biz millət işinə nəzər yetirmirik. Ayılmaq vaxtıdır, ey cavanlarımız! Eyş-işrət zamanı deyil! Hər millətin cavanları millət üçün imarətlər yapırlar. Gecə-gündüz çalışırlar. Məgər siz onlardan əskiksiniz? Onlarda olan zor, qüvvə sizdə də var. Rəşadət və cürətdə siz onlardan da irəlidəsiniz. Böylə olduqda pəs sizin səsiniz niyə gəlmir? Niyə Azərbaycan türklərinin bayrağını uca tutmursunuz?

Ey cavanlar! Cəmi millətlər sizin işə diqqət ilə baxır. Sizdən qeyrət gözləyirlər. Pəs siz haradasınız?

Ədəmi mərkəziyyət fikrinin başında toplaşın: "Müsavat" firqəsinə yazılın! Yatmışları oyadın. Onları federasion nuru ilə işıqlandırın! Durmaq zamanı deyil. Bir mərkəzə tabe Rusiya uçurum qarşısında durub, bizi də çəkib aparmaq istəyir. Məmləkəti bu haldan qurtarın; onun idarə ixtiyarının bir hissəsini Qafqaza gətirib öz əlinizə alın.

Ey ziyalılar! Qafqaziyanın böyük və bərəkətli bir qismi biz Azərbaycan türklərinindir. Burada torpağın və mülkün çoxu bizim,

dövlət bizim, onda yaşayan millətin çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim... Pəs allahın o gözəl nemətindən niyə üz döndərirsiniz? Cürət ediniz, iş görünüz! "Müsavat" şöbələrini hər şəhər və kəndlərə yayınız! Durmaq zamanı deyil; bir az səbr eləsəniz, gözəl ölkəmiz fut olub əldən gedər!

Qorxmayın, tutduğunuz işdə sizi heç kəs təqsirləndirməz. Çünki pis fikrə düşmürsünüz. yapdığınız təşkilat ilə həm Rusiyanı hifz edirsiniz, həm Azərbaycanı.

Ey bəylər, xanlar, mülkədarlar! Öylə güman eləməyin ki, Azərbaycan muxtariyyəti sizi uçurub dağıtmaq fikrindədir. Muxtariyyət uçurmaq üçün yaranmayıb, bəlkə yaratmaq və bina etmək üçün yaranıb. Muxtariyyət onun üçün düzəlir ki, dərəbəylik zamanında millətin mal və canı sağ və salamat qalsın. Muxtariyyət onun üçündür ki, namusumuz ayaqlar altına düşməsin.

Ey türklər! Qars-Ərdəhan müsibətləri, Urmu, Qəsri-Şirin və qeyri yerlərin talanı sizə bunu öyrətdi ki, başsız və pərakəndə milləti hər yetən döyür, incidir və öldürür. Zəmanə böylə xarab zəmanədir ki, ağlamağa, göz yaşlarına qulaq asan olmur. Zəmanə iş zəmanəsidir.

Məgər neçə milyon türkün gücü yoxdur? Güc var. Ancaq dağınıq gücdür. Böylə güc faydalı olmaz. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik. Ədəmi mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, İrəvan, Batum və Qars vilayətlərindəki türklər mal, və namusunu mühafizə eləsin. Həm halhazırda, həm gələcəkdə asudə və səadətli yaşamağını təmin eləsin.

Toplanın! Qoşun düzəldin! Zərurət vaxtı ölkəmizi əmin-amanlığa çıxardan milli əsgər olacaq. Ləngiməyin: "Fürsəti fot eliyən aqil deyil, divanədir"!

Kiyev, əvvəli – noyabr, 1917

I. MUXTARİYYƏT NƏDİR

Oxucularımız muxtariyyət sözünü çox eşidib. Çünki qəzetələrimiz bu sözü hər gün işlədir. Ola bilər ki, muxtariyyətin mənasını çox adamlar başa düşməsinlər. Bunu dürüst bilmək üçün sizə bir məsəl gətirim. Götürək bir türk kəndini. Tutaq ki, bu kənddə on beş daxma var. Bir gün bu kəndin adamları bir yığnaq qururlar və öz-

lərinə bir məclis təşkil edirlər. Bu məclis başlayır kəndi dolandırmağa. Hər kəsin nə dərdi oldu, məclisə deyir və məclis də çarə arayır. Bu gün tutaq ki, kənddə birisi vurub bir adam öldürür. O saat məclis işə baxır və təqsiri olanı tənbeh eləyir. Tutaq ki, su üstə qeylü-qal çıxıb. Genə məclis işə baxır, hərənin haqqını özünə verir. Hər kəs ki, dəcəllik eləyib, məclisə qulaq vermək istəmir və camaatı incidir, dəcəl adamı məclis tutub tənbeh eləyir. Xülasə, camaat bəyəndiyi adamlardan əmələ gələn bu məclis kəndin cəmi işlərini sahmana salır. Məktəb açır, azarxana düzəldir, yollar salır, körpülər tıkdirir, işsiz camaata iş verir, torpaqsıza torpaq tapır, fəqir və əlsiz-ayaqsız adamlara kömək eləyir və qeyri və qeyri...

Belə xoşbəxt kəndə muxtariyyətli kənd deyirlər.

İndi Rusiyada hər bir millət özünə muxtariyyət istəyir. Yəni istəyirlər ki, cəmi millət işini hökumət çinovniklərinin əlindən alsınlar.

Muxtariyyət, yəni öz əli, öz başı olmaqlıq. Muxtariyyətli bir millət ölkəsinin, yəni şəhərlərinin, kəndlərinin, əkin yerlərinin, meşələrinin, mədənlərinin və qeyri mallarının ixtiyarını öz tanıdığı millət adamlarının öhdəsinə verir. Bu adamlar da milləti dolandırır. Millətin nəyə ehtiyacı olsa, ona çarə axtarır. Millət rahat və farağat yaşayır. Millət başında duran adamlar camaatı dürüst dolandıra bilməsələr, onda millət qeyri adamlar seçə bilər. Deməli, muxtariyyətin əsil dediyi budur ki, cəmi işlər ölkədə camaatın xahişi ilə əmələ gəlsin. Yəni güclü gücsüzə cəfa çəkdirməsin; xalqın malı, dövləti, canı və namusu özgələrin kefinə qurban olmasın.

Rusiyada qeyri millətlər özünə muxtariyyət düzəldən kimi bizim müsəlmanlar da bu yolda çalışırlar. Ən qabaqda gedən krımlı qardaşlarımızdır. Türküstanlılar və başqırdlar da muxtariyyət elan elədilər. Yəni cəmi dünyaya elan elədilər ki, bundan sonra öz işlərinə özgələri qarışmağa qoymayacaqlar. Növbət indi bizə yetişir. Bizim də ki bir dövlətli ölkəmiz var. Biz də başsızlıq bəlasına giriftar oluruq. Bizi də nahaq yerə qırırlar, talayırlar və incidirlər. Bunların da səbəbi budur ki, bizim ölkəni dolandıran özgə millətlərdir. Əlbəttə, dini dinimizdən, dili dilimizdən olmayan bir millətin bizə canı heç də yanmayacaq. Amma ölkəmiz öz vəkillərimiz əlinə düşsə, bizim də dərdimizə yanarlar.

Ona görə çalışmalı ki, vaxt ikən muxtariyyət qazanılsın.

II. MƏHƏLLİ MUXTARİYYƏT

Muxtariyyət iki cürdür: birinə mədəni muxtariyyət və o birinə məhəlli muxtariyyət deyirlər. Mədəni muxtariyyət özgə millətlər ilə qarışıq olub özünə məxsus əlahiddə torpağa malik olmayan millətlərə əlverişlidir. Edilboyu tatarlar ruslar ilə qarışıq olduqlarına görə özlərinə milli və mədəni muxtariyyət istəyirlər. Bunların xahişi budur ki, dil, din və adətlərinə mane olunmasın. Şəxsi hürriyyətləri təmin olunsun.

Mədəni muxtariyyətin böyük eybi budur ki, onu mühafizə eləməyə millətin əlində lazımi bir qüvvə yoxdur. Mərkəzi hökumətdən nə növ təğyir olsa, siyasətin nəticəsi mədəni muxtariyyətli millətlərə də sirayət edər. Deməli, bu gün məmləkətin başına pis fikirli vəzirlər gələrlərsə, siyasəti dəyişib millətlərin hüququnu ayaq altına salarlar. Məhəlli və milli muxtariyyət isə böylə deyil.

Məhəlli muxtariyyət torpağa malik olub, bir millətdən ibarət olanlara əlverişlidir. Məsələn, Türküstan və ya Başqırdıstan. Türküstanda sakin türklər arasında qeyri millətlər yox kimidir. Türküstanlıların özlərinə məxsus dilləri və adətləri var. Bu millət məhəlli muxtariyyətə malik olduqda tez tərəqqi eylər. Özünəməxsus qoşunu və milli məclisi olduqda mərkəzi Rusiya hökumətində baş verən təğyirdən qorxmaz. Çünki mərkəzi hökuməti Türküstanın daxili işlərinə qarışmağa qoymaz. Köhnə istibdad zamanı rus padşahlarının zülmü nə qədər ağır idisə də, Finlandiya muxtariyyətinə dürüst kar edə bilmədi. Çünki finlər öz torpaqlarına pənah aparıb, məhəlli məclisləri ilə öz haqlarını əldə saxlaya bildilər.

Biz, Azərbaycan türkləri, bir millətdən ibarət olub, geniş bir torpağa malik olduğumuz üçün muxtariyyət binası qurmaq istəyirik. Ölkəmizin sərhədi Dərbənd şəhərindən tutmuş Osmanlı məmləkətinə qədər və Batumdan tutmuş Xəzər (Kaspi) dənizinin qiblə tərəflərinədəkdir. Paytaxtımız Bakı şəhəri olacaq. Çünki, bu şəhər bizə həmişə yol göstərib və bizə kömək əli uzadıb. Bakı şəhərində millət məclisi qurulacaq və bu məclisə Azərbaycanın hər bir guşəsindən camaat vəkilləri göndəriləcək. Vəkillər o məclisdə camaatın dərdlərini və diləklərini bildirəcək və ona görə əlaclar ediləcək. Millət məclisi Azərbaycanımız üçün qanunlar yazacaq, biz də ona əməl edəcəyik. Millət məclisinin buyruqlarını yerinə yetirmək üçün

milli hökumətimiz olacaq. Millətə lazım olan tədbirləri millət vəkilləri tökəcəklər və əmələ gətirmək üçün milli hökumətə veriləcək. Milli hökumətimiz bizim malımızı, canımızı, namusumuzu hifz eləmək üçün var qüvvəsilə çalışacaq.

III. MUXTARİYYƏT BİZƏ NƏ VERƏCƏK?

Rusiya bu saat alt-üst olur. Başsızlıq o qədər artıb ki, sabaha sağ çıxmağa ümid yoxdur. Azərbaycan da Rusiya kimidir. Bir tərəfdən rus saldatları camaatımıza qorxu çəkdirir, o biri tərəfdən də camaatın özü dinc durmur; bir-birinin canına düşüb, həlak eləyir. Qamçı gücü ilə tərbiyə almış camaat qamçıdan xilas olan kimi qəfəsdən çıxan bir yırtıcıya bənzəyir. Ölkə nizama salınmalıdır. Köhnə rus hökuməti öldü. Təzəsi yoxdur. Olsa da ondan bizə bir o qədər fayda olmayacaq. Çünki, "tat dilini tat anlar". Bizim milli və dini ehtiyaclarımızı özümüzdən başqa özgəsi düşünə bilməz. Böylə olduqda cəmi məsələlərimizin həllini millət məclisindən gözləməli. Ən əvvəl millət məclisinin borcudur ki, ölkəmizi dərəbəylik bəlasından qurtarsın. Çünki bu nizamsızlıq uzun çəksə, camaatımız tərk olub gedər. Ümid budur ki, muxtariyyətimiz başa gələn kimi, milli qoşunumuz vasitəsilə Azərbaycanda əmin-amanlıq hasil olar.

Torpaq məsələsi də həllini muxtariyyətdən gözləyir. Kəndçi və əkinçilərimiz torpaq üstə çox müsibət çəkiblər. Bir tərəfdən torpaq azlığı, o biri tərəfdən köhnə hökumətin vətənimizə yerləşdirdiyi malakanlar (mühacirlər) işi qarışdırıb. Millət məclisi öylə qanun yazacaq ki, torpaqsızlara torpaq paylanacaq. Kəndçinin güzəranı yaxşılaşacaq. Tahı güclülərdən yumruq görməyəcək. Fəhlə qardaş da ümidini muxtariyyətimizə bağlamalıdır. İndiyə kimi fəhləni adam sayıb eyləmirdilər, onu incidirdilər, pulunu kəsirdilər. Biçarə fəhlələr gündə zavodlarda və neft quyularında hədər yerə tələf olurdular. Onların qeydinə, külfətinin imdadına çatan olmurdu. Güclülər fəhlələrin zoru ilə pul qazanıb kef eləyirdilər, fəhlələr isə sabahın çörəyinə möhtac idilər.

Bu müstəbidlər muxtariyyətimizin gücü ilə ortalıqdan götürüləcək. Xülasə, hər kəsin nə dərdi var, əlacını millət məclisindən gözləsin. İndiyə kimi ana dilində məktəb açdıqda rus hökumətindən

qorxurduq. Çünki rus hökumətinin fikri bu idi ki, bizi dinimizdən, dilimizdən, dədə-baba adətlərimizdən geri salsın. İndi Allaha şükür, səy eləyirlər ki, Azərbaycanın özünün hökuməti olsun. Bu hökumətin də çox adamları müsəlman olduğu üçün, hər bir məsələmiz özümüzün xahişi ilə əmələ gələcək. Deməli, camaata o ki lazımdır, ana dilində məktəblər açılacaq. Oxumaq xərci ucuz olduğu üçün, hamı oxuyub yazmaq bilib, elm öyrənəcək. Elmi olan millət dünyada asanlıqla yaşaya bilər. Bizim də cəmi fikrimiz budur ki, nəcib millətimiz özgələrə möhtac olmayıb, rahat dolansın. Dünya beş gündür. Bu dünyada bolluq, salamatlıq ilə ömür eləməlidir. Öylə eləməlidir ki, dirilik, xoşbəxtlik olsun. Bunun da nicatı muxtariyyətimizdədir.

IV. MUXTARİYYƏTƏ LAYİQİK

Yüz il olur ki, biz türklər rus qılıncı zorilə Rusiyaya tabe olmuşuq. Amma bu yüz ildə bəzi bərədən istiqlaliyyətimizi əsla unutmadıq. Məsələ, bir xeyli rus dəftərxana və məhkəməsini tanımaq belə istəmədik. Aramızda baş verən çox işlərdə məsləhət yerimiz həmişə ağsaqqallar olurlar. Ağsaqqallar qanlıları barışdırırlar; birbirindən incimiş ər-arvad arasında barışıq yaradırlar; iki adamın biri bir hadisədən zərər gördükdə zərəri təqsirkardan alınıb zərərdidəyə verilir. Böylə adətlər aramızda hökmdür. Rusiyada sud gördüyü işi bizlərdə qazı və ağsaqqallar görürlər.

Bunun səbəbi nədir? Bu degilmidir ki, bizim camaat öz milli işlərini özgə əlinə verməyi istəmir, baxın görək az vaxtadək camaatımız hökumət məktəblərinə nə nəzər ilə baxırdı. Uşaqlarını etibar edib, oraya göndərmirdi. Camaatımızın cəmi meyli öz milli idarəmizə və öz adamlarımızadır. Bu dəlil istəməz. İndiyədək mədəni olmamağımıza səbəb Rusiyanın mərkəziyyət üzrə yapılmış idarəsi idi. Oradan bir qədər rus göndərirdilər gəlib adət və qaydasından, dil və dinindən xəbərdar olmadığı bir milləti idarə eləyirdi. Asırdı, kəsirdi, vergi yığırdı, bolluca da rüşvət alıb, otururdu yerində. Camaatımız da bu çinovniklərə əsla etibar eləməyib öz qədimliyində qalırdı. Çinovniklər öhdələrinə götürdükləri təzə işləri qəbul etmək istəmirdi. Amma hərgah vaxtında bizim muxtariyyətimiz olsaydı, hər işin başında öz adamlarımız dursaydı, camaatımızın etibarını qazanıb xeyirli işlər görərdilər.

Xülasə, keçən keçib. Allah gələcəyi bərəkətli eləsin. İndi də muxtariyyətimizi başa gətirsək, gec deyil. Şükürlər olsun ki, yaxşı iş görən adamlarımız da var. Hal-hazırda Azərbaycanın idarəsini öz əlimizə götürməyə biz qadirik.

V. MUXTARİYYƏTİ NƏ CÜR ALA BİLƏRİK

Muxtariyyət yolu axtardıqda gərək mürşidimiz Ukrayna dalınca gedək. Ukrayna əvvəl mərkəzi bir məclis qayırıb işə başladı. Əsla bu məclis dürüst seçilmiş də deyildi. Sonra qurultaylar dalbadal çağrıldı. Cəmi firqələrin və qeyri cəmiyyətlərin qurultayları mərkəzi Ukrayna məclisini təsdiq edib üzvlərini artırdılar. Sonra hökumət əmələ gəlib qeyri işlər də yavaş-yavaş islaha düşdü.

Ukraynanın məqsədə nail olmağının ümdə səbəbi bu oldu ki, cəmi firqələr muxtariyyət barəsində həmfikir oldular. Cürbəcür fikir və məsləkə tabe adamlar əl-ələ verib müttəfiq bir halda millət imarətini tikməyə başladılar. Məlumdur ki, ittifaq olan yerdə də iş aşar gedər. O yerdə ki, nifaq oldu, orada xeyir və bərəkət olmaz.

Deməli, bizə ən əvvəl lazımdır ki, bir qurultay çağırıb cəmi firqə, cəmiyyət, komitə və şuralarımız arasında muxtariyyət almaq üçün razılıq hasil edək. Öylə ki, razılıq əmələ gəldi və ortalıqdan küdurət və sözgüləşdirmə götürüldü, onda dərdimizin yarısına dava tapılmış kimidir.

Sonrakı fikir millət məclisidir. Bu məclis ki, əmələ gəldi və camaat ki, onu təsdiq etdi, məclis milli işlərimizi yüngüllük ilə yola verə bilər.

Vacib məsələlərimizdən biri də milli qoşundur. Milli qoşun düzəlsə, ölkəmizdəki başsızlığı fövrən ortadan qaldırmaq mümkündür.

Bir də başsızlıq və qarışıqlığın ümdə səbəbi camaatın aclığıdır. Hərgah bizdə muxtariyyət tezlik ilə başa gəlsə, aclığı da tez yox etmək olar. Məsələn, Ukrayna dövlətində bolluca çörək və qənd var. Azərbaycanda da bol neft var. Milli hökumət olsa, Ukrayna ilə alış-veriş başlardı; neft verib əvəzində çörək və qənd alardı. Camaatımız da bu iki şeydən çəkdiyi əziyyəti çəkməzdi.

Bu saat cəmi Qafqaz müsəlmanlarının canını qara qayğı alıb ki, Osmanlı sərhədindən qayıdan bir milyon qoşun kənd və şəhərlərimizdən keçərkən aləmi kor qoyacaqlar: can və mal tələf edəcəklər, xanimanlar yaxacaqdırlar, arvad və uşaqlarımızın namusuna satışacaqdırlar. Hərgah bizim muxtariyyətimiz olsa, bizim nizamlı qoşunumuz olsa, biz rus saldatından əsla qorxmarıq. Onlar qayıdan yollara öz milli əsgərlərimizdən düzərik; dahı birinin hünəri olmaz ki, müsəlmanın malına və canına qəsd eləsin.

VI. MUXTARİYYƏTİMİZİN ƏSİL ƏSASI

Muxtariyyətimizin əsil əsası ədalət ilə qurulmalıdır. Ədalət olmaz isə, binamız başa getməz. Rusiya zülm ilə abad olmuşdu. Axırda ədl ilə bərbad oldu. Ədalət də onda olar ki, Allahın yaratdığı insanların birinə pis və o birisinə yaxşı nəzər ilə baxmayasan. İnsanlar bərabərdirlər, istər arvad, istər kişi; istər erməni, istər rus və ya müsəlman hüquqda gərək şərik olsunlar. Azərbaycan muxtariyyəti üçün millət ayrılığı gərək olmasın. Qanunlarımız da gərək bu əsas üzrə yazılsın. Məmləkətimizdə ədalət olar isə, cəmi millətlər ona sədaqət ilə qulluq edərlər. Yox, əgər olmaz isə, ağacı içindən qurd yeyən kimi, gözəl ölkəmizi düşmənçilik və küdurət tərk edib viranəyə döndərər. Və hərgah bunların arasında xüsumət olsa, səbəbləri tapılıb yox edilməlidir. Səbəb yox olduqda düşmənçilik də özözünə yox olar.

dekabr, 1917, Kiyev

MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

I. ÜMUMİ KİTABXANA

Bakıda ümumi bir kitabxana açılmasını qəzetlərdə oxumuşduq. Sonra bu məsələ unudulmuş kimi göründü. Halbuki kitabxananın bizim üçün o qədər əhəmiyyəti var ki, çoxdan bu yolda çalışmalıydıq. Kitabxana açmaq bir o qədər də çətin iş deyil, təşəbbüs olunsa, pulsuz belə bir çox kitablar toplamaq olar. Ümumi kitabxana fikri birinci olaraq Kiyev Müsavat komitəsini düşündürdü. İlyarım

əqdəm komitə Bakıda ümumi kitabxana təsisinə qərar verdi və min cildə qədər kitab ələ gətirdi. Kitablar iqtisadi, siyasi, ictimai və başqa məsələlərə aiddi. Avropalıların islam və türk aləminə olan nəzəriyyələrinə dair bir çox kitablar var. Fikir bu idi ki, kitabxananın bir qismi islam məsələsinə sərf edilmiş və islama dair nə qədər əsərlər yazılıbsa, ələ gətirilsin. Təəssüf ki, inqilab bir çox maneələr təşkil etdi və kitabxanamız da Kiyevdə qaldı. Bakıya gətirə bilmədik. Bu gün bu məsələ yenə önümüzdədir. Gələcəkdə də bizdən əl çəkməyəcəkdir. Bu gün bu məsələnin həllinə çalışmalıdır.

Milli işlərimizdə hər şeyi hökumətdən gözləməməlidir. Xüsusi təşəbbüslər də lazımdır. Bu barədə zəhmətkeş ziyalılar ittifaqı işə girişməlidir.

"İttifaq" bütün səyini kitabxana məsələsinə həsr etsə, böyük iş görər. Kömək üçün hökumətə müraciət olunsa, hökumət müzayiqə etməz, zənnindəyəm. Kitab ələ gətirmək üçün xaricdəki səfarətlərimizə və konsullarımıza müraciət edilsə, türk, fars, ərəb və Avropa dillərində qiymətli əsərlər ələ gətirmək olar.

Bunları deməyə lüzum yoxdur. Kitabxana açmağa meyil olsa, yolu da tapılar. Milli adamlar bulunmalı.

Kitabxanamızın olmaması bizə çox zərərlər verir. Rusiyanın böyük şəhərlərində yaşadıqda və bir məsələ ilə maraqlandıqda, o saat ümumi kitabxanaya gedirsən. Səni maraqlandıran məsələyə aid bir neçə cild kitab alıb çəkilirsən kitabxananın böyük salonuna, nə lazımsa o kitablardan yazıb götürürsən. Bir şeyi yazmaq üçün nə məlumat lazım isə asanlıq ilə almaq mümkündür. Bizdə isə belə deyil.

Bu günlərdə bu sətirləri yazana bir qədər keçmiş yazıçılarımıza dair məlumat lazım idi. Şəhərdə kitabxana yox, xüsusi kitabxanam da yanımda deyil. Axırda bütün şəhəri ayaqlamaq məcburiyyətində qaldım.

İştə yazıçı üçün nə qədər müşkülat...

Hərgah milli fikrimizə, milli sözümüzə meydan verilmək istəyiriksə, tezliklə ümumi kitabxana açmalıdır.

II. NƏŞRİYYAT CƏMİYYƏTİ

Xalq üçün asan dildə faydalı kitablar nəşr etmək üçün özgə millətlərdə nəşriyyat cəmiyyətləri var. Bu cəmiyyətlər ucuz qiymətə millətə gözəl kitablar verirlər.

Heyfa ki, bizdə belə cəmiyyətlər yoxdur və olmayıbdır. Yalnız Kiyev tələbələrimizin "Nəşriyyat heyəti" türk dilində üç kitabça təbi ilə işlərinə xitam vermişdir.

Nəşriyyat cəmiyyətlərinə olan ehtiyac bizdə başqa millətlərdən çox-çox böyükdür. Çünki naşirlərimiz yox mənziləsindədir. Bir Orucov qardaşları var idi. Şimdi onlar da nəşriyyat işlərindən əl çəkmişlər. Bizim millət üçün ticarət məqsədilə açılan müəssisə xeyir verməz. Bu yolda hökumətimiz və ya xüsusi cəmiyyətlərimiz çalışmalıdırlar. Yaxşı olardı ki, maarif nəzarəti nəzdində bir heyət təşkil olunaydı və bu heyətə kitab möhübləri dəvət olunaydı. Firidun bəy Köçərli həzrətləri məktəbdə müdirlik edirlər. Müdir üçün başqa adamlar da tapmaq olar. Amma Firidun bəyin ədəbi vəzifəsini kimsə görə bilməz. Firidun bəyi maarif nəzarəti nəzdində açılacaq olan nəşriyyat şöbəsinin başına dəvət etməli və birinci olaraq ədiblərimizin əsərlərini basdırmalıdır. Nəşriyyat şöbəsinə əza olmaq üçün Salman Mümtaz çox faydalı olar.

Mümtaz cənabları kitab möhübbü olduğu üçün çox qiymətli əsərlər toplamışdır. Onun kitabxanasında bir çox ədiblərin əlyazmaları mövcuddur.

Köçərli ilə Mümtaza nəşriyyat işlərimiz tapşırılsa və onlara pullar təxsis olunsa, az bir zamanda gözəl nəticələr meydana çıxar, zənnindəyəm.

Hansı yolda qənaət olunsa, nəşriyyat üçün gərək qənaət olunmasın. Çünki bu günlər basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, sərf olunur və əməli nəticələr də vermir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayələr vücudə gətirir. Bütün gələcəyimiz, mədəni binalarımız, tərəqqi məhsullarımız bu sərmayə üzərində binalanacaqdır.

Pəs sərmayə üçün çalışmalıyıq və onu əhali əlinə verməliyik.

III. MİLLİ MƏCMUƏ

Bizdə heç vədə milli məcmuə təb olunmayıb desək, səhv etmərik. Nə "Füyuzat", nə "Şəlalə", nə sonra çıxan məcmuələr milli olmuşdur. "Füyuzat" yolu itirdiyi üçün müaqibləri də onu təqlid etmişlər. Hankı məcmuə çıxmağa başlarsa, Hindistan və Misir camilərinin təsvirini qeyd edərək, ümumislam aləminə aid şeylər yazar.

Halbuki birinci bizi həvəsləndirən məsələ Azərbaycanımız gərək olsun: onun üçün milli məcmuəni başdan-başa Azərbaycan ilə doldurmalıdır. Bərəkət versin ki, tariximiz, ədəbiyyatımız, teatro musiqimiz və başqa mədəni məhsullarımız çox-çox var. Bunlara dair yazılsa, həm özümüz özümüzü, həm də əcnəbilər bizi tanıyarlar. Vətənimizdə bir çox tarixi binalar var. Hər nömrədə bunun birinin rəsmini qeyd edərək, ətraflıca məlumat verməlidir.

Ticarət məsələləri məmləkətin can nöqtəsidir. Buna dair statistika saxlamalı, ölkəyə nə qədər mal gəlir, ölkədən nə qədər mal çıxır, xaricdə bizim nə kimi mallarımız kimlər tərəfindən alınır, müştərilərimiz nə növ mal sevir, bazarın övzai nə təhərdir?

Yazmalı min şey var. Bizdə yeni-yeni qüvvələr və istedadlı cavanlar çıxır. Bunlara meydan verməli, vergilərinin yolunu təmizləməlidir. Yoxsa bir çox təb və qabiliyyətlər məhv olub gedər.

Milli məcmuədə əksər səhifələr Azərbaycana həsr olunmalı və sonra bütün aləmi-islama və Avropa mədəniyyətinə. Millətimizin təbii tərbiyə və başqa məsələlərə ehtiyacı var. Amma bu yolda heç bir şey yazılmadı. Yazmalı, yazdırmalı, tərcümə etməli. Yeni şeylər vücudə gətirməlidir. Yeni şey də onda olar ki, əvvəlcə ərəb və fars aləmini təsvir etməkdən daşınıb, türk aləmini və bilxassə Azərbaycanı təsvir edək.

IV. KÖÇƏRLİNİN ƏSƏRLƏRİ

Hər bir insanın mahiyyəti və məzmunu onun fikri və işi ilə bəlli olan kimi, millətin də bütün istedadı və qabiliyyəti, qüvveyi-fikriyyə və xəyaliyyəsi onun ədəbiyyatında bəyan olunur. Bir milləti öyrənmək üçün onun tarixi ilə bərabər ədəbiyyatını da öyrənirlər. Millətin, mənəvi həyatı geniş bir surətdə xalq ədəbiyyatında inikas eyləyir. Burada şəxsiyyət yox, bütün millət görünür. Yazılı ədəbiyyatsa ayrı-ayrı şəxsiyyətlərin nə dərəcədə xalq ümumiyyətindən ucalmasını göstərir. İstər xalq, istər şəxs ədəbi məhsulları ilə bütün millətin ruhunu və o ruhun incə meyil və hərəkətlərini təsvir eləyir. İşdə bizi özümüzə tanıdan və başqalarına zinətli bir şəkil də təqdim edən ədəbiyyatımız olacaq.

Heyfa ki, indiyə kimi ədəbiyyatımıza əhəmiyyət verməmişik. Ən müqtədir ədiblərimizin əsərləri bir çoxları üçün gizli qalmışdır. Səbəb bu ki, onlar ya heç təb olunmayıb və ya ki basılıb və çoxdan satılıb qurtarmışlar. Qarabağ şairlərinin əsərləri Almaniyada Leypsiq şəhərində 1868 sənəsində Adolf Berje tərəfindən təb olunmuşdur. Bu gün nadir bir şeydir. Mirzə Fətəli Axundovun mətbu əsərləri bir az adamlarda qalmışdır. Bir çox məqalə və məktublar heç də təb edilməmişdir. Həsən bəy Zərdabinin əsərlərindən yalnız ikisi Kiyev tələbələrimiz tərəfindən çap olunub. Başqaları isə qeyrimətbudur. Xalq ədəbiyyatımız çox adamlar təşəbbüsü ilə toplanmışsa da, təb olunmuşu yoxdur. Bir çox şairlərimiz var ki, adları belə çoxlarına bəlli deyil...

Ədəbiyyatımızı müntəzəm bir şəklə salmaq və ümumə tanıtmaq əhəmiyyətli, həm də çox əhəmiyyətli məsələlərdəndir. Bu yolda iyirmi ildən bəri çalışması ilə və ədəbiyyatımızı nizama salması ilə məşhur Firidun bəy Köçərlidir.

Firidun bəy ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi. Şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati-fikriyyəmizi təbii yoluna saldı.

Çox heyf ki, Firidun bəy həzrətlərinin çox az əsərləri oxuculara mal oldu. Ən güzidəsi "Azərbaycan türklərinin ədəbiyyat tarixi" hələ təb olunmayıb qalır.

Müharibədən əvvəl bu əsərlərin təbi üçün Bakıda "Nəşri-maarif" cəmiyyətinə müraciət olunmasını o vaxtlar qəzetələrdə oxumuşduq. Müharibə və inqilab ortalığı qarışdırdı. Ədəbiyyat məsələsi unuduldu. İndi isə bu məsələlər üçün əlverişli bir zaman gəldi. Bu gün maarif nəzarətimiz bu yolda ciddi addımlar atmalıdır.

Doğrudur, kağız yoxluğu hiss olunur, lakin bu, maneə təşkil edə bilməz. Nə qədər kağız baha olsa, milli kitabdan baha olmaz. Bizə kitab lazımdır ki, bizi həm özümüzə, həm də əcnəbilərə tanıtsın. Bu kitab da ədəbiyyat tariximizdir.

Hal-hazırda Bakıda gözəl kitablar basdırmaq mümkün deyilsə, İstanbulda təb etdirmək olar. İstanbul səfarətimiz cəmi maarif məsələlərində maarif nəzarətimizə kömək etməyə hazır olduğu kimi, nəşriyyat işində də kömək edər.

V. HÜRUFAT MƏSƏLƏSİ

Hürufat məsələsi Şərq üçün ən zəruri məsələlərdən biridir. Çünki hürufat çətinliyi milləti bu hürufatdan qaçma məcburiyyətində saxlayır. Bu səbəbdəndir ki, Qafqazda ruslaşma xalqımızın öz xahişi ilə geniş meydan almadadır. Xalqı qınamaq olmaz. Rus əlifbasına iki ay sərf etdikdə oxuyub yazmağı öyrənirlər. Bizim hürufata isə bir il sərf olunsa da, dürüst oxuma mümkün olmur. Rus hərfi ilə bir şey yazılarsa, yazıldığı kimi də oxunar. Bizdə isə böylə deyil: yazılan sözə cürbəcür mənalar verilir. Əcnəbi sözləri bizim hürufat ilə yazılarsa, heç doğru oxumaq olmaz.

Bizə oxumaq və yazmamıza bir çox vaxtlar sərf olunur. Axırda da lazımi nəticələr görünmür. Hürufatımız latın əlifbası olsaydı, az bir zamanda milli maarifimiz ölkəmizin hər tərəfinə yayılardı.

Şərqin məktəblərində uşaqlar illər itirirlər. Oradan savadsız çıxırlar. Bais hürufat...

Millətini sevən bir adam hürufatımızı görərək laqeyd qala bilməz. Bizim can nöqtəmiz. Burada bu hal çoxdan bəri millət xadimlərimizi düşündürməkdədir. Mirzə Fətəli Axundov hürufat məsələsini həll etmək üçün İstanbula səfər etdi; Tehrana layihə göndərdi. Heyfa ki, Mirzə Fətəlinin fikirlərini anlamadılar. O vaxtdan bu məsələ arabir meydana çıxdı.

Bu gün ölkəmizin və millətimizin müqəddəratı əlimizdə olduğu bir zaman hürufat məsələsi yenidən fikirləri məşğul eləyir. Bizim nazirimiz Xudadad bəy Məlikaslanov cənablarının təklifi Nazirlər Şurasında qəbul olunaraq hürufat islahı üçün çalışmağa başlanır. Bu yolda bir heyət işləyir.

Şərqdə dəfələrlə mütəəssiblik sədlərini yıxan, ənənəvi hüdudları pozan və həyat tələbatından başqa heç bir şeyə bac verməyən Azərbaycan bu gün yenə bir inqilab doğurmaq istəyir. Babaların köhnəlib dəbdən düşmüş adətlərini atıb, yenilik hüsulə gətirir... Uğurlar olsun!

İndi baxaq görək bizə hankı hərflər və səslər lazımdır: zənnimizcə, yeni əlifbamız 35 səsdən ibarət olmalıdır...

Bu səslərin çoxu latından alınmalıdır. Latında olmayanları icad edib uydurmalı, təbiidir ki, soldan sağa oxunub, yazılacaq. Yeni hürufat ilə söz söyləndiyi kimi də yazılacaq. Bir səs neçə şəkildə olmayacaq. Yəni sin, sad və ze, zad kimi əhva şəkillər olmayacaq. Hər səsə müvafiq bircə şəkil olacaq.

Əgər yeni əlifba qəbul olunarsa, oxumaq, yazmaq qayət asanlaşar, qələtsiz yazı yazmaq az bir vaxt sərf etmək ilə mümkün olar. Deməli, millət oxuyar, yazar, müşkülat görməz, xeyir və şərin anlar. Köhnə hürufatımız milli idarəmizdə də bir çox əngəllər törədir. Teleqrafda işləmir, dəftərxanalarda yazı maşınlarına uymur. Avropalılar bir kağızı bir neçə dəqiqədə maşında yazıb, kopyası ilə bərabər çıxarırlar. Bizdə isə əl ilə yazaraq bir çox vaxt itirirlər...

Deməyə nə hacət. Millətimiz o qədər ayılıb ki, özü hürufatımızın qüsurlarını görür, bilir. Əgər hökumət bu məsələni həll edərsə, millətə unudulmaz bir xidmət etmiş olar.

Bir sual dilimizin ucuna gəlir: əcəba, Azərbaycan yeni hürufatı qəbul eləsə və başqa müsəlman ölkələri eləməzsə, nə təhər olar?

Təsəvvür olunan sualın cavabı gödəkdir:

– Biz qəbul eləməliyik. Vaxt gələr başqa ölkələr də görər, götürər.

Doğrudan da, nə üçün hər cəhətdən tərəqqi etmiş Azərbaycan bir nöqtədə dayanıb mürgü döyən qardaşlarını gözləsin? Biz çoxdan bəri inqilabçılığa öyrəndik. Biz Rusiyada birinci olaraq türk qəzetəsini nəşr etdik.

Biz türk aləmində Qurani-şərifi ana dilimizə tərcümə etməklə birincilik qazandıq.

Aləmi-islamda birinci olaraq opera vücudə gətirdik.

Azərbaycan Cümhuriyyətini vücudə gətirməklə islam tarixinə yeni səhifə əlavə elədik...

Latın hürufatını qəbul etməklə bir inqilab da yapaq və əmin olaq ki, bu inqilab əvvəlkilərdən də parlaq və məhsuldar olacaq.

1919

XƏLİL İBRAHİM

(1892-1938)

"MÜHARİBƏ VƏ QADINLAR"

Əski fəlsəfədir, deyirlər: xeyirsiz hiç bir şər yoxdur.

Vaqelərin hamısi kibi cəhan müharibəsi də bu fəlsəfəyə tabe olaraq bütün şərlər içində bir çox xeyirli nəticələr də verdi.

Rusiya hökumət ricalından birisi müharibənin müsbət nəticələrini tərifləə: "Müharibə Fransaya dua, Rusiyaya ayıqlıq vermişdir" demişdir.

Həm vaqia: öldürücü, yakıcı, dağıdıcı, yıkıcı müharibə bir tərəfdən milyonlar ilə qurban apararaq binlərcə verst abad yerləri xərabəzarə döndərdigi kibi, digər tərəfdən müsbət nəticələr də verməmiş olmadı. Bu müsbət nəticələrin də əksəri qadınların qismətinə düşdü.

Əsrlərdən bəri həqq və hüquq davası edərək bin dürlü təşəbbüs və iqdamatda bulunub da bilnisbə bir şey qazanmadıqları halda, bu müharibə içində qadınların nələrə nail olduqları nəzərdən keçirilərsə, davanın onlar için nə qadar xeyirli olduğu anlaşılır. Müharibə vəqti qadınlar həyati ictimaiyyədə kəndiləri için mühüm bir mövqe qazandılar. Siyasət aləmində də bibəhrə qalmadılar. Böylə ki, bu vəqtədək bir çox yerlərdə xidmətə qəbul olunmayan qadınlar, şimdi hər yerdə özlərinə xidmət kürsüsü bulurlar. Rusiyada qadınların qazancı notariusluq mənsəbinədək vardı; Fransada qadınlara bələdiyyə şurasına seçmək, şimal dövlətlərindən birisində hətta səfarətxanələrdə belə xidmət etmək hüquqi verildi. İngiltərə isə daha ileri gedərək orada qadınlara 53 yaşına yetişdikdən sonra parlaman seçkilərində iştirak etmək hüquqi təmin edildi: bu vəqtədək həsrətində bulunduqları ali məktəblərin də bir çoxunun qapıları qadınların yüzinə açıqdı...

Bu surətlə müharibə zəmanı qadınlar, əsrlərdən bəri arzu etdikləri, əsrlər ilə uğrunda mübarizədə bulunduqları bir çox şeylərə nail oldular və nəticədə həyati-siyasiyyə və ictimaiyyədə mühüm bir mövqe dutaraq müsavatı-hüquq yolunda çox irəliləmiş oldular.

Şərlər içində ələ düşmüş olan bu xeyirli nəticələr bütün qadınlıq aləminə şamil olub nəsli-ati içün bir dirilik güni doğurdu və onu

bəxtiyar etmək ümidini bağışlamaqla bütün fəlakətlər və müsibətlər içində qalmış olan nəsli-hazıri də isindirərək məftəxər və məsud etdi. Yalnız burası var ki, qadınlığ aləmindən bəhs edərkən, mütəəssifanə, islam qadınları ilə sair dinlərlə münəddin qadınları ayırmaq lazım gəliyor. Zira onlarda müsavati-hüquq məsələsini nəsli-sabiq düşünərək mübarizəyə iqdam etmiş, nəsli-hazır isə birinci sədlərin süqutuna nail olaraq nəsli-atinin müzəffəritinə əmniyyət hasil etmək şərəf və səadətinə yetişmişlərdir. Bizdə isə hələ mübarizə iqdamatı kənarda dursun, hüquqi nisvan ideyası belə bu vəqtədək intişar tapmamış olduğundan, bu xüsusda qadınlarımızın neçə əsr geridə qaldıqlarını və müsavatı-hüquqi-nisvan məsələsinin dövri-ibtidasını keçirməkdə olduğumuzi etiraf etmək məcburiyyətindəyiz.

Bu nöqteyi-nəzərdən bakılarsa, demək olar ki, müharibənin xeyirli nəticələrindən gələcəkdə də bütün aləmi-nisvanın bir qismini təşkil edən islam qadınları da istifadə edəcəklərsə də, məzkur mənfəətlər onlara dolayısilə yetişərək, imdilik, bəlkə təmam bir əsr zərfində, bizim qadınlarımız bundan müstəfid olamayacaqlardır. Binaəleyh müharibənin müsbət nəticələri doğrudan-doğruya təmamilə əcnəbi qadınların qismətinə düşmüş oluyor. Müsəlman qadınları isə bilavasitə bu feyzlərin hiç birinə nail olmadıqları halda, biləks, müharibədən dolayı böyük fəlakətlərə uğradılar; ümumiyyətlə, qadınlığ aləmi için bir fainik kibi olan cəhan müharibəsi müsəlman, ələlxüsus Rusiya qadınları için bir zəval, bütün mənasilə bir fəlakət təşkil etdi. Mənən bir şey əldə etməmiş olan türk qadınları maddətən nələr-nələr qeyb etdilər!

Ərləri, oğulları, qardaşları müharibəyə getmiş olan qadınlarımız, başqa millətlərə mənsub qadınlar kibi qismən kişilərinin işlərini davam etdirmək, qismən də kəndi təşəbbüs və zəhmətkeşlərilə təmini-məişət etməkdən aciz qalaraq bin dürlü zəhmət və məşəqqətlərə, bəla və müsibətlərə uğradılar. Bir çox ailələr kişiləri dava xidmətinə aparıldığından sahibsiz qalaraq iflasə uğradılar; bir çoxları hətta aclıq bəlasına məruz qaldılar.

Bu xüsusda da hamudan artıq bəlayə düçar olan həman Qafqasiya cəbhəsindəki müsəlman qadınları oldu: bunların ərləri davaya getmədilərsə də, əri davaya gedənlərdən çox müsibətə düşdilər; zira kişiləri, ailə başçıları, davaya gedənləri az da olsa himayə edən tapılur.

Amma bu zəvallı qadınların ərləri, oğulları, qardaşları qismən qırılaraq qismən günahsız olduqları halda, "Xəyanətdə ittiham" olunaraq yurdlarından sürüldülər, məhkum edildilər, həbsxanələrə dolduruldular, qurşuna düzildilər, qismən də bir "xain" kibi edam edildilər.

Böylə "xain" adlandırılanların ailələrinə isə himayə olmazdı: bunları himayə əvəzinə təqib etdilər. Nəticədə bütün ailələr ayaqlar altında əzilərək səssiz-soraqsız tələf olub getdilər.

Xülasə, bu müharibədə bir bəla qalmadı ki, bizim qadınlarımız ona düçar olmasınlar.

Ölmək, bir dəfə ölüb qurtarmaq yaxşı bir şeydir. Amma diri ikən bəşəriyyət aləmində quru müqəvva təşkil etmək, həm də bin dürlü səfalət, aclıq, çılpaqlıqla bərabər digər tərəfdən də ayaqlar altına düşmək, ərzü namusdan məhrum olmaq... çəkilməz dərdlərdir. İştə müharibənin bizim qadınlarımıza verdigi nəticə: binlərcə adamlarımız səfil sərgərdan ortalıqda qaldı.

Əlbəttə, başqa millətlərə mənsub qadınlar da müharibədən mütəzərər olmamış qalmadılar. Lakin onların bir qismi fəlakətə uğradısa da, yerdə qalanları böyük mənfəətlərə nail oldular. Amma bizim qadınlarımız bir şey qazanmadıqları halda qismətlərinə də bunca bəla və möhnət düşdü.

Səbəb nə oldu ki, ümumiyyətlə qadınlar için bir fali xeyir kibi olan müharibə bizim qadınlarımıza ancaq və ancaq fəlakət gətirdi?

Bizə qalırsa, səbəb bizim qadınlarımızın həyati-siyasiyyə və ictimaiyyəyə hazır olmadıqlarıdır.

Vəqtilə bizim qadınlarımız da həyat səhnəsinə buraxılaraq həyat yollarını öğrənmiş, əsrimizin tələbinə görə yaşamağa istedad hasil etmiş olsaydılar, şübhəsiz ki, imdi bu halə düşməz, böyük fəlakət zamanına özlərini təmindən aciz qalmazdılar.

Onlar da həyata müstəid olarlardı.

Səbəb bu!

Məsuliyyət kimin üzərinədir, əcəba?

Bu suala da tarix ilə nəsli-ati cavab verər!!

HÜRRİYYƏT MEYVƏSİ

İş çox – çalışan yox. Yük ağır – yük daşıyan yox. Vəzifə mühüm və məsuliyyətli – vəzifəsini bilmək istəyən az!

Rusiya hürriyyət almışdır. Bəli, bu yaxınlarda almışdır. Amma bu hürriyyət on illərdən bəri künclərdə, bucaqlarda, qaranlıq yuvalarda, həbsxanalar küncündə, zindanlar zülməti içində, buzlu Sibiriya tundralarında, qaranlıq kazarmalarda, vəhşi tayqalarda çalışan alicənab xadimlərin min dürlü zəhmət və məşəqqəti, hər növ həmiyyət və qeyrəti sayəsində alınmışdır!

İndi bunca əzab və zəhmətlərin ağacı meyvə gətirmişdir: Hürriyyət meyvəsi!

"Açıq söz", 22 mart 1917-ci il

MÜNDƏRİCAT

Klassik publisistikamız: dünənin, bu günün, sabahın sənət örnəyi 4

HƏSƏN BƏY ZƏRDABİ

İttihadi-lisan 13
Rusiyada əvvəlinci türk qəzeti 15
Açıq məktub 20
Dil və din 21

MƏHƏMMƏDAĞA ŞAHTAXTLI

Dərdimiz və dərmanımız 24
Kömək eləyin! 30
Türk və tatar qövminə müraciət 31
Ədəbiyyatda məslək 33
Rəddi-şərr və fəsadın ardı 34
"Hər gün bir az" – silsilə məqalələr 39
Müsəlmanlar və konstitusiya 61

FİRİDUN BƏY KÖÇƏRLİ

Heyvaniyyət və insanlar 64
Ədəbiyyatımıza dair məktub 70
Azərbaycan dövri mətbuatının qısa icmalı 74
"Molla Nəsrəddin" 79
Qaranlıqda qalanlarımız 84
Taybuynuz öküz 86
Həsən bəy Məlikov 89
Milli bayram 91
Məişətimizə dair 94
Həqiqi gözəllik və hərəkətsiz nisfimiz 109
Dünyada bəla nədən törəyir? 117
Həyata dəvət 120
Ana dili 123

ƏLİ BƏY HÜSEYNZADƏ

Türklər kimdir və kimlərdən ibarətdir? 127
Qəzetəmizin dili haqqında bir neçə söz 155

Tolstoyluq nədir 159
Qırmızı qaranlıqlar içində yaşıl işıqlar 169
Nicat məhəbbətdədir!.. 179
Məcnun və Leylayi-islam 185
"İntiqad ediyoruz, intiqad olunuyoruz" 197

CƏLİL MƏMMƏDQULUZADƏ

Sizi deyib gəlmişəm 208
Atalar sözü 209
Bizim "obrazovannı"lar 210
Niyə məni döyürsünüz? 211
Bakılılara 213
Nəsihət 214
Müsəlman içində gördüklərim 216
İfratın mənfəəti 218
Abirin və kilab 220
Meymunlar 221
Məscidlərimiz 222
Qarnıyoğunlar 225
Qazancımız 228
İdarədən 230
Millət qurbanları 231
Qız uşağı 233
Papaq 235
Oğlanlarınızı oxutmayın 237
Ölülər 238
Mırt-mırt 240
Mikroblar 242
Murdar 243
Dil 245
Müsəlman 247
Şeytan 248
Necə qan ağlamasın daş bu gün 250
Tərəkəmə 251
Dağarcıq 254
Düşmənlər 255
Qanlı faciə 256
Çiçək 258

Dərd 261
Kişi gəlir 263
Azərbaycan 264

ƏHMƏD BƏY AĞAOĞLU

İslamlığa görə və islamlıqda qadın 267
Sözlər, sözlər!.. 302
"Bakı, 8 dekabr" 305
Müsəlman xalqların vəziyyəti 308
Bakı hadisələri haqqında həqiqət 313

NƏRİMAN NƏRİMANOV

Göz yaşı tökdürən cəzirə 330
Həftə fəryadı 331
Həftə fəryadı 335
Həftə fəryadı 345
Həftə fəryadı 350
Həftə fəryadı 355
Həftə fəryadı 359
Hərdənbir 363
Yalnız əldən səs çıxmaz 365
Cümə söhbəti 367
Həftə fəryadı 371
Dərdlərimizin əlacı 374

MƏMMƏD SƏİD ORDUBADİ

Qanlı Bakı faciələri haqqında 381
Kədərli Naxçıvan hadisələri 387
Eçmiədzin. Üçkilsə hadisələri 392

ÖMƏR FAİQ NEMANZADƏ

Dilimiz və imlamız 396
Nə üçün haqqımızı istəmiriz? 399
Dəvət 402

Ağacı qurd içindən yeyər 414
Qəbahət sizdə və bizdə 417
Tiflis, 22 iyun, sübh saat səkkiz 421
Məzlum ən böyük zalımdır 423
Millətpərəstlik zamanıdır 426
Köməkləşəlim 430
Çox utandıq 435
İşığımız sönməyəcəkdir 440
Mən kiməm?! 442
Milliləşmək 450
Nə etməliyik? 453

MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

Cavanlarımıza 456
Yuxudur, yoxsa həqiqət? 458
Edamın ağır xatirəsi 460
Quyruqlu ulduzun təsirləri 463
Bakı qoçuları 468
Vəsiyyətnamə 471
Dil ictimai mühüm bir amil kimi 473
Oxşama 476
Bəsirət gərək! 479
Səttar xan 482
Dirilik nədir? 485
Milli dirilik I 487
Milli dirilik II 491
Milli dirilik III 494
Milli dirilik IV 498
Milli dirilik V 502
Millətin bir rüknü də dindir VI 505
Milli dirilik VII 510

ÜZEYİR HACIBƏYOV

Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi 515
Mərəzlərimizdən biri 518
Dövlət dumasının qurulması 520

Təəssüflər olsun 533
Başçı lazımdır 535
Öz qədrimizi bilmirik 537
Rəhbərlərimiz 539
Müəllimlərimiz və mətbuat 540
"Millət geridə qaldı" 541
Biz nə tövr iş görürük? 542
Biz ilə yevropalıların təfavütü 543
Biz qızışırıq... 544
Biz hamımız qafqazlı balalarıyıq 545
Məktəb məsələsi və F.A. cənabları 547
Ordan-burdan (*Bir firəng ilə söhbətim*) 550
Halımıza dair 552
Ordan-burdan 553
Ordan-burdan 554
Ordan-burdan 555
Ordan-burdan (*"Molla Nasrəddin"*) 556
Ordan-burdan (*Kimdən nə soruşdular*) 557
Ordan-burdan (*Bir qədar qəzetəçilik dərsi*) 558
Ordan-burdan 561
Ordan-burdan (*Mazhəkə*) 563
Bəyani-məslək 564
Dil 566

ŞEYX MƏHƏMMƏD XİYABANİ

Azərbaycan 570

HÜSEYN CAVİD

Müharibə və ədəbiyyat 574
Həsbi-hal 1 579
Həsbi-hal 2 583
Həsbi-hal 3 587
Həsbi-hal 4 590
Həsbi-hal 5 599
Urmiyədən 603
Nakamlıq 606

ŞƏFİQƏ ƏFƏNDİZADƏ

Qadın səsi 608

SALMAN TURXAN

Qul 617

ƏLİ RAZİ ŞAMÇIZADƏ

Gəncədən 623
Cəhrəçi xalaya cavab 625
Xanpəri bacıya cavab 626
Gəncədən. Teatr məsələsi 627
Cənab molla əmi! 628
Eşq və məhəbbət 629

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

Əcəmilik möhürü və onunla mübarizə 639
Dil məsələsi 643
Qulluq və əsrlik 644
Bizə ciddi mətbuat çoxdan lazım idi 654
Azərbaycan muxtariyyəti ayılın, toplaşın! 663
Milli və mədəni işlərimiz 671

XƏLİL İBRAHİM

"Müharibə və qadınlar" 678
Hürriyət meyvəsi 681

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rövşən İsgəndərov*

Korrektorlar: *Pərinaz Musaqızı*
Fəridə Səmədova

Yığılmağa verilmişdir 14.09.2007. Çapa imzalanmışdır 27.12.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 43. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 253.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

LW6
A99